# تَفْسِيرُ الْقُرْآنِ الْعَظِيمِ

عِمادُ الدِّينِ أَبُو الْفِداء إِسْماعِيلُ بْنُ كَثِيرٍ الْقُرَشِيُّ الدِّمَشْقِيُّ

# ƏZƏMƏTLİ QURANIN TƏFSİRİ

**(ALİ-İMRAN VƏ ƏN-NİSA SURƏLƏRİ)**

**İmadəddin Əbul-Fidə İsmail ibn Kəsir əl-Quraşi əd-Diməşqi**

(700-774 hicri / 1300-1372 miladi)

# II

**CİLD**

**Əzəmətli Quranın təfsiri** ("Ali-İmran" və "ən-Nisa" surələri),
İmadəddin Əbul-Fidə İsmail ibn Kəsir əl-Quraşi əd-Diməşqi
(700-774 hicri / 1300-1372 miladi), II cild
Bakı, 2021, 512 səh.

Tərcümə edən: **Elşən Şəkərov**
Redaktorlar: **Vüsalə Lətifqızı,**
**Ramin İsbarxanlı**

Kitabda Qurani-Kərimin "Ali-İmran" və "ən-Nisa" surələrinin İsmail ibn Kəsir tərəfindən təfsirinin Azərbaycan dilində tərcüməsi verilmişdir. Şübhəsiz ki, bu tərcümə insan əməyinin bəhrəsidir.

Deməк, burada xətaların olması da labüddür. Odur ki, öz düzəlişlərini, qeyd və mülahizələrini aşağıdakı elektron ünvana göndərəcək oxuculara əvvəlcədən təşəkkürümüzü bildiririk. Sizin dəyərli məsləhətləriniz bu kitabın gələcək nəşrlərində mütləq nəzərə alınacaqdır.

tafsirazeri@gmail.com

**Kitabın satışı qadağandır.**

Bu kitab Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin razılığı ilə çap edilmişdir.
**(DK-267/Q 07.05.2020)**

**Mərhəmətli və Rəhmli Allahın adı ilə!**

## مُقَدِّمَة

## Müqəddimə

Həqiqətən şükür və tərif yalnız Allaha məxsusdur! Biz Ona həmd edir, Onu köməyə çağırır, Ondan bağışlanmağımızı və bizi doğru yola yönəltməsini diləyirik. Nəfslərimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Ona pənah aparırıq. Allah kimə hidayət verərsə o, doğru yolda olar, kimi azdırarsa, onu doğru yola yönəldən tapılmaz. Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə layiq olan məbud yoxdur, Onun şəriki də yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və elçisidir. Ona, ailəsinə, səhabələrinə və Qiyamətə qədər onun ardınca gedənlərə Allahın salavatı və salamı olsun!

**"Ey iman gətirənlər! Allahdan Ona layiq olan tərzdə qorxun və ancaq müsəlman olduğunuz halda ölün!"** ("Ali-İmran", 102).

**"Ey insanlar! Sizi tək bir candan xəlq edən, ondan zövcəsini yaradan və o ikisindən də bir çox kişi və qadın törədib yer üzünə yayan Rəbbinizdən qorxun! Xatirinə bir-birinizdən cürbəcür şeylər istədiyiniz Allahdan qorxun və qohumluq əlaqələrini kəsməkdən çəkinin! Həqiqətən, Allah sizə nəzarət edir".** ("ən-Nisa", 1).

**"Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz danışın ki, O, əməllərinizi islah etsin və günahlarınızı bağışlasın. Kim Allaha və Onun Elçisinə itaət etsə, böyük bir uğur qazanar".** ("əl-Əhzab", 70-71).

Uca Allah Quranı insanlara doğru yol göstərən, bu yolu açıq dəlillərlə işıqlandıran və haqqı batildən ayırd edən bir kitab olaraq nazil etmişdir. Həqiqətən, Quran insanları ən doğru yola yönəldir. Müsəlman həm Quranı oxumaqla, həm orada buyurulanlara əməl etməklə, həm də ayələrinin mənasını düşünüb ibrət almaqla Allaha yaxınlaşır. Uca Allah bu xüsusda buyurur: "**Bu mübarək Kitabı sənə nazil etdik ki, insanlar onun ayələrini düşünüb anlasınlar və ağıl sahibləri də ondan ibrət götürsünlər**" ("Sad", 29). Quranı dərk edib ondan ibrət almaq üçün onun ayələrinin mənasını başa düşmək lazımdır. Yalnız bu halda biz Qurana tam olaraq əməl edər və onun vasitəsilə doğru yolu taparıq. İnsan ömrünün bərəkətli keçməsini istəyirsə, Quranı öz həyatına tətbiq etməlidir. Baxın! Quran Muhəmməd peyğəmbərə ﷺ nazil olmaqla onu ən şərəfli peyğəmbər etmişdir. Quran Muhəmmədin ﷺ ümmətinə nazil olmaqla onun ümmətini ən xeyirli ümmət etmişdir. Quran Ramazan

ayında nazil olmaqla bu ayı ilin ən fəzilətli ayı etmişdir. Quran Qədr gecəsi nazil olmaqla bu gecəni min aydan üstün etmişdir. Uca Allah Qurana dəyər verən, ona sarılan və ona əməl edən insanları ucaldır. Peyğəmbərimiz ﷺ belə demişdir: "Həqiqətən, Allah bu Kitabla bir çox tayfaları yüksəldir, bir çoxlarını isə alçaldır".[1] Bizdən əvvəl yaşamış sələf alimlərinin həyatları buna sübutdur. Onların həyat tərzlərinə, ömürlərinə və əməllərinə baxsaq, görərik ki, onlar böyük xeyrə nail olmuşlar. Yaşadıqları qısa ömürdə çox böyük saleh əməllər etmişlər, kitablar yazmışlar. Bütün bunlar Qurani-Kərimin bərəkəti sayəsindədir. Səhabələr Quran ayələrinin mənasını tam başa düşərək və əməl edərək öyrənərdilər. İbn Məsudun ؓ belə dediyi rəvayət edilir: "Bizdən birimiz Qurandan on ayə öyrəndikdən sonra, onların mənasını tam dərk edib əməl etmədikcə başqa ayə öyrənməzdik. Beləliklə, elmlə əməli cəm edərdik".[2]

Abdullah ibn Ömər ؓ demişdir: "Biz elə bir dövrdə yaşayırdıq ki, bizdən biri Qurandan əvvəl imanı öyrənərdi. Peyğəmbərə ﷺ Qurandan bir surə nazil olduqda, sizin bu gün Quranın oxunuşunu öyrəndiyiniz kimi, biz bu surədə Allahın halal və haram etdiklərini, əmrlərini və qadağalarını, nəyin üzərində dayanmağın vacib olduğunu öyrənərdik. Mən isə bu gün elə insanlar görürəm ki, imandan əvvəl Quranı öyrənirlər. Quranı "əl-Fatihə" surəsindən sonuna kimi oxuyur, lakin oradakı əmr və qadağaları, harada dayanmağın vacib olduğunu bilmir. Quru və köhnə xurmanı yeyərkən dadını duymadığı kimi Quranı da sadəcə tez-tez oxuyur".[3]

Təfsir kitabları Quranı oxuyub, orada yazılanlara düzgün şəkildə əməl etməkdə böyük rol oynayır.

Əziz oxucu!

Əlinizdə olan bu kitab İbn Kəsirin Əhməd Şakir ؒ tərəfindən ixtisar edilmiş variantının 2-ci cildidir. Bu cilddə "Ali-İmran" və "ən-Nisa" surələrinin təfsiri verilmişdir. Uca Allah bu kitabın hazırlanmasında zəhməti keçən hər kəsdən razı olsun!

*Elşən Şəkərov*

*20.01.2021*

---

[1] Muslim, 269.

[2] ət-Təbəri (1/74).

[3] əl-Hakim (1/35). əl-Hakim ؒ demişdir: "Hədis əl-Buxari və Muslimin şərtlərinə uyğundur. Bu hədisin mötəbərliyinə xələl gətirən bir səbəb olduğunu bilmirəm". əz-Zəhəbi ؒ bununla razılaşmışdır.

الْكَلاَمُ عَلَى تَفْسِيرِهَا

# “Ali-İmran”

## surəsinin təfsiri



**Mərhəmətli və Rəhmli Allahın adı ilə**
**Müvəffəqiyyət yalnız Allahdandır**

## تَفْسِيرُ سُورَةِ آلِ عِمْرَانَ
## Ali-İmran surəsinin təfsiri

"Ali-İmran" surəsi Mədinə surələrindəndir (hicrətdən sonra nazil olmuşdur). Bu surənin əvvəlindən 83-cü ayəyə qədər olan hissəsi Nəcran qəbiləsinin nümayəndələri haqqındadır. Onlar hicrətin doqquzuncu ilində Peyğəmbərin ﷺ yanına gəlmişlər. Bu barədə Allahın izni ilə daha ətraflı "Mubahələ" (lənətləşmə) ayəsinin təfsirində veriləcəkdir.[1] "əl-Bəqərə" surəsinin əvvəlində həm "əl-Bəqərə", həm də "Ali-İmran" surəsinin fəziləti barədə hədislər qeyd olunmuşdur.

بِسۡمِ ٱللَّهِ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ

﴿ الٓمٓ ١ ٱللَّهُ لَآ إِلَٰهَ إِلَّا هُوَ ٱلۡحَيُّ ٱلۡقَيُّومُ ٢ نَزَّلَ عَلَيۡكَ ٱلۡكِتَٰبَ بِٱلۡحَقِّ مُصَدِّقٗا لِّمَا بَيۡنَ يَدَيۡهِ وَأَنزَلَ
ٱلتَّوۡرَىٰةَ وَٱلۡإِنجِيلَ ٣ مِن قَبۡلُ هُدٗى لِّلنَّاسِ وَأَنزَلَ ٱلۡفُرۡقَانَۗ إِنَّ ٱلَّذِينَ كَفَرُواْ بِـَٔايَٰتِ ٱللَّهِ لَهُمۡ عَذَابٞ
شَدِيدٞۗ وَٱللَّهُ عَزِيزٞ ذُو ٱنتِقَامٍ ٤ ﴾

**Mərhəmətli və Rəhmli Allahın adı ilə**

**1. Əlif. Ləm. Mim.**
**2. Allah – Ondan başqa ibadətə layiq olan məbud yoxdur, əbədi Yaşayandır, bütün yaradılanların Qəyyumudur.**
**3. O sənə Kitabı gerçək olaraq, ondan əvvəlkiləri təsdiqləməsi üçün nazil etdi. Tövratı və İncili də O nazil etdi.**
**4. Daha əvvəllər insanlara doğru yolu göstərən rəhbər olmaq üçün Furqanı da O nazil etdi. Şübhəsiz ki, Allahın ayələrini inkar edənlər üçün şiddətli bir əzab vardır. Allah Qüdrətlidir, intiqam almağa qadirdir.**

---
[1] Ali-İmran surəsinin 61-ci ayəsinin təfsirində.

Kürsü ayəsini ("əl-Bəqərə", 255) təfsir edərkən Allahın ən əzəmətli adının bu iki ayədə – **"Allah – Ondan başqa ibadətə layiq olan məbud yoxdur, əbədi Yaşayandır, bütün yaratdıqlarının Qəyyumudur"** ("əl-Bəqərə", 255) və "**Əlif. Ləm. Mim. Allah, Ondan başqa ibadətə layiq olan məbud yoxdur, əbədi Yaşayandır, bütün yaratdıqlarının Qəyyumudur**" ("Ali-İmran", 1-2) olması barədə varid olan hədisi qeyd etdik. Uca Allahın "**Əlif. Ləm. Mim**" ayəsi barədə "əl-Bəqərə" surəsinin əvvəlində danışdığımız üçün burada təkrar qeyd olunmasına ehtiyac yoxdur. Həmçinin Kürsü ayəsini təfsir edərkən Uca Allahın "**Allah – Ondan başqa ibadətə layiq olan məbud yoxdur, əbədi Yaşayandır, bütün yaratdıqlarının Qəyyumudur**" ayəsi barədə də söhbət açmışdıq.

Uca Allah buyurur: "**O sənə Kitabı gerçək olaraq, ondan əvvəlkiləri təsdiqləməsi üçün nazil etdi**", yəni, ey Muhəmməd, sənə Quran heç bir şəkk-şübhə olmadan, Qüdrətli və Əzəmətli Allah qatından endirilmişdir. O, Quranı Öz elmi ilə nazil etmişdir. Mələklər də buna şahiddirlər. Şahid olaraq Allah yetər.

Uca Allah buyurur: "**ondan əvvəlkiləri təsdiqləməsi üçün nazil etdi**", yəni Quran özündən əvvəl səmadan Allahın qulları olan peyğəmbərlərə endirilmiş əvvəlki kitabları təsdiqləmək üçün nazil olmuşdur. Bu kitablar (Muhəmmədin ﷺ gəlişi barədə) vermiş olduqları xəbər və müjdə ilə Quranı təsdiqləyirlər. Quran da öz növbəsində bu kitabları təsdiqləyir, çünki Allahın Muhəmmədi ﷺ peyğəmbər olaraq göndərməsi və ona Əzəmətli Quranı nazil etməsi xəbərinə və müjdəsinə tam uyğun gəlir.

Uca Allah buyurur: "**Tövratı**" Musa ibn İmrana "**və İncili də**" Məryəm oğlu İsaya "**daha əvvəllər**", yəni Quran nazil olmazdan əvvəl öz zamanlarında "**insanlara doğru yolu göstərən rəhbər olmaq üçün**" nazil etdik. "**Furqanı[1] da O nazil etdi**", Quran Uca Allahın zikr etdiyi kimi, açıq-aydın dəlillər və qəti sübutlarla hidayəti zəlalətdən, haqqı batildən, azğınlığı doğru yoldan fərqləndirən bir Kitabdır. Allah Quran vasitəsilə qullarına doğru yolu bəyan edir, başa salır, açıqlayır, sübut edir, ona yönəldir və ona əməl etməyi buyurur. Qatədə və ər-Rabi ibn Ənəs ﵀ ayədəki "Furqan" sözünün xüsusi isim olduğunu və Quran anlamını ifadə etdiyini demişlər. İbn Cərir ﵀ isə buradakı "Furqan" sözünün ümumi isim olub, فَرَّقَ [fərraqa] "ayırmaq"

[1] Furqan sözünün mənası "fərqləndirən", "ayıran" deməkdir.

feilinin məsdəri olduğunu deyənlərin rəyini qəbul etmişdir.[1] Çünki Quran sözü daha əvvəl "**O sənə Kitabı gerçək olaraq, ondan əvvəlkiləri təsdiqləməsi üçün nazil etdi**" ayəsində keçmişdir. Burada "Kitab" sözü "Quran" deməkdir.

Uca Allah buyurur: "**Şübhəsiz ki, Allahın ayələrini inkar edənlər üçün**", yəni Allahın ayələrini dananlar, qəbul etməyənlər və haqsız yerə rədd edənlər üçün "**şiddətli bir əzab vardır**", yəni Qiyamət günü onları şiddətli bir əzab gözləyir. "**Allah Qüdrətlidir**", yəni güc, qüvvət və əzəmətli səltənət sahibidir, "**intiqam almağa qadirdir**", yəni ayələrini yalan sayanlardan, hörmətli elçilərinə və əzəmətli peyğəmbərlərinə qarşı çıxanlardan intiqam almağa qadirdir.

﴿ إِنَّ ٱللَّهَ لَا يَخۡفَىٰ عَلَيۡهِ شَيۡءٞ فِي ٱلۡأَرۡضِ وَلَا فِي ٱلسَّمَآءِ ٥ هُوَ ٱلَّذِي يُصَوِّرُكُمۡ فِي ٱلۡأَرۡحَامِ كَيۡفَ يَشَآءُۚ لَآ إِلَٰهَ إِلَّا هُوَ ٱلۡعَزِيزُ ٱلۡحَكِيمُ ٦ ﴾

**5. Şübhəsiz ki, nə yerdə, nə də göydə heç bir şey Allahdan gizli qalmaz.**
**6. Bətnlərdə sizə istədiyi surəti verən Odur. Ondan başqa ibadətə layiq olan məbud yoxdur, Qüdrətlidir, Müdrikdir.**

Uca Allah bu ayədə göylərin və yerin qeybini bildiyini, bu qeybdən heç bir şeyin Ona gizli qalmadığını xəbər verir. "**Bətnlərdə sizə istədiyi surəti verən Odur**", yəni sizi analarınızın bətnlərində istədiyi şəkildə – qadın və ya kişi, gözəl və ya çirkin, bədbəxt və ya xoşbəxt yaradan Odur. "**Ondan başqa ibadətə layiq olan məbud yoxdur, Qüdrətlidir, Müdrikdir**". Yaradan və ibadət olunmağa layiq olan tək Odur. Onun şəriki də yoxdur. Sonsuz izzət, hikmət və hökm yalnız Onundur. Bu ayədə Məryəm oğlu İsanın عليه السلام Allahın qulu və bir məxluq olduğu açıq-aydın ifadə edilir. Allah digər insanlar kimi, ona da anasının bətnində surət vermiş, sonra istədiyi şəkildə yaratmışdır. İsa عليه السلام ana bətnində mərhələlərlə yaradılmış olduğu halda, xristianların iddia etdikləri kimi necə ilah ola bilər?! Necə ki Uca Allah buyurur: "**Allah sizi tək bir nəfərdən yaratdı. Sonra onun özündən zövcəsini yaratdı. O sizdən ötrü səkkiz cüt heyvan yaratdı. O sizi analarınızın bətnlərində üç zülmət içərisində yaranışdan-yaranışa salaraq yaradır**" ("əz-Zumər", 6).

[1] Furqan sözü burada Quranın adı deyil, onu vəsf edən məsdərdir.

﴿ هُوَ ٱلَّذِيٓ أَنزَلَ عَلَيۡكَ ٱلۡكِتَٰبَ مِنۡهُ ءَايَٰتٞ مُّحۡكَمَٰتٌ هُنَّ أُمُّ ٱلۡكِتَٰبِ وَأُخَرُ مُتَشَٰبِهَٰتٞۖ فَأَمَّا
ٱلَّذِينَ فِي قُلُوبِهِمۡ زَيۡغٞ فَيَتَّبِعُونَ مَا تَشَٰبَهَ مِنۡهُ ٱبۡتِغَآءَ ٱلۡفِتۡنَةِ وَٱبۡتِغَآءَ تَأۡوِيلِهِۦۖ وَمَا يَعۡلَمُ تَأۡوِيلَهُۥٓ إِلَّا ٱللَّهُۗ
وَٱلرَّٰسِخُونَ فِي ٱلۡعِلۡمِ يَقُولُونَ ءَامَنَّا بِهِۦ كُلّٞ مِّنۡ عِندِ رَبِّنَاۗ وَمَا يَذَّكَّرُ إِلَّآ أُوْلُواْ ٱلۡأَلۡبَٰبِ ٧ رَبَّنَا لَا
تُزِغۡ قُلُوبَنَا بَعۡدَ إِذۡ هَدَيۡتَنَا وَهَبۡ لَنَا مِن لَّدُنكَ رَحۡمَةًۚ إِنَّكَ أَنتَ ٱلۡوَهَّابُ ٨ رَبَّنَآ إِنَّكَ جَامِعُ ٱلنَّاسِ
لِيَوۡمٖ لَّا رَيۡبَ فِيهِۚ إِنَّ ٱللَّهَ لَا يُخۡلِفُ ٱلۡمِيعَادَ ٩ ﴾

**7. Kitabı sənə nazil edən Odur. O Kitabın bir qismi mənası aydın ayələrdir ki, bunlar da Kitabın anasıdır. Digərləri isə mənası aydın olmayan ayələrdir. Qəlblərində əyrilik olanlar fitnə-fəsad törətmək və istədikləri kimi yozmaq məqsədilə mənası aydın olmayanın ardınca düşərlər. Onun yozumunu isə Allahdan başqa heç kəs bilməz. Elmdə qüvvətli olanlar isə deyərlər: "Biz onlara iman gətirdik, hamısı bizim Rəbbimizdəndir". Bunu isə ancaq ağıl sahibləri dərk edərlər.**
**8. Ey Rəbbimiz! Bizi hidayət yoluna yönəltdikdən sonra qəlbimizi sapdırma və bizə Öz tərəfindən mərhəmət bəxş et. Həqiqətən, Sən Bəxşedənsən.**
**9. Ey Rəbbimiz! Həqiqətən, gerçəkləşəcəyinə şübhə edilməyən bir gündə insanları bir yerə Sən yığacaqsan. Həqiqətən, Allah vədinə xilaf çıxmaz!**

Uca Allah bu ayədə Quranda mənası aydın olan (muhkəm) ayələr olduğunu və bu ayələrin "Ummul-Kitəb" (Kitabın anası) olduğunu xəbər verir. Yəni dəlalət etdikləri məna hər kəs tərəfindən açıq-aydın başa düşülən və heç kəsə qaranlıq qalmayan ayələrdir. Həmçinin Uca Allah xəbər verir ki, Quranda digər bir qisim – mənası aydın olmayan (mutəşabih) ayələr də vardır ki, insanlardan bir çoxu və ya bəziləri bu ayələrin dəlalət etdikləri mənanı başa düşməkdə çətinlik çəkirlər. Kim bu ayələrə mənası aydın olan ayələrlə açıqlama verərsə və mutəşabih ayələrin mənasını aydın olan ayələrin işığında düşünərsə, artıq doğru yolu tapmışdır. Bunun əksini edənlər isə yollarını azarlar. Bu səbəbdən Uca Allah "**bunlar da Kitabın anasıdır**" buyurur. Yəni muhkəm ayələr çaşqınlıq baş verdikdə müraciət ediləcək əsas ayələrdir. "**Digərləri isə mənası aydın olmayan ayələrdir**", yəni dəlalət etdikləri məna baxımından muhkəm ayələrə uyğun gəlməsi ehtimal olunan ayələrdir. Bununla belə, bu ayələrin məqsəd baxımından deyil, ləfz və ifadə baxımından başqa bir şeyə dəlalət etməsi də mümkündür.

Alimlər muhkəm (mənası aydın olan) və mutəşabih (mənası aydın olmayan) ayələrin mənalarında ixtilaf etmişlər. Bu barədə sələf alimlərindən müxtəlif rəylər rəvayət edilmişdir. İbn Abbas ﵄ demişdir: “Mənası aydın olan ayələr – Quranda digər ayələrin hökmünü ləğv edən (nəsx edən), halalı, haramı, cəzaları və fərzləri bildirən, iman gətirərək əməl edilən ayələrdir”. Həmçinin İbn Abbas ﵄ demişdir: “Mənası aydın olan ayələr Uca Allahın “**De: “Gəlin Rəbbinizin sizə nələri haram etdiyini oxuyum. Ona heç nəyi şərik qoşmayın, valideynlərinizə yaxşılıq edin və yoxsulluq ucbatından uşaqlarınızı öldürməyin. Sizin də, onların da ruzisini Biz veririk. Murdar əməllərin aşkarına da, gizlisinə də yaxınlaşmayın. Allahın öldürülməsini haram buyurduğu şəxsi haqsız yerə öldürməyin. Allah bunları sizə tövsiyə etmişdir ki, bəlkə, anlayasınız**” (“əl-Ənam”, 151) ayəsi ilə bundan sonra gələn iki ayə, habelə “**Rəbbin yalnız Ona ibadət etməyi və ata-ana ilə yaxşı davranmağı buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında qocalıq yaşına dolarsa, onlara “Uf!” belə demə, üstlərinə qışqırma və onlara xoş söz söylə!**” (“əl-İsra”, 23) ayəsi ilə bundan sonra gələn üç ayədir”. Bunu İbn Əbu Hatim Səid ibn Cubeyrdən ﵀ rəvayət etmişdir. Həmçinin rəvayət olunur ki, Səid ibn Cubeyr ﵀ Uca Allahın “**bunlar da Kitabın anasıdır**” sözü barədə belə demişdir: “Yəni Kitabın əsasıdır. Uca Allah bu ayələri “Kitabın anası” adlandırmışdır, çünki bu ayələr bütün səmavi kitablarda yazılmışdır”.[1]

Mənası aydın olmayan (mutəşabih) ayələr barədə isə deyilmişdir: “Bunlar hökmləri ləğv edilmiş (mənsux), yerdəyişmə üslubu işlənmiş (muqaddəm və muəxxar)[2], məsəllər çəkilmiş, Uca Allahın and içdiyi (əqsəm) və iman gətirilən, lakin əməl edilməyən ayələrdir”.[3] Bu rəyi Əli ibn Əbu Talhə İbn Abbasdan ﵄ rəvayət etmişdir. Muqatil ﵀ demişdir: “Mənası aydın olmayan ayələr surələrin əvvəlində olan heca hərfləridir”. Mucahid ﵀ isə demişdir: “Mənası aydın olmayan ayələr bir-birini təsdiqləyir”. Lakin bu rəyi Uca Allahın “**Allah Sözün ən gözəlini – ayələri bir-birinə bənzəyən və təkrarlanan Kitab kimi nazil etdi**” (“əz-Zumər”, 23) ayəsinin təfsirində demişlər. Bu ayədə “**ayələri bir-birinə bənzəyən**” dedikdə eyni mövzuda gələn ayələr, “**təkrarlanan**” dedikdə isə Cənnət və Cəhənnəmin vəsfi, itaətkarlarla

[1] İbn Əbu Hatim, 3173.

[2] Yerdəyişmə üslubu işlənmiş ayəyə bu surənin 55-ci ayəsini misal göstərmək olar. Bu barədə daha ətraflı 55-ci ayənin təfsirində danışacağıq.

[3] İbn Əbu Hatim, 3174.

günahkarların halı və sair bu kimi bir-birinə əks olan iki mövzuda gələn ayələr nəzərdə tutulur. Burada isə mənası aydın olmayan (mutəşabih) ayələr dedikdə mənası aydın olan (muhkəm) ayələrin əksi nəzərdə tutulur.

Bu barədə deyilənlərin ən yaxşısı əvvəl qeyd etdiyimizdir. Muhəmməd ibn İshaq ﷺ da eyni mənaya işarə edərək Uca Allahın "**O Kitabın bir qismi mənası aydın ayələrdir ki, bunlar da Kitabın anasıdır**" ayəsi barədə demişdir: "Bu ayələrdə Rəbbin dəlilləri, qulların haqlarının qorunması, mübahisəli məsələlərə və batilə rədd cavabı var. Bu ayələrin dəlalət etdikləri mənanı başqa yerə yozmaq və ya təhrif etmək mümkün deyil. Mənası aydın olmayan ayələr isə yozulması, təhrif olunması mümkün olan və müxtəlif cür şərh edilə bilən ayələrdir. Allah qullarını halal və haramları ilə sınadığı kimi, bu ayələrlə də sınağa çəkir. Elə isə bu ayələri batilə yönəltməyin, mənasını təhrif etməyin!"

Bu səbəbdən Uca Allah buyurur: "**Qəlblərində əyrilik olanlar**", yəni qəlblərində azğınlıq və haqdan çıxıb batilə yönəlmə istəyi olanlar "**fitnə-fəsad törətmək və istədikləri kimi yozmaq məqsədilə mənası aydın olmayanın ardınca düşərlər**", yəni onlar Quranda yalnız mənası aydın olmayan ayələri götürüb yanlış məqsədlərinə aid edə bilmək üçün onları istədikləri kimi təhrif edərlər. Çünki bu ayələri ləfz etibarilə istədikləri mənaya yozmaq mümkündür. Muhkəm ayələrdə isə onlar bu imkana sahib deyillər. Bu ayələr onların əleyhinə yönəlmiş təkzibolumaz sübutdur. Bu səbəbdən Uca Allah ayədə "**fitnə-fəsad törətmək və istədikləri kimi yozmaq məqsədilə mənası aydın olmayanın ardınca düşərlər**" deyə buyurur. Yəni özlərinə tabe olanları azdıraraq etdikləri bidət əməllərdə (dində yeniliklərdə) Qurana əsaslandıqlarına insanları inandırmaq üçün mənası aydın olmayan ayələrin ardınca düşərlər. Halbuki bu ayələr onların lehinə deyil, əleyhinə bir dəlildir. Məsələn, xaçpərəstlər Qurandan dəlil gətirərək Uca Allahın "**Məryəm oğlu İsa Məsih ancaq Allahın elçisi, Onun Məryəmə göndərdiyi "Ol!" kəlməsi və Onun tərəfindən göndərilən bir ruhdur**" ("ən-Nisa", 171) ayəsini, Uca Allahın "**O, yalnız və yalnız Bizim nemət verdiyimiz və İsrail oğullarına nümunə etdiyimiz bir quldur**" ("əz-Zuxruf", 59), "**Həqiqətən, Allah yanında İsanın məsəli Adəmin məsəli kimidir. Allah onu torpaqdan yaratdı, sonra isə ona "Ol!" dedi, o da oldu**" ("Ali-İmran", 59) və s. bu kimi İsanın عليه السلام Allah tərəfindən yaradılmış bir qul və Allahın göndərdiyi peyğəmbərlərdən biri olduğunu açıq şəkildə ifadə edən mənası aydın olan digər ayələri götürmürlər.

Uca Allah ayədə buyurur: "...**istədikləri kimi yozmaq məqsədilə mənası aydın olmayanın ardınca düşərlər**", yəni onu istədikləri mənaya dəlalət edəcək şəkildə təhrif etmək üçün mənası aydın olmayan ayələrə uyarlar. Muqatil və əs-Suddi رحمه الله demişlər: "Onlar gələcəkdə baş verəcək şeyləri (qeybi) və hadisələrin aqibətini Qurandan öyrənmək istəyərlər". İmam Əhməd رحمه الله Aişədən رضي الله عنها rəvayət etmişdir ki, bir dəfə Peyğəmbər ﷺ Uca Allahın "**Kitabı sənə nazil edən Odur. O Kitabın bir qismi mənası aydın ayələrdir ki, bunlar da Kitabın anasıdır. Digərləri isə mənası aydın olmayan ayələrdir. Qəlblərində əyrilik olanlar...**" ayəsini "**Bunu isə ancaq ağıl sahibləri dərk edərlər**" sözünə qədər oxudu və dedi: "Quran barədə mübahisə edənləri görsəniz, bilin ki, bu ayədə nəzərdə tutulan şəxslər məhz onlardır, onlardan çəkinin!"[1]

İmam Əhməd رحمه الله Əbu Umamədən رضي الله عنه rəvayət etmişdir ki, Peyğəmbər ﷺ Uca Allahın "**Qəlblərində əyrilik olanlar fitnə-fəsad törətmək və istədikləri kimi yozmaq məqsədilə mənası aydın olmayanın ardınca düşərlər**" ayəsi barədə demişdir: "Onlar xavariclərdir[2]". Həmçinin Uca Allahın "**O gün neçə-neçə üzlər ağaracaq, neçə-neçə üzlər də qaralacaqdır**" ("Ali-İmran", 106) ayəsi haqqında da "Onlar xavariclərdir" demişdir".[3] Hədisi İbn Mərdəveyh رحمه الله rəvayət etmişdir. Bu hədis ən azı səhabənin sözüdür, lakin mənası doğrudur. İslamda meydana çıxan ilk bidət (yenilik) xavariclər fitnəsidir. Bu firqənin əmələ gəlməsinin başlanğıcı dünya malına görə olmuşdur. Belə ki Peyğəmbər ﷺ Huneyn döyüşündə qənimətləri böldükdə bəziləri öz xarab düşüncələri ilə Peyğəmbərin ﷺ bu bölgüdə ədalətli davranmadığını düşündülər. İçərilərindən Zul-Xuveysira (Allah onun belini qırsın!) adlı biri gözlənilmədən qalxaraq "Ədalətli ol! Sən ədalətli davranmadın" dedi. Peyğəmbər ﷺ onun bu sözünə mat qaldı və dedi: "Ədalətli olmasam, ziyana uğramış olaram və həlak olaram.

---

[1] əl-Musnəd (6/48), ət-Tayəlisi (1432-1433), əl-Buxari (8/157-159 Fəthul-Bari), Muslim (2/303-304), Əbu Davud (4598), ət-Tirmizi (4/80), İbn Məcə (47), İbn Hibban (72-75), ət-Tabəri (6605-6615), həmçinin Abdur-Razzəq və Muhəmməd ibn Yəhya əl-Abdi rəvayət etmişlər. (Əhməd Şakir). Əhməd, 24256, 24714. Hədis səhihdir. Bax: Ziləlul-Cənnə, 5.

[2] Xavaric ərəbcə خَرَجَ [xaracə] (çıxmaq) feilindən əmələ gəlmiş خَارِجِي [xa:rici] (qarşı çıxan) sözünün cəmidir. Xarici deyildikdə müsəlman camaatından ayrılıb özünə dəstə yaradan və ya yaranmış belə bir dəstəyə qoşulan, dəlil-sübutsuz olaraq böyük günah sahibini kafir sayan və şəriətə zidd olan digər əxlaqları özündə cəm edən firqə nəzərdə tutulur. Bu firqə müsəlmanlar arasında meydana gəlmiş ilk firqədir. Onlar Allahın razı qaldığı, Cənnətlə müjdələnmiş, İslam üçün canından və malından keçmiş, ölənədək Peyğəmbərə ﷺ sadiq olmuş Osman və Əli رضي الله عنهما kimi iki böyük səhabəni kafir sayıb şəhid etmişlər.

[3] Əhməd, 22313, 22614. Şueyb əl-Arnavut isnadının zəif olduğunu bildirmişdir.

Allah mənə bütün yer üzünü etibar etdiyi halda, siz mənə etibar etmirsiniz?" Kişi dönüb getmək istədikdə Ömər – bir rəvayətə görə isə Xalid ibn Valid – onu öldürmək üçün Peyğəmbərdən ﷺ icazə istədi. Peyğəmbər ﷺ dedi: "Buraxın onu! Həqiqətən, onun nəslindən elə bir qövm çıxacaq ki, siz öz namazınızı onların namazı ilə, [orucunuzu onların orucu ilə], Quran oxumağınızı onların oxumağı ilə müqayisədə aşağı görəcəksiniz, lakin ox öz ovunu dəlib keçdiyi kimi onlar da İslamdan çıxacaqlar. Onlarla harada qarşılaşsanız, onları öldürün! Çünki onları öldürənə savab var".[1]

Sonra onlar Əli ibn Əbu Talibin ﷺ zamanında ortaya çıxdılar və Əli onları Nəhravanda qılıncdan keçirdi. Daha sonra onlar müxtəlif tayfalara, qəbilələrə bölündülər, fikirlərə və bidət firqələrinə ayrıldılar və hər tərəfə yayıldılar. Onlardan Qədəriyyə (qəzavü-qədəri inkar edənlər), Mötəzilə, Cəhmiyyə və başqa bidət firqələr meydana gəldi. Peyğəmbər ﷺ bu barədə bizə xəbər verərək demişdir: "Ümmətim yetmiş üç firqəyə ayrılacaq. Onlardan biri istisna olmaqla hamısı cəhənnəmlikdir". (Səhabələr) soruşdular: "Onlar (nicat tapan firqə) kimlərdir, ey Allahın Elçisi?" Peyğəmbər ﷺ dedi: "Mənim və səhabələrimin yolu ilə gedənlərdir". Hədisi əl-Hakim ﷺ rəvayət etmişdir.[2]

Uca Allah buyurur: "**Onun yozumunu isə Allahdan başqa heç kəs bilməz**". Qiraət alimləri bu cümlədə fikrin bitdiyi yer barədə ixtilaf etmişlər.[3] Bəziləri cümlənin الله [Allah] kəlməsində bitdiyini və burada fasilə verməyin lazım olduğunu bildirmişlər. Necə ki daha əvvəl İbn Abbasın ﷺ belə dediyini rəvayət etmişdik: "Quran ayələrinin təfsiri dörd qisimdir. Birinci: təfsirini bilmədiyinə görə heç kəsin üzrlü sayılmadığı (hər kəsin bilməsi vacib olduğu) ayələr. İkinci: ərəblərin oxuyarkən birbaşa başa düşdükləri ayələr. Üçüncü: təfsirini yalnız elmdə qüvvətli olanların bildiyi ayələr. Dördüncü: təfsirini yalnız

---

[1] Bu mənada hədislər çoxdur. Hamısını qeyd etsək, siyahı çox uzanardı. Məsələn, Muslimin "Səhih" əsərinə (1/291-295), əl-Musnədə (616) və İbn Hibbana (24) bax. (Əhməd Şakir). əl-Buxari, 3341, 3610.

[2] əl-Mustədrək (1/128-129) Abdullah ibn Amrdan ﷺ rəvayət olunur. (Əhməd Şakir). Əbu Davud, 4597; İbn Məcə, 3992; əl-Hakim, 10. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 204.

[3] Alimlərin ixtilaf etməsinə səbəb budur ki, ayədə cümlənin bitdiyi yerdən asılı olaraq məna da dəyişir. Əgər cümlə الله [Allah] kəlməsində bitirsə, məna belə olacaq: "**Onun yozumunu isə Allahdan başqa heç kəs bilməz. Elmdə qüvvətli olanlar isə deyərlər: "Biz onlara iman gətirdik, hamısı bizim Rəbbimizdəndir**". Əgər cümlənin فِي الْعِلْمِ [fil-ilm] kəlməsində bitdiyini desək, o halda məna belə olacaq: "**Onun yozumunu isə Allahdan və elmdə qüvvətli olanlardan başqa heç kəs bilməz. Onlar deyərlər: "Biz onlara iman gətirdik, hamısı bizim Rəbbimizdəndir"**. Birinci mənaya görə, mənası aydın olmayan ayələrin mənalarını yalnız Allah bilir. İkinci mənaya görə isə "həmçinin elmdə qüvvətli olanlar da bu ayələrin mənalarını bilirlər". (Əhməd Şakir).

Allahın bildiyi ayələr".[1] Bu rəy Aişədən, Urvadan, Əbu əş-Şəsədən və başqalarından rəvayət olunur. Abdur-Razzəq rəvayət edir ki, İbn Abbas bu ayəni belə oxuyardı: "**Onun yozumunu isə Allahdan başqa heç kəs bilməz. Elmdə qüvvətli olanlar isə deyərlər: "Biz onlara iman gətirdik...**".[2] İbn Cərir rəvayət etmişdir ki, Ömər ibn Abdul-Əziz və Malik ibn Ənəs ayəni belə açıqlayardılar: "Elmdə qüvvətli olanlar ona iman gətirər, lakin yozumunu bilməzlər". İbn Cərir rəvayət etmişdir ki, Abdullah ibn Məsudun qiraəti belədir: "Bu ayələrin yozumu yalnız Allah qatındadır. Elmdə qüvvətli olanlar isə deyərlər: "Biz onlara iman gətirdik..." Ubey ibn Kəbdən də belə rəvayət olunur. İbn Cərir də bu rəyi seçmişdir.

Bəzi qarilər isə ayədə cümlənin فِي الْعِلْمِ [fil-ilm] kəlməsində bitdiyini və bu sözdə fasilə verməyin lazım olduğunu demişlər.[3] Təfsir və üsul alimlərinin bir çoxu bu rəyi seçərək demişlər: "Allahın Quranda qullarına aydın olmayan ayələrlə xitab etməsi mümkün deyil".

Rəvayət edilir ki, İbn Abbas demişdir: "Mən mənası aydın olmayan ayələrin yozumunu bilən, elmdə qüvvətli olanlardan biriyəm". Mucahid demişdir: "Elmdə qüvvətli olanlar mənası aydın olmayan ayələrin yozumunu bilərlər və "biz onlara iman gətirdik" deyərlər". ər-Rabi ibn Ənəs də belə demişdir. Muhəmməd ibn Cəfər ibn əz-Zubeyr demişdir: "Ayədə qəsd edilən yozumu ancaq Allah və elmdə qüvvətli olanlar bilər. Elmdə qüvvətli olanlar "Biz onlara iman gətirdik" deyərlər. Sonra da mutəşabih (mənası aydın olmayan) ayələri yalnız bir cür açıqlana bilən muhkəm (mənası aydın olan) ayələrin mənalarından bildiklərinə qayıtmaqla təfsir edərlər. Beləliklə, Quranla onların sözləri üst-üstə gələr, biri digərini təsdiqləyər. Bununla da, sübut etibarlı olar, üzr zahir olar, batil aradan qalxar, küfr onunla rədd edilmiş olar". Hədisdə rəvayət olunur ki,

---

[1] Oxşar rəvayət İbn Kəsirin müqəddiməsində ət-Tabərinin rəvayəti ilə keçdi. İbn Abbasın bu rəvayətdə "təfsirini yalnız Allahın bildiyi ayələr" deməsi dəlalət edir ki, İbn Abbas da cümlənin الله [Allah] kəlməsində bitdiyini görür. Çünki bu rəyə görə, Quranda elə ayələr var ki, təfsirini Allahdan başqa heç kəs bilmir. (Əhməd Şakir). əş-Şingiti "Ədvaul-Bəyən" 1/193.

[2] İsnadı səhihdir. Bu qiraət tilavət məqsədi deyil, təfsir məqsədi daşıyır. Bu səbəbdən də, İbn Abbas ayədən فِي الْعِلْمِ [fil-ilm] "elmdə" kəlməsini pozmuşdur. İbn Kəsirin əlyazmasında və çap olunmuş nüsxəsində sabit olan budur. ət-Tabəridə (6627) Abdur-Razzəqin rəvayətində də belə gəlmişdir. (Əhməd Şakir).

[3] Bu rəyə görə, ayənin mənası belədir: "**Onun yozumunu isə Allahdan və elmdə qüvvətli olanlardan başqa heç kəs bilməz. Onlar deyərlər: "Biz onlara iman gətirdik, hamısı bizim Rəbbimizdəndir**". Bu görüşə görə, mənası aydın olmayan ayələrin mənalarını elmdə qüvvətli olanlar da bilir.

Peyğəmbər ﷺ İbn Abbas رضي الله عنه üçün dua edərək buyurmuşdur: "Allahım, dini başa düşməyi ona müyəssər et və ona Quranı təfsir etməyi öyrət!"[1]

Bəzi alimlər bu mövzuda təfsilata varmış və demişlər: "Quranda التَّأْوِيلُ [tə'vi:l] "yozum" dedikdə iki məna nəzərdə tutulur:

**Birinci**; bir şeyin əsl mahiyyəti və son aqibəti. Məsələn, Uca Allahın "**O, ata-anasını taxtın üstündə əyləşdirdi. Onlar hamısı onun qarşısında səcdə etdilər. O dedi: "Atacan! Bu, çoxdankı yuxumun yozumudur. Rəbbim onu gerçəkləşdirdi**" ("Yusuf", 100) və "**Yoxsa kafirlər yalnız onun** (Quranda verilən xəbərlərin) **aqibətini gözləyirlər? Onun aqibəti gəldiyi gün əvvəllər onu unudan kəslər deyəcəklər: ...**" ("əl-Əraf", 53) ayələrində gəldiyi kimi. Burada Axirət həyatı ilə əlaqədar verilən xəbərlərin mahiyyəti nəzərdə tutulur. Əgər ayədə nəzərdə tutulan məna bu olarsa, o təqdirdə cümlə الله [Allah] kəlməsində bitir və burada fasilə vermək lazımdır. Çünki işlərin həqiqətini və mahiyyətini açıq şəkildə ancaq Uca Allah bilər. Bu halda "**Elmdə qüvvətli olanlar**" ifadəsi mübtəda, "**deyərlər: "Biz onlara iman gətirdik**" ifadəsi isə xəbərdir.

**İkinci**; bir şeyi təfsir etmək, açıqlamaq və bəyan etmək. Məsələn, Uca Allahın "**Bunun yozumunu bizə bildir**" ("Yusuf", 36) ayəsində olduğu kimi. Əgər ayədə bu məna nəzərdə tutulsa, o zaman cümlə فِي الْعِلْمِ [fil-ilm] kəlməsində bitir və bu sözdə fasilə vermək lazımdır. Bu nöqteyi-nəzərdən elmdə qüvvətli olanlar əşyaların mahiyyətini tam şəkildə əhatə etməsələr də, onlara yönələn xitabı başa düşüb anlaya bilirlər. Bu təqdirdə "**deyərlər: "Biz onlara iman gətirdik**" ifadəsi "**Elmdə qüvvətli olanlar**" ifadəsinin halı (tərzi-hərəkət zərfi) olur. Halın (tərzi-hərəkət zərfinin) bağlayıcı ilə bir-birinə bağlanmış iki sözdən birincisinə deyil, ikincisinə aid olması dil baxımından da icazəlidir. Məsələn, Uca Allahın bu ayələrində olduğu kimi: "**Qənimət həmçinin yurdlarından qovulmuş və mallarından məhrum olunmuş yoxsul mühacirlərə məxsusdur...**" ta ki, "**deyirlər: "Ey Rəbbimiz! Bizi və bizdən əvvəlki iman gətirmiş qardaşlarımızı bağışla**" ("əl-Həşr", 8-10) sözünə qədər. Həmçinin Uca Allahın: "**Sənin Rəbbin və səf-səf düzülmüş mələklər gələcək**" ("əl-Fəcr", 22), yəni mələklər səf-səf gələcək.

[1] əl-Musnəd (2397) İbn Abbasdan رضي الله عنه rəvayət olunur. Hədis kitabın müqəddiməsində keçmişdir. Bax: Fəthul-Bari (1/155). (Əhməd Şakir). Əhməd, 2397, 2881. Şueyb əl-Arnavut hədisin isnadının, Muslimin şərtlərinə görə, qüvvətli olduğunu bildirmişdir.

Uca Allah elmdə qüvvətli olanlardan xəbər verərək onların belə dediklərini bildirir: "**Elmdə qüvvətli olanlar isə deyərlər: "Biz onlara iman gətirdik**", yəni mənası aydın olmayan ayələrə, "**hamısı bizim Rəbbimizdəndir**", yəni istər mənası aydın olan olsun, istər mənası aydın olmayan olsun, hamısı haqdır, biri digərini təsdiqləyir və haqq olmasına şahidlik edir. Çünki hamısı Allah qatındandır. Allahdan gələn ayələr arasında isə ziddiyyət, ixtilaf əsla olmaz. Uca Allah başqa bir ayədə buyurur: "**Məgər onlar Quran barəsində düşünmürlərmi? Əgər o, Allahdan başqası tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ziddiyyət tapardılar**" ("ən-Nisa", 82). Bu səbəbdən Uca Allah ayənin sonunda buyurur: "**Bunu isə ancaq ağıl sahibləri dərk edərlər**", yəni ancaq sağlam düşüncə və düzgün qavrama sahibləri ayələrin mənalarını doğru başa düşər, dərk edər və anlaya bilərlər.

İmam Əhməd ﷺ Amr ibn Şueybdən, o da atasından, o da (Şueybin) babasından rəvayət etmişdir ki, bir dəfə Peyğəmbər ﷺ münaqişə edən bir toplum gördü və dedi: "Sizdən əvvəlkilər məhz buna görə həlak oldular. Onlar Allahın Kitabının bir qisminin digər qisminə zidd olduğunu düşündülər. Halbuki Allah Kitabının bir hissəsi digər hissəsini təsdiqləmək üçün endirmişdir. Bir qismini təsdiqləyib, digər qismini inkar etməyin! Yalnız bildiyinizi söyləyin, bilmədiyinizi isə onu bilənlərə həvalə edin!"[1] Hədisi İbn Mərdəveyh ﷺ də rəvayət etmişdir.[2]

Əbu Yəalə ﷺ rəvayət edir ki, Əbu Sələmə ﷺ demişdir: "Bildiyimə görə, Əbu Hureyra ﷺ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Quran yeddi hərf üzərində (yeddi ləhcədə) nazil olmuşdur. Quran barədə mübahisə etmək küfrdür". Peyğəmbər ﷺ bunu üç dəfə təkrar etdi, sonra sözünə davam edərək dedi: "Qurandan bildiyinizə əməl edin, bilmədiyiniz şeylərdə isə bilənlərə müraciət edin".[3] Hədisin isnadı səhihdir. Lakin Əbu Sələmənin ﷺ (şəkk edərək): "Bildiyimə görə, Əbu Hureyra..." deməsi hədisin isnadına xələl gətirir.[4] İbn əl-Munzir ﷺ rəvayət etmişdir ki, Nafi ibn Yəzid ﷺ demişdir: "Elmdə qüvvətli olanlar Allah üçün təvazökarlıq edənlərdir. Onlar Allahın razılığını qazanmaq üçün Ona boyun əyən, özlərindən üstün olanlarla mübahisə etməyən, özlərindən aşağı olanları isə alçaq görməyənlərdir".[5]

[1] Əhməd, 6741. Hədis həsəndir. Bax: Mişkətul-Məsabih, 237.

[2] əl-Musnəd (6741). (Əhməd Şakir).

[3] Əhməd, 7976. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 1522.

[4] İbn Hibban (73) Əbu Yəalənin isnadı ilə, əl-Musnəd (7976), ət-Təbəri (7). Hədis səhihdir, çünki başqa rəvayətlərdə bu şəkk rəvayət olunmayıb. (Əhməd Şakir).

[5] İbn əl-Munzir "Təfsir" 263.

Sonra Uca Allah elmdə qüvvətli olanların Rəblərinə dua edərək belə dediklərini xəbər verir: "**Ey Rəbbimiz! Bizi hidayət yoluna yönəltdikdən sonra qəlbimizi sapdırma**", yəni bizi doğru yolda sabit etdikdən sonra qəlbimizə əyrilik salma və bizi qəlblərində əyrilik olanlar kimi Quranın mənası aydın olmayan ayələrinə uyanlardan etmə, əksinə, bizi Öz doğru yolunda, haqq dinində sabit et! "**Bizə Öz tərəfindən**", yəni Öz dərgahından "**mərhəmət bəxş et**" ki, onunla qəlblərimizi haqq dinində sabit edəsən, dağınıq işlərimizi sahmana salasan, imanımızı və yəqinliyimizi artırasan. "**Həqiqətən, Sən Bəxşedənsən**".

İmam Əhməd ﷺ rəvayət etmişdir ki, Şəhr ibn Həuşəb ﷺ demişdir: "Ummu Sələmədən ﷺ eşitmişəm ki, Peyğəmbər ﷺ ən çox bu duanı edərdi: "Ey qəlbləri çevirən Allahım! Qəlbimi dininin üzərində sabit et!"[1] Mən ondan soruşdum: "Ey Allahın Elçisi! Məgər qəlblər çevrilir?" Peyğəmbər ﷺ dedi: "Bəli, elə bir Adəm oğlu yoxdur ki, onun qəlbi Allahın barmaqlarından ikisinin arasında olmasın. O, istədiyini (haqq üzərində) sabit edər, istədiyini də sapdırar". Ummu Sələmə ﷺ dedi: "Rəbbimiz olan Allahdan diləyirik ki, bizi doğru yola yönəltdikdən sonra qəlblərimizə azğınlıq salmasın! Bizə Öz tərəfindən bir mərhəmət bəxş etsin, həqiqətən, O, bəndələrinə mərhəmət bəxş edəndir!" Sonra Ummu Sələmə ﷺ Peyğəmbərə ﷺ dedi: "Ey Allahın Elçisi, mənə bir dua öyrət ki, özüm üçün (onunla) Allahdan istəyim". Peyğəmbər ﷺ dedi: "Əlbəttə, öyrədərəm. Dua edərkən belə de: "Allahım, ey Muhəmməd Peyğəmbərin Rəbbi, günahlarımı bağışla, qəlbimdən qəzəbi silib apar və məni həyatda saxladığın müddətdə azdırıcı fitnələrdən qoru!"[2] Bu hədisi Əhməd yenə Şəhr ibn Həuşəbdən daha müxtəsər şəkildə "Rəbbimiz olan Allahdan diləyirik ki, bizi..." hissəsini sonuna qədər zikr etmədən rəvayət etmişdir. Onun rəvayəti belədir: "Şəhr ibn Həuşəb deyir ki: "Ummu Sələmədən ﷺ soruşdum: "Ey möminlərin anası! Allah Elçisi sənin yanında olduqda ən çox hansı duanı edərdi?" O dedi...".[3] Sonra yuxarıdakı hədisi qeyd etdi. İbn Mərdəveyh ﷺ rəvayət etmişdir ki, Aişə ﷺ belə demişdir: "Peyğəmbər ﷺ çox vaxt bu duanı edərdi: "Ey qəlbləri çevirən (Allahım), qəlbimi dinin üzərində sabit et!" Mən ona dedim: "Ey Allahın Elçisi, bu duanı nə çox edirsən!" Peyğəmbər ﷺ dedi: "Elə bir qəlb yoxdur ki, ər-Rahmənin barmaqlarından ikisinin arasında

[1] Transkrpsiyası: yə: muqallibəl-qulu:b, səbbit qalbi alə di:nik

[2] Əhməd, 26576, 27111. Şueyb əl-Arnavut hədisin səhih, isnadının isə zəif olduğunu bildirmişdir.

[3] ət-Tirmizi, 3522, 3864. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 2091.

olmasın. O, (haqq üzərində) sabit etmək istədiyinin qəlbini sabit edər, azdırmaq istədiyini də azdırar. Məgər Uca Allahın "**Ey Rəbbimiz! Bizi hidayət yoluna yönəltdikdən sonra qəlbimizi sapdırma və bizə Öz tərəfindən mərhəmət bəxş et. Həqiqətən, Sən Bəxşedənsən**" ayəsini eşitməmisən?"[1] Hədisin bu şəkildə rəvayət olunması ğaribdir. Lakin hədisin əsli əl-Buxari və Muslimin "Səhih" əsərlərində və digər hədis kitablarında müxtəlif yollarla ayə zikr olunmadan qeyd edilmişdir. Abdur-Razzəq Əbu Abdullah əs-Sunəbihidən rəvayət etmişdir ki, bir dəfə o Əbu Bəkr əs-Siddiqin ﵁ arxasında Məğrib namazını qılmışdır. Əbu Bəkr ﵁ ilk iki rükətdə "əl-Fatihə" surəsi ilə qısa "Mufəssəl" ("əd-Duha" surəsindən sona kimi olan) surələrdən ikisini oxudu. Əbu Abdullah əs-Sunəbihi dedi: "Əbu Bəkrin ﵁ üçüncü rükətdə də nəsə oxuduğunu eşitdim. Ona yaxınlaşdım. Hətta az qala paltarım paltarına toxunsun və üçüncü rükətdə "əl-Fatihə" surəsi ilə Uca Allahın "**Ey Rəbbimiz! Bizi hidayət yoluna yönəltdikdən sonra qəlbimizi sapdırma və bizə Öz tərəfindən mərhəmət bəxş et. Həqiqətən, Sən Bəxşedənsən**" ayəsini oxuduğunu eşitdim".[2]

Uca Allah buyurur: "**Ey Rəbbimiz! Həqiqətən, gerçəkləşəcəyinə şübhə edilməyən bir gündə insanları bir yerə Sən yığacaqsan. Həqiqətən, Allah vədinə xilaf çıxmaz!**" Yəni həmçinin onlar dualarında deyərlər: "Ey Rəbbimiz, şübhəsiz ki, Sən, yaratdıqlarını Sənə dönəcəkləri gündə bir yerə toplayacaqsan. Sonra onları biri-birindən ayırıb ixtilaf etdikləri məsələlərdə onlar arasında hökm verəcəksən və dünyada etdiyi xeyir və şər əməllərinə görə hər kəsin mükafatını və cəzasını verəcəksən.

﴿ إِنَّ ٱلَّذِينَ كَفَرُوا۟ لَن تُغْنِىَ عَنْهُمْ أَمْوَٰلُهُمْ وَلَآ أَوْلَٰدُهُم مِّنَ ٱللَّهِ شَيْـًٔا ۖ وَأُو۟لَٰٓئِكَ هُمْ وَقُودُ
ٱلنَّارِ ﴿١٠﴾ كَدَأْبِ ءَالِ فِرْعَوْنَ وَٱلَّذِينَ مِن قَبْلِهِمْ ۚ كَذَّبُوا۟ بِـَٔايَٰتِنَا فَأَخَذَهُمُ ٱللَّهُ بِذُنُوبِهِمْ ۗ وَٱللَّهُ
شَدِيدُ ٱلْعِقَابِ ﴿١١﴾ ﴾

**10. Kafir olanların nə malları, nə də övladları onlara Allahın hüzurunda heç bir şeylə fayda verə bilməz. Onlar Cəhənnəmin yanacağıdırlar.**

**11. Onların əməlləri Firon nəslinin və onlardan əvvəlkilərin əməllərinə bənzəyir. Onlar Bizim ayələrimizi yalan hesab etdilər, Allah da onları günahlarına görə yaxaladı. Allah şiddətli cəza verəndir.**

[1] əs-Suyuti "Durrul-Mənsur" 3/468.

[2] Hədisi Abdur-Razzəq Malikdən rəvayət etmişdir. əl-Muvatta (səh. 79). (Əhməd Şakir).

Uca Allah bu ayədə kafirlərin Cəhənnəmin yanacağı olduğunu bildirir. "**O gün zalımların üzr diləmələri (onlara) heç bir fayda verməyəcəkdir. Onları həm lənət, həm də pis yurd gözləyir**" ("Ğafir", 52). Onlara dünyada ikən verilən mallar və uşaqlar Allah yanında fayda verməyəcək, onları Allahın ağrılı-acılı əzabından qurtara bilməyəcək. Əksinə, Uca Allah buyurur: "**Onların nə malları, nə də övladları səni təəccübləndirməsin. Allah bunlarla, bu dünyada onlara əzab vermək və onların kafir olaraq canlarının çıxmasını istəyir**" ("ət-Tövbə", 85). "**Qoy kafirlərin diyarbadiyar gəzib dolaşması səni aldatmasın! Bu, az bir mənfəətdir. Sonra isə onların yeri Cəhənnəmdir. Ora nə pis yataqdır!**" ("Ali-İmran", 196-197). Burada isə belə buyurur: "**Kafir olanların**", yəni Allahın ayələrini inkar edənlərin və peyğəmbərlərini yalan sayanların, Allahın Kitabına qarşı çıxanların, Onun peyğəmbərlərinə göndərdiyi vəhydən faydalanmayanların "**nə malları, nə də övladları onlara Allahın hüzurunda heç bir şeylə fayda verə bilməz. Onlar Cəhənnəmin yanacağıdırlar**", yəni Cəhənnəmi alovlandıran odunlardır. Necə ki başqa bir ayədə Uca Allah buyurur: "**Ey kafirlər! Siz və Allahdan başqa tapındıqlarınız Cəhənnəm odunusunuz. Siz mütləq ora girəcəksiniz**" ("əl-Ənbiya", 98).

İbn Əbu Hatim ﷫ rəvayət etmişdir ki, Abdullah ibn Abbasın anası Ummul-Fadl ﵄ demişdir: "Biz Məkkədə idik. Bir gecə Peyğəmbər ﷺ qalxdı və üç dəfə: "Bu dini sizə təbliğ etdimmi?"– dedi. Ömər ﷜ qalxdı və dedi: "Bəli!" Səhər açıldıqda Peyğəmbər ﷺ dedi: "İslam mütləq qalib gələcək və küfrü gəldiyi yerə geri qaytaracaq. Siz İslamla dənizlərə çıxacaqsınız. İnsanlar elə bir zaman gələcək ki, Quranı öyrənib oxuyacaqlar, sonra isə deyəcəklər: "Biz Quranı oxuduq və öyrətdik, bizdən daha xeyirli kim ola bilər?" Sizcə, bu insanlarda xeyir varmı?" Səhabələr dedilər: "Ey Allahın Elçisi, onlar kimlərdir?" Peyğəmbər ﷺ dedi: "Onlar sizdəndir və onlar Cəhənnəmin yanacağıdırlar".[1] İbn Mərdəveyh ﷫ də oxşar hədisi rəvayət etmişdir.[2]

Uca Allah buyurur: "**Onların əməli Firon nəslinin və onlardan əvvəlkilərin əməlinə bənzəyir**". İbn Abbas ﵄ demişdir: "Yəni onların etdikləri Firon nəslinin və onlardan əvvəlkilərin etdiklərinə bənzəyir". İkrimə, Mucahid və başqalarından da belə rəvayət edilmişdir. Bəziləri isə demişlər: "Yəni Firon nəslinin tutduğu yol və iş kimi. Firon nəslinin bənzəri kimi". Lakin bu deyilən sözlərin hamısı

[1] ət-Təbərani "Mucəmul-Kəbir" 12844, 20566; İbn Əbu Hatim, 3229.
[2] İbn Əbu Hatimin ﷫ rəvayət etdiyi isnad səhihdir. (Əhməd Şakir).

bir-birinə yaxındır. Ayədə keçən الدَّأْبُ [əd-dəb] sözü الدَّأَبُ [əd-dəəb] kimi də deyilir. Necə ki “çay” sözünə həm النَّهْرُ [ən-nəhr], həm də النَّهَرُ [ən-nəhər] deyilir. Mənası isə “əməl”, “hal”, “iş” və “adət” deməkdir. Necə ki ərəblər deyir: هَذَا دَأْبِي وَدَأْبُكَ [hə:zə də'bi va dəbukə] “Mənim də, sənin də etdiyimiz budur”.

Ayənin mənası isə belədir: “Firon nəslinə və onlardan əvvəl Allahın göndərdiyi peyğəmbərlərin gətirdiyi ayələri və dəlilləri inkar edənlərə malları və uşaqları fayda vermədiyi kimi, kafirlərə də malları və uşaqları fayda verməyəcək və onlar həlak olub əzaba düçar olacaqlar”.

Uca Allah buyurur: “**Allah şiddətli cəza verəndir**”, yəni Allahın günahkarları yaxalaması şiddətli, əzabı isə ağrılı-acılıdır. Heç kim Ondan yaxa qurtara bilməz, heç nə ondan yayına bilməz. O, istədiyini edən, Öz işini qələbə ilə başa çatdırandır, hər şey Ona boyun əyər. Ondan başqa ibadətə layiq haqq ilah və Ondan başqa Rəbb də yoxdur.

﴿ قُل لِّلَّذِينَ كَفَرُوا۟ سَتُغْلَبُونَ وَتُحْشَرُونَ إِلَىٰ جَهَنَّمَ ۚ وَبِئْسَ ٱلْمِهَادُ ﴿١٢﴾ قَدْ كَانَ لَكُمْ
ءَايَةٌ فِى فِئَتَيْنِ ٱلْتَقَتَا ۖ فِئَةٌ تُقَٰتِلُ فِى سَبِيلِ ٱللَّهِ وَأُخْرَىٰ كَافِرَةٌ يَرَوْنَهُم مِّثْلَيْهِمْ رَأْىَ
ٱلْعَيْنِ ۚ وَٱللَّهُ يُؤَيِّدُ بِنَصْرِهِۦ مَن يَشَآءُ ۗ إِنَّ فِى ذَٰلِكَ لَعِبْرَةً لِّأُو۟لِى ٱلْأَبْصَٰرِ ﴿١٣﴾ ﴾

**12. Kafirlərə de: "Siz məğlub olacaq və Cəhənnəmə toplanılacaqsınız! Ora nə pis yataqdır!"**

**13. Qarşı-qarşıya gələn iki dəstədə sizin üçün bir ibrət var idi. Dəstələrdən biri Allah yolunda vuruşurdu, digəri isə kafirlər idi. Onlar qarşı tərəfin sayca iki qat artıq olduqlarını öz gözləri ilə görürdülər. Allah istədiyi kəsi Öz köməyi ilə qüvvətləndirir. Həqiqətən, bunda bəsirət sahibləri üçün bir ibrət vardır.**

Uca Allah bu ayədə buyurur: “Ey Muhəmməd! Kafirlərə de ki: “**Siz** (dünyada) **mütləq məğlub olacaq**”, Qiyamət günü isə “**Cəhənnəmə toplanılacaqsınız**! **Ora nə pis yataqdır**!” Muhəmməd ibn İshaq ﷺ Asim ibn Ömər ibn Qatədədən ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ Bədr döyüşündə əldə etdiyi qələbə ilə Mədinəyə qayıtdıqda yəhudiləri Bənu Qaynuqa bazarına yığdı və dedi: “Ey yəhudi camaatı! Allah Qureyşin başına gətirdiyini sizin başınıza gətirməmiş müsəlman olun!” Onlar dedilər: “Ey Muhəmməd! Qureyşdən döyüşə bilməyən naşı bir dəstəni öldürməyin səni aldatmasın. Əgər sən

bizimlə döyüşsən, bizim kim olduğumuzu bilərsən və bilərsən ki, bizim kimilərlə qarşılaşmamısan". Uca Allah da, belə deyənlərə görə, bu ayəni nazil etdi: "**Kafirlərə de: "Siz məğlub olacaq və Cəhənnəmə toplanılacaqsınız! Ora nə pis yataqdır!" Qarşı-qarşıya gələn iki dəstədə sizin üçün bir ibrət var idi. Dəstələrdən biri Allah yolunda vuruşurdu, digəri isə kafirlər idi. Onlar qarşı tərəfin sayca iki qat artıq olduqlarını öz gözləri ilə görürdülər. Allah istədiyi kəsi Öz köməyi ilə qüvvətləndirir. Həqiqətən, bunda bəsirət sahibləri üçün bir ibrət vardır**".[1] Həmçinin İbn İshaq bu hədisi İbn Abbasdan da rəvayət etmişdir. Bu səbəbdən Uca Allah "**Qarşı-qarşıya gələn iki dəstədə sizin üçün bir ibrət var idi**" buyurur. Yəni ey bu sözləri söyləyən yəhudilər, biri Allah yolunda döyüşən müsəlmanlar, digəri isə Qureyş müşrikləri olmaqla Bədr döyüşündə "**Qarşı-qarşıya gələn iki dəstədə**" sizin üçün bir "**ibrət var idi**". Yəni Allahın Öz dinini ucaldacağına və Peyğəmbərinə yardım edəcəyinə dair bir dəlil var.

İbn Cəririn nəql etdiyinə görə, bəzi alimlər Uca Allahın "**Onlar qarşı tərəfin sayca iki qat artıq olduqlarını öz gözləri ilə görürdülər**" ayəsi barədə demişlər: "Müşriklər Bədr döyüşü günü müsəlmanların sayının özlərindən iki dəfə artıq olduğunu görürdülər. Uca Allah onların belə görməsini İslamın müşriklər üzərində qalib gəlməsinə səbəb etdi". Lakin belə deməkdə bir maneə var. Belə ki müşriklər o gün döyüşdən əvvəl müsəlmanların sayını təxmin etmək üçün Ömər ibn Sadı göndərmişdilər. O da dönüb müsəlmanların təxminən üç yüz nəfər olduqlarını bildirmişdi. Həqiqətən də, müsəlmanlar Bədr döyüşündə üç yüz on nəfərdən bir az artıq idilər. Döyüş başladıqda isə Allah seçilmiş min mələyi müsəlmanlara köməyə göndərdi.

Bu ayənin mənası barədə deyilən ikinci rəy belədir: "**Onlar qarşı tərəfin sayca iki qat artıq olduqlarını öz gözləri ilə görürdülər**", yəni müsəlmanlar kafirlərin sayca özlərindən iki dəfə artıq olduğunu gözləri ilə görürdülər. Buna baxmayaraq, Uca Allah müsəlmanları kafirlər üzərində qalib etmişdir. Bu məna İbn Abbasdan rəvayət olunan hədisə uyğundur. İbn Abbas demişdir ki, möminlər Bədr döyüşündə üç yüz on üç nəfər, müşriklər isə altı yüz iyirmi altı nəfər idilər. İbn Abbasın bu rəyi ayənin zahirinə uyğun olsa da, tarixçilərdən gələn məşhur rəvayətlərə və əksər alimlərin sözlərinə görə, müşriklərin sayının doqquz yüz – min arası olması sözünə ziddir. Necə ki Muhəmməd ibn İshaq və digərləri belə rəvayət etmişlər. Hər halda, müşriklərin sayı möminlərin sayından üç dəfə artıq

[1] Əbu Davud, 3001, 3003. Hədisin isnadı zəifdir. Bax: Daif Sunən Əbu Davud, 647.

olmuşdur. Bu səbəbdən müşriklərin sayının möminlərin sayından iki dəfə artıq olması rəvayəti şübhəlidir. Ən doğrusunu Allah bilir. Lakin İbn Cərir ﷺ bu rəyi doğru saymış və belə əsaslandırmışdır: "Bu, bir insanın belə deməsinə bənzəyir: "Məndə bir şeydən min ədəd var və bunun iki mislinə ehtiyacım var". Beləliklə, sən üç minə ehtiyac duymuş olursan". Bu izaha görə, bu rəvayətdə hər hansı bir maneə yoxdur, lakin burada hər iki rəvayətdə meydana çıxan bir suala cavab tapmaq lazımdır. Bu ayə ilə Uca Allahın Bədr döyüşü barədə endirdiyi "**O vaxt qarşı-qarşıya gəldiyiniz zaman Allah onları sizin gözünüzə az göstərdi, sizi də onların gözündə azaltdı ki, olacaq işi yerinə yetirsin**" ("əl-Ənfal", 44) ayəsini necə cəm edə bilərik? **Cavab belədir**: Bu ayə bir hala, digər ayə isə başqa bir hala görə nazil olmuşdur. Necə ki İbn Məsudun ﷺ Uca Allahın "**Qarşı-qarşıya gələn iki dəstədə sizin üçün bir ibrət var idi**" ayəsi barədə belə dediyi rəvayət edilir: "Burada Bədr günü nəzərdə tutulur. Biz müşriklərə baxdıqda onların bizdən iki dəfə artıq olduqlarını gördük. Sonra bir daha onlara baxdıq və gördük ki, onlar bizdən bir adam belə artıq deyillər. Bu isə Uca Allahın "**O vaxt qarşı-qarşıya gəldiyiniz zaman Allah onları sizin gözünüzə az göstərdi, sizi də onların gözündə azaltdı ki, olacaq işi yerinə yetirsin**" ("əl-Ənfal", 44) ayəsinin dəlalət etdiyi haldır".[1] Hər iki dəstə bir-birinə baxdıqda müsəlmanlar müşrikləri özlərinin iki misli qədər gördülər, yəni iki dəfə artıq gördülər. Bu ona görə idi ki, müsəlmanlar Allaha üz tutsunlar və Rəblərindən yardım istəsinlər. Həmçinin müşriklər də müsəlmanları özlərindən iki dəfə artıq gördülər. Bu isə qəlblərinə qorxu, təşviş və narahatlıq düşməsi üçün idi. Daha sonra hər iki dəstə döyüş üçün səflərə düzülüb qarşı-qarşıya gəldikdə Allah qarşılıqlı olaraq möminləri müşriklərə, müşrikləri isə möminlərə az göstərdi ki, bir-birlərinin üstünə hücum çəksinlər və Allah "**olacaq işi yerinə yetirsin**", yəni haqla batili ayırsın, imanı küfr və azğınlıq üzərində qalib etsin, möminləri izzətləndirsin, kafirləri isə zəlil etsin. Necə ki Uca Allah başqa bir ayədə buyurur: "**Siz zəif olduğunuz halda, Allah Bədrdə sizə yardım etdi**" ("Ali-İmran", 123). Burada isə buyurur: "**Allah istədiyi kəsi Öz köməyi ilə qüvvətləndirir. Həqiqətən, bunda bəsirət sahibləri üçün bir ibrət vardır**", yəni Allahın hikmətini, Onun etdiklkərini, həm bu dünyada, həm də Axirətdə mömin qullarına yardımı ilə cərəyan edən qəzavü-qədərini anlayan və dərk edən bəsirət sahibləri üçün, əlbəttə, bunda ibrətlər vardır.

[1] İbn Əbu Hatim, 3244.

﴿ زُيِّنَ لِلنَّاسِ حُبُّ الشَّهَوَاتِ مِنَ النِّسَاءِ وَالْبَنِينَ وَالْقَنَاطِيرِ الْمُقَنْطَرَةِ مِنَ الذَّهَبِ وَالْفِضَّةِ
وَالْخَيْلِ الْمُسَوَّمَةِ وَالْأَنْعَامِ وَالْحَرْثِ ۗ ذَٰلِكَ مَتَاعُ الْحَيَاةِ الدُّنْيَا ۖ وَاللَّهُ عِنْدَهُ حُسْنُ الْمَآبِ ﴿١٤﴾
۞ قُلْ أَؤُنَبِّئُكُمْ بِخَيْرٍ مِنْ ذَٰلِكُمْ ۚ لِلَّذِينَ اتَّقَوْا عِنْدَ رَبِّهِمْ جَنَّاتٌ تَجْرِي مِنْ تَحْتِهَا الْأَنْهَارُ
خَالِدِينَ فِيهَا وَأَزْوَاجٌ مُطَهَّرَةٌ وَرِضْوَانٌ مِنَ اللَّهِ ۗ وَاللَّهُ بَصِيرٌ بِالْعِبَادِ ﴿١٥﴾ ﴾

**14. Qadınların, uşaqların, yığın-yığın qızıl-gümüşün, yaxşı cins atların, mal-qaranın və əkinlərin verdiyi zövqlərə olan istək insanların gözünə gözəl göstərilmişdir. Bunlar dünya həyatının keçici zövqüdür, gözəl qayıdış yeri isə Allah yanındadır.**

**15. De: "Sizə bunlardan daha yaxşısı barədə xəbər verimmi? Allahdan qorxanlar üçün Rəbbi yanında ağacları altından çaylar axan, içində əbədi qalacaqları Cənnət bağları, pak zövcələr və Allahın rizası vardır". Allah qullarını görür.**

Uca Allah bu ayələrdə dünya həyatında insanlar üçün bəzədilib xoş göstərilən qadınlardan, uşaqlardan və digər müxtəlif zövqverici şeylərdən söhbət açır. Uca Allah ilk olaraq qadınlardan başlayır, çünki onlara tamah daha şiddətlidir. "Səhih" əsərində gələn hədisdə Peyğəmbər ﷺ demişdir: "Özümdən sonra kişilər üçün ehtiyat etdiyim ən təhlükəli fitnə qadınlardır".[1] Lakin əgər bu tamah evlənmək və uşaqların sayını artırmaq məqsədi daşıyarsa, əlbəttə, bu, şəri cəhətdən tələb olunan və bəyənilən əməldir. Necə ki Peyğəmbərin ﷺ hədislərində evlənməyə və qadınların sayını (dörddən artıq olmamaq şərtilə) artırmağa təşviq edilmişdir. Peyğəmbər ﷺ demişdir: "Bu ümmətin ən xeyirliləri qadınları ən çox olanlardır".[2] Başqa bir hədisdə demişdir: "Dünya həyatı keçici zövqdür. Onun ən xeyirli zövqü isə əməlisaleh qadındır. Ona baxdığında səni sevindirər, ona bir şey əmr etdiyində yerinə yetirər (itaət edər), yanında olmadığın zaman ismətini və malını qoruyar".[3] Başqa bir hədisdə isə demişdir: "Mənə

[1] əl-Musnəd (5/200, 210 Hələbi nəşri), əl-Buxari (9/118 Fəthul-Bari), Muslim (2/320). Usamə ibn Zeyddən ﵁ rəvayət olunur. (Əhməd Şakir). əl-Buxari, 4706, 5096.

[2] Əhməd (2048, 2179, 3508), əl-Buxari (9/99 Fəthul-Bari) və əl-Hakim (2/160) İbn Abbasdan ﵄ rəvayət etmişlər. (Əhməd Şakir). Əhməd, 2048. Şueyb əl-Arnavut səhih li-ğeyrihi olduğunu bildirmişdir.

[3] Hədisi bu mətnlə bütöv hədis olaraq tapa bilmədim. Görünür, əl-Hafiz İbn Kəsir ﵀ bunu hafizəsindən yazmışdır. Birinci hədisi "Dünya həyatı keçici zövqdür. Onun ən xeyirli zövqü isə əməlisaleh qadındır" Əhməd, Muslim və başqaları Abdullah ibn Amrdan ﵁ rəvayət

qadınlar və gözəl ətir sevdirildi, gözümün nuru isə namazdadır".[1]

Bəzən övlad sevmək insanlar arasında öyünmək və xoş görünmək üçün olur. Bu cür sevgi bu ayənin hökmünə daxildir. Bəzən isə nəslin və tək Allaha ibadət edən Muhəmməd ﷺ ümmətinin artırılması məqsədi daşıyır. Bu məqsədlə oğul-uşağı sevmək, əlbəttə, gözəl və bəyənilən bir əməldir. Necə ki bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Gənc və çox uşaq doğan qadınlarla evlənin, çünki sizin sayənizdə mən Qiyamət günü ümmətimin digər ümmətlərdən çox olması ilə fəxr edəcəyəm".[2] Həmçinin mal-dövlət sevgisi də bəzən öyünmək, zəiflər arasında təkəbbürlük etmək və kasıblar arasında lovğalanmaq məqsədilə olur. Bu, əlbəttə, pislənən bir əməldir. Bəzən isə yaxınlarına xərcləmək, qohumluq əlaqələrini yaxşılaşdırmaq, müxtəlif yaxşılıq və itaətlər üçün sərf etmək məqsədi daşıyır. Bu isə şəriət baxımından gözəl və təriflənən əməldir. Təfsir alimləri ayədə işlənən قِنْطَار [qinta:r] "qızıl-gümüş" sözünün miqdarında ixtilaf etmişlər. Xülasə olaraq, demək olar ki, bu, çox sayda qızıl-gümüş deməkdir. Necə ki əd-Dahhək və başqaları رحمهم الله demişlər. Bəziləri bunu min dinar, bəziləri min iki yüz dinar, bəziləri isə on iki min dinar müəyyən etmişlər. Qırx min dinar, altmış min dinar və daha artıq deyənlər də olmuşdur.

At sevgisi isə üç növdür:

1. Bəzən at sahibləri onları Allah yolunda istifadə etmək üçün bəsləyərlər. Ehtiyac duyulduğu zaman onlara minərək Allah

---

etmişlər. Hədisin qalan hissəsini Əhməd (7145) Əbu Hureyradan رضي الله عنه rəvayət etmişdir. Mətni belədir: "Peyğəmbərdən ﷺ soruşuldu: "Ən xeyirli qadınlar hansılardır?" Peyğəmbər ﷺ dedi: "Əri ona baxdıqda onu sevindirən, əmr etdikdə itaət edən, ərinin xoşlamadığı şeyləri etməyən, ərinin namusunu və malını qoruyan qadındır". Hədisi, həmçinin ən-Nəsəi (2/72) və əl-Hakim (2/161-162) rəvayət etmişlər. əl-Hakim رحمه الله hədisin Muslimin şərtinə görə səhih olduğunu demişdir. əz-Zəhəbi رحمه الله bununla razılaşmışdır. Əbu Davud رحمه الله mənaca buna oxşar bir hədisi İbn Abbasın رضي الله عنهما hədisinin tərkibində rəvayət etmişdir (1664). əl-Munziri رحمه الله bildirmişdir ki, hədisi İbn Mərdəveyh və əl-Hakim رحمه الله də rəvayət etmişlər. əl-Hakim رحمه الله hədisin əl-Buxari və Muslimin şərtinə görə səhih olduğunu demişdir. İbn Kəsir رحمه الله bu hədisi ət-Tövbə surəsinin 34-35-ci ayələrinin təfsirində təkrar gətirəcək. (Əhməd Şakir). Muslim, 2668, 3716; ət-Tabərani "Mucəmul-Kəbir" 478.

[1] Əhməd (12320, 13089, 14082), ən-Nəsəi (2/71) və əl-Hakim (2/160) Ənəsdən رضي الله عنه rəvayət etmişlər. əl-Hakim رحمه الله hədisin Muslimin şərtinə görə səhih olduğunu demişdir. əz-Zəhəbi رحمه الله də bununla razılaşmışdır. (Əhməd Şakir). ən-Nəsəi "Sunən" 3879, 3940. Hədis səhihdir. Bax: Mişkatul-Məsabih, 5261.

[2] Məqil ibn Yəsərdən رضي الله عنه rəvayət olunan hədisin bir hissəsidir. Hədisi Əbu Davud (2050), ən-Nəsəi (2/156) və əl-Hakim (2/162) rəvayət etmişlər. əl-Hakim رحمه الله hədisin səhih olduğunu bildirmişdir, lakin əl-Hakimin رحمه الله rəvayətində "Qiyamət günü" sözü yoxdur. (Əhməd Şakir). Əbu Davud, 2052. Hədis səhihdir. Bax: İrvaul-Ğalil, 1784.

yolunda döyüşərlər. Bu məqsədlə at bəsləyənlər əməllərinə görə savab qazanırlar.

2. Bəzən at sahibinin məqsədi lovğalıq etmək, özünü göstərmək və ya saxladığı atı müsəlmanların əleyhinə istifadə etmək üçün olur. Bu at sahiblərinə isə günah yazılır.
3. Bəzən isə at sahibi atını insanlara möhtac olmasın və dilənməsin deyə (qazanc məqsədilə) saxlayır, üstəlik onu bəslədikdə Allahın haqqını da unutmur. Bu at onun üçün (kasıbçılıqdan və ehtiyacdan) bir örtükdür.

Bu barədə rəvayət olunan hədis Uca Allahın "**Düşmənlərə qarşı bacardığınız qədər qüvvə və döyüş atları hazırlayın ki, bununla Allahın düşmənini, öz düşməninizi və onlardan başqa sizin bilmədiyiniz, lakin Allahın bildiyi kimsələri qorxudasınız**" ("əl-Ənfal", 60) ayəsinin təfsirində gələcək.[1]

Ayədə keçən الْمُسَوَّمَةُ [əl-musəvvəmə] "cins" sözünə gəlincə İbn Abbasdan ﷺ rəvayət edilir ki, bu söz əhliləşdirilmiş, yaradılışı kamil, gözəl mənasındadır. Mucahid, İkrimə, Səid ibn Cubeyr və başqalarından ﷺ da belə rəvayət edilmişdir. Məkhul ﷺ demişdir: "Bu sözlə alnında və ayağında ağ ləkələri olan atlar nəzərdə tutulur". Bu barədə başqa rəylər də deyilmişdir. İmam Əhməd ﷺ Əbu Zərdən ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Elə bir ərəb atı yoxdur ki, hər dan yeri söküləndə ona iki dəfə dua etmək icazə verilməsin. O, duasında deyər: "Allahım! Sən məni Adəm övladına verdin. Elə isə, məni onun ən sevdiyi malından və əhlindən et və ya əhlindən və malından et!"[2]

---

[1] Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "At (saxlamaq) kimisinə savab qazandırar, kimisinin (kasıbçılığını) ört-basdır edər, kimisinə də günah qazandırar. Savab qazanan adama gəlincə, bu o kimsədir ki, atını otlaqda və ya bağ-bağatlı yerdə uzun kəndirlə bağlayıb Allah yolunda (döyüşmək üçün) saxlamışdır. At otlaqda və ya bağçada otladığı müddət ərzində ona savab yazılar. Hərgah atın kəndiri qırılarsa və at qaçıb bir, yaxud iki təpə aşarsa, onun qoyduğu ləpirlərə və (ifraz etdiyi) nəcisinə görə (yiyəsinə) savab yazılar; və əgər bir çaydan keçib ondan su içərsə, yiyəsinin onu sulamaq istəyi olmasa belə, buna görə ona savab yazılar. Beləliklə də, bu at ona savab qazandırar. Digəri isə atını insanlara möhtac olmasın və dilənməsin deyə (qazanc məqsədilə) saxlayan, üstəlik onu bəslədikdə Allahın haqqını unutmayan kimsədir. Bu at onun üçün örtük olar. (Üçüncüsü isə,) atını lovğalıq etmək, özünü göstərmək və ya onu müsəlmanların əleyhinə istifadə etmək məqsədilə saxlayan kimsədir. Bu at ona günah qazandırar". əl-Buxari, 2198, 2371.

[2] əl-Musnəd (5/170 Hələbi nəşri), ən-Nəsəi (2/121). Əhməd ﷺ bundan əvvəl başqa sənədlə daha uzun mətnlə rəvayət etmişdir. Hər iki hədisin isnadı səhihdir. (Əhməd Şakir). Əhməd, 21535, 21829. Hədis səhihdir. Bax: Səhih əl-Cami, 2414.

Ayədə "**mal-qara**" dedikdə dəvə, inək və qoyunlar, "**əkinlər**" dedikdə isə ağac və əkinçilik üçün istifadə edilən ərazilər nəzərdə tutulur. İmam Əhməd ﵀ Suveyd ibn Hubeyradan ﵁ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "İnsanın ən xeyirli malı bol nəsil verən atlar və (yaxşı) yetişdirilmiş xurmalıqlardır".[1]

Uca Allah buyurur: "**Bunlar dünya həyatının keçici zövqüdür**", yəni bu qeyd olunanlar dünya həyatının keçici və fani olan bəzəkləridir, "**gözəl qayıdış yeri isə Allahın yanındadır**", yəni gediləcək gözəl yer və savab Allah qatındadır.

Uca Allah buyurur: "**De: "Sizə bunlardan daha yaxşısı barədə xəbər verimmi?**", yəni ey Muhəmməd insanlara de ki, bu dünyada insanlara bəzədilən və mütləq yox olub gedəcək gözəlliklərdən, nemətlərdən daha xeyirli olanı sizə xəbər verimmi? Sonra Uca Allah daha xeyirli olanı açıqlayaraq buyurur: "**Allahdan qorxanlar üçün Rəbbi yanında ağacları altından çaylar axan, içində əbədi qalacaqları Cənnət bağları**", yəni hər tərəfindən tərkibi bal, süd, şərab, su və digər içkilərdən olan çaylar axacaqdır. Orada olan nemətləri nə bir göz görmüş, nə bir qulaq eşitmiş, nə də bir bəşər övladı təsəvvürünə gətirmişdir. "**İçində əbədi qalacaqları**", yəni onlar orada əbədi, davamlı qalacaq və oranı başqa bir yerə dəyişmək istəməyəcəklər. "**Pak zövcələr**", yəni dünya qadınlarında olan hər cür natəmizlikdən, heyzdən, nifasdan təmizlənmiş, tərtəmiz zövcələr "**və Allahın rizası vardır**", yəni Allah onlardan razı qalacaq və heç vaxt onlara qəzəblənməyəcək. Bu səbəbdən Uca Allah "Bəraət" ("ət-Tövbə") surəsində buyurur: "**Allahın razılığı isə daha böyükdür**" ("ət-Tövbə", 72). Yəni Allahın razılığı, vermiş olduğu davamlı nemətlərdən daha böyükdür. Sonra Uca Allah buyurur: "**Allah qullarını görür**", yəni hər kəsə layiq olduğu mükafatı verəcək.

﴿ ٱلَّذِينَ يَقُولُونَ رَبَّنَآ إِنَّنَآ ءَامَنَّا فَٱغۡفِرۡ لَنَا ذُنُوبَنَا وَقِنَا عَذَابَ ٱلنَّارِ ١٦ ٱلصَّٰبِرِينَ
وَٱلصَّٰدِقِينَ وَٱلۡقَٰنِتِينَ وَٱلۡمُنفِقِينَ وَٱلۡمُسۡتَغۡفِرِينَ بِٱلۡأَسۡحَارِ ١٧ ﴾

**16. O kəslər ki: "Ey Rəbbimiz! Həqiqətən, biz iman gətirdik, bizim günahlarımızı bağışla və bizi Od əzabından qoru!"– deyirlər;**
**17. onlar səbir edən, doğru danışan, müti olan, malından Allah yolunda xərcləyən və sübh çağına yaxın bağışlanma diləyən kimsələrdir.**

---

[1] əl-Musnəd (15910). Hədis "Məcməuz-Zəvaid" kitabındadır (5/258). Müəllif hədisi qeyd etdikdən sonra demişdir: "Əhməd və ət-Təbərani ﵀ rəvayət etmişlər. Raviləri etibarlıdır". (Əhməd Şakir). Əhməd, 15883, 15939. Hədis zəifdir. Bax: Daif əl-Cami, 2926.

Bu ayədə Uca Allah, əməllərinə görə bol-bol savab vəd etdiyi təqvalı qullarını vəsf edərək buyurur: "**O kəslər ki: "Ey Rəbbimiz! Həqiqətən, biz iman gətirdik**", yəni Sənə, Kitabına və Peyğəmbərinə iman gətirdik, "**bizim günahlarımızı bağışla**", yəni Sənə və göndərdiyin dinə iman gətirdiyimizə görə geniş lütfünlə və mərhəmətinlə günahlarımızı və əməllərimizdəki qüsurları bağışla "**və bizi Od əzabından qoru!"– deyirlər**".

Sonra Uca Allah buyurur: "**onlar səbir edən**", yəni ibadətləri yerinə yetirməkdə və haramları tərk etməkdə səbir edən; "**doğru danışan**", yəni nəfslərinə çətin gələn əməlləri etməklə imanlarında doğru olduqlarını bildirən; "**müti olan**", yəni itaət edən; "**malından Allah yolunda xərcləyən**", yəni mallarından xərclənməsi əmr olunan bütün şeylərə – itaətlərə, qohum-əqrəbaya, yaxınlara və ehtiyac sahiblərinə xərcləyən "**və sübh çağına yaxın bağışlanma diləyən kimsələrdir**". Ayənin bu hissəsi gecənin son saatlarında Allahdan bağışlanma diləmənin fəzilətinə dəlalət edir. əl-Buxari və Muslimin "Səhih" əsərlərində, habelə "Musnəd" və "Sunən" əsərlərində çox sayda səhabədən müxtəlif yollarla rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: "Rəbbimiz ﷻ hər gecənin son üçdə birində dünya səmasına enir və buyurur: "Kim Mənə dua edir ki, Mən də onun duasını qəbul edim?! Kim Məndən istəyir ki, Mən də ona istədiyini verim?! Kim Məndən bağışlanma diləyir ki, Mən də onu bağışlayım?!"[1] əl-Hafiz əd-Dəraqutni رحمه الله bu hədisin rəvayət olunan yolları barədə ayrıca kitab yazmışdır.

əl-Buxari və Muslimin "Səhih" əsərlərində Aişədən رضي الله عنها belə rəvayət olunur: "Peyğəmbər ﷺ vitr namazını gecənin hər saatında – əvvəlində, ortasında və sonunda qılardı. Ömrünün sonuna yaxın isə gecənin son üçdə birində qılardı".[2] Rəvayət olunur ki, Abdullah ibn Ömər رضي الله عنهما gecə namazı qılardı. Sonra Nafiyə səslənərdi: "Ey Nafi, gecənin son üçdə biri girdimi?" Nafi: "Bəli" dedikdə, dan yeri sökülənə qədər dua edər və Allahdan bağışlanma diləyərdi".[3] Hədisi İbn Əbu Hatim رحمه الله rəvayət etmişdir.

[1] əl-Buxari, 1077, 1145; Muslim, 1261, 1808
[2] əl-Buxari, 941, 996 Muslim, 1232, 1772.
[3] əz-Zuheyli "Təfsirul-Munir" 3/175.

﴿ شَهِدَ ٱللَّهُ أَنَّهُۥ لَآ إِلَٰهَ إِلَّا هُوَ وَٱلۡمَلَٰٓئِكَةُ وَأُوْلُواْ ٱلۡعِلۡمِ قَآئِمَۢا بِٱلۡقِسۡطِۚ لَآ إِلَٰهَ إِلَّا هُوَ
ٱلۡعَزِيزُ ٱلۡحَكِيمُ ١٨ إِنَّ ٱلدِّينَ عِندَ ٱللَّهِ ٱلۡإِسۡلَٰمُۗ وَمَا ٱخۡتَلَفَ ٱلَّذِينَ أُوتُواْ ٱلۡكِتَٰبَ إِلَّا مِنۢ
بَعۡدِ مَا جَآءَهُمُ ٱلۡعِلۡمُ بَغۡيَۢا بَيۡنَهُمۡۗ وَمَن يَكۡفُرۡ بِـَٔايَٰتِ ٱللَّهِ فَإِنَّ ٱللَّهَ سَرِيعُ ٱلۡحِسَابِ ١٩
فَإِنۡ حَآجُّوكَ فَقُلۡ أَسۡلَمۡتُ وَجۡهِيَ لِلَّهِ وَمَنِ ٱتَّبَعَنِۗ وَقُل لِّلَّذِينَ أُوتُواْ ٱلۡكِتَٰبَ وَٱلۡأُمِّيِّـۧنَ
ءَأَسۡلَمۡتُمۡۚ فَإِنۡ أَسۡلَمُواْ فَقَدِ ٱهۡتَدَواْۖ وَّإِن تَوَلَّوۡاْ فَإِنَّمَا عَلَيۡكَ ٱلۡبَلَٰغُۗ وَٱللَّهُ بَصِيرُۢ بِٱلۡعِبَادِ ٢٠ ﴾

**18. Allah Özündən başqa ibadətə layiq olan məbudun olmadığına şahidlik etdi, mələklər və elm sahibləri də şahidlik etdilər. Allah əbədi olaraq ədalətli olmaqdadır. Ondan başqa ibadətə layiq olan məbud yoxdur, Qüdrətlidir, Müdrikdir.**

**19. Həqiqətən, Allah yanında qəbul olunan din, İslamdır! Kitab verilənlər ancaq özlərinə elm gəldikdən sonra aralarındakı zülm və həsəd üzündən ixtilafa düşdülər. Kim Allahın ayələrini inkar edərsə, bilsin ki, Allah tez haqq-hesab çəkəndir.**

**20. Əgər onlar səninlə mübahisə edərlərsə, de: "Mən özümü ardımca gələnlərlə birlikdə Allaha təslim etmişəm!" Kitab verilənlərə və savadsızlara isə de: "Siz də təslim oldunuzmu?" Əgər təslim olsalar, doğru yola yönəlmiş olarlar. Üz döndərsələr, bil ki, sənin öhdənə düşən ancaq haqqı təbliğ etməkdir. Allah qullarını görür.**

Uca Allah bu ayədə Özündən başqa ibadətə layiq olan məbudun olmadığına şahidlik etmişdir. Şahid olaraq Allah yetər, çünki O, ən doğru və ən ədalətli şahiddir, sözündə ən doğru olan da Odur. "**Allah Özündən başqa ibadətə layiq olan məbudun olmadığına şahidlik etdi**", yəni O, bütün varlıqların tək İlahıdır. Bütün varlıqlar Onun qulları və yaratdıqlarıdır və Ona möhtacdırlar. O isə heç kəsə möhtac deyil. Necə ki bir ayədə belə buyurur: "**Fəqət Allah sənə nazil etdiyinə şahiddir. O bu Quranı Öz elmi ilə nazil etmişdir. Mələklər də buna şahiddirlər. Şahid olaraq Allah kifayətdir**" ("ən-Nisa", 166). Sonra Uca Allah Öz şahidliyi ilə mələklərin və elm sahiblərinin şahidliyini yanaşı tutaraq buyurur: "**Allah Özündən başqa ibadətə layiq olan məbudun olmadığına şahidlik etdi, mələklər və elm sahibləri də şahidlik etdilər**". Bu məqamda alimlərin qeyd olunması onlar üçün çox əzəmətli bir özəllikdir. "**Allah əbədi olaraq ədalətli olmaqdadır**" ayəsində قَائِماً [qa:imən]

"əbədi olaraq" sözü bu məqamda halı (tərzi-hərəkət zərfi) ifadə etdiyi üçün təsirlik haldadır. Yəni bütün hallarda Allah ədalətlidir. Ayədəki "**Ondan başqa ibadətə layiq olan məbud yoxdur**" cümləsi isə əvvəlki cümləni ("**Allah Özündən başqa ibadətə layiq olan məbudun olmadığına şahidlik etdi**") gücləndirmək üçündür. "**Qüdrətlidir**"– heç bir böyüklük Ondan daha böyük ola bilməz; "**Müdrikdir**" sözlərində, etdiklərində, buyurduğu şəriət qanunlarında və təqdir etdiklərində hikmət sahibidir.

Uca Allah "**Həqiqətən, Allah yanında qəbul olunan din İslamdır!**" ayəsi ilə bildirir ki, heç kəsdən Onun qatında İslamdan başqa bir din qəbul edilməyəcəkdir. İslam Allahın göndərdiyi peyğəmbərlərin Allahdan gətirdiklərinə hər zaman tabe olmaqdır. Peyğəmbərlərin göndərilməsi Muhəmməd Peyğəmbər ﷺ ilə sona çatmışdır. Beləcə, Muhəmmədin ﷺ yolundan başqa Allaha tərəf gedən digər yolların hamısı bağlanmış oldu. Muhəmmədin ﷺ göndərilməsindən sonra kim onun şəriətindən başqa bir din ilə Allahın hüzuruna gələrsə, bu o kəsdən qəbul edilməyəcək. Necə ki başqa bir ayədə Uca Allah buyurur: "**İslamdan başqa bir din axtaran şəxsdən, o din heç vaxt qəbul olunmaz və o, axirətdə ziyana uğrayanlardan olar**" ("Ali-İmran", 85). Bu ayədə isə Uca Allah "**Həqiqətən, Allah yanında qəbul olunan din İslamdır!**" buyuraraq qəbul olunan dinin yalnız İslam olduğunu xəbər verir.

İbn Cərir رحمه الله qeyd etmişdir ki, İbn Abbas رضي الله عنهما ayədə keçən أَنَّهُ [ənnəhu] sözünü إِنَّهُ [innəhu] kimi, إِنَّ الدِّينَ [innəd-di:nə] ifadəsini isə أَنَّ الدِّينَ [ənnəd-di:nə] kimi oxumuşdur. Yəni Allah, Onun mələkləri və elm sahibləri Allah yanında qəbul olunan dinin İslam olduğuna şahidlik etdilər. Əksər qarilər isə belə oxumamışlar. Hər iki məna doğrudur, lakin əksər alimlərin qiraəti daha üstündür. Ən doğrusunu Allah bilir.[1]

Sonra Uca Allah əvvəl Kitab verilənlərin özlərinə peyğəmbərlər göndərilib, kitablar nazil edilməklə əleyhlərinə hüccət qaldırıldıqdan sonra fikir ayrılığına düşdüklərini xəbər verərək buyurur: "**Kitab verilənlər ancaq özlərinə elm gəldikdən sonra aralarındakı zülm və həsəd üzündən ixtilafa düşdülər**", yəni bir-birlərinə bəslədikləri həsəd, kin və düşmənçilik səbəbindən haqsızlıq etdilər və fikir ayrılığına düşdülər. Bəzilərinin digərlərinə olan kin və düşmənçiliyi

[1] İbn Abbasa رضي الله عنهما nisbət olunan bu qiraəti ət-Təbəri رحمه الله sənədi ilə rəvayət etməmişdir. Əksinə, bildirmişdir ki, bu qiraətin doğru və ya zəif olduğu məlum deyil. ət-Təbəri (6/268). (Əhməd Şakir).

onları qarşı tərəfin haqq olsa belə, hər söz və işinə qarşı çıxmağa sürüklədi. Sonra Uca Allah buyurur: "**Kim Allahın ayələrini inkar edərsə**", yəni kim Allahın Kitabında nazil etdiyi ayələri inkar etsə, "**bilsin ki, Allah tez haqq-hesab çəkəndir**". Həqiqətən, Allah buna görə onu cəzalandıracaq, ayələri yalan saydığına görə onu hesaba çəkəcək və Kitabına qarşı çıxdığına görə əzaba düçar edəcəkdir.

Uca Allah sonra belə buyurur: "**Əgər onlar səninlə mübahisə edərlərsə**", yəni əgər onlar səninlə Allahı ibadətdə təkləşdirmək mövzusunda mübahisə etsələr, "**de: "Mən özümü ardımca gələnlərlə birlikdə Allaha təslim etmişəm!**", yəni onlara de: "Mən ibadətimi, tək olan Allaha edirəm. Onun şəriki, bənzəri, övladı və yoldaşı yoxdur". Ayədə "**ardımca gələnlərlə birlikdə**" dedikdə, yəni "mənim dinimə tabe olanlarla və mənim dediyimi (Lə iləhə İlləllah) təsdiqləyənlərlə birlikdə" nəzərdə tutulur. Necə ki Uca Allah bu ayədə buyurur: "**De: "Bu, mənim yolumdur. Mən və mənə tabe olanlar, mötəbər dəlillərə əsasən, insanları Allaha tərəf çağırırıq. Allah pakdır, müqəddəsdir. Mən də müşriklərdən deyiləm**" ("Yusuf", 108).

Sonra Uca Allah qulu və elçisi Muhəmmədə ﷺ xaçpərəstləri, yəhudiləri və savadsız müşrikləri Allahın yoluna, dininə və göndərdiyi şəriətinə daxil olmağa dəvət etməyi əmr edərək buyurur: "**Kitab verilənlərə və savadsızlara isə de: "Siz də təslim oldunuzmu?" Əgər təslim olsalar, doğru yola yönəlmiş olarlar. Üz döndərsələr, bil ki, sənin öhdənə düşən ancaq haqqı təbliğ etməkdir**". Onları hesaba çəkmək isə Allaha aiddir. Onsuz da dönəcəkləri və qayıdacaqları yer Allahın hüzurudur. İstədiyini doğru yola yönəldən, istədiyini də azdıran Odur. Bunun hikməti Ona aiddir. Bu səbəbdən Uca Allah ayənin sonunda "**Allah qullarını görür**" buyurur. Yəni kimin hidayətə, kimin isə zəlalətə layiq olduğunu bilir. "**Allah gördüyü işlər üçün məsuliyyət daşımaz; onlar isə daşıyacaqlar**" ("əl-Ənbiya", 23). Bütün bunlar Onun hikmətinə və rəhmətinə görə baş verir. Bu və buna bənzər ayələr Muhəmməd peyğəmbərin ﷺ bütün məxluqata göndərilməsinə ən açıq dəlillərdəndir. Necə ki bu xüsus onun gətirdiyi dində zəruri olaraq aydın görünür və buna dəlalət edən ayə və hədislər də çoxdur. Bu mənada gələn ayələrdən: "**De: "Ey insanlar! Şübhəsiz ki, mən sizin hamınız üçün Allahın elçisiyəm**" ("əl-Əraf", 158); "**Aləmləri xəbərdar etməsindən ötrü Öz quluna Furqanı** (Quranı) **nazil edən Allah necə də xeyirxahdır!**" ("əl-Furqan", 1)

əl-Buxari və Muslimin "Səhih" əsərlərində və digər hədis kitablarında, müxtəlif hadisələrlə mutavatir dərəcəsinə yüksələn

hədislərə görə, Peyğəmbər ﷺ Allahın əmrini yerinə yetirərək ərəb və qeyri-ərəb, Kitab əhli və cahil olmasından asılı olmayaraq, bütün hökmdarlara və tayfalara məktublar göndərmiş və onları İslama dəvət etmişdir. Əbu Hureyra رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Canım Əlində olan Allaha and olsun ki, bu ümmətdən hər bir yəhudi və ya xristian mənim barəmdə eşidib, sonra da mənimlə göndərilənə iman gətirmədiyi halda ölərsə, mütləq Cəhənnəm əhlindən olar".[1] Hədisi Muslim رحمه الله rəvayət etmişdir.

Başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Mən qara və qırmızı dərili olmasından asılı olmayaraq bütün insanlara Peyğəmbər göndərilmişəm".[2] Həmçinin demişdir: "Məndən əvvəl Peyğəmbər xüsusi olaraq öz qövmünə göndərilərdi. Mən isə bütün insanlara göndərilmişəm".[3] İmam Əhməd رحمه الله Ənəsdən رضي الله عنه rəvayət etmişdir ki, yəhudi bir uşaq Peyğəmbərə ﷺ dəstəmaz (suyu) hazırlayar, ayaqqabılarını gətirərdi. Bir gün o, xəstələndi və Peyğəmbər ﷺ ona baş çəkməyə getdi. Atası onun baş tərəfində oturmuşdu. Peyğəmbər ﷺ ona dedi: "Ey filankəs, "lə iləhə iləllah" de!" Uşaq, yanında durmuş atasının üzünə baxdı. Atası susdu. Peyğəmbər ﷺ bunu bir daha təkrarladı. Uşaq yenə atasına baxdı. Atası dedi: "Əbul-Qasıma itaət et!" Uşaq "Şəhadət gətirirəm ki, Allahdan başqa haqq məbud yoxdur və sən Onun elçisisən" dedi və İslamı qəbul etdi. Sonra Peyğəmbər ﷺ onun yanından çıxdı və dedi: "Mənim səbəbimlə onu oddan xilas edən Allaha həmd olsun!"[4] Hədisi əl-Buxari رحمه الله rəvayət etmişdir. Peyğəmbərin ﷺ bütün insanlara göndərildiyinə dəlalət edən ayə və hədislər çoxdur.

﴿ إِنَّ ٱلَّذِينَ يَكۡفُرُونَ بِـَٔايَٰتِ ٱللَّهِ وَيَقۡتُلُونَ ٱلنَّبِيِّـۧنَ بِغَيۡرِ حَقّٖ وَيَقۡتُلُونَ ٱلَّذِينَ
يَأۡمُرُونَ بِٱلۡقِسۡطِ مِنَ ٱلنَّاسِ فَبَشِّرۡهُم بِعَذَابٍ أَلِيمٍ ٢١ أُوْلَٰٓئِكَ ٱلَّذِينَ حَبِطَتۡ أَعۡمَٰلُهُمۡ فِي
ٱلدُّنۡيَا وَٱلۡأٓخِرَةِ وَمَا لَهُم مِّن نَّٰصِرِينَ ٢٢ ﴾

**21. Allahın ayələrini inkar edənləri, peyğəmbərləri haqsız yerə öldürənləri və ədalətə çağıran insanları öldürənləri ağrılı-acılı bir əzabla müjdələ.**

**22. Onların əməlləri həm bu dünyada, həm də axirətdə heç olacaq, onların yardımçıları da olmayacaqdır.**

---

[1] Muslim, 218, 403.

[2] Əhməd, 14303, 14973, 19750. Hədis səhihdir. Bax: İrvaul-Ğalil, 1/316.

[3] əd-Dərimi, 1412. Hədis səhihdir. Bax: Səhih əl-Cami, 1056.

[4] əl-Buxari, 1268, 1356.

Bu ayədə Uca Allah Kitab əhlini həm əvvəllər, həm də indi peyğəmbərlər vasitəsilə onlara göndərdiyi ayələrini yalan saymaqla etdikləri günah və haram işlərə görə pisləyir. Belə etmələrinə səbəb isə peyğəmbərlərə qarşı təkəbbürlük və inadkarlıq göstərmələri, habelə haqqı qəbul etməkdən və ona tabe olmaqdan boyun qaçırmaları idi. Bununla belə, Allahın dinini onlara çatdıran peyğəmbərləri heç bir səbəb olmadan və heç bir cinayət işlətmədikləri halda, sadəcə, onları haqqa dəvət etdiklərinə görə öldürürdülər. "**Ədalətə çağıran insanları öldürənləri**"– bu isə təkəbbürlüyün ən son həddidir. Peyğəmbər ﷺ demişdir: "Təkəbbür haqqı danmaq və insanlara xor baxmaqdır".[1] Haqdan üz çevirib, insanlara qarşı təkəbbürlük etmələrinin qarşılığında Allah onları bu dünyada zillət və alçaqlıq, Axirətdə isə alçaldıcı əzabla cəzalandıracağını vəd edərək buyurur: "(Onları) **ağrılı-acılı bir əzabla müjdələ**", yəni alçaldıcı bir əzabla müjdələ. "**Onların əməlləri həm bu dünyada, həm də axirətdə heç olacaq, onların yardımçıları da olmayacaqdır**".

﴿أَلَمْ تَرَ إِلَى ٱلَّذِينَ أُوتُوا۟ نَصِيبًا مِّنَ ٱلْكِتَٰبِ يُدْعَوْنَ إِلَىٰ كِتَٰبِ ٱللَّهِ لِيَحْكُمَ بَيْنَهُمْ ثُمَّ يَتَوَلَّىٰ فَرِيقٌ مِّنْهُمْ
وَهُم مُّعْرِضُونَ ﴿٢٣﴾ ذَٰلِكَ بِأَنَّهُمْ قَالُوا۟ لَن تَمَسَّنَا ٱلنَّارُ إِلَّآ أَيَّامًا مَّعْدُودَٰتٍ ۖ وَغَرَّهُمْ فِى دِينِهِم
مَّا كَانُوا۟ يَفْتَرُونَ ﴿٢٤﴾ فَكَيْفَ إِذَا جَمَعْنَٰهُمْ لِيَوْمٍ لَّا رَيْبَ فِيهِ وَوُفِّيَتْ كُلُّ نَفْسٍ مَّا كَسَبَتْ
وَهُمْ لَا يُظْلَمُونَ ﴿٢٥﴾﴾

**23. Kitabdan özlərinə bir pay verilmiş kəsləri görmədinmi? Onlar aralarında hökm versin deyə Allahın Kitabına dəvət olunurlar, sonra da onlardan bir dəstə haqdan üz çevirir.**
**24. Bu onların "Od bizə ancaq bir neçə gün toxunar!" dəmələrinə görədir. Onları uydurduqları şeylər öz dinlərində aldadıb yoldan çıxartdı.**
**25. Baş verəcəyinə şübhə edilməyən bir gündə onları topladığımız və hər kəsə qazandığının əvəzi ödəniləcəyi, özlərinə də heç bir haqsızlıq edilməyəcəyi zaman onların halı necə olacaq?**

Uca Allah bu ayələrdə əllərində olan Tövrat və İncilə əsaslandıqlarını iddia edən yəhudi və xaçpərəstlərə etiraz edərək bildirir ki, onlar mühakimə olunmaq üçün Tövrat və İncildə Muhəmmədə ﷺ tabe olmaq barədə yazılmış Allahın əmrinə itaət etməyə çağırıldıqda

[1] Muslim, 131, 275.

öz kitablarından da üz çevirərək onu qəbul etmirlər. Bu onların nadanlığının ən son dərəcəsi, inadkar olmalarına və Allahın əmrlərinə qarşı çıxmalarına bir işarədir. Sonra Uca Allah buyurur: "**Bu onların "Od bizə ancaq bir neçə gün toxunar!" deməlməlrinə görədir**", yəni onları haqqa qarşı çıxmağa sürükləyən və buna cəsarətləndirən xüsus Allaha iftira ataraq dünyadakı hər min il qarşılığında bir gün olmaqla Cəhənnəmdə yalnız yeddi gün əzab çəkəcəklərini iddia etmələridir. Bunun təfsiri əl-Bəqərə surəsində artıq verilmişdir.

Sonra Uca Allah buyurur: "**Onları uydurduqları şeylər öz dinlərində aldadıb yoldan çıxartdı**", yəni etdikləri günahlara görə Cəhənnəm atəşinin onlara yalnız bir neçə gün toxunacağı barədə uydurduqları və Allahın bu barədə heç bir dəlil endirmədiyi boş iddiaları onları batil dinlərində sabit saxladı. Uca Allah onların bu iddialarına təhdidlə cavab verərək buyurur: "**Baş verəcəyinə şübhə edilməyən bir gündə onları topladığımız və hər kəsə qazandığının əvəzi ödəniləcəyi, özlərinə də heç bir haqsızlıq edilməyəcəyi zaman onların halı necə olacaq?**", yəni Allaha böhtan atdıqdan, peyğəmbərləri yalan sayıb onları və özlərindən olan alimləri, yaxşılığı əmr edib pislikdən çəkindirənləri öldürdükdən sonra halları necə olacaq? Allah bunların hamısını onlardan soruşacaq, onları hesaba çəkəcək və bu əməllərinə görə cəzalandıracaq. Bu səbəbdən Uca Allah buyurur: "**Baş verəcəyinə şübhə edilməyən bir gündə onları topladığımız**", yəni gələcəyinə heç bir şübhə olmayan bir gündə "**və hər kəsə qazandığının əvəzi ödəniləcəyi, özlərinə də heç bir haqsızlıq edilməyəcəyi zaman onların halı necə olacaq?**"

﴿ قُلِ ٱللَّهُمَّ مَـٰلِكَ ٱلْمُلْكِ تُؤْتِى ٱلْمُلْكَ مَن تَشَآءُ وَتَنزِعُ ٱلْمُلْكَ مِمَّن تَشَآءُ وَتُعِزُّ مَن تَشَآءُ وَتُذِلُّ
مَن تَشَآءُ ۖ بِيَدِكَ ٱلْخَيْرُ ۖ إِنَّكَ عَلَىٰ كُلِّ شَىْءٍ قَدِيرٌ ﴿٢٦﴾ تُولِجُ ٱلَّيْلَ فِى ٱلنَّهَارِ وَتُولِجُ ٱلنَّهَارَ فِى ٱلَّيْلِ ۖ
وَتُخْرِجُ ٱلْحَىَّ مِنَ ٱلْمَيِّتِ وَتُخْرِجُ ٱلْمَيِّتَ مِنَ ٱلْحَىِّ ۖ وَتَرْزُقُ مَن تَشَآءُ بِغَيْرِ حِسَابٍ ﴿٢٧﴾ ﴾

**26. De: "Ey mülkün sahibi Allahım! Sən istədiyin kəsə mülkü verir və istədiyindən də onu geri alırsan; istədiyin kimsəni yüksəldir və istədiyini də alçaldırsan. Xeyir yalnız Sənin Əlindədir. Həqiqətən, Sən hər şeyə qadirsən.**

**27. Sən gecəni gündüzə qatır, gündüzü də gecəyə qatırsan; ölüdən diri çıxarır, diridən isə ölü çıxarırsan. Sən istədiyin kəsə hesabsız ruzi verirsən".**

Uca Allah bu ayədə buyurur: "Ey Muhəmməd, Rəbbinə təzim edərək, Ona təvəkkül edərək, Ona şükür edərək, işlərini Ona həvalə edərək de ki: "**Ey mülkün sahibi Allahım!**", yəni bütün mülk Sənə məxsusdur. "**Sən istədiyin kəsə mülkü verir və istədiyindən də onu geri alırsan; istədiyin kimsəni yüksəldir və istədiyini də alçaldırsan**", yəni bəxş edən də Sənsən, geri alan da Sənsən. Sənin istədiyin baş verər, istəmədiyin isə baş verməz. Bu ayə Peyğəmbərə ﷺ və onun ümmətinə Allahın nemətlərinə şükür etməyin vacib olduğuna işarə edərək ümməti bu əmələ yönəldir. Uca Allah peyğəmbərliyi İsrail oğullarından alaraq Məkkəli, Qureyşli, yazıb-oxumağı bacarmayan, mənşəcə ərəb olan, bütün peyğəmbərlərin sonuncusu, həm də bütün insanlara və cinlərə Allahın elçisi olaraq göndərilmiş Muhəmmədə ﷺ verdiyinə görə onun ümmətini bu əmələ yönəltmişdir. Uca Allah onda özündən əvvəlki bütün peyğəmbərlərin gözəlliklərini cəm etmişdir. Uca Allah ona Özü və şəriəti barədə öyrətməklə, keçmiş və gələcək haqqında bəzi qeybi hadisələri və Axirətdə baş verəcək həqiqətləri bildirməklə, onun ümmətini bütün dünyaya yaymaqla, Qiyamətə qədər dinini digər bütün din və şəriətlərdən üstün etməklə heç bir peyğəmbərə vermədiyi xüsusiyyətləri vermişdir. Ta Qiyamətə kimi gecələr gündüzləri əvəz etdikcə ona Allahın salavatı və salamı olsun! Bu səbəbdən Uca Allah buyurur: "**De: "Ey mülkün sahibi Allahım!...**", yəni yaratdıqlarının üzərində tam hakim olan və istədiyini edən Sənsən. Necə ki Uca Allah Öz işləri barəsində fikir yürüdərək "**Nə üçün bu Quran iki şəhərdən** (Məkkədən və ya Taifdən) **olan böyük bir adama nazil edilmədi?**" ("əz-Zuxruf", 31) deyənlərin sözünü rədd edərək buyurur: "**Sənin Rəbbinin mərhəmətini onlarmı bölüşdürürlər? Biz dünya həyatında onların dolanışıqlarını aralarında bölüşdürdük. Biri digərini öz yanına işçi götürsün deyə, bəzilərinin dərəcələrini digərlərindən üstün etdik. Sənin Rəbbinin mərhəməti onların yığdıqlarından daha xeyirlidir**" ("əz-Zuxruf", 32), yəni biz yaratdıqlarımızı istədiyimiz kimi idarə edirik. Buna mane olacaq və qarşısını alacaq heç bir qüvvə ola bilməz. Bu işlərin hikməti və dəlili bizə aiddir. Həmçinin peyğəmbərliyi də istədiyimizə verərik. Necə ki bu xüsusda başqa bir ayədə belə buyurur: "**Allah peyğəmbərliyi kimə verəcəyini daha yaxşı bilir**" ("əl-Ənam", 124). "**Bax gör dünyada onların** (peyğəmbərlərin) **birini digərindən necə üstün etdik. Axirətdə isə daha böyük dərəcələr və daha böyük üstünlüklər vardır**" ("əl-İsra", 21).

Uca Allah buyurur: "**Sən gecəni gündüzə qatır, gündüzü də gecəyə qatırsan**", yəni birinin uzunluğundan götürüb, digərinin

qısalığına əlavə edirsən. Beləcə, nəhayət, onlar bərabərləşir. Sonra yenə birindən götürüb, o birinə verirsən və beləcə, onlar arasındakı bərabərlik pozulur, sonra yenə də təkrar bərabər olur. İlin fəsillərində də gecə və gündüz belə dəyişir. Bahar, yaz, payız və qış mövsümlərində bu dəyişmə eynilə davam edir.

Uca Allah buyurur: "**ölüdən diri çıxarır, diridən isə ölü çıxarırsan**", yəni meyvədən çəyirdək, çəyirdəkdən də meyə, toxumdan xurma, xurmadan da toxum, kafirdən mömin, mömindən də kafir, yumurtadan toyuq, toyuqdan da yumurta çıxarırsan. Bu hər şeydə beləcə cərəyan edir.

Uca Allah buyurur: "**Sən istədiyin kəsə hesabsız ruzi verirsən**", yəni istədiyinə saya bilməyəcəyi və saymağa gücü çatmayacağı qədər mal-dövlət verirsən. Digərlərininkini isə hikmətinin, iradənin, istəyinin və ədalətinin tələb etdiyi şəkildə qısırsan.

﴿لَّا يَتَّخِذِ ٱلْمُؤْمِنُونَ ٱلْكَٰفِرِينَ أَوْلِيَآءَ مِن دُونِ ٱلْمُؤْمِنِينَ ۖ وَمَن يَفْعَلْ ذَٰلِكَ فَلَيْسَ مِنَ ٱللَّهِ فِى
شَىْءٍ إِلَّآ أَن تَتَّقُوا۟ مِنْهُمْ تُقَىٰةً ۗ وَيُحَذِّرُكُمُ ٱللَّهُ نَفْسَهُۥ ۗ وَإِلَى ٱللَّهِ ٱلْمَصِيرُ ﴿٢٨﴾﴾

**28. Möminlər möminləri qoyub kafirləri dost tutmasınlar! Bunu edən kimsə bilsin ki, Allah ilə onun heç bir əlaqəsi yoxdur. Ancaq onlardan gələn təhlükədən çəkinməklə ehtiyat etməyiniz istisnadır. Allah sizi Özündən çəkindirir. Dönüş də ancaq Allahadır.**

Bu ayə ilə Uca Allah mömin qullarına möminləri qoyub kafirləri dost tutmağı, onlara mehribanlıq göstərib sirlərini açıb deməyi qadağan edir. Sonra Uca Allah belə edənləri təhdid edərək buyurur: **"Bunu edən kimsə bilsin ki, Allah ilə onun heç bir əlaqəsi yoxdur",** yəni kim bu mövzuda Allahın qadağasını pozarsa, Allah ilə heç bir əlaqəsi qalmaz. Həmçinin bu ayələrdə də deyilənlərə işarə var: **"Ey iman gətirənlər! Möminləri qoyub kafirləri özünüzə dost tutmayın. Yoxsa Allaha öz əleyhinizə açıq-aydın bir dəlil verməkmi istəyirsiniz?"** ("ən-Nisa", 144); **"Ey iman gətirənlər! Mənim düşmənimi də, öz düşməninizi də özünüzə dost tutmayın! Onlar sizə gələn həqiqəti inkar etdikləri halda, siz onlara mehribanlıq göstərib sirrinizi açıb deyirsiniz. Rəbbiniz olan Allaha iman gətirdiyiniz üçün onlar Peyğəmbəri və sizi yurdunuzdan qovub çıxardırlar. Əgər siz Mənim yolumda və Mənim razılığımı qazanmaq uğrunda cihada çıxmısınızsa, onlara gizlində mehribanlıq göstərməyin. Mən**

**sizin gizli saxladığınızı da, aşkar etdiyinizi də bilirəm. Sizlərdən kim bunu etsə, doğru yoldan sapmış olar**" ("əl-Mumtəhənə", 1); **"Ey iman gətirənlər! Yəhudi və xaçpərəstləri dost tutmayın! Onlar bir-birinin dostudurlar. Sizlərdən kim onları özünə dost tutarsa, o da onlardandır. Allah zalım adamları doğru yola yönəltməz"** ("əl-Maidə", 51). Uca Allah Quranda ərəblərdən iman gətirən mühacir və ənsarların bir-birləri ilə dostluqlarını zikr etdikdən sonra buyurur: "**Kafirlər də bir-birinə dostdurlar. Əgər siz bunu etməsəniz (bir-birinizə yardımçı olmasanız), yer üzündə fitnə və böyük bir fəsad baş verər**" ("əl-Ənfal", 73).

Uca Allah buyurur: "**Ancaq onlardan gələn təhlükədən çəkinməklə ehtiyat etməyiniz istisnadır**", yəni bəzi yerlərdə və vaxtlarda onların şərindən qorxanların niyyətdə deyil, üzdə özlərini dost göstərməklə onlardan gələn təhlükədən çəkinməsi və ehtiyat etməsi istisna haldır. Necə ki əl-Buxari ﷬ Əbu Dərdənin ﷛: "Biz (hicrətdən qabaq Məkkədə olarkən) bəzi kafirlərin üzlərinə gülərdik. Halbuki, qəlbimiz onları lənətləyərdi" dediyini nəql etmişdir. İbn Abbas ﷠ demişdir: "Kafirin şərindən ehtiyat etmək əməldə özünü dost kimi göstərməklə olmur, ancaq dildə olur". Əbul-Aliyə və başqaları ﷬ da bunu demişlər. Onların bu sözlərini Uca Allahın bu ayəsi gücləndirir: "**Qəlbi imanla sabit qaldığı halda haqqı danmağa məcbur edilən kəslər istisna olmaqla, kim iman gətirdikdən sonra Allahı inkar etsə və qəlbini küfrə açsa, Allahın qəzəbinə düçar olar. Onlar üçün böyük bir əzab vardır**" ("ən-Nəhl", 106). əl-Buxari əl-Həsən əl-Bəsridən ﷬ rəvayət etmişdir ki: "Kafirə üzdə yaxınlıq göstərməklə onun şərindən ehtiyat etmək Qiyamətə qədər icazəlidir".[1]

Sonra Uca Allah buyurur: "**Allah sizi Özündən çəkindirir**", yəni Allah sizi Öz əzabından, Ona qarşı çıxmaqdan, düşmənləri ilə dostluq, dostları ilə düşmənçilik edənlərə verəcəyi cəzadan çəkindirir.

Sonra Uca Allah buyurur: "**Dönüş də ancaq Allahadır**", yəni son qayıdacaq yer Onun hüzurudur və O hər kəsə əməlinin qarşılığını verəcəkdir. İbn Əbu Hatim ﷬ rəvayət edir ki, Amr ibn Məymun ﷬ demişdir: "(Bir dəfə) Muaz ibn Cəbəl ayağa qalxdı və bizə nəsihət edərək dedi: "Ey Əvd oğulları, mən Allah Rəsulunun ﷺ sizə göndərdiyi elçiyəm. Bilirsiniz ki, son dönüş yeriniz ya Cənnət, ya da Cəhənnəm olacaq".[2]

[1] əl-Buxari, İkrah Kitabı, 9/19.

[2] İbn Əbu Hatim, 1/194; əl-Hakim, 182. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 1668.

﴿ قُلۡ إِن تُخۡفُواْ مَا فِي صُدُورِكُمۡ أَوۡ تُبۡدُوهُ يَعۡلَمۡهُ ٱللَّهُۗ وَيَعۡلَمُ مَا فِي ٱلسَّمَٰوَٰتِ وَمَا فِي ٱلۡأَرۡضِۗ
وَٱللَّهُ عَلَىٰ كُلِّ شَيۡءٖ قَدِيرٞ ٢٩ يَوۡمَ تَجِدُ كُلُّ نَفۡسٖ مَّا عَمِلَتۡ مِنۡ خَيۡرٖ مُّحۡضَرٗا وَمَا عَمِلَتۡ مِن سُوٓءٖ
تَوَدُّ لَوۡ أَنَّ بَيۡنَهَا وَبَيۡنَهُۥٓ أَمَدَۢا بَعِيدٗاۗ وَيُحَذِّرُكُمُ ٱللَّهُ نَفۡسَهُۥۗ وَٱللَّهُ رَءُوفُۢ بِٱلۡعِبَادِ ٣٠ ﴾

**29. De: "Kökslərinizdə olanı gizlətsəniz də, üzə çıxarsanız da, Allah onu bilir. O, göylərdə və yerdə olanları da bilir. Allah hər şeyə qadirdir.**

**30. O gün ki hər kəs etdiyi yaxşı və pis əməlləri qarşısında hazır görəcək, özü ilə pis əməllərinin arasında çox böyük məsafə olmasını arzulayacaqdır. Allah sizi Özündən çəkindirir. Allah qullarına Şəfqətlidir".**

Uca Allah bu ayədə qullarına bildirir ki, gizlində və aşkarda olan, habelə qəlblərdən keçən hər şeyi bilir və heç bir sirr Ondan gizli qalmaz. Allahın elmi bütün hallarda, hər vaxt və hər an göylərdə və yerdə nə varsa, hamısını əhatə etmişdir. Yer üzünün hər hansı bir tərəfində, dənizlərdə və ya dağlarda zərrə qədər bir şey və ya bundan daha kiçik olan heç bir şey Allaha gizli deyil və "**Allah hər şeyə qadirdir**", yəni onun qüdrəti sonsuzdur.

Bu ayə ilə Uca Allah qullarına Ondan qorxmağı, qadağan etdiyi və xoşlamadığı şeyləri etməməyi buyurur, çünki Allah onların hər işindən xəbərdardır və etdikləri günahlara görə onları dərhal cəzalandırmağa qadirdir. O, qullarından bəzilərini etdikləri günahlara görə dərhal cəzalandırmır ki, onlara möhlət verib, sonra Qüvvət və Qüdrətinə layiq şəkildə əzabla yaxalasın. Bu səbəbdən Uca Allah sonrakı ayədə buyurur: "**O gün ki hər kəs etdiyi yaxşı və pis əməlləri qarşısında hazır görəcək, özü ilə pis əməllərinin arasında çox böyük məsafə olmasını arzulayacaqdır**", yəni Qiyamət günü qulun bütün əməlləri istər xeyir olsun, istər şər olsun – qarşısına gətiriləcək. Necə ki Uca Allah başqa bir ayədə buyurur: "**O gün insana əvvəllər etdiyi və sonraya saxladığı əməlləri barədə xəbər veriləcəkdir**" ("əl-Qiyəmə", 13). O gün bəndə yaxşı əməllərini gördükdə sevinib fərəhlənəcək, pis əməllərini gördükdə isə məyus olub hirslənəcək və bu əməllərdən uzaqlaşmağı, onlarla özü arasında çox böyük məsafə olmasını arzulayacaq. Necə ki dünyada onunla birlikdə olan və pis işlərə onu təşviq edən şeytanına deyəcək: "**Kaş ki mənimlə sənin aranda məşriqlə məğrib arasındakı uzaqlıq qədər məsafə olaydı. Sən nə pis yoldaş imişsən!**" ("əz-Zuxruf", 38).

Sonra Uca Allah sözünü qüvvətləndirməklə qullarını təhdid və xəbərdar edərək buyurur: "Allah sizi Özündən çəkindirir", yəni Allah sizi əzabı ilə qorxudur. Sonra isə qullarının Onun rəhmətindən və lütfündən ümid kəsməmələri üçün "Allah qullarına Şəfqətlidir" buyurur. əl-Həsən əl-Bəsri ﷺ demişdir: "Allah qullarına olan şəfqətindən dolayı onları Özündən çəkindirir".[1] Başqaları isə demişlər: "Yəni Allah yaratdıqlarına qarşı mərhəmətlidir. Onların doğru yolda, haqq dində sabit olmalarını və çox hörmətli Peyğəmbərinə ﷺ tabe olmalarını istəyir".

﴿ قُلْ إِن كُنتُمْ تُحِبُّونَ ٱللَّهَ فَٱتَّبِعُونِى يُحْبِبْكُمُ ٱللَّهُ وَيَغْفِرْ لَكُمْ ذُنُوبَكُمْ ۗ وَٱللَّهُ غَفُورٌ رَّحِيمٌ ﴿٣١﴾
قُلْ أَطِيعُوا۟ ٱللَّهَ وَٱلرَّسُولَ ۖ فَإِن تَوَلَّوْا۟ فَإِنَّ ٱللَّهَ لَا يُحِبُّ ٱلْكَـٰفِرِينَ ﴿٣٢﴾ ﴾

**31. De: "Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah Bağışlayandır, Rəhmlidir".**
**32. De: "Allaha və göndərdiyi Elçiyə itaət edin!" Əgər üz döndərərlərsə, şübhəsiz ki, Allah kafirləri sevməz.**

Bu ayə Muhəmmədin ﷺ yolunda olmadığı halda Allahı sevdiyini iddia edən hər kəsin sözlərində və əməllərində Muhəmmədin ﷺ şəriətinə və onun gətirdiyi dinə tabe olmadıqca iddiasında yalançı olduğunu bəyan edir. Necə ki "Səhih" əsərində Peyğəmbərin ﷺ belə dediyi sabitdir: "Hər kim bizim dinimizdə olmayan bir əməl edərsə, o, rədd olunur".[2] Bu səbəbdən Uca Allah "**De: "Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin**" buyurur. Yəni sizin Ona bəslədiyiniz sevgidən daha üstün olana – Allahın sizə olan sevgisinə nail olacaqsınız. Allahın sizi sevməsi sizin Allahı sevmənizdən daha böyükdür və daha əhəmiyyətlidir. Bəzi alimlər və müdrik insanlar demişlər: "Mühüm olan sənin sevməyin deyil, sevilməyindir".[3]

Sonra Uca Allah buyurur: "**və günahlarınızı bağışlasın. Allah Bağışlayandır, Rəhmlidir**", yəni Allahın Elçisinə ﷺ tabe olmağınızın müqabilində günahlarınızı bağışlasın. Bütün bunlar Muhəmmədin

---

[1] İbn Əbu Hatim, 3398.
[2] əl-Buxari və Muslim ﷺ Aişədən ﷺ rəvayət etmişlər. Hədisin mətni Muslimə ﷺ aiddir (2/42). Hədis "Qırx hədis" kitabında 5-ci hədisdir. (Əhməd Şakir). Muslim, 4590, 3243.
[3] Tantavi "Təfsirul-Vasit" 2/82.

peyğəmbər göndərilməsinin bərəkətindəndir. Sonra Uca Allah xüsusi və ümumi olaraq hər kəsə əmr edərək buyurur: "**De: "Allaha və göndərdiyi Elçiyə itaət edin!" Əgər üz döndərərlərsə**", yəni əgər Peyğəmbərin ﷺ əmrinə qarşı çıxsalar, "**şübhəsiz ki, Allah kafirləri sevməz**". Bu da dəlalət edir ki, Peyğəmbərin ﷺ yoluna müxalif olmaq küfrdür. Bu xüsusiyyətə malik olanlar hər nə qədər Allahı sevdiklərini və Ona yaxınlaşdıqlarını iddia etsələr də peyğəmbərlərin sonuncusu olan, yazıb-oxumağı bilməyən, Allahın bütün cinlərə və insanlara göndərmiş olduğu Elçisinə ﷺ tabe olmayana qədər Allah onları sevməyəcək. O peyğəmbər ki, nəbilər, rəsullar, hətta Ulul-Əzm (möhkəm iradə sahibləri) peyğəmbərlər[1] onun zamanında gəlmiş olsaydılar, ona və gətirdiyi dinə tabe olmaqdan başqa bir yol seçməzdilər. Bunun açıqlanması irəlidə Uca Allahın "**Bir zaman Allah peyğəmbərlərdən "Sizə Kitab və hikmət verdikdən sonra özünüzdəkini təsdiqləyən bir elçi gəldikdə ona mütləq inanıb yardım edəcəksiniz" deyə əhd almış və "Razısınızmı və Mənim bu əhdimi qəbul edirsinizmi?" demişdir. Onla "Razıyıq!" demişdilər. Allah da "Şahid olun, Mən də sizinlə bərabər şahid olanlardanam" demişdir**" ("Ali-İmran", 81) ayəsinin təfsirində Allahın izni ilə gələcək.

﴿ إِنَّ ٱللَّهَ ٱصۡطَفَىٰٓ ءَادَمَ وَنُوحٗا وَءَالَ إِبۡرَٰهِيمَ وَءَالَ عِمۡرَٰنَ عَلَى ٱلۡعَٰلَمِينَ ٣٣ ذُرِّيَّةَۢ بَعۡضُهَا مِنۢ بَعۡضٖۗ وَٱللَّهُ سَمِيعٌ عَلِيمٌ ٣٤ ﴾

**33. Allah Adəmi, Nuhu, İbrahimin nəslini və İmranın nəslini seçib aləmlərdən üstün etdi.**

**34. Onlar biri digərindən olan hənif bir nəsil idilər. Allah Eşidəndir, Biləndir.**

[1] Əzmkar və möhkəm iradə sahibləri olan peyğəmbərlər Ulul-Əzm peyğəmbərlərdir. Uca Allah Muhəmməd peyğəmbərə ﷺ buyurmuşdur: "**Elçilərdən möhkəm iradə sahiblərinin səbir etdiyi kimi, sən də səbir et!**" ("əl-Əhqaf", 35). Alimlər Ulul-Əzm peyğəmbərlərin sayının beş olduğunu söyləmişlər. Bunlar Nuh, İbrahim, Musa, İsa və Muhəmmədir (Allahın onlara salavatı və salamı olsun). Onların beşinin adı birlikdə Qurani-Kərimdə iki yerdə çəkilir. Onlardan birincisi, "əl-Əhzab" surəsindədir: "**Bir zaman Biz peyğəmbərlərdən əhd almışıq; səndən də, Nuhdan da, İbrahimdən də, Musadan da, Məryəm oğlu İsadan da! Biz onlardan möhkəm bir əhd almışıq**" ("əl-Əhzab", 7). İkinci ayə isə "əş-Şura" surəsindədir: "**Allah Nuha tövsiyə etdiyini, sənə vəhy etdiyimizi, İbrahimə, Musaya və İsaya tövsiyə etdiyimizi sizin üçün də dində qanun etdi: "Dinə doğru-düzgün etiqad edin və onda bölünüb firqə-firqə olmayın!" Sənin dəvət etdiyin tövhid müşriklərə ağır gəldi. Allah istədiyi kəsi Özü üçün seçər və Ona üz tutanı Özünə tərəf yönəldər**" ("əş-Şura", 13). Onların adlarının xüsusi olaraq qeyd olunması onların xüsusi şərəf və fəzilətə layiq olduqlarını göstərir.

Uca Allah bu ayədə qeyd etdiyi ailələri yer üzünün digər insanlarından üstün etdiyini xəbər verir. Uca Allah Adəmi عليه السلام üstün etdi, onu Əlləri ilə yaratdı, ona ruh üfürdü, mələkləri ona səcdə etdirdi, ona hər şeyin adlarını öyrətdi və onu Cənnətə yerləşdirdi. Sonra bir hikmətdən dolayı onu Cənnətdən yer üzünə endirdi.

Uca Allah Nuhu عليه السلام da üstün etdi. Allah insanların bütlərə ibadət edib, haqqında heç bir dəlil nazil etmədiyi şeyləri Ona şərik qoşduqları bir vaxtda onu insanlara ilk elçi olaraq göndərdi. O, qövmünü gecə-gündüz, gizli-aşkar Allahın dininə çağırdı. Onun çağırışı qövmünün küfrünü artırmaqdan başqa bir işə yaramayınca onlara bəddua etdi. Bu səbəbdən Uca Allah onun qisasını aldı və onların hamısını son nəfərə qədər suda boğdu. Allahın ona təbliğ etməyi əmr etdiyi dinə tabe olanlardan başqa heç kim xilas ola bilmədi.

Uca Allah İbrahimin عليه السلام ailəsini də üstün etdi. Bəşəriyyətin ağası, peyğəmbərlərin sonuncusu olan Muhəmməd ﷺ də bu ailədəndir.

İmranın ailəsini də üstün etdi. Burada İmran dedikdə İsanın anası Məryəmin atası olan İmran nəzərdə tutulur. İsa İbrahimin عليه السلام nəsilindəndir. Bu mövzu Allahın izni ilə “əl-Ənam” surəsində açıqlanacaqdır. Hər işimizdə Allaha pənah aparırıq.

﴿ إِذۡ قَالَتِ ٱمۡرَأَتُ عِمۡرَٰنَ رَبِّ إِنِّي نَذَرۡتُ لَكَ مَا فِي بَطۡنِي مُحَرَّرٗا فَتَقَبَّلۡ مِنِّيٓۖ إِنَّكَ أَنتَ ٱلسَّمِيعُ
ٱلۡعَلِيمُ ٣٥ فَلَمَّا وَضَعَتۡهَا قَالَتۡ رَبِّ إِنِّي وَضَعۡتُهَآ أُنثَىٰ وَٱللَّهُ أَعۡلَمُ بِمَا وَضَعَتۡ وَلَيۡسَ ٱلذَّكَرُ كَٱلۡأُنثَىٰۖ وَإِنِّي
سَمَّيۡتُهَا مَرۡيَمَ وَإِنِّيٓ أُعِيذُهَا بِكَ وَذُرِّيَّتَهَا مِنَ ٱلشَّيۡطَٰنِ ٱلرَّجِيمِ ٣٦ ﴾

**35. Bir zaman İmranın arvadı demişdi: “Ey Rəbbim! Mən bətnimdəkini Sənə xidmətkar qul olmaq üçün nəzir etdim. Məndən qəbul et! Həqiqətən, Sən Eşidənsən, Bilənsən”.**

**36. Ondan azad olduğu zaman demişdi: “Ey Rəbbim! Mənim qızım oldu” – Allah onun nə doğduğunu daha yaxşı bilirdi, – “axı oğlan qız kimi deyildir. Mən onun adını Məryəm qoydum, onu və onun nəslini lənətlənmiş şeytandan qorumağı Sənə həvalə edirəm”.**

İmranın arvadı dedikdə, Məryəmin anası nəzərdə tutulur. İbn İshaq رحمه الله demişdir: “O, övladı olmayan bir qadın idi. Bir dəfə övladı olmasını arzuladı və Allaha dua etdi ki, ona bir oğlan uşağı bəxş etsin. Allah onun duasını qəbul etdi. Qadın hamilə qaldığını yəqin bildikdə bətnində olanın Allaha “xidmətkar qul olmasını”, yəni ibadətə və Beytul-Məqdisin xidmətinə həsr edəcəyini nəzir etdi və belə dedi:

**"Ey Rəbbim! Mən bətnimdəkini Sənə xidmətkar qul olmaq üçün nəzir etdim. Məndən qəbul et! Həqiqətən, Sən Eşidənsən, Bilənsən"**, yəni duamı Eşidənsən, niyyətimi Bilənsən. O, bətnindəki uşağın oğlan, yoxsa qız olduğunu bilmirdi. "**Ondan azad olduğu zaman demişdi: "Ey Rəbbim! Mənim qızım oldu". Allah onun nə doğduğunu daha yaxşı bilirdi**". Bu ayədə وَضَعَتْ [vəda'ət] "**doğduğunu**" feilinin sonundakı (III şəxs qadın cinsinin təkini bildirən) تْ [ət] şəxs sonluğu, həmçinin birinci şəxsin təkini bildirən تُ [tu] şəxs sonluğu ilə وَضَعَتُ [vəda'ətu] "**doğduğumu**" kimi də oxunmuşdur. Belə olan təqdirdə son cümlə Məryəmin ﷺ anasının sözünün tamamı kimi, "Allah mənim nə doğduğumu daha yaxşı bilir" mənasını verir. وَضَعَتْ [vədaət] "**doğduğunu**" qiraətinə görə isə "**Allah onun nə doğduğunu daha yaxşı bilirdi**" cümləsi Allahın sözüdür. "**...axı oğlan qız kimi deyildir**", yəni ibadət və Məscidul-Aqsanın xidməti üçün güclü və dözümlü olmaqda oğlan qız kimi deyil. "**Mən onun adını Məryəm qoydum**". Bu ayədə uşağa doğulduğu gün ad qoymağın icazəli olmasına dəlil var. Necə ki ayənin zahirindən belə görünür, çünki bu bizdən əvvəlkilərin şəriətidir. Ayə isə bu hökmü təsdiqlədi. Peyğəmbərdən ﷺ gələn hədislərdə də bu öz təsdiqini tapmışdır. Belə ki Peyğəmbər ﷺ demişdir: "Bu gecə bir oğlum oldu və ona atam İbrahimin adını qoydum".[1] Hədisi əl-Buxari və Muslim رحمه الله rəvayət etmişlər.[2]

Uca Allah Məryəmin ﷺ anasının belə dediyini xəbər verir: "**Mən onun adını Məryəm qoydum, onu və onun nəslini lənətlənmiş şeytandan qorumağı Sənə həvalə edirəm**", yəni onu da, zürriyyəti olan oğlu İsanı da şeytanın şərindən Sənə sığındırıram. Allah Məryəmin ﷺ bu duasını qəbul etdi. Necə ki əl-Buxari və Muslim رحمه الله Əbu Hureyradan رضي الله عنه rəvayət etmişlər ki, Peyğəmbər ﷺ belə demişdir: "Elə bir körpə yoxdur ki, doğularkən şeytan ona toxunmuş olmasın. Şeytanın bu toxunuşu səbəbindən uşaq qışqıraraq ağlayır. Yalnız Məryəm və oğlu belə deyildilər". Sonra Əbu Hureyra رضي الله عنه belə dedi: "İstəsəniz, Uca Allahın "(Mən) **onu və onun nəslini lənətlənmiş şeytandan qorumağı Sənə həvalə edirəm**" sözünü oxuyun".[3]

---

[1] Muslim, 4279, 6167.

[2] Bu, Muslimin "Səhih" əsərində (2/213) Ənəsdən رضي الله عنه rəvayət olunan hədisin bir hissəsidir. Hədisi həmçinin əl-Buxari رحمه الله rəvayət etmişdir (3/138-140), lakin onun rəvayətində bu cümlə yoxdur. əl-Hafiz (İbn Həcər) "Fəthul-Bari" əsərində bildirmişdir ki, bu əlavə Muslimin رحمه الله rəvayətindədir. (Əhməd Şakir).

[3] əl-Buxari (8/159 Fəthul-Bari), Muslim (2/224), əl-Musnəd, 7182, 7694), ət-Təbəri (6884-6892) oxşar mətnlə rəvayət etmişlər. (Əhməd Şakir). əl-Buxari, 4184, 4548.

﴿ فَتَقَبَّلَهَا رَبُّهَا بِقَبُولٍ حَسَنٍ وَأَنۢبَتَهَا نَبَاتًا حَسَنًا وَكَفَّلَهَا زَكَرِيَّا ۖ كُلَّمَا دَخَلَ عَلَيۡهَا زَكَرِيَّا
ٱلۡمِحۡرَابَ وَجَدَ عِندَهَا رِزۡقًا ۖ قَالَ يَٰمَرۡيَمُ أَنَّىٰ لَكِ هَٰذَا ۖ قَالَتۡ هُوَ مِنۡ عِندِ ٱللَّهِ ۖ إِنَّ ٱللَّهَ يَرۡزُقُ مَن يَشَآءُ
بِغَيۡرِ حِسَابٍ ٣٧ ﴾

**37. Rəbbi onu yaxşı tərzdə qəbul etdi, onu gözəl bir bitki kimi yetişdirdi və Zəkəriyya onu himayəsinə aldı. Zəkəriyya hər dəfə onun yanına ibadətgaha daxil olduqda onun yanında ruzi olduğunu görərdi. O dedi: "Ey Məryəm! Bu sənin üçün haradandır?" Məryəm dedi: "Bu, Allah tərəfindəndir. Həqiqətən, Allah istədiyi kimsəyə hesabsız ruzi verir".**

Rəbbimiz bu ayədə Məryəmi عليها السلام anasının nəziri olaraq qəbul etdiyini xəbər verir. "**Onu gözəl bir bitki kimi yetişdirdi**", yəni Məryəmi suyuşirin və gözəl görünüşlü etdi. İstəklərinin qəbul olunmasını onun üçün asanlaşdırdı. Onu əməlisaleh qulları ilə birlikdə etdi ki, onlardan xeyri, elmi və dini öyrənsin. Uca Allah buna işarə edərək "**və Zəkəriyya onu himayəsinə aldı**" buyurur. Uca Allahın وَكَفَلَهَا زَكَرِيَّا [və kəfələhə Zəkəriyya] "**Zəkəriyya onu himayəsinə aldı**" sözü digər qiraətdə وَكَفَّلَهَا زَكَرِيَّا [və kəffələhə Zəkəriyya] "**və onu Zəkəriyyaya həvalə etdi**" kimi də gəlmişdir. Yəni Zəkəriyyanı Məryəmə عليها السلام himayəçi təyin etdi.[1]

İbn İshaq رحمه الله demişdir: "Məryəm yetim olduğu üçün Zəkəriyya ona zamin oldu". Allahın Zəkəriyyanı Məryəmə عليها السلام himayəçi təyin etməsi Məryəmin xoşbəxtliyi və Zəkəriyyadan عليه السلام çox sayda faydalı elmləri, yaxşı əməlləri öyrənib götürməsi üçün idi. Zəkəriyya İbn İshaq və İbn Cəririn رحمهما الله qeyd etdiklərinə görə, eyni zamanda Məryəmin عليها السلام xalasının əri idi. Məryəmin bacısının əri olduğu da deyilir. "Səhih" əsərində gələn hədisdə deyildiyi kimi, "Sonra qapılar açıldı. Mən içəri keçdikdə (orada) xala uşaqlarını – Yəhyanı və İsanı gördüm".[2] Ola bilsin ki, İbn İshaqın رحمه الله rəvayətinə görə, "xala" sözü daha geniş mənada işlənir. Bu rəvayətə görə, Məryəm عليها السلام xalasının himayəsində böyümüşdür.

---

[1] İkinci qiraət Yeddi mutəvatir qiraətçilərdən kufəlilərin qiraətidir. Yerdə qalan qarilər isə birinci qiraətlə oxumuşlar. Beləliklə, "Zəkəriyyə" sözü həm fail, həm də məful ola bilər. Buradan məlum olur ki, İbn Kəsir رحمه الله ayəni birinci qiraətlə وَكَفَلَهَا زَكَرِيَّا [və kəfələhə Zəkəriyyə] "**Zəkəriyya onu himayəsinə aldı**" kimi, daha sonra ikinci qiraəti nəql etmişdir. (Əhməd Şakir).

[2] əl-Buxari, 3207, 3887.

Sonra Uca Allah Məryəmin عليها السلام ibadət məqamında ucalığına işarə edərək "**Zəkəriyya hər dəfə onun yanına ibadətgaha daxil olduqda onun yanında ruzi olduğunu görərdi**" buyurur. Mucahid, İkrimə, Səid ibn Cubeyr və başqaları رحمهم الله belə təfsir etmişlər: "Zəkəriyya onun yanında qışda yaz meyvələri, yazda isə qış meyvələri görərdi". Bu ayədə Allahın dostlarının (övliyaların) kəramətlərinə dəlil var və hədislərdə buna bənzər rəvayətlər çoxdur. Zəkəriyya bunları Məryəmin عليها السلام yanında gördükdə "**Ey Məryəm! Bu sənin üçün haradandır?**" dedi. Yəni bunlar sənin üçün haradan gəlib? O da "**Bu, Allah tərəfindəndir. Həqiqətən, Allah istədiyi kimsəyə hesabsız ruzi verir**" deyə cavab verdi.

﴿هُنَالِكَ دَعَا زَكَرِيَّا رَبَّهُۥۖ قَالَ رَبِّ هَبۡ لِي مِن لَّدُنكَ ذُرِّيَّةٗ طَيِّبَةًۖ إِنَّكَ سَمِيعُ ٱلدُّعَآءِ ٣٨ فَنَادَتۡهُ
ٱلۡمَلَٰٓئِكَةُ وَهُوَ قَآئِمٞ يُصَلِّي فِي ٱلۡمِحۡرَابِ أَنَّ ٱللَّهَ يُبَشِّرُكَ بِيَحۡيَىٰ مُصَدِّقَۢا بِكَلِمَةٖ مِّنَ ٱللَّهِ وَسَيِّدٗا
وَحَصُورٗا وَنَبِيّٗا مِّنَ ٱلصَّٰلِحِينَ ٣٩ قَالَ رَبِّ أَنَّىٰ يَكُونُ لِي غُلَٰمٞ وَقَدۡ بَلَغَنِيَ ٱلۡكِبَرُ وَٱمۡرَأَتِي عَاقِرٞۖ
قَالَ كَذَٰلِكَ ٱللَّهُ يَفۡعَلُ مَا يَشَآءُ ٤٠ قَالَ رَبِّ ٱجۡعَل لِّيٓ ءَايَةٗۖ قَالَ ءَايَتُكَ أَلَّا تُكَلِّمَ ٱلنَّاسَ
ثَلَٰثَةَ أَيَّامٍ إِلَّا رَمۡزٗاۗ وَٱذۡكُر رَّبَّكَ كَثِيرٗا وَسَبِّحۡ بِٱلۡعَشِيِّ وَٱلۡإِبۡكَٰرِ ٤١﴾

**38. Elə oradaca Zəkəriyya Rəbbinə dua edərək dedi: "Ey Rəbbim! Öz tərəfindən mənə pak bir nəsil bəxş et! Şübhəsiz ki, Sən duaları Eşidənsən".**

**39. O, mehrabda durub namaz qılarkən mələklər onu çağırdılar: "Allah səni, Allah tərəfindən olan Kəlməni təsdiq edən, qövmünün ağası, nəfsinə hakim və əməlisalehlərdən bir peyğəmbər olacaq Yəhya ilə müjdələyir".**

**40. O dedi: "Ey Rəbbim! Qocalıq məni haqladığı vaxt, zövcəm də sonsuz ikən mənim necə oğlum ola bilər?" O dedi: "Allah beləcə istədiyini edər".**

**41. O dedi: "Ey Rəbbim! Mənim üçün bir əlamət təyin et". Allah dedi: "Sənin əlamətin üç gün insanlarla ancaq işarə ilə danışmaq olacaqdır. Həmin vaxtda Rəbbini çox yad et və səhər-axşam Onun şəninə təriflər de!"**

Zəkəriyya عليه السلام Uca Allahın Məryəmi yaz fəslində qış meyvələri ilə, qış fəslində isə yaz meyvələri ilə ruziləndirdiyini gördükdə bir

uşağı olmasını arzuladı. Bu vaxt o, sümükləri zəifləmiş, saçları ağarmış bir qoca, zövcəsi isə yaşlı və sonsuz bir qadın idi. Bütün bunlara baxmayaraq, Zəkəriyya Rəbbinə dua edib Onu gizlicə səslədi və dedi: "**Ey Rəbbim! Öz tərəfindən**", yəni Öz dərgahından "**mənə pak bir nəsil bəxş et!**", yəni əməlisaleh oğlan bəxş et! "**Şübhəsiz ki, Sən duaları Eşidənsən**". Uca Allah buyurur: "**O, mehrabda durub namaz qılarkən mələklər onu çağırdılar**", yəni o, mehrabda namaz qılarkən mələklər eşidə biləcəyi bir şəkildə ona səsləndilər. Sonra Uca Allah mələklərin ona verdiyi müjdəni xəbər verərək buyurur: "**Allah səni Allah tərəfindən olan Kəlməni təsdiq edən, qövmünün ağası, nəfsinə hakim və əməlisalehlərdən bir peyğəmbər olacaq Yəhya ilə müjdələyir**", yəni Allah səni sənin belindən gələcək və adı Yəhya olacaq bir oğlan uşağı ilə müjdələyir.

Uca Allah buyurur: "**Allah tərəfindən olan Kəlməni təsdiq edən**". İbn Abbas, əl-Həsən, Qatədə, İkrimə, Mucahid və başqaları ﷺ bu ayənin təfsirində demişlər: "Yəni Məryəm oğlu İsanı təsdiqləyən".[1]

Uca Allah buyurur: "...**qövmünün ağası...**" Əbul-Aliyə, Qatədə, Səid ibn Cubeyr və başqaları ﷺ demişlər: "Yəni hikmət sahibi". Qatədə ﷺ demişdir: "Yəni elmdə və ibadətdə qövmünün ağası". İbn Abbas, əs-Sovri və əd-Dahhak ﷺ demişlər: "Ağa hikmət sahibi və Allahdan qorxan kəsdir". Mucahid və başqaları ﷺ isə demişlər: "Allah yanında hörmətli olan deməkdir".

Uca Allah buyurur: "...**nəfsinə hakim**...". Rəvayət edilir ki, İbn Məsud, İbn Abbas, Mucahid, İkrimə, Səid ibn Cubeyr və başqaları ﷺ bu ayə barədə demişlər: "Yəni qadınlara yaxınlıq etməyən".[2]

Qadi İyad ﷺ "Şəfa" adlı əsərində belə demişdir: "Bil ki, Uca Allahın Yəhyanı tərifləyərək onu "nəfsinə hakim" adlandırması, bəzilərinin dediyi kimi, "şəhvətdən kəsilmiş və ya cinsiyyət orqanı olmaması" demək deyil. Bu cür sözlər böyük təfsirçilər və tənqidçi alimlər tərəfindən şiddətlə rədd edilmişdir. Onlar demişlər: "Bu, bir ayıb və əskiklikdir, peyğəmbərlərə belə sözlər demək yaraşmaz. "Nəfsinə hakim" dedikdə "günah işlətməkdən məsum olan" şəxs nəzərdə tutulur. Yəni sanki şəhvətdən kəsilmiş kimi günah işlətməz". Bu söz "Nəfsini şəhvətdən saxlayan" və "Qadınlara qarşı

---

[1] Yəni İsa ﷺ Allah tərəfindən deyilən bir kəlmə ilə yaradılmışdı. Uca Allah ona "Ol!" dedi. O da oldu. Bu mövzu Uca Allahın "**Ey Məryəm! Həqiqətən, Allah səni Öz tərəfindən adı Məryəm oğlu İsa Məsih olan bir kəlmə ilə müjdələyir**" ("Ali-İmran", 45) ayəsində açıqlanacaq. İbn Kəsir ﷺ burada bu ayəyə işarə etmiş, lakin açıq-aydın bildirməmişdir. (Əhməd Şakir).

[2] İbn Əbu Hatim, 3466.

bir istəyi olmayan" kimi də təfsir edilmişdir. Beləliklə, aydın olur ki, bir kişinin qadınlarla yaxınlıq etməyə gücü çatmaması, əslində, bir naqislikdir. Bir insanda bu hissin olması, sonra onu boğması həmin insan üçün fəzilət sayılır. Bu ya, İsada عليه السلام olduğu kimi, insanın özünün səyi ilə, ya da, Yəhyada عليه السلام olduğu kimi, Allahın bu hissdən onu qoruması ilə ola bilər. Şəhvət hissinə sahib olub, bununla belə üzərinə düşəni yerinə yetirən və bu hissin onu Rəbbinə ibadət etməkdən çəkindirməyən kimsənin dərəcəsi ən yüksək dərəcədir. Bu dərəcə Peyğəmbərimizin ﷺ dərəcəsidir. Zövcələrinin çox olması onu Rəbbinə ibadətdən yayındırmadı, əksinə, onları qorumaq, onların haqlarını ödəmək, onların ehtiyaclarını yerinə yetirmək və onların hidayət olunmasına səbəb olmaq onun Rəbbinə ibadətini daha da artırdı. Peyğəmbər ﷺ açıq-aşkar bildirmişdir ki, şəhvət hissi başqaları üçün dünya ləzzətlərindən olsa da, onun üçün dünya ləzzətlərindən deyildi. Peyğəmbər ﷺ demişdir: "Sizin dünyanızdan mənə (qadınlar) sevdirildi".[1] Bu, Qadi İyadın رحمه الله dedikləridir. Onun sözünün mənası budur ki, Uca Allah ayədə Yəhyanı tərifləyərək ona "nəfsinə hakim" deməklə "qadınlara yaxınlıq etməyən" nəzərdə tutmur, əksinə, burada Qadi İyad və başqalarının رحمهم الله dedikləri kimi, murdar əməllərdən və pisliklərdən uzaq olan nəzərdə tutulur. Onun belə adlanması evlənməsinə və övladının olmasına maneə deyildir. Hətta Zəkəriyyanın duasından Yəhyanın عليه السلام nəslinin olduğu başa düşülür. Belə ki Zəkəriyya عليه السلام duasında demişdi: "**Ey Rəbbim! Öz tərəfindən mənə pak bir nəsil bəxş et!**", yəni mənə nəsli və zürriyyəti olan bir uşaq bəxş et. Ən doğrusunu isə Pak və Uca Allah bilir.

Uca Allahın "...**və əməlisalehlərdən bir peyğəmbər**" sözünə gəlincə, bu, Yəhyanın عليه السلام doğulacağı müjdəsindən sonra onun eyni zamanda peyğəmbər olacağına işarə edən ikinci bir müjdədir. Bu müjdə birincidən daha böyükdür. Uca Allahın Musanın عليه السلام anasına dediyi kimi, "**Çünki Biz onu sənə qaytaracaq və onu elçilərimizdən biri edəcəyik**" ("əl-Qasas", 7). Zəkəriyya عليه السلام bu müjdəni aldıqda qoca yaşında övladının olacağından təəccüblənərək dedi: "**Ey Rəbbim! Qocalıq məni haqladığı vaxt, zövcəm də sonsuz ikən mənim necə oğlum ola bilər?**" Mələk dedi: "**Allah beləcə istədiyini edər**", yəni Allahın əmri beləcə böyükdür, heç bir şey Onu aciz qoya bilməz, heç bir iş Ona böyük və çətin gələ bilməz. Zəkəriyya عليه السلام dedi: "**Ey Rəbbim! Mənim üçün bir əlamət təyin et**", yəni, ey Rəbbim, mənim belimdən gələn uşağın olacağını anlaya bilməyim üçün mənə bir

[1] ən-Nəsəi "Sunən" 3879, 3940. Hədis səhihdir. Bax: Mişkətul-Məsabih, 5261.

əlamət ver. "**Allah dedi: "Sənin əlamətin üç gün insanlarla ancaq işarə ilə danışmaq olacaqdır**", yəni bütün əzaların sağlam olduğu halda danışa bilməyib, işarə ilə danışmağın sənin üçün bir əlamətdir. Başqa bir ayədə isə buyurur: "**Əlamətin budur ki, sən sağlam ikən üç gecə adamlarla danışmayacaqsan**" ("Məryəm", 10). Sonra Uca Allah Zəkəriyyaya ﵇ bu halda ikən Allahı yad etməyi, Ona şükür etməyi və Rəbbinin şəninə təriflər deməyi çoxaltmağı əmr edərək buyurur: "**Həmin vaxtda Rəbbini çox yad et və səhər-axşam Onun şəninə təriflər de!**" Bu mövzuda daha ətraflı məlumat Allahın izni ilə "Məryəm" surəsinin əvvəlində təkrar olunacaqdır.

﴿وَإِذۡ قَالَتِ ٱلۡمَلَٰٓئِكَةُ يَٰمَرۡيَمُ إِنَّ ٱللَّهَ ٱصۡطَفَىٰكِ وَطَهَّرَكِ وَٱصۡطَفَىٰكِ عَلَىٰ نِسَآءِ ٱلۡعَٰلَمِينَ ٤٢
يَٰمَرۡيَمُ ٱقۡنُتِي لِرَبِّكِ وَٱسۡجُدِي وَٱرۡكَعِي مَعَ ٱلرَّٰكِعِينَ ٤٣ ذَٰلِكَ مِنۡ أَنۢبَآءِ ٱلۡغَيۡبِ نُوحِيهِ إِلَيۡكَۚ وَمَا
كُنتَ لَدَيۡهِمۡ إِذۡ يُلۡقُونَ أَقۡلَٰمَهُمۡ أَيُّهُمۡ يَكۡفُلُ مَرۡيَمَ وَمَا كُنتَ لَدَيۡهِمۡ إِذۡ يَخۡتَصِمُونَ ٤٤﴾

**42. Bir zaman mələklər dedilər: "Ey Məryəm! Həqiqətən, Allah səni seçdi, təmizlədi və seçib aləmlərin qadınlarından üstün etdi.**
**43. Ey Məryəm! Rəbbinə itaət et, səcdə qıl və rukuya gedənlərlə birlikdə rukuya get!"**
**44. Bunlar qeyb xəbərlərindəndir ki, onu sənə vəhy edirik. Hansının Məryəmi himayə edəcəyi barədə qələmlərini püşk atdıqları zaman sən onların yanında deyildin. Bir-birlərilə mübahisə etdikdə də sən onların yanında deyildin.**

Bu ayələrdə Uca Allah mələklərin Məryəmə ﵇ müraciət edərək Allahın onlara əmr etdiyi sözləri Məryəmə çatdırmasını xəbər verir. Allah onu çox ibadət etdiyinə, zahidliyinə, iffətli olmasına, hər bir pislik və vəsvəsədən uzaq olmasına görə seçmişdir. Həmçinin onu dünya qadınlarından üstün etməklə ikinci dəfə seçmişdir. Abdur-Razzəq ﵀ rəvayət edir ki, Səid ibn əl-Museyyib ﵀ Uca Allahın "**Həqiqətən, Allah səni seçdi, təmizlədi və seçib aləmlərin qadınlarından üstün etdi**" ayəsi barədə demişdir: "Əbu Hureyra ﵁ Peyğəmbərin ﷺ belə dediyini nəql edərdi: "Dəvəyə minən qadınların (ərəb qadınlarının) ən xeyirlisi qureyşli qadınlardır. Onlar kiçik ikən uşaqlara çox qayğı göstərir və ərlərinin mal-dövlətini göz bəbəyi kimi qoruyurlar. İmranın qızı Məryəm isə heç vaxt dəvəyə minməmişdir".[1]

[1] əl-Buxari, 4946, 5365.

Rəvayət edilir ki, Əli ﷺ demişdir: "Mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: "Əvvəlki ümmətlərin qadınlarının ən xeyirlisi İmranın qızı Məryəmdir. Bu ümmətin qadınlarının ən xeyirlisi isə Xədicədir".[1] Hədisi əl-Buxari və Muslim "Səhih" əsərlərində rəvayət etmişlər.

ət-Tirmizi ﷺ Ənəsdən ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "(Ey Ənəs!) yer üzündəki qadınlardan İmranın qızı Məryəmin, Xuveylidin qızı Xədicənin, Muhəmmədin qızı Fatimənin və Fironun həyat yoldaşı Əsiyənin fəzilətini bilməyin sənə yetər".[2] Hədisi yalnız ət-Tirmizi ﷺ rəvayət etmişdir və səhih olduğunu bildirmişdir. əl-Buxari ﷺ Əbu Musa əl-Əşaridən ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Kişilərdən bir çoxları kamilliyə çatmışdır. Qadınlardan isə yalnız Fironun həyat yoldaşı Əsiyə və İmranın qızı Məryəm kamilliyə çatmışdır. Aişənin digər qadınlardan üstünlüyü isə ətli şorbanın başqa yeməklərdən üstünlüyü kimidir".[3] Hədisi Əbu Davuddan ﷺ başqa yerdə qalan beş hədis kitablarının müəllifləri rəvayət etmişlər. Hədisin mətni əl-Buxariyə ﷺ aiddir.

Sonra Uca Allah mələklərdən bəhs edir: Onlar Məryəmə ibadəti, itaəti, səcdə və ruku etməyi çoxaltmasını, dünya və Axirətdə dərəcəsinin yüksəlməsi üçün Allahın Öz qəza və qədəri ilə onu imtahana çəkmək istədiyi əməllərdə əzmkarlıq göstərməsini əmr etdilər. Uca Allah bununla Öz əzəmətli qüdrətini ortaya çıxaracaq, atasız bir uşaq yaradacaqdı. Uca Allah buyurur: "**Ey Məryəm! Rəbbinə itaət et, səcdə qıl və rukuya gedənlərlə birlikdə rukuya get!**" Ayədə keçən اَلْقُنُوتُ [əl-qunu:t] sözü mütiliklə itaət etmək deməkdir. Necə ki başqa bir ayədə Uca Allah bu kəlmədən istifadə edərək buyurur: "**Həqiqətən, göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Hər şey Ona baş əyir**" ("əl-Bəqərə", 116).

Uca Allah hadisəni bütün açıqlığı ilə Peyğəmbərinə ﷺ bildirdikdən sonra buyurur: "**Bunlar qeyb xəbərlərindəndir ki, onu sənə vəhy edirik**", yəni sənə danışırıq. "**Bir-birləri ilə mübahisə etdikdə də sən onların yanında deyildin**", yəni, ey Muhəmməd! Bu hadisələr baş verərkən sən onların yanında olub, gözlərinlə gördüyünü onlara xəbər vermirsən. Əksinə, bunları Allah sənə xəbər verdi. Daha çox savab qazanmaq üçün Məryəmi kimin himayəyə alması barədə püşk atdıqları zaman sanki sən onların yanında idin və baş verənlərə şahid idin.

[1] Muslim, 4458, 6424.

[2] ət-Tirmizi, 3878, 4252. Hədis səhihdir. Bax: Mişkətul-Məsabih, 6181.

[3] əl-Buxari, 3159, 3411.

﴿ إِذْ قَالَتِ ٱلْمَلَٰٓئِكَةُ يَٰمَرْيَمُ إِنَّ ٱللَّهَ يُبَشِّرُكِ بِكَلِمَةٍ مِّنْهُ ٱسْمُهُ ٱلْمَسِيحُ عِيسَى ٱبْنُ مَرْيَمَ وَجِيهًا
فِى ٱلدُّنْيَا وَٱلْءَاخِرَةِ وَمِنَ ٱلْمُقَرَّبِينَ ﴿٤٥﴾ وَيُكَلِّمُ ٱلنَّاسَ فِى ٱلْمَهْدِ وَكَهْلًا وَمِنَ ٱلصَّٰلِحِينَ ﴿٤٦﴾
قَالَتْ رَبِّ أَنَّىٰ يَكُونُ لِى وَلَدٌ وَلَمْ يَمْسَسْنِى بَشَرٌ ۖ قَالَ كَذَٰلِكِ ٱللَّهُ يَخْلُقُ مَا يَشَآءُ ۚ إِذَا قَضَىٰٓ أَمْرًا فَإِنَّمَا
يَقُولُ لَهُۥ كُن فَيَكُونُ ﴿٤٧﴾ ﴾

**45. O zaman mələklər dedilər: "Ey Məryəm! Həqiqətən, Allah səni Öz tərəfindən, adı Məryəm oğlu İsa Məsih olan bir kəlmə ilə müjdələyir. O bu dünyada və axirətdə şan-şöhrətli və Allaha yaxınlaşdırılmış kəslərdən olacaqdır.**

**46. O həm beşikdə ikən, həm də yetkin çağında insanlarla danışacaq və əməlisalehlərdən olacaqdır".**

**47. Məryəm dedi: "Ey Rəbbim! Mənə bir insan toxunmadığı halda necə övladım ola bilər?" O (mələk) dedi: "Allah beləcə istədiyini yaradır. O, bir işin olmasını istədikdə ona ancaq "Ol!" deyir, o da olur".**

Bu ayələrdə mələklər Məryəmi ﷺ dünyaya gətirəcəyi əzəmətli, böyük şan-şöhrətə sahib bir oğlan uşağı ilə müjdələyir. Uca Allah buyurur: "**O zaman mələklər dedilər: "Ey Məryəm! Həqiqətən, Allah səni Öz tərəfindən adı Məryəm oğlu İsa Məsih olan bir kəlmə ilə müjdələyir**", yəni Allahın "Ol!" deməsi ilə var olacaq bir oğlan uşağı ilə müjdələyir. Əvvəlki ayənin təfsirində bildirdik ki, əksər təfsirçilərin qeyd etdikləri kimi, bu ayə Uca Allahın "**Allah səni Allah tərəfindən olan Kəlməni təsdiq edən, qövmünün ağası, nəfsinə hakim və əməlisalehlərdən bir peyğəmbər olacaq Yəhya ilə müjdələyir**" ayəsinin təfsiridir. "**...adı Məryəm oğlu İsa Məsih olan**", yəni dünyada bu adla məşhur olacaq, möminlər onu bu adla tanıyacaqlar. Məsih adlandırılmasının səbəbinə dair bir çox rəylər var. Bəzi alimlər demişlər: "Çox səyahət etdiyi üçün". Bəziləri isə demişlər: "Ayaqlarının altı düz idi, pəncəsinin ortasında çuxur yox idi". Bəziləri isə demişlər: "Xəstə olanlara məsh çəkdikdə Allahın izni ilə sağalırdılar".

Atası olmadığı üçün Uca Allah İsanı anasına nisbət edərək ayədə "**Məryəm oğlu İsa**" kimi zikr etmişdir. "**O bu dünyada və axirətdə şan-şöhrətli və Allaha yaxınlaşdırılmış kəslərdən olacaqdır**", yəni Allahın ona şəriət vəhy etməsi, Kitab nazil etməsi və ona verdiyi bir

çox başqa üstünlüklərinə görə dünyada ikən Allah qatında üstün bir dərəcəyə çatacaq və şanı uca olacaqdır. Axirətdə isə Allah qatında Onun icazə verdiyi kəslərə şəfaət edəcək və Ulul-Əzm (möhkəm iradə sahibləri) peyğəmbərlərlə birlikdə Allah onun da şəfaətini qəbul edəcəkdir. Allahın salavatı onların üzərinə olsun!

Uca Allah buyurur: "**O həm beşikdə ikən, həm də yetkin çağında insanlarla danışacaq**", yəni İsa uşaq olarkən bir möcüzə və peyğəmbərliyinin əlaməti olaraq insanları Tək və şəriki olmayan Allaha ibadətə çağıracaq, yetkinlik yaşında isə Allahın ona vəhyi ilə yenə bu çağırışa davam edəcək. "... **və salehlərdən olacaqdır**", yəni İsa sözündə və əməlində salehlərdən olacaqdır. Onun elmi haqq, əməli isə salehdir. Məryəm عليها السلام Allahın bu müjdəsini mələklərdən aldıqda Allaha üz tutaraq belə dedi: "**Ey Rəbbim! Mənə bir insan toxunmadığı halda necə övladım ola bilər?**", yəni mənim ərim yoxdur, evlənməyi də düşünmürəm, Allah qorusun, zinakar da deyiləm, o halda necə uşağım ola bilər? Bu sualın cavabında mələk Allahın buyurduğunu ona çatdırdı: "**Allah beləcə istədiyini yaradır**". Allahın əmri beləcə böyükdür. Heç bir şey Onu aciz qoya bilməz.

Məryəmin عليها السلام hadisəsində mələk açıq-aşkar "**Allah beləcə istədiyini yaradır**" deyir, Zəkəriyyanın عليه السلام hekayəsində olduğu kimi, "**Allah beləcə istədiyini edər**" demir. Əksinə, burada aydın olaraq "**yaradır**" demişdir ki, batil əqidədə olanların şübhələrinə yer qalmasın. Üstəlik dediyini "**O, bir işin olmasını istədikdə ona ancaq "Ol!" deyir, o da olur**" sözü ilə gücləndirmişdir. Yəni heç bir şey gecikməz, əmr edən kimi dərhal var olar. Necə ki bu ayədə buyurur: "**Biz bircə dəfə əmr edirik, o da bir göz qırpımında yerinə yetir**" ("əl-Qamər", 50). Yəni Biz əmrimizi bir dəfə verərik, təkrar etmərik. O şey dərhal, bir göz qırpımında baş verər.

﴿وَيُعَلِّمُهُ ٱلْكِتَٰبَ وَٱلْحِكْمَةَ وَٱلتَّوْرَىٰةَ وَٱلْإِنجِيلَ ﴿٤٨﴾ وَرَسُولًا إِلَىٰ بَنِىٓ إِسْرَٰٓءِيلَ أَنِّى قَدْ
جِئْتُكُم بِـَٔايَةٍ مِّن رَّبِّكُمْ أَنِّىٓ أَخْلُقُ لَكُم مِّنَ ٱلطِّينِ كَهَيْـَٔةِ ٱلطَّيْرِ فَأَنفُخُ فِيهِ فَيَكُونُ طَيْرًۢا
بِإِذْنِ ٱللَّهِ ۖ وَأُبْرِئُ ٱلْأَكْمَهَ وَٱلْأَبْرَصَ وَأُحْىِ ٱلْمَوْتَىٰ بِإِذْنِ ٱللَّهِ ۖ وَأُنَبِّئُكُم بِمَا تَأْكُلُونَ وَمَا تَدَّخِرُونَ
فِى بُيُوتِكُمْ ۚ إِنَّ فِى ذَٰلِكَ لَءَايَةً لَّكُمْ إِن كُنتُم مُّؤْمِنِينَ ﴿٤٩﴾ وَمُصَدِّقًا لِّمَا بَيْنَ يَدَىَّ مِنَ ٱلتَّوْرَىٰةِ
وَلِأُحِلَّ لَكُم بَعْضَ ٱلَّذِى حُرِّمَ عَلَيْكُمْ ۚ وَجِئْتُكُم بِـَٔايَةٍ مِّن رَّبِّكُمْ فَٱتَّقُوا۟ ٱللَّهَ وَأَطِيعُونِ ﴿٥٠﴾
إِنَّ ٱللَّهَ رَبِّى وَرَبُّكُمْ فَٱعْبُدُوهُ ۗ هَٰذَا صِرَٰطٌ مُّسْتَقِيمٌ ﴿٥١﴾﴾

**48. Allah ona kitabı, hikməti, Tövratı və İncili öyrədəcək.**

**49. Allah onu İsrail oğullarına bir elçi edəcəkdir. O deyəcəkdir: "Mən sizə Rəbbinizdən elçi olduğumu təsdiqləyən bir əlamət gətirdim. Mən sizin üçün palçıqdan quşa bənzər bir şey düzəldib ona üfürərəm, o da Allahın izni ilə quş olar. Allahın izni ilə anadangəlmə koru, cüzam xəstəliyinə tutulanı sağaldar və ölüləri dirildərəm. Evlərinizdə yediyiniz və saxladığınız şeyləri sizə xəbər verərəm. Əgər möminsinizsə, şübhəsiz ki, bunda sizin üçün dəlil vardır.**

**50. Məndən əvvəl nazil olmuş Tövratı təsdiqləyici kimi və sizə haram edilmiş bəzi şeyləri halal etmək üçün göndərildim. Mən sizə Rəbbinizdən bir dəlil gətirdim. Allahdan qorxun və mənə itaət edin.**

**51. Həqiqətən, Allah mənim də Rəbbim, sizin də Rəbbinizdir. Ona ibadət edin! Çünki bu, düz yoldur".**

Uca Allah mələklərin Məryəmə oğlu İsanın ﷷ müjdəsinin tamamı olaraq bunları söylədiklərini xəbər verərək buyurur: "**Allah ona kitabı, hikməti, Tövratı və İncili öyrədəcək**". Burada "kitabı" dedikdə "yazmağı" nəzərdə tutulur, "hikmət" sözünün təfsiri isə "əl-Bəqərə" surəsində keçmişdir.[1] "**Tövratı və İncili öyrədəcək**" – Tövrat, Allahın İmran oğlu Musaya, İncil isə İsaya ﷷ endirdiyi kitabdır. İsa bu kitabların hər ikisini də əzbərləmişdi.

Uca Allah buyurur: "**Allah onu İsrail oğullarına bir elçi edəcəkdir"**, yəni Allah İsanı ﷷ İsrail oğullarına peyğəmbər olaraq göndərəcək və o onlara belə deyəcək: "**Mən sizə Rəbbinizdən elçi olduğumu təsdiqləyən bir əlamət gətirdim. Mən sizin üçün palçıqdan quşa bənzər bir şey düzəldib ona üfürərəm, o da Allahın izni ilə quş olar**". İsa ﷷ dediyi kimi də edərdi. Palçıqdan quş formasında bir şey düzəldərdi, sonra ona üfürərdi və o da Allahın izni ilə hər kəsin gözü qabağında uçardı. Allah bunu İsaya ﷷ, onun Allah tərəfindən göndərildiyini sübut etmək üçün möcüzə olaraq vermişdi.

"**Allahın izni ilə anadangəlmə koru, cüzam xəstəliyinə tutulanı sağaldar və ölüləri dirildərəm**". Bəzi təfsirçilər ayədə keçən الأَكْمَه [əl-əkməh] sözünün gündüzlər görən, axşamlar isə görməyən adam mənasında olduğunu demişlər. Bunun əksi də deyilmişdir. Bəziləri isə الأَكْمَه [əl-əkməh] sözünün anadangəlmə kor olanlara deyildiyini

[1] əl-Bəqərə surəsinin 129 və 151-ci ayələrində. Buna əsasən, "hikmət" dedikdə dini başa düşmək nəzərdə tutulur. (Əhməd Şakir).

söyləmişlər. Bu rəy daha doğrudur, çünki anadangəlmə korun sağaldılması daha ecazkar möcüzədir və qarşı tərəfi hədələmək üçün güclü səbəbdir. Ayədə keçən الأَبْرَص [əl-əbras] sözü isə hamıya məlum olan cüzam xəstəliyidir.

Uca Allah buyurur: "...**və ölüləri diriləddərəm**". Bir çox alimlər demişlər: "Allah hər peyğəmbəri yaşadığı dövrün insanlarına uyğun bir möcüzə ilə göndərmişdir. Məsələn: Musanın ﷺ dövründə yaşayan insanlar arasında sehr çox yayılmışdı və onlar sehrbazlara təzim edərdilər. Allah da ona elə bir möcüzə verdi ki, sehrbazlar heyrətdən donub qaldılar. Sehrbazlar bunun Əzəmətli və Qadir Allah tərəfindən bir möcüzə olduğunu dərk edincə iman gətirdilər və itaətkar kəslər oldular. İsaya ﷺ gəlincə, o tibb və təbiət elmlərinin inkişaf etdiyi bir dövrdə göndərilmişdi. Ona heç kəsin edə bilməyəcəyi bir möcüzə verildi. Bunu yalnız dini göndərən Allahın qüvvətləndirdiyi kəs edə bilərdi. Hansı həkim cansız əşyaları dirildə bilərdi, anadangəlmə koru və cüzam xəstəliyinə tutulanı müalicə edə bilərdi? Kim Qiyamətədək qəbrində girov olan ölünü dirildə bilərdi?

Həmçinin Muhəmməd ﷺ də fəsahətli, bəlağətli, görkəmli şairlərin olduğu bir dövrdə göndərilmiş və onlara Allahdan bir Kitab – Quran gətirmişdi. Elə bir kitab ki, onun bənzərini və ya on surəsinin bənzərini, yaxud bir surəsinin bənzərini gətirmək üçün bütün insanlar və cinlər toplaşıb, bir-birinə kömək etsələr də, gətirə bilməzlər. Çünki Allahın kəlamı əsla yaratdıqlarının kəlamına bənzəməz".

Uca Allah buyurur: "**Evlərinizdə yediyiniz və saxladığınız şeyləri sizə xəbər verərəm**", yəni sizdən birinin hal-hazırda evində yediyini və sabahı üçün saxladığını sizə xəbər verərəm. "**Əgər möminsinizsə, şübhəsiz ki, bunda**", yəni bütün bu dediklərimdə "**sizin üçün dəlil vardır**", yəni sizə gətirdiyim dinin haqq olmasına dəlillər vardır. "**Məndən əvvəl nazil olmuş Tövratı təsdiqləyici kimi və sizə haram edilmiş bəzi şeyləri halal etmək üçün göndərildim**". Bu ifadə dəlalət edir ki, İsa ﷺ Tövratın bəzi hökmlərini ləğv etmişdir. Bu, alimlərin dedikləri iki rəydən ən doğru olanıdır. Bəzi alimlər isə demişlər: "İsa ﷺ Tövratdan heç bir şeyi ləğv etməmişdir. Sadəcə, ixtilafa düşdükləri və səhv qərar verdikləri bəzi şeyləri halal etmiş və bu məsələlərdə qaranlıq qalan şeyləri açıqlamışdır. Necə ki başqa bir ayədə belə buyurulur: "**Mən sizə hikmət gətirmişəm və barəsində ziddiyyətə düşdüyünüz bəzi şeyləri izah etmək üçün gəlmişəm. Allahdan qorxun və mənə itaət edin!**" ("əz-Zuxruf", 63). Ən doğrusunu isə Allah bilir.

Sonra demişdir: "**Mən sizə Rəbbinizdən bir dəlil gətirdim**", yəni Rəbbimdən sizə söylədiklərimin doğru olduğuna dəlalət edəcək bir sübut gətirdim. "**Allahdan qorxun və mənə itaət edin. Həqiqətən, Allah mənim də Rəbbim, sizin də Rəbbinizdir. Ona ibadət edin!**", yəni Allaha ibadət etməkdə, Ona itaət edib əmrlərinə boyun əyməkdə sizinlə mənim aramda heç bir fərq yoxdur. Doğru yol da məhz budur. "**Çünki bu, düz yoldur**".

﴿ فَلَمَّآ أَحَسَّ عِيسَىٰ مِنْهُمُ ٱلْكُفْرَ قَالَ مَنْ أَنصَارِىٓ إِلَى ٱللَّهِ ۖ قَالَ ٱلْحَوَارِيُّونَ نَحْنُ أَنصَارُ
ٱللَّهِ ءَامَنَّا بِٱللَّهِ وَٱشْهَدْ بِأَنَّا مُسْلِمُونَ ﴿٥٢﴾ رَبَّنَآ ءَامَنَّا بِمَآ أَنزَلْتَ وَٱتَّبَعْنَا ٱلرَّسُولَ
فَٱكْتُبْنَا مَعَ ٱلشَّٰهِدِينَ ﴿٥٣﴾ وَمَكَرُوا۟ وَمَكَرَ ٱللَّهُ ۖ وَٱللَّهُ خَيْرُ ٱلْمَٰكِرِينَ ﴿٥٤﴾ ﴾

**52. İsa onlardakı küfrü hiss etdikdə dedi: "Allah yolunda kimlər mənə yardımçı olacaq?" Həvarilər dedilər: "Bizik Allahın dininin yardımçıları! Biz Allaha iman gətirdik. Sən də şahid ol ki, biz müsəlmanlarıq!**

**53. Ey Rəbbimiz! Biz sənin nazil etdiyinə iman gətirdik və göndərdiyin elçinin ardınca getdik. Bizi də şahidlərlə bir yerdə yaz!"**

**54. Onlar hiylə qurdular, Allah da hiylə qurdu. Allah hiylə quranların ən yaxşısıdır.**

Uca Allah buyurur: "**İsa onlardakı küfrü hiss etdikdə dedi**", yəni İsa onların (İsrail oğullarının) küfr etməkdə israrlı olduqlarını və davamlı zəlalət içində qalmağı seçdiklərini hiss etdikdə dedi: "**Allah yolunda kimlər mənə yardımçı olacaq?**" Mucahid ﷺ demişdir: "Yəni Allaha tərəf getməkdə kim mənə tabe olar?" Lakin ayədən görünən budur ki, İsa ﷺ belə deməklə "İnsanları Allah yoluna dəvət etməkdə mənə yardımçı olanlar kimlərdir?" nəzərdə tutmuşdur. Necə ki Peyğəmbər ﷺ hicrətdən əvvəl həcc mövsümündə belə deyərdi: "Rəbbimin Kəlamını təbliğ etməkdə kim mənə kömək edər? Həqiqətən, Qureyş Rəbbimin Kəlamını təbliğ etməyimə mane olur".[1] Nəhayət, ənsarları (Mədinə əhalisini) tapdı. Onlar Peyğəmbəri ﷺ qorudular, ona yardım etdilər və Peyğəmbər ﷺ onların yanına hicrət etdi. Onlar da onu qara və ya qırmızı dərili olmasından asılı olmayaraq hər kəsdən qorudular. Həmçinin İsrail oğullarından bir qrup Məryəm oğlu İsanın ﷺ dəvətini qəbul edib ona iman gətirdilər, ona dəstək olub yardım etdilər və Allahın ona nazil etdiyi nura tabe oldular.

[1] Əbu Davud, 4736. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 1947.

Bu səbəbdən Uca Allah onlar barədə xəbər verərək buyurur: "**Həvarilər dedilər: "Bizik Allahın dininin yardımçıları! Biz Allaha iman gətirdik. Sən də şahid ol ki, biz müsəlmanlarıq! Ey Rəbbimiz! Biz sənin nazil etdiyinə iman gətirdik və göndərdiyin elçinin ardınca getdik. Bizi də şahidlərlə bir yerdə yaz!**"

Onların "həvari" adlanmalarına gəlincə, bəzi alimlər "Onlar paltar ağartmaqla məşğul olduqları üçün belə adlanmışlar"; digərləri "Paltarları ağ olduğu üçün belə adlanmışlar"[1]; digərləri isə "Ovçu olduqları üçün belə adlanmışlar" demişlər. Doğru olan budur ki, "həvari" sözünün mənası "köməkçi" deməkdir. Necə ki əl-Buxari və Muslimin "Səhih" əsərlərində sabit olmuşdur ki, Peyğəmbər ﷺ Əhzab günü (Xəndək döyüşündə) insanlardan yardım istədikdə, əz-Zubeyr ؓ dərhal razılıq vermişdi, sonra bir daha onlardan yardım istədikdə yenə əz-Zubeyr ؓ yardım etmişdi. Bu səbəbdən Peyğəmbər ﷺ dedi: "Hər bir peyğəmbərin həvarisi (ən yaxın köməkçisi) olmuşdur. Mənim də həvarim əz-Zubeyrdir!"[2] İbn Əbu Hatim ؒ rəvayət etmişdir ki, İbn Abbas ؆ Uca Allahın "**Bizi də şahidlərlə bir yerdə yaz!**" ayəsi barədə demişdir: "Yəni bizi Muhəmməd ümməti ilə birlikdə yaz". Bu hədisin isnadı yaxşıdır.

Sonra Uca Allah İsrail oğullarından xəbər verərək bildirir ki, həvarilərin ona kömək etdiyi bir vaxtda yəhudilər İsanı öldürmək, ona pislik etmək və onu çarmıxa çəkmək istədilər. Bunun üçün öz dövrlərinin hökmdarına onun əleyhinə sözlər çatdırdılar. Bu hökmdar kafir idi. Onlar ona xəbər verdilər ki, burada bir nəfər insanları azdırır, onları hökmdara itaət etməkdən yayındırır, rəiyyəti parçalayır, ata ilə oğul arasına nifaq salır və sair bu kimi yalanlar uydurdular. Hətta onun zinakar bir qadının oğlu olduğunu belə söylədilər. Beləcə onlar hökmdarda İsaya ؑ qarşı qəzəb hissi oyatdılar. Hökmdar İsanı ؑ tutub gətirmək, ona cəza vermək və çarmıxa çəkmək üçün adamlarını göndərdi. Onlar İsanın evini mühasirəyə alıb onu ələ keçirdiklərini düşündükləri bir vaxtda Uca Allah İsanı ؑ onların aralarından çəkib xilas etdi və onu evin tavanındakı bir dəlikdən göyə qaldırdı. Allah evdə İsa ؑ ilə birlikdə olanlardan bir nəfəri İsaya bənzətdi. Onlar gecə evə girdikdə qaranlıqda o adamı İsa zənn edərək onu tutdular. Onu alçaldaraq çarmıxa çəkdilər. Başına (tac kimi) tikan qoydular. Bu,

---

[1] Bu fikirdə olan alimlər "həvari" sözünün ərəbcə حُوَّارَى [huvvə:ra] "təbaşir" sözünə uyğun gəlməsinə əsaslanmışlar.

[2] əl-Buxari, 2634, 2846.

Allahın onlara qurduğu bir hiyləsi idi. Allah Peyğəmbərini ﵇ onların arasından xilas etdi və onları öz azğınlıqları içərisində sərgərdan dolaşan vəziyyətdə tərk etdi. Onlar axtardıqlarını ələ keçirdiklərini zənn edirlər. Halbuki Allah onların qəlblərinə haqqa qarşı sərtlik və inadkarlıq qoymuş, etdikləri əməllərinə görə Qiyamətə qədər onlardan ayrılmayacaq bir rəzillik vermişdir. Bu səbəbdən Uca Allah ayədə “**Onlar hiylə qurdular, Allah da hiylə qurdu. Allah hiylə quranların ən yaxşısıdır**” buyurur.

﴿إِذۡ قَالَ ٱللَّهُ يَٰعِيسَىٰٓ إِنِّي مُتَوَفِّيكَ وَرَافِعُكَ إِلَيَّ وَمُطَهِّرُكَ مِنَ ٱلَّذِينَ كَفَرُواْ وَجَاعِلُ ٱلَّذِينَ
ٱتَّبَعُوكَ فَوۡقَ ٱلَّذِينَ كَفَرُوٓاْ إِلَىٰ يَوۡمِ ٱلۡقِيَٰمَةِۖ ثُمَّ إِلَيَّ مَرۡجِعُكُمۡ فَأَحۡكُمُ بَيۡنَكُمۡ فِيمَا كُنتُمۡ
فِيهِ تَخۡتَلِفُونَ ٥٥ فَأَمَّا ٱلَّذِينَ كَفَرُواْ فَأُعَذِّبُهُمۡ عَذَابٗا شَدِيدٗا فِي ٱلدُّنۡيَا وَٱلۡأٓخِرَةِۖ وَمَا لَهُم مِّن
نَّٰصِرِينَ ٥٦ وَأَمَّا ٱلَّذِينَ ءَامَنُواْ وَعَمِلُواْ ٱلصَّٰلِحَٰتِ فَيُوَفِّيهِمۡ أُجُورَهُمۡۗ وَٱللَّهُ لَا يُحِبُّ ٱلظَّٰلِمِينَ ٥٧
ذَٰلِكَ نَتۡلُوهُ عَلَيۡكَ مِنَ ٱلۡأٓيَٰتِ وَٱلذِّكۡرِ ٱلۡحَكِيمِ ٥٨﴾

**55. O vaxt Allah dedi: “Ey İsa! Mən sənin həyatına son qoyub Özümə tərəf qaldıracağam, səni kafirlərdən təmizləyəcək və sənin ardınca gedənləri Qiyamət gününə qədər kafirlərdən üstün edəcəyəm. Sonra sizin dönüşünüz Mənə olacaq. Mən də ixtilafa düşdüyünüz şeylər barəsində sizin aranızda hökm verəcəyəm.**
**56. Kafirlərə isə bu dünyada və axirətdə şiddətli əzab verəcəyəm. Onların köməkçiləri də olmayacaqdır”.**
**57. Allah iman gətirib saleh əməllər işlədənlərin mükafatlarını tam verəcəkdir. Allah zalımları sevmir.**
**58. Bunlar sənə oxuduğumuz ayələrdən və hikmətli Zikrdəndir.**

Təfsir alimləri Uca Allahın: “**Ey İsa! Mən sənin həyatına son qoyub Özümə tərəf qaldıracağam**” ayəsinin mənasında ixtilaf etmişlər. Qatədə və başqaları ﵀ demişlər: “Bu ayədə yerdəyişmə üslubu[1] var”. Bunu deyənlərə görə, ayənin mənası belədir: “Ey İsa! Mən səni əvvəl Özümə yüksəldib qaldıracağam, sonra isə (əcəlin çatdıqda) həyatına son qoyacağam”. İbn Abbas ﵄ demişdir: “**sənin həya-**

[1] Yerdəyişmə üslubu ərəblərin işlətdiyi bəlağət üslublarından biridir. Bu üsluba görə, əslində, əvvəldə gəlməli olan ifadə cümlənin sonunda, sonda gəlməli olan ifadə isə cümlənin əvvəlində işlənir. Bu üslubun işlənməsinin bir çox səbəbi var. Bu səbəblərdən biri də daha mühüm və diqqətə çatdırılmalı olanı önə çəkməkdir. Bu üslub Quranda da işlənmişdir. Buna misal “əl-Bəqərə” surəsinin 68 və 72-ci ayələrini misal gətirmək olar.

**tına son qoyub Özümə tərəf qaldıracağam**", yəni "öldürüb Özümə tərəf qaldıracağam". İbn İshaq ﷺ demişdir: "Xristianlar Allahın İsanı yeddi saat öldürüb sonra diriltdiyini iddia edirlər". Matar əl-Varraq ﷺ demişdir: "Ayənin mənası "Sənin dünya həyatına son qoyacağam" deməkdir. Öldürməklə həyatına son qoymaq demək deyil".[1] İbn Cureyc ﷺ də bu təfsiri demişdir: "Allahın İsanın həyatına son qoyması, onu qaldırmasıdır".

Əksər mufəssirlər isə demişlər: "Burada həyatına son qoymaq dedikdə yuxuya aparmaq nəzərdə tutulur". Necə ki Uca Allah başqa ayələrdə eyni feili "yatmaq" mənasında işlədərək buyurur: "**Gecələr sizi yatızdıran, gündüzlər isə nələr etdiyinizi bilən Odur**" ("əl-Ənam", 60). Başqa bir ayədə buyurur: "**Allah ölənlərin canını ölüm anında, ölməyənlərin canını isə onlar yuxuda ikən alır. Ölümünə hökm verdiyi kəsin canını saxlayır, digərini isə müəyyən olunmuş vaxtadək buraxır. Həqiqətən, bunda ağıl sahibləri üçün dəlillər vardır**" ("əz-Zumər", 42). Peyğəmbər ﷺ yuxudan oyandıqda deyərdi: "Bizi öldürdükdən sonra dirildən Allaha həmd olsun. (Ölüb dirildikdən sonra isə) qayıdış Onadır![2]"[3] Uca Allah buyurur: "**Onlar həm də küfr etdiklərinə və Məryəmə böyük bir böhtan dediklərinə görə, bir də: "Həqiqətən, biz Allahın elçisi Məryəm oğlu İsa Məsihi öldürdük!" dediklərinə görə lənətə düçar edildilər. Halbuki onu nə öldürdülər, nə də çarmıxa çəkdilər. Onlara ancaq İsanın bənzəri göstərildi. Şübhəsiz ki, bunda ixtilaf edənlər onun barəsində şəkk-şübhə içindədirlər. Bu haqda onların zənnə uymaqdan başqa heç bir məlumatı yoxdur. Onlar onu öldürdüklərinə yəqinliklə əmin deyillər. Əksinə, Allah onu Özünə tərəf qaldırmışdır. Allah Qüdrətlidir, Müdrikdir. Kitab əhlindən elə kimsə yoxdur ki, onun** (İsanın) **ölümündən əvvəl ona iman gətirməsin. Qiyamət günü isə İsa onların** (onu inkar edənlərin) **əleyhinə şahid olacaqdır**". ("ən-Nisa", 156-159)

Uca Allahın "**Kitab əhlindən elə kimsə yoxdur ki, onun** (İsanın) **ölümündən əvvəl ona iman gətirməsin**" ayəsində keçən "**onun ölümündən əvvəl**" ifadəsindəki əvəzlik İsaya ﷺ aiddir. Yəni Kitab əhlindən elə kimsə yoxdur ki, İsanın ölümündən əvvəl ona iman gətirməsin. Qarşıda ("ən-Nisa" surəsinin təfsirində) qeyd edəcəyimiz kimi, bu hadisə İsanın ﷺ Qiyamət qopmamışdan əvvəl yer üzünə endiyi vaxt olacaq. Bu zaman bütün Kitab əhli ona iman gətirəcək.

[1] ət-Təbəri, 7134.

[2] Transkripsiyası: Əlhəmdulillə:hil-ləzi əhyə:nə bə'də mə: əmə:tənə və ileyhin-nuşu:r.

[3] Hədisi əl-Buxari (6312) Huzeyfədən ﷺ rəvayət etmişdir. (Əhməd Şakir). əl-Buxari, 5837, 6312.

Çünki İsa ﷺ cizyəni[1] ləğv edəcək və İslamdan başqa heç bir din qəbul etməyəcək.[2]

Uca Allah buyurur: "...**səni kafirlərdən təmizləyəcək**", yəni səni səmaya qaldırmaqla kafirlərdən təmizləyəcək "**və sənin ardınca gedənləri Qiyamət gününə qədər kafirlərdən üstün edəcəyəm**". Belə də oldu. Uca Allah Məsihi (İsanı) ﷺ göyə qaldırdıqdan sonra onun əshabələri müxtəlif təriqətlərə ayrıldılar. Onlardan bir qismi Allahın ona göndərdiyi dinə iman gətirib onun Allahın qulu və elçisi, Allahın köləsinin (Məryəmin) oğlu olduğuna inanarkən, bəziləri hədlərini aşaraq İsanın Allahın oğlu olduğunu söylədilər. Başqa bir qrup "O, Allahdır", digərləri isə "O, üçlüyün üçüncüsüdür!" dedilər. Uca Allah bütün bu qrupların sözlərini Quranda nəql edərək hamısını rədd etmişdir. Xristianlar bu şəkildə təxminən üç yüz il davam etdikdən sonra, Konstantin adlı bir Yunan hökmdar çıxdı və xristian dinini qəbul etdi. Onun bir filosof olduğu və xristianlığı korlamaq məqsədilə bu dini qəbul etdiyi də deyilir. Bəziləri isə cahil olduqları üçün bu dini qəbul etdiyini demişlər. Konstantin Məsihin dinini dəyişdirib təhrif etdi, bu dinə artırmalar və azaltmalar etdi. Bu din üçün qanunlar qoydu və Böyük əmanəti (Papalığı) təyin etdi. Əslində isə bu əməl alçaq bir xainlik idi. Onun dövründə donuz əti halal edildi. İsa ﷺ üçün gündoğana tərəf namaz qılmağa başladılar, kilsələri onun şəkilləri ilə bəzədilər. Məsihin işlətdiyini zənn etdikləri bir günah səbəbi ilə orucu on gün artırdılar. Beləcə, Məsihin dini Konstantin dininə çevrildi. Bununla belə, Konstantin on iki mindən çox kilsə, monastır və ibadət yerləri tikdirdi. Öz adı ilə tanınan şəhəri qurdu (Konstantinopol). Kral ailəsindən bir toplum da ona tabe oldu. Beləliklə, xristianlar yəhudilərdən üstün oldular. Allah da onları yəhudilərə qarşı qüvvətli etdi, çünki xristianlar yəhudilərə nisbətən haqqa daha yaxın idilər. Baxmayaraq ki, onların hamısı kafirdir.

---

[1] Cizyə müsəlman dövlətinin himayəsi altında yaşayan qeyri-müsəlmanlardan alınan mal və ya can vergisidir.

[2] Bu məsələdə doğru olan rəy budur. ət-Təbəri ﷺ də bu rəyi doğru saymış və demişdir: "Ayənin mənası belədir: "Mən sənin yer üzündəki həyatına son qoyacağam və səni Özümə tərəf qaldıracağam". Peyğəmbərdən ﷺ bu rəyin doğru olmasını təsdiqləyən çox sayda hədislər varid olmuşdur. Bir hədisdə Peyğəmbər ﷺ demişdir: "(Qiyamətə yaxın) İsa yer üzünə nazil olub Dəccalı öldürəcək. Sonra bir müddət yer üzündə yaşayacaq". Peyğəmbər ﷺ bu müddəti qeyd etmişdir. Bu müddətin miqdarına dair müxtəlif rəvayətlər gəlmişdir. Sonra Peyğəmbər ﷺ sözünə davam edərək demişdir: "Sonra İsa vəfat edəcək və müsəlmanlar ona cənazə namazı qılıb dəfn edəcəklər". Sonra ət-Təbəri ﷺ demişdir: "Məlumdur ki, əgər Uca Allah onu bir dəfə öldürmüş olsaydı, ikinci dəfə də öldürməklə iki ölümü bir insanda cəm etməzdi". Bax: ət-Təbəri (6/458-460 Dərul-Məarif nəşri). (Əhməd Şakir).

Allah Muhəmmədi ﷺ elçi olaraq göndərdikdə ona iman gətirənlər Allaha, mələklərinə, kitablarına və peyğəmbərlərinə həqiqi bir şəkildə iman gətirmiş oldular və bununla da yer üzündəki bütün peyğəmbərlərə tabe olmuş oldular. Belə ki onlar Adəm övladlarının ağası, peyğəmbərlərin sonuncusu, yazıb-oxumaq bilməyən Peyğəmbəri ﷺ təsdiq etmişdilər. Bu Peyğəmbər ﷺ davamçılarını bütün haqq dinləri təsdiq etməyə çağırırdı. Beləliklə, müsəlmanlar, əvvəl gələn hər bir peyğəmbərə, onların dini və yolu üzərində olduqlarını zənn edən, lakin peyğəmbərlərinin gətirdiyi dini təhrif edib dəyişdirən ümmətlərindən daha yaxındırlar.

Hətta bu qeyd olunanlar olmasa belə, Allah Muhəmməd ﷺ vasitəsilə göndərmiş olduğu haqq dinlə digər bütün peyğəmbərlərin gətirdiyi şəriətləri qüvvədən salmışdır. Bu haqq din Qiyamətə qədər dəyişdirilməyəcək və həmişə digər dinlərdən üstün olaraq qalacaqdır. Bu səbəbdən Uca Allah bu dinə tabe olanlara yer üzünün gündoğanını və günbatanını açdı, beləcə onlar bütün ölkələrə sahib oldular, bütün dövlətlər onlara təslim oldu, Xosrovu (Fars imperatorunu) və Qeysəri (Rum imperatorunu) məhv etdilər, onların xəzinələrini ələ keçirib Allah yolunda xərclədilər. Uca Allah bunları Peyğəmbərinə ﷺ xəbər verərək buyurur: "**Allah sizlərdən iman gətirib yaxşı işlər görənlərə vəd etmişdir ki, özlərindən əvvəlkiləri varislər etdiyi kimi, onları da yer üzünün varisləri edəcək, möminlər üçün onların Özünün bəyəndiyi dinini möhkəmləndirəcək və onların qorxusunu sonra arxayınçılıqla əvəz edəcəkdir. Onlar Mənə ibadət edir və heç nəyi Mənə şərik qoşmurlar**" ("ən-Nur", 55). Muhəmmədə ﷺ iman gətirənlər eyni zamanda haqqı ilə Məsihə عليه السلام iman gətirmiş olduqları üçün Şam diyarını xristianlardan aldılar, onları Rum torpaqlarına qovdular. Onlar da şəhərləri olan Konstantinopola sığındılar. İslam və müsəlmanlar Qiyamətə qədər onlardan üstün olacaqlar. Peyğəmbər ﷺ sonda müsəlmanların mütləq Konstantinopolu fəth edəcəklərini, oranın var-dövlətini qənimət olaraq götürəcəklərini, rumları öldürəcəklərini ümmətinə xəbər vermişdir. Rumlarla müsəlmanlar arasında elə bir döyüş olacaq ki, bəşəriyyət nə bundan əvvəl, nə də sonra mislini görməmişdir. Mən bu mövzuda müstəqil bir risalə yazmışam. Bu səbəbdən Uca Allah buyurur: "**...sənin ardınca gedənləri Qiyamət gününə qədər kafirlərdən üstün edəcəyəm. Sonra sizin dönüşünüz Mənə olacaq. Mən də ixtilafa düşdüyünüz şeylər barəsində sizin aranızda hökm verəcəyəm. Kafirlərə isə bu dünyada və axirətdə şiddətli əzab verəcəyəm. Onların köməkçiləri də olmayacaqdır**".

Həqiqətən, Uca Allah Məsihi عليه السلام inkar edən yəhudilərə və İsa عليه السلام haqqında həddi aşaraq onu ilah dərəcəsinə qaldıran xristianlara dünyada öldürülməklə, əsir edilməklə, malları əllərindən alınmaqla və sürgün olunmaqla əzab vermişdir. Onların Axirətdəki əzabları isə, əlbəttə, daha şiddətli və daha məşəqqətli olacaq. "**Onları Allahdan qoruyan olmaz**" ("ər-Rad", 34); "**Allah iman gətirib saleh əməllər işlədənlərin mükafatlarını tam verəcəkdir**", yəni həm dünyada, həm də Axirətdə. Dünyada qələbə və zəfər çalmaqla, Axirətdə isə Cənnətin yüksək dərəcələrinə nail olmaqla. "**Allah zalımları sevmir**".

Sonra Uca Allah buyurur: "**Bunlar sənə oxuduğumuz ayələrdən və hikmətli Zikrdəndir**", yəni, ey Muhəmməd! İsa barədə, onun dünyaya gəlməsi və sonrakı vəziyyəti barədə bu izah etdiklərimiz Allahın sənə dediklərindən, vəhy etdiklərindən və Lövhi-Məhfuzdan endirdiklərindəndir. Bunda heç bir şəkk-şübhə yoxdur. Necə ki "Məryəm" surəsində buyurur: "**Barəsində şübhəyə düşdükləri haqq söz olan Məryəm oğlu İsa budur. Allaha övlad götürmək yaraşmaz. O, pak və müqəddəsdir! O, bir işin olmasını istədikdə ona ancaq "Ol!" deyər, o da dərhal olar**" ("Məryəm", 34-35).

﴿ إِنَّ مَثَلَ عِيسَىٰ عِندَ ٱللَّهِ كَمَثَلِ ءَادَمَ خَلَقَهُۥ مِن تُرَابٍ ثُمَّ قَالَ لَهُۥ كُن فَيَكُونُ ﴿٥٩﴾ ٱلْحَقُّ
مِن رَّبِّكَ فَلَا تَكُن مِّنَ ٱلْمُمْتَرِينَ ﴿٦٠﴾ فَمَنْ حَآجَّكَ فِيهِ مِنۢ بَعْدِ مَا جَآءَكَ مِنَ ٱلْعِلْمِ فَقُلْ تَعَالَوْا۟
نَدْعُ أَبْنَآءَنَا وَأَبْنَآءَكُمْ وَنِسَآءَنَا وَنِسَآءَكُمْ وَأَنفُسَنَا وَأَنفُسَكُمْ ثُمَّ نَبْتَهِلْ فَنَجْعَل لَّعْنَتَ ٱللَّهِ عَلَى
ٱلْكَٰذِبِينَ ﴿٦١﴾ إِنَّ هَٰذَا لَهُوَ ٱلْقَصَصُ ٱلْحَقُّ ۚ وَمَا مِنْ إِلَٰهٍ إِلَّا ٱللَّهُ ۚ وَإِنَّ ٱللَّهَ لَهُوَ ٱلْعَزِيزُ ٱلْحَكِيمُ ﴿٦٢﴾
فَإِن تَوَلَّوْا۟ فَإِنَّ ٱللَّهَ عَلِيمٌۢ بِٱلْمُفْسِدِينَ ﴿٦٣﴾ ﴾

**59. Həqiqətən, Allah yanında İsanın məsəli Adəmin məsəli kimidir. Allah onu torpaqdan yaratdı, sonra isə ona "Ol!" dedi, o da oldu.**

**60. Haqq sənin Rəbbindəndir. Elə isə heç vaxt şübhə edənlərdən olma.**

**61. Sənə bilik gəldikdən sonra kim səninlə İsanın barəsində mübahisə edərsə, de: "Gəlin oğullarımızı və oğullarınızı, qadınlarımızı və qadınlarınızı, özümüzü və özünüzü çağıraq, sonra isə dua edib yalançılara Allahın lənət etməsini diləyək".**

**62. Həqiqətən, bu, gerçək bir hekayətdir. Allahdan başqa ibadətə layiq olan məbud yoxdur. Şübhəsiz ki, Allah Qüdrətlidir, Müdrikdir.**

**63. Əgər onlar üz döndərsələr, şübhəsiz ki, Allah fitnə-fəsad törədənləri tanıyır.**

Uca Allah buyurur: "**Həqiqətən, Allah yanında İsanın məsəli Adəmin məsəli kimidir**", yəni Allahın yaratmağa qadir olması mövzusunda İsanın məsəli Adəmin məsəli kimidir. Belə ki Allah onu atasız yaratmışdı: "**Adəmin məsəli kimidir**"– çünki Allah Adəmi عليه السلام də anasız-atasız yaratmışdır. "**Allah onu torpaqdan yaratdı, sonra isə ona "Ol!" dedi, o da oldu**". Adəmi عليه السلام yaradan, şübhəsiz ki, İsanı عليه السلام da yaratmağa qadirdir. Atasız yaradılmış olduğu üçün İsanın Allahın oğlu olduğunu iddia etmək doğrudursa, bu iddia Adəm عليه السلام barədə daha doğrudur. Bilindiyi kimi, belə demək yekdilliklə batildir. O halda İsanın عليه السلام Allahın oğlu olduğu iddiası da batildir və bu iddianın fəsadı son dərəcə aydındır. Uca Allah Adəmi عليه السلام kişi və qadın olmadan, Həvvanı qadın olmadan tək kişidən, İsanı isə kişi olmadan tək qadından yaratmaqla Öz qüdrətini yaratdıqlarına göstərmək istəmişdir. Digər insanları da kişi və qadından yaratdı. Bu səbəbdən Uca Allah "Məryəm" surəsində "**Biz onu insanlar üçün bir möcüzə və Öz tərəfimizdən bir mərhəmət edəcəyik**" buyurur. Burada isə belə buyurur: "**Haqq sənin Rəbbindəndir. Elə isə heç vaxt şübhə edənlərdən olma**", yəni İsa barədə bu deyilənlər inkar edilməyən haqdır. Bu barədə bundan savayı doğru söz yoxdur. Haqdan sonra zəlalətdən başqa nə ola bilər?

Sonra Uca Allah Peyğəmbərinə ﷺ hər şey açıqlığı ilə ortaya çıxdıqdan sonra İsa عليه السلام barədə haqqa qarşı inadkarlıq edənləri qarşılıqlı lənətləşməyə çağırmağı əmr edərək buyurur: "**Sənə bilik gəldikdən sonra kim səninlə İsanın barəsində mübahisə edərsə, de: "Gəlin oğullarımızı və oğullarınızı, qadınlarımızı və qadınlarınızı, özümüzü və özünüzü çağıraq**", yəni qarşılıqlı lənətləşmədə onların hamısını gətirək, "**sonra isə dua edib**", yəni lənətləşək və "**yalançılara Allahın lənət etməsini diləyək**", yəni sizdən və ya bizdən yalançıların üzərinə Allahın lənətinin olmasını diləyək.

"Lənətləşmə" ayəsinin və bu ayədən əvvəlki ayələrin, yəni surənin əvvəlindən bu ayəyə qədər olan ayələrin nazilolma səbəbi Nəcran qəbiləsinin nümayəndələri olmuşdur. Bu qəbilədən olan xristianlar Peyğəmbərin ﷺ yanına gəlib İsa عليه السلام barədə mübahisə etməyə başladılar. Onlar İsanın عليه السلام Allahın oğlu və ilah olduğunu iddia edirdilər. Bu səbəbdən Uca Allah bu surənin əvvəlini onlara cavab olaraq endirdi. əl-Buxari رحمه الله Huzeyfədən رضي الله عنه rəvayət etmişdir: "Bir dəfə Nəcran əhlinin böyüklərindən olan Aqib və Seyyid Peyğəmbərin ﷺ yanına gedib İsanın عليه السلام peyğəmbər deyil, Allahın oğlu olduğunu

sübuta yetirmək üçün əvvəlcə and içib, sonra da yalançılara lənət diləmək istədikdə onlardan biri digərinə dedi: "Belə etmə! Vallahi, əgər o peyğəmbərdirsə, bu lənətdən sonra nə biz, nə də sonrakı nəslimiz nicat tapacaq". Sonra onlar Peyğəmbərin ﷺ yanına gəlib dedilər: "Bizdən nə qədər cizyə istəsən, sənə istədiyini verəcəyik. Amma gərək bizimlə etibarlı adam göndərəsən. Bax ha, ancaq etibarlı adam olsun". Peyğəmbər ﷺ buyurdu "Mən sizinlə, həqiqətən də, ən etibarlı olan bir adam göndərəcəyəm". Onda Peyğəmbərin ﷺ əshabələrindən hər biri bu işin ona tapşırılmasını təmənna etdi. Peyğəmbər ﷺ dedi: "Qalx, ey Əbu Ubeydə ibn əl-Cərrah!" Əbu Ubeydə ayağa qalxdıqda Peyğəmbər ﷺ buyurdu: "Bu kişi bu ümmətin ən etibarlı adamıdır".[1] Hədisi Muslim, ət-Tirmizi, ən-Nəsəi və İbn Məcə oxşar mətnlərlə rəvayət etmişlər.[2] Həmçinin hədisi İmam Əhməd, ən-Nəsəi və İbn Məcə İbn Məsuddan oxşar mətnlə rəvayət etmişlər.[3]

İmam Əhməd İbn Abbasın belə dediyini rəvayət etmişdir: "Bir dəfə Əbu Cəhl dedi: "Muhəmmədi Kəbədə namaz qılan görsəm, gəlib ayağımla boynunu tapdalayacağam". Bu söz Peyğəmbərə ﷺ xəbər verildikdə o dedi: "Əgər belə etsəydi, mələklər onu hamının gözü qabağında parça-parça edərdilər! Əgər yəhudilər özlərinə ölüm diləsəydilər, dərhal ölərdilər və Cəhənnəmdəki yerlərini görərdilər.[4] Allahın Elçisi ilə lənətləşməyə çıxanlar bunu etsəydilər, qayıtdıqdan sonra nə mallarını, nə də ailələrini tapa bilməzdilər".[5] Hədisi ət-Tirmizi rəvayət etmiş və "həsən-səhih" olduğunu bildirmişdir.[6]

Nəticə olaraq, Nəcran qəbiləsinin gəlişi hicrətin doqquzuncu ilində olmuşdur, çünki əz-Zuhri belə demişdir: "Peyğəmbərə ﷺ ilk cizyə verənlər Nəcran qəbiləsi olmuşdur. Cizyə ayəsi isə Məkkənin fəthindən sonra nazil olmuşdur. Cizyə ayəsi Uca Allahın bu sözüdür: **"Kitab**

[1] əl-Buxari, 4029, 4380.

[2] əl-Buxari (8/73-74 Fəthul-Bari), Muslim müxtəsər olaraq (2/241), həmçinin Əhməd (5/385, 398 Hələbi nəşri) müxtəsər olaraq rəvayət etmişlər. (Əhməd Şakir).

[3] Hədis əl-Musnəd (3930) əsərində tam şəkildə gəlmişdir. (Əhməd Şakir).

[4] Burada Uca Allahın bu ayələri nəzərdə tutulur: "**De: "Əgər Allah yanında Axirət yurdu digər insanlara deyil, yalnız sizin üçün hazırlanıbsa və doğru deyirsinizsə, onda özünüzə ölüm diləyin!" Onlar öz əllərinin etdiyinə görə bunu heç vaxt diləməzlər. Allah zalımları tanıyır**" ("əl-Bəqərə", 94-95).

[5] ət-Tirmizi, 3348, 3671. Hədis səhihdir. Bax: Sahih Siratun-Nəbəviyyə, 1/144.

[6] əl-Musnəd (2225, 2226). Kitabın çap olunmuş nüsxəsində əlavə olaraq hədis əl-Buxariyə nisbət olunmuşdur. Lakin əlyazmada bu əlavə yoxdur. əl-Buxari bu hədisi tam deyil, yalnız müxtəsər olaraq Əbu Cəhl ilə əlaqəli hissəni rəvayət etmişdir (8/557). Əhməd də belə rəvayət etmişdir (3483). (Əhməd Şakir).

**verilənlərdən Allaha və Axirət gününə iman gətirməyən, Allahın və Onun Elçisinin haram buyurduğunu haram saymayan və həqiqi din olan İslama etiqad etməyənlərlə zəlil günə qalıb öz əlləri ilə cizyə verməyə məcbur oluncaya qədər vuruşun!"**[1] ("ət-Tövbə", 29).

İbn Mərdəveyh əş-Şabidən ﷺ rəvayət etmişdir ki, Cabir ﷺ demişdir: "Nəcran qəbiləsinin böyüklərindən olan Aqıb və Tayyib adlı iki şəxs Peyğəmbərin ﷺ yanına gəldilər. Peyğəmbər ﷺ onlarla İsa barədə mübahisə etdikdən sonra inadkarlıq göstərdikləri üçün onları lənətləşməyə çağırdı. Onlar da ertəsi gün lənətləşməyə razılaşdılar. Ertəsi gün Peyğəmbər ﷺ Əli, Fatimə, Həsən və Hüseynin ﷺ əlindən tutaraq gəldi və gəlmələri üçün onlara xəbər göndərdi. Lakin onlar gəlmədilər və cizyə verməyi qəbul etdilər. Peyğəmbər ﷺ dedi: "Məni haqq olaraq göndərən Allaha and olsun ki, əgər "xeyr" desəydilər, bu vadi başlarına od yağdırardı". Cabir ﷺ dedi: "Uca Allahın "Gəlin oğullarımızı və oğullarınızı, qadınlarımızı və qadınlarınızı, özümüzü və özünüzü çağıraq, sonra isə dua edib yalançılara Allahın lənət etməsini diləyək" ayəsi məhz onlar üçün nazil oldu". Cabir ﷺ (sözünə davam edərək) dedi: "Ayədə "özümüzü və özünüzü" dedikdə Peyğəmbər ﷺ və Əli ibn Əbu Talib, "oğullarımızı və oğullarınızı" dedikdə Həsən və Hüseyn, "qadınlarımızı və qadınlarınızı" dedikdə Fatimə nəzərdə tutulmuşdur". əl-Hakim ﷺ də bu mənada hədis rəvayət etmiş və demişdir: "Hədis Muslimin şərtinə görə səhihdir, lakin əl-Buxari və Muslim rəvayət etməmişlər". əl-Hakimin ﷺ dediyi budur. Hədisi həmçinin Əbu Davud ət-Tayəlisi əş-Şabidən ﷺ mursəl olaraq (səhabəni qeyd etmədən birbaşa Peyğəmbərdən ﷺ) rəvayət etmişdir. Mursəl rəvayət olunması daha səhihdir. İbn Abbas və əl-Bəradan ﷺ da buna oxşar hədislər rəvayət olunub.

Sonra Uca Allah buyurur: "**Həqiqətən, bu, gerçək bir hekayətdir**", yəni ey Muhəmməd! İsa barədə bizim sənə bu bildirdiklərimiz, danılmaz və inkar edilməz bir haqdır. "**Allahdan başqa ibadətə layiq olan məbud yoxdur. Şübhəsiz ki, Allah Qüdrətlidir, Müdrikdir. Əgər onlar üz döndərsələr,...**", yəni bundan üz döndərib qeyrisinə yönəlsələr, "**şübhəsiz ki, Allah fitnə-fəsad törədənləri tanıyır**", yəni

[1] əl-Hafiz İbn Kəsir ﷺ bu ayələrin təfsirində Nəcran qəbiləsinin nümayəndələrinin Peyğəmbərin ﷺ yanına gəlməsini geniş şəkildə İbn İshaqın "Sira" əsərindən, İbn Mərdaveyhin rəvayətindən və əl-Beyhəqinin "Dəlail ən-Nubuvvə" əsərindən rəvayət etmişdir. Bu barədə ətraflı bilmək istəyən bu kitaba qayıtsın (1/368-370). Həmçinin İbn Kəsirin "Tərixul-Kəbir", "əl-Bidəyə vən-Nihayə" (5/52-56) əsərlərinə və İbn Sədin "Tabəqat" əsərinə (1/2/84-85) qayıdın. (Əhməd Şakir).

kim haqdan üz döndərib batilə yönələrsə, o, fitnə-fəsad törədəndir. Allah onu yaxşı tanıyır və onun layiqincə cəzasını verəcəkdir. O buna Qadirdir, heç bir şey Onun nəzərindən yayınmaz. O, pak və müqəddəsdir və Ona həmd olsun. Onun qəzəbinə düçar olmaqdan Onun Özünə sığınırıq.

﴿ قُلْ يَٰٓأَهْلَ ٱلْكِتَٰبِ تَعَالَوْا۟ إِلَىٰ كَلِمَةٍ سَوَآءٍۭ بَيْنَنَا وَبَيْنَكُمْ أَلَّا نَعْبُدَ إِلَّا ٱللَّهَ وَلَا نُشْرِكَ بِهِۦ شَيْـًٔا وَلَا يَتَّخِذَ بَعْضُنَا بَعْضًا أَرْبَابًا مِّن دُونِ ٱللَّهِ ۚ فَإِن تَوَلَّوْا۟ فَقُولُوا۟ ٱشْهَدُوا۟ بِأَنَّا مُسْلِمُونَ ٦٤ ﴾

**64. De: “Ey Kitab əhli! Bizim və sizin aranızda eyni olan bir kəlməyə gəlin! O kəlmə budur: “Allahdan başqasına ibadət etməyək, Ona heç bir şeyi şərik qoşmayaq və Allahı qoyub bir-birimizi ilahiləşdirməyək”. Əgər onlar üz döndərsələr, deyin: “Şahid olun ki, biz müsəlmanlarıq!”**

Bu xitab yəhudi və xristianlardan ibarət olan bütün Kitab əhlinə və onların yolu ilə gedənlərə yönəldilmiş ümumi bir xitabdır. ”**De: “Ey Kitab əhli! Bizim və sizin aranızda eyni olan bir kəlməyə gəlin!**” Ərəb dilində “kəlmə”, burada olduğu kimi, tam məna ifadə edən cümləyə deyilir. Sonra Uca Allah bu kəlməni vəsf edərək belə buyurur: “**Bizim və sizin aranızda eyni olan**”, yəni bizimlə sizin aranızda tən olan, ortaq olan kəlməyə gəlin. Biz də, siz də bu kəlmədə eyniyik. Sonra Uca Allah bu kəlməni açıqlayaraq buyurur: “**Allahdan başqasına ibadət etməyək, Ona heç bir şeyi şərik qoşmayaq**”– nə bütləri, nə heykəlləri, nə xaçı, nə tağutu,[1] nə atəşi, nə də başqa bir şeyi Allaha şərik qoşmayaq. Əksinə, tək və şəriki olmayan Allahı ibadətdə təkləşdirək. Bütün peyğəmbərlər məhz buna çağırmışlar. Uca Allah buyurur: “**Səndən əvvəl elə bir elçi göndərməmişik ki, ona “Məndən başqa heç bir məbud yoxdur, Mənə ibadət edin!” deyə vəhy etməyək**” (“əl-Ənbiya”, 25). Həmçinin buyurur: “**Biz hər ümmətə: “Allaha ibadət edin, tağutdan uzaq olun” deyə, elçi göndərdik**” (“ən-Nəhl”, 36).

Sonra Uca Allah buyurur: “...**və Allahı qoyub bir-birimizi ilahiləşdirməyək**”. İbn Cureyc رحمه الله demişdir: “Yəni Allaha asilik olan işlərdə bir-birimizə itaət etməyək”.

“**Əgər onlar üz döndərsələr, deyin: “Şahid olun ki, biz müsəlmanlarıq!**”, yəni əgər onlar bu çağırışdan və aranızda eyni olan bu kəlmədən üz döndərsələr, Allahın sizin üçün din olaraq seçdiyi İslam üzərində davamiyyətli olduğunuza onları şahid tutun. əl-Buxari رحمه الله

[1] Tağut barədə əl-Bəqərə surəsinin 256-cı ayəsinə bax.

Əbu Sufyanın ﵁ Rum hökmdarı Qeysərin hüzuruna girməsi hadisəsini rəvayət etmişdir. Bu hadisə Hudeybiyyə sülhündən sonra, Məkkənin fəthindən əvvəl olmuşdu. Əbu Sufyan ﵁ bu hadisə barədə danışarkən demişdir: "Qeysərə Peyğəmbərin ﷺ məktubunu gətirdilər və Qeysər onu oxudu. Məktubda bunlar yazılmışdı:

**"Mərhəmətli və Rəhmli Allahın adı ilə!**

Allahın qulu və rəsulu Muhəmməddən Rum imperatoru Herakla. Haqq yolu tutub gedənlərə salam olsun! Bundan sonra mən səni İslama dəvət edirəm. İslamı qəbul et ki, salamat qalasan və Allah sənin mükafatını ikiqat versin. Əgər qəbul etməsən, tabeçiliyində olanların günahı sənin boynunda qalacaqdır. (Sənə Allahın mənə buyurduğunu deyirəm): **"Ey Kitab əhli! Bizim və sizin aranızda eyni olan bir kəlməyə gəlin! O kəlmə budur: "Allahdan başqasına ibadət etməyək, Ona heç bir şeyi şərik qoşmayaq və Allahı qoyub bir-birimizi ilahiləşdirməyək". Əgər onlar üz döndərsələr, deyin: "Şahid olun ki, biz müsəlmanlarıq!"**[1] ("Ali-İmran", 64)".

İbn İshaq və başqaları ﵏ qeyd etmişlər ki, "Ali-İmran" surəsinin əvvəlindən ta səksən neçənci ayəyə kimi olan hissəsi Nəcran qəbiləsinin nümayəndələri barədə nazil olmuşdur. əz-Zuhri ﵀ demişdir: "İlk cizyə verənlər onlar olmuşlar". Cizyə ayəsinin Məkkənin fəthindən sonra nazil olmasında heç bir fikir ayrılığı yoxdur. O halda, bu ayənin Məkkənin fəthindən əvvəl Herakla yazılan məktubda olması ilə Muhəmməd ibn İshaqın və əz-Zuhrinin ﵏ qeyd etdiklərini necə cəm etmək olar? Buna müxtəlif cür cavab verilə bilər:

**Birinci**: Ola bilsin, bu ayə iki dəfə nazil olmuşdur. Bir dəfə Hudeybiyyə sülhündən əvvəl, bir dəfə də Məkkənin fəthindən sonra.

**İkinci**: Ola bilsin, "Ali-İmran" surəsinin əvvəlindən bu ayəyə qədər olan hissə Nəcran qəbiləsinin nümayəndələri barədə nazil olmuşdur. Bu ayə isə daha əvvəl nazil olmuşdur. Bununla da Əbu Sufyanın ﵁ rəvayət etdiyi hədis dəlalət edir ki, İbn İshaqın ﵀: "Səksən neçənci ayəyə qədər olan hissəsi Nəcran qəbiləsinin nümayəndələri barədə nazil olmuşdur" sözü özündən daha səhih olan rəvayətə müxalif olduğu üçün mötəbər deyil.

**Üçüncü**: Ola bilsin, Nəcran qəbiləsinin nümayəndələrinin gəlişi Hudeybiyyə sülhündən əvvəl olmuşdur və onların Peyğəmbərə ﷺ verdikləri cizyə deyil, lənətləşmədən imtina etdikləri üçün barışıq və hədiyyə qəbilindən olsun. Buna uyğun cizyə ayəsinin bundan

[1] əl-Buxari, 7.

sonra nazil olması mümkündür. Necə ki qənimətlərin beşdə birə və beşdə dördə bölünməsi Abdullah ibn Cəhşin ﵁ Bədr döyüşündən əvvəl etdiyinə uyğun olaraq vacib olmuşdur. Daha sonra bu hadisəyə uyğun olaraq qənimətlərin bölünməsinə dair ayə nazil oldu.[1]

**Dördüncü**: Ola bilsin Peyğəmbər ﷺ Herakla göndərdiyi məktubda bu ifadələrin yazılmasını əmr etdikdə bu cümlələr hələ ayə kimi nazil olmamışdı. Sonra isə Peyğəmbərin ﷺ yazdırdığına uyğun ayə nazil olmuşdur. Necə ki qadınların hicab geyinməsi, Bədr döyüşündə alınan əsirlər və münafiqlərə cənazə namazı qılınmaması barədə ayələr Ömərin ﵁ dediyinə uyğun nazil olmuşdur. Həmçinin bu ayələrin nazil olması da Ömərin ﵁ sözünə uyğun olmuşdur: "**İbrahimin dayandığı yeri namazgah edin!**" ("əl-Bəqərə", 125); "**Əgər o sizi boşasa, Rəbbi sizin əvəzinizə ona sizdən daha yaxşı zövcələr – müsəlman, mömin, itaətkar, tövbə edən, ibadət edən, oruc tutan dul qadınlar və bakirə qızlar verə bilər**"[2] ("ət-Təhrim", 5).

﴿ يَٰٓأَهۡلَ ٱلۡكِتَٰبِ لِمَ تُحَآجُّونَ فِيٓ إِبۡرَٰهِيمَ وَمَآ أُنزِلَتِ ٱلتَّوۡرَىٰةُ وَٱلۡإِنجِيلُ إِلَّا مِنۢ بَعۡدِهِۦٓۚ أَفَلَا تَعۡقِلُونَ
٦٥ هَٰٓأَنتُمۡ هَٰٓؤُلَآءِ حَٰجَجۡتُمۡ فِيمَا لَكُم بِهِۦ عِلۡمٞ فَلِمَ تُحَآجُّونَ فِيمَا لَيۡسَ لَكُم بِهِۦ عِلۡمٞۚ
وَٱللَّهُ يَعۡلَمُ وَأَنتُمۡ لَا تَعۡلَمُونَ ٦٦ مَا كَانَ إِبۡرَٰهِيمُ يَهُودِيّٗا وَلَا نَصۡرَانِيّٗا وَلَٰكِن كَانَ حَنِيفٗا
مُّسۡلِمٗا وَمَا كَانَ مِنَ ٱلۡمُشۡرِكِينَ ٦٧ إِنَّ أَوۡلَى ٱلنَّاسِ بِإِبۡرَٰهِيمَ لَلَّذِينَ ٱتَّبَعُوهُ وَهَٰذَا ٱلنَّبِيُّ وَٱلَّذِينَ
ءَامَنُواْۗ وَٱللَّهُ وَلِيُّ ٱلۡمُؤۡمِنِينَ ٦٨ ﴾

**65. Ey Kitab əhli! Nə üçün İbrahim barəsində höcətləşirsiniz? Tövrat və İncil ancaq ondan sonra nazil edilmişdir, məgər anlamırsınız?**
**66. Bax, siz o kəslərsiniz ki, bildiyiniz şeylər barəsində də höcətləşirsiniz. Bəs nə üçün bilmədiyiniz şeylər barəsində höcətləşirsiniz? Allah bilir, siz bilmirsiniz!**
**67. İbrahim nə yəhudi, nə də nəsrani idi. O ancaq hənif bir müsəlman idi və müşriklərdən deyildi.**
**68. Həqiqətən, insanlardan İbrahimə ən yaxın olanı, onun ardınca gedənlər, bu Peyğəmbər və iman gətirənlərdir. Allah möminlərin Himayədarıdır.**

---

[1] Burada Uca Allahın bu ayəsi nəzərdə tutulur: "**Əgər siz Allaha və haqla batilin ayırd edildiyi gün – iki dəstənin qarşı-qarşıya gəldiyi gün qulumuza nazil etdiyimizə iman gətirmisinizsə, bilin ki, ələ keçirdiyiniz qənimətlərin beşdə biri Allaha, Onun Elçisinə, onun qohum-əqrəbasına, yetimlərə, kasıblara və müsafirlərə məxsusdur. Allah hər şeyə qadirdir**" ("əl-Ənfal", 41).

[2] "əl-Bəqərə" surəsinin 125-ci ayəsinin təfsirinə bax.

Uca Allah bu ayələrdə yəhudi və xristianların İbrahim عليه السلام barədə mübahisələrini və hər ikisinin İbrahimin عليه السلام onların dini üzərində olması barədə irəli sürdükləri iddialarını rədd edir. Necə ki Muhəmməd ibn İshaq رحمه الله rəvayət edir ki, İbn Abbas رضي الله عنهما belə demişdir: "Nəcranlı xaçpərəstlər və yəhudilərin baş keşişləri Peyğəmbərin ﷺ yanında toplaşdılar. Onlar Peyğəmbərin ﷺ hüzurunda bir-birləri ilə mübahisə etdilər. Yəhudi keşişlər xaçpərəstlərə dedilər: "İbrahim yəhudi dinində olub". Nəcranlı xaçpərəstlər də yəhudilərə "İbrahim xaçpərəst dinində olub" dedilər. Uca Allah onların bu mübahisələrinin üstündən bu ayəni nazil etdi: "**Ey Kitab əhli! Nə üçün İbrahim barəsində höcətləşirsiniz?...**"[1], yəni, ey yəhudilər! İbrahimin yaşadığı dövr Tövratın Musaya nazil olmasından əvvələ təsadüf etdiyi halda onun yəhudi olmasını necə iddia edirsiniz? Bəs siz, ey xaçpərəstlər! Xaçpərəstliyin İbrahimdən əsrlər sonra ortaya çıxdığı halda onun xaçpərəst olduğunu necə iddia edə bilərsiniz? Bu səbəbdən Uca Allah "**məgər anlamırsınız?**" buyurur.

Sonra Uca Allah belə buyurur: "**Bax, siz o kəslərsiniz ki, bildiyiniz şeylər barəsində də höcətləşirsiniz. Bəs nə üçün bilmədiyiniz şeylər barəsində höcətləşirsiniz? Allah bilir, siz bilmirsiniz!**" Bu ayə ilə Uca Allah məlumatı olmadığı halda bir şey barədə mübahisə edənləri qınayır. Yəhudilər və xaçpərəstlər İbrahim عليه السلام barədə elmsiz olduqları halda mübahisə edirdilər. Əgər onlar Muhəmmədin ﷺ peyğəmbər göndərilməsinə qədər Allahın onlara verdiyi dinlə bağlı bildikləri məsələlər barədə mübahisə etsəydilər, bu onlara daha uyğun olardı. Halbuki onlar bilmədikləri mövzularda danışırdılar. Bu səbəbdən Uca Allah bunu onlara qadağan edib, bilmədikləri mövzularda qeybi və aşkarı bilən Allaha qayıtmağı əmr etdi. Bütün işlərin həqiqətlərini aydınlığı ilə bilən Odur. Bu səbəbdən Uca Allah "**Allah bilir, siz bilmirsiniz!**" buyurur.

Sonra Uca Allah buyurur: "**İbrahim nə yəhudi, nə də nəsrani idi. O ancaq hənif bir müsəlman idi**", yəni şirkdən üz döndərib, imana yönələn həqiqi bir müsəlman idi "**və müşriklərdən deyildi**". Bu ayə daha əvvəl "əl-Bəqərə" surəsində keçən "**Onlar dedilər: "Yəhudi və ya xaçpərəst olun ki, doğru yola yönələsiniz!" De: "Əksinə, biz hənif olan İbrahimin dinindəyik. O, müşriklərdən deyildi**" ("əl-Bəqərə", 135) ayəsinə bənzəyir.

[1] əl-Beyhəqi "Dəlail ən-Nubuvvə" 5/384.

Sonra Uca Allah buyurur: "**Həqiqətən, insanlardan İbrahimə ən yaxın olanı, onun ardınca gedənlər, bu Peyğəmbər və iman gətirənlərdir. Allah möminlərin Himayədarıdır**". Uca Allah bu ayədə bildirir ki, Allahın sevimli dostu İbrahimin ardınca getməyə ən çox layiq olanlar, onun dininə tabe olanlar, bu Peyğəmbər – yəni Muhəmməd ﷺ – və ona iman gətirən mühacir və ənsarlardan ibarət olan səhabələri və onlardan sonra gələn Muhəmməd ümmətidir. Səid ibn Mənsur ؒ İbn Məsuddan ؓ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Hər peyğəmbərin peyğəmbərlərdən olan dostları vardır. Mənim də peyğəmbərlərdən olan dostum İbrahimdir. O həm mənim ulu babam, həm də Rəbbimin sevimli dostudur". Sonra Peyğəmbər ﷺ bu ayəni oxudu: "**Həqiqətən, insanlardan İbrahimə ən yaxın olanı onun ardınca gedənlər, bu Peyğəmbər və iman gətirənlərdir. Allah möminlərin Himayədarıdır**".[1] Hədisi ət-Tirmizi və əl-Bəzzər ؒ rəvayət etmişlər. Həmçinin Vəki ؒ öz təfsirində İbn Məsuddan ؓ oxşar mətnlə rəvayət etmişdir.[2] Uca Allah buyurur: "**Allah möminlərin Himayədarıdır**", yəni Allah peyğəmbərlərinə iman gətirən bütün möminlərin dostudur.

﴿وَدَّت طَّآئِفَةٞ مِّنۡ أَهۡلِ ٱلۡكِتَٰبِ لَوۡ يُضِلُّونَكُمۡ وَمَا يُضِلُّونَ إِلَّآ أَنفُسَهُمۡ وَمَا يَشۡعُرُونَ ٦٩ يَٰٓأَهۡلَ ٱلۡكِتَٰبِ
لِمَ تَكۡفُرُونَ بِـَٔايَٰتِ ٱللَّهِ وَأَنتُمۡ تَشۡهَدُونَ ٧٠ يَٰٓأَهۡلَ ٱلۡكِتَٰبِ لِمَ تَلۡبِسُونَ ٱلۡحَقَّ بِٱلۡبَٰطِلِ وَتَكۡتُمُونَ
ٱلۡحَقَّ وَأَنتُمۡ تَعۡلَمُونَ ٧١ وَقَالَت طَّآئِفَةٞ مِّنۡ أَهۡلِ ٱلۡكِتَٰبِ ءَامِنُواْ بِٱلَّذِيٓ أُنزِلَ عَلَى ٱلَّذِينَ ءَامَنُواْ وَجۡهَ
ٱلنَّهَارِ وَٱكۡفُرُوٓاْ ءَاخِرَهُۥ لَعَلَّهُمۡ يَرۡجِعُونَ ٧٢ وَلَا تُؤۡمِنُوٓاْ إِلَّا لِمَن تَبِعَ دِينَكُمۡ قُلۡ إِنَّ ٱلۡهُدَىٰ هُدَى
ٱللَّهِ أَن يُؤۡتَىٰٓ أَحَدٞ مِّثۡلَ مَآ أُوتِيتُمۡ أَوۡ يُحَآجُّوكُمۡ عِندَ رَبِّكُمۡۗ قُلۡ إِنَّ ٱلۡفَضۡلَ بِيَدِ ٱللَّهِ يُؤۡتِيهِ مَن يَشَآءُۗ
وَٱللَّهُ وَٰسِعٌ عَلِيمٞ ٧٣ يَخۡتَصُّ بِرَحۡمَتِهِۦ مَن يَشَآءُۗ وَٱللَّهُ ذُو ٱلۡفَضۡلِ ٱلۡعَظِيمِ ٧٤﴾

**69. Kitab əhlindən bir zümrə sizi azdırmaq istər. Onlar ancaq özlərini azdırırlar və bunu da hiss etmirlər.**

**70. Ey Kitab əhli! Haqqa şahid olduğunuz halda nə üçün Allahın ayələrini inkar edirsiniz?**

**71. Ey Kitab əhli! Nə üçün siz bilə-bilə haqqa batil donu geyindirir və haqqı gizlədirsiniz?**

---

[1] ət-Tirmizi, 2995, 3263. Hədis səhihdir. Bax: Səhih əl-Cami, 2158.

[2] Əhməd ibn Hənbəl Vəkidən ؒ rəvayət etmişdir (3800). Həmçinin ət-Tabərani (7216-7217) və əl-Hakim (2/292) rəvayət etmişlər. əl-Hakim ؒ əl-Buxari və Muslimin şərtlərinə görə səhih adlandırmış, əz-Zəhəbi ؒ də ona müvafiq olmuşdur. (Əhməd Şakir). əl-Hakim, 3151.

**72. Kitab əhlindən bir zümrə dedi: "Möminlərə nazil edilənə günün əvvəlində iman gətirin və günün sonunda inkar edin ki, bəlkə, onlar öz dinlərindən dönələr.**
**73. Yalnız sizin dininizin ardınca gələnlərə inanın ki, kiməsə sizə verilənin bənzəri verilməsin, yaxud müsəlmanlar Rəbbinizin yanında sizə dəlil gətirməsinlər". De: "Şübhəsiz ki, doğru yol Allahın haqq yoludur!" De: "Şübhəsiz ki, lütf Allahın Əlindədir və onu istədiyinə verir! Allah hər şeyi Əhataedəndir, Biləndir".**
**74. O Öz mərhəmətini istədiyi kəsə məxsus edir. Allah böyük lütf sahibidir.**

Uca Allah bu ayələrdə yəhudilərin müsəlmanlara həsəd apardıqlarını və onları azdırmaq istədiklərini xəbər verir. Habelə bildirir ki, onların bu etdiklərinin zərəri yenə özlərinə qayıdır və onlar tovlandıqlarını hiss etmirlər.

Sonra Uca Allah onları məzəmmət edərək buyurur: "**Ey Kitab əhli! Haqqa şahid olduğunuz halda nə üçün Allahın ayələrini inkar edirsiniz?**", yəni Allahın ayələrinin haqq olduğunu yəqin bildiyiniz halda nə üçün inkar edirsiniz? "**Ey Kitab əhli! Nə üçün siz bilə-bilə haqqa batil donu geyindirir və haqqı gizlədirsiniz?**", yəni Muhəmmədin kitabınızda olan əlamətlərini çox yaxşı bildiyiniz halda onu gizlədirsiniz. "**Kitab əhlindən bir zümrə dedi: "Möminlərə nazil edilənə günün əvvəlində iman gətirin və günün sonunda inkar edin ki, bəlkə, onlar öz dinlərindən dönələr**". Bu onlar tərəfindən hazırlanan bir hiylə idi. Bu yolla onlar insanlardan imanı zəif olanların dinlərinə qarma-qarışıqlıq salmaq istəmişlər. Onlar öz aralarında məşvərət edərək bu qərara gəlmişdilər ki, günün əvvəlində özlərini iman gətirmiş kimi göstərsinlər və müsəlmanlarla birlikdə Sübh namazını qılsınlar. Günün sonu çatdıqda isə yenidən öz dinlərinə dönsünlər. Beləcə, cahil insanlar desinlər: "Onlar müsəlmanların dinində bir naqislik və ya eyib gördükləri üçün dinlərinə döndülər". Bu səbəbdən "**bəlkə onlar öz dinlərindən dönələr**" demişlər. İbn Abbas رضي الله عنهما demişdir: "Kitab əhlindən bir dəstə öz aralarında belə danışdılar: "Günün əvvəlində Muhəmmədin səhabələri ilə qarşılaşsanız, iman gətirin. Axşam olduqda isə öz ibadətinizi edin. Bəlkə, onlar "Bunlar Kitab əhlidir. Onlar bizdən daha elmlidirlər" deyərlər".[1] Qatədədən də belə rəvayət olunur.

[1] İbn Əbu Hatim, 3686.

Uca Allah buyurur: "**Yalnız sizin dininizin ardınca gələnlərə inanın**", yəni sizin dininizdə olanlardan başqa heç kəsə etibar edib sirrinizi verməyin. Sizdə olan elmi müsəlmanlara bildirməyin. Belə etsəniz, ola bilsin, onlar buna iman gətirərlər və sonra ondan sizə qarşı istifadə edərlər. Uca Allah onlara cavab verərək buyurur: "**De: "Şübhəsiz ki, doğru yol Allahın haqq yoludur!**", yəni qulu və elçisi Muhamməde nazil etdiyi açıq-aşkar ayələr, qəti dəlillər və aydın sübutlarla möminlərin qəlblərini ən kamil imana çatdıran Allahdır. Baxmayaraq ki, siz – ey yəhudilər, daha əvvəl keçmiş peyğəmbərlərdən nəql etdiyiniz və kitabınızda Muhəmmədin mövcud olan xüsusiyyətlərini gizlədirsiniz.

Uca Allah buyurur: "...**kiməsə sizə verilənin bənzəri verilməsin, yaxud müsəlmanlar Rəbbinizin yanında sizə dəlil gətirməsinlər**", yəni onlar deyirdilər: "Sizdə olan dini elmi müsəlmanlara bildirməyin. Onlar bu elmi sizdən öyrənərlər və nəticədə sizinlə elmdə eyni olarlar. Hətta bunlara daha çox iman gətirməklə sizdən də üstün olarlar. Ya da bunları Allah qatında sizin əleyhinizə dəlil olaraq istifadə edərlər. Beləcə bu elmlər həm dünyada, həm də Axirətdə əleyhinizə dəlil və hüccət olar". Sonra Uca Allah buyurur: "**De: "Şübhəsiz ki, lütf Allahın Əlindədir və onu istədiyinə verir!**", yəni bütün işlərin idarə edilməsi Ona aiddir. Verən də, qarşısını alan da Odur. İstədiyinə iman, elm və tam bir təsəvvür gücü verərək nemətləndirər. İstədiyini də azdırar, bəsirətini bağlayar, qəlbini və qulağını möhürləyər, gözünə pərdə çəkər. Bu işdə tutarlı dəlillər və hikmət Ona aiddir. "**Allah hər şeyi Əhatəedəndir, Biləndir. O Öz mərhəmətini istədiyi kəsə məxsus edir. Allah böyük lütf sahibidir**", yəni, ey möminlər! Uca Allah Peyğəmbəriniz Muhəmmədi digər bütün peyğəmbərlərdən şərəfli etməklə, sizi onun sayəsində ən gözəl şəriətə yönəltməklə sizə hədsiz və vəsf oluna bilməyən lütf etmişdir.

﴿وَمِنْ أَهْلِ ٱلْكِتَـٰبِ مَنْ إِن تَأْمَنْهُ بِقِنطَارٍ يُؤَدِّهِۦٓ إِلَيْكَ وَمِنْهُم مَّنْ إِن تَأْمَنْهُ بِدِينَارٍ لَّا يُؤَدِّهِۦٓ
إِلَيْكَ إِلَّا مَا دُمْتَ عَلَيْهِ قَآئِمًا ۗ ذَٰلِكَ بِأَنَّهُمْ قَالُوا۟ لَيْسَ عَلَيْنَا فِى ٱلْأُمِّيِّـۧنَ سَبِيلٌ وَيَقُولُونَ عَلَى ٱللَّهِ
ٱلْكَذِبَ وَهُمْ يَعْلَمُونَ ﴿٧٥﴾ بَلَىٰ مَنْ أَوْفَىٰ بِعَهْدِهِۦ وَٱتَّقَىٰ فَإِنَّ ٱللَّهَ يُحِبُّ ٱلْمُتَّقِينَ ﴿٧٦﴾﴾

**75. Kitab əhlindən eləsi var ki, ona bir yığın mal əmanət etsən, onu sənə tam qaytarar. Onlardan eləsi də var ki, ona bir dinar versən belə, başının üstündə durub tələb etməyincə onu sənə qaytarmaz.**

**Bu ona görədir ki, onlar "Avamlardan ötrü bizə günah olmaz!" deyirlər və bilə-bilə Allaha qarşı yalan söyləyirlər.**

**76. Xeyr! Kim əhdini yerinə yetirsə və Allahdan qorxsa, şübhəsiz ki, Allah müttəqiləri sevər.**

Uca Allah bu ayələrdə yəhudilərdə xainlik olduğunu xəbər verərək möminləri onlara aldanmaqdan çəkindirir, çünki "**Kitab əhlindən eləsi var ki, ona bir yığın mal əmanət etsən, onu sənə tam qaytarar**", yəni bundan az olanı, sözsüz ki, geri ödəyəcəkdir. "**Onlardan eləsi də var ki, ona bir dinar versən belə, başının üstündə durub tələb etməyincə onu sənə qaytarmaz**", yəni eləsi də var ki, haqqını əldə etmək üçün davamlı və israrla tələb etmədikcə onu sənə qaytarmaz. Əgər o bunu sadəcə, bir dinarda belə edirsə, bundan çoxunu sənə heç qaytarmaz.

əl-Buxarinin "Səhih" əsərində bir neçə yerdə "muəllaq" olaraq zikr etdiyi bir hədisi burada qeyd etməyimiz münasib olardı. əl-Buxari ﷺ bu hədisi tam olaraq "Zaminlik" kitabında Əbu Hureyradan ﷺ zikr etmişdir.

Hədis belədir: Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "İsrail oğullarından birisi bir başqasından min dinar borc pul istədi. O da ona "Mənə şahidlər gətir ki, verdiyim borca şahidlik etsinlər" dedi. Borc istəyən dedi: "Bizim aramızda Allahın şahid olması yetər". Kişi dedi: "Elə isə zamin gətir ki, məsuliyyəti öhdəsinə götürsün". Borc istəyən dedi: "Allahın zamin olması yetər". Kişi "Doğru söylədin" dedi və bu pulu ona müəyyən vaxtadək verdi. Borcu qaytarmaq vaxtı gəlib çatdıqda həmin adam dənizin sahilinə gəldi, lakin bir gəmi tapa bilmədi ki, pulu borclu olduğu adama göndərsin. Belə olduqda o, bir ağac parçası götürüb onun içini oydu. Bu oyuğun içinə min dinarı və kişiyə yazdığı məktubu qoydu. Məktub xarab olmasın deyə onu şüşə qabın içinə qoydu və dəniz kənarına gələrək Allaha belə dua etdi: "Ey Allahım! Sən bilirsən ki, mən filankəsdən müəyyən vaxtadək borca min dinar aldım. O məndən zamin gətirməyimi istədi. Mən isə ona: "Allahın zamin olması yetər" dedim. O da Səni zamin gətirməyimlə razılaşdı. O məndən şahid gətirməyimi istədi. Mən isə ona "Allahın aramızda şahid olması yetər" dedim. O da Səni şahid gətirməyimlə razılaşdı. Mən onun pulunu göndərmək üçün gəmi axtarmağa çalışdım, lakin tapa bilmədim. Mən indi bu pulu Sənə əmanət edirəm". Kişi bunları dedikdən sonra ağac parçasını dənizə atdı. Ağac parçası dənizdə gözdən itdikdən sonra kişi qayıtdı və vətəninə yola çıxmaq üçün minik axtarmağa başladı. Bu arada borc verən adam evindən çıxıb dənizin sahilində gözləməyə

başladı. O, ümid edirdi ki, bir gəmi gələr və onun pulunu gətirər. Birdən həmin ağac parçasını gördü və onu götürüb odun kimi istifadə etmək məqsədilə evinə apardı. Həmin adam odunu sındırdıqda içindən (ona çatacaq) pulları və məktubu tapdı. Bir müddət keçdikdən sonra borc alan adam gəlib çıxdı və min dinar gətirərək dedi: "Allaha and olsun ki, malını sənə çatdırmaq üçün çox vasitə axtardım, lakin bundan tez gələn minik tapa bilmədim". Borc verən dedi: "Sən mənə bir şey göndərdinmi?" Borc alan dedi: "Dedim axı, bundan daha tez gələn bir gəmi tapmadım". Borc verən dedi: "Həqiqətən, Allah sənin ağac parçası içində göndərdiyini mənə çatdırdı. Min dinarını götür və hörmətlə get!"[1] əl-Buxari ﷺ hədisi bu şəkildə "muəllaq" olaraq, səhihliyinə işarə etməklə rəvayət etmişdir. Bəzi yerlərdə isə "Səhih" əsərinin əsas hədisi kimi qəbul etmişdir. Həmçinin İmam Əhməd və əl-Bəzzər ﷺ oxşar hədisi Əbu Hureyradan ﷺ Peyğəmbərin ﷺ sözü olaraq rəvayət etmişlər.[2]

Uca Allah buyurur: "**Bu ona görədir ki, onlar "Avamlardan ötrü bizə günah olmaz!" deyirlər**", yəni onları haqqı danmağa sürükləyən xüsus onların belə demələridir: "Dinimizə görə, avamların, yəni ərəblərin mallarını yeməkdə bizə heç bir günah yoxdur. Çünki Allah bunu bizə halal etmişdir. Uca Allah buyurur: "**Bilə-bilə Allaha qarşı yalan söyləyirlər**", yəni bu sözü özlərindən uydurmuşlar, bu azğınlıqla Allaha böhtan atırlar. Halbuki Allah insanların mallarını haqsız yerə yeməyi onlara haram etmişdir. Şübhəsiz ki, onlar böhtançı bir qövmdür. Abdur-Razzəq Sa'sa'ə ibn Yəziddən ﷺ rəvayət etmişdir ki, bir kişi İbn Abbasdan ﷺ soruşdu: "Biz döyüşdə zimmi kafirlərin mallarından toyuq və qoyun ələ keçiririk, bunlar bizə halaldırmı?" İbn Abbas dedi: "Yaxşı, siz buna nə deyirsiniz?" Kişi dedi: "Bu şeylərə görə bizə bir günah yoxdur" deyirik". İbn Abbas dedi: "Sizin bu sözünüz Kitab əhlinin "**Avamlardan ötrü bizə günah olmaz!**" demələrinə bənzəyir. Əgər zimmilər sizə cizyə verirlərsə, onların könül xoşluqları ilə verdiklərindən başqa malları sizə halal deyil".[3]

---

[1] əl-Buxari, 2127, 2291.

[2] əl-Buxari (4/385-Fəthul-Bari), əl-Musnəd (8571) sənədi bitişikdir. Həmçinin əl-Hafiz İbn Həcər "Fəthul-Bari" kitabında hədisi ən-Nəsəiyə, əl-Buxarinin "Ədəbul-Mufrad" əsərinə və İbn Hibbanın "Səhih" əsərinə nisbət etmişdir. (Əhməd Şakir).

[3] ət-Təbəri (7274) Abdur-Razzəqin ﷺ vasitəsilə rəvayət etmişdir. İsnadı səhihdir. Sa›sa›ə ibn Yəzid ﷺ mötəbər tabiindir. əl-Buxari "əl-Kəbir" (2/2/321-322) əsərində və İbn Əbu Hatim (2/1/446) onun tərcümeyi-halını qeyd etmişlər. əl-Buxari ﷺ tərcümeyi-halda adəti üzrə qısa olaraq bu hədisə işarə etmişdir. Sa›sa›ə ibn Yəzidin atasının adının Zeyd olduğu da deyilir. əl-Buxari ﷺ bildirmişdir ki, doğru olan Sa'sa'ə ibn Yəzid ﷺ olmasıdır. İbn Hibban "Səhih" əsərində (səh. 225) onun adını qeyd etmiş və atasının adında ixtilaf olmasını bildirməmişdir.

Uca Allah buyurur: "**Xeyr! Kim əhdini yerinə yetirsə və Allahdan qorxsa...**", yəni, ey Kitab əhli, sizdən hər kim Uca Allahın bütün peyğəmbərlərdən və onların ümmətlərindən aldığı kimi, sizdən də aldığı əhdi – Muhəmmədi ﷺ peyğəmbər olaraq göndərdiyi zaman ona iman gətirməyi – yerinə yetirsə, Allahın haram etdiklərindən çəkinsə, Ona itaət etsə və bəşəriyyətin ağası, elçilərin sonuncusu Muhəmməd ﷺ ilə göndərdiyi şəriətə (İslama) tabe olsa, "**şübhəsiz ki, Allah müttəqiləri sevər**".

﴿ إِنَّ ٱلَّذِينَ يَشۡتَرُونَ بِعَهۡدِ ٱللَّهِ وَأَيۡمَٰنِهِمۡ ثَمَنٗا قَلِيلًا أُوْلَٰٓئِكَ لَا خَلَٰقَ لَهُمۡ فِي ٱلۡأٓخِرَةِ وَلَا
يُكَلِّمُهُمُ ٱللَّهُ وَلَا يَنظُرُ إِلَيۡهِمۡ يَوۡمَ ٱلۡقِيَٰمَةِ وَلَا يُزَكِّيهِمۡ وَلَهُمۡ عَذَابٌ أَلِيمٞ ٧٧ ﴾

**77. Həqiqətən də, Allah ilə olan əhdlərini və andlarını ucuz qiymətə satan kəslər üçün axirətdə heç bir pay yoxdur. Allah onları danışdırmayacaq, Qiyamət günü onların üzünə baxmayacaq və onları təmizə çıxarmayacaqdır. Onlar üçün ağrılı-acılı bir əzab vardır.**

Uca Allah bu ayədə buyurur ki, Muhəmməd peyğəmbərə ﷺ tabe olmaq, onun xüsusiyyətlərini və əlamətlərini insanlara açıqlamaq barədə Allaha verdikləri əhdlərini yalan andlara, həmçinin fani və dəyərsiz dünya malına dəyişənlər üçün "**axirətdə heç bir pay yoxdur**", yəni nəsib yoxdur. "**Allah onları danışdırmayacaq, Qiyamət günü onların üzünə baxmayacaq**", yəni Allah Qiyamət günü onlara rəhm etməz, onlarla mülayim danışmaz, onların üzünə rəhmət gözü ilə baxmaz, "**və onları təmizə çıxarmayacaqdır**", yəni onları günah və pisliklərdən təmizə çıxarmayacaqdır. Əksinə, onların Cəhənnəmə atılmalarını əmr edəcəkdir. "**Onlar üçün ağrılı-acılı bir əzab vardır**". Bu ayə ilə əlaqəli bir çox hədislər varid olmuşdur. Bu hədislərdən bəzilərini qeyd edək:

**Birinci hədis:** İmam Əhməd رحمه الله Əbu Zərdən رضي الله عنه rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Üç qisim insan vardır ki, Qiyamət günü Allah onları danışdırmayacaq, onların üzünə baxmayacaq və onları təmizə çıxarmayacaqdır. Üstəlik onları üzücü bir əzab gözləyir". Əbu Zərr dedi: "Peyğəmbər ﷺ (buna dəlalət edən) ayəni üç dəfə oxudu. Mən dedim: "Onların ümidləri boşa çıxdı, özləri də ziyana uğradılar. Kimlərdir onlar, ey Allahın Elçisi?" Peyğəmbər ﷺ buyurdu: "Libasının

İbn Kəsirin رحمه الله əlyazmasında və çap olunmuş nüsxəsində səhv olaraq Əbu Sa'sa'ə yazılmışdır. (Əhməd Şakir). ət-Təbəri, 7315.

ətəyini topuqdan aşağı uzadan, yalandan and içməklə malını sırıyan və verdiyini başa qaxan kimsələrdir".[1] Hədisi Muslim və "Sunən" əsərlərinin sahibləri də rəvayət etmişlər.[2]

**İkinci hədis:** İmam Əhməd رحمه الله Adiy ibn Amira əl-Kindidən رضي الله عنه rəvayət etmişdir ki, bir dəfə Kində qəbiləsindən olan İmriul-Qeys ibn Amir adlı bir kişi ilə Hədrəmövtdan olan bir kişi torpaq ərazisinə görə Peyğəmbərin ﷺ hüzurunda mübahisə etdilər. Peyğəmbər ﷺ Hədrəmövtlü kişidən dediyinə dəlil gətirməsini istədi. Kişinin isə bir dəlili yox idi. Bu zaman Peyğəmbər ﷺ İmriul-Qeysdən and içməsini istədi. Hədrəmövtlü dedi: "Ey Allahın Elçisi, əgər bu adama and içməyə imkan versən, Kəbənin Rəbbinə and olsun ki, torpağım əldən gedər". Peyğəmbər ﷺ "Kim başqasını malından məhrum etmək üçün yalandan and içərsə, Allahla qarşılaşacağı gün Allahın ona qəzəbi tutar" dedi və Uca Allahın bu ayəsini oxudu: "**Həqiqətən də, Allah ilə olan əhdlərini və andlarını ucuz qiymətə satan kəslər üçün axirətdə heç bir pay yoxdur. Allah onları danışdırmayacaq, Qiyamət günü onların üzünə baxmayacaq və onları təmizə çıxarmayacaqdır. Onlar üçün ağrılı-acılı bir əzab vardır**". İmriul-Qeys soruşdu: "Ey Allahın Elçisi, yaxşı bunu etməyənlərə nə var?" Peyğəmbər ﷺ dedi: "Cənnət". İmriul-Qeys dedi: "Ey Allahın Elçisi, şahid ol ki, mən torpağın hamısını ona verdim".[3] Hədisi ən-Nəsəi رحمه الله də rəvayət etmişdir.[4]

**Üçüncü hədis:** İmam Əhməd رحمه الله Abdullahdan (İbn Məsuddan) رضي الله عنه rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Hər kim bir müsəlmanı malından məhrum etmək məqsədilə yalandan and içərsə, Allahın hüzuruna gələcəyi gün Allahın ona qəzəbi tutar". (Bunu eşidən) Əşəs ibn Qeys رضي الله عنه dedi: "Vallahi, bu hadisə mənimlə bağlıdır. Belə ki mənimlə bir yəhudinin arasında torpaq məsələsində mübahisə düşdü və o, (torpağın mənə məxsus olduğunu) inkar etdi. Mən bu məsələni Peyğəmbərə ﷺ ərz etdikdə Peyğəmbər ﷺ məndən "Dəlil-sübutun varmı?" deyə soruşdu. Mən "Xeyr!" deyə cavab verdim. Peyğəmbər ﷺ yəhudiyə "And iç!" deyə buyurdu. Mən dedim: "Ey Allahın Elçisi, o, (yalandan) and içib mənim malımı mənimsəyəcək". Bu vaxt Uca Allah (bu ayəni) nazil etdi: "**Həqiqətən də, Allah ilə olan əhdlərini və andlarını ucuz qiymətə satan kəslər üçün axirətdə heç bir pay**

---

[1] Muslim, 154, 306; Əhməd, 21356, 21644.

[2] əl-Musnəd (5/148 Hələbi nəşri). Muslimin رحمه الله rəvayəti əvvəl keçmişdir. (Əhməd Şakir).

[3] Əhməd, 17752, 17868. Şueyb əl-Arnavut isnadının səhih olduğunu bildirmişdir.

[4] əl-Musnəd (4/191-192 Hələbi nəşri). Hədisin təfsilatlı təxrici ət-Təbəridə verilmişdir (7280). (Əhməd Şakir).

**yoxdur. Allah onları danışdırmayacaq, Qiyamət günü onların üzünə baxmayacaq və onları təmizə çıxarmayacaqdır. Onlar üçün ağrılı-acılı bir əzab vardır**".[1] Hədisi əl-Buxari və Muslim ﷺ də rəvayət etmişlər.[2]

**Dördüncü hədis:** İbn Əbu Hatim ﷺ Abdullah ibn Əbu Əufadan ﷺ rəvayət etmişdir ki, bir dəfə bir kişi bazara bir mal gətirdi və müsəlmanlardan birini aldatmaq üçün (guya) satdığı mala onun verdiyi puldan daha çox pul verildiyinə görə Allaha and içdi. Bu səbəbdən bu ayə nazil oldu: "**Həqiqətən də, Allah ilə olan əhdlərini və andlarını ucuz qiymətə satan kəslər üçün axirətdə heç bir pay yoxdur. Allah onları danışdırmayacaq...**"[3] Bu hədisi əl-Buxari ﷺ də rəvayət etmişdir.

**Beşinci hədis:** İmam Əhməd ﷺ Əbu Hureyradan ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Qiyamət günü üç sinif insan olacaq ki, Allah onları danışdırmayacaq, onların üzünə baxmayacaq və onları təmizə çıxarmayacaqdır. Üstəlik onları üzücü bir əzab gözləyir. Bunlar: yanında artıq suyu ola-ola onu yolçuya verməyən, malını satmaq üçün Əsr namazından sonra[4] (axşam çağı) yalandan and içən və bir imama (rəhbərə) dünya mənfəəti xatirinə beyət edən (sadiqlik andı içən), imam ona dünya malından bir şey verdiyi təqdirdə əhdinə sadiq olan, vermədiyi təqdirdə isə əhdini pozan kəslərdir".[5] Hədisi Əbu Davud və ət-Tirmizi ﷺ də rəvayət etmişlər. ət-Tirmizi ﷺ demişdir: "Hədis həsən-səhihdir".[6]

---

[1] Əhməd, 3597. Şueyb əl-Arnavut isnadının əl-Buxari və Muslimin şərtlərinə görə səhih olduğunu bildirmişdir.

[2] əl-Musnəd (3597), əl-Buxari (5/53, 206 Həthul-Bəri), Muslim (1/39-50), ət-Təbəri (7279). (Əhməd Şakir).

[3] İbn Əbu Hatim, 3722; əl-Buxari, 1946, 2088, 4551.

[4] Əsr namazından sonrakı vaxt Allah qatında günün ən fəzilətli vaxtı hesab olunduğu üçün hədisdə xüsusi olaraq qeyd edilmişdir və bu o demək deyil ki, hədisdə qeyd olunan təhdid günün digər vaxtlarında malını satmaq üçün yalandan and içənlərə aid deyil. Əsr namazından sonrakı vaxtın Allah qatında xüsusi hörməti var. Bu səbəbdən Uca Allah Quranda "əl-Əsr" surəsini nazil etmişdir və bu surədə Allah bu vaxta and içir. Uca Allahın bir şeyə and içməsi onun əzəmətini göstərir. İslamda lənətləşmə və and içmələr də məhz bu vaxtda edilir. Həmçinin bu vaxt, əməllərin Allaha yüksəldiyi və gecə mələkləri ilə gündüz mələklərinin toplaşdığı vaxtdır. Cümə günü duaların qəbul olunduğu saatın da məhz bu vaxtda olduğu deyilir.

[5] Əhməd, 10226, 10231; ət-Tirmizi, 1595, 1691. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 3621.

[6] əl-Musnəd (10231, 7435). (Əhməd Şakir).

﴿ وَإِنَّ مِنۡهُمۡ لَفَرِيقٗا يَلۡوُۥنَ أَلۡسِنَتَهُم بِٱلۡكِتَٰبِ لِتَحۡسَبُوهُ مِنَ ٱلۡكِتَٰبِ وَمَا هُوَ مِنَ ٱلۡكِتَٰبِ وَيَقُولُونَ هُوَ مِنۡ عِندِ ٱللَّهِ وَمَا هُوَ مِنۡ عِندِ ٱللَّهِ وَيَقُولُونَ عَلَى ٱللَّهِ ٱلۡكَذِبَ وَهُمۡ يَعۡلَمُونَ ٧٨ ﴾

**78. Onlardan elə bir dəstə də vardır ki, oxuduqlarını Kitabdan hesab edəsiniz deyə Kitabı oxuyarkən dillərini əyib bükürlər. Halbuki bu, Kitabdan deyildir. Onlar “Bu, Allah tərəfindəndir!” deyirlər. Halbuki o, Allah tərəfindən deyildir. Onlar bilə-bilə Allaha qarşı yalan danışırlar.**

Uca Allah bu ayədə yəhudilərdən xəbər verərək bildirir ki, onların içində bir dəstə vardır ki, kəlmələrin mənalarını təhrif etməklə Allahın kəlamını dəyişdirirlər və onun əsl mənasını itirirlər. Bununla onlar cahilləri Allahın kitabının bu şəkildə olduğuna inandırmaq istəyirlər və bu dəyişdirdiklərini Allaha nisbət edirlər. Bu isə Allaha qarşı bir yalandır. Onlar yalan danışdıqlarını və böhtan atdıqlarını bilə-bilə belə edirlər. Bu səbəbdən Uca Allah “**Onlar bilə-bilə Allaha qarşı yalan danışırlar**” buyurur.

Mucahid, əş-Şabi və başqaları ﷺ Uca Allahın “**Kitabı oxuyarkən dillərini əyib bükürlər**” sözünün təfsirində demişlər: “Yəni təhrif edirlər”. Vəhb ibn Munəbbih ﷺ demişdir: “Tövrat və İncil Allahın onlara nazil etdiyi kimidir, bir hərfi belə dəyişməmişdir. Lakin onlar onun ayələrinin mənasını təhrif etməklə və səhv təfsir etməklə, bir də özlərindən yazdıqları kitablarla “**Bu, Allah tərəfindəndir!” deyirlər. Halbuki o, Allah tərəfindən deyildir**”. Allahın Kitablarına gəlincə, onlar qorunmuşdur və onlarda heç bir dəyişiklik yoxdur”.[1] İbn Əbu Hatim ﷺ rəvayət etmişdir. Əgər Vəhb bununla onların hələ də əllərində olan kitabları nəzərdə tutursa, bunlar dəyişdirilmiş, təhrif edilmiş, əlavə və azaltmalara məruz qalmışdır. Bu kitablar ərəb dilinə tərcümə edilərkən bir çox xətalar, naqisliklər və əlavələr baş vermiş, habelə kobud səhvlərə yol verilmişdir. Bu tərcümələr ərəb dilinə tərcümə edənin təfsirindən ibarətdir və onlardan bir çoxları, bəlkə də, hamısı səhv başa düşmüşlər. Lakin əgər Vəhb Allahın dərgahında olan kitabları nəzərdə tutmuşsa, bunlar, onun qeyd etdiyi kimi, qorunmuşdur və onlar heç bir dəyişikliyə məruz qalmamışlar.

[1] İbn Əbu Hatim, 3735.

﴿ مَا كَانَ لِبَشَرٍ أَن يُؤْتِيَهُ ٱللَّهُ ٱلْكِتَٰبَ وَٱلْحُكْمَ وَٱلنُّبُوَّةَ ثُمَّ يَقُولَ لِلنَّاسِ كُونُوا۟ عِبَادًا لِّى مِن
دُونِ ٱللَّهِ وَلَٰكِن كُونُوا۟ رَبَّٰنِيِّۦنَ بِمَا كُنتُمْ تُعَلِّمُونَ ٱلْكِتَٰبَ وَبِمَا كُنتُمْ تَدْرُسُونَ ﴿٧٩﴾ وَلَا
يَأْمُرَكُمْ أَن تَتَّخِذُوا۟ ٱلْمَلَٰٓئِكَةَ وَٱلنَّبِيِّۦنَ أَرْبَابًا ۗ أَيَأْمُرُكُم بِٱلْكُفْرِ بَعْدَ إِذْ أَنتُم مُّسْلِمُونَ ﴿٨٠﴾ ﴾

**79. Heç bir kəsin Allah ona Kitab, hikmət və peyğəmbərlik verdikdən sonra insanlara "Allaha yox, mənə qul olun!" deməsi mümkün deyil. Əksinə, o belə deyər: "Mənasını dərk etdiyiniz və öyrəndiyiniz Kitabın sayəsində rəbbani olun!"**

**80. O sizə mələkləri və peyğəmbərləri özünüzə rəbb qəbul etməyi buyurmaz. Məgər o sizə siz müsəlman olduqdan sonra küfr etməyi əmr edərmi?**

Muhəmməd ibn İshaq ﵀ İbn Abbasdan ﵄ rəvayət etmişdir ki, Nəcran qəbiləsinin yəhudi və xaçpərəst din xadimləri Peyğəmbərin ﷺ yanında toplaşdılar və Peyğəmbər ﷺ onları İslama dəvət etdi. Bu zaman Əbu Rafi əl-Qurazi dedi: "Ey Muhəmməd, xaçpərəstlərin Məryəm oğlu İsaya ibadət etmələri kimi, sən də bizim sənə ibadət etməyimizi istəyirsən?" Nəcranlı xaçpərəstlərdən Rais adlı bir kişi "Ey Muhəmməd, bizdən bunumu istəyirsən və bizi bunamı dəvət edirsən?" deyə soruşdu və ya buna bənzər bir söz dedi. Peyğəmbər ﷺ "Allahdan başqasına ibadət etməkdən və ya Ondan başqasına ibadət etməyi əmr etməkdən Allaha sığınıram. Allah məni bunun üçün göndərməyib və mənə bunu əmr etməyib" və ya buna bənzər bir söz dedi. Uca Allah onların (Əbu Rafi və Raisin) dediklərinə cavab olaraq "**Heç bir kəsin Allah ona Kitab, hikmət və peyğəmbərlik verdikdən sonra insanlara "Allaha yox, mənə qul olun!" deməsi mümkün deyil**" ayəsini "**Məgər o sizə siz müsəlman olduqdan sonra küfr etməyi əmr edərmi?**"- sözünədək nazil etdi".[1]

Uca Allah buyurur: "**Heç bir kəsin Allah ona Kitab, hikmət və peyğəmbərlik verdikdən sonra insanlara "Allaha yox, mənə qul olun!" deməsi mümkün deyil**", yəni Allahın Kitab, hikmət və peyğəmbərlik verdiyi heç bir kəsin insanlara "Allahla yanaşı, mənə ibadət edin" deməsi yaraşmaz. Əgər belə etmək Allahın göndərdiyi peyğəmbərə və elçiyə yaraşmazsa, adi insanlara heç yaraşmaz. Bu səbəbdən əl-Həsən əl-Bəsri ﵀ ayənin təfsirində demişdir: "Möminə yaraşmaz ki, insanlara ona ibadət etməyi əmr etsin. Kitab əhlindən bir dəstə bir-birlərinə ibadət edirdi. Onlar öz din xadimlərinə və alimlərinə

[1] İbn Əbu Hatim, 3756; ət-Təbəri, 7296, 7377.

ibadət edirdilər. Necə ki Uca Allah onlar barədə xəbər verərək buyurur: "**Onlar Allahı qoyub baş elm adamlarını və rahiblərini, bir də Məryəm oğlu İsanı tanrılar qəbul etdilər**" ("ət-Tövbə", 31)". İmam Əhmədin "əl-Musnəd" və ət-Tirmizinin "Sunən" əsərlərində rəvayət olunur ki, Adiy ibn Hatim ﷺ bu ayəni eşitdikdə Peyğəmbərdən ﷺ soruşdu: "Ey Allahın Elçisi, Kitab əhli onlara (elm adamlarına və rahiblərinə) ibadət etmirdilər axı?" Peyğəmbər ﷺ dedi: "Əksinə, ibadət edirdilər. Onlar Allahın haram etdiklərini halal, halal etdiklərini də haram edirdilər. İnsanlar bu şeydə onlara tabe olurdular. Elm adamlarına və rahiblərinə ibadət etmələri də məhz budur".[1] Uca Allahın bu məzəmmətinə Kitab əhlinin rahiblərinin, din xadimlərinin və azmış firqələrin başçılarının savadsızları daxildir. Peyğəmbərlər və onlara tabe olanlar – öyrəndikləri elmə əməl edən alimlər – isə bu məzəmmətə daxil deyillər, çünki onlar Allahın buyurduqlarını və hörmətli peyğəmbərlərinin onlara təbliğ etdiklərini əmr edir, Allahın qadağan etdiklərindən və hörmətli peyğəmbərlərinin onlara təbliğ etdiyi qadağalardan çəkindirirlər. Bütün peyğəmbərlər – Allahın salavatı və salamı onların üzərinə olsun – öhdəliklərinə götürdükləri peyğəmbərliyi və əmanəti təbliğ etmək vəzifəsini yerinə yetirmək məsələsində Allahla məxluqları arasında bir elçidirlər. Onlar bu vəzifəni ən mükəmməl şəkildə yerinə yetirmiş, ümmətlərinə nəsihət etmiş və onlara haqqı çatdırmışlar.

Uca Allah buyurur: "Əksinə, o belə deyər: "**Mənasını dərk etdiyiniz və öyrəndiyiniz Kitabın sayəsində rəbbani olun!**", yəni, əksinə, peyğəmbərlər insanlara "**Rəbbani olun!**" deyərlər. İbn Abbas və başqaları ﷺ demişlər: "Yəni onlar insanlara "Hikmətli, elmli və həlim xasiyyətli olun"- deyərlər". əl-Həsən və başqaları ﷺ isə demişlər: "Yəni "Şəriət əhkamlarını dərk edən fəqihlər olun" deyərlər".

əd-Dahhək ﷺ Uca Allahın "**Mənasını dərk etdiyiniz və öyrəndiyiniz Kitabın sayəsində rəbbani olun!**" ayəsi barəsində belə demişdir: "Quranı öyrənən eyni zamanda fəqih olmağa layiqdir. "**Mənasını dərk etdiyiniz**", yəni "mənasını başa düşdüyünüz" anlamındadır. Bu söz həmçinin تُعَلِّمُونَ [tuallimu:nə] "öyrətdiyiniz" kimi də oxunmuşdur.[2] "**Öyrəndiyiniz Kitabın sayəsində**", yəni sözlərini əzbərlədiyiniz Kitabın sayəsində.

---

[1] Bu hədis Tövbə surəsinin 31-ci ayəsinin təfsirində gələcək. (Əhməd Şakir). ət-Tirmizi, 3095, 3378. Hədis həsəndir. Bax: Silsilə əs-Səhihə, 3293.

[2] تُعَلِّمُونَ [tuallimu:nə] "öyrətdiyiniz" oxunuşu İbn Amirin, Asimin və əl-Kisəinin qiraətidir. تَعْلَمُونَ [tələmu:nə] "öyrəndiyiniz" oxunuşu isə yerdə qalan yeddi qiraətçilərin və başqalarının qiraətidir. (Əhməd Şakir).

Sonra Uca Allah belə buyurur: “**O sizə mələkləri və peyğəmbərləri özünüzə rəbb qəbul etməyi buyurmaz**”, yəni o sizə Allahdan başqa heç kimə – nə bir peyğəmbərə, nə də Allaha yaxın olan mələklərdən birinə ibadət etməyi buyurmaz. “**Məgər o sizə siz müsəlman olduqdan sonra küfr etməyi əmr edərmi?**”, yəni, əlbəttə, bunu etməz, çünki Allahdan başqasına ibadət etməyə çağıran, yəqin ki, küfrə çağırmış olur. Peyğəmbərlər عليهم السلام isə ancaq imanı əmr edirlər. İman isə Tək və şəriki olmayan Allaha ibadət etməkdir. Necə ki Uca Allah buyurur: “**Səndən əvvəl elə bir elçi göndərməmişik ki, ona “Məndən başqa heç bir məbud yoxdur, Mənə ibadət edin!” deyə vəhy etməyək**” (“əl-Ənbiya”, 25); “**Biz hər ümmətə “Allaha ibadət edin, tağutdan uzaq olun” deyə, elçi göndərdik**” (“ən-Nəhl”, 36); “**Səndən əvvəl göndərdiyimiz elçilərdən, onların davamçılarından soruş: “Məgər Biz Mərhəmətli Allahdan başqa ibadət ediləsi məbudlar icad etmişik?**” (“əz-Zuxruf”, 45). Mələklərdən xəbər verərək belə buyurur: “**Onlardan kimsə “Mən Ondan başqa bir məbudam!” desə, ona Cəhənnəmi qismət edərik. Biz zalımları belə cəzalandırırıq**” (“əl-Ənbiya”, 29).

﴿ وَإِذْ أَخَذَ ٱللَّهُ مِيثَٰقَ ٱلنَّبِيِّۦنَ لَمَآ ءَاتَيْتُكُم مِّن كِتَٰبٍ وَحِكْمَةٍ ثُمَّ جَآءَكُمْ رَسُولٌ مُّصَدِّقٌ لِّمَا
مَعَكُمْ لَتُؤْمِنُنَّ بِهِۦ وَلَتَنصُرُنَّهُۥ ۚ قَالَ ءَأَقْرَرْتُمْ وَأَخَذْتُمْ عَلَىٰ ذَٰلِكُمْ إِصْرِى ۖ قَالُوٓا۟ أَقْرَرْنَا ۚ قَالَ
فَٱشْهَدُوا۟ وَأَنَا۠ مَعَكُم مِّنَ ٱلشَّٰهِدِينَ ﴿٨١﴾ فَمَن تَوَلَّىٰ بَعْدَ ذَٰلِكَ فَأُو۟لَٰٓئِكَ هُمُ ٱلْفَٰسِقُونَ ﴿٨٢﴾ ﴾

**81. Bir zaman Allah peyğəmbərlərdən “Sizə Kitab və hikmət verdikdən sonra, özünüzdəkini təsdiqləyən bir elçi gəldikdə ona mütləq iman gətirib yardım edəcəksiniz” deyə əhd almış və onlara “İqrar etdinizmi, bu əhdimi öhdənizə götürdünüzmü?” demişdi. Onlar “İqrar etdik!” deyə cavab vermişdilər. Allah da belə buyurmuşdu: “Elə isə şahid olun, Mən də sizinlə bərabər şahid olanlardanam”.**

**82. Kim bundan sonra üz döndərərsə, məhz onlar fasiqlərdir.**

Uca Allah bu ayədə xəbər verir ki, Adəmdən İsaya عليه السلام qədər göndərdiyi bütün peyğəmbərlərdən əhd almışdır ki, onlara Kitab və hikmət verməsindən və onları hansı dərəcəyə yüksəltməsindən asılı olmayaraq, özlərindən sonra bir peyğəmbər gəldiyi təqdirdə ona iman gətirməli və ona yardım etməlidirlər. Sahib olduqları elm və peyğəmbərlik dərəcəsi özlərindən sonra gələn peyğəmbərə tabe olmağa və ona iman gətirməyə mane olmamalıdır. Bu səbəbdən Uca

Allah buyurur: “**Bir zaman Allah peyğəmbərlərdən “Sizə Kitab və hikmət verdikdən sonra özünüzdəkini təsdiqləyən bir elçi gəldikdə ona mütləq iman gətirib yardım edəcəksiniz” deyə əhd almış və onlara “İqrar etdinizmi, bu əhdimi öhdənizə götürdünüzmü?” demişdi**”. İbn Abbas və Mucahid رضي الله عنهم demişlər: “Yəni əhdimi qəbul etdinizmi?”

“**Onlar “İqrar etdik!” deyə cavab vermişdilər. Allah da belə buyurmuşdu: “Elə isə şahid olun, Mən də sizinlə bərabər şahid olanlardanam. Kim bundan sonra üz döndərərsə**”, yəni kim bu əhdi pozarsa, “məhz onlar fasiqlərdir”. Əli ibn Əbu Talib və əmisi oğlu Abdullah ibn Abbas رضي الله عنهم demişlər: “Uca Allah göndərdiyi hər bir peyğəmbərdən əhd almışdır ki, onlar həyatda ikən Muhəmməd peyğəmbər ﷺ gələrsə, ona iman gətirməli və ona yardım etməlidirlər. Həmçinin hər bir peyğəmbərə buyurmuşdur ki, onlar da öz ümmətlərindən “Həyatda olduğunuz zaman Muhəmməd peyğəmbər ﷺ gələrsə, ona iman gətirib, yardım edəcəksiniz”- deyə əhd alsınlar”.

Tavus, əl-Həsən əl-Bəsri və Qatədə رحمهم الله demişlər: “Allah peyğəmbərlərdən bir-birlərini təsdiq edəcəklərinə dair əhd almışdır”. Bu söz Əli və İbn Abbasın رضي الله عنهم dediklərinə zidd deyil və onu inkar etmir. Əksinə, bu iki söz bir-birini tamamlayır. Allahın Elçisi Muhəmməd ﷺ peyğəmbərlərin sonuncusudur. Allahın salavatı və salamı Qiyamətə qədər daim onun üzərinə olsun! O ən böyük rəhbərdir. Hansı əsrdə olursa olsun, bütün digər peyğəmbərlərdən əvvəl ona itaət etmək vacib olardı. Məhz bu səbəbdən Merac gecəsi peyğəmbərlər عليهم السلام Beytul-Məqdisdə toplandıqda Muhəmməd peyğəmbər ﷺ onlara imam olmuşdur. Həmçinin məhşər günü Uca Allah qulları arasında hökm vermək üçün gəldikdə o, şəfaətçi olacaq. Yalnız onun layiq olduğu Məqamul-Məhmud (tərifəlayiq məqam) da məhz budur. Bu elə bir məqamdır ki, Ulul-Əzm (möhkəm iradə sahibləri) peyğəmbərlər ondan geri çəkiləcəklər, sonunda növbə gəlib ona çatacaq və yalnız o bu məqama layiq olacaq.

﴿أَفَغَيْرَ دِينِ ٱللَّهِ يَبْغُونَ وَلَهُۥٓ أَسْلَمَ مَن فِى ٱلسَّمَٰوَٰتِ وَٱلْأَرْضِ طَوْعًا وَكَرْهًا وَإِلَيْهِ يُرْجَعُونَ
﴿٨٣﴾ قُلْ ءَامَنَّا بِٱللَّهِ وَمَآ أُنزِلَ عَلَيْنَا وَمَآ أُنزِلَ عَلَىٰٓ إِبْرَٰهِيمَ وَإِسْمَٰعِيلَ وَإِسْحَٰقَ وَيَعْقُوبَ
وَٱلْأَسْبَاطِ وَمَآ أُوتِىَ مُوسَىٰ وَعِيسَىٰ وَٱلنَّبِيُّونَ مِن رَّبِّهِمْ لَا نُفَرِّقُ بَيْنَ أَحَدٍ مِّنْهُمْ وَنَحْنُ لَهُۥ
مُسْلِمُونَ ﴿٨٤﴾ وَمَن يَبْتَغِ غَيْرَ ٱلْإِسْلَٰمِ دِينًا فَلَن يُقْبَلَ مِنْهُ وَهُوَ فِى ٱلْءَاخِرَةِ مِنَ ٱلْخَٰسِرِينَ ﴿٨٥﴾﴾

**83. Yoxsa onlar Allahın dinindən başqasınımı axtarırlar? Halbuki göylərdə və yerdə olanlar istər-istəməz Ona təslim olmuş və Ona da qaytarılacaqlar.**
**84. De: “Biz Allaha, bizə nazil olana, İbrahimə, İsmailə, İshaqa, Yaquba və onun nəslinə nazil olanlara, Musaya, İsaya və peyğəmbərlərə öz Rəbbi tərəfindən verilənlərə iman gətirdik. Biz onların heç birini digərindən fərqləndirmirik. Biz yalnız Ona təslim olanlarıq!”**
**85. Kim İslamdan başqa bir din arayarsa, bilsin ki, o din ondan əsla qəbul olunmaz və o, axirətdə ziyana uğrayanlardan olar.**

Uca Allah bu ayələrdə Allahın dinindən başqa bir din istəyənləri məzəmmət etmişdir. O din ki, Allah kitablarını onunla endirmiş, peyğəmbərlərini onunla göndərmişdir. O din Tək Allaha ibadət edib, heç nəyi Ona şərik qoşmamaqdır. “**Halbuki göylərdə və yerdə olanlar istər-istəməz Ona təslim olmuş və Ona da qaytarılacaqlar**”, yəni göylərdə və yerdə nə varsa, hamısı istər-istəməz Ona təslim olmuşdur. Necə ki başqa bir ayədə belə buyurur: “**Göylərdə və yerdə olan məxluqlar da, onların kölgələri də səhər-axşam istər-istəməz Allaha səcdə edir**” (“ər-Rad”, 15). Həmçinin buyurur: “**Məgər onlar Allahın xəlq etdiyi hər hansı bir şeyi müşahidə etməyiblərmi? Onların kölgələri müti surətdə Allaha səcdə edərək sağa-sola əyilir. Göylərdə və yerdə olanların hamısı, heyvanlar da, mələklər də təkəbbür göstərmədən Allaha səcdə qılırlar. Onlar özlərinin fövqündə olan Rəbbindən qorxur və onlara əmr olunanları yerinə yetirirlər**” (“ən-Nəhl”, 48-50). Mömin şəxs könüllü surətdə qəlbən və cismən Allaha təslim olmuşdur. Kafir isə məcburi şəkildə Allaha təslim olmuşdur, çünki o da Allahın idarəçiliyi, mütləq hakimiyyəti və əzəmətli hökmü altındadır. Heç kəsin bu hökmə qarşı çıxması və etiraz etməsi mümkün deyil. “**Ona da qaytarılacaqlar**”, yəni Qiyamət günü hamı Allaha qaytarılacaq və O da hamının əməlinin qarşılığını verəcək.

Sonra Uca Allah buyurur: “**De: “Biz Allaha, bizə nazil olana**”, yəni Qurana, “**İbrahimə, İsmailə, İshaqa, Yaquba**” nazil olan səhifələrə və vəhyə “**və onun nəslinə**”, Yaqubun nəsli onun oğullarından törəyən on iki qəbilədir, “**Musaya, İsaya**”, yəni Musaya عليه السلام verilən Tövrata və İsaya عليه السلام verilən İncilə “**və peyğəmbərlərə öz Rəbbi tərəfindən verilənlərə iman gətirdik**”. Bu ifadə bütün peyğəmbərləri şamil edir. “**Biz onların heç birini digərindən fərqləndirmirik**”, yəni, əksinə, onların hamısına iman gətirmişik. “**Biz yalnız Ona təslim olanlarıq!**”

Bu ümmətin möminləri göndərilən hər bir peyğəmbərə, endirilən hər bir kitaba iman gətirmişlər, onlardan heç birini inkar etməzlər, əksinə, onlar Allah qatından nazil edilən hər kitabı, Allahın göndərdiyi hər peyğəmbəri təsdiqləyirlər.

Sonra Uca Allah belə buyurur: "**Kim İslamdan başqa bir din arayarsa, bilsin ki, o din ondan əsla qəbul olunmaz**", yəni kim Allahın qoymuş olduğu yoldan başqa bir yol tutarsa, bu ondan əsla qəbul olunmaz "**və o, axirətdə ziyana uğrayanlardan olar**". Necə ki səhih bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Hər kim bizim dinimizdə olmayan bir əməl edərsə, o, rədd olunar".[1] İmam Əhməd رحمه الله Əbu Hureyradan رضي الله عنه rəvayət etmişdir ki, Peyğəmbər ﷺ belə demişdir: "Qiyamət günü əməllər sahibi üçün şəfaətçi olmağa gələcək. Namaz gəlib deyəcək: "Ey Rəbbim, mən namazam, sahibim üçün şəfaətçi olmağa gəlmişəm". Uca Allah deyəcək: "Sən xeyirli əməlsən". Sədəqə gəlib deyəcək: "Ey Rəbbim, mən sədəqəyəm, sahibim üçün şəfaətçi olmağa gəlmişəm". Uca Allah deyəcək: "Sən xeyirli əməlsən". Sonra oruc gələcək və deyəcək: "Ey Rəbbim, mən orucam, sahibim üçün şəfaətçi olmağa gəlmişəm". Uca Allah deyəcək: "Sən xeyirli əməlsən". Beləcə bütün əməllər sahibi üçün şəfaətçi olmağa gələcək və Uca Allah onların hamısına "Sən xeyirli əməlsən" deyəcək. Sonda İslam gələcək və deyəcək: "Ey Rəbbim, Salam (bütün nöqsanlardan və eyiblərdən uzaq) Sənsən, mən də İslamam, sahibim üçün şəfaətçi olmağa gəlmişəm". Uca Allah deyəcək: "Sən xeyirli əməlsən. Bu gün sənə görə əməlləri qəbul edəcəyəm və sənə görə mükafat verəcəyəm". Bunun təsdiqi Uca Allahın Kitabındadır. Uca Allah buyurur: "**Kim İslamdan başqa bir din arayarsa, bilsin ki, o din ondan əsla qəbul olunmaz və o, axirətdə ziyana uğrayanlardan olar**".[2] Hədisi yalnız Əhməd ibn Hənbəl رحمه الله rəvayət etmişdir.[3]

﴿كَيْفَ يَهْدِى ٱللَّهُ قَوْمًا كَفَرُوا۟ بَعْدَ إِيمَٰنِهِمْ وَشَهِدُوٓا۟ أَنَّ ٱلرَّسُولَ حَقٌّ وَجَآءَهُمُ ٱلْبَيِّنَٰتُ ۚ
وَٱللَّهُ لَا يَهْدِى ٱلْقَوْمَ ٱلظَّٰلِمِينَ ﴿٨٦﴾ أُو۟لَٰٓئِكَ جَزَآؤُهُمْ أَنَّ عَلَيْهِمْ لَعْنَةَ ٱللَّهِ وَٱلْمَلَٰٓئِكَةِ
وَٱلنَّاسِ أَجْمَعِينَ ﴿٨٧﴾ خَٰلِدِينَ فِيهَا لَا يُخَفَّفُ عَنْهُمُ ٱلْعَذَابُ وَلَا هُمْ يُنظَرُونَ ﴿٨٨﴾ إِلَّا ٱلَّذِينَ تَابُوا۟
مِنۢ بَعْدِ ذَٰلِكَ وَأَصْلَحُوا۟ فَإِنَّ ٱللَّهَ غَفُورٌ رَّحِيمٌ ﴿٨٩﴾﴾

[1] əl-Buxari və Muslim رحمهما الله Aişədən رضي الله عنها rəvayət etmişlər. Hədisin mətni Muslimə رحمه الله aiddir (2/42). Hədis "Qırx hədis" kitabında 5-ci hədisdir. əl-Buxari 2499, 2697; Muslim, 1718.

[2] Əhməd, 8727, 8742. Hədis zəifdir. Bax: Silsilə əd-Daifə, 5780.

[3] əl-Musnəd (8727), əz-Zəvaid (1/345) (Əhməd Şakir).

**86. İman gətirdikdən, Allahın göndərdiyi Rəsulun haqq olduğuna şahidlik etdikdən və özlərinə aydın dəlillər gəldikdən sonra kafir olan adamları Allah necə doğru yola yönəldər? Allah zalım adamları doğru yola yönəltməz.**
**87. Onların cəzası, həqiqətən də, Allahın, mələklərin və bütün insanların lənətinə uğramaqdır.**
**88. Onlar bu lənətin içində həmişəlik qalacaqlar. Onların əzabı yüngülləşdirilməz və onlara möhlət də verilməz.**
**89. Bundan sonra tövbə edib əməllərini islah edənlər isə istisnadır. Şübhəsiz ki, Allah Bağışlayandır, Rəhmlidir.**

İbn Cərir ﷺ İbn Abbasdan ﷺ rəvayət etmişdir ki, ənsarlardan bir kişi İslamı qəbul etmiş, sonra dindən çıxaraq Allaha şərik qoşmağa başlamışdı. Lakin sonra etdiklərinə peşman olaraq qövmünə bu xəbəri göndərmişdi: "Mənim barəmdə Peyğəmbərdən ﷺ soruşun: "Mənim tövbəm qəbul olarmı?" Bu səbəbdən Uca Allahın **"İman gətirdikdən, Allahın göndərdiyi Rəsulun haqq olduğuna şahidlik etdikdən və özlərinə aydın dəlillər gəldikdən sonra kafir olan adamları Allah necə doğru yola yönəldər?**" ayəsindən "**Bundan sonra tövbə edib əməllərini islah edənlər isə istisnadır. Şübhəsiz ki, Allah Bağışlayandır, Rəhmlidir**" ayəsinə qədər nazil oldu. Qövmü bu xəbəri ona çatdırdı və o, yenidən İslamı qəbul etdi".[1] Hədisi ən-Nəsəi, İbn Hibban və əl-Hakim ﷺ rəvayət etmişlər. əl-Hakim ﷺ demişdir: "İsnadı səhihdir, lakin əl-Buxari və Muslim rəvayət etməmişlər".

Uca Allah buyurur: "**İman gətirdikdən, Allahın göndərdiyi Rəsulun haqq olduğuna şahidlik etdikdən və özlərinə aydın dəlillər gəldikdən sonra kafir olan adamları Allah necə doğru yola yönəldər?**", yəni Peyğəmbərin ﷺ onlara gətirdiklərinin doğruluğuna dair dəlillər ortaya qoyulduqdan və Allahın dini onlara açıqlandıqdan sonra şirkin zülmətlərinə dönərək doğru yolu korluqla qarışdıranlar yenidən hidayət olunmağa necə layiq ola bilərlər? Bu səbəbdən Uca Allah ayənin sonunda "**Allah zalım adamları doğru yola yönəltməz**" buyurur. Sonra buyurur: "**Onların cəzası, həqiqətən də, Allahın, mələklərin və bütün insanların lənətinə uğramaqdır**", yəni Allah və Onun yaratdığı məxluqlar onları lənətləyəcək. "**Onlar bu lənətin içində həmişəlik qalacaqlar. Onların əzabı yüngülləşdirilməz və onlara möhlət də verilməz**", yəni onların əzabı bir an belə azalmaz və yüngülləşdirilməz.

[1] ət-Təbəri 7360, 7401; əl-Hakim, 2628, 8092; İbn Hibban, 4477. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 3066.

Sonra Uca Allah buyurur: "**Bundan sonra tövbə edib əməllərini islah edənlər isə istisnadır. Şübhəsiz ki, Allah Bağışlayandır, Rəhmlidir**". Bu, Allahın yaratdıqlarına olan lütfü, yaxşılığı və rəhmətindəndir ki, Ona tövbə edənin tövbəsini qəbul edər.

﴿ إِنَّ ٱلَّذِينَ كَفَرُواْ بَعۡدَ إِيمَٰنِهِمۡ ثُمَّ ٱزۡدَادُواْ كُفۡرٗا لَّن تُقۡبَلَ تَوۡبَتُهُمۡ وَأُوْلَٰٓئِكَ هُمُ ٱلضَّآلُّونَ ٩٠
إِنَّ ٱلَّذِينَ كَفَرُواْ وَمَاتُواْ وَهُمۡ كُفَّارٞ فَلَن يُقۡبَلَ مِنۡ أَحَدِهِم مِّلۡءُ ٱلۡأَرۡضِ ذَهَبٗا وَلَوِ ٱفۡتَدَىٰ
بِهِۦٓۗ أُوْلَٰٓئِكَ لَهُمۡ عَذَابٌ أَلِيمٞ وَمَا لَهُم مِّن نَّٰصِرِينَ ٩١ ﴾

**90. Sözsüz ki, iman gətirdikdən sonra kafir olan və küfrlərini daha da artıran kimsələrin tövbəsi əsla qəbul edilməyəcək. Məhz onlar doğru yoldan azanlardır.**

**91. Həqiqətən, kafir olub kafir kimi ölənlər dünya dolusu qızıl fidyə versələr belə, bu onların heç birindən qəbul edilməyəcək. Onlar üçün ağrılı-acılı bir əzab vardır. Onların heç köməkçiləri də yoxdur.**

Uca Allah bu ayələrdə iman gətirdikdən sonra kafir olan, sonra küfrlərini daha da artıran, yəni ölənə qədər kafir olaraq qalan kəsləri hədələyərək onların ölüm ayağında etdikləri tövbələrini qəbul etməyəcəyini xəbər verir. Necə ki Allah bu ayədə buyurur: "**Günah işlər görməkdə davam edənlərdən birinə ölüm gəldiyi zaman "Mən indi tövbə etdim!" deyənlərlə kafir kimi ölənlərin tövbəsi qəbul deyildir. Biz onlar üçün ağrılı-acılı bir əzab hazırlamışıq**" ("ən-Nisa", 18). Bu səbəbdən burada buyurur ki, onların "...**tövbəsi əsla qəbul edilməyəcək. Məhz onlar doğru yoldan azanlardır**", yəni onlar haqq yoldan çıxıb azğınlıq yoluna düşmüşlər. Əbu Bəkr əl-Bəzzər ﷼ İbn Abbasdan ﵄ rəvayət edir ki, İslam dinini qəbul etmiş bəzi adamlar dindən döndülər. Sonra yenidən İslam dininə qayıtdılar və təkrar dindən döndülər. Sonra yenidən İslama qayıtmaq üçün tayfalarına xəbər göndərərək öz halları barədə soruşdular. Onlar bu haqda Peyğəmbərdən ﷺ soruşduqda Uca Allah bu ayəni nazil etdi: "**Sözsüz ki, iman gətirdikdən sonra kafir olan və küfrlərini daha da artıran kimsələrin tövbəsi əsla qəbul edilməyəcək. Məhz onlar doğru yoldan azanlardır**". ("Ali-İmran", 90)".[1] Hədisin isnadı qüvvətlidir.

[1] əs-Suyuti "Durrul-Mənsur" 3/658. Hədis səhihdir. Bax: Muqbil ibn Hadi "Səhih Musnəd" səh. 53.

Sonra Uca Allah buyurur "**Həqiqətən, kafir olub kafir kimi ölənlər dünya dolusu qızıl fidyə versələr belə, bu onların heç birindən qəbul edilməyəcək**", yəni kafir kimi öləndən heç vaxt, hətta Allaha yaxınlaşmaq üçün dünya dolusu qızıl sərf etmiş olsa belə, xeyir əməl qəbul edilməz. Necə ki Peyğəmbərdən ﷺ Abdullah ibn Cud'anın cahiliyyə dövründə qonaqlara ehtiram etməsi, əsirləri azad etməsi və kasıblara yemək yedirtməsi barədə soruşdular: "Bu ona fayda verəcəkmi?" Peyğəmbər ﷺ buyurdu: "(Bu) ona fayda verməyəcək, çünki o heç vaxt "Ey Rəbbim! Din (Qiyamət) günü mənim xətalarımı bağışla!"[1] deməmişdir".[2]

Həmçinin əgər dünya dolusu qızıl fidyə versə belə, ondan qəbul edilməyəcəkdir. Necə ki Uca Allah bu ayələrdə bunu bildirmişdir: "**O vaxt heç kəsdən bir fidyə qəbul olunmayacaq, heç kəsə şəfaət fayda verməyəcək**" ("əl-Bəqərə", 123); "**İman gətirən qullarıma de ki, namaz qılsınlar, alış-verişin və dostluğun olmayacağı bir günün gəlməsindən əvvəl onlara verdiyimiz ruzidən Allah yolunda gizli və aşkar xərcləsinlər**" ("İbrahim", 31); "**Əgər yer üzündə olan hər şey, üstəlik bir o qədəri də kafirlərin olsa və onlar bunu Qiyamət gününün əzabından qurtulmaq üçün fidyə versələr, onlardan əsla qəbul edilməz. Onlar üçün ağrılı-acılı bir əzab vardır**" ("əl-Maidə", 36). Burada isə belə buyurur: "**Həqiqətən, kafir olub kafir kimi ölənlər dünya dolusu qızıl fidyə versələr belə, bu onların heç birindən qəbul edilməyəcək**", yəni onu heç bir şey, hətta dünya qədər qızıl vermiş olsa belə, Allahın əzabından qurtara bilməz. Canını əzabdan qurtarmaq üçün dünyanın dağları, təpələri, qumları, düzənlikləri, vadiləri, quruları və dənizləri qədər qızılı fidyə vermiş olsa belə, bu ondan əsla qəbul edilməz.

İmam Əhməd ﷺ Ənəs ibn Malikdən ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Qiyamət günü Allah Cəhənnəm əhlindən olan bir kimsəyə deyəcək: "Əgər dünyada olan hər şey sənin olsaydı, onu əzabdan xilas olmağın üçün fidyə verərdinmi?" O "Bəli!" deyə cavab verəcək. Onda Allah buyuracaq: "Sən hələ Adəmin belində ikən Mən səndən bundan daha yüngül olanı – Mənə şərik qoşmamağı tələb etmişdim. Sən isə imtina etdin və məhz şərik qoşmağı seçdin".[3] Hədisi əl-Buxari və Muslim ﷺ də rəvayət etmişlər.[4]

---

[1] Transkripsiyası: Rabbi-ğfirli xati:əti yəuməddi:n!

[2] Muslim, 315, 540.

[3] Əhməd, 123112, 12333. Şueyb əl-Arnavut isnadının əl-Buxari və Muslimin şərtlərinə əsasən səhih olduğunu bildirmişdir.

[4] əl-Buxari, 3156, 3334, 6538; Muslim, 5018, 7261.

Bu səbəbdən Uca Allah ayənin sonunda belə buyurur: "**Onlar üçün ağrılı-acılı bir əzab vardır. Onların heç köməkçiləri də yoxdur**", yəni onları Allahın üzücü əzabından qurtaracaq bir kəs tapılmaz.

﴿ لَن تَنَالُواْ ٱلْبِرَّ حَتَّىٰ تُنفِقُواْ مِمَّا تُحِبُّونَۚ وَمَا تُنفِقُواْ مِن شَيْءٖ فَإِنَّ ٱللَّهَ بِهِۦ عَلِيمٞ ٩٢ ﴾

**92. Sevdiyiniz şeylərdən Allah yolunda xərcləməyincə xeyrə nail olmazsınız. Malınızdan nə xərcləsəniz, əlbəttə ki, Allah onu bilir.**

İmam Əhməd ﷺ Ənəs ibn Malikdən ﷺ rəvayət edir ki, Mədinədə ənsarlar arasında ən çox xurma ağacı olan (səhabə) Əbu Talhə idi. Bunlardan onun ən çox sevdiyi məscidin qarşı tərəfində yerləşən Beyruhə bağı idi. Peyğəmbər ﷺ tez-tez o bağa gəlib, oradakı dadlı sudan içərdi. (Nəhayət:) "**Sevdiyiniz şeylərdən Allah yolunda xərcləməyincə xeyrə nail olmayacaqsınız...**" ayəsi nazil olduqdan sonra Əbu Talhə Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Ey Allahın Elçisi! Allah buyurur: "**Sevdiyiniz şeylərdən Allah yolunda xərcləməyincə xeyrə nail olmayacaqsınız...**" Mənim də ən çox sevdiyim mal Beyruhə bağıdır. Mən onu Allah yolunda sədəqə verirəm və ümid edirəm ki, Allah yanında bundan da xeyirlisini – Axirət mükafatını tapacağam. Götür onu, Allahın sənə məsləhət gördüyü işlərə sərf et, ey Allahın Elçisi!" Peyğəmbər ﷺ buyurdu: "Çox gözəl! Bu mal qazanc gətirəcək, mütləq qazanc gətirəcək! Sənin dediyini eşitdim, lakin məsləhət görürəm ki, bunu öz qohum-əqrəbana sərf edəsən". Əbu Talhə "Belə də edərəm, ey Allahın Elçisi!" dedi, sonra da onu qohum-əqrəbasının və əmisi oğullarının arasında paylaşdırdı".[1] Bu hədisi əl-Buxari və Muslim ﷺ də rəvayət etmişlər.

Yenə əl-Buxari və Muslimin "Səhih" əsərlərində rəvayət edilir ki, Ömər ﷺ demişdir: "Ey Allahın Elçisi, Xeybər döyüşündə əldə etdiyim qənimətdən payıma düşən hissədən daha dəyərli malım yoxdur. Onu Allah yolunda sədəqə vermək istəyirəm. Nə əmr edərdin?" Peyğəmbər ﷺ dedi: "Əslini[2] sədəqə ver ki, nə satılsın, nə hədiyyə verilsin, nə də miras qalsın. Ancaq meyvəsi paylanılsın".[3]

[1] əl-Buxari, 1368, 1416.
[2] Söhbət xurma ağaclarını vəqf etməkdən gedir.
[3] əl-Buxari, 2558, 2764.

﴿كُلُّ ٱلطَّعَامِ كَانَ حِلًّا لِّبَنِىٓ إِسْرَٰٓءِيلَ إِلَّا مَا حَرَّمَ إِسْرَٰٓءِيلُ عَلَىٰ نَفْسِهِۦ مِن قَبْلِ أَن تُنَزَّلَ ٱلتَّوْرَىٰةُ ۗ
قُلْ فَأْتُوا۟ بِٱلتَّوْرَىٰةِ فَٱتْلُوهَآ إِن كُنتُمْ صَٰدِقِينَ ﴿٩٣﴾ فَمَنِ ٱفْتَرَىٰ عَلَى ٱللَّهِ ٱلْكَذِبَ مِنۢ بَعْدِ ذَٰلِكَ فَأُو۟لَٰٓئِكَ
هُمُ ٱلظَّٰلِمُونَ ﴿٩٤﴾ قُلْ صَدَقَ ٱللَّهُ ۗ فَٱتَّبِعُوا۟ مِلَّةَ إِبْرَٰهِيمَ حَنِيفًا ۖ وَمَا كَانَ مِنَ ٱلْمُشْرِكِينَ ﴿٩٥﴾﴾

**93. Tövrat nazil olmamışdan əvvəl İsrailin** (Yaqubun) **özünə haram etdiklərindən savayı, bütün yeməklər İsrail oğullarına halal idi. De: "Əgər doğru danışanlarsınızsa, Tövratı gətirin və onu oxuyun!"**

**94. Artıq kim bundan sonra Allaha qarşı yalan uydurarsa, məhz onlar zalımlardır.**

**95. De: "Allah doğru söyləmişdir. Elə isə İbrahimin hənif dininə tabe olun. O, müşriklərdən deyildi."**

İmam Əhməd ﷺ İbn Abbasdan رضي الله عنهما rəvayət etmişdir ki, bir dəstə yəhudi Peyğəmbərin ﷺ yanına gəlib dedilər: "Bizə peyğəmbərlərdən başqa heç kimin bilmədiyi üç xüsusiyyət barəsində danış. [Sonra İbn Kəsir hədisin ardını qeyd etmişdir. Hədisdə qeyd olunur ki, onlar demişlər:] "İsrailin (Yaqubun) özünə haram etdiyi yemək hansıdır? [Peyğəmbər ﷺ onların bu sualına cavab verərək dedi:] "Sizi, Musaya Tövratı nazil edən Allaha and verirəm, İsrailin, yəni Yaqubun عليه السلام çox şiddətli xəstəliyə tutulduğunu bilirsinizmi? Xəstəliyi uzun müddət davam etdiyinə görə o, Allaha nəzir etmişdi ki, əgər Allah ona şəfa versə, ən sevimli yeməyini və ən sevimli içkisini özünə haram edəcək. Onun ən sevimli yeməyi dəvə əti, ən sevimli içkisi də onun südü idi". Onlar dedilər: "Allaha and olsun ki, belə olub". Peyğəmbər ﷺ dedi: "Allahım! Sən onların dediklərinə şahid ol!"[1]

Uca Allah buyurur: "**Tövrat nazil olmamışdan əvvəl**", yəni İsrail bunu özünə Tövrat nazil olmamışdan əvvəl haram etmişdi. Mən deyirəm: "Bu ayənin əvvəl keçən ayələrlə iki cəhətdən uyğunluğu var:

Birincisi, İsrail (Yaqub) عليه السلام özünə ən sevimli olan şeyləri haram etmişdi və onları Allah üçün tərk etmişdi. Belə etmək onun şəriətinə görə icazəli idi. Uca Allahın "**Sevdiyiniz şeylərdən Allah yolunda xərcləməyincə xeyrə nail olmazsınız**" ayəsindən sonra bu ayənin gəlməsi münasibdir. Bizim şəriətimizdə buyurulan da budur ki, bəndə sevdiyi və arzuladığı şeylərdən Allaha itaət yolunda sərf etsin. Necə

[1] ət-Təbəri, 7411; İbn Əbu Hatim, 953; əl-Hakim, 3152. əl-Hakim ﷺ demişdir: "əl-Buxari və Muslimin şərtlərinə əsasən səhihdir". Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 3557.

ki Uca Allah buyurur: "**Sevdiyi malı qohum-əqrəbaya, yetimlərə, kasıblara, müsafirlərə, dilənənlərə və kölələrin azad edilməsinə sərf edən...**" ("əl-Bəqərə", 177). "**Onlar özlərinin istədikləri şeylərdən kasıba, yetimə, əsirə verər**" ("əl-İnsan", 8).

İkincisi, əvvəlki ayələrdə xaçpərəstlərin Məsih عليه السلام barədə batil inancları rədd edilməklə bu inanclarının yanlış olduğu açıqlandı, İsa və anası عليهما السلام barədə həqiqətlər bilindi. Allahın onu Öz qüdrəti və istəyi ilə necə yaratdığı, onu İsrail oğullarına peyğəmbər göndərib onları Rəbbinə ibadətə çağırması bildirildi. Bu ayədə isə Uca Allah yəhudilərə rədd cavabı verərək baş verməsini və mümkün olmasını inkar etdikləri nəsxin (bir şəriət hökmünün digəri ilə əvəz olunmasının) baş verdiyini bildirir. Uca Allah onların öz kitabları Tövratda bildirmişdir ki, Nuh gəmidən endikdən sonra Allah ona yer üzünün bütün heyvanlarını yeməyi icazə vermişdi, bundan sonra İsrail عليه السلام dəvə ətini və südünü özünə haram etmişdi, oğulları da bu məsələdə ona tabe olmuşdu. Tövratda da bu və bundan başqa yeməklərin haram olduğunu bildirildi. Həmçinin Uca Allah Adəmə عليه السلام qızlarını oğulları ilə evləndirməyə icazə vermişdi. Sonradan bunu qadağan etdi. İbrahimin عليه السلام şəriətinə görə, həyat yoldaşından əlavə kəniz saxlamaq icazəli idi. Belə ki Allahın sevimli dostu İbrahim عليه السلام həyat yoldaşı Saradan əlavə Həcəri kəniz götürmüşdü. Sonradan bu, Tövratda yəhudilərə qadağan olundu. Həmçinin iki bacı ilə eyni vaxtda evli olmaq icazəli idi. Necə ki Yaqub عليه السلام iki bacı ilə eyni vaxtda nikahda idi. Sonra bu, yəhudilərə Tövratda qadağan olundu. Bütün bunlar əllərindəki Tövratda qeyd edilmişdir. Nəsx də elə budur. Eyni şəkildə, yəhudilərə Məsihin عليه السلام Tövratda qadağan olunan bəzi şeyləri halal etməsinə tabe olmağa nə mane oldu? Niyə ona tabe olmadılar? Əksinə, onu yalançı sayıb ona qarşı çıxdılar. Allahın Muhəmmədə ﷺ göndərdiyi haqq din və doğru yol da belədir. Atası İbrahimin عليه السلام dini də bu idi. Nə üçün ona iman gətirmədilər? Bu səbəbdən Uca Allah belə buyurur: "**Tövrat nazil olmamışdan əvvəl İsrailin (Yaqubun) özünə haram etdiklərindən savayı, bütün yeməklər İsrail oğullarına halal idi**", yəni Tövrat nazil olmamışdan əvvəl İsrailin özünə haram etdiklərindən başqa bütün yeməklər yəhudilərə halal idi. Sonra Uca Allah buyurur: "**De: "Əgər doğru danışanlarsınızsa, Tövratı gətirin və onu oxuyun!**" Çünki Tövrat da bizim dediklərimizin eynisini deyir. "**Artıq kim bundan sonra Allaha qarşı yalan uydurarsa, məhz onlar zalımlardır**", yəni şəriətdə nəsxin (bir şəriət hökmünün ləğv edilib, digəri ilə əvəz olunmasının) baş verdiyinə dair gətirdiyimiz

açıqlamadan sonra kim Allaha qarşı yalan danışıb şənbə gününə hörmətlə yanaşmazsa, Tövratda olanlara daim əməl etməzsə, açıq-aşkar dəlillərlə Allaha çağıran başqa bir peyğəmbər göndərilmədiyini iddia edərsə, "**məhz onlar zalımlardır**".

Sonra Uca Allah buyurur: "**De:** "Ey Muhəmməd, "**Allah doğru söyləmişdir**", yəni Quranda xəbər verdiyi və şəriət olaraq qoyduğu qanunlarda Allah doğru buyurmuşdur. "**Elə isə İbrahimin hənif dininə tabe olun. O, müşriklərdən deyildi**", yəni o halda Allahın Quranda Muhəmmədin dili ilə qoymuş olduğu İbrahimin dininə tabe olun. O özündə heç şəkk-şübhə doğurmayan haqq dindir. Bu elə bir yoldur ki, heç bir peyğəmbər öz ümmətini bundan daha kamil, daha aydın, daha aşkar və daha mükəmməl bir yola yönəltməmişdir. Necə ki Uca Allah buyurur: "**De: "Həqiqətən, Rəbbim məni doğru yola, həqiqi dinə, hənif İbrahimin dininə yönəltdi. O heç vaxt müşriklərdən olmamışdı**" ("əl-Ənam", 161). "**Sonra sənə belə vəhy etdik: "Hənif İbrahimin dininə tabe ol. O, müşriklərdən deyildi**" ("ən-Nəhl", 123).

﴿ إِنَّ أَوَّلَ بَيْتٍ وُضِعَ لِلنَّاسِ لَلَّذِي بِبَكَّةَ مُبَارَكًا وَهُدًى لِّلْعَالَمِينَ ﴿٩٦﴾ فِيهِ ءَايَٰتٌۢ بَيِّنَٰتٌ مَّقَامُ إِبْرَٰهِيمَ ۖ
وَمَن دَخَلَهُۥ كَانَ ءَامِنًا ۗ وَلِلَّهِ عَلَى ٱلنَّاسِ حِجُّ ٱلْبَيْتِ مَنِ ٱسْتَطَاعَ إِلَيْهِ سَبِيلًا ۚ وَمَن كَفَرَ فَإِنَّ ٱللَّهَ غَنِىٌّ
عَنِ ٱلْعَٰلَمِينَ ﴿٩٧﴾ ﴾

**96. Həqiqətən, aləmlərə bərəkət və hidayət qaynağı kimi insanlar üçün ilk qurulan ev Bəkkədədir.**

**97. Orada aydın nişanələr – İbrahimin məqamı vardır. Ora daxil olan kəs əmin-amanlıqda olar. Yoluna gücü çatan hər kəsin müqəddəs Evi ziyarət etməsi Allahın insanlar üzərindəki haqqıdır. Kim bunu inkar edərsə, bilsin ki, Allahın aləmlərə ehtiyacı yoxdur.**

Uca Allah bu ayələrdə bildirir ki, insanların ibadət etmələri, qurban kəsmələri, ona tərəf namaz qılmaları və yanında etiqad etmələri üçün "**ilk qurulan ev Bəkkədədir**", yəni İbrahimin ﷷ tikdiyi Kəbədir. O İbrahim ki, həm xaçpərəstlər, həm də yəhudilər onun dinində və yolunda olduqlarını iddia edirlər, lakin İbrahimin Allahın əmri ilə tikdiyi və insanları həcc etməyə çağırdığı evi (Kəbəni) həcc etmirlər. Bunun üçün Uca Allah ayədə "**aləmlərə bərəkət və hidayət qaynağı**" buyurur. Yəni çox mübarək olaraq qurulan və aləmlərə hidayət qaynağı olan Kəbədir.

İmam Əhməd ﷺ rəvayət etmişdir ki, Əbu Zərr ﷺ demişdir: "Bir dəfə mən Peyğəmbərdən ﷺ soruşdum: "Ey Allahın Elçisi, yer üzündə ilk tikilmiş məscid hansıdır?" Peyğəmbər ﷺ "Məscidul-Həramdır" dedi. Mən soruşdum: "Sonra hansıdır?" Peyğəmbər ﷺ "Məscidul-Əqsadır[1]" dedi. Mən soruşdum: "Birinci tikildikdən neçə il sonra ikinci tikilib?" Peyğəmbər ﷺ "Qırx il" deyə cavab verdi. Mən soruşdum: "Sonra harada namaz qılmaq olar?" Peyğəmbər ﷺ dedi: "Harada namaz vaxtına yetişsən, (oradaca) namazını qıl! Yer üzünün hər yeri məsciddir".[2] Hədisi əl-Buxari və Muslim də rəvayət etmişlər.[3]

İbn Əbu Hatim ﷺ rəvayət etmişdir ki, Əli ﷺ Uca Allahın "**Həqiqətən, aləmlərə bərəkət və hidayət qaynağı kimi insanlar üçün ilk qurulan ev Bəkkədədir**" ayəsi barədə demişdir: "Kəbə tikilməmişdən əvvəl namazgah evlər idi. Kəbə Allaha ibadət üçün tikilən ilk evdir".[4] Xalid ibn Ar'ara ﷺ rəvayət edir ki, bir dəfə bir kişi Əlidən ﷺ soruşdu: "Mənə Kəbə haqqında danışa bilərsənmi? O, yer üzündə ilk qurulan evdirmi?" Əli ﷺ dedi: "Xeyr, lakin o elə bir evdir ki, orada bərəkət və İbrahimin məqamı var. Habelə, ora daxil olan kəs əmin-amanlıqda olar".[5] əs-Suddi ﷺ birmənalı olaraq yer üzündə ilk qurulan evin Kəbə olduğunu iddia etmişdir, lakin doğru olan Əlinin ﷺ sözüdür.

Uca Allahın "**İnsanlar üçün ilk qurulan ev Bəkkədədir**" ayəsindəki "Bəkkə" sözü, məşhur olan rəyə görə, Məkkənin adlarındandır. Bəzi alimlərin dediyinə görə, "Bəkkə" sözü ərəbcə بَكَّ [bəkkə] "qırmaq, sındırmaq" feilindən düzəlib, bu şəhər zalım və qəddar insanları sındırıb haqqa boyun əydirdiyinə görə belə adlanmışdır. Yəni qəddar və zalımlar orada sınıb müti olurlar. Başqa bir rəyə görə, بَاكَّ [bə:kkə] "sıxlaşmaq" feilindən düzəlib, insanların orada toplanaraq izdiham yaratdığına görə belə adlanmışdır. İbn Abbas ﷺ demişdir: "Məkkə

[1] Qüdsdəki məscid.

[2] Əhməd, 21371, 21659; əl-Buxari, 3115, 3366; Muslim, 808, 1189.

[3] əl-Musnəd (5/150 Hələbi nəşri), əl-Buxari (6/290-292, 332-333 Fəthul-Bari), Muslim (1/146). ət-Təbəri (7434) hədisin əvvəlini rəvayət etmişdir. (Əhməd Şakir).

[4] İbn Əbu Hatimin ﷺ rəvayət etdiyi isnadda Mucəlid ibn Səid var. Onun rəvayəti ilə gələn hədis həsəndir. əl-Hafiz İbn Həcər "Fəthul-Bari" əsərində (6/290) bu rəvayəti Əlidən ﷺ nəql etmiş və demişdir: "İshaq ibn Rahaveyh, İbn Əbu Hatim və başqaları səhih isnadla rəvayət etmişlər". Ola bilsin hədisin başqa sənədi də var və ya İbn Həcər ﷺ Mucalidin rəvayətini səhih görür. (Əhməd Şakir). İbn Əbu Hatim, 3827. Hədis səhihdir. Bax: əs-Səmərul-Mustətab, səh. 513.

[5] Hədisin isnadı səhihdir. ət-Təbəri (2058-2060, 7422, 7423). əl-Hafiz İbn Kəsir ﷺ hədisi uzun şəkildə rəvayət etmişdir. Biz hədisi ixtisar etdik və "əl-Bəqərə" surəsinin 125-128-ci ayələrinin təfsirində buna işarə etmişik. (Əhməd Şakir).

şəhəri Fəccdən ət-Tənimə qədər olan ərazinin, Bəkkə isə Kəbədən əl-Bəthaya qədər olan ərazinin adıdır". İbrahim ﷺ demişdir: "Bəkkə, Ev (Kəbə) və Məsciddir". əz-Zuhri ﷺ də belə söyləmişdir. İkrimə ﷺ demişdir: "Kəbə və ətrafı Bəkkədir. Bundan kənar ərazilər isə Məkkədir". Məkkənin bir çox adları qeyd edilib. Bəziləri bunlardır: Məkkə, Bəkkə, Beytul-Ətiq (Qədim ev), Beytul-Haram, Bələdul-Əmin (Təhlükəsiz şəhər), Ummul-Qura (Şəhərlərin anası), əl-Qadis – günahlardan təmizlədiyi üçün belə adlanıb, əl-Muqəddəsə (Müqəddəs), əl-Bəldə və əl-Kəbə.

Uca Allah buyurur: "**Orada aydın nişanələr...**", yəni oranın İbrahim tərəfindən tikildiyinə və Allahın oranı ucaldıb şərəfləndirdiyinə dair aydın əlamətlər **– "İbrahimin məqamı vardır**", yəni Kəbənin inşası əsnasında İbrahim ﷺ təməl və divarlarının yüksəldilməsində ondan istifadə etmişdir. İbrahim ﷺ onun üzərində dayanar, oğlu İsmail ﷺ isə ona daş və vəsait verərdi. İbrahimin ﷺ məqamı Kəbənin divarına bitişik idi. Ömər ﷺ xəlifə olduğu dövrdə Kəbəni təvaf edənlərin rahat təvaf edə bilmələri və təvafdan sonra orada namaz qılanlara mane olmamaları üçün onu şərqə doğru geri çəkdirdi. Çünki Uca Allah "**İbrahimin durduğu yeri namazgah edin!**" ("əl-Bəqərə", 125) buyurmaqla bizə onun yanında namaz qılmağı əmr etmişdir. Bu mövzu ilə əlaqəli hədisləri əvvəl ("əl-Bəqərə" surəsinin təfsirində) qeyd etdiyimiz üçün burada təkrarlanmasına lüzum görmürük. Həmd Allahadır və nemət Allahdandır.

İbn Abbas ﷺ Uca Allahın "**Orada aydın nişanələr – İbrahimin məqamı vardır**" ayəsi barədə demişdir: "İbrahimin məqamı və Məşair (həcc zamanı ziyarət edilən yerlər) bu aydın nişanələrdəndir". Mucahid ﷺ demişdir: "Daşın üzərində İbrahimin iki ayaq izinin olması açıq-aydın nişanədir". Bu rəy həmçinin Ömər ibn Abdul-Əziz, əl-Həsən, Qatədə və başqalarından ﷺ rəvayət edilmişdir.

Uca Allah buyurur: "**Ora daxil olan kəs əmin-amanlıqda olar**", yəni qorxan adam Məkkənin "Haram" ərazisinə daxil olarsa, orada hər cür pislikdən qorunaraq əmin-amanlıqda olar. Bu, cahiliyyə dövründə də belə idi. əl-Həsən əl-Bəsri və başqalarının ﷺ dediyi kimi, "Bir adam başqasını öldürər sonra zahidliyə başlayıb Məscidul-Harama xidmət etmək və ibadətlə məşğul olmaq üçün oraya girərdi. Məscidul-Haramda öldürülənin oğlu ilə qarşılaşar və o ona hücum etməz, onu öldürməyə cəhd etməz, Haramın sərhədlərindən çıxmasını gözləyərdi". Uca Allah bu xüsusda başqa ayələrdə buyurur: "**Məgər**

**onlar, ətraflarındakı insanlar yaxalandıqları halda, Məkkəni onlar üçün müqəddəs, təhlükəsiz bir yer etdiyimizi görmürlərmi?"** ("əl-Ənkəbut", 67) "**Qoy onlar bu Evin Rəbbinə ibadət etsinlər. Allah onlara aclıqdan sonra yemək verdi və qorxudan sonra əmin-amanlıq bəxş etdi**" ("əl-Qureyş", 3-4). Həmçinin orada ov etmək, ov heyvanlarını yuvalarından qovmaq, ağacları kəsmək, otları qoparmağın qadağan olması bu ərazinin haram olmasının əlamətlərindəndir. Necə ki bu barədə bir çox səhabələrdən müxtəlif hədis və xəbərlər rəvayət edilmişdir. Bu xəbərlərin bir qismi Peyğəmbərə ﷺ, digər bir qismi isə səhabələrə nisbət olunaraq rəvayət olunur. əl-Buxari və Muslimin "Səhih" əsərlərində (mətn Muslimindir) İbn Abbasdan رضي الله عنهما rəvayət edilir ki, Peyğəmbər ﷺ Məkkənin fəthi günü demişdir: "Bu gündən etibarən artıq hicrət etməyə lüzum yoxdur, lakin cihad etmək və niyyət vardır. Əgər sizi cihada çağırsalar, tələsin!" Həmçinin Məkkənin fəthi günü demişdir: "Həqiqətən, Allah, bu şəhəri, göyləri və yeri yaratdığı gündən bəri haram etmişdir və Allahın onu haram etməsi ilə Qiyamətə qədər haram olaraq qalacaq. Burada məndən əvvəl heç kimə döyüşmək halal edilməmişdir. Mənim üçün isə ancaq günün bir saatında halal buyrulmuşdur və bundan sonra Allahın onu haram etməsi ilə Qiyamətə qədər haram olaraq qalacaq. Elə buna görə də, Məkkədə tikan kəsilməməli, ov hürküdülməməli, sahibini axtarıb-tapmaq istəyən istisna olmaqla itmiş əşya götürülməməli, ağaclarına balta dəyməməlidir". Abbas dedi: "Ətirli qamışdan başqa, ey Allahın Elçisi! Axı onu dəmirçilər od qalayarkən və insanlar evlərin üstünü örtmək üçün istifadə edirlər". Peyğəmbər ﷺ də "Ətirli qamışdan başqa" deyə buyurdu".[1] əl-Buxari və Muslimdə Əbu Hureyradan رضي الله عنه rəvayət edilən buna oxşar daha bir hədis var. Yenə əl-Buxari və Muslimin "Səhih" əsərlərində (mətn Muslimindir) rəvayət olunur ki, Əbu Şureyh əl-Adəvi رضي الله عنه Məkkəyə həcc ziyarəti üçün karvan göndərən Amr ibn Səidə رضي الله عنه belə dedi: "Ey Əmir, mənə izn ver Məkkənin fəthinin ertəsi günü Peyğəmbərin ﷺ dediyi sözləri sənə danışım. O sözləri mənim bu qulaqlarım eşitdi, qəlbim duydu və o bu sözləri söyləyərkən gözlərim onu gördü. Peyğəmbər ﷺ Allaha həmd edib Onun şəninə təriflər dedikdən sonra belə buyurdu: "Məkkənin toxunulmaz olduğunu insanlar deyil, məhz Allah buyurmuşdur. Odur ki Allaha və Axirət gününə iman gətirən adama orada nə qan tökmək, nə də bir

[1] Muslim (1/383), əl-Buxari (6/202-203 Fəthul-Bari). Bu hədis həmçinin "əl-Bəqərə" surəsinin 125-ci ayəsinin təfsirində keçdi. (Əhməd Şakir). Muslim, 2412, 3668; əl-Buxari, 2951, 3189.

ağac baltalamaq halal olmaz. Əgər kimsə Allahın Elçisinin ﷺ orada döyüşdüyünü əlində əsas tutaraq buna rüsxət versə, (ona) "Allah Öz Elçisinə izn vermişdir, sizə isə izn verməmişdir" deyin. O mənə yalnız bu günün bir saatında belə etməyə izn verdi və bu gün (Məkkə), yenə də dünənki kimi toxunulmaz oldu. Qoy burada olanlar (eşitdiklərini) aramızda olmayanlara təbliğ etsinlər". Əbu Şureyhdən soruşdular: "Bəs Amr sənə nə dedi?" Əbu Şureyh dedi: "Amr: "Ey Əbu Şureyh, bunu mən səndən daha yaxşı bilirəm. Həqiqətən, Haram, günahkara və qatil olduğu üçün və ya şəriətə müxalif olan bir əməl etdiyi üçün qaçıb gizlənənə sığınacaq verməz", dedi".[1] Cabirdən رضي الله عنه rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: "Heç birinizə Məkkədə silah daşımaq halal deyildir".[2] Muslim rəvayət etmişdir. Abdullah ibn Adiy رضي الله عنه rəvayət edir ki, mən Peyğəmbərin ﷺ (Mədinəyə hicrəti ərəfəsində) Məkkədəki əl-Həzvəra[3] bazarında dayanıb belə dediyini eşitdim: "Allaha and olsun ki, sən (Məkkə) Allahın yer üzündəki ən xeyirli və ən sevimli diyarısan. Əgər məni buradan çıxartmasaydılar, mən buranı tərk etməzdim".[4] Hədisi İmam Əhməd رحمه الله rəvayət etmişdir və mətn də ona aiddir. Həmçinin ət-Tirmizi, ən-Nəsəi və İbn Məcə رحمه الله rəvayət etmişlər. ət-Tirmizi رحمه الله hədisi "həsən-səhih" adlandırmış[5] və İbn Abbasın رضي الله عنهما da buna oxşar səhih hədis rəvayət etdiyini bildirmişdir. Əhməd رحمه الله oxşar hədisi Əbu Hureyradan رضي الله عنه rəvayət etmişdir.

Uca Allah buyurur: "**Yoluna gücü çatan hər kəsin müqəddəs Evi ziyarət etməsi Allahın insanlar üzərindəki haqqıdır**". Əksər alimlərin rəyinə görə, bu ayə həcc ibadətinin vacib olduğunu bildirir. Bəzi alimlər isə həcc ibadətinin Uca Allahın "**Allah üçün həcc və ümrəni tam yerinə yetirin**" ("əl-Bəqərə", 196) ayəsinə görə vacib olduğunu demişlər. Birinci rəy daha güclüdür. Həccin İslamın təməl rüknlərindən və əsaslarından biri olduğuna dair çox sayda hədislər varid olmuşdur. Həmçinin müsəlman alimlərinin bu mövzuda yekdil rəyi vardır. Mükəlləf olan adama ömründə bir dəfə həcc etməyin fərz olması dəlillərlə və müsəlman alimlərinin icması (yekdil rəyi) ilə təsdiq olunmuşdur. İmam Əhməd رحمه الله Əbu Hureyradan رضي الله عنه rəvayət

[1] Muslim (1/383-384), əl-Musnəd (16444, 16448), əl-Buxari (1/176-177, 4/35-39 Fəthul-Bari). ət-Təbəri رحمه الله hədisin bir hissəsini rəvayət etmişdir (2027). (Əhməd Şakir). Muslim, 2413, 3370; əl-Buxari, 1701, 1832.

[2] Muslim, 2416, 3373.

[3] əl-Həzvəra Kəbəyə yaxın olan yer adıdır. Hal-hazırda məscid genişləndiyi üçün məscidin daxilindədir.

[4] Əhməd, 18737, 18715, 18922; İbn Məcə, 3108. Hədis səhihdir. Bax: Mişkətul-Məsabih, 2725.

[5] əl-Musnəd (4/305 Hələbi nəşri). (Əhməd Şakir).

edir ki, bir dəfə Peyğəmbər ﷺ bizə xütbə verdi və belə buyurdu: "Ey insanlar, həcc sizə vacib edildi, odur ki həcc edin!" Bir kişi "Ey Allahın Elçisi, hər il?" deyə soruşdu. Peyğəmbər ﷺ susdu. Kişi sualını üç dəfə təkrarladı. Peyğəmbər ﷺ dedi: "Əgər "bəli" desəydim, artıq hər il həcc etmək sizə vacib olardı və sizin də buna gücünüz çatmazdı". Sonra Peyğəmbər ﷺ sözünə davam edərək dedi: "Mən sizə bir şey buyurmadığım müddətcə siz də mənə sual verməyin. Həqiqətən, sizdən əvvəlkiləri peyğəmbərlərinə çox sual vermələri və ona müxalif olmaları həlak etdi. Sizə nəyi əmr edirəmsə, onu gücünüz çatdığınız qədər yerinə yetirin. Nədən çəkindirirəmsə, ondan çəkinin!"[1] Hədisi Muslim də oxşar mətnlə rəvayət etmişdir.[2] İbn Abbas رضي الله عنهما rəvayət edir ki, bir dəfə Peyğəmbər ﷺ bizə xütbə verdi və buyurdu: "Ey insanlar, Allah sizə həcci vacib etdi". Əqra ibn Həbis رضي الله عنه qalxdı və dedi: "Ey Allahın Elçisi, həcc etmək hər il vacibdir?" Peyğəmbər ﷺ dedi: "Əgər "bəli" desəydim, vacib olacaqdı. Vacib olsaydı, bunu etməyə gücünüz çatmazdı və yerinə yetirə bilməzdiniz. Həcc ömürdə bir dəfədir. Kim bundan artıq etsə, onun üçün nafilədir".[3] Bu hədisi İmam Əhməd, Əbu Davud, ən-Nəsəi, İbn Məcə və əl-Hakim رحمهم الله rəvayət etmişlər.[4] Eyni hədis Usəmə ibn Zeyddən رضي الله عنهما də rəvayət edilmişdir.

əl-Buxari və Muslim "Səhih" əsərlərində Cabirdən رضي الله عنه rəvayət etmişlər ki, bir dəfə Suraqa ibn Malik Peyğəmbərdən ﷺ soruşdu: "Ey Allahın Elçisi, həcdən əvvəl ümrə etmək (təməttu həcci) yalnız bu ilə aiddir, yoxsa həmişə etmək olar?" Peyğəmbər ﷺ dedi: "Xeyr, həmişə etmək olar". Başqa bir rəvayətdə "Xeyr, həmişə, həmişə etmək olar" deyə buyurdu.[5] İmam Əhmədin "əl-Musnəd" və Əbu Davudun "Sunən" əsərlərində Əbu Vaqid əl-Leysidən رضي الله عنه rəvayət olunur ki, Peyğəmbər ﷺ (vida həccində) zövcələrinə dedi: "Həcciniz bundan ibarətdir. Sonra evinizə bağlanıb çölə çıxmayacaqsınız".[6] Yəni bu həcdən sonra evlərinizə bağlanın və çölə çıxmayın.

[1] Əhməd, 10607, 10615. Hədis səhihdir. Bax: Mişkətul-Məsabih, 2505.

[2] əl-Musnəd (10615), Muslim (1/379). (Əhməd Şakir). Muslim, 2380, 3321.

[3] Əhməd, 2642; əl-Hakim, 3155. Hədis səhihdir. Bax: İrvaul-Ğalil, 980.

[4] əl-Musnəd əsərində bir neçə yerdə gəlmişdir. Ən birincisi (2304) saylı hədisdir. əl-Hakim (2/293) əl-Buxari və Muslimin şərtlərinə görə səhih olduğunu bildirmişdir. əz-Zəhəbi رحمه الله bununla razılaşmışdır. (Əhməd Şakir).

[5] Bu hədis Cabirin Suraqa ibn Malikdən rəvayət etdiyi hədisin bir hissəsidir. əl-Buxari (4/484-485 Fəthul-Bari), Muslim (1/344-345) (Əhməd Şakir). əl-Buxari, 1660, 1785; Muslim, 2131, 3002.

[6] əl-Musnəd (5/218-219 Hələbi nəşri), Əbu Davud (1722). Hədisin isnadları səhihdir. Həmçinin Əhməd Əbu Hureyradan رضي الله عنه səhih isnadla rəvayət etmişdir (9764). (Əhməd Şakir). Əbu Davud, 1722, 1724; Əhməd, 21955, 22250. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 2401.

Həcc etmək üçün güc tələb olunmasına gəlincə, bunun halları var. Bəzən insan tək halda, bəzən isə başqası ilə həcc etməyə gücü çatır. Necə ki bu xüsus fiqh kitablarında ətraflı izah olunur. əl-Hakim ﷬ Ənəsdən ﷺ rəvayət etmişdir ki, bir dəfə Peyğəmbər ﷺ Uca Allahın "**Yoluna gücü çatan hər kəsin müqəddəs Evi ziyarət etməsi Allahın insanlar üzərindəki haqqıdır"** ayəsi haqqında soruşularaq "Ayədəki **"Yoluna gücü çatan...**" dedikdə nə nəzərdə tutulur?" deyildi. Peyğəmbər ﷺ "Azuqə və minik" deyə cavab verdi". Sonra əl-Hakim ﷬ demişdir: "Hədis Muslimin şərtinə görə səhihdir, lakin əl-Buxari və Muslim rəvayət etməmişlər".[1] İmam Əhməd ﷬ İbn Abbasdan ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ belə buyurdu: "Vacib olan həcci yerinə yetirməyə tələsin! Çünki sizlərdən heç kəs sabah başına nə gələcəyini bilə bilməz".[2] Həmçinin İbn Abbasdan ﷺ rəvayət edilir ki, Peyğəmbər ﷺ belə demişdir: "Kim həcc etmək istəyirsə, tələssin!"[3] Hədisi Əbu Davud ﷬ rəvayət etmişdir.[4]

Uca Allah buyurur: "**Kim bunu inkar edərsə, bilsin ki, Allahın aləmlərə ehtiyacı yoxdur**". İbn Abbas, Mucahid və bir çoxları ﷬ demişlər: "Yəni kim həccin fərz olduğunu inkar edərsə, küfr etmiş olar və Allahın ona ehtiyacı yoxdur". Hafiz Əbu Bəkr əl-İsmaili ﷬ rəvayət etmişdir ki, Ömər ibn əl-Xattab ﷺ demişdir: "Həcc etməyə gücü çatdığı halda həccə getməyənin və bu halda ölənin yəhudi və ya xaçpərəst kimi ölməsi arasında heç bir fərq yoxdur".[5] Bu hədisin Ömərə ﷺ qədər isnadı səhihdir. Səid ibn Mənsur "Sunən" əsərində əl-Həsən əl-Bəsridən ﷬ rəvayət etmişdir ki, Ömər ibn əl-Xattab ﷺ demişdir: "İstərdim bu şəhərlərə adamlar göndərim və baxsınlar ki, həcc etməyə gücü çatdığı halda həccə getməyənlər varsa, onların üzərinə cizyə vergisi qoysunlar. Çünki onlar müsəlman deyil, onlar müsəlman deyil".[6]

---

[1] əl-Hakim ﷬ iki isnadla (1/441-442) rəvayət etmişdir. Bu isnadlardan birinin əl-Buxari və Muslimin şərtlərinə görə səhih olduğunu, digərinin isə Muslimin şərtlərinə görə səhih olduğunu bildirmişdir. əz-Zəhəbi ﷬ bununla razılaşmışdır. (Əhməd Şakir). əl-Hakim, 1614. Hədis zəifdir. Bax: Daif əl-Cami, 3335.

[2] Əhməd, 2869. Hədis həsəndir. Bax: İrvaul-Ğalil, 990.

[3] Əbu Davud, 1734. Hədis həsəndir. Bax: İrvaul-Ğalil, 4/168.

[4] Bu iki hədisdən birincisi "əl-Musnəd" əsərində (2869) zəif sənədlə, ikincisi isə (1973) səhih sənədlə rəvayət olunur. Həmçinin "əl-Musnəd" əsərinin (1833, 1834) saylı hədislərinə bax. (Əhməd Şakir).

[5] Əbu Nueym "Hilyətul-Əuliyə" 9/252; İbn Kəsir "Musnədul-Faruq" 294.

[6] İbn Kəsir "Musnədul-Faruq" 295. Hafiz İbn Kəsir ﷬ demişdir: "Hədisin sənədində ravilər arasında kəsiklik var". İbn Kəsir "Musnədul-Faruq" 1/450.

﴿ قُلْ يَٰٓأَهْلَ ٱلْكِتَٰبِ لِمَ تَكْفُرُونَ بِـَٔايَٰتِ ٱللَّهِ وَٱللَّهُ شَهِيدٌ عَلَىٰ مَا تَعْمَلُونَ ﴿٩٨﴾ قُلْ يَٰٓأَهْلَ ٱلْكِتَٰبِ
لِمَ تَصُدُّونَ عَن سَبِيلِ ٱللَّهِ مَنْ ءَامَنَ تَبْغُونَهَا عِوَجًا وَأَنتُمْ شُهَدَآءُ ۗ وَمَا ٱللَّهُ بِغَٰفِلٍ عَمَّا تَعْمَلُونَ ﴿٩٩﴾ ﴾

**98. De: “Ey Kitab əhli! Allah sizin etdiklərinizə şahid olduğu halda, nə üçün siz Allahın ayələrini inkar edirsiniz?!”**
**99. De: “Ey Kitab əhli! Siz haqqa şahid olduğunuz halda, nə üçün doğru yolu əyri göstərməyə çalışaraq iman gətirənləri Allah yolundan sapdırırsınız?!” Halbuki Allah sizin etdiklərinizdən qafil deyildir.**

Bu ayələrdə Uca Allah Kitab əhlindən kafir olanları haqqa qarşı inadkarlıq göstərib Allahın ayələrini inkar etdiklərinə görə, habelə öz səy və gücləri sayəsində Allahın yoluna gəlmək istəyən iman əhlini Allahın yolundan azdırdıqlarına görə məzəmmət edir. Halbuki onlar əvvəlki peyğəmbərlərdən əldə etdikləri elmə, həmçinin bu peyğəmbərlərin verdiyi müjdəyə əsasən yazıb-oxumağı bacarmayan, Məkkəli ərəb, Haşimi, Adəm övladının ağası, peyğəmbərlərin sonuncusu, yerin və göyün Rəbbinin elçisi olan Muhəmmədin ﷺ gətirdiklərinin Allah dərgahından gələn haqq olduğunu bilirdilər.

Uca Allah bu ayələrlə onları təhdid edərək bildirir ki, həqiqətən, O, onların peyğəmbərlərdən gələnlərə qarşı çıxmalarına, müjdəsini aldıqları Peyğəmbərin ﷺ gətirdiklərinə yalan, inkar və inadla qarşılıq verməlarinə şahiddir və nə etdiklərindən xəbərsiz deyil. Yəni Allah mal-dövlətin və oğul-uşağın fayda verməyəcəyi bir gündə bu etdiklərinin cəzasını onlara mütləq verəcək.

﴿ يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوٓا۟ إِن تُطِيعُوا۟ فَرِيقًا مِّنَ ٱلَّذِينَ أُوتُوا۟ ٱلْكِتَٰبَ يَرُدُّوكُم بَعْدَ إِيمَٰنِكُمْ كَٰفِرِينَ ﴿١٠٠﴾
وَكَيْفَ تَكْفُرُونَ وَأَنتُمْ تُتْلَىٰ عَلَيْكُمْ ءَايَٰتُ ٱللَّهِ وَفِيكُمْ رَسُولُهُۥ ۗ وَمَن يَعْتَصِم بِٱللَّهِ فَقَدْ هُدِىَ إِلَىٰ
صِرَٰطٍ مُّسْتَقِيمٍ ﴿١٠١﴾ ﴾

**100. Ey iman gətirənlər! Əgər Kitab verilənlərdən bir dəstəyə itaət etsəniz, onlar sizi imanınızdan sonra döndərib kafir edərlər.**
**101. Sizə Allahın ayələri oxunduğu halda, Onun Rəsulu da aranızda ikən siz necə küfr edə bilərsiniz?! Kim Allaha möhkəm bağlanarsa, həqiqətən, doğru yola yönəlmiş olar.**

Uca Allah bu ayələrdə mömin qullarını bəxş etdiyi lütf və göndərdiyi peyğəmbər nemətinə görə onlara həsəd aparan bir qrup Kitab əhlinə itaət etməkdən çəkindirir. Necə ki başqa ayələrdə buyurur: "**Kitab əhlindən bir çoxu həqiqət özlərinə bəlli olduqdan sonra içlərindəki həsəd üzündən sizi, imanınızdan sonra kafirliyə qaytarmaq istərlər**" ("əl-Bəqərə", 109). Burada isə belə buyurur: "**Əgər Kitab verilənlərdən bir dəstəyə itaət etsəniz, onlar sizi imanınızdan sonra döndərib kafir edərlər**". Sonra buyurur: "**Sizə Allahın ayələri oxunduğu halda, Onun Rəsulu da aranızda ikən siz necə küfr edə bilərsiniz?!**", yəni küfr sizdən, siz də küfrdən uzaqsınız. Allahın ayələri gecə-gündüz Elçisinə nazil olur, o da onları sizə oxuyub təbliğ edir. Bu ayə, Uca Allahın "**Peyğəmbər sizi Rəbbinizə iman gətirməyə çağırdığı halda, sizə nə olub ki, Allaha iman gətirmirsiniz?! Əgər siz möminsinizsə, bilin ki, artıq O sizdən əhd almışdır**" ("əl-Hədid", 8) ayəsinə bənzəyir. Bir hədisdə rəvayət edilir ki, bir gün Peyğəmbər ﷺ səhabələrindən soruşdu: "Sizcə, iman baxımından ən qəribə möminlər hansılardır?" Səhabələr "Mələklər" deyə cavab verdilər. Peyğəmbər ﷺ dedi: "Onlar Rəbləri yanında ola-ola necə iman gətirməsinlər?" Səhabələr peyğəmbərləri qeyd etdikdə Peyğəmbər ﷺ dedi: "Onlara vəhy nazil olduğu halda necə iman gətirməsinlər?" Səhabələr "Elə isə bizik" dedilər. Peyğəmbər ﷺ dedi: "Mən sizin aranızda olduğum halda necə iman gətirməyəsiniz?" Səhabələr dedilər: "Ey Allahın Elçisi, o halda iman baxımından ən qəribə olanlar kimlərdir?" Peyğəmbər ﷺ dedi: "İman baxımından ən qəribə olanlar, sizdən sonra gələcək bir qövmdür. Onlar səhifələr tapacaqlar və bu səhifələrdə olanlara iman gətirəcəklər".[1] Hədisin sənədi və hədis haqqında məlumat əl-Buxarinin رحمه الله "Səhih" əsərinin şərhinin əvvəlində zikr edilmişdir. Həmd Allaha məxsusdur.

[1] əl-Beyhəqi "Dəlail ən-Nubuvvə"(2/538). Oxşar hədisi əl-Bəzzər (7294) rəvayət etmişdir. Hədisin mətni belədir: Əbu Salih رضي الله عنه rəvayət edir ki, bir dəfə Allahın Elçisi ﷺ dedi: "(Görəsən), qardaşlarımla nə vaxt görüşəcəyəm?" Səhabələr dedilər: "Ey Allahın Elçisi, məgər biz sənin qardaşların deyilikmi?" O buyurdu: "Siz mənim səhabələrimsiniz, qardaşlarım isə ümmətimdən məni görmədən mənə iman gətirib, məni təsdiq edənlərdir". Sonra Allahın Elçisi ﷺ onlara dedi: "Yaradılmışlardan iman baxımından ən qəribə olanlar kimlərdir?" Səhabələr dedilər: "Allahın mələkləridir". Allahın Elçisi ﷺ buyurdu: "Onlar Rəblərinin yanında ola-ola niyə iman gətirməsinlər ki?!" Səhabələr dedilər: "Onda peyğəmbərlərdir". O buyurdu: "Onlara vəhy gəldiyi halda niyə də iman gətirməsinlər ki?!" Səhabələr dedilər: "Peyğəmbərlərin səhabələridir". Allahın Elçisi ﷺ buyurdu: "Allahın peyğəmbərləri onların yanında ola-ola niyə də iman gətirməsinlər ki?! Onlar ümmətimdən məni görməyib özlərinə Rəbləri tərəfindən bir kitab gətirilən, ona iman gətirən və onu təsdiq edən qövmdür". Hədisin müxtəlif yollarını cəm etməklə hədis "həsən" dərəcəsinə qalxır. Bax: Silsilə əs-Səhihə, 3215.

Sonra Uca Allah buyurur: “**Kim Allaha möhkəm bağlanarsa, həqiqətən, doğru yola yönəlmiş olar**”, yəni bununla yanaşı doğru yola çatmaq üçün möhkəm təməl, azğınlıqdan uzaqlaşmaq üçün səbəb, haqqa yönəlmək üçün vasitə və arzulara yetmək üçün düzgün bir yol Allaha sarılmaq və Ona təvəkkül etməkdir.

﴿ يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ ٱتَّقُواْ ٱللَّهَ حَقَّ تُقَاتِهِۦ وَلَا تَمُوتُنَّ إِلَّا وَأَنتُم مُّسۡلِمُونَ ١٠٢ وَٱعۡتَصِمُواْ بِحَبۡلِ ٱللَّهِ
جَمِيعٗا وَلَا تَفَرَّقُواْۚ وَٱذۡكُرُواْ نِعۡمَتَ ٱللَّهِ عَلَيۡكُمۡ إِذۡ كُنتُمۡ أَعۡدَآءٗ فَأَلَّفَ بَيۡنَ قُلُوبِكُمۡ فَأَصۡبَحۡتُم
بِنِعۡمَتِهِۦٓ إِخۡوَٰنٗا وَكُنتُمۡ عَلَىٰ شَفَا حُفۡرَةٖ مِّنَ ٱلنَّارِ فَأَنقَذَكُم مِّنۡهَاۗ كَذَٰلِكَ يُبَيِّنُ ٱللَّهُ لَكُمۡ ءَايَٰتِهِۦ
لَعَلَّكُمۡ تَهۡتَدُونَ ١٠٣ ﴾

**102. Ey iman gətirənlər! Allahdan Ona layiq olan tərzdə qorxun və ancaq müsəlman olduğunuz halda ölün!**

**103. Hamınız Allahın ipindən möhkəm yapışın və parçalanmayın! Allahın sizə olan nemətini xatırlayın ki, siz bir-birinizə düşmən idiniz, O sizin qəlblərinizi birləşdirdi və Onun neməti sayəsində bir-birinizlə qardaş oldunuz. Siz odlu bir çuxurun lap kənarında ikən O sizi ondan xilas etdi. Allah Öz ayələrini sizə beləcə bəyan edir ki, bəlkə, doğru yola yönələsiniz.**

İbn Əbu Hatim rəvayət etmişdir ki, Abdullah ibn Məsud Uca Allahın “**Allahdan Ona layiq olan tərzdə qorxun**” ayəsi barəsində belə demişdir: “Allahdan layiqincə qorxmaq Allaha itaət edib Ona asi olmamaqdır, Allahı zikr edib Onu unutmamaqdır, nemətinə şükür edib nankorluq etməməkdir”.[1] Bu, səhabədən gələn səhih bir isnaddır. İbn Mərdəveyh oxşar hədisi İbn Məsuddan Peyğəmbərin ﷺ sözü olaraq rəvayət etmişdir. əl-Hakim də eyni hədisi rəvayət etmiş və demişdir: “Bu hədis əl-Buxari və Muslimin şərtlərinə görə səhihdir, lakin onlar rəvayət etməmişlər”. Doğru olan budur ki, hədis İbn Məsudun sözüdür. Ən doğrusunu isə Allah bilir.

Səid ibn Cubeyr, Qatədə, Muqatil və başqaları bu ayənin Uca Allahın “**Allahdan bacardığınız qədər qorxun**” (“ət-Təğabun”, 16) ayəsi ilə nəsx olunması (hökmünün ləğv olunması) fikrindədirlər. İbn Abbas isə demişdir: “Xeyr, bu ayə nəsx olunmamışdır. “**Allahdan Ona layiq olan tərzdə qorxun**” ayəsinin mənası “Allah yolunda

[1] İbn Əbu Hatim, 3908; ən-Nəsəi “Sunənul-Kubra” 11847; əl-Hakim, 3159. Hədis zəifdir. Bax: Silsilə əd-Daifə, 6909.

haqqı ilə mübarizə aparmaq, bu yolda sənə tənə edənin tənəsindən qorxmamaq, etdiyi şahidlik özünün, valideynlərinin və övladlarının əleyhinə olsa belə, Allah üçün ədaləti qorumaqdır".[1]

Uca Allah buyurur: **"...və ancaq müsəlman olduğunuz halda ölün!"**, yəni müsəlman olaraq ölməniz üçün sağ və salamat olarkən İslama sarılın. Çünki Səxavətli olan Allah belə bir qayda qoymuşdur ki, insan hansı hal üzərində yaşayarsa, o hal üzərində ölər, hansı hal üzərində ölərsə, o halda da dirildilər. İslama zidd olan bir hal üzərində yaşamaqdan Allaha sığınırıq. İmam Əhməd ﷺ İbn Abbasdan ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ belə demişdir: "**Ey iman gətirənlər! Allahdan Ona layiq olan tərzdə qorxun və ancaq müsəlman olduğunuz halda ölün!**" Əgər Zəqqumdan[2] bir damcı dünyaya düşsəydi, o damcı dünyadakı canlıların yaşayışını zəhərləyərdi. Görün indi Zəqqumdan başqa yeməyi olmayanın halı necə olacaq?"[3] Hədisi bu şəkildə ət-Tirmzi, ən-Nəsəi, İbn Məcə və əl-Hakim ﷺ rəvayət etmişlər. Həmçinin İbn Hibban "Səhih" əsərində rəvayət etmişdir. ət-Tirmizi ﷺ hədisin "həsən-səhih" olduğunu bildirmişdir. əl-Hakim ﷺ isə demişdir: "əl-Buxari və Muslimin şərtlərinə uyğundur, lakin onlar rəvayət etməmişlər".[4] İmam Əhməd ﷺ Abdullah ibn Amrdan ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Sizlərdən kim Cəhənnəmdən uzaqlaşıb Cənnətə daxil olmaq istəyirsə, əcəlini Allaha və Axirət gününə iman etmiş bir halda qarşılasın və insanlarla özünə qarşı edilməsini istədiyi rəftarla davransın".[5] Həmçinin İmam Əhməd ﷺ rəvayət etmişdir ki, Cabir ﷺ demişdir: "Peyğəmbərin ﷺ ölümündən üç gün əvvəl belə dediyini eşitdim: "Sizdən biriniz ölərkən yalnız Allah barədə gözəl zəndə olaraq canını tapşırsın".[6] Hədisi Muslim ﷺ rəvayət etmişdir.

[1] İbn Əbu Hatim, 3910.

[2] Zəqqum Cəhənnəmdə bitən və Cəhənnəm əhlinin onun yarpaqları ilə qidalanmaq məcburiyyətində qaldığı ağacdır.

[3] Əhməd, 2735. Şueyb əl-Arnavut isnadını əl-Buxari və Muslimin şərtlərinə əsasən səhih olduğunu bildirmişdir.

[4] əl-Musnəd (2735), əl-Hakim (2/294). əz-Zəhəbi hədisin səhih olması ilə razılaşmışdır. (Əhməd Şakir).

[5] əl-Musnəd (6708). Hədisi həmçinin Muslim geniş şəkildə rəvayət etmişdir (2/87-88). İbn Kəsir bu hədisi bu surənin 185-ci ayəsinin təfsirində Vəkinin rəvayəti ilə təkrar olaraq gətirəcəkdir. (Əhməd Şakir). Əhməd, 6807. Şueyb əl-Arnavut isnadını Muslimin şərtlərinə görə səhih olduğunu bildirmişdir.

[6] Əhməd, 14580, 14620; Muslim, 5125, 7412.

Uca Allah buyurur: "**Hamınız Allahın ipindən möhkəm yapışın...**" Bəzi alimlərə görə ayədə "**Allahın ipi**" deyildikdə Allahla bağlanmış əhd nəzərdə tutulur. Necə ki Uca Allah sonrakı ayədə buyurur: "**Harada olursa olsunlar, onlara zillət damğası vurulmuşdur. Yalnız Allahın ipinə və ya insanların ipinə sarılan kimsələr müstəsnadır**" ("Ali-İmran", 112). Yəni Allahla və insanlarla bağlanmış əhdə görə himayə olunanlar istisnadır. Başqa bir rəyə görə, "**Allahın ipi**" deyildikdə Quran nəzərdə tutulur. Bu mənada xüsusi olaraq hədis varid olmuşdur. ət-Tabəri ﷺ Əbu Səiddən ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Allahın Kitabı Allahın göydən yerə uzanan ipidir".[1]

Uca Allah buyurur: "**...və parçalanmayın**!" Burada Uca Allah möminlərə camaat olmağı əmr edərək parçalanmağı qadağan edir. Necə ki Muslimin "Səhih" əsərində Əbu Hureyradan ﷺ rəvayət edilir ki, Peyğəmbər ﷺ demişdir: "Allah sizin üç əməlinizdən razı qalır, üç əməlinizə isə qəzəbi tutur. Sizin yalnız Ona ibadət edib heç nəyi Ona şərik qoşmamağınızdan, hamılıqla Allahın ipindən möhkəm yapışmağınızdan və Allahın sizə nəsib etdiyi ixtiyar sahiblərinizlə səmimi davranmanızdan razı qalır. Dedi-qodu yaymağınıza, çox sual verməyinizə və malı israf etməyinizə isə qəzəbi tutur".[2] Çoxsaylı hədislərdə keçdiyi kimi, həmrəy olduqları təqdirdə möminlərin səhv etməkdən qorunmalarına zəmanət verilmiş, parçalanıb firqələrə ayrılmalarından çəkindirilmişdir. Lakin çəkindirilən bu hal artıq ümmətdə baş vermiş və bu ümmət yetmiş üç firqəyə bölünmüşdür. Bu yetmiş üç firqədən yalnız biri Cəhənnəm əzabından xilas olub Cənnətə girən "Firqatun-Nəciyə" (nicat tapan firqə) olacaq. Bunlar Peyğəmbərin ﷺ və səhabələrinin ﷺ tutduğu yolu gedənlərdir.

Uca Allah buyurur: "**Allahın sizə olan nemətini xatırlayın ki, siz bir-birinizə düşmən idiniz, O sizin qəlblərinizi birləşdirdi və Onun neməti sayəsində bir-birinizlə qardaş oldunuz. Siz odlu bir çuxurun lap kənarında ikən O sizi ondan xilas etdi**". Bu ayənin məzmunu əl-Əus və əl-Xazrəc qəbilələri haqqındadır. Cahiliyyə dövründə bu iki qəbilə arasında tez-tez döyüşlər baş verir və

---

[1] ət-Tabəri (7572). İsnadı zəifdir, lakin mənası doğrudur. İbn Hibban "Səhih" əsərində (123) Zeyd ibn Ərqamdan ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Mən sizə Allahın Kitabını qoyub gedirəm. O, Allahın ipidir, kim ona sarılarsa, doğru yolda olar". Bu hədisi Muslim uzun şəkildə rəvayət etmişdir (2/238). (Əhməd Şakir). ət-Tabəri, 7610. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 2024.

[2] Muslim, 3236, 4578.

bir-birlərinə qarşı şiddətli kin və düşmənçilik vardı. Bu səbəbdən aralarındakı müharibələr və döyüşlər getdikcə uzanırdı. Allah İslam dinini göndərdikdə hər iki qəbilədən İslamı qəbul edənlər oldu və onlar Allaha olan məhəbbətlərinə görə bir-birlərini sevən, Allah üçün birləşib yaxşı işlərdə və Allahdan qorxub pis əməllərdən çəkinməkdə bir-birlərinə yardım edən qardaşlar oldular. Uca Allah başqa bir ayədə buyurur: "**Əgər onlar səni aldatmaq istəsələr, bil ki, sənə Allah yetər. O səni həm Öz köməyi ilə, həm də möminlərlə qüvvətləndirdi. Allah onların qəlblərini birləşdirdi. Əgər sən yer üzündə olanların hamısını sərf etsəydin belə, onların qəlblərini birləşdirə bilməzdin. Lakin Allah onları birləşdirdi. Həqiqətən, O Qüdrətlidir, Hikmət sahibidir**" ("əl-Ənfal", 62-63). Kafir olduqları üçün odlu bir çuxurun lap kənarında ikən Allah onları xilas etdi və onları imana gətirməklə oradan uzaqlaşdırdı. Peyğəmbər ﷺ Huneyn döyüşündən əldə etdiyi qənimətləri bölüşdürərkən Allahın əmri ilə ənsarlardan olmayanlara daha çox pay vermişdi. Ənsarlardan bəziləri buna narazıçılıq etdikdə Peyğəmbər ﷺ xütbə verərək onlara İslamdan əvvəlki hallarını xatırladıb belə buyurdu: "Ey ənsarlar, mən sizi azmış halda tapmadımmı və Allah mənim sayəmdə sizə hidayət bəxş etmədimi? Siz bölünmüşdünüz, Allah mənim sayəmdə sizi birləşdirmədimi? Kasıb idiniz, Allah mənim sayəmdə sizi zəngin etmədimi?" Peyğəmbərin ﷺ hər dediyinə ənsarlar "Allah və Onun Elçisi ən çox lütf edəndir" deyə cavab verirdilər".[1]

﴿وَلۡتَكُن مِّنكُمۡ أُمَّةٞ يَدۡعُونَ إِلَى ٱلۡخَيۡرِ وَيَأۡمُرُونَ بِٱلۡمَعۡرُوفِ وَيَنۡهَوۡنَ عَنِ ٱلۡمُنكَرِۚ وَأُوْلَٰٓئِكَ هُمُ ٱلۡمُفۡلِحُونَ
١٠٤ وَلَا تَكُونُواْ كَٱلَّذِينَ تَفَرَّقُواْ وَٱخۡتَلَفُواْ مِنۢ بَعۡدِ مَا جَآءَهُمُ ٱلۡبَيِّنَٰتُۚ وَأُوْلَٰٓئِكَ لَهُمۡ عَذَابٌ عَظِيمٞ ١٠٥ يَوۡمَ
تَبۡيَضُّ وُجُوهٞ وَتَسۡوَدُّ وُجُوهٞۚ فَأَمَّا ٱلَّذِينَ ٱسۡوَدَّتۡ وُجُوهُهُمۡ أَكَفَرۡتُم بَعۡدَ إِيمَٰنِكُمۡ فَذُوقُواْ ٱلۡعَذَابَ بِمَا
كُنتُمۡ تَكۡفُرُونَ ١٠٦ وَأَمَّا ٱلَّذِينَ ٱبۡيَضَّتۡ وُجُوهُهُمۡ فَفِي رَحۡمَةِ ٱللَّهِۖ هُمۡ فِيهَا خَٰلِدُونَ ١٠٧ تِلۡكَ ءَايَٰتُ
ٱللَّهِ نَتۡلُوهَا عَلَيۡكَ بِٱلۡحَقِّۗ وَمَا ٱللَّهُ يُرِيدُ ظُلۡمٗا لِّلۡعَٰلَمِينَ ١٠٨ وَلِلَّهِ مَا فِي ٱلسَّمَٰوَٰتِ وَمَا فِي ٱلۡأَرۡضِۚ
وَإِلَى ٱللَّهِ تُرۡجَعُ ٱلۡأُمُورُ ١٠٩﴾

**104. Qoy içinizdən xeyrə çağıran, yaxşı işlər görməyi buyuran və pis əməlləri qadağan edən bir camaat olsun. Məhz onlar nicat tapanlardır.**

[1] əl-Buxari, 3985, 4330; Muslim, 1758, 2493.

**105. Özlərinə aydın dəlillər gəldikdən sonra firqələrə ayrılıb ixtilaf edənlər kimi olmayın. Onları böyük bir əzab gözləyir.**
**106. O gün neçə-neçə üzlər ağaracaq, neçə-neçə üzlər də qaralacaqdır. Üzləri qaralan kəslərə "İman gətirdikdən sonra kafirmi oldunuz?! Elə isə, küfr etdiyinizə görə dadın əzabı!" deyiləcəkdir.**
**107. Üzləri ağ olan kəslər isə Allahın mərhəməti içərisində olacaq və onlar orada əbədi qalacaqlar.**
**108. Bunlar Allahın ayələridir ki, onları sənə haqq olaraq oxuyuruq. Allah aləmlərə zülm etmək istəməz.**
**109. Göylərdə və yerdə nə varsa, Allaha məxsusdur. Bütün işlər sonda Allaha qaytarılacaqdır.**

Uca Allah buyurur: "**Qoy içinizdən xeyrə çağıran, yaxşı işlər görməyi buyuran və pis əməlləri qadağan edən bir camaat olsun**", yəni xeyrə çağırmaqla, yaxşı işləri əmr edib pis işlərdən çəkindirməklə Allahın əmrini yerinə yetirmək üçün təyin edilmiş bir toplum olsun. "**Məhz onlar nicat tapanlardır**". əd-Dahhək ﷬ demişdir: "Bunlar seçilmiş səhabələr və hədis rəvayətçiləridir", yəni Allah yolunda cihad edənlər və alimlərdir. Ayənin mənası budur ki, ümmət içində bu işlə məşğul olan xüsusi bir toplum olmalıdır. Baxmayaraq ki, bu işlə məşğul olmaq ümmətin fərdlərinin hər birinə vacibdir. Necə ki Muslimin "Səhih" əsərində Əbu Hureyradan ﷠ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: "Sizdən biriniz günah işləndiyini görsə, qoy bunu əli ilə düzəltsin, bacarmasa, dili ilə (düzəltsin), bunu da bacarmasa, qəlbi ilə (buna nifrət etsin), bu da imanın ən zəif dərəcəsidir[1]".[2] Digər rəvayətdə: "Bundan o yana isə bir xardal dənəsi boyda belə iman yoxdur[3]".[4]

[1] Hədisdə "bu da imanın ən zəif dərəcəsidir" deyildikdə səmərəsi və savabı ən az olanı nəzərdə tutulur.

[2] Muslim, 70, 186.

[3] Yəni bundan o yana imanın heç bir mərtəbəsi mövcud deyil. Belə ki günah işləri qəlbi ilə inkar etməyən adam onu bəyənmiş kimsələrdən hesab edilir, onu bəyənmək isə küfr sayılır. ("Mişkətul-Məsabih", 1/603).

[4] əl-Hafiz İbn Kəsir ﷬ burada səhvə yol verərək "Sizdən biriniz günah işləndiyini görsə..." hədisini Əbu Hureyradan ﷠ rəvayət etmişdir. Halbuki bu hədis Əbu Səid əl-Xudridən ﷠ rəvayət olunur. Sözsüz ki, İbn Kəsir ﷬ burada səhv etmişdir. Hədis Muslimin "Səhih" əsərində rəvayət olunan uzun hədisdir (1/29). Həmçinin hədisi İmam Əhməd ﷬ Əbu Səiddən ﷠ rəvayət olunan hədislərin toplumunda rəvayət etmişdir (11089, 11167). Daha sonra İbn Kəsirin ﷬: "Digər rəvayətdə yazılmış "Bundan o yana isə bir xardal dənəsi boyda belə iman yoxdur" sözündən belə çıxır ki, bu da əvvəlki hədisin rəvayətidir. Lakin bu rəvayət Əbu Səidin ﷠ rəvayəti deyil, İbn Məsuddan ﷠ rəvayət olunan başqa bir uzun hədisin bir hissədir. Bu rəvayəti də Muslim "Səhih" əsərində Əbu Səidin ﷠ hədisindən sonra gətirmişdir. Əbu Hureyra ﷠ isə nə bunu, nə də digərini rəvayət etməmişdir. (Əhməd Şakir). Muslim, 71, 188.

İmam Əhməd ﷫ Huzeyfə ibn əl-Yəməndən ﷠ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: “Canım əlində olan Allaha and olsun ki, ya yaxşı işləri əmr edib pis işlərdən çəkindirəcəksiniz, ya da Allah Öz tərəfindən sizə cəza göndərəcək. Bundan sonra Ona dua etsəniz də, dualarınız qəbul olunmaz”.[1] Bu hədisi ət-Tirmizi və İbn Məcə ﷫ rəvayət etmişlər. ət-Tirmizi ﷫ hədisin “həsən” olduğunu bildirmişdir. Bu mövzuda bir çox hədis və ayələr var, yeri gəldikcə onlar açıqlanacaq.

Sonra Uca Allah “**Özlərinə aydın dəlillər gəldikdən sonra firqələrə ayrılıb ixtilaf edənlər kimi olmayın. Onları böyük bir əzab gözləyir**” buyuraraq bu ümmətə özlərinə açıq-aydın dəlillər gəldiyi halda parçalanan, ixtilaf edən, yaxşı işləri əmr edib, pis işlərdən çəkindirməyi tərk edən keçmiş ümmətlər kimi olmağı qadağan etmişdir. İmam Əhməd ﷫ rəvayət etmişdir ki, Əbu Amir Abdullah ibn Luhey demişdir: “Muaviyə ibn Əbu Süfyan ﷞ ilə həccə getdik. Məkkəyə çatıb Zöhr namazını qıldıqdan sonra Muaviyə qalxdı və belə dedi: “Allahın Elçisi ﷺ demişdir: “Həqiqətən, sizdən əvvəlki iki Kitab əhli (yəhudilər və xaçpərəstlər) dinlərində yetmiş iki firqəyə bölünmüşdülər. Vaxt gələcək bu ümmət yetmiş üç firqəyə, yəni bidətlərə (dində yeniliklərə) bölünəcək. Bu firqələrdən biri istisna olmaqla, yerdə qalanı Cəhənnəmə düşəcək. İstisna olan firqə camaatdır. Ümmətimdən bir qrup insanlar çıxacaq ki, quduzluğun quduzluq xəstəliyinə tutulmuş insanın içinə nüfuz etdiyi kimi bu bidətlər onlara daxil olacaq. Bu bidətlərin onlarda yerimədiyi damar və oynaq qalmayacaqdır. Ey ərəblər! Allaha and olsun ki, əgər siz Peyğəmbərinizin ﷺ gətirdiklərinə əməl etməsəniz, sizdən başqaları bunları heç etməzlər”.[2] Hədisi Əbu Davud ﷫ belə rəvayət etmişdir. Bu hədis bir çox yollarla rəvayət edilmişdir.

Uca Allah buyurur: “**O gün neçə-neçə üzlər ağaracaq, neçə-neçə üzlər də qaralacaqdır**”. İbn Abbas ﷞ demişdir: “Qiyamət günü Peyğəmbərin ﷺ sünnəsini yaşayanların və camaat olanların üzləri ağaracaq, bidət edənlərin və firqələrə ayrılanların üzləri isə qaralacaqdır”.[3]

“**Üzləri qaralan kəslərə “İman gətirdikdən sonra kafirmi oldunuz?! ...” deyiləcəkdir**”. əl-Həsən əl-Bəsri ﷫ demişdir: “Bunlar

[1] Əhməd, 23349, 23690; ət-Tirmizi, 2169, 2323. Hədis həsəndir. Bax: Mişkətul-Məsabih, 5140.

[2] Əhməd, 16979, 17061; əl-Hakim, 443. Şueyb əl-Arnavut şahidləri ilə birlikdə səhih olduğunu bildirmişdir.

[3] İbn Əbu Hatim, 3950.

münafiqlərdir". "**Elə isə küfr etdiyinizə görə dadın əzabı!" deyiləcəkdir**". Bu xüsusiyyət bütün kafirləri əhatə edər.

"**Üzləri ağ olan kəslər isə Allahın mərhəməti içərisində olacaq və onlar orada əbədi qalacaqlar**", yəni onlar Cənnətdə əbədi qalıb oradan ayrılmaq istəməyəcəklər. ət-Tirmizi ﷺ Əbu Ğalibdən ﷺ rəvayət etmişdir ki, bir dəfə Əbu Umamə əl-Bəhili[1] Dəməşq məscidinə gedən yolun kənarlarında sancılmış insan başları gördü və dedi: "Bunlar (xəvariclər[2]) Cəhənnəmin köpəkləridir. Onlar yer üzündə ölmüş ən pis insanlardır, öldürdükləri isə yer üzünün ən xeyirli insanlarıdır". Sonra bu ayəni sonuna qədər oxudu: "**O gün neçə-neçə üzlər ağaracaq, neçə-neçə üzlər də qaralacaqdır**". Əbu Umamədən soruşdum: "Sən bunu Peyğəmbərdən ﷺ eşitdinmi?" O dedi: "Əgər onu Peyğəmbərdən ﷺ bir, iki, üç, dörd – yeddiyə qədər saydı – dəfə eşitməsəydim, sizə danışmazdım".[3] ət-Tirmizi ﷺ demişdir: "Hədis həsəndir". Həmçinin hədisi İbn Məcə və oxşar mətnlə İmam Əhməd ﷺ rəvayət etmişlər.

Sonra Uca Allah buyurur: "**Bunlar Allahın ayələridir**", yəni bunlar Allahın hüccət və dəlilləridir. Ey Muhəmməd, "**onları sənə haqq olaraq oxuyuruq**". Dünya və Axirətdə baş verəcək halları sənə açıqlayırıq. "**Allah aləmlərə zülm etmək istəməz**", yəni Allah onlara zülm edən deyil, əksinə, O, Ədalətli bir Hakimdir və heç kəsə zülm etməz. Çünki O hər şeyə Qadirdir, hər şeyi Biləndir. Bununla belə, yaratdıqlarından kiməsə zülm etməkdən Ucadır. Bu səbəbdən növbəti ayədə belə buyurur: "**Göylərdə və yerdə nə varsa Allaha məxsusdur**", yəni göylərdə və yerdə nə varsa hamısı Allahın mülküdür və quludur. "**Bütün işlər sonda Allaha qaytarılacaqdır**", yəni dünya və Axirətdə hökmranlıq Onundur, dünya və Axirətdə yeganə hakim də Odur.



---

[1] Əbu Umamə əl-Bəhili – Sudey ibn Əclən ibn Vəhb əl-Bəhili hicrətdən 21 il əvvəl anadan olmuş, hicri 86-cı ildə vəfat etmişdir. Peyğəmbərin ﷺ səhabələrindən olmuşdur.

[2] "Xəvaric" sözü ərəbcə خَرَجَ [xaracə] "xaric olmaq" feilindən əmələ gəlmiş خَارِجِي [xa:rici] "xaric olan" sözünün cəmidir. Xəvariclər müsəlman camaatından ayrılıb özünə dəstə yaradan və ya yaranmış belə bir dəstəyə qoşulan, dəlil-sübut olmadan böyük günah sahibini kafir sayan və şəriətə zidd olan digər əxlaqları özündə cəm edən fasiqlər nəzərdə tutulur. Bu firqə müsəlmanlar arasında meydana gəlmiş ilk batil firqədir. Onlar Allahın razı qaldığı, Cənnətlə müjdələnmiş, İslam üçün canından və malından keçmiş, ölənədək Peyğəmbərə ﷺ sadiq olmuş Osman və Əli ﷺ kimi iki böyük səhabəni kafir sayıb şəhid etmişlər. Peyğəmbər ﷺ onları "Cəhənnəmin köpəkləri" adlandırmışdır.

[3] ət-Tirmizi, 3000, 3270. Hədis həsəndir. Bax: Mişkətul-Məsabih, 3554.

﴿ كُنتُمۡ خَيۡرَ أُمَّةٍ أُخۡرِجَتۡ لِلنَّاسِ تَأۡمُرُونَ بِٱلۡمَعۡرُوفِ وَتَنۡهَوۡنَ عَنِ ٱلۡمُنكَرِ وَتُؤۡمِنُونَ بِٱللَّهِۗ
وَلَوۡ ءَامَنَ أَهۡلُ ٱلۡكِتَٰبِ لَكَانَ خَيۡرٗا لَّهُمۚ مِّنۡهُمُ ٱلۡمُؤۡمِنُونَ وَأَكۡثَرُهُمُ ٱلۡفَٰسِقُونَ ١١٠ لَن
يَضُرُّوكُمۡ إِلَّآ أَذٗىۖ وَإِن يُقَٰتِلُوكُمۡ يُوَلُّوكُمُ ٱلۡأَدۡبَارَ ثُمَّ لَا يُنصَرُونَ ١١١ ضُرِبَتۡ عَلَيۡهِمُ
ٱلذِّلَّةُ أَيۡنَ مَا ثُقِفُوٓاْ إِلَّا بِحَبۡلٖ مِّنَ ٱللَّهِ وَحَبۡلٖ مِّنَ ٱلنَّاسِ وَبَآءُو بِغَضَبٖ مِّنَ ٱللَّهِ وَضُرِبَتۡ عَلَيۡهِمُ
ٱلۡمَسۡكَنَةُۚ ذَٰلِكَ بِأَنَّهُمۡ كَانُواْ يَكۡفُرُونَ بِـَٔايَٰتِ ٱللَّهِ وَيَقۡتُلُونَ ٱلۡأَنۢبِيَآءَ بِغَيۡرِ حَقّٖۚ ذَٰلِكَ بِمَا عَصَواْ
وَّكَانُواْ يَعۡتَدُونَ ١١٢ ﴾

**110. Siz insanlar üçün üzə çıxarılmış ən xeyirli ümmətsiniz; onlara yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha iman gətirirsiniz. Kitab əhli də iman gətirsəydi, əlbəttə, onlar üçün yaxşı olardı. Onların arasında iman gətirənlər də vardır. Əksəriyyəti isə haqq yolunu azmış fasiqlərdir.**

**111. Onlar sizə əziyyətdən başqa bir zərər yetirə bilməzlər. Əgər sizinlə vuruşmalı olsalar, arxa çevirib qaçarlar. Sonra isə onlara kömək də edilməz.**

**112. Harada olursa olsunlar, onlara zillət damğası vurulmuşdur. Yalnız Allahın ipinə və ya insanların ipinə sarılan kimsələr müstəsnadır. Onlar Allahın qəzəbinə uğramış, onlara yoxsulluq üz vermişdir. Bu cəza ona görədir ki, onlar Allahın ayələrinə küfr etmiş və bəzi peyğəmbərləri haqsız yerə öldürmüşlər. Bu həm də ona görədir ki, onlar asilik etmiş və həddi aşmışlar.**

Uca Allah Muhəmməd ﷺ ümmətinin ən xeyirli ümmət olduğunu xəbər verərək buyurur: "**Siz insanlar üçün üzə çıxarılmış ən xeyirli ümmətsiniz**". əl-Buxari ﷬ rəvayət etmişdir ki, Əbu Hureyra ﷠ Uca Allahın "**Siz insanlar üçün üzə çıxarılmış ən xeyirli ümmətsiniz**" ayəsi barəsində demişdir: "Siz insanlar üçün ən xeyirli insanlarsınız. İslama girmələri üçün onları boyunlarında zəncirlə gətirirsiniz[1]".[2] İbn Abbas, Mucahid, İkrimə və başqaları ﷢ da bu ayəni "Siz insanlar üçün ən xeyirli insanlarsınız" kimi təfsir etmişlər. Yəni bu ümmət ümmətlərin ən xeyirlisi və insanların insanlar üçün ən faydalı olanlarıdır. Bu səbəbdən Uca Allah "...**onlara yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha iman gətirirsiniz**"- buyurur.

---

[1] Yəni İslama daxil olmaları üçün onlarla vuruşur və onları əsir alırsınız. Sonra onlar İslam dininin gözəlliyini görüb onu qəbul edirlər və Qiyamət günü iman əhli ilə birgə Cənnətə daxil olacaqlar.

[2] əl-Buxari, 4191, 4557.

İmam Əhməd ﷺ Durra bint Əbu Ləhəbdən ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ minbərdə ikən bir kişi qalxıb soruşdu: "Ey Allahın Elçisi, insanların ən xeyirlisi hansıdır?" Peyğəmbər ﷺ dedi: "İnsanların ən xeyirlisi ən gözəl Quran oxuyan, ən çox Allahdan qorxan, ən çox yaxşılığı əmr edib pis işlərdən çəkindirən və ən çox qohumluq əlaqələrini birləşdirənlərdir".[1] İmam Əhməd, ən-Nəsəi və əl-Hakim ﷺ rəvayət etmişlər ki, İbn Abbas ﷺ Uca Allahın "**Siz insanlar üçün üzə çıxarılmış ən xeyirli ümmətsiniz**" ayəsi barədə demişdir: "Bu ayədə nəzərdə tutulanlar, Peyğəmbərlə ﷺ Məkkədən Mədinəyə hicrət edənlərdir".[2]

Doğru olan isə budur ki, bu ayə ümumi olub bütün ümmətə şamil edilir və hər nəslin bundan bir payı var. Bu ümmətin ən xeyirliləri isə Peyğəmbərin ﷺ göndərildiyi dövrdə yaşayanlardır, sonra onların ardınca gələnlər, sonra da onların ardınca gələnlərdir.[3] Necə ki başqa bir ayədə Uca Allah buyurur: "**Beləliklə, siz insanlara şahid olasınız, peyğəmbər də sizə şahid olsun deyə Biz sizi orta bir ümmət etdik**" ("əl-Bəqərə", 143), yəni seçilmiş bir ümmət etdik. İmam Əhməd, ət-Tirmizi, İbn Məcə və əl-Hakim ﷺ Muaviyə ibn Heydədən ﷺ rəvayət etmişlər ki, Peyğəmbər ﷺ demişdir: "Siz yetmiş ümməti tamamlayırsınız. Siz onların ən xeyirlisi və Allah qatında ən hörmətli olanısınız".[4] Bu, məşhur bir hədisdir və ət-Tirmizi hədisin "həsən" olduğunu bildirmişdir. Muaz ibn Cəbəl və Əbu Səiddən ﷺ də oxşar hədis rəvayət edilmişdir.

Bu ümmətin xeyir işlərdə üstünlüyə nail olması Peyğəmbərləri Muhəmmədin ﷺ sayəsindədir. Ona Allahın salavatı və salamı olsun! Çünki o, Allahın yaratdıqlarının ən şərəflisi, Allah qatında peyğəmbərlərin ən hörmətlisidir. Uca Allah onu əvvəlki peyğəmbərlərdən və rəsullardan heç birinə vermədiyi ən böyük və mükəmməl şəriətlə göndərmişdir. Onun yoluna və şəriətinə müvafiq olaraq edilən az bir əməl, digərlərinin çox əməlindən daha xeyirlidir. Necə ki İmam Əhməd ﷺ Əli ibn Əbu Talibdən ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Mənə digər peyğəmbərlərdən heç birində olmayan xüsusiyyətlər verilmişdir". Biz "Ey Allahın Elçisi, bu xüsusiyyətlər hansılardır?" deyə soruşduq.

[1] Əhməd, 27474, 27980. Hədis zəifdir. Bax: Silsilə əd-Daifə, 2093.

[2] Əhməd, 3321; əl-Hakim, 3160. Şueyb əl-Arnavut isnadının həsən olduğunu bildirmişdir.

[3] Bu barədə Peyğəmbər ﷺ demişdir: "Ən xeyirli insanlar mənim dövrümdə yaşayan insanlardır. Sonra onların ardınca gələnlər, sonra da onların ardınca gələnlərdir". (əl-Buxari, 2458, 2652).

[4] Əhməd, 20015, 20264; əl-Hakim, 6988. Şueyb əl-Arnavut isnadının həsən olduğunu bildirmişdir.

Peyğəmbər ﷺ dedi: "Düşmənin qəlbinə Allah tərəfindən qorxu salınaraq ona qalib gəlməyim, yer üzünün xəzinələrinin açarlarının mənə verilməsi, Əhməd adlandırılmağım, torpağın mənim üçün təmizlənmə vasitəsi edilməsi və ümmətimin digər ümmətlər içində ən xeyirli olması".[1] Hədisi bu şəkildə yalnız İmam Əhməd rəvayət etmişdir və isnadı həsəndir.

İmam Əhməd Abdullah ibn Məsuddan rəvayət etmişdir ki, bir gecə biz Peyğəmbərin ﷺ yanında uzun-uzadı danışdıq. Ertəsi gün səhər Peyğəmbərin ﷺ yanına gəldikdə o bizə dedi: "Bu gecə peyğəmbərlər ümmətləri ilə birlikdə mənə göstərildi. Peyğəmbərlər önümdən keçməyə başladılar. Kimisinin yanında üç nəfər, kimisinin yanında bir dəstə, kimisinin yanında bir nəfər, kimisinin də yanında heç kim yox idi. Nəhayət, Musa qarşımdan keçdi. Onun yanında İsrail oğullarından ibarət böyük bir toplum vardı. Bu toplum mənim çox xoşuma gəldi və soruşdum: "Bunlar kimdir?" Mənə "Bu, qardaşın Musadır, yanındakılar isə İsrail oğullarıdır" deyildi. Mən yenə soruşdum: "Yaxşı, bəs mənim ümmətim haradadır?" Mənə "Sağına bax!" deyildi. Baxıb gördüm ki, alçaq dağlar insanlarla örtülmüşdür. Sonra mənə "Soluna bax!" deyildi. Baxıb gördüm ki, üfüq də insanlarla örtülmüşdür. Məndən soruşuldu: "Razı qaldınmı?" Mən dedim: "Ey Rəbbim, razı qaldım. Ey Rəbbim, razı qaldım". Mənə deyildi: "Onların arasında yetmiş min nəfər var ki, onlar sorğu-sualsız Cənnətə girəcəklər". Sonra Peyğəmbər ﷺ sözünə davam edərək buyurdu: "Atam, anam sizə fəda olsun, əgər bu yetmiş mindən ola bilsəniz, olun! Əgər bunlara çata bilməsəniz, o zaman alçaq dağlarda olanlardan olun! Yox əgər bunlara da çata bilməsəniz, o zaman heç olmasa üfüqdə olanlardan olun! Mən orada izdihamdan bir-birlərinə qarışmış insanlar gördüm". Bu zaman Ukkaşə ibn Mihsan ayağa qalxıb dedi: "Ey Allahın Elçisi, Allaha dua et ki, məni o yetmiş mindən biri etsin!" Peyğəmbər ﷺ də onun üçün dua etdi. Bu zaman başqa bir kişi ayağa qalxıb dedi: "Ey Allahın Elçisi, Allaha dua et ki, məni də onlardan etsin!" Peyğəmbər ﷺ dedi: "Ukkaşə bu işdə səni qabaqladı". Abdullah ibn Məsud dedi: "Sonra biz öz aramızda müzakirə edərək dedik: "Bu yetmiş minin kimlər olduğunu düşünürsünüz? Bəlkə, bunlar müsəlman olaraq doğulmuş və ölənə qədər Allaha heç nəyi şərik qoşmayanlardır?" Bizim bu müzakirəmiz Peyğəmbərə ﷺ

[1] Əhməd, 763; əl-Beyhəqi "Sunənul-Kubra" 965, 1038. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 3939.

çatdıqda o dedi: "Onlar müalicə məqsədilə bədəninə dağ basmayan, özlərinə ovsun oxunmasını tələb etməyən,[1] hər hansı bir hadisəni uğursuzluq əlaməti hesab etməyən[2] və yalnız Rəbbinə təvəkkül edən kimsələrdir".[3] Hədisin isnadı səhihdir. Hədisi bu şəkildə yalnız Əhməd ﷺ rəvayət etmişdir, digər hədis kitablarının müəllifləri rəvayət etməmişlər.

əl-Buxari və Muslimin "Səhih" əsərlərində rəvayət edilir ki, Əbu Hureyra ﷺ Peyğəmbərin ﷺ belə dediyini eşitmişdir: "Ümmətimdən yetmiş min nəfər hamısı birdən Cənnətə daxil olacaq. Onların üzü on dörd gecəlik ay kimi gözəl və parlaq olacaq". Əbu Hureyra ﷺ dedi: "Bu zaman Ukkaşə ibn Mihsan əl-Əsədi qalxdı və üzərindəki bürüncəyi yuxarı qaldıraraq: "Ey Allahın Elçisi, Allaha dua et ki, məni onlardan etsin!" Peyğəmbər ﷺ dua edərək buyurdu: "Allahım, onu bu yetmiş mindən biri et!" Sonra ənsarlardan olan başqa bir adam ayağa qalxıb dedi: "Ey Allahın Elçisi, Allah dua et ki, məni də onlardan etsin". Peyğəmbər ﷺ dedi: "Ukkaşə bu işdə səni qabaqladı".[4]

Muslim "Səhih" əsərində Husayn ibn Abdur-Rahmənin[5] ﷺ belə dediyini rəvayət etmişdir: "Mən Səid ibn Cubeyrin yanında ikən o (bizdən) "Dünən gecə düşən ulduzu hansınız gördü?" deyə soruşdu. Dedim: "Mən gördüm". Sonra dedim: "Lakin həmin vaxt mən namazda deyildim, məni əqrəb sancmışdı".[6] O "Bəs səni əqrəb sancdığına görə nə etdin?" deyə soruşdu. Dedim: "Birisindən mənə

---

[1] Burada ovsun deyildikdə sehr, cadu-pitik deyil, əksinə, mübarək sözlərlə – Allahın Kəlamı və ya Peyğəmbərin ﷺ duaları vasitəsilə xəstəni müalicə etmək nəzərdə tutulur.

[2] Cahiliyyət dövründə ərəblərdən kimsə bir işi görmək istədikdə göyə baxar və göydə gördüyü quşun sağ tərəfə, yaxud sol tərəfə uçması ilə, görmək istədiyi işin uğurlu və ya uğursuz olacağını təyin edərdi. Habelə xoşagəlməz bir səs eşitdikdə və ya arzu edilməyən bir adam gördükdə bunu uğursuzluq əlaməti hesab edərdilər. Bəziləri Şəvval ayında evlənməyi uğursuzluq sayardılar. Aişə ﷺ bu cür etiqadın batil olduğunu bildirib demişdir: "Allahın Elçisi ﷺ mənimlə Şəvval ayında nikah bağlamış, habelə məni şəvval ayında öz evinə gətirmişdir..." Bundan başqa o vaxt ərəblər çərşənbə gününü, habelə Səfər ayını da uğursuz əlamət hesab edərdilər. Qeyd etmək lazımdır ki, bunların və bunlara bənzər inancların hamısı batildir..." ("əl-Qovlul-Mufid", 1/ 103-104).

[3] Əhməd, 3806. Şueyb əl-Arnavut səhih olduğunu bildirmişdir.

[4] əl-Buxari, 5364, 6542; Muslim, 542, 317.

[5] Husayn ibn Abdur-Rahmən (43-136 Hicri) tabiindir. Ənəs ibn Malik, Abdullah ibn Abbas ﷺ kimi böyük səhabələrdən hədis eşitmişdir.

[6] Husayn ibn Abdur-Rahmən namazda olmadığını bildirməklə söhbətdə iştirak edənlərin onun namazda olmasını zənn edib onun barədə yüksək fikirdə olmalarının qarşısını almışdır. Çünki o etmədiyi bir işə görə təriflənməsini istəmirdi. Bu da sələflərin son dərəcə təvazökar və ixlaslı olmalarına dəlalət edir.

ovsun oxumağını xahiş etdim". O soruşdu: "Bunu etməyə səni sövq edən nə idi?" Dedim: "Şəbinin bizə rəvayət etdiyi bir hədis". O soruşdu: "Şəbi sizə nə rəvayət etmişdir?" Dedim: "O bizə Bureydə ibn Husayb əl-Əsləminin belə rəvayət etdiyini xəbər vermişdir: "Yalnız göz dəymiş[1] və ya (əqrəb və s. tərəfindən) sancılmış adamı müalicə etmək məqsədilə ovsun oxumaq olar[2]". (Səid ibn Cubeyr) dedi: "Eşitdiyi ilə kifayətlənən kimsə nə gözəl iş görmüşdür! Lakin İbn Abbas rəvayət etmişdir ki, Peyğəmbər ﷺ belə demişdir: "Ümmətlər mənə göstərildi. Mən peyğəmbər gördüm, yanında bir toplum adam var idi. Başqa bir peyğəmbər gördüm, yanında bir və ya iki adam var idi. Hətta elə bir peyğəmbər də gördüm ki, yanında heç kəs yox idi. Həmin vaxt mənə böyük bir qaraltı göstərildi. Mən onların ümmətim olduğunu zənn etdim. Mənə "Bu, Musa və onun qövmüdür. Sən üfüqə doğru bax" deyildi. Mən (dərhal ora) baxdım və orada böyük bir qaraltı gördüm. Mənə yenə "Üfüqün digər tərəfinə bax!" deyildi. Mən daha əzəmətli bir qaraltı gördüm. Mənə "Bu sənin ümmətindir. Onlardan yetmiş min nəfəri sorğu-sual olunmadan və əzab çəkmədən Cənnətə girəcəklər" deyildi".

---

[1] Gözdəymə həqiqətdir və bir adam başqa birisini gözə gətirməsin deyə onda olan gözəl bir şeyi gördükdə ona "Mübarək olsun!", "Allah xeyir versin! ", "Xeyirli-bərəkətli olsun!" və başqa bu kimi gözəl sözlərlə onun üçün Allahdan xeyir diləsin.

[2] Rəvayət edilir ki, Əbu Səid əl-Xudri ؓ demişdir: "(Bir dəfə) Peyğəmbərin ﷺ səhabələrindən bir dəstə səfərə yola düşdü. Nəhayət, onlar gəlib bədəvi qəbilələrindən birinə məxsus bir kənddə dayandılar. Səhabələr onların evində qonaq olmaq istədilər, lakin onlar səhabələri (yeməyə) qonaq etmək istəmədilər. Bu əsnada qəbilə başçısını əqrəb sancdı. Kənddəkilər ona əllərindən gələn köməyi göstərməyə çalışdılar, lakin bu cəhdlərin heç bir faydası olmadı. Onlardan bəzisi dedi: "Yaxşı olar ki, gedib (kəndimizə) təşrif buyurmuş adamlara müraciət edəsiniz, bəlkə, onlar nə isə edə bilərlər". Onlar səhabələrin yanına gəlib dedilər: "Ay camaat! Qəbilə başçımızı əqrəb sancmışdır. Nə qədər çalışdıqsa, əlac tapa bilmədik. Bəlkə, sizdən biriniz bir şey edə bilərsiniz?" Səhabələrdən birisi dedi: "Bəli, vallahi ki, mən ruqya (ovsun) oxuya bilirəm. Vallahi, biz sizin qonağınız olmaq istədik, lakin siz bizi (yeməyə) qonaq etmədiniz. Elə buna görə də bizə zəhmət haqqı verməyincə, mən sizin (xəstəniz) üçün ruqya oxumayacağam". Sonra onlar (müalicə müqabilində) səhabələrə bir sürü qoyun verəcəklərinə razılaşdılar. Bundan sonra o, qəbilə başçısının yanına gəlib onun yarasına yüngülcə tüpürdü və "əl-Fatihə" surəsini oxudu. Bir az keçdikdən sonra qəbilə başçısı sanki buxovdan azad oldu və xəstə deyilmiş kimi ayağa qalxıb gəzməyə başladı. Onlar səhabələrə razılaşdıqları zəhmət haqqını verdilər. Bu vaxt səhabələrdən biri "Qoyunları bölüşdürün!" dedi. Ruqya oxuyan səhabə isə "Peyğəmbərin ﷺ yanına gedib hadisəni ona danışmayınca və onun nə hökm verəcəyini öyrənməyincə, heç bir şey etməyin!" deyə etiraz etdi. Onlar Peyğəmbərin ﷺ yanına gəlib hadisəni ona danışdıqda, o soruşdu: "Sən haradan bilirdin ki, bu (əl-Fatihə), ruqyədir?" Sonra əlavə edib dedi: "Siz düz etmisiniz. Qoyunları bölüşdürün və özünüzlə yanaşı mənim üçün də bir pay ayırın". Bunu deyəndən sonra Peyğəmbər ﷺ gülümsədi". (əl-Buxari, 2115, 2276).

Bunu deyəndən sonra Peyğəmbər ﷺ qalxıb evinə daxil oldu. Camaat sorğu-suala çəkilmədən və əzab olunmadan Cənnətə girəcək o kimsələr barədə ixtilafa düşdü. Bəziləri "Yəqin ki, bunlar Peyğəmbərə ﷺ yoldaş olmuş səhabələrdir" dedilər. Bəziləri də "Ola bilsin ki, bunlar İslam dini gəldikdən sonra müsəlman olaraq doğulmuş və ölənə qədər Allaha şərik qoşmamış kimsələrdir" dedilər. Beləcə, onlar bir çox şeylər zikr etdilər. Bu vaxt Peyğəmbər ﷺ bayıra çıxdı və "Nə haqda mübahisə edirsiniz?" deyə soruşdu. Səhabələr mübahisə etdikləri məsələ barədə ona xəbər verdilər. Onda Peyğəmbər ﷺ buyurdu: "Bunlar ovsun oxumayan,[1] özlərinə ovsun oxunmasını tələb etməyən, hər hansı bir hadisəni uğursuzluq əlaməti hesab etməyən və yalnız Rəbbinə təvəkkül edən kimsələrdir". Bu vaxt Ukkaşə ibn Mihsan ayağa qalxıb dedi: "Ey Allahın Elçisi! Allaha dua et, məni onlardan etsin!" Peyğəmbər ﷺ "Sən onlardansan!" dedi. Sonra başqa bir adam ayağa qalxıb "Ey Allahın Elçisi! Allaha dua et, məni onlardan etsin!" dedi. Peyğəmbər ﷺ buyurdu: "Bu xüsusda Ukkaşə səni qabaqladı".[2] Hədisi əl-Buxari ؒ də rəvayət etmişdir.[3]

əl-Buxari və Muslimin "Səhih" əsərlərində rəvayət edilir ki, Abdullah ibn Məsud ؓ demişdir: "Bir dəfə Peyğəmbər ﷺ bizə belə buyurdu: "Siz Cənnət əhlinin dörddə biri olmağınıza razı deyilsinizmi?!" Bunu eşidəndə biz "Allahu Əkbər!" dedik. Sonra o buyurdu: "Cənnət əhlinin üçdə biri olmağınıza razı deyilsinizmi?!" Biz yenə "Allahu Əkbər!" dedik. Sonra o belə buyurdu: "Mən sizin

[1] Bu ləfz ravinin xətasıdır. əl-Buxarinin rəvayətində bu ləfz işlənməyib, onun əvəzinə "müalicə məqsədilə bədəninə dağ basmayan" gəlmişdir. Çünki Peyğəmbər ﷺ həm özünə, həm də başqalarına ruqya edərdi, habelə həm Cəbrail, həm də Aişə ؓ ona ruqya edərdilər, həmçinin səhabələr də ruqya edərdi. Aişə ؓ rəvayət edir ki, Peyğəmbər ﷺ xəstələndikdə şərdən qoruyan surələri ("əl-İxlas", "əl-Fələq" və "ən-Nas" surələrini) özünə oxuyub üfürərdi. Xəstəliyi şiddətləndikdə isə mən bu surələrin bərəkətini (Allahdan) umaraq onları onun üçün oxuyub əllərimi bədəninə sürtərdim" (əl-Buxari, 5016); Digər rəvayətdə Aişə ؓ demişdir: "Peyğəmbər ﷺ hər gecə yatağına uzandıqda əllərini cütləşdirib onların içinə üfürər, sonra ora "əl-İxlas", "əl-Fələq" və "ən-Nas" surələrini oxuyar, daha sonra isə əllərini baş və üz nahiyəsindən başlayaraq, bacardığı qədər bədəninin hər yerinə sürtərdi. Beləcə, o bunu üç dəfə təkrar edərdi" (əl-Buxari, 4630, 5017); Ənəs ibn Malik ؓ demişdir: "Peyğəmbər ﷺ ənsardan olan bir ailəyə zəhərli heyvan sancmasını və qulaq ağrısını müalicə etmək üçün ruqya oxumağa izin vermişdir" (əl-Buxari, 5280, 5719); Aişə ؓ demişdir: "Peyğəmbər ﷺ mənə (və ya qeyrisinə) gözdəyməyə qarşı ruqya oxumağı buyurdu". (əl-Buxari, 5297, 5738); Ummu Sələmə ؓ rəvayət edir ki, (bir dəfə) Peyğəmbər ﷺ onun evində üzünün rəngi dəyişmiş bir qız uşağı görüb dedi: "Bu qızcığaza ruqya oxuyun, çünki ona göz dəyib". (əl-Buxari, 5298, 5739).

[2] Muslim, 349, 523.

[3] əl-Buxari, 5311, 5752.

Cənnət əhlinin yarısını təşkil edəcəyinizə ümid edirəm".[1]

Abdur-Razzəq ﷺ Əbu Hureyradan ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Biz zaman baxımından sonuncu, Qiyamət günü isə birinci[2] olacağıq. Hərçənd onlara[3] Kitab bizdən əvvəl, bizə isə onlardan sonra verilmişdir, lakin biz Cənnətə ilk girənlər olacağıq. Allah bizi onların ixtilafa düşdükləri məsələlərdə haqqa yönəltdi. Onlar özlərinə fərz buyrulmuş bu günlər barəsində ixtilafa düşdülər.[4] Lakin Allah bizi bu günü ehtiramla keçirməyə müvəffəq etdi və bu xüsusda insanlar bizim ardımızca gəldilər, yəhudilər sabahkı günü[5], xristianlar isə ondan sonrakı günü[6] təntənə ilə qeyd edirlər".[7] Oxşar hədisi əl-Buxari və Muslim ﷺ Peyğəmbərdən ﷺ rəvayət etmişlər.[8]

Bütün bu hədislər Uca Allahın "**Siz insanlar üçün üzə çıxarılmış ən xeyirli ümmətsiniz; onlara yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha iman gətirirsiniz**" ayəsini açıqlayır. Bu ümmətdən bu xüsusiyyətləri daşıyan hər kəs bu tərifə daxildir. Bu xüsusiyyətləri daşımayanlar isə Uca Allahın barələrində "**Onlar etdikləri pis əməllərdən bir-birlərini çəkindirmirdilər. Onların etdikləri necə də pisdir!**" ("əl-Maidə", 79) deməklə məzəmmət etdiyi Kitab əhlinə bənzəyir. Bu səbəbdən Uca Allah bu ümməti həmin xüsusiyyətlərlə təriflədikdən sonra Kitab əhlini məzəmmət edərək buyurur: "**Kitab əhli də**" Muhəmmədə nazil olana "**iman gətirsəydi, əlbəttə, onlar üçün yaxşı olardı. Onların arasında iman gətirənlər də vardır. Əksəriyyəti isə haqq yolunu azmış fasiqlərdir**", yəni onların içərisində Allaha, sizə və özlərinə nazil olanlara iman gətirənlər çox azdır. Onların əksəriyyəti küfr, günah və asilik edən azğınlardır.

Sonra Uca Allah mömin qullarını müjdələyərək onlara kafir və inkarçı Kitab əhli üzərində zəfər çalacaqlarını xəbər verir və buyurur: "**Onlar sizə əziyyətdən başqa bir zərər yetirə bilməzlər. Əgər sizinlə vuruşmalı olsalar, arxa çevirib qaçarlar. Sonra isə onlara kömək də edilməz**". Həqiqətən, belə də oldu. Xeybər günü Allah onları

[1] əl-Buxari, 6151, 6642; Muslim, 325, 552.
[2] Axirətdə bu ümmətin hamıdan əvvəl Sirat körpüsündən keçib Cənnətə daxil olacağı qəsd edilir.
[3] Burada yəhudilər və xristianlar nəzərdə tutulur.
[4] Allah Kitab əhlinə cümə gününü ehtiramla keçirməyi vacib buyurmuş, onlar isə bu xüsusda fikir ayrılığına düşüb asi olmuşlar.
[5] Yəni şənbə günü.
[6] Yəni bazar günü.
[7] ən-Nəsəi "Sunənul-Kubra" 1653, 1665.
[8] Muslim, 1413, 2017.

rəzil etdi və alçaltdı. Daha əvvəl isə Mədinə yəhudilərindən Bənu Qeynuqa, Bənu Nadir və Bənu Qureyzə qəbilələrini bütünlüklə rəzil etmişdi. Şamdakı xristianların da vəziyyəti belədir. Səhabələr bir çox döyüşlərdə onları məğlub etmişlər və Şam hökmranlığını həmişəlik onlardan almışlar. İsa عليه السلام nazil olana qədər Şam diyarlarında İslam hakim, xristianlar isə rəzil və alçaq olaraq qalacaqdır. İsa عليه السلام nazil olduqda isə Muhəmmədin ﷺ şəriəti ilə hökm verəcək, xaçı sındıracaq, donuzları öldürəcək, cizyəni ləğv edəcək və İslamdan başqa din qəbul etməyəcək.

Sonra Uca Allah buyurur: "**Harada olurlarsa olsunlar, onlara zillət damğası vurulmuşdur. Yalnız Allahın ipinə və ya insanların ipinə sarılan kimsələr müstəsnadır**", yəni Allah onlara zillət və alçaqlığı vacib etmişdir. Harada olursa olsunlar, bundan xilas ola bilməzlər. "**Yalnız Allahın ipinə**", yəni Allahla bağlanan əhdə sarılan kimsələr müstəsnadır. Allahla bağlanan əhd dedikdə, üzərlərinə cizyə vergisi qoyulmaqla bu dinin hökmlərinə tabe olmaları nəzərdə tutulur. "**...Və ya insanların ipinə sarılan kimsələr müstəsnadır**", yəni insanların onlarla müqavilə bağlayaraq onlara əmin-amanlıq bəxş etməsi istisnadır. Necə ki müsəlmanlardan hər hansı birinin müsəlmanlarla aralarında sülh müqaviləsi və ya əhd bağlanmış, yaxud əsir alınmış kafirlərdən birini himayəsi altına götürməsi icazəlidir. İbn Abbas رضي الله عنهما demişdir: "Yəni Allahla və ya insanlarla bağladıqları əhdə sığınanlar müstəsnadır". Mucahid, İkrimə və başqaları رحمهم الله da belə demişlər.

Uca Allah buyurur: "**Onlar Allahın qəzəbinə uğramış**", yəni Allahın qəzəbinə uğradılar və buna layiq oldular. "...**onlara yoxsulluq üz vermişdir**", yəni yoxsulluq onlara həm ilahi qanun, həm də qədər baxımından vacib edilmişdir. "**Bu cəza ona görədir ki, onlar Allahın ayələrinə küfr etmiş və bəzi peyğəmbərləri haqsız yerə öldürmüşlər**", yəni onları belə davranmağa vadar edən təkəbbürlükləri, azğınlıqları və həsəd aparmaları olmuşdur. Uca Allah da bunun qarşılığında onları Axirət zilləti ilə birlikdə əbədi rəzillik, alçaqlıq və kasıblıqla cəzalandırmışdır. Sonra Uca Allah buyurur: "**Bu həm də ona görədir ki, onlar asilik etmiş və həddi aşmışlar**", yəni onları Allahın ayələrini inkar etməyə, peyğəmbərlərini öldürməyə və onlar üçün təqdir edilən hala düşməyə sürükləyən səbəb Allahın əmrlərinə çox asi olmaları, Allahın haramlarına bulaşmaları və Allahın dinində həddi aşmaları olmuşdur. Bu hala düşməkdən Allaha sığınırıq və bu hala düşməmək üçün Allahdan yardım diləyirik.

﴿لَيْسُوا سَوَاءً ۗ مِّنْ أَهْلِ الْكِتَابِ أُمَّةٌ قَائِمَةٌ يَتْلُونَ آيَاتِ اللَّهِ آنَاءَ اللَّيْلِ وَهُمْ يَسْجُدُونَ
﴿١١٣﴾ يُؤْمِنُونَ بِاللَّهِ وَالْيَوْمِ الْآخِرِ وَيَأْمُرُونَ بِالْمَعْرُوفِ وَيَنْهَوْنَ عَنِ الْمُنكَرِ وَيُسَارِعُونَ فِي
الْخَيْرَاتِ وَأُولَٰئِكَ مِنَ الصَّالِحِينَ ﴿١١٤﴾ وَمَا يَفْعَلُوا مِنْ خَيْرٍ فَلَن يُكْفَرُوهُ ۗ وَاللَّهُ عَلِيمٌ بِالْمُتَّقِينَ ﴿١١٥﴾
إِنَّ الَّذِينَ كَفَرُوا لَن تُغْنِيَ عَنْهُمْ أَمْوَالُهُمْ وَلَا أَوْلَادُهُم مِّنَ اللَّهِ شَيْئًا ۖ وَأُولَٰئِكَ أَصْحَابُ النَّارِ ۚ هُمْ
فِيهَا خَالِدُونَ ﴿١١٦﴾ مَثَلُ مَا يُنفِقُونَ فِي هَٰذِهِ الْحَيَاةِ الدُّنْيَا كَمَثَلِ رِيحٍ فِيهَا صِرٌّ أَصَابَتْ حَرْثَ قَوْمٍ
ظَلَمُوا أَنفُسَهُمْ فَأَهْلَكَتْهُ ۚ وَمَا ظَلَمَهُمُ اللَّهُ وَلَٰكِنْ أَنفُسَهُمْ يَظْلِمُونَ ﴿١١٧﴾﴾

**113. Onların hamısı eyni deyil. Kitab əhli içərisində dinində sabitqədəm bir toplum vardır ki, onlar gecələri səcdəyə qapanıb Allahın ayələrini oxuyurlar.**

**114. Onlar Allaha və Axirət gününə iman gətirir, yaxşı işlər görməyi buyurur, pis əməlləri qadağan edir və xeyirxah işlər görməyə tələsirlər. Məhz onlar əməlisaleh insanlardandırlar.**

**115. Onların etdiyi yaxşılıqların heç biri inkar edilməz. Allah müttəqiləri yaxşı tanıyır.**

**116. Kafirlərin nə malları, nə də övladları, onlara Allah yanında heç bir şeydə fayda verə bilməz. Onlar Od sakinləridirlər və onlar orada əbədi qalacaqlar.**

**117. Onların bu dünya həyatında sərf etdiklərinin misalı, özlərinə zülm edən adamların tarlasına ziyan vurub onu məhv edən çox soyuq bir küləyin misalına bənzəyir. Allah onlara zülm etmədi, lakin onlar özləri özlərinə zülm edirdilər.**

İmam Əhməd ﷺ Abdullah ibn Məsuddan ﷺ rəvayət edir ki, bir gün Peyğəmbər ﷺ İşa namazını gecikdirdi, sonra məscidə gəldi və namazı gözləyənlərə belə dedi: "Sizdən başqa bütün dinlərin təmsilçiləri arasında gecənin bu saatında Allahı yad edən bir kimsə tapılmaz". Uca Allah da "**Onların hamısı eyni deyil. Kitab əhli içərisində dinində sabitqədəm bir toplum vardır ki, onlar gecələri səcdəyə qapanıb Allahın ayələrini oxuyurlar**..." ayəsindən "**Onların etdiyi yaxşılıqların heç biri inkar edilməz. Allah müttəqiləri yaxşı tanıyır**" ayəsinə qədər nazil etdi".[1]

[1] əl-Musnəd (3760). İsnadı səhihdir. Həmçinin ət-Təbəri ﷺ rəvayət etmişdir (7661, 7662). əz-Zəvaid kitabında (1/312) hədis, həmçinin Əbu Yalə, əl-Bəzzər və ət-Təbəraniyə ﷺ nisbət olunur. (Əhməd Şakir). Əhməd 3760; İbn Hibban, 1530; ən-Nəsəi "Sunənul-Kubra" 11007, 11073; Əbu Yəalə, 5306; ət-Təbəri, 4/55. Şueyb əl-Arnavut hədisin səhih olduğunu bildirmişlər.

Bir çox təfsir alimlərinin, o cümlədən İbn İshaq və başqalarının رحمه الله qeyd etdikləri kimi, habelə əl-Əufinin رحمه الله İbn Abbasdan رضي الله عنهما rəvayət etdiyinə görə, bu ayələr Abdullah ibn Səlam, Əsəd ibn Ubeyd, Sələbə ibn Səyə və digər Kitab əhlinin alimlərindən iman gətirənlər رضي الله عنهم barədə nazil olmuşdur. Bu səbəbdən ayə belə başa düşülməlidir: "Daha əvvəlki ayələrdə məzəmmət olunan Kitab əhli ilə bu iman gətirənlər, əlbəttə, eyni deyillər". Bu səbəbdən Uca Allah "**Onların hamısı eyni deyil**" buyurur. Yəni hamısı eyni səviyyədə deyillər. Əksinə, onların arasında iman gətirənlər də, günahkarlar da var. Sonra buyurur: "**Kitab əhli içərisində dinində sabitqədəm bir toplum vardır**", yəni Allahın əmrlərini yerinə yetirən, Allahın şəriətinə itaət edən, Allahın peyğəmbərinə tabe olan "**sabitqədəm bir toplum**", yəni doğru yolda olanlar vardır. "**Onlar gecələri səcdəyə qapanıb Allahın ayələrini oxuyurlar**", yəni onlar gecələr qalxıb təhəccüd namazı qılarlar və namazlarında Allahın ayələrini oxuyarlar. "**Onlar Allaha və Axirət gününə iman gətirir, yaxşı işlər görməyi buyurur, pis əməlləri qadağan edir və xeyirxah işlər görməyə tələsirlər. Məhz onlar əməlisaleh insanlardandırlar**". Surənin son ayələrində "**Doğrusu, Kitab əhlindən elələri də var ki, onlar Allaha, həm sizə nazil edilənə, həm də özlərinə nazil edilənə, Allaha müti olaraq iman gətirər, Allahın ayələrini ucuz qiymətə satmazlar. Məhz onların öz Rəbbi yanında mükafatları vardır. Şübhəsiz ki, Allah tez haqq-hesab çəkəndir**". ("Ali-İmran", 199) deyilməklə zikr edilənlər də məhz bunlardır. Burada isə belə buyurulur: "**Etdiyiniz yaxşılıqların heç biri inkar edilməz**", yəni etdiyiniz xeyir əməllər Allah qatında puç olmaz. Əksinə, Allah sizi ən gözəl şəkildə mükafatlandıracaqdır.[1] "**Allah müttəqiləri yaxşı tanıyır**", yəni yaxşı iş görənlərin əməlləri Allaha gizli qalmaz və Onun qatında gözəl əməl sahiblərinin mükafatı heç vaxt itməz.

Sonra Uca Allah Ona şərik qoşan kafirlərdən xəbər verərək buyurur: "**Kafirlərin nə malları, nə də övladları, onlara Allah yanında heç bir şeydə fayda verə bilməz**", yəni Allah onlara əzab vermək istəsə, heç kəs Allahın əzabını onlardan geri çevirə bilməz. "**Onlar Od sakinləridirlər və onlar orada əbədi qalacaqlar**".

---

[1] Quran qiraətçilərindən Hafs, Həmzə, əl-Kisəi, Xaləf və əl-Aməş رحمهم الله bu ayəni وَمآ يَفْعَلُوا مِن خَيْرٍ فَلَنْ يُكْفَرُوه [va mə: yəfalu min xayrin fələn yukfəru:h] "**Onların etdiyi yaxşılıqların heç biri inkar edilməz**" kimi oxumuşlar. Yəni ayədə gələn يَفْعَلُوا [yəfalu] "onların etdikləri yaxşılıqlar" və يُكْفَرُوه [yukfəru:h] "inkar edilməz" feillərini III şəxsdə oxumuşlar. Yerdə qalan on dörd qari ayəni { وَمآ تَفْعَلُوا مِن خَيْرٍ فَلَنْ تُكْفَرُوه } [va mə: təfalu min xayrin fələn tukfəru:h] "**Etdiyiniz yaxşılıqların heç biri inkar edilməz**" kimi oxumuşlar. Yəni ayədə gələn feilləri II şəxsdə oxumuşlar. Başlıqda gələn ayəni əlimizdəki Quran kitabına uyğun olaraq III şəxsdə vermişik. Təfsir əsnasında isə əlyazmaya uyğun olaraq II şəxsdə vermişik. Həmçinin İbn Kəsirin رحمه الله ayənin təfsirində "…sizi ən gözəl şəkildə mükafatlandıracaq" deməsi dəlalət edir ki, o da bu qiraəti seçmişdir. Kitabın digər çap olunmuş nüsxələri İbn Kəsirin رحمه الله sözünü "…onları ən gözəl şəkildə mükafatlandıracaq" kimi vermişdir. (Əhməd Şakir).

Sonra Uca Allah kafirlərin bu dünyada xərclədiklərinə misal çəkərək belə buyurur: “**Onların bu dünya həyatında sərf etdiklərinin misalı özlərinə zülm edən adamların tarlasına ziyan vurub onu məhv edən çox soyuq bir küləyin misalına bənzəyir**”. İbn Abbas, İkrimə, Səid ibn Cubeyr və başqaları ﵃ ayədəki صِرٌّ [sirrun] sözünün “şiddətli soyuq” mənasında olduğunu demişlər. İbn Abbas və Mucahid ﵃ bu sözü həmçinin “od” kimi də təfsir etmişlər. Bu təfsir birinci ilə eynidir, çünki atəşin əşyanı yandırdığı kimi, şiddətli soyuq, xüsusilə də şaxta əkini və meyvələri yandırır. “**Özlərinə zülm edən adamların tarlasına ziyan vurub onu məhv edən çox soyuq bir küləyin misalına bənzəyir**” bu şiddətli soyuq biçim mövsümü gələn əkinlərə endiyində onları məhv edər, məhsulları yox edər və ən çox ehtiyac duyduğu bir vaxtda sahibi ondan məhrum olar. Kafirlərin halı da belədir. Allah bu əkinləri və meyvələri günahları səbəbi ilə sahibinin əlindən aldığı kimi, kafirlərin bu dünyadakı əməllərinin savabını və bəhrəsini də yox edər. Beləcə, bu kafirlər də dünyalarını əsassız və bünövrəsiz qurarlar. “**Allah onlara zülm etmədi, lakin onlar özləri özlərinə zülm edirdilər**”.

﴿يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوا۟ لَا تَتَّخِذُوا۟ بِطَانَةً مِّن دُونِكُمْ لَا يَأْلُونَكُمْ خَبَالًا وَدُّوا۟ مَا عَنِتُّمْ قَدْ بَدَتِ
ٱلْبَغْضَآءُ مِنْ أَفْوَٰهِهِمْ وَمَا تُخْفِى صُدُورُهُمْ أَكْبَرُ ۚ قَدْ بَيَّنَّا لَكُمُ ٱلْءَايَٰتِ ۖ إِن كُنتُمْ تَعْقِلُونَ ﴿١١٨﴾
هَٰٓأَنتُمْ أُو۟لَآءِ تُحِبُّونَهُمْ وَلَا يُحِبُّونَكُمْ وَتُؤْمِنُونَ بِٱلْكِتَٰبِ كُلِّهِۦ وَإِذَا لَقُوكُمْ قَالُوٓا۟ ءَامَنَّا وَإِذَا خَلَوْا۟
عَضُّوا۟ عَلَيْكُمُ ٱلْأَنَامِلَ مِنَ ٱلْغَيْظِ ۚ قُلْ مُوتُوا۟ بِغَيْظِكُمْ ۗ إِنَّ ٱللَّهَ عَلِيمٌۢ بِذَاتِ ٱلصُّدُورِ ﴿١١٩﴾ إِن
تَمْسَسْكُمْ حَسَنَةٌ تَسُؤْهُمْ وَإِن تُصِبْكُمْ سَيِّئَةٌ يَفْرَحُوا۟ بِهَا ۖ وَإِن تَصْبِرُوا۟ وَتَتَّقُوا۟ لَا يَضُرُّكُمْ كَيْدُهُمْ
شَيْـًٔا ۗ إِنَّ ٱللَّهَ بِمَا يَعْمَلُونَ مُحِيطٌ ﴿١٢٠﴾﴾

**118. Ey iman gətirənlər! Sizdən olmayanları özünüzə sirdaş tutmayın. Çünki onlar sizə qarşı fəsad törətməkdən əl çəkməzlər, sizin sıxıntıya düşməyinizi istəyərlər. Düşmənçilikləri onların ağızlarından çıxan sözlərdən bəllidir. Kökslərində gizlətdikləri düşmənçilik isə daha böyükdür. Əgər anlayırsınızsa, Biz ayələri artıq sizə bəyan etdik.**

**119. Bax, siz o kəslərsiniz ki, onlar sizi sevmədiyi halda siz onları sevirsiniz. Siz nazil olmuş kitabların hamısına inanırsınız. Onlar sizinlə rastlaşanda “Biz də, iman gətirdik!” deyir, təklikdə qalanda isə sizə qarşı qəzəblərindən barmaqlarının uclarını gəmirirlər. De: “Qəzəbinizdən ölün!” Şübhəsiz ki, Allah kökslərdə olanları bilir.**

**120. Sizə bir uğur nəsib olduqda bu onları kədərləndirir, sizə bir fəlakət üz verdikdə isə ona sevinirlər. Əgər səbir etsəniz və Allahdan qorxsanız, onların hiyləsi sizə heç bir zərər verməz. Sözsüz ki, Allah onların etdiklərini əhatəyə almışdır.**

Uca Allah bu ayədə mömin qullarına münafiqləri sirdaş tutmağı, yəni sirlərini onlara açacaq dərəcədə və düşmənlərinə qarşı ürəklərində gizlədiklərini onlara bildirəcək dərəcədə yaxın buraxmağı qadağan etmişdir. Çünki münafiqlər möminləri çaşdırmaq üçün güclərini əsirgəməzlər. Yəni möminlərə zərər vermək, onlara qarşı hiylə işlədib onları aldatmaq üçün mümkün olan hər şeyi edərlər və möminlərin çətinliyə düşüb sıxıntı keçirmələrini arzulayarlar.

Uca Allah buyurur: "**Sizdən olmayanları özünüzə sirdaş tutmayın**", yəni sizdən başqalarını - digər dinlərə mənsub olanları özünüzə sirdaş tutmayın. Bir insanın sirdaşı ona şəxsən yaxın olub, etdiyi hər bir işin mahiyyətini bilənə deyilir. əl-Buxari, ən-Nəsəi və başqaları ﷺ Əbu Səid əl-Xudridən ﷺ rəvayət etmişlər ki, Peyğəmbər ﷺ demişdir: "Allahın göndərdiyi elə bir peyğəmbər və ya peyğəmbərlərin özündən sonra qoyduqları elə bir xəlifə yoxdur ki, onun iki növ sirdaşı olmasın. Biri ona yaxşılıq etməyi məsləhət görər və onu bu işə təşviq edər, digəri isə ona pislik etməyi məsləhət görər və onu bu işə təşviq edər. Yalnız Allahın qoruduğu kimsə onların şərindən qoruna bilər".[1] ən-Nəsəi ﷺ oxşar hədisi Əbu Hureyradan ﷺ, o da Peyğəmbərdən ﷺ rəvayət etmişdir.[2] İbn Əbu Hatim ﷺ rəvayət etmişdir ki, Ömər ibn əl-Xattaba ﷺ deyildi: "Burada Hira xalqından hafizəsi güclü olan və yaxşı yazı yazmağı bacaran (nəsrani) bir oğlan uşağı var, bəlkə, onu özünə katib seçəsən?". Ömər dedi: "Əgər belə etsəm, o zaman möminlərdən qeyrisini sirdaş tutmuş olaram".[3] Ömərdən ﷺ rəvayət olunan bu hədis və bu ayə dəlalət edir ki, zimmi kafirlərin[4] katib vəzifəsinə

[1] əl-Buxari, 6659, 7198.

[2] Əbu Səidin ﷺ hədisi əl-Buxarinin "Səhih" əsərindədir (13/163-165 Fəthul-Bari). Həmçinin bu hədisi Əhməd "əl-Musnəd" əsərində rəvayət etmişdir (11362, 11857). Əbu Hureyranın ﷺ hədisi isə "əl-Musnəd" əsərindədir (7238, 7884). əl-Buxari ﷺ bu hədisi Əbu Səidin ﷺ hədisindən sonra muallaq olaraq (isnadın əvvəlini pozmaqla) qeyd etmişdir. Əbu Hureyranın ﷺ hədisində əlavə olaraq bu cümlə var: "Hansı üstün gəlsə, xəlifə ona tabe olar". (Əhməd Şakir). ən-Nəsəi "Sunən" 4202, 4219. Hədis səhihdir. Bax: Səhih ət-Tərğib vət-Tərhib, 2297.

[3] İbn Əbu Hatim, 4038.

[4] Zimmi kafir – müqavilə bağlanmaqla İslam ölkələrində yaşayan xristian, yəhudi və başqaları kimi, Kitab əhlindən olan kafirlərə deyilir. Müqaviləyə əsasən qeyri müsəlmanlar İslam qanunlarına tabe olmaq şərtilə müsəlmanlara cizyə (can vergisi) verirlər. Bunun qarşılığında isə onlara İslam torpaqlarında yaşamağa icazə verilir, habelə malları, canları, ismətləri, dini etiqadları qorunur və xarici hücumlara qarşı İslam dövləti tərəfindən müdafiə olunurlar.

təyin edilməsi icazəli deyil, çünki onlar bu vəzifəyə təyin edilməklə müsəlmanlardan üstün tutulmuş olurlar. Həmçinin müsəlmanların daxili işlərindən xəbərdar olurlar və bu sirləri müsəlmanlarla döyüşən kafir düşmənlərə açmaq təhlükəsi yaranır. Bu səbəbdən Uca Allah "**Çünki onlar sizə qarşı fəsad törətməkdən əl çəkməzlər, sizin sıxıntıya düşməyinizi istəyərlər**" buyurur.

Əbu Yəalə əl-Əzhər ibn Raşiddən ﷺ rəvayət etmişdir ki, insanlar Ənəsin ﷺ yanına gəlib ona sual verərdilər. Ənəs onlara başa düşmədikləri hədis rəvayət etdikdə insanlar əl-Həsən əl-Bəsrinin yanına gələrdilər və o, başa düşmədikləri hədisi onlara açıqlayardı. əl-Əzhəra ibn Raşid demişdir: "Bir gün Ənəs ﷺ insanlara Peyğəmbərin ﷺ belə dediyini rəvayət etdi: "Müşriklərin atəşi ilə işıqlanmayın və üzüklərinizə ərəbcə naxış vurmayın". Hədisi eşidənlər onun mənasını başa düşmədilər və yenə əl-Həsən əl-Bəsrinin yanına gəlib dedilər: "Ənəs ﷺ bizə Peyğəmbərin ﷺ belə dediyini rəvayət etdi: "Müşriklərin atəşi ilə işıqlanmayın və üzüklərinizə ərəbcə naxış vurmayın". Bunun mənası nədir?" əl-Həsən əl-Bəsri dedi: "Peyğəmbərin ﷺ "Üzüklərinizə ərəbcə naxış vurmayın" sözü, yəni üzüklərinizin üzərinə Muhəmməd ﷺ yazdırmayın. Peyğəmbərin ﷺ "Müşriklərin atəşi ilə işıqlanmayın" sözünə gəlincə isə, yəni işlərinizdə müşriklərdən məsləhət almayın". Sonra əl-Həsən əl-Bəsri dedi: "Allahın Kitabındakı "**Ey iman gətirənlər! Sizdən olmayanları özünüzə sirdaş tutmayın**" ayəsi bunun təsdiqidir".[1] Əbu Yəalə ﷺ belə rəvayət etmişdir. Eyni hədisi Əhməd və ən-Nəsəi ﷺ də rəvayət etmişlər. Lakin əl-Həsən əl-Bəsrinin ﷺ hədisə verdiyi şərhi zikr etməmişlər.[2]

əl-Həsən əl-Bəsrinin ﷺ hədisi belə şərh etməsi şübhəlidir. Hədisin mənası aydındır. "Üzüklərinizə ərəbcə naxış vurmayın" cümləsinin mənası "Peyğəmbərin ﷺ üzüyünün naxışına bənzəməməsi üçün üzüklərinizə ərəbcə yazı yazdırmayın" deməkdir. Çünki Peyğəmbərin ﷺ üzüyündə مُحَمَّدٌ رَسُولُ الله [Muhəmmədun rasu:lullah] "Muhəmməd Allahın Elçisidir" yazılmışdı. Bu səbəbdən səhih bir hədisdə rəvayət olunur ki, Peyğəmbər ﷺ kiminsə eyni yazını üzüyə yazdırmasını qadağan etmişdir. Müşriklərin atəşi ilə işıqlanmaya gəlincə isə bunun mənası belədir: "Müşriklərin yaşadığı ölkələrdə onlarla birlikdə yaşamaqla evlərinizi onlara yaxın etməyin. Əksinə, onlardan

[1] əl-Beyhəqi "Şuabul-İman" 8930; ən-Nəsəi "Sunən" 5209; Əhməd, 11972. Hədis zəifdir. Bax: Silsilə əd-Daifə, 4781.

[2] Hədisi, həmçinin ət-Təbəri əl-Həsənin ﷺ təfsiri ilə birlikdə rəvayət etmişdir (7685). İmam Əhmədin rəvayəti "əl-Musnəd" əsərindədir (11978). əl-Buxari "əl-Kəbir" əsərində (1/1/455) əl-Həsənin ﷺ sözünü zikr etmədən rəvayət etmişdir. (Əhməd Şakir).

uzaqlaşın və ölkələrini tərk edin". Bu hədisə əl-Həsən əl-Bəsrinin ﷺ dediyi mənanı verərək ayənin buna dəlil gətirilməsi şübhəlidir. Ən doğrusunu Allah bilir.

Sonra Uca Allah buyurur: "**Düşmənçilikləri onların ağızlarından çıxan sözlərdən bəllidir. Kökslərində gizlətdikləri düşmənçilik isə daha böyükdür**", yəni üzlərində və düşünmədən dillərindən tökülən sözlərində düşmənçilikləri aydın görünür. Bununla yanaşı, qəlbləri də İslam və müsəlmanlara qarşı kin-küdurətlə doludur. Onların bu halları, ağıllı və dərrakəli insanlara, əlbəttə ki, gizli deyil. Bu səbəbdən Uca Allah "**Əgər anlayırsınızsa, Biz ayələri artıq sizə bəyan etdik. Bax, siz o kəslərsiniz ki, onlar sizi sevmədiyi halda siz onları sevirsiniz**" buyurur. Yəni siz, ey möminlər, iman gətirdiklərini sizə büruzə verdikləri üçün münafiqləri sevirsiniz. Halbuki onlar sizi nə zahirdə, nə də daxildə sevmirlər. "**Siz nazil olmuş kitabların hamısına inanırsınız**", yəni Kitablar barədə sizin heç bir şübhəniz və tərəddüdünüz yoxdur. Halbuki onlar şübhə, tərəddüd və çaşqınlıq içərisindədirlər. Rəvayət olunur ki, İbn Abbas رضي الله عنهما Uca Allahın "**Siz nazil olmuş kitabların hamısına inanırsınız**" ayəsini təfsir edərək demişdir: "Yəni siz öz Kitabınıza da, onların Kitabına da, ondan əvvəl nazil olan kitablara da inanırsınız. Onlar isə sizin Kitabınızı inkar edirlər. Onların sizə nifrət bəsləmələrindən daha çox siz onlara nifrət bəsləməyə haqlısınız". Bunu İbn Cərir ﷺ rəvayət etmişdir.[1]

"**Onlar sizinlə rastlaşanda "Biz də iman gətirdik!" deyir, təklikdə qalanda isə sizə qarşı qəzəblərindən barmaqlarının uclarını gəmirirlər**". Ayədə keçən الأَنَامِلُ [əl-ənə:milu] sözü "barmaqların ucu" deməkdir. "Barmaqlar" mənasında olduğu da deyilmişdir.

Bu, münafiqlərin halıdır. Onlar möminlərə zahirən iman və sevgi göstərirlər. Daxilləri isə hərtərəfli bunun əksidir. Necə ki Uca Allah buyurur: "**Təklikdə qalanda isə sizə qarşı qəzəblərindən barmaqlarının uclarını gəmirirlər**". Bu, qəzəb və kinin ən şiddətli dərəcəsidir. Uca Allah ayənin ardınca buyurur: "**De: "Qəzəbinizdən ölün!" Şübhəsiz ki, Allah kökslərdə olanları bilir**", yəni imanlarından ötrü möminlərə nə qədər həsəd aparsanız da, bu hal sizi nə qədər qəzəbləndirsə də, bilin ki, Allah Öz nemətini mömin qullarına tamamlayacaq, dinini kamil edəcək, Öz sözünü ucaldacaq və dinini üstün edəcək, siz isə qəzəbinizdən gəbərin! "**Şübhəsiz ki, Allah kökslərdə olanları bilir**", yəni Allah kökslərinizin və qəlblərinizin möminlərə bəslədiyi və gizlətdiyi qəzəb, həsəd və düşmənçiliyi yaxşı

[1] ət-Təbəri, 7695, 7731.

bilir. Uca Allah buna görə sizi cəzalandıracaq. Cəzanız, Allahın sizə dünyada ümid etdiklərinizin əksini göstərmək, Axirətdə isə əbədi qalacağınız və çıxa bilməyəcəyiniz şiddətli Cəhənnəm əzabı olacaq.

Sonra Uca Allah buyurur: "**Sizə bir uğur nəsib olduqda bu onları kədərləndirir, sizə bir fəlakət üz verdikdə isə ona sevinirlər**". Bu hal onların möminlərə qarşı ədavətinin şiddətli olmasına dəlalət edir. Belə ki möminlərə bir bolluq, bir zəfər, bir yardım gəlsə, köməkçiləri artıb qüvvətlənsə, bu münafiqləri kədərləndirər. Lakin Allahın hikməti ilə müsəlmanlara qıtlıq üz verərsə və ya Uhud döyüşündə baş verdiyi kimi, düşmənləri onlara qalib gələrsə, münafiqlər buna sevinərlər. Uca Allah mömin qullarına xitab edərək belə buyurur: "**Əgər səbir etsəniz və Allahdan qorxsanız, onların hiyləsi sizə heç bir zərər verməz. Sözsüz ki, Allah onların etdiklərini əhatəyə almışdır**". Uca Allah möminləri səbir etməklə, Allahdan qorxmaqla, Ona təvəkkül etməklə şər adamların şərindən və günahkarların hiylələrindən qurtuluşa yönəldir. Allah möminlərin düşmənlərini əhatə etmişdir. Möminlərin gücü və qüvvəti yalnız Allah sayəsindədir. Allahın istədiyi baş verər, istəmədiyi isə baş verməz. Onun təqdiri və istəyi olmadan heç bir şey baş verməz. Kim Ona təvəkkül edərsə, Allah ona yetər.

Sonra Uca Allah Uhud döyüşünü qeyd edib orada mömin qullarını necə imtahana çəkməsini, möminlərlə münafiqləri bir-birindən ayırmasını və səbir edənlərin səbrini bəyan etməyə başlayaraq belə buyurur:

﴿ وَإِذْ غَدَوْتَ مِنْ أَهْلِكَ تُبَوِّئُ ٱلْمُؤْمِنِينَ مَقَٰعِدَ لِلْقِتَالِ ۗ وَٱللَّهُ سَمِيعٌ عَلِيمٌ ﴿١٢١﴾ إِذْ هَمَّت طَّآئِفَتَانِ
مِنكُمْ أَن تَفْشَلَا وَٱللَّهُ وَلِيُّهُمَا ۗ وَعَلَى ٱللَّهِ فَلْيَتَوَكَّلِ ٱلْمُؤْمِنُونَ ﴿١٢٢﴾ وَلَقَدْ نَصَرَكُمُ ٱللَّهُ بِبَدْرٍ وَأَنتُمْ أَذِلَّةٌ ۖ
فَٱتَّقُوا۟ ٱللَّهَ لَعَلَّكُمْ تَشْكُرُونَ ﴿١٢٣﴾ ﴾

**121. Bir zaman sən (**Uhuddakı**) döyüşdən ötrü möminləri mövqelərə yerləşdirmək üçün səhər tezdən ailəndən ayrılıb getmişdin. Allah, hər şeyi eşidəndir, hər şeyi biləndir!**

**122. O zaman sizlərdən iki dəstə ruhdan düşməyə hazır idilər. Allah isə onların yardımçısı idi. Qoy möminlər yalnız Allaha təvəkkül etsinlər.**

**123. Siz zəif olduğunuz halda Allah Bədrdə sizə yardım etdi. Elə isə Allahdan qorxun ki, bəlkə, şükür edəsiniz.**

Əksər alimlərin rəyinə görə, bu ayədə Uhud döyüşündən bəhs edilir. Bunu İbn Abbas, əl-Həsən, Qatədə, əs-Suddi və başqaları ﷺ demişlər. İbn Cərir ﷺ əl-Həsən əl-Bəsridən ﷺ rəvayət etmişdir ki, ayədə Əhzab (Xəndək) döyüşündən bəhs edilir. Lakin bu rəy qəribədir və ona etimad edilə bilməz. Uhud döyüşü hicrətin üçüncü ilinin Şəvval ayında şənbə günü baş vermişdir.[1] Uhud döyüşünün başvermə səbəbi belədir: Bədr döyüşündə müşriklərin adlı-sanlı adamlarından bir çoxu öldürüldü, lakin Əbu Süfyanın ﷺ yanında olan ticarət karvanı xilas oldu. Karvan Məkkəyə qayıtdıqda Bədr döyüşündə öldürülənlərin oğulları və qalan Məkkə böyükləri Əbu Süfyana "Bu malları Muhəmmədlə döyüşmək üçün ayır" dedilər. Beləcə, malları bu işə sərf etdilər və müxtəlif qəbilələrdən ibarət bir ordu yığdılar. Sayları üç minə yaxın idi. Nəhayət, onlar Mədinə istiqamətində Uhud yaxınlığında bir yerdə düşərgə saldılar. Peyğəmbər ﷺ cümə günü namazdan sonra Bənu Nəccar qəbiləsindən Malik ibn Amra ﷺ cənazə namazı qıldı və sonra səhabələri ilə məşvərət etdi: "Düşməni Mədinədən kənarda qarşılayaq, yoxsa Mədinədə qalaq?" Abdullah ibn Ubey Mədinədə qalmağı təklif etdi və dedi: "Əgər müşriklər qaldıqları yerdə qalsalar, pis bir yerdə qalmış olacaqlar. Mədinəyə girməyə cəhd etsələr, kişilər onlarla üz-üzə vuruşacaq, qadınlar və uşaqlar isə başlarına daş yağdıracaqlar. Beləcə, məğlub olmuş halda geri dönəcəklər". Bədr döyüşündə iştirak etməmiş səhabələr isə düşmənlə Mədinədən kənarda qarşılaşmağı məsləhət gördülər. Peyğəmbər ﷺ evinə getdi, zirehini geyinib onların yanına qayıtdı. Bu arada düşmənlə Mədinədən kənarda qarşılaşmağı məsləhət görən səhabələrdən bəziləri peşman oldular və öz aralarında dedilər: "Bəlkə, biz Peyğəmbəri ﷺ buna məcbur etdik". Peyğəmbər ﷺ gəldikdən sonra dedilər: "Ey Allahın Elçisi, istəsən, Mədinədə qalarıq". Peyğəmbər ﷺ dedi: "Heç bir peyğəmbərə zirehini geyindikdən sonra Allah onun barədə hökm verməyənə qədər fikrindən dönmək yaraşmaz". Beləliklə, Peyğəmbər ﷺ min nəfər səhabəsi ilə yola çıxdı. əş-Şaut (Mədinə ilə Uhud arasında bir yerdir) adlanan yerə çatdıqda Abdullah ibn Ubey onun dediyini etmədikləri üçün qəzəbləndiyini bəhanə gətirərək ordunun üçdə biri ilə geri döndü. O və yoldaşları belə deyirdilər: "Bu gün döyüş olacağını bilsəydik, sizin ardınızca

[1] İbn Kəsir ﷺ Uhud döyüşünün başvermə tarixi barədə iki rəy qeyd etmişdir. Birincisi, 11 Şəvval, digəri isə 15 Şəvval. "ət-Təvfiqat əl-İlhəmiyyə" əsərində Uhud döyüşünün hicrətin üçüncü ilində Şəvval ayının əvvəli baş verdiyi bildirilir. Beləliklə, şənbə günü Şəvvalın on dördü olur. Uhud döyüşü barədə ətraflı məlumat üçün İbn Kəsirin "əl-Bidəyə vən-Nihəyə" əsərinə (4/9-61) bax. (Əhməd Şakir).

gedərdik, lakin bu gün onlarla döyüşəcəyinizi sanmırıq". Peyğəmbər ﷺ isə yerdə qalan ordu ilə getməyə davam etdi və Uhud dağının yanında bir dərəyə çatdı. Vadinin bir kənarında düşərgə saldı və əsgərlərinin arxasını Uhud dağına çevirib dedi: "Mən əmr verməyənə qədər heç kəs döyüşə atılmasın". Peyğəmbər ﷺ yeddi yüz səhabəsi ilə döyüşə hazırlaşdı. Əlli oxçu ayırdı və onlara Bənu Amr ibn Auf qəbiləsindən olan Abdullah ibn Cubeyri ؓ başçı təyin etdi və dedi: "Atlıları (oxlarınızla) bizdən uzaqlaşdırın ki, sizi keçib bizə çata bilməsinlər. Döyüşün bizim xeyrimizə və ya əleyhimizə olduğunu görsəniz belə, yerlərinizdən ayrılmayın. Quşların cəsədlərimizi dimdikləyib yediyini görsəniz belə, yerinizdən ayrılmayın!" Peyğəmbər ﷺ bu döyüşdə üst-üstə iki zireh geyinmişdi və bayrağı Bənu Abduddar qəbiləsindən olan Musab ibn Umeyrə ؓ vermişdi. Peyğəmbər ﷺ bəzi uşaqların bu döyüşdə iştirak etməsinə icazə vermiş, bəzilərinə isə icazə verməmişdi. İcazə vermədiklərinə isə bu hadisədən təxminən iki il sonra baş vermiş Xəndək döyüşündə icazə verdi. Qureyş bu döyüşə üç min adamla hazırlaşmışdı. Yüz atlı dəstəni kənarda saxlamışdılar. Atlı dəstənin sağ cinahına Xalid ibn əl-Valid, sol cinahına isə İkrimə ibn Əbu Cəhl başçılıq edirdi. Bayrağı isə Bənu Abduddər qəbiləsinə vermişdilər.[1] İki dəstə arasında baş verənlərin təfsilatı Allahın izni ilə bu döyüşlə əlaqəli ayələrin təfsirində gələcəkdir.

Uca Allah buyurur: "**Bir zaman sən** (Uhuddakı) **döyüşdən ötrü möminləri mövqelərə yerləşdirmək üçün səhər tezdən ailəndən ayrılıb getmişdin**", yəni bir zaman sən möminləri döyüş üçün dayanacaqları yerdə yerləşdirmək üçün onlara yerlərini bildirmək, ordunun sağ və sol cinahlarında sənin əmr etdiyin yerlərdə dayanmaları üçün evindən erkən vaxtda ayrılmışdın. "**Allah hər şeyi eşidəndir, hər şeyi biləndir!**", yəni Allah o zaman sizin dediklərinizi yaxşı eşidir və qəlblərinizdən keçənləri yaxşı bilirdi.

İbn Cərir ؒ burada belə bir sualın ortaya çıxdığını bildirmişdir: "Peyğəmbərin ﷺ Uhuda cümə günü namazdan sonra getdiyini necə deyirlər? Halbuki Uca Allah ayədə "**Bir zaman sən** (Uhuddakı) **döyüşdən ötrü möminləri mövqelərə yerləşdirmək üçün səhər tezdən ailəndən ayrılıb getmişdin**" buyurur". Sonra bu suala özü belə cavab vermişdir: "Peyğəmbərin ﷺ səhabələrini döyüş mövqelərinə yerləşdirmək üçün çıxması şənbə günü səhər olmuşdur".[2]

[1] İbn İshaq "əs-Sira" 3/304-305.
[2] ət-Təbəri, 7715, 7752.

Uca Allah buyurur: "**O zaman sizlərdən iki dəstə ruhdan düşməyə hazır idilər. Allah isə onların yardımçısı idi. Qoy möminlər yalnız Allaha təvəkkül etsinlər**". əl-Buxari ﷫ rəvayət etmişdir ki, Cabir ibn Abdullah ﷠ demişdir: "Uca Allahın "**O zaman sizlərdən iki dəstə ruhdan düşməyə hazır idilər. Allah isə onların yardımçısı idi**" ayəsi bizim Sələmə və Hərisə oğullarından ibarət iki dəstə barəsində nazil olmuşdur. Uca Allahın "**Allah isə onların yardımçısı idi**" sözü olmasaydı, bu ayənin bizim barəmizdə endirilmiş olmasını istəməzdik".[1] Hədisi Muslim ﷫ də rəvayət etmişdir.[2] Sələflərin bir çoxu da bu iki dəstənin Hərisə oğulları ilə Sələmə oğulları olduğunu söyləmişlər.

Uca Allah buyurur: "**Siz zəif olduğunuz halda, Allah Bədrdə sizə yardım etdi. Elə isə Allahdan qorxun ki, bəlkə, şükür edəsiniz**", yəni Bədr döyüşündə sizə yardım etdi. Bədr döyüşü hicrətin ikinci ilində Ramazan ayının on yeddisində cümə günü baş vermişdir. Bədr döyüşü baş verən gün haqq ilə batilin ayrıldığı, müsəlmanların sayca az olmalarına baxmayaraq, Allahın İslamı və müsəlmanları ucaltdığı, şirki alçaltdığı, şirk yerlərini isə məhv etdiyi bir gündür. Həmin gün müsəlmanlar üç yüz on üç nəfər idilər, onların iki atı, yetmiş dəvəsi vardı. Qalanları isə piyada idilər. Ehtiyacları olan döyüş vəsaitləri də kifayət qədər deyildi. Düşmən isə doqquz yüz – min nəfər arasında olub zireh və dəbilqələr geyinmiş, döyüş vasitələri ilə tam olaraq təmin olunmuş, üstəlik bəzəkli və güclü atlara sahib idilər. Bütün bunlara baxmayaraq, Allah Peyğəmbərini ﷺ ucaltdı, dinini üstün, Peyğəmbərin ﷺ və tərəfdarlarının üzünü ağ, şeytanı və nəslini isə alçaldıb rüsvay etdi. Bu səbəbdən Uca Allah ondan qorxan və çəkinən mömin qullarına bu nemətini xatırladaraq buyurur: "**Siz zəif olduğunuz halda, Allah Bədrdə sizə yardım etdi**", yəni siz sayca az idiniz. Beləliklə, dərk edəsiniz ki, zəfər say və döyüş-sursatın çoxluğu ilə deyil, yalnız Allah tərəfindəndir. Uca Allah başqa bir ayədə buna işarə edərək buyurur: "**Həqiqətən, Allah əksər döyüşlərdə, habelə Huneyn günündə də sizə kömək etmişdi. O zaman çoxluğunuza aludə oldunuz, amma bu sizin karınıza gəlmədi. Yer üzü, genişliyinə baxmayaraq, sizə dar gəldi, sonra geriyə çevrilib qaçdınız. Sonra Allah Öz Elçisinə və möminlərə əminlik nazil etdi, görə bilmədiyiniz döyüşçülər göndərdi və kafirlərə əzab verdi. Budur kafirlərin cəzası. Bundan**

[1] əl-Buxari, 4192, 4558.

[2] Muslim, 4560, 6569.

**sonra isə Allah istədiyinin tövbəsini qəbul edər. Çünki Allah Bağışlayandır, Rəhmlidir**" ("ət-Tövbə", 25-27).

İmam Əhməd ﷺ rəvayət etmişdir ki, İyad əl-Əşari ﷺ demişdir: "Yarmuk döyüşündə iştirak etdim. Bizə beş başçı təyin olunmuşdu – Əbu Ubeydə, Yəzid ibn Əbu Süfyan, İbn Həsənə, Xalid ibn əl-Valid və İyad. Ömər ﷺ bizə "Döyüş başlasa, Əbu Ubeydəni başçı təyin edin!" demişdi. Biz Ömərə "Aramızda ölənlər çoxdur" deyə xəbər göndərdik və ondan kömək istədik. O da bizə belə yazdı: "İmdad istədiyiniz məktub mənə gəlib çatdı. Mən sizi yardım edənlərin ən güclüsünə və ən məğlubedilməz orduya sahib olana yönəldəcəyəm. Bu, İzzət və Cəlal sahibi olan Allahdır. Siz Ondan yardım diləyin! Muhəmməd ﷺ Bədr günü sizdən daha az sayla qalib gəldi. Sizə bu məktubum gəldikdə dərhal döyüşə girin və mənə müraciət etməyin!" Biz dərhal döyüşə girdik və düşməni məğlub edərək dörd fərsəx (ölçü vahidi) geriyə qovduq. Bu döyüşdən çox qənimət əldə etdik. Bu malları necə bölüşdürəcəyimiz barədə məşvərət etdik və İyad hər kəsə öldürdüyü bir düşmən üçün on hissə verilməsini təklif etdi. Sonra Əbu Ubeydə "Mənimlə kim (at yarışında) mərcləşə bilər?" deyə soruşdu. Bir gənc "Əgər qəzəbin tutmazsa, mən mərcləşərəm" dedi. Gənc Əbu Ubeydəni keçdi. Mən Əbu Ubeydəni gəncin arxasında, çılpaq bir atın belində, hörüklərinin uçuşduğunu gördüm".[1] Bu hədisin isnadı səhihdir. Oxşar hədisi İbn Hibban "Səhih" əsərində rəvayət etmişdir. əl-Hafiz Diya əl-Məqdisi ﷺ kitabında bu hədisə yer vermişdir.[2] Bədr Məkkə ilə Mədinə arasında quyusu ilə tanınan bir yerdir. Bu quyu onu qazan Bədr ibn ən-Nərin adlı bir kişiyə nisbət edilmişdir. əş-Şabi ﷺ demişdir: "Bədr eyni adı daşıyan bir kişiyə aid quyudur".[3]

Ayənin sonunda Uca Allah "**Elə isə Allahdan qorxun ki, bəlkə, şükür edəsiniz**" buyurur, yəni Ona itaətdə olun.

[1] Əhməd, 344; İbn Hibban, 4766. Şueyb əl-Arnavut isnadının həsən olduğunu bildirmişdir.

[2] əl-Musnəd (344). Hədisdə adı keçən beş başçıdan biri İyad ibn Ğanim əl-Fəhri hədisi rəvayət edən tabiin İyad əl-Əşari deyil. (Əhməd Şakir).

[3] İbn Əbu Hatim, 4083.

﴿ إِذۡ تَقُولُ لِلۡمُؤۡمِنِينَ أَلَن يَكۡفِيَكُمۡ أَن يُمِدَّكُمۡ رَبُّكُم بِثَلَٰثَةِ ءَالَٰفٖ مِّنَ ٱلۡمَلَٰٓئِكَةِ مُنزَلِينَ ١٢٤ بَلَىٰٓۚ
إِن تَصۡبِرُواْ وَتَتَّقُواْ وَيَأۡتُوكُم مِّن فَوۡرِهِمۡ هَٰذَا يُمۡدِدۡكُمۡ رَبُّكُم بِخَمۡسَةِ ءَالَٰفٖ مِّنَ ٱلۡمَلَٰٓئِكَةِ مُسَوِّمِينَ
١٢٥ وَمَا جَعَلَهُ ٱللَّهُ إِلَّا بُشۡرَىٰ لَكُمۡ وَلِتَطۡمَئِنَّ قُلُوبُكُم بِهِۦۗ وَمَا ٱلنَّصۡرُ إِلَّا مِنۡ عِندِ ٱللَّهِ ٱلۡعَزِيزِ
ٱلۡحَكِيمِ ١٢٦ لِيَقۡطَعَ طَرَفٗا مِّنَ ٱلَّذِينَ كَفَرُوٓاْ أَوۡ يَكۡبِتَهُمۡ فَيَنقَلِبُواْ خَآئِبِينَ ١٢٧ لَيۡسَ لَكَ مِنَ
ٱلۡأَمۡرِ شَيۡءٌ أَوۡ يَتُوبَ عَلَيۡهِمۡ أَوۡ يُعَذِّبَهُمۡ فَإِنَّهُمۡ ظَٰلِمُونَ ١٢٨ وَلِلَّهِ مَا فِي ٱلسَّمَٰوَٰتِ وَمَا فِي ٱلۡأَرۡضِۚ
يَغۡفِرُ لِمَن يَشَآءُ وَيُعَذِّبُ مَن يَشَآءُۚ وَٱللَّهُ غَفُورٞ رَّحِيمٞ ١٢٩ ﴾

**124. O zaman sən möminlərə deyirdin: "Rəbbinizin üç min mələk endirərək köməyinizə çatması, sizə yetməzmi?"**

**125. Əlbəttə, əgər səbir edib Allahdan qorxsanız və elə indi onlar sizin üstünüzə hücum etsələr, Rəbbiniz nişanlanmış beş min mələklə sizə yardım edər.**

**126. Allah bunu sizə sırf bir müjdə olsun və bunun sayəsində qəlbləriniz rahatlansın deyə etdi. Zəfər ancaq Qüdrətli və Müdrik Allahdandır.**

**127. Allah belə etdi ki, bununla kafirlərin bir qismini öldürsün, yaxud onları alçaltsın və beləcə, məyus halda geri dönsünlər, –**

**128. Bu işin sənə aidiyyəti yoxdur. Allah ya onların tövbəsini qəbul edər, ya da (inkar etsələr) onlara əzab verər. Çünki onlar zalımdırlar.**

**129. Göylərdə və yerdə nə varsa, Allaha məxsusdur. O, istədiyini bağışlayar, istədiyinə də əzab verər. Allah Bağışlayandır, Rəhmlidir.**

Uca Allahın bu vədinin Bədr, yoxsa Uhud döyüşünə aid olduğuna dair təfsir alimləri ixtilaf edərək iki rəy söyləmişlər:

**Birinci rəy**: Uca Allahın "**O zaman sən möminlərə deyirdin**" ayəsi "**Siz zəif olduğunuz halda, Allah Bədrdə sizə yardım etdi**" ayəsi ilə əlaqəlidir. Bu rəy əl-Həsən əl-Bəsri, əş-Şabi və başqalarından ﷺ rəvayət edilmişdir. İbn Cərir ﷺ də bu rəyi seçmişdir.

Əgər deyilsə ki, bu rəyə görə bu ayə ilə Uca Allahın Bədr döyüşü barədə buyurduğu "**O vaxt siz Rəbbinizdən kömək diləyirdiniz. O da "Mən sizə bir-birinin ardınca gələn min mələklə yardım edəcəyəm" deyə duanızı qəbul etmişdi. Allah bunu yalnız bir müjdə və onunla**

**qəlbiniz rahatlıq tapsın deyə belə etdi. Qələbə yalnız Allahdandır. Həqiqətən, Allah Qüdrətlidir, Hikmət sahibidir.**" ("əl-Ənfal", 9-10) ayəsini necə cəm etmək olar? Onlara belə cavab verərik: "Bu ayədə min sayının qeyd edilməsi, heç də bu sayın üç min və daha çox olmasını inkar etmir, çünki Uca Allahın ayədə "**bir-birinin ardınca gələn**" deməsi ilə göndərilən min mələyə digər minlərin də əlavə olunması və arxalarından göndərilməsi aydın olur.[1] "əl-Ənfal" surəsindəki ayənin məzmunu "Ali-İmran" surəsindəki ayənin məzmununa bənzəyir. Görünən budur ki, bu, Bədr döyüşündə baş vermişdir. Çünki bilindiyi kimi, mələklərin döyüşdə iştirak etməsi Bədr döyüşündə olmuşdur. Ən doğrusunu Allah bilir.

**İkinci rəy**: Allahın bu vədi "**Bir zaman sən** (Uhuddakı) **döyüşdən ötrü möminləri mövqelərə yerləşdirmək üçün səhər tezdən ailəndən ayrılıb getmişdin**" ayəsi ilə əlaqədardır və bu, Uhud döyüşüdür. Bu rəy Mucahid, İkrimə, əz-Zuhri, Musa ibn Uqbə və başqalarına ﷭ aiddir. Lakin onlar beş min mələyin köməyə gəlməsi hadisəsinin baş vermədiyini demişlər, çünki o gün möminlər qaçdılar. İkrimə ﷭ isə: "Üç min mələk də köməyə göndərilməmişdir, çünki Uca Allah: "**Əlbəttə, əgər səbir edib Allahdan qorxsanız**" buyurur. Onlar isə səbir etmədilər, qaçdılar. Bu səbəbdən onlara bir mələklə də yardım edilmədi"- deyə əlavə etmişdir.

Uca Allah buyurur: "**Əlbəttə, əgər səbir edib Allahdan qorxsanız**", yəni əgər düşməninizin müqavimətinə səbir edib Məndən qorxsanız və əmrlərimə itaət etsəniz, "**və elə indi onlar sizin üstünüzə hücum etsələr**"– əl-Həsən, Qatədə, ər-Rabi və əs-Suddi ﷭ demişlər: "Yəni elə indi bu halları ilə sizə hücum etsələr". Mucahid və İkrimə ﷭ isə demişlər: "Yəni bu qəzəblə sizə hücum etsələr". "**Rəbbiniz nişanlanmış beş min mələklə sizə yardım edər**", yəni əlamətlə nişanlanmış. İbn Əbu Hatim ﷭ rəvayət etmişdir ki, Əli ibn Əbu Talib ﷡ demişdir: "Bədr günü mələklərin nişanı ağ paltarları idi. Həmçinin atlarının alınlarında da nişanları vardı".[2]

Uca Allah buyurur: "**Allah bunu sizə sırf bir müjdə olsun və bunun sayəsində qəlbləriniz rahatlansın deyə etdi**", yəni Allahın

---

[1] Ayədəki مُرْدِفِينَ [murdifi:n] "**bir-birinin ardınca gələn**" indiki zaman feili sifətini Nafi, Əbu Cəfər və Yaqub ﷭ keçmiş zaman feili sifəti kimi مُرْدَفِينَ [murdəfi:n] "**ard-arda göndərilmiş**" oxumuşlar. Yerdə qalan on dörd qari isə indiki zaman feili sifəti kimi مُرْدِفِينَ [murdifi:n] "**bir-birinin ardınca gələn**" kimi oxumuşlar. İbn Kəsirin ﷭ təfsirindən görünür ki, o bu sözü keçmiş zaman feili sifəti kimi "**ard-arda göndərilmiş**" mənasında açıqlamışdır. (Əhməd Şakir).

[2] İbn Əbu Hatim, 4106.

mələkləri endirməsi və bunu sizə bildirməsi sizə bir müjdə olsun deyə qəlblərinizi sevindirmək və rahatlandırmaq üçün idi. Yoxsa, əlbəttə, zəfər yalnız Allahdandır və Allah siz olmadan və sizin müharibənizə ehtiyac duymadan da düşmənlərindən intiqamını almağa qadirdir. Necə ki Uca Allah başqa bir ayədə möminlərə Onun yolunda döyüşməyi əmr etdikdən sonra buyurur: "**Döyüşdə kafirlərlə qarşı-qarşıya gəldiyiniz zaman boyunlarını vurun. Nəhayət, onları qırıb zəiflətdikdə əsirlərə bağladığınız kəndirləri bərk çəkin. Sonra da onları ya rəhm edib fidyəsiz, ya da fidyə alıb azad edin. Müharibəyə son qoyulanadək kafirlərlə belə rəftar edin. Bax belə! Əgər Allah istəsəydi, onlardan döyüşsüz də intiqam alardı. Lakin O sizi bir-birinizlə sınağa çəkmək üçün belə etdi. Allah Öz yolunda öldürülənlərin əməllərini heç vaxt boşa çıxartmaz. Allah onları doğru yola yönəldəcək, onların halını yaxşılaşdıracaq və onları özlərinə tanıtmış olduğu Cənnətə daxil edəcək**" ("Muhəmməd", 4-6). Eyni səbəbə görə, burada da "**Allah bunu sizə sırf bir müjdə olsun və bunun sayəsində qəlbləriniz rahatlansın deyə etdi. Zəfər ancaq Qüdrətli və Müdrik Allahdandır**" buyurmuşdur. Yəni O, tükənməz güc və təqdir etdiklərində hikmət sahibidir.

Sonra Uca Allah buyurur: "**Allah belə etdi ki, bununla kafirlərin bir qismini öldürsün, yaxud onları alçaltsın**", yəni onları rüsvay edib qəzəbli halda geri qaytarsın və sizə qarşı etmək istədiklərinə nail olmasınlar. Bu səbəbdən Uca Allah: "**...və beləcə, məyus halda geri dönsünlər**", yəni ümid etdiklərini əldə etmədən qayıtsınlar.

Sonra Uca Allah yeni bir cümlə ilə dünya və axirətdə hökmün yalnız Ona aid olduğunu və bu şeydə Onun heç bir şərikinin olmadığını bildirərək "**Bu işin sənə aidiyyəti yoxdur**" buyurur. Yəni bütün işlər Mənə aiddir. Necə ki başqa ayədə belə buyurur: "**Bil ki, sənin öhdənə düşən ancaq təbliğ etməkdir. Haqq-hesab çəkmək isə Bizə aiddir**" ("ər-Rad", 40). "**Onların hidayətə gəlməsi sənə aid deyildir. Lakin Allah istədiyi şəxsi hidayətə qovuşdurur**" ("əl-Bəqərə", 272); "**Şübhəsiz ki, sən istədiyini doğru yola yönəldə bilməzsən. Amma Allah istədiyini doğru yola yönəldir**" ("əl-Qasas", 56).

Sonra Uca Allah kafirlərin digər qisimlərini[1] qeyd edərək: "**Allah ya onların tövbəsini qəbul edər**", yəni küfrdən dönmək üçün

[1] Əvvəlki ayədə "**Allah belə etdi ki, bununla kafirlərin bir qismini öldürsün, yaxud onları alçaltsın və beləcə, məyus halda geri dönsünlər**" buyurmaqla kafirlərin bəzi qisimlərini qeyd etdikdən sonra bu ayədə digər qisimlərini qeyd etmişdir.

etdikləri tövbələrini qəbul edər və onları zəlalətdən sonra hidayətə yönəldər, "**ya da (inkar etsələr) onlara əzab verər**", yəni küfrləri və günahları üzündən dünya və Axirətdə onlara əzab verər. "**Çünki onlar zalımdırla**r", yəni buna layiq olduqları üçün belə edər.

İmam Əhməd رحمه الله rəvayət etmişdir ki, Abdullah ibn Ömər رضي الله عنهما demişdir: "Bir dəfə Peyğəmbərin ﷺ belə dediyini eşitdim: "Allahım, filankəsə lənət et! Allahım, əl-Həris ibn Hişama lənət et! Allahım, Suheyl ibn Amra lənət et! Allahım, Safvən ibn Umeyyəyə lənət et!" Uca Allah da bu ayəni nazil etdi: "**Bu işin sənə aidiyyəti yoxdur. Allah ya onların tövbəsini qəbul edər, ya da (inkar etsələr) onlara əzab verər. Çünki onlar zalımdırlar**". Onların (hədisdə adları çəkilənlərin) üçünün də tövbəsi qəbul olundu".[1] əl-Buxari رحمه الله Əbu Hureyradan رضي الله عنه rəvayət edir ki, Allahın Elçisi ﷺ kiminsə əleyhinə və ya lehinə dua etmək istədikdə, bunu rukudan sonra edərdi. Bir dəfə o "Səmi Allahu limən həmidəh, Allahummə Rabbənə ləkəl-həmd (Allah Ona həmd edəni eşitdi! Allahım, Ey Rəbbimiz! Həmd yalnız Sənədir!)" dedikdən sonra bu duanı səslə etdi: "Allahım, Vəlid ibn Vəlidə, Sələmə ibn Hişama, Ayyaş ibn Əbu Rabiəyə və zülmə məruz qalan möminlərə kömək ol! Allahım, Mudar qəbiləsini, Yusufun zamanında olan quraqlıq kimi quraqlığa düçar etməklə əzab-əziyyətlərini, sıxıntılarını artır!" Həmçinin Sübh namazında "Allahım, ərəb sakinlərindən olan filankəs və filankəsə lənət et!" deməklə də dua etdi və Uca Allah da bu ayəni nazil etdi: "**Bu işin sənə aidiyyəti yoxdur. Allah ya onların tövbəsini qəbul edər, ya da (inkar etsələr) onlara əzab verər. Çünki onlar zalımdırlar**".[2]

İmam Əhməd رحمه الله Ənəsdən رضي الله عنه rəvayət etmişdir ki, Uhud döyüşü günü Peyğəmbərin ﷺ yan dişlərindən biri sındırıldı və alnı yaralandı,[3] yarasından üzünə qan axırdı. Peyğəmbər ﷺ bu halda deyirdi: "Onları Allaha çağıran Peyğəmbərinə bunu edən tayfa necə nicat tapar". Uca

[1] əl-Musnəd (5674). Hədis səhihdir. Hədisi Əhməd رحمه الله bir neçə yerdə İbn Ömərdən رضي الله عنهما rəvayət etmişdir. Hədisin bəzi rəvayətlərinə görə, Peyğəmbər ﷺ bunu Fəcr namazının ikinci rükətində rukudan qalxdıqdan sonra demişdir. Həmçinin əl-Buxari رحمه الله bu hədisi müxtəlif yollarla İbn Ömərdən رضي الله عنهما rəvayət etmişdir. əl-Hafiz İbn Kəsir رحمه الله burada əl-Musnəd və əl-Buxarinin "Səhih" əsərindən bəzi rəvayətləri qeyd etmişdir. Bax: əl-Musnəd (5812, 6349, 6350). Fəthul-Bari (7/271, 13/263-264). (Əhməd Şakir).

[2] əl-Buxari (8/170-171 Fəthul-Bari); əl-Musnəd (7259, 7458); Muslim (1/187). (Əhməd Şakir). əl-Buxari, 4194, 4560.

[3] "Umdətut-Təfsir" kitabının çap olunmuş nüsxəsində və əl-Əzhariyyə əlyazmasında "alnı yaralandı" yazılmışdır. Muslimin rəvayətində isə "başından yaralandı" gəlmişdir. (Əhməd Şakir).

Allah da bu ayəni nazil etdi: "**Bu işin sənə aidiyyəti yoxdur. Allah ya onların tövbəsini qəbul edər, ya da (inkar etsələr) onlara əzab verər. Çünki onlar zalımdırlar**".[1] Bundan başqa hədisi yalnız Muslim rəvayət etmişdir.[2]

Sonra Uca Allah buyurur: "**Göylərdə və yerdə nə varsa, Allaha məxsusdur**", yəni göylərdə və yerdə nə varsa, hamısı Allahın mülküdür. Göy və yer əhli Onun qullarıdır. "**O, istədiyini bağışlayar, istədiyinə də əzab verər**", yəni O, istədiyi kimi hökm verir. Onun hökmünü ləğv edən olmaz, gördüyü işlər barədə soruşulmaz; onlar isə soruşulacaqlar. "**Allah bağışlayandır, rəhmlidir**".

﴿ يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ لَا تَأۡكُلُواْ ٱلرِّبَوٰٓاْ أَضۡعَٰفٗا مُّضَٰعَفَةٗۖ وَٱتَّقُواْ ٱللَّهَ لَعَلَّكُمۡ تُفۡلِحُونَ ١٣٠
وَٱتَّقُواْ ٱلنَّارَ ٱلَّتِيٓ أُعِدَّتۡ لِلۡكَٰفِرِينَ ١٣١ وَأَطِيعُواْ ٱللَّهَ وَٱلرَّسُولَ لَعَلَّكُمۡ تُرۡحَمُونَ ١٣٢ وَسَارِعُوٓاْ
إِلَىٰ مَغۡفِرَةٖ مِّن رَّبِّكُمۡ وَجَنَّةٍ عَرۡضُهَا ٱلسَّمَٰوَٰتُ وَٱلۡأَرۡضُ أُعِدَّتۡ لِلۡمُتَّقِينَ ١٣٣ ٱلَّذِينَ يُنفِقُونَ
فِي ٱلسَّرَّآءِ وَٱلضَّرَّآءِ وَٱلۡكَٰظِمِينَ ٱلۡغَيۡظَ وَٱلۡعَافِينَ عَنِ ٱلنَّاسِۗ وَٱللَّهُ يُحِبُّ ٱلۡمُحۡسِنِينَ ١٣٤
وَٱلَّذِينَ إِذَا فَعَلُواْ فَٰحِشَةً أَوۡ ظَلَمُوٓاْ أَنفُسَهُمۡ ذَكَرُواْ ٱللَّهَ فَٱسۡتَغۡفَرُواْ لِذُنُوبِهِمۡ وَمَن يَغۡفِرُ
ٱلذُّنُوبَ إِلَّا ٱللَّهُ وَلَمۡ يُصِرُّواْ عَلَىٰ مَا فَعَلُواْ وَهُمۡ يَعۡلَمُونَ ١٣٥ أُوْلَٰٓئِكَ جَزَآؤُهُم مَّغۡفِرَةٞ مِّن
رَّبِّهِمۡ وَجَنَّٰتٞ تَجۡرِي مِن تَحۡتِهَا ٱلۡأَنۡهَٰرُ خَٰلِدِينَ فِيهَاۚ وَنِعۡمَ أَجۡرُ ٱلۡعَٰمِلِينَ ١٣٦ ﴾

**130. Ey iman gətirənlər! Qat-qat artırılmış sələmi yeməyin! Allahdan qorxun ki, bəlkə, nicat tapasınız.**
**131. Kafirlər üçün hazırlanmış Oddan çəkinin.**
**132. Allaha və Onun göndərdiyi Rəsula itaət edin ki, bəlkə, sizə rəhm olunsun.**
**133. Rəbbinizin məğfirətinə və müttəqilər üçün hazırlanmış, enişliyi göylər və yer qədər olan Cənnətə tələsin.**
**134. O müttəqilər ki bolluqda da qıtlıqda da, mallarından Allah yolunda xərcləyər, qəzəblərini boğar və insanları bağışlayarlar. Allah yaxşı iş görənləri sevər.**

---

[1] Əhməd, 7458, 7465. Şueyb əl-Arnavut səhih olduğunu bildirmişdir.

[2] əl-Musnəd (11980); Muslim (2/68); ət-Təbəri (7805-7808). Hədisdə "yan dişlər" deyildikdə, ön dişdən sonra ard-arda gələn dörd diş nəzərdə tutulur. əl-Hafiz İbn Həcər "Fəthul-Bari" kitabında (8/171) bu hədislə İbn Ömərin ﵄ hədisini cəm edərək bildirmişdir ki, Peyğəmbər ﷺ bu hadisədən sonra namazda adları çəkilən şəxslərə bəddua etmişdir və beləliklə, bu ayə hər iki hadisəyə görə nazil olmuşdur. Bunların hər ikisi Uhud döyüşündən sonra olmuşdur. (Əhməd Şakir). Muslim, 1084, 1572.

**135. O kəslər ki bir pis iş gördükdə, yaxud özlərinə zülm etdikdə Allahı xatırlayıb günahlarının bağışlanmasını diləyərlər. Axı günahları Allahdan başqa kim bağışlaya bilər? Bir də onlar gördükləri pis işlərdə bilə-bilə israr etməzlər.**

**136. Onların mükafatı Rəbbindən bağışlanma və altından çaylar axan cənnətlərdir ki, orada əbədi qalacaqlar. Yaxşı əməl sahiblərinin mükafatı necə də gözəldir!**

Bu ayədə Uca Allah mömin qullarına qat-qat artırılmış sələm almağı və sələmi yeməyi qadağan etmişdir. Ərəblər cahiliyyə dövründə borcunun vədəsi çatmış borcluya "Ya borcunu ödəyəcəksən, ya da gecikdirdiyin üçün sələm verəcəksən" deyərdilər. Borclu olan ya borcunu ödəyər, ya da borcun vədəsini uzadardı, bunun əvəzində isə borc verən əsas borcun miqdarını artırardı. Hər il bu minvalla davam edərdi, nəticədə az miqdarda borc qat-qat artaraq böyük bir məbləğə gəlib çatardı.

Uca Allah əvvəlcə möminlərə dünya və axirətdə nicat tapmaları üçün Ondan qorxmalarını əmr etmiş, sonra Cəhənnəmlə qorxudaraq ondan çəkindirmiş və belə buyurmuşdur: "**Kafirlər üçün hazırlanmış Oddan çəkinin. Allaha və Onun göndərdiyi Rəsula itaət edin ki, bəlkə, sizə rəhm olunsun**".

Sonra qullarını xeyir işlərə və Allaha yaxınlaşdıran əməllərə tələsməyə təşviq edərək buyurur: "**Rəbbinizin məğfirətinə və müttəqilər üçün hazırlanmış, genişliyi göylər və yer qədər olan Cənnətə tələsin**", yəni Cəhənnəm kafirlər üçün hazırlandığı kimi, Cənnət də təqva sahibləri üçün hazırlanmışdır. Ayədə "**genişliyi göylər və yer qədər olan**" ifadəsi ilə Cənnətin uzunluğunun son dərəcə geniş olmasına işarə edildiyi deyilmişdir. Necə ki başqa ayədə Cənnətdəki döşəklər vəsf olunaraq "**Onlar orada astarları atlazdan olan döşəklərə dirsəklənəcəklər**" ("ər-Rahmən", 54) buyurulur. Yəni bir düşünün içi atlazla döşənmiş Cənnətin çölü necə olar? Bu ifadənin başqa bir şərhi belədir: "Yəni genişliyi uzunluğu kimidir". "Səhih" əsərində gələn bu hədis buna dəlalət edir: "Allahdan Cənnəti dilədiyiniz zaman Firdovs cənnətini diləyin! Çünki Firdovs Cənnətin tam ortası və ən yüksək mərtəbəsidir. Cənnət çayları oradan qaynayıb axır. Ondan yüksəkdə isə ər-Rahmənin Ərşi yerləşir".[1] Bu ayə "əl-Hədid" surəsindəki bu

[1] Hədisi əl-Buxari ﷺ mətnində yüngül dəyişiklik olmaqla Əbu Hureyradan ﷺ rəvayət etmişdir (6/9-10, 13/349-350 Fəthul-Bari). Bu hədis İbn Kəsirin ﷺ qeyd etdiyi kimi, (6/135) Muslimdən fərqli olaraq, təkcə əl-Buxarinin ﷺ rəvayət etdiyi hədislərdəndir. (Əhməd Şakir). əl-Buxari, 2581, 2790.

ayəyə bənzəyir: "**Rəbbiniz tərəfindən bağışlanmağa və genişliyi göyün və yerin genişliyi qədər olan Allaha və Onun elçilərinə iman gətirənlər üçün hazırlanmış Cənnətə tələsin**" ("əl-Hədid", 21).

İmam Əhmədin "əl-Musnəd" əsərində rəvayət olunur ki, Herakl Peyğəmbərə ﷺ belə bir məktub yazmışdı: "Sən məni genişliyi göylər və yer qədər olan Cənnətə çağırırsan. Yaxşı bəs Cəhənnəm haradadır?" Peyğəmbər ﷺ dedi: "Subhən-Allah (Allah pak və müqəddəsdir)! Gündüz olduqda gecə harada olur?"[1] Hədisi həmçinin İbn Cərir ﷺ də rəvayət etmişdir.[2]

ət-Təbəri ﷺ Yəzid ibn əl-Əsamdan ﷺ rəvayət etmişdir ki, bir dəfə Kitab əhlindən bir kişi dedi: "Siz "**Genişliyi göylər və yer qədər olan Cənnətə tələsin**" deyirsiniz. Elə isə Cəhənnəm haradadır?" İbn Abbas ﷺ cavabında belə dedi: "Gündüz gəldikdə gecə harada olur? Gecə olduqda gündüz harada olur?"[3] Həmçinin bu hədis Peyğəmbərə ﷺ nisbət olunaraq da rəvayət edilmişdir. əl-Bəzzər ﷺ Əbu Hureyradan ﷺ rəvayət etmişdir ki, bir kişi Peyğəmbərin ﷺ yanına gəlib: "Uca Allah "**Genişliyi göylər və yer qədər olan Cənnətə tələsin**" buyurur. Elə isə Cəhənnəm haradadır?" deyə soruşdu. Peyğəmbər ﷺ dedi: "Gecə olub hər tərəfi qaranlığa bürüdüyünü görürsənmi? Elə isə gündüz harada olur?" Kişi "Allahın istədiyi yerdə" deyə cavab verdi. Peyğəmbər ﷺ dedi: "Cəhənnəm də belədir, Allahın istədiyi yerdədir".[4] Bu ifadə iki məna verə bilər:

---

[1] Əhməd, 15655, 15693, 15740. Hədis zəifdir. Bax: Silsilə əd-Daifə, 3686.

[2] Bu hədis "əl-Musnəd" əsərində (15719) Heraklın elçisi ət-Tənuxidən rəvayət olunan uzun hədisin bir hissəsidir. Hədisi İbn Kəsir "ət-Tarix" əsərində (5/15-16) "əl-Musnəd" əsərindən tam olaraq nəql etmiş, sonra da demişdir: "Bu, ğarib hədisdir. İsnadı pis deyil. Yalnız Əhməd ﷺ rəvayət etmişdir". ət-Təbərinin ﷺ rəvayəti isə müxtəsərdir (7831). (Əhməd Şakir). Hədis zəifdir. Bax: Silsilə əd-Daifə, 3686.

[3] ət-Təbəri, 7835, 7873.

[4] İbn Abbasdan ﷺ rəvayət olunan bu hədisi onun xalası oğlu mötəbər tabiin Yəzid ibn əl-Əsam ibn Ubeyd ﷺ ondan rəvayət etmişdir. Hədis ət-Təbərididir (7836) və isnadı səhihdir. Həmçinin Əbu Hureyranın ﷺ Peyğəmbərdən ﷺ rəvayət etdiyi hədisi də Yəzid ibn əl-Əsam ﷺ ondan rəvayət etmişdir. əl-Bəzzərin ﷺ rəvayət etdiyi isnad səhihdir. Hədisi əl-Heysəmi "əz-Zəvaid" əsərində qeyd etmiş (6/327) və demişdir: "əl-Bəzzər rəvayət etmişdir. Raviləri "Səhih" əsərinin hədislərini rəvayət edənlərdir". Oxşar hədisi İbn Hibban "Səhih" əsərində (103) rəvayət etmişdir. əl-Hakim ﷺ də rəvayət etmiş və bildirmişdir ki, hədis əl-Buxari və Muslimin şərtlərinə görə səhihdir. əz-Zəhəbi ﷺ bununla razılaşmışdır. (Əhməd Şakir). əl-Bəzzər, 9380. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 2892.

**Birinci**: Gündüz olduqda gecəni görə bilməməyimiz onun hər hansı bir yerdə olmaması anlamına gəlmir. Cəhənnəm də belədir. Biz onun yerini bilməsək də, o, Allahın istədiyi yerdədir. Bu məna Əbu Hureyranın ﵁ hədisində keçdiyi kimi daha aydındır.

**İkinci**: Gündüz yer üzünün bir tərəfini işıqlandırdıqda yer üzünün digər tərəfində gecə olur.[1] Cənnət də belədir. O, göylərin üstündə, Ərşin altında, yüksək İlliyunda yerləşir. Genişliyi isə Uca Allahın buyurduğu kimi "**göylər və yer qədər**"dir. Cəhənnəm isə ən alçaq yerdədir. Cənnətin genişliyinin göylər və yer qədər olması Cəhənnəmin var olmasına maneə deyil. Ən doğrusunu Allah bilir.

Sonra Uca Allah Cənnət əhlinin xüsusiyyətlərini zikr edərək buyurur: "**O müttəqilər ki bolluqda da, qıtlıqda da, mallarından Allah yolunda xərcləyər**", yəni çətinlikdə də, rahatlıqda da, xoş gündə də, sıxıntı anlarında da, sağlam ikən də, xəstə ikən də, bir sözlə, bütün hallarda mallarından Allah yolunda xərcləyərlər. Necə ki Uca Allah başqa bir ayədə buyurur: "**Mallarını gecə və gündüz, gizli və aşkar xərcləyənlərin öz Rəbbi yanında mükafatı vardır**" ("əl-Bəqərə", 274). Yəni heç bir şey onları Allaha itaətdən, mallarını Onun razılığını qazandıracaq işlərə xərcləməkdən, qohumlarına və Allahın digər varlıqlarına yaxşılıq etməkdən və başqa xeyir əməllərdən yayındıra bilməz.

Uca Allah buyurur: "...**qəzəblərini boğar və insanları bağışlayarlar**", yəni qəzəb gəldiyi zaman onu boğar, gizlədər və əsəblərinə hakim olarlar. Bununla belə, onlara pislik edənləri bağışlayarlar. İmam Əhməd ﵀ Əbu Hureyradan ﵁ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Hamını yıxmaq güclü olmaq demək deyil. Güclü o kəsdir ki, qəzəbləndikdə özünü ələ ala bilsin".[2] Hədisi əl-Buxari və Muslim ﵏ də rəvayət etmişlər.[3] Həmçinin İmam Əhməd ﵀ Abdullah ibn Məsuddan ﵁ rəvayət etmişdir ki, bir dəfə Peyğəmbər ﷺ bizdən soruşdu: "Sizcə, güclü adam kimdir?" Biz "İnsanların məğlub edə bilmədiyi adamdır" deyə cavab verdik. Peyğəmbər ﷺ dedi: "Xeyr, güclü adam qəzəbləndiyi zaman özünə hakim olan adamdır".[4] Yenə

[1] Bu dəlildir ki, yerin kürə şəklində olması Qərb alimlərindən əvvəl İslam alimlərinə məlum idi. Bu da İslam alimlərinə tən edərək onların elmsiz olduqlarını iddia edənlərə cavabdır. (Əhməd Şakir).

[2] Əhməd, 7218; əl-Buxari, 5649, 6114; Muslim, 4723, 6809.

[3] əl-Musnəd (7218); əl-Buxari (10/431 Fəthul-Bari); Muslim (2/289-290). (Əhməd Şakir). əl-Buxari, 5649, 6114; Muslim, 4723, 6809.

[4] Bu hədis tam şəkildə əl-Musnəd əsərində (3626) rəvayət olunub. İbn Kəsir ﵀ hədisi tam olaraq nəql etmişdir, lakin biz mövzuya aid olan hissəni qeyd etmişik. əl-Buxari ﵀ hədisin

İmam Əhməd ﷺ rəvayət etmişdir ki, bir dəfə Cariyə ibn Qudəmə əs-Sədi ﷺ Peyğəmbərə ﷺ dedi: "Ey Allahın Elçisi, mənə fayda verəcək bir söz söylə, lakin az olsun ki, onu dərk edib yadda saxlaya bilim". Peyğəmbər ﷺ dedi: "Qəzəblənmə". Cariyə bunu bir neçə dəfə təkrarladı, Peyğəmbər ﷺ də hər dəfə ona "Qəzəblənmə" deyə cavab verdi".[1] Hədisi yalnız İmam Əhməd ﷺ rəvayət etmişdir.[2] İmam Əhməd ﷺ İbn Abbasdan ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Kim borcu qaytarmaqda çətinlik çəkənə möhlət verərsə və ya borcunu keçərsə, Allah onu Cəhənnəm atəşindən qoruyar. Diqqət edin! Cənnətə aparan yol çətindir". Bunu üç dəfə təkrar etdi. "Diqqət edin! Cəhənnəmə aparan yol isə şəhvətlərdən ibarət olduğu üçün asandır. Xoşbəxt insan özünü fitnələrdən qoruyandır. Qulun hakim ola biləcəyi əməllər içərisində Allaha ən sevimli olanı qulun öz qəzəbinə hakim olmasıdır. Qul Allah üçün qəzəbini boğduqca, Allah onun qəlbini imanla doldurar".[3] Hədisi yalnız İmam Əhməd ﷺ rəvayət etmişdir. İsnadı həsəndir, sənədində mötəbərliyinə tən olunmuş ravi yoxdur. Mətni də doğrudur.[4] İbn Mərdəveyh ﷺ İbn Ömərdən ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Qulun hakim ola biləcəyi əməllər içərisində Allahın ﷻ Üzünü diləyərək qəzəbini boğmasından mükafatı daha böyük olan əməl yoxdur".[5] Hədisi İbn Cərir və İbn Məcə ﷺ də rəvayət etmişlər.[6]

Uca Allah buyurur: "...**qəzəblərini boğar**", yəni insanlarla olan rəftarlarına qəzəbləri təsir etməz. Onlar insanlara pislik etməzlər və bunun mükafatını Allahdan umarlar.

Sonra Uca Allah buyurur: "...**və insanları bağışlayarlar**", yəni insanlara pislik etməməklə yanaşı, onlara qarşı haqsızlıq edənləri bağışlayarlar. Heç kimə qarşı qəlblərində kin-küdurət qalmaz. Bu, insanın ola biləcəyi ən mükəmməl haldır. Bu səbəbdən Uca Allah buyurur: "**Allah yaxşı iş görənləri sevər**". Onların bu etdikləri də

əvvəlindən bir hissəni, Muslim ﷺ isə digər hissəsini rəvayət etmişdir. əl-Buxari hədisi "Ədəbul-Mufrad" əsərində tam olaraq rəvayət etmişdir (153-155). (Əhməd Şakir). Əhməd, 3626. Şueyb əl-Arnavut isnadının əl-Buxari və Muslimin şərtlərinə əsasən səhih olduğunu bildirmişdir.

[1] Əhməd, 20372, 20626. Hədis səhihdir. Bax: Səhih ət-Tərğib vət-Tərhib, 2748.

[2] əl-Musnəd (5/34 Hələbi nəşri). (Əhməd Şakir).

[3] Əhməd, 3017. Hədis çox zəifdir. Bax: Daif ət-Tərğib vat-Tərhib, 540.

[4] əl-Musnəd (3017). (Əhməd Şakir).

[5] İbn Məcə, 4189, 4329. Hədis səhihdir.

[6] Səhih hədisdir. Hədisi Əhməd "əl-Musnəd" əsərində rəvayət etmişdir (6114, 6116). Qəribədir ki, İbn Kəsir ﷺ hədisi İmam Əhmədə ﷺ nisbət etməmişdir. (Əhməd Şakir). Əhməd, 6114, 6116. Şueyb əl-Arnavut hədisin səhih olduğunu bildirmişdir.

yaxşılığın yüksək dərəcələrindəndir. Bir hədisdə belə buyrulur: "Üç şey var ki, onlara görə and içərəm. Bunlar sədəqə verməklə mal azalmaz, qul bağışladıqca Allah onun izzətini artırar, Allah üçün təvazökarlıq edəni Allah ucaldar".[1]

Uca Allah buyurur: "**O kəslər ki bir pis iş gördükdə, yaxud özlərinə zülm etdikdə Allahı xatırlayıb günahlarının bağışlanmasını diləyərlər**", yəni onlar bir günah iş tutduqda, dərhal tövbə edib Allahdan bağışlanmalarını diləyərlər.

İmam Əhməd ﷬ Əbu Hureyradan ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ belə demişdir: "Bir dəfə bir kişi günah iş gördü və "Ey Rəbbim, mən günah iş gördüm, məni bağışla!" dedi". Allah dedi: "Qulum günah bir iş tutdu və bildi ki, onun günahları bağışlayan və onlara görə cəza verən Rəbbi vardır. Artıq onu bağışladım". Sonra bu adam başqa bir günah işlətdi və dedi: "Ey Rəbbim, mən günah iş gördüm, məni bağışla!" Uca Allah dedi: "Qulum günah bir iş tutdu və bildi ki, onun günahları bağışlayan və onlara görə cəza verən Rəbbi vardır. Artıq onu bağışladım". Sonra bu adam başqa bir günah işlətdi və dedi: "Ey Rəbbim, mən günah iş gördüm, məni bağışla!" Uca Allah dedi: "Qulum günah bir iş tutdu və bildi ki, onun günahları bağışlayan və onlara görə cəza verən Rəbbi vardır. Artıq onu bağışladım". Sonra bu kişi başqa bir günah işlətdi və dedi: "Ey Rəbbim, mən günah iş gördüm, məni bağışla!" Uca Allah dedi: "Qulum günah bir iş tutdu və bildi ki, onun günahları bağışlayan və onlara görə cəza verən Rəbbi vardır. Artıq onu bağışladım". Sonra bu kişi bir daha günah işlətdi və dedi: "Ey Rəbbim, mən günah iş gördüm, məni bağışla!" Uca Allah dedi: "Qulum günah bir iş tutdu və bildi ki, onun günahları bağışlayan və onlara görə cəza verən Rəbbi vardır. Mən sizi (mələkləri) şahid tuturam ki, artıq onu bağışladım və nə qədər ki günah edib bağışlanma diləyəcək, Mən onu bağışlayacağam".[2] Oxşar hədisi əl-Buxari və Muslim "Səhih" əsərlərində rəvayət etmişlər.[3]

---

[1] Əhməd (7205), Muslim (2/285), ət-Tirmizi (3/155) Əbu Hureyradan ﷺ rəvayət etmişlər. ət-Tirmizi ﷬ hədisin səhih olduğunu bildirmişdir. Lakin onların rəvayətində hədisin əvvəli: "Sədəqə verməklə mal azalmaz…"- cümləsi ilə başlayır. "Üç şey var ki, onlara görə and içərəm" ifadəsi ilə başlamır. (Əhməd Şakir). Əhməd, 7205; Əbu Yəalə, 6458. Hədis səhihdir. Bax: Səhih ət-Tərğib vət-Tərhib, 858.

[2] Əhməd, 7935, 7948; İbn Hibban, 622. Şueyb əl-Arnavut isnadının əl-Buxari və Muslimin şərtlərinə əsasəsən səhih olduğunu bildirmişdir.

[3] əl-Musnəd (7935), əl-Buxari (13/392-393 Fəthul-Bari), Muslim (2/362). (Əhməd Şakir). əl-Buxari, 6953, 7507; Muslim, 2758.

İmam Əhməd ﷺ Əbu Hureyradan ﷺ rəvayət etmişdir ki, bir dəfə biz Peyğəmbərə ﷺ dedik: "Ey Allahın Elçisi! Səni gördükdə qəlblərimiz yumşalır və Axirət yurdunun sakinlərindən oluruq. Səndən ayrıldıqda isə başımız arvadlarımıza və övladlarımıza qarışır və dünyaya meyil edirik". Peyğəmbər ﷺ dedi: "Əgər siz həmişə mənim yanımda olduğunuz halda olsaydınız, mələklər sizə əl tutaraq salam verərdilər və sizi evinizdə ziyarət edərdilər. Əgər siz günah etməsəydiniz, Allah (yerinizə) yeni məxluq gətirər, onlar günah edər, Allah da onları bağışlayardı". Biz dedik: "Ey Allahın Elçisi! Bizə Cənnətdən danış! Orada olan evlər nədən düzəldilib?" O cavab verdi: "Bir kərpic qızıldan, bir kərpic gümüşdən. Onun (divarlarının) malası xoş ətirli müşkdəndir. Onun çınqılları mirvaridən və yaqutdan, torpağı isə zəfərandandır. Ora daxil olan nemət içində olar və əziyyət görməz, (orada) əbədi qalar və ölməz, libası köhnəlməz və qocalmaz". Sonra dedi: "Üç adamın duası rədd olunmaz; ədalətli rəhbərin duası, oruc tutanın iftar edənə qədər etdiyi dua və zülmə məruz qalanın duası. Allah zülmə məruz qalanın duasını buludların üzərinə yüksəldir, səma qapıları onun üçün açılır və Rəbb ﷻ buyurur: "İzzətimə and olsun ki, bir müddət keçsə belə, Mən sənə mütləq kömək edəcəyəm".[1] Hədisi ət-Tirmizi və İbn Məcə ﷺ də rəvayət etmişlər.[2]

İmam Əhmədin ﷺ Əlidən ﷺ rəvayət etdiyi bu hədisə əsasən, tövbə əsnasında dəstəmazlı olmaq və iki rükət namaz qılmaq tövbənin qəbul olunmasını qüvvətləndirir. İmam Əhməd ﷺ rəvayət etmişdir ki, Əli ﷺ demişdir: "Peyğəmbərdən ﷺ bir hədis eşitdiyim zaman Allah məni istədiyi qədər bu hədisdən faydalandırardı. Başqası mənə Peyğəmbərdən ﷺ bir hədis rəvayət etdikdə isə o adamdan and içməsini tələb edərdim, əgər and içərdisə, onu təsdiqləyərdim. Bir dəfə Əbu Bəkr ﷺ mənə Peyğəmbərdən ﷺ belə eşitdiyini xəbər verdi və o doğru söyləmişdir: "Günah edən elə bir kəs yoxdur ki, dərhal gözəl şəkildə dəstəmaz alıb iki rükət namaz qılsın və namazında Uca Allahdan bağışlanma diləsin, Allah da onun günahlarını bağışlamasın".[3] Hədisi Əli ibn əl-Mədini, əl-Humeydi, Əbu Bəkr ibn Əbu Şeybə, "Sunən" əsərlərinin müəllifləri, İbn Hibban "Səhih" əsərində, əl-Bəzzər və əd-Dəraqutni ﷺ rəvayət etmişlər. ət-Tirmizi ﷺ "Bu, həsən hədisdir" demişdir.[4] Bu hədis, möminlərin əmiri Əli ibn Əbu Talibin ﷺ

[1] Əhməd, 8030, 8043; İbn Hibban, 7387. Hədis səhih li-ğeyrihidir. Bax: Mişkətul-Məsabih, 5630.

[2] əl-Musnəd (7935). Hədisin sonu "əl-Bəqərə" surəsinin 186-cı ayəsində keçmişdir. (Əhməd Şakir).

[3] Əhməd, 2; İbn Məcə, 1144, 1395. Hədis həsəndir. Bax: Mişkətul-Məsabih, 1324.

[4] Əksinə, bu, səhih hədisdir. İbn Həcər "ət-Təhzib" kitabında qeyd etmişdir ki, hədisi həmçinin İbn Xuzeymə "Səhih" əsərində rəvayət etmişdir. Hədisin "əl-Musnəd" əsərindəki sıra sayı

Peyğəmbərin ﷺ xəlifəsi Əbu Bəkrdən ﷛ rəvayətidir. Muslimin "Səhih" əsərində Ömər ibn əl-Xattabdan ﷛ rəvayət etdiyi hədis yuxarıda qeyd etdiyimiz hədisin səhih olmasına dəlalət edir. Ömər ibn əl-Xattab ﷛ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Sizdən hansı biriniz dəstəmaz alar və dəstəmazını kamil şəkildə, (yaxud tam şəkildə) yerinə yetirər, sonra da "Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur. Onun şəriki də yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və elçisidir"[1] deyərsə, Cənnətin səkkiz qapısı onun üçün açılar və o hansından istəsə, (oradan Cənnətə) daxil olar".[2] əl-Buxari və Muslimin "Səhih" əsərlərində rəvayət edilir ki, Osman ibn Affan ﷛ Peyğəmbərin ﷺ dəstəmaz aldığı kimi dəstəmaz aldı və belə dedi: "Mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: "Kim mənim aldığım kimi dəstəmaz alar, sonra iki rükət namaz qılar və bu namazında dünya işlərini düşünməzsə, onun keçmiş günahları bağışlanar".[3] Bu hədis dörd Raşidi xəlifənin (Əbu Bəkr, Ömər, Osman və Əli ﷼) rəvayəti ilə əvvəlkilərin və sonrakıların ağası, aləmlərin Rəbbinin elçisindən sabit olmuşdur. Həmçinin açıq-aydın Kitabın ayələri də günahdan tövbə etməyin asi qullara fayda verəcəyinə dəlalət edir. İmam Əhməd ﷬ Əbu Səiddən ﷛ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "İblis dedi: "Ey Rəbbim, İzzətinə and olsun ki, Adəm övladının ruhu bədənində olduğu müddətcə onları azdıracağam". Uca Allah da "İzzət və Cəlalıma and olsun ki, Məndən bağışlanma dilədikləri müddətcə Mən də onları bağışlayacağam" buyurdu".[4]

Uca Allah buyurur: "**Axı günahları Allahdan başqa kim bağışlaya bilər?**", yəni günahları Ondan başqası bağışlamaz. Necə ki İmam Əhməd ﷬ əl-Əsvəd ibn Səridən ﷛ rəvayət etmişdir ki, bir dəfə Peyğəmbərin ﷺ yanına bir əsir gətirildi. Əsir "Ey Allahım, sənə tövbə edirəm, Muhəmmədə deyil"- dedi. Peyğəmbər ﷺ dedi: "Günahları bağışlama haqqının kimə aid olduğunu bildi".[5]

---

2-dir. ət-Təbəri də rəvayət etmişdir (7853, 7854). (Əhməd Şakir).

[1] Transkripsiyası: Əşhədu ən lə: ilə:hə illəllah vəhdəhu lə: şəri:kə ləhu və əşhədu ənnə Muhəmmədən abduhu və Rasu:luhu.

[2] Muslim, 553, 576.

[3] əl-Buxari, 150, 155; Muslim, 332, 561.

[4] əl-Musnəd (11257, 11264, 11387, 11752). Hədis "əz-Zəvaid" kitabında zikr olunub (10/207). Müəllif hədisi həmçinin ət-Təbərani və Əbu Yəaləyə ﷬ nisbət etmiş və demişdir: "Əhmədin və Əbu Yalənin rəvayətlərindən birinin raviləri "Səhih" əsərində adı keçən raviləridir". (Əhməd Şakir). Əhməd, 11240, 11548. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 104.

[5] əl-Musnəd (15651). İsnadı səhihdir. əl-Əsvəd ibn Səri – məşhur şair, tanınmış səhabə ət-Teymi əs-Sədidir. (Əhməd Şakir).

Uca Allah buyurur: "**Bir də onlar gördükləri pis işlərdə bilə-bilə israr etməzlər**", yəni onlar günahlarına görə tövbə edər və ən qısa zamanda Allaha dönərlər. Günahlarına davam etməzlər, günahdan əl çəkməyərək günahlarında israr etməzlər. Təkrar günah işləsələr belə, ondan tövbə edərlər. Necə ki Əbu Yəalə ﷫ Əbu Bəkrin ﷛ azad etdiyi köləsindən, o da Əbu Bəkrdən ﷛ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Gündə yetmiş dəfə olsa belə, günaha qayıtdıqdan sonra tövbə edən, günahında israr etmiş sayılmaz".[1] Hədisi Əbu Davud, ət-Tirmizi və əl-Bəzzər ﷫ də rəvayət etmişlər.[2] Əli ibn əl-Mədini və ət-Tirmizi ﷫ demişlər: "Hədisin isnadı o qədər də güclü deyil". Görünür, bu, Əbu Bəkrin ﷛ azad etdiyi kölənin məchul olmasından irəli gəlir, lakin onun kimi böyük tabiinin məchul olmasının bir zərəri yoxdur. Onun Əbu Bəkr ﷛ kimi böyük səhabəyə nisbət edilməsi etibarlı olması üçün kifayətdir və hədis həsəndir. Ən doğrusunu isə Allah bilir.[3]

Mucahid və Abdullah ibn Ubeyd ibn Umeyr ﷫ Uca Allahın "**bilə-bilə**" sözünü təfsir edərək demişlər: "Yəni onlar Allahın tövbə edənin tövbəsini qəbul edəcəyini bilə-bilə günahda israr etməzlər". Bu ayə Uca Allahın bu ayələri kimidir: "**Məgər onlar bilmirlər ki Allah qullarından tövbəni qəbul edir, sədəqələri götürür və Allah tövbələri qəbul Edəndir, Rəhmlidir?**" ("ət-Tövbə", 104); "**Kim pis bir iş görər və ya öz-özünə zülm edər, sonra da Allahdan bağışlanma diləyərsə, Allahın bağışlayan, rəhmli olduğunu görər**" ("ən-Nisa", 110). Quranda buna bənzər ayələr çoxdur.

İmam Əhməd ﷫ Abdullah ibn Amrdan ﷛ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ minbərin üstündə ikən buyurdu: "Rəhm edin ki, rəhm olunasınız. Bağışlayın ki, Allah da sizi bağışlasın! Eşitdiklərinə əməl etməyənlərin vay halına! Bilə-bilə günah etməkdə israr edənlərin vay halına!"[4] Bu hədisi yalnız İmam Əhməd ﷫ rəvayət etmişdir.[5]

Uca Allah müttəqilərin vəsflərini zikr etdikdən sonra belə buyurur: "**Onların mükafatı**", yəni bu xüsusiyyətlərinə görə onların mükafatı "**Rəbbindən bağışlanma və altından çaylar axan cənnətlərdir ki**", yəni altından müxtəlif növ içkilər axan cənnətlərdir; "**orada**

---

[1] Əbu Yəalə, 137; ət-Tabərani "əd-Dua" 163. Hədis zəifdir. Bax: Silsilə əd-Daifə, 4474.

[2] Əbu Davud, 1516; ət-Tirmizi, 3559, 3907; əl-Bəzzər, 93. Hədis zəifdir. Bax: Silsilə əd-Daifə, 4474.

[3] Həmçinin ət-Təbəri ﷫ rəvayət etmişdir (7863). (Əhməd Şakir). Əhməd, 15587, 15625; əl-Hakim, 7654. Hədis zəifdir. Bax: Silsilə əd-Daifə, 3862.

[4] Əhməd, 6541, 7041; əl-Buxai "Ədəbul-Mufrad" 380; əl-Beyhəqi "Şuabul-İman" 10541. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 482.

[5] əl-Musnəd (6541, 6542, 7041). İsnadları səhihdir. Həmçinin əl-Buxari "Ədəbil-Mufrad" əsərində (380) rəvayət etmişdir. (Əhməd Şakir).

**əbədi qalacaqlar**", yəni daimi qalacaqlar. "**Yaxşı əməl sahiblərinin mükafatı necə də gözəldir!**" Beləcə, Uca Allah Cənnəti tərifləyir.

﴿قَدۡ خَلَتۡ مِن قَبۡلِكُمۡ سُنَنٞ فَسِيرُواْ فِي ٱلۡأَرۡضِ فَٱنظُرُواْ كَيۡفَ كَانَ عَٰقِبَةُ ٱلۡمُكَذِّبِينَ
١٣٧ هَٰذَا بَيَانٞ لِّلنَّاسِ وَهُدٗى وَمَوۡعِظَةٞ لِّلۡمُتَّقِينَ ١٣٨ وَلَا تَهِنُواْ وَلَا تَحۡزَنُواْ وَأَنتُمُ ٱلۡأَعۡلَوۡنَ إِن
كُنتُم مُّؤۡمِنِينَ ١٣٩ إِن يَمۡسَسۡكُمۡ قَرۡحٞ فَقَدۡ مَسَّ ٱلۡقَوۡمَ قَرۡحٞ مِّثۡلُهُۥۚ وَتِلۡكَ ٱلۡأَيَّامُ نُدَاوِلُهَا بَيۡنَ
ٱلنَّاسِ وَلِيَعۡلَمَ ٱللَّهُ ٱلَّذِينَ ءَامَنُواْ وَيَتَّخِذَ مِنكُمۡ شُهَدَآءَۗ وَٱللَّهُ لَا يُحِبُّ ٱلظَّٰلِمِينَ ١٤٠
وَلِيُمَحِّصَ ٱللَّهُ ٱلَّذِينَ ءَامَنُواْ وَيَمۡحَقَ ٱلۡكَٰفِرِينَ ١٤١ أَمۡ حَسِبۡتُمۡ أَن تَدۡخُلُواْ ٱلۡجَنَّةَ وَلَمَّا يَعۡلَمِ
ٱللَّهُ ٱلَّذِينَ جَٰهَدُواْ مِنكُمۡ وَيَعۡلَمَ ٱلصَّٰبِرِينَ ١٤٢﴾

**137. Sizdən öncə də bir çox belə hadisələr olub keçmişdir. Elə isə yer üzünü gəzib haqqı yalan sayanların aqibətinin necə olduğunu görün.**
**138. Bu Quran insanlar üçün bir açıqlama, müttəqilər üçün isə doğru yol göstəricisi və öyüd-nəsihətdir.**
**139. Zəiflik göstərməyin və kədərlənməyin. Əgər möminsinizsə, bilin ki, üstün olan kəslər sizsiniz.**
**140. Əgər siz Uhud döyüşündə yara almışsınızsa, əlbəttə, düşməniniz olan o qövm də bu cür yara almışdı. Biz bu günləri – qalibiyyəti və məğlubiyyəti, insanlar arasında növbə ilə dəyişdiririk ki, Allah iman gətirənləri üzə çıxarsın və aranızdan şəhidlər seçsin. Allah zalımları sevməz.**
**141. Həm də ona görə belə edirik ki, Allah möminləri təmizə çıxarsın və kafirləri məhv etsin.**
**142. Yoxsa Allah içərinizdən cihad edənləri və səbir edənləri bəlli etmədən Cənnətə daxil olacağınızımı güman edirsiniz?!**
**143. Siz düşmənlə qarşılaşmadan öncə Allah yolunda ölməyi arzulayırdınız. İndi isə siz onu gördüyünüz halda baxıb durursunuz.**

Uca Allah Uhud döyüşündə başlarına müsibət gələn və yetmiş şəhid verən mömin qullarına xitab edərək buyurur: "**Sizdən öncə də, bir çox belə hadisələr olub-keçmişdir**", yəni sizdən əvvəl də peyğəmbərlərin ümmətlərinin başına eyni hadisələr gəlmişdir. Amma sonda onlar qalib gəlmiş, kafirlər isə bəlaya düçar olmuşlar. Bu səbəbdən Uca Allah buyurur: "**Elə isə yer üzünü gəzib haqqı yalan sayanların aqibətinin necə olduğunu görün**".

Sonra Uca Allah buyurur: "**Bu Quran insanlar üçün bir açıqlama**", yəni orada hər işin əsl mahiyyəti açıqlanmış, keçmiş ümmətlərin düşmənlərinə qarşı münasibətləri izah edilmişdir. "**Müttəqilər üçün isə doğru yol göstəricisi**", yəni onda sizdən əvvəlkilərin xəbərləri və qəlblərinizi doğru yola yönəldəcək ayələr vardır, "**və öyüd-nəsihətdir**", yəni orada sizi haramlardan və günahlardan çəkindirəcək nəsihətlər vardır.

Sonra Uca Allah möminlərə başlarına gələnlərə görə təsəlli verərək buyurur: "**Zəiflik göstərməyin**", yəni başınıza gələnlərə görə zəifləməyin "**və kədərlənməyin. Əgər möminsinizsə, bilin ki, üstün olan kəslər sizsiniz**", yəni sonda zəfər mütləq sizindir, ey iman gətirənlər! "**Əgər siz Uhud döyüşündə yara almışsınızsa, əlbəttə, düşməniniz olan o qövm də bu cür yara almışdı**", yəni əgər sizdən yaralananlar və öldürülənlər oldusa, bilin ki, onlardan da sizin qədər yaralananlar və öldürülənlər oldu. "**Biz bu günləri – qalibiyyəti və məğlubiyyəti, insanlar arasında növbə ilə dəyişdiririk ki, ...**", yəni sonda qələbənin sizin olmasına baxmayaraq, bəzən hikmətimizə uyğun düşmənlərinizi sizə qalib gətiririk. Sonra Uca Allah bu hikməti açıqlayaraq buyurur: "**Allah iman gətirənləri üzə çıxarsın**". İbn Abbas رضي الله عنهما bu ayənin təfsirində demişdir: "Yəni düşmənlərlə döyüşməyə, vuruşmağa kimin səbir edəcəyini görək". "**...və aranızdan şəhidlər seçsin**", yəni Allah yolunda vuruşub öldürülərək şəhid olanları və Onun rizasını qazanmaq üçün özünü fəda edənləri seçsin. "**Allah zalımları sevməz. Həm də ona görə belə edirik ki, Allah möminləri təmizə çıxarsın**", yəni günahları varsa, möminlərin günahlarını bağışlasın, əgər günahları yoxdursa, başlarına gələn müsibətə uyğun dərəcələrini yüksəltsin "**və kafirləri məhv etsin**". Çünki kafirlər zəfər çalsalar, daha da azğınlaşacaqlar və bu da möminlərin həlakına, məhv və yox olmalarına səbəb olacaq.

Sonra Uca Allah buyurur: "**Yoxsa Allah içərinizdən cihad edənləri və səbir edənləri bəlli etmədən Cənnətə daxil olacağınızımı güman edirsiniz?!**", yəni yoxsa siz döyüş və çətinliklərlə imtahan olunmadan Cənnətə girəcəyinizimi sanırsınız? Necə ki "əl-Bəqərə" surəsində buyurur: "**Yoxsa siz elə güman edirdiniz ki, sizdən əvvəlkilərin başına gələnlər sizin başınıza gəlmədən Cənnətə daxil olacaqsınız? Onlara elə kasıblıq və xəstəlik üz vermiş, elə sarsılmışdılar ki, hətta Peyğəmbər və onunla birlikdə olan möminlər də "Allahın köməyi**

**nə vaxt gələcək?" dedilər. Həqiqətən, Allahın köməyi yaxındır"** ("əl-Bəqərə", 214). Həmçinin buyurur: "**Əlif. Ləm. Mim. İnsanlar elə güman edirlər ki, təkcə "İman gətirdik!" demələri ilə onlardan əl çəkiləcək və onlar imtahan edilməyəcəklər? Biz onlardan öncəkiləri də sınaqdan keçirmişdik. Sözsüz ki, Allah doğru danışanları da, yalançıları da aşkara çıxardacaq**" ("əl-Ənkəbut", 1-3). Burada isə buyurur: "**Yoxsa Allah içərinizdən cihad edənləri və səbir edənləri bəlli etmədən Cənnətə daxil olacağınızımı güman edirsiniz?!**", yəni Allah sizi sınayıb içinizdən Onun yolunda cihad edənləri və düşmənlə qarşılaşdıqda səbir edənləri görmədən Cənnətə girə bilməzsiniz.

Uca Allah buyurur: "**Siz düşmənlə qarşılaşmadan öncə, Allah yolunda ölməyi arzulayırdınız. İndi isə siz onu gördüyünüz halda baxıb durursunuz**", yəni, ey möminlər! Döyüşdən əvvəlki gün siz düşmənlə qarşılaşmağı arzulayırdınız və bunun üçün canfəşanlıq edirdiniz. Onlarla döyüşüb səbir etməyi istəyirdiniz. Budur artıq arzuladığınız və can atdığınız qarşınızdadır. Haydı döyüşün və səbir edin! əl-Buxari və Muslimin "Səhih" əsərlərində rəvayət edilən hədisdə Peyğəmbər ﷺ demişdir: "Düşmənlə qarşılaşmağı arzulamayın və Allahdan salamatlıq diləyin. Düşmənlə qarşılaşdığınız zaman isə səbir edin və bilin ki, Cənnət qılıncların kölgəsi altındadır".[1] Bu səbəbdən Uca Allah buyurur: "**İndi isə siz onu gördüyünüz halda**", yəni qılıncların parıltısında, tiyəsinin itiliyində, nizələrin toqquşmasında və kişilərin döyüş üçün səf-səf düzülüşündə ölümü gördünüz. Filosoflar bu ayəni "təsvir etmə" kimi izah edirlər. Yəni hiss edilməyən bir şeyi hiss edilən kimi təsvir etməkdir. Necə ki qoyun qoça dost, qurd isə düşmən kimi təsvir edilir.

[1] Bu hədis əl-Buxari (6/109-111, Fəthul-Bari) və Muslimin (2/48) Abdullah ibn Əbu Əufədən ﵁ rəvayət etdikləri hədisin tərkibindədir. (Əhməd Şakir). əl-Buxari, 2801, 3025; Muslim, 3275, 4639.

﴿وَمَا مُحَمَّدٌ إِلَّا رَسُولٌ قَدْ خَلَتْ مِن قَبْلِهِ ٱلرُّسُلُۚ أَفَإِي۟ن مَّاتَ أَوْ قُتِلَ ٱنقَلَبْتُمْ عَلَىٰٓ أَعْقَـٰبِكُمْۚ
وَمَن يَنقَلِبْ عَلَىٰ عَقِبَيْهِ فَلَن يَضُرَّ ٱللَّهَ شَيْـًٔاۗ وَسَيَجْزِى ٱللَّهُ ٱلشَّـٰكِرِينَ ﴿١٤٤﴾ وَمَا كَانَ
لِنَفْسٍ أَن تَمُوتَ إِلَّا بِإِذْنِ ٱللَّهِ كِتَـٰبًا مُّؤَجَّلًاۗ وَمَن يُرِدْ ثَوَابَ ٱلدُّنْيَا نُؤْتِهِۦ مِنْهَا وَمَن يُرِدْ ثَوَابَ
ٱلْـَٔاخِرَةِ نُؤْتِهِۦ مِنْهَاۚ وَسَنَجْزِى ٱلشَّـٰكِرِينَ ﴿١٤٥﴾ وَكَأَيِّن مِّن نَّبِىٍّ قَـٰتَلَ مَعَهُۥ رِبِّيُّونَ كَثِيرٌ فَمَا وَهَنُوا۟
لِمَآ أَصَابَهُمْ فِى سَبِيلِ ٱللَّهِ وَمَا ضَعُفُوا۟ وَمَا ٱسْتَكَانُوا۟ۗ وَٱللَّهُ يُحِبُّ ٱلصَّـٰبِرِينَ ﴿١٤٦﴾ وَمَا كَانَ قَوْلَهُمْ إِلَّآ أَن
قَالُوا۟ رَبَّنَا ٱغْفِرْ لَنَا ذُنُوبَنَا وَإِسْرَافَنَا فِىٓ أَمْرِنَا وَثَبِّتْ أَقْدَامَنَا وَٱنصُرْنَا عَلَى ٱلْقَوْمِ ٱلْكَـٰفِرِينَ ﴿١٤٧﴾
فَـَٔاتَىٰهُمُ ٱللَّهُ ثَوَابَ ٱلدُّنْيَا وَحُسْنَ ثَوَابِ ٱلْـَٔاخِرَةِۗ وَٱللَّهُ يُحِبُّ ٱلْمُحْسِنِينَ ﴿١٤٨﴾﴾

**144. Muhəmməd ancaq bir elçidir. Ondan əvvəl də elçilər gəlib getmişlər. Məgər o ölərsə və ya öldürülərsə, siz dininizdən gerimi dönəcəksiniz?! Kim geri dönərsə, Allaha heç bir şeylə zərər yetirməz. Allah şükür edənləri mütləq mükafatlandırar.**

**145. Allahın izni olmadan heç kəs ölümü dadmaz. Əcəl əzəldən müəyyən edilmiş bir yazıdır. Kim dünya mükafatını istəsə, ona bundan verərik. Kim də axirət mükafatını istəsə, ona da ondan verərik. Biz şükür edənləri mütləq mükafatlandıracağıq.**

**146. Neçə-neçə peyğəmbər olmuşdur ki, bir çox dindarlarla birlikdə vuruşmuşlar. Onlar Allah yolunda başlarına gələn müsibətlərə görə nə zəifləmiş, nə acizlik göstərmiş, nə də düşmənə boyun əymişlər. Allah səbir edənləri sevər.**

**147. Onların sözü ancaq "Ey Rəbbimiz, günahlarımızı və əməllərimizdə həddi aşmağımızı bizə bağışla, qədəmlərimizi sabit et və kafir qövmə qələbə çalmaqda bizə yardım et!" olmuşdur.**

**148. Beləcə, Allah onlara həm dünya mükafatını, həm də axirət mükafatının ən gözəlini verdi. Allah yaxşı iş görənləri sevər.**

Uhud döyüşündə müsəlmanların bir qismi məğlubiyyətə uğrayıb, bir qismi isə öldürüldükdə şeytan belə səsləndi: "Bilin ki, Muhəmməd artıq öldürüldü!" İbn Qamiə müşriklərin yanına gəlib onlara "Muhəmmədi öldürdüm" dedi. Halbuki o, yalnız Peyğəmbəri ﷺ vurmuş və başını yaralamışdı. Bu xəbər bir çox insanların qəlblərinə təsir etdi. Onlar Peyğəmbərin ﷺ öldürüldüyünə inandılar və Allahın bir çox peyğəmbər barədə xəbər verdiyi kimi onun da öldürülülmüş ola biləcəyini qəbul etdilər. Bununla da, müsəlmanlar arasında

zəiflik, durğunluq və döyüşdə geriləmə baş verdi. Bu səbəbdən Uca Allah Peyğəmbərinə ﷺ "**Muhəmməd ancaq bir elçidir. Ondan əvvəl də, elçilər gəlib getmişlər. Məgər o ölərsə və ya öldürülərsə, siz dininizdən gerimi dönəcəksiniz?!**" ayəsini nazil etdi. Yəni Peyğəmbər ﷺ möminlərə həm Allahın elçisi kimi, həm də öldürülməsinin mümkün olmasında bir nümunədir.

Sonra Uca Allah bu xəbər səbəbindən durğunluğa düşənləri qınayaraq buyurur: "**Məgər o ölərsə və ya öldürülərsə, siz dininizdən gerimi dönəcəksiniz?! Kim geri dönərsə, Allaha heç bir şeylə zərər yetirməz. Allah şükür edənləri mütləq mükafatlandırar**", yəni Uca Allah Ona itaət edənlərin, Onun dini uğrunda döyüşənlərin, sağ ikən də, öldükdən sonra da Peyğəmbərinə ﷺ tabe olanların mükafatını mütləq verəcəkdir.

"Səhih", "Musnəd", "Sunən" və digər İslam kitablarında qətilik ifadə edən müxtəlif yollarla sabit olmuşdur ki, Peyğəmbər ﷺ vəfat etdikdə Əbu Bəkr رضي الله عنه bu ayəni müsəlmanlara oxumuşdur. əl-Buxari əz-Zuhrinin رحمه الله yolu ilə Əbu Sələmədən, o da Aişədən رضي الله عنها rəvayət etmişdir ki, Əbu Bəkr رضي الله عنه at belində əs-Sunh deyilən yerdəki evindən gəldi və atından enib məscidə girdi. Heç kimlə danışmayaraq Aişənin رضي الله عنها yanına girdi və Peyğəmbərə ﷺ tərəf getdi. Peyğəmbər ﷺ hibərə adlanan Yəmən bürüncəyi ilə örtülü idi. Əbu Bəkr رضي الله عنه Peyğəmbərin ﷺ üzünü açdı, əyilərək onu öpdü və ağladı, sonra dedi: "Anam, atam sənə fəda olsun, Allaha and olsun ki, Allah səndə iki ölümü cəm etməz. Sənin üçün yazılan ölümə gəlincə, artıq sən o ölümü daddın". əz-Zuhri رحمه الله dedi: "Mənə Əbu Sələmə İbn Abbasın رضي الله عنهما belə dediyini danışmışdır: "Ömər رضي الله عنه insanlarla söhbət edərkən Əbu Bəkr رضي الله عنه çölə çıxdı və dedi: "Ey Ömər, otur!" Əbu Bəkr رضي الله عنه Allaha həmd edib Peyğəmbərinə ﷺ salavat gətirdikdən sonra dedi: "Sonra isə, kim Muhəmmədə ﷺ ibadət edirdisə, bilsin ki, Muhəmməd ﷺ artıq ölmüşdür. Kim Allaha ibadət edirsə, bilsin ki, Allah diridir və əsla ölməz. Uca Allah buyurur: "**Muhəmməd ancaq bir elçidir. Ondan əvvəl də, elçilər gəlib getmişlər. Məgər o ölərsə və ya öldürülərsə, siz dininizdən gerimi dönəcəksiniz?! Kim geri dönərsə, Allaha heç bir şeylə zərər yetirməz. Allah şükür edənləri mütləq mükafatlandırar**". İbn Abbas رضي الله عنهما dedi: "Allaha and olsun ki, Əbu Bəkr رضي الله عنه bu ayəni oxuyana qədər insanlar sanki Allahın belə bir ayə endirdiyini bilmirdilər. Bundan sonra bütün insanlar bu ayəni oxumağa başladı və mən elə bir insan görmədim ki, bu ayəni oxumasın". Səid ibn əl-Museyyib Ömərin

ﷺ belə dediyini xəbər vermişdir: "Əbu Bəkrin bu ayəni oxuduğunu eştidikdə heyrətimdən donub qaldım, ayaqlarım bədənimi daşıya bilmədi və yerə çökdüm".[1]

Uca Allah buyurur: "**Allahın izni olmadan heç kəs ölümü dadmaz. Əcəl əzəldən müəyyən edilmiş bir yazıdır**", yəni hər kəs yalnız Allahın qədəri ilə, Allahın onun üçün müəyyən etdiyi müddəti tamamladıqdan sonra ölər. Bu səbəbdən Uca Allah ayədə "**Əcəl əzəldən müəyyən edilmiş bir yazıdır**" buyurur. Bu ayə Uca Allahın: "**Uzunömürlünün uzun ömür sürməsi də, onun ömrünün qısaldılması da, ancaq açıq-aydın Yazıda** (Lövhi-məhfuzda) **yazılmışdır**" ("Fatir", 11). "**Sizi palçıqdan yaradan, sonra da əcəlinizi təyin edən Odur. Onun yanında** (Qiyamət günü üçün də) **bəlli bir əcəl vardır**" ("əl-Ənam", 2) ayələrinə bənzəyir. Bu ayə müharibə etməkdən qorxanları cəsarətləndirir və onları döyüşə təşviq edir, çünki döyüşə girmək və ya döyüşdən qaçmaq ömrü nə qısaldar, nə də uzadar. Necə ki İbn Əbu Hatim Həbib ibn Suhbəndən ﷺ rəvayət edir ki, bir dəfə müsəlmanlardan biri – Hucr ibn Adiy – Dəclə çayını nəzərdə tutaraq: "Qarşımızdakı bu düşmənə çatmağımıza mane olan bu bir damcı sudur?" Sonra o, Uca Allahın "**Allahın izni olmadan heç kəs ölümü dadmaz. Əcəl əzəldən müəyyən edilmiş bir yazıdır**" ayəsini oxudu və atını Dəclə çayına sürdü. O atını sürdükdən sonra digərləri də atlarını sürməyə başladılar. Düşmən onları gördükdə: "Bunlar dəlidirlər"– dedilər və qaçdılar".[2]

[1] Hədisi əl-Buxari ﷺ bu şəkildə bir hədis olaraq rəvayət etmişdir (8/110, 111 Fəthul-Bari). İbn Kəsir ﷺ isə bir az ixtisar etmişdir. Əslində isə bu hədis əz-Zuhrinin ﷺ rəvayət etdiyi üç hədisdən ibarətdir. İkisini əz-Zuhri Əbu Sələmədən, o da Aişədən ﷺ və Əbu Sələmədən, o da İbn Abbasdan ﷺ rəvayət etmişdir. Üçüncüsünü isə İbn əl-Museyyibdən, o da İbn Ömərdən ﷺ rəvayət etmişdir. (Əhməd Şakir). əl-Buxari, 4452-4454; 4497-4499.

[2] Həbib ibn Suhbən Əbu Malik əl-Əsədi böyük, mötəbər tabiindir. Ömər və digər səhabələrdən ﷺ hədislər rəvayət etmişdir. İbn Sad (6/115) və başqaları onun mötəbər olduğunu demişlər. Əlyazmada onun adı Dabyən, çap olunmuş nüsxədə isə Zabyən kimi yazılmışdır. Lakin hər ikisi səhvdir. Bu hadisə hicri təqvimlə 16-cı ildə müsəlmanlar Mədəin şəhərini (Bağdaddan 25 km uzaqlıqda yerləşir) fəth edərkən baş vermişdir. ət-Tabəri ﷺ bu hadisəni özünün "Tarix" əsərində (4/172-173) iki isnadla rəvayət etmişdir. Onun rəvayəti belədir: "Həbib ibn Subən Əbu Malik ﷺ demişdir: "Müsəlmanlar Mədəin şəhərini fəth etmək üçün Dəclə çayını keçdikdə düşmən onların çayı keçdiklərini görüb Fars dilində "Divanəmad" deməyə başladılar. Onlar bir-birlərinə "Allaha and olsun ki, siz insanlarla deyil, cinlərlə vuruşursunuz" deyirdilər. Beləliklə də, məğlub oldular". İbn Kəsir ﷺ bu hadisəni "Tarix" əsərində (7/64) müxtəsər olaraq rəvayət etmişdir. "Divanə" sözünün mənası "şeytan" deməkdir. Bax: əl-Cəvəliqinin "əl-Muərrab" əsəri (səh. 15). (Əhməd Şakir). İbn Əbu Hatim, 4269.

Uca Allah buyurur: "**Kim dünya mükafatını istəsə, ona bundan verərik. Kim də axirət mükafatını istəsə, ona da ondan verərik**", yəni yalnız dünya əldə etmək üçün çalışan kəs dünya malından yalnız Allahın ona təqdir etdiyi qədərinə nail olar. Axirətdə isə onun heç bir payı yoxdur. Axirət yurduna can ataraq əməl edənə isə, Allah dünyada ona ayırdığı nemətlə bərabər, Axirətdə də istədiyini verər. Necə ki bu ayədə Uca Allah buyurur: "**Biz axirət savabını istəyənin savabını artırar, dünya qazancını istəyənə də ondan verərik. Lakin axirətdə onun heç bir payı olmaz**" ("əş-Şura", 20). Başqa bir ayədə isə buyurur: "**Kim gəldi-gedər dünyanı istəsə, orada ona dilədiyimiz kimsəyə istədiyimiz şeyləri dərhal verərik. Sonra isə onu qınanmış və Allahın rəhmətindən qovulmuş halda girəcəyi Cəhənnəmə atarıq. Kim də Axirəti istəsə, mömin olaraq bütün qəlbi ilə ona can atsa, onların səyi məmnuniyyətlə qəbul olunar**" ("əl-İsra", 18-19). Bu ayədə isə belə buyurur: "**Biz şükür edənləri mütləq mükafatlandıracağıq**", yəni şükür edənləri şükrlərinə və əməllərinə uyğun olaraq dünya və Axirətdə lütfümüz və rəhmətimizlə mükafatlandırarıq.

Sonra Uca Allah Uhud döyüşü günü başlarına gələnlərə görə müsəlmanlara təsəlli verərək buyurur: "**Neçə-neçə peyğəmbər olmuşdur ki, bir çox dindarlarla birlikdə öldürülmüşlər**".[1] Bu ayənin mənasının belə olduğu deyilir: "Yəni neçə-neçə peyğəmbərlər öldürülmüş və onlarla birlikdə bir çox səhabələr də öldürülmüşdür". İbn Cərir ﷺ də bu təfsiri seçərək demişdir: "Ayəni قُتِلَ [qutilə] "öldürülmüşlər" kimi oxuyanlar belə demişlər: "Bu ayədə peyğəmbərlə bərabər onun səhabələrinin hamısının deyil, bəzilərinin öldürüldüyü nəzərdə tutulur. Uca Allah bu ayə ilə yerdə qalan və öldürülməyən dindarların zəifləmədiklərini və acizlik göstərmədiklərini bildirir". Sonra İbn Cərir ﷺ demişdir: "Ayəni قَاتَلَ [qa:tələ] "döyüşmüşlər" kimi oxuyanlar isə bu qiraəti seçmələrini belə izah etmişlər: "Əgər döyüşmüş deyil, öldürülmüş olsaydılar, ayənin davamında: "**Onlar Allah yolunda başlarına gələn müsibətlərə görə nə zəifləmiş, nə acizlik göstərmiş, nə də düşmənə boyun əymişlər**" cümləsini açıqlamaq mümkün olmazdı, çünki öldürüldükdən sonra "zəifləməmək və acizlik göstərməmək" kimi sifətlərlə xarakterizə edilmələri mümkün deyil". Daha sonra İbn Cərir ﷺ ayəni قُتِلَ [qutilə] "öldürülmüşlər" şəklində

[1] Qarilərdən Nafi, İbn Kəsir, Əbu Amr, Yaqub, İbn Muheysin və əl-Yəzidi ﷺ ayəni قُتِلَ [qutilə] "öldürülmüşlər" kimi oxumuşlar. İbn Kəsir ﷺ təfsir kitabında da ayəni bu qiraətə uyğun təfsir etmişdir. Sonra isə digər قَاتَلَ [qa:tələ] "döyüşmüşlər" kimi oxuyanların qiraətini nəql etmişdir. Sonuncu qiraət on dörd qiraətin yerdə qalanlarının oxunuşudur. Məşhur olan "Hafs" qiraəti də belədir. (Əhməd Şakir). ət-Təbəri, 7/265.

oxuyanların fikrini seçmişdir.[1] Çünki Uca Allah bu və bundan əvvəlki ayədə Uhud döyüşündə "Muhəmməd öldürüldü" deyə qışqıran carçının səsini eşitdikdə döyüşü tərk edən və bu səbəbdən məğlub olanları qınayır. Uca Allah onları döyüşü tərk edib qaçdıqlarına görə məzəmmət edərək buyurur: "Ey möminlər! "**Məgər o ölərsə və ya öldürülərsə**", siz dininizi tərk edib "**gerimi dönəcəksiniz?!**" Ayənin təfsirinin "Neçə-neçə peyğəmbərlər olmuş ki, səhabələrindən bir çoxu onlardan əvvəl öldürülmüşdür" şəklində olduğu da deyilmişdir.

Rəvayət edilir ki, İbn Məsud ﵁ Uca Allahın "**bir çox dindarlarla birlikdə**" sözünü "minlərlə" kimi təfsir etmişdir. İbn Abbas, Mucahid, Səid ibn Cubeyr və başqaları ﵏ isə "**bir çox dindarlarla birlikdə**" sözünü "böyük bir toplumla birlikdə" kimi açıqlamışlar. əl-Həsən ﵀ demişdir: "Yəni çox sayda alimlərlə birlikdə". əl-Həsəndən ﵀ gələn başqa bir rəvayətdə o "Səbirli, əməlisaleh və müttəqi alimlərlə birlikdə" demişdir. İbn Cərir ﵀ Bəsrənin ərəb dilçilərindən ayədə keçən الرِّبِّيُّونَ [ribbiyyu:nə] "**dindarlar**" sözünün mənasının "Rəbbə ibadət edənlər" olduğunu rəvayət etmişdir. Bəzi alimlər isə bu şərhi qəbul etməyərək demişlər: "Əgər belə olsaydı, onda söz الرَّبِّيُّونَ [rabbiyyu:nə] kimi olardı". İbn Zeyd ﵀ demişdir: "الرِّبِّيُّونَ [ribbiyyu:nə] sözünün mənası "davamçılar", "rəiyyət" deməkdir. الرَّبَّانِيُّونَ [rabbə:niyyu:nə] sözünün mənası isə "əmr sahibləri" deməkdir".

Uca Allah buyurur: "**Onlar Allah yolunda başlarına gələn müsibətlərə görə nə zəifləmiş, nə acizlik göstərmiş, nə də düşmənə boyun əymişlər**". Qatədə və ər-Rabi ibn Ənəs ﵀ demişlər: "Yəni onlar peyğəmbərləri öldürüldüyünə görə zəifləmədilər və düşmənə boyun əymədilər. Etiqadlarından və dinlərindən dönmədilər. Allaha qovuşana qədər peyğəmbərləri nə üçün döyüşürdüsə, eyni məqsəd üçün döyüşməyə davam etdilər". "**Allah səbir edənləri sevər. Onların sözü ancaq "Ey Rəbbimiz, günahlarımızı və əməllərimizdə həddi aşmağımızı bizə bağışla, qədəmlərimizi sabit et və kafir qövmə qələbə çalmaqda bizə yardım et!" olmuşdur**", yəni onların dedikləri yalnız bu olmuşdur. "**Beləcə, Allah onlara həm dünya mükafatını**", yəni köməyini, zəfəri və gözəl sonluğu, "**həm də axirət mükafatının ən gözəlini verdi**", yəni dünya neməti ilə bərabər, Axirət nemətini də verdi. "**Allah yaxşı iş görənləri sevər**".

---

[1] Bax: ət-Təbərinin təfsiri (7/264-265). (Əhməd Şakir).

﴿ يَـٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوٓاْ إِن تُطِيعُواْ ٱلَّذِينَ كَفَرُواْ يَرُدُّوكُمۡ عَلَىٰٓ أَعۡقَـٰبِكُمۡ
فَتَنقَلِبُواْ خَـٰسِرِينَ ١٤٩ بَلِ ٱللَّهُ مَوۡلَىٰكُمۡۖ وَهُوَ خَيۡرُ ٱلنَّـٰصِرِينَ ١٥٠ سَنُلۡقِي فِي قُلُوبِ ٱلَّذِينَ
كَفَرُواْ ٱلرُّعۡبَ بِمَآ أَشۡرَكُواْ بِٱللَّهِ مَا لَمۡ يُنَزِّلۡ بِهِۦ سُلۡطَـٰنٗاۖ وَمَأۡوَىٰهُمُ ٱلنَّارُۖ وَبِئۡسَ
مَثۡوَى ٱلظَّـٰلِمِينَ ١٥١ وَلَقَدۡ صَدَقَكُمُ ٱللَّهُ وَعۡدَهُۥٓ إِذۡ تَحُسُّونَهُم بِإِذۡنِهِۦۖ حَتَّىٰٓ
إِذَا فَشِلۡتُمۡ وَتَنَـٰزَعۡتُمۡ فِي ٱلۡأَمۡرِ وَعَصَيۡتُم مِّنۢ بَعۡدِ مَآ أَرَىٰكُم مَّا تُحِبُّونَۚ مِنكُم مَّن
يُرِيدُ ٱلدُّنۡيَا وَمِنكُم مَّن يُرِيدُ ٱلۡأٓخِرَةَۚ ثُمَّ صَرَفَكُمۡ عَنۡهُمۡ لِيَبۡتَلِيَكُمۡۖ وَلَقَدۡ عَفَا
عَنكُمۡۗ وَٱللَّهُ ذُو فَضۡلٍ عَلَى ٱلۡمُؤۡمِنِينَ ١٥٢ ۞ إِذۡ تُصۡعِدُونَ وَلَا تَلۡوُۥنَ عَلَىٰٓ
أَحَدٖ وَٱلرَّسُولُ يَدۡعُوكُمۡ فِيٓ أُخۡرَىٰكُمۡ فَأَثَـٰبَكُمۡ غَمَّۢا بِغَمّٖ لِّكَيۡلَا تَحۡزَنُواْ عَلَىٰ
مَا فَاتَكُمۡ وَلَا مَآ أَصَٰبَكُمۡۗ وَٱللَّهُ خَبِيرُۢ بِمَا تَعۡمَلُونَ ١٥٣ ﴾

**149. Ey iman gətirənlər! Əgər kafirlərə itaət etsəniz, onlar sizi dininizdən geri döndərər və beləliklə də, siz ziyana uğramış halda geri dönərsiniz.**

**150. Halbuki sizin himayəçiniz Allahdır. O, kömək edənlərin ən yaxşısıdır.**

**151. Haqqında heç bir dəlil nazil etmədiyi şeyi Allaha şərik qoşduqlarına görə kafirlərin qəlblərinə qorxu salacağıq. Onların gedəcəkləri yer Oddur. Zalımların məskunlaşacağı yer nə pisdir!**

**152. Siz Allahın izni ilə düşmənlərinizi qırıb-çatdığınız zaman Allah sizə verdiyi vədini yerinə yetirdi. Nəhayət, Allah sizə istədiyiniz qələbəni göstərdikdən sonra siz zəiflik göstərib Peyğəmbərin əmri barəsində bir-birinizlə mübahisə etdiniz və asi oldunuz. İçərinizdən kimisi dünyanı, kimisi də axirəti istəyirdi. Sonra Allah sizi sınamaq üçün üzünüzü onlardan döndərdi. O artıq sizi əfv etdi. Allah möminlərə qarşı lütfkardır.**

**153. O zaman Peyğəmbər arxanızdan – düşmənə yaxın olan sıralardan sizi çağırdığı halda, siz heç kəsə dönüb baxmadan düşməndən qaçırdınız. Allah da qəminizin üstünə qəm qoymaqla sizi cəzalandırdı ki, əlinizdən çıxan şeylərə və başınıza gələn müsibətə görə kədərlənməyəsiniz. Allah etdiklərinizdən xəbərdardır.**

Uca Allah bu ayələrdə mömin qullarını kafirlərə və münafiqlərə itaət etməkdən çəkindirir, çünki onlara itaət etmək dünya və axirətdə həlak olmağa səbəbdir. Bu səbəbdən Uca Allah ayədə "**Əgər kafirlərə itaət etsəniz, onlar sizi dininizdən geri döndərər və beləliklə də, siz ziyana uğramış halda geri dönərsiniz**" buyurur. Sonra Uca Allah Ona itaət etməyi, Onun himayəsi ilə kifayətlənməyi, yalnız Ondan kömək istəyərək yalnız Ona təvəkkül etməyi əmr edir və buyurur: "**Halbuki sizin himayəçiniz Allahdır. O, kömək edənlərin ən yaxşısıdır**".

Daha sonra Uca Allah mömin qullarına müjdə verərək düşmənlərinin qəlblərinə etdikləri küfr və şirk səbəbindən qorxu salacağını, beləcə, möminlərdən qorxacaqlarını, möminlərin qarşısında zəlil və alçaq olacaqlarını bildirir. Üstəlik onları Axirət yurdunda əzab gözləyir. Uca Allah buyurur: "**Haqqında heç bir dəlil nazil etmədiyi şeyi Allaha şərik qoşduqlarına görə kafirlərin qəlblərinə qorxu salacağıq. Onların gedəcəkləri yer Oddur. Zalımların məskunlaşacağı yer nə pisdir!**" əl-Buxari və Muslimin "Səhih" əsərlərində Cabir ibn Abdullahdan ﵄ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ belə demişdir: "Mənə beş (xislət) verilib ki, bunlar məndən əvvəl heç bir kəsə verilməmişdir: "Bir aylıq məsafədən düşmənin qəlbinə qorxu salaraq ona qalib gəlməyim; yer üzünün mənim üçün pak və namazgah olması; qənimətlərin mənə halal olması; (Qiyamət günü tərifəlayiq məqamda) şəfaət verməyim və bir də hər bir peyğəmbər yalnız öz qövmünə göndərildiyi halda, mən bütün insanlara göndərilmişəm".[1] İmam Əhməd ﵀ Əbu Umamədən ﵁ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Rəbbim məni peyğəmbərlərdən və ya ümmətlərdən bu dörd xislət ilə üstün etmişdir: Bütün insanlara göndərilmişəm. Mənim və ümmətim üçün bütün yer üzü pak və namazgah edildi. Odur ki ümmətimdən hər bir kəsin istənilən yerdə namazının vaxtı çatsa, ora onun üçün (su olmadığı təqdirdə) təmizlik vasitəsi və məsciddir. Bir aylıq məsafədən düşmənlərimin qəlbinə qorxu salınmaqla onlara qalib gəlməyim. Qənimətlər mənə halal edildi".[2] Bu hədisi ət-Tirmizi ﵀ də rəvayət etmiş və həsən-səhih olduğunu bildirmişdir.[3] İmam Əhməd ﵀ Əbu Musadan ﵁ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Mənə beş xüsusiyyət verilmişdir. Rəngindən asılı olmayaraq, bütün insanlara göndərilmişəm. Yer üzü mənim üçün pak və namazgah edildi. Qənimətlər mənə halal edildi, halbuki məndən əvvəlkilərə

[1] əl-Buxari, 323, 335; Muslim, 810, 1191.

[2] Əhməd, 22190, 22488. Hədis səhihdir. Bax: Səhih əl-Cami, 4220.

[3] əl-Musnəd (5/248 Hələbi nəşri). (Əhməd Şakir).

halal deyildi. Bir aylıq məsafədən düşmənin qəlbinə qorxu salınmaqla mənə yardım olunmuşdur. Mənə şəfaət vermək hüququ verilmişdir. Məndən əvvəlki bütün peyğəmbərlər artıq şəfaət etmişlər, mən isə şəfaətimi saxlamışam və Qiyamət günü Allaha şərik qoşmayaraq ölən kəslər üçün şəfaətçi olacağam".[1] Bu hədisi yalnız İmam Əhməd ﷺ rəvayət etmişdir.[2]

Uca Allah buyurur: "**Siz Allahın izni ilə düşmənlərinizi qırıb-çatdığınız zaman Allah sizə verdiyi vədini yerinə yetirdi**". İbn Abbas ﷺ demişdir: "Allah onlara zəfəri vəd vermişdi".

Bu ayəni daha əvvəl keçən: "**O zaman sən möminlərə deyirdin: "Rəbbinizin üç min mələk endirərək köməyinizə çatması sizə yetməzmi?" Əlbəttə, əgər səbir edib Allahdan qorxsanız və elə indi onlar sizin üstünüzə hücum etsələr, Rəbbiniz nişanlanmış beş min mələklə sizə yardım edər**" ("Ali-İmran", 124-125) ayələrinin təfsirində deyilən iki rəydən birinə – mələklərin Uhud döyüşündə nazil olmasına dəlil gətirmək olar. Çünki Uhud döyüşündə düşmənlər üç min nəfər idi. İki ordu qarşılaşdıqda günün əvvəlində zəfər müsəlmanların idi. Lakin oxçular Peyğəmbərin ﷺ əmrinə asi olduqlarına görə və bəzi döyüşçülər zəiflik göstərdiklərinə görə Uca Allahın sabit olmaq və itaət etmək şərtlərinə bağlı olan vədi gecikdi.[3] Bu səbəbdən Uca Allah buyurur: "**Siz Allahın izni ilə**", yəni Allahın sizi onlar üzərində qalib etməsi ilə "**düşmənlərinizi qırıb-çatdığınız zaman**", yəni öldürdüyünüz zaman "**Allah sizə verdiyi vədini yerinə yetirdi**", yəni günün əvvəlində sizi qalib etdi. "**Nəhayət, Allah sizə istədiyiniz qələbəni göstərdikdən sonra**", yəni zəfəri göstərdikdən sonra "**siz zəiflik göstərib**"– İbn Abbas ﷺ demişdir: "Zəiflik dedikdə qorxaqlıq nəzərdə tutulur". "**Peyğəmbərin əmri barəsində bir-birinizlə mübahisə etdiniz və asi oldunuz**"– oxçuların etdiyi kimi. "**İçərinizdən kimisi dünyanı**"– bunlar düşmənin məğlub olduğunu görüb qənimət dalınca gedənlərdir "**kimisi də axirəti istəyirdi. Sonra Allah sizi sınamaq üçün üzünüzü onlardan döndərdi**", yəni sizi imtahana çəkib sınamaq üçün qələbəni sizdən alıb onlara verdi. "**O, artıq sizi əfv etdi**", yəni etdiyiniz bu əməli bağışladı. Çünki ən doğrusunu Allah bilir, düşmən sayca çox, silah-sursat baxımından daha güclü idi. Müsəlmanlar isə sayca az və silah-sursat baxımından daha zəif idilər. "**Allah möminlərə qarşı lütfkardır**".

[1] Əhməd, 19750, 19973. Hədis səhihdir. Bax: İrvaul-Ğalil, 1/316-317.
[2] əl-Musnəd (4/416 Hələbi nəşri), əz-Zəvaid (8/258). (Əhməd Şakir).
[3] Əvvəl keçən 124-129-cu ayələrin təfsirinə bax.

İmam Əhməd ﵀ İbn Abbasın ﵄ belə dediyini rəvayət etmişdir: "Uca Allah heç bir yerdə Uhud döyüşü günündə olduğu kimi yardım etməmişdir". Bu bizə qəribə gəldi. İbn Abbas dedi: "Mənimlə mənim bu sözümü qəribə sayanlar arasında Uca Allahın Kitabı hakimdir. Uca Allah Uhud döyüşü günü "**Siz Allahın izni ilə düşmənləri qırıb-çatdığınız zaman Allah sizə verdiyi vədini yerinə yetirdi**" buyurur. İbn Abbas dedi: "Ayədə keçən الْحَسُّ [əl-həssu] sözünün mənası "öldürmək" deməkdir. "**Nəhayət, O sizə arzuladığınız şeyi göstərdikdən sonra ruhdan düşdünüz, Peyğəmbərin əmri barəsində bir-birinizlə mübahisə etdiniz və asi oldunuz. İçərinizdən kimisi dünyanı, kimisi də axirəti istəyirdi. Sonra Allah sizi sınamaq üçün üzünüzü onlardan döndərdi. O artıq sizi bağışladı. Allah möminlərə qarşı lütfkardır**". Bu ayədə oxçular nəzərdə tutulur. Belə ki Peyğəmbər ﷺ oxçuları bir yerə yerləşdirdi və onlara "Bizi arxadan qoruyun! Bizim öldürüldüyümüzü görsəniz, belə bizə yardım etməyin. Bizim qələbə çalıb qənimət topladığımızı görsəniz isə bizə şərik olmayın!" buyurdu. Peyğəmbərlə ﷺ olanlar qalib gəlib müşrik əsgərləri mövqelərindən qovduqda oxçuların hamısı düşmənin düşərgəsinə girib qənimət toplamağa başladılar və Peyğəmbərin ﷺ səhabələrinin səfləri biri-birinə qarışdı. Onlar beləcə hədisi rəvayət edən barmaqlarını bir-birinə keçirdi, başları qənimət toplamağa qarışdığı zaman, oxçular isə tutduqları mövqeyi tərk etdikləri zaman düşmən atlıları arxa tərəfdən Peyğəmbərin ﷺ səhabələrinə hücum etdi. Müsəlman ordusu çaşqınlığa düşdü və müsəlmanlardan bir çox adam şəhid oldu. Halbuki günün əvvəlində Peyğəmbər ﷺ və səhabələri qalib idilər. Müşriklərin yeddi və ya doqquz bayraqdarı öldürüldü. Müsəlmanlar dağa tərəf çəkildilər, lakin, insanların dediyi kimi, mağaraya çatmamışdılar. Mihras[1] deyilən yerə çatdıqda şeytan "Muhəmməd öldürüldü" deyə qışqırdı. Bu xəbərin doğru olub-olmamasına belə şübhə edilmədi. Biz bu xəbərin doğru olduğunu sandığımız bir vaxtda Peyğəmbər ﷺ Sadeyn deyilən yerdə görsəndi. Biz onu yeriyərkən sanki hündür yerdən enirmiş kimi ləngərləməsindən tanıdıq. Biz o qədər sevindik ki, sanki başımıza gələnlər heç olmamışdı. Peyğəmbər ﷺ bizə tərəf gəlir və belə deyirdi: "Allahın Elçisinin üzünü qana bulayan qövmə Allah bərk qəzəblənmişdir". Həmçinin deyirdi: "Allahım, əlbəttə, onlar bizə üstün gələ bilməyəcəklər". Nəhayət, Peyğəmbər ﷺ bizim yanımıza çatdı və orada bir müddət qaldı. Birdən

[1] Uhud dağının aşağı tərəfində yerləşən yer adıdır. Hal-hazırda Həmzənin ﷛ qəbri bu yerdə yerləşir.

Əbu Sufyan dağın aşağı tərəfindən iki dəfə qışqırdı: "Yaşasın Hubəl![1]" Belə deməklə, ibadət etdiyi ilahı nəzərdə tuturdu. Sonra dedi: "İbn Əbu Kəbşə haradadır? İbn Əbu Quhəfə (Əbu Bəkr) haradadır? İbn əl-Xattab (Ömər) haradadır?" Ömər dedi: "Ey Allahın Elçisi, cavab verməyimmi?" Peyğəmbər ﷺ "Bəli, cavab ver!" buyurdu. Əbu Sufyan "Yaşasın Hubəl!" dedikdə Ömər "Allah (hər şeydən) uca və uludur!" Əbu Sufyan dedi: "Ey Ömər! Hubəl "Bəli" dedi və cavabı doğru çıxdı, onu pisləmə[2]". Sonra Əbu Sufyan yenə "İbn Əbu Kəbşə hanı? İbn Əbu Quhəfə hanı? Hanı İbn əl-Xattab?" dedi. Ömər "Bu Allahın Elçisi, bu Əbu Bəkr, bu da mən Ömər" deyə cavab verdi. Əbu Sufyan dedi: "Bu gün, Bədr gününün əvəzidir. (Bilin ki,) günlər dəyişkəndir, döyüş isə gah sizin lehinizə, gah da əleyhinizədir". Ömər dedi: "Heç də bərabər deyilik, bizim ölülərimiz Cənnətdə, sizin ölüləriniz isə Cəhənnəmdədir". Əbu Sufyan dedi: "Bu, sadəcə, sizin iddianızdır. Elə olsaydı, naümid qalardıq və ziyana uğrayardıq. Siz ölülərinizin eybəcər hala salınmış olduğunu görəcəksiniz. Hərçənd bu bizim böyüklərimizin fikri deyildi". Sonra cahiliyyət hisləri onu üstələdi və dedi: "Belə olsa da, biz bunu pis görməzdik".[3] Bu hədis ğaribdir və bu formada rəvayət olunması qəribədir. Hədis İbn Abbasın رضي الله عنهما rəvayətlərindəndir. Halbuki nə o, nə də atası Uhud döyüşündə iştirak etməmişlər. Hədisi əl-Hakim, İbn Əbu Hatim və əl-Beyhəqi "Dəläilun-Nubuvvə" (Peyğəmbərliyin əlamətləri) əsərində rəvayət etmişlər. "Səhih" əsərlərində və digər kitablarda bu hədisin bəzi yerlərini təsdiq edən hədislər var.[4] İmam Əhməd رحمه الله İbn Məsudun رضي الله عنه belə dediyini rəvayət etmişdir: "Uhud döyüşündə müsəlman qadınlar da ordunun arxasında iştirak edirdilər. Onlar müşriklərin yaralılarının işlərini bitirirdilər (öldürürdülər). And içsəm, doğru olar ki, o gün Uca Allah "**İçərinizdən kimisi dünyanı, kimisi də axirəti istəyirdi. Sonra Allah sizi sınamaq üçün üzünüzü onlardan döndərdi**" ayəsini nazil edənə qədər bizdən dünyanı arzulayan heç kim yox idi. Peyğəmbərin ﷺ səhabələri onun itaətindən

[1] Kəbənin içinə yerləşdirilmiş, Kinanə qəbiləsinin sitayiş etdiyi bütün adıdır.

[2] Qureyşlilər bir işin dalınca getmək istədikdə iki ox götürüb birinə "bəli", digərinə isə "xeyr" yazırdılar. Sonra hər hansı bir bütə yaxınlaşıb oxlardan birini çəkərdilər. Üzərinə "bəli" yazılan ox çıxdıqda işin dalınca gedərdilər, "xeyr" yazılan ox çıxdıqda isə bu işi tərk edərdilər. Əbu Sufyan da Uhud döyüşünə çıxmaq istədiyi zaman bir oxa "bəli" digərinə "xeyr" yazmışdı və Hubəlin yanında oxu çəkdiyi zaman "bəli" çıxmışdı. Əbu Sufyanın "Hubəl "Bəli" dedi və cavabı doğru çıxdı" sözünün mənası da budur. (Bax: İbn əl-Əsir "ən-Nihəyə fi Ğaribil-Hədis" 4/158).

[3] Əhməd, 2609; əl-Hakim, 3163. Şueyb əl-Arnavut isnadının həsən olduğunu bildirmişdir.

[4] əl-Musnəd (2609). (Əhməd Şakir).

çıxıb əmrinə asi olduqda Peyğəmbərin ﷺ yanında doqquz kişi qaldı.[1] Onlardan ikisi Qureyşdən, yeddisi ənsardan idi. Peyğəmbər ﷺ isə onuncu idi. Müşriklər onların olduqları yerə yaxınlaşdıqda Peyğəmbər ﷺ dedi: "Onları bizdən uzaqlaşdırana Allah rəhm etsin!" Ənsardan biri qalxdı və şəhid edilənə qədər vuruşdu. Müşriklər yenə yaxınlaşdıqda Peyğəmbər ﷺ dedi: "Onları bizdən uzaqlaşdırana Allah rəhm etsin!" Peyğəmbər ﷺ onunla olanlardan yeddisi öldürülənə qədər belə deməyə davam etdi. Sonra Peyğəmbər ﷺ yanında qalan iki Qureyşliyə dedi: "Yoldaşlarımıza qarşı insaflı davranmadıq[2]". Sonra Əbu Sufyan gəldi və dedi: "Yaşasın Hubəl!" Peyğəmbər ﷺ dedi: "Siz "Allah (hər şeydən) uca və uludur!" deyin!" Səhabələri də "Allah (hər şeydən) uca və uludur!" dedilər. Əbu Sufyan "Bizim Uzzamız[3] var, sizin isə belə bir bütünüz yoxdur!" dedi. Peyğəmbər ﷺ dedi: "Siz "Allah möminlərin Himayəçisidir. Kafirlərin isə heç bir himayəçisi yoxdur" deyin!" Sonra Əbu Sufyan "Bu gün Bədr gününün əvəzidir. O gün əleyhimizə olsa da, bu gün lehimizədir. O gün kədərlənsək də, bu gün sevinirik. Hənzaləyə qarşılıq Hənzalə, filankəsə qarşılıq filankəs, filankəsə qarşılıq isə filankəsdir" dedi. Peyğəmbər ﷺ dedi: "Heç də bərabər deyilik. Bizim ölülərimiz diridir, Rəbləri yanında onlara ruzi verilir. Sizinkilər isə oddadır, onlara əzab verilir". Əbu Sufyan dedi: "Qövmümdə sizin ölülərinizi eybəcər hala salanlar olmuşdur, lakin bu bizim başçılarımızın məsləhəti ilə olmamışdır. Mən belə bir şeyi nə əmr etmişəm, nə də qadağan etmişəm, nə istəmişəm, nə də nifrət etmişəm. Bu mənə nə pis təsir edib, nə də məni sevindirməyib". İbn Məsud dedi: "Bir də baxıb gördülər ki, Həmzənin qarnı deşilmiş və Hind onun qaraciyərini çıxarıb çeynəmiş, lakin yeyə bilməmişdir. Peyğəmbər ﷺ soruşdu: "Bir şey yeyə bilmişmi?" Səhabələr "Xeyr" dedilər. Peyğəmbər ﷺ dedi: "Allah Həmzənin heç bir yerini Cəhənnəmə salmaz". Peyğəmbər ﷺ Həmzəni yerə qoydu və ona cənazə namazı qıldı. Sonra ənsardan olan bir kişi gətirildi və Həmzənin yanına qoyuldu. Peyğəmbər ﷺ onun üçün də cənazə namazı qıldı. Ənsarlı kişini apardılar, Həmzəni isə saxladılar. Sonra başqa bir şəhidi gətirib Həmzənin yanına qoydular və Peyğəmbər ﷺ onlara cənazə namazı qıldı. Bu kişini də apardılar, Həmzə isə yenə

[1] Oxçular Peyğəmbərin ﷺ əmrindən çıxıb mövqelərini tərk etdikdə, düşmən arxa tərəfdən müsəlmanlara hücuma keçdi və ordu arasında çaşqınlıq yarandı. Bu vaxt şeytan "Muhəmməd öldürüldü" deyə səsləndi. Səhabələr canlarını qurtarmaq üçün səpələndilər və bu vaxt Peyğəmbərin ﷺ yanında doqquz kişi qalmışdı.

[2] Yəni qureyşlilər döyüşə çıxmadılar. Döyüşə çıxanların hamısı ənsarlardan oldu.

[3] Bu, qadına bənzədilmiş bütün adıdır.

qaldı. Beləcə Peyğəmbər ﷺ o gün Həmzəyə yetmiş dəfə cənazə namazı qıldı".[1] Bu hədisi də yalnız Əhməd rəvayət etmişdir.[2]

əl-Buxari رحمه الله Bəra ibn Azibin رضي الله عنه belə dediyini rəvayət etmişdir: "O gün (Uhud döyüşündə) müşriklərlə qarşılaşdıq. Peyğəmbər ﷺ oxçulardan ibarət dəstəni bir mövqeyə yerləşdirdi və onlara Abdullah ibn Cubeyri رضي الله عنه başçı təyin edərək dedi: "Yerinizdən ayrılmayın! Bizim düşmənə qalib gəldiyimizi görsəniz belə, yerinizdən ayrılmayın! Düşmənin bizə qalib gəldiyini görsəniz belə, bizə yardım etməyə gəlməyin!" Onlar ilk həmlədə qaçmağa başladılar. Biz qadınların[3] paltarlarının ətəyini əllərinə alıb qaçdığını gördük. Onların xalxalları[4] və ayaqları görünürdü. Bu vaxt Abdullah ibn Cubeyrin رضي الله عنه dəstəsindəki oxçular "Qənimət! Ay camaat, qənimət!" dedilər. Abdullah ibn Cubeyr رضي الله عنه dedi: "Peyğəmbər ﷺ mənə tapşırıb ki, yerimizdən ayrılmayaq". Onlar isə ona qulaq asmadılar. Bu səbəbdən Allah qələbəni onlardan aldı və düşmən əks hücuma keçdi. Müsəlmanlardan yetmiş nəfər şəhid oldu. (Müsəlmanlar geri çəkildikdən sonra) Əbu Süfyan onlara yaxınlaşdı və qışqıraraq dedi: "Muhəmməd aranızdadırmı?" Peyğəmbər ﷺ dedi: "Ona cavab verməyin!" O, yenə qışqırıb dedi: "Əbu Quhafənin oğlu (Əbu Bəkr) aranızdadırmı?" Peyğəmbər ﷺ dedi: "Ona cavab verməyin!" O, yenə qışqırıb dedi: "Xəttabın oğlu (Ömər) aranızdadırmı?" Müşriklərdən biri ona dedi: "Bu üçü artıq öldürülmüşdür. Əgər sağ olsaydılar, cavab verərdilər". Onda Ömər رضي الله عنه özünü saxlaya bilməyib dedi: "Yalan danışdın, ey Allahın düşməni! Allahın səni rəzil edəcəyi günlər hələ qabaqdadır". Sonra Əbu Süfyan təntənəli surətdə "Yaşasın Hubəl! Yaşasın Hubəl!" deyə qışqırdı. Peyğəmbər ﷺ (əshabələrinə): "Onun cavabını verin!"- deyə buyurdu. Əshabələr soruşdular: "Nə deyək?" Peyğəmbər ﷺ buyurdu: "Deyin: "Allah (hər şeydən) uca və uludur!" Əbu Süfyan dedi: "Bizim Uzzamız var, sizin isə belə bir bütünüz yoxdur!" Peyğəmbər ﷺ "Onun cavabını verin!" deyə buyurdu. Əshabələr soruşdular: "Nə deyək?" Peyğəmbər ﷺ buyurdu: "Deyin: "Allah bizim himayədarımızdır, sizin isə himayədarınız yoxdur!" Əbu Süfyan dedi: "Bu gün Bədr gününün əvəzidir. (Bilin ki,) döyüş dəyişkəndir. Siz ölülərinizin eybəcər hala salınmış olduğunu görəcəksiniz. Hərçənd bunu mən əmr etməmişəm, lakin bu məni heç kədərləndirmir də".[5]

---

[1] Əhməd, 4414. Şueyb əl-Arnavut hədisin həsən li-ğeyrihi olduğunu bildirmişdir.

[2] əl-Musnəd (4414). (Əhməd Şakir).

[3] Bunlar müşriklərin özləri ilə gətirdikləri qadınlar idi.

[4] Keçmişdə qadınların yaraşıq üçün topuqlarına taxdıqları gümüş, qızıl və digər şeylərdən düzəldilmiş zınqırovlu halqa, bilərzik.

[5] Fəthul-Bari (7/269-272). (Əhməd Şakir). əl-Buxari, 3737, 4443.

Uca Allah buyurur: "**Sonra Allah sizi sınamaq üçün üzünüzü onlardan döndərdi**". əl-Buxari ﷺ Ənəs ibn Malikdən ﷺ rəvayət etmişdir ki, əmisi Ənəs ibn ən-Nədr Bədr döyüşündə iştirak edə bilməmişdi. Bu səbəbdən Peyğəmbərə ﷺ dedi: "Ey Allahın Elçisi, Mən sənin müşriklərə qarşı apardığın ilk döyüşdə iştirak etməmişəm. Allah (nə vaxtsa) onlara qarşı döyüşməyi mənə nəsib edərsə, mənim necə vuruşacağımı görəcək". Uhud döyüşündə müsəlmanlar məğlub olarkən əmim dedi: "Allahım, mən bunların, yəni əshabələrin, etdiklərinə (xətalarına) görə Səndən üzr diləyirəm və onların, yəni müşriklərin etdiklərindən (günahlardan) Sənə sığınıram!" Sonra o, qılıncı ilə döyüşə atıldı. (İrəlidə o,) Səd ibn Muazla rastlaşdı və dedi: "Ey Səd ibn Muaz! Cənnətə və Nədrin Rəbbinə (qovuşmaq istəyirəm). Mən Uhud tərəfdən (gələn) Cənnətin iyini duyuram". Sonra irəli atıldı və şəhid oldu. Ənəs ﷺ demişdir: "Biz onu ölənlərin arasında tapdıq. Müşriklər onun cəsədini elə tanınmaz hala salmışdılar ki, bacısından başqa heç kəs onu tanımadı. Bacısı onu barmaqlarının ucundan və ya paltarından tanıdı. Onun üzərində səksəndən çox qılınc, nizə və ox yarası var idi".[1] Oxşar hədisi Muslim ﷺ də rəvayət etmişdir.[2]

Uca Allah buyurur: "**O zaman Peyğəmbər arxanızdan – düşmənə yaxın olan sıralardan sizi çağırdığı halda, siz heç kəsə dönüb baxmadan düşməndən qaçırdınız**", yəni Allah sizin üzünüzü onlardan döndərdiyi zaman siz düşməndən dağa doğru qaçırdınız. Dəhşətdən və qorxudan heç kəsə dönüb baxmırdınız. Peyğəmbəri ﷺ arxanızda qoymuşdunuz. O isə sizi arxadan düşməndən qaçmamağa, qayıtmağa və yenidən hücum etməyə çağırırdı. əl-Buxari və Muslimin "Səhih" əsərlərində Əbu Hureyradan ﷺ rəvayət etmişlər ki, Peyğəmbər ﷺ əli ilə ön dişlərinə işarə edib demişdir: "Allahın Elçisinə bunu edən millətə Allah bərk qəzəblənmişdir. Peyğəmbərin öz əlləri ilə Allah yolunda öldürdüyü kimsəyə Allah bərk qəzəblənmişdir".[3] əl-Buxari ﷺ İbn Abbasdan ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Allahın Elçisinin şəxsən Allah yolunda öldürdüyü kimsəyə Allah bərk qəzəblənmişdir. Allahın Elçisinin üzünü qana bulaşdıran qövmə Allah

---

[1] Hədisin davamında deyilir: "Biz yəqin bilirdik ki, bu ayə onun və onun kimilərinin barəsində nazil olmuşdur: "**Möminlərin içərisində Allaha etdikləri əhdə sadiq qalan kişilər vardır. Onlardan kimisi əhdini yerinə yetirib şəhid olmuş, kimisi də şəhid olmasını gözləyir. Onlar əhdlərini əsla dəyişdirməyiblər**". (əl-Buxari, 2595, 2805-2806).

[2] Fəthul-Bari (7/274). (Əhməd Şakir).

[3] Fəthul-Bari (7/286), Muslim (2/67). Bu hədis əslində əl-Musnəd əsərində (8198) keçən Həmməm ibn Munəbbihin ﷺ səhifələrində qeyd olunmuş iki hədisdir. (Əhməd Şakir). əl-Buxari, 3765, 4073; Muslim, 3348, 4749.

bərk qəzəblənmişdir".[1] İbn İshaq demişdir: "Peyğəmbərin ﷺ o gün ön dişlərindən biri qırılmış, o, yanağından və dodağından yaralanmışdı. Peyğəmbəri ﷺ yaralayan Utbə ibn Əbu Vaqqas idi".

əl-Vaqidi demişdir: "Bizə çatan məlumata görə, Peyğəmbərin ﷺ yanaqlarını qana bulayan İbn Qamiə, dodağını yaralayan və ön dişlərindən birini qıran isə Utbə ibn Əbu Vəqqas olmuşdur".

əl-Buxari və Muslimin "Səhih" əsərlərində rəvayət olunur ki, bir dəfə Səhl ibn Saddan Peyğəmbərin ﷺ yaralanması barədə soruşdular. O dedi: "Peyğəmbərin ﷺ üzü yaralanmış, ön dişlərindən biri qırılmış və başındakı dəbilqəsi əzilmişdi. (O zaman) Əli qalxanının içində su gətirir, Fatimə də (Peyğəmbərin ﷺ) üzündəki qanı yuyurdu. Fatimə suyun qanı daha da artırdığını gördükdə, bir həsir parçası götürdü onu yandırdı, kül olduqda külü yaraya basdı və qan kəsildi".[2]

Uca Allah buyurur: "**Allah da qəminizin üstünə qəm qoymaqla sizi cəzalandırdı**", – ayədə gələn بِ [bi] önqoşması "üstünə" mənasını verir. Necə ki Uca Allahın "**Mən sizin əllərinizi və ayaqlarınızı çarpaz kəsdirəcək, özünüzü də xurma ağaclarının gövdələrində çarmıxa çəkəcəyəm**" ("Taha", 71) ayəsində فِي [fi] önqoşması "üzərində" mənasını vermişdir. Yəni xurma ağaclarının gövdələrinin üzərində çarmıxa çəkəcəyəm. İbn Abbas demişdir: "Birinci qəm müsəlmanların məğlub olmaları və "Muhəmməd öldürüldü" deyilməsi, ikinci qəm isə dağın üstündə müşriklərin onlardan yuxarıda olmasıdır. Bu səbəbdən Peyğəmbər ﷺ "Allahım, onları bizdən üstün etmə!"- dedi".[3] Abdur-Rahmən ibn Auf demişdir: "Birinci qəm məğlubiyyət səbəbi ilə, ikincisi isə "Muhəmməd öldürüldü" deyilməsi səbəbindən idi. Bu, müsəlmanlara məğlubiyyətdən daha ağır gəlmişdi".[4] Hər iki rəyi İbn Mərdəveyh rəvayət etmişdir. İbn Cərir demişdir: "Bu rəylərdən doğruya ən yaxın olanı ayəni bu şəkildə təfsir edənlərdir: "Ey möminlər! Allah sizə istədiyiniz qələbəni göstərdikdən sonra Rəbbinizə asi olub, Peyğəmbərin ﷺ əmrindən çıxdığınıza görə Allah sizi müşriklərə qalib gəlməkdən və qənimət əldə etməkdən məhrum etməklə, həmçinin sizdən ölü və yaralıların olması ilə qəmə düçar etməklə, üstəlik Peyğəmbərinizin ﷺ öldürüldüyünü zənn etməyinizdən, bir də düşmən qarşısında məğlub olub qaçdıqdan sonra düşmənlərin təkrar sizə tərəf gəlməsindən doğan bir qəmlə də cəzalandırdı".



---

[1] əl-Buxari, 3766, 4074.
[2] əl-Buxari, 3767, 4075.
[3] ət-Tabərani "Musnədiş-Şamiyyin" 967; ət-Tabəri, 7983, 8023.
[4] əs-Suyuti "Durrul-Mənsur" 4/75; əş-Şaukəni "Fəthul-Qadir" 2/37.

Uca Allah buyurur: **"...əlinizdən çıxan şeylərə və başınıza gələn müsibətə görə kədərlənməyəsiniz"**. İbn Abbas və başqaları رضي الله عنهم bu ayənin təfsirində demişlər: "Yəni əlinizdən çıxan qənimətlərə, başınıza gələn ölüm və yaralanmağa görə kədərlənməyəsiniz deyə, Allah qəminizin üzərinə qəm artırdı. "**Allah etdiklərinizdən xəbərdardır**".

﴿ثُمَّ أَنزَلَ عَلَيۡكُم مِّنۢ بَعۡدِ ٱلۡغَمِّ أَمَنَةٗ نُّعَاسٗا يَغۡشَىٰ طَآئِفَةٗ مِّنكُمۡۖ وَطَآئِفَةٞ قَدۡ أَهَمَّتۡهُمۡ أَنفُسُهُمۡ
يَظُنُّونَ بِٱللَّهِ غَيۡرَ ٱلۡحَقِّ ظَنَّ ٱلۡجَٰهِلِيَّةِۖ يَقُولُونَ هَل لَّنَا مِنَ ٱلۡأَمۡرِ مِن شَيۡءٖۗ قُلۡ إِنَّ ٱلۡأَمۡرَ كُلَّهُۥ
لِلَّهِۗ يُخۡفُونَ فِيٓ أَنفُسِهِم مَّا لَا يُبۡدُونَ لَكَۖ يَقُولُونَ لَوۡ كَانَ لَنَا مِنَ ٱلۡأَمۡرِ شَيۡءٞ مَّا قُتِلۡنَا هَٰهُنَاۗ قُل لَّوۡ كُنتُمۡ
فِي بُيُوتِكُمۡ لَبَرَزَ ٱلَّذِينَ كُتِبَ عَلَيۡهِمُ ٱلۡقَتۡلُ إِلَىٰ مَضَاجِعِهِمۡۖ وَلِيَبۡتَلِيَ ٱللَّهُ مَا فِي صُدُورِكُمۡ وَلِيُمَحِّصَ
مَا فِي قُلُوبِكُمۡۚ وَٱللَّهُ عَلِيمُۢ بِذَاتِ ٱلصُّدُورِ ١٥٤ إِنَّ ٱلَّذِينَ تَوَلَّوۡاْ مِنكُمۡ يَوۡمَ ٱلۡتَقَى ٱلۡجَمۡعَانِ إِنَّمَا
ٱسۡتَزَلَّهُمُ ٱلشَّيۡطَٰنُ بِبَعۡضِ مَا كَسَبُواْۖ وَلَقَدۡ عَفَا ٱللَّهُ عَنۡهُمۡۗ إِنَّ ٱللَّهَ غَفُورٌ حَلِيمٞ ١٥٥﴾

**154. Sonra bu qəm-qüssənin ardınca Allah sizə bir təskinlik – bir qisminizi bürüyən mürgü nazil etdi. Bir dəstə də öz canlarının hayına qalaraq "Bu işdə bizim üçün bir xeyir varmı?" deyə Allah barəsində haqsız yerə, cahiliyyə dövründəkinə bənzər zənnə qapıldılar. De: "Sözsüz ki, bütün işlər Allaha aiddir!" Onlar sənə açıb demədiklərini öz içərilərində gizlədərək "Əgər bu işdə bizim üçün bir xeyir olsaydı, elə buradaca öldürülməzdik" deyirlər. De: "Əgər siz evlərinizdə olsaydınız belə, öldürülməsi əzəldən yazılmış kəslər yenə çıxıb öləcəkləri yerlərə gedərdilər. Allah sizin kökslərinizdə olanları sınamaq və qəlblərinizdə olanları təmizləmək üçün belə etdi. Allah kökslərdə olanları bilir".**

**155. Uhudda iki qoşun qarşılaşdığı gün içərinizdən geri dönənləri şeytan qazandıqları bəzi günahlar üzündən səhv etməyə sövq etdi. Buna baxmayaraq, Allah onları bağışladı. Həqiqətən, Allah bağışlayandır, həlimdir.**

Uca Allah bu ayədə qullarına nemətini xatırladaraq onlara arxayınlıq və əmin-amanlıq hissi endirdiyini bildirir. Bu arxayınlıq onların qəm-qüssə içində və silahlı olduqları halda mürgüləmələri idi. Belə hallarda (döyüşdə) mürgüləmək arxayınlıq əlamətidir. Necə ki Uca Allah "əl-Ənfal" surəsində Bədr döyüşünü xatırladaraq buyurur: "**O zaman Allah Öz tərəfindən bir təskinlik olsun deyə,**

**sizə yüngül bir mürgü göndərmişdi**" ("əl-Ənfal", 11). İbn Əbu Hatim ﷬ Abdullah ibn Məsudun ﷛ belə dediyini rəvayət etmişdir: "Döyüşdə mürgüləmək Allah tərəfindən, namazda mürgüləmək isə şeytandandır".[1]

əl-Buxari ﷬ Əbu Talhadan ﷛ rəvayət etmişdir ki, Uhud günü səflərdə durarkən bizə mürgü gəlirdi. Mürgü o dərəcədə idi ki, qılıncım əlimdən yerə düşürdü. Mən onu götürürdüm, yenə düşürdü, yenə götürürdüm".[2] Oxşar hədisi ət-Tirmizi, ən-Nəsəi və əl-Hakim ﷬ də rəvayət etmişlər. Uca Allahın ayədə qeyd etdiyi ikinci dəstəyə – münafiqlərə gəlincə, onlar ancaq özlərini düşünürdülər. Dəstənin ən qorxaqları və haqdan ən uzaq olanları onlar idi. Onlar "**Allah barəsində haqsız yerə, cahiliyyə dövründəkinə bənzər zənnə qapıldılar**". Uca Allah barədə şəkk və şübhə içində idilər. Uca Allah belə buyurur: "**Sonra bu qəm-qüssənin ardınca Allah sizə bir təskinlik – bir qisminizi bürüyən mürgü nazil etdi**", yəni bu qisim insanlar həqiqi iman, sabitlik və təvəkkül sahibləri idilər. Onlar Allahın Öz Peyğəmbərinə ﷺ mütləq qələbə verəcəyinə və onun ümidlərini yerinə yetirəcəyinə yəqin inanırdılar. Sonra Uca Allah buyurur: "**Bir dəstə də öz canlarının hayına qalaraq**", yəni narahatçılıq, həyəcan və qorxu səbəbindən mürgü onları bürüməmişdi. "**Allah barəsində haqsız yerə cahiliyyə dövründəkinə bənzər zənnə qapıldılar**". Necə ki başqa bir ayədə "**Doğrusu, siz elə zənn edirdiniz ki, Peyğəmbər və möminlər heç vaxt öz ailələrinə qayıtmayacaqlar. Bu, şeytan tərəfindən qəlbinizdə bəzədilmişdi. Siz pis zənnə düşüb məhvə məhkum adamlar oldunuz**" ("əl-Fəth", 12) buyurur. Bunlar da belə zənn etdilər. Müşriklərin həmin vaxt qalib gəldiyini gördükdə hər şeyin bitdiyini, İslamın və müsəlmanların artıq yox olduğunu düşündülər. Şəkk və şübhə əhlinin halı həmişə belə olur. Qorxulu bir hadisə baş verdikdə dərhal pis zənnə qapılarlar.

Sonra Uca Allah onların bu halda belə dediklərini xəbər verir: "**Bu işdə bizim üçün bir xeyir varmı?**" Uca Allah onlara cavab olaraq buyurur: "**De: "Sözsüz ki, bütün işlər Allaha aiddir!" Onlar sənə açıb demədiklərini öz içərilərində gizlədərək...**" Sonra Uca Allah onların içlərində gizlətdiklərini açıqlayaraq **"Əgər bu işdə bizim üçün bir xeyir olsaydı, elə buradaca öldürülməzdik" deyirlər**"

[1] Hədisin isnadı səhihdir. Hədis zahirən İbn Məsudun ﷛ sözü olsa da, Peyğəmbərə ﷺ nisbət olunmuş hədis hökmündədir. (Əhməd Şakir). İbn Əbu Hatim, 4360.

[2] əl-Buxari, 3768, 4061.

buyurur. Yəni bu sözü Allah Elçisindən ﷺ gizlədirdilər. Rəvayət edilir ki, Abdullah ibn əz-Zubeyr رضي الله عنهما demişdir: "Atam əz-Zubeyr رضي الله عنه belə söyləmişdir: "Uhud döyüşü günü Peyğəmbərlə ﷺ bir yerdə idik. Bizdə ölüm qorxusu artan zaman Uca Allah bizə bir mürgü göndərdi və hamımız çənəsi sinəsinə düşmüş vəziyyətdə mürgüləməyə başladıq. Allaha and olsun ki, mən Muattəb ibn Quşeyrin "Əgər bu işdə bizim üçün bir xeyir olsaydı, elə buradaca öldürülməzdik!" dediyini yuxu kimi eşidirdim. Mən onun dediklərini əzbərlədim. Sonra isə Uca Allah Muattəbin bu sözünə görə bu ayəni nazil etdi: "**Onlar sənə açıb demədiklərini öz içərilərində gizlədərək "Əgər bu işdə bizim üçün bir xeyir olsaydı, elə buradaca öldürülməzdik"- deyirlər**".[1] Hədisi İbn Əbu Hatim رحمه الله rəvayət etmişdir.[2]

Uca Allah buyurur: "**De: "Əgər siz evlərinizdə olsaydınız belə, öldürülməsi əzəldən yazılmış kəslər yenə çıxıb öləcəkləri yerlərə gedərdilər**", yəni de ki: "Bu Allahın təqdir etdiyi bir qədərdir. Qurtulması və qaçılması mümkün olmayan bir hökmdür".

Uca Allah buyurur: "**Allah sizin kökslərinizdə olanları sınamaq və qəlblərinizdə olanları təmizləmək üçün belə etdi**", yəni bu başınıza gələnlər sizi sınamaq, murdarı təmizdən ayırmaq, söz və əməldə mömin ilə münafiq olanları insanlara göstərmək üçündür. "**Allah kökslərdə olanları bilir**", yəni Allah kökslərdə olan sirləri və məqsədləri bilir.

Sonra Uca Allah buyurur: "**Uhudda iki qoşun qarşılaşdığı gün içərinizdən geri dönənləri şeytan qazandıqları bəzi günahlar üzündən səhv etməyə sövq etdi**", yəni daha əvvəl etdikləri bəzi günahlarına görə şeytan onları səhvə sövq etdi. Sələflərdən bəziləri belə demişlər: "Yaxşılığın mükafatı, bu yaxşılıqdan sonra başqa bir yaxşılığa müvəffəq olunmaq, günahın cəzası isə bu günahdan sonra başqa bir günah işləməkdir".

Sonra Uca Allah buyurur: "**Buna baxmayaraq, Allah onları bağışladı**", yəni Allah məğlub olub qaçanların bu səhvini bağışladı. "**Həqiqətən, Allah bağışlayandır, həlimdir**", yəni günahları bağışlayır, yaratdıqlarına qarşı həlimdir, onların günahlarından keçir. İmam Əhməd رحمه الله Asimdən, o da Şəqiqdən رحمه الله rəvayət etmişdir ki, bir dəfə Abdur-Rahmən ibn Auf Valid ibn Uqbə رضي الله عنهما ilə qarşılaşdı.

[1] İbn Həcər "Mətalibul-Aliyə" 4/219; əl-Beyhəqi "Dəlil ən-Nubuvvə" 3/273. Hədis həsəndir. Bax: əl-İstiyəb, səh. 315-316.

[2] Əhməd Şakir hədisin isnadının səhih olduğunu bildirmişdir. İbn Əbu Hatim, 4373.

Valid ona dedi: "Nə üçün möminlərin əmiri Osmana qarşı sərtsən?" Abdur-Rahmən dedi: "Mən Ayneyn günü (Uhud günü) qaçmadım. Bədr döyüşündə arxada (Mədinədə) qalmadım və Ömərin sünnəsini tərk etmədim". Valid bunları Osmana ؓ çatdırdı. Osman ؓ dedi: "Abdur-Rahmənin "Mən Ayneyn günü qaçmadım" sözünə gəlincə, Allahın artıq bağışladığı günahı o mənə necə eyib tuta bilər? Uca Allah buyurur: "**Uhudda iki qoşun qarşılaşdığı gün içərinizdən geri dönənləri şeytan qazandıqları bəzi günahlar üzündən səhv etməyə sövq etdi. Buna baxmayaraq, Allah onları bağışladı**". Mənim Bədr döyüşündə iştirak etməməyimə gəlincə, mən Peyğəmbərin ﷺ qızı Ruqeyyə xəstə olduğu üçün vəfat edənə qədər ona baxmaqla məşğul idim. Peyğəmbər ﷺ döyüşdə iştirak etməməyimə baxmayaraq, əldə olunan qənimətdən mənə də pay ayırdı. Peyğəmbərin ﷺ qənimətdən pay ayırdığı kimsə döyüşdə iştirak etmişdir. Abdur-Rahmənin "Mən Ömərin sünnəsini tərk etmişəm" sözünə gəlincə isə ona nə mənim, nə də onun gücü çatar. Get bunları ona xəbər ver!"[1]

﴿ يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ لَا تَكُونُواْ كَٱلَّذِينَ كَفَرُواْ وَقَالُواْ لِإِخۡوَٰنِهِمۡ إِذَا ضَرَبُواْ فِي ٱلۡأَرۡضِ أَوۡ كَانُواْ غُزّٗى
لَّوۡ كَانُواْ عِندَنَا مَا مَاتُواْ وَمَا قُتِلُواْ لِيَجۡعَلَ ٱللَّهُ ذَٰلِكَ حَسۡرَةٗ فِي قُلُوبِهِمۡۗ وَٱللَّهُ يُحۡيِۦ وَيُمِيتُۗ وَٱللَّهُ
بِمَا تَعۡمَلُونَ بَصِيرٞ ١٥٦ وَلَئِن قُتِلۡتُمۡ فِي سَبِيلِ ٱللَّهِ أَوۡ مُتُّمۡ لَمَغۡفِرَةٞ مِّنَ ٱللَّهِ وَرَحۡمَةٌ خَيۡرٞ مِّمَّا
يَجۡمَعُونَ ١٥٧ وَلَئِن مُّتُّمۡ أَوۡ قُتِلۡتُمۡ لَإِلَى ٱللَّهِ تُحۡشَرُونَ ١٥٨ ﴾

**156. Ey iman gətirənlər! Yer üzündə səfərə çıxmış və ya döyüşə getmiş qardaşları barəsində "Əgər onlar bizim yanımızda olsaydılar, nə ölər, nə də öldürülərdilər" deyən kafirlər kimi olmayın! Allah bu qənaəti onların qəlblərində bir həsrət olsun deyə yaratdı. Halbuki dirildən də, öldürən də Allahdır. Allah nə etdiklərinizi görür.**

**157. Əgər siz Allah yolunda öldürülər və ya ölərsinizsə, bilin ki, Allahın məğfirəti və rəhməti onların topladıqları şeylərdən daha xeyirlidir.**

**158. Ölsəniz də, öldürülsəniz də, mütləq Allahın hüzuruna toplanacaqsınız.**

[1] əl-Musnəd (490). İsnadı səhihdir. (Əhməd Şakir). Əhməd, 490. Şueyb əl-Arnavut isnadının həsən olduğunu bildirmişdir.

Uca Allah bu ayələrdə mömin qullarına batil inanclara sahib olan kafirlərə bənzəməyi qadağan edir. Onların səfərlərdə və döyüşlərdə ölən qardaşları barədə "Əgər səfərə və döyüşə çıxmasaydılar, ölməzdilər" demələri inanclarının batil olmasına dəlalət edir. Uca Allah buyurur: "**Ey iman gətirənlər! Yer üzündə səfərə çıxmış və ya döyüşə getmiş qardaşları barəsində "Əgər onlar bizim yanımızda**", yəni şəhərdə **"olsaydılar, nə ölər, nə də öldürülərdilər" deyən kafirlər kimi olmayın!**", yəni nə səfərdə ölməzdilər, nə də döyüşdə öldürülməzdilər.

Uca Allah buyurur: "**Allah bu qənaəti onların qəlblərində bir həsrət olsun deyə yaratdı**", yəni Allah bu inancı onların qəlblərində yaratdı ki, yoldaşlarının ölmələrinə və ya öldürülmələrinə görə həsrətləri və kədərləri daha da artsın. Sonra Uca Allah onların bu sözlərini rədd edərək buyurur: "**Halbuki dirildən də, öldürən də Allahdır**", yəni bütün məxluqat Onun əlindədir. Bütün işlər Ona qayıdır. Onun istəyi və qədəri olmadan heç kəs nə yaşaya, nə də ölə bilməz. Onun qəza və qədəri olmadan heç kəsin ömrü nə artar, nə də azalar. "**Allah nə etdiklərinizi görür**", yəni Onun hər şeyi bilməsi və görməsi bütün məxluqatı əhatə etmişdir və yaratdıqlarının heç bir işi Ona gizli qalmaz.

Uca Allah buyurur: "**Əgər siz Allah yolunda öldürülər və ya ölərsinizsə, bilin ki, Allahın məğfirəti və rəhməti onların topladıqları şeylərdən daha xeyirlidir**". Bu ayə dəlalət edir ki, Allah yolunda öldürülmək və ya ölmək Allahın rəhmətinə, bağışlamasına və razılığına nail olmağa bir vəsilədir və bu, dünyada qalıb onun fani mal-dövlətini yığmaqdan daha xeyirlidir.

Sonra Uca Allah ölən ya da öldürülən hər bir kəsin qayıdacaq yerinin Allahın hüzuru olduğunu, Allahın da hər kəsi əməlinə görə - xeyri xeyirlə, şəri isə şərlə cəzalandıracağını xəbər verərək buyurur: "**Ölsəniz də, öldürülsəniz də, mütləq Allahın hüzuruna toplanacaqsınız**".

﴿فَبِمَا رَحْمَةٍ مِّنَ ٱللَّهِ لِنتَ لَهُمْ ۖ وَلَوْ كُنتَ فَظًّا غَلِيظَ ٱلْقَلْبِ لَٱنفَضُّوا۟ مِنْ حَوْلِكَ ۖ فَٱعْفُ عَنْهُمْ
وَٱسْتَغْفِرْ لَهُمْ وَشَاوِرْهُمْ فِى ٱلْأَمْرِ ۖ فَإِذَا عَزَمْتَ فَتَوَكَّلْ عَلَى ٱللَّهِ ۚ إِنَّ ٱللَّهَ يُحِبُّ ٱلْمُتَوَكِّلِينَ ﴿١٥٩﴾ إِن يَنصُرْكُمُ
ٱللَّهُ فَلَا غَالِبَ لَكُمْ ۖ وَإِن يَخْذُلْكُمْ فَمَن ذَا ٱلَّذِى يَنصُرُكُم مِّنۢ بَعْدِهِۦ ۗ وَعَلَى ٱللَّهِ فَلْيَتَوَكَّلِ ٱلْمُؤْمِنُونَ
﴿١٦٠﴾ وَمَا كَانَ لِنَبِىٍّ أَن يَغُلَّ ۚ وَمَن يَغْلُلْ يَأْتِ بِمَا غَلَّ يَوْمَ ٱلْقِيَـٰمَةِ ۚ ثُمَّ تُوَفَّىٰ كُلُّ نَفْسٍ مَّا
كَسَبَتْ وَهُمْ لَا يُظْلَمُونَ ﴿١٦١﴾ أَفَمَنِ ٱتَّبَعَ رِضْوَٰنَ ٱللَّهِ كَمَنۢ بَآءَ بِسَخَطٍ مِّنَ ٱللَّهِ وَمَأْوَىٰهُ جَهَنَّمُ ۚ
وَبِئْسَ ٱلْمَصِيرُ ﴿١٦٢﴾ هُمْ دَرَجَـٰتٌ عِندَ ٱللَّهِ ۗ وَٱللَّهُ بَصِيرٌۢ بِمَا يَعْمَلُونَ ﴿١٦٣﴾ لَقَدْ مَنَّ ٱللَّهُ عَلَى ٱلْمُؤْمِنِينَ
إِذْ بَعَثَ فِيهِمْ رَسُولًا مِّنْ أَنفُسِهِمْ يَتْلُوا۟ عَلَيْهِمْ ءَايَـٰتِهِۦ وَيُزَكِّيهِمْ وَيُعَلِّمُهُمُ ٱلْكِتَـٰبَ
وَٱلْحِكْمَةَ وَإِن كَانُوا۟ مِن قَبْلُ لَفِى ضَلَـٰلٍ مُّبِينٍ ﴿١٦٤﴾

**159. Allahın mərhəməti sayəsində sən onlarla mülayim rəftar etdin. Əgər kobud və daş qəlbli olsaydın, heç şübhəsiz, onlar sənin ətrafından dağılıb gedərdilər. Elə isə onları əfv et, onlar üçün Allahdan bağışlanma dilə və görəcəyin işlər barədə onlarla məsləhətləş, qəti qərara gəldikdə isə Allaha təvəkkül et! Həqiqətən, Allah təvəkkül edənləri sevir.**

**160. Əgər Allah sizə kömək edərsə, heç kəs sizə qalib gələ bilməz. Yox, əgər sizi zəlil edərsə, Ondan sonra kim sizə yardım edə bilər?! Qoy möminlər Allaha təvəkkül etsinlər!**

**161. Peyğəmbərə əmanətə xəyanət etmək yaraşmaz. Əmanətə xəyanət edən kimsə Qiyamət günü xəyanət etdiyi şeylə gələr. Sonra isə hər kəsə əməllərinin əvəzi tam verilər və onlara zülm edilməz.**

**162. Allahın rizasını qazanmağa can atan kəs Allahın qəzəbinə gələn və gedəcəyi yer Cəhənnəm olan kəs kimi ola bilərmi? Ora nə pis qayıdış yeridir!**

**163. Onlar Allah yanında ayrı-ayrı dərəcələrdə olacaqlar. Allah onların nə etdiklərini görür!**

**164. Allah möminlərə onların öz içərisindən Elçi göndərməklə lütf göstərdi. Bu Elçi onlara Allahın ayələrini oxuyur, onları günahlardan təmizləyir, onlara Kitabı və hikməti öyrədir. Halbuki bundan öncə onlar açıq-aydın azğınlıq içərisində idilər.**

Uca Allah bu ayədə Peyğəmbərinə ﷺ və möminlərə nemətini xatırladaraq Peyğəmbərin ﷺ qəlbini Allahın əmrlərinə tabe olan, qadağalarından çəkinən etdiyini, həmçinin onun qəlbini ümmətinə qarşı yumşaltdığını və onlarla rəftarını gözəlləşdirdiyini xəbər verərək buyurur: "**Allahın mərhəməti sayəsində sən onlarla mülayim rəftar etdin**", yəni Allahın sənə və onlara mərhəməti olmasaydı, səni onlara qarşı mülayim edən nə olardı? Qatədə ﷺ demişdir: "Uca Allah bu ayədə "Allahın mərhəməti ilə sən onlarla mülayim rəftar etdin" buyurur". Ayədə keçən مَا [mə] sözü nisbi əvəzlikdir. Ərəblər bu sözü həm müəyyən, həm də qeyri-müəyyən isimlərlə işlədirlər. Müəyyən isimlə işlənməsinə misal Uca Allahın bu ayəsidir: فَبِمَا نَقْضِهِمْ مِيثَاقَهُمْ [fəbimə: nəqdihim mi:sə:qahum] "**Onlar əhdlərini pozduqlarına görə...**" ("ən-Nisa", 155; "əl-Maid"ə, 13). Qeyri-müəyyən isimlə işlənməsinə misal isə Uca Allahın bu ayəsidir: عَمَّا قَلِيلٍ [ammə: qali:lin] "**Onlar tezliklə peşman olacaqlar!**" ("əl-Muminun", 40). Bu ayədə isə belədir: فَبِمَا رَحْمَةٍ مِنَ اللهِ لِنْتَ لَهُمْ [fəbimə: rahmətin minəlla:hi lintə ləhum] "**Allahın mərhəməti sayəsində sən onlarla mülayim rəftar etdin**". əl-Həsən əl-Bəsri ﷺ demişdir: "Bu, Muhəmmədin ﷺ əxlaqıdır. Allah onu bu xasiyyətlə peyğəmbər göndərmişdir". Bu ayə Uca Allahın bu sözünə bənzəyir: "**Sizə özünüzdən elə bir Elçi gəldi ki, sizin əziyyətə düşməyiniz ona ağır gəlir. O sizə qarşı qayğıkeş, möminlərə şəfqətli, rəhmlidir**" ("ət-Tövbə", 128).

Sonra Uca Allah buyurur: "**Əgər kobud və daşqəlbli olsaydın, heç şübhəsiz, onlar sənin ətrafından dağılıb gedərdilər**". "Kobud"– sərt deməkdir. Burada, danışıqda kobudluq nəzərdə tutulur, çünki bundan sonra Uca Allah "**daş qəlbli**" buyurur. Yəni əgər danışığında kobud, ətrafındakılara qarşı sərt qəlbli olsaydın, onlar sənin ətrafından dağılar və səni tərk edərdilər. Lakin Uca Allah onları sənin ətrafına topladı və qəlbləri sənə isinişsin deyə səni mülayim etdi. Necə ki Abdullah ibn Amr ﷺ demişdir: "Əvvəlki müqəddəs kitablarda Peyğəmbərin ﷺ vəsfinin bu şəkildə olduğunu görmüşəm: "O nə kobud, nə də sərt qəlblidir. O, bazarlarda çığır-bağır salmaz, pisliyə pisliklə qarşılıq verməz, əksinə, bağışlayar və əfv edər".[1]

Bu səbəbdən Uca Allah "**Elə isə onları əfv et, onlar üçün Allahdan bağışlanma dilə və görəcəyin işlər barədə onlarla məsləhətləş**" buyurur. Peyğəmbər ﷺ bir iş baş verdikdə səhabələrinin könüllərini

[1] İbn Kəsir ﷺ bununla "əl-Musnəd" əsərində (6622) olan hədisə işarə edir. Bu hədis tam şəkildə 119-120-ci ayələrin təfsirində keçdi və orada bildirdik ki, hədisi həmçinin əl-Buxari ﷺ də rəvayət etmişdir. (Əhməd Şakir). əl-Buxari, 1981, 2125, 4838.

xoş etmək və etdikləri işi həvəslə yerinə yetirmələri üçün onlarla məsləhətləşərdi. Bədr döyüşündə Qureyş karvanına hücum etmək mövzusunda səhabələri ilə müşavirə etdi və onlar dedilər: "Ey Allahın Elçisi, əgər bizdən dənizi yarıb keçməyi istəsən, səninlə birlikdə dənizi yarıb keçərik. Əgər bizi Bərkul-Ğimədə aparsan, səninlə birlikdə gedərik. Biz sənə Musanın qövmünün ona "**Sən get Rəbbinlə birlikdə onlara qarşı vuruş. Biz isə burada oturacağıq**" dedikləri kimi deməyəcəyik. Əksinə, biz "Get, biz də səninlə birlikdəyik, sənin önündə, sağında və solundayıq" deyirik".[1]

Həmçinin eyni döyüşdə düşərgə quracaqları yer məsələsində də onlarla məşvərət etmiş və "Ölümə tələsən"[2] ləqəbli Munzir ibn Amr ﵁ dəstənin qabağına keçərək yerləşəcəkləri yeri göstərmişdi. Uhud döyüşündə də Peyğəmbər ﷺ Mədinədə qalmaq və ya düşmənə qarşı çıxmaq barəsində səhabələri ilə məşvərət etmiş və əksəriyyətin Mədinədən çıxmağın tərəfdarı olduğuna görə düşməni Mədinədən kənarda qarşılamışdı. Xəndək döyüşündə də Peyğəmbər ﷺ səhabələri ilə Mədinənin həmin ildə olan məhsulunun üçdə biri müqabilində düşmənlə sülh müqaviləsi bağlamaq mövzusunda məşvərət etmişdi. Lakin Sad ibn Muaz və Sad ibn Ubədə ﵄ buna qarşı çıxdılar və Peyğəmbər ﷺ bu fikrindən daşındı. Peyğəmbər ﷺ Hudeybiyə sülhü bağlanan günü müşriklərlə döyüşmək mövzusunda da səhabələri ilə məşvərət etmişdi. Əbu Bəkr ﵁ dedi: "Biz döyüşmək üçün deyil, ümrə etmək üçün çıxmışıq". Peyğəmbər ﷺ onun dediyini qəbul edib döyüşdən imtina etdi. Peyğəmbər ﷺ Aişə ﵂ barəsində yalan xəbər yayıldıqda dedi: "Ey müsəlmanlar, ailəmi ittiham edənlər barədə mənə məsləhət verin! Allaha and olsun ki, mən ailəmdən pis bir şey görmədim. Eləcə də ittiham olunan kişidən (Səfvan ibn Muattildən), Allaha and olsun ki, xeyirdən başqa bir şey görməmişəm".[3] Peyğəmbər

[1] Bu rəvayəti İbn Kəsir ﵀ hədis kimi deyil, yadında qalanı mənaca rəvayət etmişdir. Rəvayətin əvvəli "əl-Musnəd" (12047, 12986, 13330, 13739) əsərində Ənəsdən ﵁ rəvayət edilən hədisin mənaca məzmunudur, sonu isə "əl-Musnəd" (3698, 4070, 4376) əsərində İbn Məsuddan ﵁ rəvayət edilən hədisin mənaca məzmunudur. İbn Kəsirin "Tarix" əsərində (3/262-264) bu hadisə təfsilatlı şəkildə qeyd olunmuşdur. Bərkul-Ğiməd Yəməndə yer adıdır. (Əhməd Şakir). əl-Hakim, 5486. əl-Hakim ﵀ demişdir: "Bu hədisin isnadı səhihdir, lakin (əl-Buxari və Muslim) rəvayət etməmişlər". əz-Zəhəbi ﵀ də səhih olduğunu bildirmişdir.

[2] Munzir əl-Xəzrəc qəbiləsindən idi. Bədr və Uhud döyüşlərində iştirak etmişdir. "Birr Məunə" döyüşündə şəhid olmuşdur. İbn Sad (3/2/100-101) demişdir: "Munzir ölmək üçün tələsdi". Həmçinin demişdir: "Bilə-bilə ölümə getdi". (Əhməd Şakir). ət-Təbərani "Mucəmul-Kəbir" 15488.

[3] əl-Buxari (4750), Muslim (58) və ət-Tirmizinin (3180) rəvayət etdiyi uzun hədisin bir hissəsidir. Həmçinin hədis "əl-Musnəd" əsərindədir (6/59). (Əhməd Şakir).

ﷺ Aişədən ayrılıb-ayrılmamaq mövzusunda Əli və Usamə ilə məşvərət etdi. Peyğəmbər ﷺ döyüşlərdə və bu kimi mühüm məsələlərdə səhabələri ilə məşvərət edərdi. Məşvərət etməyin Peyğəmbərə ﷺ vacib və ya səhabələrinin qəlbini sevindirmək məqsədilə müstəhəb olması məsələsində fiqh alimləri ixtilaf edərək iki rəy irəli sürmüşlər.

əl-Hakim rəvayət etmişdir ki, İbn Abbas Uca Allahın "**görəcəyin işlər barədə onlarla məsləhətləş**" ayəsi barəsində demişdir: "Burada Əbu Bəkr və Ömər nəzərdə tutulur". əl-Hakim demişdir: "Hədis əl-Buxari və Muslimin şərtlərinə görə səhihdir, lakin onlar rəvayət etməmişlər".[1]

İmam Əhməd Abdur-Rahmən ibn Ğanəmdən rəvayət etmişdir ki, Peyğəmbər ﷺ Əbu Bəkir və Ömərə dedi: "Əgər siz hər hansısa bir məsələdə eyni fikirdə olsanız, mən sizə müxalif olmaram".[2] İbn Məcə Əbu Hureyradan rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Məşvərət edilən adam etibarlı adam sayılır".[3] Hədisi Əbu Davud və ət-Tirmizi də rəvayət etmişlər. ət-Tirmizi hədisin həsən olduğunu bildirmişdir. ən-Nəsəi hədisi daha geniş rəvayət etmişdir.[4] Həmçinin İbn Məcə Əbu Məsuddan rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Məşvərət edilən adam etibarlı adam sayılır". Bu hədisi yalnız İbn Məcə rəvayət etmişdir.[5]

Uca Allah buyurur: "**Qəti qərara gəldikdə isə Allaha təvəkkül et!**", yəni əgər bir işdə səhabələrlə məşvərət edib qəti bir qərara gəlsən, bu məsələdə Allaha təvəkkül et, çünki "**Həqiqətən, Allah təvəkkül edənləri sevir**".

Uca Allah buyurur: "**Əgər Allah sizə kömək edərsə, heç kəs sizə qalib gələ bilməz. Yox, əgər sizi zəlil edərsə, Ondan sonra kim sizə yardım edə bilər?!**" Bu ayə Uca Allahın "**Zəfər ancaq Qüdrətli və**

[1] əl-Hakim (3/70). əz-Zəhəbi hədisin əl-Buxari və Muslimin şərtlərinə görə səhih olması ilə razılaşmışdır. (Əhməd Şakir). əl-Hakim, 4436.

[2] əl-Musnəd (4/227 Hələbi nəşri). İsnadı səhihdir. (Əhməd Şakir). Əhməd, 17995, 18023. Hədis zəifdir. Bax: Silsilə əd-Daifə, 1008.

[3] İbn Məcə, 3745; Əbu Davud, 5130. Hədis səhihdir. Səhih əl-Cami, 6700.

[4] İbn Məcə (3745), ət-Tirmizi (4/25-26). İbn Kəsirin qeyd etdiyi kimi, ət-Tirmizi hədisin həsən olduğunu bildirməmişdir. Lakin bundan əvvəl (3/274-276) uzun bir hekayənin içində bu hədisi qeyd etmiş və "həsən-səhih-ğarib" olduğunu bildirmişdir. (Əhməd Şakir).

[5] İbn Məcə (3746). əl-Busiri "əz-Zəvaid" əsərində demişdir: "Əbu Məsudun hədisinin sənədi səhihdir. Raviləri etibarlıdır". Həmçinin Əhməd "əl-Musnəd" əsərində (5/274 Hələbi nəşri) rəvayət etmişdir. Əbu Məsud - əl-Bədri, əl-Ənsaridir. Bəzi əlyazmalarda və çaplarda İbn Məsud yazılıb. Bu səhvdir. (Əhməd Şakir). İbn Məcə, 3746. Hədis səhihdir. Səhih əl-Cami, 6700.

**Müdrik Allahdandır**" ("Ali-İmran", 126) ayəsi kimidir. Sonra Uca Allah möminlərə Ona təvəkkül etməyi əmr edərək "**Qoy möminlər Allaha təvəkkül etsinlər!**" buyurur.

Uca Allah buyurur: "**Peyğəmbərə əmanətə xəyanət etmək yaraşmaz**". İbn Abbas, Mucahid və başqaları ﷺ bu ayənin təfsirində demişlər: "Yəni heç bir peyğəmbərə xəyanət etmək yaraşmaz". İbn Əbu Hatim ﷺ İbn Abbasdan ﷺ rəvayət etmişdir ki, Bədr döyüşü günü qənimətdən əldə olunan məxmər bir xalat itmişdi. Bəzi insanlar dedilər: "Ola bilsin ki, onu Allahın Elçisi ﷺ götürüb". Bu səbəblə Uca Allah bu ayəni nazil etdi: "**Peyğəmbərə əmanətə xəyanət etmək yaraşmaz...**".[1] İbn Cərir ﷺ İbn Abbasdan ﷺ rəvayət etmişdir ki, Uca Allahın "**Peyğəmbərə əmanətə xəyanət etmək yaraşmaz...**" ayəsi Bədr döyüşü günü itən qırmızı məxmər xalat barəsində nazil edilmişdir. Bəzi insanlar "Onu Peyğəmbər götürüb" dedilər və bu barədə söz-söhbət çoxaldı. Bu səbəblə Allah ﷻ bu ayəni nazil etdi: "**Peyğəmbərə əmanətə xəyanət etmək yaraşmaz. Əmanətə xəyanət edən kimsə Qiyamət günü xəyanət etdiyi şeylə gələr**".[2] Hədisi Əbu Davud, ət-Tirmizi və ət-Təbəri ﷺ rəvayət etmişlər. ət-Tirmizi ﷺ hədisi "həsən-ğarib" adlandırmışdır. Bəziləri hədisi "mursəl"[3] olaraq rəvayət etmişlər. Oxşar hədis İbn Abbasdan ﷺ bir neçə formada rəvayət edilmişdir. Uca Allah bu ayə ilə Peyğəmbərin ﷺ əmanəti qaytararkən, qəniməti bölərkən və digər bu kimi işlərdə hər növ xəyanətdən uzaq olduğunu bildirir.

əl-Həsən əl-Bəsri, Tavus, Mucahid və əd-Dahhək ﷺ ayəni أَنْ يُغَلَّ [ən yuğallə] "**Heç bir Peyğəmbərə xəyanət olunmaq yaraşmaz**" kimi oxumuşlar. Bəziləri bu qiraəti "Peyğəmbər xəyanətdə ittiham olunmaz" kimi də təfsir etmişlər.[4]

Sonra Uca Allah buyurur: "**Əmanətə xəyanət edən kimsə Qiyamət günü xəyanət etdiyi şeylə gələr**". Bu, güclü təhdid və şiddətli

[1] İbn Əbu Hatim, 4429; əl-Bəzzər, 2198. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 2788.

[2] ət-Təbəri, 8136, 8178; Əbu Davud, 3971, 3973; ət-Tirmizi, 3012. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 2788.

[3] **Mursəl:** Bu kəlmə ( مُرْسَلٌ ) ərəbcə [ərsələ] أَرْسَلَ felinin məchul növündən əmələ gəlmiş feli sifətdir. Bu söz göndərilmiş, yollanmış və s. mənaları ifadə edir (Mucəmul-Vasit, səh. 344). İstilahi mənada isə – bu, o hədisdir ki, isnadının sonunda tabiindən sonra gələn (Peyğəmbərlə ﷺ tabiin arasında olan) ravi buraxılmışdır (Tədrib ər-Ravi, 1/167; Təysir Mustələh əl-Hədis, səh. 71).

[4] Birinci qiraət أَنْ يَغُلَّ [ən yəğullə] "**Peyğəmbərə əmanətə xəyanət etmək yaraşmaz**" İbn Kəsir, Əbu Amr və Asimin ﷺ oxunuşudur. İkinci qiraət isə أَنْ يُغَلَّ [ən yuğallə] "**Heç bir Peyğəmbərə xəyanət olunmaq yaraşmaz**" yerdə qalan yeddi qarilərin oxunuşudur. (Əhməd Şakir).

xəbərdarlıqdır. Əmanətə xəyanətin qadağan olunması barədə çoxsaylı hədislər rəvayət olmuşdur. İmam Əhməd ﷀ Əbu Malik əl-Əşcəidən ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Allah qatında ən böyük xəyanət bir ərəş[1] torpağa xəyanət etməkdir. Torpaqda və ya evdə qonşu olan iki adam görərsiniz. Onlardan biri digərinin hissəsindən bir ərəş öz hissəsinə keçirər. Belə etsə, (öldükdən sonra) Qiyamət gününə qədər yeddi qat torpaq onun boynuna bükülər".[2] Həmçinin İmam Əhməd ﷀ əl-Mustəvrid ibn Şəddəddən ﷺ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Kim bizim bir işimizi üzərinə götürsə, tabeliyində olan maldan evi yoxdursa, ev əldə etsin, arvadı yoxdursa, evlənsin, xidmətçisi yoxdursa, xidmətçi əldə etsin, miniyi yoxdursa minik əldə etsin. Bunlardan başqa bir şey əldə edən əmanətə xəyanət etmiş sayılır".[3] Oxşar hədisi Əbu Davud ﷀ da rəvayət etmişdir.[4]

İbn Cərir ﷀ İbn Abbasdan ﷺ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Sizlərdən birini Qiyamət günü yanında mələyən bir qoyunla gələn görməyim. O adam "Ey Muhəmməd, ey Muhəmməd" deyə çağıracaq. Mən də "Allah qatında sənə heç bir şeylə kömək edə bilmərəm. Mən Allahın hökmünü sənə təbliğ etmişdim" deyəcəyəm. Sizlərdən birini Qiyamət günü yanında nərildəyən bir dəvə ilə gələn görməyim. Adam "Ey Muhəmməd, ey Muhəmməd" deyə çağıracaq. Mən isə "Allah qatında sənə heç bir şeylə kömək edə bilmərəm. Mən Allahın hökmünü sənə təbliğ etmişdim" deyəcəyəm. Sizlərdən birini Qiyamət günü yanında kişnəyən bir atla gələn görməyim. Adam "Ey Muhəmməd, ey Muhəmməd" deyə çağıracaq. Mən isə "Allah qatında sənə heç bir şeylə kömək edə bilmərəm. Mən Allahın hökmünü sənə təbliğ etmişdim" deyəcəyəm. Sizlərdən birini Qiyamət günü yanında quru bir dəri ilə gələn görməyim. O adam da "Ey Muhəmməd, ey Muhəmməd" deyə çağıracaq. Mən isə "Allah qatında sənə heç bir şeylə kömək edə bilmərəm. Mən Allahın hökmünü sənə təbliğ etmişdim" deyəcəyəm". Bu hədisi altı hədis kitablarının müəlliflərindən heç biri rəvayət etməmişlər.[5]

---

[1] Dirsəkdən barmaqların ucuna qədər uzunluqda olan qədim ölçü.

[2] əl-Musnəd (17321). İsnadı səhihdir. (Əhməd Şakir). Əhməd, 17832, 17952. Hədis zəifdir. Bax: Daif əl-Cami, 958. Əbu Malik əl-Əşcəidən ﷺ rəvayət olunan hədis zəif, Əbu Malik əl-Əşaridən ﷺ rəvayət olunan hədis isə həsən-səhihdir. Bax: Səhih ət-Tərğib vət-Tərhib, 1869.

[3] Əhməd, 18044, 18178. Şueyb əl-Arnavut səhih olduğunu bildirmişdir.

[4] əl-Musnəd (4/229 Hələbi nəşri), Əbu Davud (2945), əl-Munziri (2825). (Əhməd Şakir).

[5] ət-Təbəri (8158). İsnadı səhihdir. Hədisi İmam Əhməd ﷀ də rəvayət etməmişdir. (Əhməd Şakir). əl-Bəzzər, 204; ət-Təbəri, 8200. Hədis həsən səhihdir. Bax: Silsilə əs-Səhihə, 2865; Səhih ət-Tərğib vət-Tərhib, 784.

İmam Əhməd ﷺ Əbu Humeyd əs-Saididən ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ Əzd qəbiləsindən İbnul-Lutbiyyə adlanan bir kişini zəkat yığmaqla vəzifələndirmişdi. Kişi zəkat yığmaqdan qayıtdıqda "Bunlar sizindir, bunlar isə mənə hədiyyə edilmişdir" dedi. Peyğəmbər ﷺ bunu bildikdə minbərə çıxdı və dedi: "Zəkat toplamağa göndərdiyimiz məmura nə olub ki, gəlib "Bu sizin, bu da mənə hədiyyə edildi" deyir. Əgər ata-anasının evində otursaydı, baxardı görək ona hədiyyə verən olurdumu? Muhəmmədin canı Əlində Olana and olsun ki, sizlərdən biri zəkat malından bir şey götürsə, Qiyamət günü onu mütləq boynunda gətirəcək. Götürdüyü dəvə olmuşsa, nərildəyərək, inək olmuşsa, böyürərək, qoyun olmuşsa, mələyərək boynunda gətirəcək". Sonra Peyğəmbər ﷺ əllərini yuxarı qaldırdı, hətta qoltuqlarının bəyazlığını gördük və üç dəfə "Allahım, catdırdımmı?"- dedi".[1] Hədisi əl-Buxari və Muslim ﷺ də rəvayət etmişlər.[2]

İmam Əhməd ﷺ Əbu Hureyradan ﷺ rəvayət etmişdir ki, bir dəfə Peyğəmbər ﷺ bizim aramızda ayağa qalxıb əmanətə xəyanət etmək barəsində danışdı və bu əməlin olduqca böyük günah olduğunu vurğulayıb dedi: "Qiyamət günü heç biriniz boynunda nərildəyən bir dəvə ilə gəlib deməsin ki, "Ey Allahın Elçisi, mənə yardım et!" Mən cavabımda ona "Sənə heç bir şeylə yardım edə bilmərəm. Mən Allahın hökmünü sənə təbliğ etmişdim" deyəcəyəm. Yaxud boynunda kişnəyən bir atla gəlib deməsin ki, "Ey Allahın Elçisi, mənə yardım et!" Mən cavabımda ona "Sənə heç bir şeylə yardım edə bilmərəm. Mən Allahın hökmünü sənə təbliğ etmişdim" deyəcəyəm. Yaxud boynunda parıldayan bir paltarla gəlib deməsin ki, "Ey Allahın Elçisi, mənə yardım et!" Mən cavabımda ona "Sənə heç bir şeylə yardım edə bilmərəm. Mən Allahın hökmünü sənə təbliğ etmişdim" deyəcəyəm. Yaxud boynunda qızıl və gümüşlə gəlib deməsin ki, "Ey Allahın Elçisi, mənə yardım et!" Mən cavabımda ona "Sənə heç bir şeylə yardım edə bilmərəm. Mən Allahın hökmünü sənə təbliğ etmişdim" deyəcəyəm".[3] Hədisi əl-Buxari və Muslim ﷺ rəvayət etmişlər.[4]

---

[1] Əhməd, 23598, 23646, 23996. Hədis səhihdir. Bax: İrvaul-Ğalil, 3/364.

[2] əl-Musnəd (5/423-424 Hələbi nəşri), əl-Buxari (13/144-146 Fəthul-Bari), Muslim (2/83-84), ət-Tabəri (8159-8161). (Əhməd Şakir). əl-Buxari, 2597, 6464, 6979; Muslim, 3414.

[3] Əhməd, 9503, 9499. Hədis səhihdir. Bax: Səhih əl-Cami, 7173.

[4] əl-Musnəd (9499), əl-Buxari (6/129 Fəthul-Bari), Muslim (2/83), ət-Tabəri (8155-8157). (Əhməd Şakir). Muslim, 3412, 4839.

İmam Əhməd ﷫ Adiy ibn Umeyra əl-Kindidən ﷠ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Ey insanlar, kim bizim üçün bir iş görər və işi yerinə yetirərkən iynə və ya bundan daha kiçik bir şey gizlədərsə, etdiyi bu əməl əmanətə xəyanətdir və Qiyamət günü onunla gələcəkdir". Ənsardan olan bir kişinin qalxıb belə dediyi indi də gözümdə canlanır: "Ey Allahın Elçisi, mənə tapşırdığınız işi təhvil alın!" Peyğəmbər ﷺ "Nə olub ki?" deyə soruşdu. Kişi dedi: "Mən sənin belə-belə dediyini eşitdim". Peyğəmbər ﷺ dedi: "Mən indi də bunu deyirəm. Kimə bir iş tapşırırıqsa, bu işdən əldə etdiyinin azını da gətirsin, çoxunu da. Bundan ona veriləni götürsün, verilməyəni tərk etsin".[1] Hədisi Muslim və Əbu Davud ﷫ da bu şəkildə rəvayət etmişlər.[2] Amr ibn Şueyb atasından, o da Şueybin babasından ﷠ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Bir iynə və ya sap olsa belə, əmanəti qaytarın, çünki əmanətə xəyanət Qiyamət günü sahibi üçün utanc, od və rüsvayçılıqdır".[3]

İmam Əhməd ﷫ Ömər ibn əl-Xattabın ﷠ belə dediyini rəvayət etmişdir: "Xeybər döyüşündə səhabələrdən bəziləri gəlib "Filankəs şəhiddir, filankəs şəhiddir..." dedilər. Nəhayət, döyüşdə ölmüş bir kişiyə çatıb "Filankəs şəhiddir" deyəndə, Peyğəmbər ﷺ buyurdu: "Xeyr! Mən onun qənimətdən izinsiz olaraq götürdüyü bürüncəyə (yaxud əbaya) görə odda yandığını gördüm". Sonra Peyğəmbər ﷺ "Ey Xəttabın oğlu! Qalx camaata elan et ki, Cənnətə yalnız möminlər girəcəklər!" deyə buyurdu. Mən də qalxıb camaata elan edib dedim: "Cənnətə yalnız möminlər girəcək!"[4] Bu hədisi Muslim və ət-Tirmizi ﷫ də rəvayət etmişlər. ət-Tirmizi ﷫ hədisin "həsən-səhih" olduğunu bildirmişdir.[5]

Əbu Davud ﷫ Abdullah ibn Amrdan ﷠ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ bir döyüşdə qənimət əldə etdikdə camaata əllərində olan qənimətləri gətirmələrini elan etmək üçün Bilala tapşırıq verərdi. Bilal da camaata götürdükləri qənimətləri gətirmələrini elan edərdi. Camaat qənimətləri gətirdikdə Peyğəmbər ﷺ bu qənimətlərin beşdə birini götürüb qalanını döyüşçülər arasında paylayırdı. Bilalın camaata

---

[1] Əhməd, 17723, 17753, 17759. Şueyb əl-Arnavut isnadının Muslimin şərtinə görə səhih olduğunu bildirmişdir.

[2] əl-Musnəd (4/192 Hələbi nəşri), Muslim (2/84-85). (Əhməd Şakir). Muslim, 3415, 4848; Əbu Davud, 3583.

[3] İbn Kəsir ﷫ hədisi bu şəkildə - əmanət sahibini qeyd etmədən rəvayət etmişdir. Hədisin mənası uzun bir hədisdən bir hissədir. Hədisi Əhməd "əl-Musnəd" əsərində (6729) rəvayət etmişdir. İsnadı səhihdir. (Əhməd Şakir). ən-Nəsəi "Sunənul-Kubra" 6482, əl-Beyhəqi "Sunənul-Kubra" 17988, 18674. Şueyb əl-Arnavut həsən olduğunu bildirmişdir.

[4] Əhməd, 203, 328; Muslim, 165, 323.

[5] əl-Musnəd (203, 328), Muslim (1/43). (Əhməd Şakir).

səslənməsindən sonra bir kişi tükdən hazırlanmış bir cilov gətirdi və dedi: "Ey Allahın Elçisi, bu bizim ələ keçirdiyimiz qənimətdir". Peyğəmbər ﷺ soruşdu: "Sən Bilalı üç dəfə elan edərkən eşitmədinmi?" O da "Bəli, eşitdim" dedi. Peyğəmbər ﷺ "Onu vaxtında gətirmənə sənə nə mane oldu?" deyə soruşdu. Kişi Peyğəmbərə ﷺ üzrxahlıq etdi, amma Peyğəmbər ﷺ dedi: "Xeyr, sən bunu Qiyamət günü özünlə gətirəcəksən, indi bunu səndən qəbul etməyəcəyəm".[1]

Uca Allah buyurur: "**Allahın rizasını qazanmağa can atan kəs Allahın qəzəbinə gələn və gedəcəyi yer Cəhənnəm olan kəs kimi ola bilərmi? Ora nə pis qayıdış yeridir!**", yəni Allahın qoyduğu qanunlara əməl etməklə Onun razılığını qazanmağa çalışan, Allahın rizasına və savabına layiq olub şiddətli əzabından xilas edilən kəslə Allahın qəzəbinə layiq olan və ona düçar olan kəs eyni ola bilməz. O bu qəzəbdən xilas ola bilməyəcək, Qiyamət günü isə gedəcəyi yer Cəhənnəm olacaq. Ora nə pis qayıdış yeridir! Quranda buna bənzər ayələr çoxdur. Məsələn, Uca Allahın bu ayələri kimi: "**Rəbbindən sənə nazil edilənin haqq olduğunu bilən kimsə, kora bənzəyə bilərmi?**" ("ər-Rəd", 19); "**Məgər verdiyimiz gözəl bir vədə** (Cənnətə) **qovuşan kimsə, dünya həyatının keçici zövqünü bəxş etdiyimiz, sonra da Qiyamət günü Cəhənnəmə gətiriləcək kimsə ilə eyni ola bilər?**" ("əl-Qasas", 61).

Sonra Uca Allah buyurur: "**Onlar Allah yanında ayrı-ayrı dərəcələrdə olacaqlar**". əl-Həsən əl-Bəsri və Muhəmməd ibn İshaq ﷺ ayəni belə açıqlamışlar: "Xeyir sahibləri də, şər sahibləri də ayrı-ayrı dərəcələrdə olacaqlar". Əbu Ubeydə və əl-Kisəi ﷺ demişlər: "Yerləri eyni deyildir. Yəni Cənnətdəki üst dərəcələri və Cəhənnəmdəki alt təbəqələri eyni deyildir. Necə ki başqa bir ayədə buyurur: "**Hər kəsin etdiyi əməllərə görə dərəcələri vardır**" ("əl-Ənam", 132). Burada isə "**Allah onların nə etdiklərini görür!**" buyurur. Yəni etdiklərinin əvəzini tam olaraq onlara verəcək. Xeyir əməl edənlərin xeyrini azaldaraq, şər əməl edənlərin isə etdikləri şəri artıraraq onlara zülm etməyəcək, əksinə, hər kəsə etdiyi əməlinə görə əvəzini verəcəkdir.

Uca Allah buyurur: "**Allah möminlərə onların öz içərisindən Elçi göndərməklə lütf göstərdi**", yəni müraciət edib sual soruşa bilmələri, birlikdə oturub faydalana bilmələri üçün onlara öz içlərindən bir Peyğəmbər göndərmişdir. Burada "**öz içərisindən**" dedikdə növ (bəşər) nəzərdə tutulur. Necə ki başqa bir ayədə Uca Allah buyurur:

[1] Əbu Davud (2712), əl-Musnəd (6996), İbn Hibbanın "Səhih" əsəri (7/147 əl-İhsan əlyazması), əl-Hakim (2/139). əl-Hakim ﷺ hədisin səhih olduğunu bildirmişdir. (Əhməd Şakir). Əbu Davud, 2714. Hədis həsəndir. Bax: Səhih ət-Tərğib vət-Tərhib, 1348.

"**Ünsiyyətdə rahatlıq tapasınız deyə sizin üçün özünüzdən zövcələr yaratması, aranıza məhəbbət və mərhəmət salması da Onun dəlillərindəndir**" ("ər-Rum", 21). Yəni sizinlə eyni növdən olan zövcələr yaratdı. Başqa bir ayələrdə buyurur: "**De: "Mən də sizin kimi bir insanam. Mənə vəhy olunur ki, sizin məbudunuz Tək olan İlahdır**" ("əl-Kəhf", 110); "**Səndən öncəki elçilərimiz də yemək yeyər, bazarları gəzib dolanardılar**" ("əl-Furqan", 20); "**Biz səndən əvvəl də məmləkət əhlindən yalnız özlərinə vəhy etdiyimiz kişilərdən elçi göndərdik**" ("Yusuf", 109); "**Ey cin və insan tayfası! Məgər sizə öz içərinizdən ayələrimi xəbər verən və bu gününüzlə qarşılaşacağınız barədə sizə xəbərdarlıq edən elçilər gəlmədimi?**" ("əl-Ənam", 130). Uca Allahın peyğəmbərləri göndərdiyi ümmətlərin öz növündən etməsi böyük bir nemətdir. Belə ki bu onlara peyğəmbərlə ünsiyyət qurub ona müraciət etməyə və Allahın kəlamını daha yaxşı başa düşməyə imkan verir. Bu səbəbdən Uca Allah ayədə buyurur: "**Bu Elçi onlara Allahın ayələrini oxuyur**", yəni Quranı oxuyur, "**onları günahlardan təmizləyir**", yəni onlara yaxşı işləri əmr edib pis işlərdən çəkindirməklə qəlblərinə bulaşmış olan şirk və cahiliyyət etiqadları kimi pislik və çirkinliklərdən təmizləyir, "**onlara Kitabı və hikməti öyrədir**", yəni onlara Quran və Sünnəni (hədisləri) öyrədir. "**Halbuki bundan öncə**", yəni bu Peyğəmbər ﷺ göndərilməmişdən öncə "**onlar açıq-aydın azğınlıq içərisində idilər**", yəni hər kəsə açıq-aydın bəlli olan bir azğınlıq və cəhalət içərisində idilər.

﴿ أَوَلَمَّآ أَصَٰبَتۡكُم مُّصِيبَةٞ قَدۡ أَصَبۡتُم مِّثۡلَيۡهَا قُلۡتُمۡ أَنَّىٰ هَٰذَاۖ قُلۡ هُوَ مِنۡ عِندِ أَنفُسِكُمۡۗ إِنَّ ٱللَّهَ
عَلَىٰ كُلِّ شَيۡءٖ قَدِيرٞ ١٦٥ وَمَآ أَصَٰبَكُمۡ يَوۡمَ ٱلۡتَقَى ٱلۡجَمۡعَانِ فَبِإِذۡنِ ٱللَّهِ وَلِيَعۡلَمَ ٱلۡمُؤۡمِنِينَ ١٦٦ وَلِيَعۡلَمَ ٱلَّذِينَ
نَافَقُواْۚ وَقِيلَ لَهُمۡ تَعَالَوۡاْ قَٰتِلُواْ فِي سَبِيلِ ٱللَّهِ أَوِ ٱدۡفَعُواْۖ قَالُواْ لَوۡ نَعۡلَمُ قِتَالٗا لَّٱتَّبَعۡنَٰكُمۡۗ هُمۡ لِلۡكُفۡرِ يَوۡمَئِذٍ
أَقۡرَبُ مِنۡهُمۡ لِلۡإِيمَٰنِۚ يَقُولُونَ بِأَفۡوَٰهِهِم مَّا لَيۡسَ فِي قُلُوبِهِمۡۚ وَٱللَّهُ أَعۡلَمُ بِمَا يَكۡتُمُونَ ١٦٧ ٱلَّذِينَ قَالُواْ
لِإِخۡوَٰنِهِمۡ وَقَعَدُواْ لَوۡ أَطَاعُونَا مَا قُتِلُواْۗ قُلۡ فَٱدۡرَءُواْ عَنۡ أَنفُسِكُمُ ٱلۡمَوۡتَ إِن كُنتُمۡ صَٰدِقِينَ ١٦٨ ﴾

**165. Başınıza bir müsibət gəldiyi zaman, halbuki siz onların başına ikiqat müsibət gətirmişdiniz: "Bu haradan gəldi?"– söylədiniz. De: "Bu sizin özünüzdəndir!" Həqiqətən, Allah hər şeyə qadirdir.**
**166. Uhudda iki qoşunun üz-üzə gəldiyi gün sizə üz vermiş müsibət Allahın izni ilə oldu ki, möminləri aşkara çıxartsın**
**167. və münafiqləri bəlli etsin. Münafiqlərə "Gəlin, Allah yolunda**

**döyüşün, yaxud, heç olmasa, müdafiədə durun!" deyildi. Onlar: "Döyüş olacağını bilsəydik, sizin ardınızca gələrdik"- dedilər. Onlar o gün imandan çox küfrə yaxın idilər. Onlar qəlblərində olmayanı ağızları ilə deyirlər. Halbuki Allah onların nəyi gizlətdiklərini çox yaxşı bilir.**

**168. Evlərində oturub öz qardaşları barəsində "Əgər onlar bizə itaət etsəydilər, öldürülməzdilər" söyləyənlərə de: "Əgər doğru danışırsınızsa, onda ölümü özünüzdən uzaqlaşdırın!"**

Uca Allah buyurur: "**Başınıza bir müsibət gəldiyi zaman**"- bu müsibət Uhud döyüşündə onlardan yetmiş nəfərin öldürülməsi idi "**halbuki siz onların başına ikiqat müsibət gətirmişdiniz**", yəni Bədr döyüşündə müşriklərdən yetmiş nəfəri öldürmüş, bir o qədərini də əsir almışdılar. **"Bu haradan gəldi?" söylədiniz**", yəni başımıza bu müsibət haradan gəldi? "**De: "Bu sizin özünüzdəndir!"** İbn Əbu Hatim ﷺ Ömər ibn əl-Xattabın ﷺ belə dediyini rəvayət etmişdir: "Bədr döyüşünün növbəti ili Uhud döyüşündə müsəlmanlar Bədr döyüşündə (əsir alınanların müqabilində) fidyə aldıqları üçün cəzalandırıldılar. Belə ki müsəlmanlardan yetmiş kişi öldürüldü, Peyğəmbərin ﷺ səhabələri onu qoyub qaçdılar, onun ön dişlərindən biri və başındakı dəbilqəsi qırıldı, üzünə də qan axdı. Uca Allah da bu ayəni nazil etdi: "**Başınıza bir müsibət gəldiyi zaman, halbuki siz onların başına ikiqat müsibət gətirmişdiniz: "Bu haradan gəldi?" söylədiniz. De: "Bu sizin özünüzdəndir!"**, yəni Bədr döyüşündə fidyə almağınıza görədir".[1] İmam Əhməd ﷺ hədisi bu şəkildə, lakin daha uzun mətnlə rəvayət etmişdir.[2] əl-Həsən əl-Bəsri ﷺ də belə demişdir. Muhəmməd ibn İshaq, İbn Cureyc və əs-Suddi ﷺ belə demişlər: "Uca Allahın: "**De: "Bu sizin özünüzdəndir!"** ayəsi Uhud döyüşündəki oxçular barəsindədir. Yəni Peyğəmbər ﷺ sizə yerinizi tərk etməməyi əmr etdiyi zaman sizin onun əmrinə asi olub yerinizi tərk etməyiniz səbəbindəndir. "**Həqiqətən, Allah hər şeyə qadirdir**", yəni Allah istədiyini edir, istədiyi kimi hökm verir. Onun hökmünü ləğv edən olmaz.

Sonra Uca Allah buyurur: "**Uhudda iki qoşunun üz-üzə gəldiyi gün sizə üz vermiş müsibət Allahın izni ilə oldu**", yəni sizin düşmən qarşısından qaçmağınız, onların sizdən bəzilərini öldürməsi, bəzilərini isə yaralaması Allahın qəza və qədəri ilə baş verdi və bunda bir hikmət

[1] Əhməd, 208. Şueyb əl-Arnavut isnadının həsən olduğunu bildirmişdir.

[2] Hədis "əl-Musnəd" əsərində (208) rəvayət olunan uzun hədisin bir hissəsidir. (Əhməd Şakir).

vardır. "...**möminləri aşkara çıxartsın**", yəni bu hadisə möminlərdən səbir göstərib sabit olanları və sarsılmayanları bildirmək üçün idi, "**və münafiqləri bəlli etsin. Münafiqlərə "Gəlin Allah yolunda döyüşün, yaxud, heç olmasa, müdafiədə durun!" deyildi. Onlar "Döyüş olacağını bilsəydik, sizin ardınızca gələrdik" dedilər**" – bu ayədə Abdullah ibn Ubey ibn Səlul və yolda ona tabe olaraq geri dönən yoldaşları nəzərdə tutulur. Möminlərdən bəziləri onların arxasınca gedib onları geri (Peyğəmbərin ﷺ yanına) dönməyə, döyüşə və müsəlmanlara yardım etməyə təşviq etmişlər, onlara "**yaxud, heç olmasa, müdafiədə durun!**" demişlər. İbn Abbas, İkrimə və Səid ibn Cubeyr bunu belə təfsir etmişlər: "Yəni, heç olmasa, müsəlmanların sayını artırın". Onlar isə bəhanə gətirərək "**Döyüş olacağını bilsəydik, sizin ardınızca gələrdik" dedilər**". Mucahid demişdir: "Yəni düşmənlə qarşılaşıb döyüşəcəyinizi bilsəydik, gələrdik, lakin siz düşmənlə qarşılaşmayacaqsınız və döyüşməyəcəksiniz".

Muhəmməd ibn İshaq bir çox tabiindən rəvayət etmişdir ki, Peyğəmbər ﷺ Uhud döyüşü günü min nəfər səhabəsi ilə birlikdə yola çıxmışdı. əş-Şavt (Mədinə ilə Uhud arasında bir yer) deyilən yerə gəlib çatdıqda Abdullah ibn Ubey ibn Səlul qoşunun üçdə biri ilə ayrılaraq "Peyğəmbər onların (səhabələri nəzərdə tutur) dediyini edib döyüşə çıxdı, mənim dediyimi etmədi. Ey insanlar, Allaha and olsun ki, bilmirəm özümüzü burada həlak etməyin mənası nədir?" dedi və ona tabe olan münafiq və şübhəyə düşənlərlə birlikdə geri döndü. Bənu Sələmə qəbiləsindən olan Abdullah ibn Amr ibn Haram onların arxasınca getdi və onlara "Ey insanlar, sizi Allaha and verirəm, düşmənlə qarşılaşacağmız bir ərəfədə Peyğəmbərinizi və qövmünüzü köməksiz vəziyyətdə qoymayın!" Onlar isə "Əgər döyüşəcəyinizi bilsəydik sizi tərk etməzdik, lakin biz döyüşün baş tutacağını sanmırıq" dedilər. Abdullah ibn Amr ibn Haram onların ona qarşı çıxıb getməyə qərar verdiklərini gördükdə "Allahın düşmənləri, Allah sizi uzaqlaşdırsın! Allah bizi sizə möhtac etməyəcək!" dedi. Beləliklə, Peyğəmbər ﷺ öz yoluna davam etdi".[1]

Uca Allah buyurur: "**Onlar o gün imandan çox küfrə yaxın idilər**". Alimlər bu ayənin insanın halının dəyişə biləcəyinə, bəzən küfrə yaxın bir halda, bəzən də imana yaxın bir halda ola biləcəyinə dəlil olduğunu demişlər.

[1] Hədis mursəldir. ət-Tabəri (8193). (Əhməd Şakir). İbn İshaq "əs-Sira" 3/304; ət-Tabəri, 8193, 8236.

Sonra belə buyurur: "**Onlar qəlblərində olmayanı ağızları ilə deyirlər**", yəni dedikləri sözün doğru olduğuna özləri də inanmırlar. Onlar "**Döyüş olacağını bilsəydik, sizin ardınızca gələrdik**" deyirdilər. Lakin əminliklə bilirdilər ki, müşriklərdən ibarət bir ordu uzaq bir diyardan gəlmişdir və onlar Bədr döyüşündə adlı-sanlı adamlarının öldürülməsinə görə müsəlmanlardan qisas almaq arzusu ilə alovlanırlar. Onlar sayca müsəlmanlardan qat-qat artıqdırlar və mütləq aralarında döyüş baş verəcəkdir. Bu səbəbdən Uca Allah ayənin sonunda "**Halbuki Allah onların nəyi gizlətdiklərini çox yaxşı bilir**" buyurur.

Uca Allah buyurur: "**Evlərində oturub öz qardaşları barəsində "Əgər onlar bizə itaət etsəydilər, öldürülməzdilər" söyləyənlərə**", yəni əgər bizim Mədinədə qalıb döyüşə çıxmamaq məsləhətimizə qulaq assaydılar, öldürülməzdilər. Uca Allah onlara cavab olaraq buyurur: "**De: "Əgər doğru danışırsınızsa, onda ölümü özünüzdən uzaqlaşdırın!"**, yəni madam ki, döyüşə çıxmayıb evdə oturmaq insanı ölümdən və öldürülməkdən qurtarır, o halda siz heç vaxt ölməməlisiniz. Halbuki əlçatmaz qalalarda olsanız belə, ölüm mütləq sizi haqlayacaq. Əgər doğru danışırsınızsa, onda ölümü özünüzdən uzaqlaşdırın. Mucahid رَحِمَهُ ٱللَّهُ Cabir ibn Abdullahdan رَضِيَ ٱللَّهُ عَنۡهُمَا bu ayənin Abdullah ibn Ubey ibn Səlul barədə nazil olduğunu rəvayət etmişdir.

﴿وَلَا تَحۡسَبَنَّ ٱلَّذِينَ قُتِلُواْ فِي سَبِيلِ ٱللَّهِ أَمۡوَٰتَۢاۚ بَلۡ أَحۡيَآءٌ عِندَ رَبِّهِمۡ يُرۡزَقُونَ ١٦٩ فَرِحِينَ بِمَآ ءَاتَىٰهُمُ
ٱللَّهُ مِن فَضۡلِهِۦ وَيَسۡتَبۡشِرُونَ بِٱلَّذِينَ لَمۡ يَلۡحَقُواْ بِهِم مِّنۡ خَلۡفِهِمۡ أَلَّا خَوۡفٌ عَلَيۡهِمۡ وَلَا هُمۡ يَحۡزَنُونَ
١٧٠ ۞ يَسۡتَبۡشِرُونَ بِنِعۡمَةٖ مِّنَ ٱللَّهِ وَفَضۡلٖ وَأَنَّ ٱللَّهَ لَا يُضِيعُ أَجۡرَ ٱلۡمُؤۡمِنِينَ ١٧١ ٱلَّذِينَ
ٱسۡتَجَابُواْ لِلَّهِ وَٱلرَّسُولِ مِنۢ بَعۡدِ مَآ أَصَابَهُمُ ٱلۡقَرۡحُۚ لِلَّذِينَ أَحۡسَنُواْ مِنۡهُمۡ وَٱتَّقَوۡاْ أَجۡرٌ عَظِيمٌ ١٧٢
ٱلَّذِينَ قَالَ لَهُمُ ٱلنَّاسُ إِنَّ ٱلنَّاسَ قَدۡ جَمَعُواْ لَكُمۡ فَٱخۡشَوۡهُمۡ فَزَادَهُمۡ إِيمَٰنٗا وَقَالُواْ حَسۡبُنَا ٱللَّهُ وَنِعۡمَ
ٱلۡوَكِيلُ ١٧٣ فَٱنقَلَبُواْ بِنِعۡمَةٖ مِّنَ ٱللَّهِ وَفَضۡلٖ لَّمۡ يَمۡسَسۡهُمۡ سُوٓءٞ وَٱتَّبَعُواْ رِضۡوَٰنَ ٱللَّهِۗ وَٱللَّهُ ذُو فَضۡلٍ
عَظِيمٍ ١٧٤ إِنَّمَا ذَٰلِكُمُ ٱلشَّيۡطَٰنُ يُخَوِّفُ أَوۡلِيَآءَهُۥ فَلَا تَخَافُوهُمۡ وَخَافُونِ إِن كُنتُم مُّؤۡمِنِينَ ١٧٥﴾

**169. Allah yolunda öldürülənləri əsla ölü sanma. Əksinə, onlar diridirlər; özlərinin Rəbbi yanında onlara ruzi verilir.**

**170. Onlar Allahın Öz lütfündən onlara verdiyi nemətə fərəhlənir, arxalarınca gəlib hələ onlara çatmamış kəslərin heç bir qorxu ilə qarşılaşmayacaqları və kədərlənməyəcəkləri müjdəsinə sevinirlər.**
**171. Onlar Allahın neməti və lütfünə görə, həm də Allahın möminlərin mükafatını heçə çıxarmayacağı müjdəsinə sevinirlər.**
**172. Yara aldıqdan sonra belə Allahın və Onun Rəsulunun dəvətini qəbul edən kimsələrdən yaxşı işlər görənlər və Allahdan qorxanlar üçün böyük bir mükafat vardır.**
**173. O kəslər ki bəzi adamlar onlara "Camaat sizə qarşı ordu toplayıb, onlardan qorxun!" dedikdə, bu söz onların imanını daha da artırdı və onlar: "Allah bizə yetər. O nə gözəl Qoruyandır!" dedilər.**
**174. Beləcə, özlərinə heç bir pislik toxunmadan, Allahın neməti və lütfü sayəsində geri döndülər və beləliklə də, Allahın rizasına uydular. Allah böyük lütf sahibidir.**
**175. Şeytan sizi, sadəcə, öz dostları ilə qorxudur. Möminsinizsə, onlardan qorxmayın, Məndən qorxun!**

Uca Allah bu ayələrdə şəhidlərin bu dünyada öldürüldüklərinə baxmayaraq, ruhlarının əbədi qərar tutulacaq yurdda – Cənnətdə diri olduqlarını və Rəbləri tərəfindən onlara ruzi verildiyini bildirir. İbn Cərir ﷺ İbn İshaq ibn Əbu Talhədən, o da Ənəs ibn Malikdən ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ Məunə quyusunun sahiblərinin yanına səhabələrindən bir dəstə göndərdi. Bilmirəm, dəstədə qırx nəfər var idi, yoxsa yetmiş nəfər. Quyunun böyüyü Amr ibn Tufeyl Cəfəri idi. Səhabələr gəlib quyuların yanında yerləşən mağarada dayandılar və öz aralarında dedilər: "Kim Peyğəmbərin ﷺ məktubunu quyunun sahiblərinə çatdırar?" Əbu Milhan əl-Ənsari dedi: "Mən Peyğəmbərin ﷺ məktubunu onlara çatdıraram". O, məktubu götürüb quyu sahiblərinin yaşadığı məhəlləyə gəldi, evlərinin qarşısında yerə oturub dedi: "Ey quyu sahibləri! Mən Peyğəmbərin ﷺ sizə göndərdiyi elçisiyəm. Mən şəhadət verirəm ki, Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur və Muhəmməd Onun qulu və elçisidir. Siz də Allaha və Onun Elçisinə iman gətirin!" Bu dəmdə evlərin birindən bir nəfər çıxıb əlindəki nizə ilə onu vurdu. Nizə onun bir yanından girib digər tərəfindən çıxdı. O "Allah Ən Böyükdür! Kəbənin Rəbbinə and olsun ki, mən uğur qazandım!" deyib yoldaşlarının yanına qayıtdı. Amr ibn Tufeyl və onun tərəfdarları səhabənin izinə düşüb mağaraya gəldilər

və orada olan səhabələrin hamısını öldürdülər”. Ənəs ibn Malik ﵁ dedi: “Uca Allah onlar barədə Quran ayəsi nazil etdi: “Qövmümüzə çatdırın ki, artıq biz Rəbbimizlə görüşdük. Rəbbimiz bizdən, biz də Ondan razıyıq”. Biz bir müddət bu ayəni oxuduqdan sonra Uca Allah onu nəsx (oxunuşunu ləğv) edib bu ayələri nazil etdi: “**Allah yolunda öldürülənləri əsla ölü sanma. Əksinə, onlar diridirlər; özlərinin Rəbbi yanında onlara ruzi verilir**”.[1]

Muslim ﵀ rəvayət edir ki, Məsruq ﵀ belə demişdir: “Biz Abdullahdan (İbn Məsuddan) bu ayənin təfsirini soruşduq: “**Allah yolunda öldürülənləri əsla ölü sanma. Əksinə, onlar diridirlər; özlərinin Rəbbi yanında onlara ruzi verilir**”. Abdullah dedi: “Biz də bu ayə barədə Peyğəmbərdən ﷺ soruşmuşduq. Peyğəmbər ﷺ belə buyurdu: “Şəhidlərin ruhları yaşıl bir quşun qarnındadır. Bu quşların Ərşdən asılmış qəndilləri (asma çıraqları) vardır. Onlar Cənnətdə istədikləri yerlərə uçur, sonra bu qəndillərə dönürlər. Rəbləri onlara baxıb “Bir şey istəyirsinizmi?” deyə soruşur. Onlar cavabında “Ey Rəbbimiz! Bundan artıq nə istəyək ki, Cənnətdə istədiyimiz yerə uça bilirik” deyirlər. Uca Allah bunu onlardan üç dəfə soruşur. Onlar bir şey istəməyincə yenə soruşulacaqlarını gördükdə “Ey Rəbbimiz, bizim ruhlarımızı cəsədlərimizə qaytar ki, sənin yolunda vuruşaq və bir daha öldürülək”. Uca Allah onların heç bir şeyə ehtiyacları olmadığını gördükdə daha onlardan bunu soruşmadı”.[2] Oxşar hədis Ənəs və Əbu Səiddən ﵄ də rəvayət edilmişdir.

İmam Əhməd ﵀ Ənəsdən ﵁ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: “Şəhidlər istisna olmaqla, Allah qatında xeyir əməli olan elə bir kəs yoxdur ki, öldükdən sonra dünyaya dönməyi arzulasın. Çünki şəhid şəhidliyin kəramətini (fəzilətini) gördükdən sonra dünyaya dönərək bir daha (Allah yolunda) öldürülməyi arzu edər”.[3] Bu hədisi yalnız Muslim ﵀ rəvayət etmişdir.[4]

[1] Hədisi ət-Təbəri ﵀ təfsir kitabında (8224) və “ət-Tarix” əsərində (3/36) yaxşı isnadla rəvayət etmişdir. Hədisin isnadı səhihdir. Hədisi bu mətnlə yalnız ət-Təbəri ﵀ rəvayət etmişdir. Lakin mənası bir çox yollarla Ənəsdən ﵁ rəvayət olunur. Bax: “Musnəd” (12429, 132228, 14119), əl-Buxari (7/298-299), İbn Sədin “Tabəqat” əsəri (3/2/71-72). Hadisənin təfsilatı İbn Kəsirin “Tarix” əsərindədir (4/71-74). (Əhməd Şakir). ət-Təbəri, 8268-8269; əs-Sirac “Musnəd” 1314; Əhməd, 13195, 13218, 13227. Şueyb əl-Arnavut isnadının əl-Buxari və Muslimin şərtlərinə görə səhih adlandırmışdır.

[2] Muslim (2/98). Bu mənada hədis “əl-Bəqərə” surəsinin 153-154-cü ayələrinin təfsirində keçmişdir. (Əhməd Şakir). Muslim, 3500, 4993.

[3] Əhməd, 12273, 12295. Hədis səhihdir. Bax: Səhih əl-Cami, 5792.

[4] “Musnəd” (2388, 2389). Muslim (2/96). (Əhməd Şakir).

əl-Buxari ﷺ Cabir ibn Abdullahın ﷺ belə dediyini rəvayət etmişdir: "Atam (Uhud döyüşündə) öldürüldükdə üzündəki örtüyü açaraq ağlamağa başladım. Peyğəmbərin ﷺ səhabələri məni belə etməyə qoymadılar. Peyğəmbər ﷺ isə belə etməyimi qadağan etməyərək "Ona görə ağlama! O, qaldırılana qədər mələklər qanadları ilə ona kölgə salırdılar"- dedi".[1] Oxşar hədisi Muslim və ən-Nəsəi ﷺ də rəvayət etmişlər.

İmam Əhməd ﷺ İbn Abbasdan ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Qardaşlarınız Uhud döyüşündə şəhid olduqda Uca Allah onların ruhlarını yaşıl quşların içinə yerləşdirdi. Bu quşlar Cənnət çaylarının yanına gəlir, Cənnət meyvələrindən yeyir və Ərşin kölgəsində yerləşdirilmiş qızıl çıraqların yanına qayıdırlar. Yemək-içməklərinin və döndükləri yurdun nə qədər gözəl olduğunu gördükləri zaman deyirlər: "Kaş ki qardaşlarımız Allahın bizə bəxş etdiyi bu nemətlərdən xəbər tutaydılar və Allah yolunda döyüşməyi tərk etməyəydilər, döyüşdən qaçmayaydılar". Qüdrət və qüvvət sahibi olan Allah da "Mən sizin dediklərinizi onlara bildirərəm!" dedi və Öz elçisinə ﷺ bu ayələri "**Allah yolunda öldürülənləri əsla ölü sanma. Əksinə, onlar diridirlər; özlərinin Rəbbi yanında onlara ruzi verilir**" və bundan sonrakı ayələri nazil etdi".[2] Hədisi İbn Cərir, Əbu Davud və əl-Hakim ﷺ də rəvayət etmişlər.[3]

İmam Əhməd ﷺ İbn Abbasdan ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Şəhidlər Cənnət qapısında axan bir çayın kənarında, yaşıl bir qübbənin altındadırlar. Onlar üçün səhər-axşam Cənnətdən ruzi göndərilir".[4] Hədisi yalnız İmam Əhməd ﷺ rəvayət etmişdir. Hədisin isnadı yaxşıdır. Eyni hədisi ət-Təbəri ﷺ də rəvayət etmişdir.[5]

Hədislərdən aydın olur ki, şəhidlər iki qisimdir. Bir qisminin ruhları Cənnətdə gəzib-dolaşır, bir qisminin ruhları isə Cənnət qapısındakı bu çayın kənarındadır. Ola bilsin, Cənnətdə gəzib-dolaşmaları bu çayda başa çatır və sonda burada toplaşırlar. Beləcə orada onlara gecə-gündüz ruzilər gətirilir. Ən doğrusunu isə Allah bilir.

---

[1] əl-Buxari, 3771, 4080.

[2] Əhməd, 2388. Şueyb əl-Arnavut həsən olduğunu bildirmişdir.

[3] "Musnəd" (2388, 2389), Əbu Davud (2520), ət-Təbəri (8205), əl-Hakim (2/297-298). əl-Hakim hədisin Muslimin şərtinə görə səhih olduğunu bildirmiş, əz-Zəhəbi də bununla razılaşmışdır. (Əhməd Şakir).

[4] Əhməd, 2390. Hədis həsəndir. Bax: Səhih əl-Cami, 3742.

[5] "Musnəd" (2390), ət-Təbəri (2323, 8209, 8213). Həmçinin İbn Hibban "Səhih" əsərində (7/69 İhsan əlyazması) və əl-Hakim (2/74) rəvayət etmişlər. əl-Hakim hədisin Muslimin şərtinə görə səhih olduğunu bildirmiş, əz-Zəhəbi də bununla razılaşmışdır. (Əhməd Şakir).

İmam Əhmədin "Musnəd" əsərində rəvayət edilən bir hədis hər mömin üçün müjdədir. Bu hədisdə bildirilir ki, bütün möminlərin ruhları Cənnətdə gəzir, Cənnət meyvələrindən yeyir, onun gözəlliklərini görür və sevinirlər. Allahın onlar üçün hazırladığı hörmətli məqamın şahidi olurlar. Səhih və əziz[1] isnadla rəvayət olunan bu əzəmətli hədisin rəvayətində dörd məzhəb imamlarından üçü iştirak etmişdir. Belə ki İmam Əhməd, Məhəmməd ibn İdris əş-Şafiidən, o da Malik ibn Ənəs əl-Asbəhidən, o da əz-Zuhridən ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Mömininin ruhu Allahın onları cəsədlərinə qaytarıb təkrar dirildəcəyi günə qədər Cənnət ağaclarından yeyən bir quşdur".[2] Bu hədisdə mömin insanın ruhunun Cənnətdə bir quş şəklində olduğu bildirilir. Şəhidlərin ruhları isə, əvvəl qeyd olunduğu kimi, yaşıl quşların içindədir. Onların ruhları adi möminlərin ruhlarına nisbətdə ulduzlar kimidir. Onlar şəxsən özləri uçarlar. Qullarına qarşı Səxavətli və Lütfkar olan Allahdan diləyirik ki, canımızı imanlı halda alsın!

Uca Allah buyurur: "**Onlar Allahın Öz lütfündən onlara verdiyi nemətə fərəhlənir, arxalarınca gəlib hələ onlara çatmamış kəslərin heç bir qorxu ilə qarşılaşmayacaqları və kədərlənməyəcəkləri müjdəsinə sevinirlər**", yəni Allah yolunda öldürülən şəhidlər Allah qatında diridirlər. Onlar içində olduqları nemət və xoşbəxtliyə görə sevinirlər. Həmçinin özlərindən sonra Allah yolunda öldürüləcək qardaşlarını onların yanlarına gələcəkləri, qarşıda qorxu ilə qarşılaşmayacaqları və özlərindən sonra qoyub getdiklərinə (ailə, övlad) görə kədərlənməyəcəkləri ilə müjdələyirlər. Uca Allahdan Cənnət diləyirik.

əl-Buxari və Muslim "Səhih" əsərlərində Ənəsdən ﷺ rəvayət etmişlər ki, bir səhər vaxtı yetmiş nəfər ənsarlının eyni zamanda öldürüldüyü Məunə quyusu hadisəsində Peyğəmbər ﷺ namazda əllərini açıb onları öldürənlərə bəd dua edərək onları lənətlədi. Sonra həmin hadisədə şəhid olanlar barədə ayə nazil oldu. Allah tərəfindən qaldırılana qədər (həm yazısı, həm də oxunuşu nəsx edilənə qədər) biz bu ayəni Quranda oxuyurduq. Nəsx edilən ayə belə idi:

---

[1] "Əziz" sözünün ərəb dilində lüğəvi mənası "güclü", "qüvvətli" və ya "nadir" deməkdir. Hədis elmində isə isnadı əziz olan hədis dedikdə isnadının hər təbəqəsində iki və ya üç ravi olan hədislər nəzərdə tutulur.

[2] Bu hədis "əl-Bəqərə" surəsinin 153-154-cü ayələrinin təfsirində keçmişdir. (Əhməd Şakir). Əhməd, 15777, 15816; ən-Nəsəi "Sunənul-Kubra" 2211. Hədis səhihdir. Bax: Səhih əl-Cami, 2373.

"Bizdən qövmümüzə çatdırın ki, biz Rəbbimizə qovuşduq. O bizdən razı qaldı və bizi də Ondan razı qalanlardan etdi".[1]

Sonra Uca Allah belə buyurur: "**Onlar Allahın nəməti və lütfünə görə, həm də Allahın möminlərin mükafatını heçə çıxarmayacağı müjdəsinə sevinirlər**". Muhəmməd ibn İshaq ﷺ bu ayə barədə demişdir: "Onlar özlərinə vəd edilənin yerinə yetirildiyini və bol savabı görüncə sevinirlər". Abdur-Rahmən ibn Zeyd ibn Əsləm ﷺ demişdir: "Bu ayə bütün möminlərə həm şəhidlərə, həm də digərlərinə aiddir. Çox vaxt Allah Quranda peyğəmbərlərə verdiyi lütf və savabı zikr etdikdən sonra digər möminlərə verdiklərini zikr edir".[2]

Uca Allah buyurur: "**Yara aldıqdan sonra belə Allahın və Onun Rəsulunun dəvətini qəbul edən kimsələrdən yaxşı işlər görənlər və Allahdan qorxanlar üçün böyük bir mükafat vardır**". Bu, Həmraul-Əsəd döyüşü günü olmuşdur. Belə ki müşriklər Uhudda müsəlmanları məğlub etdikdən sonra yurdlarına dönmək üçün yola çıxmışdılar. Yola davam edərkən "Mədinəlilərin işlərini nə üçün bitirmədik" deyə peşman olmuşdular. Bu xəbər Peyğəmbərə ﷺ çatdıqda müşrikləri qorxutmaq və hələ qüvvətli olduqlarını onlara göstərmək üçün müsəlmanları müşriklərin arxasınca getməyə çağırdı və Uhud döyüşündə iştirak edənlərdən başqa, yalnız Cabir ibn Abdullah ﷺ istisna olmaqla, heç kimə bu səfərə çıxmağa icazə vermədi. Bunun səbəbini isə qarşıda bildirəcəyik. Müsəlmanlar yaralı və gücsüz olmalarına baxmayaraq, Allah və Onun Elçisinə ﷺ itaət etdilər və bu çağırışa cavab verdilər.

Muhəmməd ibn İshaq ﷺ demişdir: "Uhud döyüşü Şəvval ayının ortası, şənbə günü olmuşdur. Döyüşün ertəsi günü, yəni şəvvalın on altısı, bazar günü Peyğəmbərin ﷺ carçısı səslənərək düşmənin arxasınca gediləcəyini və dünən döyüşdə iştirak edənlərdən başqa heç kimsənin bu səfərə qatılmayacağını bildirdi. Cabir ibn Abdullah Peyğəmbərlə ﷺ danışdı və belə dedi: "Ey Allahın Elçisi, atam mənə yeddi bacıma baxmağı tapşırdı və dedi: "Əziz oğlum! Nə mənə, nə də sənə bu qadınları başsız qoymaq yaraşmaz. Peyğəmbərlə ﷺ birlikdə cihad etmək şərəfinə nail olmaqda səni özümdən üstün tutan da deyiləm. Odur ki bacılarına baxmaq üçün qal". Mən də onları başsız qoymamaq üçün qaldım". Bu səbəbdən Peyğəmbər ﷺ Cabirə izin verdi və o da Peyğəmbərlə ﷺ birlikdə səfərə çıxdı. Peyğəmbər ﷺ düşməni

[1] əl-Buxari, 2814, 3786, 4095; Muslim, 1085, 1577.

[2] əs-Suyuti "əd-Durrul-Mənsur" 4/121.

qorxutmaq, onlara arxaları ilə gedəcək qədər qüvvətli olduqlarını və başlarına gələnin hələ onları düşmən qarşısında zəiflətmədiyini göstərmək üçün bu səfərə çıxmışdı".

İbn İshaq ﷬ demişdir: "Abdullah ibn Xaricə ibn Zeyd ibn Sabit ﷬ Aişə bint Osmanın azad etdiyi köləsi Əbu əs-Saibdən ﷺ rəvayət etmişdir ki, Uhud döyüşündə iştirak etmiş Abdul-Əşhəl qəbiləsindən olan Peyğəmbərin ﷺ bir səhabəsi demişdir: "Mən və qardaşım Peyğəmbərlə ﷺ birlikdə Uhud döyüşündə iştirak etdik və yaralı halda geri döndük. Peyğəmbərin ﷺ carçısının düşmənin arxasınca gediləcəyi çağırışını eşitdikdə mən qardaşıma dedim (və ya qardaşım mənə dedi): "Peyğəmbərlə birlikdə döyüşdə iştirak etməyi buraxacağıqmı? Allaha and olsun ki, bizim minəcək bir heyvanımız yoxdur, özümüz də ağır yaralıyıq". Beləliklə, Peyğəmbərlə ﷺ birlikdə səfərə çıxdıq. Mənim yaram qardaşımın yarasından daha yüngül idi. Onun yarası ağrıdıqda bir qədər mən onu daşıyırdım, bir qədər də özü gedirdi. Beləcə, müsəlmanların çatmaq istədikləri yerə qədər gəldik".[1]

əl-Buxari ﷬ rəvayət etmişdir ki, Aişə ﷺ Uca Allahın "**Yara aldıqdan sonra belə Allahın və Onun Rəsulunun dəvətini qəbul edən kimsələrdən yaxşı işlər görənlər və Allahdan qorxanlar üçün böyük bir mükafat vardır**"- ayəsi barədə Urvəyə belə demişdir: "Ey bacıoğlu, sənin atan əz-Zubeyr və əmin Əbu Bəkr onlardan idi. Uhud döyüşündə Peyğəmbərin ﷺ başına gələn müsibət baş verdikdən və müşriklər çıxıb getdikdən sonra Peyğəmbər ﷺ onların təkrar qayıdacaqlarından ehtiyat edib dedi: "Kim onların dalınca gedə bilər?" Bu vaxt (əshabələrdən) yetmiş nəfər qabağa çıxdı. Əbu Bəkr və Zubeyr də onların arasında idi".[2] Hədisi əl-Hakim ﷬ də rəvayət etmiş, sonra demişdir: "Hədisin isnadı səhihdir, lakin əl-Buxari və Muslim rəvayət etməmişlər". Həmçinin hədisi İbn Məcə, Səid ibn Mənsur və Əbu Bəkr əl-Humeydi ﷬ rəvayət etmişlər.[3]

Uca Allah buyurur: "**O kəslər ki bəzi adamlar onlara "Camaat sizə qarşı ordu toplayıb, onlardan qorxun!" dedikdə bu söz onların imanını daha da artırdı və onlar "Allah bizə yetər. O nə gözəl Qoruyandır!" dedilər**", yəni insanlar onları düşmənlərinin onlara qarşı ordu toplaması ilə hədələyib, düşmənlərinin çoxluğu ilə qorxutduqda buna məhəl qoymayıb Allaha təvəkkül etdilər və Ondan yardım

---

[1] ət-Təbəri, 8234, 8279,

[2] əl-Buxari, 3769, 4077.

[3] əl-Buxari (7/287 Fəthul-Bari), əl-Hakim (2/298). ət-Təbəri ﷬ də oxşar hədisi rəvayət etmişdir (8239, 8241). (Əhməd Şakir). əl-Hakim, 5561; əl-Beyhəqi "Sunənul-Kubra" 12866, 13468.

diləyərək "**Allah bizə yetər. O nə gözəl Qoruyandır!" dedilər**". əl-Buxari ﷺ rəvayət etmişdir ki, İbn Abbas ﷺ Uca Allahın "**Allah bizə yetər. O nə gözəl Qoruyandır!**" ayəsi barədə demişdir: "Bu sözləri İbrahim ﷺ oda atıldığı zaman demişdir. Bu sözü həmçinin Peyğəmbər ﷺ və onun səhabələri də demişlər. O zaman ki **"Bəzi adamlar onlara "Camaat sizə qarşı ordu toplayıbdır, onlardan qorxun!" dedilər. Bu, onların imanını daha da artırdı və onlar "Allah bizə yetər. O nə gözəl Qoruyandır!"** dedilər".[1] Həmçinin hədisi ən-Nəsəi ﷺ də rəvayət etmişdir. Təəccüblüdür ki, bu hədisi (əl-Buxarinin rəvayət etməsinə baxmayaraq) əl-Hakim ﷺ də rəvayət etmiş, sonra demişdir: "əl-Buxari və Muslimin şərtlərinə görə səhihdir, lakin rəvayət etməmişlər".[2]

İmam Əhməd ﷺ Auf ibn Malikdən ﷺ rəvayət etmişdir ki, bir dəfə Peyğəmbər ﷺ iki kişi arasında bir məsələdə hökm verdi. Əleyhinə hökm verilən kişi çevrilib gedəndə "Allah mənə yetər, O nə gözəl Qoruyandır!"- dedi. Peyğəmbər ﷺ dedi: "Bu kişini geri qaytarın!" Kişi gəldikdə Peyğəmbər ﷺ "Bayaq nə dedin?"- deyə soruşdu. Kişi dedi: "Allah mənə yetər, O nə gözəl Qoruyandır!"- dedim". Peyğəmbər ﷺ dedi: "Allah acizliyi məzəmmət edir, lakin sən işində tədbirli olmalısan. İşi edə bilmədiyin təqdirdə "Allah mənə yetər, O nə gözəl Qoruyandır!"- de!"[3] Oxşar hədisi Əbu Davud və ən-Nəsəi ﷺ də rəvayət etmişlər.

İmam Əhməd ﷺ İbn Abbasdan ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Surun sahibi (İsrafil) suru ağzına qoyub üzünü çevirərək sura üfürməsinin nə vaxt əmr ediləcəyini gözləyərkən mən necə rahat ola bilərəm?"Peyğəmbərin ﷺ səhabələri "Ey Allahın Elçisi, o halda nə deyək?" deyə soruşdular. Peyğəmbər ﷺ dedi: "Allah bizə yetər. O nə gözəl Qoruyandır. Allaha təvəkkül etdik" deyin!"[4] Bu hədis bir neçə formada rəvayət edilmişdir və isnadı yaxşıdır.[5]

Rəvayət olunur ki, bir dəfə möminlərin anası Aişə ilə Zeynəb bint Cəhş ﷺ öz aralarında öyünməyə başladılar. Zeynəb "Məni Allah evləndirdi, sizi isə ailələriniz evləndirdi" dedi. Aişə dedi: "Mənim

---

[1] əl-Buxari, 4197, 4563.

[2] Fəthul-Bari (8/172), əl-Hakim (2/298). Qəribədir ki, əz-Zəhəbi ﷺ də bu hədis barədə fikrini bildirməmişdir. Hədis əl-Buxarinin "Səhih" əsərində rəvayət olunur. (Əhməd Şakir).

[3] Əhməd, 23983, 24029. Hədis zəifdir. Bax: Daif əl-Cami, 1759.

[4] Əhməd, 3010. Hədis həsən li-ğeyrihidir. Bax: Səhih ət-Tərğib vət-Tərhib, 3569.

[5] "Musnəd" (3010). əl-Hafiz İbn Kəsir ﷺ bu hədisi "əl-Muddəssir" surəsinin 8-ci ayəsinin təfsirində İbn Əbu Hatimin ﷺ rəvayəti ilə bir daha qeyd edəcək. Həmçinin hədisi əl-Hakim (4/559) də rəvayət etmişdir. (Əhməd Şakir).

təmiz olmağım barədə səmadan Quranda (ayələr) nazil edildi”. Zeynəb bunu qəbul etdi. Sonra soruşdu: “Saffan ibn əl-Muattalın dəvəsinə mindikdə nə dedin?” Aişə “Allah mənə yetər, O nə gözəl Qoruyandır!” deyə cavab verdi. Zeynəb “Möminlərin söyləyəcəyi sözü demisən” dedi.[1]

Bu səbəbdən Uca Allah buyurur: “**Beləcə, özlərinə heç bir pislik toxunmadan, Allahın neməti və lütfü sayəsində geri döndülər**”. Allaha təvəkkül etdikləri üçün Allah da onları qorxuya salan şeydən qorudu və onlara hiylə quran düşmənin qüvvəsinin qarşısını aldı. Onlar “**Beləcə, özlərinə heç bir pislik toxunmadan**” düşmənlərinin onlara qarşı qəlblərində gizlətdikləri pislik onlara toxunmadan **“Allahın neməti və lütfü sayəsində geri döndülər və beləliklə də, Allahın rizasına uydular. Allah böyük lütf sahibidir**”.

Sonra Uca Allah belə buyurur: “**Şeytan sizi, sadəcə, öz dostları ilə qorxudur**”, yəni şeytan sizi dostları ilə qorxudur və sizdə onların güclü və qüvvətli olması təsəvvürünü yaradır. Uca Allah buyurur: “**Möminsinizsə, onlardan qorxmayın, Məndən qorxun!**”, yəni əgər şeytan sizə belə bir şey təlqin etsə və sizi qorxutsa, Mənə təvəkkül edin, Mənə sığının. Mən sizə kifayət edərəm və sizi onların üzərində qalib edərəm. Necə ki Uca Allah başqa ayələrdə buyurur: “**Məgər Allah Öz quluna kifayət deyilmi?! Müşriklər isə səni Allahdan başqaları ilə qorxudurlar. Allahın zəlalətə saldığı kimsəyə doğru yol göstərən tapılmaz. Allahın doğru yola yönəltdiyi kimsəni də, azdıran tapılmaz. Məgər Allah qüdrətli, intiqam almağa qadir deyilmi?! Əgər sən onlardan “Göyləri və yeri kim yaratmışdır?” deyə soruşsan, onlar mütləq “Allah!” deyəcəklər. De: “Elə isə bir deyin görək, əgər Allah mənə bir zərər toxundurmaq istəsə, sizin Allahdan başqa ibadət etdikləriniz Onun zərərini aradan qaldıra bilərlərmi?! Yaxud əgər Allah mənə bir mərhəmət göstərmək istəsə, onlar Onun mərhəmətinin qarşısını ala bilərlərmi?” De: “Mənə Allah yetər. Təvəkkül edənlər yalnız Ona təvəkkül edirlər!**” (“əz-Zumər”, 36-38); “**İman gətirənlər Allah yolunda, kafir olanlar isə tağut yolunda vuruşurlar. Elə isə şeytanın dostları ilə vuruşun! Şübhəsiz ki, şeytanın hiyləsi zəifdir**” (“ən-Nisa”, 76); “**Şeytan onları üstələmiş və Allahı zikr etməyi onlara unutdurmuşdur. Onlar şeytanın firqəsindəndirlər. Şübhə yoxdur ki, şeytanın firqəsindəkilər ziyana uğrayanlardır**” (“əl-Mucadilə”, 19); “**Allah əzəldən belə yazmışdır: “Mən və elçilərim hökmən qalib gələcəyik!” Həqiqətən, Allah qüvvətlidir, qüdrətlidir**” (“əl-Mucadilə”, 21); “**Allah Ona yardım**

[1] ət-Təbərani “Mucəmul-Kəbir” 19617; ət-Təbəri, 26044.

**edənlərə, mütləq yardım edər"** ("əl-Həcc", 40); **"Ey iman gətirənlər! Əgər siz Allaha** (Onun dininə) **kömək göstərsəniz, O da sizə kömək göstərər və sizi sabitqədəm edər"** ("Muhəmməd", 7); **"Şübhəsiz ki, Biz Öz elçilərimizə və iman gətirənlərə həm dünya həyatında, həm də şahidlərin şəhadət vermək üçün ayağa qalxacağı gün yardım edəcəyik. O gün zalımlara üzr diləmələri heç bir fayda verməyəcək. Onları həm lənət, həm də pis yurd gözləyir"** ("Ğafir", 51-52).

﴿ وَلَا يَحْزُنكَ ٱلَّذِينَ يُسَٰرِعُونَ فِى ٱلْكُفْرِ ۚ إِنَّهُمْ لَن يَضُرُّوا۟ ٱللَّهَ شَيْـًٔا ۗ يُرِيدُ ٱللَّهُ أَلَّا يَجْعَلَ لَهُمْ حَظًّا فِى
ٱلْءَاخِرَةِ ۖ وَلَهُمْ عَذَابٌ عَظِيمٌ ﴿١٧٦﴾ إِنَّ ٱلَّذِينَ ٱشْتَرَوُا۟ ٱلْكُفْرَ بِٱلْإِيمَٰنِ لَن يَضُرُّوا۟ ٱللَّهَ شَيْـًٔا ۖ وَلَهُمْ عَذَابٌ
أَلِيمٌ ﴿١٧٧﴾ وَلَا يَحْسَبَنَّ ٱلَّذِينَ كَفَرُوٓا۟ أَنَّمَا نُمْلِى لَهُمْ خَيْرٌ لِّأَنفُسِهِمْ ۚ إِنَّمَا نُمْلِى لَهُمْ لِيَزْدَادُوٓا۟ إِثْمًا ۚ وَلَهُمْ
عَذَابٌ مُّهِينٌ ﴿١٧٨﴾ مَّا كَانَ ٱللَّهُ لِيَذَرَ ٱلْمُؤْمِنِينَ عَلَىٰ مَآ أَنتُمْ عَلَيْهِ حَتَّىٰ يَمِيزَ ٱلْخَبِيثَ مِنَ ٱلطَّيِّبِ ۗ وَمَا
كَانَ ٱللَّهُ لِيُطْلِعَكُمْ عَلَى ٱلْغَيْبِ وَلَٰكِنَّ ٱللَّهَ يَجْتَبِى مِن رُّسُلِهِۦ مَن يَشَآءُ ۖ فَـَٔامِنُوا۟ بِٱللَّهِ وَرُسُلِهِۦ ۚ وَإِن تُؤْمِنُوا۟
وَتَتَّقُوا۟ فَلَكُمْ أَجْرٌ عَظِيمٌ ﴿١٧٩﴾ وَلَا يَحْسَبَنَّ ٱلَّذِينَ يَبْخَلُونَ بِمَآ ءَاتَىٰهُمُ ٱللَّهُ مِن فَضْلِهِۦ هُوَ خَيْرًا لَّهُم ۖ
بَلْ هُوَ شَرٌّ لَّهُمْ ۖ سَيُطَوَّقُونَ مَا بَخِلُوا۟ بِهِۦ يَوْمَ ٱلْقِيَٰمَةِ ۗ وَلِلَّهِ مِيرَٰثُ ٱلسَّمَٰوَٰتِ وَٱلْأَرْضِ ۗ وَٱللَّهُ بِمَا
تَعْمَلُونَ خَبِيرٌ ﴿١٨٠﴾ ﴾

**176. Küfrə can atanlar səni kədərləndirməsin. Çünki onlar Allaha heç bir zərər yetirə bilməzlər. Allah istəyir ki, onlara axirətdə heç bir şey nəsib etməsin. Onlar üçün böyük bir əzab vardır.**

**177. Doğrudan da, imanı əldən verib küfrü alanlar Allaha heç bir zərər yetirə bilməzlər. Onlar üçün ağrılı-acılı bir əzab vardır.**

**178. Kafirlər elə güman etməsinlər ki, onlara möhlət verməyimiz onların xeyrinədir. Biz onlara ancaq günahlarını artırmaları üçün möhlət veririk. Onlar üçün alçaldıcı bir əzab vardır.**

**179. Allah möminləri sizin hazırda olduğunuz vəziyyətdə tərk edən deyil, sonda murdarı təmizdən ayıracaqdır. Allah sizə qeybi də bildirən deyildir. Lakin Allah Öz elçilərindən istədiyini seçər. Elə isə Allaha və Onun elçilərinə iman gətirin! Əgər iman gətirib Allahdan qorxsanız, sizin üçün böyük bir mükafat vardır.**

**180. Allahın Öz lütfündən bəxş etdiyini xərcləməyə xəsislik edən kimsələr elə güman etməsinlər ki, bu onların xeyrinədir. Əksinə, bu onların zərərinədir. Onların xəsislik etdikləri şey Qiyamət günü boyunlarına dolanacaqdır. Göylərin və yerin mirası Allaha məxsusdur. Allah nə etdiklərinizdən xəbərdardır.**

Uca Allah Peyğəmbərinə ﷺ xitab edərək deyir: "**Küfrə can atanlar səni kədərləndirməsin**". Peyğəmbər ﷺ insanların hidayət olunmasına çox həris olduğu üçün kafirlərin asiliyə, inadkarlığa və düşmənçiliyə can atmaları onu kədərləndirirdi. Bu səbəbdən Uca Allah buyurdu: "Ey Peyğəmbər, bu səni kədərləndirməsin. "**Çünki onlar Allaha heç bir zərər yetirə bilməzlər. Allah istəyir ki, onlara Axirətdə heç bir şey nəsib etməsin**", yəni kafirlərin belə etmələrində Allahın hikməti budur ki, Allah Öz istəyi və qədəri ilə Axirətdə onların heç bir payının olmasını istəmir. "**Onlar üçün böyük bir əzab vardır**".

Sonra Uca Allah bunu qəti şəkildə bildirərək "**Doğrudan da, imanı əldən verib küfrü alanlar**", yəni imanı küfrə dəyişənlər "**Allaha heç bir zərər yetirə bilməzlər**", yəni yalnız özlərinə zərər verərlər "**Onlar üçün ağrılı-acılı bir əzab vardır**".

Sonra Uca Allah buyurur: "**Kafirlər elə güman etməsinlər ki, onlara möhlət verməyimiz onların xeyrinədir. Biz onlara ancaq günahlarını artırmaları üçün möhlət veririk. Onlar üçün alçaldıcı bir əzab vardır**". Bu ayə Uca Allahın bu ayələrinə bənzəyir: "**Yoxsa günahkarlar elə hesab edirlər ki, onlara var-dövlət və övlad verməklə onlara yaxşılıq etməyə tələsirik? Xeyr, onlar bu işin fərqinə varmırlar**" ("əl-Muminun", 55-56); "**Bu Sözü yalan sayanları Mənim öhdəmə burax. Biz onları bilmədikləri bir yöndən tədricən əzaba sürükləyirik**" ("əl-Qələm", 44); "**Onların nə malları, nə də övladları səni heyrətləndirməsin. Allah bunlarla dünya həyatında onlara əzab vermək və onların kafir olaraq canlarının çıxmasını istəyir**" ("ət-Tövbə", 55).

Sonra Uca Allah buyurur: "**Allah möminləri sizin hazırda olduğunuz vəziyyətdə tərk edən deyil, sonda murdarı təmizdən ayıracaqdır**", yəni Uca Allah Öz dostlarını üzə çıxarmaq və düşmənlərini rəzil etmək üçün onları mütləq sınağa çəkəcəkdir. Bu sınaqla səbir edən möminlə günahkar münafiq bilinəcək. Bu ayə ilə möminlərin imtahan edildiyi Uhud döyüşü nəzərdə tutulur. Bu döyüşdə möminlərin imanı, səbri, qüvvəti, Allah və Peyğəmbərinə ﷺ itaətləri bilindi. Bu döyüş sayəsində münafiqlər ifşa olundular, onların müxalif əməlləri, döyüşdən qaçmaları, Allah və Peyğəmbərinə ﷺ xəyanətləri ortaya çıxdı. Mucahid رحمه الله bu ayə barədə demişdir: "Allah Uhud döyüşündə möminlərlə münafiqləri ayırdı". Qatədə رحمه الله isə demişdir: "Allah cihad və hicrətlə möminləri münafiqlərdən ayırmışdır".

Sonra Uca Allah buyurur: “**Allah sizə qeybi də bildirən deyildir**”, yəni əgər Allah mömінlə münafiqi sizə bildirməsə, siz özünüz Allahın məxluqları barədə qeybi bilməzsiniz. Əgər Allah insanları biri-birindən ayırd edən səbəblər yaratmasaydı, siz mömінlə münafiqi seçə bilməzdiniz.

Sonra Uca Allah buyurur: “**Lakin Allah Öz elçilərindən istədiyini seçər**”. Allahın bu ayəsi bu ayəyə bənzəyir: “**O, qeybi biləndir və Öz qeybini heç kəsə açmaz; razı qaldığı elçidən başqa. Həqiqətən, Allah onların önündə və arxasında gözətçilər qoyur**” (“əl-Cinn”, 26-27).

Sonra Uca Allah buyurur: “**Elə isə Allaha və Onun elçilərinə iman gətirin!**”, yəni Allaha və Onun Elçisinə itaət edin, sizin üçün qoyduğu şəriətə tabe olun. “**Əgər iman gətirib Allahdan qorxsanız, sizin üçün böyük bir mükafat vardır**”.

Uca Allah növbəti ayədə buyurur: “**Allahın Öz lütfündən bəxş etdiyini xərcləməyə xəsislik edən kimsələr elə güman etməsinlər ki, bu onların xeyrinədir. Əksinə, bu onların zərərinədir**”, yəni xəsislik edən kəs yığdığı malın ona fayda verəcəyini zənn etməsin. Əksinə, bu onun dininə, bəzən də dünyasına zərərlidir. Sonra Uca Allah xəsislik edənin topladığı var-dövlətin Qiyamət günündəki halını xəbər verərək “**Onların xəsislik etdikləri şey Qiyamət günü boyunlarına dolanacaqdır**” buyurur. əl-Buxari ﷺ Əbu Hureyradan ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: “Kim Allahın ona bəxş etdiyi var-dövlətin zəkatını vermirsə, Qiyamət günü o var-dövlət başının tükü tökülmüş[1], gözlərinin də üstündə iki qara xalı olan erkək ilana çevrilib onun boynuna sarılacaq və ağzının hər iki tərəfindən yapışıb deyəcək: “Mən sənin var-dövlətinəm! Mən sənin xəzinənəm!” Sonra Peyğəmbər ﷺ bu ayəni oxudu: “**Allahın Öz lütfündən bəxş etdiyini xərcləməyə xəsislik edən kimsələr elə güman etməsinlər ki, bu, onların xeyrinədir. Əksinə, bu, onların zərərinədir. Onların xəsislik etdikləri şey Qiyamət günü boyunlarına dolanacaqdır. Göylərin və yerin mirası Allaha məxsusdur. Allah nə etdiklərinizdən xəbərdardır**”.[2] Hədisi bu şəkildə yalnız əl-Buxari ﷺ rəvayət etmişdir. Həmçinin İbn Hibban ﷺ da rəvayət etmişdir.[3]

---

[1] Bu ifadə ilanın həddən artıq zəhərli olduğuna işarədir.

[2] əl-Buxari, 4199, 4565.

[3] əl-Buxari (8/173, 3/214-215). Hədisin mənası “Musnəd” əsərində bir neçə formada Əbu Hureyradan ﷺ rəvayət edilmişdir. (7742, 8170, 8646, 8920). əl-Munziri “ət-Tərğib” əsərində səhvən hədisi Muslimə nisbət etmişdir. (Əhməd Şakir).

İmam Əhməd ﷺ İbn Ömərdən ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Uca Allah malının zəkatını verməyən kimsənin malını Qiyamət günü qarşısına başının tükü tökülmüş, gözlərinin üstündə iki xalı olan zəhərli erkək ilan kimi çıxaracaqdır. Sonra bu ilan ona sarılacaq və onu boğaraq "Mən sənin xəzinənəm, mən sənin xəzinənəm"- deyəcək".[1] Hədisi ən-Nəsəi ﷺ də rəvayət etmişdir.[2]

İmam Əhməd ﷺ Abdullah (ibn Məsuddan) ﷺ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Malının zəkatını verməyən elə bir qul yoxdur ki, o mal onun üçün tükü tökülmüş erkək ilana çevrilməsin. İlan onu təqib edərək "Mən sənin xəzinənəm" deyəcək. O isə ilandan qaçacaq". Sonra Abdullah Allahın Kitabından bu hədisin mənasını təsdiqləyən ayəni – "**Onların xəsislik etdikləri şey Qiyamət günü boyunlarına dolanacaqdır**"- oxudu". Hədisi ət-Tirmizi, ən-Nəsəi və İbn Məcə ﷺ rəvayət etmişlər. ət-Tirmizi ﷺ hədisin "həsən-səhih" olduğunu bildirmişdir. Həmçinin hədisi əl-Hakim və İbn Cərir ﷺ İbn Məsudun ﷺ sözü olaraq rəvayət etmişlər.[3]

əl-Hafiz Əbu Yəalə ﷺ Sovbəndən ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Kim özündən sonra (zəkatını vermədiyi) bir xəzinə qoyarsa, Qiyamət günü o xəzinə başının tükü tökülmüş, gözlərinin üstündə iki xalı olan erkək ilan kimi qarşısına çıxarılacaq. İlan onun dalınca düşəcək. O isə deyəcək: "Ey başabəla, sən kimsən?" İlan deyəcək: "Mən sənin özündən sonra qoyub getdiyin xəzinənəm". İlan onun arxasınca gəlməyə davam edəcək, nəhayət adam əlini ilanın ağzına qoyacaq. İlan əvvəlcə onun əlini, sonra ardınca bütün cəsədini udacaq".[4] Bu hədisin isnadı yaxşıdır, güclüdür, lakin digər hədis kitablarının müəllifləri bu hədisi rəvayət etməmişlər.

Uca Allah buyurur: "**Göylərin və yerin mirası Allaha məxsusdur**", yəni Allahın sizin üçün miras etdiyi şeylərdən Allah yolunda xərcləyin. Şübhəsiz ki, bütün işlər sonda Allaha qayıdacaqdır. Odur ki Allaha qayıdacağınız gün sizə fayda verməsi üçün malınızdan Allah yolunda xərcləyin. "**Allah nə etdiklərinizdən xəbərdardır**", yəni Allah gördüyünüz işlərdə niyyətlərinizdən və qəlblərinizdən keçənlərdən xəbərdardır.

[1] Əhməd, 5729, 6448. Hədis səhihdir. Bax: Səhih əl-Cami, 1690; Səhih ət-Tərğib vət-Tərhib, 760.

[2] Musnəd (5729), ən-Nəsəi (1/343). Hər iki isnad səhihdir. (Əhməd Şakir).

[3] Musnəd (3577), ət-Tirmizi (4/85), əl-Hakim (2/298-299), ət-Tabəri (8285, 8289, 8292). (Əhməd Şakir). Əhməd, 3577. Şueyb əl-Arnavut isnadının əl-Buxari və Muslimin şərtlərinə görə səhih olduğunu bildirmişdir.

[4] İbn Hibban, 3257. Şueyb əl-Arnavut isnadının Muslimin şərtlərinə görə səhih olduğunu bildirmişdir.

﴿ لَّقَدْ سَمِعَ ٱللَّهُ قَوْلَ ٱلَّذِينَ قَالُوٓاْ إِنَّ ٱللَّهَ فَقِيرٌ وَنَحْنُ أَغْنِيَآءُ ۘ سَنَكْتُبُ مَا قَالُواْ وَقَتْلَهُمُ ٱلْأَنۢبِيَآءَ
بِغَيْرِ حَقٍّ وَنَقُولُ ذُوقُواْ عَذَابَ ٱلْحَرِيقِ ﴿١٨١﴾ ذَٰلِكَ بِمَا قَدَّمَتْ أَيْدِيكُمْ وَأَنَّ ٱللَّهَ لَيْسَ
بِظَلَّامٍ لِّلْعَبِيدِ ﴿١٨٢﴾ ٱلَّذِينَ قَالُوٓاْ إِنَّ ٱللَّهَ عَهِدَ إِلَيْنَآ أَلَّا نُؤْمِنَ لِرَسُولٍ حَتَّىٰ يَأْتِيَنَا بِقُرْبَانٍ
تَأْكُلُهُ ٱلنَّارُ ۗ قُلْ قَدْ جَآءَكُمْ رُسُلٌ مِّن قَبْلِى بِٱلْبَيِّنَٰتِ وَبِٱلَّذِى قُلْتُمْ فَلِمَ قَتَلْتُمُوهُمْ إِن
كُنتُمْ صَٰدِقِينَ ﴿١٨٣﴾ فَإِن كَذَّبُوكَ فَقَدْ كُذِّبَ رُسُلٌ مِّن قَبْلِكَ جَآءُو بِٱلْبَيِّنَٰتِ وَٱلزُّبُرِ
وَٱلْكِتَٰبِ ٱلْمُنِيرِ ﴿١٨٤﴾ ﴾

**181. "Allah kasıbdır, biz isə varlıyıq!" deyənlərin sözünü Allah, əlbət ki, eşitdi. Biz onların dediklərini və haqsız olaraq peyğəmbərləri öldürdüklərini yazacaq və onlara deyəcəyik: "Dadın o yandırıb-yaxan əzabı!**

**182. Bu öz əllərinizlə etdiyiniz əməllərə görədir." Yoxsa Allah qullarına zülm edən deyildir.**

**183. "Doğrusu, Allah bizdən əhd almışdı ki, odun yandıracağı bir qurban gətirməyincə heç bir elçiyə inanmayaq" deyənlərə de: "Məndən əvvəl sizə elçilər açıq-aydın dəlillərlə və dediyiniz qurbanla gəlmişdilər. Əgər doğru danışırsınızsa, onda nə üçün onları öldürdünüz?"**

**184. Əgər onlar səni yalançı hesab etsələr, bil ki, səndən əvvəl açıq-aydın dəlillər, səhifələr və nur saçan kitab gətirmiş elçiləri də yalançı hesab etmişdilər.**

İbn Abbasdan ﵄ rəvayət olunur ki, bir dəfə Əbu Bəkr əs-Siddiq ﵁ Beytul-Midrasa (yəhudilərin məktəbinə) gəldi və orada yəhudilərin Finhas adlı bir kişinin ətrafına toplaşdıqlarını gördü. Finhas yəhudilərin alimlərindən və əsas elm adamlarından biri idi. Finhasın yanında Əşya adlı daha bir elm adamı vardı. Əbu Bəkr ﵁ "Təəssüflər olsun sənə, ey Finhas, Allahdan qorx və müsəlman ol! Allaha and olsun ki, sən Muhəmmədin Allahın Elçisi olduğunu və sizə Allah qatından haqqı gətirdiyini yaxşı bilirsən. Siz onun barəsində yanınızda olan Tövrat və İncildə yazılmış olduğunu bilirsiniz" dedi. Finhas dedi: "Allaha and olsun ki, ey Əbu Bəkr ﵁, bizim Allaha ehtiyacımız yoxdur, əksinə, Onun bizə ehtiyacı var. Onun bizə yalvardığı kimi, biz ona yalvarmırıq. Biz Ona möhtac deyilik. Əgər O bizə möhtac olmasaydı, dostunuzun iddia etdiyi kimi, bizdən borc almazdı. O sizə faizi qadağan edir amma bizə icazə verir. Əgər zəngin olsaydı, bizə faizi icazə verməzdi". Əbu

Bəkr ﷺ qəzəblənib Finhasın üzünə bərk bir zərbə vurdu və belə dedi: "Canım əlində olana (Allaha) and olsun ki, əgər aramızda razılaşma olmasaydı, sənin boynunu vurardım, ey Allahın düşməni! Əgər doğru danışırsınızsa, gücünüz çatdığınız qədər bizim yalan dediyimizi sübut edin". Finhas Peyğəmbərin ﷺ yanına gedərək "Görürsən, yoldaşın mənə nə etdi?" dedi. Peyğəmbər ﷺ Əbu Bəkrdən ﷺ soruşdu: "Bunu etməyə səni nə vadar etdi?" Əbu Bəkr ﷺ dedi: "Ey Allahın Elçisi, bu Allah düşməni yaramaz bir söz danışır – iddia edir ki, Allah kasıbdır, onlar isə Allahdan zəngindirlər. Belə dedikdə Allah üçün qəzəbləndim və üzünə vurdum". Finhas bunu inkar edərək "Belə demədim" dedi. Uca Allah Finhasın dediyini rədd edib, Əbu Bəkrin ﷺ dediyini isə təsdiqləyərək **"Allah kasıbdır, biz isə varlıyıq!" deyənlərin sözünü Allah, əlbət ki, eşitdi**" ayəsini nazil etdi".[1] Hədisi İbn Əbu Hatim ﷺ rəvayət etmişdir.[2]

Uca Allah buyurur: "**Biz onların dediklərini və haqsız olaraq peyğəmbərləri öldürdüklərini yazacaq...**" bu söz bir təhdid və qorxutmadır. Yəni bu onların Allah barədə dedikləri, bu isə Allahın göndərdiyi peyğəmbərlərə etdikləridir. Allah onları etdiklərinə görə ən pis cəza ilə cəzalandıracaq. Bu səbəbdən Uca Allah ayənin davamında buyurur: "**və onlara deyəcəyik: "Dadın o yandırıb-yaxan əzabı! Bu öz əllərinizlə etdiyiniz əməllərə görədir". Yoxsa Allah qullarına zülm edən deyildir**", yəni bu sözlər rişxənd, təhqir və alçaltmaq məqsədilə onlara deyiləcək.

Uca Allah buyurur: **"Doğrusu, Allah bizdən əhd almışdı ki, odun yandıracağı bir qurban gətirməyincə heç bir elçiyə inanmayaq" deyənlərə...**" Uca Allah ümmətindən biri sədəqə verdikdə həmin sədəqənin qəbul olunmasının əlaməti olaraq göydən bir alovun enib bu sədəqəni yandırması ilə möcüzə göstərməyənə qədər heç bir peyğəmbərə iman gətirməyəcəklərinə dair kitablarında Allahdan əhd aldıqlarını iddia edənlərin sözlərini rədd edərək belə buyurur: "**de: "Məndən əvvəl sizə elçilər açıq-aydın dəlillərlə**", yəni sübutlarla "**və dediyiniz qurbanla gəlmişdilər**", yəni qəbul olmuş sədəqələri yandıran od möcüzəsi ilə gəlmişdilər. "**Əgər doğru danışırsınızsa**", yəni haqqa tabe olacağınızı və peyğəmbərlərə itaət edəcəyinizi deyirsinizsə, "**onda nə üçün onları öldürdünüz?**", yəni nə üçün

[1] ət-Təbəri, 8300, 8348; İbn Əbu Hatim, 4589. Ali Nasr və əl-Hilali zəif olduğunu bildirmişlər.

[2] Həmçinin hədisi ət-Təbəri (8300) rəvayət etmişdir. İsnadı yaxşı və ya səhihdir. əs-Suyuti ﷺ hədisi "əd-Durrul-Mənsur" kitabında (2/105-106) əlavə olaraq İbn əl-Munzirə ﷺ nisbət etmişdir. (Əhməd Şakir).

onların çağırışına inkarla, onlara qarşı çıxıb inadkarlıq etməklə və onları öldürməklə qarşılıq verdiniz?

Sonra Uca Allah Peyğəmbərinə ﷺ təsəlli verərək buyurur: “**Əgər onlar səni yalançı hesab etsələr, bil ki, səndən əvvəl açıq-aydın dəlillər, səhifələr və nur saçan kitab gətirmiş elçiləri də yalançı hesab etmişdilər**”, yəni onların səni yalançı hesab etmələri səni zəiflətməsin. Səndən əvvəl açıq-aydın dəlillər, “**səhifələr**”, yəni peyğəmbərlərə nazil edilən səmavi kitablar və “**nur saçan kitab**”, yəni açıq-aşkar və aydın kitab gətirmiş peyğəmbərlərin yalançı hesab edilmələrində sənə örnək vardır.

﴿ كُلُّ نَفْسٍ ذَآئِقَةُ ٱلْمَوْتِۗ وَإِنَّمَا تُوَفَّوْنَ أُجُورَكُمْ يَوْمَ ٱلْقِيَٰمَةِۖ فَمَن زُحْزِحَ عَنِ ٱلنَّارِ
وَأُدْخِلَ ٱلْجَنَّةَ فَقَدْ فَازَۗ وَمَا ٱلْحَيَوٰةُ ٱلدُّنْيَآ إِلَّا مَتَٰعُ ٱلْغُرُورِ ١٨٥ * لَتُبْلَوُنَّ فِىٓ
أَمْوَٰلِكُمْ وَأَنفُسِكُمْ وَلَتَسْمَعُنَّ مِنَ ٱلَّذِينَ أُوتُوا۟ ٱلْكِتَٰبَ مِن قَبْلِكُمْ وَمِنَ ٱلَّذِينَ أَشْرَكُوٓا۟
أَذًى كَثِيرًاۚ وَإِن تَصْبِرُوا۟ وَتَتَّقُوا۟ فَإِنَّ ذَٰلِكَ مِنْ عَزْمِ ٱلْأُمُورِ ١٨٦ ﴾

**185. Hər kəs ölümü dadacaq. Sözsüz ki, Qiyamət günü mükafatlarınız sizə tam veriləcəkdir. Kim Oddan uzaqlaşdırılıb Cənnətə daxil edilərsə, o, əlbəttə, uğur qazanmış olar. Dünya həyatı isə aldadıcı ləzzətdən başqa bir şey deyildir.**

**186. Siz hökmən malınız və canınızla sınaqdan keçiriləcəksiniz. Sizdən əvvəl kitab verilənlərdən və Allaha şərik qoşanlardan bir çox əziyyətverici sözlər eşidəcəksiniz. Əgər səbir edib Allahdan qorxsanız, əlbəttə ki, bu, əzmkarlıq tələb edən əməllərdəndir.**

Uca Allah bu ayədə yaratdıqlarının hamısını nəzərdə tutaraq xəbər verir ki, hər bir canlı mütləq ölümü dadacaqdır. Necə ki başqa bir ayədə buyurur: “**Yer üzündə olan hər kəs ölməyə məhkumdur. Ancaq Rəbbinin əzəmətli və kəramətli Üzü əbədidir**” (“ər-Rahmən”, 26-27). Ölməz, əbədi Yaşayan yalnız Allahdır. İnsanlar və cinlər isə ölümə məhkumdurlar. Mələklər və Ərşi daşıyanlar da həmçinin. Əbədiyyət və daimi qalmaq Tək olan və hər şeyə Qalib gələn Allaha aiddir. Necə ki hər şeydən əvvəl yalnız O var idi, ən sonda da yalnız O qalacaq. Bu ayə bütün insanlara bir təsəllidir. Yer üzündə heç kim əbədi qalmayacaq, hamı öləcəkdir. Müddət başa çatdıqda və Allahın Adəmin عليه السلام belindən var olmasını təqdir etdiyi nütfə və məxluqat sona çatdıqda, Allah Qiyaməti qoparacaq və məxluqatı əməllərinə uyğun hesaba çəkəcək. İstər yaxşı əməl olsun, istər pis, istər böyük olsun, istər

kiçik, istər az olsun, istər çox – hamısına görə hesaba çəkəcək və heç kimə zərrə qədər də zülm etməyəcək. Bu səbəbdən Uca Allah ayənin davamında "**Sözsüz ki, Qiyamət günü mükafatlarınız sizə tam veriləcəkdir**" buyurur.

Uca Allah buyurur: "**Kim Oddan uzaqlaşdırılıb Cənnətə daxil edilərsə, o, əlbəttə, uğur qazanmış olar**", yəni Oddan uzaqlaşdırılıb Cənnətə daxil edilən hər kəs tam bir uğur qazanmışdır. İbn Əbu Hatim ﷺ Əbu Hureyradan ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Cənnətdəki qamçı boyda yer, dünya və onun üzərindəkilərdən daha xeyirlidir. İstəsəniz, Uca Allahın bu ayəsini oxuyun: "**Kim Oddan uzaqlaşdırılıb Cənnətə daxil edilərsə, o, əlbəttə, uğur qazanmış olar**".[1] Hədis əl-Buxari və Muslimin "Səhih" əsərlərində son hissə əlavə edilmədən yer almışdır.[2] Hədisi bu əlavə ilə İbn Hibban və əl-Hakim ﷺ rəvayət etmişlər.[3]

İmam Əhmədin ﷺ Abdullah ibn Amr ibn əl-Asdan ﷺ rəvayət etdiyi hədis daha əvvəl qeyd edilmişdir. Abdullah ibn Amr ﷺ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Sizlərdən kim Cəhənnəmdən uzaqlaşıb Cənnətə daxil olmasını istəyirsə, əcəlini Allaha və Axirət gününə iman etmiş bir halda qarşılasın və insanlarla özünə qarşı istədiyi rəftarla davransın".[4]

Uca Allah buyurur: "**Dünya həyatı isə aldadıcı ləzzətdən başqa bir şey deyildir**". Bu ayə ilə Uca Allah dünyanın dəyərinin aşağı, özünün isə fani, keçici və zavala uğrayan olduğunu bildirir. Necə ki başqa ayələrdə buyurur: "**Xeyr, siz dünya həyatını olduqca üstün tutursunuz; Axirət isə daha xeyirli və daha sürəklidir**" ("əl-Əla", 16-17); "**Sizə verilən hər şey ancaq dünya həyatının keçici zövqü və onun bər-bəzəyidir. Allah yanında olanlar isə daha xeyirli və daha sürəklidir. Məgər anlamırsınız?**" ("əl-Qəsəs", 60). Bir hədisdə belə deyilir: "Allaha and olsun ki, Axirətlə müqayisədə dünyanın halı birinizin barmağını dəniz suyuna salıb-çıxarması kimidir. Baxsın barmağı dənizdən nə götürər?"[5]

---

[1] İbn Əbu Hatim, 4610; ət-Tirmizi, 3013, 3285. Hədis həsəndir. Bax: Silsilə əs-Səhihə, 1978.

[2] əl-Buxari, 3011, 3250.

[3] Həmçinin Əhməd "Musnəd" əsərində (9649), ət-Tirmizi (4/85), ət-Təbəri (8315) rəvayət etmişlər. Hədis, həmçinin "Mustədrək" əsərindədir (2/299). əl-Hakim ﷺ hədisin Muslimin şərtlərinə görə səhih olduğunu bildirmiş, əz-Zəhəbi də bununla razılaşmışdır. (Əhməd Şakir). İbn Hibban, 7417; əl-Hakim, 3170. Şueyb əl-Arnavut isnadının həsən olduğunu bildirmişdir.

[4] Bu hədis "Ali-İmran" surəsinin 102-103-cü ayələrin təfsirində keçmişdir.

[5] Hədisi Əhməd "Musnəd" əsərində (4/229 Hələbi nəşri) əl-Mustəvrid ibn Şəddəd əl-Fihridən rəvayət etmişdir. Oxşar hədisi Muslim də (2/355) rəvayət etmişdir. (Əhməd Şakir). Muslim, 5101, 7376, Əhməd, 18043, 18175.

Uca Allah buyurur: "**Siz hökmən malınız və canınızla sınaqdan keçiriləcəksiniz**". Bu ayə Uca Allahın: "**Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal-dövlət, insan və məhsul itkisi ilə sınayarıq. Səbir edənləri müjdələ. O kəslər ki onlara bir müsibət üz verdikdə: "Biz, Allaha məxsusuq və biz yalnız Ona qayıdacağıq!" deyirlər**" ("əl-Bəqərə", 155-156) ayəsinə bənzəyir. Yəni hər bir mömin mütləq malı, canı, övladı və ailəsi ilə sınanacaq. Hər kəs dinində möhkəmliyinə görə sınanır. Dinində nə qədər möhkəm olarsa, imtahanı da bir o qədər ağır olacaq.

Uca Allah möminlərə Bədr döyüşündən əvvəl Mədinəyə gəldikdə Kitab əhlindən və müşriklərdən gördükləri əziyyətlərə qarşı təsəlli vermək üçün buyurur: "**Sizdən əvvəl kitab verilənlərdən və Allaha şərik qoşanlardan bir çox əziyyətverici sözlər eşidəcəksiniz**". Sonra Uca Allah möminlərə Allah tərəfindən çıxış yolu gələnə qədər səbir etməyi, dözməyi və əfv etməyi əmr edərək buyurur: "**Əgər səbir edib Allahdan qorxsanız, əlbəttə ki, bu, əzmkarlıq tələb edən əməllərdəndir**".

əl-Buxari رحمه الله Usamə ibn Zeyddən رضي الله عنهما rəvayət etmişdir ki, hələ Bədr döyüşündən əvvəl Peyğəmbər ﷺ üzərində Fədəkdə hazırlanmış palan olan uzunqulağına minib, Usaməni də tərkinə alıb Bəni Haris ibn Xəzrəc qəbiləsindəki Səd ibn Ubadəni ziyarət etdi. Yolda Peyğəmbər ﷺ Abdullah ibn Ubey ibn Səlulun olduğu bir məclisin yanından keçdi. O vaxt Abdullah ibn Ubey ibn Səlul hələ (zahirən) İslamı qəbul etməmişdi. Bu məclisdə həm müsəlmanlar, həm Allaha şərik qoşan bütpərəstlər, həm də yəhudilər iştirak edirdilər. Abdullah ibn Rəvaha da həmin məclisdə idi. Uzunqulağın qaldırdığı tozanaq məclisi bürüdükdə Abdullah ibn Ubey ibn Səlul bürüncəyi ilə burnunu tutub "Bizi tozlamayın!" dedi. Peyğəmbər ﷺ onlara salam verib dayandı, sonra (uzunqulaqdan) düşüb onları Allahın (dininə) dəvət etdi və onlara Quran ayələri oxudu. Abdullah ibn Ubey ibn Səlul dedi: "Ay adam, əgər sənin dediklərin doğrudursa, demək, bundan gözəl şey yoxdur. Amma gəl sən məclisimizdə belə şeylərlə bizə əziyyət vermə, get otur yerində və belə şeyləri sənin yanına gələn adamlara danış". Bu vaxt Abdullah ibn Rəvaha dedi: "Fikir vermə, ey Allahın Elçisi, sən məclislərimizdə bizə Qurandan danış, biz onu (dinləməyi çox) sevirik". (Bu vaxt ara qarışdı) müsəlmanlar, müşriklər və yəhudilər bir-birlərinə nalayiq sözlər söyləməyə başladılar və iş o yerə gəlib çatdı ki, onlar az qala vuruşacaqdılar. Peyğəmbər ﷺ

onları sakitləşdirməyə başladı. Haçandan-haçana onlar sakitləşdilər. Bundan sonra Peyğəmbər ﷺ uzunqulağına minib yoluna davam etdi. Nəhayət, gəlib Səd ibn Ubadənin ﵁ (evinə) daxil oldu və dedi: “Ey Səd, sən Əbu Hubabın nə dediyini eşitmədinmi? O, belə-belə dedi”. (Peyğəmbər ﷺ Əbu Hubab deyəndə) Abdullah ibn Ubey ibn Səlulu qəsd edirdi. Səd ibn Ubadə ﵁ dedi: “Ey Allahın Elçisi, onu əfv et, onun təqsirindən keç. Kitabı sənə nazil edən Allaha and olsun ki, Allah səni, sənə nazil etdiyi haqq ilə göndərdi. Halbuki (bir az əvvəl) bu şəhərin[1] əhalisi (Abdullah ibn Ubeyin) yanına gedib onun başına əmmamə qoymağa razılıq vermişdilər.[2] Allah sənə bəxş etdiyi haqq sayəsində bu işi alt-üst etdikdə isə, (Abdullahın) buna paxıllığı tutdu. Elə bu da onu gördüyün belə bir işi tutmağa vadar etdi”. Beləliklə, Peyğəmbər ﷺ onu bağışladı. Peyğəmbər ﷺ və onun səhabələri Allahın əmr etdiyi kimi, müşrikləri və Kitab əhlini əfv edər və (özlərinə verilən) əziyyətlərə səbir edərdilər. Qüdrətli və əzəmətli Allah buyurur: **“Siz hökmən malınız və canınızla sınaqdan keçiriləcəksiniz. Sizdən əvvəl Kitab verilənlərdən və müşriklərdən bir çox əziyyətverici sözlər eşidəcəksiniz. Əgər səbir edib Allahdan qorxsanız, bilin ki, bu, əzmkarlıq tələb edən əməllərdəndir”.** Həmçinin Allah buyurur: **“Kitab əhlindən bir çoxu həqiqəti bildikdən sonra da, paxıllıqları üzündən sizi siz iman gətirdikdən sonra kafirliyə qaytarmaq istəyərlər. Allah Öz əmri ilə gəlincəyə qədər onları bağışlayın və onlara baş qoşmayın! Həqiqətən, Allah hər şeyə qadirdir”** (“əl-Bəqərə”, 109). Peyğəmbər ﷺ Allahın kafirləri bağışlamağa dair əmrini olduğu kimi yozurdu.[3] Nəhayət, Allah Öz peyğəmbərinə ﷺ onlarla vuruşmağa izn verdi. Bədr döyüşündə Peyğəmbər ﷺ Qureyşin adlı-sanlı kafirlərini öldürdükdə Abdullah ibn Ubey ibn Səlul, habelə onun yanındakı müşriklər və bütpərəstlər “Bu iş (İslam dini) qarşısıalınmazdır. Haydı Rəsulullaha ﷺ beyət edin!” dedilər və İslamı zahirən qəbul etdilər”.[4]

Kim haqq üzərində olar və ya insanlara yaxşı işləri əmr edib pis işlərdən çəkindirərsə, mütləq ona əziyyət verilməlidir. O kimsənin Allah üçün səbir edib, Allahdan kömək diləmək və Allaha qayıtmaqdan başqa çarəsi yoxdur.

[1] Burada Mədinə şəhəri qəsd edilir.

[2] Yəni onu başçı seçmək istəyirdilər.

[3] Yəni onların təqsirlərindən keçirdi.

[4] əl-Buxari (8/173-175 Fəthul-Bari) (4566). (Əhməd Şakir). əl-Buxari, 4200, 4566, 5739, 6207.

﴿ وَإِذْ أَخَذَ ٱللَّهُ مِيثَٰقَ ٱلَّذِينَ أُوتُوا۟ ٱلْكِتَٰبَ لَتُبَيِّنُنَّهُۥ لِلنَّاسِ وَلَا تَكْتُمُونَهُۥ فَنَبَذُوهُ وَرَآءَ ظُهُورِهِمْ
وَٱشْتَرَوْا۟ بِهِۦ ثَمَنًا قَلِيلًا ۖ فَبِئْسَ مَا يَشْتَرُونَ ١٨٧ لَا تَحْسَبَنَّ ٱلَّذِينَ يَفْرَحُونَ بِمَآ أَتَوا۟ وَّيُحِبُّونَ أَن
يُحْمَدُوا۟ بِمَا لَمْ يَفْعَلُوا۟ فَلَا تَحْسَبَنَّهُم بِمَفَازَةٍ مِّنَ ٱلْعَذَابِ ۖ وَلَهُمْ عَذَابٌ أَلِيمٌ ١٨٨ وَلِلَّهِ مُلْكُ
ٱلسَّمَٰوَٰتِ وَٱلْأَرْضِ ۗ وَٱللَّهُ عَلَىٰ كُلِّ شَىْءٍ قَدِيرٌ ١٨٩ ﴾

**187. Allah Kitab verilənlərdən "Siz o kitabı mütləq insanlara açıqlayacaqsınız və onu gizlətməyəcəksiniz!" deyə əhd almışdı. Onlar isə bu əhdi qulaqardına vurub onu ucuz qiymətə satdılar. Onların bu alış-verişi necə də pisdir!**

**188. Etdikləri əməllərə görə sevinən və etmədikləri işlərə görə tərif olunmağı xoşlayan kimsələrin əzabdan qurtulacaqlarını əsla güman etmə. Onlar üçün ağrılı-acılı bir əzab vardır.**

**189. Göylərin və yerin hökmranlığı Allaha məxsusdur. Allah hər şeyə qadirdir.**

Bu ayə ilə Uca Allah Kitab əhlini məzəmmət edir və hədələyir. O Kitab əhli ki, Uca Allah onlardan peyğəmbərlərinin dili ilə Muhəmmədə ﷺ iman gətirəcəklərinə, peyğəmbərlik ərəfəsində insanlar arasında Onun adını xatırlayıb tərifləyəcəklərinə, Allah onu peyğəmbər olaraq göndərdikdə isə ona tabe olacaqlarına dair əhd almışdı. Onlar isə bu əhdi gizlətdilər və bu Peyğəmbərə ﷺ iman gətirəcəkləri təqdirdə onlara vəd edilən dünya və Axirət xeyrini daha aşağı və dəyərsiz, cüzi dünya mənfəətinə dəyişdilər. Onların etdikləri necə də pis sövdələşmədir və necə də pis ticarətdir.

Bu ayə ilə Uca Allah eyni zamanda ümmətin alimlərini Kitab əhlinin yolu ilə getməkdən çəkindirir ki, Kitab əhlinin başına gələn aqibət onların da başlarına gəlməsin və insanlar aldanıb onların yolu ilə getməsinlər. Bu səbəbdən alimlərin üzərinə düşən budur ki, sahib olduqları faydalı və saleh əməllərə yönəldən elmi insanlara çatdırmaqda var gücləri ilə çalışsınlar və bu elmdən heç bir şey gizlətməsinlər. Müxtəlif sənədlərlə rəvayət edilən hədisdə Peyğəmbər ﷺ demişdir: "Kimdən (dinə aid) bildiyi bir elm barədə soruşularsa və o, bunu gizlədərsə, Qiyamət günü boynuna atəşdən bir yüyən keçirilər".[1]

---

[1] Hədis "Musnəd" (7561) əsərində Əbu Hureyradan ؓ rəvayət olunur. "əl-Bəqərə" surəsinin 95-ci ayəsində qeyd olunub. Həmçinin əs-Səxavinin "əl-Məqasid əl-Həsənə" əsərinə (1135)

Uca Allah buyurur: "**Etdikləri əməllərə görə sevinən və etmədikləri işlərə görə tərif olunmağı xoşlayan kimsələrin əzabdan qurtulacaqlarını əsla güman etmə. Onlar üçün ağrılı-acılı bir əzab vardır**". Bu ayədə özlərində olmayan şeyləri var imiş kimi göstərməyə çalışan riyakarlar nəzərdə tutulur. Necə ki əl-Buxari və Muslimin "Səhih" əsərlərində rəvayət edilən bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Kim (özündə olanı) çox göstərmək məqsədilə yalan iddia edərsə, Allah ona azlıqdan başqa bir şey artırmaz[1]".[2] "Səhih" əsərində rəvayət olunan bir hədisdə isə belə buyurulur: "Özündə olmayan bir şeyi əldə etdiyini bildirən kimsə (özünü zahid göstərmək üçün) iki ədəd böhtan libası geymiş adam kimidir".[3]

İmam Əhməd ﷺ Humeyd ibn Abdur-Rahmən ibn Aufdan ﷺ rəvayət etmişdir ki, bir dəfə Mərvan qapıda duran gözətçilərdən birinə "Ey Rafi, get, İbn Abbasdan soruş ki, törətdikləri əməllərdən fərəhlənən və etmədikləri işlərə görə tərif olunmağı xoşlayan hər bir kəsə əzab veriləcəkmi? Bu o deməkdir ki, hamımıza əzab veriləcək?" İbn Abbas ﷺ dedi: "Bu ayənin sizə nə aidiyyəti var ki?! Bu ayə Kitab əhli barədə nazil olmuşdur". Sonra İbn Abbas ﷺ bu ayələri oxudu: "**Allah Kitab verilənlərdən: "Siz o kitabı mütləq insanlara açıqlayacaqsınız və onu gizlətməyəcəksiniz!", – deyə əhd almışdı. Onlar isə bu əhdi qulaqardına vurub onu ucuz qiymətə satdılar. Onların bu alış-verişi necə də pisdir! Etdikləri əməllərə görə sevnən və etmədikləri işlərə görə tərif olunmağı xoşlayan kimsələrin əzabdan qurtulacaqlarını əsla güman etmə. Onlar üçün ağrılı-acılı bir əzab vardır**". İbn Abbas ﷺ dedi: "Peyğəmbər ﷺ bir dəstə yəhudini yanına çağırıb onlardan bir məsələ barəsində soruşduqda

bax. (Əhməd Şakir). Əhməd, 7561; İbn Məcə, 264; Əbu Davud, 3660. Hədis səhihdir. Bax: Səhih əl-Cami, 6284.

[1] Yəni kim mal-dövlətini artırmaq üçün yalan danışarsa, Allah onun malına bərəkət verməz. Kim yalandan özünü alim kimi göstərərsə, Allah onun avamlığını üzə çıxarar və camaat ona hörmət qoymaz. Kim də yalandan dindar olduğunu iddia edərsə, Allah onu rüsvay edər, onun iç-üzünü aşkara çıxarar və onu hörmətdən salar.

[2] Muslimin (1/42) Sabit ibn əd-Dahhəkdən ﷺ rəvayət etdiyi hədisin bir hissəsidir. İbn Kəsir ﷺ bu cümləni əl-Buxari və Muslimə ﷺ nisbət etməklə səhvə yol vermişdir, çünki əl-Buxari ﷺ bu hədisin əslini bir neçə yerdə rəvayət etsə də, bu cümləni qeyd etməmişdir (1/389, 428. 11/468-469 Fəthul-Bari). əl-Hafiz İbn Həcər ﷺ bildirmişdir ki, bu əlavə Muslimin ﷺ rəvayətidir. Həmçinin Əhməd ﷺ də bu hədisin əslini rəvayət etmiş, lakin bu cümləni qeyd .etməmişdir (16456, 16463). (Əhməd Şakir). Muslim, 160, 316

[3] Hədisi əl-Buxari, Muslim, Əhməd və Əbu Davud ﷺ Əsma bint Əbu Bəkrdən ﷺ rəvayət etmişlər. Muslim ﷺ eyni hədisi Aişədən ﷺ də rəvayət etmişdir (2/167). (Əhməd Şakir). əl-Buxari, 4818, 5219; Muslim, 3972, 5705.

onlar həqiqəti gizlədib ona başqa cavab verdilər. Onlar Peyğəmbəri ﷺ soruşduğu məsələ barədə cavab verdiklərinə inandırdıqlarını sandılar və belə cavab verməklə öyünmək istədilər, həm də həqiqəti gizlətdiklərinə görə sevindilər".[1] Hədisi bu şəkildə əl-Buxari, Muslim, ət-Tirmizi, ən-Nəsəi, İbn Əbu Hatim, İbn Xuzeymə, əl-Hakim və İbn Mərdəveyh رحمهم الله rəvayət etmişlər.[2]

əl-Buxari رحمه الله Əbu Səid əl-Xudridən رضي الله عنه rəvayət etmişdir ki, Peyğəmbərin ﷺ dövründə Peyğəmbər ﷺ döyüşə çıxdıqda münafiqlərdən bəziləri ondan ayrılar və döyüşə getməyib Peyğəmbərə ﷺ müxalif olduqlarına sevinərdilər. Peyğəmbər ﷺ döyüşdən qayıtdıqda isə özlərinə bəraət qazandırmaq üçün bəhanələr gətirər və and içərdilər. Üstəlik, görmədikləri işlərə görə tərif olunmağı sevərdilər. Elə buna görə də bu ayə nazil oldu: **"Etdikləri əməllərə görə sevinən və etmədikləri işlərə görə tərif olunmağı xoşlayan kimsələrin əzabdan qurtulacaqlarını əsla güman etmə. Onlar üçün ağrılı-acılı bir əzab vardır".**[3] Oxşar hədisi Muslim رحمه الله də rəvayət etmişdir.[4]

Uca Allahın **"...əzabdan qurtulacaqlarını əsla güman etmə"** sözü iki formada oxunmuşdur. Birincisi, فَلاَ تَحْسَبَنَّهم [fələ təhsəbənnəhum] "**əsla güman etmə**"– ikinci şəxsə xitab formasında, ikincisi isə فَلاَ يَحْسَبَنَّهم [fələ yəhsəbənnəhum] "**əsla güman etməsinlər**"– üçüncü şəxsin xəbər formasında. Yəni belə edənlər əzabdan xilas olacaqlarını sanmasınlar. Onlara mütləq əzab veriləcək. Bu səbəbdən Uca Allah ayənin sonunda "**Onlar üçün ağrılı-acılı bir əzab vardır**" buyurur.

Uca Allah buyurur: "**Göylərin və yerin hökmranlığı Allaha məxsusdur. Allah hər şeyə qadirdir**", yəni O hər şeyin sahibidir. O hər şeyə qadirdir və heç bir şey Onu aciz qoya bilməz. Ondan qorxun və Ona qarşı çıxmayın. Onun qəzəbindən və əzabından qorxun. O Əzəmətlidir və Ondan daha əzəmətli heç nə yoxdur. O hər şeyə qadirdir, Ondan başqa heç kəs Onun kimi hər şeyə qadir ola bilməz.

[1] Əhməd, 2712. Şueyb əl-Arnavut isnadının əl-Buxari və Muslimin şərtlərinə əsasən həsən adlandırmışdır.
[2] "Musnəd" (2712), əl-Buxari (8/175-176 Fəthul-Bari). (Əhməd Şakir). Muslim, 4982, 7211.
[3] əl-Buxari, 4201, 4567.
[4] əl-Buxari (8/175 Fəthul-Bari). (Əhməd Şakir). Muslim, 2777, 4981.

﴿ إِنَّ فِي خَلۡقِ ٱلسَّمَٰوَٰتِ وَٱلۡأَرۡضِ وَٱخۡتِلَٰفِ ٱلَّيۡلِ وَٱلنَّهَارِ لَأٓيَٰتٖ لِّأُوْلِي ٱلۡأَلۡبَٰبِ ١٩٠ ٱلَّذِينَ
يَذۡكُرُونَ ٱللَّهَ قِيَٰمٗا وَقُعُودٗا وَعَلَىٰ جُنُوبِهِمۡ وَيَتَفَكَّرُونَ فِي خَلۡقِ ٱلسَّمَٰوَٰتِ وَٱلۡأَرۡضِ رَبَّنَا مَا
خَلَقۡتَ هَٰذَا بَٰطِلٗا سُبۡحَٰنَكَ فَقِنَا عَذَابَ ٱلنَّارِ ١٩١ رَبَّنَآ إِنَّكَ مَن تُدۡخِلِ ٱلنَّارَ فَقَدۡ أَخۡزَيۡتَهُۥۖ وَمَا
لِلظَّٰلِمِينَ مِنۡ أَنصَارٖ ١٩٢ رَّبَّنَآ إِنَّنَا سَمِعۡنَا مُنَادِيٗا يُنَادِي لِلۡإِيمَٰنِ أَنۡ ءَامِنُواْ بِرَبِّكُمۡ فَـَٔامَنَّاۚ رَبَّنَا
فَٱغۡفِرۡ لَنَا ذُنُوبَنَا وَكَفِّرۡ عَنَّا سَيِّـَٔاتِنَا وَتَوَفَّنَا مَعَ ٱلۡأَبۡرَارِ ١٩٣ رَبَّنَا وَءَاتِنَا مَا وَعَدتَّنَا عَلَىٰ رُسُلِكَ
وَلَا تُخۡزِنَا يَوۡمَ ٱلۡقِيَٰمَةِۗ إِنَّكَ لَا تُخۡلِفُ ٱلۡمِيعَادَ ١٩٤ ﴾

**190. Həqiqətən, göylərin və yerin yaradılışında, gecə ilə gündüzün bir-birini əvəz etməsində ağıl sahibləri üçün dəlillər vardır.**

**191. O kəslər ki ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edər, göylərin və yerin yaradılışı haqqında düşünər və deyərlər: "Ey Rəbbimiz! Sən bunları əbəs yerə yaratmamısan. Sən pak və müqəddəssən. Bizi Odun əzabından qoru!**

**192. Ey Rəbbimiz! Sən Oda saldığın kəsi, əlbəttə, rəzil etmiş olarsan. Zalımların heç bir köməkçisi olmaz.**

**193. Ey Rəbbimiz! Həqiqətən, biz "Rəbbinizə iman gətirin!" deyə imana çağıran bir çağırışçını eşidib iman gətirdik. Ey Rəbbimiz! Günahlarımızı bizə bağışla, təqsirlərimizdən keç və canımızı yaxşılarla bir yerdə al!**

**194. Ey Rəbbimiz! Öz elçilərinin vasitəsilə vəd etdiklərini bizə ver və Qiyamət günü bizi rəzil etmə! Şübhəsiz ki, Sən vədindən dönməzsən!"**

Ayənin mənası belədir: Uca Allah buyurur: "**Həqiqətən, göylərin və yerin yaradılışında**", yəni göylərin yüksəkliyi və genişliyində, yerin isə dərinliyi, sıxlığı və alçaqlığında, habelə onlarda müşahidə edilən ayə və dəlillərdə, axan və sabit olan ulduzlarda, dənizlərdə, dağlarda, çuxurlarda, ağaclarda, bitkilərdə, əkinlərdə, meyvələrdə, heyvanlarda, mədənlərdə və mənfəətlərdə, müxtəlif rənglərin, dadların, qoxuların və xüsusiyyətlərin olmasında, "**gecə ilə gündüzün bir-birini əvəz etməsində**", yəni gecə ilə gündüzün bir-birinin ardınca gəlməsində, uzunluq və qısalıqda bir-birlərindən alıb-verməlerində – bəzən biri uzanıb digəri qısalır, sonra bərabərləşirlər, sonra isə, əksinə, qısa olan uzun olandan alır və uzanır, uzun olan isə qısalır – bütün bunlarda ağıl sahibləri üçün ibrətlər vardır. Bunların hamısı Qüdrətli və Müdrik Allahın müəyyən etdiyi əzəli hökmüdür. Bu səbəbdən Uca Allah

ayənin sonunda "**ağıl sahibləri üçün dəlillər vardır**" buyurur. Yəni varlıqları tam aydınlığı və gerçəkliyi ilə dərk edən ağıl sahibləri üçün dəlillər vardır. Onlar Uca Allahın barələrində "**Göylərdə və yerdə neçə-neçə dəlillər vardır ki, insanların çoxu onların yanından üz çevirib keçirlər. Onların çoxu ancaq şərik qoşaraq Allaha iman gətirir**" ("Yusuf", 105-106) buyurduğu haqqı anlamayan karlar və lallar kimi deyillər.

Sonra Uca Allah bu ağıl sahiblərini vəsf edərək buyurur: "**O kəslər ki ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edər...**" Necə ki əl-Buxarinin "Səhih" əsərində İmran ibn Husayndan ﵁ rəvayət edilir ki, Peyğəmbər ﷺ demişdir: "Namazı ayaq üstə qıl, bacarmırsansa, oturan yerdə qıl, (bunu da) bacarmırsansa, uzanan yerdə qıl".[1] Yəni onlar heç bir halda – gizlində, qəlblərində və dilləri ilə Allahı zikr etməyi tərk etməzlər. **"...göylərin və yerin yaradılışı haqqında düşünər**", yəni onları yaradanın böyüklüyünə, qadir olmasına, elminə, hikmətinə, ixtiyar sahibi olmasına və rəhmətinə dəlalət edən hikmətləri başa düşərlər.

Uca Allah bir çox ayələrdə Özünün zatına, sifətlərinə, şəriətinə, qədərinə və ayələrinə dəlalət edən varlıqlarından ibrət almayanları qınayaraq buyurur: "**Göylərdə və yerdə neçə-neçə dəlillər vardır ki, insanların çoxu onların yanından üz çevirib keçirlər. Onların çoxu ancaq şərik qoşaraq Allaha iman gətirir**" ("Yusuf", 105-106). Burada isə mömin qullarını tərifləyərək buyurur: "**O kəslər ki ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edər, göylərin və yerin yaradılışı haqqında düşünər və deyərlər: "Ey Rəbbimiz! Sən bunları əbəs yerə yaratmamısan**", yəni onlar deyərlər: "Ey Rəbbimiz, Sən bunları boş yerə deyil, pislik edənləri etdikləri günaha görə cəzalandırmaq, yaxşılıq edənləri isə etdikləri yaxşılığa görə mükafatlandırmaq üçün yaratmısan". Sonra onlar Uca Allahın məxluqatı əbəs yerə yaratmaqdan uzaq və pak olduğunu bildirərək deyərlər: "**Sən pak və müqəddəssən**", yəni, Allahım, Sən bir şeyi əbəs yerə yaratmaqdan uzaqsan. "**Bizi Odun əzabından qoru!**", yəni, ey varlıqları haqq və ədalətlə Yaradan, nöqsanlardan, eyiblərdən və haqsızlıqlardan uzaq olan, Öz gücün və qüvvətinlə bizi Cəhənnəm əzabından qoru! Bizi razı qalacağın əməllərə yönəlt və Nəim cənnətlərinə aparacaq, şiddətli əzabından qoruyacaq saleh əməllərə müvəffəq et!

---

[1] əl-Buxari (2/483-484 Fəthul-Bari). Bəzi nüsxələrdə hədis əl-Buxari və Muslimə ﵄ nisbət olunur. Bu isə səhvdir. əl-Hafiz İbn Həcər "Fəthul-Bari" əsərində bildirmişdir ki, bu hədisi yalnız əl-Buxari rəvayət etmişdir. (Əhməd Şakir). əl-Buxari, 1050, 1117.

Sonra belə deyərlər: "**Ey Rəbbimiz! Sən Oda saldığın kəsi, əlbəttə, rəzil etmiş olarsan**", yəni onu alçaldar və Qiyamət günü toplanan hər kəsin qarşısında rəzil edərsən. "**Zalımların heç bir köməkçisi olmaz**", yəni Qiyamət günü zalımları Səndən qurtaracaq heç kim tapılmaz və Sənin onlara etmək istədiyindən qurtula bilməzlər. "**Ey Rəbbimiz! Həqiqətən, biz "Rəbbinizə iman gətirin!" deyə imana çağıran bir çağırışçını eşidib iman gətirdik**", yəni bizi imana çağıran dəvətçini – Peyğəmbəri ﷺ eşitdik. Bu Peyğəmbər "**Rəbbinizə iman gətirin!**" deyirdi, biz də onun çağırışını qəbul etdik və iman gətirdik. "**Ey Rəbbimiz! Günahlarımızı bizə bağışla"**– ey Rəbbimiz, Sənin peyğəmbərinə iman gətirib, tabe olduğumuz üçün günahlarımızı bağışla. Yəni günahlarımızın üstünü ört, "**təqsirlərimizdən keç**"– Səninlə bizim aramızda olan günahlarımızı keç "**və canımızı yaxşılarla bir yerdə al!**", yəni bizi əməlisalehlərə qovuşdur.

"**Ey Rəbbimiz! Öz elçilərinin vasitəsilə vəd etdiklərini bizə ver**". Bəzi alimlər bu ayənin təfsirində demişlər: "Yəni elçilərinə iman gətirdiyimiz təqdirdə bizə vəd etdiyin mükafatı ver". Bəzi alimlər isə demişlər: "Yəni elçilərinin dilləri ilə vəd etdiklərini bizə ver". İkinci təfsir daha doğrudur. "**Qiyamət günü bizi rəzil etmə!**" Qiyamət günü insanların içində bizi rəzil etmə. "**Şübhəsiz ki, Sən vədindən dönməzsən!**", yəni elçilərinə verdiyin vədin – Qiyamət günü hüzuruna toplaşmağımız – mütləq baş verəcəkdir. Hədislərdə rəvayət edilir ki, Peyğəmbər ﷺ "Ali-İmran" surəsinin bu on ayəsini gecə namazına qalxdıqda oxuyardı. əl-Buxari رحمه الله İbn Abbasdan رضي الله عنه rəvayət etmişdir ki, bir gecə xalam Məymunənin evində gecələdim. Peyğəmbər ﷺ ailəsi ilə bir qədər söhbət etdikdən sonra yatdı. Gecənin son üçdə biri çatdıqda qalxıb yerində oturdu və göyə baxaraq "**Həqiqətən, göylərin və yerin yaradılışında, gecə ilə gündüzün bir-birini əvəz etməsində ağıl sahibləri üçün dəlillər vardır**" ayəsini oxudu. Sonra qalxıb dəstəmaz aldı və dişlərini misvakla təmizlədi. Sonra on bir rükət namaz qıldı. Bilal (Sübh namazı üçün) azan verdikdən sonra iki rükət (sübh namazının sünnəsini) qıldı. Sonra (məscidə) çıxdı və insanlara Sübh namazını qıldırdı".[1] Hədisi Muslim رحمه الله də rəvayət etmişdir.[2]

[1] əl-Buxari, 4203, 4569.

[2] əl-Buxari (8/176-177 Fəthul-Bari), Muslim (1/211-214), Əhməd (2164, 3372). (Əhməd Şakir).

﴿ فَٱسۡتَجَابَ لَهُمۡ رَبُّهُمۡ أَنِّي لَآ أُضِيعُ عَمَلَ عَٰمِلٖ مِّنكُم مِّن ذَكَرٍ أَوۡ أُنثَىٰۖ بَعۡضُكُم مِّنۢ بَعۡضٖۖ
فَٱلَّذِينَ هَاجَرُواْ وَأُخۡرِجُواْ مِن دِيَٰرِهِمۡ وَأُوذُواْ فِي سَبِيلِي وَقَٰتَلُواْ وَقُتِلُواْ لَأُكَفِّرَنَّ عَنۡهُمۡ سَيِّـَٔاتِهِمۡ
وَلَأُدۡخِلَنَّهُمۡ جَنَّٰتٖ تَجۡرِي مِن تَحۡتِهَا ٱلۡأَنۡهَٰرُ ثَوَابٗا مِّنۡ عِندِ ٱللَّهِۚ وَٱللَّهُ عِندَهُۥ حُسۡنُ ٱلثَّوَابِ ١٩٥ ﴾

**195. Rəbbi onlara belə cavab verdi: “Mən sizlərdən yaxşı işlər görən – istər kişi, istərsə də qadın olsun, – heç bir kəsin əməyini puç etmərəm. Siz bir-birinizdənsiniz. Hicrət edənlərin, öz yurdlarından çıxarılanların, Mənim yolumda əziyyətə düçar olanların, vuruşanların və öldürülənlərin, əlbəttə, təqsirlərindən keçəcək və onları altından çaylar axan cənnətlərə daxil edəcəyəm. Bu, Allah tərəfindən bir mükafatdır. Gözəl mükafat məhz Allah yanındadır”.**

Uca Allah buyurur: “**Rəbbi onlara belə cavab verdi**”, yəni onların dualarını qəbul edib cavab verdi.

Səid ibn Mənsur rəvayət etmişdir ki, bir dəfə Ummu Sələmə Peyğəmbərə ﷺ dedi: “Ey Allahın Elçisi, biz Uca Allahın hicrət barəsində qadınları zikr etdiyini heç eşitməmişik”. Bu səbəbdən Uca Allah: “**Rəbbi onlara belə cavab verdi: “Mən sizlərdən yaxşı işlər görən – istər kişi, istərsə də qadın olsun, – heç bir kəsin əməyini puç etmərəm**” ayəsini sonuna qədər nazil etdi. Ənsarlar Ummu Sələmənin kəcavədə[1] Mədinəyə gələn ilk mühacir qadın olduğunu demişlər”.[2] Hədisi əl-Hakim rəvayət etmiş, sonra demişdir: “əl-Buxarinin şərtlərinə görə səhihdir, lakin əl-Buxari və Muslim rəvayət etməmişlər”.[3]

Ayənin mənası isə belədir: Ağıl sahibləri olan möminlər Rəblərinə dua edərək əvvəlki ayələrdə keçənləri istədikdə, Rəbləri onların bu dualarını qəbul etdi. Necə ki başqa bir ayədə bu xüsusda buyurur: “**Qullarım səndən Mənim barəmdə soruşsalar, sözsüz ki, Mən onlara yaxınam, Mənə yalvaranın duasını yalvardığı vaxt qəbul edərəm. Gərək onlar da Mənim çağırışımı qəbul etsinlər və Mənə iman gətirsinlər ki, doğru yola yönəlsinlər**” (“əl-Bəqərə”, 186).

[1] Kəcavə – şərqdə səfərə çıxan qadınlar üçün minik heyvanlarının üstündə düzəldilən örtülü yerdir.

[2] əl-Hakim, 3174; ət-Tirmizi, 3296; əl-Humeydi, 320; ət-Təbəri, 8415, 8416. Hədis səhihdir. Bax: Səhih və Daif Sunən ət-Tirmizi, 3023.

[3] “əl-Mustədrək” (2/300). Oxşar hədisi ət-Təbəri də rəvayət etmişdir (8367-8369). (Əhməd Şakir).

Uca Allah buyurur: "**Mən sizlərdən yaxşı işlər görən – istər kişi, istərsə də qadın olsun, – heç bir kəsin əməyini puç etmərəm**"- bu, Rəblərinin onlara cavabının açıqlamasıdır. Yəni Rəbləri onların dualarına cavab verərək Öz qatında heç bir yaxşı iş görənin əməyinin boşa çıxarmayacağını, istər kişi olsun, istər qadın – hər kəsi etdiyi yaxşılığa uyğun mükafatlandıracağını bildirir.

Uca Allah buyurur: "**Siz bir-birinizdənsiniz**", yəni etdikləri yaxşı əməllərə görə savabımı qazanmaq baxımından (kişi və qadınlar) eynidirlər. "**Hicrət edənlərin**", yəni şirk ölkəsini tərk edərək iman ölkəsinə gələn, sevdiklərindən, dostlarından, qardaşlarından və qonşularından ayrılanların, "**öz yurdlarından çıxarılanların**", yəni müşriklərin əziyyət edərək sıxışdırdığı və onları aralarından çıxmağa məcbur etdikləri kəslərin, "**Mənim yolumda əziyyətə düçar olanların**", yəni insanlara görə onların günahları tək Allaha iman gətirmələri olmuşdur. Necə ki Uca Allah bu xüsusda başqa ayələrdə buyurur: "**Rəbbiniz olan Allaha iman gətirdiyiniz üçün onlar Peyğəmbəri və sizi yurdunuzdan qovub çıxardırlar**" ("əl-Mumtəhənə", 1); "**Kafirlər onlardan yalnız Qüdrətli, Tərifəlayiq Allaha iman gətirdiklərinə görə intiqam alırdılar**" ("əl-Buruc", 8).

Uca Allah buyurur: "**vuruşanların və öldürülənlərin**". Allah yolunda döyüşərək yaralanmaq, üzün qana və torpağa bulaşması ən üstün məqamdır. "Səhih" əsərində olan bir hədisdə rəvayət edilir ki, bir kişi Peyğəmbərdən ﷺ soruşdu: "Ey Allahın Elçisi, əgər mən səbir edərək, savabını Allahdan umaraq, çevrilib qaçmadan davamlı irəliləyərək Allah yolunda vuruşsam və öldürülsəm, Allah mənim günahlarımı bağışlayarmı?" Peyğəmbər ﷺ "Bəli" deyə cavab verdi. Sonra dedi: "Necə dedin?" Kişi dediyini təkrarladıqda Peyğəmbər ﷺ dedi: "Bəli, yalnız borcdan başqa. Bunu bir az əvvəl mənə Cəbrail söylədi".[1] Bu səbəbdən Uca Allah "**əlbəttə, təqsirlərindən keçəcək və onları altından çaylar axan cənnətlərə daxil edəcəyəm**"- buyurur. Yəni ağacları arasından süddən, baldan, şərabdan, rəngi və dadı dəyişməyən sulardan və digər müxtəlif içkilərdən çaylar, habelə heç bir gözün görmədiyi, heç bir qulağın eşitmədiyi və heç bir insanın təsəvvür edə bilmədiyi nemətlər olacaqdır.

[1] Muslim (2/97-98) Əbu Qatədədən ﷺ rəvayət etmişdir. Hədisi həmçinin Əhməd "Musnəd" əsərində (5/303-304 Hələbi nəşri), ət-Tirmizi (3/35-36), ən-Nəsəi (2/62) rəvayət etmişlər. əl-Munziri ﷺ hədisi "ət-Tərğib" əsərində qeyd etmişdir (2/189-190). Bəzi nüsxələrdə hədis əl-Buxari və Muslimin "Səhih" əsərlərinə nisbət olunur. Lakin bu səhvdir, əlyazmalarda yalnız Muslimə ﷺ nisbət olunur. əl-Buxari ﷺ bu hədisi rəvayət etməmişdir. (Əhməd Şakir). ən-Nəsəi "Sunən" 3155, 3168, 4363. Hədis səhihdir. Bax: Səhih əl-Cami, 1425.

Uca Allah buyurur: "**Bu, Allah tərəfindən bir mükafatdır**". Uca Allah mükafatın və savabın əzəmətli olmasını bildirmək üçün onları Özünə nisbət etmişdir. Çünki Əzəmətli və Səxavətli olanın verdiyi mükafat və savab da bol olar. "**Gözəl mükafat məhz Allah yanındadır**", yəni yaxşı əməl edənin mükafatı ən gözəl şəkildə Allah qatındadır.

﴿ لَا يَغُرَّنَّكَ تَقَلُّبُ ٱلَّذِينَ كَفَرُواْ فِي ٱلْبِلَٰدِ ١٩٦ مَتَٰعٞ قَلِيلٞ ثُمَّ مَأْوَىٰهُمْ جَهَنَّمُۖ وَبِئْسَ ٱلْمِهَادُ ١٩٧
لَٰكِنِ ٱلَّذِينَ ٱتَّقَوْاْ رَبَّهُمْ لَهُمْ جَنَّٰتٞ تَجْرِي مِن تَحْتِهَا ٱلْأَنْهَٰرُ خَٰلِدِينَ فِيهَا نُزُلٗا مِّنْ عِندِ ٱللَّهِۗ
وَمَا عِندَ ٱللَّهِ خَيْرٞ لِّلْأَبْرَارِ ١٩٨ ﴾

**196. Qoy kafirlərin rifah içində diyarbədiyar gəzib dolaşması səni aldatmasın!**
**197. Bu, az bir mənfəətdir. Sonra isə onların gedəcəkləri yer Cəhənnəmdir. Ora nə pis yataqdır!**
**198. Fəqət öz Rəbbindən qorxanlar üçün, Allahdan bir ziyafət olaraq, altından çaylar axan, içində əbədi qalacaqları cənnətlər vardır. Allah yanında olan nemətlər yaxşılar üçün daha xeyirlidir.**

Uca Allah bu ayədə buyurur: "Kafirlərin dünyada cah-calal içində sevinc və şadlıqla yaşamalarına baxmayın. Az bir zaman sonra bunların hamısı sona çatacaq və onlar etdikləri pis əməllərinin əsirinə çevriləcəklər. Biz onların özlərinin də bilməyəcəkləri bir yerdən tədricən tovlayıb məhvə aparmaq və küfrlərini artırmaq üçün cah-calal içində ömürlərini uzadırıq. Onların sahib olduqları "**Bu, az bir mənfəətdir. Sonra isə onların gedəcəkləri yer Cəhənnəmdir. Ora nə pis yataqdır!**" Bu ayə Uca Allahın bu ayələrinə bənzəyir: "**Allahın ayələri barəsində yalnız kafirlər mübahisə edərlər. Onların şəhərlərdə gəzib-dolaşmaları səni aldatmasın**" ("Ğafir", 4); "**De: "Şübhəsiz ki, Allaha qarşı yalan uyduranlar nicat tapmazlar. Onlar bir müddət dünyada faydalanar; sonra onların dönüşü Bizə olar. Sonra da küfr etdiklərinə görə onlara şiddətli əzab daddırarıq**" ("Yunus", 69-70); "**Biz onlara dünyada olan nemətlərdən az bir müddət istifadə etməyə imkan verəcək, sonra da onları ağır bir əzaba qatlaşmağa məcbur edəcəyik**" ("Loğman", 24); "**Kafirlərə hələ möhlət ver! Onlara bir az da möhlət ver**" ("ət-Tariq", 17); "**Məgər verdiyimiz gözəl bir vədə** (Cənnətə) **qovuşan kimsə, dünya həyatının keçici zövqünü bəxş etdiyimiz, sonra da Qiyamət günü**

**Cəhənnəmə gətiriləcək kimsə ilə eyni ola bilər?**" ("əl-Qəsəs", 61).

Uca Allah kafirlərin dünyadakı hallarını və son dönüşlərinin Cəhənnəm olacağını bildirdikdən sonra belə buyurur: "**Fəqət öz Rəbbindən qorxanlar üçün, Allahdan bir ziyafət olaraq, altından çaylar axan, içində əbədi qalacaqları cənnətlər vardır. Allah yanında olan nemətlər yaxşılar üçün daha xeyirlidir**".

﴿ وَإِنَّ مِنْ أَهْلِ ٱلْكِتَٰبِ لَمَن يُؤْمِنُ بِٱللَّهِ وَمَآ أُنزِلَ إِلَيْكُمْ وَمَآ أُنزِلَ إِلَيْهِمْ خَٰشِعِينَ لِلَّهِ لَا
يَشْتَرُونَ بِـَٔايَٰتِ ٱللَّهِ ثَمَنًا قَلِيلًا ۗ أُو۟لَٰٓئِكَ لَهُمْ أَجْرُهُمْ عِندَ رَبِّهِمْ ۗ إِنَّ ٱللَّهَ سَرِيعُ ٱلْحِسَابِ
﴿١٩٩﴾ يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوا۟ ٱصْبِرُوا۟ وَصَابِرُوا۟ وَرَابِطُوا۟ وَٱتَّقُوا۟ ٱللَّهَ لَعَلَّكُمْ تُفْلِحُونَ ﴿٢٠٠﴾ ﴾

**199. Doğrusu, Kitab əhlindən elələri də var ki, onlar Allaha, həm sizə nazil edilənə, həm də özlərinə nazil edilənə, Allaha müti olaraq iman gətirər, Allahın ayələrini ucuz qiymətə satmazlar. Məhz onların öz Rəbbi yanında mükafatları vardır. Şübhəsiz ki, Allah tez haqq-hesab çəkəndir.**

**200. Ey iman gətirənlər! Səbir edin, düşmən qarşısında dözümlü olun,** (Allah yolunda) **keşik çəkin və Allahdan qorxun ki, bəlkə, nicat tapasınız!**

Bu ayələrdə Uca Allah Kitab əhlindən bir toplum barədə xəbər verərək onların Allaha düzgün şəkildə iman gətirdiklərini bildirir. Belə ki onlar daha əvvəl nazil olmuş kitablara iman gətirməklə bərabər, Muhəmmədə ﷺ nazil olan Kitaba da iman gətirmişlər. "**Allaha müti olaraq iman gətirər**", yəni Allaha itaət edərək və Onun qarşısında zəlil bir halda dayanaraq boyun əyərlər, "**Allahın ayələrini ucuz qiymətə satmazlar**", yəni onlar özlərində olan Muhəmmədə ﷺ dair müjdələri, onun vəsflərini, peyğəmbər olaraq göndəriləcəyini və onun ümmətinin vəsflərini gizlətməzlər. Onlar Kitab əhlinin ən yaxşıları və seçilmişləridir. Fərq etməz – istər xaçpərəst olsun, istər yəhudi. Uca Allah "əl-Qəsəs" surəsində buyurur: "**Qurandan əvvəl özlərinə Kitab verdiyimiz kəslər ona iman gətirirlər. Onlara Quran oxunduğu zaman "Biz ona iman gətirdik. O, həqiqətən də, Rəbbimizdən olan haqdır. Biz ondan əvvəl də müsəlman idik!" deyirlər. Səbir etdiklərinə görə onlara mükafatları ikiqat veriləcək. Onlar pisliyi yaxşılıqla dəf edir və özlərinə verdiyimiz ruzidən Allah yolunda xərcləyirlər**" ("əl-Qəsəs", 52-54). Başqa bir ayədə buyurur: "**Kitab verdiyimiz kəslər onu layiqincə oxuyurlar. Onlar ona iman gətirirlər**"

("əl-Bəqərə", 121); "**Musanın qövmündən elə bir camaat var ki, haqq ilə insanları doğru yola yönəldir və onun sayəsində ədalətlə hökm verirlər**" ("əl-Əraf", 159); "**Onların hamısı eyni deyil. Kitab əhli içərisində dinində sabitqədəm bir toplum vardır ki, onlar gecələri səcdəyə qapanıb Allahın ayələrini oxuyurlar**" ("Ali-İmran", 113); "**De: "İstər ona inanın, istərsə də inanmayın. Doğrudan da, ondan əvvəl özlərinə elm verilmiş kimsələrə, ayələr oxunduğu zaman üz üstə səcdəyə qapanır və "Rəbbimiz pak və müqəddəsdir! Rəbbimizin vədi mütləq yerinə yetəcəkdir!" deyirlər. Onlar üzüqoylu düşüb ağlayır və bu ayələr onların itaətini artırır**" ("əl-İsra", 107-109).

Bu sifətlər yəhudilərdə olsa da, çox azdır. Necə ki Abdullah ibn Səlam ﷺ və ona bənzər yəhudi elm adamlarından iman gətirənlərdə bu sifətlər olmuşdur. Belə yəhudilərin sayı on nəfərə belə çatmamışdır. Xaçpərəstlərdən doğru yolu seçib haqqa boyun əyənlər isə daha çoxdur. Necə ki Uca Allah bu xüsusda belə buyurur: "**Yəhudiləri və müşrikləri iman gətirənlərə qarşı düşmənçilik edən insanların ən pisi olduğunu görəcəksən. "Biz xaçpərəstik!" deyənləri isə dostluq baxımından iman gətirənlərə ən yaxın olduğunu görəcəksən. Çünki onların arasında keşişlər və rahiblər var və onlar təkəbbürlük göstərmirlər. Allahın elçisinə nazil ediləni dinlədikləri zaman haqqı bildiklərinə görə onların gözlərinin yaşla dolduğunu görərsən. Onlar deyərlər: "Ey Rəbbimiz! Biz iman gətirdik, bizi də şahidlərlə bir yerə yaz! Rəbbimizin bizi əməlisaleh insanlarla birlikdə Cənnətə daxil edəcəyinə ümid etdiyimiz halda nə üçün biz Allaha və bizə gələn haqqa inanmayaq?!" Belə dediklərinə görə, Allah onlara altından çaylar axan, içində əbədi qalacaqları cənnətlər verdi. Yaxşı iş görənlərin mükafatı budur**" ("əl-Maidə", 82-85). Burada isə belə buyurur: "**Məhz onların öz Rəbbi yanında mükafatları vardır. Şübhəsiz ki, Allah tez haqq-hesab çəkəndir**".

əl-Buxari və Muslimin "Səhih" əsərlərində rəvayət olunur ki, Həbəşistan kralı Nəcaşi ﷺ vəfat etdikdə Peyğəmbər ﷺ onun ölüm xəbərini səhabələrinə xəbər verərək "Həbəşistanda bir qardaşınız vəfat etmişdir. Ona cənazə namazı qılın!" dedi. Peyğəmbər ﷺ ona cənazə namazı qılmaq üçün səhraya çıxdı və səhabələrini səf-səf düzərək cənazə namazı qıldı.[1]

İbn Əbu Hatim və İbn Mərdəveyh ﷺ rəvayət etmişlər ki, Ənəs ibn Malik ﷺ belə dedi: "Həbəşistan kralı Nəcaşi vəfat etdikdə Peyğəmbər

[1] Muslim, 1585, 2254.

ﷺ səhabələrinə "Qardaşınız üçün Allahdan bağışlanma diləyin!" dedi. Bəzi insanlar "Həbəşistanda ölən kafir bir adama Allahdan bağışlanma diləməyi bizə əmr edir" dedikdə Uca Allah: "**Doğrusu, Kitab əhlindən elələri də var ki, onlar Allaha, həm sizə nazil edilənə, həm də özlərinə nazil edilənə, Allaha müti olaraq iman gətirər**" ayəsini nazil etdi".[1]

əl-Hakim ﷺ rəvayət etmişdir ki, Abdullah ibn əz-Zubeyr ﷺ demişdir: "Nəcaşiyə qarşı onların torpaqlarından bir düşmən çıxdı. Həbəşistana hicrət etmiş müsəlmanlar Nəcaşinin yanına gəlib dedilər: "Biz də səninlə çıxıb düşmənə qarşı vuruşmaq istəyirik. Beləcə, sən bizim cəsarətimizi görmüş olarsan və biz də etdiyin yaxşılığın əvəzini vermiş olarıq". Nəcaşi dedi: "Xeyr, Allahın köməyi ilə gələn dərd insanların köməyi ilə edilən əlacdan daha xeyirlidir". Uca Allahın "**Doğrusu, Kitab əhlindən elələri də var ki, onlar Allaha, həm sizə nazil edilənə, həm də özlərinə nazil edilənə, Allaha müti olaraq iman gətirər**" ayəsi də onun barəsində nazil olmuşdur".[2] Sonra əl-Hakim ﷺ demişdir: "Bu, isnadı səhih olan hədisdir, lakin əl-Buxari və Muslim ﷺ onu rəvayət etməmişlər".[3]

əl-Buxari və Muslimin "Səhih" əsərlərində Əbu Musadan ﷺ rəvayət edilən bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Üç qisim insan var ki, onlara ikiqat savab yazılır". Sonra Peyğəmbər ﷺ bu üç qisim arasında "Kitab əhlindən olub öz peyğəmbərinə iman gətirmiş, sonra da mənə iman gətirən kəs" olduğunu bildirmişdir.[4]

Uca Allah buyurur: "**Allahın ayələrini ucuz qiymətə satmazlar**", yəni onlar özlərindən rəzil bir toplumun etdiyi kimi sahib olduqları elmi gizlətməzlər. Əksinə, bu elmi qarşılıqsız olaraq insanlara öyrədərlər. Bu səbəbdən Uca Allah "**Məhz onların öz Rəbbi yanında mükafatları vardır. Şübhəsiz ki, Allah tez haqq-hesab çəkəndir**" buyurur. Mucahid ﷺ "**Şübhəsiz ki, Allah tez haqq-hesab çəkəndir**"-ayəsi barədə demişdir: "Yəni tez hesablayandır".

Uca Allah buyurur: "**Ey iman gətirənlər! Səbir edin, düşmən qarşısında dözümlü olun,** (Allah yolunda) **keşik çəkin**". əl-Həsən

[1] əl-Heysəmi ﷺ oxşar hədisi "əz-Zəvaid" əsərində (3/38) qeyd etmiş və demişdir: "Hədisi əl-Bəzzər və ət-Təbərani "əl-Əvsət" əsərində rəvayət etmişlər". (Əhməd Şakir). İbn Əbu Hatim, 4682.

[2] əl-Hakim, 3175. Hədis zəifdir, çünki hədis rəvayətçiləri arasında Musab adlı ravinin hafizəsi zəifdir. Bax: Mizan, 4/188-189; ət-Təqrib, 2/251. (Əhməd Şakir).

[3] əl-Mustədrək (2/300). əz-Zəhəbi ﷺ hədisin səhih olması ilə razılaşmışdır. (Əhməd Şakir).

[4] əl-Buxari, 219, 3011.

əl-Bəsri ﷺ demişdir: "Bu ayə ilə iman gətirənlərə Allahın onlar üçün seçdiyi İslam dini uğrunda səbir etmək, müsəlman olaraq ölənə qədər – həm bolluqda, həm qıtlıqda, həm çətinlikdə, həm də rahatlıqda bu dini tərk etməmək, düşmənə qarşı səbir və dözümlülük göstərmək əmr olunur". Sələf alimlərindən bir çoxları da belə demişlər.

Ayədəki "**keşik çəkin**" sözünə gəlincə, bu, ibadət yerində davamlı qalmaq deməkdir. Bəzi alimlər bu sözü bir namazdan sonra oturub növbəti namazı gözləmək kimi də təfsir etmişlər. Bu təfsiri İbn Abbas, Səhl ibn Huneyf, Muhəmməd ibn Kəb əl-Qurazi və başqaları ﷺ demişlər.

İbn Əbu Hatim ﷺ burada, Muslim və ən-Nəsəinin ﷺ Əbu Hureyradan ﷺ rəvayət etdikləri bu hədisi qeyd etmişdir. Əbu Hureyra ﷺ rəvayət etmişdir ki, bir dəfə Peyğəmbər ﷺ dedi: "Sizə sayəsində Uca Allahın günahları sildiyi və dərəcələri qaldırdığı əməlləri bildirimmi? Bu əməllər; çətinliklərə rəğmən gözəl şəkildə dəstəmaz almaq, məscidlərə gedərkən çox sayda addım atmaq və bir namazdan sonra digər namazı gözləməkdir. Bunlar keşiyində durmağa layiq işlərdir. Bunlar keşiyində durmağa layiq işlərdir. Bunlar keşiyində durmağa layiq işlərdir".[1]

Bəzi alimlər isə ayədə "**keşik çəkin**" dedikdə düşmənlə sərhəddə dayanıb keşik çəkməyin, yəni İslam hüdudlarını qoruyaraq düşmənin müsəlmanların ölkələrinə girməsinə mane olmağın nəzərdə tutulduğunu demişlər. Sünnədə bu əmələ təşviq edən hədislər varid olmuş və bu əməlin savabının çox olduğu bildirilmişdir. əl-Buxarinin "Səhih" əsərində Səhl ibn Sad əs-Saididən ﷺ rəvayət edilir ki, Peyğəmbər ﷺ demişdir: "Allah yolunda bir gün sərhəddə keşik çəkmək dünya və onun üzərindəkilərdən daha xeyirlidir".[2] Muslim ﷺ Salman əl-Farisidən ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Allah yolunda (müsəlmanı qorumaq üçün) bir gün və bir gecə keşik çəkmək, bir ay oruc tutmaqdan və gecə namazlarına qalxmaqdan daha xeyirlidir. Əgər o əsnada ölərsə, etdiyi əməlin savabı ona yazılmaqda davam edər, ruzi verilər və qəbir sorğu-sualını aparan mələkdən (Munkər və Nəkir mələklərindən) əminlikdə olar".[3]

---

[1] Muslim (1/86), Əhməd (7208, 7715, 8008), ət-Təbəri (8397, 8398). (Əhməd Şakir). Muslim, 369, 610; ən-Nəsəi "Sunən" 143.

[2] əl-Buxari, 2678, 2892.

[3] Muslim, 3537, 5047.

İmam Əhməd ﷺ Fudalə ibn Ubeyddən ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Hər kəs öldükdən sonra əməl dəftəri bağlanır. Yalnız Allah yolunda (sərhəddə) keşik çəkəndən başqa. Onun əməli Qiyamət gününədək artar və qəbir imtahanından əminlikdə olar".[1] Hədisi Əbu Davud və ət-Tirmizi ﷺ eyni şəkildə rəvayət etmişlər. ət-Tirmizi ﷺ demişdir: "Hədis həsən-səhihdir". Hədisi həmçinin İbn Hibban "Səhih" əsərində rəvayət etmişdir.[2]

əl-Buxari "Səhih" əsərində Əbu Hureyradan ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Dinarın qulu, dirhəmin qulu və zər-zibalı paltarın qulu bədbəxt olsun! Beləsinə bir şey verilsə, razı qalar, verilməsə, qəzəblənər. Beləsi bədbəxt olsun, azar canından çıxmasın və bədəninə batan tikanı çıxardacaq bir kimsə tapılmasın! Saçları dağınıq və ayaqları toz-torpağa bulaşmış halda Allah yolunda (cihad edərkən) atının cilovundan tutan bəndənin xoş halına! Beləsinə (müsəlmanların rifahı naminə) keşik çəkmək tapşırılarsa, (onların) keşiyində durar, arxaya göndərilərsə, arxada durar. Özü də təvazökar olduğundan bir iş üçün izn istəsə, ona izn verilməz, havadarlıq etsə, havadarlığı keçməz".[3]

Uca Allah buyurur: "**Allahdan qorxun ki**...", yəni bütün işlərinizdə və hər halınızda Allahdan qorxun. Necə ki Peyğəmbər ﷺ Muazı ﷺ Yəmənə göndərərkən ona "Harada olursansa ol, Allahdan qorx. Pisliyin ardından yaxşılıq et ki, onu silsin və insanlarla gözəl əxlaqla rəftar et!" buyurmuşdur.[4] "**Bəlkə, nicat tapasınız!**", yəni dünya və Axirətdə nicat tapasınız.

**Ali-İmran surəsinin təfsiri tamamlandı.**
**Həmd olsun aləmlərin Rəbbinə!**



[1] Əhməd, 23996, 24000, 24450. Hədis səhihdir. Bax: Səhih əl-Cami, 4562.
[2] "Musnəd" (6/20 Hələbi nəşri), ət-Tirmizi (3/2). (Əhməd Şakir).
[3] əl-Buxari (6/61-62 Fəthul-Bari). (Əhməd Şakir). əl-Buxari, 2673, 2887.
[4] Bu hədis ən-Nəvəvinin "Qırx hədis" əsərində on səkkizinci hədisdir. Hədis Əbu Zərr və Muazdan ﷺ rəvayət olunur. Hədisi ət-Tirmizi (1987) rəvayət etmiş və həsən olduğunu bildirmişdir. (Əhməd Şakir). ət-Tirmizi, 1987, 2115. Hədis həsəndir. Bax: Səhih ət-Tərğib vət-Tərhib, 5083.

الْكَلاَمُ عَلَى تفْسِيرِهَا

# “ən-Nisa”

## surəsinin təfsiri

**Mərhəmətli və Rəhmli Allahın adı ilə**
**Müvəffəqiyyət yalnız Allahdandır**

İbn Abbas demişdir: "ən-Nisa" surəsi Mədinədə nazil olmuşdur". İbn Mərdəveyh Abdullah ibn əz-Zubeyr və Zeyd ibn Sabitin də belə dediklərini rəvayət etmişdir. əl-Hakim isə Abdullah ibn Məsudun belə dediyini rəvayət etmişdir: "ən-Nisa" surəsində dünya və içindəkilərə dəyişməyəcəyim beş ayə var. Bu ayələr: "**Şübhəsiz ki, Allah zərrə qədər haqsızlıq etməz. Əgər qulun gördüyü iş yaxşı əməl olarsa, Allah onun savabını qat-qat artırar və bu əməl sahibinə Öz tərəfindən böyük mükafat verər**" ("ən-Nisa", 40); "**Sizə qadağan olunmuş böyük günahlardan çəkinsəniz, Biz sizin kiçik günahlarınızdan keçər və sizi şərəfli bir yerə – Cənnətə daxil edərik**" ("ən-Nisa", 31); "**Allah Özünə şərik qoşulmasını əsla bağışlamaz, bundan başqa olan günahları isə istədiyi kimsəyə bağışlayar. Allaha şərik qoşan kəs böyük bir günah etməklə iftira atmış olur**" ("ən-Nisa", 48); "**Biz hər bir elçini, – Allahın izni ilə, – məhz itaət edilsin deyə göndərdik. Əgər onlar özlərinə zülm etdikləri zaman sənin yanına gəlib Allahdan bağışlanma diləsəydilər və Peyğəmbər də onlar üçün bağışlanma diləsəydi, əlbəttə ki, Allahın tövbələri qəbul edən və rəhmli olduğunu görərdilər**" ("ən-Nisa", 64); "**Kim pis bir iş görər və ya özü özünə zülm edər, sonra da Allahdan bağışlanma diləyərsə, Allahın bağışlayan, rəhmli olduğunu görər**" ("ən-Nisa", 110)". əl-Hakim hədisi rəvayət etdikdən sonra demişdir: "Əgər Abdur-Rahmən atasından (Abdullah ibn Məsuddan) bu hədisi eşitmişsə, o zaman hədisin isnadı səhihdir. Alimlər Abdur-Rahmənin atasından hədis eşitməsi məsələsində fikir ayrılığına düşmüşlər".[1] əl-Hakim İbn Abbasın belə dediyini rəvayət etmişdir: "Məndən "ən-Nisa" surəsinin təfsirini soruşun. Həqiqətən, mən Quranı kiçik ikən oxumuşam". Sonra əl-Hakim demişdir: "Bu hədis əl-Buxari və Muslimin şərtlərinə görə səhihdir, lakin onlar rəvayət etməmişlər".[2]

[1] əl-Hakim (2/305). Abdur-Rahmən ibn Abdullah atası Abdullah ibn Məsuddan hədis eşitmişdir. əl-Buxari "ət-Tarixus-Sağir" (səh. 40) əsərində bunu üstün saymışdır. İbn Əbu Hatim "əl-Cərh vət-Tədil" (2/2/248) əsərində bunu qəti şəkildə bildirmiş və bu məsələ ilə əlaqəli başqa bir rəy qeyd etməmişdir. Həmçinin biz də "Musnəd" əsərinin şərhində (3690, 3835) bu rəyi üstün görmüşük. (Əhməd Şakir). əl-Hakim, 3194.

[2] əl-Hakim (2/301). əz-Zəhəbi hədisin səhih olması ilə razılaşmışdır. (Əhməd Şakir). əl-Hakim, 8713.

﴿ يَٰٓأَيُّهَا ٱلنَّاسُ ٱتَّقُواْ رَبَّكُمُ ٱلَّذِى خَلَقَكُم مِّن نَّفْسٍ وَٰحِدَةٍ وَخَلَقَ مِنْهَا زَوْجَهَا وَبَثَّ مِنْهُمَا رِجَالًا كَثِيرًا وَنِسَآءً ۚ
وَٱتَّقُواْ ٱللَّهَ ٱلَّذِى تَسَآءَلُونَ بِهِۦ وَٱلْأَرْحَامَ ۚ إِنَّ ٱللَّهَ كَانَ عَلَيْكُمْ رَقِيبًا ﴿١﴾ ﴾

**1. Ey insanlar! Sizi tək bir candan xəlq edən, ondan zövcəsini yaradan və o ikisindən də bir çox kişi və qadın törədib yer üzünə yayan Rəbbinizdən qorxun! Xatirinə bir-birinizdən cürbəcür şeylər istədiyiniz Allahdan qorxun və qohumluq əlaqələrini kəsməkdən çəkinin! Həqiqətən, Allah sizə nəzarət edir.**

Uca Allah bu ayədə insanlara Ondan qorxmağı, təqvalı olmağı əmr edir. Allah qorxusu (təqva) – şəriki olmayan Tək Allaha ibadət etməkdir. Habelə Uca Allah ayədə insanları tək bir candan, yəni Adəmdən, "**ondan zövcəsini**", yəni Həvvanı yaratdığını bildirməklə hər şeyə qadir olduğunu diqqətə çəkir. Uca Allah Həvvanı Adəmin عليه السلام sol arxa qabırğasından yaratmışdır. İbn Əbu Hatim رحمه الله rəvayət edir ki, İbn Abbas رضي الله عنهما belə demişdir: "Qadın kişidən yaradıldığı üçün Allah onu kişiyə möhtac etmişdir. Həmçinin kişi də torpaqdan yaradıldığı üçün Allah onu torpağa möhtac etmişdir. Odur ki qadınlarınızı qoruyun".[1] Səhih bir hədisdə belə deyilir: "Həqiqətən, qadın qabırğadan xəlq edilmişdir. Qabırğanın əyri tərəfi isə yuxarı hissəsidir. Sən onu düzəltmək istəsən, sındırarsan. Odur ki əgər ondan faydalanmaq istəsənsə, əyri halda faydalan".[2]

Uca Allah buyurur: "...**və o ikisindən də bir çox kişi və qadın törədib yer üzünə yayan**", yəni Adəm və Həvvadan عليهما السلام bir çox kişi və qadın yaradan və onları müxtəlif siniflər, xasiyyətlər, rənglər və dillər olmaqla dünyanın müxtəlif yerlərinə yayan Rəbbinizdən qorxun. Bundan sonra Onun hüzuruna dönəcəksiz və Onun hüzurunda toplanacaqsınız.

Sonra Uca Allah buyurur: "**Xatirinə bir-birinizdən cürbəcür şeylər istədiyiniz Allahdan qorxun və qohumluq əlaqələrini kəsməkdən çəkinin!**", yəni Allahdan Ona itaət etməklə qorxun. İbrahim, Mucahid və əl-Həsən رحمهم الله bu ayəni belə təfsir etmişlər: "Bu, bir nəfərin "Səndən Allahın adına və qohumluq xatirinə istəyirəm" deməsi kimidir". əd-Dahhək isə belə demişdir: "Yəni adı ilə bir-birinizlə müqavilələr və əhdlər bağladığınız Allahdan qorxun. Qohumluq əlaqələrini

[1] İbn Əbu Hatimin رحمه الله rəvayət etdiyi isnad səhihdir. əs-Suyuti "əd-Durrul-Mənsur" əsərində (2/116) hədisi əlavə olaraq İbn əl-Munzirə və əl-Beyhəqinin "əş-Şuəb" əsərinə nisbət etmişdir. (Əhməd Şakir). İbn Əbu Hatim, 4718.

[2] Muslim (1/421), əl-Buxari (6/261-162) və Əhməd رحمه الله müxtəsər olaraq (9520, 9794, 10868) Əbu Hureyradan رضي الله عنه rəvayət etmişlər. (Əhməd Şakir). Muslim, 2670, 3719.

kəsməkdən çəkinin. Əksinə, qohumlara yaxşılıq etməklə əlaqələri möhkəmləndirin”. İbn Abbas, Mucahid, İkrimə və digərləri ﷺ də belə demişlər.

Mucahid və digər alimlərin ﷺ dediyi kimi, bəzi qarilər ayədə gələn الأَرْحَامَ [əl-ərhə:mə] sözünü بِهِ [bihi] “xatirinə” sözünə aid edərək الأَرْحَامِ [əl-ərhə:mi] kimi oxumuşlar. Yəni Allah və qohumluq xatirinə bir-birinizdən cürbəcür şeylər istəyirsiniz.

Uca Allah buyurur: “**Həqiqətən, Allah sizə nəzarət edir**”, yəni Allah sizin hər bir işinizə və halınıza tam şəkildə nəzarət edir. Başqa bir ayədə belə buyurur: “**Allah hər şeyə Şahiddir**” (“əl-Buruc”, 9). Səhih bir hədisdə Peyğəmbər ﷺ “Allaha sanki Onu görürmüşsən kimi ibadət et. Sən Onu görməsən də, bil ki, O səni görür”[1] buyuraraq Allahın hər şeyə nəzarət etdiyini bildirmişdir. Bu səbəbdən Uca Allah ayədə insanların əslinin bir ata-anadan olduğunu qeyd etmişdir ki, bir-birlərinə qarşı xeyirxah olsunlar, zəiflərə mərhəmət və şəfqət göstərsinlər. Muslim “Səhih” əsərində Cərir ibn Abdullah əl-Bəcəlidən ﷺ rəvayət etmişdir ki, Mudar qəbiləsindən ayaqyalın, zolaqlı yun əbalarını başlarından keçirərək geyinmiş, yəni kasıblıqdan köhnə-kürüş paltarlar geyinmiş bir qrup insan gəldikdə Peyğəmbər ﷺ günorta namazından sonra qalxıb xütbə verdi və xütbəsində Uca Allahın bu ayələrini oxudu: “**Ey insanlar! Sizi tək bir candan xəlq edən, ondan zövcəsini yaradan və o ikisindən də bir çox kişi və qadın törədib yer üzünə yayan Rəbbinizdən qorxun! Xatirinə bir-birinizdən cürbəcür şeylər istədiyiniz Allahdan qorxun və qohumluq əlaqələrini kəsməkdən çəkinin! Həqiqətən, Allah sizə nəzarət edir**” (“ən-Nisa”, 1). “**Ey iman gətirənlər, Allahdan qorxun! Hər kəs sabahı üçün nə etdiyinə baxsın. Allahdan qorxun! Həqiqətən, Allah nə etdiklərinizdən xəbərdardır**” (“əl-Həşr”, 18). Sonra Peyğəmbər ﷺ səhabələrini sədəqə verməyə təşviq edərək dedi: “Qoy kimisi əlində olan dinarından, kimisi dirhəmindən, kimisi bir qab buğdasından, kimisi də xurmasından sədəqə versin!”[2] Sonra hədisi sonuna qədər tamamladı.[3]

---

[1] Bu hədis Ömər ibn əl-Xattabdan ﷺ rəvayət olunan “Cəbrailin ﷺ hədisi” kimi tanınan hədisin bir hissəsidir. Cəbrail Peyğəmbərə ﷺ sual verərək “Mənə ehsan barədə xəbər ver!” demişdir. Peyğəmbər ﷺ cavabında demişdir: “Ehsan Allaha sanki Onu görürmüşsən kimi ibadət etməkdir. Sən Onu görməsən də, bil ki, O səni görür”. Hədisi Muslim rəvayət etmişdir (1/17). Həmçinin “Musnəd” (184) əsərinə bax. Burada olan mətni isə Əbu Nueym “əl-Hilyə” əsərində (8/202-203) Zeyd ibn Ərqamdan ﷺ rəvayət etmişdir. (Əhməd Şakir).

[2] Muslim, 1691, 8932.

[3] Muslim (1/278-279). Bu, uzun hədisdən bir hissədir. (Əhməd Şakir).

﴿ وَءَاتُوا۟ ٱلْيَتَٰمَىٰٓ أَمْوَٰلَهُمْ ۖ وَلَا تَتَبَدَّلُوا۟ ٱلْخَبِيثَ بِٱلطَّيِّبِ ۖ وَلَا تَأْكُلُوٓا۟ أَمْوَٰلَهُمْ إِلَىٰٓ أَمْوَٰلِكُمْ ۚ إِنَّهُۥ كَانَ حُوبًا كَبِيرًا
﴿٢﴾ وَإِنْ خِفْتُمْ أَلَّا تُقْسِطُوا۟ فِى ٱلْيَتَٰمَىٰ فَٱنكِحُوا۟ مَا طَابَ لَكُم مِّنَ ٱلنِّسَآءِ مَثْنَىٰ وَثُلَٰثَ وَرُبَٰعَ ۖ فَإِنْ خِفْتُمْ أَلَّا
تَعْدِلُوا۟ فَوَٰحِدَةً أَوْ مَا مَلَكَتْ أَيْمَٰنُكُمْ ۚ ذَٰلِكَ أَدْنَىٰٓ أَلَّا تَعُولُوا۟ ﴿٣﴾ وَءَاتُوا۟ ٱلنِّسَآءَ صَدُقَٰتِهِنَّ نِحْلَةً ۚ فَإِن طِبْنَ
لَكُمْ عَن شَىْءٍ مِّنْهُ نَفْسًا فَكُلُوهُ هَنِيٓـًٔا مَّرِيٓـًٔا ﴿٤﴾ ﴾

**2. Yetimlərin mallarını özlərinə verin və yaxşını pis ilə dəyişməyin. Onların mallarını öz mallarınıza qatıb yeməyin. Şübhəsiz ki, bu, böyük günahdır.**
**3. Əgər himayənizdə olan yetim qızlarla evlənəcəyiniz təqdirdə ədalətlə davranmayacağınızdan qorxsanız, onda xoşunuza gələn sizə halal olan başqa qadınlardan ikisi, üçü və dördü ilə evlənin. Əgər o qadınlarla ədalətlə dolanmayacağınızdan qorxarsınızsa, onda onlardan biri ilə evlənin və ya sahib olduğunuz cariyələrlə kifayətlənin. Bu, haqsızlıq etməməyiniz üçün ən uyğun olanıdır.**
**4. Qadınlara öz mehrlərini könül xoşluğu ilə verin! Əgər onlar öz xoşları ilə onun bir qismini sizə bağışlasalar, onu nuşcanlıqla və halallıqla yeyin!**

Uca Allah bu ayədə yetimlər həddi-büluğa çatdığı təqdirdə mallarının özlərinə qaytarılmasını əmr edərək onların mallarını öz mallarımıza qataraq yeməyi qadağan edir. Bu səbəbdən "**yaxşını pis ilə dəyişməyin**" buyurur. Səid ibn Cubeyr ﷺ ayənin təfsirində demişdir: "Yəni öz halal mallarınızı insanların mallarından haram yolla əldə etdiklərinizlə dəyişməyin". Həmçinin demişdir: "Öz halal malınızı israf edib, əvəzində insanlardan haram yolla əldə etdiyiniz malları yeməyin".

"**Onların mallarını öz mallarınıza qatıb yeməyin**". Mucahid, Səid ibn Cubeyr və başqaları ﷺ demişlər: "Yəni onların mallarını öz mallarınıza qatıb hamısını yeməyin". Uca Allahın "**Şübhəsiz ki, bu, böyük günahdır**" ayəsindəki حُوباً [hu:bən] sözünü İbn Abbas ﷺ "günah" kimi təfsir etmişdir. Mucahid, İkrimə, Səid ibn Cubeyr və başqalarından ﷺ da belə rəvayət edilmişdir. Buna görə ayənin mənası belədir: "Yetimlərin mallarını öz mallarınıza qatıb yeməyiniz böyük bir günah, böyük bir səhvdir. Bundan çəkinin".

Uca Allah buyurur: "**Əgər himayənizdə olan yetim qızlarla evlənəcəyiniz təqdirdə ədalətlə davranmayacağınızdan qorxsanız,**

**onda xoşunuza gələn sizə halal olan başqa qadınlardan ikisi, üçü və dördü ilə evlənin**”, yəni əgər sizlərdən birinin himayəsində yetim qız olarsa və bu qızla evlənmək istədiyi təqdirdə ona özünə layiq olan mehri verməyəcəyindən qorxarsa, bu halda başqa qadınlarla evlənsin. Çünki başqa qadınlar çoxdur və Uca Allah onlarla evlənməkdə bir çətinlik qoymamışdır. əl-Buxari ﷺ rəvayət edir ki, Urva ibn əz-Zubeyr ﷺ demişdir: “Bir dəfə Aişədən ﷺ Uca Allahın **“Əgər himayənizdə olan yetim qızlarla evlənəcəyiniz təqdirdə ədalətlə davranmayacağınızdan qorxsanız...”** ayəsi barəsində soruşduqda Aişə ﷺ dedi: “Bacıoğlu, bu ayədə bəhs edilən yetim qız hamisinin himayəsi altındadır və hamisi onun malına şərikdir. Özü də qızın həm malına, həm də özünə meyli var. Hamisi onunla evlənmək istəyir, lakin onun mehrini insafla, yəni adətən evlənmək istəyən kişinin aldığı qıza verdiyi şəkildə verməkdən boyun qaçırır. Belələrinə himayələrində olan yetim qızlarla evlənmək qadağan edilmişdir. Lakin əgər mehr xüsusunda ədalətlə hərəkət edərlərsə və bu qızlara başqa qadınlara verilən mehrin ən yaxşısını verərlərsə, bu halda onlarla evlənə bilərlər. Əks təqdirdə, onlara xoşlarına gələn başqa halal qadınlarla evlənmək əmr olunur”. Urva ﷺ rəvayət edir ki, Aişə ﷺ demişdir: “Bu ayədən sonra insanlar Peyğəmbərdən ﷺ qadınlar barəsində hökm verməsini istədilər və Uca Allah bu ayəni nazil etdi: **“Səndən qadınlar barəsində hökm verməyini istəyirlər. De: “Onlar barəsində hökmü sizə Allah və Kitabdan sizə oxunan ayələr verir. Özlərinə müəyyən edilmiş mirası verməyərək evlənmək istədiyiniz yetim qızlarla, aciz uşaqlarla və yetimlərlə ədalətlə rəftar edin!” Siz nə yaxşılıq edirsinizsə, şübhəsiz ki, Allah onu bilir”** (“ən-Nisa”, 127). Aişə ﷺ (davam edərək belə) dedi: “Bu ayədə “**evlənmək istədiyiniz**” dedikdə birinizin himayəsi altında olan yetim qızın malı az, özü də gözəl olmadığı üçün onunla evlənmək istəyi olmaması nəzərdə tutulur. Odur ki kişilərə himayələrində olan yetim qızların malına və gözəlliyinə görə onlarla evlənmək qadağan edilmişdir. Çünki əgər bu qızların malı az olsaydı, özləri də çox gözəl olmasaydılar, bu himayədarlar onlarla evlənməzdilər. Ancaq mehr xüsusunda ədalətlə hərəkət etsələr, onlarla evlənə bilərlər”.[1]

Uca Allah buyurur: “...**ikisi, üçü və dördü ilə evlənin**”, yəni yetim qızlardan başqa qadınlardan istədiyinizlə evlənin. İstəyən

[1] əl-Buxari (8/179-180 Fəthul-Bari). Oxşar hədisi ət-Təbəri ﷺ müxtəsər və geniş olaraq yeddi isnadla rəvayət etmişdir (8456-8461, 8477). (Əhməd Şakir). əl-Buxari, 2194, 4208, 4574; Muslim, 3018.

ikisi, istəyən üçü, istəyən də dördü ilə evlənsin. Necə ki Uca Allah başqa bir ayədə “**Həmd, göyləri və yeri yaradan, mələkləri iki, üç və dördqanadlı elçilər edən Allaha məxsusdur!**” (“Fatır”, 1) buyurur. Yəni mələklərdən eləsi var ki, onun iki, eləsi var ki, onun üç, eləsi də var ki, onun dörd qanadı var. Başqa bir dəlil olduğu üçün bu ayə daha çox qanadlı mələklərin olmasını inkar etmir.[1] Bu ayədə isə belə deyil. İbn Abbas ﵄ və cumhur alimlərin dediyi kimi, bu ayə kişilərin ən çox dörd qadınla evlənə biləcəklərini bildirir, çünki bu ayədə Uca Allah nemətini xatırladır və nəyin icazəli olduğunu bildirir. Əgər eyni vaxtda dörddən artıq qadınla nikahda olmaq icazəli olsaydı, əlbəttə, ayədə bu bildirilərdi. əş-Şafii ﵀ demişdir: “Uca Allahın əmrlərini açıqlayan Peyğəmbərin ﷺ hədisləri Peyğəmbərdən başqa, heç kimə eyni vaxtda dörddən artıq qadınla evli olmasının icazəli olmamasına dəlalət edir”. əş-Şafiinin ﵀ bu dedikləri alimlər arasında yekdilliklə qəbul olunmuşdur. Yalnız şiə məzhəbində olan bəzi firqələrdən nəql olunur ki, bir kişi eyni vaxtda dörddən doqquza qədər qadınla nikahlı ola bilər. Bəziləri isə qadınlarla evlənməkdə say məhdudiyyəti qoymamışlar. Ola bilsin, bəziləri bu məsələdə Peyğəmbərin ﷺ eyni vaxtda dörddən artıq, yəni doqquz qadınla evlənməsini əsas gətirsinlər. Necə ki bu barədə əl-Buxari və Muslimin “Səhih” əsərlərində hədis varid olmuşdur. Lakin alimlərə görə, bu, ümmətin digər fərdlərinə deyil, yalnız Peyğəmbərə ﷺ xas olan xüsusiyyətlərdən biridir. Peyğəmbərdən ﷺ başqalarına gəlincə isə, onlar eyni vaxtda yalnız dörd qadınla evli ola bilərlər və buna dəlalət edən hədisləri zikr edəcəyik.

İmam Əhməd ﵀ İbn Ömərdən ﵄ rəvayət etmişdir ki, Ğaylən ibn Sələmə əs-Səqafi İslamı qəbul etdikdə on qadınla evli idi. Peyğəmbər ﷺ ona dedi: “Qadınlarından dördünü seç və saxla, digərlərindən isə ayrıl”. Ömərin ﵁ xilafəti dövründə Ğaylən zövcələrini (mirasdan məhrum etmək üçün) boşadı və mal-dövlətini oğulları arasında böldü. Onun bu davranışı Ömərə ﵁ gəlib çatdıqda Ömər ﵁ dedi: “Mənə elə gəlir ki, göydən xəlvətcə xəbər oğurlayan şeytan sənin ölüm xəbərini eşitmiş və bunu sənin qəlbinə salmışdır. Ola bilsin, sən çox yaşamayacaqsan. Allaha and olsun ki, ya qadınlarını qaytaracaqsan

[1] İbn Məsud ﵁ Uca Allahın “O, iki yay uzunluğunda, hətta ondan da yaxın məsafədə idi” (“ən-Nəcm”, 9) ayəsinin təfsirində demişdir: “Peyğəmbər ﷺ Cəbraili (öz surətində) gördüyündə onun altı yüz qanadı vardı” (əl-Buxari, 2993, 3232). Bu hədis ayədə qeyd olunandan daha çox qanadı olan mələklərin olmasına dəlildir.

və onları malına şərik edib varis edəcəksən, ya da Əbu Riğalın[1] qəbri daşqalaq edildiyi kimi, sənin də qəbrinin daşqalaq edilməsini əmr edəcəyəm".[2] əş-Şafii, ət-Tirmizi, İbn Məcə, əd-Dəraqutnu, əl-Beyhəqi və başqaları ﷺ bu hədisi "Qadınlarından dördünü seç və saxla" sözünə qədər olan hissəsini rəvayət etmişlər. Hədisin Ömərlə ﷺ əlaqəli olan hissəsini isə yalnız İmam Əhməd ﷺ rəvayət etmişdir. Bu hissə faydalı bir əlavədir. Əvvəldə qeyd etdiyimiz, İmam Əhmədin "Musnəd" əsərində keçən hədisin isnadındakı ravilər əl-Buxari və Muslimin ﷺ şərtlərinə uyğun olan etibarlı şəxslərdir.[3] Hədisin dəlalət etdiyi hökmə gəlincə, əgər dörddən artıq qadınla eyni anda evli olmaq icazəli olsaydı, Peyğəmbər ﷺ Ğaylənə onunla birlikdə İslamı qəbul etmiş digər qadınları ilə də evli qalmasına icazə verərdi. Peyğəmbərin ﷺ Ğaylənə qadınlarından dördünü saxlayıb digərlərindən ayrılmasını əmr etməsi dəlalət edir ki, heç bir halda eyni anda dörd qadından artığı ilə evli olmaq icazəli deyil. Əgər İslamdan əvvəl dörd qadından artığı ilə evli olanın hökmü belədirsə, İslamdan sonra dörd qadından çox almaq əsla olmaz. Ən doğrusunu isə Uca və Nöqsansız Allah bilir.

Uca Allah buyurur: "**Əgər o qadınlarla ədalətlə dolanmayacağınızdan qorxarsınızsa, onda onlardan biri ilə evlənin və ya sahib olduğunuz cariyələrlə kifayətlənin**", yəni birdən çox qadınla evli olduğunuz halda aralarında ədalətli davranmayacağınızdan qorxsanız, belə bir narahatlığı olan kəs bir qadınla və ya cariyələri[4] ilə kifayətlənsin, çünki cariyələr arasında bərabər bölgü aparmaq vacib deyil, müstəhəbdir. Lakin kim cariyələr arasında da ədalətlə bölgü aparарsa, bu onun üçün yaxşı olar. Aparmasa, buna görə ona günah yazılmaz. Necə ki Uca Allah başqa bir ayədə buyurur: "**Siz nə qədər çalışsanız da, qadınlar arasında ədalətlə davrana bilməzsiniz**" ("ən-Nisa", 129).

Uca Allah buyurur: "**Bu, haqsızlıq etməməyiniz üçün ən uyğun olanıdır**". Bəzi alimlər bu ayəni "Bu, ailənizin (məsrəflərinizin) artmaması üçün daha uyğundur" kimi təfsir etmişlər. Bu rəyi Zeyd ibn Əsləm, Süfyan ibn Uyeynə və əş-Şafii ﷺ demişlər. Ayəni belə təfsir edənlər Uca Allahın "**Əgər kasıblıqdan qorxursunuzsa,**

---

[1] Əbu Riğal zalım bir insan olmuşdur. Qəbri Məkkə ilə Taif arasında yerləşirdi. Sağlığında zalım olduğuna görə yanından keçən insanlar onun qəbrinə daş atıb keçərdilər.

[2] Əhməd, 4631. Hədis səhihdir. Bax: İrvaul-Ğalil, 1883.

[3] əl-Musnəd (4631). (Əhməd Şakir).

[4] Cariyə – keçmiş zamanlarda döyüşdə əsir alınmaqla və ya digər səbəblərə görə azadlıqdan məhrum edilən və hər cəhətdən sahibinin arzularına tabe olan qız və ya qadındır.

**bilin ki, Allah istəsə, Öz lütfündən bəxş etməklə sizi varlandırar**" ("ət-Tövbə", 28) ayəsinə əsaslanmışlar. Belə ki ayədə keçən عَيْلَةً [aylətən] sözü burada "kasıblıq" mənasındadır. Lakin ayənin belə təfsir edilməsi şübhəlidir, belə ki azad qadınların sayının çoxalması ilə ailə məsrəflərinin artdığı kimi, cariyələrin sayının artması ilə də ailə məsrəfi çoxalır. Bu ayənin təfsirində doğru rəy əksər alimlərin təfsiridir. Bu rəyə görə, ayənin mənası belədir: "Bu sizin zülm etməməyiniz üçün daha uyğundur". İbn Əbu Hatim, İbn Mərdəveyh və İbn Hibban "Səhih" əsərində Aişədən ﵂ rəvayət etmişlər ki, Peyğəmbər ﷺ "**Bu, haqsızlıq etməməyiniz üçün ən uyğun olanıdır**" ayəsi barədə demişdir: "Zülm etməməyiniz üçün daha uyğundur". İbn Əbu Hatim ﵀ demişdir: "Atam bu hədisin (Peyğəmbərə ﷺ nisbət olunmasının) səhv olduğunu demişdir. Doğru olan budur ki, bu, Aişənin ﵂ öz sözüdür". İbn Abbas, Aişə, Mucahid, İkrimə, əl-Həsən və başqalarının ayəni "Bu sizin ədalətdən yayınmamağınız üçün daha uyğundur" şəklində təfsir etdikləri də rəvayət edilir.

Uca Allah buyurur: "**Qadınlara öz mehrlərini könül xoşluğu ilə verin!**" İbn Abbas ﵄ demişdir: "Ayədə keçən نِحْلَةً [nihlə] sözü mehr mənasını verir". Aişə ﵂ isə bu sözün "vacib olaraq" mənasında olduğunu bildirmişdir. İbn Zeyd ﵀ demişdir: "Ərəb dilində نِحْلَةً [nihlə] sözü vacib mənasındadır. Uca Allah bu ayədə qadınlarla yalnız vacib olan mehr müqabilində nikah bağlanmasını buyurur. Həmçinin bildirir ki, Peyğəmbərin ﷺ dövründən sonra (vəhy kəsildiyi üçün) heç kimə qadınla vacib olan mehri ödəmədən evlənmək və haqsız yerə yalan mehr kəsmək icazəli deyil.

Bu ayənin təfsirində alimlərin dediklərinin mənası belədir: Qadınla evlənərkən ona mehr vermək qəti olaraq kişiyə vacibdir və kişi bunu könül xoşluğu ilə verməlidir. İnsan hədiyyəni öz istəyi ilə verdiyi kimi, qadına da mehri eyni şəkildə könül xoşluğu ilə verməlidir. Əgər mehr verildikdən sonra qadın könüllü olaraq mehrin hamısını və ya bir hissəsini ərinə bağışlasa, ər gözəl şəkildə və halallıqla ondan yesin. Bu səbəbdən Uca Allah ayənin sonunda "**Əgər onlar öz xoşları ilə onun bir qismini sizə bağışlasalar, onu nuşcanlıqla və halallıqla yeyin!**" buyurur.

﴿ وَلَا تُؤۡتُواْ ٱلسُّفَهَآءَ أَمۡوَٰلَكُمُ ٱلَّتِي جَعَلَ ٱللَّهُ لَكُمۡ قِيَٰمٗا وَٱرۡزُقُوهُمۡ فِيهَا وَٱكۡسُوهُمۡ وَقُولُواْ لَهُمۡ قَوۡلٗا مَّعۡرُوفٗا
٥ وَٱبۡتَلُواْ ٱلۡيَتَٰمَىٰ حَتَّىٰٓ إِذَا بَلَغُواْ ٱلنِّكَاحَ فَإِنۡ ءَانَسۡتُم مِّنۡهُمۡ رُشۡدٗا فَٱدۡفَعُوٓاْ إِلَيۡهِمۡ أَمۡوَٰلَهُمۡۖ وَلَا تَأۡكُلُوهَآ
إِسۡرَافٗا وَبِدَارًا أَن يَكۡبَرُواْۚ وَمَن كَانَ غَنِيّٗا فَلۡيَسۡتَعۡفِفۡۖ وَمَن كَانَ فَقِيرٗا فَلۡيَأۡكُلۡ بِٱلۡمَعۡرُوفِۚ فَإِذَا دَفَعۡتُمۡ
إِلَيۡهِمۡ أَمۡوَٰلَهُمۡ فَأَشۡهِدُواْ عَلَيۡهِمۡۚ وَكَفَىٰ بِٱللَّهِ حَسِيبٗا ٦ ﴾

**5. Allahın sizin üçün dolanışıq vasitəsi etdiyi mallarınızı səfehlərə verməyin. Onları o maldan yedirdib geyindirin və onlara xoş söz söyləyin.**

**6. Yetimləri nikah yaşına çatanadək sınayın. Əgər onların ağla dolduqlarını görsəniz, mallarını özlərinə qaytarın. Böyüyüb mallarını geri alacaqlar deyə, o malları israfçılıqla, tələm-tələsik yeməyin. Varlı olan qəyyum nəfsini saxlasın, yoxsul isə o maldan ehtiyacı olduğu qədər yesin. Yetimlərin mallarını özlərinə qaytardığınız zaman yanlarında şahid tutun. Haqq-hesab çəkməyə Allah yetər.**

Uca Allah bu ayələrdə insanların həyatda qalmaları üçün vasitə etdiyi malları ağılsızların idarəçiliyinə verməyi qadağan edir. Həyatda qalmaq üçün vasitə dedikdə ticarət və sair bu kimi dolanışıq vasitələri nəzərdə tutulur. Bu ayədən çıxan hökmlərdən biri də budur ki, səfehlərin malı idarə etməsi qadağandır. Mal idarə etmək qadağan olunanlar bunlardır: bəzən azyaşlı olduğuna görə qadağan olunur, çünki azyaşlı uşaq öz istəyini tam ifadə edə bilmir; bəzən dəli olduğuna görə qadağan olunur; bəzən əqli və ya dini naqisliyə görə qadağan olunur; bəzən isə müflis olduğuna görə qadağan olunur. Müflis dedikdə borcu çox olan və bu borclarını ödəməyə malı çatmayan kəs nəzərdə tutulur. Belə halda, əgər borc sahibləri hakimdən borclunun malının üzərinə həbs qoyulmasını tələb etsələr, hakim onun malının üzərinə həbs qoyur və ona malından istifadə etməyi qadağan edir. İbn Abbas Uca Allahın “**Allahın sizin üçün dolanışıq vasitəsi etdiyi mallarınızı səfehlərə verməyin**” ayəsi barədə demişdir: “Səfehlər dedikdə oğullarınız və arvadlarınız nəzərdə tutulur”. Abdullah ibn Məsud, əl-Həkəm ibn Uteybə, əl-Həsən və əd-Dahhək da belə demişlər: “Səfehlər dedikdə qadınlar və uşaqlar nəzərdə tutulur”. Səid ibn Cubeyr demişdir: “Onlar yetimlərdir”. Mucahid, İkrimə və Qatədə isə “Onlar qadınlardır” demişlər.

Uca Allah buyurur: "**Onları o maldan yedirdib geyindirin və onlara xoş söz söyləyin**". İbn Abbas ayəni təfsir edərək belə demişdir: "Uca Allah deyir ki, malını və Allahın sənin ixtiyarına verib dolanışıq vasitəsi etdiyi şeyləri zövcələrinə və uşaqlarına verib sonra onlara möhtac olub onların əlinə baxma. Əksinə, malını əlində saxla və onu artır. Malını onların geyəcəklərinə, yeyəcəklərinə və dolanışıqlarına xərcləyən sən ol".

İbn Cərir Əbu Musanın belə dediyini rəvayət etmişdir: "Üç sinif insan var ki, Allaha dua edərlər, Allah isə onların dualarını qəbul etməz; arvadı pis xasiyyətli olduğu halda onu boşamayan kişi, Uca Allah "...**mallarınızı səfehlərə verməyin**" buyurduğu halda malını səfehə verən kəs və bir də borc verdiyi zaman şahid tutmayan kəs".[1]

Mucahid Uca Allahın "**və onlara xoş söz söyləyin**" ayəsi barədə demişdir: "Yəni onlara yaxşılıq edin və qohumluq əlaqələrini möhkəmlədin". Bu ayə ailəyə və mal etibar olunmayan şəxslərə (uşaq, qadın və s.) yaxşılıq etməyi, onların geyimlərinə və yeməklərinə mal sərf etməyi, onlara gözəl söz deməyi və onlarla gözəl əxlaqla davranmağı buyurur.

Uca Allah buyurur: "**Yetimləri nikah yaşına çatanadək sınayın**". Mucahid demişdir: "Yəni həddi-büluğa çatana qədər". Əksər alimlər demişlər: "Oğlan uşağının həddi-büluğa çatması bəzən ehtilam olması ilə bilinir. Ehtilam olmaq – uşağın yuxuda cinsiyyət orqanından suyun (spermanın) sürətlə axmasına səbəb olan bir şey görməsidir. Əbu Davud möminlərin əmiri Əli ibn Əbu Talibin belə dediyini rəvayət etmişdir: "Peyğəmbərdən bu şeyləri əzbərlədim: "Ehtilam olduqdan sonra yetimlik və gün boyu axşama qədər susmaqla oruc tutmaq yoxdur[2]".[3] Aişə və digər səhabələrdən rəvayət edilən

[1] ət-Təbəri (8544). İsnadı səhihdir. Həmçinin əl-Hakim (2/302) başqa bir isnadla Peyğəmbərin sözü olaraq rəvayət etmiş və demişdir: "əl-Buxari və Muslimin şərtlərinə görə səhihdir, lakin hədis Şöbədən Əbu Musanın sözü olaraq rəvayət edildiyinə görə, əl-Buxari və Muslim rəvayət etməmişlər". əz-Zəhəbi bununla razılaşmışdır. Mənə görə hər iki isnad səhihdir, çünki hədisin başqa bir isnadla Peyğəmbərə nisbət olunması mötəbər ravinin əlavəsidir. Bu isə məqbul sayılır. Bundan başqa, aydın görünür ki, səhabənin bu hədisi öz rəyi ilə deməsi mümkün deyil. Bu səbəbdən hədis hökm baxımından Peyğəmbərin sözüdür. Həmçinin hədisi əs-Suyuti "əd-Durrul-Mənsur" əsərində (2/120-121) rəvayət etmişdir. əs-Suyuti Peyğəmbərə nisbət olunan hədisi əl-Beyhəqinin "əş-Şuəb" əsərinə, Əbu Musaya nisbət olunanı isə İbn Əbu Şeybəyə və İbn əl-Munzirə nisbət etmişdir. (Əhməd Şakir). əl-Hakim, 3181. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 1805.

[2] Cahiliyyə dövründə ərəblər gün ərzində danışmazdılar və bunu oruc tutmaq sayardılar.

[3] Əbu Davud (2873). İsnadı səhihdir. (Əhməd Şakir). Əbu Davud, 2875. Hədis səhihdir. Bax: Səhih əl-Cami, 7609.

başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Üç sinif insandan qələm qaldırılmışdır (günah yazılmır): ehtilam olanadək (həddi-büluğa çatanadək) uşaqdan; oyananadək yatandan və ağlı başına gələnədək (sağalanadək) ruhi xəstədən".[1]

Həmçinin bildirmişlər ki, bəzən (ehtilam və heyz olmadıqda) həddi-büluğ insanın on beş yaşına çatması ilə təyin edilir. Bunu deyənlər əl-Buxari və Muslimin "Səhih" əsərlərində Abdullah ibn Ömərdən رضي الله عنهما rəvayət edilən bu hədisə əsaslanmışlar. Abdullah ibn Ömər رضي الله عنهما belə demişdir: "Mən hələ on dörd yaşında ikən məni Uhud döyüşündə Peyğəmbərə ﷺ göstərdilər, lakin o mənə (döyüşə qatılmağa) izn vermədi. Sonra mən on beş yaşında ikən Xəndək döyüşündə məni (yenə) Peyğəmbərə ﷺ göstərdilər və o mənə (döyüşə qatılmağa) izn verdi". Bu hədis möminlərin əmiri Ömər ibn Abdul-Azizə رحمه الله çatdıqda o "Bu, kiçiklə böyük arasında fərqdir" dedi".[2]

Cinsiyyət orqanının ətrafında sıx və qalın tüklərin çıxmasının həddi-büluğa dəlalət edib-etməməsi məsələsində alimlər ixtilaf etmişlər. Doğru olan rəy budur ki, bu, həddi-büluğa dəlalət edir. Çünki bu hal bütün uşaqlar üçün eynidir və insanın təbiəti ilə əlaqədardır. Həmçinin İmam Əhmədin رحمه الله Atiyyə əl-Qurazidən رضي الله عنه rəvayət etdiyi hədis də buna dəlalət edir. Atiyyə əl-Qurazi رضي الله عنه demişdir: "Qureyza döyüşü günü bizi Peyğəmbərə ﷺ göstərdilər. Övrət yerində tük bitənlər öldürüldü, tük bitməyənlər isə sərbəst buraxılırdı. Mən övrət yerində tük bitməyənlər içindəydim, bu səbəbdən məni də sərbəst buraxdı".[3] Oxşar hədisi dörd "Sunən" sahibləri rəvayət etmişlər. ət-Tirmizi رحمه الله hədisi "həsən-səhih" adlandırmışdır. Bu hadisə Sad ibn Muazın رضي الله عنه onlar barədə döyüşçülərinin öldürülüb, qadın və uşaqların isə əsir alınması hökmünü verdikdən sonra baş vermişdir.[4]

---

[1] Hədisi mənaca Əhməd, Əbu Davud və əl-Hakim رحمهم الله Ömər və Əlidən رضي الله عنهما, ət-Tirmizi, İbn Məcə və əl-Hakim رحمهم الله Əlidən, Əhməd, Əbu Davud, ən-Nəsəi, İbn Məcə və əl-Hakim رحمهم الله isə Aişədən رضي الله عنها rəvayət etmişlər. Bax: "əl-Fəthul-Kəbir" (2/135). (Əhməd Şakir). Əbu Davud, 4403, 4405; İbn Məcə, 2041. Hədis səhihdir. Bax: İrvaul-Ğalil, 2043, 2533.

[2] İbn Məcə, 2543. Hədis səhihdir. Bax: İrvaul-Ğalil, 1186.

[3] "əl-Musnəd" (4/310 Hələbi nəşri). (Əhməd Şakir). ət-Tirmizi, 1584, 1680; İbn Məcə, 2541; Əhməd, 18798, 18983. Hədis səhihdir. Bax: Mişkətul-Məsabih, 3974.

[4] Hadisənin xülasəsi belədir: Peyğəmbər ﷺ Mədinəyə gəldikdə orada olan yəhudi qəbilələrindən ona qarşı döyüşməyəcəkləri barədə əhd almışdı. Xəndək döyüşündə kafirlər yığışıb Mədinəni mühasirəyə aldıqda yəhudilərdən Bənu Qureyza qəbiləsi əhdi pozub kafirlərin tərəfinə keçdi. Uca Allah kafirləri məğlub etdikdən sonra Peyğəmbər ﷺ Bənu Qureyza qəbiləsini mühasirəyə aldı. Onlar isə Sad ibn Muazın رضي الله عنه hakim təyin edilməsi ilə razılaşdılar və Sadın رضي الله عنه verdiyi hökmü qəbul edəcəklərini bildirdilər. Sad ibn Muaz رضي الله عنه da onlar barədə döyüş qabiliyyətli kişilərinin öldürülməsi, qadın və uşaqlarının isə əsir alınması hökmünü verdi.

Uca Allah buyurur: "**Əgər onların ağla dolduqlarını görsəniz, mallarını özlərinə qaytarın**". Səid ibn Cubeyr ﷺ bu ayəni təfsir edərək demişdir: "Yəni əgər onların dinlərində möhkəm olduqlarını, mallarını isə qoruduqlarını görsəniz, mallarını özlərinə qaytarın". İbn Abbas, əl-Həsən əl-Bəsri və bir çox təfsir alimlərindən də belə rəvayət edilmişdir. Fiqh alimləri demişlər: "Yetim uşaq həddi-büluğa çatdıqda dininə bağlı və malına sahib çıxmağa qadir olarsa, artıq malından istifadə etmək qadağası üzərindən götürülür və himayədarı onun üçün saxladığı malını ona təhvil verir".[1]

Uca Allah buyurur: "**Böyüyüb mallarını geri alacaqlar deyə, o malları israfçılıqla, tələm-tələsik yeməyin**". Bu ayədə Uca Allah yetimlərin mallarını onlar həddi-büluğa çatmadan öncə zəruri bir ehtiyac olmadan israf edərək və tələm-tələsik yeməyi qadağan edir.

Sonra Uca Allah buyurur: "**Varlı olan qəyyum nəfsini saxlasın, ...**", yəni yetimin malına ehtiyacı olmayan kəs iffətli davranıb ondan heç bir şey yeməsin, "**yoxsul isə o maldan ehtiyacı olduğu qədər yesin**". əl-Buxari ﷺ rəvayət etmişdir ki, Aişə ﷺ demişdir: "Bu ayə kasıb olduğu təqdirdə yetimi himayə edən kəsin çəkdiyi əziyyətin müqabilində onun malından ehtiyacı olduğu qədər istifadə edə biləcəyini bəyan etmək üçün nazil olmuşdur".[2]

İmam Əhməd ﷺ Amr ibn Şueybdən, o da atasından, o da Şueybin babasından rəvayət etmişdir ki, bir nəfər Peyğəmbərdən ﷺ "Mənim malım yoxdur, lakin himayəmdə bir yetim var. Mən nə edim?" deyə soruşdu. Peyğəmbər ﷺ dedi: "Himayəndəki yetimin malından israf etmədən, dağıtmadan, ondan sərmayə kimi istifadə etmədən, öz malını qorumaq üçün istifadə etmədən və ya öz malını saxlayıb onun malını sərf etmədən ye!"[3] Oxşar hədisi İbn Əbu Hatim, Əbu Davud, ən-Nəsəi

əl-Buxari ﷺ bu hadisəni belə rəvayət etmişdir: "Qureyzəlilər (məğlub olduqdan sonra) Sad ibn Muazın (onlara dair) qərar verməyinə razılaşdılar. Onda Peyğəmbər ﷺ Sadın yanına adam göndərdi və Sad uzunqulağına minib (onun yanına) gəldi. Sad məscidə yaxınlaşdıqda, Peyğəmbər ﷺ ənsarlara dedi: "Qalxın böyüyünüzü (və ya ən xeyirlinizi qarşılayın)!" Sonra Peyğəmbər ﷺ Sada dedi: "Bunlar sənin (onlara dair) qərar verməyinə razıdırlar". Sad dedi: "Onların döyüşçülərini edam edin, qadınlarını və uşaqlarını isə əsir götürün!" Peyğəmbər ﷺ buyurdu: "Sən Allahın hökmü ilə hökm verdin (və ya əl-Malikin hökmü ilə hökm verdin)!" (əl-Buxari, 3520, 3804, 3812, 4121).

[1] Buradan aydın olur ki, yetimin malının özünə qaytarılması üçün tək həddi-büluğa çatması kifayət etmir, bundan əlavə onun dinində möhkəm və malını qorumaq qabiliyyətinin olması da şərtdir.

[2] əl-Buxari (8/181 Fəthul-Bari). (Əhməd Şakir). əl-Buxari, 2060, 2212.

[3] "əl-Musnəd" (7022). İsnadı səhihdir. (Əhməd Şakir). Əhməd, 7022. Şueyb əl-Arnavut isnadının həsən olduğunu bildirmişdir.

və İbn Məcə ﷺ rəvayət etmişlər. İbn Hibban "Səhih" əsərində və İbn Mərdəveyh ﷺ Cabirdən ﷺ rəvayət etmişlər ki, bir kişi Peyğəmbərdən ﷺ "Ey Allahın Elçisi, yetimi hansı hallarda döyə bilərəm?" deyə soruşdu. Peyğəmbər ﷺ dedi: "Öz övladını nə səbəblə döyürsənsə, yetimi də o səbəblə döyə bilərsən. Yetimin malından öz malını qorumaq üçün və sərmayə kimi istifadə etmə!"[1]

Uca Allah buyurur: "**Yetimlərin mallarını özlərinə qaytardığınız zaman ...**", yəni onlar həddi-büluğa çatdıqdan sonra onların tədbirli olduğunu görsəniz, bu zaman mallarını onlara qaytarın. Mallarını onlara qaytardıqda "**yanlarında şahid tutun**". Bu, Uca Allahın yetim himayədarlarına əmridir. Yetimlər həddi-büluğa çatdıqda himayədarlar mallarını onlara qaytararkən sonradan yetimin malı aldığını inkar etməməsi üçün yanlarında şahid tutsunlar.

Uca Allah buyurur: "**Haqq-hesab çəkməyə Allah yetər**", yəni yetimlərə baxarkən və mallarını onlara qaytararkən himayədarları haqq-hesaba çəkməyə, onlara nəzarət etməyə və etdiklərinə şahid olmağa Allah yetər. Qaytardıqları mallar tam olaraq qaytarıldımı, yoxsa naqis olub azaldılmış şəkildə, aldadaraq hesabı bir-birinə qatmaqlamı oldu? Bunların hamısını Uca Allah bilir. Bu səbəbdən Muslimin "Səhih" əsərində rəvayət olunan bir hədisdə Peyğəmbər ﷺ Əbu Zərə ﷺ demişdir: "Ey Əbu Zər, mən səni (zahid olduğun üçün dünya işlərində) zəif görürəm və özüm üçün istədiyim xeyri sənə də istəyirəm. Odur ki iki nəfərə də olsa belə, əmirlik etməkdən və yetimin malına vəli olmaqdan çəkin!"[2]

﴿ لِّلرِّجَالِ نَصِيبٞ مِّمَّا تَرَكَ ٱلۡوَٰلِدَانِ وَٱلۡأَقۡرَبُونَ وَلِلنِّسَآءِ نَصِيبٞ مِّمَّا تَرَكَ ٱلۡوَٰلِدَانِ وَٱلۡأَقۡرَبُونَ مِمَّا قَلَّ
مِنۡهُ أَوۡ كَثُرَۚ نَصِيبٗا مَّفۡرُوضٗا ٧ وَإِذَا حَضَرَ ٱلۡقِسۡمَةَ أُوْلُواْ ٱلۡقُرۡبَىٰ وَٱلۡيَتَٰمَىٰ وَٱلۡمَسَٰكِينُ
فَٱرۡزُقُوهُم مِّنۡهُ وَقُولُواْ لَهُمۡ قَوۡلٗا مَّعۡرُوفٗا ٨ وَلۡيَخۡشَ ٱلَّذِينَ لَوۡ تَرَكُواْ مِنۡ خَلۡفِهِمۡ ذُرِّيَّةٗ ضِعَٰفًا
خَافُواْ عَلَيۡهِمۡ فَلۡيَتَّقُواْ ٱللَّهَ وَلۡيَقُولُواْ قَوۡلٗا سَدِيدًا ٩ إِنَّ ٱلَّذِينَ يَأۡكُلُونَ أَمۡوَٰلَ ٱلۡيَتَٰمَىٰ ظُلۡمًا
إِنَّمَا يَأۡكُلُونَ فِي بُطُونِهِمۡ نَارٗاۖ وَسَيَصۡلَوۡنَ سَعِيرٗا ١٠ ﴾

**7. Valideynlərin və yaxın qohumların qoyub getdikləri maldan kişilərə pay vardır; valideynlərin və yaxın qohumların qoyub getdikləri maldan qadınlara da pay vardır. Bu malın istər azından, istər çoxundan müəyyən bir pay ayrılmışdır.**

---

[1] Səid ibn Mənsur "əs-Sunən" 572; ət-Tabərani "Mucəmus-Sağir" 244; İbn Hibban, 4230, 4244. Hədis həsəndir. Bax: Ravdun-Nadir, 249.

[2] Muslim (2/81). (Əhməd Şakir). Muslim, 3405, 3824.

**8. Əgər bölgü vaxtı orada mirasdan payı olmayan qohumlar, yetimlər və kasıblar iştirak edərlərsə, onlara da o maldan bir şey verin, özlərinə də xoş söz deyin.**
**9. Özlərindən sonra zəif övladlar qoyub gedəcəkləri təqdirdə onlardan ötrü qorxan kəslər qoy yetimlərə haqsızlıq etməkdən qorxsunlar, Allahdan çəkinsinlər və doğru söz söyləsinlər.**
**10. Şübhəsiz ki, yetimlərin mallarını haqsızlıqla yeyənlər öz qarınlarına ancaq od doldururlar və beləcə, onlar alovlu atəşə girəcəklər.**

Səid ibn Cubeyr və Qatədə ﵏ demişlər: "Müşriklər mirası yalnız kişilərə qoyurdular, qadınlara və uşaqlara isə miras olaraq heç bir şey vermirdilər. Bu səbəbdən Uca Allah "**Valideynlərin və yaxın qohumların qoyub getdikləri maldan kişilərə pay vardır; valideynlərin və yaxın qohumların qoyub getdikləri maldan qadınlara da pay vardır. Bu malın istər azından, istər çoxundan müəyyən bir pay ayrılmışdır**" ayəsini nazil etdi. Yəni Allahın hökmü qarşısında hamı bərabərdir. Ölən insana olan yaxınlığından asılı olaraq Uca Allahın qohumlara, həyat yoldaşına və ya (əvvəl qul olmuşsa) onu azad edənə[1] müəyyən etdiyi miras payı fərqli olsa da, varis olma mövzusunda hamısı bərabərdir. Bir insanı azad edən kəs də nəsildən olan qohum kimidir.

Uca Allah buyurur: "**Əgər bölgü vaxtı orada mirasdan payı olmayan qohumlar, yetimlər və kasıblar iştirak edərlərsə, onlara da o maldan bir şey verin, özlərinə də xoş söz deyin**". Bəzi alimlər ayənin mənasının belə olduğunu demişlər: "Yəni varis olmayan qohumlar, yetimlər və kasıblar miras bölünən vaxt orada olarlarsa, onlara da həmin mirasdan pay ayrılsın". Bu əməl İslamın əvvəlində vacib idi. Lakin müstəhəb olduğunu deyənlər də var. Bu ayənin hökmünün ləğv olunub-olunmaması məsələsində alimlər arasında iki rəy var: əl-Buxari ﵀ İbn Abbasın ﵄ "Bu ayə muhkəmdir və hökmü ləğv olunmamışdır" dediyini rəvayət etmişdir.[2] İbn Cərir ﵀ də oxşar sözü

[1] Şəriətdə əvvəl qul olub sonra azad edilən bir insanın onu azad edən kəslə (istər qadın olsun, istərsə də kişi) aralarında olan bağlılığa "əl-Vələ" deyilir. əl-Vələ sözünün ərəbcə hərfi mənası "yaxınlıq" deməkdir. Qulu azad edən kəs onu bir şəxsiyyət kimi həyata qaytardığına görə azad edilənə qohum kimi yaxın olur. Peyğəmbər ﷺ demişdir: "Kölənin azad olunması ilə yaranan bağlılıq nəsil-nəcabət bağlılığı kimidir" (əl-Buxari, 2390, 2578; Muslim, 1504, 2769, 3849). Şəriətə görə, azad olunmuş kəsin yaxın qohumları yoxdursa, öldükdən sonra varisi onu azad edən kəs olur və bu halda o, ölənin uzaq qohumlarından mirasa daha haqlı sayılır.
[2] əl-Buxari, 4210, 4576.

İbn Abbasdan ﷺ rəvayət etmişdir. Mucahid ﷺ isə demişdir: "Bu ayə varislərə, miras bölgüsü vaxtı orada iştirak edənlərə könül xoşluğu ilə bir şey verməyi vacib edir". Abdullah ibn Məsud, Əbu Musa və başqalarından ﷺ da belə rəvayət edilmişdir.

Bəzi alimlərin rəyinə görə, bu ayə mirasdan payı olmayanlara (qohumlara, yetimlərə və kasıblara) mirasdan pay verilməsinin vəsiyyət edilməsini əmr edir. Abdur-Razzəq ﷺ rəvayət etmişdir ki, Abdur-Rahmən ibn Əbu Bəkrin oğlu Abdullah atası Abdur-Rahmənin mirasını bölüşdürdü. O vaxt Aişə ﷺ hələ həyatda idi. Abdullah atasının malından evdə olan bütün qohum və kasıblara verdi. Sonra Uca Allahın "**Əgər bölgü vaxtı orada mirasdan payı olmayan qohumlar, yetimlər və kasıblar iştirak edərlərsə, onlara da o maldan bir şey verin, özlərinə də xoş söz deyin**" ayəsini oxudu. əl-Qasim dedi: "Mən bu barədə İbn Abbasa ﷺ xəbər verdim və o "Doğru etməmişdir, buna onun haqqı çatmırdı. Bu ayə vəsiyyət haqqındadır". Yəni əgər ölən adam istəsə, onlara malından verilməsini vəsiyyət edər.[1]

Bəzi alimlər isə bu ayənin hökmünün tamamilə ləğv olduğunu demişlər. İbn Mərdəveyh ﷺ İbn Abbasın ﷺ bu ayə barədə belə dediyini rəvayət etmişdir: "Bu ayənin hökmü miras bölgüsü barədə ayə nazil olmamışdan əvvəl idi. Allah bundan sonra miras bölgüsünü bəyan edən ayəni nazil etdi və hər haqq sahibinə öz haqqını verdi. Ölən adamın haqq sahiblərindən başqa, adını çəkdiyi insanlara sədəqə verilir".[2] İbn Əbu Hatim ﷺ də oxşar hədisi İbn Abbasdan ﷺ rəvayət etmişdir. Həmçinin Səid ibn əl-Museyyibin ﷺ belə dediyini rəvayət etmişdir: "Bu ayə mənsuxdur. Bu ayənin hökmü miras ayəsi nazil olmamışdan əvvəl tətbiq olunurdu. Kişinin öldükdən sonra qoyub getdiyi malı bölüşdürülərkən orada iştirak edən yetimlərə, kasıblara və qohumlara da bu maldan verilərdi. Sonra miras ayəsi bu hökmü ləğv etdi. Uca Allah miras ayəsi nazil etməklə hər haqq sahibini öz haqqına qovuşdurdu. Lakin ölən adam malından qohumlarından istədiyinə vəsiyyət edə bilər".[3]

İkrimə, Əbuş-Şəsə, əl-Qasim ibn Muhəmməd və başqalarından ﷺ bu ayənin hökmünün ləğv olunduğu rəvayət edilmişdir. Bu, əksər fəqihlərin – dörd məzhəb imamların və onların davamçılarının rəyidir.

[1] Bu rəvayət Abdur-Razzəqin ﷺ təfsirində yer almışdır (səh. 38). İbn Kəsir ﷺ burada İbn Əbu Hatimin Abdur-Razzəqdən ﷺ olan rəvayətini qeyd etmişdir. Oxşar hədisi ət-Təbəri ﷺ də rəvayət etmişdir (8681). (Əhməd Şakir). İbn Əbu Hatim, 4863; əl-Beyhəqi "Sunənul-Kubra" 12338, 12934.

[2] İbn Əbu Hatim, 4850; ət-Təbəri, 8679, 8738.

[3] İbn Əbu Hatim, 4865.

Xülasə olaraq ayənin mənası belədir: Əgər qohumlardan varis olmayan kasıblar, yetimlər və yoxsullar çox miqdarda malın bölgüsündə iştirak etsələr, onların da ürəklərindən bu maldan bir pay keçər. Onlar hərənin bir pay götürdüyünü gördükdə onlara heç bir şey verilməyəcəyini bildikləri üçün ümidsiz olarlar. Bu səbəbdən Şəfqətli və Rəhmli Allah yaxşılıq, sədəqə və lütfkarlıq olaraq onlara da orta səviyyəli bir şeyin verilməsini əmr etmişdir. Necə ki Uca Allah başqa bir ayədə buyurur: “**Bar verdiyi zaman onların meyvəsindən yeyin, yığım günü zəkatını verin, lakin israf etməyin**” (“əl-Ənam”, 141). Həmçinin Uca Allah ehtiyac içində olanların və yoxsulların görməsindən qorxaraq malı gizlicə bir yerdən başqa bir yerə daşıyanları məzəmmət etmişdir. Necə ki bağ sahibləri barədə xəbər verərkən belə buyurur: “**Həqiqətən, Biz bağ sahiblərini sınağa çəkdiyimiz kimi, onları da sınağa çəkdik. O zaman bağ sahibləri səhər açılanda bağda olan meyvələri mütləq dərəcəklərinə and içmişdilər və heç bir istisna da etməmişdilər** (“inşallah” deməmişdilər)**. Onlar yuxuda ikən Rəbbinin əzabı o bağı bürüdü. Bağ yanıb zülmət gecə kimi qapqara oldu. Onlar səhər qalxdıqda bir-birlərini çağırdılar: “Əgər meyvə dərəcəksinizsə, bağınıza erkən gedin!” Onlar bağa yollandılar, yol boyu da bir-birlərinə belə pıçıldayırdılar: “Bu gün oraya – yanınıza heç bir kasıb girməsin!”** (“əl-Qələm”, 17-24). Uca Allah onları yerlə yeksan etmişdir. Kafirləri də buna bənzərləri gözləyir. Kim Allahın ona vacib etdiyi haqqı inkar edərsə, Allah onu sahib olduğu ən qiymətli mal ilə cəzalandırar. Bir hədisdə belə buyurulmuşdur: “Bir mala sədəqə qarışarsa (sədəqə olaraq verilməsi lazım olan hissə verilməzsə və mala qarışarsa), o malı məhv edər”.[1] Yəni bir malın sədəqəsinin verilməməsi o malın tamamilə məhv olmasına səbəb olar.

Uca Allah buyurur: “**Özlərindən sonra zəif övladlar qoyub gedəcəkləri təqdirdə onlardan ötrü qorxan kəslər qoy yetimlərə haqsızlıq etməkdən qorxsunlar, Allahdan çəkinsinlər və doğru söz söyləsinlər**”. İbn Abbas ﵄ bu ayə barəsində demişdir: “Bir kişi ölüm ayağında olarkən varislərinə zərər verəcək bir vəsiyyət edər və onun yanında olan başqa bir kişi bu vəsiyyəti eşidər. Uca Allah bu ayə ilə vəsiyyəti eşidən adamın Allahdan qorxmasını, ölüm ayağında olanın doğru qərar verməsinə vəsilə olub onu doğru olana yönəltməsini əmr etmişdir. Öz varislərinin tələf olmasından qorxduğu kimi, onun

[1] Hədisi əl-Buxari “ət-Tarixul-Kəbir” əsərində (1/1/180) Muhəmməd ibn Osman ibn Safvən əl-Cunəhinin tərcümeyi-halında qeyd etmişdir. Hədisin isnadı səhihdir, lakin orada “onu həlak edər” cümləsi işlənmişdir. (Əhməd Şakir). əl-Beyhəqi “Sunənul-Kubra” 7455, 7916, “Şuabul-İman” 3246. Hədis zəifdir. Bax: Silsilə əd-Daifə, 5069.

varislərinin tələf olmasından da qorxmalıdır və bu vəziyyətdə özü nə edərdisə, ona da bu yolu göstərməlidir". Mucahid və bir çoxları da belə söyləmişlər.

əl-Buxari və Muslimin "Səhih" əsərlərində rəvayət olunan hədisdə deyilir ki, bir dəfə Peyğəmbər ﷺ Sad ibn Əbu Vaqqas ﷺ xəstə ikən onu ziyarət etməyə getdi. Onun yanına gəldikdə Sad "Ey Allahın Elçisi, mən var-dövlət sahibiyəm, qızımdan başqa da bir varisim yoxdur. Malımın üçdə ikisini sədəqə verə bilərəmmi?" dedi. Peyğəmbər ﷺ "Xeyr!" deyə cavab verdi. Sad dedi "Yarısını (verə bilərəmmi)?" Peyğəmbər ﷺ "Xeyr" deyə cavab verdi. Sad dedi: "Üçdə birini necə, verə bilərəmmi?" Peyğəmbər ﷺ "Üçdə birini verə bilərsən, əslində, üçdə biri də çoxdur". Sonra Peyğəmbər ﷺ dedi: "Şübhəsiz ki, sənin üçün varislərini zəngin qoyub getməyin onları kasıb və dilənçi vəziyyətdə qoyub getməyindən daha xeyirlidir".[1] "Səhih" əsərində rəvayət olunur ki, Abdullah ibn Abbas رضي الله عنهما demişdir: "Kaş ki insanlar vəsiyyət edərkən üçdə birdən dörddə birə enmiş olsaydılar. Çünki Peyğəmbər ﷺ "Üçdə birini verə bilərsən, əslində, üçdə biri də çoxdur" buyurmuşdur".[2]

Bəzi alimlər Uca Allahın "**Allahdan çəkinsinlər**" ayəsi barəsində demişlər: "Yəni yetimlərin mallarına toxunmaq məsələsində Allahdan çəkinsinlər. Böyüyüb mallarını geri alacaqlar deyə, o malları israfçılıqla, tələm-tələsik yeməsinlər". Bu şərhi İbn Cərir رحمه الله İbn Abbasdan رضي الله عنهما nəql etmişdir və bu, yaxşı təfsirdir. Növbəti ayədə yetimlərin malını haqsızlıqla yemək barədə varid olan təhdid bu təfsiri qüvvətləndirir. Ayənin mənası belədir: Özündən sonrakı nəslinlə necə davranılmasını istəyirsənsə, sən də işləri sənə həvalə edilən insanların nəsilləri ilə eyni şəkildə davran. Sonra Uca Allah yetimin malını haqsızlıqla yeyənin qarnına ancaq od doldurduğunu bildirərək buyurur: "**Şübhəsiz ki, yetimlərin mallarını haqsızlıqla yeyənlər öz qarınlarına ancaq od doldururlar və beləcə, onlar alovlu atəşə girəcəklər**", yəni yetimlərin mallarını səbəbsiz yerə yeyənlər ancaq qarınlarına Qiyamət günü alovlanacaq bir od doldurmuş olurlar. əl-Buxari və Muslimin "Səhih" əsərlərində Əbu Hureyradan ﷺ rəvayət olunan bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Həlakedici yeddi günahdan çəkinin!" Səhabələr soruşdular: "Nədir onlar, ey Allahın Elçisi?" Peyğəmbər ﷺ buyurdu: "Allaha şərik qoşmaq, sehrbazlıq, Allahın haram buyurduğu cana nahaq yerə qəsd etmək, sələm yemək, yetimin malını yemək, döyüş meydanından qaçmaq və

[1] əl-Buxari, 2742, 2537, 4409; Muslim, 3076, 4296.
[2] Muslim, 3080, 4305.

(zinadan) xəbəri olmayan namuslu, ismətli mömin qadınları zinada ittiham etmək".[1]

İbn Mərdəveyh رحمه الله Əbu Hureyradan رضي الله عنه rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "İki gücsüzün – qadınlar və yetimlərin malını (haqsız) yeməyi sizə haram edirəm".[2] Yəni sizə onların malını yeməkdən çəkinməyi tövsiyə edirəm.

"əl-Bəqərə" surəsinin təfsirində keçdiyi kimi, İbn Abbas رضي الله عنهما demişdir: "Elə ki Uca Allah عز وجل "**Həqiqətən, yetimlərin mallarını haqsızlıqla yeyənlərin yedikləri qarınlarında oda çevriləcək və onlar alovlu Cəhənnəmə girəcəklər"** ayəsini nazil etdi, himayəsində yetim olanlar yetimin yeməyini öz yeməyindən, içkisini də öz içkisindən ayırdılar. Onlar yetimin yeməyini o yeyincəyə, ya da korlanıncaya qədər ayırıb saxlayırdılar. Bu onlara çətin gəldi, ona görə bunu Peyğəmbərə ﷺ xəbər verdilər. Allah عز وجل bu ayəni nazil etdi: "**Səndən yetimlər haqqında soruşurlar. De: "Onlara yaxşılıq etmək xeyirlidir. Əgər onları öz içinizə qatırsınızsa, bilin ki, onlar sizin qardaşlarınızdır".** ("əl-Bəqərə", 220). Bundan sonra yeməklərini (yetimin) yeməyinə, içkilərini isə içkisinə qatdılar".[3]

﴿ يُوصِيكُمُ ٱللَّهُ فِىٓ أَوْلَٰدِكُمْ ۖ لِلذَّكَرِ مِثْلُ حَظِّ ٱلْأُنثَيَيْنِ ۚ فَإِن كُنَّ نِسَآءً فَوْقَ ٱثْنَتَيْنِ فَلَهُنَّ
ثُلُثَا مَا تَرَكَ ۖ وَإِن كَانَتْ وَٰحِدَةً فَلَهَا ٱلنِّصْفُ ۚ وَلِأَبَوَيْهِ لِكُلِّ وَٰحِدٍ مِّنْهُمَا ٱلسُّدُسُ مِمَّا تَرَكَ إِن
كَانَ لَهُۥ وَلَدٌ ۚ فَإِن لَّمْ يَكُن لَّهُۥ وَلَدٌ وَوَرِثَهُۥٓ أَبَوَاهُ فَلِأُمِّهِ ٱلثُّلُثُ ۚ فَإِن كَانَ لَهُۥٓ إِخْوَةٌ فَلِأُمِّهِ ٱلسُّدُسُ ۚ مِنۢ
بَعْدِ وَصِيَّةٍ يُوصِى بِهَآ أَوْ دَيْنٍ ۗ ءَابَآؤُكُمْ وَأَبْنَآؤُكُمْ لَا تَدْرُونَ أَيُّهُمْ أَقْرَبُ لَكُمْ نَفْعًا ۚ فَرِيضَةً
مِّنَ ٱللَّهِ ۗ إِنَّ ٱللَّهَ كَانَ عَلِيمًا حَكِيمًا ﴿١١﴾ ﴾

**11. Allah sizə övladlarınız haqqında kişiyə iki qadının payı qədər pay verilməsini buyurur. Əgər övladlar ikidən artıq sayda qadındırsa, vəfat edənin qoyub getdiyi malın üçdə iki hissəsi onlara çatır. Əgər təkcə bir qadındırsa, mirasın yarısı ona çatır. Ölənin övladı olduğu təqdirdə onun valideynlərindən hər birinə qoyub getdiyi malın altıda bir hissəsi çatır. Əgər onun övladı yoxdursa, varisi də ancaq valideynləridirsə, onun anasına mirasının üçdə bir hissəsi düşür. Əgər ölənin qardaşları (və ya bacıları) varsa, onun anasına mirasın altıda bir hissəsi düşür. Bu bölgü ölənin**

[1] əl-Buxari, 2560, 2766, 6351, 6857; Muslim, 129, 272.

[2] Hədisin isnadı səhihdir. Hədisi başqa mənbələrdə tapa bilmədim. (Əhməd Şakir). əl-Hakim, 7167; İbn Hibban, 5565. Şueyb əl-Arnavut isnadının həsən olduğunu bildirmişdir.

[3] Bu rəvayət əl-Bəqərə surəsinin 219-220-ci ayələrinin təfsirində keçmişdir. (Əhməd Şakir).

**vəsiyyəti yerinə yetirildikdən və borcu ödənildikdən sonra aparılır. Valideynlərinizdən və övladlarınızdan hansının fayda baxımından sizə daha yaxın olduğunu siz bilməzsiniz. Bunlar Allah tərəfindən fərz buyurulmuş paylardır. Həqiqətən, Allah hər şeyi biləndir, hikmət sahibidir.**

Bu və bundan sonrakı ayə ilə bu surənin son ayəsi “əl-Fəraid”[1] elminə dair ayələrdir.

“əl-Fəraid” elmi bu üç ayədən və bu ayələri təfsir edən hədislərdən götürülmüşdür. Bu ayələri təfsir edən bəzi hədisləri qeyd edək. Bu məsələlərin izahı, alimlərin ixtilafları, dəlilləri və məzhəb imamları arasındakı münaqişələr fiqh elmi ilə əlaqəli kitablardadır. Bütün işlərdə yalnız Allahdan kömək istənilir.

“əl-Fəraid” elmini öyrənməyə rəğbətləndirən bəzi hədislər varid olmuşdur. Əbu Davud və İbn Məcə ﷺ Abdullah ibn Amrdan ﷺ rəvayət etmişlər ki, Peyğəmbər ﷺ demişdir: “Əsas üç elm var. Digərləri isə əlavə elmlərdir. Əsas elmlər bunlardır: mənası aydın olan ayə, səhih hədis və ədalətli miras bölgüsüdür”.[2] əl-Buxari ﷺ Cabir ibn Abdullahın ﷺ belə dediyini rəvayət etmişdir: “Mən Bənu Sələmə qəbiləsində olarkən xəstələnmişdim. Peyğəmbər ﷺ və Əbu Bəkr piyada mənə baş çəkməyə gəlmişdilər. Peyğəmbər ﷺ mənim xəstəlikdən halsız olduğumu gördü və su gətirilməsini istədi. Sonra dəstəmaz alıb qabda qalmış sudan mənim üzümə səpdi. Mən özümə gəldikdə “Malımı necə bölüşdürüm, ey Allahın Elçisi?” deyə soruşdum və bu səbəbdən “**Allah sizə övladlarınız haqqında kişiyə iki qadının payı qədər pay verilməsini buyurur...**” ayəsi nazil oldu”.[3] Hədisi İmam Əhməd ﷺ ilə birlikdə altı kitab müəllifləri[4] rəvayət etmişlər.[5]

İmam Əhməd ﷺ rəvayət etmişdir ki, Cabir ﷺ demişdir: “Bir dəfə Sad ibn ər-Rabinin zövcəsi Peyğəmbərin ﷺ yanına gəlib dedi: “Ey Allahın

---

[1] «əl-Fəraid» sözünün ərəbcə lüğəti mənası “miqdar”, “pay” deməkdir. Şəriət terminologiyasında isə «əl-Fəraid» varis üçün təyin olunmuş miras payı deməkdir.

[2] Əbu Davud (2885), İbn Məcə (54), əl-Hakim (4/332). əl-Hakim ﷺ hədis barədə fikrini bildirməmişdir. əz-Zəhəbi ﷺ hədisin zəif olduğunu bildirmişdir. Mənə görə isə hədisin isnadı səhihdir. (Əhməd Şakir). Əbu Davud, 2885, 2887; İbn Məcə, 54; əl-Hakim, 7949. Hədis zəifdir. Bax: Daif əl-Cami, 3871; Mişkətul-Məsabih, 239.

[3] əl-Buxari, 4211, 4577.

[4] Altı kitab müəllifləri dedikdə əl-Buxari, Muslim, Əbu Davud, ət-Tirmizi, ən-Nəsəi və İbn Məcə ﷺ nəzərdə tutulur. Altı kitab müəllifləri və İmam Əhmədin ﷺ birlikdə rəvayət etdikləri hədisi hədis terminalogiyasında “Camaat rəvayət etmişdir” kimi ifadə edirlər.

[5] əl-Buxari (8/128 Fəthul-Bari), ət-Təbəri (8730, 8731). (Əhməd Şakir).

Elçisi, bu ikisi Sad ibn ər-Rabinin qızlarıdır. Ataları Uhud döyüşündə sizinlə birlikdə döyüşərkən şəhid oldu. Əmiləri onların mallarını götürmüş və onlara heç bir şey saxlamamışlar. Onlar yalnız malları olduğu təqdirdə ərə gedə bilərlər". Peyğəmbər ﷺ dedi: "Allah bu məsələ barədə hökm verəcəkdir". Cabir hədisin davamında demişdir: "Miras ayəsi nazil oldu və Peyğəmbər ﷺ qızların əmisinə xəbər göndərib "Malın üçdə ikisini Sadın iki qızına, səkkizdə birini analarına ver. Qalanı isə sənindir" dedi".[1] Hədisi Əbu Davud, ət-Tirmizi və İbn Məcə رحمهم الله rəvayət etmişlər.[2]

Görünən budur ki, Cabirdən رضي الله عنه rəvayət olunan birinci hədis bu surənin son ayəsinin nazilolma səbəbidir. Bu barədə ətraflı daha sonra məlumat veriləcək, çünki o vaxt onun yalnız bacıları var idi, qızları isə yox idi. Cabirin رضي الله عنه valideyni və övladları olmadığı üçün bacılarına mirasdan pay düşmüşdür. Cabirdən رضي الله عنه rəvayət olunan birinci hədis əl-Buxaridə رحمه الله rəvayət olunduğuna görə burada qeyd etdik. Çünki əl-Buxari bu hədisi bu ayənin təfsirində qeyd etmişdir. Bu ayənin nazilolmasına səbəb kimi Cabirdən رضي الله عنه rəvayət olunan ikinci hədis daha uyğundur.[3] Ən doğrusunu Allah bilir.

Uca Allah buyurur: "**Allah sizə övladlarınız haqqında kişiyə iki qadının payı qədər pay verilməsini buyurur**", yəni Allah sizə övladlarınızla ədalətli davranmağı əmr edir, çünki cahiliyyə dövründə mirasın hamısını kişilərə verərdilər, qadınlara isə heç bir şey verməzdilər. Uca Allah mirasda haqları olma baxımından, onlar arasında bərabərliyi əmr etmiş, lakin iki sinif (kişilər və qadınlar) arasında fərq qoyaraq kişiyə qadına düşən payın iki mislinin verilməsini buyurmuşdur. Çünki kişi ailəsini maddi cəhətdən təmin etmək və cavabdehlik vəzifəsi daşıdığına görə mala daha çox ehtiyac duyur. Bunun üçün kişi ticarətlə məşğul olmalı, işləməli və hər cür zəhmətə qatlaşmalı olur. Bu səbəbdən qadının aldığının iki mislinin ona verilməsi münasibdir.

Bəzi alimlər Uca Allahın "**Allah sizə övladlarınız haqqında, kişiyə iki qadının payı qədər pay verilməsini buyurur**" ayəsindən bu nəticəni çıxarmışlar: "Uca Allahın Öz qullarına olan mərhəməti bir atanın övladına olan mərhəmətindən qat-qat üstündür. Belə ki ana-ataya övladları barədə tövsiyə edir. Buradan məlum olur ki, Allah Öz qullarına onların özlərindən daha mərhəmətlidir. Necə

[1] Əhməd, 14798, 14840. Hədis həsəndir. Bax: İrvaul-Ğalil, 1677.

[2] "Musnəd" (14854). əl-Hafiz İbn Həcər رحمه الله hədisi "Fəthul-Bari" əsərində qeyd etmiş və əl-Hakimin رحمه الله səhih saydığını demişdir (8/183). (Əhməd Şakir). İbn Məcə, 2720; ət-Tirmizi, 2092, 2236. Hədis həsəndir. Bax: İrvaul-Ğalil, 1677.

[3] Rəvayətləri cəm etdikdən sonra bu məna başa düşülür və doğru olan da budur. əl-Hafiz İbn Həcər "Fəthul-Bari" əsərində bu rəvayətləri cəm etməyə çalışmışdır. (Əhməd Şakir).

ki səhih bir hədisdə varid olmuşdur ki, bir dəfə Peyğəmbər ﷺ əsir götürülmüş qadınlardan birinin uşağını axtardığını gördü. Qadın uşağını tapdıqda onu bağrına basdı və əmizdirdi. Onda Peyğəmbər ﷺ səhabələrindən soruşdu: “Sizcə, bu qadın, ixtiyar onun əlində olsa, körpəsini oda atarmı?” Səhabələr “Xeyr, atmaz, ey Allahın Elçisi” deyə cavab verdilər. Peyğəmbər ﷺ dedi: “Allaha and olsun ki, Allahın Öz qullarına olan mərhəməti bu qadının körpəsinə olan mərhəmətindən qat-qat üstündür”.[1] əl-Buxari رحمه الله İbn Abbasın رضي الله عنهما belə dediyini rəvayət etmişdir: “Əvvəllər miras uşaqlara qalardı, ana-ataya isə vəsiyyət olunardı. Allah bunlardan istədiyinin hökmünü qaldırdı və kişiyə iki qadının payı qədər pay verilməsini, ana-atanın hər birinə mirasın altıda bir və üçdə birinin verilməsini, qadına səkkizdə bir və dörddə birinin verilməsini, ərə isə yarsının və dörddə birinin verilməsini buyurdu”.[2]

Uca Allah buyurur: “**Əgər övladlar ikidən artıq sayda qadındırsa, vəfat edənin qoyub getdiyi malın üçdə iki hissəsi onlara çatır**”. Bəzi alimlər ayədəki “**artıq**” sözünün əlavə bir söz kimi işləndiyini demişlər. Bu təqdirdə ayənin mənası belədir: “Əgər övladlar iki bacıdan ibarətdirsə, vəfat edənin qoyub getdiyi malın üçdə iki hissəsi onlara çatır”. Necə ki eyni söz başqa bir ayədə də əlavə söz kimi işlənmişdir: “**Onların boyunlarını vurun...**” (“əl-Ənfal”, 12). Lakin bu fikir doğru deyil və “**artıq**” sözünün nə bu ayədə, nə də digər ayədə əlavə söz kimi işlənməsi mümkün deyil. Çünki Quranda faydasız yerə işlənən əlavə söz yoxdur və bu mümkünsüzdür. Həmçinin əgər Uca Allahın “**vəfat edənin qoyub getdiyi malın üçdə iki hissəsi onlara çatır**” sözünün mənası onların dediyi kimi olsaydı, o zaman Uca Allah “malın üçdə iki hissəsi onların ikisinə çatır” deyərdi. İki qıza mirasın üçdə iki hissəsinin verilməsi hökmü surənin sonuncu ayəsində iki bacıya mirasın üçdə iki hissəsinin verilməsindən götürülür. Uca Allah “ən-Nisa” surəsinin son ayəsində iki bacıya mirasın üçdə iki hissəsinin çatmasını əmr etmişdir. Əgər iki bacı mirasın üçdə iki hissəsinə sahib olursa, o zaman iki qızın mirasın üçdə iki hissəsinə sahib olmağa daha çox haqları çatır. Necə ki daha əvvəl keçən Cabirin رضي الله عنه hədisində Peyğəmbər ﷺ Sad ibn ər-Rabinin iki qızına mirasın üçdə iki hissəsinin verilməsini əmr etmişdi. Qurani-Kərim və hədislər buna dəlalət edir. Həmçinin Uca Allah “**Əgər təkcə bir qadındırsa, mirasın yarısı ona çatır**” buyurur. Əgər iki qıza da mirasın yarısı çatsaydı,

[1] Hədis mənaca əl-Buxarinin və Muslimin “Səhih” əsərlərində Ömər ibn əl-Xattabdan رضي الله عنه rəvayət olunur. əl-Bəqərə surəsinin 142-144-cü ayələrinin təfsirində hədisin mənbələrini bildirmişik. (Əhməd Şakir). əl-Buxari, 5540, 5999. Muslim, 4947, 7154.

[2] əl-Buxari (5/278-279, 12/19 Fəthul-Bari). (Əhməd Şakir). əl-Buxari, 2542, 2747, 6739.

Uca Allah bunu bildirərdi. Uca Allahın tək qıza mirasın yarısının verilməsini hökm etməsi, iki qızın payının da üç qızın payı ilə eyni olmasına dəlalət edir. Ən doğrusunu Allah bilir.

Uca Allah buyurur: “**Ölənin övladı olduğu təqdirdə onun valideynlərindən hər birinə, qoyub getdiyi malın altıda bir hissəsi çatır**”. Vəziyyətdən asılı olaraq valideynlərin miras payı belədir:

**Birinci hal:** Əgər ölənin valideynləri ilə birlikdə övladları da varsa, bu halda valideynlərin hər birinə mirasın altıda bir hissəsi düşür. Əgər ölənin yalnız bir qızı varsa, malın yarısı qızındır. Valideynlərin hər birinə isə malın altıda bir hissəsi düşür. Yerdə qalan hissəni isə ölənin kişi qohumu olduğuna görə ata götürür. Beləliklə, ata bu halda həm ona düşən əsas payı, həm də ölənin ən yaxın kişi qohumu (əl-asabə)[1] olduğuna görə artıq qalmış payı götürmüş olur.[2]

**İkinci hal:** Əgər ölənin valideynlərindən başqa varisi olmazsa, bu halda anaya mirasın üçdə biri, qalanı isə ölənin ən yaxın kişi qohumu (əl-asabə) kimi ataya çatır. Beləliklə, ata, anaya çatan payın iki mislini – mirasın üçdə iki hissəsini götürmüş olur. Əgər valideynlərlə birlikdə ölənin (qadın olduqda) əri və ya (kişi olduqda) arvadı varis olarsa, ərə mirasın yarısı, arvada isə dörddə biri düşür. Ər və arvad hissələrini götürdükdən sonra, anaya düşən payın miqdarında alimlər ixtilaf etmişlər və bu məsələdə üç rəy irəli sürmüşlər:

**Birinci rəy**: Ana hər iki halda mirasdan qalan hissənin üçdə birini götürür, çünki qalan hissə ana-ataya görə mirasın hamısı sayılır. Uca Allah anaya, ataya düşən payın yarısını vermişdir. Bu səbəbdən ana qalan hissənin üçdə birini, ata isə üçdə ikisini götürür. Bu, Ömər və Osmanın rəyidir, habelə Əlidən ﵁ nəql edilən iki rəvayətin ən səhih olanıdır. Abdullah ibn Məsud və Zeyd ibn Sabit ﵄ də bunu demişlər. Bu həmçinin yeddi fiqh alimlərinin[3], dörd məzhəb imamlarının və əksər alimlərin rəyidir.

[1] Lüğəvi mənada “əl-asabə” insanın oğulları və ata tərəfindən olan qohumlarına deyilir. Miras elmində isə “əl-asabə” dedikdə payı müəyyən edilmiş insanların öz paylarını götürdükdən sonra artıq qalan malı götürən varislər deməkdir.

[2] İbn Abbas ﵄ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Miras paylarını sahiblərinə verin. Yerdə qalanı isə (ata tərəfdən) ən yaxın olan kişiyə verilir”. (əl-Buxari, 6235, 6732).

[3] Yeddi fiqh alimləri dedikdə tabiinlərin dövründə eyni vaxtda Mədinədə yaşayan yeddi fiqh alimləri nəzərdə tutulur. Bunlar: Səid ibn əl-Museyyib, Urvə ibn əz-Zubeyr, əl-Qasim ibn Muhəmməd ibn Əbu Bəkr əs-Siddiq, Ubeydullah ibn Utbə ibn Məsud, Xaricə ibn Zeyd ibn Sabit, Suleyman ibn Yəsərdir ﵏. Yeddincinin kimliyində fikir ayrılığı var. Əksər alimlərə görə, yeddinci Əbu Sələmə ibn Abdur-Rahmən ibn Əufdur. Lakin Səlim ibn Abdullah ibn Ömər ibn əl-Xattab, Əbu Bəkr ibn Abdur-Rahmən ibn əl-Həris ibn Hişam əl-Məxzuminin olduqları da deyilmişdir.

**İkinci rəy:** Uca Allahın "**Əgər onun övladı yoxdursa, varisi də ancaq valideynləridirsə, onun anasına mirasının üçdə bir hissəsi düşür**" ayəsinin hökmü ümumi olduğuna görə ana bütün malın üçdə birini götürür. Çünki ayənin mənası daha ümumidir, ana ilə birlikdə ər və ya arvadın varis olub-olmamasına dəlalət etmir. Bu, İbn Abbasın رضي الله عنهما rəyidir. Buna oxşar rəy Əli və Muaz ibn Cəbəldən رضي الله عنهما də rəvayət edilmişdir. Şureyh və Davud ibn Əli əz-Zahiri رحمه الله bu rəylə fətva vermişlər. Əbul-Hüseyn Muhəmməd ibn Abdullah ibn əl-Ləbbən əl-Bəsri رحمه الله özünün "əl-İcaz fi ilmil-Fəraid" adlı əsərində bu fikri seçmişdir, lakin bu rəy şübhəlidir, hətta zəifdir. Çünki ayənin zahirindən görünən budur ki, bu ayə mirasın hamısı valideynlərə qaldığı hala aiddir. Bu məsələdə ər və ya arvad mirasdan ona düşən payı alır, yerdə qalan hissə isə sanki mirasın hamısıdır və əvvəl keçdiyi kimi ana bunun üçdə birini götürür.

**Üçüncü rəy:** Ana vəfat edənin arvadı ilə birlikdə varis olarsa, bütün malın üçdə birini götürür. Arvad isə mirasın dörddə birini götürür. Əgər bütün mirası on iki hissəyə ayırsaq, arvad dörddə birini götürməklə mirasın on ikidə üç hissəsini, ana üçdə birini almaqla on ikidə dörd hissəsini götürmüş olur. Yerdə qalan beş hissə isə ataya qalır. Valideynlər vəfat edənin (qadın olarsa) əri ilə birlikdə varis olarsa, ana (ər öz payını götürdükdən sonra) yerdə qalanın üçdə birini götürür. Çünki əgər bütün malın üçdə birini götürsə, atadan daha çox almış olur. Bu halda miras altı hissəyə bölünür, yarısı, yəni üç hissəsi ərə, yerdə qalanın üçdə biri, yəni bir hissəsi anaya, bundan sonra qalan, yəni iki hissə ataya verilir. Bu rəy Muhəmməd ibn Sirindən رحمه الله nəql edilir. Bu rəy ilk iki rəyi özündə birləşdirir və onların hər birinə bir şəkildə uyğun gəlir. Lakin bu rəy də zəifdir. Doğru olan birinci rəydir. Ən doğrusunu isə Allah bilir.

**Üçüncü hal:** Valideynlərin ölənin qardaşları ilə birlikdə varis olmasıdır. Fərq etməz, istər doğma qardaşları olsun, istər atabir, istərsə də anabir qardaşları olsun. Ölənin atası olduğu təqdirdə qardaşlar mirasdan heç bir şey almırlar. Lakin onlar ananın payını üçdə birdən altıda birə endirirlər. Ölənin qardaşları varsa anaya mirasın altıda biri verilir. Ana və atadan başqa varis yoxdursa, ata mirasın qalanını da götürür. Əvvəl qeyd etdiyimiz kimi, əksər alimlərin rəyinə görə, iki qardaş ikidən çox qardaşlarla eyni hökmdədirlər.

Uca Allah buyurur: "**Əgər ölənin qardaşları** (və ya bacıları) **varsa, onun anasına mirasın altıda bir hissəsi düşür**". Qardaşlar ananın mirasını üçdə birdən altıda birə endirməklə ona zərər verirlər və

özləri də varis ola bilmirlər. Bir qardaşın olması ananın üçdə birə sahib olmasına mane olmur, birdən çox olmaları isə mane olur. Alimlərin rəyinə görə, qardaşların analarını mirasın üçdə birindən məhrum etmələrinə səbəb onları evləndirmək və maddi cəhətdən təmin etmək vəzifəsinin ananın deyil, atanın üzərinə düşməsidir. Bu gözəl izahdır, lakin İbn Abbasdan ﵄ səhih isnadla rəvayət edilmişdir ki, qardaşlar ananın almasına mane olduqları altıda biri özləri götürürlər. Bu müxalif bir görüşdür. Bu rəyi İbn Cərir ﵀ təfsirində rəvayət etmiş və demişdir: "Bu görüş ümmətin alimlərinin rəylərinə müxalifdir".

Uca Allah buyurur: "**Bu bölgü ölənin vəsiyyəti yerinə yetirildikdən və borcu ödənildikdən sonra aparılır**". Sələf və xələf alimləri borcun vəsiyyətdən əvvəl olmasında yekdil rəydədirlər. Ayənin mənasına diqqətlə nəzər yetirdikdə bunu rahatlıqla başa düşmək olur. İmam Əhməd, ət-Tirmizi, İbn Məcə və təfsir kitablarının müəllifləri rəvayət etmişlər ki, Əli ibn Əbu Talib ﵁ belə demişdir: "Siz Uca Allahın "**Bu bölgü ölənin vəsiyyəti yerinə yetirildikdən və borcu ödənildikdən sonra aparılır**" ayəsini oxuyursunuz. Peyğəmbər ﷺ vəsiyyətdən əvvəl borcu ödəyərdi. Doğma övladlarla, atabir ana ayrı övladlar birlikdə varis olduqda miras doğma övladlara çatır. Həmçinin kişi atabir qardaşının deyil, doğma qardaşının varisi olur".[1] ət-Tirmizi ﵀ hədisi rəvayət etdikdən sonra demişdir: "Bu hədis yalnız əl-Həris əl-Əvərin rəvayəti ilə gəlib çatmışdır. Bəzi hədis alimləri onun haqqında mənfi fikirdədirlər. Lakin mən deyərdim ki, o, "Fəraid" elmini yaxşı bilirdi və hesabla maraqlanardı. Ən doğrusunu isə Allah bilir".[2]

Uca Allah buyurur: "**Valideynlərinizdən və övladlarınızdan hansının fayda baxımından sizə daha yaxın olduğunu siz bilməzsiniz**", yəni Biz valideynlərə və övladlara mirasdan pay ayırdıq. Cahiliyyə dövründən fərqli olaraq varisolma baxımından onları bərabər etdik. İslamın əvvəlində də vəziyyət belə deyildi. Mal övladlara çatırdı, valideynlərə isə vəsiyyət edilirdi. Necə ki daha əvvəl İbn Abbasdan ﵄ rəvayət edilən hədisdə bildirildi. Allah əvvəlki vəziyyəti ləğv edərək bu hökmü qoydu. Həm valideynlərə, həm oğullara, həm də digər qohumlara yaxınlıqlarına uyğun olaraq paylar ayırdı. Çünki insana dünya və ya Axirət mənfəəti, bəzən də hər ikisi birdən övladlarından deyil, valideynlərindən gələ bilər. Bəzən də bunun əksi ola bilər. Bu səbəbdən Uca Allah "**Valideynlərinizdən**

[1] Əhməd, 1221; ət-Tirmizi, 2094, 2238; İbn Məcə, 2715. Hədis həsəndir. Bax: İrvaul-Ğalil, 1688.

[2] əl-Həris ibn Abdullah əl-Əvər ﵀ tabiindir, lakin hədis rəvayətində zəif hesab olunur. Bax: "Musnəd" (595, 1091, 1221). (Əhməd Şakir).

**və övladlarınızdan hansının fayda baxımından sizə daha yaxın olduğunu siz bilməzsiniz**” buyurur. Yəni birindən mənfəət gözlənildiyi və ümid edildiyi kimi, digərindən də gözlənilə və ümid edilə bilər. Bu səbəbdən həm buna, həm də digərinə pay ayırdıq və varisolma baxımından hər iki qismi bərabər etdik. Ən doğrusunu isə Allah bilir.

Uca Allah buyurur: “**Bunlar Allah tərəfindən fərz buyurulmuş paylardır**”, yəni miras mövzusunda qeyd etdiyimiz təfsilatlı məlumat varislərdən bəzilərinə digərlərindən daha artıq pay verilməsi Allahın hökm edib buyurduğu fərzlərdir. Allah hər şeyi biləndir, hikmət sahibidir. Hər şeyi yerli-yerində qoyar və hər kəsə yaxınlığına görə layiq olduğunu verər. Bu səbəbdən ayənin sonunda “**Həqiqətən, Allah hər şeyi biləndir, hikmət sahibidir**” buyurur.

﴿وَلَكُمْ نِصْفُ مَا تَرَكَ أَزْوَاجُكُمْ إِن لَّمْ يَكُن لَّهُنَّ وَلَدٌ فَإِن كَانَ لَهُنَّ وَلَدٌ فَلَكُمُ
ٱلرُّبُعُ مِمَّا تَرَكْنَ مِنۢ بَعْدِ وَصِيَّةٍ يُوصِينَ بِهَآ أَوْ دَيْنٍ وَلَهُنَّ ٱلرُّبُعُ مِمَّا تَرَكْتُمْ إِن
لَّمْ يَكُن لَّكُمْ وَلَدٌ فَإِن كَانَ لَكُمْ وَلَدٌ فَلَهُنَّ ٱلثُّمُنُ مِمَّا تَرَكْتُم مِّنۢ بَعْدِ وَصِيَّةٍ
تُوصُونَ بِهَآ أَوْ دَيْنٍ وَإِن كَانَ رَجُلٌ يُورَثُ كَلَٰلَةً أَوِ ٱمْرَأَةٌ وَلَهُۥٓ أَخٌ أَوْ أُخْتٌ فَلِكُلِّ
وَٰحِدٍ مِّنْهُمَا ٱلسُّدُسُ فَإِن كَانُوٓا۟ أَكْثَرَ مِن ذَٰلِكَ فَهُمْ شُرَكَآءُ فِى ٱلثُّلُثِ مِنۢ بَعْدِ
وَصِيَّةٍ يُوصَىٰ بِهَآ أَوْ دَيْنٍ غَيْرَ مُضَآرٍّ وَصِيَّةً مِّنَ ٱللَّهِ وَٱللَّهُ عَلِيمٌ حَلِيمٌ ﴿١٢﴾﴾

**12. Əgər vəfat etmiş zövcələrinizin övladı yoxdursa, onların vəsiyyəti yerinə yetirildikdən və borcu ödənildikdən sonra qoyub getdikləri malın yarısı sizindir. Onların övladı olduğu təqdirdə isə qoyub getdiklərinin dörddə bir hissəsi sizə çatır. Əgər sizin övladınız yoxdursa, vəsiyyətiniz yerinə yetirildikdən və borcunuz ödənildikdən sonra qoyub getdiyiniz malın dörddə bir hissəsi zövcələrinizindir. Övladınız olduğu təqdirdə isə qoyub getdiyiniz malın səkkizdə bir hissəsi zövcələrinizə çatır. Vəfat etmiş kişinin və ya qadının atası və övladı olmadığı halda malı varislərə qalarsa və (eyni anadan) bir qardaşı, yaxud bir bacısı varsa, onda onların hər birinə mirasın altıda bir hissəsi düşür. Əgər onlar sayca bundan artıq olsalar, hamısı mirasın üçdə birinə şərikdirlər. Bu bölgü, varislərə zərər yetirməmək şərtilə, vəsiyyətin yerinə yetirilməsindən və borcun ödənilməsindən sonra aparılır. Bunlar Allah tərəfindən bir buyruqdur. Allah hər şeyi biləndir, həlimdir.**

Uca Allah bu ayədə kişilərə xitab edərək bildirir ki, övladı olmadan ölən zövcələrinizin qoyub getdikləri mirasın yarısı, övladları olduğu təqdirdə isə qoyub getdikləri mirasın dörddə biri sizindir. Bu bölgü onların vəsiyyəti yerinə yetirildikdən və borcları ödənildikdən sonra aparılır. Daha əvvəl qeyd olunduğu kimi, əvvəl borclar ödənilir, sonra vəsiyyət yerinə yetirilir, daha sonra isə miras bölüşdürülür. Bu, alimlər arasında ittifaq olunmuşdur. Oğulların oğulları, qohumluq təbəqəsi getdikcə aşağı enmiş olsa belə, oğullarla eyni hökmdədirlər.

Sonra Uca Allah buyurur: “**Əgər sizin övladınız yoxdursa, vəsiyyətiniz yerinə yetirildikdən və borcunuz ödənildikdən sonra qoyub getdiyiniz malın dörddə bir hissəsi zövcələrinizindir. Övladınız olduğu təqdirdə isə qoyub getdiyiniz malın səkkizdə bir hissəsi zövcələrinizə çatır**”. İstər dörddə bir payda, istərsə də səkkizdə bir payda zövcələrin sayı rol oynamır. Kişinin bir, iki, üç və ya dörd zövcəsi olsa belə, onların hamısı bu paya müştərək sahibdirlər. Uca Allahın “...**vəsiyyətiniz yerinə yetirildikdən və borcunuz ödənildikdən sonra**” sözü barədə artıq danışmışıq.

Uca Allah buyurur: “**Vəfat etmiş kişinin və ya qadının atası və övladı olmadığı halda malı varislərə qalarsa...**” Bu ayədə keçən كَلَالَة [kələ:lə] “atası və övladı olmayan” sözü إِكْلِيل [ikli:l] sözündən götürülüb. İklil başı hər tərəfdən əhatə edən taca və ya çələngə deyilir. Burada isə yaxın qohumları olmayan və varisi uzaq qohumları olan adam nəzərdə tutulur. Necə ki əş-Şabidən ﷺ rəvayət olunur ki, Əbu Bəkr əs-Siddiqdən ﷺ “kələlə” barədə soruşduqda demişdir: “Bu barədə öz fikrimi söyləyəcəyəm. Əgər doğru olsa, Allahdan, səhv olsa, məndən və şeytandandır. Allah və Rəsulu ﷺ bundan uzaqdırlar. “Kələlə” övladları və atası olmadan ölən adamdır”. Ömər ibn əl-Xattab xəlifə olduqda ondan bu barədə soruşdular və o “Mən Əbu Bəkrin fikrinə müxalif olmaqdan utanıram” deyərək Əbu Bəkrin sözünü təsdiqlədi”.[1] Bu hədisi İbn Cərir və başqaları ﷺ rəvayət etmişlər.

İbn Əbu Hatim ﷺ İbn Abbasın ﷺ belə dediyini rəvayət etmişdir: “Ömər ibn əl-Xattabın yanına sonuncu girənlərdən biri idim və onun “Mən dediyim kimi deyilmi?” dediyini eşitdim. Mən soruşdum: “Nəyi nəzərdə tutursan?” O dedi: “Kələlə övladı və atası olmayan və o halda ölən adamdır”.[2] Əli ibn Əbu Talib və İbn Məsud ﷺ da belə demişlər.

[1] əl-Beyhəqi “Sunənus-Suğra” 1756; Abdur-Razzaq “Musannəf” 19191.

[2] İbn Əbu Hatimin ﷺ rəvayət etdiyi isnad səhihdir. Bu əsəri ət-Təbəri ﷺ təfsirində rəvayət etmişdir (8767), lakin sonunda “... və atası olmayan” hissəsi düşmüşdür. Məncə, bu kitabı

Abdullah ibn Abbas və Zeyd ibn Sabitdən رضي الله عنهم gələn rəvayətlərin səhih olanı da budur. əş-Şabi, ən-Nəxai və digərləri, habelə Mədinə, Kufə və Bəsrə alimləri رحمهم الله də bununla fətva vermişlər. Yeddi fiqh alimləri, dörd məzhəm imamları, sələf və xələf alimləri və əksər alimlər bu məsələdə eyni fikirdədirlər. Bir çox alimlər bu məsələdə icma (yekdil rəy) olduğunu nəql etmişlər. Bu barədə Peyğəmbərdən ﷺ rəvayət olunan hədis varid olmuşdur. İbn əl-Ləbbən رحمه الله demişdir: “İbn Abbasdan buna müxalif olan başqa bir rəvayət var. Rəvayətə görə, “kələlə övladı olmayan və bu halda ölənə deyilir”. Lakin İbn Abbasdan رضي الله عنهما nəql edilən birinci rəvayət doğrudur. Ola bilsin, hədisi rəvayət edən düz başa düşməmişdir.

Atası və övladı olmayanın “**bir qardaşı, yaxud bir bacısı varsa**”, yəni anabir qardaşı və ya bacısı varsa. Qatədə رحمه الله Əbu Bəkrdən رضي الله عنه rəvayət etmişdir ki, o bu ayəni məhz bu cür təfsir etmişdir. “...**onda onların hər birinə mirasın altıda bir hissəsi düşür. Əgər onlar sayca bundan artıq olsalar, hamısı mirasın üçdə birinə şərikdirlər**”. Anabir qardaşlar digər varislərdən bir çox cəhətdən fərqlənirlər:

**Birinci**: Anabir qardaşlar onları ölən şəxsə bağlayan anaları ilə birlikdə varis olurlar.

**İkinci**: Anabir qardaşlarla anabir bacılar eyni hökmdədirlər.

**Üçüncü**: Onlar yalnız vəfat edənin atası və övladları olmadığı halda varis ola bilərlər. Ata, baba, oğul, oğulun oğlu ilə birlikdə varis ola bilməzlər.

**Dördüncü**: Kişi və qadınlarının saylarının çox olmasına baxmayaraq, payları üçdə birdən artıq ola bilməz.

Şəriklik məsələsində alimlər ixtilaf etmişlər. Şəriklik bunlar varis olduqda baş verir: ər, ana və ya nənə, iki anabir qardaş, bir və ya daha çox doğma qardaşlar. Əksər alimlərin sözünə görə, ərə mirasın yarısı, ana və ya nənəyə altıda biri, anabir qardaşlara isə üçdə biri düşür. Doğma qardaşlar anabir qardaşla eyni ananın övladları olduğuna görə onların mirasına (üçdə birinə) şərik olurlar. Belə bir məsələ

köçürənlərin səhvidir. Çünki ət-Təbəri رحمه الله digər rəvayətlərdə “övladı və atası olmayan” kimi rəvayət etmişdir. Həmçinin hədisi əl-Beyhəqi (6/225) ət-Təbərinin rəvayəti kimi naqis rəvayət etmiş və digər tam rəvayətlərə etiraz etmişdir. Lakin o bu etirazına görə üzrlü sayılır. Çünki ona naqis rəvayət çatmış, tam rəvayət isə çatmamışdır. (Əhməd Şakir). əl-Beyhəqi “Sunənul-Kubra” 12058, 12644; əl-Hakim, 3187. əl-Hakim “İsnadı əl-Buxari və Muslimin şərtlərinə görə səhihdir, lakin onlar rəvayət etməmişlər” demiş, əz-Zəhəbi də onunla razılaşmışdır.

möminlərin əmiri Ömər ibn əl-Xattabın ﷺ dövründə baş vermiş və o, ərə mirasın yarısını, anaya altıda birini, ananın övladlarına üçdə birini vermişdi. Vəfat edənin doğma qardaşları etiraz edərək belə dedilər: "Ey möminlərin əmiri, belə çıxır ki, atamız eşşək olub! Biz bir anadan deyilikmi?" Ömər ﷺ də onları anabir qardaşların mirasına şərik etdi. Doğma qardaşları anabir qardaşların mirasına şərik etmək Ömər və Osmandan ﷺ səhih rəvayətlə bizə gəlib çatmışdır. Abdullah ibn Məsud, Zeyd ibn Sabit və Abdullah ibn Abbasdan ﷺ gələn iki rəvayətdən biri də belədir. Səid ibn əl-Museyyib, Qazi Şureyh, Ömər ibn Abdul-Aziz, əs-Səuri və başqaları ﷺ bu rəylə fətva vermişlər. Malik, əş-Şafii və İshaq ibn Rahaveyhin ﷺ məzhəbləri də belədir.

Əli ibn Əbu Talib ﷺ isə bu halda doğma qardaşları anabir qardaşlara şərik etməz və üçdə birin hamısını ananın övladlarına verərdi. Doğma qardaşlara isə heç nə verməzdi, çünki onlar ölənin kişi qohumlarıdır[1] (pay sahibləri deyillər). Bu həmçinin Ubey ibn Kəb və Əbu Musa əl-Əşarinin ﷺ rəyidir. İbn Abbasdan ﷺ məşhur olan rəy də budur. əş-Şabi, İbn Əbu Leylə, Əbu Hənifə, Əbu Yusuf, Muhəmməd ibn əl-Həsən, İmam Əhməd, Yəhya ibn Adəm, Davud ibn Əli əz-Zahirinin və digərlərinin ﷺ məzhəbləri də belədir. İbn əl-Ləbbən əl-Farazi "əl-İcaz" adlı əsərində bu fikri seçmişdir.

Uca Allah buyurur: "**Bu bölgü, varislərə zərər yetirməmək şərtilə, vəsiyyətin yerinə yetirilməsindən və borcun ödənilməsindən sonra aparılır**", yəni vəsiyyət ədalətli olsun, varislərdən bir qismini məhrum etmək, Allahın onlara müəyyən etdiyi payı azaldıb və ya artırmaqla zərər vermək və zülm etmək məqsədilə olmasın. Kim bunu etməyə can atarsa, Allahın hikmətinə və bölgüsünə qarşı çıxmış olar. ət-Təbəri ﷺ İbn Abbasın ﷺ belə dediyini rəvayət etmişdir: "Vəsiyyət etməklə başqalarına zərər vermək böyük günahlardandır".[2] Hədisi ən-Nəsəi və İbn Əbu Hatim ﷺ İbn Abbasın ﷺ sözü olaraq rəvayət etmişlər.[3]

[1] Çünki kişi qohumlara miras payları tam bölündükdən sonra artıq qalan hissə düşür. Peyğəmbər ﷺ demişdir: "Miras paylarını sahiblərinə verin. Yerdə qalan isə (ata tərəfdən) ən yaxın olan kişiyə verilir". (əl-Buxari, 6235, 6732).

[2] ən-Nəsəi "Sunənul-Kubra" 11026, 11092. Peyğəmbərə ﷺ nisbət olunması düzgün deyil. Hədis zəifdir. Bax: Daif ət-Tərğib vat-Tərhib, 2019.

[3] ət-Təbəri (8783-8787), əl-Beyhəqi (6/271). Həmçinin hədisi ət-Təbəri (8788), əl-Beyhəqi və İbn Əbu Hatim ﷺ Peyğəmbərin ﷺ sözü olaraq rəvayət etmişlər. Lakin isnadı olduqca zəifdir. Doğru olan budur ki, hədis İbn Abbasın ﷺ sözüdür. Hədis zahirən İbn Abbasın ﷺ sözü olsa da, mənaca Peyğəmbərə ﷺ nisbət olunan hədis hökmündədir. Çünki İbn Abbasın ﷺ belə bir sözü özündən deməsi və bu əməlin böyük günah olmasını qəti şəkildə bildirməsi mümkün deyil. (Əhməd Şakir).

Bu səbəbdən alimlər vəfat edənin ölüm ayağında varisin xeyrinə etdiyi etirafın[1] qəbul olunub-olunmaması məsələsində ixtilaf etmişlər. Bu məsələdə iki rəy var:

**Birinci rəy**: Vəfat edənin ölüm ayağında varislərdən birinin xeyrinə etdiyi etirafı qəbul olunmur, çünki bu, bilərəkdən varisin payını artırması şübhəsini doğurur. Bununla bağlı səhih bir hədisdə Peyğəmbər ﷺ demişdir: “Həqiqətən, Uca Allah hər haqq sahibinin haqqını vermişdir. Buna görə də varisə vəsiyyət yoxdur”.[2] Bu rəy Əbu Hənifə, Malik və Əhməd ibn Hənbəlin ﷬ məzhəbidir. əş-Şafiinin ﷬ köhnə rəyi də budur.

**İkinci rəy**: əş-Şafii ﷬ yeni rəyində isə bu etirafın qəbul olunduğunu demişdir. Vəfat edənin ölüm ayağında varisin xeyrinə etdiyi etirafın qəbul olunması Tavus, Əta, əl-Həsən və Ömər ibn Abdul-Azizin ﷬ də rəyidir. Əbu Abdullah əl-Buxari “Səhih” əsərində də bu rəyi seçmiş və Rafi ibn Xadicin ؓ arvadı əl-Fəzəriyyənin evindəki malından heç bir şey götürülməməsini vəsiyyət etməsini dəlil gətirmişdir. əl-Buxari ﷬ demişdir: “Bəzi insanlar varislər barədə pis zənnə qapılaraq vəfat edənin ölüm ayağında öz varislərinin xeyrinə olan bir şeyi etiraf etməsinin qəbul olunmadığını demişlər. Halbuki Peyğəmbər ﷺ “Zənnə qapılmaqdan çəkinin! Çünki zənn ən yalan söhbətdir” demişdir. Uca Allah “**Həqiqətən, Allah sizə əmanətləri sahiblərinə qaytarmanızı və insanlar arasında hökm verərkən ədalətlə hökm verməniz əmr edir**” (“ən-Nisa”, 58) buyurmaqla yalnız varisləri və ya qeyrilərini nəzərdə tutmamışdır”.[3] əl-Buxarinin ﷬ dedikləri burada bitir. Ölüm ayağında edilən etiraf doğru və həqiqətə uyğun olduqda bu ixtilafın olması normaldır. Lakin əgər bu etiraf hiylə və varislərin bir qisminin payını artırmağa, digər bir qisminin isə payını azaltmağa vəsilə olarsa, alimlərin yekdil rəyi ilə bu haramdır. Buna dəlil isə Uca Allahın “**Bu bölgü, varislərə zərər yetirməmək şərtilə, vəsiyyətin yerinə yetirilməsindən və borcun ödənilməsindən sonra aparılır. Bunlar Allah tərəfindən bir buyruqdur. Allah hər şeyi biləndir, həlimdir**” ayəsidir.

---

[1] Məsələn, bir kəsin ölüm ayağında varislərin birinə borcu olduğunu etiraf etməsi kimi.

[2] Hədis Amr ibn Xaricədən ؓ rəvayət olunur. “əl-Bəqərə” surəsinin 178-182-ci ayələrinin təfsirində keçmişdir. (Əhməd Şakir). Əbu Davud, 2872, 3567; ən-Nəsəi “Sunən” 3581, 3641, 3656. Hədis səhihdir. Bax: Səhih əl-Cami, 1720.

[3] əl-Buxari “Vəsiyyət Kitabı” 8-ci fəsil.

﴿ تِلۡكَ حُدُودُ ٱللَّهِۚ وَمَن يُطِعِ ٱللَّهَ وَرَسُولَهُۥ يُدۡخِلۡهُ جَنَّٰتٖ تَجۡرِي مِن تَحۡتِهَا
ٱلۡأَنۡهَٰرُ خَٰلِدِينَ فِيهَاۚ وَذَٰلِكَ ٱلۡفَوۡزُ ٱلۡعَظِيمُ ١٣ وَمَن يَعۡصِ ٱللَّهَ وَرَسُولَهُۥ
وَيَتَعَدَّ حُدُودَهُۥ يُدۡخِلۡهُ نَارًا خَٰلِدٗا فِيهَا وَلَهُۥ عَذَابٞ مُّهِينٞ ١٤ ﴾

**13. Bunlar Allahın qoyduğu hüdudlardır. Kim Allaha və Onun rəsuluna itaət edərsə, Allah onu altından çaylar axan, içində əbədi qalacağı cənnətlərə daxil edər. Bu, böyük uğurdur.**

**14. Kim Allaha və Onun rəsuluna asi olub Onun hüdudlarını aşarsa, Allah onu içində əbədi qalacağı Cəhənnəm oduna vasil edər. Onun üçün alçaldıcı bir əzab vardır.**

Yəni ölən insanın varislərinin ona olan yaxınlıqlarına və ehtiyaclarına görə Uca Allahın onlar üçün müəyyən etdiyi paylar və ölçülər Onun qoyduğu hüdudlarıdır. Bu hüdudları aşmayın və qoyduğu qanunları pozmayın. Bu səbəbdən Uca Allah belə buyurur: "**Kim Allaha və Onun rəsuluna itaət edərsə**...", yəni bu hüdudları qorumaqla müxtəlif hiylə və vasitələrlə varislərdən bir qisminin payını artırmaz, digər bir qisminin payını azaltmaz, əksinə, onları Allahın hökmünə, payına və bölgüsünə həvalə edərsə, "**Allah onu altından çaylar axan, içində əbədi qalacağı cənnətlərə daxil edər. Bu, böyük uğurdur. Kim Allaha və Onun rəsuluna asi olub Onun hüdudlarını aşarsa, Allah onu içində əbədi qalacağı Cəhənnəm oduna vasil edər. Onun üçün alçaldıcı bir əzab vardır**". Çünki o, Allahın qoyduğu hökmü dəyişdirməklə Onun hökmünə qarşı çıxmışdır. Bu isə Allahın bölgüsü və hökmü ilə razılaşmamaqdan irəli gəlir. Buna görə də Uca Allah onu alçaldaraq ağrılı-acılı və əbədi əzabla cəzalandıracaqdır.

İmam Əhməd رحمه الله Əbu Hureyradan رضي الله عنه rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Bir adam yetmiş il xeyir iş görən kəslərin əməlini edər, vəsiyyət etdikdə isə zülmə yol verər və əməl dəftərinə pis əməllə xitam verilər və nəticədə Cəhənnəmə girər. Bir adam da yetmiş il şər iş görən kəslərin əməlini edər, sonunda vəsiyyət edərkən ədalətli olar və əməl dəftərinə yaxşı əməllə xitam verilər və nəticədə Cənnətə girər". Sonra Əbu Hureyra رضي الله عنه belə dedi: "İstəsəz, Uca Allahın "**Bunlar Allahın qoyduğu hüdudlardır. Kim Allaha və Onun rəsuluna itaət edərsə, Allah onu altından çaylar axan, içində əbədi qalacağı cənnətlərə daxil edər. Bu, böyük uğurdur. Kim Allaha və Onun rəsuluna asi olub Onun hüdudlarını aşarsa, Allah onu içində əbədi qalacağı Cəhənnəm oduna vasil edər. Onun üçün alçaldıcı bir əzab vardır**"

ayəsini oxuyun!"[1] Oxşar hədisi Əbu Davud, ət-Tirmizi və İbn Məcə rəvayət etmişlər. İmam Əhmədin rəvayəti daha mükəmməldir.

﴿ وَٱلَّٰتِي يَأۡتِينَ ٱلۡفَٰحِشَةَ مِن نِّسَآئِكُمۡ فَٱسۡتَشۡهِدُواْ عَلَيۡهِنَّ أَرۡبَعَةٗ مِّنكُمۡۖ فَإِن شَهِدُواْ
فَأَمۡسِكُوهُنَّ فِي ٱلۡبُيُوتِ حَتَّىٰ يَتَوَفَّىٰهُنَّ ٱلۡمَوۡتُ أَوۡ يَجۡعَلَ ٱللَّهُ لَهُنَّ سَبِيلٗا ١٥ وَٱلَّذَانِ يَأۡتِيَٰنِهَا
مِنكُمۡ فَـَٔاذُوهُمَاۖ فَإِن تَابَا وَأَصۡلَحَا فَأَعۡرِضُواْ عَنۡهُمَآۗ إِنَّ ٱللَّهَ كَانَ تَوَّابٗا رَّحِيمًا ١٦ ﴾

**15. Qadınlarınızdan zina edənlərə qarşı aranızdan dörd şahid gətirin! Əgər onlar şahidlik etsələr, o qadınları, ölüm onların həyatına son qoyanadək, yaxud Allah onlar üçün bir yol açanadək evlərdə həbs edin.**

**16. Aranızda belə yaramaz iş tutanların hər ikisinə əziyyət verin. Əgər tövbə edib əməllərini islah etsələr, onlara əziyyət verməkdən vaz keçin. Həqiqətən, Allah tövbələri qəbul edəndir, rəhmlidir.**

İslamın əvvəlində hökm belə idi ki, əgər bir qadın zina edərdisə və etdiyi zina ədalətli dəlillərlə sübuta yetərdisə, həmin qadın bir evdə həbs edilərdi və ölənə qədər o evdən çıxmasına izin verilməzdi. Bu səbəbdən Uca Allah buyurur: "**Qadınlarınızdan zina edənlərə qarşı aranızdan dörd şahid gətirin! Əgər onlar şahidlik etsələr, o qadınları, ölüm onların həyatına son qoyanadək, yaxud Allah onlar üçün bir yol açanadək evlərdə həbs edin**". Allahın onlar üçün bir yol açması bu ayənin hökmünün ləğv edilməsi idi. İbn Abbas demişdir: "Uca Allah "ən-Nur" surəsində şallaq və ya daşqalaq cəzası ilə bu ayənin hökmünü ləğv etməyənə qədər zinakarın hökmü belə idi". Bu məsələdə alimlər ittifaq etmişlər. İmam Əhməd Ubədə ibn Samitdən rəvayət etmişdir ki, Peyğəmbərə vəhy nazil olduqda bu ona təsir edərdi. Vəhyin nazil olması ona ağır gələrdi və üzündə qəmgin bir hal yaranardı. Bir gün Uca Allah ona vəhy nazil etdi və o özünə gəldikdən sonra dedi: "Məndən öyrənin! Artıq Uca Allah onlar (zina etmiş qadınlar) üçün çıxış yolu göstərdi. Evli ilə evli, subay ilə subay zina edərsə, evliyə yüz qamçı vurular, sonra isə daşqalaq olunar. Subaya isə yüz qamçı vurular və bir il yaşadığı yerdən

[1] "əl-Musnəd" (7728). Hədis "əl-Bəqərə" surəsinin 180-184-cü ayələrinin təfsirində keçmişdir. Hədisin təxrici barədə orada danışmışıq. (Əhməd Şakir). Əhməd, 7728. Hədis zəifdir. Bax: Daif əl-Cami, 1457; Mişkətul-Məsabih, 3075.

uzaqlaşdırılar".[1] Hədisi Muslim və "Sunən" əsərlərinin sahibləri rəvayət etmişlər. ət-Tirmizi ﷺ "Bu hədis həsən-səhihdir" demişdir. Eyni hədisi Əbu Davud ət-Tayəlisi ﷺ də rəvayət etmişdir.[2] İmam Əhməd ibn Hənbəl ﷺ bu hədisə əsaslanaraq evli zinakarın həm çubuqla, həm də daşqalaq olunmaqla cəzalandırıldığını demişdir. Əksər alimlərin rəyinə görə isə evli zinakar çubuq vurulmadan yalnız daşqalaq olunur. Onlar demişlər "Çünki Peyğəmbər ﷺ öz dövründə Maizi, əl-Ğamidiyyə qəbiləsindən olan qadını və iki yəhudini evli olduqları halda zina etdiklərinə görə daşqalaq etmiş, lakin daşqalaq etməmişdən əvvəl onlara çubuq vurmamışdır. Bu da onu göstərir ki, daşqalaq etməmişdən əvvəl çubuq vurmaq vacib deyil". Əksinə, onların sözlərinə görə daşqalaqdan əvvəl çubuq vurmaq nəsx (hökmü ləğv) edilmişdir. Ən doğrusunu Allah bilir.

Uca Allah buyurur: "**Aranızda belə yaramaz iş tutanların hər ikisinə əziyyət verin**", yəni aranızda zina edən iki nəfərin hər ikisinə əziyyət verin. İbn Abbas, Səid ibn Cubeyr və başqaları demişlər: "Yəni söyməklə, danlamaqla və ayaqqabı ilə vurmaqla əziyyət verin". Uca Allah bu hökmü çubuq vurmaq və daşqalaq etmək cəzası ilə dəyişdirənə qədər onlar barədə hökm belə idi. İkrimə, Əta, əl-Həsən və Abdullah ibn Kəsir ﷺ bu ayənin zina edən kişi və qadın barədə nazil olduğunu demişlər. Mucahid ﷺ isə zina edən iki kişi barədə nazil olduğunu demişdir. Sanki bununla lutiliyi (homoseksuallığı) nəzərdə tutmuşdur. Ən doğrusunu Allah bilir. "Sunən" əsərlərinin sahibləri İbn Abbasdan ﷺ rəvayət etmişlər ki, Peyğəmbər ﷺ demişdir: "Lut qövmünün etdiyini təkrar edənləri (homoseksuallıqla məşğul olanı) görsəniz, həm edəni, həm də ediləni öldürün".[3]

Uca Allah buyurur: "**Əgər tövbə edib əməllərini islah etsələr...**", yəni etdikləri əməli tərk edib əməllərini düzəltsələr və yaxşılaşdırsalar, "**onlara əziyyət verməkdən vaz keçin**", yəni artıq bundan sonra onlara kobud sözlər deməklə məzəmmət etməyin. Çünki günahından tövbə edən kəs günahsız insan kimidir. "**Həqiqətən, Allah tövbələri qəbul edəndir, rəhmlidir**". əl-Buxari və Muslimin "Səhih" əsərlərində rəvayət olunan bir hədisdə belə buyurulur: "Kəniz zina edərsə və bu

---

[1] Əhməd, 22715, 22767, 23092. Şueyb əl-Arnavut Muslimin şərtlərinə görə hədisin isnadının səhih olduğunu bildirmişdir.

[2] "əl-Musnəd" (5/318 Hələbi nəşri), ət-Tayəlisi (548), əş-Şafii "Risələ" əsəri (378-379, 686), ət-Təbəri (8805-8807, 8810, 8811). (Əhməd Şakir).

[3] "əl-Musnəd" (2732). İsnadı səhihdir. (Əhməd Şakir). Əbu Davud, 4462; İbn Məcə, 2515. Hədis səhihdir. Bax: İrvaul-Ğalil, 2350.

işin üstü açılarsa, qoy (ağası) ona (əlli) çubuq vursun və onu təhqir etməsin!"[1] Yəni etdiyinin kəffarəsi olaraq cəzanı tətbiq etdikdən sonra bu etdiyinə görə ona tənə etməsin.

﴿ إِنَّمَا ٱلتَّوۡبَةُ عَلَى ٱللَّهِ لِلَّذِينَ يَعۡمَلُونَ ٱلسُّوٓءَ بِجَهَٰلَةٖ ثُمَّ يَتُوبُونَ مِن قَرِيبٖ فَأُوْلَٰٓئِكَ
يَتُوبُ ٱللَّهُ عَلَيۡهِمۡۗ وَكَانَ ٱللَّهُ عَلِيمًا حَكِيمٗا ١٧ وَلَيۡسَتِ ٱلتَّوۡبَةُ لِلَّذِينَ يَعۡمَلُونَ
ٱلسَّيِّـَٔاتِ حَتَّىٰٓ إِذَا حَضَرَ أَحَدَهُمُ ٱلۡمَوۡتُ قَالَ إِنِّي تُبۡتُ ٱلۡـَٰٔنَ وَلَا ٱلَّذِينَ يَمُوتُونَ وَهُمۡ
كُفَّارٌۚ أُوْلَٰٓئِكَ أَعۡتَدۡنَا لَهُمۡ عَذَابًا أَلِيمٗا ١٨ ﴾

**17. Allah ancaq o kəslərin tövbəsini qəbul edər ki, onlar avamlıqları üzündən pis iş gördükdən sonra tez bir zamanda tövbə edərlər. Allah onların tövbəsini qəbul edər. Həqiqətən, Allah hər şeyi biləndir, hikmət sahibidir.**

**18. Günah işlər görməkdə davam edənlərdən birinə ölüm gəldiyi zaman "Mən indi tövbə etdim!" deyənlərlə kafir kimi ölənlərin tövbəsi qəbul deyildir. Biz onlar üçün ağrılı-acılı bir əzab hazırlamışıq.**

Uca Allah bu ayədə bildirir ki, O, yalnız avamlığı üzündən günah əməl edib, sonra can boğaza yetişmədən, yəni ruhunu almağa gələn mələyi görməmişdən əvvəl tövbə edənlərin tövbəsini qəbul edir. Mucahid və başqaları ﷀ demişlər: "Allaha istər bilərək, istərsə də bilmədən asi olan hər kəs etdiyi günahdan əl çəkənə qədər avamdır". Abdur-Razzəq Qatədənin ﷀ belə dediyini rəvayət etmişdir: "Peyğəmbərin ﷺ səhabələri Allaha asilik sayılan hər bir əməlin avamlıq olmasında yekdil rəydə olmuşlar. İstər bu bilərəkdən olsun, istər də digər səbəbdən".[2] Həmçinin Abdur-Razzəq ﷀ rəvayət etmişdir ki, İbn Abbas ﷄ Uca Allahın "...**sonra tez bir zamanda tövbə edərlər**" ayəsi barəsində demişdir: "Yəni işlədiyi günahla, ölüm mələyini görəcəyi zaman arasında tövbə edərlər". əl-Həsən əl-Bəsri ﷀ isə demişdir: "Can boğaza yetişmədən tövbə edərlər". İkrimə ﷀ demişdir: "Ayədə "**tez bir zaman**" dedikdə dünya həyatı nəzərdə tutulur".

[1] əl-Buxarinin ﷀ Əbu Hureyradan ﷛ rəvayət etdiyi hədisin müxtəsər formasıdır (4/350 Fəthul-Bari), Muslim (2/37-38). Həmçinin Əhməd "əl-Musnəd" (7389) əsərində rəvayət etmişdir. (Əhməd Şakir). əl-Buxari, 2080, 2234; Muslim, 3215, 4542.

[2] Hədis Abdur-Razzəqin təfsirindədir (səh. 39). Həmçinin ət-Təbəri ﷀ eyni isnadla rəvayət etmişdir (8833). (Əhməd Şakir).

İmam Əhməd İbn Ömərdən rəvayət etmişdir ki, Peyğəmbər demişdir: "Allah qulun tövbəsini canı boğazına yetişməyənə qədər qəbul edər".[1] Hədisi həmçinin ət-Tirmizi və İbn Məcə rəvayət etmişlər. ət-Tirmizi "Həsən-ğarib hədisdir" demişdir.[2] İbn Məcənin "Sunən" əsərində hədis Abdullah ibn Amrdan rəvayət edilsə də, əslində, bu səhvdir. Doğru olan budur ki, hədisi Abdullah ibn Ömər ibn əl-Xattab rəvayət etmişdir. İmam Əhməd Abdur-Rahmən ibn əl-Beyləmənidən rəvayət etmişdir ki, bir dəfə Peyğəmbərin səhabələrindən dördü bir yerə toplaşdılar. Onlardan biri dedi: "Mən Peyğəmbərin "Həqiqətən, Allah qulun tövbəsini ölümündən bir gün əvvələ qədər qəbul edər" dediyini eşitdim". Digəri "Sən bunu Peyğəmbərdən eşitdinmi?" deyə soruşdu. Əvvəlki "Bəli" deyə cavab verdi. Digəri sözünü davam edərək dedi: "Mən Peyğəmbərin "Həqiqətən, Allah qulun tövbəsini ölümündən yarım gün əvvələ qədər qəbul edər" dediyini eşitmişəm". Üçüncüsü ondan "Sən bunu Peyğəmbərdən eşitdinmi?" deyə soruşdu. O, "Bəli" deyə cavab verdi. Üçüncü dedi "Mən Peyğəmbərin "Həqiqətən, Allah qulun tövbəsini ölümünə dan yeri söküləndən Günəş göy üzünün ortasına çatana kimi olan vaxt qalanadək qəbul edər" dediyini eşitmişəm". Dördüncü ondan "Sən bunu Peyğəmbərdən eşitdinmi?" deyə soruşdu. Üçüncü "Bəli" deyə cavab verdi. Dördüncü dedi "Mən Peyğəmbərin: "Həqiqətən, Allah qulun tövbəsini canı boğazına yetişənədək qəbul edər" dediyini eşitmişəm".[3] Oxşar hədisi Səid ibn Mənsur Abdur-Rahmən ibn əl-Beyləmənidən rəvayət etmişdir.

Bu hədislər dəlalət edir ki, yaşamağa ümidi olan kəs Allaha tövbə edərsə, tövbəsi qəbul olunar. Bu səbəbdən Uca Allah "**Allah onların tövbəsini qəbul edər. Həqiqətən, Allah hər şeyi biləndir, hikmət sahibidir**" buyurur. Lakin yaşamaqdan ümidini kəsib ölüm mələyini görən, son nəfəsini verərkən xırıldamağa başlayan, köksü daralan və can boğaza yetişdiyi zaman xırıldamağa başlayan kəsin etdiyi tövbə məqbul deyil. Bu zaman artıq xilasolma vaxtı deyil. Bu səbəbdən Uca

[1] Əhməd, 6160. Hədis həsəndir. Bax: Səhih əl-Cami, 1903.

[2] "əl-Musnəd" (6160, 6408). Həmçinin əl-Hakim (4/258) rəvayət etmiş və səhih olduğunu bildirmişdir. əz-Zəhəbi bununla razılaşmışdır. (Əhməd Şakir).

[3] "əl-Musnəd" (15565). İsnadı səhihdir. Abdur-Rahmən ibn əl-Beyləməni mötəbər tabiindir. Kitabın çap olunmuş nüsxəsində "İbn əs-Səlməni" yazılmışdır ki, bu da səhvdir. Hədisi həmçinin əl-Hakim (4/258-259) səhih isnadlarla rəvayət etmişdir. əl-Heysəmi hədisi "əz-Zəvaid" (10/197) əsərində qeyd etmiş və demişdir: "Hədisi Əhməd rəvayət etmişdir. Hədisi rəvayət edənlərin adları əl-Buxarinin "Səhih" əsərində keçmişdir. Yalnız Abdur-Rahmən istisna olmaqla, o da mötəbərdir". (Əhməd Şakir). Əhməd, 15499, 15538, 15565. Şueyb əl-Arnavut isnadının zəif olduğunu bildirmişdir.

Allah buyurur: "**Günah işlər görməkdə davam edənlərdən birinə ölüm gəldiyi zaman "Mən indi tövbə etdim!" deyənlərlə kafir kimi ölənlərin tövbəsi qəbul deyildir**". Başqa bir ayədə belə buyurur: "**Onlar əzabımızı gördükdə dedilər: "Biz tək Allaha iman gətirdik və Ona qoşduğumuz şərikləri inkar etdik!" Lakin əzabımızı gördükdə iman gətirmələri onlara heç bir fayda vermədi. Bu, Allahın Öz qulları barəsində əzəldən olub-keçmiş qanunudur. Kafirlər orada ziyana uğradılar**" ("Ğafir", 84-85). Başqa bir ayədə isə Uca Allah yer üzündə olan insanların Günəşin günbatandan doğduğunu gördükləri zaman tövbələrinin qəbul olunmayacağını hökm edərək buyurur: "**Rəbbinin bəzi** (Qiyamət) **əlamətləri** (Günəşin günbatandan doğması) **gələcəyi gün əvvəlcə iman gətirməmiş və ya imanında bir xeyir qazanmamış kimsəyə iman gətirməsi fayda verməyəcəkdir**" ("əl-Ənam", 158).

Uca Allah buyurur: "...**kafir kimi ölənlərin tövbəsi qəbul deyildir**", yəni əgər kafir insan küfr və şirk əməli üzərində ölərsə, sonrakı peşmançılığı və can boğaza yetişərkən etdiyi tövbəsi ona fayda verməyəcək, hətta bunun üçün dünya dolusu qızıl fidyə versə belə, bu ondan qəbul olunmaz. İbn Abbas, Əbul-Aliyə və ər-Rabi ibn Ənəs ﷺ demişlər: "Uca Allahın "...**kafir kimi ölənlərin tövbəsi qəbul deyildir**" ayəsi Allaha şərik qoşanlar barədə nazil olmuşdur". İmam Əhməd ﷺ Əbu Zərdən ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Həqiqətən, Allah qulunun tövbəsini (onunla Allahın rəhməti arasına) örtük çəkilməyənə qədər qəbul edər və ya qulunu bağışlayar". Orada olan səhabələr "Örtüyün çəkilməsi nədir, ey Allahın Elçisi?" deyə soruşduqda Peyğəmbər ﷺ dedi: "Müşrik olduğu halda canının çıxmasıdır".[1] Bu səbəbdən Uca Allah ayənin sonunda "**Biz onlar üçün ağrılı-acılı bir əzab hazırlamışıq**" buyurur.

[1] "əl-Musnəd" (5/174 Hələbi nəşri). İsnadı səhihdir. Həmçinin əl-Buxari "əl-Kəbir" əsərində (1/2/22, 161-162) və əl-Hakim (4/257) rəvayət etmişlər. əl-Hakim ﷺ hədisin səhih olduğunu bildirmişdir. əz-Zəhəbi ﷺ bununla razılaşmışdır. Hədis "Məcməuz-Zəvaid" əsərində yer almış (10/198) və müəllif əlavə olaraq hədisi əl-Bəzzərə ﷺ nisbət etmişdir. (Əhməd Şakir). Əhməd, 21522, 21561, 21855. Şueyb əl-Arnavut isnadının zəif olduğunu bildirmişdir.

﴿ يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ لَا يَحِلُّ لَكُمۡ أَن تَرِثُواْ ٱلنِّسَآءَ كَرۡهٗاۖ وَلَا تَعۡضُلُوهُنَّ لِتَذۡهَبُواْ بِبَعۡضِ مَآ
ءَاتَيۡتُمُوهُنَّ إِلَّآ أَن يَأۡتِينَ بِفَٰحِشَةٖ مُّبَيِّنَةٖۚ وَعَاشِرُوهُنَّ بِٱلۡمَعۡرُوفِۚ فَإِن كَرِهۡتُمُوهُنَّ فَعَسَىٰٓ أَن تَكۡرَهُواْ
شَيۡـٔٗا وَيَجۡعَلَ ٱللَّهُ فِيهِ خَيۡرٗا كَثِيرٗا ١٩ وَإِنۡ أَرَدتُّمُ ٱسۡتِبۡدَالَ زَوۡجٖ مَّكَانَ زَوۡجٖ وَءَاتَيۡتُمۡ
إِحۡدَىٰهُنَّ قِنطَارٗا فَلَا تَأۡخُذُواْ مِنۡهُ شَيۡـًٔاۚ أَتَأۡخُذُونَهُۥ بُهۡتَٰنٗا وَإِثۡمٗا مُّبِينٗا ٢٠ وَكَيۡفَ تَأۡخُذُونَهُۥ
وَقَدۡ أَفۡضَىٰ بَعۡضُكُمۡ إِلَىٰ بَعۡضٖ وَأَخَذۡنَ مِنكُم مِّيثَٰقًا غَلِيظٗا ٢١ وَلَا تَنكِحُواْ مَا نَكَحَ
ءَابَآؤُكُم مِّنَ ٱلنِّسَآءِ إِلَّا مَا قَدۡ سَلَفَۚ إِنَّهُۥ كَانَ فَٰحِشَةٗ وَمَقۡتٗا وَسَآءَ سَبِيلًا ٢٢ ﴾

**19. Ey iman gətirənlər! Qadınlara zorla varis çıxmaq sizə halal deyildir. Qadınlar açıq-aşkar yaramaz bir iş görməyincə, onlara verdiklərinizin bir hissəsini geri almaq üçün onları sıxışdırmayın. Onlarla xoş rəftar edin. Əgər onlar xoşunuza gəlmirsə, ola bilsin ki, xoşlamadığınız bir şeydə Allah sizə çoxlu xeyir nəsib etmiş olsun.**

**20. Əgər bir arvadın yerinə başqa bir arvad almaq istəsəniz, onlardan birinə yığın-yığın mal vermiş olsanız belə, bundan heç bir şey geri almayın! Məgər verdiyinizi böhtan atmaq və açıq-aşkar günah işlətməklə geri alacaqsınız?**

**21. Onu necə geri ala bilərsiniz ki, siz bir-birinizlə yaxınlıq etmişdiniz və onlar sizdən möhkəm əhd-peyman almışdılar.**

**22. Olub-keçənlər istisna olmaqla bundan sonra atalarınızın evlənmiş olduğu qadınlarla evlənməyin. Çünki bu, iyrənc və qəzəb doğuran bir əməl, həm də pis bir yoldur.**

əl-Buxari ﷺ rəvayət etmişdir ki, İbn Abbas ﵄ Uca Allahın “**Ey iman gətirənlər! Qadınlara zorla varis çıxmaq sizə halal deyildir**” ayəsi barədə demişdir: “Cahiliyyə dövründə bir kişi öldükdə qohumları zorla onun həyat yoldaşına varis çıxaraq ya özlərindən biri onunla evlənir, ya istədiklərinə ərə verir, ya da ona istədiyinə ərə getməyə mane olurdular. Bu məsələdə kişinin qohumları qadının qohumlarından daha çox hüquqa malik idilər. Bu səbəbdən bu ayə nazil oldu”.[1] Hədisi Əbu Davud, ən-Nəsəi, İbn Mərdəveyh və İbn Əbu Hatim ﷺ rəvayət etmişlər.[2]

[1] əl-Buxari, 4579, 6948; ən-Nəsəi “Sunənul-Kubra” 11028, 11094.
[2] əl-Buxari (8/184-186 Fəthul-Bari), ət-Təbəri (8869). (Əhməd Şakir).

ət-Təbəri ﷺ rəvayət etmişdir ki, İkrimə ﷺ demişdir: "Bu ayə Əus qəbiləsindən Kubeyşə bint Məan ibn Asim barədə nazil olmuşdur. Onun əri Əbu Qeys ibn əl-Əslət vəfat etdikdə (başqa qadından olan) oğlu onun başqasına ərə getməsinə mane olurdu. Qadın Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Ey Allahın Elçisi, məni nə ərimə varis etdilər, nə də başqasına ərə getməyə imkan verdilər". Bu səbəbdən bu ayə nazil oldu".[1] Mucahid ﷺ bu ayənin nazilolma səbəbi barədə demişdir: "Birinin himayəsində yetim bir qız olardı və o bu yetimin qayğısına qalardı. Sonra da arvadı öldükdən sonra bu yetimlə evlənmək və ya oğluna almaq ümidi ilə onu evində saxlayardı və başqasına ərə verməzdi". Hədisi İbn Əbu Hatim ﷺ rəvayət etmiş, sonra demişdir: "Oxşar hədis əş-Şabi, Əta ibn Əbu Rabəh, Əbu Micləz, əd-Dahhək, əz-Zuhri, Əta əl-Xorasani və Muqatil ibn Həyyəndən rəvayət olunmuşdur".[2]

Mən deyirəm: "Ayə həm insanların cahiliyyə dövründə etdiklərini, həm Mucahid və onun fikrində olanların dediklərini, həm də bu növ məsələ ilə əlaqəli hər şeyi əhatə edir. Ən doğrusunu isə Allah bilir".

Uca Allah buyurur: "**Qadınlar açıq-aşkar yaramaz bir iş görməyincə, onlara verdiklərinizin bir hissəsini geri almaq üçün onları sıxışdırmayın**". Onlara verdiyiniz mehrin hamısını və ya bir hissəsini və yaxud üzərinizdə olan haqlarından birinin sizə keçməsi üçün onlarla pis rəftar etməyin, onları məcbur etməklə əziyyət verməyin.

Uca Allah buyurur: "**açıq-aşkar yaramaz bir iş görməyincə**". İbn Məsud, İbn Abbas, Səid ibn əl-Museyyib, Səid İbn Cubeyr, Mucahid və başqaları ﷺ demişlər: "Ayədə zina qəsd edilir". Yəni əgər qadın zina edərsə, bu zaman ona verdiyin mehri geri almaq və öz xoşu ilə səndən ayrılması üçün onu sıxışdıra bilərsən. Necə ki Uca Allah "əl-Bəqərə" surəsində belə buyurur: "**Onlara verdiklərinizdən bir şey götürmək sizə halal olmaz. Yalnız hər ikisinin Allahın hədlərini yerinə yetirməyəcəklərindən qorxması istisnadır. Əgər siz onların Allahın hədlərini yerinə yetirməyəcəklərindən qorxsanız, qadının boşanmaq üçün bir şey əvəz verməsində ikisinə də heç bir günah yoxdur**" ("əl-Bəqərə", 229). İbn Abbas, İkrimə və əd-Dahhək ﷺ demişlər: "Açıq-aşkar yaramaz iş itaətsizlik və sözdən çıxmaqdır". İbn Cərir ﷺ isə ayənin qeyd olunanların hamısına – zina, itaətsizlik, asi olmaq, dil uzatmaq və s. aid olması rəyini seçmişdir. Yəni bu qeyd

[1] ət-Təbəri (8873). (Əhməd Şakir). ət-Təbəri, 8873, 8932.
[2] İbn Əbu Hatim, 5032.

olunanların hamısı kişiyə qadının bütün haqlarından və ya haqlarının bir hissəsindən imtina etməsi və ondan ayrılmağı qəbul etməsi üçün qadını sıxışdırmasını icazəli edir. Bu yaxşı rəydir. Ən doğrusunu isə Allah bilir.

Uca Allah buyurur: “**Onlarla xoş rəftar edin**”, yəni onlarla gözəl şəkildə danışın, davranışınızı və zahiri görünüşünüzü bacardığınız qədər yaxşılaşdırın. Qadının sənə qarşı necə olmağını istəyirsənsə, sən də ona qarşı elə ol. Necə ki Uca Allah başqa bir ayədə buyurur: “**Kişilərin qadınlar üzərində şəriətə müvafiq haqları olduğu kimi, onların da kişilər üzərində haqları vardır**” (“əl-Bəqərə”, 228). Peyğəmbər ﷺ demişdir: “Sizin ən xeyirliniz öz ailəsinə qarşı xeyirli olanınızdır. İçinizdə ailəsinə qarşı ən xeyirli olan mənəm”.[1] Gözəl rəftar, daim gülərüz olmaq, ailəsi ilə arabir zarafat etmək, onlara qarşı mülayim olmaq, onların maddi dolanışığını təmin etmək və qadınları ilə deyib-gülmək Peyğəmbərin ﷺ əxlaqı idi. Hətta o bəzən möminlərin anası Aişə رضي الله عنها ilə yarışar və bununla ona olan sevgisini göstərərdi. Aişə رضي الله عنها belə deyirdi: “Bir dəfə Peyğəmbər ﷺ mənimlə qaçışda yarışdı və mən onu keçdim. Bu mən kökəlməmişdən öncə idi. Mən kökəldikdən sonra bir daha yarışdıq və bu dəfə o məni keçdi və dedi: “Bu, əvvəlkinin əvəzi idi”.[2] Peyğəmbərin ﷺ zövcələri hər axşam onun gecələyəcəyi evdə toplaşardılar. Peyğəmbər ﷺ bəzən şam yeməyini onlarla birlikdə yeyər, sonra hər kəs dağılışıb öz evinə gedərdi. Peyğəmbər ﷺ zövcələri ilə bir örtük altında yatardı. Üst geyimini çiynindən atıb izarı ilə yatardı. İşa namazını qıldıqdan sonra evinə girər, yatmazdan əvvəl zövcələri ilə bir qədər söhbət edər və beləcə onların könlünü alardı. Uca Allah buyurur: “**Allahın Rəsulu sizlərə – Allaha və Axirət gününə ümidini bağlayanlara və Allahı çox zikr edənlərə gözəl nümunədir**” (“əl-Əhzab”, 21).

Uca Allah buyurur: “**Əgər onlar xoşunuza gəlmirsə, ola bilsin ki, xoşlamadığınız bir şeydə Allah sizə çoxlu xeyir nəsib etmiş olsun**”, yəni ümid edilir ki, onları istəməyə-istəməyə yanınızda saxlamağa səbir etməyiniz sizə dünya və Axirətdə çox xeyirlər gətirsin. Necə ki İbn Abbas رضي الله عنهما bu ayə barəsində demişdir: “Bu, kişinin xoşlamadığı

---

[1] ət-Tirmizi (4/367) Aişədən رضي الله عنها rəvayət etmiş və demişdir: “Həsən-səhih hədisdir”. İbn Məcə رحمه الله isə İbn Abbasdan رضي الله عنهما rəvayət etmişdir (1977). İsnadı səhihdir. (Əhməd Şakir). ət-Tirmizi, 3895, 4269; İbn Məcə, 1977. Hədis səhihdir. Bax: Səhih əl-Cami, 3314.

[2] Oxşar hədisi Əbu Davud (2578) rəvayət etmişdir. əl-Munziri رحمه الله demişdir: “Hədisi ən-Nəsəi və İbn Məcə rəvayət etmişlər”. (Əhməd Şakir). İbn Hibban, 4691; ət-Təbərani “Mucəmul-Kəbir” 18654. Hədis səhihdir. Bax: İrvaul-Ğalil, 1502.

qadına şəfqət göstərməsi, Allahın ona bu qadından bir uşaq bəxş etməsi və bu uşaqda bir çox xeyirlərin olmasıdır".[1] Səhih bir hədisdə belə buyurulur: "Heç bir mömin kişi mömin qadına (ayrılmalarına səbəb olacaq dərəcədə) nifrət etməsin! Onun bir xasiyyətini bəyənməsə də, ola bilsin, başqa bir xasiyyətindən xoşu gələr".[2]

Uca Allah buyurur: "**Əgər bir arvadın yerinə başqa bir arvad almaq istəsəniz, onlardan birinə yığın-yığın mal vermiş olsanız belə, bundan heç bir şey geri almayın! Məgər verdiyinizi böhtan atmaq və açıq-aşkar günah işlətməklə geri alacaqsınız?**", yəni sizdən biri arvadından ayrılıb onun yerinə başqasını almaq istəsə, böyük məbləğ olsa belə, birinciyə mehr olaraq verdiyi maldan heç bir şey geri almasın.

Bu ayə qadına mehr olaraq çox miqdarda mal verməyin icazəli olduğuna dəlalət edir. Ömər ibn əl-Xattab ﵁ (xilafəti dövründə) çox mehr verməyi qadağan etmiş, sonra bu rəyindən dönmüşdür. Necə ki İmam Əhməd ﵀ rəvayət etmişdir ki, Əbul-Əcfa əs-Suləmi Ömər ibn əl-Xattabın ﵁ belə dediyini eşitmişdir: "Qadınların mehrində həddi aşmayın! Əgər çox mehr vermək dünyada şərəfə, Allah qatında isə təqvaya dəlalət etsəydi, bilin ki, Peyğəmbər ﷺ bu şərəf və təqvaya sizdən daha çox layiq idi. Halbuki nə Peyğəmbər ﷺ qadınlarından hər hansı birinə on iki uqiyyədən[3] artıq mehr verməmiş, nə də Peyğəmbərin ﷺ qızlarından hər hansı birinə bundan artıq mehr verilməmişdir. Həqiqətən, kişi arvadına verdiyi mehrdə həddi o qədər aşar ki, bu mehri arvadına verdikdə (nəfsinə ağır gəldiyi üçün) içində ona qarşı bir nifrət doğar və o "Sənə qovuşmaq üçün tuluğun ipinə belə möhtac oldum (çox əziyyətlərə qatlaşdım)" deyər".[4] Hədisi "Sunən" əsərlərinin sahibləri rəvayət etmişlər. ət-Tirmizi ﵀ demişdir: "Bu, həsən-səhih hədisdir".[5]

Əbu Yəalə ﵀ rəvayət etmişdir ki, Məsruq ﵀ demişdir: "Bir dəfə Ömər ibn əl-Xattab ﵁ Peyğəmbərin ﷺ minbərinə çıxdı, sonra dedi: "Ey insanlar, sizə nə olub qadınların mehrlərini çoxaldırsınız? Peyğəmbər ﷺ və səhabələri arasında mehr dörd yüz dirhəm və daha az olardı. Əgər mehrləri çoxaltmaq Allah qatında bir təqva və ya bir şərəf olsaydı, siz

[1] ət-Təbəri, 8911, 8970.

[2] Muslim (1/421) Əbu Hureyradan ﵁ rəvayət etmişdir. (Əhməd Şakir). Muslim, 2672, 3721.

[3] Uqiyyə qədim ərəb pul vahididir. Bir uqiyyə 40 dirhəmə bərabər idi.

[4] Əhməd, 285; İbn Məcə, 1887. Hədis həsən səhihdir. Bax: Mişkətul-Məsabih, 4023.

[5] "əl-Musnəd" (285, 287, 340), əl-Hakim (2/175-176). əl-Hakim ﵀ hədisin səhih olduğunu bildirmiş, əz-Zəhəbi ﵀ də bununla razılaşmışdır. (Əhməd Şakir).

bu işdə onlara çata bilməzdiniz. Bundan sonra bir kişinin evlənmək istədiyi qadına dörd yüz dirhəmdən artıq mehr verdiyini eşitməyim!” Sonra Ömər ﷺ minbərdən endi, Qureyşdən bir qadın ona etiraz edərək “Ey möminlərin əmiri, qadınlara dörd yüz dirhəmdən artıq mehr verməyi insanlara qadağan etdinmi?” dedi. Ömər “Bəli” dedi. Qadın “Allahın Quranda nazil etdiyi ayəni eşitməmisənmi?” deyə soruşdu. Ömər “O hansı ayədir?” dedi. Qadın “Uca Allah “...**onlardan birinə yığın-yığın mal vermiş olsanız belə**” buyurmurmu?” dedi. Ömər ﷺ “Ey Allahım, bağışla, insanlar Ömərdən daha başa düşən imiş” deyərək qayıtdı və minbərə çıxıb dedi: “Mən sizə qadınlara dörd yüz dirhəmdən artıq mehr verməyi qadağan etmişdim, kim istəsə, malından istədiyi qədər versin”, – dedi”. Əbu Yəalə demişdir: “Zənn edirəm ki, Ömər ﷺ “Bu kimin ürəyindən keçsə, qoy könül xoşluğu ilə etsin” demişdir. Hədisin isnadı yaxşı və güclüdür”.[1]

Daha sonra Uca Allah əvvəlki qadına verilən mehrin geri alınmasını pisləyərək “**Onu necə geri ala bilərsiniz ki, siz bir-birinizlə yaxınlıq etmişdiniz...**” buyurur. Yəni siz ona, o da sizə qatılıb-qarışdığı halda mehri qadından necə geri alırsınız? İbn Abbas, Mucahid, əs-Suddi ﷺ və bir çoxları bu ifadə ilə cinsi əlaqədə olmağın nəzərdə tutulduğunu demişlər. əl-Buxari və Muslimin “Səhih” əsərlərində rəvayət edilir ki, Peyğəmbər ﷺ lənətləşərək ayrılan ər-arvada “Heç şübhəsiz ki, Allah sizdən birinizin yalan danışdığını bilir. Aranızda tövbə etmək istəyən yoxdurmu?” dedi və bunu üç dəfə təkrar etdi. Kişi dedi: “Bəs mənim malım (verdiyim mehr) necə olsun?” Peyğəmbər ﷺ buyurdu: “O sənin malın sayıla bilməz. Çünki əgər sən doğru deyirsənsə, onda bu, ər-arvad münasibətinə görə verdiyin mal sayılır, yox əgər yalan danışırsansa, onda sənin heç bir halda buna haqqın çatmır”.[2]

Əbu Davudun “Sunən” əsərində və başqa kitablarda rəvayət olunur ki, Bəsra ibn Əksəm bakirə bir qadınla evlənmişdi. Onunla yaxınlıq etdikdən sonra xəbər tutdu ki, qadın zinadan hamilə imiş. O, Peyğəmbərin ﷺ yanına gəlib vəziyyəti ona bildirdi. Peyğəmbər ﷺ qadına mehr verilməsini hökm verdi, onları ayırdı və qadının (uşağı dünyaya gətirdikdən sonra) şallaqlanmasını əmr etdi. Sonra belə dedi: “Uşaq başqasının olsa da, ona yaxşı bax, mehr isə qadınla cinsi əlaqədə olmağının qarşılığıdır”.[3]

---

[1] “Məcməuz-Zəvaid” (4/283-284). (Əhməd Şakir). İbn Kəsir “Musnədul-Faruq” 809.

[2] əl-Buxari, 4900, 5312, Muslim, 3821, 2743.

[3] Əbu Davud (2131, 2132) oxşar mənada. əl-Hafiz İbn Kəsir ﷺ səhvən səhabənin adını Bəsra ibn Əbu Bəsra kimi qeyd etmişdir, lakin bu səhvdir. Bu, başqa bir səhabədir. Bizim qeyd

Uca Allah buyurur: "...**və onlar sizdən möhkəm əhd-peyman almışdılar**". İbn Abbas, Mucahid və Səid ibn Cubeyrdən ﷺ rəvayət edilmişdir ki, ayədə nikah müqaviləsi nəzərdə tutulur. İbn Abbas ﷺ demişdir: "Əhd-peyman dedikdə qadını şəriətə müvafiq qayda üzrə saxlamaq, yaxud xoşluqla buraxmaq nəzərdə tutulur". İbn Əbu Hatim ﷺ demişdir: "Oxşar rəvayət İkrimə, Mucahid, Əbul-Aliyə, əl-Həsən, Qatədə və başqalarından da rəvayət edilmişdir". Muslimin "Səhih" əsərində Cabirdən ﷺ rəvayət edilir ki, Peyğəmbər ﷺ vida həcci xütbəsində belə demişdir: "Qadınlarla xoş rəftar edin! Siz onları Allahın əhdi ilə aldınız və onları özünüzə Allahın kəlməsi ilə halal etdiniz".[1]

Uca Allah buyurur: "**Olub-keçənlər istisna olmaqla bundan sonra atalarınızın evlənmiş olduğu qadınlarla evlənməyin. Çünki bu, iyrənc və qəzəb doğuran bir əməl, həm də pis bir yoldur**". Bu ayədə Uca Allah oğullara atalarına hörmət və ehtiram olaraq (ataları öldükdən və ya zövcələrini boşadıqdan sonra) onların zövcələri ilə evlənməyi və atalarından sonra onlarla yaxınlıq etməyi haram etmişdir. Hətta atanın bir qadınla, sadəcə, nikaha girməsi ilə o qadın artıq oğula haram hesab olunur. Bu məsələdə alimlər yekdil olaraq ittifaq etmişlər. əs-Suheyli[2] ﷺ iddia etmişdir ki, oğulların atalarının zövcələri ilə evlənmələri cahiliyyə dövrünün adətlərindən olmuşdur. Bu səbəbdən Uca Allah "**Olub-keçənlər istisna olmaqla**" buyurur. Necə ki başqa bir ayədə buyurur: "**İki bacını birlikdə almaq haram edildi. Olub-keçənlər isə artıq keçmişdir**". əs-Suheyli ﷺ demişdir: "Bunu Kinənə ibn Xuzeymə etmişdir. O, (atası öldükdən sonra) atasının zövcəsi ilə evlənmiş və ondan ən-Nadr ibn Kinənə adlı oğlu olmuşdur. Peyğəmbər ﷺ demişdir: "Mən zinadan deyil, qanuni nikahdan doğulmuşam".[3] Bu hədis dəlalət edir ki, bu nikah onlarda icazəli idi. Ola da bilsin, Peyğəmbər ﷺ belə deməklə bunun onlar arasında qəbul olunmuş nikah olduğunu nəzərdə tutmuşdur. İbn Cərir ﷺ rəvayət etmişdir ki, İbn Abbas ﷺ demişdir: "Allahın İslam şəriətində haram etdiyi qadınlarla evlənməyi cahiliyyə dövründəki insanlar da haram edərdilər. Yalnız atanın evli olduğu qadın ilə evlənmək və iki bacını birlikdə almaq

etdiyimiz isə Əbu Davudun "Sunən" əsərindən götürülmüşdür. (Əhməd Şakir). Əbu Davud, 2131, 2133; əl-Beyhəqi "Sunənul-Kubra" 14263; əl-Hakim, 2746. Hədis zəifdir. Bax: Daif Sunən Əbu Davud, 465.

[1] Muslim, 2137, 3009.

[2] Əbul-Qasim Abdur-Rahmən ibn əl-Xatib Abdullah əs-Suheyli ﷺ böyük alimlərdən biri olmuşdur. Hicri 581-ci ildə Mərakeşdə vəfat etmişdir.

[3] Hədis həsəndir. Bax: İrvaul-Ğalil, 1914.

istisna idi. Uca Allah da “**Olub-keçənlər istisna olmaqla bundan sonra atalarınızın evlənmiş olduğu qadınlarla evlənməyin**” və “**İki bacını birlikdə almaq haram edildi**” ayələrini nazil etdi”.[1] Əta və Qatədə ﷺ də belə demişlər, lakin əs-Suheylinin ﷺ Kinənə hadisəsi barədə nəql etdiyi şübhəlidir. Ən doğrusunu Allah bilir. Hər halda bu əməl bu ümmətə haramdır və son dərəcə çirkin bir əməl sayılır. Bu səbəbdən Uca Allah “**Çünki bu, iyrənc və qəzəb doğuran bir əməl, həm də pis bir yoldur**” buyurmuşdur. Başqa bir ayədə isə “**Murdar əməllərin aşkarına da, gizlisinə də yaxınlaşmayın**” (“əl-Ənam”, 151) və “**Zinaya yaxınlaşmayın. Çünki bu, iyrənc bir əməl və murdar bir yoldur!**” (“əl-İsra”, 32) buyurur. Burada isə Uca Allah: “**qəzəb doğuran bir əməl**” sözünü əlavə etmişdir. Yəni bu öz-özlüyündə böyük bir işdir və atalarının zövcələri ilə evləndikdən sonra oğullarda atalarına qarşı qəzəb hissi yaranmasına gətirib çıxarır. Çünki, adətən, bir qadınla evlənən kişi onun əvvəlki ərinə qarşı kin-küdurət bəsləyir. Bu səbəbdən möminlərin anaları (Peyğəmbərin ﷺ zövcələri) ilə evlənmək bu ümmətin kişilərinə haram edilmişdir. Çünki onlar Peyğəmbərin ﷺ zövcələri və ümmətin analarıdır. Peyğəmbər ﷺ isə ümmətin atası yerindədir. Hətta onun haqqı, alimlərin yekdil rəyinə görə, ataların haqqından daha yüksək tutulmuşdur. Ona olan sevgi möminlərin özlərinə olan sevgilərindən daha öndədir.

Əta ibn Əbu Rabəh ﷺ Uca Allahın “**qəzəb doğuran bir əməl**” sözü barədə demişdir: “Yəni Allahın bunu edənə qəzəbi tutar”. Uca Allahın “**həm də pis bir yoldur**” sözü barədə isə demişdir: “Bu yolu tutan insanlar üçün nə pis yoldur. Bunu edən dindən çıxmışdır və öldürülməlidir. Malı isə Beytulmal üçün qənimət sayılar”. Necə ki İmam Əhməd ﷺ Bəra ibn Azibin ﷺ belə dediyini rəvayət etmişdir: “Bir dəfə əmim əl-Həris ibn Amrla rastlaşdım. Yanında Peyğəmbərin ﷺ ona verdiyi bir bayraq var idi. Mən “Ey əmi, Peyğəmbər ﷺ səni hara göndərib?” deyə soruşdum. Əmim dedi: “Məni atasının zövcəsi ilə evlənən bir kişinin yanına göndərdi və onun boynunu vurmağımı əmr etdi”.[2]

---

[1] ət-Təbəri (8938). İsnadı səhihdir. Həmçinin İbn əl-Munzir ﷺ rəvayət etmişdir. Necə ki “əd-Durrul-Mənsur” əsərində qeyd olunub. (Əhməd Şakir). ət-Təbəri, 8938, 8997.

[2] “əl-Musnəd” (4/292 Hələbi nəşri), Əbu Davud (4457). Əbu Davudun rəvayətinə görə: “onun boynunu vurmağımı və malını almağımı əmr etdi”. Hər iki isnad səhihdir. (Əhməd Şakir). ət-Tirmizi, 1414 ,2631; ən-Nəsəi “Sunən” 3279, 3331. Hədis səhihdir. Bax: İrvaul-Ğalil, 2351.

﴿حُرِّمَتۡ عَلَيۡكُمۡ أُمَّهَٰتُكُمۡ وَبَنَاتُكُمۡ وَأَخَوَٰتُكُمۡ وَعَمَّٰتُكُمۡ وَخَٰلَٰتُكُمۡ وَبَنَاتُ
ٱلۡأَخِ وَبَنَاتُ ٱلۡأُخۡتِ وَأُمَّهَٰتُكُمُ ٱلَّٰتِيٓ أَرۡضَعۡنَكُمۡ وَأَخَوَٰتُكُم مِّنَ ٱلرَّضَٰعَةِ وَأُمَّهَٰتُ
نِسَآئِكُمۡ وَرَبَٰٓئِبُكُمُ ٱلَّٰتِي فِي حُجُورِكُم مِّن نِّسَآئِكُمُ ٱلَّٰتِي دَخَلۡتُم بِهِنَّ فَإِن لَّمۡ
تَكُونُواْ دَخَلۡتُم بِهِنَّ فَلَا جُنَاحَ عَلَيۡكُمۡ وَحَلَٰٓئِلُ أَبۡنَآئِكُمُ ٱلَّذِينَ مِنۡ أَصۡلَٰبِكُمۡ
وَأَن تَجۡمَعُواْ بَيۡنَ ٱلۡأُخۡتَيۡنِ إِلَّا مَا قَدۡ سَلَفَۗ إِنَّ ٱللَّهَ كَانَ غَفُورٗا رَّحِيمٗا ٢٣
۞وَٱلۡمُحۡصَنَٰتُ مِنَ ٱلنِّسَآءِ إِلَّا مَا مَلَكَتۡ أَيۡمَٰنُكُمۡۖ كِتَٰبَ ٱللَّهِ عَلَيۡكُمۡۚ وَأُحِلَّ لَكُم مَّا وَرَآءَ ذَٰلِكُمۡ
أَن تَبۡتَغُواْ بِأَمۡوَٰلِكُم مُّحۡصِنِينَ غَيۡرَ مُسَٰفِحِينَۚ فَمَا ٱسۡتَمۡتَعۡتُم بِهِۦ مِنۡهُنَّ فَـَٔاتُوهُنَّ أُجُورَهُنَّ فَرِيضَةٗۚ
وَلَا جُنَاحَ عَلَيۡكُمۡ فِيمَا تَرَٰضَيۡتُم بِهِۦ مِنۢ بَعۡدِ ٱلۡفَرِيضَةِۚ إِنَّ ٱللَّهَ كَانَ عَلِيمًا حَكِيمٗا ٢٤﴾

**23. Sizə analarınız, qızlarınız, bacılarınız, bibiləriniz, xalalarınız, qardaş qızları, bacı qızları, sizi əmizdirən süd analarınız, süd bacılarınız, arvadlarınızın anaları, yaxınlıq etdiyiniz qadınlarınızdan olan himayənizdəki ögey qızlarınız, – yox əgər o qadınlarla yaxınlıq etməmişsinizsə, onda onlarla evlənməyiniz sizə günah deyildir, – öz belinizdən gələn oğullarınızın arvadları ilə evlənmək və iki bacını birlikdə almaq haram edildi. Olub-keçənlər isə artıq keçmişdir. Həqiqətən, Allah bağışlayandır, rəhmlidir.**

**24. Sahib olduğunuz cariyələr istisna olmaqla, evli qadınları almaq da sizə haram edildi. Allahın sizə buyurduğu hökmü belədir. Bunlardan başqası ilə, nikah bağlamaqla, zinakarlığa yol vermədən, mallarınızı sərf edərək (mehrlərini verərək) evlənməyiniz sizə halal edildi. Evləndiyiniz qadınlardan zövq aldığınıza görə, onlara, vacib buyurulmuş mehrlərini verin. Bu mehr müəyyən edildikdən sonra öz aranızda razılaşdığınız şeyə görə sizə heç bir günah olmaz. Həqiqətən, Allah hər şeyi biləndir, hikmət sahibidir.**

Bu ayə qan qohumluğu və qan qohumluğuna aid edilən əmizdirmə və kürəkən səbəbi ilə evlənməyi haram edən qadınları bildirən bir ayədir. İbn Əbu Hatim (رحمه الله) demişdir: "Cumhur alimlər Uca Allahın "**Sizə... qızlarınız... haram edildi**" ayəsinin ümumi mənasına əsaslanaraq, bir kişinin zinadan olan qızının da ona haram olması fikrindədirlər,

çünki o da onun qızıdır və ayənin ümumi hökmünə daxildir. Necə ki bu, Əbu Hənifə, Malik və Əhməd ibn Hənbəlin məzhəbidir.

Uca Allah buyurur: “**...sizi əmizdirən süd analarınız, süd bacılarınız... haram edildi**”, yəni səni dünyaya gətirən doğma anan sənə haram edildiyi kimi, səni əmizdirən süd anan da sənə haramdır. əl-Buxari və Muslim “Səhih” əsərlərində möminlərin anası Aişədən rəvayət etmişlər ki, Peyğəmbər demişdir: “Qan qohumluğunun haram etdiyi şeyləri əmizdirmə də haram edir”.[1] Muslimin rəvayəti isə belədir: “Qan qohumluğu səbəbindən haram olanlar əmizdirmə ilə də haram olur”.[2]

Alimlər süd qohumluğu yaradan və evlənməyi haram edən əmizdirmənin sayında ixtilaf etmişlər. Bəziləri ayənin ümumi mənasına əsaslanaraq bir dəfə süd əmmənin belə süd qohumluğu yaratdığını və evlənməyi haram etdiyini demişlər. Bu, İmam Malikin rəyidir. Həmçinin bu, İbn Ömərdən də rəvayət edilmişdir. Səid ibn əl-Museyyib, Urvə ibn əz-Zubeyr və əz-Zuhri də bu fikirdədirlər. Digər alimlər isə üçdən az əmizdirmənin süd qohumluğu yaratmadığını demişlər. Bu rəyi deyənlər Muslimin “Səhih” əsərində Aişədən rəvayət edilən hədisə əsaslanmışlar. Hədisdə Peyğəmbər demişdir: “Uşağın bir və ya iki dəfə süd əmməsi süd qohumluğu yaratmır və evlənməyi haram etmir”.[3] Həmçinin Ummul-Fadldan rəvayət edilir ki, Peyğəmbər demişdir: “Qadının uşağı bir və ya iki dəfə əmizdirməsi, uşağın da bir və ya iki dəfə süd əmməsi süd qohumluğu yaratmaz və evlənməyi haram etməz”.[4] Hədisin başqa bir rəvayəti belədir: “Uşağın bir və ya iki dəfə döş əmməsi qan qohumluğu yaratmır və evlənməyi haram etmir”.[5] Hədisi Muslim rəvayət etmişdir.[6] İmam Əhməd ibn Hənbəl, İshaq ibn Rahaveyh, Əbu Ubeyd və Əbu Səur da bu fikirdə olanlardandır. Bu rəy Əli, Aişə, Ummul-Fadl, İbn əz-Zubeyr, Suleyman ibn Yəsər və Səid ibn Cubeyrdən də rəvayət edilmişdir.

Başqa bir qrup alimlər isə beşdən az əmizdirmənin süd qohumluğu yaratmadığını və evlənməyi haram etmədiyini demişlər. Bu rəydə olanlar Muslimin “Səhih” əsərində Aişədən rəvayət edilən bu

[1] əl-Buxari, 4838, 5239.
[2] Muslim, 2615, 3641.
[3] Muslim, 2628, 3663.
[4] İbn Məcə, 1940; İbn Hibban, 422. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 3259.
[5] Muslim, 2629, 3664.
[6] Muslim (1/414-415). (Əhməd Şakir).

hədisi dəlil gətirmişlər. Aişə ﵂ demişdir: "Quranda nazil edilənlər arasında on dəfə süd əmizdirmənin süd qohumluğu yaratması və evlənməyi haram etməsi var idi. Sonra bu say ləğv olunaraq beş dəfəyə endirildi. Peyğəmbər ﷺ vəfat etdikdə bəzi insanlar hələ də bu ayələri Qurandan hesab edib oxuyurdular".[1] Abdur-Razzəq ﵀ də Aişədən ﵂ oxşar hədisi rəvayət etmişdir. Səhlə bint Suheylin ﵂ hədisində bildirilir ki, Peyğəmbər ﷺ ona Əbu Huzeyfənin azad etdiyi köləsi Səlimi beş dəfə əmizdirməyi əmr etmişdir.[2] İmam əş-Şafii ﵀ və onun məzhəbində olanlar bu rəyə əsasən fətva vermişlər. Həmçinin bilmək lazımdır ki, əksər alimlərin rəyinə görə, süd qohumluğunun yaranması üçün əmizdirmə kiçik yaşlarında, yəni iki yaş ərzində olmalıdır. Necə ki bu məsələ barədə "əl-Bəqərə" surəsinin təfsirində ətraflı şəkildə danışmışıq.[3]

Alimlər süd qohumluğunun uşağı əmizdirən qadının ərinə də aid olub-olmaması məsələsində ixtilaf etmişlər.[4] Bu məsələdə iki rəy var. Dörd məzhəb imamlarının və əksər alimlərin rəyinə görə, qadının uşağı əmizdirməsi ilə süd qohumluğu onun ərinə də keçir. Bəzi sələflər isə əmizdirmə ilə süd qohumluğunun yalnız anaya aid olub, ataya (qadının ərinə) tərəf keçmədiyini demişlər.

Uca Allah buyurur: "...**arvadlarınızın anaları, yaxınlıq etdiyiniz qadınlarınızdan olan himayənizdəki ögey qızlarınız, – yox əgər o qadınlarla yaxınlıq etməmişsinizsə, onda onlarla evlənməyiniz sizə günah deyildir...**" Arvadın anasına (qayınanaya) gəlincə, bir kişinin qadınla, sadəcə, nikah bağlaması ilə artıq bu qadının anası ilə evlənmək həmin kişiyə haram olur. Fərq etməz, istər nikahdan sonra qadınla yaxınlıq etmiş olsun, istər etməmiş olsun. Himayədəki ögey qız kişinin evləndiyi qadının əvvəlki ərindən olan qızı olduqda, bu qızın anası ilə, sadəcə, nikaha girmək bu qızı kişiyə haram etmir. Kişi nikah bağladıqdan sonra qadınla yaxınlıq etdiyi təqdirdə onun qızı ilə evlənmək kişiyə haram olur. Əgər nikah bağladıqdan sonra yaxınlıq etməmişdən əvvəl qadını boşasa, onun qızı ilə evlənə bilər. Bu səbəbdən Uca Allah ayədə "...**yaxınlıq etdiyiniz qadınlarınızdan olan himayənizdəki ögey qızlarınız, – yox əgər o qadınlarla yaxınlıq etməmişsinizsə, onda onlarla evlənməyiniz sizə günah deyildir**"

---

[1] Muslim (1/415). (Əhməd Şakir). Muslim, 2634, 3670.

[2] Muslim (1/415-416). Bax: "Fəthul-Bari" (9/113-115, 125-129). (Əhməd Şakir).

[3] "əl-Bəqərə" surəsinin 233-cü ayəsinin təfsirinə bax. (Əhməd Şakir).

[4] Yəni uşağı əmizdirən qadının uşağın doğma anası yerində olduğu kimi, qadının əri də uşağın atası yerində olurmu deyə ixtilaf etmişlər.

buyurur. Bu, yalnız ögey qızlara aiddir. Bəziləri ayədəki "**yox əgər o qadınlarla yaxınlıq etməmişsinizsə, onda onlarla evlənməyiniz sizə günah deyildir**" cümləsində işlənən "onlarla" əvəzliyi ilə həm analara, həm də ögey qızlara işarə edildiyini düşünərək evlənilən qadının həm anasının, həm də qızının, sadəcə, nikah bağlamaqla kişiyə haram olmadığını və yalnız qadınla yaxınlıq edildikdən sonra haram olduğunu demişlər. İbn Cərir ﷺ rəvayət etmişdir ki, Əli ﷺ qadınla nikah bağladıqdan sonra yaxınlıq etmədən onu boşayan bir kişinin həmin qadının anası ilə evlənib-evlənə bilməyəcəyi barədə demişdir: "Qadının anası ögey qız kimidir".[1] Zeyd ibn Sabitin isə belə dediyini rəvayət etmişdir: "Nikah bağladıqdan sonra yaxınlıq etməzdən əvvəl qadını boşayan kişinin həmin qadının anası ilə evlənməsində bir qəbahət yoxdur".[2] Bu rəy Əli, Zeyd ibn Sabit, Abdullah ibn əz-Zubeyr, Mucahid, İbn Cubeyr və İbn Abbasdan ﷺ da rəvayət edilmişdir. Muaviyə ﷺ isə bu məsələdə rəy bildirməmişdir. əş-Şafii məzhəbinin alimlərindən olan Əbul-Həsən Əhməd ibn Muhəmməd əs-Sabuni ﷺ də bu rəyi götürmüşdür.

Əksər alimlərin rəyinə görə, bir kişinin ögey qızı onun anası ilə, sadəcə, nikah bağlamaqla bu kişiyə haram olmur. Qadının anası isə belə deyil, bir kişinin qadınla, sadəcə, nikah bağlaması ilə artıq bu qadının anası kişiyə haram olur. Dörd məzhəb imamları, yeddi fiqh alimləri, habelə sələf və xələf alimlərinin əksəriyyəti bu rəydədirlər.

Kölə qadının başqasından olan qızına gəlincə isə, İbn Abdul-Bərr ﷺ bu barədə demişdir: "Bir kəsin kölə qadının həm özü ilə, həm də onun qızı ilə yaxınlıq etməsinin haram olması mövzusunda alimlər arasında fikir ayrılığı yoxdur. Çünki Uca Allah bunu nikahda haram etmiş və buyurmuşdur: "...**yaxınlıq etdiyiniz qadınlarınızdan olan himayənizdəki ögey qızlarınız... sizə haram edildi**". Kölə qadınlar da nikahlı qadınlar hökmündədirlər".[3] Heç bir alim və ya onun davamçısı bunun halal olması barədə fətva verməmişdir. İbn Cərir ﷺ demişdir: "Alimlərin yekdil rəyinə görə, bir kişinin (nikahdan sonra) qadınla tək qalması (xəlvətdə qalması) və qadına toxunmadan, yaxınlaşmadan və ya qadının övrətinə şəhvətlə baxmadan onu boşaması bu qadının qızını ona haram etmir. Bu da dəlalət edir ki, kişinin nikah bağladığı qadınla yaxınlıq etməsi bu qadının qızını ona haram edir".[4]

---

[1] ət-Təbəri (8951, 8952) yaxşı isnadla rəvayət etmişdir. (Əhməd Şakir). ət-Təbəri, 9010.
[2] ət-Təbəri (8953, 8954) səhih isnadla rəvayət etmişdir. (Əhməd Şakir). ət-Təbəri, 9013.
[3] əş-Şovkani "Fəthul-Qadir" 2/113.
[4] ət-Təbəri, 8959, 9018.

Uca Allah buyurur: "**Sizə... öz belinizdən gələn oğullarınızın arvadları ilə evlənmək... haram edildi**", yəni sizin belinizdən gələn oğullarınızın zövcələri ilə evlənmək sizə haram edildi. Uca Allah bu qeydlə (belinizdən gələn) cahiliyyə dövründə insanların oğulluğa götürdüklərini istisna edir. Necə ki Uca Allah başqa bir ayədə buyurur: "**Zeyd zövcəsini boşadıqda səni onunla evləndirdik ki, oğulluqları övrətlərini boşadıqları zaman o qadınlarla evlənməkdə möminlərə heç bir sıxıntı olmasın**" ("əl-Əhzab", 37).

İbn Əbu Hatim ﷺ rəvayət etmişdir ki, əl-Həsən ibn Muhəmməd Uca Allahın "**oğullarınızın arvadları**" və "**arvadlarınızın anaları**" ayələrini "mubhəm" ayələr adlandırmışdır.[1] Sonra İbn Əbu Hatim ﷺ demişdir: "Oxşar söz Tavus, İbrahim, əz-Zuhri və Məkhuldan da rəvayət edilmişdir".[2]

Mən deyirəm: "Mubhəm olmalarının mənası budur ki, bu ayələr həm yaxınlıq edilmiş, həm də edilməmiş arvadları (zövcələri) əhatə edər. Yəni bir kişinin oğlunun bir qadınla, sadəcə, nikah bağlaması ilə bu qadınla evlənmək həmin kişiyə haram olur. Həmçinin kişinin qadınla, sadəcə, nikah bağlaması ilə bu qadının anası ilə evlənmək həmin kişiyə haram olur. Bu, alimlər arasında yekdilliklə qəbul edilmişdir. Əgər soruşulsa ki, bəs bir kişinin arvadının əmizdirdiyi oğlanın arvadı nə səbəbdən kişiyə haram olur, axı bu oğlan onun belindən gəlməmişdir? Necə ki bu, əksər alimlərin rəyidir, hətta bəziləri bu barədə alimlər arasında yekdil rəyin olduğunu söyləmişlər. Cavab belə olacaq: Peyğəmbərin ﷺ bu hədisinə əsasən: "Qan qohumluğu səbəbindən haram olanlar, əmizdirmə ilə də haram olur".[3]

Uca Allah buyurur: "**...və iki bacını birlikdə almaq haram edildi. Olub-keçənlər isə artıq keçmişdir. Həqiqətən, Allah bağışlayandır, rəhmlidir**", yəni eyni vaxtda iki bacı ilə evlənmək sizə haram edildi. Həmçinin bu hökm kölə qadınlarda da belədir (kişinin sahib olduğu iki kölə bacının hər ikisi ilə yaxınlıq etməsi haramdır). Lakin cahiliyyə dövründə etdiklərinizi keçdik və bağışladıq. Ayədə Uca Allahın keçmişdə olanları istisna etməsi dəlalət edir ki, bu ayədən sonra heç kəs eyni vaxtda iki bacı ilə evlənə bilməz. Necə ki Uca Allah başqa

---

[1] əl-Həsən ibn Muhəmməd mötəbər tabiindir. Atası İbn əl-Hənəfiyyə kimi tanınan Muhəmməd ibn Əli ibn Əbu Talibdir. (Əhməd Şakir).

[2] İbn Əbu Hatim, 5095.

[3] Əhməd, əl-Buxari, Muslim və başqaları Aişədən ﷺ rəvayət etmişlər. Həmçinin İbn Abbasdan ﷺ da rəvayət olunur. Bax: "əl-Musnəd" (2490, 2491, 2633). (Əhməd Şakir). əl-Buxari, 2451, 2645.

bir ayədə buyurur: “**Onlar ilk ölümdən başqa orada heç bir ölüm dadmayacaqlar**” (“əd-Duxan”, 56). Bu ayə dəlalət edir ki, onlar orada (Cənnətdə) heç vaxt ölümü dadmayacaqlar. Səhabələr, tabiinlər, habelə qədim və yeni alimlərin hamısı yekdil rəy ilə bildirmişlər ki, eyni zamanda iki bacı ilə evli olmaq haramdır. Əgər yeni müsəlman olan bir kişi iki bacı ilə evlidirsə, o kişi seçim etməlidir. Bacılardan birini saxlayıb, digərini isə mütləq boşamalıdır. İmam Əhməd ﵀ Firuzun ﵁ belə dediyini rəvayət etmişdir: “İslamı qəbul etdiyim zaman iki bacı ilə evli idim. Peyğəmbər ﷺ mənə ikisindən birini boşamamı əmr etdi”.[1] Hədisi Əbu Davud, ət-Tirmizi və İbn Məcə ﵏ rəvayət etmişlər. ət-Tirmizinin ﵀ rəvayəti belədir: “Peyğəmbər ﷺ mənə “İkisindən hansını istəyirsən seç!” dedi”.[2] ət-Tirmizi “Bu, həsən hədisdir” demişdir.[3] Firuz əd-Deyləmi ﵁ peyğəmbərlik iddiasında olan əl-Əsvəd əl-Ənəsini öldürməyi tapşırılan Yəmən əmirlərindən biri olub.

Ayənin ümumi mənasına görə, eyni zamanda iki kölə bacıya sahib olanın da onların hər ikisi ilə yaxınlıq etməsi haramdır. İbn Əbu Hatim ﵀ rəvayət etmişdir ki, bir dəfə İbn Məsuddan ﵁ eyni zamanda iki kölə bacıya sahib olub onların hər ikisi ilə də yaxınlıq edən kişi barədə soruşdular. O bunun haram olduğunu bildirdi. Soruşan adam İbn Məsuda dedi: “Bəs Uca Allah “**Sahib olduğunuz cariyələr istisna olmaqla**” buyurmurmu?” İbn Məsud “Dəvən də əlinin altında olan şeylərdəndir” deyə cavab verdi”.[4] Bəzi sələflər bu məsələdə susub rəy bildirməsələr də, əksər alimlərdən, dörd məzhəb imamlarından və başqalarından rəvayət olunan məşhur rəy belədir. İmam Malik ﵀ İbn Şihabdan, o da Qabisa ibn Zueybdən rəvayət etmişdir ki, bir kişi Osman ibn Affandan ﵁ kölə olan iki bacının hər ikisi ilə yaxınlıq etməyin icazəli olub-olmaması barədə soruşdu. Osman “Bir ayə bunu halal, digəri isə haram etmişdir. Bu səbəblə mən (ehtiyat üçün) bunu etməyi bəyənmirəm”. Osmanın yanında olan adam oradan çıxdıqdan sonra Peyğəmbərin ﷺ səhabələrindən birinə rast gəldi və bu sualı ona da verdi. Səhabə “Əlimdə səlahiyyət olsa və bunu edən birini görsəm, onu cəzalandırardım” deyə cavab verdi. Malik ﵀ demişdir: “Mənə oxşar rəvayət əz-Zubeyr ibn əl-Əvvamdan çatmışdır”.[5]

---

[1] Əhməd, 18041, 18070, 18205. Şueyb əl-Arnavut isnadının həsən olduğunu ehtimal etmişdir.

[2] ət-Tirmizi, 1129-1130, 1157-1158. Hədis səhihdir. Bax: Mişkətul-Məsabih, 4662.

[3] “əl-Musnəd” (4/232 Hələbi nəşri). Bax: “əl-İsabə” (5/214). (Əhməd Şakir).

[4] İbn Əbu Hatim, 5099.

[5] “əl-Muvatta” (səh. 538-539). Osmanın ﵁ “Bu səbəblə mən (ehtiyat üçün) bunu etməyi bəyənmirəm” sözünə gəlincə, “əl-Muvatta” əsərində sabit olan budur. İbn Kəsirin ﵀ əlyazmasında və çap olunmuş nüsxədə isə bu cümlənin əvəzinə “Mən bunu qadağan

İbn Abdul-Bərr ﷺ rəvayət etmişdir ki, İyas ibn Amir ﷺ demişdir: "Bir dəfə mən Əli ibn Əbu Talibdən ﷺ soruşdum: "Əlimin altında iki kölə bacı var. Onlardan biri ilə yaxınlıq etdim və mənə övladlar dünyaya gətirdi. İndi digərini istəyirəm. Nə edə bilərəm?" Əli "Yaxınlıq etdiyin bacını azad et, sonra digəri ilə yaxınlıq et" dedi. Mən dedim: "Bəzi insanlar yaxınlıq etdiyim bacını başqasına ərə verib, sonra digəri ilə yaxınlıq edə biləcəyimi deyirlər". Əli dedi: "Əgər onun əri onu boşasa və ya ölsə, yenidən sənə qayıtmış olmurmu? Məncə, onu azad etməyin sənin üçün daha münasib olar". Sonra Əli ﷺ mənim əlimdən tutub dedi: "Allahın Kitabında say məhdudiyyəti və ya dörd arvad almaq məsələsi istisna olmaqla azad qadınlar barədə haram olan şeylər, kölələr barədə də haramdır. Allahın Kitabında qohumluq bağlılığı səbəbindən haram olanlar süd qohumluğu ilə də sənə haramdır". Sonra İbn Abdul-Bərr ﷺ demişdir: "Bu, uğrunda uzaq səfərə çıxılası bir hədisdir. Əgər gündoğandan və ya günbatandan Məkkəyə və ya başqa bir şəhərə səfərə çıxan şəxs bu hədisdən savayı heç nə əldə etməsə belə, uğursuz səfər etmiş sayılmaz".[1]

İbn Mərdəveyh ﷺ rəvayət etmişdir ki, İbn Abbas ﷺ demişdir: "Cahiliyyə dövrünün insanları atanın arvadı və eyni vaxtda iki bacı ilə evlənmək istisna olmaqla, sizin bu gün haram saydıqlarınızı onlar da haram sayardılar. İslam dini gəldikdə Uca Allah "**Olub-keçənlər istisna olmaqla bundan sonra atalarınızın evlənmiş olduğu qadınlarla evlənməyin**" və "**və iki bacını birlikdə almaq haram edildi. Olub-keçənlər isə artıq keçmişdir**" ayələrini nazil etdi".[2]

İbn Abdul-Bərr ﷺ demişdir: "Fəqihlərin hamısı ittifaq etmişlər ki, eyni vaxtda iki bacı ilə nikahda olmaq haram olduğu kimi, iki kölə bacı ilə yaxınlıq etmək də haramdır. Müsəlmanlar Uca Allahın "**Sizə analarınız, qızlarınız, bacılarınız,.. haram edildi"** ayəsinin mənasının həm nikah, həm də kölə qadınlar üçün eyni olmasında yekdil fikirdədirlər. Həmçinin iki bacı ilə nikahda olmaq, qadınların anaları və ögey qızlarla evlənmək məsələsində nikahda olan və kölə qadınlar həm nəzəri cəhətdən, həm də məntiqlə eyni hökmdədirlər. Əksər alimlərin rəyinə görə, bu, belədir. Bu, əksər alimlərə müxalif olan və onların rəyindən başqa bir rəy verənlərə qarşı bir dəlildir".[3]

---

etmirəm" cümləsi işlənmişdir. Bu, sözsüz ki, kitabı köçürənlərin səhvidir. (Əhməd Şakir). Malik, 536, 1122, 1547; əş-Şafii, 1380, 1405; əl-Beyhəqi "Sunənul-Kubra" 14304.

[1] İbn Abdul-Bərr "əl-İstizkər" 5/488, 16/252.

[2] ət-Təbəri, 8938, 8997.

[3] İbn Abdul-Bərr "əl-İstizkər" 16/250.

Uca Allah buyurur: "**Sahib olduğunuz cariyələr istisna olmaqla, evli qadınları almaq da sizə haram edildi**", yəni evli qadınlarla evlənmək sizə haram edildi. "**Sahib olduğunuz cariyələr istisna olmaqla**", yəni əsir alınmaqla ələ keçirdiyiniz kölə qadınların (heyz olmalarını gözləməklə) hamilə olmadıqlarını yəqin etdikdən sonra onlarla yaxınlıq etmək sizə halal edildi. Ayə məhz bu barədə nazil olmuşdur. İmam Əhməd ﷺ rəvayət etmişdir ki, Əbu Səid əl-Xudri ﷺ demişdir: "Əvtas qəbiləsi ilə döyüşdə (qalib gəldikdən sonra) ərləri olan əsir qadınlar ələ keçirdik. Ərləri olduğu halda, onlarla yaxınlıq etməkdən çəkindik. Biz bu barədə Peyğəmbərdən ﷺ soruşduq və bu ayə nazil oldu: "**Sahib olduğunuz cariyələr istisna olmaqla, evli qadınları almaq da sizə haram edildi**". Beləliklə, o qadınlarla (iddə müddətləri başa çatdıqdan sonra) yaxınlıq etmək bizə halal edildi".[1] Hədisi Abdur-Razzəq, Muslim, Əbu Davud, ət-Tirmizi və ən-Nəsəi ﷺ rəvayət etmişlər.[2]

Bəzi sələf alimləri bu ayənin ümumi mənasını götürərək bildirmişlər ki, əri olan kölə qadının satılması artıq onun ərindən boşanması deməkdir. Əksər alimlər isə bəzi sələflərdən gələn bu rəyə qarşı çıxaraq kölə qadının satılmasının onun ərindən boşanması anlamına gəlmədiyini demişlər. Çünki kölə qadını alan kəs, sadəcə, onu satanı əvəz edir. Kölə qadının sahibi öz köləsini satmaqla artıq onu öz mülkiyyətindən çıxarmış sayılır. Bu məsələdə onlar əl-Buxari və Muslimin "Səhih" əsərlərində və digər hədis kitablarında rəvayət edilən Bəriranın hədisinə əsaslanmışlar. Hədisdə bildirilir ki, möminlərin anası Aişə ﷺ kölə qadın Bəriranı satın alaraq azad etdikdə onun əri (Muğis) ilə olan nikahına xitam verilmədi. Peyğəmbər ﷺ Bəriranı əri ilə olan nikahlarına xitam verilməsi ilə nikahın saxlanması arasında seçim etdirdi və Bərira da nikaha xitam verilməsini seçdi. Bəriranın hekayəsi məşhurdur.[3] Əgər onların dedikləri kimi, kölə qadının satılması boşanma sayılsaydı, Peyğəmbər ﷺ Bəriraya seçim etməsini buyurmazdı. Peyğəmbərin ﷺ ona seçim haqqını verməsi nikahın qalmasına dəlalət edir. Ayədə isə yalnız əsir alınmış kölə qadınlar nəzərdə tutulur. Ən doğrusunu Allah bilir.

[1] Əhməd, 11691, 11709, 11714; ət-Təbəri, 8970, 9029; Şueyb əl-Arnavut hədisin səhih olduğunu bildirmişdir.

[2] Muslim, 2643, 3681.

[3] əl-Buxari, 4875, 5283.

Uca Allah buyurur: “**Allahın sizə buyurduğu hökmü belədir**”, yəni bu haramlar Allahın sizə buyurduğu bir hökmdür. Onun hökmündən və qoyduğu hədlərdən kənara çıxmayın, şəriətinə və vacib etdiyi fərzlərə əməl edin. “**Bunlardan başqası ilə, ...evlənməyiniz sizə halal edildi**”. Əta və başqaları ﷺ bu ayə barədə demişlər: “Yəni ayədə zikr edilən məhrəmlərdən (evlənməsi qadağan olunan qohumlardan) başqa qadınlarla evlənmək sizə halal edildi”.

Uca Allah buyurur: “...**nikah bağlamaqla, zinakarlığa yol vermədən, mallarınızı sərf edərək** (mehrlərini verərək)**...**”, yəni mallarınızı sərf etməklə dördə qədər zövcəyə, qanuni yolla əldə etdiyiniz kölə qadınlardan isə istədiyiniz qədərinə sahib ola bilərsiniz. Bu səbəbdən Uca Allah “...**nikah bağlamaqla, zinakarlığa yol vermədən...**” buyurur.

Uca Allah buyurur: “**Evləndiyiniz qadınlardan zövq aldığınıza görə, onlara, vacib buyurulmuş mehrlərini verin**”, yəni onlardan zövq aldığınız kimi, bunun qarşılığında onlara mehrlərini verin. Uca Allah mehr barədə başqa ayələrdə də belə buyurur: “**Onu necə geri ala bilərsiniz ki, siz bir-birinizlə yaxınlıq etmişdiniz**” (“ən-Nisa”, 21); “**Qadınlara öz mehrlərini könül xoşluğu ilə verin!**” (“ən-Nisa”, 4); “**Onlara verdiklərinizdən bir şey götürmək sizə halal olmaz**” (“əl-Bəqərə”, 229).

Bəziləri bu ayənin ümumi mənasının siğənin (müvəqqəti nikahın) icazəli olmasına dəlalət etdiyini sanmışlar. Şübhə yoxdur ki, bu növ nikah İslamın əvvəlində qanuni idi, lakin sonradan ləğv edildi. əş-Şafii və bir qrup alimlərin ﷺ rəyinə görə, müvəqqəti nikah əvvəl icazəli olmuş, sonra ləğv edilmiş, sonra təkrar icazəli olmuş və sonra bir daha ləğv edilmişdir. Beləliklə, iki dəfə icazəli olmuş, sonda ləğv edilmişdir. Bəziləri isə ikidən daha çox sayda icazəli olub, sonra ləğv edildiyini demişlər. Bəziləri isə, sadəcə, bir dəfə icazəli olub, sonra ləğv edildiyini və bundan sonra heç vaxt icazəli olmadığını söyləmişlər. Bu mövzuda əsas dəlil əl-Buxari və Muslimin “Səhih” əsərlərində Əli ibn Əbu Talibdən ﷺ rəvayət edilən bu hədisdir: Əli ibn Əbu Talib ﷺ demişdir: “Peyğəmbər ﷺ Xeybər döyüşü günü siğəni və ev eşşəklərinin ətini qadağan etdi”.[1] Muslim “Səhih” əsərində rəvayət etmişdir ki, Səbra ibn Məbəd əl-Cuhəni ﷺ Peyğəmbərlə ﷺ birlikdə Məkkənin fəthində iştirak etmişdir. Peyğəmbər ﷺ demişdir: “Ey insanlar, mən sizə qadınlarla siğə etməyə (müvəqqəti nikah

[1] əl-Buxari, 4723, 5115; Muslim, 3499, 2511.

bağlamağa) icazə vermişdim. İndi isə bilin ki, həqiqətən, Uca Allah siğəni Qiyamət gününə qədər haram etmişdir. Kimin yanında müvəqqəti nikah bağladığı qadın varsa, onu sərbəst buraxsın! Onlara verdiklərinizdən heç bir şey götürməyin".[1] Muslimin rəvayətinə görə, bu hadisə vida həccində olmuşdur.[2]

Uca Allah buyurur: "**Bu mehr müəyyən edildikdən sonra öz aranızda razılaşdığınız şeyə görə sizə heç bir günah olmaz**", yəni qadına bir mehr təyin etdikdən sonra əgər qadın səni bu mehrin hamısından və ya bir hissəsindən azad edərsə, nə sənə, nə də qadına bir günah yoxdur. İbn Abbas isə demişdir: "Qarşılıqlı razılaşma dedikdə, qadına mehri tam olaraq verdikdən sonra, qalmaqla ayrılmaq arasında seçim etdirmək nəzərdə tutulur".[3]

Uca Allah buyurur: "**Həqiqətən, Allah hər şeyi biləndir, hikmət sahibidir**". Bu haramların qoyulmasından sonra Allahın bu iki sifətinin (bilən və hikmət sahibi olmasının) zikr edilməsi son dərəcə münasibdir.

﴿ وَمَن لَّمْ يَسْتَطِعْ مِنكُمْ طَوْلًا أَن يَنكِحَ ٱلْمُحْصَنَٰتِ ٱلْمُؤْمِنَٰتِ فَمِن مَّا مَلَكَتْ
أَيْمَٰنُكُم مِّن فَتَيَٰتِكُمُ ٱلْمُؤْمِنَٰتِ ۚ وَٱللَّهُ أَعْلَمُ بِإِيمَٰنِكُم ۚ بَعْضُكُم مِّنۢ بَعْضٍ ۚ فَٱنكِحُوهُنَّ بِإِذْنِ
أَهْلِهِنَّ وَءَاتُوهُنَّ أُجُورَهُنَّ بِٱلْمَعْرُوفِ مُحْصَنَٰتٍ غَيْرَ مُسَٰفِحَٰتٍ وَلَا مُتَّخِذَٰتِ أَخْدَانٍ ۚ فَإِذَآ
أُحْصِنَّ فَإِنْ أَتَيْنَ بِفَٰحِشَةٍ فَعَلَيْهِنَّ نِصْفُ مَا عَلَى ٱلْمُحْصَنَٰتِ مِنَ ٱلْعَذَابِ ۚ ذَٰلِكَ لِمَنْ خَشِىَ
ٱلْعَنَتَ مِنكُمْ ۚ وَأَن تَصْبِرُوا۟ خَيْرٌ لَّكُمْ ۗ وَٱللَّهُ غَفُورٌ رَّحِيمٌ ﴿٢٥﴾ ﴾

**25. Sizlərdən azad mömin qadınlarla evlənməyə imkanı olmayan kimsə əllərinizin altında olan mömin cariyələrdən alsın. Allah sizin imanınıza daha yaxşı bələddir. Hamınız eyni kökdənsiniz. Elə isə namusunu qoruyan, zinakarlıq etməyən və aşna saxlamayan cariyələrlə sahiblərinin icazəsi ilə evlənin və mehrlərini şəriətə müvafiq qaydada verin. Əgər ərə getdikdən sonra zina etsələr, onlara, azad qadınlara verilən cəzanın yarısı tətbiq edilər. Bu, günaha batmaqdan qorxanlarınız üçündür. Əgər səbir etsəniz, bu sizin üçün daha yaxşı olar. Allah bağışlayandır, rəhmlidir.**

---

[1] Muslim, 2502, 3488.

[2] Muslimin "Səhih" əsəri (1/395-396), "əl-Musnəd" (15410, 15413, 15414). (Əhməd Şakir).

[3] ət-Təbəri, 9047, 9106.

Uca Allah bu ayədə buyurur: "Sizlərdən kimin "**azad mömin qadınlarla evlənməyə imkanı**", yəni maddi imkanı olmasa, "**əllərinizin altında olan mömin cariyələrdən alsın**", yəni möminlərin sahib olduqları mömin kölə qadınlarla evlənsin. Sonra Uca Allah ayənin davamında "**Allah sizin imanınıza daha yaxşı bələddir. Hamınız eyni kökdənsiniz**" buyurur. Yəni O, işlərin həm zahirini, həm də batinini biləndir. Ey insanlar, siz isə işlərin yalnız zahirindən xəbərdar ola bilərsiniz.

Sonra Uca Allah buyurur: "**Elə isə namusunu qoruyan, zinakarlıq etməyən və aşna saxlamayan cariyələrlə sahiblərinin icazəsi ilə evlənin**". Bu ayə dəlalət edir ki, kölə qadının vəlisi onun sahibidir və sahibinin icazəsi olmadan kölə qadın evlənə bilməz. Həmçinin qul kişinin vəlisi də onun sahibidir. Sahibinin izni olmadan qul kişi evlənə bilməz. Necə ki bir hədisdə Peyğəmbərimiz ﷺ demişdir: "Sahibinin icazəsi olmadan evlənən qul zinakardır".[1] Əgər kölə qadının sahibi qadın olarsa, bu halda kölə qadını onun sahibinin vəlisi evləndirir. Dəlil isə bu hədisdir: "Qadın qadını evləndirə bilməz, qadın özü-özünü də evləndirə bilməz. Yalnız zinakar qadın özü-özünü evləndirər".[2]

Uca Allah buyurur: "...**və mehrlərini şəriətə müvafiq qaydada verin**", yəni onların mehrlərini könül xoşluğu ilə verin. Kölə olduqları üçün onları aşağı görüb mehrlərini azaltmayın.

Uca Allah buyurur: "...**namusunu qoruyan, zinakarlıq etməyən və aşna saxlamayan cariyələrlə...**", yəni iffətli, özlərini zinadan qoruyan cariyələrlə evlənin. Ayədə "**zinakarlıq etməyən**" dedikdə onlarla zina etmək istəyənlərin təklifini rədd etməyərək zina edən cariyələr nəzərdə tutulur. İbn Abbas رضي الله عنهما Uca Allahın "**aşna saxlamayan**" sözü barədə demişdir: "Yəni məşuqu olmayanlar". Əbu Hureyra, Mucahid, əş-Şabi və başqalarından رضي الله عنهم da eyni təfsir rəvayət edilmişdir. əd-Dahhək رحمه الله demişdir: "Məşuqu olan və bunu etiraf edən cariyələrlə evlənməyi Allah qadağan etmişdir".

Uca Allah buyurur: "**Əgər ərə getdikdən sonra zina etsələr, onlara, azad qadınlara verilən cəzanın yarısı tətbiq edilər**". Qiraət alimləri ayədə keçən أُحْصِنَّ [uhsinnə] "**ərə getdikdən**" sözünün oxunuşunda ixtilaf etmişlər. Qarilərin bir qismi bu feili bu şəkildə (uhsinnə) –

---

[1] "əl-Musnəd" (14261, 15091, 15153), Əbu Davud (2078), ət-Tirmizi (2/181-182) Cabirdən rəvayət etmişlər. ət-Tirmizi hədisin "həsən-səhih" olduğunu bildirmişdir. (Əhməd Şakir). Əbu Davud, 2078, 2080. İsnadı həsəndir. Bax: İrvaul-Ğalil, 1933.

[2] "əl-Bəqərə" surəsinin 232-ci ayəsinin təfsirində keçmişdir. (Əhməd Şakir).

feilin məchul növü formasında oxusalar da, bir qismi أَحْصَنَّ [əhsannə] şəklində – feilin məlum növü formasında oxumuşlar.[1] Lakin alimlər hər iki qiraətə görə mənanın eyni olduğunu demişlər. Həmçinin alimlər bu sözün mənasında da ixtilaf etmişlər. Bəzi alimlər burada İslama girdikdən sonra zina etməyin nəzərdə tutulduğunu demişlər (yəni əgər İslama girdikdən sonra zina etsələr, onlara azad qadınlara verilən cəzanın yarısı tətbiq edilir). Bəziləri isə evli olduqdan sonra zina etməyin nəzərdə tutulduğunu demişlər. Bəzi alimlər isə bu iki qiraətin müxtəlif mənalar ifadə etdiyini söyləmişlər. Birinci qiraətə görə məna evlənməkdir. İkinci qiraətə görə isə məna İslama girməkdir. İbn Cərir ﷺ təfsir kitabında ikinci qiraəti seçmişdir.

Ayədən aydın olan budur ki – ən doğrusunu Allah bilir – burada evlənmək nəzərdə tutulur. Çünki ayənin məzmunu buna dəlalət edir. Belə ki ayədə Uca Allah "**Sizlərdən azad mömin qadınlarla evlənməyə imkanı olmayan kimsə əllərinizin altında olan mömin cariyələrdən alsın...**" buyurur. Ayənin məzmunu mömin cariyələrdən bəhs edir. Bununla da aydın olur ki, sonrakı cümlədə ərə getdikdən sonra zina edən cariyələr nəzərdə tutulur. Necə ki İbn Abbas və başqaları ﷺ ayəni belə təfsir etmişlər.

Uca Allah buyurur: "**Bu, günaha batmaqdan qorxanlarınız üçündür**", yəni yuxarıda keçən şərtlər daxilində cariyələrlə evlənmək izni zinaya düşməkdən qorxan, cinsi tələbata qarşı səbir göstərməkdə çətinlik çəkən və bu səbəblə günaha girməkdən qorxanlar üçündür. Bu halda o, kölə qadınla evlənə bilər. Lakin cariyələrlə evliliyi tərk edib, zinaya düşməmək baxımından nəfsi ilə mübarizə aparmaq onun üçün daha yaxşıdır. Çünki əgər kölə qadınla evlənərsə, bu evlilikdən dünyaya gələn uşaqlar qadının ağasının kölələri olacaq. Lakin İmam əş-Şafiinin ﷺ köhnə rəyinə görə, əgər kölə qadınla evlənən kişi ərəb olarsa, bu halda kölə qadının ondan dünyaya gətirdiyi övladları kölə olmur. Bu səbəbdən Uca Allah "**Əgər səbir etsəniz, bu sizin üçün daha yaxşı olar. Allah bağışlayandır, rəhmlidir**" buyurur.

Əksər alimlər bu ayəni dəlil gətirərək bildirmişlər ki, kölə qadınlarla evlənməyin icazəli olması üçün azad qadınlarla evlənmək imkanının olmaması və zinaya düşmə qorxusunun olması mütləqdir. Çünki kölə qadınlarla evlənmək doğulacaq uşaqların kölə olmasına səbəbdir. Həmçinin azad qadınları qoyub kölə qadınlara meyil etmək

[1] İkinci qiraət Əbu Bəkr, Həmzə, və əl-Kisəinin oxunuşudur. Yeddi qaridən digərləri isə birinci qiraətlə oxumuşlar. (Əhməd Şakir).

insanlar arasında pis qarşılanır. Əbu Hənifə ﷺ və onun davamçıları isə əksər alimlərin kölə qadınlarla evlənmək üçün qoyduqları bu iki şərtə müxalif çıxaraq bildirmişlər ki, azad qadınla evli olmayan hər bir kişi istər azad bir qadınla evlənməyə gücü çatsın, istər çatmasın, istər günaha girməkdən qorxsun, istər qorxmasın, mömin və ya Kitab əhlindən (xaçpərəst və yəhudi) olan kölə qadınla evlənə bilər. Bu rəyin istinad etdiyi dəlil isə Uca Allahın bu ayəsidir: "**Mömin qadınlardan ismətli olanlar və sizdən öncə Kitab verilənlərdən ismətli qadınlar, mehrlərini verdiyiniz təqdirdə, namuslu olub zinakarlıq etməmək və aşna saxlamamaq şərtilə sizə halaldır**" ("əl-Maidə", 5). Bu ayədə keçən "**ismətli qadınlar**" sözü həm azad, həm də kölə qadınları əhatə edir. Həmçinin aydın görünür ki, bu ayə ümumidir və əksər alimlərin dediklərinə dəlalət edir. Ən doğrusunu isə Allah bilir.

﴿يُرِيدُ ٱللَّهُ لِيُبَيِّنَ لَكُمۡ وَيَهۡدِيَكُمۡ سُنَنَ ٱلَّذِينَ مِن قَبۡلِكُمۡ وَيَتُوبَ عَلَيۡكُمۡۗ وَٱللَّهُ
عَلِيمٌ حَكِيمٞ ٢٦ وَٱللَّهُ يُرِيدُ أَن يَتُوبَ عَلَيۡكُمۡ وَيُرِيدُ ٱلَّذِينَ يَتَّبِعُونَ ٱلشَّهَوَٰتِ أَن تَمِيلُواْ
مَيۡلًا عَظِيمٗا ٢٧ يُرِيدُ ٱللَّهُ أَن يُخَفِّفَ عَنكُمۡۚ وَخُلِقَ ٱلۡإِنسَٰنُ ضَعِيفٗا ٢٨﴾

**26. Allah sizə şəriət hökmlərini bəyan etmək, sizi özünüzdən əvvəlkilərin yollarına yönəltmək və tövbələrinizi qəbul etmək istəyir. Allah hər şeyi biləndir, hikmət sahibidir.**
**27. Allah sizin tövbələrinizi qəbul etmək istəyir. Ehtiraslarına uyanlar isə sizin haqq yoldan büsbütün çıxmanızı istəyirlər.**
**28. Allah sizin üçün şəriət hökmlərini yüngülləşdirmək istəyir, çünki insan zəif yaradılmışdır.**

Uca Allah bildirir ki, ey möminlər, Allah bu və digər surələrdə ayələr nazil etməklə sizə halal və haram etdiyi şeyləri açıqlamaq istəyir. Həmçinin "**sizi özünüzdən əvvəlkilərin yollarına yönəltmək**", yəni onların gözəl yollarına, sevib razı qaldığı şəriətinə tabe olmağınızı "**və tövbələrinizi qəbul etmək istəyir**", yəni günah və haramlardan edəcəyiniz tövbələrinizi qəbul etmək istəyir. "**Allah hər şeyi biləndir, hikmət sahibidir**", yəni Allah qoyduğu qanunlarda, yazdığı qəzavü-qədərdə, etdiklərində və sözlərində elm və hikmət sahibidir.

Uca Allah buyurur: "**Ehtiraslarına uyanlar isə sizin haqq yoldan büsbütün çıxmanızı istəyirlər**", yəni şeytana uyan yəhudi, xristian və zina edənlər isə "**sizin haqq yoldan büsbütün çıxmanızı istəyirlər. Allah sizin üçün şəriət hökmlərini yüngülləşdirmək istəyir**", yəni

Allah şəriət əhkamlarında, əmrlərində, qadağalarında və sizin üçün müəyyən etdiyi şeylərdə yüngüllük istəyir. Mucahid və başqalarının dediyi kimi: "Bu səbəbdən sizə cariyələrlə müəyyən şərtlər daxilində evlənməyə icazə verdi". "**Çünki insan zəif yaradılmışdır**", yəni insan nəfsində, iradəsində və qətiyyətində zəif olduğu üçün bu yüngülləşdirmə ona münasibdir. İbn Əbu Hatim rəvayət etmişdir ki, Tavus Uca Allahın "**Çünki insan zəif yaradılmışdır**" ayəsi barədə demişdir: "Yəni qadınlar məsələsində zəif yaradılmışdır".[1] Vəki isə demişdir: "Qadınların yanında ağlı başından gedər".

﴿ يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ لَا تَأۡكُلُوٓاْ أَمۡوَٰلَكُم بَيۡنَكُم بِٱلۡبَٰطِلِ إِلَّآ أَن تَكُونَ تِجَٰرَةً عَن تَرَاضٖ
مِّنكُمۡۚ وَلَا تَقۡتُلُوٓاْ أَنفُسَكُمۡۚ إِنَّ ٱللَّهَ كَانَ بِكُمۡ رَحِيمٗا ٢٩ وَمَن يَفۡعَلۡ ذَٰلِكَ عُدۡوَٰنٗا
وَظُلۡمٗا فَسَوۡفَ نُصۡلِيهِ نَارٗاۚ وَكَانَ ذَٰلِكَ عَلَى ٱللَّهِ يَسِيرًا ٣٠ إِن تَجۡتَنِبُواْ كَبَآئِرَ مَا
تُنۡهَوۡنَ عَنۡهُ نُكَفِّرۡ عَنكُمۡ سَيِّـَٔاتِكُمۡ وَنُدۡخِلۡكُم مُّدۡخَلٗا كَرِيمٗا ٣١ ﴾

**29. Ey iman gətirənlər! Qarşılıqlı razılıqla aparılan ticarət istisna olmaqla, mallarınızı öz aranızda haqsız yerə yeməyin və özünüzü öldürməyin. Həqiqətən, Allah sizə qarşı rəhmlidir.**

**30. Kim düşmənçilik və zülm etməklə bu işləri görərsə, Biz onu atəşə giriftar edərik. Bu, Allah üçün asandır.**

**31. Sizə qadağan olunmuş böyük günahlardan çəkinsəniz, Biz sizin kiçik günahlarınızdan keçər və sizi şərəfli bir yerə (Cənnətə) daxil edərik.**

Uca Allah bu ayədə mömin qullarına bir-birlərinin mallarını öz aralarında haqsızcasına, yəni sələm, qumar və bunlara bənzər şəriətlə icazəli olmayan hiyləli qazanc yolları ilə mənimsəməyi qadağan edir. Bu qazanc yolları hökm baxımından zahirən şəriətə uyğun görünsə də, Uca Allah bu yolun sələmə aparan hiylə olduğunu və buna əl atanın sələm məqsədilə etdiyini bilir. İbn Cərir rəvayət etmişdir ki, İbn Abbas bir kişidən bir paltar alaraq "Əgər xoşum gəlsə götürərəm, xoşum gəlməsə, üstündə bir dirhəm verib onu qaytararam" deyən bir kəs barədə demişdir: "Bu, Uca Allahın "...**mallarınızı öz aranızda haqsız yerə yeməyin**" ayəsində nəzərdə tutduğu adamdır".[2]

Uca Allahın "**Qarşılıqlı razılıqla aparılan ticarət istisna olmaqla**" ayəsində تِجَارَةً [ticə:ratən] "**ticarət**" sözü həm bu şəkildə təsirlik halında, həm də تِجَارَةٌ [ticə:ratun] şəklində adlıq halda oxunmuşdur.

[1] İbn Əbu Hatim, 5177.

[2] ət-Təbəri (9142, 9141). İsnadı səhihdir. (Əhməd Şakir). ət-Təbəri, 9198.

Bu cümlə əlaqəsiz istisna cümləsidir.[1] Uca Allah bu ayədə bildirir ki, mal qazanmaq üçün haram yollara əl atmayın, lakin satıcı və alıcının qarşılıqlı razılığı ilə baş tutan şəriətə uyğun ticarət edə bilərsiniz. Çalışın bu yolla mal qazanasınız. Necə ki Uca Allah başqa ayələrdə belə buyurur: "**Şəriətin icazə verdiyi hallar** (cana-can kimi) **istisna olmaqla, Allahın, öldürülməsini haram buyurduğu şəxsi haqsız yerə öldürməyin**" ("əl-Ənam", 151); "**Onlar ilk ölümdən başqa orada heç bir ölüm dadmayacaqlar**" ("əd-Duxan", 56).

İmam əş-Şafii ﷺ bu ayəni dəlil gətirərək alqı-satqının yalnız hər iki tərəfin malı qəbul etməsi ilə etibarlı sayıldığını demişdir, çünki malı qəbul etmək qarşılıqlı razılığa dəlalət edir. Bir tərəfin, sadəcə, malı verib, qarşı tərəfin isə onu götürməsi qarşılıqlı razılığa dəlalət etməyə də bilər. Malik, Əbu Hənifə, Əhməd və onların davamçıları ﷺ isə bu məsələdə əksər alimlərə müxalif olaraq sözlərin qarşılıqlı razılığa dəlalət etdiyi kimi, əməllərin də bəzi yerlərdə qəti olaraq qarşılıqlı razılığa dəlalət etdiyini və mal mübadiləsi ilə istənilən alış-verişin etibarlı olduğunu demişlər. Bəziləri isə bunu kiçik (dəyəri az olan) mallara və insanların alqı-satqı saydığı hallara xas etmişlər. Bu, məzhəb davamçılarının ehtiyatlı bir rəyidir. Ən doğrusunu Allah bilir.

Alıcı ilə satıcının alış-veriş edilən məclisdə seçim etmələri qarşılıqlı razılığın kamilliyindəndir. Necə ki əl-Buxari və Muslimin "Səhih" əsərlərində rəvayət edilən bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Alıcı və satıcı bir-birindən ayrılanadək ixtiyar sahibidirlər".[2] əl-Buxarinin ﷺ rəvayəti isə belədir: "İki adam alış-veriş etdikdə bir-birlərindən ayrılanadək hər biri ixtiyar sahibidir".[3] əş-Şafii, Əhməd və onların davamçıları, habelə sələf və xələf alimlərinin ﷺ əksəriyyətinin söylədikləri rəy də bu hədisin mənasına uyğun gəlir.

Uca Allah buyurur: "...**və özünüzü öldürməyin**", yəni Allahın haram buyurduqlarını və günah saydığı əməlləri etməklə, habelə bir-birinizin mallarını öz aranızda batil yollarla yeməklə özünüzü öldürməyin. "**Həqiqətən, Allah sizə qarşı rəhmlidir**", yəni, şübhəsiz ki, Allah, əmr etdiyi və qadağan etdiyi şeylərdə sizə qarşı rəhmlidir.

---

[1] Əgər istisna cümləsində "mustəsnə" (istisna olan) və "mustəsnə minhu" (istisna olunan) müxtəlif növlü isimlər olarsa, bu istisna cümləsi "əlaqəsiz" adlanır. Məsələn, müəllimdən başqa bütün tələbələr gəldilər. Burada "mustəsnə" (istisna olan) "müəllimlər", "mustəsnə minhu" (istisna olunan) isə "tələbələr"dir. Müəllimlər və tələbələr müxtəlifdirlər.

[2] "əl-Musnəd" (4484, 456), İbn Ömərdən ﷺ rəvayət etmişdir. ət-Tabəri (9164). (Əhməd Şakir). Muslim, 2825, 3937; əl-Buxari, 1937, 1940, 2079, 2082.

[3] əl-Buxari (4/279 Fəthul-Bari), İbn Ömərdən ﷺ rəvayət etmişdir. Həmçinin Muslim (1/447) və Əhməd (6006) eyni mətnlə rəvayət etmişlər. (Əhməd Şakir). əl-Buxari, 1970, 2112.

İmam Əhməd ﷺ Amr ibn əl-Asdan ﷺ rəvayət etmişdir ki, "Peyğəmbər ﷺ məni Zətus-Səlasil[1] döyüşündə orduya başçı təyin edib döyüşə yolladı. Soyuq bir gecədə boynuma cənabət qüslu düşdü və qüsl etsəm, həlak olacağımdan qorxduğum üçün təyəmmüm edib yoldaşlarıma Sübh namazını qıldırdım. Qayıtdıqdan sonra bu barədə Peyğəmbərə ﷺ xəbər verdikdə o soruşdu: "Ey Amr, cənabətli halda yoldaşlarına namaz qıldırmısan?" Mən dedim: "Ey Allahın Elçisi, mən soyuq bir gecədə cunub oldum və qüsl etsəm, həlak olacağımdan qorxdum. Sonra Uca Allahın "...**özünüzü öldürməyin. Həqiqətən, Allah sizə qarşı rəhmlidir**" ayəsini xatırladım və təyəmmüm edib namaz qıldım". Peyğəmbər ﷺ gülümsədi və heç nə demədi".[2] Hədisi Əbu Davud ﷺ rəvayət etmişdir.[3] İbn Mərdəveyh ﷺ bu ayənin təfsirində Əbu Hureyradan ﷺ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Kim dəmir parçası ilə öz canına qəsd edərsə, Cəhənnəm odunda bu dəmir parçasını daim qarnına soxar və orada əbədi olaraq qalar. Kim zəhər içib özünü öldürərsə, Cəhənnəm odunda o zəhəri əlində tutub həmişə zəhər içər və orada əbədi olaraq qalar. Kim özünü dağdan atıb canına qəsd edərsə, Cəhənnəm odunda özünü daima yuxarıdan aşağı atar və orada əbədi olaraq qalar".[4] Bu hədis əl-Buxari və Muslimin "Səhih" əsərlərində də mövcuddur.[5] Həmçinin Sabit ibn əd-Dahhəkdən ﷺ rəvayət edilir ki, Peyğəmbər ﷺ demişdir: "Kim hər hansı bir şey ilə öz canına qəsd edərsə, Qiyamət günü həmin şey ilə ona əzab verilər".[6] Bu hədisi mötəbər hədis alimləri öz kitablarında rəvayət etmişlər. əl-Buxari və Muslimin "Səhih" əsərlərində Cundub ibn Abdullah əl-Bəcəlidən ﷺ rəvayət edilən bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Sizdən əvvəl yaşamış insanlar arasında bir nəfər yaralandı. Adam ağrıya dözmədiyindən bıçaq götürüb əlini kəsdi və çoxlu qan itirib öldü. Uca Allah buyurdu: "Qulum canına qəsd etməklə Məni qabaqlamaq istədi, Mən də Cənnəti ona haram etdim!"[7]

[1] Zətus-Səlasil Şam tərəfdə yerləşən yer adıdır. Amr ibn əl-Asın ﷺ rəhbərliyi ilə hicrətin 8-ci ilində bu yerdə döyüş baş vermişdir.
[2] Əbu Davud, 334. Hədis səhihdir. Bax: İrvaul-Ğalil, 154.
[3] "əl-Musnəd" (4/203-204 Hələbi nəşri); Əbu Davud (334-335). (Əhməd Şakir).
[4] Muslim, 158, 313.
[5] "əl-Musnəd" (16456, 16463); əl-Buxari (3/180, 10/389, 428, 11/468, 469 Fəthul-Bari); Muslim (1/42). (Əhməd Şakir).
[6] əl-Bəzzər, 3520. Hədis səhihdir. Bax: Səhih əl-Cami, 5404.
[7] əl-Buxari (3/180, 6/362 Fəthul-Bari); Muslim (1/43); "əl-Musnəd" (4/312 Hələbi nəşri). (Əhməd Şakir). əl-Buxari, 3204, 3463.

Bu səbəbdən Uca Allah "**Kim düşmənçilik və zülm etməklə bu işləri görərsə, ...**" buyurur. Yəni kim Allahın qadağan etdiyi bir şeyi düşmənçilik və zülm etməklə haram olduğunu bilərək çəkinmədən edərsə, "**Biz onu atəşə giriftar edərik. Bu, Allah üçün asandır**". Bu, şiddətli bir təhdid və qüvvətli bir qorxutmadır ki, dinləməyə hazır durub diqqətlə qulaq asan hər bir ağıl sahibi bundan çəkinsin.

Uca Allah buyurur: "**Sizə qadağan olunmuş böyük günahlardan çəkinsəniz, Biz sizin kiçik günahlarınızdan keçər və sizi şərəfli bir yerə daxil edərik**", yəni sizə qadağan etdiyimiz böyük günahlardan uzaq dursanız, biz sizin kiçik günahlarınızdan keçərik və sizi Cənnətə daxil edərik. Bu səbəbdən Uca Allah "**sizi şərəfli bir yerə daxil edərik**" buyurur. ət-Təbəri ﷺ Ənəsin ﷺ belə dediyini rəvayət etmişdir: "Rəbbimizdən bizə çatan buyuruqlar arasında bizi ailəmizdən və malımızdan məhrum edəcək heç bir şey görmədim".[1] Sonra bir müddət susdu və dedi: "Allaha and olsun ki, Allah bizə bundan daha yüngül olanı buyurmuşdur. Böyük günahlardan başqa, kiçik günahları bizə keçmişdir. Elə isə nə üçün böyük günah edək?" Sonra bu ayəni oxudu: "**Sizə qadağan olunmuş böyük günahlardan çəkinsəniz, Biz sizin kiçik günahlarınızdan keçər və sizi şərəfli bir yerə daxil edərik**".[2]

Bu ayə ilə əlaqədar bir çox hədis varid olmuşdur. Bu hədislərdən bəzilərini qeyd edək[3]: ət-Təbəri ﷺ Əbu Hureyra və Əbu Səiddən ﷺ rəvayət etmişdir ki, bir gün Peyğəmbər ﷺ bizə xütbə verdi və xütbəsində üç dəfə "Canım əlində olana and içirəm" deyərək başını aşağı salıb ağladı. Biz də başımızı aşağı salıb ağladıq. Peyğəmbərin ﷺ nəyə görə and içdiyini bilmirdik. Sonra başını qaldırdı. Üzündə bir sevinc və müjdə vardı. Peyğəmbəri ﷺ belə halda görmək bizə qırmızı dəvələrdən daha sevimli idi. Sonra belə dedi: "Beş vaxt namazı qılan, Ramazan orucunu tutan, zəkat verən və yeddi böyük günahdan çəkinən elə bir qul yoxdur ki, ona Cənnət qapıları açılaraq "Sağ-salamat daxil ol!" deyilməsin".[4] Hədisi ən-Nəsəi, əl-Hakim və İbn Hibban "Səhih" əsərində rəvayət etmişlər. əl-Hakim ﷺ demişdir: "Hədis əl-Buxari və Muslimin şərtlərinə görə səhihdir, lakin onlar rəvayət etməmişlər".[5]

---

[1] Yəni Rəbbimizdən bizə çatan buyuruqlar arasında yerinə yetirilməsi çətin olan heç bir şey yoxdur.

[2] ət-Təbəri (9231). İsnadı səhihdir. (Əhməd Şakir). ət-Təbəri, 9231, 9285.

[3] əl-Hafiz İbn Kəsir ﷺ burada bir çox hədisləri qeyd etmişdir. Biz isə qeyd olunanlarla kifayətləndik.

[4] ən-Nəsəi "Sunən" 2395, 2438; əl-Hakim, 2943. Hədis zəifdir. Bax: Daif ət-Tərğib vat-Tərhib, 210, 452.

[5] ət-Təbəri (9185). (Əhməd Şakir).

**Hədisdə zikr edilən yeddi böyük günahın açıqlaması**

əl-Buxari və Muslimin “Səhih” əsərlərində Əbu Hureyradan ﵁ rəvayət edilir ki, Peyğəmbər ﷺ demişdir: “Həlakedici yeddi günahdan çəkinin!” (Səhabələr) soruşdular: “Nədir onlar, ey Allahın Elçisi?” Peyğəmbər ﷺ buyurdu: “Allaha şərik qoşmaq[1], sehrbazlıq, Allahın haram buyurduğu cana nahaq yerə qəsd etmək, sələm yemək, yetimin malını yemək, döyüş meydanından qaçmaq və (zinadan) xəbəri olmayan namuslu, ismətli mömin qadınları zinada ittiham etmək”.[2] Hədisdə bu yeddi əməlin böyük günah olaraq qeyd edilməsi bunlardan başqa böyük günahların olmaması anlamına gəlmir, lakin “məfhumul-ləqab”[3] qaydasına əməl edənlərin rəyinə görə, böyük günahlar yalnız bunlardır. Halbuki dəlil olmadan bu qaydanı tətbiq etmək zəif rəydir. Xüsusilə də bu qaydanın doğru olmadığını göstərən dəlil varsa.[4] Belə ki, bu yeddi günahdan başqa böyük günahların olduğunu isbat edən başqa hədisləri də qeyd edəcəyik. Bu hədislərdən

---

[1] Allaha şərik qoşmaq – Allaha aid olan ibadət növlərindən (dua, səcdə, təvaf, qurban və s.) hər hansı birini Allahdan qeyrisinə yönəltməkdir. Uca Allah Qiyamət günü hüzuruna bu günahla gələni əsla bağışlamayacaq. Digər böyük günahları isə istədiyi kəsə bağışlaya bilər. Uca Allah bu xüsusda buyurur: “**Allah Özünə şərik qoşulmasını əsla bağışlamaz, bundan aşağı olan günahları isə istədiyi kimsəyə bağışlayar. Allaha şərik qoşan kəs böyük bir günah etməklə iftira atmış olur**” (“ən-Nisa”, 48).

[2] əl-Buxari (5/294, 12/160 Fəthul-Bari); Muslim (1/377). (Əhməd Şakir). əl-Buxari, 2560, 2766, 6351, 6857; Muslim, 129, 272.

[3] “Məfhumul-ləqab” üsuli-fiqh qaydalarından biridir. Bu qaydaya əsasən, ayə və ya hədisin dəlalət etdiyi hökm yalnız bu hədisdə və ya ayədə adları keçən növlərə aiddir, digər şeylərə aid deyil. Bu qaydanı götürən alimlərə görə, böyük günahlar yalnız bu hədisdə adları keçən yeddi əməldir. Bunlardan başqaları böyük günah sayılmır. Fiqh alimləri bu qaydanın doğru olub-olmamasında ixtilaf etmişlər. Üstün rəyə görə, bu qayda heç də həmişə tətbiq olunmur və ayənin və ya hədisin dəlalət etdiyi hökm ayədə və ya hədisdə qeyd olunanlardan başqalarını da əhatə edə bilər.

[4] Əslində, burada “Məfhumul-ləqab” qaydası deyil, “Məfhumul-ədəd” qaydası tətbiq olunmalıdır. Bu qaydaya əsasən, ayə və ya hədisin dəlalət etdiyi hökm yalnız bu hədisdə və ya ayədə qeyd olunan sayla məhdudlaşır. “Məfhumul-ədəd” qaydasına müəyyən şərtlər daxilində (əgər say çoxluğu və ya mübaliğə bildirmək üçün qeyd olunmamışsa, habelə say məhdudiyyətinin nəzərdə tutulmadığını bildirən dəlil olduqda) əməl olunur. “Məfhumul-ədəd” qaydasına əməl olunmadığını deyənlərin cavabı zəifdir. əl-Hafiz İbn Həcər “Fəthul-Bari” əsərində “Məfhumul-ədəd” qaydasına əməl olunmadığını bildirərək Peyğəmbərin ﷺ bu hədisdə yeddi böyük günahı qeyd edib, digər hədislərdə isə başqa günahları da əlavə etməsinə bir çox cavablar vermişdir. Bu cavablardan ikisi nisbətən qəbul olunandır: Birinci cavab: Peyğəmbər ﷺ əvvəlcə səhabələrinə bu yeddi əməlin böyük günah olduğunu öyrətmiş, sonra isə digər günahları da əlavə etmişdir. Bu səbəbdən əlavə olunanları da götürmək lazımdır. İkinci cavab: Peyğəmbər ﷺ sual verənin halına və ya baş verən hadisəyə uyğun olaraq müəyyən sayda günahı qeyd etmişdir. (Əhməd Şakir).

birini əl-Hakim ﷺ Umeyr ibn Qatədədən ﷺ rəvayət etmişdir. Hədisdə deyilir ki, Peyğəmbər ﷺ vida həccində demişdir: "Bilin ki, Allahın dostları fərz edilən beş vaxt namazı qılanlar, Ramazan ayını oruc tutaraq savabını Allahdan umanlar və bunu üzərlərində bir haqq olaraq görənlər, savabını Allahdan umaraq malının zəkatını verənlər və Allahın qadağan etdiyi böyük günahlardan çəkinənlərdir". Sonra bir nəfər Peyğəmbərdən ﷺ "Ey Allahın Elçisi, böyük günahlar hansılardır?" deyə soruşdu. Peyğəmbər ﷺ dedi: "Böyük günahlar doqquzdur; Allaha şərik qoşmaq, Allahın haram buyurduğu cana nahaq yerə qəsd etmək, döyüş meydanından qaçmaq, yetimin malını yemək, sələm yemək, ismətli evli qadını zinada ittiham etmək, mömin valideynlərin üzünə ağ olmaq, sehrbazlıq və həm sağ ikən (namazlarda), həm də ölü ikən (qəbirdə) qibləniz olan Beytul-Haramı halal saymaq. Bu böyük günahları etmədən namaz qılaraq və zəkat verərək ölən şəxs qızıldan tikilmiş bir evdə Peyğəmbərlə ﷺ birlikdə olacaq".[1] əl-Hakim hədisi bu şəkildə uzun rəvayət etmişdir. Əbu Davud və ən-Nəsəi ﷺ isə bu hədisi müxtəsər olaraq rəvayət etmişlər. İbn Əbu Hatim ﷺ hədisi geniş şəkildə rəvayət etmişdir. əl-Hakim ﷺ demişdir: "Abdul-Həmid ibn Sinandan başqa hədisin sənədindəki bütün ravilər əl-Buxari və Muslimin "Səhih" əsərlərində adları keçən ravilərdir". Mən deyirəm: "Abdul-Həmid ibn Sinan Hicazlıdır. Yalnız bu hədislə tanınır. İbn Hibban onun adını özünün "əs-Siqat" (Mötəbər ravilər) əsərində qeyd etmişdir. əl-Buxari isə onun barəsində "Hədisləri şübhəlidir" demişdir".[2]

Taysələ ibn Məyyasın ﷺ belə dediyi rəvayət edilir: "Xavariclərlə birlikdə idim. Böyük günahlardan sandığım bəzi əməllər etdim. Bir dəfə İbn Ömərlə qarşılaşdım və ona "Mən bəzi günahlar etmişəm və onların böyük günahlardan olduğunu sanıram" dedim. İbn Ömər "Hansı günahları etmisən?" deyə soruşdu. Mən "(Günahları sayaraq) belə-belə etmişəm" dedim. İbn Ömər dedi: "Bunlar heç də böyük günahlardan deyil". Mən "Üstəlik belə-belə etmişəm" dedim. İbn Ömər "Böyük günahlardan deyil" dedi. (Taysələ etdiyi günahların adlarını çəkmədi). Sonra İbn Ömər dedi: "Böyük günahlar doqquzdur.

---

[1] əl-Hakim, 197, 7666. Hədis həsəndir. Bax: İrvaul-Ğalil, 690.

[2] əl-Hakim (1/95). əz-Zəhəbi ﷺ Abdul-Həmid ibn Sinanın məchul olduğunu bildirmişdir. əl-Hakim ﷺ hədisi bir daha başqa bir yerdə (4/259-260) rəvayət etmiş və səhih olduğunu bildirmişdir. Burada əz-Zəhəbi ﷺ onunla razılaşmış və etiraz etməmişdir. Həmçinin ət-Təbəri (1989) başqa bir isnadla rəvayət etmişdir. Bu isnadda zəif bir ravi və ravilər arasında əlaqə kəsikliyi vardır. (Əhməd Şakir).

İndi mən onları sənə sayacağam: Allaha şərik qoşmaq, Allahın haram buyurduğu cana nahaq yerə qəsd etmək, döyüş meydanından qaçmaq, ismətli evli qadını zinada ittiham etmək, sələm yemək, yetimin malını haqsız yemək, Məscidul-Haramda böyük günah etmək, sehr etmək (və ya etdirmək), valideynlərin üzünə ağ olmaqla onları ağlatmaq". Taysələ dedi: "İbn Ömər mənim qorxumu gördükdə "Cəhənnəmə girməkdən qorxursanmı?" deyə soruşdu. Mən "Bəli" dedim. İbn Ömər dedi: "Cənnətə girmək istəyirsənmi?" Mən "Bəli" dedim. İbn Ömər "Valideynlərin sağdırmı?" deyə soruşdu. Mən "Bəli, anam yanamdadır" dedim. İbn Ömər dedi: "Allaha and olsun ki, əgər sən onunla mülayim davransan, onu yedirtsən və əzabı vacib edən günahlardan çəkinsən, mütləq Cənnətə girərsən".[1]

İmam Əhməd رحمه الله rəvayət etmişdir ki, Əbu Əyyub رضي الله عنه demişdir: "Peyğəmbər ﷺ belə buyurdu: "Kim Allaha heç bir şeyi şərik qoşmadan ibadət edərsə, namaz qılarsa, zəkat verərsə, Ramazan orucunu tutarsa və böyük günahlardan çəkinərsə, ona Cənnət var – və ya Cənnətə girər. Bir kişi "Böyük günahlar hansılardır?" deyə soruşdu. Peyğəmbər ﷺ dedi: "Allaha şərik qoşmaq, müsəlman insanın canına qəsd etmək və döyüş günü döyüş meydanından qaçmaqdır".[2] Hədisi ən-Nəsəi رحمه الله də rəvayət etmişdir.[3]

İmam Əhməd رحمه الله rəvayət etmişdir ki, Ənəs ibn Malik رضي الله عنه demişdir: "Bir dəfə Peyğəmbər ﷺ böyük günahlar barədə danışdı və ya Peyğəmbərdən ﷺ böyük günahlar barədə soruşduqda belə dedi: "Böyük günahlar – Allaha şərik qoşmaq, bir şəxsi öldürmək və valideynlərin üzünə ağ olmaqdır". Sonra Peyğəmbər ﷺ "Sizə günahların ən böyüyü barədə xəbər verimmi?" deyə soruşdu. Səhabələr "Bəli" deyə cavab verdilər. Peyğəmbər ﷺ "Yalan söz danışmaqdır – və ya yalandan şahidlik etməkdir" dedi".[4] Hədisi əl-Buxari və Muslim رحمهما الله də rəvayət etmişlər.[5] Yenə əl-Buxari ilə Muslimin رحمهما الله Əbu Bəkradan[6] رضي الله عنه rəvayət

---

[1] ət-Tabəri (9187). İsnadı səhihdir. Həmçinin, əl-Buxari "Ədəbul-Mufrad" (8) əsərində səhih isnadla müxtəsər olaraq rəvayət etmişdir. (Əhməd Şakir). əl-Buxari "Ədəbul-Mufrad" 8. Hədis səhihdir. Bax: Səhih Ədəbul-Mufrad, 6.

[2] Əhməd, 23506, 23553, 23898. Şueyb əl-Arnavut həsən olduğunu bildirmişdir.

[3] "əl-Musnəd" (5/413-414 Hələbi nəşri); ət-Tabəri (9224). əs-Suyuti (2/146) hədisi əlavə olaraq İbn əl-Munzirə, İbn Hibbana və əl-Hakimə رحمهم الله nisbət etmişdir. əl-Hakim رحمه الله hədisin səhih olduğunu bildirmişdir. (Əhməd Şakir).

[4] Əhməd, 12336, 12358. Hədis səhihdir. Bax: Səhih əl-Cami, 4604.

[5] "əl-Musnəd" (12363); ət-Tabəri (9219, 9220, 9221). (Əhməd Şakir).

[6] Əbu Bəkra – Nəfi ibn əl-Həris əs-Səqifidir. Əlyazmada və çap olunmuş nüsxədə Əbu Bəkr yazılmışdır. Bu isə səhvdir. Həmçinin hədisi Əhməd رحمه الله üç yerdə rəvayət etmişdir (5/36-38

etdikləri hədisdə deyilir: "Peyğəmbər ﷺ "Sizə günahların ən böyüyü barədə xəbər verimmi?" deyə soruşdu. Səhabələr "Bəli, ey Allahın Elçisi!" deyə cavab verdilər. Peyğəmbər ﷺ "Allaha şərik qoşmaq və valideynlərin üzünə ağ olmaqdır" dedi. (Bunu deyəndə) o söykənmişdi. Sonra qalxıb oturdu və "Yalan söz danışmaqdır" dedi. O bunu o qədər təkrar etdi ki, biz (bir-birimizə) "Nə olaydı, susaydı!" dedik".[1]

əl-Buxari və Muslimin "Səhih" əsərlərində rəvayət edilir ki, Abdullah ibn Məsud ﷺ belə demişdir: "Bir dəfə Peyğəmbərdən ﷺ "Hansı günah Allah yanında ən böyük günah sayılır?" deyə soruşdum. Peyğəmbər ﷺ dedi: "Səni yaratmış olduğu halda Allaha başqa birisini tay tutmağındır!" Mən "Doğrudan da, bu, böyük günahdır" dedim, sonra yenə soruşdum: "Bəs sonra hansıdır?" Dedi: "Övladının səninlə birgə yemək yeyəcəyindən qorxub onu öldürmək!" Mən soruşdum: "Sonra hansıdır?" Dedi: "Qonşunun zövcəsi ilə zina etmək!" Sonra Peyğəmbər ﷺ bu ayəni oxudu: "**Onlar Allahla yanaşı başqa məbuda yalvarmaz, Allahın haram etdiyi cana haqsız yerə qıymaz və zina etməzlər. Bunu edən kimsə cəzalandırılar. Qiyamət günü onun əzabı qat-qat artırılar və onun içində zəlil olub əbədi qalar. Ancaq tövbə edib iman gətirən və saleh əməllər edənlərdən başqa. Allah onların pis əməllərini yaxşı əməllərlə əvəz edər. Allah Bağışlayandır, Rəhmlidir!**" ("əl-Furqan", 68-70)".[2]

İmam Əhməd ﷺ Abdullah ibn Amrdan ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Günahların ən böyüyü Allaha şərik qoşmaq, valideynlərin üzünə ağ olmaq və ya bir cana qəsd etmək (Şöbə şəkk etmişdir) və yalan danışdığını bildiyin halda and içməkdir".[3] Hədisi əl-Buxari, ət-Tirmizi və ən-Nəsəi ﷺ rəvayət etmişlər.[4]

əl-Buxari ﷺ Abdullah ibn Amrdan ﷺ rəvayət etmişdir ki, bir dəfə Peyğəmbər ﷺ "Günahların ən böyüyü bir nəfərin öz valideynlərini lənətləməsidir" dedi. Səhabələr soruşdular: "Ey Allahın Elçisi, insan öz valideynlərini necə lənətləyə bilər?" Peyğəmbər ﷺ buyurdu: "Bir nəfər başqa birisinin ata-anasını söyər, o da qayıdıb onun ata-anasını

---

Hələbi nəşri). (Əhməd Şakir).

[1] Onlar Peyğəmbərin ﷺ halına yandıqlarından, o həyəcanlanmasın deyə belə dedilər. 2460, 2654, 5519, 5976; Muslim, 126, 269.

[2] ət-Təbəri (9227, 9228); Əhməd (3612, 4223). (Əhməd Şakir). əl-Buxari, 5542, 6001; Əbu Davud, 2312; ən-Nəsəi "Sunən" 3950, 4015.

[3] Əhməd, 6884. Hədis səhihdir. Bax: Səhih əl-Cami, 4601.

[4] "əl-Musnəd" (6884); ət-Təbəri (9222, 9223). (Əhməd Şakir).

söyər".[1] Oxşar hədisi Muslim ﷬ də rəvayət etmişdir.[2] ət-Tirmizi ﷬ hədisin səhih olduğunu bildirmişdir.[3] "Səhih" əsərində rəvayət olunan bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Müsəlmanı söymək günahdır. Onu öldürmək isə küfrdür".[4] Əbu Davud ﷬ Əbu Hureyradan ﷛ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Həqiqətən, müsəlman kişinin namusuna haqsız yerə dil uzatmaq günahların ən böyüyüdür, bir söyüşə iki söyüşlə qarşılıq vermək isə böyük günahdır". Hədisi İbn Əbu Hatim və İbn Mərdəveyh ﷬ rəvayət etmişlər.[5]

İbn Əbu Hatim ﷬ rəvayət etmişdir ki, Əbu Qatədə əl-Ədəvi demişdir: "Bir dəfə bizə Ömərin ﷛ məktubu oxundu. Məktubda deyilirdi: "Üzrsüz səbəbdən iki namazı birləşdirmək, döyüş meydanından qaçmaq və soyğunçuluq etmək böyük günahlardandır".[6] Bu hədisin isnadı səhihdir.

Burada nəzərdə tutulan budur ki, əgər hədisdə qeyd olunan təhdid Zöhrlə Əsr, həmçinin Məğriblə İşa kimi iki namazı gecikdirmək və ya tezləşdirməklə[7] səbəbsiz yerə birləşdirənə aiddirsə və belə edən böyük günah sahibidirsə, o zaman namazı təmamilə tərk edənin halı necədir?! Halbuki, bu iki namazı yalnız şəriətlə icazə verilən hallarda (səfər, yağış, təhlükə və ya xəstəlik kimi üzrlü hallarda) birləşdirmək olar.

Bu səbəbdən Muslim "Səhih" əsərində Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Qul ilə şirk arasında namazı tərk etmək durur".[8] "Sunən" əsərlərində rəvayət edilir ki, Peyğəmbər ﷺ demişdir: "Bizimlə onlar (münafiqlər) arasında olan əhd namazdır. Kim namazı

---

[1] əl-Buxari, 5516, 5973.

[2] Muslim, 130, 273.

[3] "əl-Musnəd" (6529, 6840, 7029). (Əhməd Şakir).

[4] Hədisi Əbu Davuddan ﷬ başqa yerdə qalan digər beş hədis kitablarının müəllifləri İbn Məsuddan ﷛ rəvayət etmişlər. Hədis "əl-Bəqərə" surəsinin 197-ci ayəsinin təfsirində keçmişdir. (Əhməd Şakir).

[5] Əbu Davud (4877). İsnadı səhihdir. (Əhməd Şakir). Əbu Davud, 4877. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 3950.

[6] İbn Əbu Hatim, 5208.

[7] "Tezləşdirməklə birləşdirmək" dedikdə sonrakı namazı tezləşdirib əvvəlki ilə eyni vaxtda qılmaq, "gecikdirməklə birləşdirmək" dedikdə isə bir namazı gecikdirib sonrakı namazla eyni vaxtda qılmaq nəzərdə tutulur. Üzrlü səbəb olduqda isə bu birləşdirmənin hər ikisi icazəlidir.

[8] Muslim (1/36) Cabirdən ﷬ rəvayət etmişdir. Muslimin ﷬ rəvayəti belədir: "İnsan ilə şirk və küfr arasında namazı tərk etmək durur". (Əhməd Şakir). Muslim, 116-117, 256-257.

tərk edərsə, artıq küfr[1] etmişdir".[2]

İmam Əhməd ﷺ Sələmə ibn Qeys əl-Əşcaidən ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ vida həccində[3] demişdir: "Diqqət edin, onlar (böyük günahlar) dörddür; Allaha heç bir şeyi şərik qoşmayın, Allahın haram buyurduğu cana nahaq yerə qəsd etməyin, zina etməyin və oğurluq etməyin!" Sələmə ﷺ demişdir: "Peyğəmbərdən ﷺ özüm eşitdiyim üçün bu sayılanlardan ən çox çəkinən mən idim".[4] Hədisi ən-Nəsəi və İbn Mərdəveyh ﷺ də rəvayət etmişlər.[5]

İbn Cərir ﷺ rəvayət etmişdir ki, əl-Həsən (əl-Bəsri) ﷺ demişdir: "Bir toplum insan Misirdə Abdullah ibn Amrın ﷺ yanına gəlib dedilər: "Biz Allahın Kitabında bəzi əmrlərin buyurulduğunu, lakin insanlar tərəfindən əməl olunmadığını və tərk edildiyini görürük. Biz bu məsələ ilə bağlı möminlərin əmiri ilə görüşmək (və ondan bu barədə soruşmaq) istəyirik". Abdullah ibn Amr onlarla birlikdə Ömərin ﷺ yanına (Mədinəyə) gəldi. Ömər ondan soruşdu: "Nə vaxt gəldin?" Abdullah ibn Amr "Filan vaxtdan bəridir gəlmişəm". Ömər: "İcazə iləmi gəldin?" deyə soruşdu". Ravi deyir: "Abdullah ibn Amrın bu suala necə cavab verdiyini bilmirəm". Sonra Abdullah dedi: "Ey möminlərin əmiri, bir toplum insan Misirdə mənim yanıma gələrək "Biz Allahın Kitabında bəzi əmrlərin buyurulduğunu, lakin insanlar tərəfindən əməl olunmadığını və tərk edildiyini görürük"

---

[1] Namazın vacibliyini inkar edərək onu tərk edən şəxs müsəlman alimlərinin yekdil fikrinə əsasən kafir sayılır. Yalnız İslam dinindən yenicə xəbər tutmuş və müsəlmanlara qaynayıb-qarışmayan, beləliklə də, namazın vacib buyurulduğundan xəbərsiz olan kimsələr istisnadır.Namaz qılmağın vacib olduğunu bildiyi halda səhlənkarlığı üzündən namazı tərk edən kimsəyə gəlincə, alimlər onun kafir olub-olmaması barəsində ixtilaf etmişlər. Cumhur (əksər) alimlər – İmam Əbu Hənifə, Malik, əş-Şafii və Əhmədin ﷺ iki rəyindən biri, habelə qədim və müasir alimlərdən bir çoxları, tənbəlliyi üzündən namazı tərk edən kimsəni kafir saymamışlar və onun böyük günah sahibi olduğunu demişlər. Səhlənkarlıq üzündən namazı tərk edəni kafir saymayan alimlər hədisdə keçən "küfr" sözünü İslamdan çıxarmayan kiçik küfr kimi açıqlamışlar. Peyğəmbərimiz ﷺ bir çox günahları küfr adlandırmış, lakin bununla İslamdan çıxaran küfrü nəzərdə tutmamışdır. Həmçinin burada da "küfr" dedikdə İslamdan çıxarmayan kiçik küfr nəzərdə tutulur. Necə ki əvvəl keçən hədisdə "Müsəlmanı söymək günah, onu öldürmək isə küfrdür" deyilir. Alimlərin yekdil rəyinə görə, müsəlmanı öldürən insan kafir olmur.

[2] ət-Tirmizi (3/360) Bureydədən ﷺ rəvayət etmiş və "həsən-səhih-ğarib" olduğunu bildirmişdir. (Əhməd Şakir). ət-Tirmizi, 2621, 2830; ən-Nəsəi "Sunən" 459, 463; İbn Məcə, 1079. Hədis səhihdir. Bax: Mişkətul-Məsabih, 574.

[3] Peyğəmbər ﷺ hicrət etdikdən sonra yalnız bir dəfə həcc etmiş və bu həcc hicrətin onuncu ilində olmuşdur. Bu həccin "vida həcci" adlanmasına səbəb Peyğəmbərin ﷺ bu həcdə səhabələri ilə vidalaşaraq onlara "Ola bilsin ki, bu ildən sonra sizinlə qarşılaşmayım" (ət-Tirmizi, 886) deməsi olmuşdur.

[4] Əhməd, 18990, 19012, 19199. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 1759.

[5] "əl-Musnəd" (4/339-340 Hələbi nəşri). (Əhməd Şakir).

dedilər. Onlar bu məsələ ilə əlaqəli səninlə görüşmək istədilər. Ömər dedi: "Onları mənim üçün topla!" Abdullah ibn Amr dedi: "Mən onları geniş bir yerdə topladım". Ömər onların nüfuz baxımından ən aşağı olanına müraciət edərək "Səni Allaha və üzərində olan İslam haqqına and verirəm, düzünü söylə. Quranın hamısını oxumusanmı?" deyə soruşdu. Kişi "Bəli" deyə cavab verdi. Ömər soruşdu: "Quranda buyurulanlara tam əməl edə bilirsənmi?" Kişi "Xeyr" deyə cavab verdi. Əgər kişi "Bəli" desəydi, Ömər onunla mübahisə edərdi və ona qalib gələrdi. Ömər sözünə davam edərək dedi: "Sən Quranda buyurulanları həm gözünlə, həm dilinlə, həm də əməllərinlə tam yerinə yetirə bilirsənmi?" Ömər bu sualı sonuncu adama çatana qədər növbə ilə onların hamısından soruşdu. Sonra dedi: "Ömərin anası vayına otursun![1] Siz ona bütün insanları Allahın Kitabında buyurulanların hamısına tabe etmək vəzifəsini yükləmək istəyirsinizmi?! Rəbbimiz bilir ki, bizim günahlarımız da olacaq. Bu səbəbdən belə buyurur. Sonra Ömər Uca Allahın "**Sizə qadağan olunmuş böyük günahlardan çəkinsəniz, Biz sizin kiçik günahlarınızdan keçər və sizi şərəfli bir yerə daxil edərik**" ayəsini oxudu və "Mədinə əhalisinin sizin gəlişinizdən xəbəri varmı?" və ya "Mədinə əhalisindən kiminsə sizin gəlişinizdən xəbəri varmı?" deyə soruşdu. Onlar "Xeyr" deyə cavab verdilər. Ömər ﷺ dedi: "Əgər Mədinə əhalisi sizin gəlişinizdən xəbərdar olsaydı, sizə elə bir cəza verərdim ki, başqaları bundan ibrət alsın".[2] Bu hədisin isnadı səhih, mətni isə yaxşıdır. əl-Həsən ﷺ hədisi Ömərdən ﷺ bilavasitə rəvayət etməsə də, belə bir rəvayətin Ömərdən ﷺ məşhur olması hədisin qəbul olunmasına kifayətdir.[3] İbn Əbu Hatim ﷺ rəvayət etmişdir ki, Tavus ﷺ belə demişdir: "Bir dəfə İbn Abbasdan ﷺ soruşdum: "Yeddi böyük günah hansılardır?" İbn Abbas dedi: "Böyük günahlar yeddidən çox yetmişə daha yaxındır".[4] Eyni hədisi İbn Cərir ﷺ də rəvayət etmişdir.[5] İbn Əbu Hatim ﷺ İbn Abbasın ﷺ belə dediyini rəvayət etmişdir: "Allahın Cəhənnəmlə təhdid etdiyi hər bir asilik böyük günahdır".[6]

[1] Bu deyim ərəblərdə qəzəb və ya təəccüb anında deyilən, lakin bəddua nəzərdə tutulmayan ifadələrdəndir. Bu sözü bəzən Peyğəmbərimiz ﷺ də işlətmişdir.

[2] Çünki onlar Ömərdən ﷺ özlərinin də gücü çatmayan bir şeyə insanları məcbur etməyi istəmişdilər. Halbuki Peyğəmbərimiz ﷺ dini çətinləşdirmək deyil, asanlaşdırmağı buyurmuş və demişdir: "Asanlaşdırın, çətinləşdirməyin! Müjdələyin, nifrət oyatmayın!" (əl-Buxari, 4341-4342).

[3] ət-Təbəri (9230). (Əhməd Şakir). ət-Təbəri, 9230, 9284.

[4] ət-Təbəri, 9204, 9258.

[5] ət-Təbəri (9208). ət-Təbərinin və İbn Əbu Hatimin ﷺ isnadı səhihdir. (Əhməd Şakir).

[6] İbn Əbu Hatim, 5215.

Səid ibn Cubeyr və əl-Həsən əl-Bəsri ﷺ də belə demişlər.

Həmçinin İbn Cərir ﷺ rəvayət etmişdir ki, Əbul-Vəlid ﷺ demişdir: "Bir dəfə mən İbn Abbasdan böyük günahlar barədə soruşduqda, İbn Abbas dedi: "Allaha asi olunan hər bir şey böyük günahdır".[1]

Alimlər böyük günahın tərifində ixtilaf etmişlər. Alimlərin bir qismi "Şəriətin cəza tətbiq etdiyi günahlardır" demişlər. Digər bir qismi isə "Kitab və Sünnədə (Quran və hədislərdə) xüsusi olaraq barələrində təhdid gəlmiş günahlardır" demişlər. Başqa təriflər də deyilmişdir.

Əbul-Qasim Abdul-Kərim ibn Muhəmməd ər-Rafii ﷺ özünün "Şərhul-Kəbir" adlı əsərində "Şahidlik etmə" fəslində demişdir: "Səhabələr və onlardan sonra gələn alimlər böyük günah və böyük günahlarla kiçik günahlar arasındakı fərq mövzusunda ixtilaf etmişlər. Səhabələr böyük günahın izahında müxtəlif təriflər söyləmişlər.

**Birinci tərif**: Böyük günah şəriət tərəfindən təyin edilmiş cəzanı vacib edən günahlardır.

**İkinci tərif**: Böyük günah Kitab və Sünnədə (Quran və hədislərdə) sahibi barəsində şiddətli təhdid varid olan günahlardır. Çox vaxt böyük günah sahibləri barədə şiddətli təhdid gəlir. Bu tərif birinciyə yaxındır, lakin ikinci tərif böyük günahın açıqlanması üçün daha uyğundur.

**Üçüncü tərif**: İmamul-Harameyn[2] ﷺ özünün "əl-İrşad" adlı əsərində və başqaları belə demişlər: "Böyük günah onu edənin dinə etinasının az olduğunu və dindarlığının zəif olduğunu göstərən hər bir günahdır. Bu günah sahibinin ədalət sifətini ortadan qaldırar[3]".

**Dördüncü tərif**: Qazi Əbu Səid əl-Həravi ﷺ demişdir: "Böyük günah Quranda haram olması bildirilən hər bir əməl, ölüm və ya başqa bir cəzanı vacib edən hər bir günah, dərhal yerinə yetirilməsi əmr edilən hər hansı bir fərz əməli tərk etmək, şahidlikdə, hədis rəvayət etməkdə və andda yalan danışmaqdır". Bu tərifdə qeyd olunanlar böyük günahı daha da dəqiqləşdirmək məqsədi daşıyır.

Sonra Qazi Əbu Səid ﷺ böyük günahlar barədə təfsilatlı məlumat verərək demişdir: "Böyük günahlar yeddidir: nahaq yerə cana qəsd etmək, zina etmək, livat (homoseksuallıq), sərxoşedici içki içmək, oğurluq etmək, başqasının malını zorla ələ keçirmək, ismətli insana

[1] ət-Təbəri, 9210, 9264.

[2] Əbul-Məali Abdul-Məlik ibn Abdullah əl-Cuveyni (419-478 hicri). Üsul, fiqh və əqidə sahəsində bir çox kitabların sahibidir.

[3] Yəni bu günahı edən insan fasiq sayılar və dində şahidliyi qəbul olunmaz, çünki şahidliyin qəbul olunması üçün ədalətli olmaq şərtdir. Uca Allah buyurur: **"Aranızdan iki ədalətli şahid çağırın və Allah üçün şahidlik edin"** ("ət-Talaq", 2).

böhtan ataraq onu zinada ittiham etmək". Qazi Əbu Səid ﷺ həmçinin "əş-Şəmil" adlı əsərində qeyd olunanlara yalandan şahidlik etməyi də əlavə etmişdir. "əl-Uddə" əsərinin müəllifi isə qeyd olunanlara bunları da əlavə etmişdir: "Sələm yemək, üzrsüz səbəbdən Ramazanda orucu açmaq, yalandan and içmək, qohumluq əlaqələrini kəsmək, valideynlərin üzünə ağ olmaq, döyüş meydanından qaçmaq, yetimin malını yemək, ölçüdə və çəkidə aldatmaq, üzrsüz olaraq namazı vaxtından əvvəl və ya vaxtından sonra qılmaq, haqsız yerə bir müsəlmanı vurmaq, qəsdən Peyğəmbərin ﷺ adından yalan danışmaq, Peyğəmbərin ﷺ səhabələrini söymək, üzrsüz olaraq şahidlikdən boyun qaçırmaq (və ya şahidliyi gizlətmək), rüşvət almaq, haram əlaqə qurmaq üçün kişilərlə qadınlar arasında vasitəçi olmaq, sultanın yanında (yaltaqlıq məqsədilə) xəbərçilik etmək, zəkat verməkdən imtina etmək, gücü çatdığı halda yaxşı işlər görməyi buyurub pis işlərdən çəkindirməyi tərk etmək, Quranı öyrəndikdən sonra onu unutmaq, bir canlını yandırmaq, səbəbsiz olaraq bir qadının əri ilə yaxınlıq etməkdən imtina etməsi, Allahın rəhmətindən ümidini kəsmək və Allahın əzabından ehtiyat etməmək". Alimlərə və Quran hafizlərinə dil uzatmağın da böyük günahlardan olduğu deyilmişdir. Zihar etmək,[1] zərurət halı istisna olmaqla donuz əti və leş yemək də böyük günahlardandır. ər-Rafii ﷺ demişdir: "Bu qeyd olunanların bəzilərinin böyük günah olmaması da mümkündür".

Mən deyirəm: "Bir çox alimlər böyük günahlar barədə müstəqil kitablar yazmışlar. Bu alimlərdən biri də şeyximiz əl-Hafiz Əbu Abdullah əz-Zəhəbidir. O, yazdığı kitabda yetmişə qədər böyük günahı qeyd etmişdir. Əgər İbn Abbas və başqalarının dediyi kimi, Allahın Cəhənnəm əzabı ilə təhdid etdiyi günahların böyük günah olduğu deyilsə, o zaman çox sayda günahları böyük günahlara aid etmək olar. Əgər Allahın qadağan etdiyi hər şeyin böyük günah olduğu deyilsə, bunlar olduqca çoxdur. Ən doğrusunu isə Allah bilir".

---

[1] Zihar etmək bir kişinin zövcəsinə "Sən bu gündən mənə anam kimisən" deməklə onunla yaxınlıq etməyi özünə haram etməsidir. Cahiliyyə dövründə ərəblər zövcələrinə qəzəbləndikdə belə deməklə onlara əziyyət verərdilər. Zihar edilmiş qadın ərə gedə bilməzdi, əri də onunla yaxınlıq etməzdi. Uca Allah "əl-Mucadilə" surəsini nazil etməklə bu əməli qadağan etdi və belə edən kişilərin üzərinə kəffarə vacib etdi. Uca Allah buyurur: "**Qadınlarını anaya bənzədib onları özlərinə haram edən, sonra sözlərini geri götürənlər onlarla yaxınlıq etməzdən əvvəl bir kölə azad etməlidirlər. Bu sizə verilən öyüd-nəsihətdir. Allah nə etdiklərinizdən xəbərdardır. Buna imkan tapa bilməyən kəs qadını ilə yaxınlıq etməzdən əvvəl iki ay ardıcıl oruc tutmalıdır. Buna gücü çatmayan kimsə altmış yoxsulu yedirtməlidir. Bu sizin Allaha və Onun Elçisinə iman gətirməniz üçündür. Bunlar Allahın qoyduğu hüdudlardır. Kafirləri isə ağrılı-acılı bir əzab gözləyir**" ("əl-Mucadilə", 4-5).

﴿ وَلَا تَتَمَنَّوْا۟ مَا فَضَّلَ ٱللَّهُ بِهِۦ بَعْضَكُمْ عَلَىٰ بَعْضٍ ۚ لِّلرِّجَالِ نَصِيبٌ مِّمَّا ٱكْتَسَبُوا۟ ۖ وَلِلنِّسَآءِ
نَصِيبٌ مِّمَّا ٱكْتَسَبْنَ ۚ وَسْـَٔلُوا۟ ٱللَّهَ مِن فَضْلِهِۦٓ ۗ إِنَّ ٱللَّهَ كَانَ بِكُلِّ شَىْءٍ عَلِيمًا ﴿٣٢﴾ ﴾
﴿ وَلِكُلٍّ جَعَلْنَا مَوَٰلِىَ مِمَّا تَرَكَ ٱلْوَٰلِدَانِ وَٱلْأَقْرَبُونَ ۚ وَٱلَّذِينَ عَقَدَتْ أَيْمَٰنُكُمْ
فَـَٔاتُوهُمْ نَصِيبَهُمْ ۚ إِنَّ ٱللَّهَ كَانَ عَلَىٰ كُلِّ شَىْءٍ شَهِيدًا ﴿٣٣﴾ ﴾

**32. Allahın sizi bir-birinizdən üstün etdiyi şeylərə tamah salmayın. Kişilərin qazandıqlarından öz nəsibi, qadınların da qazandıqlarından öz nəsibi vardır. Allahdan, Onun lütfünü diləyin. Həqiqətən, Allah hər şeyi bilir.**

İmam Əhməd رحمه الله rəvayət etmişdir ki, bir dəfə Ummu Sələmə رضي الله عنها Peyğəmbərdən ﷺ soruşdu: “Ey Allahın Elçisi, nə üçün kişilər Allah yolunda döyüşə gedir, biz qadınlar isə getmirik və bizə onlara düşən mirasın yarısı çatır?” Uca Allah da “**Allahın sizi bir-birinizdən üstün etdiyi şeylərə tamah salmayın**” ayəsini nazil etdi”.[1] Hədisi ət-Tirmizi رحمه الله də rəvayət etmiş və “ğarib” olduğunu bildirmişdir. Həmçinin İbn Əbu Hatim, İbn Cərir, İbn Mərdəveyh və əl-Hakim رحمه الله rəvayət etmişlər.[2]

İbn Əbu Hatim رحمه الله rəvayət etmişdir ki, İbn Abbas رضي الله عنهما demişdir: “Bir qadın Peyğəmbərin ﷺ yanına gələrək soruşdu: “Ey Allahın Elçisi, kişilərə iki qadının payı qədər miras düşür, (borc məsələsində) iki qadının şahidliyi bir kişinin şahidliyinə bərabərdir. Bizim etdiyimiz əməllər də belədirmi? Saleh əməl edən qadına savabın yarısımı yazılır?” Bu səbəbdən Uca Allah “**Allahın sizi bir-birinizdən üstün etdiyi şeylərə tamah salmayın**” ayəsini nazil etdi. Yəni belə etməyim (bəzi şəriət əhkamlarında qadınla kişi arasında fərq qoymağım) Mənim tərəfimdən verilmiş ədalətli bir qərardır və bunu Mən belə etdim”.[3] İbn Abbas رضي الله عنهما bu ayənin təfsirində demişdir: “Heç kəs təmənna edib “Kaş filankəsin mal-dövləti və ya əhli-əyalı mənim olaydı!” deməsin, çünki Allah bunu qadağan etmişdir. Qoy o kimsə

---

[1] Əhməd, 26272, 26736, 26779.

[2] “əl-Musnəd” (6/322 Hələbi nəşri); ət-Tirmizi (4/88); əl-Hakim (2/305-306); ət-Təbəri (9236, 9237, 9241). Hədis səhihdir, isnadı bitişikdir. (Əhməd Şakir). Bax: ət-Tirmizi, 3295; əl-Hakim, 3195. Hədisin isnadı səhihdir. Bax: Səhih Sunən ət-Tirmizi, 3022.

[3] İbn Əbu Hatimin رحمه الله rəvayət etdiyi isnad səhihdir. Hədisi başqa mənbələrdə tapmadım. (Əhməd Şakir). İbn Əbu Hatim, 5223. Ali Nasr və əl-Hilali isnadının həsən olduğunu bildirmişlər.

Allahdan Onun lütfünü diləsin!"[1] əl-Həsən, Muhəmməd ibn Sirin, əd-Dahhək və Əta ﷺ da ayəni buna bənzər şəkildə təfsir etmişlər. Ayənin zahirindən də bu məna aydın olur. Bu təfsir "Səhih" əsərində varid olan bu hədislə ziddiyyət təşkil etmir: "Yalnız iki şəxs qibtə olunmağa layiqdir: O şəxs ki, Allah ona var-dövlət bəxş etmiş, o da onu Allah yolunda lazımi yerlərə xərcləyir. Onu görən adam deyər: "Kaş ona verilənin bənzəri mənə də veriləydi, onun etdiyi əməli mən də edərdim[2]".[3] Bunların hər ikisi eyni savabı qazanır.[4] Çünki bu ayədə qadağan edilən şeyə aid deyil. Hədis bir kəsdə olan nemətin bənzərini təmənna etməyə rəğbətləndirir. Ayədə isə Uca Allah bir kəsdə olan nemətin özünün olmasını təmənna etməyi qadağan edir və buyurur: "**Allahın sizi bir-birinizdən üstün etdiyi şeylərə tamah salmayın**", yəni dünya işlərində Allahın sizi bir-birinizdən üstün etdiyi şeylərə tamah salmayın. Lakin Ummu Sələmə və İbn Abbasın ﷺ hədisləri dəlalət edir ki, dini işlərdə də bu belədir.

Sonra Uca Allah buyurur: "**Kişilərin qazandıqlarından öz nəsibi, qadınların da qazandıqlarından öz nəsibi vardır**", yəni hər birinin öz əməlinə görə qarşılığı və mükafatı vardır. Xeyir əməl edənə xeyirlə, pis əməl edənə isə pisliklə qarşılıq veriləcəkdir. Bu təfsir İbn Cərirə ﷺ aiddir. Bəzi təfsirçilər burada mirasın nəzərdə tutulduğunu demişlər. Yəni hər kəs ölüyə yaxınlığına görə miras alacaqdır. Bu təfsiri ət-Tirmizi ﷺ İbn Abbasdan ﷺ rəvayət etmişdir.

Sonra Uca Allah qullarını onlara fayda verəcək əmələ yönəldərək "**Allahdan, Onun lütfünü diləyin**" buyurur. Yəni Allahın sizi bir-birinizdən üstün etdiyi şeylərə tamah salmayın. Çünki bu, Rəbbinin əzəldən müəyyən etdiyi qəti bir qərardır. Bu kimi şeylərə tamah salmaq heç bir fayda verməz. Siz Mənim lütfümü diləyin ki, Mən də sizə verim. Çünki, həqiqətən, Mən Səxavətliyəm və bol-bol, əvəzsiz Bəxşedənəm.

ət-Tirmizi və İbn Mərdəveyh ﷺ Abdullah ibn Məsuddan ﷺ rəvayət etmişlər ki, Peyğəmbər ﷺ demişdir: "Allahdan Onun lütfünü diləyin!

---

[1] İbn Abbasdan ﷺ rəvayət olunan bu əsəri ət-Təbəri (9238), İbn əl-Munzir və İbn Əbu Hatim ﷺ rəvayət etmişlər. Bax: "əd-Durrul-Mənsur" (2/149). (Əhməd Şakir). İbn Əbu Hatim, 5226.

[2] Hədisdə qeyd olunan qibtə olunmağa ən çox layiq olan ikinci şəxs isə "Allah ona Quranı öyrətmiş, o da onu gecə-gündüz oxuyur. Qonşusu bunu eşidib deyər: "Kaş ona verilənin bənzəri mənə də veriləydi, onun etdiyi əməli mən də edərdim".

[3] Əhməd (10218, 10219); əl-Buxari (9/65-66, 13/419). Hər ikisi Əbu Hureyradan ﷺ rəvayət etmişlər. (Əhməd Şakir). əl-Buxari, 4638, 5026.

[4] Biri etdiyinə görə savab qazanır, digəri isə niyyətinə görə eyni savabı qazanır, çünki əməllər niyyətlərə görədir.

Çünki Allah qulunun Ondan diləməsini sevər. Ən əfzəl ibadət çətin anda çıxış yolunun gəlişini gözləməkdir”.[1] İbn Mərdəveyh ﷺ oxşar hədisi İbn Abbasdan ﷺ rəvayət etmişdir.

Sonra Uca Allah buyurur: “**Həqiqətən, Allah hər şeyi bilir**”. Allah kimin dünya malına layiq olduğunu yaxşı bilir və ona dünyadan bir pay verir. Kimin isə kasıblığa layiq olduğunu yaxşı bilir və onu kasıb edir. Kimin də Axirəti qazanmağa layiq olduğunu yaxşı bilir və onu Axirəti qazanacaq əməllərə müvəffəq edir. Kimin də uğursuzluğa layiq olduğunu yaxşı bilir, onu xeyir işlərdən və səbəblərindən məhrum edir. Bu səbəbdən Uca Allah ayənin sonunda “**Həqiqətən, Allah hər şeyi bilir**” buyurur.

﴿ وَلَا تَتَمَنَّوْا۟ مَا فَضَّلَ ٱللَّهُ بِهِۦ بَعْضَكُمْ عَلَىٰ بَعْضٍ ۚ لِّلرِّجَالِ نَصِيبٌ مِّمَّا ٱكْتَسَبُوا۟ ۖ وَلِلنِّسَآءِ نَصِيبٌ مِّمَّا ٱكْتَسَبْنَ ۚ وَسْـَٔلُوا۟ ٱللَّهَ مِن فَضْلِهِۦٓ ۗ إِنَّ ٱللَّهَ كَانَ بِكُلِّ شَىْءٍ عَلِيمًا ﴿٣٢﴾ ﴾

﴿ وَلِكُلٍّ جَعَلْنَا مَوَٰلِىَ مِمَّا تَرَكَ ٱلْوَٰلِدَانِ وَٱلْأَقْرَبُونَ ۚ وَٱلَّذِينَ عَقَدَتْ أَيْمَٰنُكُمْ فَـَٔاتُوهُمْ نَصِيبَهُمْ ۚ إِنَّ ٱللَّهَ كَانَ عَلَىٰ كُلِّ شَىْءٍ شَهِيدًا ﴿٣٣﴾ ﴾

**33. Hər kəs üçün valideynlərin və yaxın qohumların qoyub getdikləri maldan öz paylarını alacaq varislər təyin etdik. Əhd bağladığınız kəslərə də öz paylarını verin. Həqiqətən, Allah hər şeyə şahiddir.**

İbn Abbas, Mucahid, Səid ibn Cubeyr və başqaları ﷺ ayədəki مَوَالِيَ [məvə:liyə] sözünün “varislər” mənasında olduğunu demişlər. İbn Abbasdan ﷺ gələn başqa bir rəvayətə görə isə onlar ölənin oğulları və ata tərəfdən qohumlarıdır. İbn Cərir ﷺ demişdir: “Ərəblər əmioğluna مَوْلَى [movlə] deyirlər”. Uca Allahın “**Hər kəs üçün valideynlərin və yaxın qohumların qoyub getdikləri maldan öz paylarını alacaq varislər təyin etdik**” ayəsinin mənası budur ki, ey insanlar, sizin hər biriniz üçün ata-ana və yaxın qohumların qoyub getdikləri mala varis olsunlar deyə oğullar və ata tərəfdən qohumlar təyin etdik.

Uca Allah buyurur: “**Əhd bağladığınız kəslərə də öz paylarını verin**”[2], yəni bir-birinizə and içməklə möhkəm əhd-peyman bağladığınız kəslərə mirasdan çatan paylarını verin. Allah sizin bağladığınız bu

[1] ət-Tirmizi, 3571, 3919. Hədis zəifdir. Bax: Daif əl-Cami, 3278.

[2] Bu ayədə عَقَدَتْ [əqadət] “**bağladığınız**” sözü həmçinin عَاقَدَتْ [ə:qadət] kimi də oxunmuşdur. Birinci qiraət Asim, Həmzə və əl-Kisəinin ﷺ oxunuşudur. İkinci qiraət isə yerdə qalan yeddi qiraətçinin oxunuşudur. ət-Tabəri (8/272) demişdir: “Hər iki qiraət müsəlmanlar arasında tanınmış və yayılmış qiraətlərdir. Hər iki qiraətin mənası eynidir”. (Əhməd Şakir).

əhd-peymana şahiddir. Bu əhd-peyman İslamın əvvəlində mövcud idi. Daha sonra bu hökm ləğv edildi və müsəlmanlara daha əvvəl bağladıqları əhdə sadiq çıxmaları, bu ayənin nazil olmasından sonra isə bir daha belə bir əhd bağlamamaları əmr olundu.

əl-Buxari ﷺ rəvayət etmişdir ki, İbn Abbas ayədəki مَوَالِيَ [məvə:liyə] sözünü "varislər" kimi təfsir etmiş, "**Əhd bağladığınız kəslərə**" sözü barədə isə demişdir: "Mühacirlər Mədinəyə gəldikdə ənsarlının mirasına, onun öz qohumlarından əvvəl bir mühacir varis olurdu. Bu varislik Peyğəmbərin ﷺ onlar arasında təsis etdiyi qardaşlıqdan qaynaqlanırdı.[1] Uca Allahın "**Hər kəs üçün valideynlərin və yaxın qohumların qoyub getdikləri maldan öz paylarını alacaq varislər təyin etdik**" ayəsi nazil oldu və bu hökm ləğv edildi. Sonra Uca Allah "**Əhd bağladığınız kəslərə də öz paylarını verin**" buyurmaqla onlara yardım və nəsihət etməyi əmr etdi. Beləcə, mühacirlərlə ənsarlar arasında olan varislik qaldırıldı, vəsiyyət isə qaldı".[2] İbn Əbu Hatim ﷺ də oxşar hədisi İbn Abbasdan ﷺ rəvayət etmişdir.

Yenə İbn Əbu Hatim ﷺ rəvayət etmişdir ki, İbn Abbas ﷺ Uca Allahın "**Əhd bağladığınız kəslərə də öz paylarını verin**" ayəsi barədə belə demişdir: "İslamdan əvvəl bir adam, başqa biri ilə müqavilə bağlayaraq "Mən sənin varisin olum, sən də mənim varisim ol!" deyərdi. Hətta qəbilələr də bu şəkildə razılaşardılar. Peyğəmbər ﷺ dedi: "Cahiliyyə dövründə bağlanmış müqavilələr və razılaşmalar İslam dininə gəlib çatarsa, İslam dini bu müqavilələri və razılaşmaları daha da qüvvətləndirər.[3] İslam gəldikdən sonra isə cahiliyyə dövrünün müqavilə və razılaşmalarını bağlamayın!" Varislik barədə bağlanan müqavilələri Uca Allahın "**Qohumlar Allahın Kitabına görə bir-birinə varis olmağa daha yaxındırlar**" ("əl-Ənfal", 75) ayəsi nəsx etdi".[4] Səid ibn əl-Museyyib, Mucahid, Əta, əl-Həsən əl-Bəsri, Səid ibn

---

[1] Peyğəmbər ﷺ mühacirlərlə birlikdə Mədinəyə gəldikdə öz məscidini tikdikdən sonra gördüyü ikinci iş mühacirlərlə ənsarları bir-birilərinə qardaş etmək olmuşdur. Bir mühacirlə bir ənsarı qardaş etdi, çünki mühacirlər hər şeylərini Məkkədə tərk edib gəlmişdilər və heç bir şeyləri yox idi. Bu qardaşlıq Ənəs ibn Malikin ﷺ evində baş tutdu. Başqa bir rəvayətə görə isə Peyğəmbər ﷺ məscidində baş tutmuşdur. Peyğəmbərin ﷺ qardaş etdiyi mühacir və ənsarların sayı ümumilikdə yüz nəfərə yaxın idi. Bu qardaşlığa görə onlardan biri öldükdə digəri onun qohumlarından əvvəl ölənin varisi olurdu.

[2] əl-Buxari (8/186-187 Fəthul-Bari); ət-Təbəri (9275, 9277). (Əhməd Şakir). əl-Buxari, 2292, 4580, 6747.

[3] Çünki İslam dini əhdə sadiq çıxmağı əmr edir. Uca Allah buyurur: "**Ey iman gətirənlər! Əhdlərinizi yerinə yetirin!**" ("əl-Maidə", 1).

[4] İbn Əbu Hatimin ﷺ isnadı səhihdir. əs-Suyuti (2/150) hədisi İbn əl-Munzirə ﷺ də nisbət etmişdir. (Əhməd Şakir). İbn Əbu Hatim, 5237. ət-Təbərani "Musnəduş-Şamiyyin" 2411.

Cubeyr, Qatədə və başqalarından ﷺ rəvayət olunur ki, ayədə "**Əhd bağladığınız kəslərə**" deyildikdə qarşılıqlı müqavilə bağlayan kəslər nəzərdə tutulur. İmam Əhməd və İbn Cərir ﷺ İbn Abbasdan ﷺ rəvayət etmişlər ki, Peyğəmbər ﷺ demişdir: "İslamda bir-birlərinin varisi olmaq üçün əhd-peyman bağlamaq yoxdur. Cahiliyyə dövründə bağlanmış əhd-peymanı isə İslam dini daha da qüvvətləndirər. Bir məclisdə bağladığım əhd-peymana sadiq çıxmağım məni qırmızı dəvələrə sahib olmaqdan daha çox sevindirər". Hədisin mətni İbn Cərirə ﷺ aiddir.[1]

Yenə İbn Cərir ﷺ Abdur-Rahmən ibn Aufdan ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Kiçik ikən əmilərimlə birlikdə "Mutayyəbin"[2] əhd-peymanında iştirak etmişəm. Bilsəm ki bu əhdi pozmaqla qırmızı dəvələrə sahib olaram, yenə də pozmaram". əz-Zuhri ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "İslam qarşısına çıxan əhdi daha da qüvvətləndirər". Həmçinin demişdir: "İslamda əhd-peyman bağlamaqla varis olmaq yoxdur". Peyğəmbər ﷺ Qureyş ilə ənsarları bir-birinə sevdirmişdi". Hədisi İmam Əhməd rəvayət etmişdir.[3] ət-Tabəri ﷺ rəvayət etmişdir ki, Qeys ibn Asim demişdir: "Bir dəfə Peyğəmbərdən ﷺ cahiliyyə dövründə bağlanmış əhd-peyman barədə soruşdum. Peyğəmbər ﷺ dedi: "Cahiliyyə dövründə bağlandığınız əhd-peymana sadiq qalın. Lakin İslam dini gəldikdən sonra belə əhd-peyman bağlamayın". Hədisi İmam Əhməd ﷺ rəvayət etmişdir.[4]

İmam Əhməd ﷺ Cubeyr ibn Mutimdən ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "İslamda əhd-peyman bağlamaqla varis olmaq yoxdur. Cahiliyyə dövründə bağlanan əhd-peymanları isə İslam daha da qüvvətləndirər".[5] Hədisi Muslim, Əbu Davud, ən-Nəsəi və ət-Tabəri ﷺ rəvayət etmişlər.[6]

---

[1] "əl-Musnəd" (2911, 3046); ət-Tabəri (9289, 9290). İsnadları səhihdir. (Əhməd Şakir). ət-Tabəri, 9290, 9343.

[2] "Mutayyəbin" sözünün hərfi mənası "ətirlənmişlər" deməkdir. Bu müqavilə cahiliyyət dövründə Bənu Haşim, Bənu Təmim və Bənu Zəhra qəbilələri arasında bağlanmışdı. Bu müqaviləyə əsasən tərəflər biri-birilərinə yardım etməli və bir-birlərinə qarşı vuruşmamalı idilər. Bu müqavilə İbn Cədanın evində baş tutmuşdu. Tərəflər and içmək üçün bir qaba ətir tökərək əllərini ətirə batırırdılar. Bu səbəbdən "Mutayyəbin" (ətirlənmişlər) adlanırdı.

[3] ət-Tabəri (9296); "əl-Musnəd" (1655). (Əhməd Şakir). Əhməd, 1655; ət-Tabəri, 9296, 9349. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 1900.

[4] ət-Tabəri (9292); "əl-Musnəd" (5/61 Hələbi nəşri). Hər iki isnad səhihdir. (Əhməd Şakir). ət-Tabəri, 9296, 9349; Əhməd, 20602, 20889. Hədis səhihdir. Bax: Səhih əl-Cami, 5656; Silsilə əs-Səhihə, 2262.

[5] Əhməd, 16807, 16883. Hədis səhihdir. Bax: Səhih əl-Cami, 7490.

[6] "əl-Musnəd" (16832); Muslim (2/270); ət-Tabəri (9295). (Əhməd Şakir).

Həqiqət budur ki, ərəblər İslamın əvvəlində əhd-peyman bağlamaqla bir-birlərinin varisi olurdular. Sonra bu hökm ləğv edildi, lakin əhd-peymanın təsiri bundan sonra da qaldı. Bununla belə onlara əvvəl bağladıqları müqavilələri və əhdləri yerinə yetirmək əmr olundu. Bu xüsus əvvəl keçən Cubeyr ibn Mutim və digər səhabələrdən ﷻ rəvayət edilən hədislərdə bildirilmişdir: “İslamda əhd-peyman bağlamaqla varis olmaq yoxdur. Cahiliyyə dövründə bağlanan əhd-peymanları isə İslam daha da qüvvətləndirər”. Bu hədislər günümüzdə əhd-peyman bağlamaqla varis olmağı icazəli görənlərə açıq-aydın rədd cavabıdır. Necə ki bu, Əbu Hənifə ﷺ və onun davamçılarının məzhəbidir. İmam Əhməddən ﷺ də belə bir rəvayət gəlmişdir. Lakin bu məsələdə doğru olan rəy cumhur (əksər) alimlərin dedikləridir. İmam Malik, əş-Şafii və bir rəvayətə görə, İmam Əhməd ﷺ də bu fikirdədirlər. Bu səbəbdən Uca Allah ayədə “**Hər kəs üçün valideynlərin və yaxın qohumların qoyub getdikləri maldan öz paylarını alacaq varislər təyin etdik**” buyurur. Yəni varislər valideynlər və yaxın qohumlardır, digər insanlar deyil. Necə ki əl-Buxari və Muslimin “Səhih” əsərlərində İbn Abbasdan ﷻ rəvayət edilən bir hədisdə Peyğəmbər ﷺ demişdir: “Miras paylarını sahiblərinə verin. Yerdə qalanı isə (ata tərəfdən) ən yaxın olan kişiyə verilir”.[1] Yəni mirası Uca Allahın miras ayələrində (“ən-Nisa”, 11-12-ci ayələrdə) nəzərdə tutduğu şəxslər arasında bölün. Bundan sonra qalan mirası ata tərəfdən ən yaxın olan kişi qohuma verin. “**Əhd bağladığınız kəslərə**”, yəni bu ayə nazil olmamışdan əvvəl əhd bağladığınız kəslərə “**öz paylarını verin**”, yəni mirasdan paylarını verin. Bundan sonra bağlanan əhdlərə gəlincə isə bu əhdlər yerinə yetirilmir. Bəzi alimlərin rəyinə görə, bu ayə gələcəkdə bağlanmış əhdləri ləğv etməklə bərabər, keçmişdə bağlanan əhdləri də ləğv etmişdir və bu ayəyə əsasən hətta keçmişdə bağlanmış olsa belə, əhd bağlamaqla varis olmaq olmaz. Əli ibn Əbu Talhə ﷺ rəvayət etmişdir ki, İbn Abbas ﷻ Uca Allahın “**Əhd bağladığınız kəslərə də öz paylarını verin**” ayəsi barədə belə demişdir: “Əvvəllər bir kişi başqa biri ilə “onlardan biri öldükdə, digəri onun varisi olacaq” deyə əhd bağlayardı. Uca Allah “**Qohumlar Allahın yazısına görə bir-birlərinə möminlərdən və mühacirlərdən daha yaxındırlar. Dostlarınıza yaxşılıq etmək isə istisnadır**” (“əl-Əhzab”, 6) ayəsini nazil edərək daha əvvəl əhd bağladıqları dostlarına mallarının üçdə birini vəsiyyət etməyin icazəli olduğunu bildirdi. Ayədə dostlarınıza yaxşılıq etmək dedikdə bu nəzərdə tutulur”.[2] Bir çox sələf alimləri də bu ayənin, Uca

[1] əl-Buxari, 6235, 6732; Muslim, 3028, 4226.

[2] ət-Təbəri (9268). əs-Suyuti (2/149-150) hədisi həmçinin İbn əl-Munzirə, İbn Əbu Hatimə, ən-Nuhhəsin “Nəsix val-Mənsux” əsərinə və İbn Mərdəveyhə ﷺ nisbət etmişdir. (Əhməd

Allahın “**Qohumlar Allahın yazısına görə bir-birlərinə möminlərdən və mühacirlərdən daha yaxındırlar. Dostlarınıza yaxşılıq etmək isə istisnadır**” (“əl-Əhzab”, 6) ayəsi ilə nəsx olunduğunu bildirmişlər.

Səid ibn Cubeyr رحمه الله demişdir: “...**öz paylarını verin**”, yəni mirasdan paylarını verin. Əbu Bəkr رضي الله عنه azad etdiyi bir köləsi ilə belə bir əhd bağlamış və o öldükdən sonra Əbu Bəkr رضي الله عنه onun varisi olmuşdur”. Hədisi İbn Cərir رحمه الله rəvayət etmişdir.[1]

Səid ibn əl-Museyyib رحمه الله demişdir: “Bu ayə özlərinin olmayan uşaqları övladlığa götürərək onları özlərinə varis edənlər barədə nazil olmuşdur. Uca Allah onlar barədə bu ayəni nazil edərək onlara vəsiyyət edilməklə bir pay ayırmış, mirası isə qohumlara və ata tərəfdən kişilərə vermişdir. Beləcə, Uca Allah oğulluğa götürülmüş övladların miras iddialarını qəbul etməmiş, lakin onlara vəsiyyət olunmuş mirasdan bir pay ayırmışdır”. Bu əsəri İbn Cərir رحمه الله rəvayət etmişdir.[2]

İbn Cərir رحمه الله Uca Allahın “**öz paylarını verin**” ayəsində miras payı deyil, kömək, nəsihət və maddi yardım mənasının nəzərdə tutulduğunu demişdir. Bu rəyə əsasən, ayə nə ləğv olunmuş, nə də əvvəl icazəli olub sonradan hökmü qaldırılmışdır. Əksinə, ayə yalnız kömək və nəsihət üçün bağlanmış əhdlərə sadiq qalmağın vacib olduğuna dəlalət edir. Beləliklə, ayə mənsux deyil, muhkəmdir. İbn Cəririn رحمه الله dediyi bu söz şübhəlidir. Çünki bəzi əhdlər qarşılıqlı yardımlaşma üçün, bəzi əhdlər isə miras üçün bağlanırdı. Necə ki bu barədə sələflərdən bir çox rəvayətlər nəql edilmişdir. İbn Abbas رضي الله عنهما demişdir: “Mühacirlər Mədinəyə gəldikdə ənsarlının mirasına, onun öz qohumlarından əvvəl bir mühacir varis olurdu. Sonradan bu hökm ləğv edildi”. O halda İbn Cərir رحمه الله bu ayənin nəsx olunmadığını və muhkəm olduğunu necə deyə bilər? Ən doğrusunu Allah bilir.[3]

﴿ ٱلرِّجَالُ قَوَّٰمُونَ عَلَى ٱلنِّسَآءِ بِمَا فَضَّلَ ٱللَّهُ بَعۡضَهُمۡ عَلَىٰ بَعۡضٖ وَبِمَآ أَنفَقُواْ مِنۡ أَمۡوَٰلِهِمۡۚ فَٱلصَّٰلِحَٰتُ قَٰنِتَٰتٌ حَٰفِظَٰتٞ لِّلۡغَيۡبِ بِمَا حَفِظَ ٱللَّهُۚ وَٱلَّٰتِي تَخَافُونَ نُشُوزَهُنَّ فَعِظُوهُنَّ وَٱهۡجُرُوهُنَّ فِي ٱلۡمَضَاجِعِ وَٱضۡرِبُوهُنَّۖ فَإِنۡ أَطَعۡنَكُمۡ فَلَا تَبۡغُواْ عَلَيۡهِنَّ سَبِيلًاۗ إِنَّ ٱللَّهَ كَانَ عَلِيّٗا كَبِيرٗا ٣٤ ﴾

---

Şakir). ət-Təbəri, 9321.

[1] ət-Təbəri, 9267, 9320.

[2] ət-Təbəri, 9288, 9342.

[3] Bax: ət-Təbəri (8/288-289). (Əhməd Şakir).

**34. Kişilər qadınlar üzərində ixtiyar sahibidirlər. Bu, Allahın onlardan birini digərindən üstün etməsi və (kişilərin) öz mallarından (qadınlar üçün) sərf etməsinə görədir. Əməlisaleh qadınlar itaətkar olub qorunması lazım gələn şeyləri Allahın himayəsi sayəsində qoruyanlardır. Özbaşınalıq etmələrindən qorxduğunuz qadınlara nəsihət edin, (bunun faydası olmadığı təqdirdə) yataqda onları tərk edin, (bu da fayda verməzsə) onları döyün! Əgər sizə itaət etsələr, onlara əziyyət vermək üçün başqa yol axtarmayın. Həqiqətən, Allah ucadır, böyükdür.**

Uca Allah buyurur: "**Kişilər qadınlar üzərində ixtiyar sahibidirlər**", yəni kişi qadın üzərində hakimdir, onun böyüyü və başçısıdır. Qadın yolundan çıxdıqda onu tərbiyə edəndir. "**Bu, Allahın onlardan birini digərindən üstün etməsi**", yəni buna səbəb kişilərin qadınlardan daha üstün olmasıdır. Kişi qadından daha xeyirlidir. Bu səbəbdən peyğəmbərlik kişilərə məxsusdur. Həmçinin böyük hakimiyyət və idarəçilik də kişilərə aiddir, çünki Peyğəmbər ﷺ demişdir: "Hakimiyyəti qadına həvalə edən bir tayfa heç vaxt nicat tapmaz".[1] Hədisi əl-Buxari رحمه الله Əbu Bəkrədən رضي الله عنه rəvayət etmişdir.[2] Qazilik və buna bənzər vəzifələr də kişilərə xasdır.

Uca Allah buyurur: "...**və** (kişilərin) **öz mallarından** (qadınlar üçün) **sərf etməsinə görədir**", yəni Allahın Öz Kitabında və Peyğəmbərinin ﷺ sünnəsində qadınların mehrləri, xərcləri və maddi təminatları kişilərə vacib edildiyinə görə kişilər öz mallarından qadınlara xərcləyirlər və bu səbəbdən də kişilər qadınlardan üstündürlər. Kişi öz-özlüyündə də qadından üstündür və kişinin qadından bir çox üstünlükləri var. Buna görə də kişinin qadınlar üzərində hakim olması son dərəcə uyğundur. Necə ki başqa bir ayədə Uca Allah buyurur: "**Kişilərin onlar** (qadınlar) **üzərində olan haqları isə bir dərəcə üstündür. Allah qüdrətlidir, hikmət sahibidir**" ("əl-Bəqərə", 228).

Uca Allah buyurur: "**Əməlisaleh qadınlar itaətkar olub**..." İbn Abbas رضي الله عنهما və bir çoxları demişlər: "Yəni ərlərinə itaət edən qadınlar". "...**qorunması lazım gələn şeyləri Allahın himayəsi sayəsində qoruyanlardır**". əs-Suddi və başqaları رحمهم الله bu ayənin təfsirində demişlər: "Ərləri yanlarında olmadıqda onların namusunu və malını qoruyarlar". "**Allahın himayəsi sayəsində**", yəni yalnız Allahın himayəsində olan kəs qorunmuş olar.

---

[1] əl-Buxari, 4073, 4425, 6570, 7099.

[2] əl-Buxari (8/97, 13/45-46). Həmçinin Əhməd, ət-Tirmizi və ən-Nəsəi رحمهم الله də rəvayət etmişlər. (Əhməd Şakir).

İbn Cərir رحمه الله Əbu Hureyradan رضي الله عنه rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Ən xeyirli qadın odur ki, ona nəzər saldıqda səni sevindirər, ona bir şey buyurduqda sənə itaət edər, yanında olmadıqda isə sənin namusunu və malını qoruyar". Sonra Peyğəmbər ﷺ Uca Allahın "**Kişilər qadınlar üzərində ixtiyar sahibidirlər**" ayəsini sonuna qədər oxudu".[1] Hədisi İbn Əbu Hatim رحمه الله də rəvayət etmişdir.[2]

İmam Əhməd رحمه الله Abdur-Rahmən ibn Aufdan رضي الله عنه rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Qadın beş vaxt namazını qılarsa, Ramazan orucunu tutarsa, övrət yerini zinadan qoruyarsa və ərinə itaət edərsə, (Qiyamət günü) ona "Cənnətin hansı qapısından istəyirsən daxil ol!" deyilər".[3] Hədisi yalnız İmam Əhməd رحمه الله rəvayət etmişdir.[4]

Uca Allah buyurur: "**Özbaşınalıq etmələrindən qorxduğunuz qadınlara nəsihət edin**", yəni ərlərinə qarşı itaətsizlik göstərən qadınlara nəsihət edin. Ayədə keçən النُّشُوزُ [nuşu:z] sözünün mənası "təkəbbürlük", "dikbaşlıq" deməkdir. Özbaşınalıq edən qadın ərinə qarşı dikbaşlıq edən, onun əmrinə tabe olmayan, ondan üz çevirən və ona nifrət bəsləyən qadındır. Qadında özbaşınalıq əlamətləri göründükdə kişi ona nəsihət etməli və onu göstərdiyi itaətsizliyə görə Allahın əzabı ilə qorxutmalıdır. Uca Allah qadına ərin haqqını ödəməyi və ona itaət etməyi vacib etmişdir. Kişi qadından üstün və fəzilətli olduğuna görə Allah kişiyə asi olmağı qadına haram etmişdir. Peyğəmbər ﷺ bu xüsusda buyurur: "Əgər Allahdan başqa kiməsə səcdə etməyi əmr etmiş olsaydım, üzərindəki haqqın böyüklüyünə görə qadının ərinə səcdə etməsini əmr edərdim".[5] əl-Buxari رحمه الله Əbu Hureyradan رضي الله عنه rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Kişi öz həyat yoldaşını yatağına çağırdığı zaman qadın (ona) yaxınlıq verməsə və əri (bu səbəbdən) ona qəzəbi tutmuş halda yatsa, mələklər səhərə

---

[1] ət-Təbəri, 9328, 9380; əl-Hakim, 2682. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 1838.

[2] ət-Təbəri (9328); ət-Tayəlisi (2325); Əhməd (7415); əl-Hakim (2/161); ən-Nəsəi (2/72). (Əhməd Şakir).

[3] Əhməd, 1661. Hədis həsən li-ğeyrihidir. Bax: Səhih ət-Tərğib vat-Tərhib, 1932.

[4] "əl-Musnəd" (1661). (Əhməd Şakir).

[5] Hədisi mənaca Əbu Davud (2140) və əl-Hakim (2/187) Sabit ibn Qeys ibn Saddan rəvayət etmişlər. əl-Hakim رحمه الله hədisin əl-Buxari və Muslimin şərtlərinə görə səhih olduğunu bildirmişdir. əz-Zəhəbi رحمه الله onunla razılaşmışdır. ət-Tirmizi (2/203-204) hədisi Əbu Hureyradan, Əhməd (6/76 Hələbi çapı) və İbn Məcə (1852) isə Aişədən رضي الله عنها rəvayət etmişlər. Həmçinin Əhməd (5/227-228) Muazdan, Əhməd (4/381), İbn Məcə (1853) və İbn Hibban isə Abdullah ibn Əbu Əufədən rəvayət etmişlər. (Əhməd Şakir). Əbu Davud, 2140, 2142; əl-Hakim, 2763. Hədisin isnadı həsəndir. Bax: İrvaul-Ğalil, 1998; Səhih ət-Tərğib vat-Tərhib, 1940.

qədər o qadına lənət oxuyar".[1] Oxşar hədisi Muslim ﷺ də rəvayət etmişdir.[2] Bu səbəbdən Uca Allah "**Özbaşınalıq etmələrindən qorxduğunuz qadınlara nəsihət edin**" buyurmuşdur.

Uca Allah buyurur: "...**yataqda onları tərk edin**". İbn Abbas ﷺ demişdir: "Yataqda qadını tərk etmək" dedikdə onlarla cinsi əlaqədə olmamaq və onlara kürəyini çevirib yatmaq nəzərdə tutulur".[3] Bir çoxları da belə demişlər. əs-Suddi, əd-Dahhək, İkrimə və başqaları ﷺ isə İbn Abbasın ﷺ dediklərinə onlarla danışmamağı və söhbət etməməyi də əlavə etmişlər. "Sunən" əsərlərində və "əl-Musnəd"də rəvayət olunur ki, bir dəfə Muaviyə ibn Heydə əl-Quşeyri ﷺ Peyğəmbərdən ﷺ soruşdu: "Ey Allahın Elçisi, zövcələrimizin bizim üzərimizdə olan haqları nədir?" Peyğəmbər ﷺ dedi: "Yediyindən ona da yedirtməli, geyindiyindən ona da geyindirməli, döymək həddinə çatdırsa, üzünə vurmamalı, təhqir etməməli və evdən başqa yerdə yatağını ayırmamalısan".[4]

Uca Allah buyurur: "**onları döyün!**", yəni əgər nəsihət etməklə və yatağını ayırmaqla qadının özbaşınalığının qarşısını almaq mümkün deyilsə, bu halda zərər verməmək şərti ilə onları döyə bilərsiniz. Necə ki Muslimin "Səhih" əsərində Cabirdən ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ vida həccində (söylədiyi xütbədə) demişdir: "Qadınlara görə Allahdan qorxun! Həqiqətən, onlar sizin köməkçilərinizdir. Sizin onların üzərində olan haqqınız istəmədiyiniz adamları evinizə buraxmamalarıdır. Buna əməl etməsələr, onlara zərər verməmək şərti ilə döyün. Onların sizin üzərinizdəki haqqı isə onları gözəl şəkildə yedirməniz və geyindirmənizdir".[5] İbn Abbas ﷺ və bir çoxları ayəni "zərər vermədən döymək" kimi təfsir etmişlər. əl-Həsən əl-Bəsri ﷺ isə demişdir: "İz qoymayacaq şəkildə döyün". Fiqh alimləri də belə demişlər: "Hər hansı bir əzasını sındırmadan və eyib (iz) qoymadan döymək icazəlidir".

İbn Abbas ﷺ demişdir: "Kişi özbaşınalıq edən qadını cəzalandırmaq üçün əvvəlcə yatağını ayırmalıdır. Əgər yola gələrsə, onunla

---

[1] əl-Buxari, 2998, 3237, 4794, 5193.

[2] əl-Buxari (4/446-447, 5/4-5 Hələbi nəşri); Əbu Davud (2142-2144); ət-Təbəri (9372-9374). (Əhməd Şakir). Muslim, 2596, 3614.

[3] İbn Əbu Hatim, 5270.

[4] Əhməd (7415); əl-Hakim (2/161); ən-Nəsəi (2/72). (Əhməd Şakir). Əbu Davud, 2142, 2144. Hədis həsəndir. Bax: Səhih ət-Tərğib vat-Tərhib, 1929; Mişkətul-Məsabih, 3259.

[5] Əbu Davud (2146); əl-Buxari "əl-Kəbir" (1/1/440). (Əhməd Şakir). Muslim, 2137, 3009; Əbu Davud, 1905, 1907.

yaxınlıq edir, əgər fayda verməzsə, bil ki, zərər vermədən və sümüyünü zədələmədən qadını döyməyi Allah sənə icazə vermişdir. Əgər bu fayda verərsə, daha ona əziyyət verməməlidir. Əgər döyülməklə də yola gəlməzsə, o halda bil ki, Allah sənə qadından fidyə almaqla ondan xilas olmağı halal etmişdir”.[1] İyas ibn Abdullah ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: “Allahın qadın bəndələrini döyməyin!” Bir müddət sonra Ömər ﷺ Peyğəmbərin ﷺ yanına gələrək “Qadınlar ərlərinə qarşı çıxırlar?!” deyə söylədi və Peyğəmbər ﷺ onları döyməyə icazə verdi. Bundan sonra çox sayda qadın Peyğəmbərin ﷺ zövcələrinin yanına gələrək ərlərindən şikayət etdilər. Peyğəmbər ﷺ belə buyurdu: “Çox sayda qadın Muhəmmədin ailəsinin yanına gələrək ərlərindən şikayət etdilər! Bilin ki, (onları döyən kimsələr) heç də sizin xeyirliləriniz deyildir!”[2] Hədisi Əbu Davud, ən-Nəsəi və İbn Məcə ﷺ rəvayət etmişlər. İmam Əhməd ﷺ Əşas ibn Qeysin ﷺ belə dediyini rəvayət etmişdir: “Bir gecə Ömərin qonağı oldum. Birdən zövcəsi ilə mübahisə etdi və ona əl qaldırdı. Mən onların arasına girdim. Axşam yatağa girdikdə mənə dedi: “Ey Əşas, Peyğəmbərdən ﷺ eşidib əzbərlədiyim bu üç şeyi sən də məndən əzbərlə: “Heç vaxt kişidən arvadını nə üçün döydüyünü soruşma, vitr namazını qılmadan yatma”. Əşas dedi: “Üçüncüsünü isə unutmuşam”.[3] Hədisi Əbu Davud, ən-Nəsəi və İbn Məcə ﷺ bu şəkildə rəvayət etmişlər.[4]

Uca Allah buyurur: “**Əgər sizə itaət etsələr, onlara əziyyət vermək üçün başqa yol axtarmayın**”, yəni əgər qadın Allahın halal etdiyi xüsuslarda ərinin bütün istədiklərini yerinə yetirərsə, artıq ər qadına əziyyət vermək üçün yol axtarmamalıdır. Bu halda kişinin qadını döymək və ya onu yataqda tərk etmək haqqı yoxdur.

Uca Allah buyurur: “**Həqiqətən, Allah ucadır, böyükdür**”. Bununla, Uca Allah qadınlara qarşı səbəbsiz yerə həddini aşan kişiləri təhdid edir. Onların (qadınların) himayədarı Uca və Böyük olan Allahdır. Qadınlara zülm edənlərdən və onlara qarşı həddi aşanlardan, əlbəttə, intiqamını alacaqdır.

---

[1] İbn Əbu Hatim, 5283; ət-Tabəri, 9418, 9469-9470.

[2] Əbu Davud, 2146, 2148; əl-Hakim, 2765. Hədis səhihdir. Bax: Mişkətul-Məsabih, 3261.

[3] Əhməd, 122; Əbu Davud, 2147, 2149. Hədis zəifdir. Bax: Daif əl-Cami, 6218.

[4] “əl-Musnəd” (122); Əbu Davud (2149); əl-Hakim (4/175). əl-Hakim ﷺ üçüncü xisləti də qeyd etmişdir: “Qardaşlarından kimə etibar edib, kimə etibar etmədiyini soruşma”. əl-Hakim hədisin səhih olduğunu bildirmiş, əz-Zəhəbi də onunla razılaşmışdır. (Əhməd Şakir).

﴿ وَإِنْ خِفْتُمْ شِقَاقَ بَيْنِهِمَا فَٱبْعَثُوا۟ حَكَمًا مِّنْ أَهْلِهِۦ وَحَكَمًا مِّنْ أَهْلِهَآ إِن يُرِيدَآ إِصْلَٰحًا
يُوَفِّقِ ٱللَّهُ بَيْنَهُمَآ ۗ إِنَّ ٱللَّهَ كَانَ عَلِيمًا خَبِيرًا ٣٥ ﴾

**35. Əgər ər-arvad arasında ixtilaf olacağından qorxsanız, onda kişinin ailəsindən bir hakim və qadının ailəsindən bir hakim göndərin. Əgər bunlar islah etmək istəsələr, Allah da onları barışdırar. Həqiqətən, Allah hər şeyi biləndir, hər şeydən xəbərdardır.**

Uca Allah əvvəlki ayədə – birinci halı – qadının ərindən üz çevirməsini və özbaşınalığını qeyd etdikdən sonra bu ayədə – ikinci halı – ər-arvadın hər ikisinin bir-birlərinə nifrət etmələrini qeyd edərək “**Əgər ər-arvad arasında ixtilaf olacağından qorxsanız, onda kişinin ailəsindən bir hakim və qadının ailəsindən bir hakim göndərin**” buyurur. Fiqh alimləri demişlər: “Ər-arvadın arasında ixtilaf düşdükdə hakim onların hər ikisini vəziyyətlərini görüb müşahidə etməsi və haqsızlıq edənin haqsızlığına mane olması üçün etibarlı bir şəxsin yanında məskunlaşdırır. Əgər münasibətləri gərginləşərsə və mübahisələri uzanarsa, o zaman hakim həm qadının ailəsindən, həm də kişinin ailəsindən etibarlı bir adam göndərir. Bu iki etibarlı şəxs bir araya gələrək ər-arvadın halını müzakirə etdikdən sonra hər ikisi üçün faydalı olan qərarı verərlər, ya onları ayırarlar, ya da barışdırarlar. Lakin Uca Allah bu vəziyyətdə barışmağı daha uyğun hesab edərək “**Əgər bunlar islah etmək istəsələr, Allah da onları barışdırar**” buyurur.

İbn Abbas رضي الله عنهما demişdir: “Uca Allah aralarında ixtilaf baş vermiş ər-arvadın yanına həm kişinin ailəsindən, həm də qadının ailəsindən əməlisaleh bir adam göndərilməsini əmr etmişdir. Bu iki əməlisaleh insan ər və arvaddan hansı birinin günahkar olduğunu araşdırmalıdırlar. Əgər kişi günahkar çıxarsa, arvadını ondan bir müddət ayırıb kişinin üzərinə qadının dolanışığı üçün məsrəf qoyurlar. Əgər günahkar qadın olarsa, bu vəziyyətdə onu əri ilə barışmağa məcbur edir və (cəza olaraq) qadını (əlavə) məsrəfdən məhrum edirlər. Əgər onlar yekdil olaraq ərlə arvadı barışdırmaq və ya ayırmaq qənaətinə gəlsələr, bunu ər-arvada əmr etmələri icazəlidir. Əgər onlar ər-arvadı barışdırmağı uyğun görsələr, lakin ər-arvaddan biri buna razı olub digəri istəməzsə və bu halda onlardan biri ölərsə, barışmağa razı olan barışmaq istəməyənin varisi olur. Razı olmayan isə razı olana varis ola bilməz”. Hədisi İbn Əbu Hatim və İbn Cərir رحمه الله rəvayət etmişlər.[1]

[1] ət-Təbəri (9418). (Əhməd Şakir). İbn Əbu Hatim, 5283; ət-Təbəri, 9469.

Abdur-Razzəq ﷺ rəvayət etmişdir ki, Aqil ibn Əbu Talib ﷺ Utbə ibn Rabiənin qızı Fatimə ilə evlənmişdi. Fatimə ona "Mənimlə evliliyə səbir etsən (mənimlə kifayətlənib başqasını almasan), malımdan sənə xərcləyərəm" demişdi. Aqil hər dəfə onun yanına girdikdə Fatimə "Utbə ibn Rəbiə və Şeybə ibn Rəbiə haradadırlar?"[1] deyirdi. Bir dəfə Aqil dilxor halda evə gəldi. Fatimə yenə bu sözü dedikdə Aqil: "Cəhənnəmə girsən, onları öz solunda görərsən" deyə cavab verdi. Bunu eşidən Fatimə dərhal paltarlarını yığışdırıb Osmanın ﷺ yanına gəldi və vəziyyəti ona danışdı. Osman ﷺ bunu eşitdikdə güldü və onları barışdırmaq üçün İbn Abbasla Muaviyəni hakim qismində göndərdi. İbn Abbas dedi: "Mən onları ayıracağam". Muaviyə dedi: "Abdu Manaf övladlarından iki yaşlını ayıran deyiləm". İbn Abbasla Muaviyə onların evinə çatdıqda artıq (barışdıqları üçün) evə girib qapılarını bağladıqlarını gördülər və qayıtdılar".[2]

Yenə Abdur-Razzəq ﷺ Ubeydənin belə dediyini rəvayət etmişdir: "Bir dəfə Əlinin ﷺ yanında idim. Bir qadın əri ilə birlikdə onun yanına gəldi. Hərəsinin yanında bir qrup insan var idi. Hər qrup içərilərindən bir hakim çıxardı. Əli ﷺ hakimlərə müraciət edərək dedi: "Üzərinizə düşəni bilirsinizmi? Əgər barışmağı uyğun görsəniz, barışdırın, ayırmağı uyğun görsəniz, ayırın!" Qadın "İstər lehimə olsun, istər əleyhimə, Allahın Kitabı ilə razıyam" dedi. Kişi dedi: "Heç bir halda ayrılmağa razı deyiləm". Əli ﷺ dedi: "Yalan danışdın, Allahın Kitabı ilə razılaşacaqsan, istər lehinə olsun, istər əleyhinə".[3] Hədisi İbn Əbu Hatim və İbn Cərir ﷺ də rəvayət etmişlər.[4]

Əksər alimlərin rəyinə görə[5], hakimlərin ər-arvadı ayırmaq və barışdırmaq səlahiyyətləri var. İbrahim ən-Nəxai ﷺ demişdir: "Hakimlər istəsələr, ər-arvadı bir, iki və ya üç talaq ilə ayıra bilərlər". Bu rəy Malikdən ﷺ də rəvayət edilmişdir.

---

[1] Utbə Fatimənin atası, Şeybə isə əmisi idi. Belə deməkdə məqsədi təkəbbürlənmək idi. Yəni atam Utbə və əmim Şeybə haradadırlar? Kaş gəlib görərdilər ki, Aqil onların malına görə mənimlə evlidir və bu evliliyə səbir edir.

[2] əş-Şafii "əl-Umm" əsəri (5-177-178); əl-Beyhəqi (7/306); ət-Təbəri (9427). (Əhməd Şakir). Abdur-Razzəq "Musannəf" 11887; əş-Şafii "əl-Umm" 1265, 1288.

[3] İbn Əbu Hatim, 5282.

[4] Abdur-Razzəqin ﷺ təfsiri (səh. 42-43); əş-Şafii "əl-Umm" əsəri (5/177); əl-Beyhəqi (7/305-306); ət-Təbəri (9407-9409). əş-Şafii "əl-Umm" əsərində (5/178) demişdir: "Əlinin ﷺ hədisi bizə görə səhihdir". (Əhməd Şakir).

[5] Kitabın çap olunmuş nüsxəsində "Əksər alimlərin rəyinə görə" ifadəsinin əvəzinə "Alimlərin yekdil rəyinə görə..." ifadəsi yazılmışdır. Lakin bu səhvdir və biz bu səhvi iki əlyazmaya əsasən düzəltmişik, çünki daha sonra İbn Kəsir ﷺ bu məsələdə alimlər arasında olan fikir ayrılığını qeyd etmişdir. (Əhməd Şakir).

əl-Həsən əl-Bəsri ﷺ isə belə demişdir: “Hakimlər ər-arvadı yalnız barışdıra bilərlər, ayıra bilməzlər”. Qatədə və Zeyd ibn Əsləm ﷺ də belə demişlər. Həmçinin Əhməd ibn Hənbəl, Əbu Səur və Davud ﷺ da bu rəydədirlər. Bu rəydə olanlar Uca Allahın ”**Əgər bunlar islah etmək istəsələr, Allah da onları barışdırar**” sözünə əsaslanmışlar. Belə ki Uca Allah burada barışdırmağı qeyd etmiş, ayırmağı isə qeyd etməmişdir. Əgər təyin olunmuş insanlar ər-arvadın vəkilləri olarsa, bu halda onların ər-arvadı həm barışdırmaq, həm də ayırmaq səlahiyyətləri var və bu məsələdə alimlər arasında ixtilaf yoxdur.

Şeyx Əbu Ömər İbn Abdul-Bərr ﷺ demişdir: “Alimlərin yekdil rəyinə görə, əgər iki hakim arasında fikir ayrılığı yaranarsa, heç birinin sözü etibarlı sayılmaz və hakimlərin yalnız yekdil qəbul etdikləri qərarları, ər-arvad tərəfindən təyin olunmasalar belə, etibarlı sayılır. Alimlər hakimlərin ər-arvadı ayırmaq barədə gəldikləri yekdil qərarın həyata keçirilib-keçirilməməsi məsələsində də ixtilaf etmişlər. Əksər alimlərin rəyinə görə, ər-arvadı ayırmaq barədə hakimlərin gəldikləri yekdil qərar həyata keçirilir”.

﴿ وَٱعْبُدُوا۟ ٱللَّهَ وَلَا تُشْرِكُوا۟ بِهِۦ شَيْـًٔا ۖ وَبِٱلْوَٰلِدَيْنِ إِحْسَٰنًا وَبِذِى ٱلْقُرْبَىٰ وَٱلْيَتَٰمَىٰ
وَٱلْمَسَٰكِينِ وَٱلْجَارِ ذِى ٱلْقُرْبَىٰ وَٱلْجَارِ ٱلْجُنُبِ وَٱلصَّاحِبِ بِٱلْجَنۢبِ وَٱبْنِ ٱلسَّبِيلِ وَمَا مَلَكَتْ
أَيْمَٰنُكُمْ ۗ إِنَّ ٱللَّهَ لَا يُحِبُّ مَن كَانَ مُخْتَالًا فَخُورًا ﴿٣٦﴾ ﴾

**36. Allaha ibadət edin və heç bir şeyi Ona şərik qoşmayın! Valideynlərə, qohum-əqrəbaya, yetimlərə, kasıblara, yaxın və uzaq qonum-qonşuya, yaxın yoldaşa, müsafirə və sahib olduğunuz kölə və kənizlərə yaxşılıq edin! Həqiqətən, Allah lovğalıq edənləri və özünü öyənləri sevmir.**

Uca Allah bu ayədə qullarına tək Allaha ibadət edib, heç nəyi Ona şərik qoşmamağı əmr edir. Çünki yaradan ruzi verən, nemətləndirən, hər bir vaxtda və hər bir vəziyyətdə yaratdıqlarına qarşı lütfkar olan yalnız Odur. Bu səbəbdən, Allahın yaratdıqlarından heç bir şey Ona şərik qoşulmamalıdır. İbadətdə təkləşdirilməyə layiq olan yalnız Odur. Necə ki bir dəfə Peyğəmbər ﷺ Muazdan “Ey Muaz, bilirsənmi, Allahın qulları üzərindəki haqqı nədir?” deyə soruşdu. Muaz “Allah və Onun rəsulu daha yaxşı bilir!” deyə cavab verdikdə Peyğəmbər ﷺ demişdir: “Allahın qulları üzərindəki haqqı qulların Ona ibadət edib heç nəyi Ona şərik qoşmamalarıdır”. Sonra Peyğəmbər ﷺ soruşdu:

"Bilirsənmi, qulları bunu yerinə yetirəcəkləri təqdirdə onların Allah üzərindəki haqqı nədir?" Muaz "Allah və Onun rəsulu daha yaxşı bilir!" deyə cavab verdikdə Peyğəmbər ﷺ buyurdu: "Qulların Allah üzərindəki haqqı Ona heç bir şeyi şərik qoşmayan qullarına əzab verməməsidir".[1]

Sonra Uca Allah valideynlərlə gözəl davranmağı əmr etmişdir, çünki Uca Allah valideynləri, sənin həyata gəlməyin üçün bir səbəb etmişdir. Uca Allah Quranda bir çox yerdə Özünə ibadət etməyi əmr etməklə yanaşı valideynlərə yaxşılıq etməyi zikr etmişdir. Necə ki bu ayələrdə buyurur: "**Biz insana ata-anasının qayğısına qalmağı əmr etdik. Anası onu bətnində gündən-günə zəiflədiyinə baxmayaraq, daşımışdır. Onun süddən kəsilməsi isə iki il ərzində olur. Mənə və valideynlərinə şükür et! Axır dönüş Mənədir**" ("Loğman", 14); "**Rəbbin yalnız Ona ibadət etməyi və ata-ana ilə yaxşı davranmağı buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında qocalıq yaşına dolarsa, onlara: "Uf!" belə demə, üstlərinə qışqırma və onlara xoş söz söylə!**" ("əl-İsra", 23).

Sonra Uca Allah valideynlərə yaxşılıq etməklə yanaşı, kişi və qadın qohumlara yaxşılıq etməyi də əmr etmişdir. Necə ki bir hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Kasıba sədəqə verən bir savab – yalnız sədəqənin savabını qazanır. Qohuma sədəqə verən isə iki savab – biri sədəqəyə görə, bir də qohumluq əlaqəsini yaxşılaşdırdığına görə savab qazanır".[2]

Sonra Uca Allah "**yetimlərə**" yaxşılıq etməyi buyurur, çünki onlar qayğılarına qalacaq və onlara mal sərf edəcək kəsi (atalarını) itirmişlər. Bu səbəbdən Uca Allah yetimlərə yaxşılıq etməyi və onlara şəfqət göstərməyi əmr etmişdir.

Daha sonra Uca Allah "**kasıblara**" yaxşılıq etməyi buyurur. Onlar ehtiyac sahibidirlər və onların bu ehtiyaclarını qarşılayacaq bir kəs də yoxdur. Uca Allah onlara zəruri ehtiyaclarını ödəyəcək şeylərlə kifayət qədər yardım etməyi əmr etmişdir. "ət-Tövbə" surəsinin təfsirində kasıblar və yoxsullar barədə bir daha açıqlama gələcəkdir.[3]

---

[1] əl-Buxari (13/300 Fəthul-Bari); Muslim (1/25-26); ət-Tirmizi (3/369) və İbn Məcə (4296) Muaz ibn Cəbəldən ﷺ rəvayət etmişlər. (Əhməd Şakir). əl-Buxari, 6825, 7373; Muslim, 45, 154.

[2] Hədisi İmam Əhməd, ət-Tirmizi, İbn Məcə və ən-Nəsəi ﷺ Salman ibn Amirdən ﷺ rəvayət etmişlər. Hədis "əl-Bəqərə" surəsinin 174-176-cı ayələrinin təfsirində keçmişdir. (Əhməd Şakir). Əhməd, 16233, 16278; ət-Tirmizi, 658, 660; ən-Nəsəi "Sunən" 2582, 2594; İbn Məcə, 1844. Hədis səhihdir. Bax: Mişkətul-Məsabih, 1939.

[3] "Tövbə" surəsinin 60-cı ayəsinin təfsirində gələcəkdir. (Əhməd Şakir).

Uca Allah buyurur: "...**yaxın və uzaq qonum-qonşuya**". İbn Abbas ﷺ bu ayə barədə demişdir: "Yaxın qonşu aranızda qohumluq olan, uzaq qonşu isə aranızda qohumluq olmayan qonşudur".[1] Bu təfsir İkrimə, Mucahid, Qatədə və başqalarından ﷺ da rəvayət edilmişdir. Nəuf əl-Bikəli ﷺ isə bu ayə barədə demişdir: "Yaxın qonşu müsəlman olan, uzaq qonşu isə yəhudi və ya xaçpərəst qonşudur". Bu təfsiri İbn Əbu Hatim ﷺ rəvayət etmişdir.

Qonşuya yaxşılıq etməyi buyuran bir çox hədislər varid olmuşdur.[2] İmam Əhməd ﷺ Abdullah ibn Ömərdən ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Cəbrail qonşu haqqında mənə o qədər tövsiyə etdi ki, hətta qonşuya da mirasdan bir pay düşəcəyini güman etdim".[3] Hədisi əl-Buxari və Muslim "Səhih" əsərlərində də rəvayət etmişlər.[4]

İmam Əhməd ﷺ Abdullah ibn Amrdan ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Allah qatında ən xeyirli yoldaş öz yoldaşına qarşı ən xeyirli olandır. Həmçinin Allah qatında ən xeyirli qonşu qonşusuna qarşı ən xeyirli olandır".[5] Hədisi ət-Tirmizi ﷺ rəvayət etmiş və "həsən-ğarib" olduğunu bildirmişdir.[6]

İmam Əhməd ﷺ rəvayət etmişdir ki, Miqdəd ibn əl-Əsvəd ﷺ belə demişdir: "Bir dəfə Peyğəmbər ﷺ səhabələrindən soruşdu: "Sizcə, zinanın hökmü nədir?" Onlar dedilər: "Bunu Allah və Onun Elçisi haram etmişdir və o, Qiyamətə qədər haramdır". Peyğəmbər ﷺ buyurdu: "Kişinin on qadınla zina etməsi (günah baxımından) onun üçün qonşusunun qadını ilə zina etməsindən daha yüngüldür".[7] Sonra Peyğəmbər ﷺ onlardan soruşdu: "Bəs oğurluq barədə nə deyirsiniz?" Onlar dedilər: "Bunu Allah və Onun Elçisi haram

---

[1] İbn Əbu Hatim, 5296; ət-Tabəri, 9437, 9488.

[2] İbn Kəsir ﷺ burada bir çox hədislər qeyd etmişdir. Lakin biz bunlarla kifayətləndik. (Əhməd Şakir).

[3] əl-Buxari, 5556, 6015; Muslim, 4757, 6854.

[4] Hədisi İmam Əhməd "əl-Musnəd" əsərində (5577) rəvayət etmişdir. Həmçinin eyni hədisi Abdullah ibn Amr ibn əl-Asdan (6496) və Əbu Hureyradan (7514, 8032, 9744, 9912, 10686) rəvayət etmişdir. (Əhməd Şakir).

[5] Əhməd, 6566; əl-Hakim, 1620, 2490. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 103.

[6] "əl-Musnəd" (6566); ət-Tirmizi (3/129); əl-Hakim (1/443, 2/101, 4/164). əl-Hakim ﷺ hədisin əl-Buxari və Muslimin şərtlərinə görə səhih olduğunu bildirmiş, əz-Zəhəbi bununla razılaşmışdır. Hədisi əl-Munziri "ət-Tərğib" əsərində (3/237, 4/46) qeyd etmiş və İbn Xuzeymə və İbn Hibbanın "Səhih" əsərlərinə nisbət etmişdir. (Əhməd Şakir).

[7] Burada "qonşusunun qadını" deyildikdə qonşunun anası, bacısı, qızı və kənizi də buna aid edilir (Feydul-Qadir).

etmişdir və o, Qiyamətə qədər haramdır”. Peyğəmbər ﷺ dedi: “Kişinin on evdən oğurluq etməsi (günah baxımından) onun üçün qonşusunun evindən oğurluq etməsindən daha yüngüldür”.[1] Hədisi yalnız İmam Əhməd رحمه الله rəvayət etmişdir.[2] Lakin bu günahın olduqca ağır olduğu əl-Buxari və Muslimin “Səhih” əsərlərində İbn Məsuddan رضي الله عنه rəvayət etdikləri hədisdə də öz təsdiqini tapmışdır. Rəvayət edilir ki, Abdullah ibn Məsud رضي الله عنه demişdir: “Bir dəfə mən Peyğəmbərdən ﷺ soruşdum: “Hansı günah Allah yanında ən böyük günah sayılır?” O buyurdu: “Səni yaradan Allaha başqa birisini tay tutmaq!” Mən yenə soruşdum: “Bəs sonra hansıdır?” O dedi: “Övladının səninlə birgə yemək yeyəcəyindən qorxub onu öldürmək!” Mən yenə soruşdum: “Sonra hansıdır?” O dedi: “Qonşunun zövcəsi ilə zina etmək!”[3]

İmam Əhməd رحمه الله rəvayət etmişdir ki, Aişə رضي الله عنها demişdir: “Bir dəfə mən Peyğəmbərdən ﷺ soruşdum: “Ey Allahın Elçisi, mənim iki qonşum var. Onlardan hansı birinə hədiyyə verim?” Peyğəmbər ﷺ belə buyurdu: “Qapısı sənə ən yaxın olana[4]”.[5] Hədisi əl-Buxari رحمه الله də rəvayət etmişdir.

Uca Allah buyurur: “**yaxın yoldaşa...**”. Əli və İbn Məsud رضي الله عنهما demişlər: **“Yaxın yoldaş”** dedikdə qadın (həyat yoldaşı) nəzərdə tutulur”. İbn Əbu Hatim رحمه الله demişdir: “Oxşar təfsir Abdur-Rahmən ibn Əbu Leylə, İbrahim ən-Nəxai, əl-Həsən və bir rəvayətdə Səid ibn Cubeyrdən nəql edilmişdir”.[6] İbn Abbas رضي الله عنهما və bir çox alimlər isə burada yol yoldaşı nəzərdə tutulduğunu demişlər. Səid ibn Cubeyr رحمه الله demişdir: “Bu, əməlisaleh yoldaşdır”. Zeyd ibn Əsləm رحمه الله demişdir: “Səfərdə olmadığın vaxtlarda oturub-durduğun kəs, səfərdə isə yol yoldaşındır”.

Ayədə keçən “**müsafirə**” sözünün təfsirində İbn Abbas رضي الله عنهما və bir çox alimlər demişlər: “O, qonaqdır”. Mucahid və başqaları رحمهم الله isə demişlər: “Səfərdə ikən yolüstü səni ziyarət edən adamdır”. Bu rəy daha qüvvətlidir. Əgər qonaq olduğunu deyənlər yoldan keçən

[1] Əhməd, 23854, 23905. Hədis səhihdir. Bax: Səhih ət-Tərğib vat-Tərhib, 2404, 2549.

[2] “əl-Musnəd” (6/7 Hələbi nəşri); əl-Buxari “Ədəbul-Mufrad” əsəri (103), əl-Munziri “ət-Tərğib” (3/233); ət-Tabərani “əl-Kəbir” və “əl-Əvsət” əsərləri. (Əhməd Şakir).

[3] əl-Buxari (8/124 Fəthul-Bari); Muslim (1/36-37). “ən-Nisa” surəsinin 29-31-ci ayələrinin təfsirində hədis daha geniş mətnlə keçmişdir. (Əhməd Şakr). əl-Buxari, 6313, 6811; Muslim, 124, 267.

[4] Burada söhbət maddi imkanın məhdud olmasından gedir. Yəni əgər veriləcək hədiyyə cəmi bir dənədirsə, onu yaxın qonşuya vermək lazımdır. İmkan daxilində isə yaxın qonşuların hamısına hədiyyə vermək bəyənilir.

[5] Əhməd, 26068, 26554; əl-Buxari, 2099, 2259, 2405, 2595.

[6] İbn Əbu Hatim, 4862.

adam nəzərdə tutmuşlarsa, onda bu iki rəy eynidir. Müsafir barədə “ət-Tövbə” surəsinin təfsirində daha ətraflı məlumat veriləcək. Yalnız Allaha güvənir və Ona təvəkkül edirik.

Uca Allah “**və sahib olduğunuz kölə və kənizlərə yaxşılıq edin!**” buyurmaqla kölələrlə yaxşı davranmağı əmr edir. Çünki kölə çarəsiz və zəifdir. İnsanların əllərində əsirdir. Bu səbəbdən Peyğəmbər ﷺ ölümündən əvvəl tutulduğu xəstəlikdə ümmətinə vəsiyyət edərək “Namazlara və sahib olduğunuz kölələrə diqqət yetirin” demiş və bunu dəfələrlə təkrarlamışdır.[1]

İmam Əhməd ﷺ əl-Miqdam ibn Mədikəribdən ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: “Özün yediyin sənin üçün bir sədəqədir. Uşağına yedirtdiyin sənin üçün bir sədəqədir. Zövcənə yedirtdiyin sənin üçün bir sədəqədir. Xidmətçinə yedirtdiyin sənin üçün bir sədəqədir”.[2] Hədisi ən-Nəsəi ﷺ də rəvayət etmişdir. İsnadı səhihdir.[3] Allaha həmd olsun!

Rəvayət edilir ki, bir dəfə Abdullah ibn Amr ﷺ nəzarətçisindən soruşdu: “Kölələrə yemək verdinmi?” O “Xeyr” deyə cavab verdikdə Abdullah dedi: “Get onlara yemək ver! Çünki Allah Elçisi ﷺ belə buyurmuşdur: “Sahib olduğu kölələrinə yemək verməmək insan üçün günah olaraq yetər”.[4] Hədisi Muslim ﷺ rəvayət etmişdir.[5] Əbu Hureyra ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: “Sahib olduğunuz kölələri yedirdin, geyindirin və onları gücləri yetməyəcək işlərlə mükəlləf etməyin!”[6] Bu hədisi də Muslim ﷺ rəvayət etmişdir.[7] Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Birinizin xidmətçisi ona yemək gətirdiyi zaman onu yanında oturtmasa belə, heç olmasa, ona bir və ya iki loxma yemək versin. Çünki bunu o hazırlamışdır”.[8] Hədisi əl-Buxari və Muslim ﷺ rəvayət etmişlər. Hədisin mətni əl-Buxariyə ﷺ aiddir. Əbu Zərr ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Kölələriniz sizin qardaşlarınızdır! Allah onları sizin tabeçiliyinizə vermişdir. Kimin qardaşı öz tabeçiliyi altında olsa, yediyindən ona da yedirtsin, geyindiyindən ona da geyindirsin!

[1] İmam Əhməd (12195) Ənəsdən ﷺ rəvayət etmişdir. (Əhməd Şakir). Əhməd, 26699, 26726, 27193, 27219.

[2] Əhməd, 17218, 17311; ən-Nəsəi “Sunənul-Kubra” 9141, 9185. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 452.

[3] “əl-Musnəd” (17245). (Əhməd Şakir).

[4] Muslim, 1662, 2359.

[5] Muslim (1/274); “əl-Musnəd” (6495, 6842). (Əhməd Şakir).

[6] Muslim, 3141, 4406.

[7] Muslim (2/21); “əl-Musnəd” (7358, 7359). (Əhməd Şakir).

[8] əl-Buxari, 2370, 2557, 5039, 5460.

Onları gücləri çatmadığı bir işlə yükləməyin. Hərgah onları gücləri çatmadığı bir işlə yükləsəniz, onda onlara yardım edin".[1] Hədisi əl-Buxari və Muslim ﵏ rəvayət etmişlər.

Uca Allah buyurur: "**Həqiqətən, Allah lovğalıq edənləri və özünü öyənləri sevmir**". Yəni özünü bəyənən, qürurlanan, təkəbbürlük edən, insanlara qarşı lovğalıq edən, özünü insanlardan daha xeyirli görən kəsləri Allah, əlbəttə, sevməz. Öz nəzərində o, böyük adam olsa da, Allah qatında alçaq, insanların gözündə isə sevilməyən adamdır.

﴿ ٱلَّذِينَ يَبۡخَلُونَ وَيَأۡمُرُونَ ٱلنَّاسَ بِٱلۡبُخۡلِ وَيَكۡتُمُونَ مَآ ءَاتَىٰهُمُ ٱللَّهُ مِن فَضۡلِهِۦۗ
وَأَعۡتَدۡنَا لِلۡكَٰفِرِينَ عَذَابٗا مُّهِينٗا ٣٧ وَٱلَّذِينَ يُنفِقُونَ أَمۡوَٰلَهُمۡ رِئَآءَ ٱلنَّاسِ وَلَا يُؤۡمِنُونَ بِٱللَّهِ
وَلَا بِٱلۡيَوۡمِ ٱلۡأٓخِرِۗ وَمَن يَكُنِ ٱلشَّيۡطَٰنُ لَهُۥ قَرِينٗا فَسَآءَ قَرِينٗا ٣٨ وَمَاذَا عَلَيۡهِمۡ لَوۡ ءَامَنُواْ بِٱللَّهِ
وَٱلۡيَوۡمِ ٱلۡأٓخِرِ وَأَنفَقُواْ مِمَّا رَزَقَهُمُ ٱللَّهُۚ وَكَانَ ٱللَّهُ بِهِمۡ عَلِيمًا ٣٩ ﴾

**38. Və o kəslər ki öz mallarını insanlara göstərmək məqsədilə xərcləyir, Allaha və Axirət gününə inanmırlar. Şeytanla yoldaşlıq edənlərin yoldaşı necə də pisdir!**

**39. Onlar Allaha və Axirət gününə iman gətirib, Allahın onlara verdiyi ruzidən Onun yolunda xərcləsəydilər, nə itirərdilər? Allah onların hər bir işini bilir.**

Uca Allah bu ayədə mallarını Allah yolunda xərcləməyə xəsislik edib Allahın əmr etdiyi şəkildə valideynlərə, qohumlara, yetimlərə, kasıblara, yaxın və uzaq qonum-qonşuya, yaxın yoldaşa, müsafirə, sahib olduğu kölələrə xərcləməyən, Allahın onlar üzərindəki haqqını verməyən, üstəlik insanları da xəsisliyə sövq edənləri məzəmmət edir. Peyğəmbər ﷺ demişdir: "Xəsislikdən daha betər xəstəlik ola bilərmi?!"[2] Həmçinin demişdir: "Xəsislikdən çəkinin! Çünki xəsislik sizdən əvvəlki ümmətlərin həlak olmasına səbəb olmuşdur. Xəsislik onları qohumluq əlaqələrini kəsməyə sövq etmiş, onlar da buna tabe olmuşlar. Xəsislik onları günahlara sövq etmiş, onlar da bu günahları etmişlər".[3]

---

[1] əl-Buxari, 2359, 2545; Muslim, 3139, 4405.

[2] Hədisi əl-Buxari "Ədəbul-Mufrad" əsərində (296) Cabirdən, əl-Hakim (3/219) Əbu Hureyradan ﷺ Peyğəmbərin ﷺ sözü olaraq, əl-Buxari "Səhih" əsərində (6/172, 8/75 Fəthul-Bari) Cabirdən Əbu Bəkrin ﷺ sözü olaraq rəvayət etmişlər. Bax: "əl-İsabə" (1/155, 4/290-291). (Əhməd Şakir). əl-Buxari, 4032, 4383; Əhməd, 14301, 14340.

[3] İmam Əhmədin (6487) Abdullah ibn Amr ibn əl-Asdan ﷺ rəvayət etdiyi uzun hədisin bir hissəsidir. Həmçinin hədisin bu hissəsini Əbu Davud (1698) da rəvayət etmişdir (Əhməd

Uca Allah buyurur: "**Allahın Öz lütfündən onlara verdiyini gizlədirlər**". Xəsis insan Allahın ona verdiyi nemətləri danır. Buna görə də bu nemətlər o insanın nə yeyib-içməyində, nə geyimində, nə də malını xərcləməyində özünü büruzə vermir. Necə ki Uca Allah başqa bir ayədə buyurur: "**Həqiqətən, insan Rəbbinə qarşı çox nankordur və o özü də bunun** (yəni öz halının və davranışının) **şahididir**. **Həqiqətən, insan var-dövlətə çox hərisdir**" ("əl-Adiyat", 6-8). Bu ayədə isə "**Allahın Öz lütfündən onlara verdiyini gizlədirlər**" buyurur və belə edənləri "**Biz kafirlər üçün alçaldıcı bir əzab hazırlamışıq**" deməklə təhdid edir.

Küfr sözünün lüğəvi mənası örtmək və gizlətməkdir. Xəsis insan da Allahın ona verdiyi nemətləri örtür, gizlədir və danır. Bu baxımdan xəsis insan Allahın ona verdiyi nemətləri inkar edir. Bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Uca Allah bir quluna nemət verdikdə bu nemətin təsirini o qulun üzərində görünməsini sevər".[1] Peyğəmbərin ﷺ etdiyi duaların birində deyilir: "Allahım, bizi nemətinə şükür edən, Sənə təriflər deyən və bu nemətləri qəbul edən qullarından et! Allahım, bizə olan nemətlərini tamamla!"[2]

Bəzi alimlər bu ayəni Peyğəmbərin ﷺ Tövratda gələn vəsflərini gizlətməklə özlərində olan elmi bildirməyə xəsislik edən yəhudilərə aid etmişlər. Bu səbəbdən Uca Allah ayənin sonunda "**Biz kafirlər üçün alçaldıcı bir əzab hazırlamışıq**" buyurur. Bu rəyi İbn İshaq رحمه الله İbn Abbasdan رضي الله عنهما rəvayət etmişdir. Mucahid رحمه الله və bir çoxları da belə demişlər.

Şübhə yoxdur ki, ayənin yəhudilərə aid olması ehtimalı da var. Baxmayaraq ki, elmdə xəsislik etmək, ilk növbədə, bu ayəyə daxildir, lakin ayənin zahirindən aydın olan budur ki, burada malda xəsislik edəndən söhbət gedir. Çünki ayənin məzmunu qohumlara və zəiflərə mal sərf etmək barədədir. Bundan sonrakı ayənin məzmunu da belədir. Uca Allah bu ayədə "**Və o kəslər ki öz mallarını insanlara göstərmək məqsədilə xərcləyir, Allaha və Axirət gününə inanmırlar**" buyurur. Uca Allah əvvəlki ayədə mallarını Onun yolunda xərcləməyənləri

Şakir). Əbu Davud, 1698, 1700. Hədis səhihdir. Bax: Səhih ət-Tərğib vat-Tərğib, 2604.

[1] Hədisi mənaca İmam Əhməd "əl-Musnəd" əsərində (6708), ət-Tirmizi (4/25) və əl-Hakim (4/135) Abdullah ibn Amrdan رضي الله عنه, İmam Əhməd, ət-Tabəri və əl-Beyhəqi رحمه الله İmran ibn Husayndan رضي الله عنه rəvayət etmişlər (Əhməd Şakir). ət-Tirmizi, 2819, 3051; Əhməd, 9223. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 1290.

[2] Bu dua namaz əsnasında təşəhhüddən sonra deyilən məşhur duadır. Hədisi Əbu Davud (969) rəvayət etmişdir. əl-Munziri hədisi ət-Tirmiziyə, ən-Nəsəiyə və İbn Məcəyə رحمه الله nisbət etmişdir. ət-Tirmizi رحمه الله hədisin səhih olduğunu bildirmişdir. (Əhməd Şakir). əl-Buxari "Ədəbul-Mufrad" 630; Əbu Davud, 969, 971. Hədisin isnadı səhihdir.

məzəmmətlə zikr etmişdir ki, bunlar da xəsislərdir. Sonrakı ayədə isə mallarını riyakarlıqla sərf edənlər zikr edilmişdir. Onlar öz mallarını Allahın Üzü xatirinə (ixlasla, savabını Allahdan umaraq) deyil, camaat arasında şan-şöhrət qazanmaq və insanların onları tərifləyərək səxavətli olduqlarını deməләri üçün xərcləyərlər. Cəhənnəmə ilk atılacaq üç sinif insanın – məqsədləri özlərini insanlara göstərmək olan alim, qazi (döyüşən) və sədəqə verənin zikr edildiyi hədisdə bildirilir ki, sərvət sahibindən malını haraya xərclədiyi soruşulduqda belə deyəcək: "Allahım, Sənin xərclənməsini istədiyin heç bir şeyi tərk etmədim və sənin yolunda xərclədim". Uca Allah ona deyəcək: "Yalan danışdın! Sənə "Nə səxavətli insandır!" desinlər deyə malından xərcləmisən. Ona da artıq nail olmusan".[1] Yəni sən mükafatını artıq dünyada almısan. Etdiyin əməllə buna nail olmaq istəyirdin.

Bir hədisdə Peyğəmbər ﷺ Adiy ﵁ adlı səhabəyə belə demişdir: "Atanın etdiyi yaxşılıqlarla məqsədi vardı. Ona da artıq nail olmuşdur".[2] Başqa bir hədisdə bir dəfə Peyğəmbərdən ﷺ soruşdular ki, Abdullah ibn Cudanın cahiliyyə dövründə malından insanlara xərcləməsi və qul azad etməsi ona fayda verəcəkmi? Peyğəmbər ﷺ buyurdu: "Bu ona fayda verməyəcək, çünki o heç vaxt "Ey Rəbbim! Din (Qiyamət) günü mənim xətalarımı bağışla!" deməmişdir".[3]

Bu səbəbdən Uca Allah o kəslər barədə "**Allaha və Axirət gününə inanmırlar**" buyurur. Yəni onları bu pis əmələ sövq edən və itaətləri şəriətin buyurduğu kimi etməkdən yayındıran şeytan olmuşdur. Şeytan onlara günah işləri xoş göstərmiş və onları tovlayaraq haqq yoldan azdırmışdır və onlara yoldaş olaraq çirkin əməlləri gözəl göstərmişdir. Uca Allah buyurur: "**Şeytanla yoldaşlıq edənlərin yoldaşı necə də pisdir!**"

Sonra Uca Allah buyurur: "**Onlar Allaha və Axirət gününə iman gətirib, Allahın onlara verdiyi ruzidən Onun yolunda xərcləsəydilər, nə itirərdilər?**", yəni əgər onlar riyakarlıqdan əl çəkib gözəl yola

[1] Muslimin, ət-Tirmizinin, ən-Nəsəinin və İbn Hibbanın ﵏ Əbu Hureyradan ﵁ rəvayət etdikləri uzun hədisin bir hissəsidir. Bax: "ət-Tərğib", (1/29). (Əhməd Şakir). Muslim, 1905, 5032.

[2] Hədisi İmam Əhməd "əl-Musnəd" əsərində (4/379 Hələbi nəşri) bu şəkildə rəvayət etmişdir: "Mən (Adiy) dedim: "Ey Allahın Elçisi, atam qohumlarına yaxşılıq edər və digər yaxşı əməlləri edərdi. Bu əməllərin (Qiyamət günü) ona bir faydası olacaqmı? Yəni savab qazanıbmı?" Peyğəmbər ﷺ dedi: "Atanın bu yaxşılıqları etməkdə məqsədi vardı. Ona da artıq nail olmuşdur". (Əhməd Şakir). Əhməd, 18288, 18451, 19393. Şueyb əl-Arnavut hədisin həsən olduğunu bildirmişdir.

[3] Hədis "Ali-İmran" surəsinin 90-91-ci ayələrinin təfsirində keçmişdir. Hədisi Əhməd və Muslim Aişədən ﵂ rəvayət etmişlər. (Əhməd Şakir). Muslim, 315, 540.

üz tutsaydılar, Allahın yaxşı işlər görənlərə Axirət həyatında vəd etdiklərinə ümid edərək Allaha imana və ixlasa dönsəydilər, Allahın onlara verdiyi ruzidən Allahın sevib və razı qaldığı şəkildə xərcləsəydilər, nə zərər çəkərdilər?

Uca Allah buyurur: "**Allah onların hər bir işini bilir**", yəni Allah onların yaxşı və pis niyyətlərini yaxşı bilir. Onlardan kimin müvəffəqiyyətə layiq olduğunu bilir və onu doğru yola yönəldir, razı qalacağı saleh əməllər işləməyə müvəffəq edir. Uca Allah kimin alçalmağa və Allah dərgahından qovulmağa layiq olduğunu da yaxşı bilir. Allahın qapısından qovulmuş insan dünya və Axirətdə zərərə və ziyana uğramışdır. Belə olmaqdan Allaha sığınırıq!

﴿ إِنَّ ٱللَّهَ لَا يَظۡلِمُ مِثۡقَالَ ذَرَّةٖۖ وَإِن تَكُ حَسَنَةٗ يُضَٰعِفۡهَا وَيُؤۡتِ مِن لَّدُنۡهُ أَجۡرًا عَظِيمٗا ٤٠
فَكَيۡفَ إِذَا جِئۡنَا مِن كُلِّ أُمَّةِۭ بِشَهِيدٖ وَجِئۡنَا بِكَ عَلَىٰ هَٰٓؤُلَآءِ شَهِيدٗا ٤١ يَوۡمَئِذٖ يَوَدُّ ٱلَّذِينَ
كَفَرُواْ وَعَصَوُاْ ٱلرَّسُولَ لَوۡ تُسَوَّىٰ بِهِمُ ٱلۡأَرۡضُ وَلَا يَكۡتُمُونَ ٱللَّهَ حَدِيثٗا ٤٢ ﴾

**40. Şübhəsiz ki, Allah zərrə qədər haqsızlıq etməz. Əgər qulun gördüyü iş yaxşı əməl olarsa, Allah onun savabını qat-qat artırar və bu əməl sahibinə Öz tərəfindən böyük mükafat verər.**
**41. Hər ümmətdən bir şahid gətirəcəyimiz və səni də onlara şahid gətirəcəyimiz zaman onların halı necə olacaq?**
**42. Küfr edib Peyğəmbərə asi olanlar o gün yerlə bir olmalarını təmənna edər və heç bir sözü Allahdan gizlədə bilməzlər.**

Uca Allah bu ayədə bildirir ki, Qiyamət günü O, qullarından heç kimə nə xardal dənəsi mislində, nə də bundan daha kiçik zərrə qədər zülm etməyəcək. Əksinə, əgər qul yaxşı əməl etmişsə, ona əvəzini tam və artıqlaması ilə verəcək. Necə ki Uca Allah başqa ayədə belə buyurur: "**Biz Qiyamət günü ədalət tərəziləri ilə haqq-hesab çəkəcəyik. Heç kimə hər hansı bir şeydə ədalətsizlik edilməyəcəkdir. Görülmüş iş bir xardal dənəsi mislində olsa belə, onu gətirib tərəziyə qoyacağıq. Biz haqqı araşdırmağa bəs edərik**" ("əl-Ənbiya", 47). Loğman barədə xəbər verərək buyurur: "**Loğman dedi: "Oğlum! Gördüyün iş bir xardal dənəsi ağırlığında olsa da, bir qayanın içində, yaxud göylərdə və ya yerin dibində olsa da, Allah onu aşkar edər. Həqiqətən, Allah Lətifdir, Xəbərdardır**" ("Loğman", 16). Həmçinin buyurur: "**O gün insanlar əməllərinin onlara**

**göstərilməsi üçün dəstə-dəstə gələcəklər. Zərrə qədər yaxşılıq edən əvəzini alacaqdır. Zərrə qədər pislik edən də əvəzini alacaqdır**" ("əz-Zəlzələ", 6-8). əl-Buxari və Muslimin "Səhih" əsərlərində Əbu Səid əl-Xudridən rəvayət olunan uzun şəfaət hədisində Peyğəmbər ﷺ demişdir: "Uca Allah (mələklərə) buyuracaq: "Gedin, qəlbində zərrə qədər imanı olanları atəşdən çıxarın!"[1] Muslimin rəvayətində isə "Gedin, qəlbində xardal dənəsi ağırlığından daha az, daha az, daha az imanı olan kimsələri atəşdən çıxarın! Onlar da gəlib böyük bir toplum insanı atəşdən çıxaracaqlar". Sonra Əbu Səid əl-Xudri dedi: "İstəsəniz, sözlərimin təsdiqi olaraq bu ayəni oxuyun: "**Şübhəsiz ki, Allah zərrə qədər haqsızlıq etməz. Əgər qulun gördüyü iş yaxşı əməl olarsa, Allah onun savabını qat-qat artırar və bu əməl sahibinə Öz tərəfindən böyük mükafat verər**" ("ən-Nisa", 40)".[2] İmam Əhməd Əbu Osman ən-Nəhdinin belə dediyini rəvayət edir: "Bir dəfə mən Əbu Hureyranın yanına gəlib ona dedim: "Mənə çatıb ki, sən bir yaxşılığın min-min qat artırılacağını deyirsən". Əbu Hureyra dedi: "Burada səni təəccübləndirən nə var ki?! Mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: "Həqiqətən, Allah yaxşılığı iki min dəfə min qat artırar".[3] Hədisi İbn Əbu Hatim də rəvayət etmişdir.[4]

Uca Allah buyurur: "**Hər ümmətdən bir şahid gətirəcəyimiz və səni də onlara şahid gətirəcəyimiz zaman onların halı necə olacaq?**" Uca Allah bu ayədə Qiyamət gününün dəhşətindən və şiddətindən xəbər verərək buyurur ki, Qiyamət günü hər ümmətdən bir şahid, yəni peyğəmbərlər gətiriləcəyi zaman onların halı necə olacaq? Necə ki başqa ayələrdə buyurur: "**Yer öz Rəbbinin nuru ilə işıqlanacaq, əməllər yazılmış kitab hər kəsin qarşısına qoyulacaq, peyğəmbərlər və şahidlər gətiriləcəkdir. Onların arasında ədalətlə hökm veriləcək və onlara haqsızlıq edilməyəcək**" ("əz-Zumər", 69); "**O gün hər ümmətə özlərindən bir şahid göndərəcəyik, səni də onlara şahid gətirəcəyik. Biz Kitabı sənə hər şey üçün bir izah, müsəlmanlara da doğru yol göstəricisi, mərhəmət və müjdə olaraq nazil etdik**" ("ən-Nəhl", 89). əl-Buxari Abdullah ibn Məsuddan rəvayət etmişdir ki, "Bir dəfə Peyğəmbər ﷺ mənə buyurdu: "Mənə Quran oxu!" Dedim: "Ey Allahın Elçisi, Quran sənə nazil olduğu halda,

---

[1] əl-Buxari, 6886, 7439.

[2] "əl-Musnəd" (11144, 11922); əl-Buxari (13/358-361 Fəthul-Bari); Muslim (1/66-67). Hədisin təxrici ət-Təbəridədir (9506, 9507). (Əhməd Şakir). əl-Buxari, 6956, 7510; Muslim, 286, 500.

[3] Əhməd, 10770, 7932. Hədis zəifdir. Bax: Silsilə əd-Daifə, 3975.

[4] Bu hədis "əl-Bəqərə" surəsinin 243-245-ci ayələrinin təfsirində keçmişdir. (Əhməd Şakir).

onu sənə mənmi oxuyacağam?" Peyğəmbər ﷺ dedi: "Bəli, mən onu başqasından dinləməyi xoşlayıram". Mən ona "ən-Nisa" surəsini oxumağa başladım. Nəhayət, surənin **"Hər ümmətdən bir şahid gətirəcəyimiz və səni də onlara şahid gətirəcəyimiz zaman onların halı necə olacaq?"** ayəsinə çatdıqda Peyğəmbər ﷺ "Kifayətdir!" dedi. Mən başımı qaldırdıqda Peyğəmbərin ﷺ gözlərinin yaşla dolduğunu gördüm".[1] Hədisi həmçinin Əhməd və Muslim رحمه الله rəvayət etmişlər. Hədis bir çox yollarla İbn Məsuddan رضي الله عنه rəvayət edilmişdir.[2]

İbn Əbu Hatim رحمه الله Yunus ibn Muhəmməd ibn Fudalə əl-Ənsaridən, o da atasından (Fudalə atasının Peyğəmbərin ﷺ səhabələrindən biri olduğunu demişdir) rəvayət etmişdir ki, bir dəfə Peyğəmbər ﷺ Bənu Zəfər qəbiləsində onları ziyarət etdi və həmin gün Bənu Zəfər qəbiləsinin yaşadığı ərazidə olan bir daşın üzərində oturdu. Peyğəmbərin ﷺ yanında İbn Məsud, Muaz ibn Cəbəl və səhabələrindən bəziləri vardı. Peyğəmbər ﷺ Quranı əzbər bilənlərdən birinə Quran oxumağı buyurdu. Quran oxuyan Uca Allahın "**Hər ümmətdən bir şahid gətirəcəyimiz və səni də onlara şahid gətirəcəyimiz zaman onların halı necə olacaq?**" ayəsinə çatdıqda Peyğəmbər ﷺ ağladı. Hətta saqqalı və yanaqları ağlamaqdan titrəyirdi. Peyğəmbər ﷺ dedi: "Ey Rəbbim, mən gördüyüm kəslərə şahidəm, bəs görmədiklərimin halı necə olacaq?"[3] İbn Cərir رحمه الله Abdullah ibn Məsuddan رضي الله عنه rəvayət etmişdir ki, Peyğəmbər ﷺ Uca Allahın "**Hər ümmətdən bir şahid gətirəcəyimiz və səni də onlara şahid gətirəcəyimiz zaman onların halı necə olacaq?**" ayəsini dinlədikdən sonra dedi: "Allahım, nə qədər ki onların arasındayam, mən onlara şahidəm. Sən məni onların arasından götürdükdən sonra isə onlara nəzarət edən Sənsən".[4]

Uca Allah buyurur: "**Küfr edib Peyğəmbərə asi olanlar o gün yerlə bir olmalarını təmənna edər**", yəni o gün görəcəkləri dəhşət, başlarına gələcək müsibət və rüsvayçılıq səbəbindən yerin yarılıb onları udmasını arzulayacaqlar. Necə ki Uca Allah başqa bir ayədə buyurur: "**O gün insan öz əlləri ilə nələr etdiyini görəcək, kafir isə "Kaş mən torpaq olaydım!" deyəcəkdir**" ("ən-Nəbə", 40).

[1] əl-Buxari, 4216, 4582.

[2] əl-Buxari (9/81 Fəthul-Bari); "əl-Musnəd" (3550, 3551, 3606, 4118); ət-Tabəri (9519). (Əhməd Şakir).

[3] Əbu Hatimin رحمه الله isnadı səhihdir. Həmçinin əl-Buxari "ət-Tərixul-Kəbir" əsərində (1/1/16) səhih isnadla adəti üzrə müxtəsər rəvayət etmişdir. Hədisi əl-Hafiz İbn Həcər "əl-İsabə" (6/50) əsərində qeyd etmiş və əl-Bəğavi və İbn Şahinə رحمه الله nisbət etmişdir. (Əhməd Şakir). ət-Tabərani "Mucəmul-Kəbir" 15834. Hədis zəifdir. Bax: Silsilə əd-Daifə, 6356.

[4] ət-Tabəri (9518). İsnadı səhihdir (Əhməd Şakir). ət-Tabəri, 9518, 9571; Muslim, 3191, 7380.

Uca Allah buyurur: "**və heç bir sözü Allahdan gizlədə bilməzlər**". Bunυnla Uca Allah onların bütün etdiklərini etiraf edəcəklərini və Ondan heç bir şeyi gizlədə bilməyəcəklərini xəbər verir. İbn Cərir Səid İbn Cubeyrdən رضي الله عنه rəvayət etmişdir ki, bir kişi İbn Abbasın رضي الله عنهما yanına gələrək dedi: "Uca Allah bir ayədə Qiyamət günü müşriklərin "**Rəbbimiz Allaha and olsun ki, biz müşrik olmamışıq!**" ("əl-Ənam", 23) deyəcəklərini xəbər verir. Başqa bir ayədə isə "...**heç bir sözü Allahdan gizlədə bilməzlər**" buyurur. Bu iki ayəni necə cəm edək?" İbn Abbas رضي الله عنهما ona belə cavab verdi: "Onların "**Rəbbimiz Allaha and olsun ki, biz müşrik olmamışıq!**" demələrinə gəlincə onlar Cənnətə yalnız müsəlmanların daxil olduğunu gördükdə deyəcəklər: "Gəlin Allaha şərik qoşmağımızı inkar edək və "**Rəbbimiz Allaha and olsun ki, biz müşrik olmamışıq!**" Bu vaxt Uca Allah onların ağızlarını möhürləyəcək. Qazandıqları günahlar barəsində onların əlləri və ayaqları danışacaq. Beləcə, "**heç bir sözü Allahdan gizlədə bilməzələr**".[1]

﴿يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ لَا تَقۡرَبُواْ ٱلصَّلَوٰةَ وَأَنتُمۡ سُكَٰرَىٰ حَتَّىٰ تَعۡلَمُواْ مَا تَقُولُونَ وَلَا جُنُبًا إِلَّا عَابِرِي سَبِيلٍ حَتَّىٰ تَغۡتَسِلُواْۚ وَإِن كُنتُم مَّرۡضَىٰٓ أَوۡ عَلَىٰ سَفَرٍ أَوۡ جَآءَ أَحَدٞ مِّنكُم مِّنَ ٱلۡغَآئِطِ أَوۡ لَٰمَسۡتُمُ ٱلنِّسَآءَ فَلَمۡ تَجِدُواْ مَآءٗ فَتَيَمَّمُواْ صَعِيدٗا طَيِّبٗا فَٱمۡسَحُواْ بِوُجُوهِكُمۡ وَأَيۡدِيكُمۡۗ إِنَّ ٱللَّهَ كَانَ عَفُوًّا غَفُورًا ٤٣﴾

**43. Ey iman gətirənlər! Sərxoş ikən nə dediyinizi anlayana qədər, eləcə də cunub olduğunuz halda, – yolüstü keçən istisna olmaqla – qüsl edənədək namaza yaxınlaşmayın. Əgər xəstə və ya səfərdə olsanız, yaxud sizlərdən biri ayaqyolundan gəlibsə və ya qadınlara toxunmusunuzsa, su tapmasanız, pak torpaqla təyəmmüm edin, üzünüzə və əllərinizə sürtün! Həqiqətən, Allah əfv edəndir, bağışlayandır.**

Uca Allah bu ayədə mömin qullarına sərxoş halda namaz qılmağı qadağan edir, çünki sərxoş halda namaz qılan namazda nə dediyini anlamır. Həmçinin cunub halında namaz qılınan yerlərə, yəni məscidlərə yaxınlaşmağı da qadağan edir. Yalnız məsciddə qalmadan, bir qapıdan girib, digər qapıdan çıxan istisnadır. Bu hökm (sərxoş halda namaz qılmağın qadağan olması), sərxoşedici içkilər haram olmamışdan əvvəl idi. "əl-Bəqərə" surəsinin "**Səndən sərxoşedici içki və qumar barəsində soruşurlar**" ("əl-Bəqərə", 219) ayəsinin

[1] ət-Təbəri (9520). İsnadı səhihdir (Əhməd Şakir). ət-Təbəri, 9520, 9573.

təfsirində qeyd etdiyimiz hədis buna dəlalət edir. Peyğəmbər ﷺ bu ayəni (“əl-Bəqərə”, 219) Ömərə ؓ oxuduqda Ömər “Ey Allahım! Bizə şərab barədə açıq-aydın bir qərar ver!” dedi. Sonra bu ayə nazil oldu və Peyğəmbər ﷺ bu ayəni də Ömərə ؓ oxudu. Ömər “Ey Allahım! Bizə şərab barədə açıq-aydın bir qərar ver!” dedi. Bu ayə nazil olduqdan sonra səhabələr namaz vaxtlarında içki içməzdilər. Nəhayət, sərxoşedici içkilər tam qadağan olunaraq “**Ey iman gətirənlər! Şübhəsiz ki, sərxoşedici içki də, qumar da, tapınmaq məqsədilə dik qoyulmuş daşlar da, fal oxları da şeytan əməlindən olan murdar şeylərdir**” ayəsi, “**Siz buna son qoyacaqsınızmı?**” (“əl-Maidə”, 90-91) sözünə qədər nazil oldu və Ömər “Artıq son qoyduq, son qoyduq!” dedi”.[1] Əbu Davudun ؒ rəvayətində isə “Bundan sonra Allah Elçisinin ﷺ carçısı namaz zamanı “Sərxoş olanlar namaza yaxın durmasınlar” deyərək car çəkdi” əlavəsi var.

Təfsir alimləri İbn Əbu Hatimin ؒ Saddan ؓ rəvayət etdiyi hədisi bu ayənin nazilolma səbəbi kimi qeyd edirlər. Sad ؓ demişdir: “Dörd ayə mənə görə nazil olmuşdur. Bir dəfə ənsarlardan olan bir kişi yemək hazırladı və bəzi mühacirləri və ənsarları yeməyə dəvət etdi. Biz yedik və sərxoş olana qədər içdik. Sonra öyünməyə başladıq. Bir kişi dəvənin çənə sümüyünü götürərək Sadın burnunu yaraladı. Sadın burnunun üstü yarılmışdı. Bu hadisə içki haram olmamışdan əvvəl baş vermişdi. Bu səbəbdən “**Ey iman gətirənlər! Sərxoş ikən nə dediyinizi anlayana qədər, ...namaza yaxınlaşmayın**” ayəsi nazil oldu”.[2] Hədis tam şəkildə Muslimin “Səhih” əsərindədir.[3] İbn Məcədən ؒ başqa digər “Sunən” sahibləri də bu hədisi rəvayət etmişlər.[4]

**Bu ayənin başqa bir nazilolma səbəbi budur**: İbn Əbu Hatim ؒ rəvayət edir ki, Əli ibn Əbu Talib ؓ demişdir: “Bir dəfə Abdur-Rahmən ibn Auf bizi yeməyə dəvət etdi. O bizə şərab süzdü və bu içki bizi sərxoş etdi. Namaz vaxtı çatdıqda filankəsi imam olaraq irəli

[1] Hədis “əl-Bəqərə” surəsinin 219-220-ci ayələrinin təfsirində keçmişdir.

[2] İbn Əbu Hatim, 5353.

[3] Muslim, 3289, 4655.

[4] Bu, uzun hədisin bir hissəsidir. Hədis ət-Tayəlisinin “Musnəd” əsərindədir (208). İbn Əbu Hatim ؒ hədisi ət-Tayəlisinin ؒ yolu ilə rəvayət etmişdir. ət-Tayəlisinin ؒ rəvayətinə görə, bu hadisə Uca Allahın “**Ey iman gətirənlər! Sərxoş ikən nə dediyinizi anlayana qədər, ...namaza yaxınlaşmayın!**” (“ən-Nisa”, 43) ayəsi ilə yanaşı, bu ayənin də: “**Ey iman gətirənlər! Şübhəsiz ki, sərxoşedici içki də, qumar da, tapınmaq məqsədilə dik qoyulmuş daşlar da, fal oxları da şeytan əməlindən olan murdar şeylərdir…**” (“əl-Maidə”, 90) nazilolma səbəbidir. Lakin Əhmədin “Musnəd” əsərində (1567, 1614) və Muslimdə (2/239, 240) bu hadisənin yalnız ikinci ayənin nazilolma səbəbi olduğu bildirilir. (Əhməd Şakir).

çəkdilər və o, "əl-Kəfirun" surəsini səhv oxuyaraq "Qul yə: əyyuhəl-kə:firu:n. Mə: əbudu mə: təbudun. Və nəhnu nəbudu mə: təbudu:n" (De: "Ey kafirlər! Mən sizin ibadət etdiklərinizə ibadət etmərəm, biz sizin ibadət etdiklərinizə ibadət edirik"). Bundan sonra Uca Allah "**Ey iman gətirənlər! Sərxoş ikən nə dediyinizi anlayana qədər, ...namaza yaxınlaşmayın**" ayəsini nazil etdi".[1] Hədisi ət-Tirmizi ﷺ də rəvayət etmiş və "həsən-səhih" olduğunu bildirmişdir.

İbn Cərir ﷺ eyni hədisi Əlidən ﷺ belə rəvayət etmişdir: "Əli, Abdur-Rahmən və başqa bir kişi şərab içmişdilər. Abdur-Rahmən onlara namaz qıldırdı və namazda "əl-Kəfirun" surəsini oxudu, lakin ayələri qarışdırdı. Bu səbəbdən "**Ey iman gətirənlər! Sərxoş ikən nə dediyinizi anlayana qədər, ...namaza yaxınlaşmayın**" ayəsi nazil oldu".[2] Hədisi Əbu Davud və ən-Nəsəi ﷺ də rəvayət etmişlər.[3]

əd-Dahhək ﷺ "**Ey iman gətirənlər! Sərxoş ikən nə dediyinizi anlayana qədər, .... namaza yaxınlaşmayın**" ayəsi barədə belə demişdir: "Bununla Uca Allah içki sərxoşluğunu deyil, yuxu sərxoşluğunu nəzərdə tutmuşdur".[4] Bu sözü İbn Cərir və İbn Əbu Hatim ﷺ rəvayət etmişlər.

Sonra İbn Cərir ﷺ demişdir: "Doğru olan budur ki, burada içkidən sərxoş olmaq nəzərdə tutulmuşdur. Ayədəki qadağa deyiləni anlamayacaq dərəcədə sərxoş olana aid deyil, çünki o (deyiləni anlamayan), dəli hökmündədir. Buradakı qadağa mükəlləf olduğunu anlayan sərxoşa aiddir.

İbn Cəririn ﷺ söylədiklərinin xülasəsi budur. Bir çox üsul alimləri də bunu qeyd edərək bildirmişlər ki, bu xitab deyiləni anlamayan sərxoşa deyil, anlaya bilənə aiddir. Çünki bir insanın mükəlləf olması üçün deyiləni başa düşməsi və anlaması şərtdir. Ola bilsin, ayə sərxoşluğun tamamilə qadağan olunmasına eyham edir, çünki müsəlmanlara səhər-axşam beş vaxtda namaz qılmaq əmr olunmuşdur. Belə olan halda içki içən, namazları davamlı olaraq vaxtında yerinə yetirə bilməz. Ən doğrusunu Allah bilir. Bu baxımdan ayə Uca Allahın "**Ey iman gətirənlər! Allahdan Ona layiq olan tərzdə qorxun və ancaq müsəlman olduğunuz halda ölün!**" ("Ali-İmran", 102) ayəsinə bənzəyir. Bu ayədə Uca Allah müsəlmanlara İslam üzərində ölməyə

---

[1] İbn Əbu Hatim, 5352; ət-Tirmizi, 3300. Hədis səhihdir. Bax: Səhih və Daif Sunən ət-Tirmizi, 3026.

[2] ət-Təbəri, 9524, 9577.

[3] ət-Təbəri (9524). (Əhməd Şakir). Əbu Davud, 3673. Hədis səhihdir. Bax: Səhih və Daif Sunən Əbu Davud, 3671.

[4] Yəni yuxulu olduğunuz halda tam ayılmayana qədər namaz qılmayın. ət-Təbəri, 9534, 9588.

hazır olmağı və buna müvəffəq olmaq üçün davamlı şəkildə Allaha itaət etməyi əmr etmişdir.

Uca Allah buyurur: "...**nə dediyinizi anlayana qədər**". Bu, sərxoş insana verilə biləcək ən yaxşı tərifdir. Belə ki sərxoş nə dediyini anlamayan insana deyilir. Sərxoş insan namazda oxuduğunu qarışdıracaq, dediyi sözlərin mənasını düşünməyəcək və namazı xuşu[1] ilə qılmayacaq. İmam Əhməd ﷬ Ənəsdən ﷛ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Sizdən biriniz namaz qılarkən mürgüləyərsə, qoy namazdan çıxsın və nə dediyini anlayacaq hala gələnə qədər yatsın".[2] Hədisi yalnız İmam əl-Buxari ﷬ rəvayət etmişdir, Muslim ﷬ isə rəvayət etməmişdir. Həmçinin ən-Nəsəi ﷬ də rəvayət etmişdir.[3] Hədisin bəzi rəvayətində "Çünki o, yuxulu ola-ola namaz qıldığı zaman ola bilər ki, heç özü də bilmədən bağışlanma diləmək əvəzinə özünü söysün" əlavəsi vardır.[4]

Uca Allah buyurur: "...**eləcə də cunub olduğunuz halda, – yolüstü keçən istisna olmaqla – qüsl edənədək namaza yaxınlaşmayın**". İbn Əbu Hatim ﷬ İbn Abbasın ﷠ bu ayə barədə belə dediyini rəvayət etmişdir: "Qüslsuz (cunub) olduğunuz halda məscidə daxil olmayın. Yalnız yolüstü, məsciddə oturmadan gəlib-keçən istisnadır".[5] Abdullah ibn Məsud, Ənəs, Əbu Ubeydə, Səid ibn əl-Museyyib, Mucahid və Qatədədən ﷭ də belə rəvayət edilmişdir. İbn Cərir ﷬ rəvayət etmişdir ki, Uca Allahın "**yolüstü keçən istisna olmaqla**" ayəsi barədə Yəzid ibn Əbu Həbib ﷬ belə demişdir: "Ənsarlardan bəzilərinin qapısı məscidə açılırdı. Bəzən cunub olurdular və evlərində su olmurdu. Su gətirmək üçün isə məsciddən keçməkdən başqa çarə qalmırdı. Bu səbəbdən Uca Allah "**cunub olduğunuz halda, – yolüstü keçən istisna olmaqla – qüsl edənədək namaza yaxınlaşmayın**" ayəsini nazil etdi".[6]

---

[1] Xuşu sözünün lüğəvi mənası "mütilik" deməkdir. Namazda xuşu dedikdə - qəlbin Allaha yönəlməsi və insanın namazda dediyini anlaması nəzərdə tutulur.

[2] Əhməd, 12446, 12469, 12473. Şueyb əl-Arnavut isnadının əl-Buxari və Muslimin şərtlərinə görə səhih olduğunu bildirmişdir.

[3] Kitabın iki əlyazmasında "Hədisi yalnız Muslim rəvayət etmişdir" yazılıb. Bu isə səhvdir, çünki oxşar hədisi əl-Buxari ﷬ də rəvayət etmişdir (1/272 Fəthul-Bari). Muslim ﷬ isə rəvayət etməmişdir. əl-Hafiz İbn Həcər "Fəthul-Bari" əsərində (1/309) bunu qeyd etmişdir. Həmçinin hədis "əl-Musnəd" (12473, 12547, 11996, 13646) əsərindədir. (Əhməd Şakir).

[4] Ənəsdən ﷛ gələn rəvayətlərdə bu əlavəni tapa bilmədim. Bu əlavə Aişədən ﷞ gələn rəvayətdədir. Hədisi əl-Buxari (1/271 Fəthul-Bari) və Muslim (1/218) rəvayət etmişlər. (Əhməd Şakir). əl-Buxari, 205, 212; Muslim, 1309, 1871.

[5] əs-Suyuti "əd-Durrul-Mənsur" 4/454.

[6] ət-Təbəri (9567). Hədis "mursəl"dir. Çünki Yəzid ibn Əbu Həbib ﷬ tabiindir. Bu hədisi Peyğəmbərə ﷺ çatan sənədlə rəvayətini tapa bilmədim. Hədisi əs-Suyuti (2/166) rəvayət etmiş və yalnız ət-Təbəriyə nisbət etmişdir. (Əhməd Şakir). ət-Təbəri, 9567, 9622.

əl-Buxarinin "Səhih" əsərində varid olan bu hədis Yezid ibn Əbu Həbibin ﷺ söylədiyini təsdiqləyir. Rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: "Əgər mən insanlar arasında özümə ən yaxın dost seçməli olsaydım, hökmən Əbu Bəkri dost seçərdim. Lakin İslamda qardaşlıq bundan əfzəldir. Elə isə, Əbu Bəkrin qapısından başqa bu məscidə açılan bütün qapıları bağlayın!"[1] Peyğəmbər ﷺ bunu həyatının sonlarında demişdir. Çünki o bilirdi ki, özündən sonra Əbu Bəkr ﷺ xəlifə olacaq və müsəlmanların mənafeyi üçün əhəmiyyətli olan işlərə görə məscidə çox girməyə ehtiyac duyacaq. Bu səbəbdən Peyğəmbər ﷺ onun qapısından başqa məscidə açılan bütün qapıların bağlanılmasını əmr etmişdi. Bu hədisi "Əlinin qapısından başqa" kimi rəvayət edənlər səhv etmişlər. Necə ki bəzi hədis kitablarında belə rəvayət olunur. Doğru olan rəvayət "Səhih" əsərində varid olandır.

Bir çox alimlər bu ayəni dəlil gətirərək cunub olan adamın məsciddə qalmasının haram olduğunu demişlər, lakin məsciddən keçməsi icazəlidir. Heyzli və nifaslı[2] halda olan qadın da eyni hökmdədir. Bəzi alimlər demişlər: "Heyzli və nifaslı halda olan qadınların məsciddən keçmələri də qadağandır, çünki onların məscidi bulaşdırmaq ehtimalı var". Bəzi alimlər isə demişlər: "Əgər heyzli və nifaslı qadın məscidi bulaşdırmayacağına əmindirsə, məsciddən keçməsi icazəlidir, əgər əmin deyilsə, keçə bilməz". Muslimin "Səhih" əsərində rəvayət olunur ki, Aişə ﷺ demişdir: "Bir dəfə Peyğəmbər ﷺ mənə dedi: "Məsciddən səccadəni[3] mənə gətir!" Mən dedim: "Mən heyzli haldayam". Peyğəmbər ﷺ dedi: "(Gətir onu) heyzli olmağın səndən asılı olan bir şey deyil".[4] Muslim ﷺ eyni hədisi Əbu Hureyradan ﷺ da rəvayət etmişdir. Bu hədis heyzli qadının məsciddən keçməsinin icazəli olduğuna dəlalət edir. Nifaslı qadın da eyni hökmdədir. Ən doğrusunu isə Allah bilir.

İbn Əbu Hatim ﷺ rəvayət etmişdir ki, Əli ﷺ Uca Allahın "**cunub olduğunuz halda, – yolüstü keçən istisna olmaqla – qüsl edənədək namaza yaxınlaşmayın**" ayəsi barədə demişdir: "Cunub olan insan qüsl etməyənə qədər namaza yaxınlaşmır. Yalnız cunub olub, qüsl etməyə su tapmayan müsafir su tapıb qüsl edənə qədər (təyəmmüm etməklə) namaz qıla bilər".[5] İbn Əbu Hatim ﷺ demişdir: "Oxşar təfsir

[1] əl-Buxari, 3615, 3904.

[2] Nifas doğuşdan sonra qadının uşaqlığından gələn qandır.

[3] Üzərində namaz qılmaq üçün həsirdən və ya parçadan hazırlanmış palaz.

[4] Muslim, 450, 715.

[5] ət-Təbəri oxşar hədisi Əlidən ﷺ rəvayət etmişdir (9537, 9540). "Su tapıb qüsl edənə qədər namaz qıla bilər", yəni təyəmmüm etməklə. (Əhməd Şakir).

İbn Abbasdan (bir rəvayətdə), Səid ibn Cubeyrdən və əd-Dahhəkdən də rəvayət edilmişdir".[1] Həmçinin İbn Cərir ﷺ Əli və İbn Abbasdan ﷺ bu mənada təfsir rəvayət etmişdir. Ayənin bu cür təfsir olunmasına İmam Əhməd və "Sunən" sahiblərinin Əbu Zərdən ﷺ rəvayət etdikləri bu hədis dəlalət edir: Əbu Zərr ﷺ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "On il su tapa bilməsə belə, təmiz torpaq müsəlman üçün təmizləyicidir. Su tapdıqda isə onu dərinə sürt (qüsl et). Şübhəsiz ki ən xeyirlisi budur".[2]

İbn Cərir ﷺ hər iki rəyi nəql etdikdən sonra demişdir: "Mənə görə bu ayə barədə deyilən ən uyğun təfsir Uca Allahın "...**yolüstü keçən istisna olmaqla**" sözünü "məsciddən yolüstü keçənlər istisna olmaqla" kimi təfsir edənlərin sözüdür. Çünki Uca Allah cunub olarkən su tapa bilməyən müsafirin hökmünü "**Əgər xəstə və ya səfərdə olsanız...**" ayəsində açıqlamışdır. Əgər Uca Allah "**cunub olduğunuz halda, – yolüstü keçən istisna olmaqla – qüsl edənədək namaza yaxınlaşmayın**" ayəsi ilə müsafiri nəzərdə tutsaydı, o zaman "**Əgər xəstə və ya səfərdə olsanız**..." cümləsini təkrar zikr etməsinin bir mənası olmazdı. Çünki eyni hökm daha əvvəl qeyd edilmişdir. Beləliklə, ayənin təfsiri belə olacaq: "Ey iman gətirənlər, sərxoş ikən nə dediyinizi anlayana qədər namaz qılmaq üçün məscidlərə yaxınlaşmayın. Həmçinin cunub olduğunuz halda qüsl edənədək oraya yaxınlaşmayın. Yalnız (qalmamaq şərtilə) yolüstü keçənlər istisnadır". Ayədə عَابِرِي سَبِيلٍ [a:biri: səbi:lin] "**yolüstü keçən**" dedikdə yolu qət etmək üçün keçən nəzərdə tutulur. Bu səbəbdən ərəblər səfərdə güclü olan dəvəyə عُبْرُ أَسْفَارٍ [ubru əsfə:rin] "səfərləri keçən dəvə" deyirlər.

İbn Cəririn ﷺ üstün gördüyü bu rəy əksər alimlərin rəyidir. Ayənin zahiri də belədir. Sanki Uca Allah bu ayədə namazı naqis və məqsədinə zidd bir şəkildə qılmağı, habelə namaz yerinə naqis halda girməyi qadağan etmişdir. Naqis hal dedikdə namaza və namaz yerinə yaraşmayan cənabət nəzərdə tutulur. Ən doğrusunu isə Allah bilir.

Üç məzhəb imamı – Əbu Hənifə, əş-Şafii və Malik ﷺ Uca Allahın "**qüsl edənədək**" sözünü dəlil gətirərək cunub olanın qüsl alanadək,

[1] İbn Əbu Hatim, 5360.

[2] Hədis səhihdir. Hədisi əl-Hakim ﷺ rəvayət etmiş və səhih olduğunu bildirmişdir (1/176-177). Hədisin təxricini ət-Tirmizinin (124) şərhində qeyd etmişik. Həmçinin hədisi əl-Bəzzər ﷺ Əbu Hureyradan ﷺ rəvayət etmişdir. Mənaca oxşar hədisi ət-Təbərani ﷺ Əbu Hureyradan Əbu Zərin ﷺ hadisəsində rəvayət etmişdir. əl-Heysəmi ﷺ hədisi qeyd etmiş və demişdir: "Hədisin raviləri "Səhih" əsərinin hədislərini rəvayət edənlərdir". (Əhməd Şakir). əl-Beyhəqi "Sunənul-Kubra" 990, 1050, 1089; İbn Hibban, 1311. Bax: Səhih əl-Cami, 1666-1667.

su tapa bilmədiyi, yaxud su tapıb (xəstəlik və s. səbəbindən) istifadə edə bilmədiyi təqdirdə isə təyəmmüm edənədək məsciddə qalmasının haram olduğunu demişlər. İmam Malik ﷺ isə cunub olanın dəstəmaz aldığı təqdirdə məsciddə qalmasının icazəli olduğunu demişdir. Bu rəyində o, Muslimin ﷺ şərtinə görə səhih isnadla nəql olunan rəvayətdə səhabələrin belə etdiklərinə əsaslanmışdır. Bu hədisi Malik ﷺ özü rəvayət etmiş, həmçinin Səid ibn Mənsur "Sunən" əsərində rəvayət etmişdir.[1]

Uca Allah buyurur: "**Əgər xəstə və ya səfərdə olsanız, yaxud sizlərdən biri ayaqyolundan gəlibsə və ya qadınlara toxunmusunuzsa, su tapmasanız, pak torpaqla təyəmmüm edin**". Ayədə zikr edilən və təyəmmüm almağı icazəli edən xəstəlik su istifadə edildiyi təqdirdə hər hansı bir bədən üzvünün itirilməsindən, zədələnməsindən və ya sağalmasının gecikməsindən qorxulan hallardır. Bəzi alimlər ayənin ümumi mənasını götürərək istənilən xəstəlik səbəbindən təyəmmüm almağı icazəli görmüşlər. Ayədə zikr edilən səfər məlumdur və bu səfərin uzun və ya qısa olması fərq etməz.

Uca Allah buyurur: "**yaxud sizlərdən biri ayaqyolundan gəlibsə**". Ayədə işlənən الْغَائِطُ [əl-ğa:it] "ayaqyolu" sözünün hərfi mənası "aran (alçaq) yer" deməkdir. Burada isə kiçik hədəs (namaz qılmağa mane olan səbəb) – ayaqyoluna gedib təbii ehtiyacını ödəmək nəzərdə tutulur.

Uca Allahın "**və ya qadınlara toxunmusunuzsa**" ayəsindəki لاَمَسْتُمْ [lə:məstum] "**toxunmusunuzsa**" sözü həmçinin لَمَسْتُمْ [ləməstum] kimi də oxunmuşdur. Müfəssirlər və alimlər bu ayənin mənasında ixtilaf etmiş və ayəni iki cür şərh etmişlər:

**Birinci**: Ayədə "toxunmaq" dedikdə cinsi əlaqə nəzərdə tutulur, çünki Uca Allah başqa ayələrdə eyni sözü bu mənada işlədərək buyurur: "**Qadınlar üçün mehr təyin etdikdən sonra yaxınlıq etməzdən əvvəl onları boşasanız, təyin etdiyinizin yarısını onlara verməlisiniz**" ("əl-Bəqərə", 237); "**Ey iman gətirənlər! Əgər mömin qadınlarla evlənsəniz, sonra da onlara toxunmazdan əvvəl talaqlarını versəniz, artıq onlar üçün gözləmə müddətini saymağa –**

[1] Cunub olanın dəstəmaz almaqla məsciddə qalması bəzi səhabələrin öz rəylərinə əsaslanaraq etdikləridir. Onların etdikləri ayədə nəzərdə tutulan və ət-Təbərinin ﷺ də üstün gördüyü doğru mənaya müxalifdir. əl-Hafiz İbn Kəsir ﷺ də ət-Təbərinin ﷺ dediyi ilə razılaşmışdır. Əgər səhabənin dediyi və etdiyi Quran və Sünnəyə müxalifdirsə, dəlil olaraq götürülə bilməz. Bunu edən səhabə ictihad etdiyinə görə üzrlü sayılır, lakin kimsə bunu dəlil olaraq götürə bilməz. (Əhməd Şakir).

**onları yanınızda saxlamağa haqqınız yoxdur**" ("əl-Əhzab", 49). İbn Əbu Hatim rəvayət etmişdir ki, İbn Abbas Uca Allahın "**və ya qadınlara toxunmusunuzsa**" ayəsini cinsi əlaqə kimi təfsir etmişdir.[1] Eyni təfsir Əli, Ubey ibn Kəb, əş-Şabi, Qatədə və başqalarından da rəvayət edilmişdir.

İbn Cərir rəvayət etmişdir ki, Səid ibn Cubeyr demişdir: "Bir toplumda "qadınlara toxunmaq" barədə söhbət açıldı. Ərəb olmayan bəzi adamlar "Burada cinsi əlaqə nəzərdə tutulmur" dedilər. Bəzi ərəblər isə "Toxunmaq dedikdə cinsi əlaqə nəzərdə tutulur" dedilər. Mən İbn Abbasın yanına gedərək ona "Əcəm və ərəblərdən ibarət bir dəstə insan "qadınlara toxunmaq" sözünün mənasında ixtilaf etmişlər. Əcəmlər "Cinsi əlaqə nəzərdə tutulmur" dedilər, ərəblər isə "Burada cinsi əlaqə nəzərdə tutulur" dedilər". İbn Abbas "Bəs sən hansı dəstədən idin?" deyə soruşdu. Mən "Ərəb olmayanların rəyini dəstəklədim" dedim. İbn Abbas dedi: "Ərəb olmayan dəstə məğlub oldu. Həqiqətən, Quranda "toxunma", "yaxınlıq etmə" sözləri cinsi əlaqə mənasındadır. Uca Allah istədiyi şeyə istədiyi kimi eyham edər".[2] Sonra İbn Cərir bu rəyi İbn Əbu Hatimin sözlərini nəql etdiyi şəxslərdən rəvayət edərək demişdir: "Digər alimlər isə söyləmişlər: "Uca Allah ayədə "toxunmaq" dedikdə kişinin əl və ya hər hansı digər bir əzası ilə qadına toxunmasını nəzərdə tutmuşdur. Belə deyənlər, bədənlərinin hər hansı bir hissəsi ilə biri-birinə toxunan kişi və qadına dəstəmaz almağı vacib etmişlər".[3] Sonra İbn Cərir Abdullah ibn Məsudun belə dediyini rəvayət etmişdir: "Toxunmaq cinsi əlaqə deyil".[4] İbn Cərir bu rəyi müxtəlif yollarla İbn Məsuddan rəvayət etmişdir.

İbn Əbu Hatim demişdir: "Bu rəy İbn Ömər, Ubeydə, Əbu Osman ən-Nəhdi, Əbu Ubeydə (Abdullah İbn Məsudun oğlu), Amir, əş-Şabi və başqalarından da rəvayət edilmişdir".[5] İbn Cərir rəvayət etmişdir ki, İbn Ömər qadınını öpdükdən sonra dəstəmaz alar və qadını öpdükdən sonra dəstəmaz almağın vacib olduğunu bildirərək deyərdi: "Qadını öpmək Allahın Quranda qeyd etdiyi "toxunmaq"dır".[6]



---

[1] İbn Əbu Hatimin rəvayət etdiyi isnad səhihdir. (Əhməd Şakir). İbn Əbu Hatim, 5367.

[2] ət-Tabəri (9581, 9582). Hər iki isnad səhihdir (Əhməd Şakir). ət-Tabəri, 9638.

[3] ət-Tabəri, 9605, 9661.

[4] ət-Tabəri (9608). İsnadı səhihdir (Əhməd Şakir). ət-Tabəri, 9664.

[5] İbn Əbu Hatim, 5368.

[6] ət-Tabəri (9617). İsnadı səhihdir (Əhməd Şakir). ət-Tabəri, 9674.

Mən deyirəm: "Malik رحمه الله Abdullah ibn Ömərin رضي الله عنهما belə dediyini rəvayət etmişdir: "Bir kişinin arvadını öpməsi və əli ilə ona toxunması Allahın Quranda zikr etdiyi "toxunmaq" sayılır. Kim qadınını öpərsə və ya əli ilə ona toxunarsa, dəstəmaz almalıdır".[1]

Qadına toxunduqdan sonra dəstəmaz almağın vacib olması İmam əş-Şafii və onun davamçılarının, İmam Malikin və İmam Əhməd ibn Hənbəlin رحمهم الله məşhur olan rəyidir. Bu rəyi müdafiə edənlər belə demişlər: "Ayədəki "toxunmaq" mənasını ifadə edən لَامَسْتُمْ [lə:məstum] "**toxunmusunuzsa**" sözü həmçinin, لَمَسْتُمْ [ləməstum] kimi də oxunmuşdur. Şəriətdə bu söz əl ilə toxunmağa deyilir. Uca Allah buyurur: "**Əgər sənə kağız üzərində bir yazı nazil etsəydik və onlar da əlləri ilə ona toxunsaydılar, kafir olanlar yenə də "Bu, açıq-aydın sehrdən başqa bir şey deyil!" deyərdilər**" ("əl-Ənam", 7). Həmçinin Peyğəmbər ﷺ zina etməsini etiraf edən Maizə bu etirafını geri götürməsinə eyham edərək "Ola bilsin, sən onu (qadını) öpdün və ya ona toxundun" demişdi.[2] Səhih hədisdə Peyğəmbər ﷺ demişdir: "Əlin zinası isə qadına toxunmaqdır".[3] Aişə رضي الله عنها demişdir: "Peyğəmbərin ﷺ bizi (zövcələrini) ziyarət edib öpmədiyi və toxunmadığı günlər az idi".[4] əl-Buxari və Muslimin "Səhih" əsərlərində rəvayət olunan hədisdə Peyğəmbər ﷺ "muləməsə" (malı gözlə görmədən, sadəcə, ona əl vurmaqla onu lazımınca yoxlamayıb razılaşaraq aparılan) alış-verişi qadağan etmişdir. Bu da hər iki mənada əl ilə toxunmağa qayıdır. Bu rəy sahibləri demişlər: "Bu söz ("toxunmaq") lüğətdə cinsi əlaqə mənasında işləndiyi kimi, əl ilə toxunmaq mənasında da işlənir".

Həmçinin bu rəyin sahibləri İmam Əhmədin رحمه الله Abdur-Rahmən ibn Əbu Leylədən, onun da Muazdan رضي الله عنه rəvayət etdiyi hədisə əsaslanmışlar. Muaz رضي الله عنه demişdir: "Bir kişi Peyğəmbərin ﷺ yanına gələrək soruşdu: "Ey Allahın Elçisi, cinsi əlaqədən başqa öz arvadı ilə etdiyi hər şeyi tanımadığı bir qadınla edən kişi barədə nə deyirsən (bunun kəffarəsi nədir)?" Bu səbəbdən Uca Allah "**Gündüzün iki başında – əvvəlində və axırında və gecənin bəzi saatlarında namaz qıl! Həqiqətən, yaxşı işlər pis əməlləri silib aparır. Bu, yada salanlar üçün bir xatırlatmadır**" ("Hud", 114) ayəsini nazil etdi. Peyğəmbər ﷺ kişiyə dedi: "Dəstəmaz al, sonra namaz qıl!" Mən soruşdum: "Ey Allahın Elçisi, bu hökm yalnız ona aiddir, yoxsa bütün möminlərə?"

---

[1] "əl-Muvatta" (səh. 43). Hədisin isnadı ən səhih sənədlərdən biri sayılır. (Əhməd Şakir). əd-Dəraqutni "Sunən" 518, 527; Malik, 95-96.

[2] əl-Buxari, 6324, 6824; Əhməd, 2129.

[3] Əhməd, 8582, 8598. Hədis səhihdir. Bax: İrvaul-Ğalil, 1787.

[4] əl-Hakim, 468.

Peyğəmbər ﷺ "Xeyr, bütün möminlərə aiddir" deyə cavab verdi".[1] Hədisi ət-Tirmizi ﵀ də rəvayət etmiş və sənədinin bitişik olmadığını bildirmişdir. Eyni hədisi ən-Nəsəi ﵀ Abdur-Rahmən ibn Əbu Leylədən "mursəl" olaraq rəvayət etmişdir. Qadına toxunmaqla dəstəmazın vacib olması rəyində olanlar demişlər: "Bu hədisdə Peyğəmbər ﷺ kişiyə dəstəmaz almağı əmr etmişdir. Baxmayaraq ki, o, qadına, sadəcə, toxunmuşdur, cinsi əlaqədə olmamışdır". Digər rəydə (qadına toxunmağın dəstəmazı vacib etməməsi rəyində) olanlar cavab olaraq demişlər: "Hədisin isnadı İbn Əbu Leylə ilə Muaz ﵁ arasında kəsilir, çünki İbn Əbu Leylə Muazı ﵁ görməmişdir.[2] Həmçinin ola bilsin ki Peyğəmbər ﷺ o kişiyə tövbə etmək üçün dəstəmaz alıb namaz qılmağı əmr etmişdir. Necə ki daha əvvəl Əbu Bəkr əs-Siddiqdən ﵁ rəvayət edilən hədisdə Peyğəmbər ﷺ demişdir: "Günah edən elə bir kəs yoxdur ki, dərhal gözəl şəkildə dəstəmaz alıb iki rükət namaz qılsın və namazında Uca Allahdan bağışlanmasını diləsin, Allah da onun günahlarını bağışlamasın".[3]

Sonra İbn Cərir ﵀ demişdir: "Bu iki rəydən ən doğru olanı Uca Allahın "**və ya qadınlara toxunmusunuzsa**" ayəsində "toxunma" sözünün cinsi əlaqə mənasında olub, bundan başqa mənalarda olmadığını söyləyənlərin rəyidir. Çünki səhih hədislərdə varid

[1] Əhməd, 22112, 22165, 22463; ət-Tirmizi, 3113, 3401. Şueyb əl-Arnavut hədisin raviləri arasında kəsiklik olduğunu qeyd etsə də, digər həsən hədislər bu hədisin məqbul olduğunu təsdiqləyir. Belə ki, səhabələrdən biri Əbul-Yəsar ﵁ demişdir: "Bir qadın xurma almaq üçün yanıma gəldi və mən ona "Evdə bunlardan da yaxşı xurmalarım var" deyib onu evə dəvət etdim. O mənimlə birgə içəri daxil oldu. Sonra mən ona sarılaraq onu öpdüm. Sonra Əbu Bəkrin yanına gəlib bu barədə ona xəbər verdim və o dedi: "Eybini gizlət, tövbə et və bu barədə heç kəsə xəbər vermə!" Mən dözməyib Ömərin ﵁ yanına getdim və bu haqda ondan soruşdum. O da Əbu Bəkrin dediklərini dedi. Mən yenə də dözməyib Peyğəmbərin ﷺ yanına getdim. Bu barədə ona xəbər verdikdə o dedi: "Allah yolunda cihadda olanın ailəsi ilə bu cür davranırsan?!" Əbul-Yəsar özünün Cəhənnəm əhlindən olduğunu zənn etdi və yenidən müsəlman olmağını arzuladı. Peyğəmbər ﷺ bir müddət gözlədikdən sonra Uca Allah bu ayəni nazil etdi: **"Gündüzün iki başında** (əvvəlində və axırında) **və gecənin bəzi saatlarında namaz qıl! Həqiqətən, yaxşı işlər pis əməlləri silib aparır. Bu, yada salanlar üçün bir xatırlatmadır"** ("Hud", 114). Əbul-Yəsar deyir: "Mən Peyğəmbərin ﷺ yanına gəldikdə o bu ayələri mənə oxudu və səhabələr "Ey Allahın Elçisi! Bu ayə yalnız Əbul-Yəsara aiddir, yoxsa bütün insanlara şamil edilir?" deyə soruşdular. O dedi: "Əksinə, bu ayə bütün insanlara şamil edilir". ət-Tirmizi, 3403; əl-Buxari "Tarixul-Kəbir" 7/220-221; ət-Təbərani "Mucəmul-Kəbir" 15702; ət-Təbəri "Cəmiul-Bəyən" 18685, 18768. Hədis həsəndir. Bax: Səhih və Daif Sunən ət-Tirmizi, 3115.

[2] Çünki Muaz ﵁ hicri 18-ci ildə vəfat etmişdir. Abdur-Rahmən ibn Əbu Leylə isə hicri 17-ci ildə anadan olmuşdur. Muaz ﵁ vəfat edəndə Abdur-Rahmənin bir yaşı olub. (Əhməd Şakir).

[3] "Ali-İmran" surəsinin 130-136-cı ayələrinin təfsirində keçmişdir. (Əhməd Şakir). Əhməd, 2; İbn Məcə, 1144, 1395. Hədis həsəndir. Bax: Mişkətul-Məsabih, 1324.

olmuşdur ki, Peyğəmbər ﷺ öz zövcələrindən birini öpdükdən sonra dəstəmaz almadan namaz qılmışdır". Sonra İbn Cərir rəvayət edir ki, Aişə demişdir: "Peyğəmbər ﷺ dəstəmaz aldıqdan sonra zövcələrini öpər, sonra (yenidən) dəstəmaz almadan namaz qılardı".[1] Həmçinin Urvə Aişədən rəvayət etmişdir ki, bir dəfə Peyğəmbər ﷺ zövcələrindən birini öpdü, sonra namaza getdi və dəstəmaz almadı. Urvə dedi: "Mən Aişədən soruşdum: "Hər halda o sən olarsan?" O da güldü".[2] Hədisi bu şəkildə Əbu Davud, ət-Tirmizi və İbn Məcə rəvayət etmişlər.[3] Əbu Davud demişdir: "əs-Səurinin belə dediyi rəvayət olunur: "Həbib yalnız Urvə əl-Muzənidən hədis rəvayət etmişdir".[4] Yəhya əl-Qattan bir kişiyə demişdir: "Mənim adımdan de ki, bu hədis səhih deyil". ət-Tirmizi demişdir: "Eşitmişəm ki, əl-Buxari bu hədisi zəif görür və Həbibin Urvədən hədis eşitmədiyini deyir".[5] Lakin İbn Məcənin hədisində Həbib ibn Əbu Sabit, Urva ibn əz-Zubeyrdən, onun da Aişədən rəvayət etdiyi bildirilir. Bundan daha aydın isnad isə İmam Əhmədin "əl-Musnəd" əsərində hədisi Hişam ibn Urvənin atasından (Urvə ibn əz-Zubeyrdən), onun da Aişədən rəvayət etməsidir. Bu isnad açıq-aydın göstərir ki, hədis Urvə ibn əz-Zubeyrdən rəvayət olunmuşdur. Həmçinin Aişəyə "Hər halda o sən olarsan?" O da güldü" deməsi buna şahiddir.[6]

Bir çox alimlər Uca Allahın "**su tapmasanız, pak torpaqla təyəmmüm edin**" ayəsindən yanında su olmayan kəsin yalnız su axtardıqdan sonra təyəmmüm etməsinin icazəli olması hökmünü çıxarmışlar. Əgər su axtarıb tapa bilməzsə, bu zaman təyəmmüm etməsi icazəlidir. Yanında su olmayanın suyu necə axtarması isə fiqh kitablarında izah edilmişdir. əl-Buxari və Muslimin "Səhih" əsərlərində İmran ibn Husayndan rəvayət edilir ki, bir dəfə Peyğəmbər ﷺ namazı bitirdikdən sonra bir nəfərin kənara çəkilib camaatla namaz qılmadığını gördü və "Sənə camaatla namaz qılmağa nə mane oldu, ey filankəs? Məgər sən müsəlman deyilsən?" deyə soruşdu. O "Mən

[1] əd-Dəraqutni "Sunən" 497, 507; ət-Tabəri, 9629, 9688.

[2] ət-Tirmizi, 86; İbn Məcə, 502; Əbu Davud, 179. Hədis səhihdir. Bax: Mişkətul-Məsabih, 323.

[3] ət-Tabəri (9629, 9630). (Əhməd Şakir).

[4] Əbu Davud, 180.

[5] ət-Tirmizi, 86.

[6] Aişə Urvə ibn əz-Zubeyrin doğma xalası idi və bu sözü ona deməsi onlar arasında qohumluq əlaqəsinin olmasına dəlalət edir. Əhməd Şakir demişdir: "Aişənin bu hədisini ət-Tirmizi (86) rəvayət etmişdir. Hədisin təxricini orada qeyd etmişik və hədisin səhih olduğunu bildirmişik. Həmçinin bildirmişik ki, bu məsələdə doğru olan rəy budur ki, qadına toxunmaq dəstəmazı pozmur. Ayədə "toxunmaq" dedikdə isə cinsi əlaqəyə eyham edilir. Bax: ət-Tirmizi (1/133-142)". (Əhməd Şakir).

cunub oldum, su isə yoxdur" deyə cavab verdi. Peyğəmbər ﷺ (ona) "Torpaqdan istifadə et (təyəmmüm et)! Bu sənə kifayət edər" dedi".[1]

Bu səbəbdən Uca Allah "**su tapmasanız, pak torpaqla təyəmmüm edin**" buyurur. Təyəmmüm sözünün lüğəti mənası "niyyət etmək", "yönəlmək" deməkdir. الصَّعِيدُ [əs-sai:du] "torpaq" sözü isə صَعِدَ [saidə] "qalxmaq", "çıxmaq" feilindən olub yerin üst qatında olan hər şeyə deyilir. Beləliklə, təyəmmüm alına bilən vasitələrə torpaq, qum, ağac, daş və bitkilər daxildir. Bu, İmam Malikin رحمه الله rəyidir. Bəzi alimlər təyəmmümü yalnız torpaq növündən olan qum, gips və əhəng kimi şeylərlə almağın icazəli olduğunu demişlər. Bu isə İmam Əbu Hənifənin رحمه الله məzhəbidir. Bəzi alimlər isə yalnız torpaqla təyəmmüm almağı icazəli görmüşlər. İmam əş-Şafii, İmam Əhməd ibn Hənbəl رحمه الله və onların məzhəbində olanların rəyi belədir. Bu rəydə olanlar Uca Allahın bu ayəsinə əsaslanmışlar: "**Ola bilsin ki, Rəbbim mənə sənin bağından daha yaxşısını versin və sənin bağına göydən bir bəla endirsin ki, o, hamar** (heç bir şey bitməyən qupquru) **bir yer olsun!**" ("əl-Kəhf", 40), yəni düz və təmiz torpaq olsun. Bu rəydə olanlar həmçinin Muslimin "Səhih" əsərində Huzeyfə ibn əl-Yəməndən رضي الله عنه rəvayət edilən bu hədisi dəlil gətirmişlər: Peyğəmbər ﷺ demişdir: "Biz (mənim ümmətim) üç xislətə görə digər ümmətlərdən üstün edildik; namazda səflərimiz mələklərin səfləri kimi edildi; yer üzünün hamısı bizə namazgah edildi; yer üzünün torpağı – su tapa bilmədiyimiz təqdirdə – bizə təmizlənmək üçün vasitə edildi".[2] Bu rəydə olanlar demişlər: "Peyğəmbər ﷺ nemət olaraq təmizlənmə vasitəsi kimi torpağı qeyd etmişdir. Əgər onu başqa bir şey əvəz edə bilsəydi, Peyğəmbər ﷺ mütləq torpaqla birlikdə onu da qeyd edərdi".

Ayədə keçən طَيِّباً [tayyibən] "**pak**" sözünün mənası barədə müxtəlif rəylər irəli sürülmüşdür. Bəzi alimlər bu sözün "halal" mənasında olduğunu, bəziləri isə "natəmiz olmayan" mənasında olduğunu demişlər. İbn Məcə رحمه الله istisna olmaqla "Sunən" əsərlərinin sahibləri ilə İmam Əhmədin رحمه الله Əbu Zərdən رضي الله عنه rəvayət etdikləri hədisdə Peyğəmbər ﷺ demişdir: "On il su tapa bilməsə belə, təmiz torpaq müsəlman üçün təmizləyicidir. Su tapdıqda isə qoy onu dərisinə sürtsün (qüsl etsin). Şübhəsiz ki, bu, onun üçün ən xeyirlisidir".[3] ət-Tirmizi رحمه الله hədisin "həsən-səhih" olduğunu, İbn Hibban رحمه الله isə səhih olduğunu bildirmişdir. Hədisi əl-Hafiz Əbu Bəkr əl-Bəzzər "Musnəd" əsərində

[1] Əhməd, 19912, 20140. Hədis səhihdir. Bax: İrvaul-Ğalil, 156.

[2] Muslim, 811, 1193.

[3] ət-Tirmizi, 124; əl-Bəzzər, 3973, 10068; Əhməd, 21371, 21408, 21698; İbn Hibban, 1313. Hədis səhihdir. Bax: Səhih əl-Cami, 1667, 3860.

Əbu Hureyradan ﷺ rəvayət etmişdir. əl-Hafiz Əbul-Həsən əl-Qattan ﷺ səhih olduğunu demişdir. İbn Əbu Hatim ﷺ İbn Abbasın ﷺ belə dediyini rəvayət etmişdir: “Ən pak torpaq əkin torpağıdır”. İbn Mərdəveyh ﷺ bu sözü Peyğəmbərə ﷺ nisbət etmişdir.

Uca Allah buyurur: “**üzünüzə və əllərinizə sürtün!**” Təyəmmüm dəstəmazı əvəz edir. Dəstəmaz alarkən yuyulan əzaların hamısına təyəmmümdə məsh çəkmək şərt deyil. Alimlərin yekdil rəyinə görə, təyəmmüm alarkən yalnız üz və əllərə məsh çəkmək kifayətdir. Bununla belə, alimlər təyəmmümün keyfiyyətində ixtilaf etmişlər. Bu məsələdə alimlərin rəyləri belədir:

**Birinci rəy**: əş-Şafiinin ﷺ yeni görüşüdür. Bu rəyə görə, əllərin içi iki dəfə torpağa vurulmaqla üzə və dirsəklərə qədər əllərə çəkilməlidir. Çünki “əllər” dedikdə həm çiyinlərə qədər, həm dirsəklərə qədər olan hissə nəzərdə tutula bilər və hər ikisi də doğrudur. Necə ki dəstəmaz ayəsində bu nəzərdə tutulmuşdur. Həmçinin “əllər” dedikdə biləklərə qədər olan hissə də nəzərdə tutula bilər. Necə ki oğrunun cəzası barədə gələn ayədə olduğu kimi: “**Oğru kişinin və oğru qadının etdikləri əməlin cəzası və Allahdan bir ibrət olaraq əllərini kəsin!**” (“əl-Maidə”, 38). Bu rəydə olanlar demişlər: “Təyəmmüm ayəsində ümumi olaraq qeyd olunan “əllər” sözünü dəstəmaz ayəsində nəzərdə tutulan məna ilə (dirsəklərə qədər) açıqlamaq daha uyğundur. Çünki hər iki ayə təmizlik barəsindədir”. Bəziləri dəlil olaraq əd-Dəraqutninin ﷺ İbn Ömərdən ﷺ rəvayət etdiyi bu hədisi qeyd etmişlər. Peyğəmbər ﷺ demişdir: “Təyəmmüm əllərin içini iki dəfə torpağa vurmaqla alınır. Bir vuruş üz, digəri isə dirsəklərə qədər əllər üçündür”.[1] Lakin hədis səhih deyil, çünki hədisin isnadında zəif ravilər var. Əbu Davud ﷺ İbn Ömərdən ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ təyəmmüm alarkən əllərini divara sürtdü və üzünə çəkdi, sonra əllərini bir daha divara sürtdü və qollarına çəkdi.[2] Lakin bu hədisin isnadında Muhəmməd ibn Sabit əl-Abdi adlı ravi var. Bəzi hədis alimləri bu ravini zəif saymışlar. Əbu Davuddan ﷺ başqaları isə İbn Ömərin ﷺ özünün belə etdiyini rəvayət etmişlər. əl-Buxari, Əbu Zura və İbn Adiy ﷺ demişlər: “Doğru olan da budur”.[3] əl-Beyhəqi ﷺ demişdir: “Bu hədisin Peyğəmbərə ﷺ nisbət olunması səhvdir”. İmam əş-Şafii ﷺ İbn əs-Samməδən rəvayət etdiyi hədisi dəlil olaraq götürmüşdür. Hədisdə Peyğəmbərin ﷺ

[1] əd-Dəraqutni, 685; əl-Hakim, 634. Hədis zəifdir. Bax: Silsilə əd-Daifə, 3427.
[2] Əbu Davud, 330. Hədis zəifdir. Bax: Mişkətul-Məsabih, 466.
[3] Yəni İbn Ömərin ﷺ belə etməsi.

təyəmmüm edib üzünə və qollarına məsh çəkdiyi bildirilir.[1]

**İkinci rəy**: Əlin içini iki dəfə torpağa vurmaqla üzə və biləklərə qədər əllərə çəkmək lazımdır. Bu rəy İmam əş-Şafiinin ﷬ köhnə rəyidir.

**Üçüncü rəy**: Üzə və əllərə çəkmək üçün əlləri bir dəfə torpağa vurmaq kifayətdir. İmam Əhməd ﷬ Abdur-Rahmən ibn Əbzədən rəvayət etmişdir ki, bir kişi Ömərin ﷛ yanına gəlib “Mən cunub oldum və su tapa bilmədim, indi nə edim?” dedi. Ömər ona “Namaz qılma” dedi. Bunu eşidən Ammar ibn Yasir Ömər ibn əl-Xattaba dedi: “Yadındadırmı, ey möminlərin əmiri! Bir dəfə biz səfərdə ikimiz də cunub olduq və su tapa bilmədik. Sən namaz qılmadın. Mən isə yerə uzanıb o üzə-bu üzə çevrilərək bədənimi torpağa sürtdüm və qalxıb namazımı qıldım. Mən bunu Peyğəmbərə ﷺ xəbər verdikdə o “Sənə belə etmək kifayət edərdi” deyib əllərini yerə vurdu, sonra əllərinin içinə üfürdü, sonra da ovuclarını üzünə və biləyə qədər (əllərinə) sürtdü”.[2]

İmam Əhməd ﷬ Şəqiqdən rəvayət etmişdir ki, “Bir dəfə mən Abdullah və Əbu Musa ilə birlikdə oturmuşdum. Əbu Musa Abdullahdan soruşdu: “Əgər bir adam (dəstəmaz almağa və ya qüsl etməyə) su tapa bilməsə, namaz qılmamalıdırmı?” Abdullah “Xeyr” deyə cavab verdikdə Əbu Musa dedi: “Yadındadırmı bir dəfə Ammar Ömərə dedi: “Xatırlayırsanmı, bir dəfə Peyğəmbər ﷺ səni və məni dəvələrin arxasınca göndərmişdi, mən yolda cunub oldum və yerə uzanıb o üzə-bu üzə çevrilərək bədənimi torpağa sürtdüm (sonra qalxıb namazımı qıldım). Peyğəmbərin ﷺ yanına qayıtdıqda bu barədə ona xəbər verdim. O gülümsəyərək “Sənə belə etmək kifayət edərdi” deyib əllərini yerə vurdu, sonra ovuclarını biləyə qədər əllərinə və eyni vuruşla üzünə bir dəfə sürtdü” dedi. Abdullah dedi: “Şübhəsiz, bu belədir, lakin Ömərin bununla razılaşdığını görmədim”. Əbu Musa dedi: “Bəs Uca Allahın “ən-Nisa” surəsindəki “**su tapmasanız, pak torpaqla təyəmmüm edin**” ayəsi necə olsun?” Abdullah onun nə demək istədiyini başa düşmədi və belə dedi: “Əgər biz insanlara təyəmmüm etməyi icazə versək, onlar su soyuq olduqda belə təyəmmüm edərlər”.[3]

Uca Allah (“əl-Maidə” surəsindəki təyəmmüm ayəsində) buyurur:

---

[1] “əl-Umm” (1/42), əş-Şafiinin “əl-Musnəd” əsəri (130), (1/44 əs-Sindinin tərtibi ilə), əl-Beyhəqi (1/205). (Əhməd Şakir). əş-Şafii “əl-Umm” 1/48, 1/65; “Musnəd” 71.

[2] “əl-Musnəd” (4/265 Hələbi nəşri), əl-Buxari (1/375-377 Fəthul-Bari), Muslim (1/110). Hədisin təxricini ət-Tabəridə (9657) qeyd etmişik. (Əhməd Şakir). Əhməd, 18332, 18358, 18522. Hədis səhihdir. Bax: İrvaul-Ğalil, 161.

[3] “əl-Musnəd” (4/265 Hələbi nəşri), əl-Buxari (1/376 Fəthul-Bari), Muslim (1/110), ət-Tabəri (9671) oxşar mətnlə rəvayət etmişdir. (Əhməd Şakir). Əhməd, 18329, 18335, 18519. Şueyb əl-Arnavut isnadının əl-Buxari və Muslimin şərtlərinə görə səhih olduğunu bildirmişdir.

"**Allah sizi çətinliyə salmaq istəməz**", yəni sizə buyurduğu dində sizi çətinliyə salmaq istəməz, "**fəqət O sizi pak etmək və sizə olan nemətini tamamlamaq istər ki, bəlkə, şükür edəsiniz**"[1] – məhz buna görə su tapmadığınız təqdirdə torpaqla təyəmmüm etməyə icazə vermişdir. Həqiqətən, təyəmmüm Uca Allahın sizə olan böyük nemətidir və ümid olunur ki, bu nemətə görə Ona şükür edərsiniz.

Su olmadıqda təyəmmüm etməyin icazəli olması digər ümmətlərdən fərqli olaraq bu ümmətə xas olan bir şəriət qanunudur. Necə ki əl-Buxari və Muslimin "Səhih" əsərlərində Cabir ibn Abdullahdan ﵄ rəvayət edilən bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Mənə beş (xislət) verilib ki, bunlar məndən əvvəl heç bir kəsə verilməmişdir: "Bir ay əvvəl düşmənin qəlbinə qorxu salaraq ona qalib gəlməyim; yer üzünün mənim üçün pak və namazgah olması, belə ki, ümmətimdən olan hər bir kəs istənilən yerdə vaxtı çatmış namazı qılmalıdır; (digər rəvayətdə "Ümmətimdən kimin namazının vaxtı çatarsa, bilsin ki, onun namazgahı da, təmizləyicisi də yanındadır"); qənimətlərin mənə halal olması, belə ki, bu məndən qabaq heç bir peyğəmbərə halal olmamışdır; Qiyamət günü tərifəlayiq məqamda şəfaət verməyim; bir də hər bir peyğəmbər yalnız öz qövmünə göndərilərdi, mən isə bütün insanlara göndərilmişəm".[2]

Muslimin ﵀ Huzeyfədən ﵁ rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ demişdir: "Üç xislətə görə digər insanlardan (ümmətlərdən) üstün edildik; namazda səflərimiz mələklərin səfləri kimi edildi; yer üzünün hamısı bizə namazgah edildi; yer üzünün torpağı, su tapa bilmədiyimiz təqdirdə, bizə təmizlənmək üçün vasitə edildi".[3]

Uca Allah bu ayədə buyurur: "**üzünüzə və əllərinizə sürtün! Həqiqətən, Allah əfv edəndir, bağışlayandır**", yəni asanlıq və rahatlıq məqsədilə su tapmadığınız təqdirdə təyəmmüm almaqla namaz qılmağı sizə icazəli etməsi Uca Allahın əfvi və rəhmətidir. Bu ayə naqis halda namaz qılmaqdan çəkindirir. Yəni sərxoş insan ayılıb nə dediyini anlayana qədər, cunub olan qüsl alana qədər, dəstəmazı olmayan dəstəmaz alana qədər namaz qıla bilməz. Yalnız xəstə olanın və ya su tapa bilməyənin halı istisnadır. Uca Allah qullarına şəfqət və rəhmət olaraq belə vəziyyətlərdə onlara asanlıq üçün təyəmmüm almağa icazə vermişdir. Həmd və nemət Allaha məxsusdur.

---

[1] Burada əl-Hafiz İbn Kəsir "əl-Maidə" surəsində gələn təyəmmüm ayəsinin təfsirini qeyd etmişdir. Ola bilsin o, bunu səhvən etmiş, ola da bilsin biləərəkdən mənanı tamamlamaq məqsədilə etmişdir. Hər halda buna diqqət etməmişdir. (Əhməd Şakir).

[2] əl-Buxari, 323, 335.

[3] Muslim (1/147), hədis əvvəl keçmişdir. (Əhməd Şakir). Muslim, 810, 1191.

## Təyəmmüm ayəsinin nazilolma səbəbi

Təyəmmüm ayəsinin nazilolma səbəbini burada qeyd etməyimizin səbəb budur ki, "ən-Nisa" surəsindəki bu ayə "əl-Maidə" surəsindəki təyəmmümlə əlaqəli ayədən, yəni sərxoşedici içkinin qəti olaraq haram edilməsindən əvvəl nazil olmuşdur. Sərxoşedici içkilər Uhud döyüşündən sonra, bir rəvayətə görə isə Uhud döyüşündən dərhal sonra Peyğəmbərin ﷺ Bənu Nadir qəbiləsini (xəyanət etdiklərinə görə) mühasirəyə aldığı ərəfədə haram edilmişdir. "əl-Maidə" surəsi isə, xüsusilə əvvəlki ayələri Qurandan ən son nazil olan ayələrdəndir. Bu səbəbdən təyəmmüm almağın icazəli edilməsinə səbəb olan hadisənin burada zikr olunması daha uyğundur. Bu işdə Allaha arxayınıq.

əl-Buxari ﷺ Aişədən ﷺ rəvayət etmişdir ki, biz Peyğəmbərlə ﷺ birlikdə səfərə çıxdıq. Nəhayət, Beyda və ya Zatul-Ceyş deyilən yerə çatdıqda boyunbağım qırılıb yerə düşdü. Peyğəmbər ﷺ dayanıb boyunbağını axtarmağa başladı. Onun yanında olanlar da dayanmağa məcbur oldular. Ətrafda su olmadığından səhabələrdən bəziləri Əbu Bəkr əs-Siddiqin yanına gəlib dedilər: "Aişənin nə etdiyini görürsənmi? Allahın Elçisi və bu qədər camaat ona görə dayanıb. Onlarda olan su ehtiyatı qurtarıb, özləri də su olmayan yerdə dayanıblar". Əbu Bəkr (mənim yanıma) gəldi. Bu vaxt Peyğəmbər ﷺ (boyunbağını axtarmaqdan yorulduğu üçün) başını dizimin üstünə qoyub yatmışdı. Əbu Bəkr dedi: "Allahın Elçisini və bu qədər camaatı su olmayan bir yerdə, həm də su ehtiyatları olmadığı halda saxlamısan?" Sonra o, barmağı ilə böyrümdən vura-vura məni bir az da tənbeh etdi. Bu vaxt Peyğəmbərin ﷺ başı dizimin üstündə olduğuna görə mən tərpənmədim. Peyğəmbər ﷺ ayıldıqda paklanıb namaz qılmaq üçün su tapmadı. Elə bu səbəbdən də Uca Allah təyəmmüm ayəsini nazil etdi və onlar da təyəmmüm etdilər. Useyd ibn Xudeyr dedi: "Ey Əbu Bəkrin ailəsi! Bu sizin ilk bərəkətiniz deyil". Aişə dedi: "Sonra üstündə oturduğum dəvəni qaldırdıq və boyunbağını onun altından tapdıq".[1] Həmçinin hədisi Muslim ﷺ də rəvayət etmişdir.[2]

[1] əl-Buxari, 322, 324, 4241, 4607.

[2] əl-Buxari (1/365-368 Fəthul-Bari), Əhməd (6/179 Hələbi nəşri), ət-Təbari (9641). (Əhməd Şakir). Muslim, 550, 842.

İmam Əhməd ﷺ Ammar ibn Yasirdən ؓ rəvayət etmişdir ki, bir dəfə Peyğəmbər ﷺ zövcəsi Aişə ؓ ilə səfərdə olarkən Əvlətul-Ceyş deyilən yerdə dincəlmək üçün dayandı. Yola düşmək ərəfəsində Aişənin ؓ Yəmən əqiqindən[1] olan boyunbağısı qırılıb düşdü və camaat onu axtarmaq üçün qaldı. Onlar səhər dan yeri sökülənə qədər boyunbağını axtardılar. Camaatda olan su ehtiyatı bitmişdi. Bu səbəbdən Uca Allah Peyğəmbərinə ﷺ pak torpaqla təyəmmüm etməyi icazə verən ayəni nazil etdi və müsəlmanlar Peyğəmbərlə ﷺ birlikdə qalxaraq əllərini torpağa vurdular, sonra əllərini üzərindəki torpağı çırpmadan üzlərinə və əllərinin üst tərəfdən çiyinlərinə qədər, iç tərəfdən isə ovuclarından qoltuqlarının altına qədər sürtdülər".[2]

﴿أَلَمۡ تَرَ إِلَى ٱلَّذِينَ أُوتُواْ نَصِيبٗا مِّنَ ٱلۡكِتَٰبِ يَشۡتَرُونَ ٱلضَّلَٰلَةَ وَيُرِيدُونَ أَن تَضِلُّواْ ٱلسَّبِيلَ ﴿٤٤﴾ وَٱللَّهُ أَعۡلَمُ
بِأَعۡدَآئِكُمۡۚ وَكَفَىٰ بِٱللَّهِ وَلِيّٗا وَكَفَىٰ بِٱللَّهِ نَصِيرٗا ﴿٤٥﴾ مِّنَ ٱلَّذِينَ هَادُواْ يُحَرِّفُونَ ٱلۡكَلِمَ عَن مَّوَاضِعِهِۦ
وَيَقُولُونَ سَمِعۡنَا وَعَصَيۡنَا وَٱسۡمَعۡ غَيۡرَ مُسۡمَعٖ وَرَٰعِنَا لَيَّۢا بِأَلۡسِنَتِهِمۡ وَطَعۡنٗا فِي ٱلدِّينِۚ وَلَوۡ أَنَّهُمۡ قَالُواْ سَمِعۡنَا
وَأَطَعۡنَا وَٱسۡمَعۡ وَٱنظُرۡنَا لَكَانَ خَيۡرٗا لَّهُمۡ وَأَقۡوَمَ وَلَٰكِن لَّعَنَهُمُ ٱللَّهُ بِكُفۡرِهِمۡ فَلَا يُؤۡمِنُونَ إِلَّا قَلِيلٗا ﴿٤٦﴾﴿

**44. Kitabdan özlərinə pay verilmiş kəslərin azğınlığı satın aldıqlarını və sizi doğru yoldan azdırmaq istədiklərini görmürsənmi?**

**45. Allah sizin düşmənlərinizi daha yaxşı tanıyır. Dost olaraq Allah kifayət edər! Yardımçı olaraq Allah yetər!**

**46. Yəhudilər kəlmələrin yerini dəyişdirir, "Eşitdik və asi olduq", "eşit, eşitməz olasan" və dillərini əyərək və dinə tənə vuraraq "Bizə qayğı göstər!" deyirlər. Əgər onlar "Eşitdik və itaət etdik!", "eşit" və "bizə nəzər yetir!" desəydilər, əlbəttə, onlar üçün daha xeyirli və daha doğru olardı. Lakin Allah onları küfrlərinə görə lənətlədi. Onlar olduqca az inanırlar.**

Uca Allah bu ayələrdə yəhudilərdən bəhs edərək bildirir ki, onlar, doğru yolu azğınlığa dəyişmişlər, Allahın Öz Peyğəmbərinə nazil etdiklərindən üz çevirmişlər, dəyərsiz dünya mənfəətlərini əldə etmək üçün Muhəmmədin ﷺ vəsflərinə dair əvvəlki peyğəmbərlərdən

[1] Əqiq – müxtəlif rənglərə çalan laylardan ibarət olan, qiymətli daş kimi müxtəlif bəzək şeyləri hazırlanmasında və s. istifadə edilən bərk mineraldır. Yəmən əqiqi əqiqin qırmızı rəngli əla növüdür.

[2] "əl-Musnəd" (4/263-264). İsnadı səhihdir. Həmçinin ət-Təbəri (9670) bitişik olmayan isnadla rəvayət etmişdir. Hədisin səhih olduğunu və bitişik isnadlarını orada qeyd etmişik. (Əhməd Şakir). Əhməd, 18322, 18348, 18512. Şueyb əl-Arnavut səhih olduğunu bildirmişdir.

aldıqları elmi tərk etmişlər, "**və sizi doğru yoldan azdırmaq istədiklərini görmürsənmi**", yəni ey möminlər, onlar istəyirlər ki, sizə nazil olanı inkar edib üzərində olduğunuz doğru yolu və faydalı elmi tərk edəsiniz.

"**Allah sizin düşmənlərinizi daha yaxşı tanıyır**", yəni Allah onlara yaxşı bələddir və sizi onlardan çəkindirir. "**Dost olaraq Allah kifayət edər! Yardımçı olaraq Allah yetər!**", yəni Ona pənah gətirənə dost olaraq, Ondan kömək diləyənə isə köməkçi olaraq Allah yetər.

Sonra Uca Allah belə buyurur: "**Yəhudilər...**", yəni əvvəlki ayədə Kitabdan pay verilmiş kəslər yəhudilərdir. Bu ayədə keçən مِنْ [min] önqoşması növü ifadə edir. Necə ki Uca Allah başqa bir ayədə eyni önqoşmanı bu mənada işlədərək "**Elə isə murdar bütlərdən uzaq olun**" ("əl-Həcc", 30) buyurur.

Uca Allah buyurur: "**Yəhudilər kəlmələrin yerini dəyişdirir...**", yəni onlar bilərəkdən və böhtan olaraq Allahın kəlamını Onun nəzərdə tutduğu mənada deyil, yanlış mənada şərh edirlər. "**Eşitdik və asi olduq**", yəni onlar "Ey Muhəmməd, dediklərini eşitdik, lakin sənə itaət etmərik" deyirlər. Mucahid və İbn Zeyd ﷀ ayəni bu şəkildə təfsir etmişlər və ayədə nəzərdə tutulan da budur. Onlar belə demələri ilə küfr və inadkarlıqlarını çox aydın bir şəkildə ifadə etmişlər. Belə ki, qazandıqları günahı və başlarına gələcək əzabı bilə-bilə Allahın Kitabını dərk etdikdən sonra ondan üz çevirirlər.

Həmçinin onlar "**eşit, eşitməz olasan**" deyirlər. Yəni bizim dediklərimizi eşit, eşitməz olasan. Mucahid və əl-Həsən ﷀ isə ayəni "Yəni dinlə, onsuz da sən dediyin qəbul edilməyəcək" kimi təfsir etmişlər. Onların bu sözü istehza və hörmətsizlik məqsədi daşıyırdı.

Uca Allah buyurur: "**və dillərini əyərək və dinə tənə vuraraq "Bizə qayğı göstər!" deyirlər**", yəni onlar dillərini əyərək رَاعِنَا [ra:inə] deyirdilər və bununla "**Bizə qayğı göstər!**" demək istədiklərini göstərirdilər. Halbuki bu sözlə رُعُونَة [ruu:nə] "səfeh" mənasını qəsd edirdilər. Bu barədə "əl-Bəqərə" surəsinin təfsirində məlumat verilmişdir.[1]

Bu səbəbdən Uca Allah dediklərinin əksini nəzərdə tutan bu yəhudilər barədə "**dillərini əyərək və dinə tənə vuraraq**" buyurur. Yəni onlar bu sözləri ilə Peyğəmbəri ﷺ təhqir etmək istəyirlər.

Sonra Uca Allah buyurur: "**Əgər onlar "Eşitdik və itaət etdik!", "eşit" və "bizə nəzər yetir!" desəydilər, əlbəttə, onlar üçün daha**

[1] "əl-Bəqərə" surəsinin 104-105-ci ayələrinin təfsirində keçmişdir. (Əhməd Şakir).

**xeyirli və daha doğru olardı. Lakin Allah onları küfrlərinə görə lənətlədi. Onlar olduqca az inanırlar"**, yəni onların qəlbləri xeyirdən məhrumdur və uzaqdır. Onlara fayda verəcək imandan qəlblərinə heç bir şey daxil olmaz. Uca Allahın "**Onlar olduqca az inanırlar**" sözünün təfsiri barədə əvvəl məlumat verilmişdir.[1] Yəni onlar özlərinə fayda verəcək bir imanla iman gətirməzlər.

﴿ يَٰٓأَيُّهَا ٱلَّذِينَ أُوتُواْ ٱلْكِتَٰبَ ءَامِنُواْ بِمَا نَزَّلْنَا مُصَدِّقًا لِّمَا مَعَكُم مِّن قَبْلِ أَن نَّطْمِسَ وُجُوهًا فَنَرُدَّهَا عَلَىٰٓ أَدْبَارِهَآ أَوْ نَلْعَنَهُمْ كَمَا لَعَنَّآ أَصْحَٰبَ ٱلسَّبْتِ ۚ وَكَانَ أَمْرُ ٱللَّهِ مَفْعُولًا ﴿٤٧﴾ إِنَّ ٱللَّهَ لَا يَغْفِرُ أَن يُشْرَكَ بِهِۦ وَيَغْفِرُ مَا دُونَ ذَٰلِكَ لِمَن يَشَآءُ ۚ وَمَن يُشْرِكْ بِٱللَّهِ فَقَدِ ٱفْتَرَىٰٓ إِثْمًا عَظِيمًا ﴿٤٨﴾ ﴾

**48. Allah Özünə şərik qoşulmasını əsla bağışlamaz, bundan aşağı olan günahları isə istədiyi kimsəyə bağışlayar. Allaha şərik qoşan kəs böyük bir günah etməklə iftira atmış olur.**

Uca Allah bu ayələrdə Kitab əhlinə qulu və elçisi Muhəmmədə ﷺ nazil etdiyi Əzəmətli Kitaba iman gətirməyi əmr edir. Bu Kitab özündə Peyğəmbərin ﷺ gəlişi barədə müjdələri təsdiq edən xəbərləri cəm etmişdir. Bunu etmədikləri təqdirdə isə onları hədələyərək "**Üzləri sıyırıb dümdüz edərək arxalarına çevirməmişdən, yaxud şənbə əhlini lənətlədiyimiz kimi, onları da lənətləməmişdən öncə**" buyurur. Bəzi alimlər demişlər: "Üzlərin sıyırılması, onların ənsəyə çevrilməsi və gözlərinin arxada olmasıdır". Ola bilsin, burada "üzləri sıyırıb göz və qulaq qalmayacaq hala salmadan, üstəlik onu arxa tərəflərinə çevirməzdən əvvəl" nəzərdə tutulur. İbn Abbas رضي الله عنهما demişdir: "Üzlərin sıyrılması, kor edilməsidir, "**arxalarına çevirməmişdən**", yəni üzlərini ənsələrinə çevirərik və onlar arxa-arxaya gedərlər. Onların gözlərini ənsələrində edərik". Qatədə رحمه الله də belə demişdir. Bu ifadə, cəza və əzabı ifadə etmək baxımından son dərəcə bəlağətlidir. Bu, Uca Allah tərəfindən onların haqdan üz döndərib batilə meyil etmələrinə, işıqlı yoldan dönüb azğınlıq yollarına düşmələrinə və tələsik arxaya doğru daldalı getmələrinə çəkdiyi bir məsəldir. Bəzi alimlərin dediklərinə görə, bu ifadə Uca Allahın "**Biz onların boyunlarına zəncir vurmuşuq. Bu zəncirlər onların çənələrinə dirənib. Odur ki başları təkəbbürlə yuxarı qalxmışdır. Biz onların önlərindən bir sədd, arxalarından da başqa bir sədd çəkdik və gözlərinə pərdə saldıq. Buna görə də onlar haqqı görmürlər**" ("Yasin", 8-9) ayələrinə bənzəyir. Bu ayələr Uca

[1] "əl-Bəqərə" surəsinin 88-89-cu ayələrinin təfsirində keçmişdir. (Əhməd Şakir).

Allahın onların azğınlıqlarına və insanları doğru yoldan azdırmalarına görə çəkdiyi bir məsəlidir. Mucahid ﷺ demişdir: "**Üzləri sıyırıb**", yəni doğru yoldan çevirib "**arxalarına çevirməmişdən**", yəni azğınlığa çevirməmişdən".

Uca Allah buyurur: "**yaxud şənbə əhlini lənətlədiyimiz kimi, onları da lənətləməmişdən öncə**" burada Uca Allah şənbə günü balıq ovlamaq üçün hiylə işlədərək həddi aşanları nəzərdə tutur. Uca Allah onları lənətləyib meymunlara və donuzlara çevirdi. Bu barədə daha geniş məlumat "əl-Əraf" surəsində gələcəkdir.[1]

Uca Allah buyurur: "**Allahın əmri mütləq yerinə yetəcəkdir**", yəni Allah bir əmr verdikdə, Onun əmrinə qarşı çıxacaq və bu əmrin yerinə yetməsinə mane olacaq heç bir güc yoxdur.

Sonra Uca Allah bildirir ki, "**Allah Özünə şərik qoşulmasını əsla bağışlamaz**", yəni Allahın hüzuruna Ona şərik qoşaraq gələn heç bir qulu bağışlamayacaqdır, "**bundan aşağı olan günahları isə istədiyi kimsəyə bağışlayar**". Bu ayə ilə əlaqədar bir çox hədis varid olmuşdur. Bu hədislərdən bacardığımızı qeyd edək:

İmam Əhməd ﷺ Aişədən ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Allah qatında əməl dəftərləri üç növdür: birincisi Allahın içində yazılanlara əhəmiyyət vermədiyi dəftər; ikincisi Allahın içində yazılanlardan heç bir şeyi ötürmədiyi dəftər; üçüncüsü isə Allahın içində yazılanları əsla bağışlamayacağı dəftər. Allahın əsla bağışlamayacağı əməl dəftəri Allaha şərik qoşmaqdır, çünki Uca Allah buyurur: "**Kim Allaha şərik qoşarsa, heç şübhəsiz, Allah Cənnəti ona haram edər**" ("əl-Maidə", 72). Allahın əhəmiyyət vermədiyi əməl dəftəri qulun özü ilə Rəbbi arasında olan, bir gün orucu və ya bir namazı tərk etməsi kimi nəfsinə zülm etdiyi əməllərdir. Allah istəsə, bu günahları bağışlayar və əfv edər (istəsə də, cəzalandırar). Allahın içində yazılanlardan heç bir şeyi ötürməyəcəyi əməl dəftərinə gəlincə, bu, qulların bir-birlərinə etdikləri haqsızlıqlardır. Bu əməllərə görə (haqsız tərəfdən) mütləq qisas alınacaqdır".[2] Hədisi yalnız İmam Əhməd ﷺ rəvayət etmişdir.[3]

---

[1] "əl-Əraf" surəsinin 163-cü ayəsində.

[2] Əhməd, 26073, 26559; əl-Hakim, 8717. Şueyb əl-Arnavut isnadının Sadəqa ibn Musaya görə zəif olduğunu bildirmişdir. Həmçinin bax: Daif əl-Cami, 3022.

[3] "əl-Musnəd" (6/240 Hələbi nəşri). İsnadı səhihdir. Hədisi həmçinin, əl-Hakim ﷺ rəvayət etmiş və səhih olduğunu bildirmişdir. əz-Zəhəbi ﷺ demişdir: "Hədisi rəvayət edənlərdən Sadəqanın zəif olduğunu demişlər. İbn Bəbinus isə məchuldur". Hədis "Məcməuz-Zəvaid" əsərində (1/348) yer almışdır. Əsərin müəllifi demişdir: "Hədisi Əhməd rəvayət etmişdir.

İmam Əhməd ﵀ Muaviyədən ﵁ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Kafir olaraq ölən və bir mömini qəsdən öldürən adamdan başqa yerdə qalan günahları, ola bilsin ki, Uca Allah bağışlasın".[1] Bu hədisi ən-Nəsəi ﵀ də rəvayət etmişdir.[2]

İmam Əhməd ﵀ Əbu Zərdən ﵁ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Lə iləhə illəllah" deyən və (qəlbən) bunu təsdiqləyərək ölən hər bir bəndə mütləq Cənnətə girəcəkdir". Mən soruşdum: "Zina və oğurluq etsə belə?" Dedi: "Zina etsə belə, oğurluq etsə belə". Mən yenə soruşdum: "Zina və oğurluq etsə belə?" Dedi: "Zina etsə belə, oğurluq etsə belə". Mən bu sualı üç dəfə təkrar etdim və hər dəfə eyni cavabı aldım. Sonra dördüncü dəfə dedi: "Əbu Zərin xoşuna gəlməsə belə". Ravi deyir ki: "Əbu Zərr Peyğəmbərin ﷺ yanından çıxarkən öz-özünə dedi: "Əbu Zərin xoşuna gəlməsə belə". Bundan sonra Əbu Zərr hər dəfə bu hədisi danışarkən "Əbu Zərin xoşuna gəlməsə belə!" deyərdi".[3] Bu hədisi əl-Buxari və Muslim ﵀ də rəvayət etmişlər.[4]

əl-Buxari və Muslimin "Səhih" əsərlərində Əbu Zərin ﵁ belə dediyi rəvayət edilir: "Bir gecə çölə çıxmışdım. Birdən Peyğəmbəri ﷺ təkbaşına gedən gördüm. Yanında heç kim yox idi. Düşündüm ki, ola bilsin Peyğəmbər ﷺ tək gəzmək istəyir və buna görə ay işığı düşməyən qaranlıq yerlərlə getməyə başladım. Peyğəmbər ﷺ dönüb məni gördü və "Kimdir?" deyə soruşdu. Mən "Əbu Zərdir, canım sənə fəda olsun!" dedim. Peyğəmbər ﷺ dedi: "Ey Əbu Zərr, bura gəl!"

---

Lakin sənədində Sadəqa ibn Musa var. Əksər alimlər onun zəif ravi olduğunu demişlər. Muslim ibn İbrahim demişdir: "Bizə Sadəqa ibn Musa hədis rəvayət etmiş və o "saduq" (mötəbərliyi orta dərəcədə olan) ravidir. "əd-Durrul-Mənsur" əsərində (2/170) hədis əlavə olaraq İbn əl-Munzirə, İbn Əbu Hatimə, İbn Mərdəveyhə və əl-Beyhəqinin "əş-Şuab" əsərinə nisbət olunmuşdur.

İbn Məin və başqaları Sadəqa ibn Musa əd-Dəqiqinin zəif olduğunu demişlər. "əl-Musnəd" əsərində (1707-ci hədisdə) bildirmişik ki, onun rəvayət etdiyi hədislər "həsən" dərəcəsindədir. Çünki, onun tələbəsi Muslim ibn İbrahim ﵀ onu tərifləmişdir. Lakin araşdırdıqdan sonra deyə bilərik ki, onun hədisi "səhih" dərəcəsindədir. Çünki, əl-Buxari "əl-Kəbir" əsərində (2/2/298) onun tərcümeyi-halını qeyd etmiş və onun mötəbərliyinə xələl gətirən heç bir şey deməmişdir. Bu isə əl-Buxarinin ﵀ nəzərində mötəbər olması deməkdir. Hədisin isnadında adı keçən İbn Bəbinusa gəlincə, adı Yəziddir və o, məşhur mötəbər tabiindir. əl-Buxari və İbn Əbu Hatim ﵀ onun tərcümeyi-halını qeyd etmişlər. əl-Buxari ﵀ onun mötəbərliyinə xələl gətirən heç bir şey deməmişdir. (Əhməd Şakir).

[1] Əhməd, 16953, 17031; ən-Nəsəi "Sunən" 3919, 3984, 4001. Hədis səhih li-ğeyrihidir. Bax: Səhih Tərğib vət-Tərhib, 2445.

[2] "əl-Musnəd" (16978); ən-Nəsəi (2/163). İsnadı səhihdir. (Əhməd Şakir).

[3] Əhməd, 21504, 21798. Hədis səhihdir. Bax: Ziləlul-Cənnə, 957.

[4] "əl-Musnəd" (5/166 Hələbi nəşri). (Əhməd Şakir). əl-Buxari, 5379, 5827; Muslim, 138, 283.

Peyğəmbərlə ﷺ birlikdə bir müddət getdim. Sonra dedi: "Həqiqətən, dünya malı çoxaldanlar Qiyamət günü çox az şeyə sahib olacaqlar. Yalnız Allahın xeyir bəxş etməsi sayəsində bu maldan sağına, soluna, önünə xərcləyərək yaxşı işlər edənlər istisnadır". Bir müddət getdikdən sonra Peyğəmbər ﷺ "Burada otur!" deyərək məni ətrafında daşlar olan bir yerdə oturtdu və dedi: "Mən qayıdana qədər burada otur!" Peyğəmbər ﷺ daşlıq ərazidə gözdən itənədək uzaqlaşdı. Uzun müddət orada tək qaldı. Sonra Peyğəmbərin ﷺ "Oğurluq etsə, zina etsə belə" deyərək gəldiyini eşitdim. Peyğəmbər ﷺ yaxınlaşdıqda özümü saxlaya bilmədim və soruşdum: "Ey Allahın Elçisi, canım sənə fəda olsun. Daşlıq ərazidə kimlə danışırdın? Mən sənə cavab verəni eşitmədim". Peyğəmbər ﷺ dedi: "Bu, Cəbrail idi. Daşlıq ərazidə qarşıma çıxdı və dedi: "Ümmətini müjdələ ki, kim Allaha heç bir şeyi şərik qoşmadığı halda ölərsə, Cənnətə girər". Mən "Ey Cəbrail, oğurluq edib, zina etsə belə?" deyə soruşdum. O "Bəli" dedi. Mən bir daha "Ey Cəbrail, oğurluq edib, zina etsə belə?" deyə soruşdum. O yenə "Bəli" dedi. Mən bir daha "Ey Cəbrail, oğurluq edib, zina etsə belə?" soruşuqda O "Bəli, hətta içki içsə belə" deyə cavab verdi".[1]

Abd ibn Humeyd رحمه الله Cabirdən رضي الله عنه rəvayət etmişdir ki, "Bir nəfər Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Ey Allahın Elçisi! (Cənnətə və Cəhənnəmə girməyi) vacib edən iki şey nədir?" Peyğəmbər ﷺ buyurdu: "Kim Allaha şərik qoşmayıb ölərsə, Cənnət ona vacib olar. Kim də Allaha şərik qoşub ölərsə, Cəhənnəm ona vacib olar".[2] Hədisi bu şəkildə yalnız Abd ibn Humeyd رحمه الله rəvayət etmişdir.[3]

İmam Əhməd رحمه الله Damdam ibn Cəus əl-Yəməminin belə dediyini rəvayət etmişdir: "Əbu Hureyra رضي الله عنه mənə dedi: "Ey Yəməmi, heç vaxt heç kimə "Allaha and olsun ki, Allah səni bağışlamayacaq" və ya "Allah heç vaxt səni Cənnətə daxil etməyəcək!" demə!" Mən dedim: "Ey Əbu Hureyra! Bizlərdən biri qəzəbləndikdə qardaşına və ya yoldaşına belə deyir". Əbu Hureyra رضي الله عنه dedi: "Heç vaxt belə demə! Çünki mən Allah Elçisinin ﷺ belə dediyini eşitmişəm: "İsrail oğullarında iki kişi var idi. Onlardan biri ibadətdə çalışqan idi, digəri isə günah edərdi. Onlar arasında qardaşlıq münasibəti vardı. İbadətdə çalışqan olan daim

[1] əl-Buxari (11/221-223 Fəthul-Bari); Muslim (1/273); Əhməd (5/152 Hələbi nəşri) oxşar mətnlə rəvayət etmişdir. (Əhməd Şakir). əl-Buxari, 5962, 6443; Muslim, 1655, 2352.

[2] Abd ibn Humeyd "Musnəd" 1060; Muslim, 135, 279.

[3] Hədisi başqa şəkildə Əhməd (14540, 14765, 15076, 15263) və Muslim (1/38) rəvayət etmişlər. Əhməd رحمه الله bu hədisi başqa bir uzun hədisin tərkibində də rəvayət etmişdir (15273). (Əhməd Şakir).

digərini günah edərkən görər və (hər dəfə ona) “Günahları tərk et!” deyərdi. O isə “Məni Rəbbimlə tək burax! Məgər sən mənim üzərimə gözətçi göndərilmisən?” deyə cavab verərdi. Bir dəfə o, qardaşını böyük bir günah edərkən gördü və ona “Vay olsun sənin halına! Tərk et bu günahı!” dedi. O yenə cavabında “Məni Rəbbimlə tək burax! Məgər sən mənim üzərimə gözətçi göndərilmisən?” dedikdə, qardaşı (qəzəblənib) “Allaha and olsun ki, Allah səni bağışlamayacaq!” və ya “Allah səni Cənnətə salmayacaq!” dedi. Bu zaman Allah bir mələk (ölüm mələyini) göndərdi və bu mələk onların ruhlarını alıb aləmlərin Rəbbinin hüzuruna gətirir. Allah günahkar olana deyir: “Rəhmətim sayəsində get və Cənnətə daxil ol!” Allah ibadətdə çalışqan olana deyir: “Sən Məni tanıyırdınmı? Sən Mənim Əlimdə olana sahib idinmi? Onu Cəhənnəmə aparın!” Əbu Hureyra ﵁ dedi: “Əbul-Qasimin canı əlində Olana and olsun ki, o bir söz söylədi, onunla dünyası da, Axirəti də məhv oldu”.[1] Hədisi Əbu Davud ﵀ da rəvayət etmişdir.[2]

Uca Allah buyurur: “**Allaha şərik qoşan kəs böyük bir günah etməklə iftira atmış olur**”. Bu ayə Uca Allahın “**Həqiqətən, Allaha şərik qoşmaq böyük zülmdür!**” (“Loğman”, 13) ayəsinə bənzəyir. əl-Buxari və Muslimin “Səhih” əsərlərində rəvayət edilir ki, bir dəfə Abdullah ibn Məsud ﵀ demişdir: “Bir dəfə Peyğəmbərdən ﷺ “Hansı günah Allah yanında ən böyük günah sayılır?” deyə soruşdum. Peyğəmbər ﷺ dedi: “Səni yaratmış olduğu halda Allaha başqa birisini tay tutmağındır!” Sonra hədisin davamını qeyd etdi.[3]

﴿ أَلَمْ تَرَ إِلَى ٱلَّذِينَ يُزَكُّونَ أَنفُسَهُم ۚ بَلِ ٱللَّهُ يُزَكِّى مَن يَشَآءُ وَلَا يُظْلَمُونَ فَتِيلًا ﴿٤٩﴾ ٱنظُرْ كَيْفَ
يَفْتَرُونَ عَلَى ٱللَّهِ ٱلْكَذِبَ ۖ وَكَفَىٰ بِهِۦٓ إِثْمًا مُّبِينًا ﴿٥٠﴾ أَلَمْ تَرَ إِلَى ٱلَّذِينَ أُوتُوا۟ نَصِيبًا مِّنَ ٱلْكِتَٰبِ
يُؤْمِنُونَ بِٱلْجِبْتِ وَٱلطَّٰغُوتِ وَيَقُولُونَ لِلَّذِينَ كَفَرُوا۟ هَٰٓؤُلَآءِ أَهْدَىٰ مِنَ ٱلَّذِينَ ءَامَنُوا۟ سَبِيلًا ﴿٥١﴾
أُو۟لَٰٓئِكَ ٱلَّذِينَ لَعَنَهُمُ ٱللَّهُ ۖ وَمَن يَلْعَنِ ٱللَّهُ فَلَن تَجِدَ لَهُۥ نَصِيرًا ﴿٥٢﴾ ﴾

**49. Özlərini təmizə çıxaranları görmürsənmi? Xeyr, Allah istədiyini təmizə çıxardar və onlara xurma çəyirdəyindəki lif qədər haqsızlıq edilməz.**

**50. Bax necə də Allaha qarşı yalan uydururlar. Bu, açıq-aşkar günah olaraq onlara kifayət edər!**

---

[1] Əhməd, 8275; İbn Hibban, 5712; Əbu Davud, 4903. Hədis səhihdir. Bax: Mişkətul-Məsabih, 2347.

[2] Hədisi Əhməd (8275) rəvayət etmişdir. İsnadı səhihdir. (Əhməd Şakir). Əhməd, 8275; Əbu Davud, 4901, 4903. Hədis səhihdir. Bax: Səhih əl-Cami, 4455.

[3] “ən-Nisa” surəsinin 29-31-ci ayələrinin təfsirində keçmişdir. əl-Buxari, 5542, 6001.

**51. Kitabdan bir pay verilənləri görmədinmi? Onlar Cibt və Tağuta inanır və kafirlər üçün də "Bunlar möminlərdən daha doğru yoldadırlar" deyirlər.**

**52. Onlar Allahın lənətlədiyi kimsələrdir. Allah kimi lənətləyərsə, ona heç bir yardımçı tapa bilməzsən.**

əl-Həsən və Qatədə ﷺ demişlər: "Uca Allahın "**Özlərini təmizə çıxaranları görmürsənmi?**" ayəsi yəhudi və xaçpərəstlərin "**Biz Allahın oğulları və sevimliləriyik**" ("əl-Maidə", 18) dedmələrinə görə nazil olmuşdur". İbn Zeyd ﷺ isə demişdir: "Bu ayə onların "**Biz Allahın oğulları və sevimliləriyik**" ("əl-Maidə", 18) və "**Yəhudilərdən və ya xaçpərəstlərdən başqa heç kəs Cənnətə daxil olmayacaq!**" ("əl-Bəqərə, 111) demələrinə görə nazil olmuşdur". İbn Cərir ﷺ Mucahidin belə dediyini rəvayət etmişdir: "Onlar dua və namazda imam olaraq uşaqları önə verirdilər və belə etməklə özlərinin günahsız olduqlarını sanırdılar".[1]

İbn Əbu Hatim ﷺ İbn Abbasın ﷺ belə dediyini rəvayət etmişdir: "Yəhudilər uşaqlarını önə keçirib namazlarını onlara qıldırardılar. Onlar uşaqların adından qurbanlar verirdilər və bu yolla günahlarının olmadığını iddia edirdilər. Halbuki onlar yalan danışırlar, çünki Uca Allah "**Özlərini təmizə çıxaranları görmürsənmi?**" ayəsini nazil etməklə "Mən heç bir günahkarı günahı olmayan biri ilə təmizə çıxarmaram" buyurdu".[2] Sonra İbn Əbu Hatim ﷺ demişdir: "Mucahid, Əbu Malik, əs-Suddi, İkrimə və əd-Dahhəkdən da oxşar təfsir rəvayət edilmişdir".[3]

Bir rəyə görə isə bu ayə, ümumiyyətlə, öyünməyi və özünü təmizə çıxarmağı pisləmək üçün nazil olmuşdur. Muslim "Səhih" əsərində rəvayət etmişdir ki, əl-Miqdəd ibn əl-Əsvəd ﷺ demişdir: "Peyğəmbər ﷺ bizə özünü tərifləyənlərin üzünə torpaq səpməyimizi əmr etmişdir".[4]

əl-Buxari və Muslimin "Səhih" əsərlərində Əbu Bəkrədən ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ bir kişinin başqa birini təriflədiyini eşitdi və belə dedi: "Vay sənin halına! Sən qardaşının boynunu qırdın!" Sonra buyurdu: "Sizdən biriniz öz qardaşını tərifləməyi lazım

[1] ət-Təbəri, 9803.
[2] Hədisin isnadı səhihdir. əs-Suyuti (2/170) hədisi yalnız İbn Əbu Hatimə ﷺ nisbət etmişdir. (Əhməd Şakir).
[3] İbn Əbu Hatim, 5830.
[4] Muslim, 5322, 7697.

bilsə, qoy desin: “Mən onu filan cür adam hesab edirəm. Mən Allah qarşısında heç kəsi təmizə çıxartmıram”.[1]

İmam Əhməd Məbəd əl-Cuhənidən rəvayət etmişdir ki, Muaviyə Peyğəmbərdən çox nadir hallarda hədis rəvayət edərdi. Bununla belə, çox vaxt cümə günləri Peyğəmbərin belə dediyini zikr edərdi: “Allah kimə xeyir nəsib etmək istəsə, ona dini başa düşməyi müyəssər edər. Bu dünya malı şirindir, kim onu halal yolla əldə edərsə, o mal onun üçün bərəkətli olar. Bir-birinizi tərifləməkdən çəkinin! Çünki kimisə tərifləmək onun başını kəsməkdir”.[2] İbn Məcə bu hədisin yalnız “Bir-birinizi tərifləməkdən çəkinin! Çünki kimisə tərifləmək onun başını kəsməkdir” hissəsini rəvayət etmişdir. Hədisin isnadında olan Məbəd – Məbəd ibn Abdullah ibn Uveym əl-Bəsri əl-Qadəridir.[3]

İbn Cərir Abdullah ibn Məsudun belə dediyini rəvayət etmişdir: “Bir kişi səhər dindar olaraq evindən çıxar, geri döndüyündə dinindən heç bir şey qalmaz. Belə ki, ona nə faydası nə də zərəri dəyməyən biri ilə qarşılaşar və onu yalandan tərifləyərək “Allaha and olsun ki, sən belə-belə adamsan” deyər. Nəticədə heç bir ehtiyacını ödəməmiş, üstəlik (bu sözü ilə) Allahı qəzəbləndirmiş halda geri dönər”. Sonra Abdullah ibn Məsud Uca Allahın “**Özlərini təmizə çıxaranları görmürsənmi?**” ayəsini oxudu.[4] Bu mövzuda geniş məlumat Uca Allahın “**Özünüzü təmizə çıxartmayın! Çünki O kimin Allahdan qorxduğunu yaxşı bilir**” (“ən-Nəcm”, 32) ayəsinin təfsirində gələcəkdir. Bu səbəbdən Uca Allah ayənin davamında “**Xeyr, Allah istədiyini təmizə çıxardar**” buyurur. Yəni bu məsələdə qayıdış Uca və İzzət sahibi olan Allahadır. Çünki O hər işin əsl mahiyyətini və gizlində olanları ən yaxşı biləndir.

Sonra Uca Allah buyurur: “...**onlara xurma çəyirdəyindəki lif qədər haqsızlıq edilməz**”, yəni xurma çəyirdəyindəki lif ağırlığında olsa belə, heç kimin mükafatı kənarda qalmayacaq. İbn Abbas, Mucahid və sələf alimlərindən bir çoxları demişlər: “Xurma çəyirdəyindəki lif, xurma çəyirdəyinin ortasındakı yarıqda olan nazik

[1] Bu hədis “ən-Nəcm” surəsinin 32-ci ayəsinin təfsirində gələcək. əl-Buxari, 2662; Muslim, 5319, 7693.

[2] Əhməd, 16883, 16949, 16971, 17027. Hədis həsəndir. Bax: Silsilə əs-Səhihə, 1196.

[3] “əl-Musnəd” (16908, 16917); İbn Məcə (3743). Məbəd əl-Cuhəni qəzavü-qədər mövzusunda ilk danışan adam olsa da, hədis rəvayətində mötəbərdir. İbn Məin onun mötəbər olduğunu demişdir. Əbu Hatim demişdir: “Hədis rəvayətində “saduq” idi”. (Əhməd Şakir). İbn Məcə, 3743. Hədis həsəndir. Bax: Silsilə əs-Səhihə, 1284.

[4] ət-Tabəri (9744). Hədis səhabənin sözüdür, isnadı yaxşıdır. (Əhməd Şakir). Əhməd, 9744, 9807.

teldir". Həmçinin İbn Abbas ﵄ demişdir: "Yəni onlara barmağına doladığın ip qədər haqsızlıq edilməyəcəkdir". Hər iki rəy mənaca bir-birinə yaxındır.

Uca Allah buyurur: "**Bax necə də Allaha qarşı yalan uydururlar**", yəni özlərini təmizə çıxarmaqla, Allahın oğulları və sevimliləri olduqlarını iddia etməklə, "**Yəhudilərdən və ya xaçpərəstlərdən başqa heç kəs Cənnətə daxil olmayacaq!**" ("əl-Bəqərə", 111) və "**Od bizə ancaq bir neçə gün toxunacaq!**" deməklə ata-babalarının saleh əməllərinə güvənməklə Allaha qarşı yalan uydururlar. Halbuki Uca Allah ataların etdikləri saleh əməllərin övladlara heç bir fayda verməyəcəyini bu ayədə açıq-aydın bildirmişdir: "**Onlar bir ümmət idi ki, gəlib-getdilər. Onların qazandıqları özlərinə, sizin qazandığınız isə sizə aiddir. Siz onların etdikləri barədə sorğu-suala tutulmayacaqsınız**" ("əl-Bəqərə", 134). Uca Allah ayənin sonunda buyurur: "**Bu, açıq-aşkar günah olaraq onlara kifayət edər!**", yəni onların bu etdikləri yalan və açıq-aşkar bir böhtan olaraq onlara yetər.

Uca Allah buyurur: "**Kitabdan bir pay verilənləri görmədinmi? Özləri Cibt və Tağuta inanır**". Muhəmməd ibn İshaq ﵀ rəvayət etmişdir ki, ayədə keçən "Cibt" sözünün mənası barədə Ömər ibn əl-Xattab ﵁ belə demişdir: "Cibt sehrdir. Tagut isə şeytandır".[1] Bu təfsir İbn Abbas, Mucahid, Səid ibn Cubeyr və başqalarından ﵃ da rəvayət edilmişdir. Bəziləri isə demişlər: "Cibt şeytandır". əl-Cəuhəri ﵀ özünün "əs-Sahhah" adlı izahlı lüğətində demişdir: "Cibt sözü bütə, kahinə, sehrbaza və s. bu kimi şeylərə deyilir. Hədisdə deyilir: "Hər hansı bir hadisəni uğursuzluq əlaməti hesab etmək, quşların uçuşundan mənalar çıxarmaq və yerə xətt çəkməklə kahinlik etmək Cibtin növlərindəndir". əl-Covhərinin ﵀ qeyd etdiyi bu hədisi İmam Əhməd ﵀ Qabisa ibn Məxariqdən ﵁ rəvayət etmişdir. Qabisa ﵁ Peyğəmbərin ﷺ belə dediyini eşitmişdir: "Həqiqətən, quşların uçuşundan mənalar çıxarmaq, yerə xətt çəkməklə kahinlik etmək və bəzi hadisələri uğursuzluq əlaməti hesab etmək Cibtin növlərindəndir".[2] Auf ﵀ hədisi şərh edərək demişdir: "Hədisdə keçən الْعِيَافَةُ [iyə:fə] sözü quşların uçuşundan mənalar çıxarmaqdır. الطَّرْقُ [Tarq] isə yerə xətt çəkməklə kahinlik etməkdir. Cibt isə, əl-Həsənin dediyinə görə, şeytandır". Hədisi Əbu Davud, ən-Nəsəi və İbn Əbu Hatim ﵏ bu şəkildə rəvayət etmişlər.[3] Tağut barədə "əl-Bəqərə" surəsinin təfsirində

[1] ət-Təbəri, 9766.
[2] Əhməd, 20623, 20880. Şueyb əl-Arnavut isnadının zəif olduğunu bildirmişdir.
[3] "əl-Musnəd" (5/60 Hələbi nəşri). (Əhməd Şakir). Əhməd, 20623, 20880.

danışdığımıza görə burada təkrar qeyd olunmasına ehtiyac yoxdur.[1]

Uca Allah buyurur: "...**və kafirlər üçün də "Bunlar möminlərdən daha doğru yoldadırlar" deyirlər**", yəni onlar cahilliklərindən, dinlərinə qiymət vermədiklərindən və əllərində olan Allahın Kitabını qəbul etmədiklərindən dolayı kafirləri müsəlmanlardan üstün tuturlar. İbn Əbu Hatim ﷬ İkrimənin ﷛ belə dediyini rəvayət etmişdir: "Bir dəfə Huyey ibn Əxtab və Kəb ibn əl-Əşrəf Məkkə müşriklərinin yanına gəldilər. Məkkəlilər onlara dedilər: "Siz Kitaba və dini elmə sahibisiniz. Bizə, bizim və Muhəmmədin halı (hansımızın daha xeyirli olduğu) barədə xəbər verin!" Onlar "Sizin etdiyiniz nədir? Muhəmmədin etdiyi nədir?" deyə soruşdular. Məkkəlilər dedilər: "Biz qohumluq əlaqələrini yaxşılaşdırırıq, iri hörgüclü seçmə dəvələri qurban kəsirik, südün üzərinə (sərin olması üçün) su töküb insanlara ikram edirik, əsirləri azad edirik, zəvvarlara su paylayırıq. Muhəmməd isə sonsuz bir adamdır, bizimlə əlaqələri kəsmişdir. Ona tabe olanlar isə zəvvarlardan oğurluq edən Ğaffər qəbiləsidir. İndi siz deyin, biz daha xeyirliyik, yoxsa o?" Huyey və Kəb "Siz daha xeyirli və daha doğru yoldasınız" dedilər. Uca Allah da "**Kitabdan bir pay verilənləri görmədinmi? Onlar Cibt və Tağuta inanır və kafirlər üçün də "Bunlar möminlərdən daha doğru yoldadırlar" deyirlər**" ayəsini nazil etdi". Bu hədis başqa şəkildə İbn Abbas ﷺ və bir çox sələfdən rəvayət edilmişdir.[2] İmam Əhməd ﷬ İbn Abbasdan ﷺ rəvayət etmişdir ki, Kab ibn əl-Əşrəf Məkkəyə gəldikdə Qureyşlilər ona dedi: "Qövmündən üz döndərən bu sonsuzu görmürsənmi? Özünü bizdən daha xeyirli sanır. Halbuki biz zəvvarların və Kəbənin xidmətçiləriyik. Biz həcc etməyə gələn zəvvarlara su verənlərik". Kəb dedi: "Siz daha xeyirlisiniz". Bu səbəbdən Uca Allahın "**Doğrusu, sənə ədavət bəsləyənin özü sonsuzdur**" ("əl-Kövsər", 3) və **"Kitabdan bir pay verilənləri görmədinmi? Onlar Cibt və Tağuta inanır və kafirlər üçün də: "Bunlar möminlərdən daha doğru yoldadırlar" deyirlər. Onlar Allahın lənətlədiyi kimsələrdir. Allah kimi lənətləyərsə, ona heç bir yardımçı tapa bilməzsən**" ("ən-Nisa", 51-52) ayələri nazil oldu".[3]

[1] "əl-Bəqərə" surəsinin 256-cı ayəsinin təfsirində keçmişdir. (Əhməd Şakir).

[2] İkrimənin ﷬ hədisi "mursəl"dir (Peyğəmbərlə ﷺ tabiin arasında olan ravi düşmüşdür). Hədisi əs-Suyuti (2/171) həmçinin Səid ibn Mənsura, İbn əl-Munzirə və Əbu Hatimə ﷬ mursəl olaraq nisbət etmişdir. Daha əvvəl hədisi ət-Tabərani və əl-Beyhəqiyə ﷬ İkrimənin İbn Abbasdan ﷺ rəvayəti ilə nisbət etmişdir. (Əhməd Şakir). İbn Əbu Hatim, 5441.

[3] əl-Hafiz İbn Kəsir ﷬ hədisi İmam Əhmədə ﷬ nisbət etmişdir. Həmçinin əs-Suyuti (2/171) hədisi Əhmədə ﷬ nisbət etmişdir. Lakin mən bu hədisi İbn Abbasın ﷺ hədislərinin sırasında tapa bilmədim. Ola bilsin, hədis İmam Əhmədin ﷬ başqa kitablarında yer almışdır.

İbn İshaq ﷺ İbn Abbasın ﷺ belə dediyini rəvayət etmişdir: "Xəndək döyüşündə müsəlmanlara qarşı ittifaqa girənlər Qureyş, Ğatafən və Bənu Qureyza qəbilələrindən Huyey ibn Əxtab, Salam ibn Əbu Huqeyq, Əbu Rafi, ər-Rabi ibn Əbu Huqeyq, Əbu Ammar, Vahah ibn Amir, Həuzə ibn Qeys idilər. Bunlardan Vahah, Əbu Ammar və Həuzə Bənu Vail qəbiləsindən, yerdə qalanları isə Bənu Nadir qəbiləsindən idi. Onlar Qureyş qəbiləsinə gəldikdə qureyşlilər dedilər: "Bunlar yəhudilərdir, ilk səmavi kitabları bilənlərdir. Onlardan soruşun ki, sizin dininiz daha xeyirlidir, yoxsa Muhəmmədin gətirdiyi din?" Qureyşlilər bunu soruşduqda onlar dedilər: "Əksinə, sizin dininiz onun dinindən daha xeyirlidir. Siz ondan və ona tabe olanlardan daha doğru yoldasınız". Bu səbəbdən Uca Allah "**Kitabdan bir pay verilənləri görmədinmi?**" ayəsini "**onlara böyük bir səltənət vermişdik**" ("ən-Nisa", 51-54) sözünə qədər nazil etdi.[1] Uca Allah bu ayələrlə onları lənətləyərək onların nə dünyada, nə də Axirətdə heç bir köməkçilərinin olmadığını xəbər verir, çünki onlar müşriklərdən yardım və kömək istəmək üçün getmişdilər və müşriklərə "**Bunlar möminlərdən daha doğru yoldadırlar**" deməklə onları özlərinə yardım etməyə cəlb etmək istəyirdilər. Müşriklər də onların bu çağırışlarına cavab verərək Əhzab günündə (Xəndək döyüşündə) onlarla birlikdə gəlmişdilər. Peyğəmbər ﷺ və səhabələri onlardan müdafiə olunmaq üçün Mədinə şəhərinin ətrafına xəndək qazdılar və beləcə, Allah müsəlmanları onların şərindən qorudu. Uca Allah bu xüsusda buyurur: "**Allah kafirləri qəzəbli olduqları halda geri qaytardı və onlar heç bir xeyrə nail olmadılar. Döyüşdə Allah möminlərə kifayət etdi. Allah Qüvvətlidir, Qüdrətlidir**" ("əl-Əhzab", 25).

﴿ أَمْ لَهُمْ نَصِيبٌ مِّنَ الْمُلْكِ فَإِذًا لَّا يُؤْتُونَ النَّاسَ نَقِيرًا ﴿٥٣﴾ أَمْ يَحْسُدُونَ النَّاسَ عَلَىٰ مَا آتَاهُمُ اللَّهُ
مِن فَضْلِهِ ۖ فَقَدْ آتَيْنَا آلَ إِبْرَاهِيمَ الْكِتَابَ وَالْحِكْمَةَ وَآتَيْنَاهُم مُّلْكًا عَظِيمًا ﴿٥٤﴾ فَمِنْهُم مَّنْ آمَنَ
بِهِ وَمِنْهُم مَّن صَدَّ عَنْهُ ۚ وَكَفَىٰ بِجَهَنَّمَ سَعِيرًا ﴿٥٥﴾ ﴾

Hədisi ət-Təbəri (9786) də rəvayət etmişdir. əs-Suyuti ﷺ hədisi əlavə olaraq İbn əl-Munzirə və Əbu Hatimə ﷺ nisbət etmişdir. İbn Kəsir ﷺ oxşar hədisi "əl-Kövsər" surəsinin təfsirində əl-Bəzzərin ﷺ rəvayəti ilə qeyd etmiş və demişdir: "Bu, səhih isnaddır". (Əhməd Şakir). ət-Təbəri 9786, 9851. Şeyx Muqbil səhih olduğunu bildirmişdir.

[1] ət-Təbəri (9792) İbn İshaqın rəvayəti ilə. (Əhməd Şakir). ət-Təbəri, 9792, 9858; əl-Beyhəqi "Daləilun-Nubuvvə" 3/408.

**53. Yoxsa onların hökmranlıqdan bir payı vardır? Elə olsaydı, onlar insanlara xurma çəyirdəyindəki oyuq qədər bir şey verməzdilər.**
**54. Yoxsa onlar Allahın Öz lütfündən insanlara verdiyi şeyə görə onlara həsəd aparırlar?! Biz İbrahim nəslinə Kitab və hikmət bəxş etmiş və onlara böyük bir səltənət vermişdik.**
**55. Onlardan kimisi ona iman gətirdi, kimisi də ondan üz çevirdi. Yandırıb-yaxan od olaraq Cəhənnəm onlara yetər.**

Uca Allah buyurur: “**Yoxsa onların hökmranlıqdan bir payı vardır?**” Bu, inkar mənasında olan sual cümləsidir. Yəni onların hökmranlıqdan heç bir payları yoxdur. Sonra Uca Allah onları xəsisliklə vəsf edərək “**Elə olsaydı, onlar insanlara xurma çəyirdəyindəki oyuq qədər bir şey verməzdilər**” buyurur. Yəni əgər onların mülkdən bir payları olsaydı və bu mülkü istədikləri kimi sərf etmək hüququna malik olsaydılar, insanlardan heç kimə, xüsusilə də Muhəmmədə ﷺ heç bir şey, hətta xurma çəyirdəyindəki oyuğu dolduracaq qədər bir şey belə verməzdilər. İbn Abbas رضي الله عنهما və bir çoxlarının fikrinə görə, ayədə keçən النَّقِيرُ [nəqi:r] sözü xurma çəyirdəyindəki oyuqdur.

Bu ayə məna baxımından bu ayəyə bənzəyir: “**De: “Əgər siz Rəbbimin rəhmət xəzinələrinə sahib olsaydınız belə, yenə də onun xərclənib tükənməsindən qorxaraq xəsislik edərdiniz”** (“əl-İsra”, 100). Yəni siz əlinizdə olanın bitməsindən qorxaraq xəsislik edərdiniz. Halbuki Allahın rəhmət xəzinələrinin tükənməsi təsəvvür edilə bilməz. Bu, sizin həddən artıq xəsis olmağınıza görədir. Bu səbəbdən Uca Allah ayənin sonunda “**Çünki insan xəsisdir**” buyurur.

Sonra Uca Allah buyurur: “**Yoxsa onlar Allahın Öz lütfündən insanlara verdiyi şeyə görə onlara həsəd aparırlar?!**” Bu ayədə Allahın Peyğəmbərə ﷺ bəxş etdiyi böyük peyğəmbərlik nemətinə və bu Peyğəmbərin ﷺ İsrail oğullarından deyil, ərəblərdən çıxmasına görə yəhudilərin ona həsəd aparmaları nəzərdə tutulur. Bu həsədləri onlara Peyğəmbəri ﷺ təsdiq etməyə mane oldu.

Uca Allah buyurur: “**Biz İbrahim nəslinə Kitab və hikmət bəxş etmiş və onlara böyük bir səltənət vermişdik**”. Yəni biz İbrahimin عليه السلام nəslindən gələn İsrail oğullarından peyğəmbərlər seçdik, onlara kitablar nazil etdik. Bu peyğəmbərlər Allahın onlara nazil etdiyi kitablarla yəhudilər arasında hikmətlə hökm edərdilər. Həmçinin onlardan hökmdarlar çıxartdıq. Bununla belə, “**Onlardan kimisi ona iman gətirdi**”, yəni onlara göndərilən peyğəmbərə və bu nemətə iman

gətirdi, "**kimisi də ondan üz çevirdi**", yəni bu peyğəmbəri və neməti inkar etdi və ondan üz çevirdi. Bununla kifayətlənməyib insanları da ondan üz çevirməyə sövq etdi. Baxmayaraq ki, bu peyğəmbər onlarla eyni nəsildən, İsrail oğullarından idi, onlar onun barəsində ixtilafa düşdülər. Elə isə, səncə, ey Muhəmməd, sən İsrail oğullarından olmadığın halda sənə qarşı necə davranacaqlar? Mucahid ﵀ demişdir: "**Onlardan kimisi ona iman gətirdi**", yəni Muhəmmədə ﷺ iman gətirdi.

Uca Allah buyurur: "**kimisi də ondan üz çevirdi**", yəni öz peyğəmbərlərini inkar edənlər səni inkar etməkdə daha şiddətli olacaqlar, onlara gətirdiyin doğru yoldan və açıq-aydın həqiqətlərdən daha uzaq olacaqlar. Bu səbəbdən Uca Allah onları təhdid edərək "**Yandırıb-yaxan od olaraq Cəhənnəm onlara yetər**" buyurur. Yəni haqqı inkar etmələrinə, inadkarlıq göstərmələrinə, Allahın kitablarına və peyğəmbərlərinə qarşı çıxmalarına cəza olaraq Cəhənnəm onlara kifayət edər.

﴿ إِنَّ ٱلَّذِينَ كَفَرُوا۟ بِـَٔايَٰتِنَا سَوْفَ نُصْلِيهِمْ نَارًا كُلَّمَا نَضِجَتْ جُلُودُهُم بَدَّلْنَٰهُمْ جُلُودًا غَيْرَهَا لِيَذُوقُوا۟
ٱلْعَذَابَ ۗ إِنَّ ٱللَّهَ كَانَ عَزِيزًا حَكِيمًا ﴿٥٦﴾ وَٱلَّذِينَ ءَامَنُوا۟ وَعَمِلُوا۟ ٱلصَّٰلِحَٰتِ سَنُدْخِلُهُمْ جَنَّٰتٍ تَجْرِى مِن
تَحْتِهَا ٱلْأَنْهَٰرُ خَٰلِدِينَ فِيهَآ أَبَدًا ۖ لَّهُمْ فِيهَآ أَزْوَٰجٌ مُّطَهَّرَةٌ ۖ وَنُدْخِلُهُمْ ظِلًّا ظَلِيلًا ﴿٥٧﴾ ﴾

**56. Şübhəsiz ki, ayələrimizi inkar edənləri oda atacağıq. Hər dəfə onların dəriləri yandıqca, əzabı daim dadsınlar deyə, Biz o dəriləri başqa dərilərlə əvəz edəcəyik. Həqiqətən, Allah qüdrətlidir, hikmət sahibidir.**

**57. İman gətirib saleh əməllər edənləri isə altından çaylar axan, içində əbədi qalacaqları cənnətlərə daxil edəcəyik. Orada onlar üçün pak zövcələr vardır. Biz onları sıx kölgəlikdə yerləşdirəcəyik.**

Uca Allah ayələrini inkar edərək elçilərindən üz çevirənləri Cəhənnəm atəşi ilə cəzalandıracağını xəbər verərək "**Şübhəsiz ki, ayələrimizi inkar edənləri oda atacağıq**" buyurur. Yəni onları elə bir oda atacağıq ki, atəşi onların hər hissələrini və hər yerlərini əhatə edəcək. Sonra Uca Allah onların cəza və əzablarının davamiyyətli olacağını bildirərək "**Hər dəfə onların dəriləri yandıqca, əzabı daim dadsınlar deyə, Biz o dəriləri başqa dərilərlə əvəz edəcəyik**" buyurur.

İmam Əhməd İbn Ömərdən rəvayət etmişdir ki, Peyğəmbər demişdir: "Cəhənnəm əhli oda düşdükdə böyüyəcəklər. O qədər böyüyəcəklər ki, onlardan birinin qulağının mərcəyi ilə çiyninin arası yeddi yüz illik məsafə uzunluğunda, dərisinin qalınlığı yetmiş qulac, azı dişi isə Uhud dağı böyüklüyündə olacaq". Hədisi bu şəkildə yalnız İmam Əhməd rəvayət etmişdir.[1]

Uca Allah buyurur: "**İman gətirib saleh əməllər edənləri isə altından çaylar axan, içində əbədi qalacaqları cənnətlərə daxil edəcəyik**". Uca Allah bu ayədə xoşbəxt olanların Ədn cənnətlərindəki halı barədə xəbər verir. Ədn cənnətlərinin hər yerində və hər tərəfində çaylar axır. Bu çaylar Cənnət sakinlərinin istədikləri kimi, istədikləri istiqamətə axacaq. Onlar orada əbədi qalacaqlar. Orada dəyişməyəcəklər (qocalmayacaqlar), yox olmayacaqlar (ölməyəcəklər) və oranı başqa bir yerə dəyişmək istəməyəcəklər.

Uca Allah buyurur: "**Orada onlar üçün pak zövcələr vardır**", yəni oradakı zövcələr heyzdən, nifasdan, natəmizliklərdən, pis əxlaqi keyfiyyətlərdən və xilqəti eyiblərdən təmiz olacaqlar.

Uca Allah buyurur: "**Biz onları sıx kölgəlikdə yerləşdirəcəyik**", yəni uzun, geniş və rahat kölgəlikdə yerləşdirəcəyik. İbn Cərir bu barədə Əbu Hureyradan rəvayət etmişdir ki, Peyğəmbər demişdir: "Cənnətdə elə bir ağac vardır ki, atlı onun kölgəsində yüz il yol gedəcək, amma onu qət edə bilməyəcək. Bu, əbədiyyət ağacıdır".[2]

﴿إِنَّ ٱللَّهَ يَأۡمُرُكُمۡ أَن تُؤَدُّواْ ٱلۡأَمَٰنَٰتِ إِلَىٰٓ أَهۡلِهَا وَإِذَا حَكَمۡتُم بَيۡنَ ٱلنَّاسِ أَن تَحۡكُمُواْ بِٱلۡعَدۡلِۚ إِنَّ ٱللَّهَ نِعِمَّا يَعِظُكُم بِهِۦٓۗ
إِنَّ ٱللَّهَ كَانَ سَمِيعَۢا بَصِيرٗا ٥٨﴾

**58. Həqiqətən, Allah sizə əmanətləri sahiblərinə qaytarmanızı və insanlar arasında hökm verərkən ədalətlə hökm vermənizi əmr edir. Allahın sizə verdiyi bu öyüd-nəsihət necə də gözəldir! Şübhəsiz ki, Allah eşidəndir, görəndir.**

---

[1] "əl-Musnəd" (4800). (Əhməd Şakir). Hədis zəifdir. Bax: Silsilə əd-Daifə, 1323. Oxşar hədis Muslimin "Səhih" əsərində gəlmişdir: Əbu Hureyra Peyğəmbərin belə dediyini rəvayət edir: "(Cənənnəmdə) Kafirin azı dişi və ya köpək dişi Uhud dağı böyüklüyündə olacaqdır. Dərisinin qalınlığı isə üçgünlük yol qədər olacaqdır". (Muslim, 2851, 5090, 7364). Başqa bir rəvayətdə "Cəhənnəmdə kafirin iki çiyninin arası, sürətli bir atlının üç gündə qət edəcəyi məsafə uzunluqda olacaq". (Muslim, 2852, 5091, 7365).

[2] ət-Tabəri (9838); Əhməd (9870, 9951). Hədisin əsli müxtəlif mətnlərlə "əl-Musnəd", əl-Buxari və Muslimin "Səhih" əsərlərində və başqa kitablarda "Bu, əbədiyyət ağacıdır" hissəsi qeyd edilmədən Əbu Hureyradan rəvayət edilmişdir. Bax: "əl-Musnəd" (7489). (Əhməd Şakir).

Uca Allah bu ayədə əmanətləri öz sahiblərinə qaytarmağı əmr edir. Səmuradan ﷺ rəvayət edilən hədisdə Peyğəmbər ﷺ demişdir: "Sənə etibar edənin əmanətini ödə (sənə bir şey əmanət edənə əmanət etdiyi şeyi geri ver). Sənə xainlik edənə isə sən xəyanət etmə".[1] Hədisi İmam Əhməd ﷺ və "Sunən" əsərlərinin sahibləri rəvayət etmişlər.[2] Bu hədis insana vacib olan bütün əmanətləri əhatə edir. Bu əmanətlərə həm Allahın haqları, yəni yerinə yetirilib-yetirilməməsindən bəndələrin xəbərsiz olduğu namaz, zəkat, kəffarələr, nəzirlər, oruc və bu kimi haqlar, həm də qul haqları, yəni etibar edilən əşyalar kimi qulların bir-birlərinin üzərində olan və sübut edilməsi üçün dəlilə ehtiyac duyulmayan haqlar daxildir. Uca Allah bütün bu əmanətləri ödəməyi əmr etmişdir. Dünyada bu əmanətləri ödəməyən kəslərdən Qiyamət günü onların qarşılığı alınacaq. Səhih bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Qiyamət günü haqları sahiblərinə mütləq verəcəksiniz. Hətta buynuzsuz qoyunu vurduğuna görə buynuzlu qoçdan qisas alınacaq".[3]

İbn Əbu Hatim ﷺ Zazandan, o da Abdullah ibn Məsuddan ﷺ rəvayət etmişdir ki, "Allah yolunda şəhid olmaq insanın bütün günahlarını silir, yalnız əmanət istisnadır. Qiyamət günü insan, Allah yolunda öldürülmüş olsa belə, gətiriləcək və ona "Əmanətini qaytar" deyiləcək. O isə "Dünya həyatı bitdiyi halda, mən onu necə ödəyim?" deyəcək. Bu zaman əmanət onun üçün Cəhənnəm çuxurunda

---

[1] Əhməd, 15462, 15502; ət-Tirmizi, 1264, 1311. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 423.

[2] Əbu Davud, 3535. Hədis səhihdir. Bax: Silsilə əs-Sahihə, 423. Əhməd Şakir ﷺ demişdir: "Məncə əl-Hafiz İbn Kəsir ﷺ bu hədisi Səmuradan ﷺ rəvayət etməklə səhv etmişdir. Çünki mən bu hədisi Səmuranın ﷺ rəvayəti ilə nə "əl-Musnəd" əsərində, nə də başqa əsərlərdə tapa bilmədim. Hədisi Əbu Davud (3535), ət-Tirmizi (2/251-252), əd-Dərimi (2/264) və əl-Hakim (2/46) Əbu Hureyradan ﷺ rəvayət etmişlər. ət-Tirmizi ﷺ hədisi "həsən-ğarib" adlandırmışdır. əl-Hakim ﷺ isə hədisin Muslimin şərtinə görə səhih olduğunu bildirmiş, əz-Zəhəbi ﷺ də onunla razılaşmışdır. əl-Hakim ﷺ bu hədisi gücləndirmək məqsədilə ardınca eyni hədisi Ənəsdən ﷺ də rəvayət etmişdir".

[3] Bu hədis dəlalət edir ki, Qiyamət günü heyvanlar da dirildiləcəklər. Həmçinin buna Uca Allahın "**vəhşi heyvanlar** (Qiyamət günü) **bir yerə toplanacağı zaman**" ("ət-Təkvir", 5) ayəsi dəlalət edir. Başqa bir səhih hədisdə Peyğəmbər ﷺ demişdir: "Uca Allah bütün məxluqlar – cinlər, insanlar, heyvanlar arasında hökm edəcək. Hətta buynuzlu qoçdan buynuzsuz qoyunu vurduğuna görə qisas alacaqdır. Heç kimdə heç kimin haqqı qalmadıqdan sonra Uca Allah heyvanlara "Torpaq olun!" deyəcəkdir. Məhz bu anda kafir insan "**Kaş ki torpaq olaydım!**" deyə təmənna edəcəkdir". Əhməd, 7203; İbn Hibban, 7363. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 1967. Əhməd Şakir ﷺ demişdir: "Hədisi Əhməd "əl-Musnəd" əsərində (7203, 7983, 8271) və Muslim (2/283-284) Əbu Hureyradan ﷺ rəvayət etmişlər".

canlandırılacaq və o bu əmanətə tərəf enəcək. Sonra əmanəti çiynində daşıyaraq çıxartmaq istəyəcək. Yuxarı çatana yaxın əmanət onun çiynindən düşəcək və o onun dalınca yenə aşağı enəcək. Beləcə, əbədi olaraq Cəhənnəmdə əmanətin dalınca düşüb-qalxacaq". Zəzən dedi: "əl-Bəranın yanına getdim və bu hədisi ona danışdım. əl-Bəra "Qardaşım doğru deyir" dedikdən sonra Uca Allahın "**Həqiqətən, Allah sizə əmanətləri sahiblərinə qaytarmanızı və insanlar arasında hökm verərkən ədalətlə hökm verməniz əmr edir**" ayəsini oxudu".[1]

Bir çox təfsir alimləri bu ayənin Osman ibn Talhə ibn Əbu Talhə ﷺ barədə nazil olduğunu qeyd etmişlər. Əbu Talhənin adı Abdullah ibn Abduluzza ibn Osman ibn Abdud-Dər ibn Quseyy ibn Kiləb əl-Quraşi əl-Əbdəri idi. O, Kəbənin açarına sahib olan şəxslərdən biri idi. Bu şəxs günümüzə qədər Kəbənin açarına sahib olan Şeybə ibn Osman ibn Əbu Talhənin əmisi oğlu idi. Osman, Hudeybiyyə sülhünün bağlanması ilə Məkkənin fəthi arasında olan ərəfədə Xalid ibn əl-Valid və Amr ibn əl-Asla birlikdə İslamı qəbul etmişdi. Əmisi Osman ibn Əbu Talhə isə Uhud döyüşündə müşriklərin bayrağını daşıyan idi və o gün kafir olaraq öldürülmüşdü. Osman ilə Şeybə arasında olan bu qohumluğu qeyd etməyimizin səbəbi, bir çox təfsirçilərin (səhabə olan) Osman ibn Talhə ilə (kafir kimi ölmüş) əmisi Osman ibn Əbu Talhəni səhv salmalarıdır.[2] Bu ayənin Osman ibn Talhə barəsində nazilolma səbəbi belədir: Peyğəmbər ﷺ Məkkənin fəthi günü Kəbənin açarını ondan aldı, sonra isə (bu ayənin nazil olması səbəbindən) geri qaytardı.

İbn İshaq Məkkənin fəthi barədə Safiyyə bint Şeybədən rəvayət etmişdir ki, Peyğəmbər ﷺ Məkkədə qərar tutduqdan və insanlar sakitləşdikdən sonra Kəbəyə gəldi. Dəvəsinin üzərində onu yeddi dəfə təvaf etdi. Təvaf əsnasında əlindəki əsa ilə qara daşa toxunurdu. Təvafı bitirdikdən sonra Osman ibn Talhəni çağırıb Kəbənin açarını ondan aldı. Kəbənin qapısını onun üçün açdılar və o içəri girdi. Kəbənin içində taxtadan düzəldilmiş bir göyərçin gördü və onu əlləri ilə qırıb

---

[1] İbn Əbu Hatimin rəvayət etdiyi isnad səhihdir. əs-Suyuti (2/175) hədisi əlavə olaraq Abdur-Razzəqə, İbn Əbu Şeybəyə, Abd ibn Humeydə, İbn əl-Munzirə və əl-Beyhəqinin "Şuab" əsərinə nisbət etmişdir. Hədis zahirən İbn Məsudun və əl-Bəranın sözü olsa da, Peyğəmbərə ﷺ nisbət olunmuş hədis hökmündədir. Çünki belə bir şeyi insan özündən deyə bilməz. Deməli ki, onlar bunu Peyğəmbərdən ﷺ eşitmişlər. (Əhməd Şakir). İbn Əbu Hatim, 5512; əl-Beyhəqi "Şuabul-İman" 4885. Hədis həsəndir. Bax: Səhih Tərğib vət-Tərhib, 1763, 2995.

[2] Bax: əl-Musabın "Nəsəb Qureyş" (Qureyşin nəsəbi) (səh. 251-253) və İbn Həzmin "Cəmhərətun-Nəsəb" (səh. 118) əsərlərinə. (Əhməd Şakir).

çölə atdı. Sonra Peyğəmbər ﷺ Kəbənin qapısında dayandı. İnsanlar isə məsciddə onu dinləmək üçün toplaşmışdılar.

İbn İshaq ﵀ deyir: "Bəzi alimlərin mənə danışdıqlarına görə, Peyğəmbər ﷺ həmin gün Kəbənin qapısında dayanıb belə dedi: "Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur. O, Təkdir. Onun şəriki də yoxdur. O, vədinə əməl etdi, Öz bəndəsinə kömək etdi, Əhzab (Xəndək) döyüşündə tayfaları tək Özü məğlub etdi. Bilin ki, Kəbəyə xidmət etmək və ziyarətə gələnləri su ilə təmin etməkdən başqa cahiliyyə dövründə tökülən qan, iddia olunan mal və edilən bütün xidmətlər bu iki ayağımın altındadır (ləğv olunur)". Sonra İbn İshaq ﵀ Peyğəmbərin ﷺ o gün dediyi xütbənin davamını qeyd edərək dedi: "Sonra Peyğəmbər ﷺ məsciddə oturdu. Əli ibn Əbu Talib əlində Kəbənin açarı ayağa qalxaraq dedi: "Ey Allahın Elçisi, ziyarətə gələnləri su ilə təmin etməklə birlikdə Kəbə açarına sahib olmaq hüququnu da bizə ver. Allahın salavatı və salamı sənin üzərinə olsun!" Peyğəmbər ﷺ soruşdu: "Osman ibn Talhə haradadır?" Osman ibn Talhə gəldikdə, Peyğəmbər ﷺ ona "Ey Osman, açarını al! Bu gün əhdə vəfa və yaxşılıq etmək günüdür" dedi".[1] Bu hədislər, ayənin bu barədə (Osman ibn Talhə haqqında) nazil olduğuna dair məşhur rəvayətlərin bir hissəsidir. Lakin ayənin bu barədə nazil olub-olmamasından asılı olmayaraq hökm ümumidir. Bu səbəbdən İbn Abbas və Muhəmməd ibn əl-Hənəfiyyə ﵄ demişlər: "Bu hökm həm yaxşılara, həm də günahkarlara aiddir". Yəni bu ayə hər kəs üçün Allahın bir əmridir.

Sonra Uca Allah insanlar arasında ədalətlə hökm verməyi əmr edərək "...**insanlar arasında hökm verərkən ədalətlə hökm vermənizi əmr edir**" buyurur. Muhəmməd ibn Kəb, Zeyd ibn Əsləm və Şəhr ibn Həuşəb ﵏ demişlər: "Bu ayə əmirlər, yəni insanlar arasında hökm verənlər barədə nazil olmuşdur". Bir hədisdə deyilir: "Zülm etmədiyi müddətcə Allah hakimlədir. Əgər zülm edərsə, Allah onu özünə həvalə edər".[2] Bir rəvayətdə deyilir: "Bir gün ədalətli olmaq qırx illik ibadətə bərabərdir".[3]

[1] İbn Hişamın "Sira" əsəri (səh. 820-821 Urba nəşri). (Əhməd Şakir). İbn Hişam, 3/509, 5/73.

[2] Hədisi ət-Tirmizi (2/277); İbn Məcə (2312) və əl-Hakim (4/93) Abdullah ibn Əbu Aufədən ﵁ oxşar mətnlə rəvayət etmişlər. ət-Tirmizi ﵀ hədisi "ğarib" adlandırmışdır. əl-Hakim ﵀ isə səhih olduğunu bildirmiş, əz-Zəhəbi ﵀ də onunla razılaşmışdır. Lakin onların rəvayətində "hakim" sözü əvəzinə "qazi" işlənmişdir. əl-Hakimin ﵀ rəvayəti belədir: "Zülm etdikdə Allah ondan uzaq olar". ət-Tirmizinin ﵀ rəvayəti isə belədir: "Zülm etdikdə Allah onu tərk edər, əvəzində şeytan ona yoldaş olar". Hədisin əvvəlini İbn Hibban "Səhih" əsərində (7/215 İhsan nəşri) rəvayət etmişdir. (Əhməd Şakir). Hədis səhihdir. Bax: Səhih əl-Cami, 1826-1827.

[3] Bu rəvayətin nə olduğunu bilmədim. (Əhməd Şakir).

Uca Allah buyurur: "**Allahın sizə verdiyi bu öyüd-nəsihət necə də gözəldir!**", yəni əmanətləri öz sahiblərinə qaytarmaq, insanlar arasında ədalətlə hökm vermək və sair bu kimi əmrləri və mükəmməl, əzəmətli qanunları buyurmaqla Allah sizə nə gözəl öyüd verir.

Uca Allah buyurur: "**Şübhəsiz ki, Allah eşidəndir, görəndir**", yəni dediklərinizi eşidən, etdiklərinizi görəndir.

﴿يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوٓاْ أَطِيعُواْ ٱللَّهَ وَأَطِيعُواْ ٱلرَّسُولَ وَأُوْلِي ٱلۡأَمۡرِ مِنكُمۡۖ فَإِن تَنَٰزَعۡتُمۡ فِي شَيۡءٖ فَرُدُّوهُ إِلَى ٱللَّهِ
وَٱلرَّسُولِ إِن كُنتُمۡ تُؤۡمِنُونَ بِٱللَّهِ وَٱلۡيَوۡمِ ٱلۡأٓخِرِۚ ذَٰلِكَ خَيۡرٞ وَأَحۡسَنُ تَأۡوِيلًا ٥٩﴾

**59. Ey iman gətirənlər! Allaha itaət edin, Peyğəmbərə və özünüzdən olan rəhbərlərə də itaət edin. Əgər bir şey haqqında mübahisə etsəniz, Allaha və Axirət gününə iman gətirmisinizsə, Allaha və Peyğəmbərə müraciət edin. Bu sizin üçün daha xeyirli və nəticə etibarilə daha yaxşıdır.**

əl-Buxari رحمه الله İbn Abbasdan رضي الله عنهما rəvayət etmişdir ki, Uca Allahın "**Ey iman gətirənlər! Allaha itaət edin, Peyğəmbərə və özünüzdən olan rəhbərlərə də itaət edin**" ayəsi Abdullah ibn Huzafə ibn Qeys ibn Adiy رضي الله عنه barəsində nazil olmuşdur. Belə ki, Peyğəmbər ﷺ onu bir dəstəyə başçı təyin edib döyüşə göndərən zaman onun barəsində bu ayə nazil olmuşdur".[1] Bu hədisi İbn Məcədən رحمه الله başqa, digər hədis alimləri də rəvayət etmişlər.

İmam Əhməd رحمه الله Əlinin رضي الله عنه belə dediyini rəvayət etmişdir: "Bir dəfə Peyğəmbər ﷺ döyüşə bir dəstə göndərdi və bu dəstəyə ənsarlardan olan bir kişini başçı təyin etdi. Yola düşdükdən sonra başçı ilə dəstə üzvləri arasında mübahisə oldu və dəstə başçısı qəzəblənib dedi: "Məgər Peyğəmbər ﷺ sizə mənə itaət etməyi əmr etməmişdimi?" Onlar "Elədir!" dedilər. Onda onlara "Elə isə mənim üçün odun yığın!" deyə buyurdu, onlar da lazımi qədər odun yığdılar. Sonra onlara "Od qalayın!" dedi, onlar da od qaladılar. Axırda onlara "Girin oda!" dedi. Dəstədə olan bir gənc dedi: "Siz atəşdən xilas olmaq üçün Peyğəmbərə ﷺ tabe olmusunuz. Tələsməyin, Peyğəmbərin ﷺ yanına qayıdana qədər gözləyin. Əgər o sizə oda daxil olmağı əmr etsə, o zaman girərsiniz". Onlar Peyğəmbərin ﷺ yanına qayıdıb bu barədə ona xəbər verdikdə Peyğəmbər ﷺ dedi: "Əgər siz atəşə girsəydiniz, Qiyamət gününədək oradan çıxa bilməzdiniz. Əslində, başçıya yalnız şəriətə uyğun olan

[1] əl-Buxari, 4218, 4584.

şeylərdə itaət olunmalıdır!”[1] Hədisi əl-Buxari və Muslim rəvayət etmişlər.[2] Əbu Davud ﷺ Abdullah ibn Ömərdən ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: “Müsəlmana asilik əmr olunmadıqca, istəsə də, istəməsə də, rəhbəri dinləyib ona itaət etmək vacibdir. Lakin əgər asilik əmr olunarsa, onda nə dinləmək, nə də itaət etmək olmaz”.[3] Hədisi əl-Buxari və Muslim ﷺ də rəvayət etmişlər.[4]

Ubadə ibn Samit ﷺ demişdir: “Bir dəfə Peyğəmbər ﷺ bizi öz yanına çağırdı və biz ona beyət etdik. Xoş günümüzdə və sıxıntılı anlarımızda, düşdüyümüz çətin və asan hallarda, habelə haqqımızı ödəməsələr belə, əmirləri dinləyib itaət edəcəyimizə dair ona beyət etdik. Habelə əmirə qarşı çıxmayacağımıza söz verdik. Peyğəmbər ﷺ dedi: “Yalnız əmirin açıq-aşkar küfr etməsi və buna dair Allah tərəfindən dəlil-sübutun olması istisnadır”.[5] Hədisi əl-Buxari və Muslim ﷺ rəvayət etmişlər.[6]

Ənəsdən ﷺ rəvayət edilən başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: “Başı kişmiş kimi qara bir həbəşi kölə üzərinizdə hökmranlıq etmiş olsa belə, əmrlərini eşidib ona itaət edin”.[7] Hədisi əl-Buxari ﷺ rəvayət etmişdir. Bir hədisdə Əbu Hureyranın ﷺ belə dediyi rəvayət edilir: “Sevimli dostum (Peyğəmbər ﷺ) mənə üzərimdəki əmir əli-ayağı kəsik həbəşi bir kölə olsa belə, ona itaət etməyimi vəsiyyət etmişdir”.[8] Hədisi Muslim ﷺ də rəvayət etmişdir.[9]

---

[1] Əhməd, 622; əl-Buxari, 3995, 4340. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 181.

[2] əl-Buxari (8/190-191 Fəthul-Bari); “əl-Musnəd” (3124). Hədis ixtisar edilmişdir. əl-Hafiz İbn Həcər ﷺ demişdir: “əl-Buxari hədisi bu şəkildə müxtəsər olaraq qeyd etmişdir. Hədisin mənası belədir: “Uca Allahın “**Ey iman gətirənlər! Allaha itaət edin, Peyğəmbərə və özünüzdən olan rəhbərlərə də itaət edin. Əgər bir şey haqqında mübahisə etsəniz, Allaha və Axirət gününə iman gətirmisinizsə, Allaha və Peyğəmbərə müraciət edin. Bu sizin üçün daha xeyirli və nəticə etibarilə daha yaxşıdır**” ayəsi Abdullah ibn Huzafənin ﷺ hadisəsinə görə nazil olmuşdur. Bu hadisənin təfsilatı Əlidən ﷺ rəvayət olunan növbəti hədisdə bildirilir”. (Əhməd Şakir).

[3] Əbu Davud, 2626. Hədis səhihdir. Bax: Mişkətul-Məsabih, 3664.

[4] “əl-Musnəd” (622, 724, 1018). Bu hadisənin təfsilatı həmçinin, “əl-Musnəd” əsərində (11662) Əbu Səid əl-Xudridən ﷺ də rəvayət edilmişdir. Bu rəvayətdə dəstənin əmirinin Abdullah ibn Huzafə ﷺ olduğu açıq-aydın bildirilir. Əvvəl keçən İbn Abbasın ﷺ hədisində də buna işarə edilir. (Əhməd Şakir).

[5] Muslim, 3427, 4877; əl-Buxari, 6532, 7056.

[6] “əl-Musnəd” (4668, 6278); ət-Təbəri (9877, 9878). (Əhməd Şakir).

[7] əl-Buxari (13/5-6 Fəthul-Bari); Muslim (2/76, 87); Əhməd (5/314, 321 Hələbi nəşri). (Əhməd Şakir). əl-Buxari, 6609, 7142.

[8] əl-Buxari, 3412, 4862.

[9] əl-Hafiz İbn Kəsir ﷺ hədisi Əbu Hureyradan ﷺ rəvayət etmişdir. Bu isə səhvdir. Doğru olan budur ki, hədis Muslimin “Səhih” əsərində (2/85) Əbu Zərdən ﷺ rəvayət olunur. Ola bilsin

Əbu Hureyra ﵁ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Əvvəllər İsrail oğullarını peyğəmbərlər idarə edirdilər. Hər dəfə bir peyğəmbər vəfat etdikdə onun yerinə başqa bir peyğəmbər gəlirdi. Məndən sonra isə peyğəmbər gəlməyəcək, lakin çoxlu xəlifələr olacaq". (Səhabələr) dedilər: "Ey Allahın Elçisi, bizə nə buyurursan?" Peyğəmbər ﷺ dedi: "Birinci beyət edilmiş xəlifəyə sadiq qalın, onların haqqını verin. Heç şübhəsiz ki, Allah onları rəiyyətlərinə görə sorğu-sual edəcəkdir".[1] Hədisi əl-Buxari və Muslim ﵀ rəvayət etmişlər.[2]

İbn Abbas ﵄ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Kim öz rəhbərindən xoşagəlməz bir münasibət görsə, qoy buna səbir etsin. Çünki kim əmirin itaətindən bircə qarış kənara çıxmış halda ölərsə, cahiliyyə dövründə olduğu kimi, ölmüş olar". Hədisi əl-Buxari və Muslim ﵀ rəvayət etmişlər.[3]

Rəvayət olunur ki, İbn Ömər ﵄ Peyğəmbərin ﷺ belə dediyini eşitmişdir: "Kim əmirə itaətdən boyun qaçırarsa, Qiyamət günü heç bir hüccəti (dəlil-sübutu) olmadığı halda Allahla qarşılaşar! Kim boynunda beyət (rəhbərə sadiqlik andı) olmadan ölərsə, cahiliyyə dövründə olduğu kimi, ölmüş olar!" Hədisi Muslim ﵀ rəvayət etmişdir.[4]

Həmçinin Muslim ﵀ rəvayət edir ki, Abdur-Rahmən ibn Abdu Rabbil-Kəbə ﵀ belə buyurdu: "Bir dəfə məscidə daxil oldum və Abdullah ibn Amr ibn əl-Asın Kəbənin kölgəsində oturduğunu gördüm. İnsanlar onun ətrafına toplaşmışdılar. Mən yaxınlaşaraq Abdullah ibn Amrın yanında əyləşdim. O belə buyurdu: "Bir dəfə Peyğəmbərlə ﷺ birgə səfərdə idik. Bir yerdə dayandıq. Bizdən bəzisi çadırını düzəldir, bəziləri ox atmaqla yarışır, bəzilərimiz isə otlaqdakı heyvanına göz qoyurdu. Birdən Peyğəmbərin ﷺ carçısı "Namaza toplanın!" deyə səsləndi. Biz Peyğəmbərin ﷺ ətrafında toplandıq. O belə buyurdu: "Həqiqətən, məndən əvvəl gələn hər bir peyğəmbərin üzərinə haqq olub ki, ümməti üçün bildiyi xeyri onlara çatdırsın və bildiyi şərdən onları çəkindirsin. Həqiqətən, sizin bu ümmətinizin afiyəti (salamatlığı) əvvəlkilərə verilmişdir. Sonunda isə bəla və sizin xoşlamadığınız hadisələr baş verəcəkdir. Fitnələr baş verəcək

bu səhvə səbəb onun hədisləri hafizəsindən rəvayət etməsi olmuşdur. (Əhməd Şakir).

[1] əl-Buxari, 3169, 3455; Muslim, 3429, 4879.

[2] əl-Buxari (6/359-360 Fəthul-Bari); Muslim (2/87); Əhməd (7947). (Əhməd Şakir).

[3] Əhməd (2487, 2702, 2826, 2827). (Əhməd Şakir). əl-Buxari, 6531, 6610, 7054, 7143; Muslim, 3438, 4896.

[4] Muslim (8912); Əhməd (5386). (Əhməd Şakir). Muslim, 3441, 4899.

və bu fitnələrdən əvvəlki sonrakından daha yüngül olacaq (getdikcə ağırlaşacaq). Bir fitnə gəldikdə mömin "Bu mənim həlakımdır!" deyəcək. Sonra bu fitnə aradan qalxıb digəri gəldikdə mömin "Budur! Budur həlakım!" deyəcək. Sizdən kim Cəhənnəmdən uzaqlaşıb Cənnətə daxil olmaq istəyirsə, əcəlini Allaha və Axirət gününə iman etmiş bir halda qarşılasın! Qoy insanlarla özünə qarşı dilədiyi rəftarla davransın! Kim bir rəhbərə beyət edərsə, əlini onun əlinin üzərinə qoyaraq səmimi qəlbdən sədaqət andı içərsə, qoy ona əlindən gəldiyi qədər itaət etsin! Əgər başqa birisi gəlib ona qarşı çıxarsa (hakimiyyət uğrunda mübarizə aparарsa), qarşı çıxanın boynunu vurun!" Mən ona yaxınlaşaraq soruşdum: "Səni Allaha and verirəm, sən bunları özün Peyğəmbərdən ﷺ eşitmisən?" O, əli ilə qulaqlarına və qəlbinə işarə edərək belə buyurdu: "Bunu qulaqlarım eşitdi və qəlbim əzbərlədi". Mən ona dedim: "Sənin əmin oğlu Müaviyə bizə mallarımızı aramızda haqsızcasına yeməyi və bir-birimizi öldürməyi əmr edir. Halbuki Uca Allah "**Ey iman gətirənlər! Qarşılıqlı razılıqla aparılan ticarət istisna olmaqla, mallarınızı öz aranızda haqsız yerə yeməyin və özünüzü öldürməyin. Həqiqətən, Allah sizə qarşı rəhmlidir**" ("ən-Nisa", 29) buyurur". O, bir müddət susduqdan sonra dedi: "Allaha itaəti əmr etdikdə ona itaət et, Allaha asi olan işlərdə isə asi ol (itaət etmə)!"[1] Bu mövzuda hədislər çoxdur.

Uca Allah buyurur: "...**və özünüzdən olan rəhbərlərə də itaət edin**", yəni din və fiqh alimlərinə. Mucahid, Əta, əl-Həsən əl-Bəsri və Əbul-Aliyə ﷺ də eyni fikirdə olub bu ayədə alimlərin nəzərdə tutulduğunu söyləmişlər. Lakin görünən budur ki, – ən doğrusunu Allah bilir – ayə, əvvəl qeyd etdiyimiz kimi, ümumi olub həm alimləri, həm də əmr sahiblərini əhatə edir. Uca Allah buyurur: "**Məgər din xadimləri və elm adamları onlara günah sözlər danışmağı və haram yeməyi qadağan etməli deyildilərmi?!**" ("əl-Maidə", 63), "**Əgər bilmirsinizsə, Zikr əhlindən soruşun**" ("ən-Nəhl", 43). əl-Buxari və Muslimin ﷺ Əbu Hureyradan ﷺ rəvayət etdikləri hədisdə Peyğəmbər ﷺ demişdir: "Kim mənə itaət etsə, Allaha itaət etmiş olar, kim mənə asi olsa, Allaha asi olmuş olar. Eləcə də kim əmirə itaət etsə, mənə itaət etmiş olar, kim əmirə asi olsa, mənə asi olmuş olar".[2]

Bu dəlillərdə gələn əmrlər alimlərə və rəhbərlərə itaəti ehtiva edir. Bu səbəbdən Uca Allah buyurur: "**Allaha itaət edin**", yəni Onun Kitabına tabe olun, "**Peyğəmbərə ... itaət edin**", yəni onun sünnəsinə

[1] Muslim (2/87, 88); Əhməd (6503, 6793). (Əhməd Şakir). Muslim, 3431, 4882.

[2] əl-Buxari (13/99 Fəthul-Bari); Muslim (2/85); Əhməd (7643, 7330, 7428); ət-Təbəri (9851). (Əhməd Şakir). əl-Buxari, 6604, 7137; Muslim, 3418, 4854.

(hədislərinə) sarılın, "**və özünüzdən olan rəhbərlərə də itaət edin**", yəni Allaha qarşı asilikləri deyil, Allaha itaəti əmr edən rəhbərlərə itaət edin. Çünki Allaha qarşı günah olan əmrlərdə məxluqa itaət etmək olmaz. Necə ki əvvəl keçən səhih bir hədisdə: "Əslində, əmirə yalnız şəriətə uyğun olan şeylərdə itaət olunmalıdır!" buyurulur.[1] İmam Əhməd ﷺ İmran ibn Husayndan ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Allaha asilik olan əmrlərdə heç kəsə itaət etmək olmaz".[2]

Uca Allah buyurur: "**Əgər bir şey haqqında mübahisə etsəniz, Allaha və Axirət gününə iman gətirmisinizsə, Allaha və Peyğəmbərə müraciət edin**". Mucahid və bir çox sələf alimləri ﷺ demişlər: "Yəni mübahisə etdiyiniz məsələlərin həlli üçün Allahın Kitabına və Peyğəmbərinin ﷺ hədislərinə müraciət edin". Uca Allahın bu əmri dəlalət edir ki, insanlar həm dinin əsaslarına, həm də şöbələrinə dair ixtilafa düşdükləri bütün məsələlərdə Allahın Kitabına və Peyğəmbərinin ﷺ hədislərinə qayıtmalıdırlar. Necə ki Uca Allah başqa bir ayədə buyurur: "**İxtilafa düşdüyünüz şeylər barəsində hökm vermək ancaq Allaha aiddir**" ("əş-Şura", 10). Allahın Kitabının və Peyğəmbərinin ﷺ sünnəsinin verdiyi və doğruluğuna şahidlik etdiyi hökm haqdır. Bu haqdan başqası isə zəlalətdir. Bu səbəbdən Uca Allah "**Allaha və Axirət gününə iman gətirmisinizsə**" buyurur. Yəni əgər "**Allaha və Axirət gününə iman gətirmisinizsə**", mübahisələri və bilmədiyiniz məsələləri Allahın Kitabına və Peyğəmbərinin ﷺ sünnəsinə həvalə edin, aranızda baş verən ixtilaflarda Quran və Sünnəni hakim təyin edin. Ayənin bu hissəsi dəlalət edir ki, ixtilaflı məsələlərdə Quran və Sünnənni hakim təyin etməyən və onlara müraciət etməyən, haqqı ilə Allaha və Axirət gününə inanmamışdır.

Uca Allah buyurur: "**Bu sizin üçün daha xeyirli**", yəni Allahın Kitabını və Peyğəmbərinin ﷺ sünnəsini hakim təyin etmək və ixtilaflı məsələləri həll etmək üçün onlara müraciət etmək daha xeyirlidir, "**və nəticə etibarilə daha yaxşıdır**", yəni aqibət və sonluq baxımından daha yaxşıdır. Necə ki əs-Suddi və başqaları ﷺ belə təfsir etmişlər. Mucahid ﷺ isə demişdir: "Yəni qarşılıq və mükafat baxımından daha gözəldir". Bu təfsir daha uyğundur.

---

[1] Hədisi Əhməd, əl-Buxari və Muslim ﷺ Əlidən ﷺ rəvayət etmişlər. Hədis əvvəlki səhifədə keçdi. (Əhməd Şakir). Əhməd, 622; əl-Buxari, 3995, 4340. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 181.

[2] "əl-Musnəd" (4/426 Hələbi nəşri). İsnadı səhihdir. (Əhməd Şakir). Əhməd, 19837, 19845, 19918, 20070. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 180.

﴿أَلَمۡ تَرَ إِلَى ٱلَّذِينَ يَزۡعُمُونَ أَنَّهُمۡ ءَامَنُواْ بِمَآ أُنزِلَ إِلَيۡكَ وَمَآ أُنزِلَ مِن قَبۡلِكَ يُرِيدُونَ أَن
يَتَحَاكَمُوٓاْ إِلَى ٱلطَّٰغُوتِ وَقَدۡ أُمِرُوٓاْ أَن يَكۡفُرُواْ بِهِۦۖ وَيُرِيدُ ٱلشَّيۡطَٰنُ أَن يُضِلَّهُمۡ ضَلَٰلَۢا بَعِيدٗا
٦٠ وَإِذَا قِيلَ لَهُمۡ تَعَالَوۡاْ إِلَىٰ مَآ أَنزَلَ ٱللَّهُ وَإِلَى ٱلرَّسُولِ رَأَيۡتَ ٱلۡمُنَٰفِقِينَ يَصُدُّونَ عَنكَ
صُدُودٗا ٦١ فَكَيۡفَ إِذَآ أَصَٰبَتۡهُم مُّصِيبَةُۢ بِمَا قَدَّمَتۡ أَيۡدِيهِمۡ ثُمَّ جَآءُوكَ يَحۡلِفُونَ بِٱللَّهِ
إِنۡ أَرَدۡنَآ إِلَّآ إِحۡسَٰنٗا وَتَوۡفِيقًا ٦٢ أُوْلَٰٓئِكَ ٱلَّذِينَ يَعۡلَمُ ٱللَّهُ مَا فِي قُلُوبِهِمۡ فَأَعۡرِضۡ
عَنۡهُمۡ وَعِظۡهُمۡ وَقُل لَّهُمۡ فِيٓ أَنفُسِهِمۡ قَوۡلَۢا بَلِيغٗا ٦٣﴾

**60. Sənə nazil edilənə və səndən əvvəl nazil edilənlərə iman gətirdiklərini iddia edənləri görmədinmi? Onlar mühakimə olunmaları üçün tağuta müraciət etmək istəyirlər. Halbuki onlara tağuta inanmamaları əmr olunmuşdur. Şeytan isə onları dərin bir azğınlığa salmaq istəyir.**

**61. Onlara “Allahın nazil etdiyinə və Rəsuluna tərəf gəlin!” deyildikdə münafiqlərin səndən tamamilə üz çevirdiklərini görərsən.**

**62. Öz əlləri ilə törətdikləri əməllərə görə onlara müsibət üz verdikdən sonra sənin yanına gəlib “Biz ancaq yaxşılıq etmək və mübahisə edənləri barışdırmaq istədik!” deyə Allaha and içdikdə onların halı necə olacaq?**

**63. Onlar o kəslərdir ki, Allah onların qəlblərində olanı bilir. Elə isə onlardan üz döndər, onlara öyüd-nəsihət ver və onlara özləri barəsində təsirli söz söylə.**

Uca Allah bu ayədə Peyğəmbərə ﷺ və ondan əvvəlki peyğəmbərlərə nazil olanlara iman gətirdiyini iddia edib, lakin ixtilaflı məsələlərin həllində Allahın Kitabından və Peyğəmbərinin ﷺ sünnəsindən başqa şeyləri hakim təyin etmək istəyənləri pisləyir. Təfsir alimləri qeyd etmişlər ki, bu ayənin nazilolma səbəbi ənsarlardan olan bir kişi ilə bir yəhudinin mübahisə etməsi olmuşdur. Yəhudi “Mənimlə sənin aranda Muhəmməd hakimdir” deyərkən ənsarlı kişi “Mənimlə sənin aranda Kəb ibn əl-Əşraf hakimdir” dedi. Başqa bir rəyə görə isə bu ayə zahirən müsəlman olduqlarını göstərərək cahiliyyə hakimlərinə müraciət etmək istəyən bir qrup münafiqlər barəsində nazil olmuşdur. Ayənin nazilolma səbəbi barədə başqa rəylər də deyilmişdir. Lakin ayənin mənası ümumi olub, Quran və Sünnədən üz çevirərək başqa batil şeyləri hakim təyin edən hər kəsi məzəmmət edir. Ayədə “tağut” dedikdə də məhz bu nəzərdə tutulur. Bu səbəbdən Uca Allah:

"**Onlar mühakimə olunmaları üçün tağuta müraciət etmək istəyirlər. Halbuki onlara tağuta inanmamaları əmr olunmuşdur**" buyurur.

Uca Allah buyurur: "**Onlara "Allahın nazil etdiyinə və Rəsuluna tərəf gəlin!" deyildikdə, münafiqlərin səndən tamamilə üz çevirdiklərini görərsən**", yəni münafiqlər təkəbbürlük göstərərək haqqı inkar edənlər kimi səndən üz çevirib uzaqlaşarlar. Necə ki Uca Allah müşriklər barədə xəbər verərək buyurur: "**Onlara "Allahın nazil etdiyinə itaət edin!" deyildikdə, onlar "Yox! Biz əcdadımızın getdiyi yolu tutub gedəcəyik!" deyərlər**" ("Loğman", 21). Münafiqlər və müşriklər möminlərin etdiklərinə zidd hərəkət edərlər. Uca Allah möminlər barədə buyurur: "**Aralarında hökm vermək üçün Allaha və Onun Elçisinə çağırıldıqda möminlərin sözü ancaq "Eşidirik və itaət edirik!" demələridir. Nicat tapanlar da məhz onlardır**" ("ən-Nur", 51).

Sonra Uca Allah münafiqləri məzəmmət edərək buyurur: "**Öz əlləri ilə törətdikləri əməllərə görə onlara müsibət üz verdikdən sonra**...", yəni günahları səbəbi ilə başlarına gələn müsibətlərdə Allahın təqdiri onları sənə sürüyüb gətirdikdən və onlar sənə möhtac olduqdan sonra "**sənin yanına gəlib "Biz ancaq yaxşılıq etmək və mübahisə edənləri barışdırmaq istədik!" deyə Allaha and içdikdə, onların halı necə olacaq?**" Yəni səndən üzr istəyərək və and içərək "Mühakimə olunmaq üçün səndən başqasının yanına getməkdə məqsədimiz yalnız yaxşılıq etmək və mübahisə edənləri barışdırmaq olmuşdur" deyəcəklər. Yəni mühakimə üçün onlara müraciət etməyimiz, bu mühakimənin doğruluğuna inandığımız üçün deyil, mübahisə edənləri razı salmaq və onları ələ almaq üçün olmuşdur. Uca Allah başqa bir ayədə onlar barədə xəbər verərək buyurur: "**Qəlblərində xəstəlik olanların "Başımıza bir fəlakət gəlməsindən qorxuruq" deyərək kitab əhli arasında olmağa can atdıqlarını görərsən. Ola bilsin ki, Allah bir fəth nəsib etsin və ya Öz tərəfindən bir əmr versin və onlar ürəklərində gizlətdiklərindən dolayı peşman olsunlar**" ("əl-Maidə", 52).

ət-Təbərani ﷺ rəvayət edir ki, İbn Abbas رضي الله عنهما belə demişdir: "Yəhudilər öz aralarında baş vermiş mübahisələri həll etmək üçün kahin Əbu Bərzə əl-Əsləmiyə müraciət edirdilər. Müsəlmanlardan bir dəstə aralarında baş vermiş mübahisəyə son qoymaq üçün ona müraciət etdikdə Uca Allahın "**Sənə nazil edilənə və səndən əvvəl nazil edilənlərə iman gətirdiklərini iddia edənləri görmədinmi?**" ayəsindən "**Biz ancaq yaxşılıq etmək və mübahisə edənləri**

**barışdırmaq istədik!” deyə Allaha and içdikdə, onların halı necə olacaq?**” ayəsinə qədər nazil oldu”.[1]

Sonra Uca Allah buyurur: “**Onlar o kəslərdir ki, Allah onların qəlblərində olanı bilir**”, yəni bu növ insanlar münafiqlərdir. Allah onların qəlblərində olanları yaxşı bilir və buna görə onları cəzalandıracaq. Heç bir sirr ondan gizli qalmaz. Ey Muhəmməd, sən onlar barədə bu məlumatla kifayətlən. Uca Allah onların həm zahirini, həm də batinini çox yaxşı bilir. Bu səbəbdən Uca Allah Peyğəmbərinə ﷺ buyurur: “**Elə isə onlardan üz döndər**”, yəni qəlblərində olanlara görə onlarla sərt davranma, “**onlara öyüd-nəsihət ver**”, yəni onları qəlblərindəki nifaqdan və gizlətdikləri pis əməllərdən çəkindir, “**və onlara özləri barəsində təsirli söz söylə**”, yəni səninlə onlar arasında baş verən söhbətdə təsirli və pisliklərdən çəkindirəcək sözlərlə onlara nəsihət et.

﴿ وَمَآ أَرْسَلْنَا مِن رَّسُولٍ إِلَّا لِيُطَاعَ بِإِذْنِ ٱللَّهِ ۚ وَلَوْ أَنَّهُمْ إِذ ظَّلَمُوٓا۟ أَنفُسَهُمْ جَآءُوكَ فَٱسْتَغْفَرُوا۟ ٱللَّهَ وَٱسْتَغْفَرَ لَهُمُ ٱلرَّسُولُ لَوَجَدُوا۟ ٱللَّهَ تَوَّابًا رَّحِيمًا ﴿٦٤﴾ فَلَا وَرَبِّكَ لَا يُؤْمِنُونَ حَتَّىٰ يُحَكِّمُوكَ فِيمَا شَجَرَ بَيْنَهُمْ ثُمَّ لَا يَجِدُوا۟ فِىٓ أَنفُسِهِمْ حَرَجًا مِّمَّا قَضَيْتَ وَيُسَلِّمُوا۟ تَسْلِيمًا ﴿٦٥﴾ ﴾

**64. Biz hər bir elçini, – Allahın izni ilə, – məhz itaət edilsin deyə göndərdik. Əgər onlar özlərinə zülm etdikləri zaman sənin yanına gəlib Allahdan bağışlanma diləsəydilər və Peyğəmbər də onlar üçün bağışlanma diləsəydi, əlbəttə ki, Allahın tövbələri qəbul edən və rəhmli olduğunu görərdilər.**

**65. Xeyr, sənin Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən ixtilaflarda səni hakim təyin etməyincə, sonra da verdiyin hökmlərə görə özlərində bir sıxıntı duymadan sənə tam şəkildə təslim olmayınca iman gətirmiş olmazlar.**

Uca Allah buyurur: “**Biz hər bir elçini, – Allahın izni ilə, – məhz itaət edilsin deyə göndərdik**”, yəni peyğəmbər kimlərə göndərilmişsə, onların bu peyğəmbərə itaət etmələri fərz olmuşdur. Mucahid رَحِمَهُ ٱللَّهُ Uca

[1] ət-Tabəraninin رَحِمَهُ ٱللَّهُ isnadı səhihdir. əl-Heysəmi “əz-Zəvaid” əsərində bu hədisi ət-Tabəranidən رَحِمَهُ ٱللَّهُ nəql edərək demişdir: “Hədisi rəvayət edənlər əl-Buxarinin istinad etdikləri ravilərdir”. əs-Suyuti (2/178) hədisi İbn Əbu Hatim və ət-Tabəranidən رَحِمَهُ ٱللَّهُ səhih isnadla rəvayət etmişdir. (Əhməd Şakir). ət-Təbərani “Mucəmul-Kəbir” 11876. Şeyx Muqbil səhih olduğunu bildirmişdir.

Allahın "**Allahın izni ilə**" sözünü belə şərh etmişdir: "Yəni Mənim iznim olmadan heç kim ona itaət etməz". Yəni peyğəmbərlərə yalnız Mənim imana müvəffəq etdiklərim itaət edər. Bu ayə Uca Allahın "**Siz Allahın izni ilə düşmənlərinizi qırıb-çatdığınız zaman Allah sizə verdiyi vədini yerinə yetirdi**" ("Ali-İmran", 152) ayəsinə bənzəyir. Yəni bu, Onun əmri, təqdiri, istəyi və sizi onlara qarşı qaldırması ilə baş verdi.

Uca Allah "**Əgər onlar özlərinə zülm etdikləri zaman sənin yanına gəlib Allahdan bağışlanma diləsəydilər və Peyğəmbər də onlar üçün bağışlanma diləsəydi, əlbəttə ki, Allahın tövbələri qəbul edən və rəhmli olduğunu görərdilər**" buyuraraq asi və günahkar qullarını səhv və ya günah etdikləri zaman həm Peyğəmbərin ﷺ yanına gedib Allahdan bağışlanma diləməyə, həm də Peyğəmbərdən ﷺ onlar üçün Allahdan bağışlanma diləməyi xahiş etməyə yönəldir. Belə etdikləri təqdirdə Uca Allah onların tövbələrini qəbul edəcək, onlara rəhm edəcək və onları bağışlayacaqdır. Bu səbəbdən Uca Allah ayənin sonunda "**əlbəttə ki, Allahın tövbələri qəbul edən və rəhmli olduğunu görərdilər**" buyurur.

Uca Allah buyurur: "**Xeyr, sənin Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən ixtilaflarda səni hakim təyin etməyincə, ...**". Uca Allah bu ayədə Özünə and içərək buyurur ki, bütün işlərində Peyğəmbəri ﷺ hakim təyin etmədikcə heç kim həqiqi iman etmiş olmaz. Çünki Peyğəmbərin ﷺ verdiyi hökm hər bir halda həm gizlində, həm aşkarda boyun əyilməsi vacib olan haqdır. Bu səbəbdən Uca Allah "...**sonra da verdiyin hökmlərə görə özlərində bir sıxıntı duymadan sənə tam şəkildə təslim olmayınca iman gətirmiş olmazlar**" buyurur. Yəni səni hakim təyin etdikdən sonra qəlbən sənə itaət edərlər və qəlblərində sənin verdiyin hökmə qarşı heç bir sıxıntı yaranmaz. Həm daxilən, həm də zahirən bu hökmə tabe olarlar. Etiraz etmədən, qarşı çıxmadan, mübahisə etmədən tam şəkildə bu hökmə təslim olarlar. Necə ki bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Canım əlində olan Allaha and olsun ki, sizdən birinizin nəfsi mənim gətirdiyim şəriətə tabe olmayınca həqiqi iman gətirmiş sayılmaz".[1]

əl-Buxari rəvayət edir ki, Urvə belə demişdir: "Bir dəfə əz-Zubeyr ənsarlardan olan bir kişi ilə Peyğəmbərin ﷺ yanında xurma ağaclarının

[1] Bu hədis İmam ən-Nəvəvinin "Qırx hədis" əsərindəki 42-ci hədisdir. Hədis Abdullah ibn Amr ibn əl-Asdan rəvayət olunur, lakin əvvəlində "Canım əlində olan Allaha and olsun" hissəsi yoxdur. (Əhməd Şakir). İbn Əbu Asim "əs-Sunnə" 15. Hədisin sənədi zəifdir. Bax: Mişkətul-Məsabih, 167.

suvarılması üçün istifadə olunan arx barəsində mübahisə etdi. Peyğəmbər ﷺ dedi: "Ey Zubeyr! Öz ağaclarını suvardıqdan sonra suyu burax qonşunun bağına axsın!" Bunu eşidən ənsarlı qəzəblənib dedi: "Ey Allahın Elçisi, o sənin bibin oğlu olduğu üçün belə hökm verdin?" Peyğəmbərin ﷺ (qəzəbindən) rəngi dəyişdi və dedi: "Ey Zubeyr, su divarın dibinə çatana qədər öz ağaclarını sula, yalnız sonra suyu qonşunun bağına burax!" Ənsarlı Peyğəmbəri ﷺ qəzəbləndirdikdə o, əz-Zubeyrin haqqını tam olaraq bərpa etdi. Halbuki bundan əvvəl hər ikisi üçün daha uyğun olan bir yol göstərmişdi. əz-Zubeyr ؓ demişdir: "Bu ayənin həmin hadisəyə görə nazil olduğunu sanıram: "**Xeyr, sənin Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən ixtilaflarda səni hakim təyin etməyincə, sonra da verdiyin hökmlərə görə özlərində bir sıxıntı duymadan sənə tam şəkildə təslim olmayınca iman gətirmiş olmazlar**" ("ən-Nisa", 65)".[1] Hədis zahirən tabiinin (Urvənin) sözü kimi görünürsə də, məna etibarilə səhabəyə (əz-Zubeyrə ؓ) nisbət olunan bir hədisdir. İmam Əhməd ؒ də eyni hədisi bu şəkildə Urvənin ؒ sözü olaraq rəvayət etmişdir. Urvə ibn əz-Zubeyr atası əz-Zubeyrin ؓ belə danışdığını rəvayət etmişdir: "Bir dəfə o, Peyğəmbərin ﷺ yanında Bədr döyüşündə iştirak etmiş bir ənsarlı kişi ilə xurma ağaclarının suvarılması üçün istifadə olunan arx barədə mübahisə etdi. Onların hər ikisi bu arxdan bağlarının suvarılması üçün istifadə edərdi. Peyğəmbər ﷺ əz-Zubeyrə dedi: "Ey Zubeyr, əvvəl sən suvar, sonra suyu qonşunun bağına burax!" Ənsarlı Peyğəmbərin ﷺ bu qərarına qəzəblənib dedi: "Ey Allahın Elçisi, o sənin bibin oğlu olduğu üçün belə hökm verdin?" Peyğəmbərin ﷺ (qəzəbindən) rəngi dəyişdi və dedi: "Ey Zubeyr, su divarın dibinə çatana qədər öz ağaclarını sula, yalnız ondan sonra suyu qonşunun bağına burax!" Peyğəmbər ﷺ belə deməklə əz-Zubeyrin haqqını tam bərpa etdi. Halbuki Peyğəmbər ﷺ bundan əvvəl həm əz-Zubeyr üçün, həm də ənsarlı üçün münasib olan bir rəy bildirmişdi. Ənsarlı Peyğəmbəri ﷺ qəzəbləndirdikdə isə o, əz-Zubeyrin haqqını açıq-aydın bir hökmlə tam olaraq verdi. əz-Zubeyr demişdir: "Allaha and olsun! Bu ayə həmin hadisəyə görə nazil olub: "**Xeyr, sənin Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən ixtilaflarda səni hakim təyin etməyincə, sonra da verdiyin hökmlərə görə özlərində bir sıxıntı duymadan sənə tam şəkildə təslim olmayınca iman gətirmiş olmazlar**".[2] İmam Əhməd ؒ hədisi bu şəkildə rəvayət etmişdir. Hədisin isnadı Urvə ilə atası əz-Zubeyr ؓ arasında kəsilir.

[1] əl-Buxari, 2361, 4585; Muslim, 4347, 6258.

[2] Əhməd, 1419. Şueyb əl-Arnavut isnadının əl-Buxari və Muslimin şərtlərinə görə səhih olduğunu bildirmişdir.

Çünki Urvə (çox kiçik olduğu üçün) atasından hədis eşitməmişdir. Yəqin ki o, hədisi qardaşı Abdullahdan eşitmişdir. Çünki İbn Əbu Hatim رحمه الله oxşar hədisi Urvə ibn əz-Zubeyrdən, o da qardaşı Abdullah ibn əz-Zubeyrdən, o da ataları əz-Zubeyr ibn əl-Əvvamdan رضي الله عنهما rəvayət etmişdir. ən-Nəsəi, İmam Əhməd və bir çox hədis alimləri رحمهم الله də hədisi bu şəkildə rəvayət etmişlər. Bu səbəbdən "əl-Ətraf"[1] əsərlərinin sahibləri bu hədisi Abdullah ibn əz-Zubeyrdən رضي الله عنهما rəvayət olunan hədislər sırasında qeyd etmişlər. Həmçinin İmam Əhməd də bu hədisi Abdullah ibn əz-Zubeyrin رضي الله عنهما hədislərinin sırasında qeyd etmişdir. Ən doğrusunu Allah bilir.[2]

﴿ وَلَوۡ أَنَّا كَتَبۡنَا عَلَيۡهِمۡ أَنِ ٱقۡتُلُوٓاْ أَنفُسَكُمۡ أَوِ ٱخۡرُجُواْ مِن دِيَٰرِكُم مَّا فَعَلُوهُ إِلَّا قَلِيلٞ مِّنۡهُمۡۖ وَلَوۡ
أَنَّهُمۡ فَعَلُواْ مَا يُوعَظُونَ بِهِۦ لَكَانَ خَيۡرٗا لَّهُمۡ وَأَشَدَّ تَثۡبِيتٗا ٦٦ وَإِذٗا لَّأٓتَيۡنَٰهُم مِّن لَّدُنَّآ أَجۡرًا
عَظِيمٗا ٦٧ وَلَهَدَيۡنَٰهُمۡ صِرَٰطٗا مُّسۡتَقِيمٗا ٦٨ وَمَن يُطِعِ ٱللَّهَ وَٱلرَّسُولَ فَأُوْلَٰٓئِكَ مَعَ ٱلَّذِينَ أَنۡعَمَ ٱللَّهُ
عَلَيۡهِم مِّنَ ٱلنَّبِيِّـۧنَ وَٱلصِّدِّيقِينَ وَٱلشُّهَدَآءِ وَٱلصَّٰلِحِينَۚ وَحَسُنَ أُوْلَٰٓئِكَ رَفِيقٗا ٦٩ ذَٰلِكَ ٱلۡفَضۡلُ
مِنَ ٱللَّهِۚ وَكَفَىٰ بِٱللَّهِ عَلِيمٗا ٧٠ ﴾

**66. Əgər onlara "Özünüzü öldürün, yaxud yurdlarınızdan çıxın!" deyə əmr etsəydik, içərilərindən az bir qismi istisna olmaqla, bunu yerinə yetirməzdilər. Əgər onlar özlərinə verilən öyüd-nəsihətlərə əməl etsəydilər, əlbəttə, bu onlar üçün daha xeyirli və sabitlik baxımından daha güclü olardı.**
**67. Onda Biz də onlara Öz tərəfimizdən böyük bir mükafat verər**
**68. və onları doğru yola yönəldərdik.**
**69. Allaha və Peyğəmbərə itaət edənlər – məhz onlar Allahın nemət bəxş etdiyi peyğəmbərlər, siddiqlər, şəhidlər və əməlisalehlərlə birlikdə olarlar. Onlar necə də gözəl dostlardır!**
**70. Bu böyük lütf Allahdandır. Hər şeyi bilən Allah sizə yetər.**

Uca Allah bu ayələrdə bildirir ki, əgər insanların əksəriyyətinə etdikləri pis əməlləri etmək əmr olunsaydı, onlar bu əməlləri yerinə yetirməzdilər. Çünki onların pis təbiətləri əmrlərə qarşı çıxmağa

---

[1] "əl-Ətraf" ərəbcə tərəf sözünün cəmidir. "əl-Ətraf" əsərlərinin müəllifləri hədisin mətninin bir hissəsini gətirərək bu mənada olan bütün hədislərin mənbələrini və sənədlərini qeyd etmişlər. Belə etməkdə məqsəd hədisin mənbələrini və sənədlərini asanlıqla tapmaqdır.

[2] əl-Buxari (2361, 4585); Muslim (6258); Əbu Davud (3639); ət-Tirmizi (1363, 3027); ən-Nəsəi (5407).

meyilli yaradılmışdır. Bu isə Uca Allahın baş verməmiş hadisələrin baş verəcəyi təqdirdə necə olacağını bilməsindən irəli gəlir. Bu səbəbdən Uca Allah ayədə "**Əgər onlara "Özünüzü öldürün, yaxud yurdlarınızdan çıxın!" deyə əmr etsəydik, içərilərindən az bir qismi istisna olmaqla, bunu yerinə yetirməzdilər**" buyurur.

Sonra Uca Allah buyurur: "**Əgər onlar özlərinə verilən öyüd-nəsihətlərə əməl etsəydilər**", yəni əgər onlar özlərinə əmr olunanları yerinə yetirib qadağan olunanlardan çəkinsəydilər "**əlbəttə, bu onlar üçün daha xeyirli**", yəni onlara əmr olunanlara qarşı çıxmaqdan və qadağan olunmuş əməlləri etməkdən daha xeyirli olardı, "**və sabitlik baxımından daha güclü olardı**". əs-Suddi ﷺ demişdir: "Yəni təsdiq baxımından daha möhkəm olardı". "**Onda Biz də onlara Öz tərəfimizdən böyük bir mükafat verər**", yəni Cənnətə salar, "**və onları doğru yola yönəldərdik**", yəni dünya və Axirətdə.

Sonra Uca Allah buyurur: "**Allaha və Peyğəmbərə itaət edənlər – məhz onlar Allahın nemət bəxş etdiyi peyğəmbərlər, siddiqlər, şəhidlər və əməlisalehlərlə birlikdə olarlar. Onlar necə də gözəl dostlardır!**", yəni kim Allahın və Elçisinin ﷺ əmr etdiklərini yerinə yetirər, qadağan etdiklərindən çəkinərsə, Uca Allah onu şərəfli yurdda məskunlaşdırar və onu peyğəmbərlərlə, habelə dərəcə baxımından onlardan sonra gələn siddiqlərlə, şəhidlərlə və həm daxilən, həm də zahirən əməlisaleh olan bütün möminlərlə qonşu edər.

Sonra Uca Allah bu qrup insanları tərifləyərək "**Onlar necə də gözəl dostlardır!**"buyurur. əl-Buxari ﷺ rəvayət edir ki, Aişə ﷺ Peyğəmbərin ﷺ belə dediyini eşitmişdir: "Elə bir peyğəmbər yoxdur ki, ölüm xəstəliyində (ayağında) ona dünya ilə Axirət arasında seçim etmək təklifi edilməsin". Aişə ﷺ demişdir: "Bundan başqa mən Peyğəmbərin ﷺ ölümü ilə nəticələnən xəstəliyə tutulduğu zaman xırıltılı səslə bu (ayəni) söylədiyini eşitdim: "**Allahın nemət bəxş etdiyi peyğəmbərlər, siddiqlər, şəhidlər və əməlisalehlərlə birlikdə olarlar**". Onda bildim ki, ona artıq seçim etmək təklifi edilmişdir".[1] Hədisi Muslim ﷺ də rəvayət etmişdir.[2] Başqa bir hədisdə Peyğəmbərin ﷺ ölüm ayağında üç dəfə: "Allahım, məni yüksək məqama çatmış dostlara qovuşdur!" deyərək vəfat etməsi də bu mənanı daşıyır.[3] Ona Allahın ən üstün salavatı və salamı olsun!

[1] əl-Buxari, 4220, 4586.
[2] əl-Buxari (8/192 Fəthul-Bari); Muslim (2/245-246). (Əhməd Şakir). Muslim, 4475, 6448.
[3] Muslim (2/246). (Əhməd Şakir). əl-Buxari, 4083, 4437; Muslim, 4476, 6450.

Bu ayənin nazilolma səbəbi barədə İbn Cərir رحمه الله Səid ibn Cubeyrdən رحمه الله rəvayət etmişdir ki, bir dəfə ənsarlardan olan bir kişi kədərli halda Peyğəmbərin ﷺ yanına gəldi. Peyğəmbər ﷺ onu bu halda görüb soruşdu: "Ey filankəs, sənə nə olub? Niyə belə kədərlisən?" Kişi dedi: "Ey Allahın Elçisi, bir şey məni düşündürür". Peyğəmbər ﷺ "Nədir o?" deyə soruşduqda kişi dedi: "Biz (bu dünyada) sənin yanına gəlib-gedirik, üzünə baxırıq və səninlə birlikdə otururuq. Sabah (Axirətdə) sən peyğəmbərlərlə birlikdə (Cənnətdə) yüksələcəksən və biz sənə çata bilməyəcəyik". Peyğəmbər ﷺ həmin an ona heç nə demədi. Nəhayət, Cəbrail عليه السلام Uca Allahın "**Allaha və Peyğəmbərə itaət edənlər – məhz onlar Allahın nemət bəxş etdiyi peyğəmbərlər, siddiqlər, şəhidlər və əməlisalehlərlə birlikdə olarlar. Onlar necə də gözəl dostlardır!**" ayəsini gətirdi və Peyğəmbər ﷺ o kişiyə xəbər göndərərək onu müjdələdi".[1] Bu hədis Məsruq, İkrimə, Amir əş-Şabi, Qatədə və ər-Rabi ibn Ənəsdən رحمهم الله mursəl olaraq rəvayət edilmişdir. Hədis sənəd baxımından yaxşıdır.[2]

İbn Mərdəveyh رحمه الله Aişənin رضي الله عنها belə dediyini rəvayət etmişdir: "Səhabələrdən biri Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Ey Allahın Elçisi! Allaha and olsun ki, sən mənim üçün özümdən, ailəmdən, övladımdan və var-dövlətimdən də sevimlisən. Mən evimdə olarkən səni xatırlayıram və səni görməyənə qədər qəlbim rahatlıq tapmır. Hər ikimizin öləcəyini xatırlayanda isə düşünürəm ki, sən Cənnətə daxil olduqda peyğəmbərlərə xas olan ən yüksək mərtəbədə olacaqsan. Mən isə Cənnətə daxil olsam, qorxuram bir daha səni görməyim". Peyğəmbər ﷺ ona heç nə cavab vermədi. Nəhayət Allahın "**Allaha və Peyğəmbərə itaət edənlər – məhz onlar Allahın nemət bəxş etdiyi peyğəmbərlər, siddiqlər, şəhidlər və əməlisalehlərlə birlikdə olarlar. Onlar necə də gözəl dostlardır!**" ayəsi nazil oldu".[3] Bu hədisi əl-Hafiz Əbu Abdullah əl-Məqdisi "Sifətul-Cənnə" (Cənnətin Vəsfi) kitabında bu şəkildə rəvayət etmiş və demişdir: "Hədisin isnadında nöqsan görmürəm". Ən doğrusunu Allah bilir.

Muslimin "Səhih" əsərində rəvayət olunur ki, Rabiə ibn Kəb əl-Əsləmi رضي الله عنه demişdir: "Bir dəfə Peyğəmbərin ﷺ yanında gecələməli oldum. Səhər ona dəstəmaz suyunu və ehtiyacı olan şeyləri gətirdim. Peyğəmbər ﷺ mənə dedi: "Məndən bir şey istə!" Mən "Ey Allahın Elçisi, Cənnətdə səninlə birlikdə olmağı istəyirəm" dedim. Peyğəmbər ﷺ dedi: "Bəlkə

---

[1] ət-Təbəri, 9924, 9986.

[2] Səid ibn Cubeyrin رحمه الله hədisi, mursəl olaraq ət-Təbəridədir (9924). İbn Kəsirin رحمه الله qeyd etdiyi digər mursəl hədislər də buradadır. (Əhməd Şakir).

[3] ət-Təbərani "Mucəmus-Sağir" 52; "Mucəmul-Əvsat" 477. Şeyx Muqbil səhih olduğunu bildirmişdir.

başqa bir şey istəyəsən?” Mən “Yalnız bunu istəyirəm” dedim. Peyğəmbər ﷺ dedi: “Elə isə bu istəyinin həyata keçməsi üçün çox səcdə etməklə (namaz qılmaqla) mənə kömək et”.[1]

İmam Əhməd ﷺ rəvayət etmişdir ki, Amr ibn Murra əl-Cuhəni belə demişdir: “Bir kişi Peyğəmbərin ﷺ yanına gələrək dedi: “Ey Allahın Elçisi, Allahdan başqa ibadətə layiq haqq ilahın olmadığına və sənin Allahın elçisi olduğuna şahidlik etdim. Beş vaxt namazı qılıram. Malımın zəkatını verirəm və Ramazan ayında oruc tuturam. Əgər bu əməllər üzərində ölsəm, Cənnətə girərəmmi?” Peyğəmbər ﷺ iki barmağını birləşdirib göstərərək “Kim valideynlərinin üzünə ağ olmadan bu əməllər üzərində ölərsə, Qiyamət günü peyğəmbərlər, siddiqlər və şəhidlərlə birlikdə belə olacaq” deyə cavab verdi”.[2] Hədisi yalnız İmam Əhməd ﷺ rəvayət etmişdir.[3]

ət-Tirmizi ﷺ Əbu Səiddən ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: “Düzgün və etibarlı tacir (Qiyamət günü) peyğəmbərlər, siddiqlər və şəhidlərlə birlikdə olacaq”.[4] ət-Tirmizi hədisin “həsən” olduğunu bildirmişdir.[5]

Bütün bu hədislərdən müjdə baxımından daha böyük olanı “Səhih” və “əl-Musnəd” əsərlərində, habelə digər hədis kitablarında çoxsaylı səhabədən rəvayət olunan bu hədisdir: “Bir dəfə Peyğəmbərdən ﷺ bir qövmü sevib, lakin onlara qovuşa bilməyən bir insanın halı barədə soruşulduqda Peyğəmbər ﷺ “İnsan öz sevdikləri ilə birlikdə olacaqdır” buyurdu. Ənəs ﷺ demişdir: “Müsəlmanlar bu hədisə sevindikləri qədər heç nəyə sevinməmişdilər”. Ənəsdən ﷺ gələn başqa bir rəvayətdə o demişdir: “Mən Peyğəmbəri, Əbu Bəkri və Öməri sevirəm. Ümid edirəm ki, onların əməlləri kimi əməllərim olmasa da, Allah məni onlarla birlikdə edəcəkdir”.[6]

Uca Allah buyurur: “**Bu böyük lütf Allahdandır**”, yəni bu lütf, onların əməlləri sayəsində deyil, Allah qatından və Onun rəhməti sayəsindədir. “**Hər şeyi bilən Allah sizə yetər**”, yəni Allah hidayətə və müvəffəqiyyətə kimin layiq olduğunu yaxşı bilir.

---

[1] Muslim (1/140); Əhməd (16651, 16652). (Əhməd Şakir). Muslim, 754, 1122.

[2] Əhməd, 24009, 24299. Hədis səhihdir. Bax: Səhih Tərğib vət-Tərhib, 2515.

[3] “əl-Musnəd” (99242). Şueyb əl-Arnavut hədisin səhih olduğunu bildirmişdir.

[4] ət-Tirmizi, 1209, 1252; əl-Hakim, 2143. Hədis zəifdir. Bax: Daif əl-Cami, 2501; Mişkətul-Məsabih, 2796.

[5] ət-Tirmizi (2/227); əd-Dərimi (2/247). (Əhməd Şakir).

[6] əl-Buxari (7/40 Fəthul-Bari). (Əhməd Şakir). əl-Buxari, 5704, 6170; Muslim, 4779, 6888.

﴿ يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ خُذُواْ حِذۡرَكُمۡ فَٱنفِرُواْ ثُبَاتٍ أَوِ ٱنفِرُواْ جَمِيعٗا ٧١ وَإِنَّ مِنكُمۡ لَمَن
لَّيُبَطِّئَنَّ فَإِنۡ أَصَٰبَتۡكُم مُّصِيبَةٞ قَالَ قَدۡ أَنۡعَمَ ٱللَّهُ عَلَيَّ إِذۡ لَمۡ أَكُن مَّعَهُمۡ شَهِيدٗا ٧٢ وَلَئِنۡ
أَصَٰبَكُمۡ فَضۡلٞ مِّنَ ٱللَّهِ لَيَقُولَنَّ كَأَن لَّمۡ تَكُنۢ بَيۡنَكُمۡ وَبَيۡنَهُۥ مَوَدَّةٞ يَٰلَيۡتَنِي كُنتُ مَعَهُمۡ فَأَفُوزَ
فَوۡزًا عَظِيمٗا ٧٣ فَلۡيُقَٰتِلۡ فِي سَبِيلِ ٱللَّهِ ٱلَّذِينَ يَشۡرُونَ ٱلۡحَيَوٰةَ ٱلدُّنۡيَا بِٱلۡأٓخِرَةِۚ وَمَن يُقَٰتِلۡ
فِي سَبِيلِ ٱللَّهِ فَيُقۡتَلۡ أَوۡ يَغۡلِبۡ فَسَوۡفَ نُؤۡتِيهِ أَجۡرًا عَظِيمٗا ٧٤ ﴾

**71. Ey iman gətirənlər! Ehtiyatınızı əldən verməyin və düşmənə qarşı ya bölük-bölük, ya da hamınız birgə çıxın!**

**72. İçərinizdə elələri də var ki, cihada çıxdıqda ləng tərpənər və sizə bir müsibət üz verərsə, "Allah mənə lütf etdi ki, mən onlarla birlikdə bəlaya düçar olmadım" deyər.**

**73. Əgər Allahdan sizə bir lütf yetişərsə, sanki sizinlə onun arasında heç bir dostluq yoxmuş kimi "Kaş mən də onlarla birlikdə olub böyük bir uğur qazanaydım!" deyər.**

**74. Qoy möminlər, Axirət qarşılığında dünya həyatını satın alan kafirlərlə Allah yolunda vuruşsunlar. Kim Allah yolunda vuruşub öldürülərsə və ya qalib gələrsə, Biz ona böyük bir mükafat verərik.**

Uca Allah bu ayədə mömin qullarına düşmənlərindən qorunmaq üçün tədbir görməyi əmr edir. Bu isə həm silah tədarükü görməyi, həm də əsgər sayını artırmaq üçün Allah yolunda "**bölük-bölük**", yəni hissə-hissə, dəstə-dəstə və ya "**birgə**", yəni hamılıqla səfərbər olmağı tələb edir. Bu təfsir Mucahid, İkrimə, Qatədə və başqalarından رحمهم الله rəvayət olunmuşdur.

Uca Allah buyurur: "**İçərinizdə elələri də var ki, cihada çıxdıqda ləng tərpənər...**" Mucahid رحمه الله və bir çox alimlərə görə, bu ayə münafiqlər barədə nazil olmuşdur. Muqatil ibn Həyyan رحمه الله demişdir: "...**ləng tərpənər**", yəni cihadda iştirak etməmək üçün geridə qalar". Ola bilsin, burada "onlar özləri ləng tərpəndikləri kimi, başqalarını da cihada getməkdə ləng tərpənməyə təşviq edirlər" nəzərdə tutulur. Necə ki Abdullah ibn Ubey ibn Səlul[1] belə edərdi. O özü döyüşdən geri qalmaqla yanaşı, insanları da cihadda iştirak etməkdən saxlayırdı. Bu rəy İbn Cureyc və İbn Cərirə رحمه الله aiddir. Bu səbəbdən Uca Allah bildirir ki, münafiq cihaddan geri qaldıqda "**sizə bir müsibət üz verərsə**", yəni

[1] Mədinədəki münafiqlərin başçısı.

Allahın hikməti ilə düşmən sizə qalib gələr və sizlərdən şəhidlər və öldürülənlər olarsa, belə deyər: "**Allah mənə lütf etdi ki, mən onlarla birlikdə bəlaya düçar olmadım**". Yəni onlarla birlikdə döyüşdə iştirak etmədim. Münafiq bunu Allahın ona olan neməti sayar, halbuki öldürüldüyü təqdirdə şəhidlik mərtəbəsinə yüksəlmək və səbir etməklə nail olacağı mükafatdan xəbərsizdir. "**Əgər Allahdan sizə bir lütf yetişərsə**", yəni qələbə, zəfər və qənimət kimi nemət yetişərsə, "**sanki sizinlə onun arasında heç bir dostluq yoxmuş kimi:..**", yəni sanki sizin dininizdən deyilmiş kimi, "**Kaş mən də onlarla birlikdə olub böyük bir uğur qazanaydım!" deyər**", yəni onlarla birlikdə mənə də bir pay ayrılardı və mən də bir şey əldə edərdim. Çünki münafiqin ən böyük məqsədi və ən çox istəyi budur.

Sonra Uca Allah buyurur: "**Qoy möminlər Axirət qarşılığında dünya həyatını satın alan kafirlərlə Allah yolunda vuruşsunlar**", yəni qoy Allah yolunda döyüşə səfərbər olan möminlər, küfrləri və imansızlıqları səbəbindən dinlərini az bir dünya malına satanlarla döyüşsünlər.[1]

Sonra Uca Allah buyurur: "**Kim Allah yolunda vuruşub öldürülərsə və ya qalib gələrsə, Biz ona böyük bir mükafat verərik**", yəni Allah yolunda döyüşən hər kəsə, fərq etməz, istər öldürülsün, istərsə də qalib gəlsin, Allah qatında böyük savab və bol mükafat vardır. Necə ki əl-Buxari və Muslimin "Səhih" əsərlərində varid olan bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Allah Onun yolunda cihad edənə zəmanət vermişdir ki, onu öldüyü təqdirdə Cənnətə daxil edəcək, ya da çıxdığı evinə sağ-salamat, savab və ya qənimətlə geri qaytaracaq".[2]

---

[1] Ayədə keçən يَشْرُونَ [yəşru:nə] feili iki mənada həm "satmaq", yəni bir şeyi verib müqabilində başqa bir şeyi almaq, həm də "almaq", yəni bir şeyi alıb müqabilində başqa bir şeyi vermək mənalarında işlənə bilər. Bu iki söz (almaq və satmaq) bir-birinə zidd olan mənalardadır. Ərəb dilində bu sözlərdən biri digərinin mənasında işlədilə bilər. İbn Kəsir ﷺ bu ayədəki يَشْرُونَ [yəşru:nə] feilini ikinci mənada (almaq mənasında) təfsir etmişdir. Bu səbəbdən الَّذِينَ يَشْرُونَ الحَيَاةَ الدُّنْيَا بِالْآخِرَةِ [əlləzi:nə yəşru:nəl-həyə:təd-dunyə bil-ə:xirati] cümləsini "dünya həyatını Axirətdən üstün tutanlar" kimi təfsir etmiş və bu ifadəni "vuruşsunlar" feilinin vasitəsiz tamamlığı kimi götürmüşdür. Bu halda "vuruşsunlar" feilinin faili (cümlənin mübtədası) "səfərbər olan möminlər" olacaq. Yəni döyüşə səfərbər olmuş möminlərə, Axirət qarşılığında dünya həyatını satın alan və "dinlərini az bir dünya malına satan" kafirlərlə vuruşmaq vacibdir. İbn Kəsirdən ﷺ başqa digər təfsirçilər isə ayəni başqa cür təfsir etmişlər. Belə ki, ayədəki يَشْرُونَ [yəşru:nə] feilini "almaq" mənasında təfsir etmişlər. Bu halda məna belə olacaq: "**Qoy dünya həyatı qarşılığında Axirəti satın alan möminlər Allah yolunda vuruşsunlar**". Bu halda "vuruşsunlar" feilinin tamamlığı (kafirlərlə) məlum olduğu üçün pozulmuş olur. Yəni möminlər kafirlərlə vuruşsunlar. Hər iki məna doğrudur, lakin İbn Kəsirin ﷺ seçdiyi məna daha üstün və daha dəqiqdir. (Əhməd Şakir).

[2] əl-Buxari (6/154 Fəthul-Bari); Muslim (2/96); "əl-Musnəd" (7157). (Əhməd Şakir). əl-Buxari, 2759, 2787.

﴿ وَمَا لَكُمۡ لَا تُقَٰتِلُونَ فِي سَبِيلِ ٱللَّهِ وَٱلۡمُسۡتَضۡعَفِينَ مِنَ ٱلرِّجَالِ وَٱلنِّسَآءِ وَٱلۡوِلۡدَٰنِ ٱلَّذِينَ يَقُولُونَ رَبَّنَآ
أَخۡرِجۡنَا مِنۡ هَٰذِهِ ٱلۡقَرۡيَةِ ٱلظَّالِمِ أَهۡلُهَا وَٱجۡعَل لَّنَا مِن لَّدُنكَ وَلِيّٗا وَٱجۡعَل لَّنَا مِن لَّدُنكَ نَصِيرًا ٧٥ ٱلَّذِينَ
ءَامَنُواْ يُقَٰتِلُونَ فِي سَبِيلِ ٱللَّهِۖ وَٱلَّذِينَ كَفَرُواْ يُقَٰتِلُونَ فِي سَبِيلِ ٱلطَّٰغُوتِ فَقَٰتِلُوٓاْ أَوۡلِيَآءَ ٱلشَّيۡطَٰنِۖ إِنَّ كَيۡدَ
ٱلشَّيۡطَٰنِ كَانَ ضَعِيفًا ٧٦

**75. Sizə nə olub ki, Allah yolunda və "Ey Rəbbimiz! Bizi əhalisi zalım olan bu şəhərdən çıxart, bizə Öz tərəfindən bir himayəçi yolla, bizə Öz tərəfindən bir yardımçı göndər!" deyən zəif kişilər, qadınlar və uşaqlar uğrunda vuruşmursunuz?!**

**76. İman gətirənlər Allah yolunda, kafir olanlar isə tağut yolunda vuruşurlar. Elə isə şeytanın dostları ilə vuruşun! Şübhəsiz ki, şeytanın hiyləsi zəifdir.**

Uca Allah bu ayələrdə mömin qullarını Onun yolunda döyüşməyə və Məkkədə əlacsız qalmış zəif kişi, qadın və uşaqları qurtarmağa təşviq edir. Bu səbəbdən Uca Allah onlar barəsində buyurur: "**Ey Rəbbimiz! Bizi əhalisi zalım olan bu şəhərdən çıxart**", yəni Məkkədən çıxart. Həmçinin bu ayədə də Məkkəni nəzərdə tutaraq buyurur: "**Səni qovub çıxaran məmləkətindən daha qüvvətli neçə-neçə məmləkət var idi**" ("Muhəmməd", 13).

Uca Allah bu şəhəri "**əhalisi zalım olan**" kimi vəsf edərək orada olan zəif möminlərin sözlərini belə nəql edir: "**bizə Öz tərəfindən bir himayəçi yolla, bizə Öz tərəfindən bir yardımçı göndər!**", yəni bizə Öz tərəfindən mühafizəçi göndər, yardımçı yolla!

əl-Buxari ﷺ İbn Abbasın ﷺ belə dediyini rəvayət etmişdir: "Mən və anam ayədə nəzərdə tutulan zəif möminlərdən idik". Həmçinin əl-Buxari ﷺ İbn Əbu Muleykədən ﷺ rəvayət etmişdir ki, İbn Abbas ﷺ Uca Allahın "**Yalnız zülmə qarşı çarə qılmağa qadir olmayan və yol tapa bilməyən zəif kişilər, qadınlar və uşaqlar istisnadır**" ("ən-Nisa", 98) ayəsini oxuduqdan sonra "Anamla mən Uca Allahın üzrlərini qəbul etdiyi insanlar arasında idik" demişdir.

Sonra Uca Allah buyurur: "**İman gətirənlər Allah yolunda, kafir olanlar isə tağut yolunda vuruşurlar**", yəni iman gətirənlər Allaha itaət edərək Onun razılığını qazanmaq üçün döyüşürlər. Kafirlər isə şeytana itaət edərək döyüşürlər.

Sonra Uca Allah "**Elə isə şeytanın dostları ilə vuruşun! Şübhəsiz ki, şeytanın hiyləsi zəifdir**" buyuraraq möminləri Onun düşmənlərinə qarşı döyüşə təşviq edir.

﴿أَلَمْ تَرَ إِلَى ٱلَّذِينَ قِيلَ لَهُمْ كُفُّوٓا۟ أَيْدِيَكُمْ وَأَقِيمُوا۟ ٱلصَّلَوٰةَ وَءَاتُوا۟ ٱلزَّكَوٰةَ فَلَمَّا كُتِبَ عَلَيْهِمُ ٱلْقِتَالُ إِذَا فَرِيقٌ
مِّنْهُمْ يَخْشَوْنَ ٱلنَّاسَ كَخَشْيَةِ ٱللَّهِ أَوْ أَشَدَّ خَشْيَةً ۚ وَقَالُوا۟ رَبَّنَا لِمَ كَتَبْتَ عَلَيْنَا ٱلْقِتَالَ لَوْلَآ أَخَّرْتَنَآ إِلَىٰٓ أَجَلٍ
قَرِيبٍ ۗ قُلْ مَتَٰعُ ٱلدُّنْيَا قَلِيلٌ وَٱلْءَاخِرَةُ خَيْرٌ لِّمَنِ ٱتَّقَىٰ وَلَا تُظْلَمُونَ فَتِيلًا ﴿٧٧﴾ أَيْنَمَا تَكُونُوا۟ يُدْرِككُّمُ ٱلْمَوْتُ
وَلَوْ كُنتُمْ فِى بُرُوجٍ مُّشَيَّدَةٍ ۗ وَإِن تُصِبْهُمْ حَسَنَةٌ يَقُولُوا۟ هَٰذِهِۦ مِنْ عِندِ ٱللَّهِ ۖ وَإِن تُصِبْهُمْ سَيِّئَةٌ يَقُولُوا۟ هَٰذِهِۦ
مِنْ عِندِكَ ۚ قُلْ كُلٌّ مِّنْ عِندِ ٱللَّهِ ۖ فَمَالِ هَٰٓؤُلَآءِ ٱلْقَوْمِ لَا يَكَادُونَ يَفْقَهُونَ حَدِيثًا ﴿٧٨﴾ مَّآ أَصَابَكَ مِنْ حَسَنَةٍ فَمِنَ
ٱللَّهِ ۖ وَمَآ أَصَابَكَ مِن سَيِّئَةٍ فَمِن نَّفْسِكَ ۚ وَأَرْسَلْنَٰكَ لِلنَّاسِ رَسُولًا ۚ وَكَفَىٰ بِٱللَّهِ شَهِيدًا ﴿٧٩﴾﴾

**77. Məgər sən özlərinə vaxtilə "Müharibədən əl çəkin, namaz qılın və zəkat verin!" deyilən kəsləri görmədinmi? Onlara vuruşmaq fərz buyurulduqda, içərilərindən bir dəstəsi Allahdan qorxduqları kimi, hətta daha artıq qorxu ilə insanlardan qorxdular və "Ey Rəbbimiz! Nə üçün vuruşmağı bizə fərz buyurdun? Nə olardı ki, bizə yaxın vaxtadək möhlət verəydin!" dedilər. De: "Dünyanın ləzzəti azdır. Müttəqilər üçün isə Axirət daha xeyirlidir. Sizə xurma çəyirdəyindəki lif qədər belə haqsızlıq edilməz".**
**78. Harada olursunuzsa olun, ölüm sizi haqlayacaq. Hətta əlçatmaz qalalarda olsanız belə. Onlara bir yaxşılıq üz verdikdə "Bu, Allahdandır!" deyər, bir pislik üz verdikdə isə "Bu, səndəndir!" deyərlər. De: "Hamısı Allahdandır!" Bu adamlara nə olub ki, az qala söz də anlamırlar?**
**79. Sənə gələn yaxşılıq Allahdandır, sənə üz vermiş bəla isə sənin özündəndir. Biz səni insanlara elçi göndərdik. Şahid olaraq Allah yetər.**

İslamın əvvəlində Məkkədə ikən möminlərə namaz qılmaq və zəkat verməkəmr edilmişdi. Zəkatın miqdarı müəyyən olunmasa da, aralarında kasıb olanlara yardım etmək əmr olunmuşdu. Müəyyən bir vaxta qədər möminlərə müşrikləri əfv edib onların əziyyətlərinə dözmək və səbir etmək əmr edilmişdi. Möminlər, düşmənlərindən xilas olmaq üçün kafirlərlə döyüşməyin əmr edilməsini arzulayır və bu istəklə alovlanırdılar. Lakin bir çox səbəblərə görə vəziyyət buna uyğun deyildi. Bu səbəblərə misal, düşmənlərin sayca möminlərdən

çox olması; möminlərin müşriklərin ölkələrində yaşamaları; yaşadıqları ərazinin yer üzünün ən şərəfli diyarı olub, haram şəhər olması idi. Bu səbəbdən ilk döyüşün orada əmr olunması münasib deyildi. Möminlərə yalnız Mədinədə özlərinin bir ölkəsi, camaatı və yardımçıları olduqdan sonra cihad etmək əmr olundu. Bununla belə, arzu etdikləri döyüş onlara əmr olunduqda bəziləri düşmənlə qarşılaşmaqdan müdhiş bir şəkildə qorxaraq "**Ey Rəbbimiz! Nə üçün vuruşmağı bizə fərz buyurdun? Nə olardı ki, bizə yaxın vaxtadək möhlət verəydin!**" dedilər. Yəni nə olardı ki, bizə döyüşü vacib etməyi başqa bir vaxta təxirə salardın. Çünki döyüşmək qan tökülməsinə, uşaqların yetim qalmasına və qadınların dul qalmasına səbəb olacaq. Bu ayə Uca Allahın "**Möminlər "Kaş cihada dair bir surə nazil olaydı!" deyirlər. Hökmü bəlli bir surə nazil olub orada döyüş yada salınan kimi qəlbində xəstəlik olanların sənə ölüm ayağında bayılan kimsənin baxışı ilə baxdıqlarını görərsən. Onlar üçün daha yaxşı olardı ki, itaət etsinlər və xoş söz söyləsinlər. Cihada qəti əmr verildiyi zaman Allaha sadiq qalsaydılar, əlbəttə ki, onlar üçün daha yaxşı olardı**" ("Muhəmməd", 20-21) ayəsi ilə eyni mənadadır.

İbn Əbu Hatim ﷺ İbn Abbasdan ﷺ rəvayət etmişdir ki, bir dəfə Abdur-Rahmən ibn Auf və onun yoldaşları Məkkədə Peyğəmbərin ﷺ yanına gəlib dedilər: "Ey Allahın Elçisi! Müşrik olduğumuz zaman hörmət və izzət içində idik. İman gətirdikdən sonra isə zəlil və hörmətsiz olduq". Peyğəmbər ﷺ dedi: "Mənə onları əfv etmək əmr olundu, elə isə müharibədən əl çəkin!" Uca Allah Peyğəmbəri ﷺ Mədinəyə köçürdükdən sonra ona döyüşməyi əmr etdi, onlar isə əl saxladılar. Bu səbəbdən Uca Allah "**Məgər sən özlərinə: "Müharibədən əl çəkin, namaz qılın və zəkat verin!" deyilən kəsləri görmədinmi?**" ayəsini nazil etdi". Hədisi ən-Nəsəi, əl-Hakim və İbn Mərdəveyh ﷺ rəvayət etmişlər.[1]

Uca Allah buyurur: "**De: "Dünyanın ləzzəti azdır. Müttəqilər üçün isə Axirət daha xeyirlidir**", Allahdan qorxan üçün Axirət həyatı dünyadan daha xeyirlidir. "**Sizə xurma çəyirdəyindəki lif qədər belə haqsızlıq edilməz**", yəni siz əməllərinizin qarşılığını tam olaraq alacaqsınız. Bu onlar üçün dünya kədərlərinə qarşı bir təsəlli, Axirət həyatına rəğbətləndirmə və cihada təşviqdir.

[1] ən-Nəsəi "Sunən" 3036, 3099; "Sunənul-Kubra" 4293, 4729, 11047; əl-Beyhəqi "Sunənul-Kubra" 17519, 18197; əl-Hakim, 2377. Hədis səhihdir. Bax: Səhih və Daif Sunən ən-Nəsəi, 3086.

Uca Allah buyurur: "**Harada olursunuzsa olun, ölüm sizi haqlayacaq. Hətta əlçatmaz qalalarda olsanız belə**", yəni siz mütləq öləcəksiniz və sizdən heç kim ölümdən xilas ola bilməyəcək. Necə ki Uca Allah başqa ayələrdə belə buyurur: "**Yer üzündə olan hər kəs ölməyə məhkumdur. Ancaq Rəbbinin əzəmətli və kəramətli Üzü əbədidir**" ("ər-Rahmən", 26-27); "**Hər kəs ölümü dadacaq**" ("Ali-İmran", 185); "**Səndən əvvəl də heç bir bəşərə ölümsüzlük nəsib etmədik. Məgər sən öləcəksən, onlar həmişəlik qalacaqlar?!**" ("əl-Ənbiya", 34). Bu ayələrdə hər kəsin mütləq öləcəyi və heç bir şeyin onları ölümdən qurtara bilməyəcəyi nəzərdə tutulur, fərq etməz, istər Allah yolunda döyüşsün, istər döyüşməsin. Onun üçün əzəldən müəyyən olunmuş qəti bir əcəl və müddət vardır. Necə ki Xalid ibn Validin ﷺ ölüm ayağında belə dediyi rəvayət edilir: "Filan-filan döyüşlərdə iştirak etdim. Bədən əzalarımdan elə bir əza yoxdur ki, onda ox, nizə və ya qılınc yarası olmasın. Amma indi yatağımda uzanmış ölürəm. Görüm qorxaqların gözünə heç yuxu getməsin!"[1]

Uca Allah buyurur: "**Hətta əlçatmaz qalalarda olsanız belə**", yəni möhkəm, güclü, yüksək qalalarda qorunmağınız belə sizi ölümdən qurtara bilməz. Necə ki Zuheyr ibn Əbu Səlmə ﷺ demişdir:

وَمَنْ هَابَ أَسْبَابَ الْمَنَيَا يَنَلْنَهُ    وَلَوْ رَامَ أَسْبَابَ السَّمَاءِ بِسُلَّمِ

Kim ölümdən qorxursa, bilsin ki, ondan qaçaraq
Pilləkənlə göyə çıxmış olsa belə, onu haqlayacaq.

Uca Allah buyurur: "**Onlara bir yaxşılıq üz verdikdə...**", yəni bolluq, meyvələr, əkinlər, uşaqlar və s. bu kimi nemətlər gəldikdə. Bu, İbn Abbas, Əbul-Aliyə və əs-Suddinin təfsiridir. **"Bu, Allahdandır!" deyər, bir pislik üz verdikdə isə...**", yəni qıtlıq, quraqlıq, meyvə, məhsul, mal-qara, övlad itkisi və s. bu kimi müsibətlər baş verdikdə. Əbul-Aliyə və əs-Suddi ﷺ belə təfsir etmişlər. **"Bu, səndəndir!" deyərlər**", yəni "bütün bunlar sənin üzündən, sənə və sənin dininə tabe olmağımıza görədir" deyərlər. Necə ki Uca Allah başqa bir ayədə Fironun qövmündən xəbər verərək belə buyurur: "**Onlara bir yaxşılıq üz verəndə "Bu bizə məxsusdur!" deyərdilər. Onlara bir pislik üz verdikdə isə Musa və onunla birlikdə olanları uğursuzluq əlaməti sayardılar**" ("əl-Əraf", 131). Başqa bir ayədə buyurur: "**İnsanlardan eləsi də var ki, Allaha şübhə ilə ibadət edir. Əgər ona bir xeyir çatsa,**

[1] əz-Zəməxşəri "Təfsir" 1/431; əd-Dinəvəri "Məcəlisətu və Cəvahirul-İlm" 836. Hədis həsəndir.

**onunla rahatlıq tapar. Yox, əgər başına bir iş gəlsə, üz döndərib küfrə qayıdar. O adam dünyanı da itirər Axirəti də. Gerçək zərər də elə budur**” (“əl-Həcc”, 11). Zahirən İslama daxil olduqlarını göstərən, lakin, əslində, İslam dinini bəyənməyən münafiqlər də belə demişlər. Onlara bir pislik üz verdikdə bunu Peyğəmbərə ﷺ tabe olmalarına nisbət edərdilər. Uca Allah onlara cavab verərək buyurur: “**De: “Hamısı Allahdandır!”**, yəni hər şey Allahın qəza və qədəri ilə baş verir. Onun qəza və qədəri həm yaxşı, həm günahkar, həm mömin, həm də kafir üçün keçərlidir.

Sonra Uca Allah şəkk və şübhəyə düşdüklərinə, elm və düşüncələrinin azlığına, zülm və savadsızlıqlarının isə çoxluğuna görə belə deyənlərin sözünü inkar edərək “**Bu adamlara nə olub ki, az qala söz də anlamırlar?**” buyurur.

Sonra Uca Allah Peyğəmbərə ﷺ xitab etməklə bütün insanları nəzərdə tutaraq buyurur: “**Sənə gələn yaxşılıq Allahdandır**”, yəni sənə gələn hər bir yaxşılıq Allahın lütfü, neməti, mərhəməti və rəhməti sayəsindədir. “**Sənə üz vermiş bəla isə sənin özündəndir**”, yəni sənin öz tərəfindəndir və əməllərinə görədir. Necə ki başqa bir ayədə Uca Allah buyurur: “**Başınıza gələn hər bir müsibət öz əllərinizlə qazandığınız günahlar üzündəndir. Allah günahların çoxunu bağışlayır**” (“əş-Şura”, 30). Qatədə ﵀ Uca Allahın “**Sənə gələn yaxşılıq Allahdandır, sənə üz vermiş bəla isə sənin özündəndir**” ayəsinin təfsirində demişdir: “Ey Adəm oğlu, sənə üz verən bəla, öz günahlarına görə aldığın cəzadır”. Sonra demişdir: “Bizə nəql edilmişdir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: “İnsanın başına gələn tikan batması, ayaq burxulması və ya damar titrəməsi kimi müsibətlər yalnız onun işlətdiyi hansısa bir günaha görədir. Allahın əfv etdiyi günahlar isə bundan daha çoxdur”. Qatədənin səhabəni qeyd etmədən birbaşa Peyğəmbərdən ﷺ rəvayət etdiyi bu hədis “Səhih” əsərində bitişik sənədlə rəvayət edilir. Hədis belədir: “Canım əlində olan Allaha and olsun ki, möminə üz vermiş elə bir üzüntü, elə bir kədər, elə bir yorğunluq, hətta ayağına batan elə bir tikan yoxdur ki, onun sayəsində Allah həmin müsəlmanın günahlarını bağışlamasın”.[1]

---

[1] Qatədədən ﵀ gələn hədisi ət-Təbəri (9969) və əs-Suyuti (2/185) rəvayət etmişlər. Bitişik sənədlə rəvayət olunan hədisi mənaca əl-Buxari və Muslim ﵀ Aişədən, Əbu Hureyradan və Əbu Səiddən ﵃ rəvayət etmişlər. Bax: əl-Buxari (10/89-91 Fəthul-Bari); Muslim (2/282); “əl-Musnəd” (8014). (Əhməd Şakir). ət-Təbəri, 9969, 10032; əl-Buxari, 5209-5210, 5640-5641; Muslim, 4467, 6730.

İbn Əbu Hatim ﷺ Mutarrif ibn Abdullahın ﷺ belə dediyini rəvayət etmişdir: “Qədəri nə üçün inkar edirsiniz? “ən-Nisa” surəsində olan ayə sizə kifayət etmirmi? Uca Allah buyurur: “**Onlara bir yaxşılıq üz verdikdə “Bu, Allahdandır!” deyər, bir pislik üz verdikdə isə “Bu, səndəndir!” deyərlər**”. Yəni gələn pislik səndəndir. Allaha and olsun ki, onlar başlarına gələn müsibəti qədərlə əlaqələndirmədilər. Bu onların əzəldən təyin edilmiş qədərləridir və ona doğru gedirlər”.[1] Bu söz “Qədəriyyə” və “Cibriyyə” firqələrinə açıq-aydın və güclü rədd cavabıdır.

Uca Allah buyurur: “**Biz səni insanlara elçi göndərdik**”, yəni sən insanlara Allahın şəriətini, sevib razı qaldığı və sevmədiyi əməlləri təbliğ edib çatdırırsan. ”**Şahid olaraq Allah yetər**”, yəni səni elçi olaraq göndərdiyinə Allahın şahidliyi yetər. Həmçinin Allah səninlə onlar arasında baş verənlərə də şahiddir. Sənin onlara təbliğ etdiyini, onların isə sənin bu təbliğinə haqqı inkar edərək küfr və inadkarlıqla qarşılıq verdiklərini ən yaxşı bilən Odur.

﴿ مَّن يُطِعِ ٱلرَّسُولَ فَقَدْ أَطَاعَ ٱللَّهَ ۖ وَمَن تَوَلَّىٰ فَمَآ أَرْسَلْنَٰكَ عَلَيْهِمْ حَفِيظًا ﴿٨٠﴾ وَيَقُولُونَ طَاعَةٌ فَإِذَا بَرَزُوا۟ مِنْ عِندِكَ بَيَّتَ طَآئِفَةٌ مِّنْهُمْ غَيْرَ ٱلَّذِى تَقُولُ ۖ وَٱللَّهُ يَكْتُبُ مَا يُبَيِّتُونَ ۖ فَأَعْرِضْ عَنْهُمْ وَتَوَكَّلْ عَلَى ٱللَّهِ ۚ وَكَفَىٰ بِٱللَّهِ وَكِيلًا ﴿٨١﴾ ﴾

**80. Kim Peyğəmbərə itaət edərsə, Allaha itaət etmiş olar, kim üz çevirərsə, bil ki, Biz səni onlara gözətçi göndərməmişik.**
**81. Onlar “İtaət edirik!” deyirlər. Sənin yanından çıxıb getdikdə isə onların bir qismi gecələr sənin dediyinin əksinə tədbir görər. Allah onların gecələr nə tədbir gördüklərini yazır. Onlardan üz döndər və Allaha təvəkkül et! Qoruyan olaraq Allah yetər.**

Uca Allah bu ayədə qulu və elçisi Muhəmmədə ﷺ itaət edənin Allaha itaət etdiyini, Peyğəmbərə ﷺ asi olanın isə Allaha asi olduğunu xəbər verir. Çünki Peyğəmbər ﷺ öz istəyi ilə danışmır, onun danışdığı yalnız ona təlqin edilən bir vəhydir. İbn Əbu Hatim ﷺ Əbu Hureyradan ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ belə demişdir: “Kim mənə itaət etsə, Allaha itaət etmiş olar, kim mənə asi olsa, Allaha asi olmuş olar. Eləcə də kim əmirə itaət etsə, mənə itaət etmiş olar, kim əmirə asi olsa, mənə asi olmuş olar”.[2] Bu hədis əl-Buxari və Muslimin

[1] İbn Əbu Hatim, 5648.
[2] əl-Buxari, 6604, 7137; Muslim, 4317-3418, 4852.

"Səhih" əsərlərində də varid olmuşdur.[1]

Uca Allah buyurur: "**kim üz çevirərsə, bil ki, Biz səni onlara gözətçi göndərməmişik**", yəni buna görə sənə bir günah yoxdur, sənin üzərinə düşən yalnız təbliğ etməkdir. Sənə tabe olan xoşbəxt olub Cəhənnəm əzabından xilas olar. Onun qazandığı savabın eynisi sənə də yazılar. Səndən üz çevirən isə ziyana düşər və xəsarətə uğrayar. Onun düşdüyü vəziyyətə sən cavabdeh deyilsən. Necə ki bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Kim Allaha və Elçisinə itaət edərsə, doğru yola yönəlmiş olar. Kim Allaha və Elçisinə asi olarsa, bilsin ki, yalnız özünə zərər vermiş olar".[2]

"**Onlar "İtaət edirik!" deyirlər**". Bu ayədə Uca Allah münafiqlərin zahirən Peyğəmbərə ﷺ itaət və tabeçilik nümayiş etdirdiklərini xəbər verir. "**Sənin yanından çıxıb getdikdə isə**", yəni səndən ayrıldıqdan sonra "**onların bir qismi gecələr sənin dediyinin əksinə tədbir görər**", yəni onlardan bir qrup gecə öz aralarında zahirən nümayiş etdirdiklərinin əksinə tədbir görərlər. "**Allah onların gecələr nə tədbir gördüklərini yazır**", yəni Uca Allah onların gecə nə hazırladıqlarını bilir və qullarının əməllərini yazmaqla məsul olan mələklərinə bu etdiklərini onların əleyhinə yazmağı əmr edir. Ayədə təhdid bildirən məna belədir: Münafiqlər Peyğəmbərə ﷺ itaəti və tabeçiliyi zahirən göstərsələr də, Uca Allah onların öz aralarında gizli danışdıqlarını, Allah Elçisinə ﷺ asi olmaq və ona qarşı çıxmağa dair gecə razılaşmalarını yaxşı bilir. Buna görə onları cəzalandıracaq. Necə ki başqa bir ayədə belə buyurur: "**Münafiqlər "Allaha və Peyğəmbərə iman gətirdik, itaət etdik!" deyirlər. Bundan sonra isə onlardan bir dəstə üz çevirir. Onlar mömin deyillər**" ("ən-Nur", 47).

Uca Allah buyurur: "**Onlardan üz döndər**", yəni ey Peyğəmbər, onlara qarşı səbirli ol, onlarla mülayim rəftar et, onları etdiklərinə görə cəzalandırma, gizlətdiklərini insanlara açıqlama, eyni zamanda onlardan qorxma "**və Allaha təvəkkül et! Qoruyan olaraq Allah yetər**", yəni Allaha təvəkkül edib, Ona üz tutanlar üçün Allah dost, yardımçı və köməkçi olaraq yetər.

---

[1] Hədis "ən-Nisa" surəsinin 59-cu ayəsinin təfsirində keçmişdir. (Əhməd Şakir).

[2] Bu hədis, Əbu Davudun (1097, 2119) səhih isnadla Abdullah ibn Məsuddan ؓ rəvayət etdiyi uzun hədisin bir hissəsidir. Hədisin sonunda "Allaha heç bir şeylə zərər yetirməz" əlavəsi vardır. (Əhməd Şakir). Əbu Davud, 1097, 1099. Hədis zəifdir. Bax: Daif Sunən Əbu Davud, 238.

﴿أَفَلَا يَتَدَبَّرُونَ ٱلْقُرْءَانَ ۚ وَلَوْ كَانَ مِنْ عِندِ غَيْرِ ٱللَّهِ لَوَجَدُوا۟ فِيهِ ٱخْتِلَٰفًا كَثِيرًا ﴿٨٢﴾ وَإِذَا جَآءَهُمْ أَمْرٌ مِّنَ ٱلْأَمْنِ أَوِ ٱلْخَوْفِ أَذَاعُوا۟ بِهِۦ ۖ وَلَوْ رَدُّوهُ إِلَى ٱلرَّسُولِ وَإِلَىٰٓ أُو۟لِى ٱلْأَمْرِ مِنْهُمْ لَعَلِمَهُ ٱلَّذِينَ يَسْتَنۢبِطُونَهُۥ مِنْهُمْ ۗ وَلَوْلَا فَضْلُ ٱللَّهِ عَلَيْكُمْ وَرَحْمَتُهُۥ لَٱتَّبَعْتُمُ ٱلشَّيْطَٰنَ إِلَّا قَلِيلًا ﴿٨٣﴾﴾

**82. Onlar Quran barəsində düşünmürlərmi?! Əgər o, Allahdan başqası tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ixtilaf tapardılar.**

**83. Onlara əmin-amanlıq və ya qorxu xəbəri gəldikdə dərhal onu yayarlar. Halbuki bunu Peyğəmbərə və özlərindən olan əmr sahiblərinə çatdırsaydılar, içərilərindən o xəbərin mahiyyətinə varan kəslər onu bilərdilər. Əgər sizə Allahın lütfü və rəhmi olmasaydı, əlbəttə, az bir qisminiz istisna olmaqla, hamınız şeytana uyardınız.**

Uca Allah bu ayədə qullarına Quran ayələrini düşünüb anlamağı əmr edir. Qurandan üz çevirib onun bəlağətli sözlərini və açıq-aydın mənalarını düzgün olmayan şəkildə başa düşməkdən çəkindirir. Həmçinin bildirir ki, Quranda heç bir ixtilaf və ziddiyyət yoxdur. Çünki o, müdrik və tərifəlayiq Allah tərəfindən haqq olaraq nazil edilmişdir. Bu səbəbdən Uca Allah “**Onlar Quran barəsində düşünmürlərmi?!**” buyurduqdan sonra “**Əgər o, Allahdan başqası tərəfindən olsaydı**” buyurur. Yəni əgər Quran, cahil, münafiq və müşriklərin qəlblərində düşündükləri kimi uydurulmuş olsaydı, “**əlbəttə, onda çoxlu ixtilaf tapardılar**”, yəni içində bir çox ziddiyyətlər və ixtilaflar tapardılar. Halbuki Quran ixtilafdan və ziddiyyətdən uzaqdır, çünki o, Allah tərəfindən nazil edilmişdir. Necə ki Uca Allah bir ayədə elmdə qüvvətli olanlardan bəhs edərək onların: “**Biz onlara iman gətirdik, hamısı bizim Rəbbimizdəndir**” (“Ali-İmran”, 7) dediklərini buyurur. Yəni Quranın həm mənası açıq-aydın olan ayələri, həm də mənası aydın olmayan ayələri haqdır. Bu səbəbdən elmdə qüvvətli olanlar mənası aydın olmayan ayələri mənası açıq-aydın olan ayələrlə şərh edib hidayətə çatırlar. Qəlblərində əyrilik olanlar isə mənası açıq-aydın olan ayələri mənası aydın olmayan ayələrlə şərh edib azırlar. Buna görə Uca Allah elmdə qüvvətli olanları tərifləmiş, qəlblərində əyrilik olanları isə pisləmişdir.

İmam Əhməd ﷺ Amr ibn Şueybdən, o da atasından, o da Şueybin babasından belə rəvayət etmişdir: “Bir dəfə qardaşım və mən bir məclisdə oturmuşduq. Bu məclisdə iştirak etmək mənə qırmızı

dəvələrə sahib olmaqdan daha sevimli idi. Biz məclisə gəldik və bir də gördük ki, Peyğəmbərin ﷺ səhabələrindən ibarət bir qrup insan məscidin qapılarından birinin yanında yığışıb. Biz məclisin ortasına girib onları ayırmaq istəmədik və kənarda yaxın bir yerə oturduq. Onlar Qurandan bir ayəni zikr edərək onun barəsində mübahisə etməyə başladılar və səsləri yüksəldi. Bu vaxt Peyğəmbər ﷺ qəzəbdən üzü qızarmış halda çıxdı. Peyğəmbər ﷺ onların üstünə torpaq ataraq dedi: "Ey insanlar, ehtiyatlı olun! Çünki sizdən əvvəlki ümmətlər peyğəmbərlərinə çox sual vermələri və kitabların ayələrini bir-birinə qarşı qoymaları üzündən həlak olmuşlar. Həqiqətən, Quranın bir qismi digərini inkar etmir, əksinə, bir qismi digərini təsdiqləyir. Bu səbəbdən Qurandan bildiyinizə əməl edin, bilmədiyinizi isə bilənlərə həvalə edin".[1] Hədisi İmam Əhməd və İbn Məcə رحمه الله müxtəsər olaraq da rəvayət etmişlər.[2]

İmam Əhməd رحمه الله rəvayət etmişdir ki, bir dəfə Əbu İmran əl-Cəuni Abdullah ibn Rabəhə məktub yazaraq Abdullah ibn Amrın رضي الله عنه belə dediyini bildirmişdir: "Bir gün səhər tezdən Peyğəmbərin ﷺ yanına getdim. Biz oturmuşduq və bu zaman iki nəfər bir ayə barəsində ixtilaf etməyə başladı və səsləri yüksəldi. Peyğəmbər ﷺ bunu eşidib dedi: "Sizdən əvvəlki ümmətləri Allahın Kitabı barədə ixtilafa düşmələri həlak etmişdir".[3] Hədisi Muslim və ən-Nəsəi رحمه الله rəvayət etmişlər.[4]

Uca Allah "**Onlara əmin-amanlıq və ya qorxu xəbəri gəldikdə dərhal onu yayarlar**" buyurmaqla bir hadisənin doğruluğunu yəqinləşdirmədən onu xəbər verməyə tələsənlərin əməllərini pisləyir. Çünki belə etmək doğru olmayan bir xəbərin yayılmasına gətirib çıxara bilər. İmam Muslim "Səhih" əsərində Əbu Hureyradan رضي الله عنه rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Bir insanın hər eşitdiyini danışması onun yalançı olması üçün kifayətdir".[5] Hədisi Əbu Davud رحمه الله da rəvayət etmişdir.[6]

əl-Buxari və Muslimin "Səhih" əsərlərində Muğira ibn Şöbədən رضي الله عنه rəvayət olunur ki, Peyğəmbər ﷺ dedi-qodunu qadağan etmişdir. Yəni

[1] Əhməd, 6702; İbn Məcə, 85. Hədis həsən səhihdir. Bax: Mişkətul-Məsabih, 9/99, 237, Ziləlul-Cənnə, 406.

[2] Hədisin birinci geniş variantı "əl-Musnəd" əsərində (6702), ikinci müxtəsər variantı isə "əl-Musnəd" əsərində və İbn Məcənin "Sunən" əsərindədir (85). Hamısının sənədi səhihdir. (Əhməd Şakir).

[3] Əhməd, 6801; Muslim, 4818, 6947.

[4] "əl-Musnəd" (6702); Muslim (2/304); "əl-Musnəd" (6845, 6846). (Əhməd Şakir).

[5] Muslim, 6-7.

[6] Muslim (1/5); İbn Hibban (29). (Əhməd Şakir). Əbu Davud, 4992.

insanların dediklərini dəqiqləşdirmədən, nəticəsini düşünmədən və aydınlaşdırmadan danışmağı qadağan etmişdir. Əbu Davudun “Sunən” əsərində Peyğəmbərin ﷺ belə dediyi rəvayət olunur: “Bir insanın əmin olmadığı bir şey barədə “Belə-belə deyirlər” deməsi onun üçün nə pis minikdir[1]”.[2] “Səhih” əsərində varid olan bir hədisdə Peyğəmbər ﷺ demişdir: “Kim yalan olduğunu yəqin bildiyi halda bir sözü nəql edərsə, o da yalançılardan biridir”.[3]

Burada təfsir alimləri səhih olmasında həmrəy olduqları Ömər ibn əl-Xattabın ؓ hədisini qeyd edirlər. Ömərə ؓ Peyğəmbərin ﷺ zövcələrini boşaması xəbəri çatdıqda evindən çıxıb məscidə gəldi və gördü ki, insanlar bu barədə danışırlar. Səbir etməyib Peyğəmbərin ﷺ yanına girməyə izin istədi və ondan soruşdu: “Ey Allahın Elçisi, zövcələrini boşamısanmı?” Peyğəmbər ﷺ “Xeyr” deyə cavab verdi. Ömər ؓ dedi: “Mən “Allahu-Əkbər” (Allah Ən Böyükdür) dedim”. Sonra Ömər ؓ hədisin davamını danışdı.[4] Muslimin rəvayəti isə belədir: “Ömər ؓ dedi: “Mən soruşdum: “Onları (zövcələrini) boşadınmı?” Peyğəmbər ﷺ “Xeyr” deyə cavab verdi. Mən məscidin qapısında dayanıb uca səslə “Peyğəmbər zövcələrini boşamamışdır!” deyə səsləndim”. Bu zaman bu ayə nazil oldu: “**Onlara əmin-amanlıq və ya qorxu xəbəri gəldikdə dərhal onu yayarlar. Halbuki bunu Peyğəmbərə və özlərindən olan əmr sahiblərinə çatdırsaydılar, içərilərindən o xəbərin mahiyyətinə varan kəslər onu bilərdilər**”. Ömər ؓ dedi: “Mən bu xəbərin mahiyyətinə varan kəslərdən biri idim”.[5]

---

[1] Peyğəmbərin ﷺ bir insan danışarkən “Belə-belə deyirlər” deməsini pis miniyə bənzətməsinin səbəbi budur ki, pis miniyin insanı yarı yolda qoyub məqsədinə çatdırmadığı kimi, doğruluğunu yəqin bilmədiyi sözü demək də insana fayda verməz və onu məqsədinə çatdırmaz.

[2] Hədisi Əbu Davud (4972) Əbu Məsud və ya Huzeyfədən ؓ rəvayət etmişdir. (Əhməd Şakir). Əbu Davud, 4972. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 866.

[3] Hədisi Muslim (5/1) Səmura ibn Cundub və əl-Muğira ibn Şöbədən, İbn Hibban (28) isə yalnız Səmuradan ؓ rəvayət etmişdir. (Əhməd Şakir). Muslim, 1.

[4] əl-Buxari, 4792, 5191.

[5] Burada İbn Kəsir əl-Buxari və Muslimin ؒ rəvayət etdikləri uzun hədisə işarə edir. Bax: “əl-Musnəd” (222). (Əhməd Şakir). Muslimin ؒ rəvayət etdiyi uzun hədisin tam mətni belədir: Rəvayət edilir ki, Ömər ibn əl-Xəttab ؓ demişdir: “Peyğəmbər ﷺ zövcələrini müvəqqəti olaraq tərk etmişdi. Mən məscidə daxil olduqda orada olanların kədərlə “Peyğəmbər ﷺ zövcələrini boşayıb!” dediklərini eşitdim. O vaxt hələ qadınlara hicab geyinmək əmr edilməmişdi. Mən öz-özümə dedim: “Bu gün mən bu məsələni mütləq öyrənməliyəm!” Sonra Aişənin yanına gəlib dedim: “Ey Əbu Bəkrin qızı! Sən o həddə çatmısan ki, Allahın Elçisinə ﷺ əziyyət verirsən?” O dedi: “Mənim etdiklərimin sənə heç bir aidiyyəti yoxdur. Yaxşı olar ki, sən öz qızına öyüd-nəsihət verəsən”. Mən Həfsənin yanına gəlib dedim “Ey Həfsə, sən o həddə çatmısan ki, Allahın Elçisinə ﷺ əziyyət verirsən? Allaha and olsun ki, Peyğəmbərin ﷺ səni

Uca Allah buyurur: "**xəbərin mahiyyətinə varan kəslər**", yəni onu mənbəyindən öyrənən kəslər. "**Əgər sizə Allahın lütfü və rəhmi olmasaydı, əlbəttə, az bir qisminiz istisna olmaqla, hamınız şeytana uyardınız**". İbn Abbas ﷺ demişdir: "Uca Allah burada (hamınız deməklə) möminləri qəsd edir".

---

sevmədiyini bilirsən və mən olmasaydım, o səni boşayardı!" Həfsə bunu eşitdikdə ağladı. Mən ondan Peyğəmbərin ﷺ harada olduğunu soruşduqda Həfsə "O öz eyvanındadır" deyə cavab verdi. Mən içəri daxil olduqda Peyğəmbərin ﷺ xidmətçisi Rəbahı gördüm. O, eyvanın astanasında oturub ayaqlarını Peyğəmbərin ﷺ söykənmək üçün istifadə etdiyi kötüyün üzərinə uzatmışdı. Mən onu çağırıb dedim: "Ey Rəbah, Allahın Elçisindən ﷺ izn istə onun yanına daxil olum". O əvvəl eyvana, sonra da mənə baxıb heç nə demədi. Mən yenə onu çağırıb dedim: "Ey Rəbah, Allahın Elçisindən ﷺ izn istə, onun yanına daxil olum". O yenə əvvəl eyvana, sonra da mənə baxıb heç nə demədi. Mən onu uca səslə çağırıb dedim: "Ey Rəbah, Allahın Elçisindən ﷺ izn istə, onun yanına daxil olum. Yəqin ki, Peyğəmbər ﷺ mənim Həfsəni müdafiə etmək üçün gəldiyimi güman edir. Allaha and olsun ki, əgər o mənə əmr etsəydi, Həfsənin boynunu vurardım". Bu dəfə Rəbah başı ilə mənə işarə edib Peyğəmbərin ﷺ yanına daxil olmağa izn verdi. Mən Peyğəmbərin ﷺ yanına daxil olduqda o, həsirin üzərində uzanmışdı, əynində də izardan (bədənin qurşaqdan aşağı hissəsini örtən geyimdən) başqa heç nə yox idi. Sonra o qalxıb oturdu. Həsirin izi onun çiynində və böyründə qalmışdı. Mən onun eyvanına nəzər salıb orada dörd ovuc arpa, bir o qədər akasiya ağacının qabığı və bir də aşılanmış dəridən başqa heç bir şey görmədim. Bu halı gördükdə mənim gözlərim yaşla doldu. Peyğəmbər ﷺ dedi: "Ey Xattabın oğlu, səni ağladan nədir?" Mən dedim: "Ey Allahın Elçisi! Axı necə ağlamayım. Gör həsir sənin bədənini nə hala salıb, eyvanında da bu gördüklərimdən başqa bir şey yoxdur. Rum və fars hökmdarları – Qeysər və Xosrov isə cah-calal içərisində yaşayırlar. Sən isə Allahın seçdiyi bir elçi olduğun halda, belə bir şəraitdə yaşayırsan". Peyğəmbər ﷺ dedi: "Ey Xattabın oğlu, istəmirsən ki dünya onların, Axirət isə bizim olsun?" Mən "Bəli, istəyirəm" deyə cavab verdim. Sonra mən ondan qəzəblənməsinin səbəbini soruşub dedim: "Zövcələrin nəyə görə narazılıq edir? Əgər sən onları boşasan, bil ki, Uca Allah, Onun mələkləri, Cəbrail, Mikail, mən, Əbu Bəkr və bütün möminlər səninləyik!" Mən çox nadir hallarda Allahdan dediklərimin təsdiq olunmasını istəyirdim. Mən bunu Uca Allahdan dilədikdə o bu ayəni nazil etdi: **"Hər ikiniz** (Həfsə və Aişə) **Allaha tövbə etməlisiniz. Çünki ikinizin də qəlbi günaha meyil etmişdir. Əgər Peyğəmbərə qarşı bir-birinizə dəstək versəniz, bilin ki, Allah, Cəbrail və əməlisaleh möminlər onun dostu və yardımçısıdır. Bunlardan başqa, mələklər də onun yardımçılarıdır. Əgər o sizi boşasa, Rəbbi sizin əvəzinizə ona sizdən daha xeyirli zövcələr – müsəlman, mömin, itaətkar, tövbə edən, ibadət edən, oruc tutan dul qadınlar və bakirə qızlar verə bilər"** ("ət-Təhrim", 4-5). Əbu Bəkrin qızı Aişə və (Ömərin qızı) Həfsə Peyğəmbərin ﷺ digər zövcələrini ona qarşı çıxmağa sövq etməklə bir-birinə kömək edirdilər. Mən dedim: "Ey Allahın Elçisi, sən onları boşadınmı?" O "Xeyr" deyə cavab verdi. Mən dedim: "Ey Allahın Elçisi! Mən məscidə daxil olduqda orada olanların kədərlə "Allahın Elçisi ﷺ zövcələrini boşayıb!" dediklərini eşitdim. Bunun doğru olmadığını onlara xəbər verimmi?" Peyğəmbər ﷺ dedi: "İstəyirsənsə, xəbər ver!" Peyğəmbərin ﷺ qəzəbi soyuyub, üzündə təbəssüm hiss olunana qədər mən onunla söhbət etdim. O, oturduğu kötüyün üstündən qalxıb getdikdə mən dedim: "Ey Allahın Elçisi, iyirmi doqquz gündür ki, otağındasan". O dedi: "Ay da iyirmi doqquz gündən ibarət olur". Mən məscidin qapısının önündə dayanıb uca səslə car çəkib dedim: "Allahın Elçisi ﷺ zövcələrini boşamayıb!" Uca Allah da bu ayəni nazil etdi: "**Onlara əmin-amanlıq və ya qorxu xəbəri gəldikdə dərhal onu yayarlar. Halbuki bunu Peyğəmbərə və özlərindən olan əmr sahiblərinə çatdırsaydılar, içərilərindən o xəbərin mahiyyətinə varan kəslər onu bilərdilər. Əgər sizə Allahın lütfü və rəhmi olmasaydı, əlbəttə, az bir qisminiz istisna olmaqla, hamınız şeytana uyardınız**". Mən də o xəbərin mahiyyətinə varan şəxslərdən idim". (Muslim, 2704, 3764; Əbu Yəalə, 164).

﴿ فَقَٰتِلۡ فِي سَبِيلِ ٱللَّهِ لَا تُكَلَّفُ إِلَّا نَفۡسَكَۚ وَحَرِّضِ ٱلۡمُؤۡمِنِينَۖ عَسَى ٱللَّهُ أَن يَكُفَّ بَأۡسَ ٱلَّذِينَ
كَفَرُواْۚ وَٱللَّهُ أَشَدُّ بَأۡسٗا وَأَشَدُّ تَنكِيلٗا ٨٤ مَّن يَشۡفَعۡ شَفَٰعَةً حَسَنَةٗ يَكُن لَّهُۥ نَصِيبٞ مِّنۡهَاۖ
وَمَن يَشۡفَعۡ شَفَٰعَةٗ سَيِّئَةٗ يَكُن لَّهُۥ كِفۡلٞ مِّنۡهَاۗ وَكَانَ ٱللَّهُ عَلَىٰ كُلِّ شَيۡءٖ مُّقِيتٗا ٨٥ وَإِذَا حُيِّيتُم بِتَحِيَّةٖ
فَحَيُّواْ بِأَحۡسَنَ مِنۡهَآ أَوۡ رُدُّوهَآۗ إِنَّ ٱللَّهَ كَانَ عَلَىٰ كُلِّ شَيۡءٍ حَسِيبًا ٨٦ ٱللَّهُ لَآ إِلَٰهَ إِلَّا هُوَۚ لَيَجۡمَعَنَّكُمۡ
إِلَىٰ يَوۡمِ ٱلۡقِيَٰمَةِ لَا رَيۡبَ فِيهِۗ وَمَنۡ أَصۡدَقُ مِنَ ٱللَّهِ حَدِيثٗا ٨٧ ﴾

**84. Sən Allah yolunda vuruş! Sən ancaq özünə cavabdehsən. Möminləri də döyüşə təşviq et! Ola bilsin ki, Allah kafirlərin qüvvəsinin qarşısını alsın. Allahın qüvvəsi daha çox, cəzası daha şiddətlidir.**

**85. Kim yaxşı bir işə vasitəçilik edərsə, ona onun savabından bir pay düşər, kim də pis bir işə vasitəçilik edərsə, ona da onun günahından bir pay düşər. Allah hər şeyi hesaba alandır.**

**86. Sizə salam verildiyi zaman onu daha gözəl şəkildə alın və ya verilən salamı olduğu kimi qaytarın! Həqiqətən, Allah hər şeyin hesabını çəkəndir.**

**87. Özündən başqa məbud olmayan Allah, baş verəcəyinə şübhə edilməyən Qiyamət günü sizi mütləq bir yerə toplayacaqdır. Verdiyi xəbərdə Allahdan daha doğru danışan kim ola bilər?**

Uca Allah bu ayədə qulu və elçisi Muhəmmədə ﷺ şəxsən döyüşə qatılmağı əmr edir. Qorxaraq döyüşdən imtina edənlərə görə isə Peyğəmbər ﷺ məsuliyyət daşımır. Bu səbəbdən Uca Allah ayədə "**Sən ancaq özünə cavabdehsən**" buyurur.

İbn Əbu Hatim ﵀ Əbu İshaqın belə dediyini rəvayət etmişdir: "Bir dəfə mən əl-Bəra ibn Azibdən soruşdum: "Döyüşdə qabağa atılıb yüz düşmənlə döyüşən kişi Uca Allahın "**Öz əllərinizlə özünüzü təhlükəyə atmayın!**" ("əl-Bəqərə", 195) ayəsində nəzərdə tutduğu kəslərə aiddirmi?" əl-Bəra dedi: "Uca Allah Peyğəmbərinə ﷺ "**Sən Allah yolunda vuruş! Sən ancaq özünə cavabdehsən. Möminləri də döyüşə təşviq et**!" buyurmuşdur".[1] Hədisi İmam Əhməd ﵀ Süleyman ibn Davuddan, o da Əbu Bəkr ibn Ayyəşdən, o da Əbu İshaqdan rəvayət etmişdir. İmam Əhmədin ﵀ hədisində Əbu İshaq belə demişdir: "əl-Bəradan soruşdum: "Təkbaşına müşriklərin üzərinə hücuma keçən kişi öz əli ilə özünü təhlükəyə atanlardandırmı?"

[1] İbn Əbu Hatim, 5704.

O dedi: "Xeyr! Çünki Uca Allah Elçisini ﷺ göndərmiş və ona "**Sən Allah yolunda vuruş! Sən ancaq özünə cavabdehsən. Möminləri də döyüşə təşviq et**!" buyurmuşdur. Uca Allahın "**Öz əllərinizlə özünüzü təhlükəyə atmayın!**" ("əl-Bəqərə", 195) ayəsi mallarını Allah yolunda xərcləməyənlərə aiddir".[1] Hədisi İbn Mərdəveyh رحمه الله də rəvayət etmişdir.[2]

Uca Allah buyurur: "**Möminləri də döyüşə təşviq et**!", yəni möminləri döyüşməyə həvəsləndir. Necə ki Peyğəmbər ﷺ Bədr döyüşündə səfləri düzəldərkən belə deyirdi: "Genişliyi göy və yer qədər olan Cənnətə doğru qalxın!"[3] Allah yolunda döyüşə təşviqi ehtiva edən bir çox hədis varid olmuşdur. Bu hədislərdən biri də əl-Buxarinin رحمه الله Əbu Hureyradan رضي الله عنه rəvayət etdiyi hədisdir. Əbu Hureyra رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Kim Allaha və Onun elçisinə iman gətirir, namaz qılır və Ramazan orucunu tutursa, (bundan sonra) istər Allah yolunda hicrət etsin, istərsə də doğulduğu diyarda qalsın, Allah onu Cənnətə daxil etməyi Özünə vacib etmişdir". Səhabələr dedilər: "Ey Allahın Elçisi, insanları müjdələyəkmi?" Peyğəmbər ﷺ dedi: "Cənnətdə Allahın, Onun yolunda cihad edənlər üçün hazırladığı yüz mərtəbə vardır. Bu mərtəbələrdən hər iki mərtəbə arasındakı məsafə yerlə göy arasında olan məsafəyə bərabərdir. Allahdan Cənnət dilədiyiniz zaman Firdovs cənnətini diləyin! Çünki Firdovs, Cənnətin tam ortası və ən yüksək mərtəbəsidir. Onun üstündə isə ər-Rahmənin Ərşi[4] yerləşir. Cənnət çayları oradan qaynayıb axır".[5] Oxşar hədis Muaz, Əbu Dərdə və Ubədədən رضي الله عنهم də rəvayət edilmişdir.

Əbu Səid əl-Xudri رضي الله عنه rəvayət edir ki, bir dəfə Peyğəmbər ﷺ ona dedi: "Ey Əbu Səid, Allahın Rəbb, İslamın din və Muhəmmədin peyğəmbər olduğundan razı olana Cənnət vacib olar". Əbu Səid buna təəccüb etdi və dedi: "Ey Allahın Elçisi, mənim üçün onu təkrar et!" Peyğəmbər ﷺ dediyini təkrar etdi, sonra belə buyurdu: "Başqa bir şey var ki, Allah onunla qulunu Cənnətdə yüz mərtəbə qaldırar. Hər iki mərtəbə arasındakı məsafə yerlə göy arasında olan məsafə qədərdir".

[1] Əhməd, 18500, 18669. Şueyb əl-Arnavut رحمه الله demişdir: "Ayənin nazilolma səbəbi barədə Huzeyfədən رضي الله عنه rəvayət olunan hədis səhihdir".

[2] "əl-Musnəd" (4/281. Hələbi nəşri). Hədisin isnadları səhihdir. (Əhməd Şakir).

[3] Hədisi Muslim (2/101) Ənəs ibn Malikdən رضي الله عنه rəvayət etmişdir. (Əhməd Şakir). Muslim, 3520, 5024.

[4] "əl-Bəqərə" surəsinin 255-ci ayəsinin təfsirinə bax.

[5] əl-Buxari (6/9-10, 13/394-395 Fəthul-Bari). (Əhməd Şakir). əl-Buxari, 2581, 2790.

Əbu Səid "O hansı əməldir, ey Allahın Elçisi?" deyə soruşduqda Peyğəmbər ﷺ dedi: "Allah yolunda cihad etməkdir". Hədisi Muslim ﷺ rəvayət etmişdir.[1]

Uca Allah buyurur: "**Ola bilsin ki, Allah kafirlərin qüvvəsinin qarşısını alsın**", yəni ümid olunur ki, sənin möminləri döyüşə təşviq etməyin, onları düşmənlə mübarizəyə, İslam diyarını və xalqını müdafiəyə, düşmənə qarşı müqavimətə və səbrə yönəldər.

Uca Allah buyurur: "**Allahın qüvvəsi daha çox, cəzası daha şiddətlidir**", yəni Allah onlardan həm dünyada, həm də Axirətdə qisas almağa qadirdir. Necə ki başqa bir ayədə belə buyurur: "**Bax belə! Əgər Allah istəsəydi, onlardan döyüşsüz də intiqam alardı. Lakin O sizi bir-birinizlə sınağa çəkmək üçün belə etdi**" ("Muhəmməd", 4).

Uca Allah buyurur: "**Kim yaxşı bir işə vasitəçilik edərsə, ona onun savabından bir pay düşər**", yəni kim xeyirlə nəticələnən bir işə can atarsa, bu xeyirdən onun da bir payı var, "**kim də pis bir işə vasitəçilik edərsə, ona da onun günahından bir pay düşər**", yəni çalışdığına və niyyət etdiyinə görə bu pis işdən ona da günah var. "Səhih" əsərində varid olan bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Xeyir işlərdə vasitəçilik edin ki, savab qazanasınız. Allah dilədiyi bir şeyə Öz peyğəmbərinin dili ilə hökm edəcəkdir".[2] Mucahid ibn Cəbr ﷺ demişdir: "Bu ayə insanları xeyir işlərdə bir-birilərinə vasitəçilik etməyə rəğbətləndirmək üçün nazil olmuşdur". əl-Həsən əl-Bəsri ﷺ demişdir: "Kim yaxşı bir işə vasitəçilik edərsə, şəfaəti qəbul olunmasa belə, ona bu şəfaətinə görə savab yazılar. Çünki Uca Allah ayədə "**Kim yaxşı bir işə vasitəçilik edərsə**" buyurur, "kimin şəfaəti qəbul olunarsa" buyurmur".[3]

Uca Allah buyurur: "**Allah hər şeyi hesaba alandır**". İbn Abbas, Əta və Qatədə ﷺ ayədə keçən مُقِيتٌ [muqi:t] sözünü "qoruyan" kimi təfsir etmişlər. Mucahid ﷺ bu sözü "şahid" kimi, başqa bir rəvayətdə isə "hesaba alan" kimi təfsir etmişdir. Səid ibn Cubeyr, əs-Suddi və İbn Zeyd ﷺ isə bu sözün "qadir" mənasını verdiyini demişlər. Abdullah ibn Kəsir ﷺ bu sözü "idarə edən", əd-Dahhək ﷺ isə "ruzi verən" kimi təfsir etmişdir.[4]

---

[1] Muslim (2/97). (Əhməd Şakir). Muslim, 3496, 4987.

[2] əl-Buxari (3/237 Fəthul-Bari); Muslim (2/293). (Əhməd Şakir). əl-Buxari, 1342, 1432.

[3] ət-Təbəri, 10017, 10081.

[4] ət-Təbəri مُقِيتٌ [muqi:t] sözünü "qadir" mənasında təfsir edənlərin rəylərinin doğru olduğunu bildirmişdir. Bax: "Təfsir ət-Təbəri" (8/584). Diqqətlə nəzərdən keçirsək, görərik ki, digər rəylərin hamısı məhz bu mənaya qayıdır. (Əhməd Şakir).

Uca Allah buyurur: "**Sizə salam verildiyi zaman onu daha gözəl şəkildə alın və ya verilən salamı olduğu kimi qaytarın!**", yəni bir müsəlman sizə salam verdikdə ona onun verdiyi salamdan daha üstünü ilə qarşılıq verin və ya onun verdiyi salamın eynisini qaytarın. Salama daha gözəl şəkildə qarşılıq vermək müstəhəb (bəyənilən), salamı olduğu kimi qaytarmaq isə vacibdir.

İbn Cərir ﷫ rəvayət edir ki, Salman əl-Farisi ﷜ belə demişdir: "Bir dəfə bir kişi Peyğəmbərin ﷺ yanına gələrək "əs-Sələmu aleykum (Sənə Allahın salamı olsun), ey Allahın Elçisi!" dedi. Peyğəmbər ﷺ ona "Va aleykumus-sələm və rahmətullah (Allahın salamı və rəhməti sənin üzərinə olsun)" deyə cavab verdi. Sonra başqa biri gələrək "əs-Sələmu aleykum və rahmətullah" (Allahın salamı və rəhməti sənin üzərinə olsun), ey Allahın Elçisi!" dedi. Peyğəmbər ﷺ ona "Va aleykumus-sələm və rahmətullahi və bərakətuhu (Allahın salamı, rəhməti və bərəkətləri sənin üzərinə olsun)" deyə cavab verdi. Sonra başqa bir kişi gələrək "əs-Sələmu aleykum və rahmətullahi və bərakətuhu (Allahın salamı, rəhməti və bərəkəti sənin üzərinə olsun), ey Allahın Elçisi!" dedi. Peyğəmbər ﷺ ona "Va aleykə (Sənin də)" dedikdə kişi "Ey Allahın Elçisi, atam-anam sənə fəda olsun! Sənə filan-filan kəslər gəlib salam verdi və sən də onlara mənə verdiyin cavabdan daha artığı ilə cavab verdin" dedi. Peyğəmbər ﷺ dedi: "Sən bizə əlavə etməyə heç nə qoymadın. Uca Allah "**Sizə salam verildiyi zaman onu daha gözəl şəkildə alın və ya verilən salamı olduğu kimi qaytarın!**" buyurur. Biz də sənə verdiyin salamı olduğu kimi qaytardıq".[1] Hədisi İbn Əbu Hatim ﷫ tabiindən rəvayət etmişdir. Həmçinin İbn Mərdəveyh ﷫ Abdullah ibn Əhməd ibn Hənbəldən, o da atasından eyni hədisi rəvayət etmişdir. Lakin mən bu hədisi "əl-Musnəd" əsərində tapa bilmədim. Ən doğrusunu Allah bilir.[2]

Bu hədis dəlalət edir ki, salam verərkən və alarkən "əs-Sələmu aleykum və rahmətullahi və bərakətuhu" (Allahın salamı, rəhməti və bərəkəti sənin üzərinə olsun) cümləsinə əlavə etmək olmaz. Çünki əgər bundan daha artığını demək icazəli olsaydı, əlbəttə, Peyğəmbər ﷺ buna əlavə edərdi.

---

[1] ət-Tabərani "Mucəmul-Kəbir" 6114. Hədis münkərdir. Bax: Silsilə əd-Daifə, 5433.

[2] Əhməd Şakir ﷫ demişdir: "Hədisi ət-Tabəri (10044) rəvayət etmişdir. Hədis, İbn Kəsirin dediyi kimi, "əl-Musnəd" əsərində yoxdur. əs-Suyuti (188/2) bildirmişdir ki, hədisi İmam Əhməd "Zuhd" kitabında qeyd etmişdir. Əlavə olaraq hədisi İbn əl-Munzirə və ət-Tabəraniyə ﷫ nisbət etmişdir. Həmçinin hədisin isnadının həsən olduğunu bildirmişdir. Hədis "əz-Zəvaid" kitabında (33/8) ət-Tabəraninin ﷫ rəvayəti ilə qeyd olunub. Bütün isnadlarını və hədis barədə deyilənləri cəm etsək, hədis ən aşağısı "həsən" dərəcəsindədir".

İmam Əhməd ﷺ rəvayət etmişdir ki, İmran ibn Husayn ﷺ belə demişdir: “Bir kişi Peyğəmbərin ﷺ yanına gələrək “əs-Sələmu aleykum” deyə salam verdi. Peyğəmbər ﷺ onun salamını aldı və kişi oturdu. Peyğəmbər ﷺ “On savab qazandı” dedi. Sonra başqa bir kişi gəldi və “əs-Sələmu aleykum və rahmətullah” deyə salam verdi. Peyğəmbər ﷺ onun salamını aldı, o da oturdu. Peyğəmbər ﷺ “İyirmi savab qazandı” dedi. Sonra başqa bir kişi gələrək “əs-Sələmu aleykum və rahmətullahi və bərakətuhu” deyə salam verdi. Peyğəmbər ﷺ onun da salamını aldı, o da oturdu. Peyğəmbər ﷺ “Otuz savab qazandı” dedi”.[1] Hədisi Əbu Davud, ət-Tirmizi, ən-Nəsəi və əl-Bəzzər rəvayət etmişlər. ət-Tirmizi hədisin “həsən-ğarib” olduğunu bildirmişdir. əl-Bəzzər ﷺ demişdir: “Bu hədis Peyğəmbərdən ﷺ bir neçə şəkildə rəvayət edilmişdir. Lakin sənəd baxımından ən yaxşısı budur”.[2]

İbn Əbu Hatim ﷺ İbn Abbasın ﷺ belə dediyini rəvayət etmişdir: “Atəşpərəst olsa belə, Allahın bəndələrindən kim sənə salam verərsə, salamını al, çünki Uca Allah “**Sizə salam verildiyi zaman onu daha gözəl şəkildə alın və ya verilən salamı olduğu kimi qaytarın!**” buyurur”.[3]

Zimmi kafirlərə[4] gəlincə, müsəlmanlar onlara ilk olaraq salam verməməli və verdikləri salama əlavə etməməlidirlər. Əksinə, verdikləri salamı olduğu kimi qaytarmalıdırlar. əl-Buxari və Muslimin “Səhih” əsərlərində İbn Ömərdən ﷺ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: “Yəhudilər sizə salam verdikdə “əs-Səmu aleykə (sənə ölüm olsun)!” deyirlər. Sən də onlara “Va aleykə (sənə də)” deyə cavab ver!”[5] Muslimin “Səhih” əsərində Əbu Hureyradan ﷺ rəvayət edilən hədisdə Peyğəmbər ﷺ demişdir: “Yəhudi və xaçpərəstlərə ilk salam verən siz olmayın. Onlarla bir yolda rastlaşdıqda onları yolun ən dar hissəsinə sıxışdırın!”[6] əl-Həsən əl-Bəsri ﷺ demişdir: “Salam vermək sünnədir (müstəhəbdir), salamı

[1] Əbu Davud, 5197; ət-Tirmizi, 2689, 2905. Hədis səhihdir. Bax: Səhih ət-Tərğib vət-Tərhib, 2710.

[2] “əl-Musnəd” (4/439-440 Hələbi nəşri). Hədisin isnadı əl-Buxari və Muslimin şərtlərinə görə səhihdir. (Əhməd Şakir).

[3] ət-Tabəri (10039). ət-Tabəri və İbn Əbu Hatimin ﷺ rəvayət etdikləri isnad səhihdir. Həmçinin əl-Buxari “əl-Ədəb əl-Mufrad” (1107) əsərində rəvayət etmişdir. əl-Buxarinin rəvayəti belədir: “Yəhudilərin, nəsranilərin və məcusilərin salamını alın, çünki Allah belə buyurur: …”. Hədisin isnadı səhihdir. əs-Suyuti (2/188) hədisi həmçinin İbn Əbu Şeybəyə, İbn Əbu əd-Dunyəyə və İbn əl-Munzirə ﷺ nisbət etmişdir. (Əhməd Şakir). İbn Əbu Hatim, 5729; ət-Tabəri, 10039, 10102.

[4] Zimmi kafir - cizyə (vergi) ödəməklə müsəlman ölkəsində yaşayan kafirlərdir.

[5] əl-Buxari, 5787, 6257.

[6] Muslim, 4030, 5789.

almaq isə fərzdir".[1] əl-Həsən əl-Bəsrinin ﷬ bu sözü – salamı almağın vacib olması bütün alimlər tərəfindən qəbul edilən görüşdür. Salam verilən kəs salamı almadığı təqdirdə günah qazanır, çünki o, Uca Allahın "**Sizə salam verildiyi zaman onu daha gözəl şəkildə alın və ya verilən salamı olduğu kimi qaytarın!**" ayəsindəki əmrinə qarşı çıxmış olur.[2]

Sonra Uca Allah "**Özündən başqa məbud olmayan Allah**" buyurmaqla bütün varlıqların tək ilahı olduğunu bildirir. Bu cümlə, həmçinin özündə and mənasını daşıyır. Çünki Uca Allah bundan sonra "...**baş verəcəyinə şübhə edilməyən Qiyamət günü sizi mütləq bir yerə toplayacaqdır**" buyurur. Burada لَيَجْمَعَنَّكُمْ [ləyəcməannəkum] "**sizi mütləq bir yerə toplayacaqdır**" ifadəsinin əvvəlində "ləm"

---

[1] ət-Tabəri, 10046, 10109.

[2] İbn Useymin ﷬ bu ayəni şərh edərkən demişdir: "Əgər biri sənə "əs-Sələmu aleykə!" desə, sən ona "Va aleykəs-sələm!" de və deyiləndən heç nə əskiltmə. Əgər "əs-Sələmu aleykə və rahmətullah!" deyərsə, sən "Va aleykəs-sələm və rahmətullah!" de. Əgər "əs-Sələmu aleykə və rahmətullahi və bərəkatuhu!" deyərsə, sən "Va aleykəs-sələm və rahmətullahi və bərəkatuhu!" de. Bütün bunlar vacibdir, çünki Uca Allah ayədə "**Sizə salam verildiyi zaman onu daha gözəl şəkildə alın**" deyə əmr edir. Əgər adam sənə "əs-Sələmu aleykə!" desə, sən də ona "Va aleykəs-sələm və rahmətullah!" desən, daha gözəl və daha üstün olanı yerinə yetirmiş olarsan. Lakin bunu etmək vacib deyil. Vacib olan budur ki, verilən salamı ən azı olduğu kimi alasan. Uca Allahın "**daha gözəl şəkildə alın**" sözü bu salamın həm növünü, həm kəlmələrinin sayını, həm də keyfiyyətini əhatə edir. Məsələn, biri sənə "əs-Sələmu aleykə!" desə, sən də ona "Xoş gördük, Allah sənə uzun ömür versin!" desən, boynuna düşən vacibi yerinə yetirmiş sayılmayacaqsan. Hətta bu sözü min kərə desən belə, yenə bunun sənə heç bir faydası olmayacaq və əksinə, günah qazanacaqsan. Çünki bu cavabınla sən boynuna düşən vacibi nə olduğu kimi qaytarmış, nə də ki onu daha böyük ehtiramla qaytarmış sayılmayacaqsan. Belə ki, o, sənə "əs-Sələmu aleykə!" deyəndə, sənin üçün həm dua edir – sənə salamatlıq diləyir, həm də səni salamlayır. Sən isə ona "Xoş gördük!" deməklə onu, sadəcə, salamlayırsan ki, bu da duasız salamlama sayılır. Odur ki salamın növünü olduğu kimi, yaxud bundan da gözəl tərzdə qaytarmaq gərəkdir. Kəlmələrinin sayında da, həmçinin bunu olduğu kimi və ya daha gözəl tərzdə qaytarmaq lazımdır. Əgər adam sənə "əs-Sələmu aleykə və rahmətullah!" desə, sənin ona, sadəcə, "Va aleykəs-sələm!" deməyin düzgün deyil. Çünki sən bununla onun salamını nə gözəl şəkildə almış, nə də olduğu kimi qaytarmış sayılırsan. Bu salamı ən azı olduğu kimi qaytarmaq vacibdir. Həmçinin keyfiyyət baxımından da bu qaydaya riayət etmək gərəkdir. Əgər adam sənə aydın və uca səslə salam verirsə, sənin bu salamı mızıldanaraq almağın nöqsan sayılır. Habelə əgər adam üzünü sənə tərəf tutub, üstəlik gülərüzlə sənə salam verirsə, sənin ondan üz çevirərək və ya üz-gözünü turşudaraq salam verməyin yenə nöqsan sayılır. Beləliklə, sən onun salamını nə gözəl şəkildə almış, nə də olduğu kimi qaytarmış sayılırsan. Bu möhtəşəm ayədən o da aydın olur ki, əgər kafirlərdən biri səni salamlayıb, aydın ifadə ilə "əs-Sələmu aleykə!" desə, ona "Va aleykəs-sələm!" deyə bilərsən. Çünki bunu deməklə onun salamını olduğu kimi qaytarmış hesab edilərsən. Qaldı ki Peyğəmbərin ﷺ "Kitab əhli sizə salam verdiyi zaman siz onlara "Va aleykum!" deyin", yəni onlara: "Va aleykumus-sələm!" deməyin!" sözünə, Peyğəmbər ﷺ bunun səbəbini həmin hədisdə açıqlayıb demişdir: "Yəhudilər salam verdikdə "əs-Səmu aleykum", yəni "Sizə ölüm olsun!" deyə sizə bəddua edirlər. Siz də onlara "Va aleykum (sizin özünüzə olsun)!" deyin". Bu hədisdən aydın olur ki, əgər onlar "əs-Sələmu aleykum" desələr, biz onlara "Va aleykumus-sələm" deyə cavab veririk, çünki Uca Allah buyurur: **"Sizə salam verildiyi zaman onu daha gözəl şəkildə alın və ya verilən salamı olduğu kimi qaytarın!"** (Bax: Şərh Riyadus-Salihin, 1/956).

hərfinin gəlməsi əvvəlki cümlənin and mənasını verdiyinə işarədir. Bu səbəbdən Uca Allah "**Özündən başqa məbud olmayan Allah**" buyurmaqla həm xəbər verir, həm də and içir ki, O, mütləq əvvəlkiləri də, sonrakıları da bir yerə toplayacaq və hər kəsi əməlinə görə mükafatlandıracaqdır.

Uca Allah buyurur: "**Verdiyi xəbərdə Allahdan daha doğru danışan kim ola bilər?**", yəni sözündə, verdiyi xəbərində, vədində və təhdidində Allahdan daha doğru danışan heç kim yoxdur, Ondan başqa ibadətə layiq məbud və Rəbb yoxdur.

﴿ ۞ فَمَا لَكُمۡ فِي ٱلۡمُنَٰفِقِينَ فِئَتَيۡنِ وَٱللَّهُ أَرۡكَسَهُم بِمَا كَسَبُوٓاْۚ أَتُرِيدُونَ أَن تَهۡدُواْ مَنۡ أَضَلَّ ٱللَّهُۖ
وَمَن يُضۡلِلِ ٱللَّهُ فَلَن تَجِدَ لَهُۥ سَبِيلٗا ٨٨ وَدُّواْ لَوۡ تَكۡفُرُونَ كَمَا كَفَرُواْ فَتَكُونُونَ سَوَآءٗۖ فَلَا تَتَّخِذُواْ مِنۡهُمۡ
أَوۡلِيَآءَ حَتَّىٰ يُهَاجِرُواْ فِي سَبِيلِ ٱللَّهِۚ فَإِن تَوَلَّوۡاْ فَخُذُوهُمۡ وَٱقۡتُلُوهُمۡ حَيۡثُ وَجَدتُّمُوهُمۡۖ وَلَا تَتَّخِذُواْ مِنۡهُمۡ
وَلِيّٗا وَلَا نَصِيرًا ٨٩ إِلَّا ٱلَّذِينَ يَصِلُونَ إِلَىٰ قَوۡمِۭ بَيۡنَكُمۡ وَبَيۡنَهُم مِّيثَٰقٌ أَوۡ جَآءُوكُمۡ حَصِرَتۡ صُدُورُهُمۡ أَن
يُقَٰتِلُوكُمۡ أَوۡ يُقَٰتِلُواْ قَوۡمَهُمۡۚ وَلَوۡ شَآءَ ٱللَّهُ لَسَلَّطَهُمۡ عَلَيۡكُمۡ فَلَقَٰتَلُوكُمۡۚ فَإِنِ ٱعۡتَزَلُوكُمۡ فَلَمۡ يُقَٰتِلُوكُمۡ
وَأَلۡقَوۡاْ إِلَيۡكُمُ ٱلسَّلَمَ فَمَا جَعَلَ ٱللَّهُ لَكُمۡ عَلَيۡهِمۡ سَبِيلٗا ٩٠ سَتَجِدُونَ ءَاخَرِينَ يُرِيدُونَ أَن يَأۡمَنُوكُمۡ
وَيَأۡمَنُواْ قَوۡمَهُمۡ كُلَّ مَا رُدُّوٓاْ إِلَى ٱلۡفِتۡنَةِ أُرۡكِسُواْ فِيهَاۚ فَإِن لَّمۡ يَعۡتَزِلُوكُمۡ وَيُلۡقُوٓاْ إِلَيۡكُمُ ٱلسَّلَمَ وَيَكُفُّوٓاْ
أَيۡدِيَهُمۡ فَخُذُوهُمۡ وَٱقۡتُلُوهُمۡ حَيۡثُ ثَقِفۡتُمُوهُمۡۚ وَأُوْلَٰٓئِكُمۡ جَعَلۡنَا لَكُمۡ عَلَيۡهِمۡ سُلۡطَٰنٗا مُّبِينٗا ٩١ ﴾

**88. Sizə nə oldu ki, münafiqlər barəsində iki dəstəyə ayrıldınız? Halbuki Allah onları etdikləri əməllərə görə geriyə qaytarmışdır. Yoxsa siz Allahın azdırdığı kimsəni doğru yola yönəltmək istəyirsiniz? Allahın azdırdığı kimsə üçün əsla doğru yol tapa bilməzsən.**

**89. Onlar özləri küfr etdikləri kimi, sizin də küfr edib onlarla eyni olmanızı istəyərlər. Onlar Allah yolunda hicrət etməyincə, onlardan heç birini özünüzə dost tutmayın. Əgər üz çevirsələr, onları harada görsəniz, tutub öldürün. Onlardan nə bir dost, nə də bir köməkçi tutun.**

**90. Ancaq sizinlə aralarında müqavilə olan bir camaata sığınanlar, yaxud sizinlə və ya öz camaatı ilə vuruşmaqdan köksləri sıxıldığı üçün sizin yanınıza gələn kimsələr istisnadır. Əgər Allah istəsəydi, onları sizə qarşı qaldırardı və onlar da sizinlə vuruşardılar. Əgər onlar sizdən aralanıb geri çəkilsələr, sizinlə**

**vuruşmasalar və sizə sülh təklif etsələr, Allah sizə onlara qarşı vuruşmanıza yol verməz.**

**91. Siz bir başqalarına da rast gələcəksiniz ki, onlar həm sizdən, həm də öz camaatından arxayın olmaq istəyərlər. Onlar hər dəfə fitnəyə qaytarıldıqda bütünlüklə ona dalarlar. Əgər onlar sizdən aralanıb geri çəkilməsələr, sizə sülh təklif etməsələr və sizdən əl çəkməsələr, onlara harada rast gəlsəniz, tutub öldürün. Biz onlara qarşı çıxmaq üçün sizə açıq-aydın dəlil verdik.**



Uca Allah bu ayələrdə möminlərin münafiqlər barədə iki dəstəyə ayrılmalarını pisləyir. Bu ayənin nazilolma səbəbi barədə alimlər arasında fikir ayrılığı var. İmam Əhməd ﷺ Zeyd ibn Sabitdən ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ Uhud döyüşünə getdikdə onunla olanların bir qismi (Abdullah ibn Ubey ibn Səlul və onun tərəfdarları) geri qayıtdı. Peyğəmbərin ﷺ səhabələri bu geri dönənlər barədə iki dəstəyə ayrıldılar. Bir dəstə "Onları öldürək" deyərkən, digər dəstə "Xeyr, öldürməyək" deyirdi. Uca Allah da bu ayəni nazil etdi: "**Sizə nə oldu ki, münafiqlər barəsində iki dəstəyə ayrıldınız? Halbuki Allah onları etdikləri əməllərə görə geri qaytarmışdır**". Peyğəmbər ﷺ dedi: "Həqiqətən Mədinə Taybədir (Təmizdir). Od dəmirin pasını təmizlədiyi kimi, o da özündəki pislikləri təmizləyir[1]". Bu hədisi əl-Buxari və Muslim ﷺ rəvayət etmişlər.[2] İbn İshaq ﷺ qeyd etmişdir ki, Uhud döyüşü baş verən günü Abdullah ibn Ubey ibn Səlul qoşunun üçdə biri ilə, yəni üç yüz nəfərlə geri qayıtmışdı. Peyğəmbərin ﷺ yanında isə yeddi yüz nəfər qalmışdı.[3]

Uca Allah buyurur: "**Halbuki Allah onları etdikləri əməllərə görə geriyə qaytarmışdır**", yəni Allah onları "**etdikləri əməllərə**" – asiliklərinə və Peyğəmbərə ﷺ qarşı çıxıb batilə tabe olmalarına görə geri qaytarmaqla səhv yola salmışdır.

Uca Allah buyurur: "**Yoxsa siz Allahın azdırdığı kimsəni doğru yola yönəltmək istəyirsiniz? Allahın azdırdığı kimsə üçün əsla doğru yol tapa bilməzsən**", yəni Allahın doğru yoldan azdırdığı kimsəni azğınlıqdan hidayətə aparacaq nə bir yol, nə də bir xilaskar tapılmaz.

[1] Abdullah ibn Ubey ibn Səlul və onun kimilərini oradan uzaqlaşdırır.
[2] "əl-Musnəd" (5/184 Hələbi çapı); ət-Tabəri (10049, 10051). (Əhməd Şakir). Əhməd, 21677, 21968; əl-Buxari, 3744, 4050. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 3583.
[3] əl-Beyhəqi "Sunənul-Kubra" 17640.

Uca Allah buyurur: "**Onlar özləri küfr etdikləri kimi, sizin də küfr edib onlarla eyni olmanızı istəyərlər**", yəni siz onlarla eyni olasınız deyə, sizin azmağınızı istəyərlər. Bu istək onların sizə olan şiddətli düşmənçilik və kinlərindən qaynaqlanır. Bu səbəbdən Uca Allah ayənin ardında buyurur: "**Onlar Allah yolunda hicrət etməyincə, onlardan heç birini özünüzə dost tutmayın. Əgər üz çevirsələr...**", İbn Abbasa رضي الله عنهما görə, yəni "əgər hicrəti tərk etsələr", əs-Suddiyə رحمه الله görə isə "əgər küfrlərini büruzə versələr", "...**onları harada görsəniz, tutub öldürün. Onlardan nə bir dost, nə də bir köməkçi tutun**", yəni bu halda olduqları müddətcə onları özünüzə dost tutmayın və onlardan düşmənlərinizə qarşı özünüzə yardımçı tutmayın.

Sonra Uca Allah onlardan bəzilərini istisna edərək buyurur: "**Ancaq sizinlə aralarında müqavilə olan bir camaata sığınanlar, .... istisnadır**", yəni yalnız sizinlə aralarında sülh müqaviləsi və ya saziş olan bir qövmə sığınanlar müstəsnadır. Onların hökmünü aranızda razılaşma olan camaatın hökmü ilə eyni edin. Bu təfsir əs-Suddi, İbn Zeyd və İbn Cərirə رحمه الله aiddir.

İbn Əbu Hatim رحمه الله Əli ibn Zeyd ibn Cədandan, o da əl-Həsəndən rəvayət etmişdir ki, Suraqa ibn Malik əl-Mudləci رضي الله عنه demişdir: "Peyğəmbər ﷺ Bədr və Uhud döyüşlərində qalib gəldikdə və bu ətrafda olanlar İslamı qəbul etdikdə Peyğəmbərin ﷺ mənim qövmüm olan Mudləc qəbiləsinin üzərinə Xalid ibn əl-Validi göndərmək istədiyini eşitdim. Mən Peyğəmbərin ﷺ yanına gedərək "Sənə Allahın nemətini xatırladaraq müraciət edirəm" dedim. Ətrafda olanlar mənə "Sus!" dedilər. Peyğəmbər ﷺ "Buraxın onu! Nə istəyirsən?" deyə soruşdu. Mən "Qövmümün üzərinə əsgər göndərmək istədiyini eşitdim. Mən onlarla saziş bağlamağını istəyirəm. Əgər sənin qövmün (Qureyş) İslamı qəbul etsə, onlar da İslama girərlər. Əgər sənin qövmün İslamı qəbul etməsə, qoy qövmünün ürəyi onlara qarşı sərt olmasın deyə mənim qövmüm də İslamı qəbul etməsin". Peyğəmbər ﷺ Xalid ibn əl-Validin əlindən tutaraq "Onunla get və istədiyini et!" buyurdu. Xalid onlarla (Suraqanın qəbiləsi ilə) Peyğəmbərə ﷺ qarşı başqalarına kömək etməmələri və Qureyş İslamı qəbul etsə, onlarla birlikdə İslamı qəbul etmələri şərtilə sülh müqaviləsi bağladı. Uca Allah da "**Onlar özləri küfr etdikləri kimi, sizin də küfr edib onlarla eyni olmanızı istəyərlər. Onlar Allah yolunda hicrət etməyincə, onlardan heç birini özünüzə dost tutmayın**" ayəsini nazil etdi".[1] Bu hədisi İbn Mərdəveyh رحمه الله rəvayət etmişdir. Onun rəvayətinə görə, "Uca Allah

[1] İbn Əbu Hatim, 5750. Ali Nasr və əl-Hilali hədisin zəif olduğunu demişlər.

"**Ancaq sizinlə aralarında müqavilə olan bir camaata sığınanlar, yaxud sizinlə və ya öz camaatı ilə vuruşmaqdan köksləri sıxıldığı üçün sizin yanınıza gələn kimsələr istisnadır**" ayəsini nazil etdi və onlara sığınanlar onlarla birlikdə bu razılaşmaya daxil olurdu".[1] Bu, hədisin məzmununa daha uyğundur. əl-Buxarinin "Səhih" əsərində Hudeybiyyə sülhünün bağlanması barədə gələn hədisdə belə deyilir: "Bu müqavilədən sonra istəyən Qureyş ilə bağlanan əhdə və sazişə qoşulur, istəyən isə Muhamməd ﷺ və səhabələri ilə bağlanan əhdə və sazişə qoşulurdu".

Uca Allah buyurur: "**yaxud sizinlə və ya öz camaatı ilə vuruşmaqdan köksləri sıxılaraq döyüşə qatılan kimsələr istisnadır**". Bunlar daha əvvəl zikr edilən və Uca Allahın onlara qarşı döyüşməyi əmr etdiyi insanlardan istisna edilən başqa bir qrupdur. Bunlar, köksləri sıxılaraq döyüşə gələn kəslərdir. Yəni onlar sizə qarşı vuruşmaq istəmirlər, eyni zamanda sizinlə birlikdə qövmlərinə qarşı vuruşmaq da onlara asan deyil. Onlar nə sizin lehinizə, nə də əleyhinizə vuruşmaq istəməyən kəslərdir. "**Əgər Allah istəsəydi, onları sizə qarşı qaldırardı və onlar da sizinlə vuruşardılar**", yəni onların sizə qarşı vuruşmamaları Allahın sizə olan lütfüdür. "**Əgər onlar sizdən aralanıb geri çəkilsələr, sizinlə vuruşmasalar və sizə sülh təklif etsələr, Allah sizə onlara qarşı vuruşmanıza yol verməz**", yəni onlar bu halda olduqları müddətcə sizin onlarla döyüşməyə haqqınız yoxdur. Bu qrup insanlar Bədr döyüşü günü müşriklərlə birlikdə Bənu Haşim qəbiləsi ilə gələn və istəməyə-istəməyə döyüşdə iştirak edən Abbas və onun kimilərdir. Bu səbəbdən Peyğəmbər ﷺ Abbasın ؓ öldürülməsini qadağan etdi və əsir alınmasını əmr etdi.

Uca Allah buyurur: "**Siz bir başqalarına da rast gələcəksiniz ki, onlar həm sizdən, həm də öz camaatından arxayın olmaq istəyərlər. Onlar hər dəfə fitnəyə qaytarıldıqda bütünlüklə ona dalarlar**". Bu qrup insanlar zahiri görünüş etibarilə əvvəl keçənlər kimidirlər, lakin bunların niyyətləri əvvəlkilərdən fərqlidir. Çünki bunlar münafiqlərdir. Onlar canlarının, mallarının və zürriyyətlərinin təhlükəsizliyini təmin etmək üçün özlərini Peyğəmbərə ﷺ və onun səhabələrinə müsəlman kimi göstərirdilər. Bununla yanaşı, onlar gizlincə kafirlərin rəğbətini qazanmağa çalışır və onların yanında təhlükəsizlikdə olmaq üçün onların ibadət etdikləri bütlərə ibadət

[1] əs-Suyuti (2/191) hədisi həmçinin, İbn Əbu Şeybəyə və Əbu Nueymin "əd-Dəlail" əsərinə nisbət etmişdir. İbn Əbu Hatimin isnadı əl-Həsənə kimi səhihdir. Lakin əl-Həsənin Suraqa ibn Malikdən ؓ hədis eşitməsində ixtilaf var. (Əhməd Şakir).

edirdilər. Onlar qəlbən kafirlərlə birlikdə idilər. Necə ki Uca Allah başqa bir ayədə buyurur: "**Onlar möminlərlə rastlaşdıqda "Biz iman gətirdik!" deyirlər, öz şeytanları** (azmış dostları) **ilə təklikdə qaldıqda isə "Biz sizinləyik. Biz möminlərə ancaq istehza edirik!" deyirlər**" ("əl-Bəqərə", 14). Bu ayədə isə buyurur: "**Onlar hər dəfə fitnəyə qaytarıldıqda bütünlüklə ona dalarlar**", yəni bütünlüklə ona qapılarlar. əs-Suddi ﷀ demişdir: "Burada fitnə şirkdir". İbn Cərir ﷀ Mucahiddən nəql etmişdir ki, bu ayə Məkkə əhlindən bir qrup insan barədə nazil olmuşdur. Onlar Peyğəmbərin ﷺ yanına gəlib riyakarlıq məqsədilə İslamı qəbul edərdilər. Qureyşlilərin yanına qayıtdıqda isə bütlərin qarşısında baş əyərdilər. Belə etməklə onlar həm burada, həm orada təhlükəsizlik içində olmaq istəyirdilər. Uca Allah da möminlərə əmr etdi ki, onlar möminlərin cərgələrini tərk edib (digər müşriklər kimi) möminlərlə sülh müqaviləsi bağlamayana qədər onlarla döyüşsünlər. Bu səbəbdən Uca Allah buyurur: "**Əgər onlar sizdən aralanıb geri çəkilməsələr, sizə sülh təklif etməsələr və sizdən əl çəkməsələr**", yəni sizinlə döyüşdən əl çəkməsələr, **"onlara harada rast gəlsəniz**", yəni onlarla harada qarşılaşsanız, "**tutub öldürün. Biz onlara qarşı çıxmaq üçün sizə açıq-aydın dəlil verdik**".

﴿ وَمَا كَانَ لِمُؤْمِنٍ أَن يَقْتُلَ مُؤْمِنًا إِلَّا خَطَـًٔا ۚ وَمَن قَتَلَ مُؤْمِنًا خَطَـًٔا فَتَحْرِيرُ رَقَبَةٍ مُّؤْمِنَةٍ
وَدِيَةٌ مُّسَلَّمَةٌ إِلَىٰٓ أَهْلِهِۦٓ إِلَّآ أَن يَصَّدَّقُوا۟ ۚ فَإِن كَانَ مِن قَوْمٍ عَدُوٍّ لَّكُمْ وَهُوَ مُؤْمِنٌ
فَتَحْرِيرُ رَقَبَةٍ مُّؤْمِنَةٍ ۖ وَإِن كَانَ مِن قَوْمٍۭ بَيْنَكُمْ وَبَيْنَهُم مِّيثَـٰقٌ فَدِيَةٌ مُّسَلَّمَةٌ إِلَىٰٓ أَهْلِهِۦ
وَتَحْرِيرُ رَقَبَةٍ مُّؤْمِنَةٍ ۖ فَمَن لَّمْ يَجِدْ فَصِيَامُ شَهْرَيْنِ مُتَتَابِعَيْنِ تَوْبَةً مِّنَ ٱللَّهِ ۗ وَكَانَ
ٱللَّهُ عَلِيمًا حَكِيمًا ﴿٩٢﴾ وَمَن يَقْتُلْ مُؤْمِنًا مُّتَعَمِّدًا فَجَزَآؤُهُۥ جَهَنَّمُ خَـٰلِدًا فِيهَا
وَغَضِبَ ٱللَّهُ عَلَيْهِ وَلَعَنَهُۥ وَأَعَدَّ لَهُۥ عَذَابًا عَظِيمًا ﴿٩٣﴾ ﴾

**92. Heç bir möminin başqa bir mömini öldürməyə haqqı yoxdur. Bunun səhvən baş verməsi isə müstəsnadır. Kim səhvən bir mömini öldürərsə, onda mömin bir kölə azad etməli və ölənin ailəsinə qanbahası verməlidir. Ölənin ailəsinin qanbahasını bağışlaması isə müstəsnadır. Əgər ölən adam mömin olduğu halda, sizə düşmən olan bir qövmdəndirsə, onda qatil mömin bir kölə azad etməlidir. Əgər ölən adam sizinlə aralarında müqavilə olan bir qövmdəndirsə, onda qatil onun ailəsinə qanbahası verməli**

**və mömin bir kölə azad etməlidir. Bunu etməyə imkanı olma yan kəs Allah tərəfindən tövbəsinin qəbul olması üçün iki ay ardıcıl oruc tutmalıdır. Allah hər şeyi biləndir, hikmət sahibidir.**

**93. Kim bir mömini qəsdən öldürərsə, onun cəzası içərisində əbədi qalacağı Cəhənnəm olar. Allah ona qəzəblənər, onu lənətləyər və onun üçün böyük bir əzab hazırlayar.**

Uca Allah bu ayələrdə bir möminin başqa bir mömin qardaşını heç bir halda öldürməyə haqqı olmadığını xəbər verir. Necə ki əl-Buxari və Muslimin "Səhih" əsərlərində İbn Məsuddan ﵁ rəvayət edilir ki, Peyğəmbər ﷺ demişdir: "Allahdan başqa ibadətə layiq haqq məbudun olmadığına və mənim Allahın elçisi olmağıma şəhadət gətirən müsəlmanın qanı yalnız bu üç halda halaldır: cana-can müqabilində qisas alınarsa, zinakar evli kişi və ya qadın daşqalaq edilərsə və dinindən dönüb camaatdan uzaqlaşan mürtəd edam olunarsa".[1] Həmçinin hədisdə qeyd olunan bu üç haldan biri baş verərsə, bunu icra etməyə adi insanlardan heç kimin hüququ çatmır. Bu hüquqa ancaq dövlət başçısı və ya onun təyin etdiyi məsul şəxs (aidiyyəti üzrə dövlət orqanı) sahibdir.

Uca Allahın "**Bunun səhvən baş verməsi isə müstəsnadır**" cümləsi istisna cümləsidir. Alimlər bu ayənin nazilolma səbəbində ixtilaf etmişlər. Mucahid və bir çoxları demişlər: "Bu ayə Əbu Cəhlin anabir qardaşı Ayyəş ibn Əbu Rabiə barədə nazil olmuşdur. Anaları Əsmə bint Muxarrabədir. Ayyəş müsəlman olduğuna görə qardaşı Əbu Cəhl ilə əl-Həris ibn Yəzid əl-Amiri adlı bir kişi ona işgəncə verərdilər. Bu səbəbdən Ayyəş əl-Həris ibn Yəzidi öldürmüşdü. Çünki ona verdiyi işgəncələrdən dolayı Ayyəş əl-Hərisə kin bəsləyirdi. Lakin əl-Həris sonradan müsəlman olmuş və hicrət etmişdi. Ayyəşin isə bundan xəbəri yox idi. Məkkənin fəthi günü Ayyəş onu gördükdə hələ köhnə dinində (müşrik) olduğunu sanaraq ona hücum etdi və onu öldürdü. Uca Allah da bu ayəni nazil etdi".[2]

Uca Allah buyurur: "**Kim səhvən bir mömini öldürərsə, onda mömin bir kölə azad etməli və ölənin ailəsinə qanbahası verməlidir**". Səhvən bir mömini öldürənə bu iki şeyi etmək vacibdir. Birinci əməl: səhvən olsa belə, etdiyi böyük günaha görə kəffarə verməsidir. Bu kəffarənin şərti isə mömin bir köləni azad etməkdir. Kafir bir kölə azad etmək sayılmır. İbn Cərir ﵀ nəql etmişdir ki, İbn Abbas, əş-Şabi,

[1] əl-Buxari, 6370, 6878; Muslim, 3175, 4468.

[2] ət-Tabəri, 9/33.

İbrahim ən-Nəxai və əl-Həsən əl-Bəsri ﷺ demişlər: "Yaşı az olan kölə iman gətirməyi niyyət etməyənə qədər azad edilməsi sayılmır". İbn Cəririn ﷺ seçdiyi rəyə görə isə əgər azyaşlı kölə dünyaya gələrkən valideynləri müsəlman olmuşlarsa, bu köləni kəffarə olaraq azad etmək olar, əks halda isə olmaz. Əksər alimlərin rəyinə görə isə kiçik və ya böyük olmasından asılı olmayaraq hər hansı bir müsəlman kölənin azad edilməsi kəffarə üçün yetərlidir.

İmam Əhməd ﷺ rəvayət etmişdir ki, bir dəfə ənsarlardan olan bir kişi zənci bir qadın köləni Peyğəmbərin ﷺ yanına gətirərək dedi: "Ey Allahın Elçisi, mənim üzərimdə bir mömin köləni azad etmək kəffarəsi var. Əgər bu kölənin mömin olduğunu sanırsansa, onu azad edim". Peyğəmbər ﷺ kölədən "Allahdan başqa ibadətə layiq haqq məbudun olmadığına şahidlik edirsənmi?" deyə soruşdu. Qadın "Bəli" dedi. Peyğəmbər ﷺ "Mənim Allahın elçisi olduğuma şahidlik edirsənmi?" deyə soruşdu. Qadın "Bəli" deyə cavab verdi. Peyğəmbər ﷺ "Öldükdən sonra diriləcəyinə inanırsanmı?" deyə soruşdu. Qadın yenə "Bəli" dedi. Peyğəmbər ﷺ "Onu azad et!" buyurdu". Bu hədisin isnadı səhihdir. Səhabənin məlum olmaması hədisin mötəbərliyinə təsir etmir.[1]

İmam Malikin "Muvatta", əş-Şafii və Əhmədin "əl-Musnəd", Muslimin "Səhih", Əbu Davud və ən-Nəsəinin isə "Sunən" əsərlərində Muaviyə ibn əl-Həkəmdən ﷺ rəvayət olunan bir hədisdə o bu zənci köləni gətirdikdə Peyğəmbər ﷺ ondan "Allah haradadır?" deyə soruşdu. Kölə "Göydə" deyə cavab vedi. Peyğəmbər ﷺ "Mən kiməm?" soruşduqda qadın "Sən Allahın elçisisən" deyə cavab verdi. Peyğəmbər ﷺ kişiyə "Onu azad et, o, həqiqətən, mömindir" buyurdu".[2]

---

[1] "əl-Musnəd" (15808); İbn Xuzeymə "ət-Tövhid" kitabı (səh. 82). Hədis səhih və isnadı bitişikdir. Hədisi əl-Heysəmi "əz-Zəvaid" əsərində qeyd etmiş və demişdir: "Əhməd rəvayət etmişdir, hədisin raviləri "Səhih" əsərində istinad edilən ravilərdir". Həmçinin Malik "əl-Muvatta" əsərində (səh. 777) mursəl olaraq rəvayət etmişdir, lakin Əhməd və İbn Xuzeymənin ﷺ rəvayətləri bitişikdir. Mənaca yaxın olan hədis, "əl-Musnəd" əsərində (7893) Əbu Hureyradan ﷺ rəvayət edilir. Hədisin isnadı səhihdir. (Əhməd Şakir). Əhməd, 15781, 15835. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 3161.

[2] Bu, Muslimin "Səhih" əsərində (1/151) rəvayət olunan uzun hədisin bir hissəsidir. əl-Hafiz İbn Kəsir ﷺ burada ənsarlardan olan bir kişidən rəvayət olunan əvvəlki hədisin Muaviyə ibn əl-Həkəmin ﷺ hədisi ilə eyni olduğunu bildirərək demişdir: "Muaviyə ibn əl-Həkəmdən ﷺ rəvayət olunan hədisdə o, bu zənci köləni gətirdikdə, …". Əslində isə bu səhvdir, çünki Muaviyə ibn əl-Həkəm əs-Suləmi ﷺ Suleym qəbiləsindən idi. Suleym qəbiləsi isə yəqinliklə ənsarlardan sayılmır. Görünür, burada səhlənkarlığa yol verilmişdir. Doğru olan budur ki, hadisə iki dəfə baş vermişdir. (Əhməd Şakir). Muslim, 836, 1227.

Uca Allah buyurur: "...**ölənin ailəsinə qanbahası verməlidir**". Qanbahası qatil ilə ölənin ailəsi arasında baş tutan ikinci vacib əməldir. Bu, ölənin ailə üzvlərinə yaxınlarını itirdiklərinə görə verilən bir qarşılıqdır. Qanbahası beş hissəyə bölünərək hissə-hissə ödənilməlidir. Necə ki İmam Əhməd və "Sunən" əsərlərinin sahibləri İbn Məsuddan ﷺ rəvayət etmişlər ki, Peyğəmbər ﷺ səhvən baş vermiş ölümə görə qanbahasını iyirmi ədəd iki yaşına girmiş dişi dəvə, iyirmi ədəd iki yaşına girmiş erkək dəvə, iyirmi ədəd üç yaşına girmiş dişi dəvə, iyirmi ədəd dörd yaşını tamamlamış erkək dəvə və iyirmi ədəd dörd yaşına girmiş dişi dəvə müəyyən etmişdir. Hədisin mətni ən-Nəsəiyə ﷺ aiddir. ət-Tirmizi ﷺ demişdir: "Hədis Peyğəmbərə ﷺ yalnız bu şəkildə nisbət olunmuşdur. Həmçinin Abdullahın öz sözü olaraq da rəvayət edilmişdir".[1] Qanbahasının dörd yerə bölünərək verilməsinin vacib olduğu da deyilmişdir.

Qanbahasını ödəmək yalnız qatilin öz üzərinə deyil, ata tərəfindən olan qohumlarının üzərinə də vacib olur. əş-Şafii ﷺ demişdir: "Peyğəmbərin ﷺ qanbahasını qatilin ata tərəfindən olan qohumlarının üzərinə vacib etməsində alimlər arasında fikir ayrılığının olduğunu bilmirəm".[2] İmam əş-Şafiinin ﷺ işarə etdiyi bu xüsus bir çox hədislərdə gəlmişdir. Bu hədislərdən birini əl-Buxari və Muslim "Səhih" əsərlərində Əbu Hureyradan ﷺ rəvayət etmişlər. Hədisdə Əbu Hureyra ﷺ demişdir: "Huzeyl qəbiləsindən olan iki qadın bir-biri ilə dalaşmışdı. Onlardan biri hamilə olan digər qadını daşla vurmuş və onu bətnindəki uşaqla birlikdə öldürmüşdü. Qadının qohumları mühakimə olunmaq üçün Peyğəmbərə ﷺ müraciət etdilər. Peyğəmbər ﷺ ölmüş uşağa görə qanbahası olaraq qarşı tərəfə bir kölə və ya bir kəniz verilməsini, ölən qadına görə qanbahasının verilməsini isə qatilin ata tərəfdən olan qohumlarının üzərinə vacib olmasını hökm verdi".[3] Bu hədisə əsasən qanbahasının vacib olması məsələsində qəsdə oxşar qətl ilə[4] səhvən baş verən qətlin hökmü eynidir. Lakin bu növ (qəsdə oxşar) qətldə qanbahası qəsdən öldürmədə olduğu kimi üç

[1] "əl-Musnəd" (3635, 4303); ən-Nəsəi (2/248); ət-Tirmizi (2/302-303). (Əhməd Şakir). Əhməd, 4303; İbn Məcə, 2631. Şueyb əl-Arnavut isnadının zəif olduğunu bildirmişdir.

[2] əş-Şafii "əl-Umm" 6/115, 6/124; əl-Beyhəqi "Məarifətus-Sunən val-Əsər" 4943, 16270.

[3] əl-Buxari, 6399, 6910.

[4] Qətl üç növdür: qəsdən, qəsdə oxşar və səhvən. Qəsdən öldürmək həddi-büluğa çatmış insanın, qanı halal olmayan başqa bir insanı, öldürücü olduğu daha çox ehtimal edilən alətlə qəsdən qətlə yetirməsidir. Qəsdə oxşar qətl, adətən, öldürücü olmayan bir alət ilə (kiçik daş, taxta parçası və ya yumruqla) vurub başqasını qətlə yetirməkdir. Səhvən öldürmək həddi büluğa çatmış insanın mübah sayılan bir işlə məşğul olduğu halda (məsələn, ov ovlayarkən, maşın idarə edərkən və s. hallarda) başqasını qətlə yetirməsidir.

hissəyə bölünərək ölənin ailəsinə verilir. əl-Buxarinin "Səhih" əsərində Abdullah ibn Ömərdən ﵄ rəvayət edilir ki, Peyğəmbər ﷺ Xalid ibn Vəlidi Bənu Cəzimə qəbiləsinin üstünə göndərib onları İslama dəvət etdi. Onlar "Müsəlman olduq!" deməyi bacarmadılar, (əvəzində) "Döndük, döndük![1]" dedilər. Onda Xalid ﵁ onların (bir çoxunu) öldürdü. Bu xəbər Peyğəmbərə ﷺ çatdıqda o, əllərini göyə qaldırıb "Allahım, həqiqətən də, mən Xalidin etdiyi əməldən uzağam!" dedi. Sonra Peyğəmbər ﷺ Əlini göndərərək ölənlərə görə qanbahası, tələf olmuş mallara (hətta itə yemək verilən qablara) görə isə fidyə verməyi əmr etdi".[2] Bu hədis dəlalət edir ki, dövlət başçısının və ya onun vəkilinin etdiyi səhvlər beytul-maldan (dövlət xəzinəsindən) ödənilir.

Uca Allah buyurur: "**Ölənin ailəsinin qanbahasını bağışlaması isə müstəsnadır**", yəni qanbahasını ölənin ailəsinə vermək vacibdir. Lakin əgər ölənin ailəsi bunu bağışlayarsa, qanbahasını vermək vacib deyil.

Uca Allah buyurur: "**Əgər ölən adam mömin olduğu halda, sizə düşmən olan bir qövmdəndirsə, onda qatil mömin bir kölə azad etməlidir**", yəni ölən mömin olarsa, lakin ailəsi düşmən kafirlərdən olarsa, onlara qanbahası verilmir. Bu halda qatilin üzərinə yalnız mömin bir köləni azad etməkdən başqa heç nə düşmür.

Uca Allah buyurur: "**Əgər ölən adam sizinlə aralarında müqavilə olan bir qövmdəndirsə, onda qatil onun ailəsinə qanbahası verməli və mömin bir kölə azad etməlidir**", yəni əgər ölənin ailəsi zimmi və ya möminlərlə aralarında razılaşma olan kafirlərdən olarsa, bu halda ölənin ailəsinin ölən üçün qanbahası almağa haqqı çatır. Əgər ölən mömin olarsa, qanbahası tam olaraq verilməlidir. Bəzi alimlərin rəyinə görə, ölən kafir olsa da, hökm eynidir. Bəzi alimlərə görə isə ölən kafir olduğu halda, müsəlmana ödənilən qanbahasının yarısı, bəzilərinə görə isə üçdə biri verilməlidir. Həmçinin belə vəziyyətdə qatilə mömin bir kölə azad etmək də vacibdir.

---

[1] Bunu deməklə onlar müsəlman olduqlarını bildirmişdilər. Belə ki, o vaxt müşriklər dədə-babalarının dinindən dönüb Peyğəmbərə ﷺ qoşulanlara "sabii" (dininə dönük çıxmış adam) deyirdilər. Bu hədisdə də İslam dinini qəbul etmək istəyən müşriklər öz terminlərinə uyğun olaraq "Sabə'nə, sabə'nə", yəni "Dinimizi tərk edib müsəlman olduq" dedilər.

[2] İbn Ömərdən ﵄ rəvayət olunan hədisi əl-Buxari iki yerdə (8/45-46, 13/158 Fəthul-Bari), Əhməd (6382), ən-Nəsəi (2/308) gətirmişlər, lakin "Sonra Peyğəmbər ﷺ Əlini göndərərək..." hissəsi İbn Ömərdən ﵄ gələn rəvayətlərin heç birində yoxdur. Bu hissə İbn İshaqın "Sira" əsərində məşhur tabiin Əbu Cəfər əl-Baqirdən ﵀ nəql etdiyi rəvayətdədir. İbn Kəsir ﵀ səhvən bu hissəni İbn Ömərin ﵄ hədisinə əlavə etmişdir. (Əhməd Şakir). əl-Buxari, 3994, 4339, 6652, 7189.

Uca Allah buyurur: "**Bunu etməyə imkanı olmayan kəs Allah tərəfindən tövbəsinin qəbul olması üçün iki ay ardıcıl oruc tutmalıdır**", yəni (kölə azad etməyə imkanı olmayan kəs) fasilə vermədən iki ay ardıcıl oruc tutmalıdır. Əgər xəstəlik, heyz və ya nifas kimi üzrlü səbəb olmadan orucunu açarsa, yenidən başlamalıdır. Üzərində iki ay ardıcıl oruc tutmaq kəffarəsi olan insanın səfərdə olarkən orucunu açıb-açmayacağı barədə iki rəy var.[1]

Uca Allah buyurur: "**Allah tərəfindən tövbəsinin qəbul olması üçün iki ay ardıcıl oruc tutmalıdır**. **Allah hər şeyi biləndir, hikmət sahibidir**", yəni bu, səhvən mömini öldürənin tövbəsidir. Azad etmək üçün kölə tapa bilməsə, iki ay ardıcıl oruc tutmalıdır. Alimlər oruc tutmağa gücü çatmayan kəs barədə ixtilaf etmişlər. Bu şəxs zihar kəffarəsində[2] olduğu kimi, altmış yoxsulu yedirtməlidirmi? Bu məsələdə iki rəy var və bu rəylərdən birinə görə, zihar kəffarəsində olduğu kimi, altmış yoxsulu yedirtməlidir, lakin burada bu, açıq bildirilməmişdir. Çünki bu məqam təhdidetmə və qorxutma məqamıdır. Altmış yoxsulu yedirtmək isə bir növ asanlıq və rüsxət olduğu üçün burada qeyd edilməsi münasib deyil. İkinci rəyə görə isə oruc tutmağa gücü çatmayan altmış kasıbı yedirtmir, çünki əgər bu, vacib olsaydı, ayədə bəyan edilərdi.

Uca Allah səhvən baş verən qətlin hökmünü bəyan etdikdən sonra qəsdən baş verən qətlin hökmünü bəyan edərək "**Kim bir mömini qəsdən öldürərsə, onun cəzası içərisində əbədi qalacağı Cəhənnəm olar. Allah ona qəzəblənər, onu lənətləyər və onun üçün böyük bir əzab hazırlayar**" buyurur. Bu böyük günahı edən üçün bu ayə şiddətli təhdid və qüvvətli qorxutmadır. Allahın Kitabında bir çox ayələrdə bu günah Allaha şərik qoşmaq ilə birlikdə zikr edilmişdir. Uca

[1] Bu məsələdə üstün rəy üzərində iki ay kəffarə orucu olan şəxs şəriətin orucu pozmaq üçün üzr saydığı hallarda orucunu açdıqda, yenidən başlamamasıdır. Üzr aradan qalxdıqdan sonra orucunu davam edir. Səfərdə orucu açmaq da şəriət tərəfindən icazəli sayılan hallardan biridir, lakin bir şərtlə ki, orucu açmaq məqsədilə səfər etmiş olmasın.

[2] Zihar – bir kişinin arvadına "sən mənim üçün anam kimisən" sözlərini deməklə onu özünə haram etməsidir. Cahiliyyət dövründə bu sözü deyənə arvadı artıq haram sayılırdı. Uca Allah Quranda bu əməli qadağan etmiş və belə edənlərin zövcələri ilə yaxınlıq edə bilməsi üçün kəffarə müəyyən etmişdir. Uca Allah buyurur: "**Qadınlarını anaya bənzədib onları özlərinə haram edən, sonra sözlərini geri götürənlər onlarla yaxınlıq etməzdən əvvəl bir kölə azad etməlidirlər. Bu sizə verilən öyüd-nəsihətdir. Allah nə etdiklərinizdən xəbərdardır. Buna imkan tapa bilməyən kəs qadını ilə yaxınlıq etməzdən əvvəl iki ay ardıcıl oruc tutmalıdır. Buna gücü çatmayan kimsə altmış yoxsulu yedirtməlidir. Bu sizin Allaha və Onun Elçisinə iman gətirməniz üçündür. Bunlar Allahın qoyduğu hüdudlardır. Kafirləri isə ağrılı-acılı bir əzab gözləyir**" ("əl-Mucadilə", 3-4).

Allah "əl-Furqan" surəsində buyurur: "**Onlar Allahla yanaşı, başqa məbuda yalvarmaz, Allahın haram etdiyi cana haqsız yerə qıymaz və zina etməzlər. Bunu edən kimsə cəzalandırılar**" ("əl-Furqan", 68). Başqa bir ayədə isə buyurur: "**De: "Gəlin, Rəbbinizin sizə nələri haram etdiyini oxuyum. Ona heç nəyi şərik qoşmayın, valideynlərə yaxşılıq edin və yoxsulluq üzündən uşaqlarınızı öldürməyin. Sizin də, onların da ruzisini Biz veririk. Murdar əməllərin aşkarına da, gizlisinə də yaxınlaşmayın. Şəriətin icazə verdiyi hallar (cana-can, evli zinakar kimi) istisna olmaqla, Allahın öldürülməsini haram buyurduğu şəxsi haqsız yerə öldürməyin. Allah bunları sizə tövsiyə etmişdir ki, bəlkə, anlayasınız**" ("əl-Ənam", 151).

İnsan öldürməyin haram olmasına dair hədislər olduqca çoxdur. Bunlardan biri əl-Buxari və Muslimin "Səhih" əsərlərində İbn Məsuddan ﵁ rəvayət edilən bu hədisdir: "Peyğəmbər ﷺ demişdir: "Qiyamət günü insanlar arasında ilk olaraq qan davalarına görə hökm veriləcək".[1]

Əbu Davudun ﵀ Ubədə ibn Samitdən ﵁ rəvayət etdiyi bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Mömin haram olan bir qanı tökmədiyi müddətdə Allaha itaətdə sürətlə irəliləyən əməlisaleh insan olar. Haram olan qanı tökdükdə isə yorular və geriləyər".[2] Başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Allah qatında dünyanın yox olması bir müsəlmanın öldürülməsindən daha yüngüldür".[3] Bu səbəbdən İbn Abbas ﵄ qəsdən bir mömini öldürənin tövbəsinin qəbul olmadığını deyirdi. əl-Buxari ﵀ rəvayət edir ki, Səid ibn Cubeyr ﵀ demişdir: "Bir dəfə Kufə camaatı bir ayə ("ən-Nisa", 93) barədə ixtilaf etdilər. Mən İbn Abbasın yanına gedərək ondan bu ayə barəsində soruşdum. O dedi: "Bu ayə – "**Kim bir mömini qəsdən öldürərsə, onun cəzası içərisində əbədi qalacağı Cəhənnəm olar**" – Quranda nazil olan son ayədir və bu ayənin hökmünü heç bir şey ləğv etməmişdir". Həmçinin hədisi Muslim, ən-Nəsəi və Əbu Davud ﵀ rəvayət etmişlər.[4]

İbn Cərir ﵀ Səlim ibn Əbul-Cəddən rəvayət etmişdir ki, gözləri tutulduqdan sonra İbn Abbasın ﵄ yanındaydım. Bir kişi onun

[1] əl-Buxari, 6052, 6533; Muslim, 1678.

[2] Əbu Davud (4270) Ummu əd-Dərdədən ﵂ və Ubədə ibn əs-Samitdən ﵁ rəvayət etmişdir. (Əhməd Şakir). Əbu Davud, 4270, 4272. Hədis səhihdir. Bax: Səhih əl-Cami, 7693.

[3] ət-Tirmizi (2/306); ən-Nəsəi (2/163) Abdullah ibn Amrdan ﵁, İbn Məcə (2619) isə əl-Bəra ibn əl-Azibdən ﵁ rəvayət etmişlər. Oxşar hədisi ən-Nəsəi (2/163) Bureydədən ﵁ də rəvayət etmişdir. İsnadı səhihdir. (Əhməd Şakir). ən-Nəsəi "Sunən" 3922, 3987, 4004; ət-Tirmizi, 1395, 1455. Hədis səhihdir. Bax: Səhih ət-Tərğib vət-Tərhib, 2439.

[4] əl-Buxari (8/193-194 Fəthul-Bari). (Əhməd Şakir). əl-Buxari, 4224, 4590; Muslim, 5345, 7726.

yanına gələrək səsləndi: “Ey Abdullah ibn Abbas, bir mömini qəsdən öldürən adam barədə nə deyərsən?” İbn Abbas ona Uca Allahın “**Kim bir mömini qəsdən öldürərsə, onun cəzası içərisində əbədi qalacağı Cəhənnəm olar. Allah ona qəzəblənər, onu lənətləyər və onun üçün böyük bir əzab hazırlayar**” ayəsini oxuyaraq cavab verdi. Kişi dedi: “Əgər tövbə edib, saleh əməllər görərsə, sonra Allahın doğru yolunu tutarsa, onda necə?” İbn Abbas belə dedi: “Anası vayına otursun! Bu tövbənin və hidayətin ona nə faydası? Canım əlində olan Allaha and olsun ki, Peyğəmbərimizin belə dediyini eşitmişəm: “Bir mömini qəsdən öldürənin anası vayına otursun! Öldürülən mömin Qiyamət günü Mərhəmətli Allahın Ərşi qarşısında sağ və ya sol əli ilə qan axan boyun damarlarını, digər əli ilə isə qatilinin yaxasından tutaraq gələcək və belə deyəcək: “Ey Rəbbim, bundan soruş ki, məni niyə öldürdü?” Abdullahın canı əlində olan Allaha and olsun ki, bu ayə nazil olmuş və Peyğəmbərimiz vəfat edənə qədər bu ayənin hökmünü heç bir ayə ləğv etməmişdir. Bu ayədən sonra bu mövzuda başqa bir dəlil nazil olmamışdır”. Həmçinin hədisi İmam Əhməd, ən-Nəsəi və İbn Məcə də rəvayət etmişlər.[1] Bu hədis İbn Abbasdan müxtəlif yollarla rəvayət edilmişdir.

İbn Əbu Hatim nəql etmişdir ki, sələflərdən Zeyd ibn Sabit, Əbu Hureyra, Abdullah ibn Ömər, Əbu Sələmə ibn Abdur-Rahmən, Ubeyd ibn Umeyr, əl-Həsən, Qatədə və əd-Dahhək qəsdən adam öldürənin tövbəsinin qəbul olmaması qənaətində olmuşlar.

Bu mövzuda bir çox hədislər varid olmuşdur. Bu hədislərdən biri də İbn Mərdəveyhin Abdullah ibn Məsuddan rəvayət etdiyi hədisdir. İbn Məsud Peyğəmbərin belə dediyini rəvayət etmişdir: “Öldürülən Qiyamət günü bir əli ilə qatilindən yapışmış, digər əli ilə öz başını tutmuş halda Allahın hüzuruna gələcək və “Ey Rəbbim, bundan soruş ki, məni nə üçün öldürdü?” deyəcək. Uca Allah bunu soruşduqda qatil deyəcək: “Ey Rəbbim, izzət Sənin olsun deyə onu öldürdüm”. Uca Allah buyuracaq: “Həqiqətən, izzət Mənə məxsusdur”. Başqa bir öldürülmüş insan qatilindən yapışaraq Allahın hüzuruna gələcək və ”Ey Rəbbim, bundan soruş ki, məni nə üçün öldürdü?” deyəcək. Uca Allah bunu soruşduqda qatil deyəcək: “İzzət filankəsə məxsus olsun deyə öldürdüm”. Uca Allah “İzzət onun deyil. Öldürülənin günahlarını ona yükləyin!” buyurar və o, yetmiş

[1] ət-Təbəri (10188, 10189, 10191); “əl-Musnəd” 1941, 2142, 2683). Hədisin isnadları səhihdir. (Əhməd Şakir). ət-Təbəri, 10188, 10251; Əhməd, 2683; ən-Nəsəi “Sunən” 4783, 4866. Şueyb əl-Arnavut hədisin səhih olduğunu bildirmişdir.

illik məsafə dərinliyində başıaşağı Cəhənnəmə yuvarlanar". Hədisi ən-Nəsəi ﷺ də rəvayət etmişdir.[1]

İmam Əhməd ﷺ Muaviyədən ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Kafir olaraq ölən və bir mömini qəsdən öldürəndən başqa hər bir günah sahibinin Allah tərəfindən bağışlanacağı ümid edilir".[2] Hədisi ən-Nəsəi ﷺ də rəvayət etmişdir.[3]

İmam Əhməd ﷺ Uqbə ibn Malik əl-Leysinin ﷺ belə dediyini rəvayət etmişdir: "Bir dəfə Peyğəmbər ﷺ döyüşə bir dəstə göndərdi. Bu dəstə bir qövmə hücum edəndə həmin qövmdən bir kişi qaçmağa başladı. Peyğəmbərin ﷺ göndərdiyi dəstədən bir kişi qılıncını sıyırıb onun arxasınca düşdü. Qövmün içindən qaçan kişi "Mən müsəlmanam" dedi, lakin onu təqib edən kişi buna məhəl qoymayaraq onu vurdu və öldürdü. Bu xəbər Peyğəmbərə ﷺ çatdıqda o bu barədə çox ağır sözlər söylədi və Peyğəmbərin ﷺ dedikləri qatilə çatdı. Bir dəfə Peyğəmbər ﷺ moizə deyərkən qatil qalxıb "Allaha and olsun ki, o, yalnız öldürülməkdən xilas olmaq üçün belə deyirdi" dedi. Peyğəmbər ﷺ ondan və onun tərəfində olan insanlardan üz çevirərək moizəyə davam etdi. Qatil bir daha "Ey Allahın Elçisi, yalnız öldürülməkdən xilas olmaq üçün belə deyirdi" dedi. Peyğəmbər ﷺ yenə ondan və onun tərəfindəki insanlardan üzünü çevirərək moizəsinə davam etdi. Kişi səbir edə bilməyərək üçüncü dəfə "Ey Allahın Elçisi, Allaha and olsun ki, o, bunları yalnız öldürülməkdən xilas olmaq üçün deyirdi" dedi. Peyğəmbər ﷺ üzündə narazılıq ifadəsi ilə ona tərəf dönərək üç dəfə "Həqiqətən Allah mömini bilərəkdən öldürəndən üz çevirmişdir" dedi". Hədisi ən-Nəsəi ﷺ də rəvayət etmişdir.[4]

Lakin sələf (keçmiş) və xələf (onlardan sonra gələn) alimlərin əksəriyyətinin rəyinə görə, qatilin özü ilə Rəbbi arasındakı tövbəsi məqbuldur. Əgər qatil tövbə edib günahından dönər və Allahın əmrlərinə boyun əyib yaxşı işlər görərsə, Allah onun pis əməllərini

---

[1] ən-Nəsəi (2/164). İsnadı səhihdir. (Əhməd Şakir). ən-Nəsəi "Sunən" 3932, 3997, 4011; "Sunənul-Kubra" 3460. Hədis səhihdir. Bax: Səhih əl-Cami, 8029; Silsilə əs-Səhihə, 2698.

[2] Əhməd, 16953, 17031; ən-Nəsəi "Sunən" 3919, 3984, 4001. Hədis səhih li-ğeyrihidir. Bax: Səhih ət-Tərğib vət-Tərhib, 2445.

[3] "ən-Nisa" surəsinin 47-48-ci ayələrinin təfsirində keçdi. (Əhməd Şakir).

[4] "əl-Musnəd" (5/288-289 Hələbi nəşri). əl-Heysəmi hədisi "əz-Zəvaid" (1/26-27) əsərində qeyd etmiş və demişdir: "Hədisi ət-Tabərani "əl-Kəbir" əsərində Əhməd və Əbu Yalə ﷺ rəvayət etmişlər. Hədisin bütün raviləri mötəbərdir". İbn Kəsir ﷺ hədisi ən-Nəsəiyə nisbət etməklə "əs-Sunən əl-Kubra" əsərini nəzərdə tutmuşdur, çünki hədis "əs-Sunən əs-Suğra" əsərində yoxdur. (Əhməd Şakir). Əhməd, 22490, 22543, 22857; İbn Hibban, 5972; əl-Hakim, 47. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 689; Səhih əl-Cami, 23.

yaxşı əməllərlə əvəz edər, öldürülənə edilmiş zülmü Özü qarşılayar və ona istədiyini verməklə razı salar.

Uca Allah buyurur: "**Onlar Allahla yanaşı başqa məbuda yalvarmaz, Allahın haram etdiyi cana haqsız yerə qıymaz və zina etməzlər. Bunu edən kimsə cəzalandırılar. Qiyamət günü onun əzabı qat-qat artırılar və onun içində zəlil olub əbədi qalar. Ancaq tövbə edib iman gətirən və saleh əməllər edənlərdən başqa. Allah onların pis əməllərini yaxşı əməllərlə əvəz edər. Allah Bağışlayandır, Rəhmlidir!**" ("əl-Furqan", 68-70). Bu ayənin hökmünü ləğv edib yalnız müşriklərə aid etmək olmaz. Bu ayəni möminlərə aid etmək isə ayənin zahirinə ziddir və dəlilə ehtiyacı var. Ən doğrusunu isə Allah bilir.

Uca Allah başqa bir ayədə buyurur: "**Qullarıma mənim bu sözümü de: "Ey Mənim özlərinə qarşı həddi aşmış qullarım! Allahın rəhmətindən ümidinizi üzməyin. Şübhəsiz ki, Allah bütün günahları bağışlayır. O, həqiqətən, Bağışlayandır, Rəhmlidir!"**" ("əz-Zumər", 53). Bu ayə ümumi olub küfr, şirk, şəkk, nifaq, qətl və s. bu kimi bütün günahları əhatə edir. Kim hər hansı bir günahdan tövbə edərsə, Uca Allah onun tövbəsini qəbul edər.

Başqa bir ayədə isə buyurur: "**Allah Özünə şərik qoşulmasını əsla bağışlamaz, bundan aşağı olan günahları isə istədiyi kimsəyə bağışlayar**" ("ən-Nisa", 48). Bu ayə isə Allaha şərik qoşmaqdan aşağı olan bütün günahları əhatə edir. "ən-Nisa" surəsində bu mənada ayələr Allaha ümidi artırmaq üçün həm bu ayədən əvvəl, həm də sonra zikr edilmişdir. Ən doğrusunu Allah bilir.

əl-Buxari və Muslimin "Səhih" əsərlərində rəvayət edilən, İsrail oğullarına aid bir xəbərə görə bir kişi yüz adamı öldürmüş və sonra bir alimin yanına gəlib "Tövbə etsəm, tövbəm qəbul olarmı?" deyə soruşur. Alim "Sənin tövbənin qəbul olunmasına kim mane ola bilər?" deyə cavab verərək ona Allaha ibadət edilən bir ölkəyə getməsini məsləhət görür. Kişi də oraya doğru yola çıxır. Yolda ölüm onu haqladı və sonda rəhmət mələkləri onun canını aldı (bağışlandı).[1] Əgər İsrail oğullarında qatilin tövbəsi qəbul idisə, o halda bu ümmətdə qatilin tövbəsi qəbul olunmağa daha haqlı və daha çox layiqdir. Çünki Uca Allah İsrail oğullarının üzərinə qoyulmuş yükləri və çətinlikləri bizim ümmətin üzərindən qaldırmış və Peyğəmbərimizi ﷺ hənif (batildən haqqa yönəlib Tək Allaha ibadət etməyi əmr edən) və asan olan bir dinlə göndərmişdir.

---

[1] əl-Buxari, 3211, 3283, 3470; Muslim, 4967-4968, 7184-7185.

Uca Allahın "**Kim bir mömini qəsdən öldürərsə, onun cəzası içərisində əbədi qalacağı Cəhənnəm olar**" ayəsinə gəlincə, Əbu Hureyra ﵁ və bir çox sələflərin dediyinə görə, ayənin mənası "Əgər Allah qatili cəzalandırmış olsaydı, cəzası bu olardı" deməkdir. Bu şərhi İbn Mərdəveyh ﵀ Əbu Hureyradan ﵁ Peyğəmbərin ﷺ sözü olaraq rəvayət etmişdir. Lakin Peyğəmbərə ﷺ nisbət olunması səhih deyil. Bu cümlənin mənası budur ki: "Əgər qatil cəzalandırılacaq olsaydı, cəzası bu olardı". Böyük günah sahiblərinin cəzası barədə gələn təhdidlər də bu mənadadır. Yaxşı və pis əməllərin tərəzidə çəkilərək çoxluq təşkil edənin azı silib apardığını və ya azaltdığını, deyənlərə görə, qatilin bu cəzaya layiq olmasına onun etdiyi yaxşı əməlləri mane ola bilər. (Quran və hədislərdə) təhdid mənasında gələn dəlillər barədə deyiləcək sözlərin ən gözəli də budur. Ən doğrusunu isə Uca Allah bilir.

Qatilin Cəhənnəmə girəcəyini fərz etsək belə, o, orada əbədi qalmayacaq. İstər İbn Abbas ﵄ və onun fikrində olanların dediyi kimi, qatilin tövbəsinin qəbul olmaması səbəbindən Cəhənnəmə düşmüş olsun, istərsə də əksər alimlərin dediyi kimi, onu Cəhənnəmdən qurtaracaq yaxşı əməlləri olmaması səbəbindən düşmüş olsun. Hər iki ehtimala görə qatil orada əbədi qalmayacaq. Ayədəki "əbədi" sözü uzun müddət qalmaq mənasındadır, çünki Peyğəmbərdən ﷺ varid olan bir çox hədislərdə bildirilir ki, qəlbində zərrə qədər imanı olan kəslər mütləq Cəhənnəmdən çıxacaqlar.

Muaviyənin ﵁ "Kafir olaraq ölən və bir mömini qəsdən öldürəndən başqa hər bir günah sahibinin Allah tərəfindən bağışlanacağı ümid edilir" hədisinə gəlincə burada işlənən عَسَى [asə] sözü "ümid olunur" mənasındadır. Qeyd etdiyimiz dəlillərə əsasən, Allahın hədisdə qeyd olunan iki haldan (kafir kimi ölmək və qəsdən bir mömini öldürmək) birini bağışlaması mümkündür. Bu hal qəsdən bir mömini öldürməkdir. Kafir olaraq ölənin isə qətiliklə bağışlanmayacağına dair açıq dəlillər var. Öldürülən adamın Qiyamət günü qatildən haqqını istəməsinə gəlincə, bu, Adəm övladlarının haqqıdır və zalımın tövbə etməsi ilə bu haqq onun üzərindən düşmür. Bu məsələdə öldürülən adamla malı oğurlanmış, malı əlindən zorla alınmış, böhtana məruz qalmış və s. digər insan haqları arasında heç bir fərq yoxdur və bu haqlar zalımın tövbə etməsi ilə onun üzərindən düşmür. Əksinə, tövbənin düzgün olması üçün bu haqlar sahiblərinə mütləq qaytarılmalıdır, qaytarmaq mümkün olmadıqda isə bu

haqlar Qiyamət günü zalımdan tələb olunacaq. Lakin öldürülənin Qiyamət günü öz haqqını tələb etməsi o demək deyil ki, qatil mütləq cəzalandırılacaq. Ola bilsin qatilin yaxşı əməlləri olsun və bu əməllərin savablarından bir qisimini və ya hamısını öldürülənə versin. Sonra Allah lütf olaraq ona mükafat verər və o, Cənnətə girər. Yaxud Allah öldürülən insana öldürüldüyünün əvəzi olaraq Cənnətdə qəsrlər, nemətlər verməklə, Cənnətdə dərəcəsini yüksəltməklə və buna bənzər şeylərlə Öz lütfündən istədiyini ona bağışlasın. Ən yaxşısını Allah bilir.

Həmçinin qəsdən törədilən qətlin dünyada və Axirətdə ayrı-ayrı hökmləri var. Dünyada öldürülənin varisinə qatilin üzərində ixtiyar verilmişdir. Uca Allah bu xüsusda buyurur: "**Kim haqsız yerə öldürülmüşsə, artıq onun varisinə ixtiyar vermişik**" ("əl-İsra", 33). Yəni istəsə, qatili bağışlayar, istəsə, qisas tələb edər, istəsə də, qanbahası alar. Qəsdən törədilən qətldə qanbahası ağırlaşdırılmış olur və üç yerə bölünərək otuz ədəd dörd yaşına girmiş dişi dəvə, otuz ədəd dörd yaşını tamamlamış erkək dəvə və qırx ədəd boğaz (qarnında balası olan) dəvə verilir. Bu mövzu fiqh kitablarında daha ətraflı yer almışdır.

Alimlər qəsdən törədilən qətldə kölə azad etməyin və ya ardıcıl olaraq iki ay oruc tutmağın və yaxud altmış yoxsulu yedirtməyin vacib olub-olmaması məsələsində eynilə səhvən törədilən qətlin kəffarəsində olduğu kimi iki rəy irəli sürmüşlər. əş-Şafii və onun davamçılarından ibarət bir qrup alim kəffarənin vacib olduğunu demişlər. Çünki əgər səhvən törədilən qətldə kəffarə vacibdirsə, qəsdən törədilən qətldə bu, daha çox vacibdir. Buna əsasən, qəsdən yalan and içənə də kəffarənin vacib olduğunu demişlər. Həmçinin üzrsüz səbəbdən tərk edilən namazların qəza edilməsinin vacib olduğunu deməklə bu rəylərini daha da qüvvətləndirmişlər. Üzrlü səbəbdən buraxılan namazların qəza edilməsinin vacib olmasında isə alimlər arasında yekdil rəy var. İmam Əhmədin davamçıları və digər alimlər isə demişlər: "Qəsdən adam öldürmək kəffarəsi olan günahlardan daha böyükdür və buna görə kəffarə yoxdur. Həmçinin qəsdən yalan and içmək də belədir. Bu iki məsələ ilə üzrsüz səbəbdən tərk edilən namazların qəzasının qılınması məsələsini ayırmaq düzgün deyil. Onlar qəsdən tərk edilmiş olsa belə, namazların qəzasının qılınmasının vacib olduğunu deyirlər.

Qəsdən törədilən qətldə kəffarənin vacib olduğunu deyənlər, İmam Əhmədin ؒ Vasilə ibn əl-Əsqadan ؓ rəvayət etdiyi bu hədisə əsaslanmışlar. Vasilə ibn əl-Əsqa ؓ demişdir: “Suleym qəbiləsindən bir neçə nəfər Peyğəmbərin ﷺ yanına gələrək dedilər: “Bizim bir yoldaşımız (qətl törətməklə) Cəhənnəmə girməyi vacib edən bir əməl etmişdir”. Peyğəmbər ﷺ onlara dedi: “Bir kölə azad etsin. Uca Allah azad etdiyi kölənin hər bir əzasının qarşılığında onun bir əzasını Cəhənnəmdən qurtarar”. Hədisi Əbu Davud və ən-Nəsəi ؒ də rəvayət etmişlər.[1]

﴿ يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوٓاْ إِذَا ضَرَبۡتُمۡ فِي سَبِيلِ ٱللَّهِ فَتَبَيَّنُواْ وَلَا تَقُولُواْ لِمَنۡ أَلۡقَىٰٓ إِلَيۡكُمُ ٱلسَّلَٰمَ لَسۡتَ مُؤۡمِنٗا تَبۡتَغُونَ عَرَضَ ٱلۡحَيَوٰةِ ٱلدُّنۡيَا فَعِندَ ٱللَّهِ مَغَانِمُ كَثِيرَةٞۚ كَذَٰلِكَ كُنتُم مِّن قَبۡلُ فَمَنَّ ٱللَّهُ عَلَيۡكُمۡ فَتَبَيَّنُوٓاْۚ إِنَّ ٱللَّهَ كَانَ بِمَا تَعۡمَلُونَ خَبِيرٗا ٩٤ ﴾

**94. Ey iman gətirənlər! Allah yolunda cihad etmək üçün səfərə çıxdığınız zaman diqqətli olun! Sizə salam verən şəxsə dünya həyatının fani mənfəətinə can ataraq “Sən mömin deyilsən!” deməyin. Allah yanında çox qənimətlər vardır. Əvvəllər siz də belə idiniz, Allah sizə mərhəmət göstərdi. Elə isə kimə qarşı vuruşacağınızı müəyyən edin! Şübhəsiz ki, Allah nə etdiklərinizdən xəbərdardır.**

İmam Əhməd ؒ rəvayət etmişdir ki, İbn Abbas ؓ bu ayənin nazilolma səbəbi barədə demişdir: “Suleym qəbiləsindən olan bir kişi qoyunlarını otararkən Peyğəmbərin ﷺ səhabələrindən ibarət olan bir dəstənin yanından keçdikdə onlara salam verdi. Onlar öz aralarında dedilər: “Bu kişi bizdən qorunmaq üçün bizə salam verdi”. Onlar kişiyə hücum edib onu öldürdülər və qoyunlarını götürüb Peyğəmbərin ﷺ yanına gətirdilər. Uca Allah da bu ayəni nazil etdi: “**Ey iman gətirənlər! Allah yolunda cihad etmək üçün səfərə çıxdığınız zaman diqqətli olun! Sizə salam verən şəxsə dünya həyatının fani mənfəətinə can ataraq: “Sən mömin deyilsən!” deməyin**”.[2] Hədisi ət-Tirmizi ؒ rəvayət etmiş və “həsən” olduğunu bildirmişdir.

[1] əl-Musnəd” (17052, 16077, 16079); Əbu Davud (2964). İsnadı səhihdir. (Əhməd Şakir). Əhməd, 16053, 16108; Əbu Davud, 3966. Hədis zəifdir. Bax: Silsilə əd-Daifə, 907; Mişkətul-Məsabih, 3386.

[2] Əhməd, 2023; əl-Buxari, 4225, 4591; ət-Təbəri, 10287; əl-Bəzzər, 4955. Şueyb əl-Arnavut hədisin həsən li-ğeyrihi olduğunu bildirmişdir.

Həmçinin əl-Hakim ﷫ rəvayət etmiş və demişdir: "İsnadı səhihdir, lakin əl-Buxari və Muslim rəvayət etməmişlər". İbn Cərir ﷫ də eyni hədisi rəvayət etmişdir.[1]

İmam Əhməd ﷫ rəvayət etmişdir ki, Abdullah ibn Əbu Hədrəd ﷛ belə demişdir: "Bir dəfə Peyğəmbər ﷺ bizi İdəmə[2] göndərdi və biz bir dəstə müsəlmanla səfərə çıxdıq. Aramızda Əbu Qatədə əl-Haris ibn Ribi, Muhəllim ibn Cəssəmə ibn Qeys də var idi. İdəm vadisinə çatdıqda Amir ibn əl-Ədbət əl-Əşcəi dəvəsinin üstündə yanımızdan keçdi və bizə salam verdi. Onun əlində bir tuluq süd və başqa şeylər var idi. Biz onu saxladıq və Muhəlləm ibn Cəssəmə əvvəl aralarında baş vermiş narazıçılığa görə onu öldürüb dəvəsini və digər əşyalarını götürdü. Biz Peyğəmbərin ﷺ yanına gəldikdən sonra ona bu barədə xəbər verdik və bizim haqqımızda Uca Allahın bu ayəsi nazil oldu: "**Ey iman gətirənlər! Allah yolunda cihad etmək üçün səfərə çıxdığınız zaman diqqətli olun! Sizə salam verən şəxsə dünya həyatının fani mənfəətinə can ataraq "Sən mömin deyilsən!" deməyin. Allah yanında çox qənimətlər vardır. Əvvəllər siz də belə idiniz, Allah sizə mərhəmət göstərdi. Elə isə kimə qarşı vuruşacağınızı müəyyən edin! Şübhəsiz ki, Allah nə etdiklərinizdən xəbərdardır**". Hədisi bu şəkildə yalnız İmam Əhməd rəvayət etmişdir.[3]

İbn Cərir ﷫ rəvayət etmişdir ki, İbn Ömər ﷠ belə demişdir: "Bir dəfə Peyğəmbər ﷺ Muhəllim ibn Cəssəməni bir dəstəyə başçı təyin edərək döyüşə göndərmişdi. Yolda Amir ibn əl-Ədbət onlarla qarşılaşdı və onları İslam salamı ilə salamladı. Onların (Muhəllim ibn Cəssəmə ilə Amir) arasında cahiliyyə dövründən qalan bir kin var idi. Muhəllim ox ataraq onu öldürdü. Bu xəbər Peyğəmbərə ﷺ çatdı və Uyeynə ilə əl-Əqra bu mövzuda Peyğəmbərlə ﷺ danışdılar. əl-Əqra (Muhəllimi müdafiə edərək) "Ey Allahın Elçisi, bu gün nə hökm etsən, sabah insanlar onu götürəcəklər". (Peyğəmbər ﷺ qatili bağışlayıb, qanbahası almağı təklif etdikdə) Uyeynə dedi: "Xeyr, Allaha and olsun ki, mənim qadınlarımın daddığı ağrını onun qadınları dadmayana qədər sakitləşmərəm". Muhəllim əynində iki bürüncəklə

[1] "əl-Musnəd" (2023, 2462, 2988); ət-Tirmizi (4/90); əl-Hakim (2/235); ət-Təbəri (10217); əl-Buxari (8/194 Fəthul-Bari). əl-Buxarinin rəvayəti müxtəsərdir. Bu rəvayətdə İbn Abbas ﷠ Uca Allahın "**dünya həyatının fani mənfəətinə can ataraq**" sözünü şərh edərək burada əldə etdikləri qənimətin nəzərdə tutulduğunu bildirmişdir. Oxşar rəvayəti Səid ibn Mənsur İbn Abbasın ﷠ sözü olmadan rəvayət etmişdir. (Əhməd Şakir).

[2] Məkkədən 150 km uzaqlıqda yerləşən yer adıdır.

[3] Əhməd, 23888, 24378; əl-Beyhəqi "Sunənul-Kubra" 18047, 18731; İbn Əbu Şeybə "Musannəf" 38168. Şueyb əl-Arnavut həsən olduğunu bildirmişlər.

Peyğəmbərin ﷺ hüzuruna gəldi və Allahdan ona bağışlanma diləməsi üçün qarşısında oturdu. Peyğəmbər ﷺ dedi: “Allah səni bağışlamasın!” Muhəllim gözyaşları bürüncəyinə tökülə-tökülə qalxıb getdi. Yeddi gündən sonra o öldü. Onu aparıb dəfn etdilər, lakin torpaq onu çölə atdı. Bu barədə Peyğəmbərə ﷺ xəbər verdikdə o “Həqiqətən, torpaq sizin yoldaşınızdan daha şər olan insanları qəbul edir, lakin Uca Allah bununla sizə öyüd vermək istəyir” dedi. Sonra onu aparıb bir dağ yamacına atdılar və üzərinə daşlar qoydular. Bu səbəbdən “**Ey iman gətirənlər! Allah yolunda cihad etmək üçün səfərə çıxdığınız zaman diqqətli olun! Sizə salam verən şəxsə, dünya həyatının fani mənfəətinə can ataraq “Sən mömin deyilsən!” deməyin**” ayəsi sonuna qədər nazil oldu”.[1]



[1] ət-Təbəri (10211). əs-Suyuti (2/200) hədisi müxtəsər olaraq qeyd etmiş və yalnız ət-Təbəriyə رحمه الله nisbət etmişdir. Lakin ət-Təbərinin رحمه الله rəvayət etdiyi isnadda zəiflik var, çünki ət-Təbərinin رحمه الله hədisi rəvayət etdiyi Sufyan ibn Vəkinin yaddaşının zəif olduğu, dəqiqliyinin olmadığı deyilmişdir. Lakin Abdullah ibn Əbu Hədradın رضي الله عنه hədisi səhihdir. Bu hədisin səhih olmasına başqa bir hədis şahidlik edir. əl-Heysəmi “əz-Zəvaid” əsərində (28/1) bu hadisəyə oxşar başqa bir hədisi Cundub ibn Buceylədən rəvayət etmişdir. Sufyan رضي الله عنه demişdir: “Bir dəfə mən Peyğəmbərin ﷺ yanında idim. Döyüşə yollanmış dəstədən bir nəfər müjdə gətirərək Allahın onlara zəfər nəsib etməsi ilə düşmən üzərində qələbə çaldıqlarını bildirdi. Sonra müjdə gətirən dedi: “Ey Allahın Elçisi, biz düşmənin üzərinə hücum edərkən Allah onları məğlub etdi və onlar qaçmağa başladılar. Mən qılıncla bir kişini məğlub etdim və o “Mən müsəlmanam, mən müsəlmanam” deyə-deyə qaçmağa başladı. Mən isə buna rəğmən onu öldürdüm. Ey Allahın Elçisi, o, öldürülməkdən qorxduğu üçün belə deyirdi”. Peyğəmbər ﷺ dedi: “Məgər sən onun qəlbini yarıb doğru və ya yalan söylədiyinə baxmışdın?” Kişi dedi: “Qəlbini yarsaydım belə, doğru və ya yalan dediyini bilməzdim. Qəlb bir parça ətdən ibarət deyilmi?” Peyğəmbər ﷺ dedi: “Nə onun qəlbindən keçəni bilmədin, nə də dediyini təsdiqləmədin”. Kişi dedi: “Ey Allahın Elçisi, mənim üçün Allahdan bağışlanma dilə!” Peyğəmbər ﷺ dedi: “Sənin üçün Allahdan bağışlanma diləməyəcəyəm”. Sonra kişi öldü və onu aparıb dəfn etdilər, lakin torpaq onun cəsədini çölə çıxartdı. Beləcə üç dəfə onu basdırdılar və hər dəfə torpaq onun cəsədini qəbul etmədi. Nəhayət, insanlar bunu gördükdə onun başına gələndən xəcalət çəkdilər və kişinin cəsədini bir dərəyə atdılar”. Sonra əl-Heysəmi رحمه الله demişdir: “Hədisi ət-Təbərani “əl-Kəbir” əsərində və Əbu Yəalə rəvayət etmişlər. Hədisin isnadında Abdul-Həmid ibn Bəhram və Şəhr ibn Həuşəb var. Onların mötəbər olub-olmamaları barədə fikir ayrılığı mövcuddur”. Mən (Əhməd Şakir) isə deyirəm: “Hər ikisi mötəbərdir”. Həmçinin əl-Heysəmi رحمه الله demişdir: “Hədis müxtəsər olaraq “Səhih” əsərindədir”. Belə deməklə o, Muslimin “Səhih” əsərində (1/39-40) Cundubdan rəvayət olunan hədisə işarə edir. Cundubun dediyinə görə, bu hadisə Usəmə ibn Zeydin رضي الله عنه başına gəlmişdir. Lakin bu rəvayətlərdə qatilin öldüyü bildirilməmişdir. İbn Ömər və Cundubdan رضي الله عنهما rəvayət olunan, qatilin öldüyü və torpağın onu çölə atdığı qeyd olunan rəvayətin bənzərini İbn Məcə (3930) İmran ibn Husayndan رضي الله عنه iki səhih isnadla rəvayət etmişdir. Bu hədislər bir-birini gücləndirir. Həmçinin əvvəl keçən Uqbə ibn Malikin رضي الله عنه hədisi də bu hədisi gücləndirir. (Əhməd Şakir). ət-Təbəri, 10275 ,10211. Ali Nasr və əl-Hilali hədisin zəif olduğunu bildirmişlər.

əl-Bəzzər ﷺ rəvayət etmişdir ki, İbn Abbas ﷺ belə demişdir: "Bir dəfə Peyğəmbər ﷺ döyüşə bir dəstə göndərdi. Miqdəd ibn əl-Əsvəd də bu dəstədə idi. Onlar düşmən qövmə çatdıqda onların oranı artıq tək edib getdiklərini gördülər. Yalnız yanında çoxlu malı olan bir kişi qalmışdı. Kişi "Allahdan başqa ibadətə layiq haqq ilahın olmadığına şahidlik edirəm" dedi. Buna baxmayaraq, Miqdəd onun üstünə gedib onu öldürdü. Yoldaşlarından biri Miqdədə dedi: "Allahdan başqa haqq ilahın olmadığına şahidlik edən bir adamı öldürdün? Allaha and olsun ki, bunu Peyğəmbərə ﷺ xəbər verəcəyəm". Peyğəmbərin ﷺ yanına gəldikdə dedilər: "Ey Allahın Elçisi, bir kişi Allahdan başqa haqq ilahın olmadığına şahidlik etdiyi halda, Miqdəd onu öldürdü". Peyğəmbər ﷺ dedi: "Miqdədi yanıma çağırın!" Miqdəd gəldikdə Peyğəmbər ﷺ dedi: "Ey Miqdəd, "Allahdan başqa haqq ilah yoxdur" deyən bir adamı öldürdün? Sabah (Qiyamət günü) o bu tövhid kəlməsi (Lə iləhə iləllah) ilə Allahın hüzuruna gəlsə, sənin halın necə olacaq?" Uca Allah da "**Ey iman gətirənlər! Allah yolunda cihad etmək üçün səfərə çıxdığınız zaman diqqətli olun! Sizə salam verən şəxsə dünya həyatının fani mənfəətinə can ataraq "Sən mömin deyilsən!" deməyin. Allah yanında çox qənimətlər vardır. Əvvəllər siz də belə idiniz, Allah sizə mərhəmət göstərdi. Elə isə kimə qarşı vuruşacağınızı müəyyən edin! Şübhəsiz ki, Allah nə etdiklərinizdən xəbərdardır**" ayəsini nazil etdi. Peyğəmbər ﷺ Miqdədə dedi: "Öldürdüyün kişi mömin idi, kafir bir qövmün içində olduğu üçün imanını gizlədirdi. İmanını izhar etdikdə isə sən onu öldürdün. Bundan əvvəl Məkkədə sən də imanını beləcə gizlədirdin".[1]

Uca Allah buyurur: "**Allah yanında çox qənimətlər vardır**", yəni Allah yanında olan qənimət sizin tamah saldığınız dünya həyatının mənfəətindən daha xeyirlidir. O mənfəət ki, sizə salam verən və imanını açıqlayan birini öldürməyə sövq etmişdir. Siz dünya həyatının mənfəətlərinə göz dikərək onun imanına məhəl qoymadınız, onu yaltaqlıqda və qorxduğu üçün özünü yalandan imanlı göstərməkdə ittiham etdiniz. Halbuki Allah qatındakı halal nemətlər sizin üçün bu maldan daha xeyirlidir.

[1] Hədisi əl-Heysəmi "əz-Zəvaid" (7/8-9) əsərində qeyd etmiş və demişdir: "əl-Bəzzər rəvayət etmişdir, isnadı yaxşıdır". Hədisin bir hissəsini əl-Buxari (12/168) müxtəsər olaraq "muəlləq" sənədlə rəvayət etmişdir. əl-Hafiz İbn Həcər ﷺ demişdir: "əl-Buxarinin "muəlləq" isnadla rəvayət etdiyi bu hədisi əl-Bəzzər, əd-Dəraqutni və ət-Tabərani "əl-Kəbir" əsərində bitişik sənədlə rəvayət etmişlər". (Əhməd Şakir). əl-Bəzzər, 2202, 5127; ət-Tabərani "Mucəmul-Kəbir" 12210, 12379. Hədis zəifdir. Bax: Silsilə əd-Daifə, 4109.

Uca Allah buyurur: "**Əvvəllər siz də belə idiniz, Allah sizə mərhəmət göstərdi**", yəni siz də indiki bu halınızdan əvvəl imanını qövmündən gizlədən bu adam kimi idiniz. Necə ki Peyğəmbərdən ﷺ rəvayət olunan əvvəlki hədisdə bu qeyd edilmişdir. Uca Allah başqa bir ayədə buyurur: "**Yadınıza salın ki, bir zaman siz az idiniz, yer üzündə zəif sayılırdınız; kafir adamların sizi ələ keçirəcəyindən qorxurdunuz. Allah sizə sığınacaq verdi, Öz köməyi ilə sizi qüvvətləndirdi və sizə pak ruzilərdən verdi ki, bəlkə, şükür edəsiniz**" ("əl-Ənfal", 26). Bu təfsir Səid ibn Cubeyrin رحمه الله rəyidir. İbn Cərir رحمه الله də bu rəyi seçmişdir.

Uca Allahın "**Elə isə kimə qarşı vuruşacağınızı müəyyən edin!**" sözü bundan əvvəl keçən "**Allah yolunda cihad etmək üçün səfərə çıxdığınız zaman diqqətli olun!**" cümləsini qüvvətləndirmək məqsədi daşıyır. "**Şübhəsiz ki, Allah nə etdiklərinizdən xəbərdardır**". Səid ibn Cubeyr رحمه الله demişdir: "Bu, bir təhdid və qorxutmadır".[1]

﴿لَّا يَسۡتَوِي ٱلۡقَٰعِدُونَ مِنَ ٱلۡمُؤۡمِنِينَ غَيۡرُ أُوْلِي ٱلضَّرَرِ وَٱلۡمُجَٰهِدُونَ فِي سَبِيلِ ٱللَّهِ بِأَمۡوَٰلِهِمۡ وَأَنفُسِهِمۡۚ فَضَّلَ
ٱللَّهُ ٱلۡمُجَٰهِدِينَ بِأَمۡوَٰلِهِمۡ وَأَنفُسِهِمۡ عَلَى ٱلۡقَٰعِدِينَ دَرَجَةٗۚ وَكُلّٗا وَعَدَ ٱللَّهُ ٱلۡحُسۡنَىٰۚ وَفَضَّلَ ٱللَّهُ ٱلۡمُجَٰهِدِينَ عَلَى
ٱلۡقَٰعِدِينَ أَجۡرًا عَظِيمٗا ٩٥ دَرَجَٰتٖ مِّنۡهُ وَمَغۡفِرَةٗ وَرَحۡمَةٗۚ وَكَانَ ٱللَّهُ غَفُورٗا رَّحِيمًا ٩٦﴾

**95. Möminlərdən evdə oturanlarla Allah yolunda öz malları və canları ilə cihad edənlər eyni olmazlar. Üzrlü olanlar isə istisnadırlar. Allah öz malları və canları ilə cihad edənləri evdə oturanlardan dərəcə etibarilə üstün etmişdir. Allah onların hamısına ən gözəl olanı** (Cənnəti) **vəd etmişdir. Allah mücahidləri evdə oturanlardan böyük bir mükafatla üstün etmişdir.**

**96. Bu Onun tərəfindən möminlərə nəsib olan dərəcələr, bağışlanma və mərhəmətdir. Allah bağışlayandır, rəhmlidir.**

əl-Buxari رحمه الله əl-Bəranın رضي الله عنه belə dediyini rəvayət etmişdir: "Uca Allahın "**Möminlərdən evdə oturanlarla Allah yolunda öz malları və canları ilə cihad edənlər eyni olmazlar**" ayəsi nazil olduqda Peyğəmbər ﷺ dedi: "Filankəsi çağırın". Peyğəmbərin ﷺ çağırdığı adam yazmaq üçün mürəkkəbqabı, lövhə və lələk götürərək gəldi. Peyğəmbər ﷺ ona dedi: "Yaz: "**Möminlərdən evdə oturanlarla Allah yolunda öz malları və canları ilə cihad edənlər eyni olmazlar**". Bu vaxt Peyğəmbərin ﷺ arxasında İbn Ummu Məktum رضي الله عنه dayanmışdı.

[1] İbn Əbu Hatim, 13838.

O "Ey Allahın Elçisi, mən koram cihada gedə bilmirəm" dedikdə bu ayənin yerinə "**Möminlərdən evdə oturanlarla Allah yolunda öz malları və canları ilə cihad edənlər eyni olmazlar. Üzrlü olanlar isə istisnadırlar**" ayəsi nazil oldu".[1]

əl-Buxari ﷺ rəvayət edir ki, bir dəfə Səhl ibn Sad əs-Saidi ﷺ məsciddə Mərvan ibn əl-Həkəmi gördü. Səhl deyir: "Mən gəlib onun yanında əyləşdim və o bizə Zeyd ibn Sabitin belə dediyini danışdı: "Bir dəfə Peyğəmbər ﷺ mənə bu ayəni "**Möminlərdən evdə oturanlarla Allah yolunda öz malları və canları ilə cihad edənlər eyni olmazlar**" yazdırarkən İbn Ummu Məktum ﷺ gələrək "Ey Allahın Elçisi, Allaha and olsun ki, əgər döyüşə bilsəydim mütləq döyüşərdim" dedi. İbn Ummu Məktum ﷺ kor kişi idi. Bu vaxt Uca Allah Öz elçisinə – onun ayağı mənim ayağımın üstündə ikən ayə nazil etdi və həmin an ayağıma elə bir ağırlıq düşdü ki, mən ayağımın xıncım-xıncım olacağından qorxdum. Peyğəmbər ﷺ özünə gəldikdən sonra aydın oldu ki, Uca Allah ona bu sözü nazil etmişdir: "**Üzrlü olanlar isə istisnadırlar**". Hədisi iki "Səhih" əsərinin sahiblərindən yalnız əl-Buxari ﷺ rəvayət etmişdir.[2]

İmam Əhməd ﷺ bu hədisi başqa bir şəkildə Xaricə ibn Zeyddən, o da Zeyd ibn Sabitdən ﷺ rəvayət etmişdir. Zeyd İbn Sabit ﷺ demişdir: "Bir dəfə Peyğəmbərin ﷺ yanında oturmuşdum. Birdən ona vəhy nazil oldu və onu sükut bürüdü. Sonra ayağını qaldırıb ayağımın üzərinə qoydu. Allaha and olsun ki, mən indiyə kimi Peyğəmbərin ﷺ ayağından daha ağır heç bir şey hiss etməmişdim. Sonra özünə gəldi və dedi: "Ey Zeyd, yaz!" Mən yazmaq üçün dəvənin çiyin sümüyünü[3] götürdüm. Peyğəmbər ﷺ dedi: "Yaz: **"Möminlərdən evdə oturanlarla Allah yolunda öz malları və canları ilə cihad edənlər eyni olmazlar"** ta ki, **"böyük bir mükafatla üstün etmişdir"** sözünə qədər". Mən Peyğəmbərin ﷺ dediklərini bir çiyin sümüyünün üzərinə yazdım. İbn Ummu Məktum ﷺ kor kişi idi. O, mücahidlərin fəzilətini eşidib ayağa qalxdı və dedi: "Ey Allahın Elçisi, bəs döyüşə bilməyən kor və buna bənzər möminlər necə olsun?" O sözünü tamamlayan kimi Peyğəmbəri ﷺ yenidən sükut bürüdü və onun ayağı mənim ayağımın üzərinə düşdü. Birinci dəfə hiss etdiyim ağırlığı yenə də hiss etdim. O özünə gələndən sonra dedi: "Oxu, ey Zeyd!" Mən **"Möminlərdən evdə oturanlarla Allah yolunda öz malları və canları ilə cihad edənlər eyni**

[1] əl-Buxari (8/196); ət-Təbəri (10233, 10237, 10248, 10249). (Əhməd Şakir). əl-Buxari, 4228, 4594.
[2] əl-Buxari (8/195-196); ət-Təbəri (10239). (Əhməd Şakir). əl-Buxari, 4226, 4592.
[3] Peyğəmbərin ﷺ dövründə kağız az tapıldığı üçün yazını çox vaxt dəvənin çiyin sümüyünün üzərinə yazırdılar. Çiyin sümüyü enli olduğu üçün yazmağa daha münasib idi.

**olmazlar"** oxuduqda, Peyğəmbər ﷺ "**Üzrlü olanlar isə istisnadırlar**" cümləsini əlavə etdi". Zeyd ؓ dedi: "Mən bu cümləni ayəyə əlavə etdim. Allaha and olsun! Bu hadisə elə yadımdadır ki, sanki indi çiyin sümüyünün çat olan hissəsində sonradan əlavə etdiyim cümləyə baxıram". Oxşar hədisi Əbu Davud ؒ da rəvayət etmişdir.[1]

Abdur-Razzəq ؒ Qabisa ibn Zueybdən rəvayət etmişdir ki, Zeyd ibn Sabit ؓ demişdir: "Mən Peyğəmbər ﷺ üçün vəhy yazardım. Bir dəfə o mənə "Yaz: **"Möminlərdən evdə oturanlarla Allah yolunda öz malları və canları ilə cihad edənlər eyni olmazlar"** dedi. Bu vaxt Abdullah ibn Ummu Məktum ؓ gəlib dedi: "Ey Allahın Elçisi, mən Allah yolunda döyüşmək istəyirəm, lakin sən mənim sağalmayan xəstəliyə tutulduğumu görürsən. Gözlərim kordur". Bu vaxt Peyğəmbərə ﷺ vəhy nazil oldu və Peyğəmbərin ﷺ ayağı ayağımın üzərində o qədər ağırlaşdı ki, ayağımın xıncım-xıncım olacağından qorxdum. Peyğəmbər ﷺ özünə gəldikdən sonra dedi: "Yaz: "**Möminlərdən evdə oturanlarla Allah yolunda öz malları və canları ilə cihad edənlər eyni olmazlar. Üzrlü olanlar isə istisnadırlar**".[2] Hədisi İbn Əbu Hatim və İbn Cərir ؒ də rəvayət etmişlər.[3]

Həmçinin Abdur-Razzəq ؒ rəvayət etmişdir ki, İbn Abbas ؓ demişdir: "Uca Allahın "**Möminlərdən evdə oturanlarla Allah yolunda öz malları və canları ilə cihad edənlər eyni olmazlar. Üzrlü olanlar isə istisnadırlar**" ayəsi Bədr döyüşü barədə – döyüşə qatılanlarla qatılmayanlar barədə nazil olmuşdur".[4] Hədisi yalnız əl-Buxari ؒ rəvayət etmişdir. Muslim ؒ isə rəvayət etməmişdir. Hədisi həmçinin ət-Tirmizi ؒ rəvayət etmişdir. Onun rəvayətində bu əlavə var: "Bədr döyüşü ərəfəsində Abdullah ibn Cəhş və İbn Ummu Məktum dedilər: "Ey Allahın Elçisi, biz ikimiz də koruq. Bizim döyüşə getməməyimizə izin varmı?" Bu səbəbdən "**Möminlərdən evdə oturanlarla Allah yolunda öz malları və canları ilə cihad edənlər eyni olmazlar. Üzrlü olanlar isə istisnadırlar**" ayəsi nazil oldu. Uca Allah cihad edənləri, üzrlü olanlar istisna olmaqla, evdə oturanlardan dərəcə etibarilə üstün etmişdir. "**Allah mücahidləri evdə oturanlardan**

[1] "əl-Musnəd" (5/190-191 Hələbi nəşri); əl-Hakim (2/81-82). əl-Hakim ؒ demişdir: "İsnadı səhihdir, lakin əl-Buxari və Muslim rəvayət eməmişlər". əz-Zəhəbi bununla razılaşmışdır. (Əhməd Şakir). Əhməd, 21708, 22004; Əbu Davud, 2509. Şueyb əl-Arnavut səhih olduğunu bildirmişdir.

[2] Əhməd, 21601, 21641, 21937; ət-Tabərani "Mucəmul-Kəbir" 4767; İbn Hibban, 4713. Şueyb əl-Arnavut səhih olduğunu bildirmişdir.

[3] Abdur-Razzəqin "Təfsir" kitabı (səh. 48, əlyazma); ət-Təbəri (10230); Əhməd (5/184 Hələbi nəşri). (Əhməd Şakir).

[4] əl-Buxari, 3660, 3954, 4229, 4595.

**böyük bir mükafatla üstün etmişdir. Bu Onun tərəfindən möminlərə nəsib olan dərəcələr, bağışlanma və mərhəmətdir**”, yəni Uca Allah möminlərdən cihad edənlərə, üzrlü olanlar istisna olmaqla, evlərində oturanlardan daha böyük mükafatlarla imtiyaz vermişdir”. Hədisin mətni ət-Tirmiziyə ﷫ aiddir. ət-Tirmizi ﷫ demişdir: “Bu, “həsən-ğarib” hədisdir”.[1]

Uca Allahın “**Möminlərdən evdə oturanlarla Allah yolunda öz malları və canları ilə cihad edənlər eyni olmazlar**” ayəsi əvvəl ümumi olaraq nazil olmuşdu. Lakin tez bir zamanda “**Üzrlü olanlar isə istisnadırlar**” cümləsi vəhy olunaraq korluq, axsaqlıq və xəstəlik kimi cihadı tərk etməyi icazəli edən üzr sahiblərini evdə oturanlardan istisna etdi və onları Allah yolunda malları və canları ilə cihad edənlərə bərabər etdi.

Sonra Uca Allah cihad edənlərin, evlərində oturanlardan daha üstün olduqlarını xəbər verir. İbn Abbasın ﵄ dediyinə görə, burada üzrlü olanlar müstəsnadır. Bu belə də olmalıdır. Belə ki, əl-Buxarinin “Səhih” əsərində Ənəsdən ﷺ rəvayət edilən bu hədis buna dəlalət edir. Ənəs ﷺ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: “Bizdən sonra Mədinədə qalan elə insanlar var ki, keçdiyimiz hər bir dərədə və vadidə onlar sizinlədir”. Səhabələr: “Ey Allahın Elçisi, axı onlar Mədinədədirlər?!” Peyğəmbər ﷺ dedi: “Bəli, lakin onlar üzrlü səbəbə görə döyüşdə iştirak etməmişlər”. Hədisi İmam Əhməd və Əbu Davud ﷫ da rəvayət etmişlər.[2]

Uca Allah buyurur: “**Allah onların hamısına ən gözəl olanı vəd etmişdir**”, yəni Cənnəti, böyük mükafatı vəd vermişdir. Bu ayə dəlalət edir ki, cihad fardu-ayn (hər kəsə vacib) deyil, fardu-kifayədir (kifayət qədər insan yerinə yetirərsə, digərlərinin üzərindən vacibliyi düşür).

Sonra Uca Allah “**Allah mücahidləri evdə oturanlardan böyük bir mükafatla üstün etmişdir**” buyuraraq Onun yolunda döyüşənləri Cənnətin yüksək təbəqələrindəki otaqlara salmaqla, günah və səhvlərini bağışlamaqla, üzərilərinə rəhmət və bərəkət yağdırmaqla onlara lütf etdiyini xəbər verir. Bu səbəbdən “**Bu Onun tərəfindən**

[1] əl-Buxari (8/196-197); ət-Tirmizi (4/91); ət-Təbəri (10242). ət-Təbərinin ﷫ rəvayətində Abdullah ibn Cəhş əvəzinə Əbu Əhməd ibn Cəhş deyilir. Doğru olan da budur, çünki Abdullah ibn Cəhş ﷺ kor olmamışdır. O, Uhud döyüşündə şəhid olmuşdur. Kor olan onun qardaşı Əbu Əhməd olmuşdur. Adı Abd idi. Onun da adının Abdullah olduğu deyilir. Əgər belədirsə, o zaman ət-Tirmizinin rəvayəti səhv deyil. Əbu Əhməd ilk İslamı qəbul edənlərdən olmuşdur. İbn İshaq ﷫ demişdir: “Əbu Əhməd kor idi. O, Məkkəni yuxarı-aşağı təkbaşına gəzirdi”. (Əhməd Şakir). ət-Tirmizi, 3032, 3306. Hədis səhihdir. Bax: Səhih va Daif Sunən ət-Tirmizi, 3032.

[2] əl-Buxari (8/96 Fəthul-Bari). (Əhməd Şakir). əl-Buxari, 4071, 4423.

**möminlərə nəsib olan dərəcələr, bağışlanma və mərhəmətdir. Allah bağışlayandır, rəhmlidir**” buyurur.

əl-Buxari və Muslimin “Səhih” əsərlərində Əbu Səid əl-Xudridən ﵁ rəvayət edilən hədisdə Peyğəmbər ﷺ demişdir: “Cənnətdə yüz mərtəbə vardır ki, Uca Allah bunları Onun yolunda cihad edənlər üçün hazırlamışdır. Bu mərtəbələrdən hər iki mərtəbə arasındakı məsafə yerlə göy arasında olan məsafəyə bərabərdir”.[1]

﴿ إِنَّ ٱلَّذِينَ تَوَفَّىٰهُمُ ٱلۡمَلَٰٓئِكَةُ ظَالِمِيٓ أَنفُسِهِمۡ قَالُواْ فِيمَ كُنتُمۡۖ قَالُواْ كُنَّا مُسۡتَضۡعَفِينَ فِي ٱلۡأَرۡضِۚ قَالُوٓاْ أَلَمۡ
تَكُنۡ أَرۡضُ ٱللَّهِ وَٰسِعَةٗ فَتُهَاجِرُواْ فِيهَاۚ فَأُوْلَٰٓئِكَ مَأۡوَىٰهُمۡ جَهَنَّمُۖ وَسَآءَتۡ مَصِيرًا ٩٧ إِلَّا ٱلۡمُسۡتَضۡعَفِينَ مِنَ
ٱلرِّجَالِ وَٱلنِّسَآءِ وَٱلۡوِلۡدَٰنِ لَا يَسۡتَطِيعُونَ حِيلَةٗ وَلَا يَهۡتَدُونَ سَبِيلٗا ٩٨ فَأُوْلَٰٓئِكَ عَسَى ٱللَّهُ أَن يَعۡفُوَ عَنۡهُمۡۚ
وَكَانَ ٱللَّهُ عَفُوًّا غَفُورٗا ٩٩ ۞ وَمَن يُهَاجِرۡ فِي سَبِيلِ ٱللَّهِ يَجِدۡ فِي ٱلۡأَرۡضِ مُرَٰغَمٗا كَثِيرٗا وَسَعَةٗۚ وَمَن يَخۡرُجۡ مِنۢ
بَيۡتِهِۦ مُهَاجِرًا إِلَى ٱللَّهِ وَرَسُولِهِۦ ثُمَّ يُدۡرِكۡهُ ٱلۡمَوۡتُ فَقَدۡ وَقَعَ أَجۡرُهُۥ عَلَى ٱللَّهِۗ وَكَانَ ٱللَّهُ غَفُورٗا رَّحِيمٗا ١٠٠ ﴾

**97. Mələklər özlərinə zülm edənlərin canlarını alarkən onlara: “Siz nə halda idiniz?” deyəcəklər. Onlar “Biz yer üzündə zəif insanlar idik!” deyə cavab verəcəklər. Mələklər də onlara “Məgər Allahın yeri o qədər geniş deyildimi ki, siz də orada hicrət edəydiniz?” deyəcəklər. Onların gedəcəkləri yer Cəhənnəmdir. Ora nə pis dönüş yeridir.**

**98. Yalnız zülmə qarşı çarə qılmağa qadir olmayan və yol tapa bilməyən zəif kişilər, qadınlar və uşaqlar istisnadır.**

**99. Ümid olunur ki, Allah onları əfv etsin. Həqiqətən, Allah əfv edəndir, bağışlayandır.**

**100. Allah yolunda hicrət edən kəs yer üzündə çoxlu sığınacaq və genişlik tapar. Kim Allaha və Onun rəsuluna tərəf hicrət edərək evindən çıxdıqdan sonra ölüm onu haqlayarsa, onun mükafatını Allah Özü verər. Allah bağışlayandır, rəhmlidir.**

---

[1] əl-Hafiz İbn Kəsir ﵀ bu hədisi Əbu Səidin ﵁ rəvayəti ilə əl-Buxari və Muslimin “Səhih” əsərlərinə nisbət etməklə səhv etmişdir. Bu hədisi əs-Suyuti (2/205) qeyd etmiş və yalnız Abd ibn Humeydə və İbn Əbu Hatimə ﵀ nisbət etmişdir. Hədisin bu mətnini əl-Buxari (6/9-10, 13/349-350 Fəthul-Bari) Əbu Hureyradan ﵁ rəvayət olunan hədisin tərkibində rəvayət etmişdir. Bu hədisi, əl-Hafiz İbn Həcər “Fəthul-Bari” (6/135) əsərində qeyd etdiyi kimi, yalnız əl-Buxari ﵀ rəvayət etmişdir. “ən-Nisa” surəsinin 84-87-ci ayələrinin təfsirində İbn Kəsir ﵀ bu hədisi gətirmiş və doğru olaraq yalnız əl-Buxariyə ﵀ nisbət etmişdir. Muslim (2/97) mənaca oxşar hədisi başqa şəkildə Əbu Səiddən ﵁ rəvayət etmişdir. Muslimin hədisi “ən-Nisa” surəsinin 84-87-ci ayələrinin təfsirində keçmişdir. (Əhməd Şakir). İbn Əbu Hatim, 5850; ət-Təbəri, 23587; ət-Tirmizi, 2531, 2723. Hədis səhihdir. Bax: Səhih ət-Tərğib vət-Tərhib, 1305.

əl-Buxari ﷬ Muhəmməd ibn Abdur-Rahmən Əbul-Əsvədin ﷬ belə dediyini rəvayət etmişdir: "Mədinə əhalisindən (Şama qarşı) qoşun yığıldığı zaman mən də onların sıralarına yazıldım.[1] Sonra mən İbn Abbasın azad etdiyi köləsi İkrimə ilə qarşılaşdım və bu barədə ona bildirdim. O mənə bu döyüşdə iştirak etməyi ciddi şəkildə qadağan etdi və dedi: "İbn Abbas mənə xəbər vermişdir ki, bir vaxt Məkkədə imanlarını gizlədərək yaşayan müsəlmanlar məcburiyyət qarşısında müşriklərə qoşulub onların sayını artırır və onlarla birlikdə Peyğəmbərə ﷺ qarşı döyüşürdülər. Döyüş əsnasında müsəlmanlar tərəfindən ox və ya qılıncla öldürüldükdə, Allah bu ayəni nazil etdi: "**Mələklər özlərinə zülm edənlərin canlarını alarkən onlara "Siz nə halda idiniz?" deyəcəklər. Onlar "Biz yer üzündə zəif insanlar idik!" deyə cavab verəcəklər. Mələklər də onlara "Məgər Allahın yeri o qədər geniş deyildimi ki, siz də orada hicrət edəydiniz?" deyəcəklər. Onların gedəcəkləri yer Cəhənnəmdir. Ora nə pis dönüş yeridir**".[2]

İbn Əbu Hatim ﷬ İbn Abbasın ﵄ belə dediyini rəvayət etmişdir: "Məkkə əhalisindən bəziləri İslamı qəbul etmişdilər, lakin müsəlman olduqlarını gizlədirdilər. Bədr döyüşü günü müşriklər onları özləri ilə birlikdə döyüşə aparmışdılar və onlardan bəziləri bu döyüşdə öldü. Müsəlmanlar "Bu yoldaşlarımız müsəlman idilər. Onlar məcburiyyət qarşısında bizə qarşı çıxmışdılar" deyib onlar üçün Allahdan bağışlanma dilədilər. Bu səbəbdən "**Mələklər özlərinə zülm edənlərin canlarını alarkən onlara "Siz nə halda idiniz?" deyəcəklər...**" ayəsi nazil oldu. Səhabələr bu ayəni Məkkədə müşriklərin arasında qalan digər müsəlmanlara yazıb göndərdilər və onlara bildirdilər ki, onların orada bu səbəbdən, yəni məcburiyyətdən qalmalarının üzrü qəbul olunmayacaq. Onlar hicrət etmək üçün yola çıxdıqda bəzi müşriklər onlara qoşulub aralarına fitnə saldılar. Bu səbəbdən Uca Allahın "**İnsanlar arasında elələri də vardır ki, mömin olmadıqları halda "Allaha və Axirət gününə inanırıq", deyirlər**" ("əl-Bəqərə", 8) ayəsi nazil oldu".[3]

---

[1] Burada Məkkənin valisi Abdullah ibn əz-Zubeyrlə ﵁ Şamın valisi olan Abdul-Məlik ibn Mərvan arasında baş vermiş fitnədən söhbət gedir. O vaxt Abdullah ibn əz-Zubeyr ﵁ Ərəbistan yarımadasından Şama hücum etmək üçün qoşun hazırlayırdı və Mədinə əhalisindən də könüllülərin cəlb edilməsi üçün xəbər göndərmişdi.

[2] əl-Buxari (8/197-198 Fəthul-Bari); ət-Təbəri (10261, 10262). (Əhməd Şakir). əl-Buxari, 4596, 7085; əl-Beyhəqi "Sunənul-Kubra" 18205; ət-Təbərani "Mucəmul-Kəbir" 11344.

[3] ət-Təbəri (10260). Hədisin isnadı səhihdir. əs-Suyuti ﷬ hədisi əlavə olaraq İbn əl-Munzirə, İbn Mərdəveyhə və əl-Beyhəqiyə ﷬ nisbət etmişdir. (Əhməd Şakir). ət-Təbəri, 10326, 22089, 27943; İbn Əbu Hatim, 5863, 17170. Şeyx Muqbil səhih olduğunu bildirmişdir.

Bu ayə ümumi olub dinini yaşamağa imkanı olmayan və hicrət[1] etməyə gücü çatdığı halda müşriklərin arasında qalan hər bir kəs barədə nazil olmuşdur. Bu insan, alimlərin yekdil rəyinə görə, özünə zülm etmiş və haram iş tutmuş sayılır. Bu ayə onların özlərinə zülm və haram etdiklərini bildirir. Belə ki, Uca Allah buyurur: “**Mələklər**” hicrəti tərk etməklə “**özlərinə zülm edənlərin canlarını alarkən onlara “Siz nə halda idiniz?”**, yəni “nə üçün hicrət etməyib burada qaldınız?” **deyəcəklər**”. **Onlar “Biz yer üzündə zəif insanlar idik!**”, yəni biz ölkəni tərk etməyi bacarmadıq “**deyə cavab verəcəklər**”. **Mələklər də onlara “Məgər Allahın yeri o qədər geniş deyildimi ki, siz də orada hicrət edəydiniz?” deyəcəklər. Onların gedəcəkləri yer Cəhənnəmdir. Ora nə pis dönüş yeridir**”. Əbu Davud ﷺ Səmura ibn Cundubdan ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: “Kim müşriklərlə birlikdə onların həyatını yaşayarsa və onunla bir yerdə məskunlaşarsa, o da onlar kimidir”.[2]

Uca Allah buyurur: “**Yalnız zülmə qarşı çarə qılmağa qadir olmayan və yol tapa bilməyən zəif kişilər, qadınlar və uşaqlar istisnadır**”. Bu ayə ilə Uca Allah müşriklərin əllərindən xilas olmağa gücləri çatmadığı üçün hicrəti tərk edənlərin üzrlərini qəbul etdiyini bildirir. Əgər xilas olmaq üçün bir çıxış yolu bilsəydilər və bildikləri bu yola gücləri yetsəydi, həmin yolu tutardılar. Bu səbəbdən Uca Allah “**zülmə qarşı çarə qılmağa qadir olmayan və yol tapa bilməyən**” buyurur.

Uca Allah buyurur: “**Ümid olunur ki, Allah onları əfv etsin**”, yəni ümid olunur ki, Allah onların hicrəti tərk etməklə qazanmış olduqları günahlarından keçsin. Quranda Uca Allahın Özünə aid etdiyi “ümid olunur” sözü bir növ qətilik ifadə edir. Bu səbəbdən Uca Allah buyurur: “**Həqiqətən, Allah əfv edəndir, bağışlayandır**”. əl-Buxari ﷺ Əbu Hureyradan ﷺ rəvayət etmişdir ki, bir dəfə Peyğəmbər ﷺ İşa namazını qılarkən başını rukudan qaldırdıqdan sonra “Səmi-Allahu limən həmidəh” (Allah Ona həmd edəni eşitdi)” deyib səcdə etməmişdən əvvəl belə dua etdi: “Allahım, Ayyəş ibn Əbu Rabiəni xilas et! Allahım,

[1] Hicrət sözünün hərfi mənası “tərk etmək” deməkdir. Burada isə bir müsəlmanın dinini qorumaq məqsədilə İslama düşmənçilik edən bir ölkədən təhlükəsiz yerə köçməsi nəzərdə tutulur. İslamın əvvəlində Məkkə fəth olunana qədər müsəlmanlara hicrət etmək vacib idi, lakin Məkkə fəth olunandan sonra Peyğəmbər ﷺ belə buyurdu: “Bu gündən etibarən artıq hicrət etməyə lüzum yoxdur. Amma cihad etmək və niyyət var. Əgər sizi cihada çağırsalar, tələsin!” (əl-Buxari, 1703, 1834). Lakin kafir ölkəsində dinini yaşaya bilməyən hər kəs üçün yaşadığı dövrdən asılı olmayaraq müsəlman ölkələrinə hicrət etmək vacibdir.

[2] Əbu Davud, 2787, 2789. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 2330.

Sələmə ibn Hişamı xilas et! Allahım, Vəlid ibn Vəlidi xilas et! Allahım, möminlərdən zəif olanları xilas et! Allahım, Mudar qəbiləsinə olan əzabını şiddətləndir! Allahım, onlara Yusufun zamanında göndərdiyin yeddi qıtlıq və quraqlıq illəri kimi illər göndər!"[1]

Uca Allah buyurur: "**Allah yolunda hicrət edən kəs yer üzündə çoxlu sığınacaq və genişlik tapar**". Bu ayə möminləri hicrət etməyə və müşriklərin yaşadığı ölkəni tərk etməyə təşviq edir. Mömin hara gedirsə-getsin, müşriklərdən xilas olmağa geniş bir yer və qorunmaq üçün bir sığınacaq tapacaq. İbn Abbas ﵄ demişdir: "Ayədə keçən مُرَاغَمٌ [mura:ğam] sözünün mənası bir yerdən başqa bir yerə köçməkdir". Mucahid ﵀ isə bu sözü "xoşlamadığın şeylərdən uzaq olan bir yer" kimi təfsir etmişdir. Lakin görünən budur ki, – ən doğrusunu Allah bilir – bu söz düşməndən qorunan və müdafiə olunan sığınacaq mənasındadır. Bir çox alimlər ayədəki "**genişlik**" sözünü "ruzi" kimi təfsir etmişlər.

Uca Allah buyurur: "**Kim Allaha və Onun rəsuluna tərəf hicrət edərək evindən çıxdıqdan sonra ölüm onu haqlayarsa, onun mükafatını Allah Özü verər**", yəni kim evindən hicrət niyyəti ilə çıxar və səfər əsnasında ölərsə, o şəxs Allah qatında hicrət etmiş insanın savabına nail olar. Necə ki əl-Buxari və Muslim "Səhih" əsərlərində, habelə digər "Səhih", "Musnəd" və "Sunən" əsərlərinin müəlliflərinin Ömər ibn əl-Xattabdan ﵁ rəvayət etdikləri hədisdə Peyğəmbər ﷺ demişdir: "Əməllər ancaq niyyətlərə görədir. Hər kəsə də yalnız niyyət etdiyi şey qalacaqdır. Kim hicrəti əldə edəcəyi dünya malından və ya evlənəcəyi qadından ötrü etmişsə, onun hicrəti Allah və Onun peyğəmbərinin razı qalması üçün deyil, hicrət etdiyi şeyə aiddir".[2]

Əməllərin niyyətə görə olması həm hicrət, həm də digər bütün əməllər üçün ümumidir. Bu mənada olan hədislərdən biri də əl-Buxari və Muslimin "Səhih" əsərlərində doxsan doqquz nəfəri öldürmüş kişi barədə olan hədisdir. Bu kişi daha sonra ona tövbəsinin qəbul olmayacağını deyən rahibi öldürməklə yüzü tamamlamışdır. Sonra o, tövbəsinin qəbul olub-olmaması barədə bir alimdən soruşmuş, bu alim ona olduğu kənddən başqa bir kəndə köçməsini və orada Allaha ibadət etməsini məsləhət görmüşdür. Yolda ölüm onu haqladı. Bu vaxt rəhmət mələkləri ilə əzab mələkləri ona görə öz aralarında çəkişməyə başladılar. Rəhmət mələkləri "O, tövbə etmişdir" deyərkən əzab mələkləri "O

[1] əl-Buxari (8/198 Fəthul-Bari). (Əhməd Şakir). əl-Buxari, 4232, 4598.

[2] əl-Buxari, 1; Ədu Davud, 2201, 2203; İbn Məcə, 4227.

hələ hicrət etdiyi kəndə çatmamışdır” demişlər. Allah onlara kişinin qət etdiyi yol ilə, üz tutduğu kəndə qalan yolun məsafəsini ölçməyi əmr edir. Hansına yaxın olsa, ora aid olduğunu buyurur. Allah yerin bu tərəfinə (getdiyi kəndə tərəf olan yola) “Yaxınlaş!”, o tərəfinə (qət etdiyi yola) isə “Uzaqlaş” deyə vəhy etdi. Sonra da mələklərə “Bunların arasındakı məsafəni ölçün!” deyə buyurdu. Məsafə ölçüldükdən sonra bu adamın üz tutduğu kəndə bir qarış daha yaxın olduğu bəlli oldu və rəhmət mələkləri onun canını aldı.[1]

İmam Əhməd ﷫ rəvayət etmişdir ki, Abdullah ibn Atik ﷺ Peyğəmbərin ﷺ belə dediyini eşitmişdir: “Kim Allah yolunda cihad etmək üçün evindən bu üç şeylə (canı, silahı və miniyi ilə) çıxar, – Peyğəmbər ﷺ orta, şəhadət və baş barmaqlarını birləşdirdi – sonra cihad edənləri axtararaq “Cihad edənlər haradadırlar?” deyər və onlara yetişməmiş miniyindən yıxılıb ölərsə, onun mükafatını Allah Özü verəcəkdir. Yaxud zəhərli bir heyvan çalması səbəbi ilə ölərsə, onun mükafatını Allah Özü verəcəkdir. Hətta yatağında yatmış halda ölərsə belə, yenə onun mükafatını Allah Özü verəcəkdir”. Ravi demişdir: “Allaha and olsun ki, Peyğəmbərdən ﷺ əvvəl ərəblərdən heç kimdən belə sözlər eşitməmişdim”. Sonra Peyğəmbər ﷺ dedi: “Kim də yerində qəfil öldürülərsə, gözəl dönüş (Cənnət) ona vacib olar”.[2]

İbn Əbu Hatim ﷫ rəvayət etmişdir ki, İbn Abbas ﷠ belə dedi: “Damra ibn Cundub Peyğəmbərin ﷺ yanına gəlmək üçün səfərə çıxmışdı, lakin o, Peyğəmbərin ﷺ yanına çatmamış yolda öldü. Bu səbəbdən Uca Allahın “**Kim Allaha və Onun rəsuluna tərəf hicrət edərək evindən çıxdıqdan sonra ölüm onu haqlayarsa, onun mükafatını Allah Özü verər. Allah bağışlayandır, rəhmlidir**”, ayəsi nazil oldu”.[3]

﴿ وَإِذَا ضَرَبْتُمْ فِي الْأَرْضِ فَلَيْسَ عَلَيْكُمْ جُنَاحٌ أَن تَقْصُرُوا مِنَ الصَّلَاةِ إِنْ خِفْتُمْ أَن يَفْتِنَكُمُ الَّذِينَ كَفَرُوا إِنَّ الْكَافِرِينَ كَانُوا لَكُمْ عَدُوًّا مُّبِينًا ﴿١٠١﴾ ﴾

[1] əl-Buxari, 3211, 3283, 3470; Muslim, 4967-4968, 7184-7185.

[2] “əl-Musnəd” (16485); əl-Hakim (2/88). əl-Hakim ﷫ demişdir: “İsnadı səhihdir, lakin əl-Buxari və Muslim rəvayət etməmişlər”. əz-Zəhəbi onunla razılaşmışdır. (Əhməd Şakir). Əhməd, 16414, 16461, 16528. Şueyb əl-Arnavut isnadının zəif olduğunu bildirmişdir.

[3] Hədisin isnadı səhihdir. Həmçinin ət-Təbəri (10294) başqa bir səhih isnadla rəvayət etmişdir. (Əhməd Şakir). ət-Təbərani “Mucəmul-Kəbir” 11544; Əbu Yəalə, 2679; ət-Təbəri, 10361; İbn Əbu Hatim, 5887, 5889. Şeyx Muqbil səhih olduğunu bildirmişdir.

**101. Yer üzündə səfərə çıxdığınız zaman kafirlərin sizə zərər yetirəcəklərindənqorxarsınızsa, namazı qısaltmanızda izə günah yoxdur. Şübhəsiz ki, kafirlər sizin açıq-aydın düşməninizdir.**

Uca Allah buyurur: "**Yer üzündə səfərə çıxdığınız zaman ...**", yəni bir ölkədən başqa bir ölkəyə səfər etdikdə. Necə ki eyni ifadəni başqa bir ayədə səfərə çıxmaq mənasında istifadə edərək buyurur: "**Digərləriniz Allahın mərhəmətindən ruzi əldə etmək məqsədilə müxtəlif yerlərə səfərə çıxacaq, bir qisminiz də Allah yolunda vuruşacaqdır**" ("əl-Muzzəmmil", 20).

Uca Allah buyurur: "...**kafirlərin sizə zərər yetirəcəklərindən qorxarsınızsa, namazı qısaltmanızda sizə günah yoxdur**", yəni namazları yüngülləşdirməkdə sizə bir günah yoxdur. Əksər alimlər bu ayədən dördrükətli namazları iki rükət qılmaqla miqdarının azaldılmasını başa düşmüşlər və bu ayəni səfərdə namazı qısaltmağın icazəli olmasına dəlil gətirmişlər. Həmçinin bu alimlər namazı qısaltmağı icazəli edən səfərin növündə fikir ayrılığına düşmüşlər. Alimlərdən bir qismi bu səfərin mütləq cihad, həcc, ümrə, elm tələbi, ziyarət və sair buna bənzər itaət məqsədi daşımasını vacib görmüşlər. Necə ki bu rəy İbn Ömər və Ətadan rəvayət edilmişdir. Həmçinin Malikin ﷺ Uca Allahın: "...**kafirlərin sizə zərər yetirəcəklərindən qorxarsınızsa**" sözünün zahiri mənasına əsaslanaraq oxşar rəyi dediyi rəvayət olunur.

Bəzi alimlər isə bu səfərin ibadət məqsədi daşımasının şərt olmadığını, mübah (haram məqsədi daşımayan) bir səfər olmasının yetərli olduğunu demişlər. Bu rəydə olanlar Uca Allahın: "**Kim aclıq üzündən çarəsiz qalarsa, günaha meyil etməyərək haram edilmiş ətlərdən yeyə bilər**" ("əl-Maidə", 3) ayəsini dəlil gətirmişlər. Bu ayədə Uca Allah çarəsiz qalan insana səfərdə həddi aşmamaq şərtilə leş ətindən yeməyə icazə vermişdir. Bu, əş-Şafii, Əhməd və digər alimlərin ﷺ rəyidir.

Bəzi alimlər isə istənilən səfərdə namazları qısaltmağın icazəli olduğunu demişlər. Onların sözünə görə, fərq etməz – istər mübah olsun, istər haram, bir insanın səfərə çıxması onun namazları qısaltmasını icazəli edir. Hətta yol kəsmək və ya yoldan keçənlərdə qorxu yaratmaq məqsədilə çıxmış olsa belə, səfər olduğu üçün namazları qısaltması icazəlidir. Bu rəydə olanlar ayənin mənasının ümumi olmasına əsaslanmışlar. Bu, Əbu Hənifə, əs-Səuri və Davudun ﷺ rəyidir. Əksər alimlər isə bu rəydə deyillər. Uca Allahın "...

**kafirlərin sizə zərər yetirəcəklərindən qorxarsınızsa**" deməsinə gəlincə, bu, ayə nazil olan vaxt mövcud vəziyyətə görə idi, çünki hicrətdən sonra İslamın başlanğıcında müsəlmanların səfərlərinin çoxu təhlükəli olurdu. Onlar yola çıxdıqları zaman, ya ümumi bir döyüş üçün, ya da xüsusi bir hərbi tapşırıq üçün səfərə çıxardılar. Ətrafda olan qəsəbələr müsəlmanlarla döyüş vəziyyətində idilər. Qaydaya əsasən, əgər bir ifadə, əksəriyyət nəzərə alınaraq və ya xüsusi bir hadisəyə görə deyilərsə, bu ifadə məna kəsb etməz. Uca Allahın bu ayələrdə buyurduğu kimi "**Əgər kənizləriniz ismətlərini qorumaq istəsələr, fani dünya malı əldə edəcəksiniz deyə onları zinakarlığa məcbur etməyin**" ("ən-Nur", 33). Həmçinin buyurur: "**Sizə ...yaxınlıq etdiyiniz qadınlarınızdan olan himayənizdəki ögey qızlarınız... haram edildi**" ("ən-Nisa", 23).[1]

İmam Əhməd ﵀ Yəalə ibn Umeyyənin belə dediyini rəvayət etmişdir: "Bir dəfə Ömər ibn Xattabdan soruşdum: "Uca Allah "... **kafirlərin sizə zərər yetirəcəklərindən qorxarsınızsa, namazı qısaltmanızda sizə günah yoxdur**" buyurur. Halbuki Uca Allah indi insanlara əmin-amanlıq vermişdir". Ömər mənə dedi: "Səni təəccübləndirən bu məqamdan mən də təəccüblənmiş və bunu Peyğəmbərdən ﷺ soruşmuşdum. Peyğəmbər ﷺ də belə buyurdu: "Bu, Allahın sizə bəxş etdiyi bir sədəqədir, onun sədəqəsini qəbul edin".[2] Hədisi Muslim və "Sunən" sahibləri rəvayət etmişlər. ət-Tirmizi demişdir: "Bu, "həsən-səhih" hədisdir". Əli ibn əl-Mədini ﵀ demişdir: "Ömərdən rəvayət edilən bu hədis səhihdir. Hədis yalnız bu isnadla rəvayət olunur və raviləri tanınan şəxslərdir".[3]

Əbu Bəkr ibn Əbu Şeybə ﵀ rəvayət etmişdir ki, Əbu Hənzalə əl-Həzzə belə demişdir: "Bir dəfə İbn Ömərdən səfər namazı barədə soruşdum və mənə səfər namazının iki rükət olduğunu dedi. Mən soruşdum: "Biz əmin-amanlıq içində olduğumuz halda, Uca Allahın "...**kafirlərin sizə zərər yetirəcəklərindən qorxarsınızsa**" ayəsinə necə əməl edək?" İbn Ömər "Bu, Peyğəmbərin ﷺ sünnəsidir" deyə cavab verdi".[4]

[1] Peyğəmbərin ﷺ dövründə əksər hallarda kənizlər zinakarlığa məcbur edildiyinə görə birinci ayədə "**Əgər kənizləriniz ismətlərini qorumaq istəsələr**,..." deyilir. Lakin bu, kəniz olmayan qadınların ayəyə daxil olmaması anlamına gəlmir. İkinci ayədə isə, adətən, ögey qızlar atalığın himayəsində yaşadığına görə "**himayənizdəki ögey qızlar**" deyilir. Buna baxmayaraq, atalığın himayəsində olmasa belə, kişinin yaxınlıq etdiyi qadının qızı ilə evlənməsi haramdır.

[2] Əhməd, 174; Əbu Davud, 1083; İbn Məcə, 1065. Hədis səhihdir. Bax: Mişkətul-Məsabih, 1335.

[3] "əl-Musnəd" (174). (Əhməd Şakir).

[4] "əl-Musnəd" (4704, 5213, 6194). Hədisin isnadı səhihdir. (Əhməd Şakir). Əhməd, 6194. Şueyb əl-Arnavut hədisin "səhih li-ğeyrihi" olduğunu bildirmişdir.

Əbu Bəkr ibn Əbu Şeybə ﷺ rəvayət etmişdir ki, İbn Abbas ﷺ demişdir: "Bir dəfə biz Məkkə ilə Mədinə arasında yerləşən bir yerdə, bu iki şəhər arasında heç nədən qorxmadığımız halda, əmin-amanlıq içində, Peyğəmbərlə ﷺ birlikdə (dördrükətli) namazı iki rükət qıldıq". Hədisi ət-Tirmizi və ən-Nəsəi ﷺ də rəvayət etmişlər. ət-Tirmizi ﷺ hədisin səhih olduğunu bildirmişdir.[1]

əl-Buxari ﷺ Ənəsin ﷺ belə dediyini rəvayət etmişdir: "Peyğəmbərlə ﷺ birlikdə Mədinədən Məkkəyə doğru yola çıxdıq. Mədinəyə dönənə qədər Peyğəmbər ﷺ (dördrükətli) namazları iki rükət qılırdı". Ravi deyir: "Mən Ənəsdən: "Məkkədə nə qədər qaldınız?"– deyə soruşdum. Ənəs "Orada on gün qaldıq" deyə cavab verdi".[2] Hədisi digər hədis kitablarının müəllifləri də rəvayət etmişlər.

İmam Əhməd ﷺ Hərisə ibn Vəhb əl-Xuzəinin ﷺ belə dediyini rəvayət etmişdir: "Mən Peyğəmbərlə ﷺ birlikdə Zöhr və Əsr namazlarını insanların ən çox və ən təhlükəsizlikdə olduqları Minada iki rükət qıldım". Hədisi İbn Məcədən ﷺ başqa digər hədis kitablarının müəllifləri rəvayət etmişlər.[3]

əl-Buxari və Muslim ﷺ Abdullah ibn Ömərin ﷺ belə dediyini rəvayət etmişlər: "Mən səfərdə ikən Peyğəmbərlə ﷺ, Əbu Bəkirlə, Ömərlə və xəlifəliyinin ilk dövrlərində Osmanla birlikdə namazı iki rükət qılmışam. Sonra Osman namazı dörd rükətə tamamladı".[4] Muslim ﷺ də bu hədisi Yəhya ibn Səid əl-Qattandan ﷺ rəvayət etmişdir.

əl-Buxari ﷺ Abdur-Rahmən ibn Yəzidin ﷺ belə dediyini rəvayət etmişdir: "Bir dəfə Osman ibn Affan bizə Minada namazı dörd rükət qıldırdı. Bu barədə Abdullah ibn Məsuda xəbər verildikdə, o (təəccüb edib) "Biz, Allaha məxsusuq və Ona da qayıdacağıq![5]" dedikdən sonra

[1] "əl-Musnəd" (1852, 1995, 3317); ət-Tirmizi (457). (Əhməd Şakir). İbn Əbu Şeybə, 8164, 8248; ən-Nəsəi "Sunən" 1419, 1436, 1447. Hədis səhihdir. Bax: Səhih və Daif Sunən ən-Nəsəi, 1435-1436.

[2] əl-Buxari, 1019, 1081.

[3] "əl-Musnəd" (4/306 Hələbi nəşri). (Əhməd Şakir). Əhməd, 18727, 18749, 18934; ən-Nəsəi "Sunən" 1429, 1457. Hədis səhihdir. Bax: Səhih və Daif Sunən ən-Nəsəi, 1446.

[4] əl-Buxari, 1020, 1082.

[5] Bu sözlər təəccüb doğuran bir şey gördükdə və ya hər hansı bir müsibət üz verdikdə deyilir. İbn Məsud ﷺ bu duanı Osmanın ﷺ belə etməsinə etiraz olaraq demişdir. Uca Allah buyurur: **"O kəslər ki onlara bir müsibət üz verdikdə "Biz Allaha məxsusuq və Ona da qayıdacağıq!" deyirlər"** ("əl-Bəqərə", 156). Transkripsiyası: [İnnə lillə:hi və innə ileyhi ra:ciu:n].

buyurdu: "Mən Peyğəmbərlə ﷺ birlikdə Minada iki rükət namaz qılmışam, həmçinin Əbu Bəkrlə birlikdə Minada iki rükət namaz qılmışam, habelə Ömər ibn Xəttabla birlikdə Minada iki rükət namaz qılmışam. Dörd rükət qılmaqdansa, qəbul olunmuş iki rükət namaz qılmaq mənim üçün daha xoşdur".[1] Hədisi Muslim ﷺ də rəvayət etmişdir.[2]

Bu hədislər namazın qısaldılması üçün təhlükəli vəziyyətin və qorxunun şərt olmamasına açıq bir şəkildə dəlalət edir. Bu səbəbdən bəzi alimlər ayədə namazı qısaltmaq dedikdə, kəmiyyət (rükətlərin sayı) baxımından deyil, keyfiyyət baxımından qısaltmağın nəzərdə tutulduğunu demişlər. İrəlidə qeyd edəcəyimiz kimi, bu rəy Mucahid, əd-Dahhək və əs-Suddiyə ﷺ aiddir. Bu rəydə olanlar, həmçinin İmam Malikin ﷺ Aişədən ﷺ rəvayət etdiyi hədisə əsaslanmışlar. Aişə ﷺ demişdir: "Səfərdə və evdə qılınan namazlar iki rükət-iki rükət əmr olunmuşdu. Sonralar səfərdə qılınan namazlar olduğu kimi qaldı, daimi yaşayış yerində qılınan namazlara isə (bir və ya iki rükət) artırıldı".[3] Bu hədisi əl-Buxari, Muslim, Əbu Davud və ən-Nəsəi ﷺ də rəvayət etmişlər. Bu rəydə olanlar demişlər: "Əgər səfərdə qılınan namazların əsli iki rükətdirsə, ayədə namazın qısaldılması deyildikdə kəmiyyət baxımından qısaldılması necə nəzərdə tutula bilər? Əslən iki rükət olan namaza "**namazı qısaltmanızda sizə günah yoxdur**" deyilə bilməz. Dəlalət cəhətdən bundan daha aydın olan İmam Əhmədin ﷺ rəvayət etdiyi bu hədisdir: Ömər ﷺ demişdir: "Uca Allah Muhəmmədin dili ilə səfər namazını iki rükət, Ramazan və Qurban bayramlarının namazlarını iki rükət, Cümə namazını iki rükət buyurmuşdur. Bu namazlar tamdır, qısaldılmamışdır".[4] Hədisi ən-Nəsəi, İbn Məcə və İbn Hibban "Səhih" əsərində rəvayət etmişlər. Hədisin isnadı Muslimin ﷺ şərtinə uyğundur.[5]

---

[1] əl-Buxari, 1022, 1084.

[2] Muslim, 1122, 1628.

[3] əl-Buxari, 337, 350; Muslim, 1105, 1602; Əbu Davud, 1198, 1200; ən-Nəsəi "Sunən" 451, 455, 459.

[4] Əhməd, 257; əl-Bəzzər, 331. Şueyb əl-Arnavut səhih olduğunu bildirmişdir.

[5] "əl-Musnəd" (257). Hədisin sənədi bitişik olmadığına görə zəif sayılır, çünki Abdur-Rahmən ibn Əbu Leylə Ömərdən ﷺ hədis eşitməmişdir. Lakin İbn Məcə və İbn Həzm ﷺ hədisi Abdur-Rahmən ibn Əbu Leylədən, o da Kəb ibn Ucradan, o da Ömərdən ﷺ rəvayət etmişlər. Bu rəvayətlərə görə, hədis səhihdir. İbn Kəsir ﷺ burada Abdur-Rahmən ibn Əbu Leylənin Ömərdən ﷺ hədis eşitməsinə işarə edərək "əl-Musnəd" əsərindəki hədisin səhih olduğunu bildirmişdir. (Əhməd Şakir).

Muslim, Əbu Davud, ən-Nəsəi və İbn Məcə ﷺ Abdullah ibn Abbasın ﷺ belə dediyini rəvayət etmişlər: “Uca Allah Peyğəmbərinizin ﷺ dili ilə namazı daimi yaşayış yerində dörd rükət, səfərdə iki rükət, qorxu halında isə bir rükət fərz etmişdir”.[1]

Bu hədis İbn Abbasdan ﷺ sabit olub daha əvvəl keçən Aişənin ﷺ hədisinə zidd deyil, çünki Aişə ﷺ namazın əslinin iki rükət olduğunu, lakin sonradan daimi yaşayış yerində qılınan namazlara (bir və ya iki rükət) artırıldığını bildirmişdir. Bu bərqərar olduqdan sonra İbn Abbasın ﷺ dediyi kimi, daimi yaşayış yerində qılınan namazların dörd rükət fərz olunduğunu demək olar. Ən doğrusunu Allah bilir. Lakin İbn Abbas və Aişənin ﷺ hədisləri səfər namazının iki rükət olmasında və bunun qısaldılmış deyil, tam olmasında ittifaq etmişlər. Necə ki bu xüsus Ömərdən ﷺ rəvayət olunan hədisdə də aydın ifadə edilmişdir. Belə olduqda Uca Allahın “**namazı qısaltmanızda sizə günah yoxdur**” ayəsində nəzərdə tutulan, qorxu namazında olduğu kimi, namazın keyfiyyət baxımından qısaldılmasıdır. Bu səbəbdən Uca Allah “**Yer üzündə səfərə çıxdığınız zaman kafirlərin sizə zərər yetirəcəklərindən qorxarsınızsa, namazı qısaltmanızda sizə günah yoxdur. Şübhəsiz ki, kafirlər sizin açıq-aydın düşməninizdir**” buyurur, sonrakı ayədə isə “**Sən səhabələrinin arasında olub onlara namaz qıldırdığın zaman onların bir dəstəsi səninlə birlikdə namaza dursun, silahlarını da özləri ilə götürsünlər**” buyurmaqla qorxu halında namazı qısaltmağın məqsədini, necəliyini və keyfiyyətini bəyan etmişdir. Eyni səbəbə görə əl-Buxari “Səhih” əsərində “Qorxu namazı kitabı” başlığı altındakı bölümü Uca Allahın “**Yer üzündə səfərə çıxdığınız zaman kafirlərin sizə zərər yetirəcəklərindən qorxarsınızsa, namazı qısaltmanızda sizə günah yoxdur. ...Şübhəsiz ki, Allah kafirlər üçün alçaldıcı bir əzab hazırlamışdır**” (“ən-Nisa”, 101-102) ayələri ilə başlamışdır. əd-Dahhək ﷺ Uca Allahın “**Yer üzündə səfərə çıxdığınız zaman kafirlərin sizə zərər yetirəcəklərindən qorxarsınızsa, namazı qısaltmanızda sizə günah yoxdur**” ayəsi barədə demişdir: “Bu, döyüş əsnasında minikdə olan insanın üzü hansı tərəfə olursa olsun, iki təkbirlə (iki rükət) namaz qılmasıdır”.[2]

---

[1] “əl-Musnəd” (2124, 2177); Muslim (1/192); Əbu Davud (1247); ən-Nəsəi (1/227); İbn Məcə (1068). Bu hədis “əl-Bəqərə” surəsinin 239-cu ayəsinin təfsirində keçmişdir. Hədisin mənbələri üçün ət-Təbəriyə (5569) bax. (Əhməd Şakir). Muslim, 1109-1110, 1607-1608; Əhməd, 2243.

[2] İbn Əbu Hatim, 5893.

İbn Cərir رحمه الله rəvayət etmişdir ki, Umeyyə ibn Abdullah ibn Xalid ibn Useyd bir dəfə Abdullah ibn Ömərdən "Nə üçün biz Allahın Kitabında qorxu halında namazın qısaldılmasını görürük, lakin səfərdə olarkən namazın qısaldılmasını görmürük?" soruşduqda Abdullah belə cavab vermişdir: "Biz Peyğəmbərimizi ﷺ belə edən görmüşük və onu da edirik".[1] Umeyyə ibn Abdullah رحمه الله ayədə qısaldılması nəzərdə tutulan namazı qorxu namazı adlandırmışdır. Ayəni də səfər namazına deyil, qorxu namazına aid etmişdir. İbn Ömər رضي الله عنهما isə onun dediyini qəbul etmiş və səfərdə namazı qısaltmağa dəlil olaraq Quran ayəsini deyil, şəriətin buyurduğunu (Peyğəmbər ﷺ etdiyini) götürmüşdür.

Bundan daha aydın dəlil isə İbn Cəririn رحمه الله Simək əl-Hənəfidən رحمه الله rəvayət etdiyi hədisdir. Simək əl-Hənəfi رحمه الله demişdir: "Bir dəfə İbn Ömərdən səfər namazı barədə soruşdum. O dedi: "Səfər namazı qısaldılmamış, tam olan iki rükətdir. Qısaldılan yalnız qorxu namazıdır". Mən "Qorxu namazı nədir?" deyə soruşdum. O belə cavab verdi: "İmam bir qrupa bir rükət namaz qıldırır, sonra bu qrup (namaz qılanlar) qalxıb digər qrupun (keşik çəkənlərin) yerinə keçir, digər qrup da bunların yerinə gəlir və imam onlara da bir rükət qıldırır. Beləcə, imam iki rükət, hər bir qrup isə bir rükət qılmış olur".[2]

﴿وَإِذَا كُنتَ فِيهِمْ فَأَقَمْتَ لَهُمُ ٱلصَّلَوٰةَ فَلْتَقُمْ طَآئِفَةٌ مِّنْهُم مَّعَكَ وَلْيَأْخُذُوٓا۟ أَسْلِحَتَهُمْ فَإِذَا
سَجَدُوا۟ فَلْيَكُونُوا۟ مِن وَرَآئِكُمْ وَلْتَأْتِ طَآئِفَةٌ أُخْرَىٰ لَمْ يُصَلُّوا۟ فَلْيُصَلُّوا۟ مَعَكَ وَلْيَأْخُذُوا۟
حِذْرَهُمْ وَأَسْلِحَتَهُمْ وَدَّ ٱلَّذِينَ كَفَرُوا۟ لَوْ تَغْفُلُونَ عَنْ أَسْلِحَتِكُمْ وَأَمْتِعَتِكُمْ فَيَمِيلُونَ
عَلَيْكُم مَّيْلَةً وَٰحِدَةً وَلَا جُنَاحَ عَلَيْكُمْ إِن كَانَ بِكُمْ أَذًى مِّن مَّطَرٍ أَوْ كُنتُم مَّرْضَىٰٓ أَن
تَضَعُوٓا۟ أَسْلِحَتَكُمْ وَخُذُوا۟ حِذْرَكُمْ إِنَّ ٱللَّهَ أَعَدَّ لِلْكَٰفِرِينَ عَذَابًا مُّهِينًا ﴿١٠٢﴾

**102. Sən səhabələrinin arasında olub onlara namaz qıldırdığın zaman onların bir dəstəsi səninlə birlikdə namaza dursun, silahlarını da özləri ilə götürsünlər. Bunlar səcdə etdikləri zaman birinci rükəti tamamlayanadək o biri dəstə arxanızda olsun. Sonra namazını qılmamış digər dəstə gəlib səninlə birlikdə**

[1] ət-Təbəri (10318). Buradakı isnadı bitişik deyil. Həmçinin Əhməd (5333) Malikin bitişik olmayan isnadı ilə rəvayət etmişdir, lakin hədis bitişik isnadla "əl-Musnəd" (5683, 6353) əsərində var. (Əhməd Şakir).

[2] ət-Təbəri (10327). İsnadı səhihdir. (Əhməd Şakir). ət-Təbəri, 10327, 10394.

**namaz qılsın, ehtiyatlarını tutsunlar və silahlarını da özləri ilə götürsünlər. Kafirlər istərlər ki, siz silahlarınızdan və əşyalarınızdan xəbərsiz olasınız və onlar da sizin üzərinizə bircə dəfə hücum etsinlər – bir həmlədə sizi məğlub etsinlər. Əgər siz yağışdan əziyyət çəksəniz və ya xəstə olsanız, silahlarınızı yerə qoymaqda sizə günah yoxdur, lakin ehtiyatınızı əldən verməyin. Şübhəsiz ki, Allah kafirlər üçün alçaldıcı bir əzab hazırlamışdır.**

Bu ayədə qorxu namazından söhbət gedir və qorxu namazının bir çox növləri var. Belə ki, düşmən bəzən qiblə istiqamətində, bəzən isə başqa istiqamətlərdə ola bilər. Qılınan namaz bəzən dördrükətli, bəzən Məğrib namazı kimi üçrükətli, bəzən isə Sübh və ya Səfər namazı kimi ikirükətli ola bilər. Həmçinin qorxu namazı bəzən camaat şəklində qılına bilər, bəzən isə qızğın döyüş vaxtı camaat şəklində qılınması mümkün olmaya bilər. Bu halda namaz tək-tək, üzü qibləyə tərəf və ya qibləyə tərəf dönmədən ayaq üstə, ya da minik üzərində qılınır. Belə halda namaz qılan, namaz qıla-qıla düşmənin üzərinə gedə bilər və düşmənlə vuruşaraq ona ardıcıl zərbələr vura bilər.

Bəzi alimlər, əvvəl keçən İbn Abbasın ﵄ hədisinə əsasən, bu halda namazın bir rükət qılındığını demişlər.[1] Əhməd ibn Hənbəl ﵀ də belə demişdir. əl-Munziri “əl-Həvaşi” əsərində demişdir: “Əta, Cabir, əl-Həsən, Mucahid, əl-Həkəm, Qatədə və Həmməd də bu rəyi demişlər”. Tavus və əd-Dahhək ﵀ da bu rəyi seçmişlər. Əbu Asim əl-Abbadi nəql etmişdir ki, Muhəmməd ibn Nəsr əl-Mərvəzi ﵀ qorxu halında Sübh namazının bir rükət qılınması rəyində olmuşdur. İbn Həzm ﵀ də bu rəyi seçmişdir. İshaq ibn Rahaveyh ﵀ demişdir: “Düşmənlə qarşı-qarşıya döyüşdükdə ruku və səcdəyə eyham etməklə bir rükət sənə yetər. Əgər buna da imkan olmasa, bir səcdəyə eyham etməyin kifayətdir, çünki bu da Allahı zikr etməkdir”. Digər alimlər isə demişlər: “Qorxu namazında bir təkbir gətirmək (Allahu-Əkbər demək) kifayətdir”. Əhməd ibn Hənbəl ﵀ və onun davamçılarının dediyi kimi, burada bir rükət nəzərdə tutulur. Lakin bu rəyi nəql edənlər zahiri mənanı götürmürlər və qorxu namazında bir dəfə təkbir gətirməyin kifayət etdiyini demişlər. Necə ki bu, İshaq ibn Rahaveyhin ﵀ məzhəbidir. Əmir Abdul-Vəhhab ibn Buht əl-Məkki ﵀ də bu rəyi götürmüş və demişdir: “Əgər dili ilə təkbir gətirməyə gücü çatmasa, ürəyində bunu niyyət etməlidir”. Bu rəyi

[1] Burada bu hədis nəzərdə tutulur: “Uca Allah Peyğəmbərinizin ﷺ dili ilə namazı daimi yaşayış yerində dörd rükət, səfərdə iki rükət, qorxu halında isə bir rükət fərz etmişdir”.

Səid ibn Mənsur "Sunən" əsərində İsmail ibn Ayyəşdən, o da Şueyb ibn Dinardan rəvayət etmişdir. Ən doğrusunu Allah bilir.[1]

Bəzi alimlər isə döyüş səbəbindən namazı gecikdirməyin icazəli olduğunu bildirmişlər. Necə ki Peyğəmbər ﷺ Xəndək döyüşü günü Zöhr və Əsr namazlarını gecikdirərək hər ikisini Günəş batdıqdan sonra qılmışdır. Ardınca isə Məğrib və İşa namazlarını qılmışdır. Bu hadisədən sonra Bənu Qureyza qəbiləsinə hücum etmək üçün ordunu onların üzərinə göndərərkən "Bənu Qureyza qəbiləsinin yaşadığı yerə çatmadan heç kim Əsr namazını qılmasın" dedi. Bəzi səhabələr yolda ikən Əsr namazının vaxtı çatdı. Onların bir qismi "Peyğəmbər ﷺ sürətlə getməyimizi istədiyi üçün bizə belə demişdir. Əslində, namazı vaxtından sonraya saxlamağımızı istəməmişdir" deyərək namazı vaxtında və yolda qıldılar. Digərləri isə Əsr namazını gecikdirərək Günəş batdıqdan sonra Bənu Qureyza qəbiləsinin yaşadığı yer gəlib çatdıqda qıldılar. Bu barədə Peyğəmbərə ﷺ xəbər verdikdə bu iki qrupdan heç birinə irad tutmadı.[2] Biz bu barədə "Peyğəmbərin həyatı" kitabında ətraflı danışaraq bildirmişik ki, Əsr namazını vaxtında qılanlar daha doğru etmişlər, lakin digərləri də üzrlü sayılırlar. Bu hadisədə dəlil, döyüş və əhdi pozan yəhudi qəbiləsini mühasirəyə almaq səbəbi ilə namazı gecikdirənlərin üzrlü sayılmalarıdır.[3] Əksər alimlərin rəyinə görə isə qorxu namazının vacib edilməsi ilə bütün bunların (döyüş səbəbindən namazı gecikdirməyin) hökmü ləğv edilmişdir. Bu hadisələr baş verəndə qorxu namazı barədə ayə hələ nazil olmamışdı. Qorxu namazı barədə ayə nazil olduqda döyüşə görə namazı gecikdirməyin hökmü ləğv edilmişdir. Lakin əl-Muzəni, Əbu Yusuf və İbrahim ibn İsmail ibn Uleyyənin رحمه الله rəylərinə görə, qorxu namazının hökmü Xəndək döyüşü günü Peyğəmbərin ﷺ namazı gecikdirməsi ilə ləğv edilmişdir. Onların belə deməsi, həqiqətən qəribədir. Çünki Xəndək döyüşündən sonra qorxu namazının qılınmasına dəlalət edən bir çox hədislər varid olmuşdur.

Uca Allah buyurur: "**Sən səhabələrinin arasında olub onlara namaz qıldırdığın zaman**". Bu ayədə Uca Allah Peyğəmbərə ﷺ xitab edərək "Qorxu namazında sən onlara imam olaraq namaz

[1] Abdul-Vəhhab ibn Buxt رحمه الله Mərvanın ailəsinin azad etdiyi kölə idi. Döyüşlərə rəhbərlik edənlərdən biri idi. İmam Malikin رحمه الله şeyxlərindən biri olmuşdur. Malik رحمه الله onun barəsində demişdir: "Tez-tez həcc və ümrə edib, döyüşlərə qatılırdı və 113-cü ildə döyüşlərin birində düşmənə hücum edərkən şəhid oldu". Abdul-Vəhhabdan rəvayət edən Şueyb ibn Dinar, mötəbər ravi olan hafiz Şueyb ibn Əbu Həmzədir. (Əhməd Şakir).

[2] əl-Buxari, 894, 946, 3810, 4119; Muslim, 3317, 4701.

[3] Bax: İbn Kəsirin "Tarix" əsəri (4/116-118). (Əhməd Şakir).

qıldırdıqda" buyurur. Bu, birinci haldan[1] fərqlidir, çünki hədisin dəlalət etdiyi kimi, orada namaz təkbaşına, ayaq üstə və ya minik üzərində, üzü qibləyə tərəf və ya qibləyə tərəf dönmədən bir rükət qılınır. Burada isə Uca Allah camaat şəklində, bir imamın arxasında qılınan qorxu namazını zikr etmişdir. Bu ayəyə əsaslanaraq camaat namazının vacib olmasını deyən alimlər nə gözəl dəlil gətirmişlər. Belə ki, namazın bir çox hərəkətləri camaat halında qılınması üçün sadələşdirilmişdir. Əgər camaat namazı vacib olmasaydı, buna icazə verilməzdi. Bəzi alimlər ayədəki Uca Allahın "**Sən səhabələrinin arasında olub...**" sözünü əsas gətirərək Peyğəmbərin ﷺ vəfatından sonra bu xüsusiyyətin aradan qalxdığını və Peyğəmbərdən ﷺ sonra qorxu namazının hökmünün ləğv olduğunu demişlər. Lakin bu fikir zəifdir. Belə deyənlərin sözü Uca Allahın "**Onların mallarından sədəqə götür ki, bununla onları pak edib təmizə çıxarasan. Onlar üçün dua et. Çünki sənin duan onlar üçün bir təskinlikdir**" ("Tövbə", 103) ayəsinə əsaslanaraq Peyğəmbərdən ﷺ sonra zəkat verməkdən imtina edənlərin sözünə oxşayır. Onlar deyirdilər: "Biz zəkatı Peyğəmbərdən ﷺ başqa heç kimə vermirik. Zəkatı özümüz çıxarıb məsləhət bildiyimiz kəslərə (ayədə qeyd olunduğu kimi) duası bizim üçün təskinlik olan kəslərə veririk". Bununla belə, səhabələr onların bu sözünü rədd etmiş, gətirdikləri dəlili qəbul etməmiş, onları zəkat verməyə məcbur etmiş, verməyənlərlə isə vuruşmuşlar.

**Bu namazın necə qılınmasını izah etməmişdən əvvəl ayənin nazilolma səbəbini qeyd edək:**

İmam Əhməd رحمه الله Əbu Ayyəş əz-Zuraqinin رضي الله عنه belə dediyini rəvayət etmişdir: "Bir dəfə biz Peyğəmbərlə ﷺ birlikdə Usfan adlanan bir yerdə müşriklərlə qarşılaşdıq. Onlara Xalid ibn əl-Valid başçılıq edirdi. Müşriklər bizimlə Qiblə arasında idilər. Bu vaxt Peyğəmbər ﷺ bizə Zöhr namazını qıldırırdı. Müşriklər təəssüf edərək dedilər: "Müsəlmanlar elə vəziyyətdə idilər ki, biz onlara hücum edə bilərdik". Sonra arxayınlıqla "İndi isə onları özlərindən də, övladlarından da çox sevdikləri Əsr namazı gözləyir" dedilər. Zöhrlə Əsr namazlarının arasında Cəbrail bu ayəni gətirdi: "**Sən səhabələrinin arasında olub onlara namaz qıldırdığın zaman onların bir dəstəsi səninlə birlikdə namaza dursun**..." Əsr namazının vaxtı çatdıqda Peyğəmbər ﷺ

[1] Uca Allahın: "**Əgər nədənsə qorxsanız, namazınızı ayaq üstə və ya minik üzərində qılın. Təhlükə sovuşduqda isə Allahı, sizə bilmədiklərinizi necə öyrədibsə, o cür yad edin!**" ("əl-Bəqərə", 239) ayəsinin dəlalət etdiyi hal nəzərdə tutulur.

səhabələrinə silahlarını götürməyi əmr etdi. Biz Peyğəmbərin ﷺ arxasında iki səfə düzüldük. Sonra Peyğəmbər ﷺ ruku etdi, hamımız onunla birlikdə ruku etdik. Peyğəmbər ﷺ başını rukudan qaldırdı, biz də hamımız rukudan qalxdıq. Sonra Peyğəmbər ﷺ arxasındakı səf ilə səcdə etdi. Digər səf isə ayaq üstə qalıb onları (səcdə edənləri) qoruyurdu. Onlar iki səcdəni edib qalxdıqdan sonra arxadakılar (səcdə etməyənlər) aşağı oturub səcdə etdilər. Ayağa qalxdıqdan sonra Peyğəmbərin ﷺ arxasındakı səf geri çəkilərək arxadakıların yerini, arxa səfdəkilər də qabağa gedərək ön səfdəkilərin yerini tutdular. Sonra Peyğəmbər ﷺ ruku etdi və hamımız onunla birlikdə ruku etdik. Sonra səcdə etdi və birinci səfdə olanlar da səcdə etdilər. Arxadakılar isə onları ayaq üstə qoruyurdular. Peyğəmbər ﷺ və birinci səfdə olanlar başlarını səcdədən qaldırdıqdan sonra, arxadakılar aşağı oturub səcdəyə getdilər. Sonra hamı başını səcdədən qaldırdı və Peyğəmbər ﷺ bizim hamımızla birlikdə salam verib namazı bitirdi. Peyğəmbər ﷺ bu namazı iki dəfə – bir dəfə Usfanda, bir dəfə də Bənu Suleym qəbiləsində qıldı".[1] Həmçinin hədisi Əbu Davud və ən-Nəsəi رحمه الله də rəvayət etmişlər. Bu hədisin isnadı səhihdir və digər hədislər bunu təsdiqləyir. Bu hədislərdən biri də əl-Buxarinin رحمه الله İbn Abbasdan رضي الله عنهما rəvayət etdiyi hədisdir. Hədisdə İbn Abbas رضي الله عنهما demişdir: "Peyğəmbər ﷺ namaza qalxdı, insanlar da onunla birlikdə namaza qalxdılar. Peyğəmbər ﷺ təkbir gətirdi, insanlar da onunla birlikdə təkbir gətirdilər. Peyğəmbər ﷺ ruku etdikdə onlardan bir qrup ruku etdi. Səcdə etdikdə də bir qrup onunla birlikdə səcdə etdi. Sonra Peyğəmbər ﷺ ikinci rükəti qılmaq üçün qalxdı. Səcdə edənlər qalxıb qardaşlarını qorudular. Sonra digər qrup gələrək Peyğəmbər ﷺ ilə birlikdə ruku və səcdə etdi. Onların hamısı namazda ikən bir-birlərini qoruyurdular".[2]

İmam Əhməd Suleyman ibn Qeys əl-Yəşkuridən رحمه الله rəvayət etmişdir ki, Cabir ibn Abdullah رضي الله عنه demişdir: "Peyğəmbər ﷺ Məhərib ibn Xasafə qəbiləsi ilə döyüşə çıxmışdı.[3] Birdən Məhərib qəbiləsindən

[1] Əhməd (16653, 16654); Əbu Davud (1236); ət-Təbəri (10323, 10324); əl-Hakim (1/337). əl-Hakim رحمه الله hədisin səhih olduğunu bildirmiş, əz-Zəhəbi bununla razılaşmışdır. (Əhməd Şakir). Əhməd, 16630, 16580; əd-Dəraqutni, 1777, 1798; ət-Təbərani "Mucəmul-Kəbir" 4989, 4990; Abdur-Razzəq "Musannəf" 4237. Şueyb əl-Arnavut səhih olduğunu bildirmişdir.

[2] əl-Buxari, 892, 944.

[3] Bu döyüş tarix kitablarında Zətur-Riqa adı ilə də məşhurdur və hicrətin dördüncü ilində baş vermişdir. Peyğəmbərə ﷺ Bənu Sələbə və Bənu Məhərib qəbilələrinin Mədinəyə hücum etməyə hazırlaşdıqları barədə xəbər çatdı. Peyğəmbər ﷺ bu xəbəri eşitdikdə hicrətin dördüncü ilində dörd yüz nəfərlik qoşunla onlarla döyüşə çıxdı.

Ğauras ibn əl-Həris adlı biri kişi gəlib qılıncı ilə Peyğəmbərin ﷺ başının üstünü kəsdi və “Səni məndən kim qurtarar?” deyə soruşdu. Peyğəmbər ﷺ “Allah” deyə cavab verdi. Kişinin qılıncı əlindən düşdü və Peyğəmbər ﷺ qılıncı götürərək “İndi səni məndən kim qurtarar?” dedi. Kişi “Pisliyə yaxşılıqla qarşılıq verənlərdən ol!” dedi. Peyğəmbər ﷺ “Allahdan başqa haqq məbudun olmadığına və mənim Allahın elçisi olduğuma şahidlik edirsənmi?” deyə soruşdu. Kişi dedi: “Xeyr, lakin səninlə döyüşməyəcəyimə və sənə qarşı döyüşən qövmümə yardım etməyəcəyimə söz verirəm”. Peyğəmbər ﷺ onu sərbəst buraxdı və o, qövmünün yanına gələrək “Buraya ən xeyirli insanın yanından gəlmişəm” dedi. Namaz vaxtı çatdıqda Peyğəmbər ﷺ qorxu namazı qıldı. Səhabələr iki qrupa ayrılmışdı. Bir qrup düşmənin qarşısında dayandı, digər qrup isə Peyğəmbərlə ﷺ birlikdə namaz qıldı. Peyğəmbər ﷺ onunla birlikdə olan qrupa iki rükət namaz qıldırdı. Sonra onlar çəkilərək düşmənin qarşısında olan qrupun yerində dayandılar. Düşmənin qarşısında olanlar gələrək Peyğəmbərlə ﷺ birlikdə iki rükət namaz qıldı. Beləcə, Peyğəmbər ﷺ dörd rükət, qruplar isə iki rükət namaz qılmış oldu”. Hədisi bu şəkildə yalnız İmam Əhməd ؒ rəvayət etmişdir.[1]

İbn Əbu Hatim ؒ Yəzid əl-Fəqirin ؒ belə dediyini rəvayət etmişdir: “Bir dəfə Cabir ibn Abdullahdan səfərdə qılınan iki rükət namazın qısaldılmış olub-olmadığını soruşdum. Cabir ibn Abdullah ؓ belə cavab verdi: “Səfərdə qılınan iki rükət namaz tamdır, qısaldılmamışdır. Qısaldılmış namaz döyüş zamanı qılınan bir rükətdir. Bir dəfə biz Peyğəmbərlə ﷺ birlikdə döyüşdə idik. Namaz üçün iqamə verildi. Peyğəmbər ﷺ namaza qalxdı və insanları iki dəstəyə böldü. Bir dəstə Peyğəmbərin ﷺ arxasında cərgəyə düzüldü, digər dəstə isə üzü düşmənə tərəf cərgəyə düzüldü. Peyğəmbər ﷺ birinci dəstəyə bir rükət namaz qıldırdı və onlarla iki səcdə etdi. Sonra düşmənin qarşısında dayanan dəstə gəlib Peyğəmbərlə ﷺ birlikdə namaz qılan dəstənin yerində dayandı. Onlar isə düşmənə tərəf dayanan dəstənin yerini aldılar. Yeni gələnlər Peyğəmbərin ﷺ arxasında dayandılar. Peyğəmbər ﷺ onlara da bir rükət qıldırdı və onlarla iki səcdə etdi. Sonra Peyğəmbər ﷺ oturub salam verdi. Həm arxasında olanlar, həm də digərləri salam verdilər. Beləcə, Peyğəmbər ﷺ iki rükət, hər iki dəstə isə bir rükət namaz qılmış oldu”. Sonra Cabir ؓ

[1] Əhməd (14987, 15252); ət-Təbəri (10325). Bax: “əl-İsabə” (5/191-192); İbn Kəsirin “Tarix” əsəri (4/84-85); “Fəthul-Bari” (7/321-325). (Əhməd Şakir). Əhməd, 15227, 15258. Şueyb əl-Arnavut səhih olduğunu bildirmişdir.

Uca Allahın "**Sən səhabələrinin arasında olub onlara namaz qıldırdığın zaman onların bir dəstəsi səninlə birlikdə namaza dursun**..." ayəsini oxudu".[1]

İmam Əhməd ﷺ Yəzid əl-Fəqirin ﷺ belə dediyini rəvayət etmişdir: "Cabir ibn Abdullah ﷺ demişdir: "Bir dəfə Peyğəmbər ﷺ onlara qorxu namazı qıldırdı. Bir dəstə Peyğəmbərin ﷺ qarşısında, digər dəstə isə arxasında cərgəyə düzüldü. Peyğəmbər ﷺ arxasında olanlara iki səcdədən ibarət bir rükət qıldırdı. Sonra onlar qabağa keçərək yoldaşlarının yerində dayandılar. Digərləri də gələrək onların yerində dayandılar. Peyğəmbər ﷺ onlara da iki səcdədən ibarət bir rükət qıldırdı və salam verdi. Beləliklə, Peyğəmbər ﷺ iki rükət, onlar isə bir rükət qılmış oldu". Hədisi ən-Nəsəi ﷺ də rəvayət etmişdir.[2] Hədis Cabirdən ﷺ müxtəlif yollarla rəvayət edilmişdir. Həmçinin bu hədis başqa yolla və başqa bir mətnlə Muslimin "Səhih" əsərində də yer almışdır. Hədisi "Səhih", "Sunən" və "Musnəd" əsərlərində çox sayda insan Cabirdən ﷺ rəvayət etmişlər.[3]

İbn Əbu Hatim ﷺ rəvayət etmişdir ki, İbn Ömər ﷺ Uca Allahın "**Sən səhabələrinin arasında olub onlara namaz qıldırdığın zaman onların bir dəstəsi səninlə birlikdə namaza dursun**..." ayəsi barədə belə demişdir: "Bu, qorxu namazıdır. Bir dəstə düşmənin qarşısında dayanarkən Peyğəmbər ﷺ ikinci dəstəyə bir rükət qıldırdı. Sonra düşmənin qarşısında dayanan dəstə gəldi və Peyğəmbər ﷺ onlara ikinci rükəti qıldırdı. Sonra hamısı ilə birlikdə salam verdi. Sonra hər dəstə qalxıb daha bir rükət qıldılar".[4] Bu hədis hədis kitablarında bir çox səhabədən müxtəlif yollarla rəvayət edilmişdir.[5]

Qorxu namazında silah daşımağın əmr edilməsinə gəlincə, bir qrup alim ayənin zahirinə görə bunun vacib olduğunu demişdir. əş-Şafiinin ﷺ iki rəyindən biri belədir. Həmçinin Uca Allahın "**Əgər siz yağışdan əziyyət çəksəniz və ya xəstə olsanız, silahlarınızı yerə qoymaqda sizə günah yoxdur, lakin ehtiyatınızı əldən verməyin**"

[1] İbn Əbu Hatim, 5898.

[2] Əhməd (14229); ət-Təbəri (10340). (Əhməd Şakir). Əhməd, 14280, 14216, 14229; ən-Nəsəi "Sunən" 1527, 1545, 1556. Şueyb əl-Arnavut isnadının əl-Buxari və Muslimin şərtlərinə görə səhih olduğunu bildirmişdir.

[3] Əhməd (14488) Ətadan, o da Cabirdən, (15079) Əbu Zubeyrdən, o da Cabirdən, (14986) Əbu Sələmədən, o da Cabirdən ﷺ rəvayət etmişlər. Həmçinin Muslim ﷺ də rəvayət etmişdir (1/231). (Əhməd Şakir).

[4] İbn Əbu Hatim, 5900; Muslim, 1385, 1979.

[5] Əhməd (6351); Muslim (1/230). Lakin onlar hədisin əvvəlində ayəni zikr etməmişlər. (Əhməd Şakir).

ayəsi də buna dəlalət edər. Yəni hazırlıqlı olun, əgər silaha ehtiyac duysanız, özünüzü çətinliyə salmadan üstünüzdə gəzdirin. “**Şübhəsiz ki, Allah kafirlər üçün alçaldıcı bir əzab hazırlamışdır**”.

﴿فَإِذَا قَضَيْتُمُ ٱلصَّلَوٰةَ فَٱذْكُرُوا۟ ٱللَّهَ قِيَٰمًا وَقُعُودًا وَعَلَىٰ جُنُوبِكُمْ ۚ فَإِذَا ٱطْمَأْنَنتُمْ فَأَقِيمُوا۟ ٱلصَّلَوٰةَ ۚ
إِنَّ ٱلصَّلَوٰةَ كَانَتْ عَلَى ٱلْمُؤْمِنِينَ كِتَٰبًا مَّوْقُوتًا ﴿١٠٣﴾ وَلَا تَهِنُوا۟ فِى ٱبْتِغَآءِ ٱلْقَوْمِ ۖ إِن تَكُونُوا۟ تَأْلَمُونَ
فَإِنَّهُمْ يَأْلَمُونَ كَمَا تَأْلَمُونَ ۖ وَتَرْجُونَ مِنَ ٱللَّهِ مَا لَا يَرْجُونَ ۗ وَكَانَ ٱللَّهُ عَلِيمًا حَكِيمًا ﴿١٠٤﴾﴾

**103. Namazı bitirdikdən sonra ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı zikr edin. Düşmənin hücum tməyəcəyindən arxayın olduqda isə namazı lazımi qaydada qılın. Çünki namaz möminlərə bəlli vaxtlarda fərz edilmişdir.**

**104. Kafir qövmü təqib etməkdə zəiflik göstərməyin. Əgər siz döyüşdə ağrı-acı çəkirsinizsə, onlar da sizin kimi ağrı-acı çəkirlər. Fəqət siz onların ummadıqlarını Allahdan umursunuz. Allah hər şeyi biləndir, hikmət sahibidir.**

Uca Allah bu ayələrdə qorxu namazından sonra Allahı çox zikr etməyi əmr edir. Şəriətdə digər namazlardan sonra da Allahı zikr etmək buyurulmuş və bu əmələ təşviq edilmişdir. Lakin qorxu namazından sonra Allahı zikr etmək qəti şəkildə əmr olunmuşdur. Çünki qorxu namazının əhkamlarında olan asanlıq, namaz əsnasında hərəkət etmək imkanı və buna bənzər rüsxətlər (qibləyə çevrilmənin şərt olmaması, bir rükət qılınması və s.) digər namazlarda yoxdur. Uca Allahın haram aylar barədə: “**Odur ki bu aylarda özünüzə zülm etməyin**!” (“Tövbə”, 36) deməsi buna bənzəyir. Əslində, haram olmayan aylarda da insanın özünə zülm etməsi qadağandır, lakin bu aylarda zülm etməyin xüsusilə qadağan olunması, bu ayların əzəmətli və hörmətli olmasına görədir. Bu səbəbdən Uca Allah buyurur: “**Namazı bitirdikdən sonra ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı zikr edin**”, yəni digər hallarda da Allahı yad edin.

Sonra Uca Allah buyurur: “**Düşmənin hücum etməyəcəyindən arxayın olduqda isə**”, yəni təhlükə aradan qalxıb arxayınlığa çıxdıqda “**namazı lazımi qaydada qılın**”, yəni namazı tam olaraq qəlbən Allaha yönəlməklə, sizə əmr edildiyi şəkildə əhkamlarını, səcdələrini, rukularını və bütün hərəkətlərini tam yerinə yetirməklə qılın.

Uca Allah buyurur: “**Çünki namaz möminlərə bəlli vaxtlarda fərz edilmişdir**”. İbn Abbas رضي الله عنهما demişdir: “Yəni vacib edilmişdir”. İbn

Məsud رضي الله عنه demişdir: "Həccin bəlli vaxtı olduğu kimi, namazların da bəlli vaxtları vardır". Mucahid, Səlim ibn Abdullah və başqalarından رحمهم الله da belə rəvayət edilmişdir. Zeyd ibn Əsləm رحمه الله demişdir: "Yəni müxtəlif vaxtlarda fərz olmuşdur. Birinin vaxtı bitdikdə, digərinin vaxtı girir".

Uca Allah buyurur: "**Kafir qövmü təqib etməkdə zəiflik göstərməyin**", yəni düşmənlərinizi axtarmaqda zəiflik göstərməyin, əksinə, bu işdə ciddi olun, onlarla döyüşün və onlara hər yerdə pusqu qurun. "**Əgər siz döyüşdə ağrı-acı çəkirsinizsə, onlar da sizin kimi ağrı-acı çəkirlər**", yəni sizlərdən yaralanan və ölənlər olduğu kimi, onlardan da yaralanan və ölənlər olur. Başqa bir ayədə Uca Allah buyurur: "**Əgər siz Uhud döyüşündə yara almışsınızsa, əlbəttə, düşməniniz olan o qövm də bu cür yara almışdı**" ("Ali-İmran", 140).

Sonra Uca Allah buyurur: "**Fəqət siz onların ummadıqlarını Allahdan umursunuz**", yaralanma və ağrıçəkmə baxımından siz və onlar eynisiniz, lakin siz Allahdan mükafat, zəfər və yardım gözləyirsiniz. Onlar isə bunlardan heç birini gözləmirlər. Odur ki siz döyüşməyə onlardan daha layiqsiniz. Siz Allahın dinini yaşatmağı və ucaltmağı daha çox istəyirsiniz. "**Allah hər şeyi biləndir, hikmət sahibidir**", yəni Allah Öz iradəsinə uyğun təyin etdiyi və həyata keçirtdiyi şəriət və kainat hökmlərində[1] hikmət və elm sahibidir. Hər bir halda tərifə layiq olan yalnız Odur.

﴿ إِنَّآ أَنزَلۡنَآ إِلَيۡكَ ٱلۡكِتَٰبَ بِٱلۡحَقِّ لِتَحۡكُمَ بَيۡنَ ٱلنَّاسِ بِمَآ أَرَىٰكَ ٱللَّهُۚ وَلَا تَكُن لِّلۡخَآئِنِينَ خَصِيمٗا
١٠٥ وَٱسۡتَغۡفِرِ ٱللَّهَۖ إِنَّ ٱللَّهَ كَانَ غَفُورٗا رَّحِيمٗا ١٠٦ وَلَا تُجَٰدِلۡ عَنِ ٱلَّذِينَ يَخۡتَانُونَ أَنفُسَهُمۡۚ إِنَّ ٱللَّهَ
لَا يُحِبُّ مَن كَانَ خَوَّانًا أَثِيمٗا ١٠٧ يَسۡتَخۡفُونَ مِنَ ٱلنَّاسِ وَلَا يَسۡتَخۡفُونَ مِنَ ٱللَّهِ وَهُوَ مَعَهُمۡ إِذۡ
يُبَيِّتُونَ مَا لَا يَرۡضَىٰ مِنَ ٱلۡقَوۡلِۚ وَكَانَ ٱللَّهُ بِمَا يَعۡمَلُونَ مُحِيطًا ١٠٨ هَٰٓأَنتُمۡ هَٰٓؤُلَآءِ جَٰدَلۡتُمۡ
عَنۡهُمۡ فِي ٱلۡحَيَوٰةِ ٱلدُّنۡيَا فَمَن يُجَٰدِلُ ٱللَّهَ عَنۡهُمۡ يَوۡمَ ٱلۡقِيَٰمَةِ أَم مَّن يَكُونُ عَلَيۡهِمۡ وَكِيلٗا ١٠٩ ﴾

[1] **Şəriət hökmləri** – Uca Allahın qullarından yerinə yetirməsini tələb etdiyi şəriət əhkamlarıdır. Məsələn, namaz qılmaq, oruc tutmaq, haramları tərk etmək və s. Şəriət hökmlərinin hamısı Allahın sevib, razı qaldığı əməllərdir. Şəriət hökmlərinə əməl etməyənlər də var. Məsələn, Uca Allah qullarına namaz qılmağı buyurmuşdur, buna baxmayaraq, namaz qılmayan qullar var. **Kainat hökmləri** isə Uca Allahın kainatda baş verməsinə qərar verdiyi hadisələrədir və bu hadisələrin baş verməsi mütləqdir. Kainatda baş verən hadisələrin hamısı heç də Allahın sevib və razı qaldığı hadisələr olmur. Bu hadisələr həm Allahın sevib razı qaldığı, həm də sevmədiyi və razı qalmadığı hadisələr ola bilər. Allahın sevmədiyi hadisələrin baş verməsi Allahın bildiyi gizli və ya aşkar hikmətə görədir. Hər bir halda bu hadisələrin baş verməsi ilə xeyir nəzərdə tutulmuşdur.

**105. Həqiqətən, Biz sənə Kitabı haqq olaraq nazil etdik ki, Allahın sənə göstərdiyi kimi insanlar arasında hökm verəsən. Odur ki xainlərin tərəfini tutma.**
**106. Allahdan bağışlanma dilə! Şübhəsiz ki, Allah bağışlayandır, rəhmlidir.**
**107. Özlərinə xəyanət edənləri müdafiə etmə. Şübhəsiz ki, Allah xain günahkarı sevməz.**
**108. Onlar Allahın razı qalmadığı sözləri gecələr xəlvətdə söyləyərkən, onu insanlardan gizlətsələr də, öz yanlarında olan Allahdan gizlədə bilməzlər. Allah onların nə etdiklərini əhatə edir.**
**109. Bax, siz o kəslərsiniz ki, dünya həyatında onlardan ötrü mübahisə etdiniz, bəs Qiyamət günü onlardan ötrü Allahla kim mübahisə edəcək, yaxud onlara kim vəkil olacaq?**

Uca Allah bu ayədə elçisi Muhəmmədə ﷺ xitab edərək "**Həqiqətən, Biz sənə Kitabı haqq olaraq nazil etdik**" buyurur. Yəni bu Kitab Allah tərəfindən gələn bir haqdır və onda olan xəbərlər və hökmlər yalnız haqqı ehtiva etmişdir.

Uca Allah buyurur: "**Allahın sənə göstərdiyi kimi insanlar arasında hökm verəsən**". Üsul-fiqh[1] alimlərindən bəziləri bu ayəyə əsaslanaraq Peyğəmbərin ﷺ öz şəxsi rəyi ilə də hökmvermə haqqı olduğunu demişlər. Bu fikirdə olanlar həmçinin əl-Buxari və Muslimin "Səhih" əsərlərində Ummu Sələmədən رضي الله عنها rəvayət edilən bu hədisi dəlil gətirmişlər. Ummu Sələmə رضي الله عنها rəvayət etmişdir ki, bir dəfə Peyğəmbər ﷺ evinin qapısının yanında mübahisə edən adamların səsini eşitdi və onların yanına çıxıb dedi: "Mən, sadəcə, bir insanam. Hərçənd mübahisələri düşmüş insanlar mübahisələrini çözmək üçün mənim yanıma gəlirlər, lakin olur ki, biriniz sübut gətirərkən digərinizdən daha bəlağətlə danışır və mən də onun doğru danışdığını hesab edirəm. Bu səbəbdən də hökmü onun lehinə çıxarıram. Əgər mən səhvən bir müsəlmanın haqqını başqa birisinə verirəmsə, əslində, mən ona Cəhənnəm odundan bir parça vermiş oluram. Bundan sonra isə özü bilər, istər onu götürsün, istərsə də tərk etsin".[2]

İmam Əhməd رحمه الله Ummu Sələmənin رضي الله عنها belə dediyini rəvayət etmişdir: "Bir dəfə ənsarlardan olan iki kişi aralarında olub keçmiş bir miras məsələsində mühakimə olunmaq üçün Peyğəmbərə ﷺ müraciət

[1] Üsul-fiqh elmi – şəriətin buyurduğu əməli ibadətlərin (namaz, zəkat, oruc, həcc və s.) əhkamlarını (halal, haram, məkruh və s.) ümumi şəkildə öyrənən elmdir.
[2] əl-Buxari (5/77, 12/299-300, 13/139, 151, 152, 156 Fəthul-Bari); Muslim (2/40). (Əhməd Şakir). əl-Buxari, 2278, 2458, 6645, 7181; Muslim, 3232, 4572.

etdilər. Heç birinin də dediyinin sübutu yox idi. Peyğəmbər ﷺ dedi: "Siz mühakimə olunmaq üçün mənə müraciət etmisiniz. Mən, sadəcə, bir insanam. Bəzən biriniz sübut gətirərkən digərinizdən daha fərasətli olur və mən də onun doğru danışdığını hesab edib, eşitdiyimə əsasən aranızda hökm verirəm. Əgər mən sizlərdən birinə səhvən müsəlman qardaşının haqqını verirəmsə, qoy onu götürməsin! Çünki, əslində, mən ona Cəhənnəm odundan bir parça vermiş oluram. Qiyamət günü o adam, götürdüyünü boynunda bir od maşası şəklində gətirəcəkdir". Peyğəmbər ﷺ belə dedikdə hər ikisi ağladı və hər biri digərinə "Haqqım qardaşımındır" dedi. Peyğəmbər ﷺ dedi: "Madam ki belə dediniz, o halda gedin, mirası aranızda bölün və ədalətli olun. Əgər bölüşə bilmədiyiniz bir şey olsa, püşk atın. Sonda bir-birinizlə halallaşın!"[1] Həmçinin hədisi Əbu Davud رحمه الله rəvayət etmiş və bu cümləni əlavə etmişdir: "Mənə vəhy gəlməyən xüsuslarda mən sizin aranızda öz rəyimlə hökm verirəm".[2]

[ət-Tirmizi "Sunən" əsərində və İbn Cərir "Təfsir" kitabında bu ayələrin təfsirində Qatədə ibn ən-Numanın رضي الله عنه belə dediyini rəvayət etmişlər: "Bizim aramızda ənsarlardan olan bir ailə var idi. Bu ailəyə Ubeyriq oğulları deyilirdi. Həmin ailədən olan bir kişini Bişr, Buşeyr və ya Mübəşşir deyə çağırardılar. Buşeyr münafiq idi. O, Peyğəmbərin ﷺ səhabələrini pisləyən şeirlər deyər, sonra bu şeirləri yalandan köhnə şairlərdən birinə nisbət edərək "Filan şair belə-belə dedi" deyərdi. Peyğəmbərin ﷺ səhabələri bu şeiri eşitdikdə "Allaha and olsun ki, bu şeiri bu xəbisdən başqası deməz. Bunu desə-desə, ancaq Ubeyriq oğullarından bu kişi deyər" deyərdilər. Bu ailə həm cahiliyyət, həm də İslam dövründə ehtiyac içində, yoxsul bir vəziyyətdə yaşayırdılar. Mədinə əhalisinin o dövrdə yeməkləri, əsasən, xurma və arpadan ibarət idi. Bənu Ubeyriq ailəsindən olan bir kişi pulu olduğu vaxt Şamdan ağ un yüklü karvan gəldikdə onlardan un alar və yalnız özü yeyərdi. Qadın və uşaqların yedikləri isə yenə arpa və xurma olurdu. Bir dəfə Şamdan bir karvan gəldi, əmim Rifəa ibn Zeyd bir miqdar ağ un alıb anbarına qoydu. O anbarda eyni zamanda silah, zireh və qılınc da var idi. Kimsə evin altından girib anbardakı yemək və silahı oğurlamışdı. Səhər açıldıqda əmim Rifəa mənim yanıma gəlib dedi: "Ey qardaşoğlu, gecə evimizə oğru girib. Anbarımız açılıb, içərisindəki un və silah aparılıb". Biz qəsəbə sakinlərindən soruşub araşdırdıq. Onlar dedilər: "Ubeyriq oğulları bu gecə od qalamışdılar. Ola bilsin

[1] Əhməd, 26717, 26760, 27253. Hədis həsəndir. Bax: Silsilə əs-Səhihə, 455.
[2] Əhməd (6/320 Hələbi nəşri); Əbu Davud (3584, 3585). (Əhməd Şakir). Əbu Davud, 3585, 3587. Hədis həsəndir. Bax: Mişkətul-Məsabih, 3770.

sizdən oğurladıqları yeməyi bişirirdilər". Biz Ubeyriq oğullarından da soruşduq. Onlar "Allaha and olsun ki, axtardığınız adamın Ləbid ibn Səhl olduğu qənaətindəyik" dedilər. Halbuki Ləbid dindar və əməlisaleh bir kişi idi. Ləbid onun barəsində deyiləni eşitdikdə qılıncını çəkib dedi: "Mən oğurlamışam? Allaha and olsun ki, ya bu oğurluğun üstünü açacaqsınız, ya da bu qılınc işə qarışacaq". İnsanlar ona dedilər: "Ey kişi, sən kənara çəkil! Bu iş sənə aid deyil". Qəsəbədə bu məsələni o qədər araşdırdıq ki, artıq Ubeyriq oğullarından birinin bu oğurluqda əli olmasından şübhəmiz qalmadı. Əmim dedi: "Ey qardaşoğlu, bəlkə, Peyğəmbərin ﷺ yanına gedib vəziyyəti ona izah edəsən!" Qatadə dedi: "Mən Peyğəmbərin ﷺ yanına gəlib dedim: "Ey Allahın Elçisi, bizdən qonşularına əziyyət verən bir ailə, əmim Rifəa ibn Zeydin anbarını yarmışdır. Oradan silah və qida məhsullarını oğurlamışdır. Qida məhsullarını istəmirik, heç olmasa, silahımızı versinlər". Peyğəmbər ﷺ dedi: "Narahat olmayın. Bu məsələ ilə əlaqəli lazım olan əmri verəcəyəm". Ubeyriq oğulları bizim Peyğəmbərə ﷺ müraciət etdiyimizi eşitdikdə, özlərindən olan Useyr ibn Urvə adlı bir kişinin yanına gəlib məsələni ona danışdılar. Qəsəbədən bir neçə nəfəri başlarına yığıb Peyğəmbərin ﷺ yanına gələrək dedilər: "Ey Allahın Elçisi, Qatədə ibn ən-Numan və əmisi bizdən əməlisaleh və yaxşı bir müsəlman olan kimsəni heç bir dəlil-sübut olmadan oğurluqda ittiham edirlər". Qatədə dedi: "Mən Peyğəmbərin ﷺ yanına gəlib məsələni danışdım. Peyğəmbər ﷺ mənə dedi: "Siz müsəlman olan bir ailəni dəlil-sübut olmadan oğurluqda ittiham edirsiniz". Mən kor-peşman qayıtdım və öz-özümə "Kaş ki malımın çoxu əlimdən gedərdi, amma bu məsələni Peyğəmbərə ﷺ danışmazdım" dedim. Əmim Rifəa mənim yanıma gəlib "Ey qardaşoğlu, nə etdin?" deyə soruşdu. Mən də ona Peyğəmbərin ﷺ mənə nə dediyini bildirdim. O "Allahdan kömək diləmək lazımdır!" dedi. Çox keçmədən bu barədə Quran ayəsi nazil oldu: "**Həqiqətən, Biz sənə Kitabı haqq olaraq nazil etdik ki, Allahın sənə göstərdiyi kimi insanlar arasında hökm verəsən. Odur ki xainlərin tərəfini tutma**", yəni Bənu Ubeyriq qəbiləsinin. "**Allahdan bağışlanma dilə!**", yəni Qatədəyə dediklərinə görə, "**Şübhəsiz ki, Allah bağışlayandır, rəhmlidir. Özlərinə xəyanət edənləri müdafiə etmə. Şübhəsiz ki, Allah xain günahkarı sevməz. Onlar Allahın razı qalmadığı sözləri gecələr xəlvətdə söyləyərkən, onu insanlardan gizlətsələr də, öz yanlarında olan Allahdan gizlədə bilməzlər. Allah onların nə etdiklərini əhatə edir. Bax, siz o kəslərsiniz ki, dünya həyatında onlardan ötrü mübahisə etdiniz, bəs Qiyamət günü onlardan ötrü Allahla kim mübahisə edəcək, yaxud onlara kim vəkil olacaq?**

**Kim pis bir iş görər və ya özü özünə zülm edər, sonra da Allahdan bağışlanma diləyərsə, Allahın bağışlayan, rəhmli olduğunu görər**”, yəni əgər Allahdan bağışlanma diləsələr, Allah onları bağışlayar. “**Kim günah qazanarsa, onu ancaq öz əleyhinə qazanmış olar. Allah hər şeyi biləndir, hikmət sahibidir**”. Ləbid barədə isə bu ayə nazil oldu: “**Kim xəta edər və ya günah qazanar, sonra da onu təqsiri olmayanın boynuna atarsa, özü özünə böhtan atmış və açıq aydın günaha batmış olar. Əgər sənə Allahın lütfü və rəhmi olmasaydı, əlbəttə, onların bir qismi səni doğru yoldan azdırmaq istəyəcəkdi. Halbuki onlar özlərindən başqasını azdıra bilməz və sənə də heç bir zərər verə bilməzlər. Allah sənə Kitabı və hikməti nazil etdi və sənə bilmədiklərini öyrətdi. Allahın sənə olan lütfü böyükdür. Onların gizli söhbətlərinin çoxunda xeyir yoxdur. Yalnız sədəqə verməyi və ya yaxşılıq etməyi, yaxud da insanlar arasında sülh yaratmağı əmr edən şəxsin gizli danışması istisnadır. Kim bunu Allahın razılığını qazanmaq üçün edərsə, Biz ona böyük mükafat verərik**” (“ən-Nisa”, 114-105). Quranın bu ayələri nazil olduqda, oğurlanmış silah gətirilib Peyğəmbərə ﷺ verildi. O da silahı Rifəaya qaytardı. Qatədə dedi: “Mən silahı əmimə gətirdikdə cahiliyyə dövründə gözü zəifləmiş və yaşlanmış bir qoca idi. Mən hətta onun İslamda olmağına da şübhə ilə yanaşırdım. Silahla yanına gəldikdə “Ey qardaşoğlu, mən o silahı Allah yolunda verirəm” dedi. Belə dedikdə, onun İslamı səmimi olaraq qəbul etdiyini anladım. Bu məsələ ilə əlaqəli Quran ayələri nazil olduqda Buşeyr qaçıb müşriklərə qoşuldu və Suləfa bint Sad ibn Sumeyyənin yanına gedib onlara sığındı. Uca Allah bu ayələri nazil etdi: “**Hər kəs özünə doğru yol bəlli olduqdan sonra Peyğəmbərə qarşı çıxıb möminlərin yolundan başqa bir yolla gedərsə, onu üz tutduğu yola yönəldər və Cəhənnəmə giriftar edərik. Ora nə pis dönüş yeridir. Allah Özünə şərik qoşulmasını əsla bağışlamaz. Bundan başqa günahları isə istədiyi kimsəyə bağışlar. Allaha şərik qoşan kəs, əlbəttə ki, dərin bir azğınlığa düşmüşdür**” (“ən-Nisa”, 115-116). Buşeyr Suləfa bint Sad ibn Sumeyyənin yanına getdikdən sonra İslam şairi Həssən ibn Səbit o qadını bir neçə beytlə məzəmmət etdi. Bundan sonra qadın Buşeyrin əşyalarını götürüb başının üzərinə qoydu və əl-Əbtah adlanan yerə atıb dedi: “Gəlişinlə Həssənin şeirini mənə hədiyyə etdin. Səndən heç bir xeyir görmədim”.][1]

---

[1] ət-Tirmizi, 3036, 3310; ət-Təbərani “Mucəmul-Kəbir” 15358. Hədis həsəndir. Əhməd Şakir ﷺ ixtisar edərkən bu hədisi kitabdan çıxarmışdır. Ola bilsin, o bu hədisi zəif gördüyünə görə ixtisar etmişdir. Lakin, qeyd etdiyimiz kimi, hədis həsəndir və “ən-Nisa” surəsinin 105-115-ci ayələrinin nazilolma səbəbinə dəlalət edir.

Uca Allah buyurur: "**Onlar Allahın razı qalmadığı sözləri gecələr xəlvətdə söyləyərkən onu insanlardan gizlətsələr də, öz yanlarında olan Allahdan gizlədə bilməzlər**". Bu ayə münafiqlərə qarşı bir inkardır. İnsanların qınağından qorxaraq qəbahətlərini insanlardan gizlədən münafiqlər, əslində, bu qəbahətlərini Allaha açıqlayırlar. Çünki Allah onların sirlərindən xəbərdar və qəlblərindən keçənlərdən agahdır. Bu səbəbdən Uca Allah "**Onlar Allahın razı qalmadığı sözləri gecələr xəlvətdə söyləyərkən onu insanlardan gizlətsələr də, öz yanlarında olan Allahdan gizlədə bilməzlər. Allah onların nə etdiklərini əhatə edir**" buyurur. Bu da onlar üçün bir təhdid və qorxutmadır.

Sonra Uca Allah buyurur: "**Bax, siz o kəslərsiniz ki, dünya həyatında onlardan ötrü mübahisə etdiniz, bəs Qiyamət günü onlardan ötrü Allahla kim mübahisə edəcək?**", yəni tutaq ki, münafiqlərin üzdə göstərdiklərinə əsasən onların zahiri əməllərinə uyğun hökm edən hakimlər verdikləri hökmlə Allaha yaxınlaşdıqlarını sanaraq dünyada onların lehinə bir hökm çıxartdılar və onlar mühakimədə qələbə çaldılar. Bəs Qiyamət günü hər bir sirri, hətta bundan daha gizli olanı bilən Allahın hüzurunda nə edəcəklər? Onların iddialarını qaldırmaq üçün kim vəkillik edəcək? O gün heç kim onlara vəkil olmayacaq. Bu səbəbdən Uca Allah ayənin sonunda "**yaxud onlara kim vəkil olacaq?**" buyurur.

﴿ وَمَن يَعْمَلْ سُوٓءًا أَوْ يَظْلِمْ نَفْسَهُۥ ثُمَّ يَسْتَغْفِرِ ٱللَّهَ يَجِدِ ٱللَّهَ غَفُورًا رَّحِيمًا ﴿١١٠﴾ وَمَن يَكْسِبْ
إِثْمًا فَإِنَّمَا يَكْسِبُهُۥ عَلَىٰ نَفْسِهِۦ ۚ وَكَانَ ٱللَّهُ عَلِيمًا حَكِيمًا ﴿١١١﴾ وَمَن يَكْسِبْ خَطِيٓـَٔةً أَوْ إِثْمًا
ثُمَّ يَرْمِ بِهِۦ بَرِيٓـًٔا فَقَدِ ٱحْتَمَلَ بُهْتَٰنًا وَإِثْمًا مُّبِينًا ﴿١١٢﴾ وَلَوْلَا فَضْلُ ٱللَّهِ عَلَيْكَ وَرَحْمَتُهُۥ لَهَمَّت
طَّآئِفَةٌ مِّنْهُمْ أَن يُضِلُّوكَ وَمَا يُضِلُّونَ إِلَّآ أَنفُسَهُمْ ۖ وَمَا يَضُرُّونَكَ مِن شَىْءٍ ۚ وَأَنزَلَ ٱللَّهُ عَلَيْكَ
ٱلْكِتَٰبَ وَٱلْحِكْمَةَ وَعَلَّمَكَ مَا لَمْ تَكُن تَعْلَمُ ۚ وَكَانَ فَضْلُ ٱللَّهِ عَلَيْكَ عَظِيمًا ﴿١١٣﴾ ﴾

**110. Kim pis bir iş görər və ya özü özünə zülm edər, sonra da Allahdan bağışlanma diləyərsə, Allahın bağışlayan, rəhmli olduğunu görər.**

**111. Kim günah qazanarsa, onu ancaq öz əleyhinə qazanmış olar. Allah hər şeyi biləndir, hikmət sahibidir.**

**112. Kim xəta edər və ya günah qazanar, sonra da onu təqsiri olmayanın boynuna atarsa, özü özünə böhtan atmış və açıq aydın günaha batmış olar.**

**113. Əgər sənə Allahın lütfü və rəhmi olmasaydı, əlbəttə, onların bir qismi səni doğru yoldan azdırmaq istəyəcəkdi. Halbuki onlar özlərindən başqasını azdıra bilməz və sənə də heç bir zərər verə bilməzlər. Allah sənə Kitabı və hikməti nazil etdi və sənə bilmədiklərini öyrətdi. Allahın sənə olan lütfü böyükdür.**

Uca Allah bu ayədə səxavətli olduğunu bildirərək edilən günahın növündən asılı olmayaraq, tövbə edənin tövbəsini qəbul edəcəyini xəbər verir və buyurur: "**Kim pis bir iş görər və ya özü özünə zülm edər, sonra da Allahdan bağışlanma diləyərsə, Allahın bağışlayan, rəhmli olduğunu görər**".

İbn Abbas ﵄ bu ayə barədə belə demişdir: "Uca Allah bu ayədə qullarına qarşı həlim, əfv edən, səxavətli, geniş mərhəmətə və məğfirətə sahib olduğunu xəbər verir. Kiçik və ya böyük olmasından asılı olmayaraq, kim günah bir iş görər, "**sonra da Allahdan bağışlanma diləyərsə**", etdiyi günahlar göylərdən, yerdən və dağlardan böyük olsa belə, "**Allahın bağışlayan, rəhmli olduğunu görər**". Hədisi İbn Cərir ﵀ rəvayət etmişdir.[1]

Həmçinin İbn Cərir ﵀ Abdullah ibn Məsudun ﵁ belə dediyini rəvayət etmişdir: "İsrail oğullarından kimsə bir günah işlədikdə səhər bu günahının kəffarəsini qapısına yazılmış görərdi. Paltarına sidik (və ya nəcis) bulaşdıqda nəcis dəyən yeri qayçı ilə kəsib atardı. Bir dəfə bir kişi dedi: "Allah İsrail oğullarına, həqiqətən, xeyir vermişdir". Abdullah belə dedi: "Allah sizə onlara verdiyindən daha xeyirlisini vermiş və suyu sizə təmizləyici vasitə etmişdir. Uca Allah "**O kəslər ki bir pis iş gördükdə, yaxud özlərinə zülm etdikdə, Allahı xatırlayıb günahlarının bağışlanmasını diləyərlər. Axı günahları Allahdan başqa kim bağışlaya bilər? Bir də onlar gördükləri pis işlərdə bilə-bilə israr etməzlər**" ("Ali-İmran", 135) və "**Kim pis bir iş görər və ya özü özünə zülm edər, sonra da Allahdan bağışlanma diləyərsə, Allahın bağışlayan, rəhmli olduğunu görər**" buyurur".[2]

[1] ət-Təbəri (10424). (Əhməd Şakir). ət-Təbəri, 10424, 10489.

[2] ət-Təbəri (10422). İsnadı səhihdir. əs-Suyuti (2/219) əlavə olaraq hədisi Abd ibn Humeydə, ət-Təbəraniyə və əl-Beyhəqinin "Şuab" əsərinə nisbət etmişdir. əl-Heysəmi hədisi "əz-Zəvaid" əsərində ət-Təbəraninin ﵀ rəvayəti ilə qeyd etmiş və demişdir: "Hədisi rəvayət edənlər "Səhih" əsərində adları keçən ravilərdir, lakin İbn Sirin ﵀ İbn Məsuddan ﵁ hədis eşitməmişdir". Çünki o, İbn Məsuddan ﵁ hədis eşitməsi üçün çox kiçik olub. Lakin ət-Təbərinin ﵀ isnadı bitişikdir. ət-Təbəri ﵀ hədisi Əbu Vaildən, o da İbn Məsuddan ﵁ rəvayət etmişdir. (Əhməd Şakir). ət-Təbəri, 10487.

Yenə İbn Cərir ﷺ Həbib ibn Əbu Sabitin ﷺ belə dediyini rəvayət etmişdir: "Bir qadın Abdullah ibn Muğaffəlin yanına gələrək ondan zina edən, bu zinadan hamilə qalan, doğduqdan sonra isə uşağını öldürən bir qadının halı barədə soruşdu. Abdullah ibn Muğaffəl "Beləsinin halı necə olsun? O, Cəhənnəmə düşəcək" dedi. Qadın ağlayaraq çıxıb getdi. Abdullah ibn Muğaffəl onu çağırıb dedi: "Sənin halın bu ikisindən (Cəhənnəm və ya bağışlanma) biridir". Sonra Uca Allahın "**Kim pis bir iş görər və ya özü özünə zülm edər, sonra da Allahdan bağışlanma diləyərsə, Allahın bağışlayan, rəhmli olduğunu görər**" ayəsini oxudu. Qadın gözlərinin yaşını silərək getdi".[1]

İmam Əhməd ﷺ Əlinin ﷺ belə dediyini rəvayət etmişdir: "Peyğəmbərdən ﷺ bir hədis eşitdiyim zaman Allah məni istədiyi qədər bu hədisdən faydalandırardı. Bir dəfə Əbu Bəkr mənə Peyğəmbərdən ﷺ belə eşitdiyini xəbər verdi və o, doğru söyləmişdir: "Günah edən elə bir kəs yoxdur ki, dərhal gözəl şəkildə dəstəmaz alıb iki rükət namaz qılsın və namazında Uca Allahdan bağışlanma diləsin, Allah da onun günahlarını bağışlamasın". Sonra Əli Uca Allahın bu iki ayəsini oxudu: "**O kəslər ki bir pis iş gördükdə, yaxud özlərinə zülm etdikdə, Allahı xatırlayıb günahlarının bağışlanmasını diləyərlər. Axı günahları Allahdan başqa kim bağışlaya bilər? Bir də onlar gördükləri pis işlərdə bilə-bilə israr etməzlər**" ("Ali-İmran", 135) və "**Kim pis bir iş görər və ya özü özünə zülm edər, sonra da Allahdan bağışlanma diləyərsə, Allahın bağışlayan, rəhmli olduğunu görər**"[2].

Uca Allahın "**Kim günah qazanarsa, onu ancaq öz əleyhinə qazanmış olar**" ayəsi, bu ayəyə bənzəyir: "**Heç bir günahkar başqasının günah yükünü daşımaz. Yükü ağır olan kimsə öz yükünü daşımaq üçün başqasını köməyə çağırsa və çağırdığı kimsə yaxın qohumu olsa belə, o yükdən heç nə daşınmaz**" ("Fatir", 18).

[1] ət-Təbəri (10423). İsnadı səhihdir. Qardaşım Mahmud Şakir ﷺ demişdir: "Bu hədis gözəl xüsusiyyətlərə – dini biliyə, düşüncəyə, dünyəvi işlərdə insanlara nəsihətə dəlalət edən hədislərdən biridir". Mən deyirəm: "Həbib ibn Əbu Sabit ﷺ və Abdullah ibn Muğaffəl ﷺ qadını zina etməkdə ittiham etməmişlər. Çünki onlar qadının kimliyini bildirmədilər. Həmçinin Abdullah ibn Muğaffəl qazi deyildi ki, qadına hökm kəssin. Sadəcə, ona qardaş kimi nəsihət etdi. Bu, böyük alimlərə xas olan bir xüsusiyyətdir. Allah onlardan razı olsun!" (Əhməd Şakir). ət-Təbəri, 10488.

[2] Əhməd (47). Bu hədis "Ali-İmran" surəsinin 130-136-cı ayələrinin təfsirində keçmişdir. "əl-Musnəd" (2). Həmçinin, "ən-Nisa" surəsinin 43-cü ayəsinin təfsirində bu hədisə işarə olunmuşdur. (Əhməd Şakir). İbn Məcə (1144, 1395). Hədis həsəndir. Bax: Mişkətul-Məsabih, 1324.

Yəni heç kimin günahı başqasının üzərinə yüklənməz. Hər kəsin etdiyi günah öz əleyhinədir. Onun əvəzinə bu günahı heç kim daşımaz. Bu səbəbdən Uca Allah ayənin sonunda “**Allah hər şeyi biləndir, hikmət sahibidir**” buyurur. Yəni bu, Onun elminə, hikmətinə, ədalətinə və rəhmətinə görədir.

Sonra Uca Allah buyurur: “**Kim xəta edər və ya günah qazanar, sonra da onu təqsiri olmayanın boynuna atarsa, özü özünə böhtan atmış və açıq aydın günaha batmış olar**”. Bu ayədəki məzəmmət və qınaq bu xüsusiyyətə malik olan hər kəsə aiddir.

Sonra buyurur: “**Əgər sənə Allahın lütfü və rəhmi olmasaydı, əlbəttə, onların bir qismi səni doğru yoldan azdırmaq istəyəcəkdi. Halbuki onlar özlərindən başqasını azdıra bilməz və sənə də heç bir zərər verə bilməzlər**”.

Sonra Uca Allah Peyğəmbərinə ﷺ Öz nemətini xatırladaraq onu bütün hallarda qüvvətləndirdiyini, səhvlərdən qoruduğunu, ona Kitabı – Quranı və Hikməti – sünnəni (hədisləri) nazil etdiyini bildirir. “**Sənə bilmədiklərini öyrətdi**”, yəni Quran nazil olmamışdan əvvəl bilmədiklərini sənə öyrətdi. Bu ayə, Uca Allahın bu ayələrinə bənzəyir: “**Biz sənə Öz əmrimizdən olan Ruhu (Quranı) vəhy etdik. Sən kitab nədir, iman nədir bilmirdin. Lakin Biz onu, qullarımızdan istədiyimizi doğru yola yönəltmək üçün bir nur etdik. Həqiqətən, sən onları doğru yola – göylərdə və yerdə olanların sahibi Allahın yoluna yönəldirsən. Şübhəsiz ki, bütün işlər Allaha qayıdır**” (“əş-Şura”, 52-53), “**Sən bu Kitabın sənə nazil olacağına ümid etmirdin. Bu ancaq Rəbbindən bir mərhəmətdir. Odur ki heç vaxt kafirlərə arxa olma!**” (“əl-Qəsəs”, 86). Bu səbəbdən ayənin sonunda “**Allahın sənə olan lütfü böyükdür**” buyurur.

﴿ ۞ لَّا خَيْرَ فِي كَثِيرٍ مِّن نَّجْوَاهُمْ إِلَّا مَنْ أَمَرَ بِصَدَقَةٍ أَوْ مَعْرُوفٍ أَوْ إِصْلَاحٍ بَيْنَ النَّاسِ ۚ وَمَن
يَفْعَلْ ذَٰلِكَ ابْتِغَاءَ مَرْضَاتِ اللَّهِ فَسَوْفَ نُؤْتِيهِ أَجْرًا عَظِيمًا ﴿١١٤﴾ وَمَن يُشَاقِقِ الرَّسُولَ مِن بَعْدِ مَا
تَبَيَّنَ لَهُ الْهُدَىٰ وَيَتَّبِعْ غَيْرَ سَبِيلِ الْمُؤْمِنِينَ نُوَلِّهِ مَا تَوَلَّىٰ وَنُصْلِهِ جَهَنَّمَ ۖ وَسَاءَتْ مَصِيرًا ﴿١١٥﴾ ﴾

**114. Onların gizli söhbətlərinin çoxunda xeyir yoxdur. Yalnız sədəqə verməyi və ya yaxşılıq etməyi, yaxud da insanlar arasında sülh yaratmağı əmr edən şəxsin gizli danışması istisnadır. Kim bunu Allahın razılığını qazanmaq üçün edərsə, Biz ona böyük mükafat verərik.**

**115. Hər kəs özünə doğru yol bəlli olduqdan sonra Peyğəmbərə qarşı çıxıb möminlərin yolundan başqa bir yolla gedərsə, onu üz tutduğu yola yönəldər və Cəhənnəmə giriftar edərik. Ora nə pis dönüş yeridir.**

Uca Allah buyurur: "**Onların gizli söhbətlərinin çoxunda xeyir yoxdur**", yəni insanların gizli danışıqlarının çoxunda xeyir yoxdur. "**Yalnız sədəqə verməyi və ya yaxşılıq etməyi, yaxud da insanlar arasında sülh yaratmağı əmr edən şəxsin gizli danışması istisnadır**", yəni yalnız bu məqsədlər üçün gizli danışan istisnadır. Necə ki İbn Mərdəveyh ﷺ Ummu Həbibədən ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Yaxşılığı əmr edib, pis işlərdən çəkindirmək və Allahı zikr etməkdən başqa, Adəm oğlunun danışdığı hər söz onun lehinə deyil, əleyhinədir". Hədisi rəvayət edənlərdən Muhəmməd ibn Yəzid (Sufyan əs-Səuriyə) dedi: "Bu hədis necə də şiddətlidir!" Sufyən əs-Səuri dedi: "Burada şiddətli nə var ki? Onu bir qadın (Safiyyə bint Şeybə) başqa bir qadından (Ummu Həbibədən) rəvayət etmişdir. Bu xüsus Allahın Peyğəmbərə ﷺ göndərdiyi Kitabdadır. Məgər sən Uca Allahın Öz Kitabında "**Onların gizli söhbətlərinin çoxunda xeyir yoxdur. Yalnız sədəqə verməyi və ya yaxşılıq etməyi, yaxud da insanlar arasında sülh yaratmağı əmr edən şəxsin gizli danışması istisnadır**" buyurduğunu eşitməmisənmi? Bu ayə həmin hədislə eyni mənadadır. Yoxsa Uca Allahın "**Ruh** (Cəbrail) **və mələklər səf-səf duracağı gün ər-Rəhmənin izin verdiyi kimsələrdən və doğru söz deyənlərdən başqa heç kəs danışmayacaq**" ("ən-Nəbə", 38) buyurduğunu eşitməmisənmi? Bu ayə də, həmin hədislə eyni mənadadır. Yaxud Uca Allah Kitabında "**And olsun axşam çağına! Həqiqətən, insan ziyan içərisindədir. Yalnız iman gətirib yaxşı işlər görənlər, bir-birinə haqqı məsləhət görənlər və bir-birinə səbirli olmağı məsləhət edənlərdən başqa**" ("əl-Əsr") buyurduğunu eşitməmisənmi? Bu surə, həmin hədisin eynisidir".[1] Bu hədisi ət-Tirmizi və İbn Məcə ﷺ rəvayət etmiş, lakin Sufyan əs-Səurinin ﷺ sözlərini qeyd etməmişlər. ət-Tirmizi ﷺ hədisin "ğarib" olduğunu bildirmişdir.

İmam Əhməd ﷺ rəvayət etmişdir ki, Ummu Gülsüm bint Uqbə ﷺ Peyğəmbərin ﷺ belə dediyini eşitmişdir: "İnsanların arasını düzəltmək məqsədilə yalan danışan və xeyirə səbəb olan adam yalançı deyil". Həmçinin Ummu Gülsüm ﷺ demişdir: "Peyğəmbərin ﷺ

[1] İbn əl-Arabi "Mucəm" 340; ət-Tirmizi, 2412, 2595; Əbu Yəalə, 7134. Hədis zəifdir. Bax: Silsilə əd-Daifə, 1366.

yalnız bu üç halda yalan danışmağa icazə verdiyini eşitmişəm: “Döyüşdə düşmənə deyilən, habelə insanların arasını düzəltmək üçün deyilən və bir də kişinin öz zövcəsinə və ya qadının öz ərinə aralarındakı məhəbbəti artırmaq məqsədilə dediyi yalan[1]”. Ummu Gülsüm bint Uqbə Peyğəmbərə ﷺ beyət edən mühacir qadınlardan idi”.[2] Hədisi İbn Məcə ﷺ istisna olmaqla bir çox hədis müəllifləri rəvayət etmişlər.[3]

İmam Əhməd ﷺ Əbu Dərdədən ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: “Sizə namazdan, orucdan və sədəqədən dərəcə etibarilə daha üstün olan bir əməl barədə xəbər verimmi?” Səhabələr “Bəli” deyə cavab verdilər. Peyğəmbər ﷺ dedi: “Bu, küsülü olan iki nəfəri barışdırmaqdır! İki adamın arasını vurmaq isə dini kökündən qoparır”. Hədisi Əbu Davud və ət-Tirmizi ﷺ də rəvayət etmişlər. ət-Tirmizi ﷺ hədisin “həsən-səhih” olduğunu demişdir.[4]

Bu səbəbdən Uca Allah buyurur: “**Kim bunu Allahın razılığını qazanmaq üçün edərsə**”, yəni kim bunu xalis Allah üçün, mükafatını Allahdan umaraq edərsə, “**Biz ona böyük mükafat verərik**”, yəni kifayət qədər çox savab verərik.

Uca Allah buyurur: “**Hər kəs özünə doğru yol bəlli olduqdan sonra Peyğəmbərə qarşı çıxıb**”, yəni kim özünə haqq açıq-aydın bəlli olduqdan sonra bilərəkdən Peyğəmbərin ﷺ gətirdiyi şəriət yolundan başqasına uyarsa, belə ki, o bir tərəfdə, şəriət isə başqa bir tərəfdə olarsa.

Uca Allah buyurur: “**möminlərin yolundan başqa bir yolla gedərsə**”. Bu, birinci vəsfin (Peyğəmbərə ﷺ qarşı çıxmağın) ayrılmaz bir parçasıdır. Bəzən şəriətin buyurduğu əmrə qarşı çıxılır, bəzən isə Muhəmməd ﷺ ümmətinin (alimlərinin) yekdilliklə ittifaq etdikləri bir məsələyə qarşı çıxılır. Çünki Muhəmməd ﷺ ümməti yekdilliklə ittifaq etdikləri bir məsələdə səhv etməkdən məsumdur. Bu xüsusiyyət, bu ümmətin digər ümmətlərdən daha şərəfli, Peyğəmbərinin ﷺ isə digər peyğəmbərlərdən daha hörmətli olmasına görədir. Bu barədə bir çox səhih hədislər varid olmuşdur. Bu hədislərdən bir qismini

[1] Kişinin öz zövcəsinə dediyi yalana gəlincə, buna ər-arvad arasındakı ülvi məhəbbətin artması üçün onlardan birinin digərini həddən ziyadə tərif etməsini misal göstərmək olar.

[2] Əhməd, 27313. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 545.

[3] “əl-Musnəd” (6/403 Hələbi nəşri). (Əhməd Şakir).

[4] “əl-Musnəd” (6/444-445 Hələbi nəşri). (Əhməd Şakir). Əhməd, 27548, 28058; Əbu Davud, 4919, 4921; ət-Tirmizi, 1938, 2063. Şueyb əl-Arnavut isnadının səhih olduğunu bildirmişdir.

“Əhədisul-Usul”[1] kitabında qeyd etmişik.[2] Bəzi alimlər bu hədisin məna etibarilə təvatur[3] dərəcəsində olduğunu demişlər. İmam əş-Şafii ﵀ uzun araşdırmadan sonra bu qənaətə gəlmişdir ki, bu ayə alimlərin icmasına qarşı çıxmağın haram olmasına dəlildir. İmam əş-Şafiinin ﵀ bu qənaəti çox gözəl və qüvvətlidir. Baxmayaraq ki, bəzi alimlər bunun dəlildən uzaq olduğunu və uyğun olmadığını demişlər.

Bu səbəbdən Uca Allah “**onu üz tutduğu yola yönəldər və Cəhənnəmə giriftar edərik. Ora nə pis dönüş yeridir**” buyuraraq belə edənləri təhdid edir. Yəni möminlərin yolundan başqa yol tutana, cəza olaraq qəlbində bu yolu bəzəyərik ki, özünün də bilmədiyi bir yerdən tədricən tovlayıb məhvə aparaq. Uca Allahın bu ayələrdə buyurduğu kimi: “**Bu Sözü (Quranı) yalan sayanları Mənim öhdəmə burax. Biz onları bilmədikləri bir yöndən tədricən əzaba sürükləyirik**” (“əl-Qələm”, 44); “**Onlar doğru yoldan sapdıqda, Allah da onların qəlbini sapdırdı**” (“əs-Saff”, 5); “**Biz onların ürəklərini və gözlərini ilk dəfə ona iman gətirmədikləri kimi tərsinə çevirər və onları öz azğınlıqları içərisində sərgərdan dolaşan vəziyyətdə tərk edərik**” (“əl-Ənam”, 110).

Uca Allah belə kəslərin Axirətdə dönəcəkləri yerin Cəhənnəm olacağını xəbər verir, çünki doğru yoldan çıxanın Qiyamət günü Cəhənnəmdən başqa yolu ola bilməz. Necə ki başqa ayələrdə belə buyurur: “**Mələklərə belə əmr olunacaq: “Toplayın bir yerə zalımları, onların yoldaşlarını və Allahdan başqa ibadət etdiklərini. Onları Cəhənnəm yoluna yönəldin**” (“əs-Saffat”, 22); “**Günahkarlar atəşi görən kimi oraya düşəcəklərini yəqin edəcək və oradan qaçmağa bir yer tapa bilməyəcəklər**” (“əl-Kəhf”, 53).

---

[1] “Əhədisul-Usul” kitabı barədə məlumat yoxdur. Hansı kitab nəzərdə tutulduğu da bilinmir. (Əhməd Şakir).

[2] Bu hədislərdən biri də Abdullah ibn Ömərdən ﵄ rəvayət edilir. Abdullah ibn Ömər ﵄ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Həqiqətən, Uca Allah mənim ümmətimi zəlalət üzərində həmrəy etməz. Allahın Əli camaatın üzərindədir”. (ət-Tirmizi, 2167, 2320). Hədis səhihdir. Bax: Səhih əl-Cami, 1848.

[3] Təvatur dərəcəsində olan hədis yalan danışacaqları təsəvvür olunmayan, isnadın əvvəlindən axırınadək bir toplumun digərindən rəvayət etdiyi hədisdir.

﴿ إِنَّ ٱللَّهَ لَا يَغۡفِرُ أَن يُشۡرَكَ بِهِۦ وَيَغۡفِرُ مَا دُونَ ذَٰلِكَ لِمَن يَشَآءُۚ وَمَن يُشۡرِكۡ بِٱللَّهِ فَقَدۡ ضَلَّ
ضَلَٰلَۢا بَعِيدًا ١١٦ إِن يَدۡعُونَ مِن دُونِهِۦٓ إِلَّآ إِنَٰثٗا وَإِن يَدۡعُونَ إِلَّا شَيۡطَٰنٗا مَّرِيدٗا ١١٧ لَّعَنَهُ ٱللَّهُۘ
وَقَالَ لَأَتَّخِذَنَّ مِنۡ عِبَادِكَ نَصِيبٗا مَّفۡرُوضٗا ١١٨ وَلَأُضِلَّنَّهُمۡ وَلَأُمَنِّيَنَّهُمۡ وَلَأٓمُرَنَّهُمۡ
فَلَيُبَتِّكُنَّ ءَاذَانَ ٱلۡأَنۡعَٰمِ وَلَأٓمُرَنَّهُمۡ فَلَيُغَيِّرُنَّ خَلۡقَ ٱللَّهِۚ وَمَن يَتَّخِذِ ٱلشَّيۡطَٰنَ وَلِيّٗا مِّن
دُونِ ٱللَّهِ فَقَدۡ خَسِرَ خُسۡرَانٗا مُّبِينٗا ١١٩ يَعِدُهُمۡ وَيُمَنِّيهِمۡۖ وَمَا يَعِدُهُمُ ٱلشَّيۡطَٰنُ إِلَّا
غُرُورًا ١٢٠ أُوْلَٰٓئِكَ مَأۡوَىٰهُمۡ جَهَنَّمُ وَلَا يَجِدُونَ عَنۡهَا مَحِيصٗا ١٢١ وَٱلَّذِينَ ءَامَنُواْ وَعَمِلُواْ
ٱلصَّٰلِحَٰتِ سَنُدۡخِلُهُمۡ جَنَّٰتٖ تَجۡرِي مِن تَحۡتِهَا ٱلۡأَنۡهَٰرُ خَٰلِدِينَ فِيهَآ أَبَدٗاۖ وَعۡدَ ٱللَّهِ حَقّٗاۚ وَمَنۡ
أَصۡدَقُ مِنَ ٱللَّهِ قِيلٗا ١٢٢ ﴾

**116. Allah Özünə şərik qoşulmasını əsla bağışlamaz. Bundan aşağı olan günahları isə istədiyi kimsəyə bağışlar. Allaha şərik qoşan kəs, əlbəttə ki, dərin bir azğınlığa düşmüşdür.**

**117. Onlar Allahı qoyub yalnız qadın adlarını daşıyan bütlərə dua edir, əslində isə yalnız üsyankar şeytana sitayiş edirlər.**

**118. Allah şeytanı lənətlədi. O isə dedi: "Mən Sənin qullarından müəyyən bir qismini hökmən ələ alacağam.**

**119. Onları mütləq doğru yoldan azdıracaq və xülyalara salacağam, onlara heyvanların qulaqlarını kəsməyi buyuracaq və Allahın yaratdıqlarına dəyişiklik etməyi əmr edəcəyəm." Allahı qoyub şeytanı özünə dost tutan kəs açıq-aşkar ziyana uğramışdır.**

**120. Şeytan onlara vədlər verir və onları xülyalara salır. Halbuki şeytanın onlara verdiyi vədlər aldatmaqdan başqa bir şey deyildir.**

**121. Onların gedəcəkləri yer Cəhənnəmdir. Onlar oradan xilas olmağa bir yol tapa bilməzlər.**

**122. İman gətirib saleh əməllər edənləri isə altından çaylar axan, içində əbədi qalacaqları cənnətlərə daxil edəcəyik. Bu, Allahın gerçək vədi sayəsində olacaqdır. Sözündə Allahdan daha doğruçu kim ola bilər?**

Bu ayə barədə Uca Allahın "**Allah Özünə şərik qoşulmasını əsla bağışlamaz, bundan aşağı olan günahları isə istədiyi kimsəyə bağışlayar. Allaha şərik qoşan kəs böyük bir günah etməklə iftira**

**atmış olur**" ("ən-Nisa", 48) ayəsinin təfsirində danışmışıq. Bu ayə ilə əlaqədar hədisləri bu surənin əvvəlində vermişik.

ət-Tirmizi ﷺ Əlinin ﷺ belə dediyini rəvayət etmişdir: "Quranda mənə Uca Allahın "**Allah Özünə şərik qoşulmasını əsla bağışlamaz, bundan aşağı olan günahları isə istədiyi kimsəyə bağışlayar**" ayəsindən daha sevimli bir ayə yoxdur". ət-Tirmizi ﷺ bu hədisin "həsən-ğarib" olduğunu demişdir.[1]

Uca Allah buyurur: "**Allaha şərik qoşan kəs, əlbəttə ki, dərin bir azğınlığa düşmüşdür**", yəni Allaha şərik qoşan şəxs haqq yolunu tutmamışdır, doğru yoldan azmışdır, haqdan uzaqlaşmışdır, dünya və Axirətdə özünü həlak edərək nəfsini xəsarətə uğratmışdır, dünya və Axirət səadətini əldən vermişdir.

Uca Allah buyurur: "**Onlar Allahı qoyub, yalnız qadın adlarını daşıyan bütlərə dua edir**". İbn Əbu Hatim ﷺ Ubey ibn Kəbin ﷺ bu ayə barədə belə dediyini rəvayət etmişdir: "Müşriklərin ibadət etdiyi hər bütün yanında bir qadın cin var".[2] Həmçinin İbn Əbu Hatim Aişədən ﷺ rəvayət etmişdir ki, o, ayədəki إِنَاثًا [inə:sən] sözünü "qadın adları daşıyan bütlər" kimi açıqlamışdır.[3] Oxşar təfsir Əbu Sələmə ibn Abdur-Rahmən, Urvə ibn əz-Zubeyr, Mucahid və başqalarından ﷺ da rəvayət edilmişdir.

Uca Allah buyurur: "...**əslində isə yalnız üsyankar şeytana sitayiş edirlər**", yəni bunu onlara əmr edib, onlar üçün bəzəyib gözəl göstərən şeytandır. Onlar, əslində, İblisə ibadət edirlər. Necə ki başqa bir ayədə Uca Allah buyurur: "**Ey Adəm övladları! Məgər Mən sizə buyurmadımmı ki, şeytana ibadət etməyin, o sizin açıq-aydın düşməninizdir**" ("Yasin", 60). Həmçinin Uca Allah Qiyamət günü mələklərin dünyada ikən onlara ibadət etdiklərini iddia edən müşriklər haqqında belə deyəcəklərini xəbər verərək buyurur: "**Xeyr, onlar, əslində, cinlərə ibadət edirdilər. Əksəriyyəti də məhz onlara iman gətirmişdi**" ("Səba", 41).

---

[1] ət-Tirmizi (4/94). (Əhməd Şakir). ət-Tirmizi, 3311. Hədisin isnadı zəifdir. Bax: Səhih və Daif Sunən ət-Tirmizi, 3037.

[2] Abdullah ibn Əhməd "Zəvaidul-Musnəd" (5/135 Hələbi nəşri) əsərində rəvayət etmişdir. əl-Heysəmi "əz-Zəvaid" (7/12) əsərində qeyd etmiş və demişdir: "Hədisin raviləri "Səhih" əsərinin hədislərini rəvayət edənlərdir". əs-Suyuti (2/222) əlavə olaraq İbn əl-Munzirə və əd-Diyanın "əl-Muxtəra" əsərinə nisbət etmişdir. (Əhməd Şakir). İbn Əbu Hatim, 5970.

[3] İbn Əbu Hatim, 5973.

Uca Allah buyurur: "**Allah şeytanı lənətlədi**", yəni Allah onu Öz rəhmətindən kənar edib uzaqlaşdırmış və dərgahından qovmuşdur. O isə demişdir: "**Mən Sənin qullarından müəyyən bir qismini hökmən ələ alacağam**", yəni əzəldən müəyyən olunmuş qismini ələ alacağam. Muqatil ibn Həyyan ﷀ demişdir: "Hər min nəfərdən doqquz yüz doxsan doqquzu Cəhənnməmə, biri Cənnətə gedəcək".[1] "**Onları mütləq doğru yoldan**", yəni haqdan "**azdıracaq və xülyalara salacağam**", yəni onlara tövbəni tərk etməyi gözəl göstərib, boş vədlər verməklə puç xülyalara salacağam və tövbəni gecikdirməyi əmr edəcəyəm. Beləliklə, onları aldadacağam.

Uca Allah buyurur: "**Onlara heyvanların qulaqlarını kəsməyi buyuracaq...**" Qatədə, əs-Suddi və başqaları ﷀ demişlər: "Burada davarların qulaqlarını çərtib bəhira və saibə[2] adlandırmaqla bütlərə nəzir edilən heyvanlara nişan qoymaq nəzərdə tutulur".

[1] Əbu Səid əl-Xudridən ﷠ rəvayət olunan bu hədis Muqatil ibn Həyyanın ﷀ sözünü təsdiqləyir. Əbu Səid əl-Xudri ﷠ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Qiyamət günü Uca Allah "Ey Adəm!" deyə buyuracaq. Adəm deyəcək: "Buyur, hüzurundayam və əmrinə müntəzirəm. Xeyir yalnız Sənin Əlindədir!" Allah buyuracaq: "Cəhənnəmə vasil olacaq kimsələri ayır!" Adəm deyəcək: "Cəhənnəmə vasil olanların (sayı) nə qədərdir?" Allah buyuracaq: "Hər min nəfərdən doqquz yüz doxsan doqquzu (Cəhənnəmə gedəcək)". **"O zaman uşaqların saçları ağaracaq, hamilə qadın bətnindəkini salacaq, insanları sərxoş görəcəksən, halbuki onlar sərxoş olmayacaqlar. Ancaq Allahın əzabı çox şiddətlidir"** ("əl-Həcc", 2). (Səhabələr) dedilər: "Ey Allahın Elçisi, hansımız o bir nəfərlərdən olacaq?" Peyğəmbər ﷺ dedi: "Sevinin! Heç şübhəsiz ki, bir nəfər sizdən, doqquz yüz doxsan doqquz nəfər isə Yəcuc və Məcuc tayfalarından olacaq". Sonra davam edib dedi: "Canım Əlində olan Allaha and olsun ki, mən sizin Cənnət əhlinin dörddə birini təşkil edəcəyinizə ümid edirəm". Biz "Allahu-Əkbər" dedik. Peyğəmbər ﷺ dedi: "Mən sizin Cənnət əhlinin üçdə birini təşkil edəcəyinizə ümid edirəm". Biz (yenə) "Allahu-Əkbər" dedik. Peyğəmbər ﷺ dedi: "Mən sizin Cənnət əhlinin yarısını təşkil edəcəyinizə ümid edirəm". Biz (yenə) "Allahu-Əkbər" dedik. Peyğəmbər ﷺ dedi: "(O gün) siz (say etibarilə) insanlar arasında, ağ öküzün dərisindəki qara tük və ya qara öküzün dərisindəki ağ tük kimi olacaqsınız". (əl-Buxari, 3099, 3170, 3348; ət-Tirmizi, 3169, 3467).

[2] "Bəhirə" və "saibə" cahiliyyə dövründə müşriklərin bütlərə nəzir edərək istifadə olunmasını və yeyilməsini Allahdan gələn heç bir dəlil olmadan özlərinə haram etdikləri heyvanların adlarıdır. Bu adları onlar özləri qoymuşdular. Uca Allah bu barədə "əl-Maidə" surəsində buyurur: **"Allah müşriklərin bəhirə, saibə, vəsilə və ham adlandırıb bütlərə nəzir etdiyi heyvanlar barəsində heç bir göstəriş verməmişdir. Lakin kafir olanlar Allaha qarşı yalan uydururlar. Onların çoxu isə bunu anlamır"** ("əl-Maidə", 103). əs-Sədi ﷀ bu ayənin təfsirində demişdir: "Bəhira – müşriklərin (bütə nəzir edildiyini bildirmək üçün) qulağını çərtməklə nişan qoyduqları dəvəyə deyilir. Bu dəvəyə hörmət əlaməti olaraq minmək qadağan idi. Saibə – müşriklərin müəyyən yaş həddinə çatdıqdan sonra (bütlərə nəzir edildiyi üçün) atılaraq nəzarətsiz buraxılmış dəvə, inək və ya qoyuna qoyduqları addır. Bu heyvanlara minmək, istifadə etmək və ətindən yemək qadağan olunurdu. Bəzən sahib olduqları digər mallarından da ayırıb "saibə" adlandırırdılar".

Uca Allah buyurur: "**Allahın yaratdıqlarına dəyişiklik etməyi əmr edəcəyəm**". İbn Abbas ﵄ demişdir: "Burada heyvanları axtalamaq nəzərdə tutulur". Eyni təfsir İbn Ömər, Ənəs, Səid ibn əl-Museyyib və başqalarından ﷭ rəvayət edilmişdir. Allahın yaratdığı xilqəti dəyişməyin qadağan olmasına dair bir hədis də varid olmuşdur. "Səhih" əsərində rəvayət edilir ki, İbn Məsud ﷛ demişdir: "Allah döymə döyəni və döydürəni, qaş alanı və aldıranı, gözəllik üçün Uca Allahın yaratdığını dəyişərək dişlərini aralayanı[1] lənətləmişdir". Sonra İbn Məsud belə dedi: "Bilin ki, mən də Peyğəmbərin ﷺ lənət etdiklərini lənətləyirəm. Bu, Allah Kitabındadır". İbn Məsud belə deməklə Uca Allahın "**Allahın rəsulu sizə nəyi əmr edirsə, onu yerinə yetirin, nəyi də qadağan edirsə, ondan çəkinin**" ("əl-Həşr", 7) ayəsini nəzərdə tutmuşdur".[2] İbn Abbas ﵄ başqa bir rəvayətdə, Mucahid, İkrimə, İbrahim ən-Nəxai, əl-Həsən, Qatədə və başqaları ﷭ Uca Allahın "**Allahın yaratdıqlarına dəyişiklik etməyi əmr edəcəyəm**" ayəsi barədə demişlər: "Yəni Allahın dinini dəyişəcəklər". Ayənin bu cür təfsir edilməsi Uca Allahın bu ayəsinə bənzəyir: "**Sən bir hənif kimi üzünü dinə tərəf çevir! Allahın insanlara – xəlq etdiyi şüurlu məxluq kimi verdiyi fitrət budur. Allahın yaratdığını heç cür dəyişdirmək olmaz. Doğru din budur, lakin insanların çoxu bunu bilmir**" ("ər-Rum", 30). Yəni Allahın yaratdığı fitrəti dəyişməyin. İnsanları Allahın onları yaratmış olduğu fitrət üzərində buraxın. Necə ki əl-Buxari və Muslimin "Səhih" əsərlərində Əbu Hureyradan ﷛ rəvayət edilən bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Hər bir körpə fitrət (tövhidə meyilli olaraq) üzərində doğulur. Sonra ata-anası onu ya yəhudi, ya xristian, ya da məcusi (atəşpərəst) edir. Beləcə, heyvanlar da gözəl biçimdə yaranır. Heç sən onların arasında qulağı kəsik bir heyvan görürsənmi?"[3] Muslimin "Səhih" əsərində İyad ibn Himardan ﷛ rəvayət edilən hədisdə Peyğəmbər ﷺ demişdir: "Uca Allah buyurdu: "Mən qullarımı hənif (Tək Allaha ibadət edən) yaratdım. Şeytanlar onları dinlərindən döndərərək Mənim onlara halal etdiyimi haram etdilər".[4]

---

[1] Ərəblərdə ön dişlərin aralı olması qadın üçün gözəllik əlaməti sayılırdı. Bu səbəbdən bəzi qadınlar süni yolla ön dişlərini aralayardılar.

[2] Əhməd (4129); əl-Buxari (8/483-484 Fəthul-Bari); Muslim (2/166). (Əhməd Şakir).

[3] Əhməd (7698, 7181); əl-Buxari (3/196-200 Fəthul-Bari); Muslim (2/301). İbn Hibban ﵀ hədisin səhih olduğunu bildirmişdir. (Əhməd Şakir). əl-Buxari, 1296, 1385; Muslim, 4803, 6926.

[4] Bu hədis, Muslimin "Səhih" əsərində (2/356-357) rəvayət etdiyi uzun hədisin bir hissəsidir. Bu hədis "əl-Bəqərə" surəsinin 168-ci ayəsinin təfsirində keçmişdir. Həmçinin hədisi Əhməd (17556) rəvayət etmişdir. (Əhməd Şakir). Muslim, 2865, 5109, 7386.

Uca Allah buyurur: "**Allahı qoyub şeytanı özünə dost tutan kəs açıq-aşkar ziyana uğramışdır**", yəni o kəs dünya və Axirətdə ziyana uğramışdır. Bu ziyandan nə qayıtmaq, nə də itirilənin əvəzini vermək mümkün olmayacaq.

Uca Allah buyurur: "**Şeytan onlara vədlər verir və onları xülyalara salır**". Bu ayə həqiqətdən xəbər verir, çünki şeytan öz dostlarına dünyada və Axirətdə nicat tapacaqlarını vəd edərək onları xülyalara salır. Əslində isə onun bu vədi yalan və iftiradır. Bu səbəbdən Uca Allah buyurur: "**Halbuki şeytanın onlara verdiyi vədlər aldatmaqdan başqa bir şey deyildir**". Necə ki Uca Allah başqa bir ayədə Qiyamət günü İblisin dediklərindən xəbər verərək buyurur: "**İş bitdikdə şeytan deyəcək: "Həqiqətən də, Allah sizə gerçək vəd vermişdi. Mən də sizə vəd vermişdim, lakin vədimə xilaf çıxdım. Mənim sizin üstünüzdə heç bir hökmranlığım yox idi. Mən sizi azğınlığa dəvət etdim, siz də dəvətimi qəbul etdiniz. Buna görə də məni yox, özünüzü qınayın. Nə mən sizin köməyinizə çata bilərəm, nə də siz mənim köməyimə çata bilərsiniz. Heç şübhəsiz ki, mən əvvəllər də sizin məni Allaha şərik qoşmağınızı rədd etmişdim". Həqiqətən, zalımlar üçün ağrılı-acılı bir əzab hazırlanmışdır**" ("İbrahim", 22).

Uca Allah ayənin davamında buyurur: "**Onların**", yəni şeytanın vədinə uyub və xülyalarını gözəl görənlərin "**gedəcəkləri yer Cəhənnəmdir**", yəni hesaba çəkiləcəkləri gün düşəcəkləri yer Cəhənnəmdir. "**Onlar oradan xilas olmağa bir yol tapa bilməzlər**", yəni oradan qaçıb xilas olacaq və sığınacaq bir yer tapa bilməyəcəklər.

Sonra Uca Allah Ondan qorxub, pis əməllərdən çəkinən xoşbəxt qullarının halını, onların sonda qovuşacaqları yüksək şərəfi zikr edərək buyurur: "**İman gətirib saleh əməllər edənləri isə**", yəni onlara əmr edilən xeyir əməlləri qəlbən təsdiqləyib, əzaları ilə əməl edən, onlara qadağan edilən pis əməlləri tərk edənləri isə "**altından çaylar axan, içində əbədi qalacaqları cənnətlərə daxil edəcəyik**". Onlar bu çayları istədikləri istiqamətdə, istədikləri kimi axıdacaqlar. Onlar orada əbədi qalacaqlar və bu nemət heç vaxt tükənməyəcək. "**Bu, Allahın gerçək vədi sayəsində olacaqdır**", yəni bu, Allahın bir vədidir. Allahın vədi isə haqdır və mütləq həyata keçəcəkdir. "**Sözündə Allahdan daha doğruçu kim ola bilər?**", yəni heç kəs sözündə və xəbərində Allahdan daha doğru ola bilməz. Ondan başqa haqq məbud, Ondan başqa Rəbb yoxdur.

Peyğəmbər ﷺ öz xütbəsində belə deyərdi: "Şübhəsiz ki, sözlərin ən doğrusu Allahın Kəlamıdır. Yolların ən xeyirlisi, Muhəmmədin yoludur. Əməllərin ən pisi sonradan dinə əlavə olunanlardır. Dinə sonradan əlavə olunan hər bir əməl bidətdir.[1] Hər bir bidət azğınlıqdır, hər bir azğınlıq isə oda aparır".[2]

﴿لَّيۡسَ بِأَمَانِيِّكُمۡ وَلَآ أَمَانِيِّ أَهۡلِ ٱلۡكِتَٰبِۗ مَن يَعۡمَلۡ سُوٓءٗا يُجۡزَ بِهِۦ وَلَا يَجِدۡ لَهُۥ مِن
دُونِ ٱللَّهِ وَلِيّٗا وَلَا نَصِيرٗا ١٢٣ وَمَن يَعۡمَلۡ مِنَ ٱلصَّٰلِحَٰتِ مِن ذَكَرٍ أَوۡ أُنثَىٰ وَهُوَ مُؤۡمِنٞ
فَأُوْلَٰٓئِكَ يَدۡخُلُونَ ٱلۡجَنَّةَ وَلَا يُظۡلَمُونَ نَقِيرٗا ١٢٤ وَمَنۡ أَحۡسَنُ دِينٗا مِّمَّنۡ أَسۡلَمَ وَجۡهَهُۥ لِلَّهِ
وَهُوَ مُحۡسِنٞ وَٱتَّبَعَ مِلَّةَ إِبۡرَٰهِيمَ حَنِيفٗاۗ وَٱتَّخَذَ ٱللَّهُ إِبۡرَٰهِيمَ خَلِيلٗا ١٢٥ وَلِلَّهِ مَا فِي ٱلسَّمَٰوَٰتِ وَمَا
فِي ٱلۡأَرۡضِۚ وَكَانَ ٱللَّهُ بِكُلِّ شَيۡءٖ مُّحِيطٗا ١٢٦﴾

**123. Bu nemətə nail olmaq nə sizin arzunuzla, nə də Kitab əhlinin arzusu ilədir. Pislik edən kəs onun cəzasını alacaq və o, Allahdan başqa özünə nə bir dost, nə də bir yardımçı tapacaqdır.**

**124. Həm kişilərdən, həm də qadınlardan mömin olaraq yaxşı işlər görənlər Cənnətə girərlər və onlara xurma çəyirdəyindəki oyuq qədər haqsızlıq edilməz.**

**125. Yaxşı əməl sahibi olub özünü Allaha təslim edən və hənif İbrahimin dininə tabe olan şəxsdən din baxımından daha gözəl kim ola bilər? Allah İbrahimi Özünə yaxın dost tutmuşdur.**

**126. Göylərdə və yerdə nə varsa, Allaha məxsusdur. Allah hər şeyi əhatə edir.**

---

[1] Bidət sözünün hərfi mənası "yenilik" deməkdir. Burada isə, Muhəmməd Peyğəmbərin ﷺ vəfatından sonra insanlar tərəfindən dinə salınmış və dindən olduğu iddia edilən əməllər və ibadətlər nəzərdə tutulur. Bidət əməllər Allah tərəfindən qəbul olunmur və bunu edən dinə yenilik gətirdiyinə görə günah qazanır. Peyğəmbər ﷺ demişdir: "Bizim bu dinimizdən olmayan bir əməli edənin o əməli rədd olunur". (əl-Buxari, 2697). Dünyəvi işlərdə yeniliklərə və ixtiralara gəlincə, bu yeniliklər bidət sayılmır. Əksinə, əgər cəmiyyətə xeyir verən yeniliklərdirsə, bu yeniliklər bəyənilir. Peyğəmbər ﷺ demişdir: "Siz dünya işlərinizi məndən daha yaxşı bilirsiniz, lakin mən sizə Allahdan bir şey danışsam, onu götürün! Həqiqətən, mən Allahın adından yalan danışan deyiləm!" (Muslim, 2363).

[2] Bu hədis ən-Nəsəinin (1/234) Cabirdən ؓ rəvayət etdiyi uzun hədisin bir hissəsidir. Hədisin mətni belədir: "Ən doğru söz Allahın Kitabıdır, ən yaxşı yol isə Muhəmmədin yoludur…" Həmçinin hədisi Əhməd (14385) rəvayət etmişdir. Əhmədin ؒ rəvayəti belədir: "Ən fəzilətli yol Muhəmmədin yoludur". Habelə, Muslim (1/237) və İbn Hibban "Səhih" əsərində (9): "Ən xeyirli söz Allahın Kitabıdır" şəklində rəvayət etmişlər. (Əhməd Şakir). ən-Nəsəi "Sunən" 1560, 1578, 1589, "Sunənul-Kubra" 1786, 1799, 5861, 5892; İbn Xuzeymə, 1785. Hədis səhihdir. Bax: İrvaul-Ğalil, 608.

Qatədə ﷺ demişdir: "Bizə deyildiyinə görə, müsəlmanlar və Kitab əhli özlərini öyərək Kitab əhli "Bizim peyğəmbərimiz sizin peyğəmbərinizdən əvvəl göndərilmişdir. Kitabımız da sizin Kitabınızdan əvvəl nazil olmuşdur. Buna görə biz Allah dərgahında sizdən daha üstünük" demişlər. Müsəlmanlar isə "Biz, Allaha sizdən daha yaxınıq. Peyğəmbərimiz peyğəmbərlərin sonuncusudur. Kitabımız da özündən əvvəlki kitabların hökmünü ləğv etmişdir" demişlər. Uca Allah da "**Bu nemətə nail olmaq nə sizin arzunuzla, nə də Kitab əhlinin arzusu ilədir. Pislik edən kəs onun cəzasını alacaq və o, Allahdan başqa özünə nə bir dost, nə də bir yardımçı tapacaqdır**. ...**Muhsin olduğu halda özünü Allaha təslim edən və hənif İbrahimin dininə tabe olan şəxsdən din baxımından daha gözəl kim ola bilər?**" ayələrini nazil edərək müsəlmanların dəlillərini, onların yanında öyünən digər din mənsublarının dəlillərindən üstün etdi".[1] Bu təfsir əs-Suddi, Məsruq, əd-Dahhək, Əbu Saleh və başqalarından ﷺ da rəvayət edilmişdir.

Ayənin mənası belədir: Din, gözəl göstərilməklə və ya arzularla olmur. Din, insanların qəlblərində yer alır və əməllərlə təsdiqlənir. Hər hansı bir şey, kiminsə onu, sadəcə, iddia etməsi ilə meydana gəlməz. Haqlı olduğunu deyən şəxsin sözü, sadəcə, onun deməsi ilə eşidilib qəbul edilmir, onun Allahdan gələn bir dəlili olmalıdır. Bu səbəbdən Uca Allah "**Bu nemətə nail olmaq nə sizin arzunuzla, nə də Kitab əhlinin arzusu ilədir**" buyurur. Yəni sadəcə arzu etməklə nə siz, nə də onlar xilas ola bilməyəcəksiniz. Əksinə, əsas odur ki, Allaha itaət edib, Onun şərəfli elçilərinin dili ilə qoyduğu şəriətinə tabe olasınız. Bu səbəbdən ayənin davamında: "**Pislik edən kəs onun cəzasını alacaq**" buyurur. Necə ki başqa bir ayədə buyurur: "**Zərrə qədər yaxşılıq edən əvəzini alacaqdır. Zərrə qədər pislik edən də əvəzini alacaqdır**" ("əz-Zəlzələ", 7-8).

Rəvayət olunur ki, bu ayənin nazil olması səhabələrdən bir çoxuna ağır gəldi. İmam Əhməd ﷺ rəvayət etmişdir ki, bir dəfə Əbu Bəkr ﷺ Peyğəmbərə ﷺ demişdir: "Ey Allahın Elçisi, Uca Allahın "**Bu nemətə nail olmaq nə sizin arzunuzla, nə də Kitab əhlinin arzusu ilədir. Pislik edən kəs onun cəzasını alacaq**" ayəsindən sonra necə nicat tapmaq olar? Etdiyimiz hər pisliyin cəzasını alacağıqmı?"

[1] Hədisi ət-Tabəri (10493) rəvayət etmişdir. Hədis mursəldir (tabiin Peyğəmbərdən ﷺ rəvayət etmişdir). ət-Tabərinin rəvayət etdiyi isnad Qatədəyə kimi səhihdir. "əd-Durrul-Mənsur" (2/225) əsərində qeyd edildiyi kimi hədisi həmçinin Abd ibn Humeyd və İbn əl-Munzir ﷺ rəvayət etmişlər. (Əhməd Şakir). ət-Tabəri, 10493, 10561.

Peyğəmbər ﷺ dedi: "Ey Əbu Bəkr, Allah səni bağışlasın! Məgər sən heç xəstələnmirsənmi? Heç üzülmürsənmi? Heç kədərlənmirsənmi? Heç çətinliyə düşmürsənmi?" Əbu Bəkr "Bəli" deyə cavab verdikdə Peyğəmbər ﷺ dedi: "Pisliklərə görə cəzalanmağınız məhz budur". Həmçinin hədisi Səid ibn Mənsur, İbn Hibban "Səhih" əsərində və əl-Hakim rəvayət etmişlər.[1]

İbn Mərdəveyh Məsruqdan rəvayət etmişdir ki, bir dəfə Əbu Bəkr Peyğəmbərə ﷺ dedi: "Ey Allahın Elçisi, "**Pislik edən kəs onun cəzasını alacaq**" ayəsi necə də şiddətlidir!" Peyğəmbər ﷺ dedi: "Dünyada insanın başına gələn müsibətlər, xəstəliklər və üzüntülər cəzadır".[2]

Səid ibn Mənsur Aişənin belə dediyin rəvayət etmişdir: "Bir dəfə bir kişi Uca Allahın "**Pislik edən kəs onun cəzasını alacaq**" ayəsini oxuyub "Biz etdiyimiz hər bir pis əmələ görə cəzalanacağıq? Elə isə həlak olduq" dedi. Bu söz Peyğəmbərə ﷺ çatdıqda belə dedi: "Bəli, mömin insan etdiyi pisliklərin cəzasını, dünyada özünə və canına əziyyət verən şeylərlə alacaqdır".[3]

İbn Əbu Hatim İbn Əbu Muleykədən Aişənin belə dediyini rəvayət etmişdir: "Bir dəfə mən Peyğəmbərə ﷺ dedim: "Ey Allahın Elçisi, mən Quranda ən şiddətli ayənin hansı olduğunu bilirəm". Peyğəmbər ﷺ soruşdu: "O hansı ayədir elə, ey Aişə?" Mən "Uca Allahın "**Pislik edən kəs onun cəzasını alacaq**" ayəsidir" deyə cavab verdim. Peyğəmbər ﷺ dedi: "Bu, mömininin başına gələn müsibətlərdir. Hətta düşdüyü çətinlik belə onun üçün cəzadır". Hədisi Əbu Davud və İbn Cərir də rəvayət etmişlər.[4]

Əbu Davud ət-Tayəlisi Umeyyə bint Abdullahın belə dediyini rəvayət etmişdir: "Bir dəfə Aişədən Uca Allahın "**Pislik edən kəs onun cəzasını alacaq**" ayəsi barədə soruşdum. O dedi: "Bunu Peyğəmbərdən ﷺ soruşandan bəri (bu haqda) heç kim məndən

---

[1] Əhməd (68-81); İbn Hibban (4/502 əl-İhsan əlyazması); əl-Hakim (3/74-75); ət-Təbəri (10523, 10528). (Əhməd Şakir). İbn Hibban, 2910. Hədis səhihdir. Bax: Səhih ət-Tərğib vət-Tərhib, 3430.

[2] ət-Təbəri (10529). ət-Təbərinin rəvayəti belədir: "Həqiqətən dünya müsibətləri cəzadır". (Əhməd Şakir). Əbu Nueym "Hilyətul-Əvliya" 8/119; ət-Təbəri, 10529, 10598. Hədis səhihdir. Bax: Səhih əl-Cami, 6717; Silsilə əd-Daifə, 2924-cü hədisin haşiyəsi.

[3] Əhməd (6/65-66 Hələbi nəşri); əl-Buxarinin "Tərixul-Kəbir" əsəri (6/2/371). (Əhməd Şakir). Səid ibn Mənsur, 699; Əhməd, 24413, 24872. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 2273.

[4] ət-Təbəri (10531,10532); Əbu Davud (3093). (Əhməd Şakir). İbn Əbu Hatim, 5996; ət-Təbəri, 10532, 10601; Əbu Davud, 3093, 3095. Hədis zəifdir. Bax: Silsilə əd-Daifə, 2924-cü hədisin haşiyəsi.

soruşmamışdı. Bu, Allahın qulunu (dünyada ikən günahlarına görə) izləməsidir. İnsanın tutulduğu qızdırma xəstəliyində, başına gələn müsibətlərdə, hətta köynəyinin qoluna qoyduğu malını itirmiş sanıb təlaş keçirməsində, axtardıqdan sonra isə malını yanında tapmasında belə onun üçün günahlardan kəffarə var. Ən sonda, saf qızılın odda təmizləndiyi kimi, mömin qul da (başına gələn müsibətlərlə) günahlardan təmizlənmiş olar".[1]

İmam Əhməd ﷺ Aişədən ﷺ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Qulun günahları çoxalıb, onlara kəffarə olacaq bir əməli olmadıqda Uca Allah bu günahları silmək üçün onu kədərə düçar edər".[2]

Səid ibn Mənsur ﷺ Əbu Hureyranın ﷺ belə dediyini rəvayət etmişdir: "Uca Allahın "**Pislik edən kəs onun cəzasını alacaq**" ayəsi nazil olduqda bu, müsəlmanlara çox ağır gəldi. Peyğəmbər ﷺ bunu gördükdə dedi: "Doğru yol tutun, mötədil olun (həddi aşmayın). Bilin ki, müsəlmanın başına gələn hər bir müsibətdə, hətta barmağına batan tikanda, keçirdiyi sıxıntıda belə, onun üçün günahlardan kəffarə vardır". İmam Əhməd, Muslim, ət-Tirmizi və ən-Nəsəi ﷺ də hədisi bu şəkildə rəvayət etmişlər.[3]

Əbu Səid və Əbu Hureyra ﷺ Peyğəmbərin ﷺ belə dediyini eşitmişlər: "Müsəlmana üz vermiş elə bir yorğunluq, elə bir naxoşluq, elə bir kədər, hətta düşdüyü elə bir sıxıntı yoxdur ki, onun sayəsində Allah (həmin) müsəlmanın günahlarını bağışlamasın". Hədisi əl-Buxari və Muslim ﷺ rəvayət etmişlər.[4]

İmam Əhməd ﷺ rəvayət etmişdir ki, Əbu Səid əl-Xudri ﷺ belə demişdir: "Bir kişi Peyğəmbərdən ﷺ soruşdu: "Başımıza gələn bu xəstəliklər müqabilində bizə nə var?" Peyğəmbər ﷺ dedi: "Bunlar kəffarələrdir". Ubey (ibn Kəb) dedi: "Hətta az olsa belə?" Peyğəmbər ﷺ dedi: "Hətta barmağına batan tikan və ya bundan daha kiçik şey olsa belə". Ravi demişdir: "Ubey ölənə qədər qızdırmanın onu tərk etməməsini, bununla belə onu həcdən, ümrədən, Allah

[1] ət-Tayəlisinin "Musnəd" əsəri (1584). Hədis "əl-Bəqərə" surəsinin 284-cü ayəsinin təfsirində keçmişdir. İbn Əbu Hatim, 3062; ət-Tirmizi, 2991, 3259. Hədis zəifdir. Bax: Daif əl-Cami, 6086.

[2] Əhməd (6/157). (Əhməd Şakir). Əhməd, 25236, 25275, 25750. Hədis zəifdir. Bax: Silsilə əd-Daifə, 2695.

[3] Əhməd (7380); ət-Təbəri (10520); əl-Beyhəqi (3/373). əs-Suyuti (2/227) hədisi İbn Əbu Şeybəyə, İbn əl-Munzirə və İbn Mərdəveyhə ﷺ nisbət etmişdir. (Əhməd Şakir). Səid ibn Mənsur, 694; Muslim, 4671, 6734; ət-Tirmizi, 3038, 3312.

[4] əl-Buxari (10/92 Fəthul-Bari); Muslim (2/282); Əhməd (8014); əl-Beyhəqi (3/373). (Əhməd Şakir). Muslim, 4670, 6733.

yolunda döyüşdən və bir də camaatla fərz namazlarını qılmaqdan saxlamamasını dua etdi. Ölənə qədər bir insan ona toxunduqda onun istiliyini hiss edərdi". Hədisi yalnız İmam Əhməd ﷺ rəvayət etmişdir.[1]

İbn Cərir rəvayət etmişdir ki, əl-Həsən ﷺ Uca Allahın "**Pislik edən kəs onun cəzasını alacaq**" ayəsində kafirlərin nəzərdə tutulduğunu demiş, sonra Uca Allahın "**Məgər biz nankor kafirdən başqasını cəzalandırarıqmı?!**" ("Səba", 17) ayəsini oxumuşdur.[2] İbn Abbas və Səid ibn Cubeyrdən ﷺ rəvayət olunur ki, onlar, bu ayədəki "**pislik**" sözünü Allaha şərik qoşmaq kimi təfsir etmişlər.

Uca Allah buyurur: "**...və o, Allahdan başqa özünə nə bir dost, nə də bir yardımçı tapacaqdır**". İbn Əbu Hatim ﷺ rəvayət etmişdir ki, İbn Abbas ﷺ bu ayə barədə demişdir: "Tövbə etməsi istisnadır. Tövbə etsə, Allah onun tövbəsini qəbul edər".[3] Lakin əvvəl keçən hədislərə əsasən doğru olan rəy budur ki, bu ayə tövbə edilən və edilməyən bütün əməllərə aiddir. İbn Cərir ﷺ də bu rəyi seçmişdir. Ən doğrusunu Allah bilir.

Uca Allah buyurur: "**Həm kişilərdən, həm də qadınlardan mömin olaraq yaxşı işlər görənlər Cənnətə girərlər və onlara xurma çəyirdəyindəki oyuq qədər haqsızlıq edilməz**". Uca Allah əvvəlki ayədə qulun pisliklərə görə layiq olduğu cəzanı ya bu dünyada (qul üçün ən yaxşısı da budur), ya da Axirətdə alacağını (bundan Allaha sığınırıq, dünyada və Axirətdə Ondan əfv və bağışlanmağımızı diləyərik) qeyd etdikdən sonra iman gətirəcəkləri təqdirdə – istər kişi olsun, istərsə də qadın – qullarının saleh əməllərini qəbul etməklə onlara qarşı lütfünü, səxavətini və rəhmətini bəyan etməyə başlayır. Uca Allah yaxşı işlər görənləri Cənnətə daxil edəcək, onların yaxşılıqlarını azaltmayacaq və onlara xurma çəyirdəyindəki oyuq qədər belə haqsızlıq etməyəcək. Bu oyuq xurma çəyirdəyinin ortasında yerləşir.

Uca Allah buyurur: "**Yaxşı əməl sahibi olub özünü Allaha təslim edən ... şəxsdən din baxımından daha gözəl kim ola bilər?**", yəni

---

[1] Əhməd (11201). Hədis "əz-Zəvaid" (2/301, 302) kitabında qeyd olunub. əl-Heysəmi ﷺ demişdir: "Hədisi Əhməd və Əbu Yəalə rəvayət etmişlər. Raviləri mötəbərdir". (Əhməd Şakir). Əhməd, 11199, 11201; əl-Hakim, 7854. Hədis səhihdir. Bax: Səhih ət-Tərğib vət-Tərhib, 3433.

[2] ət-Taberi (10511). (Əhməd Şakir).

[3] İbn Əbu Hatim, 5998, 6322.

xalis Rəbbi üçün, imanla və savabını Allahdan umaraq əməl edən, “**Yaxşı əməl sahibi olub**”, yəni əməlində Allahın ona buyurduğu şəriətə, Allahın Öz Elçisinə ﷺ göndərdiyi doğru yola və haqq dinə tabe olan şəxsdən din baxımından daha gözəl kim ola bilər? Bu iki şərt olmadan edilən əməl (Allah qatında) qəbul deyil. Yəni edilən əməl ixlaslı və doğru olmalıdır. İxlaslı dedikdə yalnız Allah üçün olması, doğru dedikdə isə şəriətə müvafiq olması nəzərdə tutulur. Beləcə, edilən əməllər zahirən şəriətə uyğunluğu ilə, batinən isə ixlaslı olması ilə doğru olur. Bu iki şərtdən biri olmasa, əməl batil olar. Əməllərində ixlaslı olmayan kəs münafiq olar. Bunlar, əməllərini insanlara nümayiş etdirənlərdir. Əməlləri şəriətə müvafiq olmayan insan isə azmış (bidətçi) cahildir. Bu iki şərti özündə cəm edən isə Uca Allahın barələrində: “**Beləlləri, əməllərinin ən yaxşısı qəbul olunub, günahları bağışlanan və Cənnət əhli içərisinə daxil olan kimsələrdir**” (“əl-Əhqaf”, 16)[1] buyurduğu möminlərin əməlini etmiş olur. Bu səbəbdən Uca Allah “**hənif İbrahimin dininə tabe olan şəxsdən din baxımından daha gözəl kim ola bilər?**” buyurur. Bunlar Muhəmməd ﷺ və Qiyamətə qədər ona tabe olanlardır. Necə ki Uca Allah başqa ayələrdə buyurur: “**Həqiqətən, insanlardan İbrahimə ən yaxın olanı, onun ardınca gedənlər, bu Peyğəmbər və iman gətirənlərdir. Allah möminlərin Himayədarıdır**” (“Ali-İmran”, 68), “**Sonra sənə belə vəhy etdik: “Hənif İbrahimin dininə tabe ol. O, müşriklərdən deyildi”** (“ən-Nəhl”, 123). Hənif insan şirkdən qəsdli şəkildə üz döndərən, yəni bilərəkdən şirki tərk edən, bütünlüklə haqqa yönələn, habelə, heç bir şeyin onu haqdan sapdıra bilməyəcəyi, heç bir şeyin onu haqdan döndərə bilməyəcəyi kəsdir.

Uca Allah buyurur: “**Allah İbrahimi Özünə yaxın dost tutmuşdur**”. Bu ifadə, insanları İbrahimin dininə tabe olmağa rəğbətləndirmək məqsədi daşıyır, çünki o, tabe olunan bir rəhbərdir. Belə ki, o, qulların Allaha yaxınlaşa biləcəyi ən üstün dərəcəyə – məhəbbətin ən üstün məqamı olan dostluq dərəcəsinə çatmışdır. Uca Allahın İbrahimi Özünə dost tutmasına səbəb isə: “**Məgər vəfalı olan İbrahimin səhifələrində olanlar barədə ona bildirilmədi?**” (“ən-Nəcm”, 37) ayəsində vəsf etdiyi kimi, onun Rəbbinə çox itaət etməsi idi. Sələfdən

[1] Həfs, Həmzə və əl-Kisəi ﷺ bu ayəni “**Beləlləri əməllərinin ən yaxşısını qəbul edəcəyimiz, günahlarından keçəcəyimiz və Cənnət əhli içərisinə daxil edəcəyimiz kimsələrdir**” kimi oxumuşlar. Digər qarilər isə ayəni “**Beləlləri əməllərinin ən yaxşısı qəbul olunub, günahları bağışlanan və Cənnət əhli içərisinə daxil olan kimsələrdir**” kimi oxumuşlar. İki əlyazmada və çap olunmuş nüsxədə ikinci qiraət qeyd olunmuşdur və cümləyə uyğun olan da budur. (Əhməd Şakir).

bir çoxları demişlər: "İbrahim, ona əmr edilənlərin hamısını etmiş, qulluq məqamlarının hamısının haqqını tam olaraq vermişdir. Heç bir əhəmiyyətsiz iş (dünya işləri) onu önəmli olandan (ibadətdən) və heç bir kiçik iş onu böyük olandan yayındırmamışdır. Uca Allah başqa ayələrdə belə buyurur: "**Rəbbi İbrahimi bəzi kəlmələrlə sınadığı zaman o bunları tamamilə yerinə yetirdi. Allah "Mən səni insanlara imam edəcəyəm!" dedi**" ("əl-Bəqərə", 124), "**Həqiqətən, İbrahim Allaha müti, hənif bir rəhbər idi. O, müşriklərdən deyildi. O, Allahın nemətlərinə şükür edən idi. Allah onu seçmiş və doğru yola yönəltmişdi. Biz ona dünyada gözəl nemət verdik. Şübhəsiz ki, o, axirətdə də əməlisalehlərdəndir**" ("ən-Nəhl", 120-122).

Allahın İbrahimi "yaxın dost" adlandırması, onun Rəbbini çox sevməsinə və Rəbbinin sevdiyi və razı qaldığı ibadətləri etməsinə görə idi. əl-Buxari və Muslimin "Səhih" əsərlərində Əbu Səid əl-Xudridən ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ səhabələrə verdiyi son xütbəsində belə demişdir: "Ey insanlar! Bilin ki, əgər mən yer üzündəki insanların arasında özümə ən yaxın dost seçməli olsaydım, mütləq Əbu Bəkr ibn Əbu Quhəfəni seçərdim. Lakin sizin yoldaşınız (özünü nəzərdə tutur) Allahın dostudur". Cundub ibn Abdullah əl-Bəcəli, Abdullah ibn Amr ibn əl-As və Abdullah ibn Məsuddan ﷺ gələn rəvayətdə isə demişdir: "Allah, İbrahimi Özünə dost seçdiyi kimi, məni də Özünə dost seçmişdir".[1]

Uca Allah buyurur: "**Göylərdə və yerdə nə varsa, Allaha məxsusdur. Allah hər şeyi əhatə edir**", yəni hər şey Onun mülkü, hər kəs onun qulu və yaratdığıdır. Onların hamısını idarə edən Odur. Heç kəs Onun hökm etdiyinin qarşısını ala bilməz, heç kəs Onun hökmünü ləğv edə bilməz. Əzəmətli, qüdrətli, ədalətli, hikmət, lütf və mərhəmət sahibi olduğuna görə gördüyü işlər barədə soruşulmaz.

---

[1] Əbu Səidin ﷺ rəvayət etdiyi hədis əl-Buxari və Muslimin "Səhih" əsərlərində yer almışdır, amma orada "Lakin sizin yoldaşınız (özünü nəzərdə tutur) Allahın dostudur" hissəsi yoxdur. Bax: əl-Buxari (7/10-11) Fəthul-Bari); Muslim (2/230). Əhmədin (3580) İbn Məsuddan ﷺ rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ demişdir: "Mən özümə dost tutmaqdan uzağam. Əgər mən özümə yaxın dost seçmiş olsaydım, əlbəttə ki, Əbu Bəkri seçərdim. Lakin sizin yoldaşınız Allahın dostudur". Bu rəvayəti Muslim (2/231) və ət-Tirmizi (4/308) də rəvayət etmişlər. Muslimin (1/149) Cundub ibn Abdullahdan ﷺ rəvayət etdiyi hədisdə isə Peyğəmbər ﷺ demişdir: "Həqiqətən mən Allah qatında kimisə özümə dost tutmaqdan ən uzaq olanam. Həqiqətən, Allah İbrahimi Özünə dost seçdiyi kimi məni də Özünə dost seçmişdir. Əgər mən ümmətimdən kimisə özümə dost seçməli olsaydım, əlbəttə ki, Əbu Bəkri özümə dost seçərdim". Həmçinin bax: Fəthul-Bari, (7/15). (Əhməd Şakir). əl-Buxari, 3381, 3654; Muslim, 4394, 6326; Əbu Yəalə, 5149; Əhməd, 4252. Hədis səhihdir. Bax: Səhih əl-Cami, 5296.

Uca Allah buyurur: “**Allah hər şeyi əhatə edir**”, yəni Onun elmi bunların hamısını əhatə edir. Qullarının heç bir sirri Ona gizli qalmaz. Göylərdə və yerdə zərrə qədər və ya bundan daha kiçik və daha böyük heç bir şey Onun elmindən gizli qalmaz. Gözə görünən və ya görünməyən heç bir zərrə Ona gizli deyil.

﴿وَيَسْتَفْتُونَكَ فِي النِّسَاءِ ۖ قُلِ اللَّهُ يُفْتِيكُمْ فِيهِنَّ وَمَا يُتْلَىٰ عَلَيْكُمْ فِي الْكِتَابِ فِي يَتَامَى
النِّسَاءِ اللَّاتِي لَا تُؤْتُونَهُنَّ مَا كُتِبَ لَهُنَّ وَتَرْغَبُونَ أَنْ تَنْكِحُوهُنَّ وَالْمُسْتَضْعَفِينَ مِنَ الْوِلْدَانِ وَأَنْ
تَقُومُوا لِلْيَتَامَىٰ بِالْقِسْطِ ۚ وَمَا تَفْعَلُوا مِنْ خَيْرٍ فَإِنَّ اللَّهَ كَانَ بِهِ عَلِيمًا ﴿١٢٧﴾﴾

**127. Səndən qadınlar barəsində hökm verməyini istəyirlər. De: “Onlar barəsində hökmü sizə Allah və Kitabdan sizə oxunan ayələr verir. Özlərinə müəyyən edilmiş mirası verməyərək evlənmək istədiyiniz yetim qızlarla, aciz uşaqlarla və yetimlərlə ədalətlə rəftar edin!” Siz nə yaxşılıq edirsinizsə, şübhəsiz ki, Allah onu bilir.**

əl-Buxari rəvayət etmişdir ki, Aişə Uca Allahın “**Səndən qadınlar barəsində hökm verməyini istəyirlər. De: “Onlar barəsində hökmü sizə Allah və Kitabdan sizə oxunan ayələr verir**” ayəsi barədə belə demişdir: “Bu, himayəsində yetim qız olan kişiyə aiddir. O, qızın həm vəlisi, həm də varisidir. Qız onun bütün malına, hətta xurma ağaclarına da şərikdir. Kişi bu qızla özü evlənmək istəyir və qızın başqası ilə evlənməsini istəmir. Çünki qız başqası ilə evlənsə, qızın şərik olduğu hissəyə evləndiyi kişi də şərik olacaqdı. Bu səbəbdən qızı sıxışdırıb başqası ilə evlənməsinə mane olur. Bu ayə məhz belələri barədə nazil olmuşdur”.[1] Hədisi bu şəkildə Muslim də rəvayət etmişdir.[2]

İbn Əbu Hatim Aişənin belə dediyini rəvayət etmişdir: “Bu ayədən (“ən-Nisa”, 3) sonra insanlar Peyğəmbərdən qadınlar barədə hökm verməyini istədilər. Uca Allah da bu ayəni nazil etdi: “**Səndən qadınlar barəsində hökm verməyini istəyirlər. De: “Onlar barəsində hökmü sizə Allah və Kitabdan sizə oxunan ayələr verir**”. Aişə davamında belə demişdir: “Uca Allah “**Kitabda sizə oxunan ayələr**” deməklə nəzərdə tutduğu ayə yetim qızlar barədə nazil olan

[1] əl-Buxari, 4234, 4600.
[2] Muslim, 5338, 7717.

birinci ayədir. "**Əgər himayənizdə olan yetim qızlarla evlənəcəyiniz təqdirdə ədalətlə davranmayacağınızdan qorxsanız, onda xoşunuza gələn, sizə halal olan başqa qadınlardan ikisi, üçü və dördü ilə evlənin**..." ("ən-Nisa", 3)".[1]

Yenə eyni isnadla Aişənin ﵂ belə dediyi rəvayət edilir: "Uca Allahın "**Özlərinə müəyyən edilmiş mirası verməyərək evlənmək istədiyiniz yetim qızlarla**" ayəsi himayəsində gözəlliyi olmayan və malı da az olan yetim qızla evlənmək istəyi olmayanlara görə nazil olmuşdur. Bu səbəbdən kişilərə himayələrində olan yetim qızların malına və gözəlliyinə görə onlarla evlənmək qadağan edilmişdir. Çünki əgər bu qızların malı az olsaydı, özləri də gözəl olmasaydılar, bu himayədarlar onlarla evlənməzdilər. Ancaq mehr xüsusunda ədalətlə hərəkət etsələr, onlarla evlənə bilərlər". Bu hədisin əsli əl-Buxari və Muslimin "Səhih" əsərlərində rəvayət edilmişdir.[2]

Ayədə nəzərdə tutulan məna budur: "Himayəsində yetim qız olan kişinin bu qızla evlənməsi halaldır. Bəzən hami himayəsində olan yetim qızla özü evlənmək istəyir, bu halda Allah ona himayəsində olan yetim qızın mehrini insafla, yəni evlənmək istəyən kimsənin, adətən, aldığı qıza verdiyi mehrin eynisini verməyi əmr edir. Əgər belə etməkdən boyun qaçırarsa, bu halda evlənmək üçün digər qadınlara yönəlməlidir. Çünki Uca Allah bu məsələdə (digər qadınlarla evlənmək məsələsində) ona geniş imkan (dörd qadınla evlənmək imkanı) vermişdir. "ən-Nisa" surəsinin əvvəlindəki ayədə ("ən-Nisa", 3) nəzərdə tutulan məna da budur. Bəzən isə hami gözəl olmadığı üçün və ya mehrini insafla verməməkdən qorxduğu üçün himayəsində olan qızla evlənmək istəmir. Bu halda Uca Allah hamiyə özü ilə yetim qız arasında olan ortaq mala başqasını şərik etməkdən qorxaraq qızın başqasına ərə getməsinə mane olmağı qadağan etmişdir.

Necə ki İbn Abbas ﵄ Uca Allahın "**Özlərinə müəyyən edilmiş mirası verməyərək evlənmək istədiyiniz yetim qızlarla ...ədalətlə rəftar edin!**" sözü barəsində demişdir: "Cahiliyyə dövründə himayəsində yetim qız olan kişi hamıya onunla evlənəcəyini elan edərdi. Belə olduğu zaman heç kim heç vaxt o qızla evlənə bilmirdi. Yetim qız gözəl olardısa, onun da qızdan xoşu gələrdisə, onunla

---

[1] İbn Əbu Hatim, 6020; Əbu Davud, 2068, 2070. Hədis səhihdir. Bax: Səhih Sunən Əbu Davud, 1804.

[2] Aişənin ﵂ hədisini əl-Buxari (8/199 Fəthul-Bari) rəvayət etmişdir. Hədis daha geniş formada "ən-Nisa" surəsinin 2-4-cü ayələrinin təfsirində keçmişdir. (Əhməd Şakir). əl-Buxari, 2194, 4208, 4574; Muslim, 3018, 5335, 7713.

evlənərdi və malını ələ keçirərdi. Yetim qız çirkin olardısa, özü onunla evlənməzdi və ölənə qədər digər kişilərin də onunla evlənməsinə mane olardı. Qız öldükdən sonra isə kişi onun varisi olardı. Uca Allah da belə etməkdən çəkindirərək bunu haram etdi".[1]

Uca Allah buyurur: "**aciz uşaqlarla ...ədalətlə rəftar edin**". Cahiliyyə dövründə kiçik oğlan uşaqlarını və qızları mirasa varis etməzdilər. Uca Allahın "**Özlərinə müəyyən edilmiş mirası verməyərək**" sözü də buna aiddir. Uca Allah bunu qadağan etmiş və hər pay sahibinin kiçik və ya böyük olmasından asılı olmayaraq payını müəyyən edərək "**Allah sizə övladlarınız haqqında kişiyə iki qadının payı qədər pay verilməsini buyurur**..." ("ən-Nisa", 11) buyurmuşdur. Səid ibn Cubeyr və başqaları ﵏ da belə demişlər.

Səid ibn Cubeyr ﵀ Uca Allahın "...**yetimlərlə ədalətlə rəftar edin!**" ayəsi barədə belə demişdir: "Malı və gözəlliyi olduqda yetim qızlara üstünlük verib evləndiyiniz kimi, gözəlliyi və malı olmadıqda da onlara üstünlük verib evlənin".[2]

Sonra Uca Allah qullarını xeyir işlər görməyə və əmrlərə tabe olmağa rəğbətləndirərək buyurur: "**Siz nə yaxşılıq edirsinizsə, şübhəsiz ki, Allah onu bilir**". Uca Allah etdiyiniz bütün xeyirli işləri, şübhəsiz ki, bilir. Bunlara görə mükafatınızı tam olaraq artıqlaması ilə mütləq verəcəkdir.

﴿وَإِنِ امْرَأَةٌ خَافَتْ مِن بَعْلِهَا نُشُوزًا أَوْ إِعْرَاضًا فَلَا جُنَاحَ عَلَيْهِمَا أَن يُصْلِحَا بَيْنَهُمَا صُلْحًا ۚ
وَالصُّلْحُ خَيْرٌ ۗ وَأُحْضِرَتِ الْأَنفُسُ الشُّحَّ ۚ وَإِن تُحْسِنُوا وَتَتَّقُوا فَإِنَّ اللَّهَ كَانَ بِمَا تَعْمَلُونَ
خَبِيرًا ﴿١٢٨﴾ وَلَن تَسْتَطِيعُوا أَن تَعْدِلُوا بَيْنَ النِّسَاءِ وَلَوْ حَرَصْتُمْ ۖ فَلَا تَمِيلُوا كُلَّ الْمَيْلِ فَتَذَرُوهَا
كَالْمُعَلَّقَةِ ۚ وَإِن تُصْلِحُوا وَتَتَّقُوا فَإِنَّ اللَّهَ كَانَ غَفُورًا رَّحِيمًا ﴿١٢٩﴾ وَإِن يَتَفَرَّقَا يُغْنِ اللَّهُ
كُلًّا مِّن سَعَتِهِ ۚ وَكَانَ اللَّهُ وَاسِعًا حَكِيمًا ﴿١٣٠﴾﴾

**128. Əgər bir qadın öz ərinin onu yola verməməsindən, yaxud ondan üz döndərməsindən qorxarsa, ər-arvadın öz aralarında razılığa gəlmələrində onlara günah gəlməz. Çünki razılığa gəlmək daha xeyirlidir. Doğrusu, nəfslər xəsisliyə meyillidir. Əgər qadınlarla yaxşı davranıb Allahdan qorxsanız, şübhəsiz ki, Allah nə etdiklərinizdən xəbərdardır.**

[1] İbn Əbu Hatim, 6026; ət-Tabəri, 10565, 10635.
[2] İbn Əbu Hatim, 6032.

**129. Siz nə qədər çalışsanız da, qadınlar arasında ədalətlə davrana bilməzsiniz. Birinə tamamilə meyil edib, digərini asılı vəziyyətdə qalmış kimi buraxmayın. Əgər özünüzü düzəldib Allahdan qorxsanız, şübhəsiz ki, Allah bağışlayandır, rəhmlidir.**

**130. Əgər ər-arvad ayrılsalar, Allah hər birini Öz lütfündən zəngin edər. Allah hər şeyi Əhatəedəndir, Müdrikdir.**

Bu ayələrdə Uca Allah ər-arvad arasında olan müxtəlif hallardan – bəzən kişinin zövcəsindən üz çevirdiyi haldan, bəzən ər-arvadın öz aralarında razılığa gəldikləri haldan, bəzən də kişinin zövcəsindən ayrıldığı haldan bəhs edərək hər hala uyğun şəriət qanunları qoymuşdur.

**Birinci hal**: Qadının, ərinin ona nifrət etməsi və ya ondan üz çevirməsindən qorxduğu haldır. Bu halda qadın ərinin ondan üz çevirməməsi üçün ona düşən maddi məsrəf, geyim, ev və ya digər haqlarının bir hissəsindən, yaxud hamısından imtina edə bilər. Ərin də bunu ondan qəbul etməsi icazəlidir. Bu halda, nə qadına öz haqlarından keçdiyinə görə, nə də kişiyə bunu qadından qəbul etdiyinə görə günah yazılmaz. Bu səbəbdən Uca Allah "...**ər-arvadın öz aralarında razılığa gəlmələrində onlara günah gəlməz**"[1] buyurur. Sonra isə "**Çünki razılığa gəlmək daha xeyirlidir**" buyurmaqla ər-arvadın öz aralarında razılığa gəlməyin ayrılmaqdan daha xeyirli olduğunu bildirir.

Uca Allah buyurur: "**Doğrusu, nəfslər xəsisliyə meyillidir**", yəni mübahisə halında barışığa getmək ayrılıqdan daha xeyirlidir.[2] Buna görə Səudə bint Zəma رضي الله عنها yaşlandıqda Peyğəmbər ﷺ ondan ayrılmaq qərarına gəlmişdi. O isə Peyğəmbərin ﷺ onun yanında qalma növbəsini Aişəyə رضي الله عنها bağışlamış, Peyğəmbər ﷺ də onu boşamamaq şərtilə bununla razılaşmışdı. Peyğəmbər ﷺ bu razılaşmanı qəbul edərək onu zövcəsi kimi saxlamışdır. Əbu Davud ət-Tayəlisi رحمه الله İbn Abbasın رضي الله عنهما belə dediyini rəvayət etmişdir: "Səudə artıq yaşa

---

[1] Hafs qiraətinə görə, ayə أَنْ يُصْلِحَا [ən yuslihə] kimi oxunmuşdur. Digər qiraətlərdə isə bu söz أَنْ يَصَّالَحَا [ən yəssa:ləhə] kimi oxunmuşdur. İbn Kəsir رحمه الله ikinci qiraətlə yazmışdır. Əlyazmalarında da bu qiraətlə yazılıb. Hər iki qiraətə görə məna eynidir. (Əhməd Şakir).

[2] İbn Kəsirin رحمه الله dediyi, əslində, bu cümlənin təfsiri deyil, cümlənin nəticə etibarilə mənasıdır. Bu cümlənin doğru təfsiri ət-Təbərinin (9/279) qeyd etdiyi kimidir: "Yəni qadınların nəfsləri ərlərindən və onların mallarından özlərinə düşən paya xəsislik etməyə və bu payı heç kəslə bölüşməməyə meyillidir". Sonra demişdir (9/282): "Xəsislik bir şeyə hərislikdə həddi aşmaqdır. Burada isə qadının ərindən ona düşən gecələmə və məsrəf payına ifrat dərəcədə həris olması nəzərdə tutulur". (Əhməd Şakir).

dolmuşdu və qorxurdu ki, Peyğəmbər ﷺ onu boşayar. Elə buna görə də o, Peyğəmbərə ﷺ dedi: "Ey Allahın Elçisi! Məni boşama və yanımda qalmalı olduğun günləri Aişənin yanında qal!" Peyğəmbər ﷺ onunla razılaşdı və belə də etdi. Bu səbəbdən "**Əgər bir qadın öz ərinin onu yola verməməsindən, yaxud ondan üz döndərməsindən qorxarsa, ər-arvadın öz aralarında razılığa gəlmələrində onlara günah gəlməz**" ayəsi nazil oldu. İbn Abbas رضي الله عنهما demişdir: "Ər-arvadın aralarında razılığa gəldikləri hər şey icazəlidir". Hədisi ət-Tirmizi رحمه الله rəvayət etmiş və "həsən-ğarib" olduğunu bildirmişdir.[1]

əl-Buxari və Muslim "Səhih" əsərlərində Aişənin رضي الله عنها belə dediyini rəvayət etmişlər: "Səudə bint Zəma yaşlandıqda Peyğəmbərin ﷺ onun yanında keçirməli olduğu günləri Aişəyə bağışladı. Peyğəmbər ﷺ Səudənin yanında keçirməli olduğu günlərdə Aişənin yanına gedərdi".[2]

əl-Hakim Urvədən rəvayət etmişdir ki, Aişə رضي الله عنها ona demişdir: "Ey bacıoğlu! Allahın Elçisi ﷺ bizim (zövcələrinin) birimizi digərindən üstün hesab etmir və hər birimizin yanında müvafiq bölgüyə əsasən qalırdı. O hər gün bizim hamımızı ziyarət edir və növbəsi çatmış zövcəsinin yanında qalırdı. Səudə bint Zəma artıq yaşa dolmuşdu və qorxurdu ki, Allahın Elçisi ﷺ onu boşayar. Elə buna görə də o, Allahın Elçisinə ﷺ dedi: "Ey Allahın Elçisi, öz növbəmi Aişəyə bağışlayıram!" Allahın Elçisi ﷺ onunla razılaşdı və Uca Allah da bu ayəni nazil etdi: "**Əgər bir qadın öz ərinin onu yola verməməsindən, yaxud ondan üz döndərməsindən qorxarsa, ər-arvadın öz aralarında razılığa gəlmələrində onlara günah gəlməz**". Oxşar hədisi Əbu Davud və İbn Mərdəveyh rəvayət etmişlər. əl-Hakim demişdir: "Hədisin isnadı səhihdir, lakin əl-Buxari ilə Muslim rəvayət etməmişlər".[3]

əl-Buxari رحمه الله rəvayət etmişdir ki, Aişə رضي الله عنها Uca Allahın "**Əgər bir qadın öz ərinin onu yola verməməsindən, yaxud ondan üz döndərməsindən qorxarsa, ər-arvadın öz aralarında razılığa gəlmələrində onlara günah gəlməz**" ayəsi barədə belə demişdir: "Bir kişi qadınına qarşı istəyi az olduğu üçün ondan ayrılmaq istəyir. Qadın da ona

[1] ət-Tayəsili (2683); ət-Tirmizi (4/94-95). Hər iki isnad səhihdir. ət-Tirmizi رحمه الله hədisi "həsən-səhih-ğarib" adlandırmışdır. (Əhməd Şakir). ət-Tayəlisi, 2805; ət-Tirmizi, 3314 ,3040; ət-Tabərani "Mucəmul-Kəbir" 19581 ,11581. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 1479; İrvaul-Ğalil, 2020.

[2] əl-Buxari, 4811, 5812.

[3] əl-Hakim (2/186); Əbu Davud (2135). əz-Zəhəbi əl-Hakimin رحمه الله hədisi səhih adlandırması ilə razılaşmışdır. (Əhməd Şakir). əl-Hakim, 2760. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 1479.

“Məni boşama, əvəzində üzərimdə olan haqları sənə halal edirəm” deyir. Bu səbəbdən bu ayə nazil oldu”.[1]

İbn Əbu Hatim ﷺ Xalid ibn Ararın ﷺ belə dediyini rəvayət etmişdir: “Bir dəfə bir kişi Əli ibn Əbu Talibin ﷺ yanına gəlib ondan Uca Allahın “**Əgər bir qadın öz ərinin onu yola verməməsindən, yaxud ondan üz döndərməsindən qorxarsa, ər-arvadın öz aralarında razılığa gəlmələrində onlara günah gəlməz**” ayəsi barədə soruşdu. Əli ﷺ belə dedi: “Bir kişi zövcəsi çirkin, yekəxana, pis xasiyyətli və ya pinti olduğuna görə onu sevmir. Qadın isə ondan ayrılmaq istəmir. Bu halda qadının onu boşamamaq şərtilə mehrinin bir hissəsindən imtina etməsi kişiyə halaldır. Qadın əri ilə birlikdə keçirməli olduğu günlərin bəzilərindən keçsə, bunda da bir günah yoxdur”. Hədisi Əbu Davud ət-Tayəlisi və İbn Cərir ﷺ də rəvayət etmişlər.[2] Bu təfsir eyni zamanda İbn Abbas, Ubeydə əs-Səlməni, Mucahid, əş-Şabi, Səid ibn Cubeyr, Qatədə və bir çox sələf alimlərinin ﷺ təfsiridir və bildiyimə görə, bu ayədə nəzərdə tutulanın bu olduğuna dair alimlər arasında fikir ayrılığı yoxdur. Ən doğrusunu Allah bilir.

əş-Şafii ﷺ İbn əl-Museyyibdən ﷺ rəvayət etmişdir ki, o, Muhəmməd ibn Məsləmənin qızı Rafi ibn Xadiclə evli idi. Rafi onu yaşa dolduğundan və ya başqa bir xasiyyətindən xoşlanmayaraq boşamaq istədi. Qadın “Məni boşama, mənə istədiyin qədər gecə ayır!” dedi. Bu səbəbdən Uca Allah “**Əgər bir qadın öz ərinin onu yola verməməsindən, yaxud ondan üz döndərməsindən qorxarsa, ər-arvadın öz aralarında razılığa gəlmələrində onlara günah gəlməz**” ayəsini nazil etdi”. əl-Hakim ﷺ bu hədisi bundan daha uzun mətnlə rəvayət etmişdir.[3]

---

[1] əl-Buxari (8/199 Fəthul-Bari). Həmçinin, ət-Təbəri (10585, 10586) oxşar hədisi rəvayət etmişdir. (Əhməd Şakir). əl-Buxari, 2270, 2450, 4235, 4601.

[2] ət-Təbəri (10575, 10578), isnadları səhihdir. (Əhməd Şakir). İbn Əbu Hatim, 6042.

[3] əş-Şafiinin ﷺ rəvayəti müxtəsərdir. Hədis zahirən mursəldir. Hədis geniş şəkildə “əl-Mustədrək” (2/308-309) əsərindədir. əl-Hakim ﷺ hədisin səhih olduğunu demiş, əz-Zəhəbi ﷺ də onunla razılaşmışdır. (Əhməd Şakir). Səid ibn Mənsur “Təfsir” 665; əl-Beyhəqi “Sunənul-Kubra” 14507, 14730, 15127.

əl-Hakimin ﷺ rəvayət etdiyi hədis belədir: “Rafi ibn Xadic ﷺ rəvayət edir ki, onun zövcəsi artıq yaşa dolmuşdu. Buna görə də o bakirə qızla evləndi və onun yanında qalmağa daha çox üstünlük verdi. Zövcəsi də onun bu hərəkətinə öz etirazını bildirdikdə Rafi ona talaq verdi. Gözləmə müddətinin bitməsinə az qalmış Rafi ona dedi: “Əgər ikinci zövcəmlə daha çox vaxt keçirəcəyimə səbir edəcəksənsə, talağı geri götürüm, ya da gözləmə vaxtı bitənə qədər səni tərk edim”. O dedi: “Səbir edəcəyəm, talağı geri götür”. Sonra o, yenə ərinin yeni zövcəsi ilə çox vaxt keçirməsinə səbir etmədikdə Rafi onu boşadı. Allahın barəsində ayə nazil etdiyi sülh də budur: **“Əgər bir qadın öz ərinin onu yola verməməsindən, yaxud ondan üz**

Uca Allah buyurur: “**Çünki razılığa gəlmək daha xeyirlidir**”. İbn Abbas ﵄ demişdir: “Yəni ərin arvadına seçim təklif etməsi daha xeyirlidir. Belə ki, ərin arvadına (müəyyən şərtlər daxilində) qalmaqla ayrılmaq arasında seçim təklif etməsi, başqa qadını ondan üstün tutmaqla evliliyə davam etməsindən daha xeyirlidir”. Lakin ayənin zahirindən aydın olan budur ki, ər-arvadın razılığa gəlib qadının ərinə öz bəzi haqlarından keçməsi, ərin də bunu qəbul etməsi tam ayrılmalarından daha xeyirlidir. Necə ki Peyğəmbər ﷺ gününü Aişəyə ﵂ bağışlamaq şərtilə Səudə bint Zəmanı ﵂ boşamayaraq yanında saxlamış və onu zövcələrindən biri etmişdir. Peyğəmbərin ﷺ belə etməkdə məqsədi bu əməlin şəriət baxımından icazəli olduğunu ümmətinə göstərmək olmuşdur. Peyğəmbər ﷺ üçün ən fəzilətli olan da budur. Allah qatında razılaşma ayrılıqdan daha sevimli olduğu üçün Uca Allah “**Çünki razılığa gəlmək daha xeyirlidir**” buyurur. Boşanma Allahın sevmədiyi bir əməldir. Əbu Davud və İbn Məcənin ﵏ Abdullah ibn Ömərdən ﵄ rəvayət etdikləri hədisdə Peyğəmbər ﷺ demişdir: “Allahın ən çox sevmədiyi halal, boşanmadır”.[1]

Uca Allah buyurur: “**Əgər qadınlarla yaxşı davranıb Allahdan qorxsanız, şübhəsiz ki, Allah nə etdiklərinizdən xəbərdardır**”, yəni əgər xoşunuza gəlməyən qadınlara səbir edib digər qadınlara ayırdığınız qədər onlara da vaxt ayırsanız, bilin ki, Uca Allah bu əməlinizdən xəbərdardır və bunun müqabilində sizə böyük mükafat verəcəkdir.

Uca Allah buyurur: “**Siz nə qədər çalışsanız da, qadınlar arasında ədalətlə davrana bilməzsiniz**”, yəni “Ey insanlar! Qadınlar arasında hər cəhətdən ədalətli davranmağa əsla gücünüz çatmayacaq. Zahirən bir gecə birinə, bir gecə digərinə ayırmaqla bərabərlik meydana gəlsə də, İbn Abbas, Ubeydə əs-Sələmani, Mucahid, əl-Həsən əl-Bəsri və başqalarının ﵏ dediyi kimi, sevgidə, şəhvətdə və cinsi əlaqədə mütləq qeyri-bərabərlik olacaq”.

İmam Əhməd və “Sunən” əsərlərinin sahibləri ﵏ Aişənin ﵂ belə dediyini rəvayət etmişlər: “Peyğəmbər ﷺ qadınları arasında gecələri bölüşdürər və bu bölgüdə ədalətlə davranardı. Sonra belə deyərdi: “Allahım, gücümün çatdığı qədər bölgüm budur. Sənin sahib olub mənim sahib olmadığım xüsuslara görə məni qınama!” Peyğəmbər ﷺ

---

**döndərməsindən qorxarsa, ər-arvadın öz aralarında razılığa gəlmələrində onlara günah gəlməz ...”** (“ən-Nisa”, 128)”. əl-Hakim, 3205; ət-Təbəri, 10669. Şeyx Muqbil səhih olduğunu bildirmişdir.

[1] Əbu Davud (2178); İbn Məcə (2018). (Əhməd Şakir). Hədis zəifdir. Bax: Daif əl-Cami, 44.

belə deməklə qəlbdə olan sevgini nəzərdə tuturdu”. Bu hədisin mətni Əbu Davuda ﷺ aid olub isnadı səhihdir.[1]

Uca Allah buyurur: “**Birinə tamamilə meyil edib**”, yəni qadınlardan birinə meyil etdiyiniz təqdirdə həddi aşıb, “**digərini asılı vəziyyətdə qalmış kimi buraxmayın**”, yəni digərini asılı vəziyyətdə saxlamayın. İbn Abbas, Mucahid, Səid ibn Cubeyr, əl-Həsən və başqaları ﷺ demişlər: “Nə ərli kimi ərli, nə də boşanmış kimi boşanmış buraxmayın”. ət-Tayəlisi ﷺ Əbu Hureyradan ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: “Kimin iki zövcəsi olsa və o, zövcələrindən yalnız birinə meyil etsə, Qiyamət günü üzünün bir tərəfi əyilmiş halda gələcək”. Hədisi İmam Əhməd və “Sunən” sahibləri rəvayət etmişlər.[2]

Uca Allah buyurur: “**Əgər özünüzü düzəldib Allahdan qorxsanız, şübhəsiz ki, Allah bağışlayandır, rəhmlidir**”, yəni əgər bütün işlərinizdə doğru davranıb sahib olduğunuz xüsuslarda ədalətli bölgü aparsanız və hər bir halda Allahdan qorxsanız, qadınlardan birinə meyil etməklə qazandığınız günahı Allah bağışlayacaq.

Uca Allah buyurur: “**Əgər ər-arvad ayrılsalar, Allah hər birini Öz lütfündən zəngin edər**”. Bu, yuxarıda qeyd etdiyimiz hallardan üçüncüsü – ər-arvadın ayrıldığı haldır. Uca Allah bildirir ki, ər-arvad ayrılarsa, Allah kişiyə ayrıldığı qadından daha xeyirlisini verməklə, qadına da ayrıldığı kişidən daha xeyirlisini verməklə onları zəngin edər. “**Allah hər şeyi Əhatəedəndir, Müdrikdir**”, yəni Allah geniş lütfə, böyük nemətə sahib olub, bütün işlərində, hökmündə və şəriət qanunlarında hikmətlidir.

﴿ وَلِلَّهِ مَا فِي ٱلسَّمَٰوَٰتِ وَمَا فِي ٱلْأَرْضِۗ وَلَقَدْ وَصَّيْنَا ٱلَّذِينَ أُوتُواْ ٱلْكِتَٰبَ مِن قَبْلِكُمْ
وَإِيَّاكُمْ أَنِ ٱتَّقُواْ ٱللَّهَۚ وَإِن تَكْفُرُواْ فَإِنَّ لِلَّهِ مَا فِي ٱلسَّمَٰوَٰتِ وَمَا فِي ٱلْأَرْضِۚ وَكَانَ ٱللَّهُ غَنِيًّا
حَمِيدًا ﴿١٣١﴾ وَلِلَّهِ مَا فِي ٱلسَّمَٰوَٰتِ وَمَا فِي ٱلْأَرْضِۚ وَكَفَىٰ بِٱللَّهِ وَكِيلًا ﴿١٣٢﴾ إِن يَشَأْ يُذْهِبْكُمْ أَيُّهَا
ٱلنَّاسُ وَيَأْتِ بِـَٔاخَرِينَۚ وَكَانَ ٱللَّهُ عَلَىٰ ذَٰلِكَ قَدِيرًا ﴿١٣٣﴾ مَّن كَانَ يُرِيدُ ثَوَابَ ٱلدُّنْيَا فَعِندَ ٱللَّهِ ثَوَابُ
ٱلدُّنْيَا وَٱلْـَٔاخِرَةِۚ وَكَانَ ٱللَّهُ سَمِيعًۢا بَصِيرًا ﴿١٣٤﴾ ﴾

[1] Əbu Davud (2134); ət-Tirmizi (2/195). “Peyğəmbər ﷺ belə deməklə qəlbdə olan sevgini nəzərdə tuturdu” cümləsi Əbu Davudun ﷺ sözüdür. (Əhməd Şakir). Əbu Davud, 2136. Hədis zəifdir. Bax: Daif əl-Cami, 4593.

[2] ət-Tayəlisi (2454); Əhməd (7923). (Əhməd Şakir). Əbu Davud, 2133, 2135. Hədis səhihdir. Bax: Səhih əl-Cami, 6515.

**131. Göylərdə və yerdə nə varsa, Allaha məxsusdur.** (And olsun ki,) **Biz sizdən əvvəl Kitab verilənlərə də, sizə də "Allahdan qorxun!" deyə buyurduq. Əgər küfr etsəniz, bilin ki, göylərdə və yerdə nə varsa, Allaha məxsusdur. Allah Zəngindir, Tərifəlayiqdir.**
**132. Göylərdə və yerdə nə varsa, Allaha məxsusdur. Qoruyan olaraq Allah yetər.**
**133. Ey insanlar! Əgər Allah istəsə, sizi yox edib yerinizə başqalarını gətirər. Allah buna qadirdir.**
**134. Kim dünya mükafatını istərsə, bilsin ki, dünyanın da, Axirətin də mükafatı Allah yanındadır. Allah Eşidəndir, Görəndir.**

Uca Allah bu ayələrdə göylərin və yerin sahibi olduğunu, həm yerdə, həm də göydə yalnız Özünün hakim olduğunu bildirir. Bu səbəbdən "(And olsun ki,) **Biz sizdən əvvəl Kitab verilənlərə də, sizə də "Allahdan qorxun!" deyə buyurduq**" buyurur. Yəni sizdən əvvəl Kitab verilənlərə Tək və şəriki olmayan Allaha ibadət etməklə Allahdan qorxmağı tövsiyə etdiyimiz kimi, sizə də eyni şəkildə Allahdan qorxmağı tövsiyə etdik.

Sonra Uca Allah buyurur: "**Əgər küfr etsəniz, bilin ki, göylərdə və yerdə nə varsa, Allaha məxsusdur. Allah Zəngindir, Tərifəlayiqdir**". Necə ki başqa bir ayədə Musanın عليه السلام qövmünə belə dediyini xəbər verir: "**Musa dedi: "Əgər siz və yer üzündə olanların hamısı kafir olsanız, Allaha heç bir zərər yetirə bilməzsiniz. Çünki Allah, həqiqətən də, Zəngindir, Tərifəlayiqdir**" ("İbrahim", 8). Başqa bir ayədə buyurur: "**Bu ona görədir ki, elçiləri onlara aydın dəlillər gətirirdi, onlar isə "Məgər bizə bir insanmı doğru yol göstərəcək?" deyirdilər. Onlar küfr edir və üz döndərirdilər. Allahın onlara ehtiyacı yoxdur. Allah Zəngindir, Tərifəlayiqdir**" ("ət-Təğabun", 6). Yəni Allah qullarına möhtac deyildir, verdiyi qərarlarında və qoyduğu qanunlarında tərifə layiqdir.

Uca Allah buyurur: "**Göylərdə və yerdə nə varsa, Allaha məxsusdur. Qoruyan olaraq Allah yetər**", yəni hər kəsə qazandığına görə əvəz verən, hər şeyə nəzarət edən və şahid olan Odur.

Uca Allah buyurur: "**Ey insanlar! Əgər Allah istəsə, sizi yox edib yerinizə başqalarını gətirər. Allah buna qadirdir**", yəni əgər Ona asi olsanız, şübhəsiz, sizi yox edib, başqaları ilə əvəz etməyə qadirdir. Necə ki başqa bir ayədə belə buyurur: "**Əgər üz çevirsəniz, yerinizə sizin tayınız olmayan başqa insanlar gətirər**" ("Muhəmməd", 38). Bəzi sələflər demişlər: "Qullar Allahın əmrlərinə itaət etməsələr, Allah

yanında necə də dəyərsizdirlər!" Uca Allah başqa bir ayədə buyurur: "**Əgər O istəsə, sizi yox edib yerinizə yeni bir məxluq gətirər. Bu, Allah üçün çətin deyildir**" ("İbrahim", 19-20).

Uca Allah buyurur: "**Kim dünya mükafatını istərsə, bilsin ki, dünyanın da, Axirətin də mükafatı Allah yanındadır**", yəni ey dərdi-səri yalnız dünya olan kəs! Bil ki, dünya və Axirət savabı Allah dərgahındadır. Əgər Allahdan həm dünya, həm də Axirət nemətlərini istəsən, Allah bunu sənə verər, səni zəngin edər və razı salar. Necə ki başqa ayələrdə belə buyurur: "**İnsanlar arasında "Ey Rəbbimiz! Bizə verəcəyini elə bu dünyada ver!" deyənlər vardır. Belə şəxslərin Axirətdə heç bir payı yoxdur. Onlardan "Ey Rəbbimiz! Bizə həm bu dünyada, həm də Axirətdə gözəl nemətlər ver və bizi Od əzabından qoru!" deyənləri də vardır. Beləlləri üçün qazandıqları əməllərə görə bir pay vardır. Allah tez haqq-hesab çəkəndir**" ("əl-Bəqərə", 200-201); "**Biz axirət savabını istəyənin savabını artırar, dünya qazancını istəyənə də ondan verərik. Lakin axirətdə onun heç bir payı olmaz**" ("əş-Şura", 20); "**Kim gəldi-gedər dünyanı istəsə, orada ona – dilədiyimiz kimsəyə istədiyimiz şeyləri dərhal verərik. Sonra isə onu qınanmış və Allahın rəhmətindən qovulmuş halda girəcəyi Cəhənnəmə atarıq. Kim də Axirəti istəsə, mömin olaraq bütün qəlbi ilə ona can atsa, onların səyi məmnuniyyətlə qəbul olunar. Biz hamıya – onlara da, bunlara da Rəbbinin nemətindən veririk. Rəbbinin neməti heç kəsə qadağan deyil. Bax gör dünyada onların birini digərindən necə üstün etdik. Axirətdə isə daha böyük dərəcələr və daha böyük üstünlüklər var**" ("əl-İsra", 18-21).

İbn Cərir ﷺ isə ayəni belə təfsir etmişdir: "Yəni imanlı olduğunu göstərən münafiqlərdən "**Kim dünya mükafatını istərsə**", bilsin ki dünyanın mükafatı Allah dərgahındadır. Bu isə onların da müsəlmanlarla birlikdə əldə etdikləri qənimət və buna bənzər şeylərdir. "**Axirətin də mükafatı Allah yanındadır**", bu isə Allahın onlar üçün Cəhənnəm atəşində hazırladığı cəzadır". Beləcə, İbn Cərir ﷺ bu ayəni Uca Allahın "**Kim dünya həyatını və onun bərbəzəyini istəyirsə, onlara əməllərinin əvəzini orada tam verərik və onlar orada zərər çəkməzlər. Onlar axirətdə özləri üçün oddan başqa heç bir şeyi olmayan kimsələrdir. Onların dünyada gördükləri işlər boşa çıxar və tutduqları əməllər puç olar**" ("Hud", 15-16) ayələri kimi təfsir etmişdir. Bu ayələrin mənası, əlbəttə ki, aydındır. Lakin birinci ayəni bu ayə ilə təfsir etmək şübhəlidir, çünki Uca Allahın "...**dünyanın da, Axirətin də mükafatı Allah yanındadır**" sözü həm dünya, həm də

Axirətdə xeyrin mövcud olmasına aydın dəlalət edir. Yəni həm dünya mükafatı, həm Axirət mükafatı Onun əlindədir. İnsan səhlənkarlıq edib yalnız dünya üçün çalışmaqla kifayətlənməməli, əksinə, istəyi dünya və Axirətdə yüksək məqsədlərə nail olmağa yönəlməlidir. Dünya və Axirət xeyirləri Özündən başqa ibadətə layiq haqq məbud olmayan, zərər də, fayda da yalnız Onun əlində olan Allaha aiddir. Uca Allah Öz əzəli elmi ilə ədalətli şəkildə dünya və Axirətdə xoşbəxtlik və bədbəxtliyi insanlar arasında bölüşdürmüş, xoşbəxtliyə layiq olanı xoşbəxt, bədbəxtliyə layiq olanı da bədbəxt yaratmışdır. Bu səbəbdən Uca Allah ayənin sonunda "**Allah Eşidəndir, Görəndir**" buyurur.

﴿ ۞ يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ كُونُواْ قَوَّٰمِينَ بِٱلۡقِسۡطِ شُهَدَآءَ لِلَّهِ وَلَوۡ عَلَىٰٓ أَنفُسِكُمۡ أَوِ ٱلۡوَٰلِدَيۡنِ وَٱلۡأَقۡرَبِينَۚ إِن يَكُنۡ غَنِيًّا أَوۡ فَقِيرٗا فَٱللَّهُ أَوۡلَىٰ بِهِمَاۖ فَلَا تَتَّبِعُواْ ٱلۡهَوَىٰٓ أَن تَعۡدِلُواْۚ وَإِن تَلۡوُۥٓاْ أَوۡ تُعۡرِضُواْ فَإِنَّ ٱللَّهَ كَانَ بِمَا تَعۡمَلُونَ خَبِيرٗا ١٣٥ ﴾

**135. Ey iman gətirənlər! Şahidliyiniz sizin özünüzün, valideynlərinizin, yaxın qohumlarınızın əleyhinə olsa belə, Allah üçün ədaləti qoruyan şahidlər olun. Əleyhinə şahidlik edəcəyiniz kəslər istər varlı, istər kasıb olsun, Allah onların hər ikisinə sizdən daha yaxındır. Nəfsinizin istəyinə uyub ədalətdən sapmayın! Əgər dilinizi əysəniz, yaxud həqiqəti deməkdən boyun qaçırsanız, bilin ki, Allah nə etdiklərinizdən xəbərdardır.**

Uca Allah bu ayədə mömin qullarına ədaləti qorumağı əmr edir. Belə ki, haqdan sağa-sola meyil etməməli, bu yolda Allah üçün heç kəsin tənəsinə məhəl qoymamalı, heç bir şey onları haqdan döndərməməli və bu yolda bir-birlərinə yardım edib dayaq olmalıdırlar.

Uca Allah buyurur: "**Allah üçün ədaləti qoruyan şahidlər olun**". Necə ki başqa bir ayədə buyurur: "**Allah üçün şahidlik edin**" ("ət-Talaq", 2). Yəni şahidlik Allahın Üzünü diləmək üçün olmalıdır. Əgər şahidlik Allah üçün olarsa, bu zaman düzgün, ədalətlə, haqla, təhrif olunmadan, dəyişdirilmədən və gizlədilmədən yerinə yetiriləcək. Bu səbəbdən Uca Allah "**Şahidliyiniz sizin özünüzün, ...əleyhinə olsa belə**" buyurur. Yəni zərəri sənə dəymiş olsa belə, ədalətlə şahidlik et. Əgər səndən bir iş barədə soruşulsa, sənə zərəri dəysə belə, haqqı söylə. Şübhəsiz ki, Allah Ona itaət edənlərə hər sıxıntıdan bir çıxış yolu göstərər.

Uca Allah buyurur: “...**valideynlərinizin, yaxın qohumlarınızın əleyhinə olsa belə**”, yəni şahidliyiniz ata-ananızın və yaxud yaxın qohumlarınızın əleyhinə olsa belə, onları müdafiə etmə. Zərəri onlara toxunsa belə, haqqa şahidlik et, çünki haqq hər kəsdən üstündür.

Uca Allah buyurur: “**Əleyhinə şahidlik edəcəyiniz kəslər istər varlı, istər kasıb olsun, Allah onların hər ikisinə sizdən daha yaxındır**”, yəni əleyhinə şahidlik edəcəyin şəxs varlı olduğuna görə onu müdafiə etmə və ya kasıb olduğuna görə ona yazığın gəlməsin. Allah onların himayəçisidir. Əksinə, Allah onlara səndən daha yaxındır və nəyin onlar üçün daha faydalı olduğunu səndən yaxşı bilir.

Uca Allah buyurur: “**Nəfsinizin istəyinə uyub ədalətdən sapmayın!**”, yəni nəfsi istəklərə uymaq, millətpərəstlik və ya kimlərinsə sizə nifrət bəsləməsi, sizi işlərinizdə ədalətsiz davranmağa sövq etməsin. Əksinə, nə olursa olsun, ədalətdən möhkəm yapışın. Necə ki Uca Allah buyurur: “**Bir qövmə qarşı olan kin-küdurət sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun! Bu, təqvaya daha yaxındır**” (“əl-Maidə”, 8).

Peyğəmbər ﷺ Abdullah ibn Ravəhəni ﷺ Xeybər əhalisinin meyvə və əkinlərini təxmin edib ölçmək üçün göndərdikdə,[1] yəhudilər ona rüşvət təklif edib onlara qarşı yumşaq davranaraq məhsulu az göstərməsini istədilər. Abdullah ﷺ bunu hiss etdikdə dedi: “Allaha and olsun ki, sizin yanınıza mənə ən sevimli olan insanın yanından gəlmişəm. Sizin hamınıza meymun və donuzlardan daha çox nifrət edirəm. Bilin ki, Peyğəmbərə ﷺ olan sevgim və sizə olan nifrətim məni sizin barənizdə ədalətsiz davranmağıma vadar edə bilməz. Onlar dedilər: “Göylər və yer məhz bununla (haqq və ədalətlə) sabit dayanar”.[2] Bu hədis Allahın izni ilə bitişik sənədlə “əl-Maidə” surəsinin təfsirində təkrar gələcəkdir.

Uca Allah buyurur: “**Əgər dilinizi əysəniz, yaxud həqiqəti deməkdən boyun qaçırsanız, ...**” Mucahid və bir çox sələf alimləri

[1] Peyğəmbər ﷺ Xeybəri fəth etdikdən sonra torpağı orada yaşayan yəhudilərə becərdikləri məhsulun yarısını müsəlmanlara vermək şərtilə icarəyə vermişdi. əl-Buxari Abdullah ibn Ömərdən belə rəvayət etmişdir: “Peyğəmbər ﷺ Xeybər (yəhudilərinə) əkin sahələrindən götürdükləri məhsulun yarısını vermək şərtilə, o torpaqları onlara icarəyə verdi” (əl-Buxari, 2160, 2328). Bu səbəbdən Peyğəmbər ﷺ məhsul yığımına az qalmış səhabələrindən təcrübəli bir nəfər göndərərdi və o, becəriləcək məhsulu təxmin edərək ölçərdi. Bu səhabələrdən biri də Abdullah ibn Ravəhə idi.

[2] İbn Hibban, 5199; əl-Beyhəqi “Sunənul-Kubra” 11406, 11626, 18168. Şueyb əl-Arnavut isnadının səhih olduğunu bildirmişdir.

ﷺ demişlər: “Yəni əgər şahidliyi təhrif edib dəyişdirsəniz”. Çünki ərəb dilində اللَّي [əl-leyy] sözü “sözü təhrif etmək”, “bilərəkdən yalan danışmaq” deməkdir. Necə ki Uca Allah başqa bir ayədə eyni sözü bu mənada işlədərək buyurur: “**Onlardan elə bir dəstə də vardır ki, oxuduqlarını Kitabdan hesab edəsiniz deyə, Kitabı oxuyarkən dillərini əyib bükürlər**” (“Ali-İmran”, 78). “**Həqiqəti deməkdən boyun qaçırsanız**” dedikdə isə şahidliyi gizlətmək və şahidlik etməmək nəzərdə tutulur. Uca Allah buyurur: “**Şahidliyi gizlətməyin. Kim onu gizlədirsə, şübhəsiz ki, qəlbi günahkardır**” (“əl-Bəqərə”, 283). Peyğəmbər ﷺ demişdir: “Ən xeyirli şahidlər o kəslərdir ki, şahidlik etməsi tələb olunmadan əvvəl özləri gəlib şahidlik edərlər”.[1] Bu səbəbdən Uca Allah onları (şahidləri) təhdid edərək “**Allah nə etdiklərinizdən xəbərdardır**” buyurur. Yəni etdiyiniz əməllərin əvəzini verəcəkdir.

﴿ يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوٓاْ ءَامِنُواْ بِٱللَّهِ وَرَسُولِهِۦ وَٱلْكِتَٰبِ ٱلَّذِى نَزَّلَ عَلَىٰ رَسُولِهِۦ وَٱلْكِتَٰبِ ٱلَّذِىٓ أَنزَلَ مِن قَبْلُ ۚ وَمَن يَكْفُرْ بِٱللَّهِ وَمَلَٰٓئِكَتِهِۦ وَكُتُبِهِۦ وَرُسُلِهِۦ وَٱلْيَوْمِ ٱلْءَاخِرِ فَقَدْ ضَلَّ ضَلَٰلًۢا بَعِيدًا ﴿١٣٦﴾ ﴾

**136. Ey iman gətirənlər! Allaha, Onun elçisinə, elçisinə nazil etdiyi Kitaba və ondan əvvəl nazil etdiyi kitablara iman gətirin! Allahı, Onun mələklərini, kitablarını, elçilərini və Axirət gününü inkar edən kəs, şübhəsiz ki, dərin bir azğınlığa düşmüşdür.**

Uca Allah bu ayədə mömin qullarına, İslamı bütün hökmləri, şöbələri, ərkanları və əsasları ilə birlikdə qəbul etməyi əmr edir. Bu, var olanı yenidən əldə etmək mənasında deyil, əksinə, kamil olanı daha da mükəmməlləşdirmək, möhkəmlətmək və ona davam etmək qəbilindəndir. Necə ki mömin hər namazında “**Bizi doğru yola yönəlt**” (“əl-Fatihə”, 6) deyir. Yəni bizim üçün bu yolu daha da aydınlaşdır, hidayətimizi artır və bizi bu yolda sabit et. Necə ki Uca Allah başqa bir ayədə möminlərə Allaha və Onun elçisinə ﷺ iman gətirməyi əmr edərək “**Ey iman gətirənlər! Allahdan qorxun və Onun elçisinə iman gətirin!**” (“əl-Hədid”, 28) buyurur.

Uca Allah buyurur: “**Elçisinə nazil etdiyi Kitaba**”, yəni Qurana “**və ondan əvvəl nazil etdiyi kitablara iman gətirin!**” Burada “kitablar”

[1] Hədisi İbn Məcə (2364) Zeyd ibn Xalid əl-Cuhənidən ؓ rəvayət etmişdir. Muslim (2/42) də mənaca oxşar hədisi eyni səhabədən rəvayət etmişdir. Hədis “əl-Bəqərə” surəsinin 282-ci ayəsinin təfsirində keçmişdir. (Əhməd Şakir).

sözü ümumi isim olub əvvəl nazil olmuş bütün kitabları əhatə edir. Uca Allah ayədə Quran barədə نَزَّلَ [nəzzələ][1] (hərfi mənası: tədricən nazil etdiyi) feilini işlətdi, çünki Uca Allah Quranı hissə-hissə, baş verən hadisələrə uyğun olaraq qulların dünya və Axirət ehtiyaclarına görə tədricən nazil etmişdir. Əvvəlki kitablar barədə isə أَنْزَلَ [ənzələ] feilini işlətdi, çünki əvvəlki kitablar bir dəfəyə bütöv şəkildə nazil olurdu. Bu səbəbdən Uca Allah "...**əvvəl nazil etdiyi kitablara iman gətirin!**" buyurur, sonra isə "**Allahı, Onun mələklərini, kitablarını, elçilərini və Axirət gününü inkar edən kəs, şübhəsiz ki, dərin bir azğınlığa düşmüşdür**" buyurur. Yəni beləlləri doğru yoldan çıxmış, əsas məqsəddən tamamilə uzaqlaşmışlar.

﴿ إِنَّ ٱلَّذِينَ ءَامَنُوا۟ ثُمَّ كَفَرُوا۟ ثُمَّ ءَامَنُوا۟ ثُمَّ كَفَرُوا۟ ثُمَّ ٱزْدَادُوا۟ كُفْرًا لَّمْ يَكُنِ ٱللَّهُ لِيَغْفِرَ لَهُمْ وَلَا
لِيَهْدِيَهُمْ سَبِيلًۢا ١٣٧ بَشِّرِ ٱلْمُنَٰفِقِينَ بِأَنَّ لَهُمْ عَذَابًا أَلِيمًا ١٣٨ ٱلَّذِينَ يَتَّخِذُونَ ٱلْكَٰفِرِينَ أَوْلِيَآءَ
مِن دُونِ ٱلْمُؤْمِنِينَ ۚ أَيَبْتَغُونَ عِندَهُمُ ٱلْعِزَّةَ فَإِنَّ ٱلْعِزَّةَ لِلَّهِ جَمِيعًا ١٣٩ وَقَدْ نَزَّلَ عَلَيْكُمْ فِى ٱلْكِتَٰبِ
أَنْ إِذَا سَمِعْتُمْ ءَايَٰتِ ٱللَّهِ يُكْفَرُ بِهَا وَيُسْتَهْزَأُ بِهَا فَلَا تَقْعُدُوا۟ مَعَهُمْ حَتَّىٰ يَخُوضُوا۟ فِى حَدِيثٍ غَيْرِهِۦٓ ۚ إِنَّكُمْ
إِذًا مِّثْلُهُمْ ۗ إِنَّ ٱللَّهَ جَامِعُ ٱلْمُنَٰفِقِينَ وَٱلْكَٰفِرِينَ فِى جَهَنَّمَ جَمِيعًا ١٤٠ ﴾

**137. Doğrusu, iman gətirib sonra kafir olan, yenə iman gətirib sonra kafir olan, sonra da küfrlərini artıranları Allah bağışlamayacaq və doğru yola yönəltməyəcəkdir.**

**138. Münafiqlərə müjdə ver ki, onlar üçün ağrılı-acılı bir əzab vardır.**

**139. O kəslər ki möminləri qoyub kafirləri özlərinə dost tuturlar. Onlar kafirlərin yanında izzətmi axtarırlar? Halbuki izzət tamamilə Allaha məxsusdur.**

**140. Allah Kitabda sizə nazil etmişdir ki, Allahın ayələrinin inkar edildiyini, yaxud onlara istehza olunduğunu eşitdiyiniz zaman kafirlər başqa bir söhbətə keçməyincə, onlarla bir yerdə oturmayın. Yoxsa siz də onların tayı olarsınız. Şübhəsiz ki, Allah münafiqlərin və kafirlərin hamısını Cəhənnəmdə toplayacaqdır.**

Uca Allah bu ayələrdə iman gətirib sonra küfrə dönən, sonra yenə iman gətirib bir daha küfrə dönərək azğınlıqda qalmağa

[1] نَزَّلَ [nəzzələ] feili quruluş baxımından فَعَّلَ [fə'alə] formasındadır. Bu formada olan feillərin mənalarından biri də hərəkətin tədricən, hissə-hissə baş verməsini bildirməkdir.

davam edən və ölənə qədər azğınlığını artıranın ölümündən sonra tövbəsinin qəbul olmayacağını, Allahın onu bağışlamayacağını, düşdüyü vəziyyətdən ona çıxış yolu nəsib etməyəcəyini və hidayət yolunu tapa bilməyəcəyini xəbər verir. Bu səbəbdən Uca Allah “**Allah bağışlamayacaq və doğru yola yönəltməyəcəkdir**” buyurur.

İbn Əbu Hatim ﷺ rəvayət etmişdir ki, İbn Abbas ﷺ Uca Allahın “**sonra da küfrlərini artıranları**” ayəsi barəsində belə demişdir: “Burada ölənə qədər küfr üzərində qalmağa davam edənlər nəzərdə tutulur”.[1] Mucahid ﷺ də ayəni belə şərh etmişdir.

İbn Əbu Hatim ﷺ Əlinin ﷺ belə dediyini rəvayət etmişdir: “Dindən dönən üç dəfə tövbə etməyə dəvət edilir”. Sonra Əli Uca Allahın “**Doğrusu, iman gətirib sonra kafir olan, yenə iman gətirib sonra kafir olan, sonra da küfrlərini artıranları Allah bağışlamayacaq və doğru yola yönəltməyəcəkdir**” ayəsini oxudu”.[2]

Daha sonra Uca Allah buyurur: “**Münafiqlərə müjdə ver ki, onlar üçün ağrılı-acılı bir əzab vardır**”, yəni münafiqlər bu xüsusiyyətlərinə görə iman gətirmiş, sonra kafir olmuş və qəlbləri möhürlənmişdir. Sonra Uca Allah onları vəsf edərək “...**möminləri qoyub kafirləri özlərinə dost tuturlar**” buyurur. Yəni, əslində, onlar kafirlərlə birlikdədirlər. Onlara mehribançılıq göstərib sirlərini açıb deyirlər. Onlarla xəlvətdə qaldıqda “Biz sizinləyik. Biz möminlərə ancaq istehza edirik!” deyirlər. Yəni möminlərə tabe olduğumuzu göstərməklə onlara istehza edirik. Uca Allah kafirləri dost tutduqlarına görə onları qınayaraq “**Onlar kafirlərin yanında izzətmi axtarırlar?**” buyurur.

Sonra Uca Allah izzətin bütünlüklə Tək və şəriki olmayan Allaha və bir də Onun izzət verdiyi kəslərə aid olduğunu xəbər verərək “**Halbuki izzət tamamilə Allaha məxsusdur**” buyurur. Necə ki başqa ayələrdə belə buyurur: “**Kim qüdrətli olmaq istəsə, bilsin ki, qüdrət bütünlüklə ancaq Allaha məxsusdur**” (“Fatır”, 10); “**Halbuki qüdrət yalnız Allaha, Onun Rəsuluna və möminlərə məxsusdur, lakin bunu münafiqlər bilmirlər**” (“əl-Munəfiqun”, 8).

Burada məqsəd izzəti yalnız Allahdan istəməyə, yalnız Ona ibadət etməyə, həm bu dünyada, həm də şahidlərin şahidlik edəcəyi Qiyamət günü zəfər qazanacaq mömin qulların sıralarına daxil olmağa təşviqdir.

[1] İbn Əbu Hatim, 6114; ət-Təbəri, 10699, 10766.
[2] İbn Əbu Hatim, 6110; ət-Təbəri, 10705, 10772.

Bu məqamda İmam Əhmədin ﷺ Əbu Reyhanədən ﷺ rəvayət etdiyi hədisi qeyd etmək yerinə düşərdi. Əbu Reyhanə ﷺ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: “İzzət və fəxr məqsədilə özünü doqquz kafir ata-babasına nisbət edən kəs, Cəhənnəmdə onların onuncusudur”.[1] Hədisi yalnız İmam Əhməd ﷺ rəvayət etmişdir.[2] Əbu Reyhanə ﷺ Əzd qəbiləsindəndir, lakin ənsardan olduğu da deyilmişdir. əl-Buxarinin ﷺ qeyd etdiyinə görə, adı Şəmundur. Digərləri isə Səmun olduğunu demişlər. Ən doğrusunu Allah bilir.

Uca Allah buyurur: “**Allah Kitabda sizə nazil etmişdir ki, Allahın ayələrinin inkar edildiyini, yaxud onlara istehza olunduğunu eşitdiyiniz zaman kafirlər başqa bir söhbətə keçməyincə, onlarla bir yerdə oturmayın. Yoxsa siz də onların tayı olarsınız**”, yəni sizə qadağan olunduğu çatdıqdan sonra Allahın ayələri inkar olunan, lağa qoyulan və alçaldılan bir yerdə onlarla birlikdə oturmağa razı olsanız və bu barədə susub onlara etirazınızı bildirməsəniz, siz də onların etdikləri günaha şərik olmuş sayılırsız. Bu səbəbdən Uca Allah buyurur: “**Yoxsa siz də onların tayı olarsınız**”, yəni günah etməkdə siz də onların tayı olarsınız. Necə ki bir hədisdə Peyğəmbərin ﷺ belə dediyi rəvayət olunur: “Kim Allaha və Axirət gününə iman gətirmişsə, qoy içki olan süfrədə oturmasın”.[3]

[1] Hədisin mənası belədir: “İzzətin Allaha aid olduğu halda bir insanın fəxr edərək özünü Allaha küfr edən və bu halda ölən ata-babalarına nisbət etməsi qəbulolunmazdır. Çünki onlar Allaha küfr etməklə özlərini alçaltmışlar. Belə insanlarla necə fəxr etmək olar? Peyğəmbər ﷺ bir hədisdə buyurur: “Bir qövmü sevən insan Qiyamət günü onlarla birlikdə həşr olunacaq”. (ət-Tabərani “Mucəmul-Əvsət” (6/293) və “Mucəmus-Sağir” (2/114). Hədis səhihdir. Bax: Sahih ət-Tarğib, 3/96).
Başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: “Sən sevdiyin kəslə bir yerdə olacaqsan!” (əl-Buxari, 3412, 3688; Muslim, 2639, 4775, 6878). Həmçinin qüdsi bir hədisdə Ubey ibn Kəb ﷺ belə demişdir: “Allah Elçisinin ﷺ dövründə iki kişi əsil-nəcabəti ilə öyündü. Onlardan biri (digərinə) dedi: “Mən filankəsin oğlu filankəsəm, bəs sən kimsən, sənin heç bir kökün yoxdur”. Allah Elçisi ﷺ buyurdu: “Musanın ﷺ dövründə də iki kişi əsil-nəsəbi ilə öyündü. Onlardan biri (digərinə) “Mən filankəsin oğlu filankəsəm” deyib doqquz (nəsəbinə qədər) sadaladı və dedi: “Bəs sən kimsən, sənin heç bir kökün yoxdur”. O da belə cavab verdi: “Mən İslam oğlu, filankəsin oğlu filankəsəm”. Allah Musaya ﷺ bu iki əsil-nəsəbi ilə öyünən (kişilər haqqında) belə vəhy etdi: “Sənə gəlincə, ey özünü doqquz (kişiyə) mənsub edən! Onuncusu sən olmaqla onların doqquzu da Cəhənnəmlikdir. Sənə gəlincə, ey özünü iki (kişiyə) mənsub edən, üçüncüsü sən olmaqla onların ikisi də Cənnətlikdir”. (Əhməd, 20241, 21178, 21216, 21778. Hədis səhihdir. Bax: Səhih əl-Cami, 1492; Silsilə əs-Səhihə, 1270).

[2] Əhməd (17278); əl-Buxari “Tərixul-Kəbir” (1/2/353). (Əhməd Şakir). Hədis zəifdir. Bax: Silsilə əd-Daifə, (2431).

[3] Əhməd (14704); ət-Tirmizi (4/20). Hər ikisi Cabirdən ﷺ rəvayət etmişlər. ət-Tirmizi ﷺ hədisin “həsən-ğarib” olduğunu bildirmişdir. (Əhməd Şakir). ət-Tirmizi, 2801, 3301; əl-Hakim, 7779;

Burada Allahın ayələri məsxərəyə qoyulan məclislərdə iştirak etməyin qadağan olunmasına işarə edilən ayə Məkkədə nazil olmuş “əl-Ənam” surəsindəki bu ayədir: “**Ayələrimizi məsxərəyə qoyanları gördüyün zaman onlar başqa söhbətə keçənə qədər onlardan üz çevir. Əgər şeytan bunu sənə unutdursa, xatırladıqdan sonra zalım tayfa ilə birgə oturma**” (“əl-Ənam”, 68).

Uca Allah buyurur: “**Şübhəsiz ki, Allah münafiqlərin və kafirlərin hamısını Cəhənnəmdə toplayacaqdır**”, yəni münafiqlərlə kafirlər Allaha küfr etməkdə ortaq olduqları kimi, Uca Allah onları Cəhənnəm odunda əbədi qalmaqda ortaq edəcəkdir. Uca Allah onları cəza, əzab, buxovlar və zəncirlər olan yurdda, acı olan qaynar su və qanlı irin içməkdə bir araya gətirəcək.

﴿ ٱلَّذِينَ يَتَرَبَّصُونَ بِكُمْ فَإِن كَانَ لَكُمْ فَتْحٌ مِّنَ ٱللَّهِ قَالُوٓاْ أَلَمْ نَكُن مَّعَكُمْ وَإِن كَانَ لِلْكَٰفِرِينَ نَصِيبٌ قَالُوٓاْ أَلَمْ نَسْتَحْوِذْ عَلَيْكُمْ وَنَمْنَعْكُم مِّنَ ٱلْمُؤْمِنِينَ فَٱللَّهُ يَحْكُمُ بَيْنَكُمْ يَوْمَ ٱلْقِيَٰمَةِ وَلَن يَجْعَلَ ٱللَّهُ لِلْكَٰفِرِينَ عَلَى ٱلْمُؤْمِنِينَ سَبِيلًا ﴿١٤١﴾ ﴾

**141. Sizə göz qoyan münafiqlər Allahdan sizə bir zəfər gəldikdə “Məgər biz sizinlə deyildikmi?” deyər, kafirlərin qələbədən bir nəsibi olduqda isə “Məgər biz möminlərlə birlikdə sizə qalib gələ biləcəyimiz halda, sizi möminlərdən qorumadıqmı?” söyləyərlər. Qiyamət günü Allah sizin aranızda hökm verəcəkdir. Allah kafirlərə möminlərin əleyhinə əsla bir yol verməyəcəkdir.**

Uca Allah bu ayədə münafiqlərdən bəhs edərək bildirir ki, onlar möminləri güdərək onlara bədbəxtlik üz verməsini gözləyirlər. Yəni onlar möminlərin gücünün tükənməsini, kafirlərin onların üzərində qələbə çalmasını və dinlərinin yox olmasını gözləyirlər. “**Allahdan sizə bir zəfər gəldikdə**”, yəni Allahınköməyi ilə qələbə qazandıqda və qənimət əldə etdikdə “**Məgər biz sizinlə deyildikmi?” deyər**”, yəni belə deməklə möminləri sevdiklərini göstərmək istəyərlər, “**kafirlərin qələbədən bir nəsibi olduqda isə**”, yəni Uhud döyüşündə olduğu kimi bəzi vaxtlarda kafirlər möminlər üzərində qələbə çaldıqda onlara “**Məgər biz möminlərlə birlikdə sizə qalib gələ biləcəyimiz halda, sizi möminlərdən qorumadıqmı?” söyləyərlər**”, yəni gizlicə sizə kömək etdik, siz qalib gələnə qədər onlara qarşı fəsad törətməkdən əl çəkmədik. əs-Suddi ﷺ ayədə keçən نَسْتَحْوِذْ [nəstəhfiz] feili barədə demişdir: “Yəni sizi üstələyə bildiyimiz halda. Necə ki Uca Allah

Əhməd, 125. Hədis həsəndir. Bax: Sahih əl-Cami, 6506.

eyni feili bu ayədə işlətmişdir: "**Şeytan onları üstələmiş və Allahı zikr etməyi onlara unutdurmuşdur**" ("əl-Mucədilə", 19). Onlar belə deməklə kafirləri sevdiklərini büruzə verir və həm möminlərə, həm də kafirlərə yaltaqlanırlar ki, hər iki tərəfdən əldə olunmuş qənimətdən pay ala bilsinlər, eyni zamanda hər iki tərəfdən gələn təhlükədən özlərini qorumuş olsunlar. Bunun yeganə səbəbi isə imanlarının zəifliyi və inamlarının azlığıdır.

Uca Allah buyurur: "**Qiyamət günü Allah sizin aranızda hökm verəcəkdir**", yəni, ey münafiqlər, Uca Allah qəlbinizdəki pis niyyətləri bilir və Qiyamət günü aranızda buna uyğun hökm verəcək. Dünya həyatında İslami hökmlərin zahirən sizə tətbiq olunmasına aldanmayın. Şübhəsiz ki, bunda Allahın bir hikməti vardır.[1] Sirlərin açılacağı, kökslərdə olanların aşkara çıxarılacağı Qiyamət günü isə üzdə göstərdikləriniz sizə əsla fayda verməyəcək.

Uca Allah buyurur: "**Allah kafirlərə möminlərin əleyhinə əsla bir yol verməyəcəkdir**". Abdur-Razzəq ﷺ Yusey əl-Kindidən ﷺ rəvayət etmişdir ki, bir kişi Əli ibn Əbu Talibin yanına gələrək soruşdu: "Uca Allahın "**Allah kafirlərə möminlərin əleyhinə əsla bir yol verməyəcəkdir**" ayəsini necə izah edə bilərsən?" Əli dedi: "Yaxınlaş, yaxınlaş". Sonra ayəyə əvvəlki cümləni əlavə edərək "**Qiyamət günü Allah sizin aranızda hökm verəcəkdir. Allah kafirlərə möminlərin əleyhinə əsla bir yol verməyəcəkdir**" oxudu və dedi: "Bu, Qiyamət

---

[1] İslam dininə görə, zahirən müsəlman olan (kəlmeyi-şəhadəti dilə gətirən, namaz qılan və s.) insana İslam ehkamları tətbiq olunur. Qəlbində olanlar isə Allaha həvalə edilir. Necə ki İbn Ömərdən ﷺ rəvayət edilən hədisdə Peyğəmbər ﷺ demişdir: "İnsanlar Allahdan başqa ibadətə haqqı olan məbudun olmadığına və Muhəmmədin Onun elçisi olduğuna şəhadət gətirməyincə, namaz qılıb zəkat verməyincə onlarla vuruşmaq mənə əmr edildi. Əgər aşkarda bunu yerinə yetirsələr, – İslam haqqı (cinayətə görə veriləcək cəza) istisna olmaqla, – canlarını və mallarını məndən qorumuş olarlar. Onların gizli əməllərinin haqq-hesabı isə Allaha aiddir" (əl-Buxari, 25). Peyğəmbər ﷺ öz dövründə yaşayan münafiqlərlə müsəlman kimi rəftar edirdi. Baxmayaraq ki, onların qəlblərində küfrü gizlətdiklərini bilirdi. Bunun isə bir neçə səbəbi var idi. Bu səbəblərdən biri də, hədisdə qeyd olunduğu kimi, Uca Allahın Peyğəmbərə ﷺ zahirən özünü müsəlman göstərənlə müsəlman kimi davranmağı əmr etməsi idi. Başqa bir səbəb onların qəlblərini İslama isinişdirmək idi. Başqa bir səbəb isə fitnənin qarşısını almaq idi. Belə ki, əgər Peyğəmbər ﷺ özlərini müsəlman kimi göstərən münafiqləri öldürməyi əmr etsəydi, digər insanlar "Peyğəmbər öz səhabələrini öldürür" deyərdilər. Ömər ibn əl-Xattab ﷺ Peyğəmbərə ﷺ Mədinədəki münafiqlərin başçısı Abdullah ibn Ubey ibn Səlulu öldürməyi təklif etdikdə Peyğəmbər ﷺ dedi: "Xeyr, öldürməyin! Yoxsa camaat deyəcək ki, Muhəmməd öz səhabələrini öldürür" (əl-Buxari, 3257, 3518). Həmçinin Peyğəmbər ﷺ sonrakı nəslə ibrət olsun deyə belə etmirdi. Əgər Peyğəmbər ﷺ münafiqləri öldürməyi əmr etsəydi, ondan sonra gələn hakimlər bundan istifadə edib günahsız insanları münafiqlikdə ittiham edib haqsız yerə öldürə bilərdi.

günü olacaq”.[1] Əbu Malik əl-Əşcaidən ﷺ də belə rəvayət olunaraq burada Qiyamət gününün nəzərdə tutulduğu deyilmişdir. əs-Suddi ﷺ demişdir: “**Allah kafirlərə möminlərin əleyhinə əsla bir yol verməyəcəkdir**”, yəni Allah möminlərin əleyhinə kafirlərə əsla bir dəlil verməyəcək”.[2]

Ola bilsin Uca Allahın “**Allah kafirlərə möminlərin əleyhinə əsla bir yol verməyəcəkdir**” ayəsində bu dünya nəzərdə tutulsun. Yəni kafirlər bəzi hallarda müsəlmanlar üzərində zəfər qazansalar da, Allah kafirləri heç vaxt müsəlmanlar üzərində tam qalib etməyəcək. Şübhəsiz ki, dünya və Axirətdə gözəl aqibət müttəqilərin olacaq. Necə ki Uca Allah başqa bir ayədə belə buyurur: “**Şübhəsiz ki, Biz Öz elçilərimizə və iman gətirənlərə həm dünya həyatında, həm də şahidlərin şəhadət vermək üçün ayağa qalxacağı gün yardım edəcəyik. O gün zalımlara üzr diləmələri heç bir fayda verməyəcək. Onları həm lənət, həm də pis yurd gözləyir**” (“Ğafir”, 51-52). Bu mənaya görə, bu ayə müsəlman dövlətinin tam süquta uğramasına ümid bəsləyən və kafirlərin müsəlmanlara qalib gələcəklərindən qorxaraq onlara yaltaqlanan münafiqlərə bir rədd cavabıdır. Necə ki Uca Allah buyurur: “**Qəlblərində xəstəlik olanların “Başımıza bir fəlakət gəlməsindən qorxuruq” deyərək kitab əhli arasında olmağa can atdıqlarını görərsən. Ola bilsin ki, Allah bir fəth nəsib etsin və ya Öz tərəfindən bir əmr versin və onlar ürəklərində gizlətdiklərindən dolayı peşman olsunlar**” (“əl-Maidə”, 52).

Alimlər bu ayəni dəlil gətirərək müsəlman köləni kafirə satmağı qadağan etmişlər. Necə ki bu rəy alimlərin yürütdüyü iki görüşdən ən doğru olanıdır. Çünki müsəlman köləni kafirə satmağın doğru olduğunu demək, kafiri müsəlman üzərində hakim etməyi və müsəlmanı kafir qarşısında alçaltmağı qəbul etmək deməkdir. Bəziləri isə Uca Allahın “**Allah kafirlərə möminlərin əleyhinə əsla bir yol verməyəcəkdir**” ayəsinə əsasən bildirmişlər ki, əgər kafir, aldığı müsəlman köləni aldıqdan sonra dərhal azad edərsə, bu halda müsəlman köləni kafirə satmaq icazəlidir.[3]



---

[1] Abdur-Razzəqin “Təfsir” kitabı (səh. 51). İsnadı səhihdir. Həmçinin ət-Təbəri (10714, 10716) səhih isnadlarla və əl-Hakim (2/309) rəvayət etmişlər. əl-Hakim ﷺ hədisin səhih olduğunu bildirmiş, əz-Zəhəbi də onunla razılaşmışdır. əs-Suyuti (2/235) əlavə olaraq hədisi əl-Firyəbiyə, Abd ibn Humeydə və İbn əl-Munzirə ﷺ nisbət etmişdir. (Əhməd Şakir). ət-Təbəri, 10714, 10715, 10782.

[2] Bu rəvayətlərin üçünü də ət-Təbəri ﷺ rəvayət etmişdir (10718, 10719, 10720). (Əhməd Şakir).

[3] Çünki belə etmək müsəlman kölənin azad olmasına vəsilədir.

﴿ إِنَّ ٱلْمُنَٰفِقِينَ يُخَٰدِعُونَ ٱللَّهَ وَهُوَ خَٰدِعُهُمْ وَإِذَا قَامُوٓا۟ إِلَى ٱلصَّلَوٰةِ قَامُوا۟ كُسَالَىٰ يُرَآءُونَ ٱلنَّاسَ
وَلَا يَذْكُرُونَ ٱللَّهَ إِلَّا قَلِيلًا ﴿١٤٢﴾ مُّذَبْذَبِينَ بَيْنَ ذَٰلِكَ لَآ إِلَىٰ هَٰٓؤُلَآءِ وَلَآ إِلَىٰ هَٰٓؤُلَآءِ ۚ وَمَن يُضْلِلِ ٱللَّهُ فَلَن
تَجِدَ لَهُۥ سَبِيلًا ﴿١٤٣﴾ ﴾

**142. Doğrusu, münafiqlər Allahı aldatmağa çalışırlar. Halbuki, əslində, Allah onları aldadır. Onlar namaza durarkən könülsüz qalxar, özlərini camaata göstərər və Allahı olduqca az yad edərlər.**

**143. Onlar möminlərlə kafirlər arasında tərəddüd edir; nə bunlara, nə də onlara tərəf olurlar. Allahın azdırdığı kəs üçün heç bir yol tapa bilməzsən.**

“əl-Bəqərə” surəsinin əvvəlində Uca Allahın “**Onlar Allahı və iman gətirənləri aldatmağa çalışırlar**” (“əl-Bəqərə”, 9) ayəsi keçmişdir. Uca Allah burada isə “**Doğrusu, münafiqlər Allahı aldatmağa çalışırlar. Halbuki, əslində, Allah onları aldadır**” buyurur. Sözsüz ki, Allahı aldatmaq mümkün deyil, çünki O, gizlində və qəlblərdə olanları biləndir. Lakin münafiqlər cahillikləri və ağıllarının azlığı səbəbindən elə bilirlər ki, insanlar yanında işlərinin keçdiyi kimi və onlara zahirən şəriət hökmləri tətbiq olunduğu kimi, Qiyamət günü Allah yanında da hökmləri eyni olacaq və Allah dərgahında da işləri keçəcək. Necə ki Uca Allah onların Qiyamət günü doğru yolda olduqlarına dair Allaha and içəcəklərini və bu andın Allah dərgahında onlara bir fayda verəcəyinə güman edəcəklərini bildirir. Bu xüsusda Uca Allah belə buyurur: “**Allah onların hamısını dirildəcəyi gün onlar sizə and içdikləri kimi, Ona da and içəcək və nə isə əldə etdiklərini güman edəcəklər. Əslində, onlar əsl yalançılardır**” (“əl-Mucadilə”, 18).

Uca Allah buyurur: “**Halbuki, əslində, Allah onları aldadır**”, yəni, əslində, Allah onların azğınlıqlarını tədricən artıraraq tovlayıb bu dünyada getdikcə haqdan və haqqa nail olmaqdan uzaqlaşdırır. Qiyamət günü də belə olacaq. Necə ki Uca Allah buyurur: “**O gün münafiq kişilər və münafiq qadınlar iman gətirənlərə “Bir az gözləyin ki, biz də sizin nurunuzdan alaq” deyəcəklər. Onlara deyiləcək: “Geriyə qayıdıb nur axtarın!” Onların arasına içəri tərəfində mərhəmət, çöl tərəfində əzab olan, qapılı bir sədd çəkiləcək. Münafiqlər onları səsləyib deyəcəklər: “Məgər biz sizinlə birlikdə deyildikmi?” Möminlər deyəcəklər: “Bəli, lakin siz öz-özünüzü aldadırdınız, möminlərə bəla üz verməsini**

**gözləyirdiniz, haqqa şübhə edirdiniz və Allahın əmri gələnədək xülyalar sizi yoldan çıxartdı. Tovlayan şeytan Allah barəsində sizi yaman aldatdı. Bu gün nə sizdən, nə də kafirlərdən fidyə qəbul olunar. Gedəcəyiniz yer də Oddur. Sizə layiq olan elə odur. Ora nə pis dönüş yeridir!"** ("əl-Hədid", 13-15). Bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Kim etdiyi əməli insanlara eşitdirmək məqsədilə edərsə, Allah da onunla belə davranıb (Qiyamət günü) onun bu eybini (qeyri-səmimiliyini) bütün məxluqata eşitdirər. Kim də etdiyi əməli insanlara göstərmək məqsədilə edərsə, Allah da onunla belə davranıb (Qiyamət günü) onun riyakar olduğunu bütün məxluqata göstərər".[1]

Uca Allah buyurur: "**Onlar namaza durarkən könülsüz qalxar, özlərini camaata göstərər və Allahı olduqca az yad edərlər**". Bu münafiqlərin ən şərəfli, ən fəzilətli və ən xeyirli əməl olan namaza göstərdikləri münasibətləridir. Onlar namaza durduqları zaman yerlərindən tənbəlliklə qalxarlar. Çünki onların namaz qılmaq niyyətləri yoxdur. Onların namaz qılmaq üçün imanları və Allah qorxuları yoxdur. Onlar namazın mahiyyətini də anlamazlar. İbn Mərdəveyh رحمه الله İbn Abbasın رضي الله عنهما belə dediyini rəvayət etmişdir: "Bir insanın namaza könülsüz qalxması yaxşı əlamət deyil. İnsan namaza gülər üzlə, böyük bir istək və sevinclə qalxmalıdır. Çünki o, namazında Allahı çağırır. Uca Allah da onun önündə olur, onu bağışlayır və dua etdikdə duasını qəbul edir". Sonra İbn Abbas bu ayəni oxudu: "**Onlar namaza durarkən könülsüz qalxar**". Bu sözlər İbn Abbasdan رضي الله عنهما başqa bir şəkildə də rəvayət edilmişdir.

Uca Allahın "**Onlar namaza durarkən könülsüz qalxar**" sözü münafiqlərin xarici görünüşlərini ifadə edir. Necə ki başqa bir ayədə onlar barədə buyurur: "**Onlar Allaha və Onun Elçisinə küfr edir, namaza tənbəlliklə qalxır və mallarını könülsüz xərcləyirlər**" ("Tövbə", 54). Sonra Uca Allah onların daxildəki pis sifətlərini qeyd edərək "...**özlərini camaata göstərər**" buyurur. Yəni onlarda ixlas və Allaha qarşı səmimiyyət yoxdur. Onlar müsəlmanlardan qorxaraq, onlara yaltaqlanmaq məqsədilə namazlara gələrlər. Bu səbəbdən çox vaxt insanların onları görməyəcəkləri vaxtlarda qılınan namazlarda – gecə vaxtı qılınan İşa və alaqaranlıqda qılınan Sübh namazlarında iştirak etmirlər. Necə ki əl-Buxari və Muslimin "Səhih" əsərlərində

[1] Hədisi Muslim (2/390) İbn Abbasdan رضي الله عنهما rəvayət etmişdir. Oxşar hədisi əl-Buxari (11/288) və Muslim (2/390) Cundub ibn Abdullahdan رضي الله عنه rəvayət etmişlər. Əhməd, əl-Bəzzər və ət-Təbərani رحمه الله hədisi həsən isnadlarla Əbu Bəkradan رضي الله عنه rəvayət etmişlər. (Əhməd Şakir). Muslim, 2986, 5301, 7667.

rəvayət olunan bir hədisdə Peyğəmbər ﷺ demişdir: “Münafiqlər üçün Sübh və İşa namazlarından daha ağır namaz yoxdur. Əgər onlar bu iki namazın nə qədər xeyirli və bərəkətli olduğunu bilsəydilər, bu namazları qılmaq üçün dizləri üstündə sürünə-sürünə də olsa məscidə gələrdilər. Allaha and olsun qəlbimdən keçir ki, əmr edəm camaat namazı üçün iqamə versinlər, sonra da bir adama camaata namaz qıldırmağı tapşıram. Sonra da əllərində odun şələsi olan kişilərlə gedib namaza gəlməyən adamların evlərini yandırıb kül edəm”.[1] Başqa bir rəvayətdə: “Canım Əlində olan Allaha and olsun ki, əgər onlardan birisi burada ona üstündə yağlı ət parçası olan sümük və ya bir cüt qoyun dırnağı veriləcəyini bilsəydi, mütləq namaza gələrdi. Əgər evlərdə qadınlar və uşaqlar olmasaydı, evlərini yandırıb külə döndərədim”.[2]

Uca Allah buyurur: “**Allahı olduqca az yad edərlər**”, yəni onlar namaz qılarkən fikirləri namazda olmur və nə dediklərini bilməzlər. Əksinə, onlar namazlarında qəflət içində olub boş şeylərlə məşğul olurlar və namazda onlar üçün nəzərdə tutulan xeyirdən üz çevirirlər.

İmam Malik ﵀ Ənəs ibn Malikdən ﷠ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: “Bu, münafiqin namazıdır. Bu, münafiqin namazıdır. Bu, münafiqin namazıdır. O kəs ki oturub Günəşi güdür. Elə ki Günəş şeytanın iki buynuzu arasına çatır (batmağa yaxınlaşır), qalxıb (Əsr namazını) qarğa dəni dimdikləyən kimi dörd rükət qılar və namazında Allahı çox az zikr edər”. Hədisi Muslim, ət-Tirmizi və ən-Nəsəi ﵀ rəvayət etmişlər. ət-Tirmizi ﵀ hədisin “həsən-səhih” olduğunu demişdir.[3]

Uca Allah buyurur: “**Onlar möminlərlə kafirlər arasında tərəddüd edir; nə bunlara, nə də onlara tərəf olurlar**”, yəni münafiqlər imanla küfr arasında çaşqın vəziyyətdə qalmışlar. Beləcə, onlar həm zahirdə, həm də batində nə möminlərlə, nə də kafirlərlə birlikdədirlər. Zahirdə möminlərlə, batində isə kafirlərlə birlikdədirlər. Münafiqlərdən

---

[1] Muslim, 651, 1041, 1514.

[2] Birinci hədisi oxşar mətnlə Əhməd (9482) və Muslim (1/180) rəvayət etmişlər. İkinci hədisi isə əl-Buxari (2/104-108 Fəthul-Bari) rəvayət etmişdir. İkinci hədisdə keçən “Əgər evlərdə qadınlar və uşaqlar olmasaydı, evlərini yandırıb külə döndərərdim” cümləsini Əhməd (8782) Əbu Hureyradan ﷠ bu şəkildə rəvayət etmişdir: “Əgər evlərdə qadınlar və uşaqlar olmasaydı, əmr edərdim ki, namaz üçün iqamə verilsin, sonra iki gəncə onların (namaza gəlməyənlərin) evlərini yandırmağı əmr edərdim”. Ola bilsin İbn Kəsir ﵀ hafizəsindən rəvayət etdiyi üçün hədislərin mətnlərini qarışdırmışdır. (Əhməd Şakir). Əhməd, 10877, 10889; əl-Buxari, 608, 644.

[3] əl-Muvatta (səh. 220); Muslim (1/173). (Əhməd Şakir). Muslim, 622, 987, 1443, Malik, 518, 744.

şübhəyə düşənlər də vardır. Bəzən möminlərə, bəzən də kafirlərə meyil edərlər. Uca Allah beləlari barədə buyurur: "**Şimşək hər dəfə onların yolunu işıqlandırdıqda onunla gedirlər, zülmət onları bürüdükdə isə dayanıb dururlar**" ("əl-Bəqərə", 20).

İbn Cərir رحمه الله İbn Ömərdən رضي الله عنهما rəvayət etmişdir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Münafiqin məsəli iki sürü arasında çaşıb qalmış qoyunun məsəlinə bənzəyir. Gah o sürüyə tərəf gedər, gah da bu sürüyə tərəf gedər. Beləcə, hansı sürüyə qoşulacağını bilməz". Hədisi yalnız Muslim رحمه الله rəvayət etmişdir.[1]

İbn Əbu Hatim رحمه الله Abdullah ibn Məsudun رضي الله عنه belə dediyini rəvayət etmişdir: "Mömin, münafiq və kafirin məsəli bir vadiyə çatan üç adamın məsəlinə bənzəyir. Onlardan biri irəliləyib vadinin bir tərəfindən digər tərəfinə keçər. Sonra digəri irəliləməyə başlayar. Vadinin ortasına çatdıqda vadinin bu başındakı onu çağırar: "Vay sənin halına. Hara gedirsən, həlak olmağamı? Başladığın yerə geri dön". Vadini keçən isə belə səslənər: "Nicat tapmağa tələs!" Vadinin ortasında olan gah qabağına, gah da arxasına baxa-baxa qalar. Bu vaxt bir sel gəlib onu aparar. Vadini keçən mömin, boğulan isə münafiqdir. "**Onlar möminlərlə kafirlər arasında tərəddüd edir; nə bunlara, nə də onlara tərəf olurlar**". Yerində qalan isə kafirdir".[2]

İbn Cərir رحمه الله rəvayət etmişdir ki, Qatədə رحمه الله Uca Allahın "**Onlar möminlərlə kafirlər arasında tərəddüd edir; nə bunlara, nə də onlara tərəf olurlar**" ayəsi barədə belə demişdir: "Onlar nə əməllərini xalis Allah üçün edən mömin, nə də açıq-aşkar şirk edən müşrik deyillər. Bizə çatmışdır ki, Peyğəmbər ﷺ mömin, münafiq və kafirə bir çayın kənarına gəlib çatan üç adamı misal çəkmişdir. Mömin çaya girər və onu keçər. Sonra münafiq girər və möminə çatmasına az qalmış kafir ona "Mənə tərəf gəl, mən sənə görə qorxuram" deyə səslənir. Mömin isə onu çağıraraq: "Mənə tərəf gəl. Mənim yanımda bunlar bunlar var" – deyir və yanında olanları ona sadalayır. Münafiq bu ikisi arasında tərəddüd edib dayanarkən bir dalğa gəlib onu boğur. Münafiq ölüm onu haqlayana qədər şəkk və şübhə içində qalar".[3]

[1] ət-Təbəri, 10728, 10795; Muslim, 2784, 4990, 7220.

[2] İbn Əbu Hatimin رحمه الله rəvayət etdiyi isnad səhihdir. Hədis zahirən səhabənin sözü olsa da, mənaca Peyğəmbərə ﷺ nisbət olunmuş hədisdir. Bundan sonar gələn Qatədənin mursəl olaraq Peyğəmbərdən ﷺ rəvayət etdiyi hədis bunu güvvətləndirir. (Əhməd Şakir). İbn Əbu Hatim, 6144.

[3] ət-Təbəri (10732). Qatədəyə kimi isnadı səhih, lakin mursəldir. İbn Məsuddan رضي الله عنه rəvayət olunan əvvəlki hədis onu qüvvətləndirir. (Əhməd Şakir). ət-Təbəri, 10732, 10799.

Bu səbəbdən Uca Allah ayənin sonunda "**Allahın azdırdığı kəs üçün heç bir yol tapa bilməzsən**" buyurur. Yəni Allahın doğru yoldan çevirdiyi kimsəyə "**heç bir yol tapa bilməzsən**". Çünki "**Allah kimi azdırarsa, ona doğru yol göstərən olmaz**" ("əl-Əraf", 186). Uca Allahın qurtuluş yolundan azdırdığı münafiqləri doğru yola yönəldən, düşdükləri haldan onları qurtaracaq kimsə olmadığı kimi, Uca Allahın hökmünü ləğv edəcək kimsə də olmaz. Allah gördüyü işlər barədə soruşulmaz; onlar isə soruşulacaqlar.

﴿ يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ لَا تَتَّخِذُواْ ٱلۡكَٰفِرِينَ أَوۡلِيَآءَ مِن دُونِ ٱلۡمُؤۡمِنِينَۚ أَتُرِيدُونَ أَن تَجۡعَلُواْ لِلَّهِ
عَلَيۡكُمۡ سُلۡطَٰنٗا مُّبِينًا ١٤٤ إِنَّ ٱلۡمُنَٰفِقِينَ فِي ٱلدَّرۡكِ ٱلۡأَسۡفَلِ مِنَ ٱلنَّارِ وَلَن تَجِدَ لَهُمۡ نَصِيرًا ١٤٥ إِلَّا
ٱلَّذِينَ تَابُواْ وَأَصۡلَحُواْ وَٱعۡتَصَمُواْ بِٱللَّهِ وَأَخۡلَصُواْ دِينَهُمۡ لِلَّهِ فَأُوْلَٰٓئِكَ مَعَ ٱلۡمُؤۡمِنِينَۖ وَسَوۡفَ
يُؤۡتِ ٱللَّهُ ٱلۡمُؤۡمِنِينَ أَجۡرًا عَظِيمٗا ١٤٦ مَّا يَفۡعَلُ ٱللَّهُ بِعَذَابِكُمۡ إِن شَكَرۡتُمۡ وَءَامَنتُمۡۚ وَكَانَ
ٱللَّهُ شَاكِرًا عَلِيمٗا ١٤٧ ﴾

**144. Ey iman gətirənlər! Möminləri qoyub kafirləri özünüzə dost tutmayın. Məgər Allaha, öz əleyhinizə açıq-aydın bir dəlilmi vermək istəyirsiniz?!**
**145. Şübhəsiz ki, münafiqlər Cəhənnəmin ən alt təbəqəsində olacaqlar. Sən onlar üçün heç bir yardımçı tapa bilməzsən.**
**146. Tövbə edənlər, özlərini islah edənlər, Allahdan möhkəm yapışanlar və öz dinlərini Allaha məxsus edənlər istisnadır. Bunlar möminlərlə bərabərdirlər. Allah möminlərə tezliklə böyük mükafat verəcəkdir.**
**147. Şükür etsəniz və iman gətirsəniz, Allah sizə nə üçün əzab versin! Allah şükrün əvəzini verəndir, hər şeyi biləndir.**

Uca Allah bu ayələrdə mömin qullarına mömінləri qoyub kafirləri özlərinə dost tutmağı, yəni onlarla yoldaşlıq etməyi, məsləhətləşməyi, onlara mehribanlıq göstərib sirlərini deməyi, möminlərin öz aralarında baş verən gizli halları onlara bildirməyi qadağan edir. Necə ki başqa bir ayədə belə buyurur: "**Möminlər mömінləri qoyub kafirləri dost tutmasınlar! Bunu edən kimsə bilsin ki, Allah ilə onun heç bir əlaqəsi yoxdur. Ancaq onlardan gələn təhlükədən çəkinməklə ehtiyat etməyiniz istisnadır. Allah sizi Özündən çəkindirir**" ("Ali-İmran", 28), yəni Allah qadağalarına riayət edəsiniz deyə, sizi əzabından çəkindirir. Bu səbəbdən burada "**Məgər Allaha, öz əleyhinizə açıq-aydın bir dəlilmi vermək istəyirsiniz?!**" buyurur,

yəni məgər Allaha sizi cəzalandırması üçün açıq-aşkar bir dəlil vermək istəyirsiniz?

İbn Əbu Hatim ﷺ rəvayət etmişdir ki, İbn Abbas ﷺ demişdir: "Quranda gələn سُلْطَانٌ [sulta:n] sözünün hamısı "dəlil" mənasındadır". Bu hədisin isnadı səhihdir. Mucahid, İkrimə, Səid ibn Cubeyr və başqaları ﷺ də belə demişlər".[1]

Sonra Uca Allah bildirir: "**Şübhəsiz ki, münafiqlər Cəhənnəmin ən alt təbəqəsində olacaqlar**", yəni etdikləri ağır küfrlərin qarşılığı olaraq Qiyamət günü Cəhənnəmin ən alt təbəqəsində olacaqlar. İbn Abbas ﷺ demişdir: "**Cəhənnəmin ən alt təbəqəsində olacaqlar**", yəni Cəhənnəmin ən aşağı təbəqəsində olacaqlar. Bəzi alimlər demişlər: "Cənnətin yuxarıya doğru artan dərəcələri olduğu kimi, Cəhənnəmin də aşağıya doğru enən təbəqələri vardır". İbn Əbu Hatim ﷺ rəvayət etmişdir ki, Əbu Hureyra ﷺ Uca Allahın "**Şübhəsiz ki, münafiqlər Cəhənnəmin ən alt təbəqəsində olacaqlar**" ayəsi barədə demişdir: "Cəhənnəmin ən alt təbəqəsi qapıları olan otaqlardan ibarətdir. Münafiqləri bu otaqlara salacaqlar və qapıları bağlanacaq. Sonra həm üst tərəflərindən, həm də alt tərəflərindən alovlandırılacaqlar".[2] "**Sən onlar üçün heç bir yardımçı tapa bilməzsən**", yəni onları olduqları haldan xilas edəcək, düşəcəkləri ağrılı-acılı əzabdan çıxaracaq bir kəs tapa bilməzsən.

Sonra Uca Allah münafiqlərdən dünyada tövbə edənlərin tövbəsini qəbul edəcəyini, tövbələrində səmimi olub əməllərini islah edəcəkləri və bütün işlərində Rəblərinə sarılacaqları təqdirdə onların peşmançılığını qəbul edəcəyini xəbər verərək "**Tövbə edənlər, özlərini islah edənlər, Allahdan möhkəm yapışanlar və öz dinlərini Allaha məxsus edənlər istisnadır**" buyurur. Yəni riyakarlığı ixlasla əvəz edənlərə, saleh əməlləri az olsa belə, fayda verəcəkdir. İbn Əbu Hatim ﷺ Muaz ibn Cəbəldən ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Dinində ixlaslı ol ki, az əməl də sənə kifayət etsin!"[3]

"**Bunlar möminlərlə bərabərdirlər**", yəni Qiyamət günü bunlar möminlərlə bir zümrədə olacaqlar. "**Allah möminlərə tezliklə böyük mükafat verəcəkdir**".

[1] Abdur-Razzəq "Təfsir" 1658; İbn Əbu Hatim, 5778, 6151, 7537.

[2] Bu hədis səhabənin sözüdür. İbn Əbu Hatimin ﷺ Əbu Hureyraya ﷺ qədər olan isnadı səhihdir. (Əhməd Şakir). İbn Əbu Hatim, 6154.

[3] əs-Suyuti (2/236) hədisi əlavə olaraq İbn Əbu əd-Dunyənin "əl-İxlas" əsərinə, əl-Hakimə və əl-Beyhəqinin "Şuəb" əsərinə nisbət etmişdir. (Əhməd Şakir). İbn Əbu Hatim, 6162; əl-Hakim, 7844. Hədis zəifdir. Bax: Daif əl-Cami, 240; Silsilə əd-Daifə, 2160.

Sonra Uca Allah heç bir şeyə möhtac olmadığını və qullarına yalnız öz günahları səbəbindən əzab verəcəyini xəbər verərək belə buyurur: "**Şükür etsəniz və iman gətirsəniz, Allah sizə nə üçün əzab versin!**", yəni əməllərinizi düzəldib Allaha və Elçisinə iman gətirsəniz, Allah sizə nə üçün əzab versin ki? "**Allah şükrün əvəzini verəndir, hər şeyi biləndir**", yəni kim Allaha şükür edərsə, Allah onun şükrünün əvəzini verəcəkdir. Allah Ona iman gətirən qəlbdən xəbərdardır və buna görə ona böyük mükafat verəcəkdir.

﴿ ۞ لَّا يُحِبُّ ٱللَّهُ ٱلْجَهْرَ بِٱلسُّوٓءِ مِنَ ٱلْقَوْلِ إِلَّا مَن ظُلِمَ ۚ وَكَانَ ٱللَّهُ سَمِيعًا عَلِيمًا ﴿١٤٨﴾ إِن تُبْدُوا۟
خَيْرًا أَوْ تُخْفُوهُ أَوْ تَعْفُوا۟ عَن سُوٓءٍ فَإِنَّ ٱللَّهَ كَانَ عَفُوًّا قَدِيرًا ﴿١٤٩﴾ ﴾

**148. Allah pis sözün açıq deyilməsini sevməz. Yalnız zülmə məruz qalmış kimsələr müstəsnadır. Allah hər şeyi eşidəndir, biləndir.**
**149. Əgər bir xeyri aşkara çıxarsanız və ya onu gizlətsəniz, yaxud bir pisliyi bağışlasanız, bilin ki, Allah əfv edəndir, hər şeyə qadirdir.**

İbn Abbas رضي الله عنهما bu ayəni belə təfsir etmişdir: "Allah bir nəfərin başqasına bəddua etməsini sevmir. Yalnız zülmə məruz qalmış şəxs istisnadır. Allah bu şəxsə, zülm edənə bəddua etməyə icazə vermişdir. Uca Allahın "**Yalnız zülmə məruz qalmış kimsələr müstəsnadır**" ayəsi də məhz bu mənadadır. Əgər zülmə məruz qalmış şəxs səbir edib zülm edənə bəddua etməsə, bu onun üçün daha xeyirli olar".[1] Əbu Davud رحمه الله Aişədən رضي الله عنها rəvayət etmişdir ki, bir dəfə onun bir əşyası oğurlanmışdı və o, oğruya bəddua etməyə başladı. Peyğəmbər ﷺ bunu eşitdikdə dedi: "Onun cəzasını yüngülləşdirmə!"[2]

əl-Həsən əl-Bəsri رحمه الله demişdir: "Qoy zülmə məruz qalan zülm edənə bəddua etməsin. "Allahım, ona qarşı mənə yardım et, haqqımı ondan al!" desin!"[3]

Abdul-Kərim ibn Malik əl-Cəzəri رحمه الله bu ayənin təfsirində demişdir: "Bir kişi səni söyür, sən də qayıdıb onu söyürsən. Lakin əgər sənə böhtan atarsa, sən də qayıdıb ona böhtan atma. Çünki Uca

---

[1] ət-Təbəri (10749). Həmçinin İbn əl-Munzir və İbn Əbu Hatim رحمهما الله rəvayət etmişlər. (Əhməd Şakir).

[2] Əbu Davud (1497). İsnadı səhihdir. "Onun cəzasını yüngülləşdirmə", yəni ona bəddua etməklə layiq olduğu cəzasını yüngülləşdirmə! (Əhməd Şakir). Əbu Davud, 1497, 1499, 4911. Hədis zəifdir. Bax: Daif əl-Cami, 6220.

[3] ət-Təbəri, 10752, 10819.

Allah buyurur: "**Haqsızlığa uğradıqdan sonra qisas alanlara heç bir məzəmmət olunmaz**" ("əş-Şura", 41)".[1]

Əbu Davud ﷺ Əbu Hureyradan ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ belə demişdir: "Bir-birini söyən iki adamın söylədiklərinin günahı zülmə (söyüşə) məruz qalan, həddi aşmayana qədər söyüşə ilk başlayana aiddir".[2]

ən-Nəsəi və ət-Tirmizi ﷺ istisna olmaqla bir çox hədis alimləri Uqbə ibn Amirdən ﷺ rəvayət etmişlər ki: "(Bir dəfə) biz Peyğəmbərə ﷺ dedik: "Sən bizi dəvətə göndərirsən və biz elə insanların yanında qalırıq ki, onlar bizi yeməyə qonaq etmək istəmirlər. Bu haqda nə deyə bilərsən?" Peyğəmbər ﷺ buyurdu: "Əgər bir tayfaya qonaq getsəniz və onlar sizi qonaq saxlasalar, onların ziyafətini qəbul edin. Yox əgər onlar sizi qonaq qəbul etmək istəməsələr, onda onlardan qonağa çatacaq payı götürün".[3]

İmam Əhməd ﷺ Miqdam Əbu Kərimədən ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Əgər bir müsəlman bir qövmə qonaq olarsa və bu qonaq səhərə yemək verilməmiş çıxarsa, o zaman hər bir müsəlmana vacibdir ki, bu qövmün əkinindən və malından qonağın gecə payını götürməkdə ona kömək etsin". Hədisi bu şəkildə yalnız İmam Əhməd ﷺ rəvayət etmişdir.[4] Yenə İmam Əhməd ﷺ Miqdam Əbu Kərimədən ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Qonağa bir gecəlik yemək vermək hər bir müsəlmana vacibdir. Əgər kiminsə evində qonaq yemək verilmədən gecələyərsə, ev sahibi qonağa borclu qalmış olar. Qonaq istəsə, bu borcunu alar, istəsə, halal edər". Hədisi Əbu Davud ﷺ da rəvayət etmişdir.[5]

Bu və bu mənada olan hədislərə əsaslanaraq İmam Əhməd və başqaları ﷺ müsafiri qonaq etməyin vacib olduğunu demişlər. Hafiz Əbu Bəkr əl-Bəzzərin ﷺ rəvayət etdiyi hədis də bu qəbildəndir.

[1] İbn Əbu Hatim, 6172.

[2] Əbu Davud (1497); Əhməd (7204); Muslim (2/285). (Əhməd Şakir). Muslim, 2587, 4688, 6756; Əbu Davud, 4894, 4896.

[3] Əhməd (17416); əl-Buxari (5/77-78 Fəthul-Bari); Muslim (2/45). (Əhməd Şakir). Əhməd, 17345, 17383, 17478. Hədis səhihdir. Bax: Səhih əl-Cami, 1441

[4] Əhməd (17244, 17263, 17264); Əbu Davud (3751). Miqdəm Əbu Kərimə – Miqdəm ibn Mədi Kəribdir. Əbu Kərimə onun künyəsidir. Bəzi nüsxələrdə Miqdəm ibn Əbu Kərimə yazılıb. Bu səhvdir. (Əhməd Şakir). Əhməd, 17178, 17217, 17310; əl-Hakim, 7179. Şueyb əl-Arnavut isnadının zəif olduğunu bildirmişdir.

[5] Əhməd (17238, 17261, 17262, 17268); Əbu Davud (3750). İsnadları səhihdir. (Əhməd Şakir). Əhməd, 17172-17173, 17211-17212, 17304-17305; Əbu Davud, 3750, 3752. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 2204.

əl-Bəzzər ﷺ Əbu Hureyradan ﷺ rəvayət etmişdir ki, bir dəfə bir kişi Peyğəmbərin ﷺ yanına gələrək "Mənim bir qonşum var, mənə əziyyət verir" deyə şikayət etdi. Peyğəmbər ﷺ dedi: "Get evindəki əşyaları çıxart və yolun ortasına qoy!" Kişi də əşyalarını çıxarıb yolun ortasına atdı. Yoldan keçənlər "Sənə nə olub?" deyə soruşduqda kişi "Qonşum mənə əziyyət verir" deyirdi. Keçənlər də "Allahım, ona lənət et! Allahım onu rüsvay et!" deyirdilər. Əziyyət verən qonşu bunu gördükdə dedi: "Evinə qayıt, sənə əsla bir daha əziyyət verməyəcəyəm". Hədisi Əbu Davud ﷺ da rəvayət etmişdir.[1]

Uca Allah buyurur: "**Əgər bir xeyri aşkara çıxarsanız və ya onu gizlətsəniz, yaxud bir pisliyi bağışlasanız, bilin ki, Allah əfv edəndir, hər şeyə qadirdir**", yəni ey insanlar, əgər yaxşı bir əməli aşkara çıxarsanız, yaxud onu gizlətsəniz və ya sizə qarşı pislik edəni əfv etsəniz, bilin ki, bu sizi Allaha yaxınlaşdırır və Onun dərgahında savabınızı artırır. Çünki cəzalandırmağa qadir olduğu halda qullarını bağışlamaq Uca Allahın sifətlərindən biridir. Bu səbəbdən Uca Allah ayənin sonunda "**Allah əfv edəndir, hər şeyə qadirdir**" buyurur. Səhih bir hədisdə belə deyilir: "Sədəqə verməklə mal azalmaz, qul bağışladıqca Allah onun izzətini artırar, Allah üçün təvazökarlıq edəni Allah ucaldar".[2]

﴿ إِنَّ ٱلَّذِينَ يَكْفُرُونَ بِٱللَّهِ وَرُسُلِهِۦ وَيُرِيدُونَ أَن يُفَرِّقُوا۟ بَيْنَ ٱللَّهِ وَرُسُلِهِۦ وَيَقُولُونَ نُؤْمِنُ بِبَعْضٍ
وَنَكْفُرُ بِبَعْضٍ وَيُرِيدُونَ أَن يَتَّخِذُوا۟ بَيْنَ ذَٰلِكَ سَبِيلًا ﴿١٥٠﴾ أُو۟لَٰٓئِكَ هُمُ ٱلْكَٰفِرُونَ حَقًّا ۚ وَأَعْتَدْنَا
لِلْكَٰفِرِينَ عَذَابًا مُّهِينًا ﴿١٥١﴾ وَٱلَّذِينَ ءَامَنُوا۟ بِٱللَّهِ وَرُسُلِهِۦ وَلَمْ يُفَرِّقُوا۟ بَيْنَ أَحَدٍ مِّنْهُمْ أُو۟لَٰٓئِكَ
سَوْفَ يُؤْتِيهِمْ أُجُورَهُمْ ۗ وَكَانَ ٱللَّهُ غَفُورًا رَّحِيمًا ﴿١٥٢﴾ ﴾

**150. Allaha və Onun elçilərinə küfr edənlər, Allahla elçilərini bir-birindən ayırmaq istəyib "Biz o elçilərin bəzisinə inanır, bəzilərinə isə inanmırıq!"– deyənlər və bunun arasında bir yol tutmaq istəyənlər –**

---

[1] Əbu Davud (3751); əl-Buxari "Ədəbul-Mufrad" (124). Hədisin isnadları səhihdir. "əl-Musnəd" əsərində Əbu Hureyradan ﷺ rəvayət olunan hədisləri tam nəzərdən keçirdikdən sonra deyə bilərik ki, hədis orada yoxdur. (Əhməd Şakir). əl-Bəzzər, 8344; əl-Hakim, 7302; əl-Buxari "Ədəbul-Mufrad" 125. Hədis həsən səhihdir. Bax: Səhih ət-Tərğib vət-Tərhib, 2558.

[2] Əhməd (7205); Muslim (2/285) Əbu Hureyradan ﷺ rəvayət edilib. Hədis "Ali-İmran" surəsinin 130-136-cı ayələrinin təfsirində keçmişdir. (Əhməd Şakir). Əhməd, 8996; İbn Hibban, 8140. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 2328.

**151. məhz onlar əsl kafirlərdir. Biz kafirlər üçün alçaldıcı bir əzab hazırlamışıq.**

**152. Allaha və Onun elçilərinə iman gətirən və onlardan heç birini digərindən ayırmayanlara gəlincə, Allah onlara öz mükafatlarını verəcəkdir. Allah bağışlayandır, rəhmlidir.**

Uca Allah bu ayələrdə Onu və peyğəmbərlərini inkar edən yəhudi və xristianları təhdid edir. Çünki onlar peyğəmbərlərdən bəzilərinə iman gətirib, bəzilərini isə inkar etməklə iman məsələsində Allah ilə peyğəmbərləri ayırırlar. Onlar hansısa bir dəlilə əsaslandıqları üçün deyil, sadəcə, ata-babalarını belə gördükləri üçün bu yolu seçmişlər. Onları buna vadar edən, nəfsi istəkləri və təəssübkeşlikləri olmuşdur. Yəhudilər İsa və Muhəmməddən (Onlara Allahın salamı olsun) başqa bütün peyğəmbərlərə iman gətirmişlər. Xristianlar isə bütün peyğəmbərlərə iman gətirmiş, lakin peyğəmbərlərin sonuncusu və ən üstünü olan Muhəmmədi ﷺ inkar etmişlər. Samirilər isə Musa ibn İmranın xəlifəsi Yuşadan عليهما السلام sonra heç bir peyğəmbərə iman gətirməmişlər. Deyilənə görə, atəşpərəstlər, Zərdüşt adlı bir peyğəmbərə iman gətirmişlər. Sonra onlar bu peyğəmbərin gətirdiyi dini qəbul etməmiş və bu səbəbdən peyğəmbərləri onların arasından qaldırılmışdır. Ən doğrusunu Allah bilir.

Ayədə nəzərdə tutulan budur: Peyğəmbərlərdən birini inkar edən digər peyğəmbərləri də inkar etmiş sayılır. Uca Allahın yer üzünə göndərdiyi hər bir peyğəmbərə iman gətirmək vacibdir. Peyğəmbərlərdən hər hansı birini həsəd, millətçilik və ya nəfsi istək səbəbindən rədd edən adamın digər peyğəmbərlərə olan imanı da doğru deyildir. Onun bu imanı şəxsi məqsəd, istək və millətçilikdən dolayıdır. Bu səbəbdən Uca Allah "**Allaha və Onun elçilərinə küfr edənlər**" buyuraraq onları Allahı və peyğəmbərlərini inkar etməklə vəsf etmişdir. "**Allahla elçilərini**" imanda "**bir-birindən ayırmaq istəyib "Biz o elçilərin bəzisinə inanır, bəzilərinə isə inanmırıq!" deyənlər və bunun arasında bir yol tutmaq istəyənlər...**" Daha sonra Uca Allah onlar barədə xəbər verərək "...**məhz onlar əsl kafirlərdir**" buyurur. Yəni şəkk yoxdur ki, onlar, iman gətirdiklərini iddia etdikləri şeyi, əslində, inkar etmişlər. Çünki bu iman şəriətin buyurduğu doğru iman deyil. Əgər ona Allahın elçisi olduğu üçün iman gətirmiş olsaydılar və bu barədə yaxşı düşünsəydilər, onunla eyni dərəcədə və ya dəlil baxımından ondan daha aydın və daha güclü olan peyğəmbərlərə də iman gətirərdilər.

Uca Allah buyurur: "**Biz kafirlər üçün alçaldıcı bir əzab hazırlamışıq**", yəni inkar etdikləri peyğəmbərin onlara Allah tərəfindən gətirdiyi həqiqətləri qəbul etməyib ondan üz çevirdikləri, fani dünya mənfəətlərini toplamağa can atdıqları, onlara göndərilmiş peyğəmbərin haqq olduğunu bildikdən sonra onu inkar etdikləri üçün Uca Allah onlara alçaldıcı bir əzab hazırlamışdır. Necə ki Peyğəmbərin ﷺ zamanında yəhudi elm adamlarının bir çoxu belə etmişdi. Onlar Uca Allahın böyük peyğəmbərliyi Muhəmmədə ﷺ verməsinə həsəd apararaq ona qarşı çıxdılar, onu yalan saydılar, ona düşmənçilik edib onunla döyüşdülər. Uca Allah da Axirətdə olan zillətlə birlikdə dünyada da onları rəzil etdi. Necə ki başqa bir ayədə belə buyurur: "**Onlara** (dünya və Axirətdə) **zəlillik və düşkünlük üz verdi və onlar Allahın qəzəbinə düçar oldular**" ("əl-Bəqərə", 61).

Uca Allah buyurur: "**Allaha və Onun elçilərinə iman gətirən və onlardan heç birini digərindən ayırmayanlara gəlincə, ...**" Uca Allah bununla Muhəmməd ümmətini nəzərdə tutur, çünki onlar Allahın nazil etdiyi hər bir kitaba, Allahın göndərdiyi hər bir peyğəmbərə iman gətirmişlər. Necə ki başqa bir ayədə Uca Allah belə buyurur: "**Peyğəmbər öz Rəbbindən ona nazil edilənə iman gətirdi, möminlər də iman gətirdilər. Hamısı Allaha, Onun mələklərinə, kitablarına və elçilərinə iman gətirdilər. Onlar dedilər: "Biz Onun elçiləri arasında fərq qoymuruq!" Onlar dedilər: "Eşitdik və itaət etdik! Ey Rəbbimiz! Səndən bağışlanma diləyirik, dönüş də yalnız Sənədir!**" ("əl-Bəqərə", 285).

Sonra Uca Allah onlara böyük mükafat, böyük savab və gözəl nemətlər hazırladığını xəbər verərək belə buyurur: "**Allah onlara**" Allaha və peyğəmbərlərinə iman gətirdiklərinə görə "**öz mükafatlarını verəcəkdir.**[1] **Allah bağışlayandır, rəhmlidir**", yəni onlardan bəzilərinin günahları olsa da, Allah onları bağışlayacaqdır.

[1] Bu ayədə keçən يُؤْتِيهِم [yu'ti:him] "verəcəkdir" feili Hafs qiraəti istisna olmaqla digər yeddi qiraətdə نُؤْتِيهِم [nu'ti:him] "verəcəyik" kimi oxunmuşdur. Hafs qiraətinə görə isə يُؤْتِيهِم [yu'ti:him] "verəcəkdir" kimi oxunmuşdur. Kitabın iki əlyazmasında نُؤْتِيهِم [nu'ti:him] "verəcəyik" kimi yazılmışdır. (Əhməd Şakir).

﴿ يَسْـَٔلُكَ أَهْلُ ٱلْكِتَٰبِ أَن تُنَزِّلَ عَلَيْهِمْ كِتَٰبًا مِّنَ ٱلسَّمَآءِ ۚ فَقَدْ سَأَلُوا۟ مُوسَىٰٓ أَكْبَرَ مِن ذَٰلِكَ
فَقَالُوٓا۟ أَرِنَا ٱللَّهَ جَهْرَةً فَأَخَذَتْهُمُ ٱلصَّٰعِقَةُ بِظُلْمِهِمْ ۚ ثُمَّ ٱتَّخَذُوا۟ ٱلْعِجْلَ مِنۢ بَعْدِ مَا جَآءَتْهُمُ ٱلْبَيِّنَٰتُ
فَعَفَوْنَا عَن ذَٰلِكَ ۚ وَءَاتَيْنَا مُوسَىٰ سُلْطَٰنًا مُّبِينًا ﴿١٥٣﴾ وَرَفَعْنَا فَوْقَهُمُ ٱلطُّورَ بِمِيثَٰقِهِمْ وَقُلْنَا لَهُمُ
ٱدْخُلُوا۟ ٱلْبَابَ سُجَّدًا وَقُلْنَا لَهُمْ لَا تَعْدُوا۟ فِى ٱلسَّبْتِ وَأَخَذْنَا مِنْهُم مِّيثَٰقًا غَلِيظًا ﴿١٥٤﴾ ﴾

**153. Kitab əhli səndən onlara göydən bir kitab endirməyini istəyirlər. Onlar Musadan, bundan daha böyüyünü istəyərək "Allahı bizə açıq-aşkar göstər!" demişdilər. Haqsızlıqlarına görə onları ildırım vurmuşdu. Sonra onlara gələn açıq-aydın dəlillərin ardından buzovu məbud qəbul etdilər. Biz bunu da əfv etdik və Musaya açıq-aşkar dəlil verdik.**

**154. Biz onlardan aldığımız əhdə görə, Tur dağını başları üzərinə qaldırdıq və onlara "Qapıdan səcdə edərək daxil olun!" dedik. Biz onlara "Şənbə günü üçün qoyulmuş qadağanı pozmayın!" dedik. Biz onlardan möhkəm bir əhd aldıq.**

Muhəmməd ibn Kəb əl-Qurazi[1], əs-Suddi və Qatədə ﷺ demişlər: "Yəhudilər Peyğəmbərdən ﷺ, Tövratın Musaya ﷺ yazılı olaraq nazil olduğu kimi, göydən bir kitab endirməsini istədilər".[2] İbn Cureyc ﷺ isə demişdir: "Peyğəmbərdən ﷺ filankəsə və filankəsə Allah tərəfindən gətirdiyini təsdiqləyən yazılı səhifələr endirməsini istədilər". Onlar bunu inadkarlıq, küfr və inkar olaraq demişdilər. Necə ki onlardan əvvəl Qureyş buna bənzər tələbləri Peyğəmbərdən ﷺ istəmişdi. Uca Allah bu barədə "Subhan" (əl-İsra) surəsində belə buyurur: "**Onlar dedilər: "Bizə yerdən bir bulaq çıxarmayınca sənə iman gətirməyəcəyik və ya ortasından şırıl-şırıl çaylar axıdacağın xurma və üzüm bağın olmayınca, yaxud iddia etdiyin kimi, göyü parça-parça üstümüzə yağdırmayınca; və ya Allahı və mələkləri qarşımıza gətirməyincə, yaxud qızıldan bir evin olmayınca; və ya göyə qalxmayınca biz sənə inanmayacağıq. Əgər bizə oxuyacağımız bir kitab endirməsən, göyə qalxmağına da inanmayacağıq". De: "Rəbbim pak və müqəddəsdir! Mən isə yalnız elçi göndərilmiş bir insanam"** ("əl-İsra", 90). Burada isə Uca Allah buyurur: "**Onlar Musadan, bundan daha böyüyünü istəyərək "Allahı bizə açıq-aşkar**

[1] Əbu Həmzə Muhəmməd ibn Kəb əl-Qurazi ﷺ tabiindir. Təfsir alimlərindən biri olmuşdur. Hicri 40-cı ildə Mədinədə anadan olmuşdur.

[2] ət-Təbəri, 10769, 10834.

**göstər!" demişdilər. Haqsızlıqlarına görə onları ildırım vurmuşdu**", yəni azğınlıqlarına, həddi aşdıqlarına, küfr və üsyan etdiklərinə görə onları ildırım vurmuşdu. Bu ayəni "əl-Bəqərə" surəsinin "**O zaman siz "Ey Musa! Biz Allahı açıq-aşkar görməyincə sənə iman gətirməyəcəyik!" dediniz və gözünüz görə-görə sizi ildırım vurdu. Ölümünüzdən sonra Biz sizi diriltdik ki, bəlkə, şükür edəsiniz**" ("əl-Bəqərə", 55-56) ayələri açıqlayır.

Uca Allah buyurur: "**Sonra onlara gələn açıq-aydın dəlillərin ardından buzovu məbud qəbul etdilər**", yəni Misirdə Musanın ﷺ əli ilə göstərilən açıq-aydın möcüzələri və tutarlı dəlilləri gördükdən, habelə Allahın düşməni Firon və ordusu bütünlüklə dənizdə həlak olduqdan sonra dənizi təzə keçmişdilər ki, bütlərə ibadət edən bir qövmə rast gəldilər və Musaya "**Ey Musa! Onların məbudları olduğu kimi, bizim üçün də bir məbud düzəlt". Musa dedi: "Həqiqətən, siz cahil bir tayfasınız. Şübhəsiz ki, bunların etiqad etdikləri əqidə məhvə məhkumdur, gördükləri işlər isə batildir"** ("əl-Əraf", 138-139). Uca Allah "əl-Əraf" və "Taha" surələrində Musa ﷺ Allahla danışmağa getdikdən sonra yəhudilərin buzova ibadət etmələri hekayəsini geniş zikr etmişdir. Musa ﷺ qayıtdıqdan sonra bəlli hadisələr baş verdi və bu əməli edənlərin tövbəsi yəhudilərdən bütə ibadət etməyənlərin bütə ibadət edənləri öldürməsi ilə oldu. Beləcə, onlar bir-birlərini öldürməyə başladılar. Uca Allah buyurur: "**Biz bunu da əfv etdik və Musaya açıq-aşkar dəlil verdik**".

Uca Allah buyurur: "**Biz onlardan aldığımız əhdə görə, Tur dağını başları üzərinə qaldırdıq**". Onlar Tövratın hökmlərinə tabe olmaqdan imtina etdikdə və Musanın ﷺ buyurduqlarını qəbul etmədikləri ortaya çıxdıqda, Uca Allah dağı onların başları üzərinə qaldırdı. Sonra onlar məcburi şəkildə Musanın ﷺ onlara buyurduqlarını qəbul etdilər və səcdəyə qapandılar. Onlar dağın üstlərinə düşməsindən qorxduqları üçün yuxarı baxırdılar. Uca Allah başqa bir ayədə bu barədə belə buyurur: "**Bir zaman dağı yerindən qoparıb onların başı üstünə bulud kimi qaldırmışdıq və onlar da elə zənn etmişdilər ki, dağ onların üstünə düşəcək. Biz onlara "Sizə verdiyimizdən möhkəm yapışın və içindəkiləri xatırlayın ki, bəlkə, qorxasınız!" demişdik**" ("əl-Əraf", 171).

Uca Allah buyurur: "...**və onlara "Qapıdan səcdə edərək daxil olun!" dedik**". Onlar Uca Allahın əmrlərinə həm sözdə, həm də əməldə müxalif oldular. Onlara Beytul-Məqdisin qapısından Allaha səcdə edərək və "Hitta" – "Allahım, cihadı tərk etdiyimizə və bu səbəbdən

səhrada qırx il azmağımıza görə günahlarımızı bağışla!” deyə-deyə girmək əmr edilmişdi. Onlar isə  səcdə etmək əvəzinə arxaları üstə sürünərək və istehza edərək: “Hinta” – “buğda” deyirdilər.

Uca Allah buyurur: “**Biz onlara “Şənbə günü üçün qoyulmuş qadağanı pozmayın!” dedik**”, yəni onlara şənbə günü balıq ovunun qadağan edilməsi barədə Allahın qoyduğu qanuna əməl etməyi buyurduq. “**Biz onlardan möhkəm bir əhd aldıq**”, yəni onlardan ağır bir əhd-peyman aldıq. Onlar isə bu əhdi pozub asi oldular və Uca Allahın qadağasını pozmaq üçün hiylələr axtardılar. Bütün bunlar “əl-Əraf” surəsində: “**Onlardan dəniz sahilində yerləşən kənd barəsində xəbər al! O vaxt onlar şənbə günü üçün qoyulmuş qadağanı pozurdular. Şənbə günü onların balıqları üzə çıxaraq onların yanına axışır, şənbədən başqa günlərdə isə onlara tərəf gəlmirdilər. Günah etdiklərinə görə Biz onları beləcə sınayırdıq. O zaman onlardan bir dəstə dedi: “Allahın məhv edəcəyi və ya şiddətli əzaba düçar edəcəyi bir tayfaya nə üçün öyüd-nəsihət verirsiniz?” Onlar dedilər: “Bu, Rəbbiniz yanında üzrxahlıq etmək üçündür. Bəlkə, onlar pis əməllərdən çəkinələr!” Onlar özlərinə edilmiş xəbərdarlığı unutduqları zaman Biz pis əməlləri qadağan edən kimsələri xilas etdik, haqsızlıq edənləri isə itaətdən çıxdıqlarına görə dəhşətli bir əzabla yaxaladıq. Özlərinə qoyulan qadağanı pozduqları zaman Biz onlara “Mənfur meymunlar olun!” dedik**” (“əl-Əraf”, 163-166) ayəsində geniş izah ediləcək.

﴿ فَبِمَا نَقْضِهِم مِّيثَٰقَهُمْ وَكُفْرِهِم بِـَٔايَٰتِ ٱللَّهِ وَقَتْلِهِمُ ٱلْأَنۢبِيَآءَ بِغَيْرِ حَقٍّ وَقَوْلِهِمْ قُلُوبُنَا غُلْفٌۢ ۚ بَلْ طَبَعَ
ٱللَّهُ عَلَيْهَا بِكُفْرِهِمْ فَلَا يُؤْمِنُونَ إِلَّا قَلِيلًا ﴿١٥٥﴾ وَبِكُفْرِهِمْ وَقَوْلِهِمْ عَلَىٰ مَرْيَمَ بُهْتَٰنًا عَظِيمًا ﴿١٥٦﴾ وَقَوْلِهِمْ
إِنَّا قَتَلْنَا ٱلْمَسِيحَ عِيسَى ٱبْنَ مَرْيَمَ رَسُولَ ٱللَّهِ وَمَا قَتَلُوهُ وَمَا صَلَبُوهُ وَلَٰكِن شُبِّهَ لَهُمْ ۚ وَإِنَّ ٱلَّذِينَ
ٱخْتَلَفُوا۟ فِيهِ لَفِى شَكٍّ مِّنْهُ ۚ مَا لَهُم بِهِۦ مِنْ عِلْمٍ إِلَّا ٱتِّبَاعَ ٱلظَّنِّ ۚ وَمَا قَتَلُوهُ يَقِينًۢا ﴿١٥٧﴾ بَل رَّفَعَهُ ٱللَّهُ إِلَيْهِ ۚ
وَكَانَ ٱللَّهُ عَزِيزًا حَكِيمًا ﴿١٥٨﴾ وَإِن مِّنْ أَهْلِ ٱلْكِتَٰبِ إِلَّا لَيُؤْمِنَنَّ بِهِۦ قَبْلَ مَوْتِهِۦ ۖ وَيَوْمَ ٱلْقِيَٰمَةِ يَكُونُ
عَلَيْهِمْ شَهِيدًا ﴿١٥٩﴾ ﴾

**155. Onlar əhdlərini pozduqlarına, Allahın ayələrinə küfr etdiklərinə, peyğəmbərləri haqsız yerə öldürdüklərinə və “Qəlblərimiz qapalıdır!” demələrinə görə lənətə düçar edildilər. Doğrusu, Allah küfrləri üzündən onların qəlblərini möhürləmişdir. Onlar olduqca az inanırlar.**

**156. Onlar həm də küfr etdiklərinə və Məryəmə qarşı böyük bir böhtan dediklərinə görə,**

**157. bir də “Biz Allahın elçisi Məryəm oğlu İsa Məsihi öldürdük!” dediklərinə görə lənətə düçar edildilər. Halbuki onu nə öldürdülər, nə də çarmıxa çəkdilər. Onlara ancaq İsanın bənzəri göstərildi. Şübhəsiz ki, bunda ixtilaf edənlər onun barəsində şəkk-şübhə içindədirlər. Bu haqda onların, zənnə uymaqdan başqa heç bir bilgisi yoxdur. Onlar onu öldürdüklərinə əmin deyildilər.**

**158. Əksinə, Allah onu Özünə tərəf qaldırmışdır. Allah qüdrətlidir, hikmət sahibidir.**

**159. Kitab əhlindən elə bir kəs olmaz ki, ölümündən əvvəl ona iman gətirməsin, lakin o, Qiyamət günü onların əleyhinə şahid olacaqdır.**

Ayədə qeyd olunan günahlar, onların lənətə düçar olmalarının, Allahın rəhmətindən qovulmalarının və doğru yoldan uzaqlaşdırılmalarının səbəblərindən bəziləridir. Onlar əhdlərini pozmuş və Allahın ayələrini, yəni dəlillərini, peyğəmbərlər vasitəsilə göstərdiyi möcüzələri inkar etmişlər. “**Peyğəmbərləri haqsız yerə öldürdüklərinə... görə lənətə düçar edildilər**”, bu, onların Allahın peyğəmbərlərinə qarşı dəfələrlə cinayət törətmələrinə və peyğəmbərləri öldürməyə cürət etmələrinə görədir. Həqiqətən, onlar çox sayda peyğəmbər öldürmüşlər.

**“Qəlblərimiz qapalıdır!” demələrinə görə lənətə düçar edildilər**”. İbn Abbas, Mucahid, Səid ibn Cubeyr, Qatədə və bir çoxları ﵏ bu ayə barədə belə demişlər: “Onlar bu sözləri ilə ürəklərinin örtülü və pərdəli olduğunu nəzərdə tutmuşlar”. Bu, müşriklərin “**Sənin bizi dəvət etdiyinə qarşı qəlbimiz qapalıdır**” (“Fussilət”, 5) sözünə bənzəyir. Oxşar ayə “əl-Bəqərə” surəsində keçmişdir.[1]

Uca Allah buyurur: “**Doğrusu, Allah küfrləri üzündən onların qəlblərini möhürləmişdir. Onlar olduqca az inanırlar**”, yəni qəlbləri azğınlıq, küfr və iman azlığında qalmaqda inadkardır. İbn Abbas ﵄ Uca Allahın “**Onlar həm də küfr etdiklərinə və Məryəmə qarşı böyük bir böhtan dediklərinə görə**” ayəsi barədə demişdir: “Yəni onlar Məryəmi ﵇ zinakarlıqda ittiham etdilər”. əs-Suddi, Muhəmməd ibn İshaq və bir çoxları ﵏ da belə demişlər. Ayənin zahiri mənasından da

[1] “əl-Bəqərə” surəsinin -88ci ayəsinin təfsirində keçmişdir. (Əhməd Şakir).

bu aydın olur. Onlar həm Məryəmə عليها السلام, həm də onun oğluna böyük bir böhtan atmış və Məryəmin عليها السلام zinakar olduğunu, bu zinadan oğluna hamilə qaldığını iddia etmişlər.

"**Bir də "Biz Allahın elçisi Məryəm oğlu İsa Məsihi öldürdük!" dediklərinə görə lənətə düçar edildilər**", yəni "Biz Allahın elçisi olduğunu iddia edən bir adamı öldürdük" dediklərinə görə lənətə düçar edildilər. Onlar bunu istehza etmək və ələ salmaq məqsədilə deyirdilər. Necə ki müşriklər Peyğəmbərə ﷺ "**Ey özünə Zikr nazil edilən kəs! Doğrudan da, sən dəlisən**" ("əl-Hicr", 6) deyirdilər.

Yəhudilər barədə bizə çatan xəbərlərə görə, Uca Allah Məryəm oğlu İsanı عليه السلام dəlillərlə və doğru yol göstərən ayələrlə göndərdikdə yəhudilər Allahın ona peyğəmbərlik və açıq-aydın möcüzələr verməsinə həsəd apardılar. O, anadangəlmə kor və cüzam xəstəliyinə tutulan insanları sağaldır, Allahın izni ilə ölüləri diriltdir, palçıqdan quşa bənzər bir şey düzəldib ona üfürür və o da Allahın izni ilə hamının gözü qabağında quş olub uçurdu. Bundan başqa, Uca Allah ona lütf olaraq digər möcüzələr də vermişdi. Bütün bunlara baxmayaraq, yəhudilər onu yalançı saydılar, ona qarşı çıxdılar və ona bacardıqları qədər əziyyət verməyə çalışdılar. Hətta iş o yerə gəlib çatdı ki, Allahın peyğəmbəri İsa عليه السلام onlarla bir şəhərdə qala bilmədi. Anası ilə birlikdə çox vaxt səyahət edərdi. Yəhudilər bununla da kifayətlənmədilər və Dəməşqin o dövrdəki hökmdarının yanına getdilər. Bu hökmdar ulduzlara ibadət edən müşrik bir adam idi. Bu dində olanlar yunanlar idilər. Ona çatdırdılar ki, Beytul-Məqdisdə bir adam insanları fitnəyə salır, azdırır və rəiyyəti hakimə qarşı çıxmağa çağırır. Hökmdar buna qəzəbləndi və Qüdsdəki əmirinə məktub yazaraq bu adamı tutmasını, çarmıxa çəkməsini, (alçaltmaq üçün) başına tikandan tac qoymasını və insanları onun fitnəsindən qorumasını buyurdu. Məktub Beytul-Məqdisin əmirinə çatdıqda əmrə tabe olub yəhudilərdən bir qrupla birlikdə İsanın عليه السلام olduğu evə getdi. İsa on iki, bəzi rəvayətlərə görə, on üç və ya on yeddi səhabədən ibarət bir qrupun içində idi. Onlar İsanı mühasirəyə aldılar. İsa onların gəldiklərini hiss edib, bildi ki, başqa çıxış yolu yoxdur, ya o onların qarşısına çıxmalıdır, ya da onlar içəri daxil olmalıdırlar. Bu zaman dedi: "Kim razı olar ki, mənim surətim ona verilsin? Əvəzində o kəs Cənnətdə mənim yoldaşım olacaq". Onlardan bir gənc buna razı oldu. İsa "Onda sən ol!" dedi. Uca Allah o gəncə İsanın surətini verdi və o surətcə İsa عليه السلام oldu. Bu vaxt evin tavanından bir pəncərə açıldı. İsa yuxuya getdi və bu halda göyə

qaldırıldı. Uca Allah bu xüsusda belə buyurur: "**O vaxt Allah dedi: "Ey İsa! Mən sənin həyatına son qoyub Özümə tərəf qaldıracağam, səni kafirlərdən təmizləyəcək və sənin ardınca gedənləri Qiyamət gününə qədər kafirlərdən üstün edəcəyəm**" ("Ali-İmran", 55). İsa göyə qalxdıqdan sonra evdə olanlar çölə çıxdılar. Çöldəkilər o gənci gördükdə onu İsa sandılar və gecə ikən onu götürüb çarmıxa çəkdilər. Başına tikandan tac qoydular. Yəhudilər açıq-aşkar İsanın asıldılmasına çalışdıqlarını və bununla öyündüklərini bildirdilər. İsa Məsih ilə evdə olub onun göyə qalxmasına şahid olanlar istisna olmaqla nəsranilərin bir çoxu cahillikləri və ağılsızlıqları ucbatından bunu qəbul etdilər. Digər xaçpərəstlər də yəhudilərin zənn etdiyi kimi çarmıxa çəkilənin Məryəm oğlu Məsih عليه السلام olduğunu sandılar.

Bunların hamısı Allahın dərin hikməti olaraq qullarını bir imtahana çəkməsidir. Uca Allah baş verənləri hörmətli Elçisinə ﷺ nazil etdiyi Əzəmətli Quranda açıqlamış və bəyan etmişdir. O Elçi ki, Allah onun peyğəmbərliyini möcüzələrlə və açıq-aydın dəlillərlə qüvvətləndirmişdir. Ən doğru sözü danışan, aləmlərin Rəbbi, gizlində olanlardan və qəlblərdən keçənlərdən xəbərdar olan, göylərdə və yerdə olan sirləri bilən, olub keçənləri və gələcəkdə olacaqları, baş verməyən hadisələr baş verərkən necə olacağını bilən Uca Allah Quranda belə buyurur: "**Halbuki onu nə öldürdülər, nə də çarmıxa çəkdilər. Onlara ancaq İsanın bənzəri göstərildi**", yəni onlar İsanın عليه السلام bənzərini gördülər və onu İsa sandılar. Bu səbəbdən ayənin sonunda buyurur: "**Şübhəsiz ki, bunda ixtilaf edənlər onun barəsində şəkk-şübhə içindədirlər. Bu haqda onların zənnə uymaqdan başqa heç bir bilgisi yoxdur**". Burada İsanın عليه السلام öldürüldüyünü iddia edən yəhudilər və bunu qəbul edən cahil xristianlar nəzərdə tutulur. Onların hamısı bu məsələdə dəli kimi şübhə, çaşqınlıq və azğınlıq içindədirlər. Bu səbəbdən Uca Allah "**Onlar onu öldürdüklərinə əmin deyildilər**" buyurur. Yəni öldürülən şəxsin İsa عليه السلام olduğuna əmin olmayaraq öldürmüşlər. Onlar bu məsələdə şəkk və şübhə içindədirlər. "**Əksinə, Allah onu Özünə tərəf qaldırmışdır. Allah qüdrətlidir, hikmət sahibidir**", yəni Allah hər şeyə qalib gələndir, heç kəs Ona qalib gələ bilməz. Onun qapısına pənah gətirənə zülm edilməz. Müəyyən etdiyi, hökm verdiyi və yaratdığı hər şeydə "**hikmət sahibidir**". Böyük hikmət, qəti dəlillər, əzəmətli və əzəli hökmranlıq Ona məxsusdur.

İbn Əbu Hatim رحمه الله İbn Abbasın رضي الله عنهما belə dediyini rəvayət etmişdir: "Allah İsanı عليه السلام səmaya qaldırmaq istədiyi zaman İsa səhabələrinin

qarşısına çıxdı. İsa ilə birlikdə evdə on iki nəfər həvari var idi. İsa evin həyətindəki bulaqda yuyunduğuna görə onun saçlarından su damcılayırdı. İsa عليه السلام dedi: “Həqiqətən, sizin içinizdən elələri olacaq ki, mənə iman gətirdikdən sonra on iki dəfə peyğəmbərliyimi inkar edəcək”. Sonra dedi: “Kim mənim surətimin ona verilməsini və mənim yerimə qətlə yetirilməsini, sonra Cənnətdə mənimlə eyni dərəcədə olmasını istəyər!” Onların arasından hamıdan gənc olan bir oğlan ayağa qalxıb dedi: “Mən”. İsa ona “Otur” dedi. Sonra o, yenə soruşdu. Həmin oğlan ayağa qalxıb yenə “Mən” deyə cavab verdi. İsa ona “Otur” dedi. Sonra üçüncü dəfə soruşduqda, o, yenə ayağa qalxıb “Mən” deyə cavab verdi. Bu zaman İsa عليه السلام dedi: “Yaxşı, onda sən olacaqsan”. İsanın surəti ona verildi və İsa evin bacasından səmaya qaldırıldı. Onu tutmaq üçün gələn yəhudilər İsaya oxşadığına görə həmin oğlanı tutdular və öldürdükdən sonra çarmıxa çəkdilər. Bu vaxt ona iman gətirənlərdən bəziləri onun peyğəmbərliyini on iki dəfə inkar etdilər. İnsanlar İsa عليه السلام barəsində üç dəstəyə ayrıldılar. Bir dəstə dedi: “Allah istədiyi qədər bizim aramızda qaldı, sonra səmaya yüksəldi”. Bunu deyənlər Yəqubiyyə firqəsidir. Digər dəstə dedi: “Allahın oğlu Allahın istədiyi qədər bizim aramızda qaldı, sonra Allah onu öz dərgahına yüksəltdi”. Bunu deyənlər Nəsturiyyə firqəsidir. Başqa bir dəstə isə belə dedi: “Allahın qulu və elçisi Allahın istədiyi qədər aramızda qaldı, sonra Allah onu Öz dərgahına qaldırdı”. Bunu deyənlər isə doğru dinə tabe olan müsəlmanlar idilər. Hər iki kafir dəstə birləşib müsəlman dəstəni qətlə yetirdilər. Muhəmməd ﷺ Allah tərəfindən peyğəmbər göndərilənə qədər həqiqi İslam dini gizli qaldı”.[1] Bu hədisin isnadı İbn Abbasa رضي الله عنهما qədər səhihdir. Oxşar hədisi ən-Nəsəi رحمه الله də rəvayət etmişdir.[2] Bir çox sələflər də İsanın عليه السلام həvarilərə “Kim mənim surətimin ona verilməsini və mənim yerimə qətlə yetirilməsini, sonra Cənnətdə mənimlə eyni dərəcədə olmasını istəyər!” dediyini zikr etmişlər.[3]

---

[1] İbn Əbu Hatim, 6233; İbn Əbu Şeybə, 31876, 32537.

[2] ən-Nəsəi “Sunənul-Kubra” 11527, 11591.

[3] İbn Əbu Hatimin رحمه الله İbn Abbasdan رضي الله عنهما rəvayət etdiyi hekayəni əs-Suyuti (2/238) qeyd etmiş və əlavə olaraq Abd ibn Humeydə və İbn Mərdəveyhə رحمه الله nisbət etmişdir. Hekayənin isnadı İbn Abbasa رضي الله عنهما kimi səhih olsa da, mətn və məzmun baxımından İbn Abbasdan رضي الله عنهما rəvayət olunması şübhə yaradır. Çünki səhabələrin yaşadığı dövrün açıq-aydın əlamətləri bu hekayənin mətnində yoxdur. Ola bilsin bu, hekayəni rəvayət edənlərdən biri olan əl-Minhəl ibn Amr əl-Əsədinin (hekayəni İbn Abbasa رضي الله عنهما nisbət etməklə) buraxdığı səhvdir. Belə ki, o, hekayəni Səid ibn Cubeyrdən, o da İbn Abbasdan رضي الله عنهما rəvayət etmişdir. Bu hekayə heç İsrailiyyət dərəcəsinə də yüksəlmir, çünki yəhudilər bu barədə tamam başqa şeylər danışırlar. Bu və bundan əvvəl İbn Kəsirin رحمه الله özü rəvayət etdiyi hekayə təfsir kitablarında Vahb ibn

Uca Allah buyurur: "**Kitab əhlindən elə bir kəs olmaz ki, ölümündən əvvəl ona iman gətirməsin, lakin o, Qiyamət günü onların əleyhinə şahid olacaqdır**".

İbn Cərir ﷺ demişdir: "Təfsirçilər bu ayənin mənasında ixtilaf etmişlər. Bəziləri demişlər: "Yəni Kitab əhlindən hər kəs İsanın ölümündən əvvəl ona iman gətirəcək". Belə deyənlərə görə, İsa ﷺ Qiyamətə yaxın Dəccalı öldürmək üçün endiyi zaman Kitab əhlinin hamısı onu təsdiq edəcəklər. Bütün dinlər birləşib tək din olacaq ki, o da İbrahimin ﷺ hənif dini olan İslam dini olacaq. Rəvayət edilir ki, İbn Abbas ﷺ Uca Allahın "**Kitab əhlindən elə bir kəs olmaz ki, ölümündən əvvəl ona iman gətirməsin**" ayəsi barədə belə demişdir: "Yəni Məryəm oğlu İsanın ölümündən əvvəl".[1] Əbu Malik, əl-Həsən, Qatədə, Abdur-Rahmən ibn Zeyd ibn Əsləm və başqaları ﷺ da belə demişlər. Doğru olan rəy də budur. Az sonra bu rəyin doğru olmasını Allahın izni ilə açıq-aşkar dəlillərlə bəyan edəcəyik. Yalnız Allaha arxayınıq və yalnız Ondan yardım diləyirik.

İbn Cərir ﷺ davamında demişdir: "Digər təfsirçilər isə bu ayənin mənasını belə izah etmişlər: "Yəni Kitab əhlindən elə bir kəs olmaz ki, öz ölümündən əvvəl ona iman gətirməsin". Bu fikirdə olanlar rəylərini belə əsaslandırmışlar: "Can verən insan ölüm anında, nəyin haqq, nəyin isə batil olduğunu biləcəkdir. Çünki ölüm anı yetişmiş insan, son nəfəsini verməzdən əvvəl dini barəsində haqq ilə batili bir-birindən ayırır".

Rəvayət edilir ki, İbn Abbas ﷺ Uca Allahın "**Kitab əhlindən elə bir kəs olmaz ki, ölümündən əvvəl ona iman gətirməsin**" ayəsi barədə

Munəbbih və onun kimi digər ravilərdən rəvayət olunan çox sayda hekayələrin qısaldılmış variantıdır. Bu hekayələrin heç biri Quran və səhih hədislərdə səhih sənədlə öz təsdiqini tapmamışdır. Həmçinin bu hekayələr həm öz-özlüyündə, həm də digər hekayələrlə ziddiyyət təşkil edir. Çünki hər iki hekayəyə əsasən, İsa ﷺ ilə birlikdə evdə olanlar İsanın ﷺ "Kim mənim surətimin ona verilməsini və mənim yerimə qətlə yetirilməsini, sonra Cənnətdə mənimlə eyni dərəcədə olmasını istəyər!" dediyini və bir nəfərin bu dərəcəni seçməsini eşitmişlər. Bundan sonra yəhudilərin iddia etdikləri kimi İsanın ﷺ çarmıxa çəkildiyini necə deyə bilərlər? Necə ki İbn Cərir ət-Təbəri ﷺ buna oxşar hekayələri tənqid etmişdir. Bax: "Təfsir ət-Təbəri" (9/374-376). Biz müsəlmanlar Uca Allahın "**Halbuki onu nə öldürdülər, nə də çarmıxa çəkdilər. Onlara ancaq İsanın bənzəri göstərildi**" sözünə yəqinliklə iman gətirmişik. İsanın bənzərinin onlara necə göstərilməsinin və bu hadisənin necə baş verməsinin təfsilatına isə varmırıq. Çünki biz bu təfsilatı bilmək və ona iman gətirməklə mükəlləf deyilik. Belə ki, nə Allah, nə də Onun Elçisi ﷺ bu təfsilatı bizə öyrətməmişlər. Doğru yola yönəldən yalnız Allahdır! (Əhməd Şakir). ət-Təbəri, 23/366, 34382-ci hədis.

[1] ət-Təbəri (10794). Hədisin isnadı səhihdir. (Əhməd Şakir). İbn Əbu Hatim, 6254; ət-Təbəri, 10794, 10862.

belə demişdir: “Bu ayə Ubeyin qiraətində قَبْلَ مَوْتِهِمْ [qablə məutihim] “ölümlərindən əvvəl” şəklindədir. Hər bir yəhudi ölümündən əvvəl mütləq İsaya ﷺ iman gətirəcəkdir”. İbn Abbasdan soruşdular: “Əgər evin üstündən düşsə (ölüm onu qəfil haqlasa) necə?” İbn Abbas “Enərkən iman gətirəcək” deyə cavab verdi. Yanındakılardan biri “Əgər onlardan birinin boynu vurularsa, onda necə deyəcək?” deyə soruşdu. İbn Abbas “Dili öz-özünə söyləyəcək” deyə cavab verdi”.[1] Əbu Davud ət-Tayəlisi ﷺ də eyni şeyi İbn Abbasdan ﷺ rəvayət etmişdir. Bu rəvayətlərin hamısının sənədləri İbn Abbasa ﷺ kimi səhihdir. Eyni rəy səhih isnadla Mucahid, İkrimə və İbn Sirindən ﷺ rəvayət edilmişdir.

İbn Cərir ﷺ demişdir: “Digərləri isə bu ayənin mənasını belə açıqlamışlar: “Kitab əhlindən elə bir kəs yoxdur ki, öz ölümündən əvvəl Muhəmmədə ﷺ iman gətirməsin”.[2] [Sonra İbn Kəsir bu təfsiri İkrimədən ﷺ rəvayət etmişdir.]

Sonra İbn Cərir ﷺ demişdir: “Bu rəylərdən ən doğru olanı, birincisidir. Yəni İsa ﷺ yerə endikdən sonra Kitab əhlindən ona iman gətirməyən heç kəs qalmayacaq. İsanın ölümündən əvvəl hamısı ona iman gətirəcək”. Şübhəsiz ki, İbn Cəririn ﷺ dediyi bu rəy doğru olan rəydir. Çünki ayələrin məzmununa əsasən burada yəhudilərin İsanın ﷺ öldürülüb çarmıxa çəkilməsi iddiaları ilə cahil xristianların bunu qəbul etmələrinin batil olduğu izah edilir. Uca Allah hadisənin heç də belə olmadığını, onlara ancaq İsanın ﷺ bənzəri göstərildiyini, onlar da bilmədən İsanın bənzərini öldürdüklərini, sonra Allahın İsanı ﷺ özünə tərəf qaldırdığını, onun sağ olduğunu və Qiyamət günündən əvvəl enəcəyini xəbər verir. İsa ﷺ enib Məsihi Dəccalı öldürəcək, xaçları sındıracaq, donuzları öldürəcək və cizyəni ləğv edəcək. Cizyəni ləğv etməklə digər din mənsublarından İslamdan başqa bir dində qalmalarını qəbul etməyəcək, ya İslamı, ya da qılıncı (onlarla döyüşü) seçməyi tələb edəcək. Bu ayə bildirir ki, İsa zühur edəcəyi zaman Kitab əhlinin hamısı ona iman gətirəcək və onlardan hər kəs onu təsdiqləmək məcburiyyətində qalacaq. Bu səbəbdən Uca Allah “**Kitab əhlindən elə bir kəs olmaz ki, ölümündən əvvəl ona iman gətirməsin**” buyurur. Yəni Kitab əhlindən elə bir kəs olmaz ki, İsanın ﷺ ölümündən əvvəl ona iman gətirməsin. Halbuki yəhudilər və onların fikrini qəbul edən xristianlar onun öldürülüb çarmıxa çəkildiyini zənn edirlər.

[1] ət-Təbəri (10814). Hədisin isnadı səhihdir. (Əhməd Şakir).
[2] ət-Təbəri, 10828, 10895.

Uca Allah buyurur: "**Lakin o, Qiyamət günü onların əleyhinə şahid olacaqdır**", yəni göyə qalxmazdan əvvəl və yer üzünə endikdən sonra onların etdiklərinə şahidlik edəcəkdir. Ayənin mənasını "Kitab əhlindən hər kəs İsaya və ya Muhəmmədə ﷺ iman gətirmədən ölməyəcək" şəklində təfsir edənlərə gəlincə, bu, reallığa uyğundur. Çünki can verərkən hər kəsə daha əvvəl bilmədiyi şeylər açılacaq və o, iman gətirəcək. Lakin ölüm mələyini gördükdə bu imanı ona fayda verməyəcək. Necə ki Uca Allah bu surənin əvvəlində buyurur: "**Günah işlər görməkdə davam edənlərdən birinə ölüm gəldiyi zaman "Mən indi tövbə etdim!" deyənlərlə kafir kimi ölənlərin tövbəsi qəbul deyildir**" ("ən-Nisa", 18). Başqa bir ayədə buyurur: "**Onlar əzabımızı gördükdə dedilər: "Biz tək Allaha iman gətirdik və Ona qoşduğumuz şərikləri inkar etdik!" Lakin əzabımızı gördükdə iman gətirmələri onlara heç bir fayda vermədi. Bu, Allahın Öz qulları barəsində əzəldən olub-keçmiş qanunudur. Kafirlər orada ziyana uğradılar**" ("Ğafir", 84-85). Bu ayə İbn Cəririn ﷺ bu rəyi rədd edərkən gətirdiyi dəlilin zəifliyinə dəlalət edir. O, belə demişdir: "Əgər ayədə bu (Kitab əhlindən hər kəs İsaya və ya Muhəmmədə ﷺ iman gətirmədən ölməyəcək) nəzərdə tutulsaydı, Muhəmmədi və ya Məsihi inkar edənlər ölümlərindən əvvəl Muhammədə ﷺ və ya Məsihə iman gətirməklə onların dinində ölmüş sayılardılar. Belə olan təqdirdə onun dinindən olan qohumları ona varis ola bilməzdi. Çünki haqqı deyən Allah onun ölümündən əvvəl ona (İsaya ﷺ) iman gətirəcəyini xəbər vermişdir".[1] Lakin bu heç də yaxşı açıqlama deyil. Belə ki, imanın fayda verməyəcəyi bir vaxtda (ölüm anında) iman gətirən adam heç də müsəlman deyil. İbn Abbasın ﷺ bu sözünü görmürsənmi? "Yüksək bir yerdən yıxılıb ölsə və ya qılıncla boynu vurulsa və yaxud onu yırtıcı bir heyvan parçalasa belə, mütləq İsaya ﷺ iman gətirəcək". Belə vəziyyətlərdə iman gətirmək isə fayda vermir və gətirdiyimiz ayələrə görə bu iman, sahibini küfrdən çıxarıb imana daxil etmir. Ən doğrusunu isə Allah bilir.

Məsələni dərindən düşünüb araşdırdıqda aydın olur ki, bunun (ölüm ayağında haqqın bəyan olması) baş verməsinə baxmayaraq, ayədə bu nəzərdə tutulmur. Əksinə, ayədə, qeyd etdiyimiz kimi, İsanın

[1] Bax: ət-Təbəri (9/386-387). (Əhməd Şakir). Yəni əgər ayənin mənası "Kitab əhlindən hər kəs İsaya və ya Muhəmmədə ﷺ iman gətirmədən ölməyəcək" olsaydı, o zaman İsanı və ya Muhəmmədi ﷺ inkar edənlər ölüm ayağında İsaya və ya Muhəmmədə ﷺ iman gətirməklə onların dinində sayılmış olardı. Belə olan təqdirdə onların dinində olan qohumları, dinlərini dəyişib öldükləri üçün onların varisləri ola bilməzdilər. Çünki onlara görə ölən dinini dəyişmiş olardı və müxtəlif dinlərdə olduqları üçün ölənin varisləri ola bilməzdilər.

عليه السلام varlığı, göydə həyatının davam etməsi və Qiyamət günündən əvvəl İsa barədə, həqiqətən, uzaq, bir-birinə zidd və əks sözlər söyləyən yəhudi və xristianların iddialarını yalan çıxartmaq üçün yer üzünə enəcəyi bildirilir. Yəhudilər İsaya hörmətsiz yanaşmışlar, xristianlar isə onu ifrat dərəcədə yüksəltmişlər. Yəhudilər ona və anasına böhtan atmaqla onun dəyərini aşağı salmışlar, xristianlar isə onda olmayan xüsusiyyətləri (ilahlığı) ona nisbət edərək tərifdə həddi aşmışlar və yəhudilərin əksinə, İsanı عليه السلام peyğəmbərlik dərəcəsindən ilahlıq dərəcəsinə yüksəltmişlər. Allah həm yəhudilərin, həm də xaçpərəstlərin dediklərindən çox uzaq və çox ucadır. Ondan başqa ibadətə layiq haqq ilah yoxdur.

**Məryəm oğlu İsanın عليه السلام axır zamanda, Qiyamət günündən əvvəl göydən yer üzünə enəcəyinə və insanları tək və şəriki olmayan Allaha ibadət etməyə dəvət edəcəyinə dair varid olan hədislər:**

əl-Buxari رحمه الله bütün alimlər tərəfindən səhih olduğu qəbul edilmiş "Səhih" əsərində "Peyğəmbərlərə dair hədislər" kitabında "Məryəm oğlu İsanın yerə enməsi" adlı başlıq ayırmışdır. O bu başlıq altında Əbu Hureyradan رضي الله عنه Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Canım Əlində olan Allaha and olsun ki, tezliklə Məryəm oğlu (İsa) aranızda ədalətlə hökm vermək üçün[1] sizin yanınıza enib xaçları sındıracaq, donuzları öldürəcək və cizyəni[2] aradan qaldıracaq.[3] (Həmin vaxt) mal-dövlət o qədər artacaq ki, heç kəs sədəqə götürmək istəməyəcək və namaz qılmaq dünya və içindəkilərdən xeyirli sayılacaq". Sonra Əbu Hureyra رضي الله عنه dedi: "İstəsəniz, bunun təsdiqi olaraq Uca Allahın "**Kitab əhlindən elə bir kəs olmaz ki, ölümündən əvvəl ona iman gətirməsin, lakin o, Qiyamət günü onların əleyhinə şahid olacaqdır**" ("ən-Nisa", 159) ayəsini oxuyun". Hədisi Muslim رحمه الله də rəvayət etmişdir. əl-Buxari və Muslim رحمهما الله bu hədisi müxtəlif yollarla rəvayət etmişlər.[4] Həmçinin oxşar hədisi İbn Mərdəveyh رحمه الله Əbu Hureyradan رضي الله عنه rəvayət etmiş və bunu əlavə etmişdir: "**ölümündən əvvəl**", yəni Məryəm oğlu İsanın عليه السلام ölümündən əvvəl". Əbu Hureyra رضي الله عنه bu sözü üç dəfə təkrarladı".

---

[1] Bu İsa peyğəmbərin عليه السلام yeni bir şəriət gətirməyəcəyinə dəlildir. Əksinə, bu ümmətə başçılıq edən ədalətli bir hakim olaraq göndəriləcək.

[2] Müsəlman dövlətinin himayəsi altında yaşayan qeyri-müsəlmanlardan alınan mal və ya can vergisi.

[3] Burada "cizyəni aradan qaldıracaq" deyildikdə, cizyəni qəbul etməyəcəyi qəsd edilir. Yəni kafirlərə İslam dinini qəbul etmək, əks halda isə vuruşmaq təklif ediləcək.

[4] əl-Buxari (6/355-357, 4/343, 5/86); Muslim (1/54); Əhməd (7267, 7665, 7890, 10957). Bax: ət-Təbəri (7144, 7145, 10830). (Əhməd Şakir). əl-Buxari, 3192, 3448; Muslim, 220, 407.

İmam Əhməd ﷺ Əbu Hureyradan ﷺ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: “Məryəm oğlu İsa Fəcc ər-Ravhə[1] adlanan yerdə təlbiyə deyərək həcc üçün və ya ümrə üçün, yaxud hər ikisi üçün birdən niyyət edəcək”. Həmçinin hədisi Muslim ﷺ də rəvayət etmişdir.[2]

İmam Əhməd ﷺ Əbu Hureyradan ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: “Məryəm oğlu İsa yer üzünə enəcək, donuzları məhv edəcək, xaçları sındıracaq və insanlar onun arxasında namaz qılmaq üçün toplaşacaqlar. İnsanlara o qədər mal-dövlət verəcək ki, sonda heç kəs sədəqə götürmək istəməyəcək. Cizyəni ləğv edəcək, ər-Ravhə adlanan yerə gələrək oradan həcci və ya ümrəni, yaxud hər ikisini birdən yerinə yetirəcək”. Sonra Əbu Hureyra: “**Kitab əhlindən elə bir kəs olmaz ki, ölümündən əvvəl ona iman gətirməsin**” ayəsini sonuna qədər oxudu. Hənzalə Əbu Hureyranın ﷺ “Kitab əhlindən elə bir kəs olmaz ki, İsanın ﷺ ölümündən əvvəl ona iman gətirməsin” dediyini iddia etmişdir. Lakin mən bilmirəm, bu cümlənin hamısı Peyğəmbərin ﷺ sözüdür, yoxsa Əbu Hureyranın ﷺ öz sözüdür?” Eyni hədisi İbn Əbu Hatim ﷺ də rəvayət etmişdir.[3]

əl-Buxari ﷺ Əbu Hureyradan ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: “Məryəm oğlu (İsa) yanınıza nazil olacağı, üstəlik sizə imamlıq edən adamın[4] öz içinizdən olacağı zaman sizin halınız (sevinciniz) necə olacaq?!”[5] Hədisi İmam Əhməd və Muslim ﷺ də rəvayət etmişlər.[6]

İmam Əhməd ﷺ Əbu Hureyradan ﷺ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: “Peyğəmbərlər ata bir, ana ayrı övladlardır. Anaları (şəriətləri) müxtəlif olsa da, dinləri (əqidələri) birdir. Məryəm oğlu İsaya ən yaxın olan mənəm, çünki mənimlə onun arasında peyğəmbər

---

[1] Məkkə ilə Mədinə arasında yerləşən yer adıdır.

[2] əl-Musnəd (7271); Muslim (1/356-357). (Əhməd Şakir). Əhməd, 10671 ,10661. Şueyb əl-Arnavut səhih olduğunu bildirmişdir.

[3] əl-Musnəd (7890). (Əhməd Şakir). Əhməd, 7903. Şueyb əl-Arnavut isnadının Muslimin şərtlərinə görə səhih olduğunu bildirmişdir.

[4] Burada Fatimənin ﷺ nəslindən olacaq şəxs, Mehdi ləqəbi ilə tanınmış Muhəmməd ibn Abdullah nəzərdə tutulur. Çünki İsa ﷺ endiyi zaman müsəlmanlar Mehdinin arxasında namazda olacaqlar və İsa ﷺ müsəlmanlarla birlikdə Mehdinin arxasında namaz qılacaq. Cabir ibn Abdullah ﷺ demişdir: “Mən Peyğəmbərin ﷺ belə dediyini eşitdim: “Ümmətimdən bir qrup insan Qiyamət gününədək haqq üzərində vuruşaraq qələbə çalmaqda davam edəcək. Nəhayət, Məryəm oğlu İsa enəcək və müsəlmanların əmiri (ona) “Gəl, bizə namaz qıldır” deyəcək. İsa isə belə buyuracaq: “Xeyr! Allahın bu ümmətə olan lütfü sayəsində sizin bir qisminiz digərlərinizin üzərində əmirdir”. (Muslim, 225, 412).

[5] əl-Buxari, 3193, 3265, 3449.

[6] əl-Buxari (6/357-358); Muslim (1/54); Əhməd (7666). (Əhməd Şakir).

yoxdur. O, yer üzünə enəcək. Onu görsəniz, tanıyacaqsınız: ortaboylu, alyanaq, ağbəniz bir adamdır. Əynində yüngül sarı rəngdə iki paltar olacaq. Başı yaş olmasa da, sizə elə gələcək ki, sanki başında su damcıları var. İsa xaçları sındıracaq, donuzları öldürəcək, cizyəni ləğv edəcək, insanları İslama dəvət edəcək. Onun zamanında Allah İslamdan başqa bütün dinləri aradan qaldıracaq və onun zamanında (İsanın əli ilə) Məsih Dəccalı həlak edəcək. Sonra yer üzündə əmin-amanlıq olacaq. Dəvələr aslanlarla, inəklər pələnglərlə, qoyunlar qurdlarla birlikdə otlayacaq, uşaqlar ilanlarla oynayacaq və ilanlar onlara zərər verməyəcək. İsa yer üzündə qırx il qalacaq, sonra vəfat edəcək və müsəlmanlar ona cənazə namazı qılacaqlar".[1] Bu hədisi Əbu Davud ﷬ da rəvayət etmişdir. İbn Cərir ﷬ bu ayənin təfsirində bu hədisi qeyd etməmişdir.[2]

əl-Buxari ﷬ Əbu Hureyradan ﷛ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Dünyada da, Axirətdə də insanların Məryəm oğlu İsaya ən yaxın olanı mənəm. Əslində, peyğəmbərlər ata bir, ana ayrı övladlardır. Anaları (şəriətləri) ayrı olsa da, dinləri (əqidələri) birdir".[3]

Muslim "Səhih" əsərində Əbu Hureyradan ﷛ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Rumlar əl-Əmaq və ya Dəbiq ərazisinə çatmayınca Qiyamət baş verməyəcək. Mədinədən onlara qarşı o dövrün ən yaxşı adamlarından ibarət bir ordu çıxacaq. Ordular döyüş üçün qarşı-qarşıya tam düzüləndə rumlar müsəlmanlara deyəcəklər: "İmkan verin, bizi əsir alanlarla döyüşək!" Müsəlmanlar "Xeyr! Allaha and olsun ki, qardaşlarımızı sizinlə tək qoymarıq!"- deyib onlarla döyüşəcəklər. Müsəlman ordusunun üçdə biri məğlub olub döyüşdən qaçacaq və Allah onları heç vaxt tövbə etməyə müvəffəq etməyəcək. Üçdə biri qətlə yetiriləcək və onlar Allah dərgahında ən yaxşı şəhidlərdən olacaqlar. Yerdə qalan üçdə biri isə qalib gələcək və onlar arasında heç vaxt fitnə baş verməyəcək. Məhz onlar Konstantinopolu (İstanbul şəhərini) fəth edəcəklər. Müsəlmanlar qılınclarını zeytun ağacından asıb qənimətləri bölüşdürdükləri bir vaxtda şeytan səslənəcək: "Məsih Dəccal sizin ailənizə basqın etdi!" Onlar geri çəkiləcəklər, ancaq xəbər yalan olacaq və Şama gəlib çatanda Məsih Dəccal çıxacaq. Onlar Dəccalla döyüşə hazırlaşaraq

[1] Əhməd, 9259; İbn Hibban, 6822. Şueyb əl-Arnavut səhih olduğunu bildirmişdir.

[2] Əhməd (9259, 9630, 9631, 9632); ət-Təbəri (10830). Hədislərin isnadları səhihdir. Həmçinin əl-Hakim (2/595) rəvayət etmiş və səhih olduğunu bildirmişdir. əz-Zəhəbi ﷬ bununla razılaşmışdır. (Əhməd Şakir).

[3] əl-Buxari (6/354); əl-Hakim (2/592). (Əhməd Şakir).

cərgələrə düzülərkən namaz vaxtı yetişəcək. Bu vaxt Məryəm oğlu İsa ﷺ nazil olacaq və onlara namazda imamlıq edəcək. Allahın düşməni (Dəccal) onu gördükdə, duz suda əridiyi kimi əriyəcək. Əgər onu buraxsaydı, yox olana qədər əriyərdi, lakin Allah Dəccalı İsanın əli ilə öldürəcək. İsa onlara onun qanını öz nizəsində göstərəcək”.[1]

İmam Əhməd ﷺ İbn Məsuddan ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: “Meraca aparıldığım gecə İbrahim, Musa və İsa ilə görüşdüm. Onlar Qiyamət barədə söhbət edirdilər. Bu barədə İbrahimdən soruşdular. İbrahim “Bu barədə mənim məlumatım yoxdur” dedi. Musadan soruşdular, o da “Bu barədə mənim məlumatım yoxdur” deyə cavab verdi. Nəhayət, İsaya yönəldilər. O dedi: “Qiyamətin baş vermə vaxtına gəlincə, onu Allahdan başqa heç kim bilmir. Rəbbim mənə Dəccalın çıxacağını vəd vermişdir. Mənim əlimdə iki qılınc olacaq. Dəccal məni gördükdə qurğuşun odda əridiyi kimi əriyəcək. Məni gördükdə Allah onu həlak edəcək. Beləcə, Allah kafirləri məhv edəcək, hətta iş o yerə gəlib çatacaq ki, daş və ağac “Ey müsəlman, mənim arxamda kafir var, gəl onu öldür!” deyəcək. Sonra insanlar ölkələrinə və vətənlərinə dönəcəklər. Bu əsnada Yəcuc və Məcuc tayfaları (səddi yarıb) çıxacaq. Onlar yüksək təpələrdən axışıb gələcəklər və ölkələri tapdalayacaqlar. Rastlarına çıxan hər şeyi darmadağın edəcəklər, yanından keçdikləri hər suyu içəcəklər. Sonra insanlar onlardan mənə şikayət etmək üçün gələcəklər. Mən Allaha onlardan ötrü bəddua edəcəyəm və Allah onları həlak edib öldürəcək. Yer üzünü onların pis qoxuları bürüyəcək. Allah bir yağış endirəcək və bu yağış onların cəsədlərini yuyub dənizə atacaq. Uca Rəbbim mənə vəd vermişdir ki, bütün bunlar baş verərsə, doqquz ayı tamamlamış hamilə qadının səhər, yoxsa axşam doğacağını gözləyən ailənin gözlədiyi kimi, Qiyamətin baş verməsi gözləniləcək”. Bu hədisi İbn Məcə ﷺ də rəvayət etmişdir.[2]

İmam Əhməd ﷺ Əbu Nədranın ﷺ belə dediyini rəvayət etmişdir: “Bir dəfə cümə günü bizdə olan Quran kitabı ilə Osman ibn Əbul-Asda olan Quran kitabını müqayisə etmək üçün onun yanına getdik. Cümə namazının vaxtı çatdıqda o bizə qüsl almağı əmr etdi. Sonra

[1] Muslim (2/365). əl-Əmaq - Hələblə Antakiya şəhərləri arasında yerləşən qəsəbədir. Dəbiq - Suriyanın Hələb şəhəri yaxınlığında yerləşən kənd adıdır. (Əhməd Şakir). Muslim, 5157, 7460.

[2] Əhməd (3556); İbn Məcə (4081). Hər ikisinin isnadları səhihdir. Həmçinin, əl-Hakim (4/448, 449, 545, 546) rəvayət etmiş və səhih olduğunu bildirmişdir. əz-Zəhəbi bununla razılaşmışdır. (Əhməd Şakir). Əhməd, 3556; İbn Məcə, 4081; əl-Hakim, 3448. Hədis zəifdir. Bax: Silsilə əd-Daifə, 4318, Daif əl-Cami, 4709.

ətir gətirdi və biz ətirlənib məscidə getdik. Məscidə girib bir kişinin yanında oturduq. O bizə Dəccal barədə danışdı. Bir az keçmişdi ki, Osman ibn Əbul-As gəldi və biz qalxıb onun yanında oturduq. Osman ibn Əbul-As dedi: "Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: "O vaxt müsəlmanların üç məmləkəti olacaq: bir məmləkət iki dənizin birləşdiyi yerdə, bir məmləkət əl-Həyrada,[1] bir məmləkət isə Şamda olacaqdır. İnsanlar üç dəfə dəhşətli qorxu yaşayacaqlar. Onların arasında Dəccal çıxacaq və şərq tərəfdən gələrək əvvəlcə iki dənizin birləşdiyi yerdəki məmləkətə çatacaq. O məmləkətin əhalisi üç dəstəyə bölünəcək: Bir dəstə məmləkətdə qalacaq və "Yoxlayaq, görək bu kimdir?" deyəcək. Bir dəstə qaçıb bədəvi ərəblərə qoşulacaq. Üçüncü dəstə isə qonşu məmləkətə sığınacaq. Dəccalın yanında əyinlərində yaşıl bürüncək[2] olan yetmiş min insan olacaq. Ona tabe olanların əksəriyyəti yəhudilər və qadınlar olacaq. Dəccal bir məmləkəti ram etdikdən sonra yanındakı məmləkətə keçəcək. Bu məmləkətin əhalisi də üç yerə bölünəcək: Bir dəstə məmləkətdə qalacaq və "Yoxlayaq, görək bu kimdir?" deyəcək. Bir dəstə qaçıb bədəvi ərəblərə qoşulacaq. Üçüncü dəstə isə Şamın qərbindəki qonşu məmləkətə sığınacaq. Müsəlmanlar Ufeyq adlanan yüksəkliyi aşacaqlar və özlərinə aid bir qoyun sürüsünü otlamağa yollayacaqlar. Sürüləri ələ keçəcək və bu onlara çox ağır gələcək. Bu səbəbdən şiddətli bir aclığa və çətinliyə düçar olacaqlar. Aclıq o dərəcəyə gəlib çatacaq ki, onlardan biri yayının ipini yandırıb yeyəcək. Onlar bu halda ikən səhər vaxtı bir carçı "Ey insanlar, sizə yardım gəldi!" deyə üç dəfə səslənəcək. Onlar bir-birlərinə "Şübhəsiz ki, bu, tox bir adamın səsidir" deyəcəklər. Məryəm oğlu İsa Sübh namazı vaxtı enəcək və müsəlmanların başçıları ona "Ey Allah tərəfindən göndərilən Ruh, qabağa keç və bizə namaz qıldır!" deyəcəklər. İsa deyəcək: "Bu ümmətin imamları özlərindəndir". Müsəlmanların əmiri önə keçib namaz qıldıracaq. Namaz bitdikdən sonra İsa qısa nizəsini götürüb Dəccala tərəf gedəcək. Dəccal onu gördükdə, qurğuşun odda əridiyi kimi, əriyəcək və İsa nizəsini onun sinəsinə batıraraq öldürəcək. Dəccalın ordusu məğlub olacaq. O gün onları heç nə gizlətməyəcək. Hətta ağac və daş belə "Ey mömin, bu kafirdir (gəl onu öldür)!" deyəcək". Bu hədisi bu şəkildə yalnız İmam Əhməd ﷺ rəvayət etmişdir.[3]

[1] İraqda yerləşən şəhər adıdır. Kufədən 7 km uzaqlıqda yerləşir.

[2] Burada varlılar nəzərdə tutulur, yəni Dəccala yetmiş min varlı insan tabe olacaq.

[3] Əhməd (4/216-217 Hələbi nəşri). (Əhməd Şakir). Əhməd, 17900, 17931, 18060; əl-Hakim, 8473; İbn Əbu Şeybə, 37478, 38633. Şueyb əl-Arnavut zəif olduğunu bildirmişdir.

Muslim ﷺ Nəvvas ibn Səmanın ﷺ belə dediyini rəvayət etmişdir: "Bir gün Allah Elçisi ﷺ Dəccal haqqında danışırdı. Onun haqqında gah yavaş, gah da yüksək səslə (elə bir tərzdə) danışırdı ki, biz onun yaxınlıqdakı xurmalıqda olduğunu güman etdik. (Təkrarən) onun yanına gəldiyimiz zaman o bizim halımızı görüb soruşdu: "Sizə nə olub?" Biz dedik: "Ey Allahın Elçisi! Bu gün səhər sən Dəccal haqqında gah yavaş, gah da yüksək səslə (elə bir tərzdə) danışırdın ki, biz onun yaxınlıqdakı xurmalıqda olduğunu güman etdik". O dedi: "Sizə görə Dəccaldan daha çox başqa şeylərdən qorxuram. Əgər o, mən sizin aranızda ikən peyda olarsa, mən sizi ondan müdafiə edərəm. Yox əgər mən aranızda olmayanda peyda olarsa, onda hər kəs özü ondan qorunmalıdır. Allah hər bir müsəlman üçün məni əvəz edəcək. Həqiqətən, Dəccal qıvrım saçlı, bir gözü sönmüş (ağarmış), haradasa Abduluzza ibn Qatana bənzəyən bir gəncdir. Sizdən kim onu görərsə, "əl-Kəhf" surəsinin ilk ayələrini ona qarşı oxusun. Həqiqətən, o, Şamla İraq arasında olan bir yolda peyda olacaq və sağa-sola (hər yana) fitnə-fəsad yayacaq. Ey Allahın qulları, ona qarşı (dininizdə) sabit olun!" Biz soruşduq: "Ey Allahın Elçisi! O, yer üzərində nə qədər qalacaq?" O dedi: "Qırx gün qalacaq, onlardan bir günü il, bir günü ay, bir günü cümə (bir həftə) kimi, digər günləri isə sizin günləriniz kimi olacaq". Biz soruşduq: "Ey Allahın Elçisi! İl kimi olan o gündə bizə bir günün namazını qılmaq kifayət edərmi?" O dedi: "Xeyr, namazın vaxtlarını özünüz təqribi müəyyən edin!" Biz soruşduq: "Ey Allahın Elçisi! Onun yer üzərində sürətlə hərəkət etməsi necə olacaq?" O dedi: "Küləyin qovduğu yağış buludlarının (sürəti) kimi. O, bir qövmün yanına gəlib onları çağıracaq, onlar da ona iman gətirəcək və ona boyun əyəcəklər. O zaman o, göyə əmr edəcək və göy dərhal yağış yağdıracaq, yer də onun əmri ilə bitkilər bitirəcəkdir. (O qövmün) otlağa çıxmış heyvanları axşam otlaqdan hörgücləri əvvəl heç vaxt olmadığı kimi hündür, məmələri südlə dolu və belləri uzun halda geri qayıdacaq. Sonra o, digər bir qövmün yanına gəlib onları da özünə iman gətirməyə çağıracaq. Lakin həmin qövm onun sözünü rədd edəcəkdir. O, qövmdən üz çevirib getdikdən sonra onları quraqlıq basacaq, əllərində olan bütün mal-dövlətləri tələf olacaq. O, bir xarabalığın yanından keçəndə ona "Öz xəzinələrini üzə çıxart!" deyəcək və (bal arılarının) başçı arının ardınca düşdükləri kimi oranın xəzinələri də onun ardınca düşəcək. Sonra o, gəncliyinin bahar çağında olan bir cavan oğlanı çağıracaq və onu qılıncla vurub iki hissəyə böləcək. Onun bədəninin hissələri oxun hədəfə çatdığı

məsafə qədər bir-birindən ayrılacaq. Sonra o, cavan oğlanı çağıracaq, o da həmin anda dirilib sevincək onun yanına gələcəkdir. Elə o vaxt Allah Məryəm oğlu Məsihi ﷺ göndərəcək. O, iki sarı paltarda, əllərini iki mələyin qanadlarına qoyaraq Dəməşqin şərqindəki ağ minarəyə enəcək. O, başını aşağı saldıqda sanki saçından su damcıları, başını qaldırdıqda isə incitək mirvarilər düşəcəkdir. Onun nəfəsinin qoxusunu hiss edən hər bir kafir mütləq öləcək. Onun nəfəsi gözünün gördüyü məsafəyə qədər çatacaq. İsa Dəccalı axtaracaq və onu Ludd qapısının yanında yaxalayaraq öldürəcək.

Sonra Məryəm oğlu İsa ﷺ Allahın (Dəccalın şərindən) qoruduğu bir qövmün yanına gəlib əlini onların üzünə sürtəcək və onların Cənnətdəki dərəcələrini söyləyəcəkdir. Elə o vaxt Allah İsaya belə vəhy edəcək: "Mən öz qullarımı çıxardıram. Onlarla vuruşmağa heç kəsin gücü çatmaz. Qullarıma Tur (dağında) sığınacaq ver!" Allah Yəcuc və Məcuc (tayfalarını) göndərəcək və onlar təpələrdən axışıb gələcəklər. Onların birinciləri Təbəriyyə (Tiberiya) gölündən keçərək onun suyunu içəcək, axırıncıları isə oradan keçərək belə deyəcəklər: "Nə vaxtsa burada su olub". Allahın peyğəmbəri İsa və onun səhabələri mühasirədə o qədər qalacaqlar ki, hətta onlardan biri üçün öküz başı bu gün sizdən biriniz üçün yüz dinardan daha xeyirli olacaq. Bundan sonra Allahın Peyğəmbəri İsa və onun səhabələri dua edəcəklər. Allah (Yəcuc və Məcuc tayfalarının) boyunlarına qurdlar salacaq və səhəri hamısı bir nəfər kimi öləcəklər. Bundan sonra Allahın peyğəmbəri İsa və onun səhabələri dağdan aşağı enəcəklər. Onlar yer üzündə (Yəcuc və Məcuc tayfalarının cəsədlərinin) piylərinin və çürüntülərinin qoxusundan salamat, bir qarış da olsun, yer tapa bilməyəcəklər. Belə olduğu halda Allahın peyğəmbəri İsa və onun səhabələri dua edəcəklər və Allah onların üzərinə dəvələrin boyunlarına bənzər (uzun boylu) quşlar göndərəcək. (Quşlar cəsədləri) götürüb Allahın istədiyi yerə aparacaqlar. Sonra Allah elə bir yağış göndərəcək ki, gildən düzəldilən heç bir ev ondan qoruna bilməyəcək. O, yer üzündə (nə varsa) yuyub aparacaq, hətta onu güzgüyə bənzər bir hala salacaq. Sonra yer üzünə "Meyvələrini bitir və bərəkətini ver!" deyiləcək. Həmin vaxt bir dəstə insan bir dənə narı yeməklə doyacaq və narın böyüklüyündən onun qabığının altında kölgələnəcək. Süd isə (o qədər) bərəkətli olacaqdır ki, bir dəvənin südü bir dəstə insana kifayət edəcək. Bir inəyin südü bir qəbiləyə, bir qoyunun südü isə bir neçə ailəyə kifayət edəcək. Belə olduqda Allah xoş bir külək göndərəcək,

o da (möminləri) qoltuqlarının altından yaxalayacaq və hər bir mömininin və müsəlmanın ruhunu (özü ilə) aparacaq. (Yer üzündə) insanların ən şər olanları qalaraq orada eşşəklər kimi cinsi əlaqədə olacaqlar. Qiyamət saatı da onların üzərində qopacaq". Hədisi İmam Əhməd və "Sunən" sahibləri rəvayət etmişlər. Hədisi İmam Əhmədin ﷺ rəvayəti ilə "əl-Ənbiya" surəsinin "**Nəhayət, Yəcuc və Məcuc səddi açıldığı və onlar təpələrdən axışıb gəldikləri zaman ...**" ("əl-Ənbiya", 96) ayəsinin təfsirində təkrar qeyd edəcəyik.[1]

Muslim "Səhih" əsərində Abdullah ibn Amrdan ﷺ rəvayət edir ki, bir dəfə bir kişi onun yanına gəlib dedi: "Rəvayət etdiyin bu hədis nədir? Deyirsən ki, heç şübhəsiz, Qiyamət filan və filan vaxta qədər qopacaq?!" Abdullah "Subhən-Allah!" (Allah pak və müqəddəsdir!), yaxud "Lə iləhə illəlləh" (Allahdan başqa haqq məbud yoxdur) və ya buna oxşar bir söz söylədi. Sonra belə davam etdi: "Özümə söz vermişdim ki, heç vaxt heç kimə hədis rəvayət etməyəcəyəm. Mən ancaq dedim ki, siz az zamandan sonra böyük hadisələr görəcəksiniz. Allahın Evi (Kəbə) yandırılacaq və belə, belə olacaq". Sonra dedi: "Peyğəmbər ﷺ belə demişdir: "Dəccal ümmətimin arasında peyda olacaq və qırx (zaman) qalacaq". (Bilmirəm, qırx günmü dedi, yoxsa qırx aymı dedi, yoxsa qırx ilmi.) Sonra Uca Allah Məryəm oğlu İsanı göndərəcək. O, Urvə ibn Məsuda oxşayır. İsa Dəccalı tapıb öldürəcək. Sonra insanlar iki adam arasında heç bir düşmənçiliyin olmayacağı (əmin-amanlıq içində) yeddi il keçirəcəklər. Sonra Uca Allah Şam tərəfdən soyuq bir külək göndərəcək və bu külək yer üzündə qəlbində zərrə qədər xeyir, yaxud iman olan hər kəsin ruhunu alacaq. Hətta sizlərdən biri dağın içinə girmiş olsa belə, külək oraya girib onun ruhunu alacaq". Mən bunları Peyğəmbərdən ﷺ eşitmişəm. Həmçinin Peyğəmbər ﷺ demişdir: "Bu zaman yer üzündə ən pis insanlar – fəsad törətməkdə quş kimi cəld, zülm etməkdə isə yırtıcı heyvanlar kimi vəhşi olan insanlar qalacaqlar. Nə bir yaxşılıq edəcəklər, nə də bir pislikdən çəkindirəcəklər. Şeytan onlara görünərək "Mənə tabe olacaqsınızmı?" deyəcək. Onlar "Bizə nə əmr edirsən?" deyə cavab verəcəklər. Şeytan onlara bütlərə ibadət etməyi əmr edəcək. Onlar bolluq və firavanlıq içində yaşamağa davam edərkən sura üfürüləcək. Bunu eşidən hər kəs diksinərək boynunu büküb qaldıracaq. Onu ilk eşidən dəvələrinin hovuzunu palçıqlayan bir adam olacaq. O adam dərhal öləcək və insanlar da öləcəklər. Sonra Allah şeh kimi, yaxud

[1] Muslim (2/376-377); Əhməd (17706). (Əhməd Şakir). Muslim, 5228, 7560.

kölgə kimi bir yağış göndərəcək. Yaxud yağış endirəcək. Bu yağışdan insanların cəsədləri bitəcək. Uca Allah buyurur: “**Sonra bir daha ona üfürülən kimi onlar qalxıb baxacaqlar**” (“əz-Zumər”, 68). Sonra “Ey insanlar, Rəbbinizə tərəf gəlin! **Onları tutub saxlayın, çünki sorğu-sual olunacaqlar!**” (“əs-Saffət, 24)” deyiləcək. Sonra “Cəhənnəmlik olanları çıxarın!” deyiləcək. “Neçə adamdan?” deyə soruşulacaq. “Hər min adamdan doqquz yüz doxsan doqquzunu!” deyiləcəkdir. Məhz bu gün “**uşaqları ağsaçlı qocalara döndərəcək**” (“əl-Muzzəmmil”, 17) və məhz bu gün “**Baldır açılacağı**” (“əl-Qaləm”, 42) gündür”.[1] Həmçinin hədisi ən-Nəsəi “Təfsir” bölməsində rəvayət etmişdir.[2]

İmam Əhməd ﷺ rəvayət etmişdir ki, Mucəmmi ibn Cəriyə ﷺ demişdir: “Peyğəmbərin ﷺ belə dediyini eşitdim: “Məryəm oğlu Məsih, Dəccalı Ludd qapısında və ya Ludd qapısının yanında öldürəcək”.[3] Abdullah ibn Ubeydullah ibn Sələbə, Abdur-Rahmən ibn Yəziddən, o da əmisi Mucəmmi ibn Cəriyədən ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ belə demişdir: “Məryəm oğlu (İsa), Dəccalı Ludd qapısında öldürəcək”. Hədisi ət-Tirmizi ﷺ rəvayət etmiş və demişdir: “Hədis səhihdir”. Həmçinin demişdir: “Bu mövzuda İmran ibn Husayn, Nafi ibn Utbə, Əbu Bərzə, Huzeyfə ibn Useyd, Əbu Hureyra, Keysən, Osman ibn Əbul-As, Cabir, Əbu Uməmə, İbn Məsud, Abdullah ibn Amr, Səmura ibn Cundub, Nəvvas ibn Səman, Amr ibn Auf və Huzeyfə ibn əl-Yəmənin hədisləri var. Allah onların hamısından razı olsun”.[4]

ət-Tirmizinin ﷺ bu ravilərin rəvayətlərini qeyd etməkdə məqsədi bu rəvayətlərdə Dəccal və Məryəm oğlu İsanın ﷺ onu öldürməsinin zikr edilməsidir. Yalnız Dəccaldan bəhs edən hədislər isə çox sayda ravilər tərəfindən rəvayət edilib yayıldığına görə sayıla bilməyəcək qədər çoxdur.

İmam Əhməd ﷺ Huzeyfə ibn Useyd əl-Ğifarinin ﷺ belə dediyini rəvayət etmişdir: “Bir dəfə biz aramızda Qiyaməti müzakirə edərkən Peyğəmbər ﷺ evindən gəlib söhbətin üstünə çıxdı və belə dedi: “Siz on əlaməti görmədikcə Qiyamət qopmayacaq. Bu əlamətlər:

[1] Muslim, 5233, 7568; İbn Hibban, 7353.

[2] Muslim (2/378-379); Əhməd (6555). (Əhməd Şakir).

[3] Əhməd, 15507, 15548, 18018, 18152. Şueyb əl-Arnavut hədisin səhih li-ğeyrihi olduğunu bildirmişdir.

[4] Əhməd (15535); ət-Tirmizi (3/239). (Əhməd Şakir). ət-Tirmizi, 2244, 2410; İbn Hibban, 6811. Hədis səhihdir. Bax: Səhih əl-Cami, 8126.

Günəşin batdığı yerdən çıxması,[1] tüstünün gəlməsi,[2] yerdən heyvan çıxması,[3] Yəcuc və Məcuc tayfalarının axışıb gəlməsi, Məryəm oğlu İsanın enməsi, Dəccalın zühuru, üç yerdə – şərqdə, qərbdə və ərəbistan yarımadasında yerəbatma hadisəsinin olması, bir də Ədən torpaqlarının dərinliklərindən püskürən alovun insanları qarşısına qataraq bir yerə toplamasıdır. Bu alov insanları səhər-axşam təqib edəcəkdir”. Hədisi Muslim və “Sunən” əsərlərinin müəllifləri də rəvayət etmişlər.[4]

Əbu Hureyra, İbn Məsud, Osman ibn Əbul-As, Əbu Uməmə, Nəvvas ibn Səman, Abdullah ibn Amr ibn əl-As, Mucəmmi ibn Cəriyə və Huzeyfə ibn Useydin ﷺ rəvayətləri ilə Peyğəmbərdən ﷺ nəql edilən bu hədislər mutəvatir[5] hədislərdir. Allah onlardan razı olsun! Bu hədislər İsanın ﷺ necə və harada yerə enəcəyinə dəlalət edir. Enəcəyi yer Şamda, Dəməşqin şərqindəki minarənin yanında olacaq. Bu hadisə Sübh namazı üçün iqamə veriləcəyi vaxt baş verəcək. Əsrimizdə, yəni hicri 741-ci ildə Əməvi məscidində xaçpərəstlər tərəfindən törədilən bir yanğın səbəbi ilə uçurulan minarənin yerinə, yonma ağ daşdan bir minarə tikilmişdir. Yıxılan minarə xaçpərəstlərin öz mallarının hesabına alınmış daşlardan tikilmişdi. Böyük ehtimala görə, Məryəm oğlu İsa ﷺ məhz bu minarənin üzərinə enəcək. əl-Buxari və Muslimin “Səhih” əsərlərində keçən hədislərdə bildirildiyi kimi o, donuzları öldürəcək, xaçları sındıracaq, cizyəni ləğv edəcək və insanlardan

[1] Peyğəmbər ﷺ demişdir: “Günəş batdığı yerdən doğmayınca Qiyamət qopmayacaq. Günəş məğribdən doğduğu zaman insanlar onu görəcək, yəni hamısı bu həqiqətə inanacaq, lakin artıq iş işdən keçmiş olacaq. Həmin vaxt **“...əvvəlcə iman gətirməmiş və ya imanında bir xeyir qazanmamış kimsəyə iman gətirməsi fayda verməyəcəkdir”** (“əl-Ənam”, 158). (əl-Buxari, 4270, 4636).

[2] Burada səmadan böyük bir tüstünün hər tərəfə yayılması və insanları bürüməsi nəzərdə tutulur. Quran və Sünnədə bunu təsdiqləyən neçə-neçə dəlillər var. Uca Allah buyurur: **“Sən göydən aşkar bir tüstü gələcəyi günü gözlə. O tüstü ki, insanları bürüyəcəkdir. Bu, ağrılı-acılı bir əzabdır”** (“əd-Duxan”, 10-11).

[3] Uca Allah buyurur: **“O söz (Qiyamət) onların başlarının üstünü aldığı zaman onlar üçün yerdən elə bir heyvan çıxardarıq ki, onlarla danışıb insanların ayələrimizə yəqinliklə inanmadıqlarını söyləyər”** (“ən-Nəml”, 82).

[4] Əhməd (16213); Muslim (2/366-367). (Əhməd Şakir). Əhməd, 16188-16189, 16244, 23877; Muslim, 5162, 7467. Şueyb əl-Arnavut səhih olduğunu bildirmişdir.

[5] Mutəvatir hədis, yalan danışacaqları təsəvvür olunmayan, isnadın əvvəlindən axırınadək bir toplumun digərindən rəvayət etdiyi hədisdir. Mutəvatir hədisin şərtləri aşağıdakılardır:

– isnadındakı ravilərin sayının kifayət qədər çox olması;
– ravilərin yalan üzərində ittifaq etməsinin qeyri-mümkünlüyü;
– isnadın hər təbəqəsində olan ravilərin sayının kifayət qədər çox olması;
– isnadın Peyğəmbərə ﷺ qədər yüksəlməsi (“İhtimam əl-Muhəddisin”, 1/141-142).

İslam dinindən başqa bir din qəbul etməyəcək. Peyğəmbər ﷺ bunu xəbər vermiş, zehnlərə yerləşdirmiş və qəti dəlil olaraq qoymuşdur ki, o zaman İsa ﷺ yerə endikdə Kitab əhlinin ona tabe olmamaq üçün üzrləri qalmasın, şübhələri aradan qalxsın. İsa ﷺ yerə endikdən sonra insanlar ona tabe olaraq onun vasitəsilə İslam dinini qəbul edəcəklər. Bu səbəbdən Uca Allah ayədə: "**Kitab əhlindən elə bir kəs olmaz ki, ölümündən əvvəl ona iman gətirməsin, lakin o, Qiyamət günü onların əleyhinə şahid olacaqdır**"- buyurur.

Bu ayə məna baxımından Uca Allahın "**Həqiqətən, İsanın yer üzünə enməsi Saatın yaxınlaşmasının əlamətidir**" ("əz-Zuxruf", 61) ayəsinə bənzəyir. Çünki İsanın ﷺ enməsi Qiyamətin yaxınlaşmasına bir dəlil və işarədir. O, Dəccalın zühurundan sonra yerə enəcək və Uca Allah Dəccalı onun əli ilə məhv edəcək. Uca Allah İsanın ﷺ dövründə Yəcuc və Məcuc tayfalarını göndərəcək və onun duasının bərəkəti ilə onları həlak edəcək. Uca Allah buyurur: "**Nəhayət, Yəcuc və Məcuc səddi açıldığı və onlar təpələrdən axışıb gəldikləri zaman; haqq olan vədimiz yaxınlaşdıqda kafirlərin gözləri dərhal bərələcəkdir**" ("əl-Ənbiya", 96-97).[1]

Uca Allah buyurur: "**Lakin o, Qiyamət günü onların əleyhinə şahid olacaqdır**". Qatədə ﵀ bu ayənin təfsirində belə demişdir: "İsa ﷺ Allahın göndərdiyi dini onlara təbliğ etməsi və özünün də Allahın qulu olması barədə onların əleyhinə şahidlik edəcək". Bu ayə Uca Allahın "əl-Maidə" surəsinin sonundakı "**Allah deyəcək: "Ey Məryəm oğlu İsa! Sənmi insanlara "Allahı qoyub məni və anamı iki məbud qəbul edin!" demişdin?" İsa deyəcək: "Sən pak və müqəddəssən! Haqqım olmayan bir şeyi demək mənə yaraşmaz. Əgər bunu demiş olsaydım, əlbəttə, Sən onu bilərdin. Sən mənim qəlbimdə olanları bilirsən, mən isə Sənin Özündə olanları bilmirəm. Şübhəsiz ki, qeybləri bilən Sənsən! Mən onlara ancaq Sənin mənə əmr etdiyini: "Mənim də Rəbbim, sizin də Rəbbiniz olan Allaha ibadət edin!" demişəm. Nə qədər ki onların arasında idim, mən onlara şahid idim. Sən məni onların arasından götürdükdən sonra isə onlara nəzarət edən Özün oldun. Sən hər şeyə şahidsən. Əgər onlara əzab versən, sözsüz ki, onlar Sənin qullarındır. Əgər onları bağışlasan, şübhəsiz ki, Sən Qüdrətlisən, Müdriksən!**" ("əl-Maidə", 116-118) ayələrinə bənzəyir.

[1] Sonra İbn Kəsir ﵀ İsanın ﷺ vəsfi barədə hədisləri qeyd etmişdir, lakin biz bu hədisləri qeyd etməyi lüzum görmədik. Bu barədə bilmək istəyən İbn Kəsirin ﵀ təfsirinə və "Tarix" (2/96-101) əsərinə baxa bilər. (Əhməd Şakir).

﴿ فَبِظُلۡمٖ مِّنَ ٱلَّذِينَ هَادُواْ حَرَّمۡنَا عَلَيۡهِمۡ طَيِّبَٰتٍ أُحِلَّتۡ لَهُمۡ وَبِصَدِّهِمۡ عَن سَبِيلِ ٱللَّهِ كَثِيرٗا ١٦٠
وَأَخۡذِهِمُ ٱلرِّبَوٰاْ وَقَدۡ نُهُواْ عَنۡهُ وَأَكۡلِهِمۡ أَمۡوَٰلَ ٱلنَّاسِ بِٱلۡبَٰطِلِۚ وَأَعۡتَدۡنَا لِلۡكَٰفِرِينَ مِنۡهُمۡ عَذَابًا أَلِيمٗا
١٦١ لَّٰكِنِ ٱلرَّٰسِخُونَ فِي ٱلۡعِلۡمِ مِنۡهُمۡ وَٱلۡمُؤۡمِنُونَ يُؤۡمِنُونَ بِمَآ أُنزِلَ إِلَيۡكَ وَمَآ أُنزِلَ مِن قَبۡلِكَۚ وَٱلۡمُقِيمِينَ
ٱلصَّلَوٰةَۚ وَٱلۡمُؤۡتُونَ ٱلزَّكَوٰةَ وَٱلۡمُؤۡمِنُونَ بِٱللَّهِ وَٱلۡيَوۡمِ ٱلۡأٓخِرِ أُوْلَٰٓئِكَ سَنُؤۡتِيهِمۡ أَجۡرًا عَظِيمًا ١٦٢ ﴾

**160. Yəhudilər zülm etdiklərinə və bir çoxlarını Allahın yolundan döndərdiklərinə görə, daha öncə halal edilmiş gözəl nemətləri onlara haram etdik.**

**161. Həm də qadağan olunmasına baxmayaraq, sələm aldıqlarına və haqsız yerə insanların mallarını yediklərinə görə belə etdik. Biz onlardan olan kafirlər üçün ağrılı-acılı bir əzab hazırlamışıq.**

**162. Lakin onlardan elmdə qüvvətli olanlar və möminlər sənə nazil edilənə və səndən öncə nazil edilənlərə iman gətirir, namaz qılır, zəkat verir, Allaha və Axirət gününə iman gətirirlər. Biz onlara böyük mükafat verəcəyik.**

Uca Allah bu ayələrdə böyük günahlar işlədib özlərinə zülm etdiklərinə görə yəhudilərə daha əvvəl halal etdiyi gözəl nemətləri haram etdiyini xəbər verir. Haram etmək dedikdə, ya yəhudilərin öz Kitablarını təhrif edərək daha əvvəl halal olan şeyləri haram etməklə özlərini çətinliyə salmaları, ya da Uca Allahın, daha əvvəl onlara halal etdiyi bəzi nemətləri cəza olaraq Tövratda haram etməsi nəzərdə tutulur. Necə ki Uca Allah başqa bir ayədə buyurur: “**Tövrat nazil olmamışdan əvvəl İsrailin** (Yəqubun) **özünə haram etdiklərindən savayı, bütün yeməklər İsrail oğullarına halal idi**” (“Ali-İmran”, 93). Bu ayənin təfsiri barədə əvvəl danışmışıq. Burada nəzərdə tutulan budur ki, İsrailin عليه السلام özünə dəvə əti ilə dəvə südünü haram etməsindən başqa, bütün yeməklər Tövrat nazil olmamışdan əvvəl yəhudilərə halal idi.[1] Sonra Uca Allah Tövratda bir çox şeyləri haram etdi. Necə ki “əl-Ənam” surəsində Uca Allah buyurur: “**Yəhudilərə dırnaqlı heyvanların hamısını haram etdik. İnək və qoyunun bel sütunlarına və ya bağırsaqlarına yapışan, yaxud sümüklərə qarışan yağlar istisna olmaqla, onların piylərini də haram etdik. Bu, həddi aşdıqlarına görə onlara verdiyimiz cəzadır. Şübhəsiz ki, Biz doğru danışanlarıq**” (“əl-Ənam”, 146). Yəni bunları onlara haram etdik, çünki onlar azğınlıqlarına, həddi aşmalarına və öz peyğəmbərlərinə qarşı çıxdıqlarına görə buna layiqdirlər. Bu səbəbdən Uca Allah ayədə

[1] “Ali-İmran” surəsinin 93-cü ayəsinin təfsirində keçmişdir. (Əhməd Şakir).

"**Yəhudilər zülm etdiklərinə və bir çoxlarını Allahın yolundan döndərdiklərinə görə, daha öncə halal edilmiş gözəl nemətləri onlara haram etdik**" buyurur. Yəni həm özlərini, həm də başqalarını haqqa tabe olmaqdan yayındırdılar. Bu onların həm qədim zamanlarda, həm də indiki zamanda vəsf olunduqları daimi bir xüsusiyyətləridir. Bu xüsusiyyətə görə, onlar həmişə peyğəmbərlərə düşmən olmuşlar, bir çox peyğəmbəri öldürmüşlər, İsa və Muhəmmədi inkar etmişlər. Onların hər ikisinə Allahın salavatı və salamı olsun!

Uca Allah buyurur: "**Həm də qadağan olunmasına baxmayaraq, sələm aldıqlarına və haqsız yerə insanların mallarını yediklərinə görə belə etdik**", Allah onlara sələm yeməyi qadağan etdiyi halda, onlar öz aralarında sələm alıb yemişlər, müxtəlif şübhəli yollarla və hiylələrlə insanların mallarını haqsızcasına mənimsəmişlər. Uca Allah buyurur: "**Biz onlardan olan kafirlər üçün ağrılı-acılı bir əzab hazırlamışıq**".

Sonra Uca Allah buyurur: "**Lakin onlardan elmdə qüvvətli olanlar ...**", yəni dinlərində sabitqədəm və faydalı elmdə qüvvətli olanlar. Elmdə qüvvətli olanlar barədə "Ali-İmran" surəsində[1] ətraflı danışmışıq, "**və möminlər sənə nazil edilənə və səndən öncə nazil edilənlərə iman gətirir**". İbn Abbas ﷺ demişdir: "Bu ayə yəhudilərdən İslamı qəbul edən və Allahın Muhəmməd ﷺ vasitəsi ilə göndərdiklərini təsdiqləyən Abdullah ibn Sələm, Sələbə ibn Sayə, Zeyd ibn Sayə və Əsəd ibn Ubeyd barədə nazil olmuşdur".

Uca Allahın "...**namaz qılır, zəkat verir**" sözündə ya malın zəkatı, ya nəfsin zəkatı[2], ya da hər ikisi nəzərdə tutulur. Ən doğrusunu Allah bilir.

Uca Allah buyurur: "**Allaha və Axirət gününə iman gətirirlər**", yəni onlar Allahdan başqa ibadətə layiq haqq məbudun olmadığını təsdiq edər, habelə öldükdən sonra diriləcəklərinə, xeyir və şər əməllərə görə qarşılığın veriləcəyinə inanarlar. "**Biz onlara böyük mükafat**", yəni Cənnət "**verəcəyik**".

[1] "Ali-İmran" surəsinin 7-ci ayəsinin təfsirində "elmdə qüvvətli olanlar" barədə danışmışıq. (Əhməd Şakir).

[2] Zəkat sözünün hərfi mənası "təmizləmək" deməkdir. Nəfsin zəkatı dedikdə insanın özünü günahlardan, pis əxlaqi keyfiyyətlərdən təmizləmək nəzərdə tutulur.

﴿ ۞ إِنَّآ أَوۡحَيۡنَآ إِلَيۡكَ كَمَآ أَوۡحَيۡنَآ إِلَىٰ نُوحٖ وَٱلنَّبِيِّـۧنَ مِنۢ بَعۡدِهِۦۚ وَأَوۡحَيۡنَآ إِلَىٰٓ إِبۡرَٰهِيمَ وَإِسۡمَٰعِيلَ
وَإِسۡحَٰقَ وَيَعۡقُوبَ وَٱلۡأَسۡبَاطِ وَعِيسَىٰ وَأَيُّوبَ وَيُونُسَ وَهَٰرُونَ وَسُلَيۡمَٰنَۚ وَءَاتَيۡنَا دَاوُۥدَ زَبُورٗا
١٦٣ وَرُسُلٗا قَدۡ قَصَصۡنَٰهُمۡ عَلَيۡكَ مِن قَبۡلُ وَرُسُلٗا لَّمۡ نَقۡصُصۡهُمۡ عَلَيۡكَۚ وَكَلَّمَ ٱللَّهُ مُوسَىٰ
تَكۡلِيمٗا ١٦٤ رُّسُلٗا مُّبَشِّرِينَ وَمُنذِرِينَ لِئَلَّا يَكُونَ لِلنَّاسِ عَلَى ٱللَّهِ حُجَّةُۢ بَعۡدَ ٱلرُّسُلِۚ وَكَانَ
ٱللَّهُ عَزِيزًا حَكِيمٗا ١٦٥ ﴾

**163. Biz Nuha və ondan sonrakı peyğəmbərlərə vəhy etdiyimiz kimi, sənə də vəhy etdik. Biz İbrahimə, İsmailə, İshaqa, Yaquba və onun nəslinə, İsaya, Əyyuba, Yunusa, Haruna və Süleymana da vəhy etdik. Davuda da Zəburu verdik.**

**164. Elçilərin bir qismi barəsində daha öncə sənə xəbər verdik, digərləri barəsində isə sənə heç nə söyləmədik. Və Allah Musa ilə sözlə** (vasitəsiz) **danışdı.**

**165. Biz müjdə verən və qorxudan elçilər göndərdik ki, insanların elçilərdən sonra Allaha qarşı bir bəhanəsi olmasın. Allah qüdrətlidir, hikmət sahibidir.**

İbn İshaq ﷬ İbn Abbasın ﷠ belə dediyini rəvayət etmişdir: "Bir dəfə Sukeyn və Adiy ibn Zeyd Peyğəmbərə ﷺ dedilər: "Ey Muhəmməd, Musadan sonra Allahın kiməsə bir şey nazil etdiyini bilmirik". Onların bu sözlərinə cavab olaraq Uca Allah "**Biz Nuha və ondan sonrakı peyğəmbərlərə vəhy etdiyimiz kimi, sənə də vəhy etdik...**" ayələrini endirdi".[1] Uca Allah bu ayədə əvvəlki peyğəmbərlərə vəhy etdiyi kimi, qulu və elçisi Muhəmmədə ﷺ də vəhy etdiyini qeyd edir. "**Davuda da Zəburu verdik**". Zəbur Uca Allahın Davuda ﷺ vəhy etdiyi kitabın adıdır.

Uca Allah buyurur: "**Elçilərin bir qismi barəsində daha öncə sənə xəbər verdik, digərləri barəsində isə sənə heç nə söyləmədik**", yəni elçilərin bir qismi barədə Məkkədə nazil olan surələrdə sənə xəbər vermişik. Uca Allahın Quranda adlarını çəkdiyi peyğəmbərlər bunlardır: Adəm, İdris, Nuh, Hud, Saleh, İbrahim, Lut, İsmail, İshaq, Yaqub, Yusuf, Əyyub, Şueyb, Musa, Harun, Yunus, Davud, Suleyman,

[1] Sukeyn ibn Əbu Sukeyn və Adiy ibn Zeyd hər ikisi Bənu Qaynuqa yəhudi qəbiləsindən olmuşlar. İslama düşmənçilik edən şəxslərdən idilər. Bu hadisə İbn Hişamın "Sira" əsərində gəlmişdir. Həmçinin ət-Təbəri (10840) İbn Hişamın ﷬ sənədi ilə rəvayət etmişdir. (Əhməd Şakir). ət-Təbəri, 10907 ,10840. Ali-Nasr və əl-Hilali isnadının zəif olduğunu bildirmişlər.

İlyas, əl-Yəsə, Zəkəriyya, Yəhya, İsa, təfsirçilərdən bir çoxuna görə, Zülkifl və bütün peyğəmbərlərin ağası Muhəmməd ﷺ.

Uca Allah buyurur: "...**digərləri barəsində isə sənə heç nə söyləmədik**", yəni bir çox peyğəmbərlər Quranda zikr edilməyiblər.

Uca Allah buyurur: "**Və Allah Musa ilə sözlə** (vasitəsiz) **danışdı**". Bu xüsusiyyətlə Uca Allah Musanı عليه السلام şərəfləndirmişdir. Bu səbəbdən Musaya "Kəlim" (Allahla vasitəsiz danışan) deyilir. Hafiz Əbu Bəkr ibn Mərdəveyh رحمه الله Abdul-Cabbar ibn Abdullahın belə dediyini rəvayət etmişdir: "Bir kişi Əbu Bəkr ibn Ayyəşin yanına gəlib dedi: "Mən bir nəfərin bu ayəni "Və Musa Allah ilə sözlə danışdı" şəklində oxuduğunu eşitdim". Əbu Bəkr dedi: "Bunu ancaq kafir belə oxuyar. Mən bu ayəni əl-Aməşə, əl-Aməş də Yəhya ibn Vəssaba, Yəhya ibn Vəssab da Əbu Abdur-Rahmən əs-Suləmiyə, Əbu Abdur-Rahmən də Əli ibn Əbu Talibə, Əli ibn Əbu Talib isə Peyğəmbərə ﷺ "**Və Allah Musa ilə sözlə** (vasitəsiz) **danışdı**" şəklində oxumuşdur".

Əbu Bəkr ibn Ayyəş رحمه الله ayəni "Və Musa Allah ilə sözlə danışdı" şəklində oxuyana bərk qəzəblənməsinin səbəbi bu idi ki, o, ayəni belə oxumaqla Quranın həm ləfzini, həm də mənasını təhrif etmişdir. Belə oxuyan adam Allahın Musa عليه السلام ilə və ya yaratdıqlarından biri ilə danışmasını inkar edən mötəzilə[1] məzhəbindən olub. Rəvayət olunur ki, bir dəfə mötəzilə əqidəsində olan bir nəfər alimlərdən birinə Uca Allahın bu ayəsini "Və Musa Allah ilə sözlə danışdı" şəklində oxuduqda, o alim "Ey yaramazın oğlu, bəs Uca Allahın "**Musa təyin etdiyimiz vaxtda gəldikdə Rəbbi onunla danışdı**" ("əl-Əraf", 143) ayəsini nə edəcəksən?" Yəni bu ayənin mənasını təhrif etmək və dəyişmək mümkün deyil.

Uca Allah buyurur: "**Biz müjdə verən və qorxudan elçilər göndərdik ki...**", yəni bu elçilər Allaha itaət edən, Onun rizasını qazanmağa can atanları müjdələyər, Allahın əmrlərinə qarşı çıxıb göndərdiyi peyğəmbərləri yalan sayanları isə əzab və cəza ilə qorxudarlar.

Uca Allah buyurur: "...**insanların elçilərdən sonra Allaha qarşı bir bəhanəsi olmasın. Allah qüdrətlidir, hikmət sahibidir**", yəni Uca Allah kitablar nazil etmiş, müjdə verən və qorxudan elçilər göndərmiş,

[1] Mötəzilə əqidəsi batil firqələrdən biridir. Bu əqidənin mənsubları Uca Allahın Sifətlərini inkar edirlər. Onlara görə, Sifətləri təsdiq etmək tövhidə ziddir. Hətta mötəzilə əqidəsində olanlardan biri demişdir: "Kim Allahın Sifətlərindən birini isbat edərsə, artıq iki ilahın olduğunu demiş olar".

sevib razı qaldığı əməllərlə sevmədiyi əməlləri bəyan etmişdir ki, heç kəsin bir bəhanəsi qalmasın. Necə ki başqa ayələrdə belə buyurur: “**Əgər Biz onları bundan əvvəl** (Muhəmməd peyğəmbər və Quran gəlməzdən öncə) **əzabla məhv etsəydik, deyərdilər: “Ey Rəbbimiz! Nə üçün bizə bir peyğəmbər göndərmədin ki, biz də zəlil və rüsvay olmazdan əvvəl Sənin ayələrinə tabe olaq?”** (“Taha”, 134); “**Özlərinin etdikləri əməllərə görə onlara bir müsibət üz verdikdə “Ey Rəbbimiz! Nə üçün bizə bir peyğəmbər göndərmədin ki, biz də Sənin ayələrinə tabe olub möminlərdən olaq?” deməsəydilər, səni peyğəmbər göndərməzdik**” (“əl-Qəsəs”, 47).

əl-Buxari və Muslimin “Səhih” əsərlərində İbn Məsuddan ﵁ rəvayət edilən bir hədisdə Peyğəmbər ﷺ demişdir: “Allahdan daha qeyrətli bir kimsə yoxdur. Elə buna görə də O, murdar əməllərin aşkarını da, gizlisini də haram buyurmuşdur. Tərif olunmağı Allahdan daha çox sevən heç kim yoxdur. Odur ki O, Özünü tərifləyir. Üzrü (qəbul etməyi) Allahdan daha çox sevən yoxdur. Odur ki müjdə verən və qorxudan peyğəmbərlər göndərmişdir”. Hədisin başqa rəvayətində “Odur ki peyğəmbərlər göndərmiş və kitablar nazil etmişdir” deyilir.[1]

﴿ لَّٰكِنِ ٱللَّهُ يَشۡهَدُ بِمَآ أَنزَلَ إِلَيۡكَۖ أَنزَلَهُۥ بِعِلۡمِهِۦۖ وَٱلۡمَلَٰٓئِكَةُ يَشۡهَدُونَۚ وَكَفَىٰ بِٱللَّهِ شَهِيدًا ١٦٦ إِنَّ
ٱلَّذِينَ كَفَرُواْ وَصَدُّواْ عَن سَبِيلِ ٱللَّهِ قَدۡ ضَلُّواْ ضَلَٰلَۢا بَعِيدًا ١٦٧ إِنَّ ٱلَّذِينَ كَفَرُواْ وَظَلَمُواْ لَمۡ
يَكُنِ ٱللَّهُ لِيَغۡفِرَ لَهُمۡ وَلَا لِيَهۡدِيَهُمۡ طَرِيقًا ١٦٨ إِلَّا طَرِيقَ جَهَنَّمَ خَٰلِدِينَ فِيهَآ أَبَدٗاۚ وَكَانَ
ذَٰلِكَ عَلَى ٱللَّهِ يَسِيرٗا ١٦٩ يَٰٓأَيُّهَا ٱلنَّاسُ قَدۡ جَآءَكُمُ ٱلرَّسُولُ بِٱلۡحَقِّ مِن رَّبِّكُمۡ فَـَٔامِنُواْ خَيۡرٗا لَّكُمۡۚ وَإِن
تَكۡفُرُواْ فَإِنَّ لِلَّهِ مَا فِي ٱلسَّمَٰوَٰتِ وَٱلۡأَرۡضِۚ وَكَانَ ٱللَّهُ عَلِيمًا حَكِيمٗا ١٧٠ ﴾

**166. Fəqət Allah sənə nazil etdiyinə şahidlik edər. O bu Quranı Öz elmi ilə nazil etdi. Mələklər də buna şahidlik edərlər. Şahid olaraq Allah yetər.**

**167. Küfr edən və insanları Allah yolundan sapdıran kimsələr, şübhəsiz ki, dərin bir azğınlığa düşmüşlər.**

**168. Kafirləri və zalımları Allah əsla bağışlamaz və doğru yola yönəltməz.**

**169. İçərisində əbədi qalacaqları Cəhənnəm yolundan başqa. Bu isə Allah üçün çox asandır.**

[1] Əhməd (3616, 4153); Muslim (2/326). (Əhməd Şakir). əl-Buxari, 4271, 4637; Muslim, 4955-4957, 7167-7169.

**170. Ey insanlar! Peyğəmbər sizə Rəbbinizdən haqqı gətirdi. Elə isə ona iman gətirin! Bu sizin üçün xeyirli olar. Əgər küfr etsəniz, şübhəsiz ki, göylərdə və yerdə nə varsa, Allaha məxsusdur. Allah hər şeyi biləndir, hikmət sahibidir.**

Uca Allahın "**Biz Nuha və ondan sonrakı peyğəmbərlərə vəhy etdiyimiz kimi, sənə də vəhy etdik**" ayəsi Muhəmmədin ﷺ peyğəmbərliyinin təsdiqi olub, onun peyğəmbərliyini inkar edən müşriklərə və Kitab əhlinə rədd mənası daşıdığı üçün, Uca Allah burada "**Fəqət Allah sənə nazil etdiyinə şahidlik edər**" buyurur. Yəni ey Peyğəmbər, səni yalançı hesab edərək sənə qarşı çıxan kafirlər sənə inanmasalar və peyğəmbərliyini inkar etsələr də, bil ki, Uca Allah sənin Onun elçisi olduğuna və sənə Kitab nazil etdiyinə şahidlik edir. O Kitab Əzəmətli Qurandır. "**Batil ona nə önündən, nə də arxasından girişə bilər. O, müdrik, tərifəlayiq Allah tərəfindən nazil edilmişdir**" ("Fussilət", 42). Bu səbəbdən Uca Allah ayənin davamında "**O, bu Quranı Öz elmi ilə nazil etdi**" buyurur. Yəni bu Quran özündə Allahın qullarına bildirmək istədiyi elmi daşıyır. Onda açıq-aydın ayətlər, doğru yol, haqla batili ayıran dəlillər, Allahın sevib razı qaldığı əməllərlə sevmədiyi əməllərin bəyanı, keçmişə və gələcəyə dair qeyb elmləri və Uca Allahın öyrətdiyi peyğəmbər və mələklərdən başqa heç kəsin bilmədiyi müqəddəs Sifətləri barədə məlumatlar var. Uca Allah başqa ayələrdə belə buyurur: "**Onlar Onun elmindən, Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər**" ("əl-Bəqərə", 255); "**Allah onların gələcəyini də, keçmişini də bilir. Onların elmi isə Onu ehtiva edə bilməz!**" ("Taha", 110).

İbn Əbu Hatim Əta ibn Saibin ﷺ belə dediyini rəvayət etmişdir: "Bir dəfə Əbu Abdur-Rahmən əs-Suləmi ﷺ mənə Quran oxutdu. Ona kimsə Quran oxuduqda belə deyərdi: "Allahın elmindən bir pay götürmüsən. Bu gün səndən üstün heç kim yoxdur. Yalnız əməli ilə səni üstələyənlər istisnadır". Sonra bu ayəni oxudu: "**O bu Quranı Öz elmi ilə nazil etdi. Mələklər də buna şahidlik edərlər. Şahid olaraq Allah yetər**".[1]

Uca Allah buyurur: "**Mələklər də buna şahidlik edərlər. Şahid olaraq Allah yetər**", yəni Allahın sənə şahidlik etməsi ilə bərabər, mələklər də Allahın sənə vəhy nazil etməsinə və sənə nazil olanın doğruluğuna şahidlik edərlər. "**Şahid olaraq Allah yetər**". Rəvayət edilir ki, İbn Abbas ﷺ belə demişdir: "Bir dəfə yəhudilərdən ibarət

[1] İbn Əbu Hatim, 6296.

bir dəstə Peyğəmbərin ﷺ yanına daxil oldu. Peyğəmbər ﷺ onlara dedi: “Allaha and olsun ki, siz mənim Allahın Elçisi olduğumu bilirsiniz”. Onlar “Biz bunu bilmirik” dedilər. Uca Allah da onlara cavab olaraq bu ayəni nazil etdi: “**Fəqət Allah sənə nazil etdiyinə şahidlik edər. O bu Quranı Öz elmi ilə nazil etdi. Mələklər də buna şahidlik edərlər. Şahid olaraq Allah yetər**”.[1]

Uca Allah buyurur: “**Küfr edən və insanları Allah yolundan sapdıran kimsələr, şübhəsiz ki, dərin bir azğınlığa düşmüşlər**”, yəni onlar özləri kafir olmuş və haqqa tabe olmamışlar, üstəlik insanları da haqqa tabe olmaqdan döndərməyə çalışmışlar. Beləliklə də, haqq yolundan çıxaraq azmışlar və ondan tamamilə uzaqlaşmışlar.

Sonra Uca Allah Onun ayələrini, Kitabını və Elçisini ﷺ inkar etməklə, insanları Allahın yolundan azdırmaqla, günah işlər görməklə, Allahın haram buyurduqlarını etməklə özlərinə zülm edənlərin hökmünü bildirərək onları əsla bağışlamayacağını və onları “**doğru yola**”, yəni xeyir yoluna yönəltməyəcəyini bildirir. Sonra Uca Allah istisna edərək “**İçərisində əbədi qalacaqları Cəhənnəm yolundan başqa. Bu isə Allah üçün çox asandır**” buyurur.

Uca Allah buyurur: “**Ey insanlar! Peyğəmbər sizə Rəbbinizdən haqqı gətirdi. Elə isə ona iman gətirin! Bu sizin üçün xeyirli olar**”, yəni, ey insanlar, Muhəmməd ﷺ hidayəti və Allah tərəfindən haqq olan bir dini sizə tam aydınlığı ilə gətirmişdir. Onun gətirdiyinə siz də iman gətirin və ona tabe olun. Bu sizin xeyrinizə olacaq.

Sonra Uca Allah buyurur: “**Əgər küfr etsəniz, şübhəsiz ki, göylərdə və yerdə nə varsa, Allaha məxsusdur**”, yəni Allahın sizin Ona inanıb-inanmamağınıza heç bir ehtiyacı yoxdur. Sizin küfr etməyiniz Ona heç bir zərər verə bilməz. Bu ancaq sizin özünüzə xeyir və ya zərər gətirə bilər. Necə ki başqa ayədə buyurur: “**Musa dedi: “Əgər siz və yer üzündə olanların hamısı kafir olsanız, Allaha heç bir zərər yetirə bilməzsiniz. Çünki Allah, həqiqətən də, Zəngindir, Tərifəlayiqdir”** (“İbrahim”, 8). Burada isə buyurur: “**Allah hər şeyi biləndir**”, yəni Allah sizdən kimin hidayətə layiq olduğunu bilir və ona hidayət verir, kimin də azmağa layiq olduğunu bilir və onu azdırır. “**Hikmət sahibidir**”, yəni O, sözlərində, işlərində, qoyduğu şəriətdə və müəyyən etdiyi qədərdə hikmət sahibidir.

---

[1] ət-Təbəri (10850, 10851). (Əhməd Şakir). İbn Əbu Hatim, 6295; ət-Təbəri, 10850, 10916. Ali-Nasr və əl-Hilali isnadının zəif olduğunu bildirmişlər.

﴿ يَٰٓأَهۡلَ ٱلۡكِتَٰبِ لَا تَغۡلُواْ فِي دِينِكُمۡ وَلَا تَقُولُواْ عَلَى ٱللَّهِ إِلَّا ٱلۡحَقَّۚ إِنَّمَا ٱلۡمَسِيحُ عِيسَى
ٱبۡنُ مَرۡيَمَ رَسُولُ ٱللَّهِ وَكَلِمَتُهُۥٓ أَلۡقَىٰهَآ إِلَىٰ مَرۡيَمَ وَرُوحٞ مِّنۡهُۖ فَـَٔامِنُواْ بِٱللَّهِ وَرُسُلِهِۦۖ وَلَا تَقُولُواْ
ثَلَٰثَةٌۚ ٱنتَهُواْ خَيۡرٗا لَّكُمۡۚ إِنَّمَا ٱللَّهُ إِلَٰهٞ وَٰحِدٞۖ سُبۡحَٰنَهُۥٓ أَن يَكُونَ لَهُۥ وَلَدٞۘ لَّهُۥ مَا فِي ٱلسَّمَٰوَٰتِ
وَمَا فِي ٱلۡأَرۡضِۗ وَكَفَىٰ بِٱللَّهِ وَكِيلٗا ١٧١ ﴾

**171. Ey Kitab əhli! Dininizdə ifrata varmayın və Allah barəsində yalnız haqqı deyin. Məryəm oğlu İsa Məsih ancaq Allahın elçisi, Onun Məryəmə göndərdiyi "Ol!" kəlməsi və Onun tərəfindən göndərilən bir ruhdur. Allaha və Onun elçilərinə iman gətirin və** (Allah barəsində) **"Üçdür!" deməyin. Batil əqidənizə son qoyun! Bu sizin üçün xeyirli olar. Həqiqətən, Allah Tək İlahdır! O, pakdır, müqəddəsdir, övladı olmaqdan uzaqdır. Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Vəkil olaraq Allah yetər.**

Uca Allah bu ayədə Kitab əhlini dində həddi aşmaqdan və İsanı عليه السلام həddən ziyadə təriflənməkdən çəkindirir. Bu xüsusiyyət xristianlarda daha çoxdur. Onlar İsanı عليه السلام təriflənməkdə həddi aşaraq onu Allahın ona verdiyi peyğəmbərlik dərəcəsindən yuxarı qaldırmış, Allahdan başqa bir ilaha çevirmiş və ona Allaha ibadət etdikləri kimi ibadət etmişlər. Hətta özlərini İsanın عليه السلام dinində sayanların bəziləri həddi aşaraq İsanın davamçılarının da günahsız (məsum) olduqlarını iddia etmiş və onların hər dediklərinə – istər haqq olsun, istər batil, istər zəlalət olsun, istər hidayət, istər doğru olsun, istərsə də yalan – tabe olmuşlar. Bu səbəbdən Uca Allah onlar barədə: "**Onlar Allahı qoyub baş elm adamlarını və rahiblərini, bir də Məryəm oğlu İsanı tanrılar qəbul etdilər. Halbuki onlara ancaq tək olan İlaha ibadət etmək əmr olunmuşdu**" ("Tövbə", 31) buyurur.

İmam Əhməd رحمه الله Ömərdən رضي الله عنه Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Xaçpərəstlərin Məryəm oğlu İsanı tərifləməkdə həddi aşdıqları kimi, siz də məni həddən ziyadə tərifləməyin. Mən, sadəcə, Allahın qulu və elçisiyəm".[1] Əli ibn əl-Mədini رحمه الله hədisin isnadının səhih olduğunu söyləmişdir. Həmçinin hədisi əl-Buxari رحمه الله də rəvayət etmişdir.[2]

[1] əl-Buxari, 3189, 3445; Əhməd, 154, 164.
[2] əl-Musnəd, (154,164, 331), əl-Buxari, (6/355, 12/128-139, Fəthul-Bari). (Əhməd Şakir).

İmam Əhməd ﷺ Ənəs ibn Malikdən ﷺ rəvayət etmişdir ki, bir dəfə bir kişi Peyğəmbərə ﷺ müraciət edərək dedi: "Ey Muhəmməd, ey ağamız, ey ağamızın oğlu, ey ən xeyirlimiz və ən xeyirlimizin oğlu". Peyğəmbər ﷺ dedi: "Ey insanlar, belə deməkdən çəkinin! Şeytan sizi azdırmasın. Mən Abdullahın oğlu Muhəmmədəm. Allahın qulu və elçisiyəm. Allaha and olsun ki, məni Uca Allahın mənə verdiyi dərəcədən yuxarı qaldırmağınızı istəmirəm". Hədisi bu şəkildə yalnız İmam Əhməd ﷺ rəvayət etmişdir.[1]

Uca Allah buyurur: "**Allah barəsində yalnız haqqı deyin**", yəni Allaha qarşı yalan uydurmayın, Onun zövcəsi və uşağı olduğunu deməyin. Allah bütün bunlardan çox uca və çox uzaqdır. Allah müqəddəsdir, böyüklüyündə, əzəmətində təkdir. Ondan başqa ibadətə layiq ilah və rəbb yoxdur. Bu səbəbdən Uca Allah ayədə "**Məryəm oğlu İsa Məsih ancaq Allahın elçisi, Onun Məryəmə göndərdiyi "Ol!" kəlməsi və Onun tərəfindən göndərilən bir ruhdur**" buyurur. Yəni İsa ﷺ Allahın qullarından və yaratdığı məxluqlardan biridir. Allah ona "Ol!" demiş, o da var olmuşdur. İsa Allahın göndərdiyi elçilərindən biridir, Allahın Məryəmə göndərdiyi kəlməsidir. Yəni Uca Allah onu Cəbrailin Məryəmə ﷺ gətirdiyi bir söz ilə yaratmışdır. Cəbrail, Rəbbinin izni ilə ruhundan ona üfürmüş və Allahın izni ilə İsa yaranmışdır. Cəbrail Məryəmin paltarının yaxasına üfürmüş və bu onun övrət yerinə çataraq mayalandırmanı əvəz etmişdir. Bütün bunlar Uca Allahın yaratması ilə baş vermişdir. Buna görə İsaya "Allahın kəlməsi və Allah tərəfindən göndərilən ruh" deyilir. Çünki onun atası yoxdur. O ancaq Uca Allahın ona "Ol!" deməsi ilə Cəbrail vasitəsilə Məryəmə ﷺ göndərdiyi ruhdan yaranmışdır. Uca Allah bu xüsusda başqa ayələrdə belə buyurur: "**Məryəm oğlu Məsih ancaq bir elçidir, ondan əvvəl də elçilər gəlib getmişlər. Onun anası isə Allaha sidq ürəkdən inanan bir qadın idi. Hər ikisi də yemək yeyərdi**" ("əl-Maidə", 75); "**Həqiqətən, Allah yanında İsanın məsəli Adəmin məsəli kimidir. Allah onu torpaqdan yaratdı, sonra isə ona "Ol!" dedi, o da oldu**" ("Ali-İmran", 59); "**İsmətini qoruyan Məryəmi də yada sal! Biz ona Öz ruhumuzdan Cəbrail vasitəsilə üfürdük, onu və onun oğlunu aləmlərə bir möcüzə etdik**" ("əl-Ənbiya", 91); "**Allah həmçinin ismətini qoruyan İmran qızı Məryəmi də misal çəkdi. Biz ona Öz ruhumuzdan** (Cəbrail vasitəsilə) **üfürdük. O, Rəbbinin Sözlərini və Onun Kitablarını təsdiq etdi və itaət edənlərdən oldu**"

[1] əl-Musnəd, (12578). İsnadı səhihdir. (Əhməd Şakir). Əhməd, 12573. Hədis səhihdir. Bax: Ğayətul-Məram fi Təxrici Əhədisil-Hələl val-Həram, 127.

("ət-Təhrim", 12). Həmçinin Uca Allah Məsihdən ﷺ bəhs edərək belə buyurur: "**O, yalnız və yalnız Bizim nemət verdiyimiz və İsrail oğullarına nümunə etdiyimiz bir quldur**" ("əz-Zuxruf", 59).

İbn Əbu Hatim ﷺ Əhməd ibn Sinan əl-Vasitinin ﷺ belə dediyini rəvayət etmişdir: "Şəz ibn Yəhyanın Uca Allahın "**Məryəm oğlu İsa Məsih ancaq Allahın elçisi, Onun Məryəmə göndərdiyi "Ol!" kəlməsi və Onun tərəfindən göndərilən bir ruhdur**" ayəsi haqqında belə dediyini eşitmişəm: "İsa kəlmənin özü olmamışdır, "Ol!" kəlməsi ilə yaranmışdır".[1]

Ayənin bu cür şərh olunması, İbn Cəririn "**Onun Məryəmə göndərdiyi "Ol!" kəlməsi**" ayəsi barədə "Ona öyrətdiyi sözdür" deməsindən daha yaxşıdır. İbn Cərir ﷺ Uca Allahın "**O zaman mələklər dedilər: "Ey Məryəm! Həqiqətən, Allah səni Öz tərəfindən, adı Məryəm oğlu İsa Məsih olan bir kəlmə ilə müjdələyir**" ("Ali-İmran", 45) ayəsini də belə şərh etmiş və bu ayələri Uca Allahın "**Sən bu Kitabın sənə nazil olacağına ümid etmirdin. Bu ancaq Rəbbindən bir mərhəmətdir**" ("əl-Qəsəs", 86) ayəsinə bənzətmişdir.[2] Lakin doğru olan budur ki, bu kəlmə Cəbrailin Məryəmə ﷺ gətirdiyi "Ol!" kəlməsidir. Cəbrail Allahın izni ilə ona üfürmüş və İsa ﷺ yaranmışdır.

əl-Buxari ﷺ Ubədə ibn Samitdən ﷺ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Kim Allahdan başqa heç bir məbudun olmadığına, Onun Tək olduğuna və heç bir şərikinin olmadığına, Muhəmmədin Onun qulu və elçisi olduğuna, İsanın Allahın qulu, elçisi, Məryəmə göndərdiyi kəlməsi və Onun tərəfindən göndərilən bir ruh olduğuna, Cənnətin və Cəhənnəmin haqq olduğuna şahidlik etsə, nə əməl etmiş olursa olsun, Allah onu Cənnətə daxil edər". Hədisi Muslim ﷺ də rəvayət etmişdir.[3]

Həm ayədə, həm də hədisdə keçən "**Onun tərəfindən göndərilən bir ruhdur**" sözü, Uca Allahın "**Göylərdə və yerdə nə varsa, hamısını Öz tərəfindən sizin ixtiyarınıza qoyan da Odur**" ("əl-Casiyə", 13) ayəsi kimidir. Yəni Onun tərəfindən yaradılmışdır. Buradakı مِنْ [min] önqoşması, xaçpərəstlərin dediyi kimi, "bir hissəsi" mənasında deyil, başlanğıc (çıxışlıq hal) mənasındadır. Necə ki digər ayədə də belədir.

---

[1] İbn Əbu Hatim, 6310.
[2] Bax: ət-Tabəri, (6/411,413, 9/418-419). (Əhməd Şakir).
[3] əl-Buxari, (6/342, Fəth əl-Bari) və Muslim (1/25). (Əhməd Şakir). əl-Buxari, 3180, 3435; Muslim, 41, 149.

Mucahid ﷺ Uca Allahın "**Onun tərəfindən göndərilən bir ruhdur**" ayəsi barədə demişdir: "Yəni Onun tərəfindən göndərilmiş bir elçidir". Digər alimlər isə demişlər: "Yəni Allahdan gələn bir sevgidir". Lakin birinci təfsir daha qüvvətlidir. Yəni yaradılmış bir ruhdan yaranmışdır. Burada ruhun Allaha nisbət edilməsi isə hörmət və şərəfləndirmək mənasındadır. Necə ki bu ayələrdə "dəvə" və "ev" sözləri hörmət olaraq Allaha nisbət olunmuşdur: "**Allahın bu dişi dəvəsi sizin üçün bir möcüzədir**" ("əl-Əraf", 73), "**Evimi təvaf edənlər, namaza duranlar, ruku və səcdə edənlər üçün təmizlə!**" ("əl-Həcc", 26). Necə ki səhih bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Sonra mən Rəbbimdən Onun evinə (Cənnətinə) girməyə izn istəyəcəyəm və mənə izn veriləcəkdir". Burada Peyğəmbər ﷺ şərəfləndirmə məqsədi ilə evi Allaha nisbət etmişdir. Bunların hamısı eyni qəbildəndir.

Uca Allah buyurur: "**Allaha və Onun elçilərinə iman gətirin**", yəni Allahın Tək olduğunu, nə zövcəsinin, nə də övladının olmadığını təsdiq edin. Yəqin bilin ki, İsa ﷺ Allahın qulu və elçisidir. Bu səbəbdən ayənin ardında "(Allah barəsində)**: "Üçdür!" deməyin**!" buyurur. Yəni İsanı və anasını Allaha şərik qoşmayın. Allah bundan çox uca və çox uzaqdır.

Bu ayə ilə "əl-Maidə" surəsində gələn **"Allah üçlüyün üçüncüsüdür!" deyənlər də kafir oldular. Halbuki Tək İlahdan başqa ibadətə layiq olan heç bir məbud yoxdur**" ("əl-Maidə", 116), eyni surənin sonunda "**Allah deyəcək: "Ey Məryəm oğlu İsa! Sənmi insanlara "Allahı qoyub məni və anamı iki məbud qəbul edin!" demişdin?" İsa deyəcək: "Sən pak və müqəddəssən!**" ("əl-Maidə", 116) və əvvəlində gələn **"Şübhəsiz ki, Allah Məryəm oğlu Məsihdir" deyənlər kafir oldular**" ("əl-Maidə", 72) – bu ayələr dəlalət edir ki, xaçpərəstlər cahil olduqlarına görə küfrlərində həddi aşaraq Allah barədə ziddiyyətli sözlər demişlər. Onların sözləri dağınıq, azğınlıqları isə müxtəlifdir. Onlardan bəziləri İsanın ﷺ ilah olduğuna, bəziləri onun Allahın şəriki olduğuna, bəziləri isə onun Allahın oğlu olduğuna etiqad edir. Onlar bir çox qruplara, müxtəlif rəylərə və cəm edilməsi mümkün olmayan görüşlərə sahibdirlər. Bəzi filosoflar yaxşı demişlər: "Xristianlardan on adam bir araya gəlsə, mütləq on bir növ rəylə ayrılarlar". Onların məşhur alimlərindən biri, İsgəndəriyyə şəhərinin papası Səid ibn Batriq bildirmişdir ki, hicri dörd yüzüncü illərdə çox sayda xaçpərəst elm adamları öz aralarında böyük əmanət

məclisi qurmuşlar, halbuki, əslində, bu, kiçik və alçaq bir xəyanət toplantısı idi. Bu toplantı məşhur Konstantinopol şəhərinin banisi olan Konstantinin hökmranlığı dövründə baş tutmuşdur. Onlar onun hüzurunda böyük bir ixtilafa düşüb bölünmüşlər. Bu toplantıda iki mindən artıq keşiş iştirak edirdi. Onlardan əlli adam bir rəyin üzərində, iyirmi adam başqa bir rəyin üzərində, yüz adam başqa bir rəyin üzərində, yetmiş adam başqa bir rəyin üzərində durmuşdu. Bu minvalla bundan daha artıq və ya az sayda keşiş bir rəyi dəstəkləyərək çox sayda qruplara bölündülər. Hökmdar (Konstantin) bu qruplardan üç yüz on səkkiz adamın bir rəy üzərində birləşdiyini gördükdə – kral özü dahi filosof idi – onların fikrini götürüb dəstəklədi. Digər rəyləri isə batil rəy kimi qəbul edilməsini əmr etdi. Bu üç yüz on səkkiz nəfərin rəyi qanuniləşdi, onlar üçün kilsələr tikilib kitablar və qanunlar qoyuldu. Onlar kiçik uşaqlara öz etiqadlarını təlqin etmək üçün xaç suyuna salma mərasimini dinə əlavə etdilər. Bu toplumun davamçıları Məlikiyyələr adlanırlar. Sonra bu firqə öz aralarında ikinci dəfə toplaşdılar və bu toplantıda parçalanaraq Yaqubiyyələr firqəsini əmələ gətirdilər. Üçüncü dəfə toplandıqda isə Nasturiyyələr firqəsi meydana gəldi. Bu firqələrin hamısı Məsihin üçlükdən biri olmasını qəbul edirlər. Lakin bunun necəliyində ixtilaf etmişlər. İlah Məsihə çevrilmişdir, yoxsa çevrilməmişdir, yaxud ilah Məsihə qarışmışdır, yoxsa qarışmamışdır? Xaçpərəstlər bu məsələdə üç rəy irəli sürmüşlər və hər rəy sahibi qarşı tərəfin kafir olduğunu iddia etmişdir. Biz isə bu rəy sahiblərinin hər üçünün kafir olduqlarını deyirik.[1] Bu səbəbdən Uca Allah onlara müraciət edərək "**Batil əqidənizə son qoyun! Bu sizin üçün xeyirli olar. Həqiqətən, Allah Tək İlahdır! O, pakdır, müqəddəsdir, övladı olmaqdan uzaqdır. Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Vəkil olaraq Allah yetər**" buyurur. Yəni göylərdə və yerdə olan hər şey Onun mülküdür və yaratdığıdır. Orada olanların hamısı Onun quludur, Onun idarəçiliyi və hakimiyyəti altındadır. O hər şey üzərində nəzarətçidir. Onun Öz yaratdıqlarından zövcəsi və uşağı necə ola bilər? Necə ki Uca Allah başqa ayələrdə belə buyurur: "**O, göyləri və yeri icad edəndir. Onun zövcəsi olmadığı halda övladı necə ola bilər? Hər şeyi O xəlq etmişdir. O hər şeyi bilir**" ("əl-Ənam", 101); "**Kafirlər: "Mərhəmətli Allah özünə övlad götürmüşdür!" dedilər. Siz olduqca pis bir iş tutdunuz. Bundan az qaldı göylər parçalansın, yer yarılsın və dağlar yerindən qopub uçsun – Mərhəmətli Allaha övlad isnad etdiklərinə**

[1] "Ali-İmran" surəsinin, 55-ci ayəsinin təfsirinə bax. (Əhməd Şakir).

**görə. Mərhəmətli Allaha özünə övlad götürmək yaraşmaz. Göylərdə və yerdə olanların hamısı Mərhəmətli Allahın hüzuruna ancaq bir qul kimi gələcək. Allah onları hesablamış və bir-bir saymışdır. Onların hər biri Qiyamət günü Onun hüzuruna tək-tənha gələcək"** ("Məryəm", 88-95).

﴿لَّن يَسْتَنكِفَ الْمَسِيحُ أَن يَكُونَ عَبْدًا لِّلَّهِ وَلَا الْمَلَائِكَةُ الْمُقَرَّبُونَ ۚ وَمَن يَسْتَنكِفْ عَنْ
عِبَادَتِهِ وَيَسْتَكْبِرْ فَسَيَحْشُرُهُمْ إِلَيْهِ جَمِيعًا ﴿١٧٢﴾ فَأَمَّا الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ
فَيُوَفِّيهِمْ أُجُورَهُمْ وَيَزِيدُهُم مِّن فَضْلِهِ ۖ وَأَمَّا الَّذِينَ اسْتَنكَفُوا وَاسْتَكْبَرُوا فَيُعَذِّبُهُمْ عَذَابًا
أَلِيمًا وَلَا يَجِدُونَ لَهُم مِّن دُونِ اللَّهِ وَلِيًّا وَلَا نَصِيرًا ﴿١٧٣﴾

**172. Nə İsa Məsih Allahın qulu olmağı özünə ar bilər, nə də Allaha yaxın olan mələklər. Allah Ona ibadət etməyi özlərinə ar bilənlərin və təkəbbürlük göstərənlərin hamısını Öz hüzuruna toplayacaqdır.**

**173. İman gətirib xeyirxah işlər görənlərə gəlincə, Allah onların mükafatlarını tam olaraq verəcək və Öz lütfündən onlar üçün istədiyi qədər artıracaqdır. Allaha ibadət etməyi özlərinə ar bilənlərə və təkəbbürlük göstərənlərə gəlincə, Allah onları ağrılı-acılı bir əzaba düçar edəcəkdir. Onlar özlərinə Allahdan başqa nə bir dost, nə də bir yardımçı tapa bilərlər.**

İbn Əbu Hatim رحمه الله rəvayət etmişdir ki, İbn Abbas رضي الله عنهما Uca Allahın "**Nə İsa Məsih Allahın qulu olmağı özünə ar bilər, nə də Allaha yaxın olan mələklər**" ayəsi barədə demişdir: "Yəni nə İsa, nə də mələklər Allahın qulu olmağa əsla təkəbbürlük etməzlər".[1] Qatədə رحمه الله bu ayənin təfsirində demişdir: "Yəni İsa Məsih də, yaxın mələklər də Allahın qulu olmaqdan utanmazlar". Bəzi alimlər bu ayəni dəlil gətirərək mələklərin bəşərdən (insandan) üstün olduğunu demişlər, çünki Uca Allah ayədə "**Allaha yaxın olan mələklər**" buyurur. Lakin bu ayə buna dəlalət etmir, çünki ayədə mələklər bağlayıcı vasitəsilə Məsihə bağlanmışdır. "Ar bilmək" feili burada "çəkinmək", "imtina etmək" mənasındadır. Mələklər isə buna Məsihdən عليه السلام daha çox qadirdilər. Bu səbəbdən Uca Allah "**...nə də Allaha yaxın olan mələklər**" buyurur. Mələklərin qul olmaqdan imtina etməyə daha çox güclərinin çatmaları və bu xüsusda daha qüvvətli olmaları, onların

[1] İbn Əbu Hatim, 6317.

heç də daha üstün olmaları anlamına gəlmir. Başqa bir rəyə görə, mələklərin burada zikr edilməsinə səbəb Məsih ﷺ kimi, mələklərin də Allahla birgə məbud qəbul edilmələridir. Uca Allah onların da qullarından və yaratdıqlarından biri olduğunu xəbər verir. Necə ki başqa bir ayədə Uca Allah belə buyurur: "**Kafirlər "Mərhəmətli Allah Özünə övlad götürdü!" dedilər. O, pakdır, müqəddəsdir! Əksinə, o mələklər möhtərəm qullardır. Mələklər Ondan qabaq danışmazlar; onlar ancaq Onun əmrini yerinə yetirərlər. Allah onların keçmişini və gələcəyini bilir. Onlar yalnız Onun razı qaldığı şəxslərdən ötrü şəfaət diləyir və Onun qorxusundan tir-tir əsirlər. Onlardan kimsə "Mən Ondan başqa bir məbudam!" desə, ona Cəhənnəmi qismət edərik. Biz zalımları belə cəzalandırırıq**" ("əl-Ənbiya", 26-29).

Uca Allah buyurur: "**Allah Ona ibadət etməyi özlərinə ar bilənlərin və təkəbbürlük göstərənlərin hamısını Öz hüzuruna toplayacaqdır**", yəni Allah onları Qiyamət günü hüzurunda toplayacaq, ədalətli hökmü ilə onlar arasında hökm verəcək və əsla zülm etməyəcək. Bu səbəbdən Uca Allah buyurur: "**İman gətirib xeyirxah işlər görənlərə gəlincə, Allah onların mükafatlarını tam olaraq verəcək və Öz lütfündən onlar üçün istədiyi qədər artıracaqdır**". Yəni etdikləri yaxşı əməllərin miqdarına görə onlara savab verəcək. Üstəlik Öz lütfündən, geniş rəhmətindən və nemətindən onların savablarını daha da artıracaq.

Uca Allah buyurur: "**Allaha ibadət etməyi özlərinə ar bilənlərə və təkəbbürlük göstərənlərə gəlincə**", yəni Allaha itaət və ibadətdən imtina edənlərə və təkəbbürlük göstərənlərə gəlincə, "**Allah onları ağrılı-acılı bir əzaba düçar edəcəkdir. Onlar özlərinə Allahdan başqa nə bir dost, nə də bir yardımçı tapa bilərlər**". Başqa bir ayədə isə Uca Allah belə buyurur: "**Həqiqətən, Mənə ibadət etməyə təkəbbür göstərənlər Cəhənnəmə zəlil olaraq girəcəklər**" ("Ğafir", 60). Yəni ibadət etməkdən imtina edib, təkəbbürlük göstərdiklərinə qarşılıq olaraq alçalmış və rəzil halda Cəhənnəmə girəcəklər.

﴿يَٰٓأَيُّهَا ٱلنَّاسُ قَدۡ جَآءَكُم بُرۡهَٰنٞ مِّن رَّبِّكُمۡ وَأَنزَلۡنَآ إِلَيۡكُمۡ نُورٗا مُّبِينٗا ﴿١٧٤﴾ فَأَمَّا ٱلَّذِينَ ءَامَنُواْ بِٱللَّهِ
وَٱعۡتَصَمُواْ بِهِۦ فَسَيُدۡخِلُهُمۡ فِي رَحۡمَةٖ مِّنۡهُ وَفَضۡلٖ وَيَهۡدِيهِمۡ إِلَيۡهِ صِرَٰطٗا مُّسۡتَقِيمٗا ﴿١٧٥﴾﴾

**174. Ey insanlar! Rəbbinizdən sizə bir dəlil gəldi və Biz sizə aydın bir nur nazil etdik.**

**175. Allaha iman gətirən və Ondan möhkəm yapışan şəxslərə gəlincə, Allah onları Öz rəhmətinə və lütfünə qovuşduracaq və onları Özünə tərəf gedən düz yola yönəldəcəkdir.**

Uca Allah bu ayədə bütün insanlara xitab edərək, onlara Onun tərəfindən əzəmətli bir dəlil gəldiyini xəbər verir. Bu heç bir bəhanəyə yer saxlamayan və bütün şübhələri qəti şəkildə aradan qaldıran bir dəlil və hüccətdir. Bu səbəbdən Uca Allah "**Biz sizə aydın bir nur nazil etdik**" buyurur. Yəni haqqa açıq-aydın dəlalət edən bir işıq nazil etdik. İbn Cureyc və başqaları ﷺ demişlər: "Bu, Qurandır".

Uca Allah buyurur: "**Allaha iman gətirən və Ondan möhkəm yapışan şəxslərə gəlincə**", yəni Allaha ibadət etməklə bərabər bütün işlərində Ona təvəkkül edənlərə gəlincə, "**Allah onları Öz rəhmətinə və lütfünə qovuşduracaq**", yəni onlara rəhm edəcək, onları Cənnətə daxil edəcək, Öz lütfü və neməti sayəsində savablarını artıracaq, dərəcələrini qat-qat yüksəldəcək.

"**Və onları Özünə tərəf gedən düz yola yönəldəcəkdir**", yəni onları heç bir əyriliyi və mailliyi olmayan doğru və aydın yola yönəldəcəkdir. Bu, möminlərin dünya və Axirətdəki sifətləridir. Onlar dünyada bütün inanc və əməllərində düzgün və salamat yoldadırlar. Axirətdə isə Allahın Cənnət bağçalarına aparan doğru yolunda olacaqlar.

﴿ يَسْتَفْتُونَكَ قُلِ ٱللَّهُ يُفْتِيكُمْ فِي ٱلْكَلَٰلَةِ ۚ إِنِ ٱمْرُؤٌا۟ هَلَكَ لَيْسَ لَهُۥ وَلَدٌ وَلَهُۥٓ أُخْتٌ فَلَهَا نِصْفُ مَا
تَرَكَ ۚ وَهُوَ يَرِثُهَآ إِن لَّمْ يَكُن لَّهَا وَلَدٌ ۚ فَإِن كَانَتَا ٱثْنَتَيْنِ فَلَهُمَا ٱلثُّلُثَانِ مِمَّا تَرَكَ ۚ وَإِن كَانُوٓا۟ إِخْوَةً رِّجَالًا
وَنِسَآءً فَلِلذَّكَرِ مِثْلُ حَظِّ ٱلْأُنثَيَيْنِ ۗ يُبَيِّنُ ٱللَّهُ لَكُمْ أَن تَضِلُّوا۟ ۗ وَٱللَّهُ بِكُلِّ شَىْءٍ عَلِيمٌۢ ﴿١٧٦﴾ ﴾

**176. Səndən fətva istəyirlər. De: "Atası və övladı olmayan kəsin mirası barəsində fətvanı sizə Allah verir: "Övladı** (və atası) **olmayan şəxs öldükdə onun bacısı varsa, qoyub getdiyinin yarısı bacıya çatır. Əgər ölmüş qadının övladı** (və atası) **yoxdursa, qardaşı ona varis olur. Əgər varislər iki bacıdırsa, ölən qardaşın qoyub getdiyinin üçdə iki hissəsi onlara çatır. Əgər varislər qardaş və bacılardırsa, kişiyə iki qadının payı qədər pay düşür". Allah bunu sizə bəyan edir ki, haqq yoldan sapmayasınız. Allah hər şeyi bilir.**

əl-Buxari əl-Bəranın belə dediyini rəvayət etmişdir: "Quranda ən son nazil olan surə "Tövbə", ən son nazil olan ayə isə "**Səndən fətva istəyirlər...**" ayəsidir".[1]

İmam Əhməd Cabir ibn Abdullahın belə dediyini rəvayət etmişdir: "Bir dəfə mən xəstəlikdən halsız olduğum vaxt Peyğəmbər ﷺ mənə baş çəkdi. O, dəstəmaz aldı və qabda qalmış sudan mənim üzümə səpdi. Mən özümə gəldikdə "Mirasım kimə qalacaq, ey Allahın Elçisi? Mənim varislərim ancaq uzaq qohumlarımdır" dedim və miras ayəsi nazil oldu". Hədisi əl-Buxari və Muslim rəvayət etmişlər.[2] Hədisi digər hədis alimləri də rəvayət etmişlər. Bu rəvayətlərin bəzisində "Miras ayəsi olan "**Səndən fətva istəyirlər. De: "Atası və övladı olmayan kəsin mirası barəsində fətvanı sizə Allah verir**" ayəsi nazil oldu" deyilir. Ən doğrusunu Allah bilir, amma burada sanki məna belədir: "Səndən atası və övladı olmayanın mirası barədə fətva istəyirlər. De ki, bu barədə fətvanı sizə Allah verir". Daha sonra zikr edilən ifadə, əvvəlki cümlədə tərk edilən ifadəyə dəlalət edir. Ayədə keçən الْكَلالَة [kələ:lə] "atası və övladı olmayan" sözü barədə və onun hansı kökdən götürüldüyünü daha əvvəl bildirmişik. Bu söz başı hər tərəfdən əhatə edən taca və ya çələngə deyilir. Bu səbəbdən alimlərin bir çoxu bu sözü övladı və atası olmadığı halda ölən adam kimi təfsir etmişlər. Bəzi alimlər isə bu ayədə keçən "**Övladı olmayan şəxs öldükdə**..." sözünü uşağı olmadan ölən şəxs kimi təfsir etmişlər.[3]

əl-Buxari və Muslimin "Səhih" əsərlərində rəvayət olunan, bir hədisdən göründüyü kimi, atası və övladı olmayan kəsin mirası möminlərin əmiri Ömər ibn əl-Xattaba qaranlıq qalmışdır. O belə demişdir: "Üç şey var ki, Peyğəmbərin ﷺ bu mövzuda əsaslanacağımız bir vəsiyyətinin olmasını istərdim. Bunlar babanın mirası, "kələlə" (atası və uşağı olmadan ölən adamın mirası) və sələmin bəzi növləridir".[4]

İmam Əhməd Mədən ibn Əbu Talhədən rəvayət etmişdir ki, Ömər ibn əl-Xattab demişdir: "Peyğəmbərdən ﷺ "kələlə" (atası və övladı olmayan kəsin mirası) barədə soruşduğumdan daha çox heç bir şeyi soruşmamışam. Nəhayət, Peyğəmbər ﷺ barmağı ilə sinəmə

---

[1] əl-Buxari (8/201, Fəthul-Bari). (Əhməd Şakir). əl-Buxari, 4016, 4239, 4364, 4605.

[2] Əhməd, 14186, 14222, 14235; əl-Buxari, 187, 194; Muslim, 1616, 3031, 4230.

[3] "ən-Nisa" surəsinin 12-ci ayəsinin təfsirində keçmişdir. (Əhməd Şakir).

[4] Ömərin bu sözü "əl-Bəqərə" surəsinin 275-ci ayəsinin təfsirində keçmişdir. (Əhməd Şakir). İbn Hibban, 5353. Hədis səhihdir. Bax: İrvaul-Ğalil, 8/42-43.

vuraraq “Bunu bilməyin üçün sənə yay fəslində nazil olan “ən-Nisa” surəsinin sonundakı ayə kifayət edər” dedi”. İmam Əhməd ﷺ hədisi bu şəkildə qısa olaraq rəvayət etmişdir. Muslim ﷺ eyni hədisi daha uzun mətnlə rəvayət etmişdir.[1]

İmam Əhməd İbrahim ən-Nəxaidən ﷺ rəvayət etmişdir ki, Ömər ﷺ demişdir: “Peyğəmbərdən ﷺ atası və övladı olmayan kəsin mirası barədə soruşdum. O dedi: “Bunu bilməyin üçün yay fəslində nazil olan ayəni (“ən-Nisa”, 176) oxumaq sənə yetər”. Əgər bu barədə Peyğəmbərdən ﷺ ətraflı soruşsaydım, bu mənə qırmızı dəvələrə sahib olmaqdan daha sevimli olardı”. Bu hədisin isnadı yaxşıdır, lakin İbrahimlə ﷺ Ömər ﷺ arasında əlaqə kəsikliyi var, çünki İbrahimlə ﷺ Ömər ﷺ eyni dövrdə yaşamamışlar.[2]

İmam Əhməd ﷺ əl-Bəra ibn Azibdən ﷺ rəvayət etmişdir ki, bir kişi Peyğəmbərin ﷺ yanına gəlib ondan atası və övladı olmayan kəsin mirası haqqında soruşdu. Peyğəmbər ﷺ ona dedi: “Bunu bilmək üçün yay fəslində nazil olan ayəni (“ən-Nisa”, 176) oxumağın sənə kifayət edər”.[3] Hədisin isnadı yaxşıdır. Hədisi Əbu Davud və ət-Tirmizi ﷺ də rəvayət etmişlər. Bu ayə yay fəslində nazil olduğu üçün “yay ayəsi” adlanmışdır. Ən doğrusunu Allah bilir.

Peyğəmbər ﷺ atası və övladı olmayanın mirasının necə bölüşdürülməsini bilmək üçün Ömərə ﷺ bu ayəni oxumağın yetərli olduğunu bildirmişdir, lakin Ömər ﷺ bu barədə daha da ətraflı öyrənməyi və bunun nə məna verdiyini soruşmağı unutduğu üçün “Əgər bu barədə Peyğəmbərdən ﷺ ətraflı soruşsaydım, bu mənə qırmızı dəvələrə sahib olmaqdan daha sevimli olardı” demişdir.

İbn Cərir Səid ibn əl-Museyyibdən ﷺ rəvayət etmişdir ki, bir dəfə Ömər ibn əl-Xattab ﷺ Peyğəmbərdən ﷺ atası və övladı olmayanın mirası barədə soruşdu. Peyğəmbər ﷺ dedi: “Allah bunu bəyan etməmişdirmi?” Bu vaxt “**Səndən fətva istəyirlər. De: “Atası və övladı olmayan kəsin mirası barəsində fətvanı sizə Allah verir**” ayəsi nazil oldu.[4]



[1] Əhməd (89, 179, 186, 341); Muslim (2/3). (Əhməd Şakir). Əhməd, 89, 179, 186, 341; İbn Məcə, 2726; İbn Hibban, 2088. Hədis səhihdir. Bax: İrvaul-Ğalil, 8/156. Hədis 2514.

[2] Əhməd (262). (Əhməd Şakir). Şueyb əl-Arnavut isnadının səhih olduğunu bildirmişdir.

[3] Əhməd, 18589, 18612, 18790. Şueyb əl-Arnavut isnadının zəif olduğunu bildirmişdir.

[4] Əhməd (4/293 Hələbi nəşri). (Əhməd Şakir). ət-Təbəri, 10866, 10932.

**Ayənin mənasının izahı**

Bu işdə Allahdan kömək istəyir və Ona təvəkkül edirik**.**

Uca Allah buyurur: "**Övladı olmayan şəxs öldükdə**". Başqa bir ayədə buyurur: "**Onun Üzündən başqa hər şey məhv olacaq**" ("əl-Qəsəs", 88), yəni hər şey fanidir, yalnız Allah əbədidir. Necə ki başqa bir ayədə buyurur: "**Yer üzündə olan hər kəs ölməyə məhkumdur. Ancaq Rəbbinin əzəmətli və kəramətli Üzü əbədidir**" ("ər-Rahmən", 26-27).

Bəzi alimlər Uca Allahın "**Övladı olmayan şəxs öldükdə**" ayəsinə əsaslanaraq demişlər ki, kələlə (uzaq qohumlara miras payı çatması) üçün atanın olmaması şərt deyil. Onlara görə, ölənin övladının olmaması kələlə (uzaq qohumlara miras payı çatması) üçün kifayətdir. Bu, Ömər ibn əl-Xattabdan ﵁ gələn rəvayətlərdən biridir. İbn Cərir ﵀ bunu səhih isnadla Ömərdən ﵁ rəvayət etmişdir, lakin, əksər alimlərin rəyinə və Əbu Bəkr əs-Siddiqin ﵁ verdiyi hökmə görə, kələlə (mirası uzaq qohumlara çatan) övladı və atası olmadan öləndir. Uca Allahın ayədə "...**onun bacısı varsa, qoyub getdiyinin yarısı bacıya çatır**" buyurması buna dəlildir. Çünki miras qaydalarına əsasən əgər ölənin bacısı ilə birlikdə atası da olarsa, ölənin bacısına miras düşmür. Alimlərin yekdil rəyinə görə, ölənin atası varsa, ölənin bacısına miras düşmür. Beləliklə, kələlə Quran ayəsinin zahirinə əsasən övladı, ayədən çıxan mənaya əsasən isə həm də atası olmayana deyilir. Çünki ata ilə birlikdə bacıya mirasın yarısı verilmir. Əksinə, atanın olması bacını bütünlüklə mirasdan məhrum edir.

İmam Əhməd ﵀ Zeyd ibn Sabitdən ﵁ rəvayət etmişdir ki, bir dəfə ondan ərə, atabir bacıya və anaya mirasdan nə qədər pay düşdüyünü soruşdular. O, ərə mirasın yarısını, atabir bacıya da digər yarısını verdi. Ondan bu bölgüdə nəyə əsaslandığı soruşulduqda o "Mən Peyğəmbərin ﷺ bu cür hökm verdiyinin şahidi olmuşam" dedi. Hədisi bu şəkildə yalnız İmam Əhməd ﵀ rəvayət etmişdir.[1]

İbn Cərir və başqaları ﵏ İbn Abbas və İbn Zubeyrin ﵄ öldükdən sonra bir qız və bir bacı qoyub gedən şəxsin mirası barədə belə dediyini nəql etmişlər: "Bacıya Uca Allahın "**Övladı** (və atası) **olmayan şəxs öldükdə onun bacısı varsa, qoyub getdiyinin yarısı bacıya çatır**" ayəsinə əsasən mirasdan heç bir şey düşmür. Bir qızı olduğuna görə övlad qoyub getmiş sayılır, buna görə bacıya

[1] Əhməd (5/188 Hələbi nəşri). (Əhməd Şakir). Əhməd, 21639, 21682, 21978. Şueyb əl-Arnavut isnadının zəif olduğunu bildirmişdir.

mirasdan heç nə düşmür".[1] Əksər alimlər bu məsələdə İbn Abbas və İbn Zubeyrə ﷺ müxalif olaraq demişlər: "Qız Allah tərəfindən müəyyən olunmuş vacib pay olaraq mirasın yarısını götürür. Bacıya isə ata tərəfdən qohum olduğuna görə digər yarısı düşür. Bunun dəlili isə başqa ayələrdədir. Bu ayədə bacıya bu halda mirasın yarısının verilməsi bildirilir. Ata tərəfdən qohum olduğuna görə varis olmasına gəlincə, əl-Buxarinin ﷺ əl-Əsvəddən ﷺ rəvayət etdiyi bu hədisə görədir. əl-Əsvəd ﷺ demişdir: "Peyğəmbərin ﷺ dövründə Muaz ibn Cəbəl bizim aramızda hökm verərək mirasın yarısını qıza, yarısını da bacıya verdi".[2]

əl-Buxari "Səhih" əsərində Huzeyl ibn Şurahbilin ﷺ belə dediyini rəvayət etmişdir: "Əbu Musadan ﷺ qıza, oğulun qızına və bacıya mirasdan nə qədər pay düşdüyünü soruşdular. O dedi: "Mirasın yarısı (ölənin) qızına, o biri yarısı isə bacısına çatır. Get, İbn Məsuddan (bu haqda) soruş, düşünürəm ki, o da mənim kimi cavab verəcək". Sonra (bu haqda) İbn Məsuddan soruşdular və Əbu Musanın dediklərini ona xəbər verdilər. İbn Məsud dedi: "Belə fətva versəm, mən haqq yoldan azar və doğru yola yönəlmişlərdən olmaram. Bu məsələdə mən sizə ancaq Peyğəmbərin ﷺ hökm verdiyi kimi hökm verəcəyəm: "Mirasın yarısı qıza, altıda biri də oğulun qızına çatır ki, bu da (mirasın) üçdə ikisinə bərabərdir. Yerdə qalanı isə bacıya çatır". Bundan sonra biz Əbu Musanın yanına gəlib İbn Məsudun ﷺ dediyini ona xəbər verdik. Onda Əbu Musa dedi: "Nə qədər ki sizin aranızda belə böyük alim var, məndən soruşmayın".[3]

Uca Allah buyurur: "**Əgər ölmüş qadının övladı** (və atası) **yoxdursa, qardaşı ona varis olur**", yəni övladı və atası olmayan qadının malının hamısına qardaşı varis çıxır. Əgər bacının atası olsaydı, qardaşı mirasdan heç bir şey almazdı. Əgər qardaşla birlikdə ər, anabir qardaş kimi pay sahiblərindən biri olarsa, bu halda əvvəlcə pay sahibləri özlərinə çatan hissəni alırlar, yerdə qalanı isə qardaşa verilir. əl-Buxari və Muslimin "Səhih" əsərlərində İbn Abbasdan ﷺ rəvayət edilən hədisdə Peyğəmbər ﷺ demişdir: "Miras paylarını sahiblərinə verin. Yerdə qalan isə ata tərəfdən ən yaxın olan kişi qohuma verilir".[4]

Uca Allah buyurur: "**Əgər varislər iki bacıdırsa, ölən qardaşın qoyub getdiyinin üçdə iki hissəsi onlara çatır**", yəni övladı və atası

---

[1] ət-Təbəri, 10890, 10956.
[2] əl-Buxari, 6244, 6741.
[3] əl-Buxari, 6239, 6736.
[4] əl-Buxari, 6235, 6732.

olmayan kişinin varisi iki bacısı olarsa, mirasın üçdə ikisi onlara çatır. Həmçinin bacıların sayı ikidən çox olduqda da hökm eyni olur. Bəzi alimlər iki qıza düşən miras payının hökmünü buradan çıxarmışlar. Necə ki Uca Allahın "**Əgər övladlar ikidən artıq sayda qadındırsa, vəfat edənin qoyub getdiyi malın üçdə iki hissəsi onlara çatır**" ("ən-Nisa", 11) ayəsindən istifadə edərək ikidən çox qıza düşən miras payına görə ikidən çox bacıya düşən miras payını müəyyən etmişlər.

Uca Allah buyurur: "**Əgər varislər qardaş və bacılardırsa, kişiyə iki qadının payı qədər pay düşür**". Bu, ölənin ata tərəfdən olan qohumlarının – oğullarının, nəvələrinin və qardaşlarının miras hökmüdür. Əgər kişilərlə qadınlar birlikdə mirasa şərik olarlarsa, bu halda kişiyə qadına düşən payın iki misli qədər pay verilir.

Uca Allah buyurur: "**Allah bunu sizə bəyan edir ki, haqq yoldan sapmayasınız**", yəni Allah vacib olan miras paylarını sizə bildirməklə, hədlərini müəyyən etməklə şəriət qanunlarını açıqlayır ki, bəyan olunduqdan sonra haqdan azmayasınız. "**Allah hər şeyi bilir**", yəni Allah bütün işlərin nə ilə nəticələnəcəyini, faydalarını, onlarda qullarının xeyrinə olanları, vəfat edənin qohumlarının ona yaxınlıqlarına görə layiq olduqları mirası ən yaxşı biləndir.

əl-Bəzzər ﷼ Əbu Ubeydə ibn Huzeyfədən, o da atasından rəvayət etmişdir ki, kələlə ayəsi ("ən-Nisa", 176) Peyğəmbərə ﷺ nazil olanda o, səfərdə idi. Peyğəmbər ﷺ dayandı və bu vaxt Huzeyfəni gördü. Huzeyfə Peyğəmbərə ﷺ o qədər yaxınlaşdı ki, dəvəsinin başı Peyğəmbərin ﷺ örtüyünün yanında idi. Peyğəmbər ﷺ nazil olmuş ayəni ona çatdırdı. Huzeyfə ətrafa baxdıqda Öməri gördü və ayəni Ömərə çatdırdı. Ömərin xəlifəliyi dövründə Ömər kələlə məsələsi ilə maraqlandı. O, Huzeyfəni çağırıb ayə barədə ondan soruşdu. Huzeyfə dedi: "Allaha and olsun ki, Peyğəmbər ﷺ bu ayəni mənə çatdırdı və mən də onu Peyğəmbərin ﷺ mənə çatdırdığı kimi sənə nəql etdim. Allaha and olsun ki, mən doğru söyləyirəm. Yenə Allaha and içərəm ki, bundan artıq sənə heç nə deyə bilmərəm". əl-Bəzzər demişdir: "Bu hədisi Huzeyfədən ؓ başqa kiminsə rəvayət etdiyini bilmirik. Hədisin Huzeyfəyə ؓ çatan başqa bir isnadının olduğunu da bilmirik". Bu hədisi İbn Mərdəveyh ﷼ də rəvayət etmişdir.[1]

[1] Hədisin isnadı səhihdir. əl-Heysəmi ﷼ hədisi "əz-Zəvaid" (7/13) əsərində qeyd etmiş və demişdir: "Hədisi əl-Bəzzər ﷼ rəvayət etmişdir. Raviləri əl-Buxarinin "Səhih" əsərində istinad etdiyi şəxslərdir. Yalnız Əbu Ubeydə ibn Huzeyfədən ﷼ başqa, İbn Hibban onun mötəbər olduğunu demişdir". Mən deyirəm: "İbn Əbu Hatim (4/2/403-404) və əl-Buxari "əl-Kunə" (Kunyələr) əsərində (445) Əbu Ubeydə ibn Huzeyfə ibn əl-Yəmənin ﷼ tərcümeyi-halını qeyd etmişlər, onun mötəbərliyinə xələl gətirən bir söz deməmişlər. Bizə görə Əbu

İbn Cərir ﷬ rəvayət etmişdir ki, Tariq ibn Şihab ﷬ demişdir: "Bir dəfə Ömər yazmaq üçün bir kürək sümüyü götürüb Peyğəmbərin ﷺ səhabələrini yığdı və dedi: "Kələlə barədə elə bir hökm verəcəyəm ki, qadınlar bu barədə evlərində danışacaqlar. Bu vaxt yığışdıqları evdən bir ilan çıxdı və insanlar bu ilanı görüb dağılışdılar. Ömər dedi: "Əgər Allah bu işin tamamlanmasını istəsəydi, mütləq tamamlayardı". Bu hədisin isnadı səhihdir.[1]

əl-Hakim ﷬ Muhamməd ibn Talhə ibn Yəzid ibn Rukənədən ﷬ rəvayət etmişdir ki, Ömər ibn əl-Xattab ؓ demişdir: "Peyğəmbərdən ﷺ üç məsələ barədə soruşa bilsəydim, bu mənim üçün qırmızı dəvələrə sahib olmaqdan daha sevimli olardı. Bu üç məsələ:

Birinci: Özündən sonra xəlifə kim olacağı? İkinci: "Mallarımızdan zəkat çıxarmağın vacib olduğunu iqrar edirik, lakin onu sənə verməyəcəyik" deyən bir qövmlə müharibə etmək halaldırmı? Üçüncü: Atası və övladı olmayanın mirası necə bölünür?" Sonra əl-Hakim ﷬ demişdir: "Hədis əl-Buxari və Muslimin şərtlərinə görə səhihdir, lakin onlar rəvayət etməmişlər".[2]

Həmçinin əl-Hakim ﷬ rəvayət etmişdir ki, İbn Abbas ؓ belə demişdir: "Bir dəfə Ömərin yanına axırıncı mən gəldim və onun belə dediyini eşitdim: "Son söz mənim dediyimdir". Mən soruşdum: "Sənin dediyin nədir?" Ömər ؓ dedi: "Dedim ki, kələlə övladı olmayandır". Sonra əl-Hakim ﷬ demişdir: "Hədis əl-Buxari və Muslimin şərtlərinə görə səhihdir, lakin onlar rəvayət etməmişlər".[3]

İbn Cərir Səid ibn əl-Museyyibdən ﷬ rəvayət etmişdir ki, Ömər ؓ babanın və kələlənin mirası barədə bir məktub yazmışdı. Sonra bu məktubu göndərib-göndərməyəcəyi barədə istixarə namazı qılıb bu duanı etdi: "Allahım, əgər bu məktubda xeyir görürsənsə, onu tamamlamağımı nəsib et". Lakin namazda bıçaqla vurulduqda bu məktubu gətizdirib pozdurdu və beləliklə, heç kəs orada nə yazıldığını bilmədi. Ömər ؓ belə demişdi: "Mən baba və kələlənin mirası barədə bir məktub yazmışdım. Bu işdə istixarə etdim və sizi olduğunuz halda

Ubeydə ibn Huzeyfə ﷬ mötəbər ravidir. Hədisi əs-Suyuti (2/250) qeyd etmiş və əl-Ədni, əl-Bəzzər və Əbu əş-Şeyxin "əl-Fəraid" kitabına nisbət edərək "İsnadı səhihdir"- demişdir. Oxşar hədisi ət-Təbəri (10874, 10876) İbn Sirindən ﷬ mursəl olaraq rəvayət etmişdir". (Əhməd Şakir). əl-Bəzzər, 2965.

[1] ət-Təbəri (10882). (Əhməd Şakir). ət-Təbəri, 10882, 10948.

[2] əl-Hakim, 3186.

[3] əl-Hakim, 3187; İbn Əbu Hatim, 4933; ət-Təbəri, 8767, 8827.

tərk etməyi uyğun hesab etdim".[1]

İbn Cərir ﷺ demişdir: "Ömərin belə dediyi rəvayət edilir: "Bu məsələdə Əbu Bəkrə müxalif olmaqdan çəkinirəm". Əbu Bəkrin ﷺ rəyinə görə, kələlə övladı və atası olmayana deyilir".[2]

Əbu Bəkrin ﷺ kələlə barədə dediyi rəy (atası və övladı olmayan) əksər səhabələrin, tabiinlərin və həm əvvəlki, həm də sonrakı dövrdə yaşamış alimlərin qəbul etdikləri rəydir. Dörd məzhəb imamlarının və yeddi fiqh alimlərinin[3] məzhəbi də budur. Bütün alimlərin fikri belədir. Quran ayələri də buna dəlalət edir. Necə ki Uca Allah "**Allah bunu sizə bəyan edir ki, haqq yoldan sapmayasınız. Allah hər şeyi bilir**" buyurmaqla bunu bəyan etdiyini və açıqladığını bildirmişdir.

"ən-Nisa" surəsi tamamlandı.

Həmd olsun aləmlərin Rəbbi Allaha!



[1] ət-Təbəri (10878, 10879). (Əhməd Şakir). ət-Təbəri, 10878, 10944; Abdur-Razzəq "Musannəf" 19183.

[2] ət-Təbəri (9/437). (Əhməd Şakir). Səid ibn Mənsur, 563.

[3] Yeddi fiqh alimi dedikdə eyni dövrdə Mədinədə yaşamış yeddi tabiin nəzərdə tutulur. Bunlar: Səid ibn əl-Museyyib, Urva ibn əz-Zubeyr, əl-Qasim ibn Muhəmməd ibn Əbu Bəkr əs-Siddiq, Ubeydullah ibn Utbə ibn Məsud, Xaricə ibn Zeyd ibn Sabit və Süleyman ibn Yəsardır (Allah onlara rəhmət etsin).

## Mündəricat

**Müqəddimə** ....................................................................................**3**

**ALİ-İMRAN SURƏSİNİN TƏFSİRİ** ............................................................**5**

"Ali-İmran", 1-4 ..................................................................................6
"Ali-İmran", 5-6 ..................................................................................8
"Ali-İmran", 7-9 ..................................................................................9
"Ali-İmran", 10-11 ..............................................................................18
"Ali-İmran", 12-13 ..............................................................................20
"Ali-İmran", 14-15 ..............................................................................23
"Ali-İmran", 16-17 ..............................................................................26
"Ali-İmran", 18-20 ..............................................................................28
"Ali-İmran", 21-22 ..............................................................................31
"Ali-İmran", 23-25 ..............................................................................32
"Ali-İmran", 26-27 ..............................................................................33
"Ali-İmran", 28 ..................................................................................35
"Ali-İmran", 29-30 ..............................................................................37
"Ali-İmran", 31-32 ..............................................................................38
"Ali-İmran", 33-34 ..............................................................................39
"Ali-İmran", 35-36 ..............................................................................40
"Ali-İmran", 37 ..................................................................................42
"Ali-İmran", 38-41 ..............................................................................43
"Ali-İmran", 42-44 ..............................................................................46
"Ali-İmran", 45-47 ..............................................................................48
"Ali-İmran", 48-51 ..............................................................................50
"Ali-İmran", 52-54 ..............................................................................52
"Ali-İmran", 55-58 ..............................................................................54
"Ali-İmran", 59-63 ..............................................................................58
"Ali-İmran", 64....................................................................................62
"Ali-İmran", 65-68 ..............................................................................64
"Ali-İmran", 69-74 ..............................................................................67
"Ali-İmran", 75-76 ..............................................................................69
"Ali-İmran", 77....................................................................................71
"Ali-İmran", 78....................................................................................74

"Ali-İmran", 79-80 ....................................................................75
"Ali-İmran", 81-82 ....................................................................77
"Ali-İmran", 83-85 ....................................................................79
"Ali-İmran", 86-89 ....................................................................81
"Ali-İmran", 90-91 ....................................................................82
"Ali-İmran", 92 ....................................................................84
"Ali-İmran", 93-95 ....................................................................85
"Ali-İmran", 96-97 ....................................................................87
"Ali-İmran", 98-99 ....................................................................94
"Ali-İmran", 100-101 ....................................................................94
"Ali-İmran", 102-103 ....................................................................96
"Ali-İmran", 104-109 ....................................................................100
"Ali-İmran", 110-112 ....................................................................103
"Ali-İmran", 113-117 ....................................................................111
"Ali-İmran", 119-120 ....................................................................114
"Ali-İmran", 121-123 ....................................................................117
"Ali-İmran", 124-129 ....................................................................122
"Ali-İmran", 130-136 ....................................................................127
"Ali-İmran", 137-143 ....................................................................135
"Ali-İmran", 144-148 ....................................................................138
"Ali-İmran", 149-153 ....................................................................143
"Ali-İmran", 154-155 ....................................................................152
"Ali-İmran", 156-158 ....................................................................155
"Ali-İmran", 159-164 ....................................................................157
"Ali-İmran", 165-168 ....................................................................167
"Ali-İmran", 169-175 ....................................................................170
"Ali-İmran", 176-180 ....................................................................178
"Ali-İmran", 181-184 ....................................................................182
"Ali-İmran", 185-186 ....................................................................184
"Ali-İmran", 187-189 ....................................................................188
"Ali-İmran", 190-194 ....................................................................191
"Ali-İmran", 195 ....................................................................194
"Ali-İmran", 196-198 ....................................................................196
"Ali-İmran", 199-200 ....................................................................197

**“ƏN-NİSA” SURƏSİNİN TƏFSİRİ ..........................................203**

“ən-Nisa”, 1..........................................................................205
“ən-Nisa”, 2-4 ......................................................................207
“ən-Nisa”, 5-6 ......................................................................212
“ən-Nisa”, 7-10 ....................................................................217
“ən-Nisa”, 11........................................................................222
“ən-Nisa”, 12........................................................................228
“ən-Nisa”, 13-14 ..................................................................233
“ən-Nisa”, 15-16 ..................................................................234
“ən-Nisa”, 17-18 ..................................................................236
“ən-Nisa”, 19-22 ..................................................................239
“ən-Nisa”, 23-24 ..................................................................246
“ən-Nisa”, 25........................................................................255
“ən-Nisa”, 26-28 ..................................................................258
“ən-Nisa”, 29-31 ..................................................................259
“ən-Nisa”, 32........................................................................272
“ən-Nisa”, 33........................................................................274
“ən-Nisa”, 34........................................................................279
“ən-Nisa”, 35........................................................................283
“ən-Nisa”, 36........................................................................285
“ən-Nisa”, 38-39 ..................................................................290
“ən-Nisa”, 40-42 ..................................................................293
“ən-Nisa”, 43........................................................................296
Təyəmmüm ayəsinin nazilolma səbəbi ..............................311
“ən-Nisa”, 44-46 ..................................................................312
“ən-Nisa”, 48........................................................................314
“ən-Nisa”, 49-52 ..................................................................319
“ən-Nisa”, 53-55 ..................................................................324
“ən-Nisa”, 56-57 ..................................................................325
“ən-Nisa”, 58........................................................................326
“ən-Nisa”, 59........................................................................330
“ən-Nisa”, 60-63 ..................................................................335
“ən-Nisa”, 64-65 ..................................................................337
“ən-Nisa”, 66-70 ..................................................................340
“ən-Nisa”, 71-74 ..................................................................344
“ən-Nisa”, 75-76 ..................................................................346

"ən-Nisa", 77-79 ....................................................................................347
"ən-Nisa", 80-81 ....................................................................................351
"ən-Nisa", 82-83 ....................................................................................353
"ən-Nisa", 84-87 ....................................................................................357
"ən-Nisa", 88-91 ....................................................................................364
"ən-Nisa", 92-93 ....................................................................................368
"ən-Nisa", 94.........................................................................................379
"ən-Nisa", 95-96 ....................................................................................383
"ən-Nisa", 97-100 ..................................................................................387
"ən-Nisa", 101.......................................................................................392
"ən-Nisa", 102.......................................................................................398
"ən-Nisa", 103-104 ................................................................................404
"ən-Nisa", 105-109 ................................................................................406
"ən-Nisa", 110-113 ................................................................................411
"ən-Nisa", 114-115 ................................................................................414
"ən-Nisa", 116-122 ................................................................................417
"ən-Nisa", 123-126 ................................................................................422
"ən-Nisa", 127.......................................................................................429
"ən-Nisa", 128-130 ................................................................................432
"ən-Nisa", 131-134 ................................................................................437
"ən-Nisa", 135.......................................................................................439
"ən-Nisa", 136.......................................................................................441
"ən-Nisa", 137-140 ................................................................................442
"ən-Nisa", 141.......................................................................................445
"ən-Nisa", 142-143 ................................................................................448
"ən-Nisa", 144-147 ................................................................................452
"ən-Nisa", 148-149 ................................................................................454
"ən-Nisa", 150-152 ................................................................................457
"ən-Nisa", 153-154 ................................................................................459
"ən-Nisa", 155-159 ................................................................................462
"ən-Nisa", 160-162 ................................................................................480
"ən-Nisa", 164-165 ................................................................................482
"ən-Nisa", 166-170 ................................................................................485
"ən-Nisa", 171.......................................................................................487
"ən-Nisa", 172-173 ................................................................................492
"ən-Nisa", 174-175 ................................................................................494
"ən-Nisa", 176.......................................................................................494

## Qeyd üçün

...........................................................................................................................

...........................................................................................................................

...........................................................................................................................

...........................................................................................................................

...........................................................................................................................

...........................................................................................................................

...........................................................................................................................

...........................................................................................................................

...........................................................................................................................

...........................................................................................................................

...........................................................................................................................

...........................................................................................................................

...........................................................................................................................

...........................................................................................................................

...........................................................................................................................

...........................................................................................................................

...........................................................................................................................

...........................................................................................................................

...........................................................................................................................

...........................................................................................................................

...........................................................................................................................

...........................................................................................................................

## Qeyd üçün

........................................................................................................................

........................................................................................................................

........................................................................................................................

........................................................................................................................

........................................................................................................................

........................................................................................................................

........................................................................................................................

........................................................................................................................

........................................................................................................................

........................................................................................................................

........................................................................................................................

........................................................................................................................

........................................................................................................................

........................................................................................................................

........................................................................................................................

........................................................................................................................

........................................................................................................................

........................................................................................................................

........................................................................................................................

........................................................................................................................

........................................................................................................................

........................................................................................................................

## Qeyd üçün

..........................................................................................................................

..........................................................................................................................

..........................................................................................................................

..........................................................................................................................

..........................................................................................................................

..........................................................................................................................

..........................................................................................................................

..........................................................................................................................

..........................................................................................................................

..........................................................................................................................

..........................................................................................................................

..........................................................................................................................

..........................................................................................................................

..........................................................................................................................

..........................................................................................................................

..........................................................................................................................

..........................................................................................................................

..........................................................................................................................

..........................................................................................................................

..........................................................................................................................

..........................................................................................................................

..........................................................................................................................

## Qeyd üçün

..........................................................................................................................

..........................................................................................................................

..........................................................................................................................

..........................................................................................................................

..........................................................................................................................

..........................................................................................................................

..........................................................................................................................

..........................................................................................................................

..........................................................................................................................

..........................................................................................................................

..........................................................................................................................

..........................................................................................................................

..........................................................................................................................

..........................................................................................................................

..........................................................................................................................

..........................................................................................................................

..........................................................................................................................

..........................................................................................................................

..........................................................................................................................

..........................................................................................................................

..........................................................................................................................

..........................................................................................................................

## Qeyd üçün

............................................................................................................................

............................................................................................................................

............................................................................................................................

............................................................................................................................

............................................................................................................................

............................................................................................................................

............................................................................................................................

............................................................................................................................

............................................................................................................................

............................................................................................................................

............................................................................................................................

............................................................................................................................

............................................................................................................................

............................................................................................................................

............................................................................................................................

............................................................................................................................

............................................................................................................................

............................................................................................................................

............................................................................................................................

............................................................................................................................

............................................................................................................................

............................................................................................................................

## Qeyd üçün